AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

NAZİM MƏMMƏDOV

# AZƏRBAYCAN RESPUBLİKASININ ŞUŞA ŞƏHƏRİNİN TARİXİ

BAKI — 2016

*Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun «Qarabağ tarixi» şöbəsinin 06 saylı 24.02. 2016-cı il tarixli iclas protokoluna əsasən çap olunur.*

**Elmi redaktoru:** **Yaqub Mahmudov**
**Əməkdar elm xadimi,**
**AMEA-nın müxbir üzvü**

**Rəyçilər:**

1. **Qasım Hacıyev – t.ü.e.d.**
2. **Şahin Fərzəliyev – t.ü.e.d., prof.**
3. **Cəbi Bəhramov – t.ü.f.d.**
4. **Tofiq Nəcəfli – t.ü.f.d.**
5. **Ədalət Qasımov – t.ü.e.d.**
6. **Xeyirbəy Qasımov – t.ü.e.d.**

**M-52. Nazim Rəhbər oğlu Məmmədov, «Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi». Bakı, «*AVROPA*» nəşriyyatı - 2016, 960 səh.**

***Kitabda*** *Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Şuşa şəhərinin tarixi kompleks şəkildə şərh olunur. Müəllif mənbələrə əsaslanaraq əsərdə ən qədim zamanlardan Ermənistan silahlı birləşmələri tərəfindən işğalınadək Şuşanın tarixini bütöv halda əks etdirmişdir. Təqdim olunan mövzu ilə bağlı tarixi həqiqətləri bilmək istəyənlər üçün dəyərli mənbə olan bu kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

M $\frac{4702060104\text{-}17}{8032\text{-}2016}$ *Qrifli nəşr*

*© «AVROPA» nəşriyyatı-2016*

# Giriş

Şimali Azərbaycan dövləti öz müstəqilliyini yenidən bərpa etdikdən sonra tariximizin bir çox məsələlərinin yenidən araşdırılması və obyektiv şəkildə öyrənilməsi üçün tədqiqatçılarımız qarşısında geniş imkanlar yarandı. Bununla, unudulmuş, təhrif olunmuş, ziddiyyətlərlə dolu olan tariximizə maraq xeyli artdı. Ümummilli liderimiz Heydər Əliyev çıxışlarının birində göstərmişdir ki, tarix elmi, keçmişi fakt və hadisələrin məcmuəsi əsasında konkret zaman və məkan çərçivəsində, yalnız obyektiv tədqiq etməklə əsl həqiqəti üzə çıxara bilər. Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Bu baxımdan, qədim və zəngin tarixə malik Şuşanın tarixinin tədqiqi olduqca şərəfli, əhəmiyyətli və son dərəcə zəruridir. Bu tədqiqatı zəruriləşdirən ilkin amil münbit torpaqlara, zəngin təbiətə və mühüm strateji mövqeyə malik tarixi torpaqlarımızın erməni vandalları tərəfindən işğalı ilə bağlıdır. Ermənilər öz məkrli niyyətlərinə dünya miqyasında haqq qazandırmağa çalışırlar və müvəqqəti ələ keçirdikləri ərazilərin onların ata-babalarınınkı olması fikrini yayırlar. Biz bu gün erməni siyasətbazlarının, erməni diasporunun xaricdə Azərbaycan haqqında yaymış olduqları hər cür bədnam fikirləri faktlara əsaslanaraq alt-üst etməli, erməni təbliğatının, erməni faşizminin əsl simasını açıb göstərməliyik.

Azərbaycan Respublikasının millət vəkili, YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva çıxışlarından birində göstərmişdir ki, dünyada bir çox şəhərlər var ki, onlar müəyyən mədəni və siyasi səbəblərdən rəmzə çevrilmişlər. Onların adlarını dilə gətirmək kifayətdir ki, hər birimizin yaddaşında həmin şəhərin obrazı yaransın. Hər bir azərbaycanlı üçün belə şəhər Şuşadır. Şuşa Azərbaycan mədəniyyətinin parlaq rəmzlərindən biri kimi olub və qalmaqdadır. Bu gün o, həm də bizim torpaqlarımızın işğalının rəmzidir. Nə qədər ki, Şuşa erməni qoşunlarının işğalı altındadır, hər birimiz Şuşalıyıq.

Ermənilər həmişə açıq və gizli yolla antiazərbaycan təbliğatı aparmışlar. Bir həqiqəti qeyd etməliyik ki, erməni «siyasət-

çi» lərinin milli ayrı-seçkilik, şantaj, şovinizm, rasizm və anneksiya siyasəti rəsmi dövlət səviyyəsində aparılır. Son dövrlər isə bu siyasətə bir terror da əlavə edilmiş və bütün dünya üçün təhlükəyə çevrilmişdir. Biz baş verənləri obyektiv qələmə almalı və «qonşularımız»ın kimliyini dünya ictimaiyyətinə çatdırmalı, bir xalq kimi unutqanlıq və biganəlik hisslərimizi qanımızdan, canımızdan çıxarmalıyıq. Tarixi faktlara əsaslanaraq ermənilərin Azərbaycana sonralar köçürülməsini, Ermənistan adlı dövlətin ölkəmizin tarixi torpaqları hesabına yaradıldığını və dünya ictimaiyyətinə bu kimi həqiqətləri çatdıra bilsək, nəinki Dağlıq Qarabağ məsələsini, bütövlükdə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün yeni imkanlar əldə edə bilərik.

Artıq xeyli vaxtdır ki, qədim və şanlı tarixə malik, əsrlər boyu mürəkkəb hadisələrin şahidi olmuş və xarici işğalçılara qarşı qəhrəmanlıq mübarizəsi ilə zəngin olan, öz gözəlliyi və təbii şəraiti ilə dünya şöhrəti qazanmış Qarabağımızın tacı Şuşa tarixi erməni müəlliflərinin açıq və həyasız saxtalaşdırma obyektinə çevrilmişdir. Erməni böhtan və yalanı bütün dünyanı gəzməkdədir şərt, amansız, hiyləgər və məkrli düşmənə qarşı bütün vasitələrlə gərgin və kəskin mübarizə aparmalıyıq. Oğuz türk diyarımız haqqında erməni saxtakarlıqlarının qarşısını almaq, əsl həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün Şuşa haqqında sənədli məcmuələrə, tarixi mənbələrə, tədqiqat əsərlərinə, arxiv materiallarına əsaslanaraq, şərəfli tariximizi tədqiq və təhlil etməliyik. Obyektivlik hissini itirən erməni müəllifləri son dövr qədim Azərbaycan şəhəri Şuşanı özününküləşdirərək «erməni şəhəri» adlandırır və «ermənilərin Şuşada say çoxluğu ilə üstünlüyə malik olması» fikrini dünyada yayırlar. Şuşa haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün «faktlara doğru geriyə» qayıtmağımız lazımdır:

Şuşa şəhəri uzun müddət Qarabağ xanlığının və sonralar Şuşa qəzasının mərkəzi olmuşdur. Şuşa adı yaxınlıqdakı Şuşa kəndinin adından götürülüb. Şuşa sözünü erməniləşdirənlər isə səhv edirlər. Əgər ensiklopediyalara və lüğət kitablarına müraciət edəriksə, «Şuşa» sözünün fars dilində mənasının «düzənlik sahə-

də ucalan hündürlük, qabarıq yer, daşlı-qayalı təpə, piramida, qala» kimi izah edilməsinin şahidi olarıq.

Şəmsəddin Bidlisinin «Şərəfnamə» əsərində, Ələkbər Dexuda, Rezmara Əli, E.İ.Vasilyev və İrina Rakşanın tədqiqatlarında «Şuşa» sözünün mənasının izahı doğru olaraq işıqlandırılmışdır. Onlar öz tədqiqatlarında göstəriblər ki, Şərq müsəlman ölkələrində qüdrətli və alınmaz qalalara «Şuşa qalaları» deyirdilər... «Şuşa», «Şüştər», «Şuş» adları daşıyan qala və şəhər adlarına Avropada, Asiyada və Sibirdə yaşayan türklərin və müsəlmanların yaşayış məskənlərində rast gəlinir.

Bütün yuxarıdakı araşdırmalardan belə nəticə çıxarırıq ki, «Şuşa» sözü sırf Türk mənşəlidir. Şuşanı erməni ərazisi hesab edib «Şuşa» sözünün erməni mənşəli olması fikrini irəli sürənlərin tamamilə yalan və böhtan söylədiklərini faktlar sübut edir.

Şuşa şəhərinin əsasının ermənilər tərəfindən qoyulması fikrini irəli sürən erməni tarixçiləri, yəqin ki, Mirzə Camal Cavanşir Qarabağlının, Mirzə Yusif Qarabağlının, Həsən İxva Əlizadənin tədqiqatlarından xəbərsizdirlər. A.Bakıxanovun «Gülüstani-İrəm»inə, ingilis səyyahı Ceyms Moryemin «Səyahətnamə»sinə, ingilis səyyahlarından Robert Burterin, Robert Ker Porterin, Fransa arxeoloqu Jak de Morqanın yazılarına əsaslanaraq deyə bilərik ki, Şuşa Azərbaycanın qədim şəhəridir. Yuxarıda adlarını çəkdiyimiz müəlliflərin əsərləri bir daha «deyir» ki, Şuşa Azərbaycanın qədim yaşayış məskənidir və qədim türk diyarının yenidən inşası Pənahəli xana qismət olmuşdur. Bütün bunlar bədxah, dələduz «qonşularımız»ın əsassız «cızma-qaraları» nın tamamilə ağ-yalan olduğunu sübut edir.

Azərbaycan xalqına qarşı düşmənçilik mövqeyindən çıxış edən Zori Balayan tərəfindən yazılmış «Ocaq» kitabında, S.Xanzadyan, S.Kaputikiyan, V.Hambarsumyan, S.Sarkisyan A.Aqambekyan və başqa erməni millətçilərinin çıxış, məqalə və monoqrafiyalarında öz mənafeləri xatirinə Şuşa əhalisinin milli tərkibi məsələsinə də, qərəzli, qeyri-obyektiv yanaşmış və Qarabağda, Şuşada əhalisinin 98 faizinin ermənilər təşkil etməsi fikrini söyləmişdilər. Ermənilər tərəfindən müxtəlif vasitələrlə ələ alınan Puter Ford isə saxtakarlığın yüksək zirvəsinə çataraq

erməni «tarixçiləri»nin «cızma-qaraları»na əsaslanaraq qeyd edir ki, «Şuşa erməni şəhəri olub, azərbaycanlılar yalnız 1921-ci ildən sonra köçərək burada məskunlaşmışlar».

Bütün bu kimi qərəzli, qeyri-elmi, tarixi həqiqətlərə zidd fikirlər ən azı xalqımıza qarşı cinayətdir. Şuşa şəhərində əhalinin milli tərkibi haqqında arxiv materialları, statistik külliyyatlar «nə deyir?».

Şuşa şəhərində əhalinin say tərkibi haqqında ən etibarlı və mötəbər mənbə Yeremolov və Mogilovski tərəfindən 1823-cü ildə hazırlanan «Qarabağ əyalətinin təsviri» adlı (Tiflis, 1866) kitabdır. Bundan əlavə N.Şavrov, S.Qlinka, V.Veliçko, T.Köçərli, M.İsmayılov, İ.Əliyev və digər alimlərin tədqiqatlarında XIX əsrdə Şuşa şəhərinin əhalisinin milli tərkibi haqqında çox dəyərli məlumatlar vardır. Belə ki, həmin materiallara əsaslanaraq müəyyən edilib ki, 1823-cü ildə Qarabağda 20095 ailə yaşayırmış ki, bundan 15729-u azərbaycanlı (78,3%), 4266-sı isə erməni və digər millətlərin ailəsi (21,7%) olmuşdur. 1823-cü ildə isə ermənilərin daha çox məskunlaşdığı Şuşa şəhərində 1532 ailə yaşayırdı ki, bunların 1111 ailə azərbaycanlı (72,5%), 421-i erməni ailəsi (27,5%) olmuşdur.

1897-ci il əhalinin siyahıya alınmasına görə Qarabağda yaşayan 54841 ailədən 35701-i müsəlman, 18616-sı erməni, 193-ü rus, qalanları isə müxtəlif millətlərin nümayəndələri idi. Azərbaycanlı ailələrində çoxuşaqlılığı nəzərə alsaq, belə nəticəyə gəlmək olar ki, XIX əsrin sonlarında əhalinin böyük əksəriyyətini azərbaycanlılar təşkil etmişlər. Həmçinin tədqiq etdiyimiz XX yüzilliyin əvvəllərində də belə olmuşdur. Bütün bu və ya digər sənədlər, erməni müəlliflərinin Şuşada əhalinin milli tərkibi haqqında yazdıqlarının böhtan və qeyri-obyektiv olduğunu göstərir. Sıldırım qayalar sinəsində qərar tutmuş dağlar gözəli, bütün Qafqazın gözü qədim Şuşamız azərbaycanlıların vətəni, Oğuz-Türk diyarıdır.

Artıq 16 ilə yaxındır ki, «Qarabağ münaqişəsi» davam edir. Əslində bu münaqişənin tarixi ermənilərin Qafqaza köçürülməsi ilə başlamışdır. Tarixən bu münaqişə erməni din xadimləri, generalları, zadəganları, Rusiya hakim dairələri, xaricdəki imkanlı

erməni lobbisi, erməni ziyalıları tərəfindən müdafiə edilmiş və bu gün özünün ən yüksək zirvəsinə çatmışdır. Doğma torpaqlarımızın 20 faizi işğal edilmiş, azərbaycanlılar öz ata-baba yurdlarından qovularaq qaçqına, köçkünə, didərginə çevrilmişdir. Tarix təkrar olunur. 1905-1906-cı illərdə erməni millətçilərinin bəşəriyyət tarixində törətdikləri misli görünməmiş vəhşiliklər 1918-1920-ci illərdə davam etdirilmiş və 1988-ci ildən yenidən təkrar olunmuşdur. Bu müharibələrin səbəbləri, gedişi, məqsədi, aparılma üsulları, məkanı eynidir. Təkcə zaman dəyişib. Ona görə də bu gün rastlaşdığımız «erməni bəlası»ndan xilas olmaq üçün, keçmişdə baş verən 1905-1906-cı illər erməni təcavüzkarlığını təhlil etməliyik. «Nə üçün 1906-cı ildə qələbə çaldıq» sualını araşdırmalı və bugünkü gün üçün nəticə çıxartmalıyıq. 1905-1906-cı illərdə birləşmiş erməni və rus silahlıları üzərində qələbəmizin ən başlıca amilini xalqımızın birliyində axtarmalıyıq. Eyni zamanda, bizim gənclərimizin cəsarəti, igidliyi, mərdliyi, vətənpərvərliyi ilə əlaqədardır. Azərbaycanın çətin günlərində ölkəmizdə və uzaqlarda yaşayan həmyerlilərimiz döyüş gedən bölgələrə ərzaq və pulla yardım etmişdilər.

Aparılan dərin araşdırmalar nəticəsində tarixi mənbələrlə sübut edilmişdir ki, ermənilər Qarabağa və onun ən səfalı guşəsi olan Şuşaya və bütövlükdə Azərbaycana və Qafqaza gəlmə xalqdır. Erməni dilinin Qafqaz dilləri ailəsi ilə heç bir yaxınlığı yoxdur. Eyni zamanda bütövlükdə Qafqazda, Ermənistanda, Azərbaycan və onun ayrılmaz hissəsi olan DQMV-də aparılan arxeoloji-qazıntı tədqiqat işləri və maddi mədəniyyət abidələrinin dərindən öyrənilməsi təsdiq edir ki, bu ərazilərin heç birində XIX əsrdən əvvələ aid bir dənə də olsun sırf ermənilərə məxsus tarixi abidə yoxdur. Monoqrafiya yazılarkən, məhz belə bir həqiqətin Azərbaycanın dilbər guşəsi olan Şuşa ərazisinə də aid olunmasını yeri gəldikcə faktlarla açıqlamaq məqsədi güdülmüşdür. Beləliklə, monoqrafiya işlənərkən aşağıdakı mühüm məsələlərin həllinə çalışmışıq:

Aparılan tədqiqatlara əsasən müəyyən edilib ki, Şuşanın keçmiş toponimlərinin hamısı qədim türk mənşəlidi. (Alban, Aran, Tərtər, Qarqar, Arsak və s.). Şuşadakı erməni mənşəli to-

ponimlərin yaranma tarixi XIX əsrdən sonrakı dövrə aiddir. Aparılan elmi araşdırmalara əsasən müəyyənləşib ki, ermənilər əraziyə köçürüldükdən sonra məqsədli şəkildə Şuşadakı toponimləri nə qədər dəyişdirməyə cəhd etsələr də, burada ümumi adların 76 faizi sırf Azərbaycan mənşəlidir, 24 faizi qarışıq və erməni dilinə uyğunlaşdırılmışdır. Bu gün Şuşanın tarixinin tədqiq edərkən yeri gəldikcə Şuşadakı dağların, dərələrin, düzənlərin, çayların, göllərin adlarının Azərbaycan mənşəli olduğunu faktlara əsaslanaraq açmalı və erməni siyasətçilərinin böhtanlarını açıqlamalıyıq.

– XX yüzilliyin əvvəllərində Şuşadakı sosial-iqtisadi vəziyyətin təhlili monoqrafiyanın qarşısında duran mühüm vəzifələrdəndir:

– 1900-1903-cü illər dünya iqtisadi böhranı və onun Şuşa iqtisadiyyatına təsirini, sənayedə yeni texnikanın tətbiqi və nəticələrini, sənayedə yerli milli kapitalın mövqeyi və rolunu, sənayeyə xarici kapital qoyuluşunun güclənməsini, sənayenin təmərküzləşməsi və iri inhisar birliklərinin yaranması ticarətin inkişaf amillərinin iri ticarət səhmdar banklarının yaradılmasını və sair məsələləri aydınlaşdırmaq;

– 1900-1913-cü illərdə Çar Rusiyasının Azərbaycanın ucqarlarında, o cümlədən Şuşada yeritdiyi aqrar siyasətin mahiyyətini aydınlaşdırmaq və onun nəticələrini təhlil etmək, Rusiyanın köçürmə siyasətinin davam etdirməsini Şuşa kəndlilərinin vəziyyətinə təsirini faktlar əsasında izah etmək.

– Şuşadakı 1903, 1905, 1907, 1912, 1917-ci illər tətillərinin səbəblərini, gedişini və nəticələrini açıqlamaq. Siyasi nümayiş və ümumi tətilin oxşar və fərqli cəhətlərini aydınlaşdırmaq. Fəhlələrlə sahibkarlar arasında tətilin müsbət nəticəsi olaraq bağlanmış müqavilənin mahiyyətini və əhəmiyyətini açıqlamaq. Milli şüurun oyanmasında milli hərəkatın qabaqcıl nümayəndələrin rolunu düzgün izah etmək;

– XX əsrin əvvəllərində Şuşada baş vermiş kəndli hərəkatını milli azadlıq hərəkatının tərkib hissəsi kimi qiymətləndirməli. Bölgədə kəndli çıxışları və qaçaq hərəkatının özünün müstəqil və mütəşəkkil qüvvə kimi göstərə bilməməsinin səbəb-

lərini açmaq. Şuşadakı kəndli çıxışlarının ənənəvi formalarının XIX əsrin sonlarındakı hərəkatla fərqli və oxşar cəhətlərini, qaçaq hərəkatının məhdud cəhətlərini və əhəmiyyətini tədqiq etmək;

– 1905-1906-cı illərdə çarizmin Şuşada törətdiyi milli qırğın siyasətinin mahiyyətini, milli qırğın siyasətində ermənilərdən bir «alət» kimi istifadə edilməsini, erməni daşnaklarının tarixində heç vaxt mövcud olmamış «Böyük Ermənistan» xülyası ilə çıxış etmələrində məqsədlərini, erməni quldur dəstələrinin rus ordusu ilə birləşərək kifayət qədər güclü olmalarına baxmayaraq, daha çox itkilərə məruz qalmasının səbəblərini, Şuşada birləşmiş erməni və rus qüvvələri üzərində qələbələrin səbəblərini, 1905-1906-cı illərdə erməni vandallarının hücumunun sonrakı dövrlərdə yenidən təkrar olunmasını və onlar arasında oxşarlığı tədqiq etmək;

– Çar Rusiyasının Şuşada həyata keçirdiyi «Yeni aqrar qanunlar»da məqsədləri, XIX əsrin 70-ci illərindəki kəndli islahatları ilə XX yüzilliyin əvvəllərindəki aqrar qanunları arasında fərqli və oxşar cəhətləri açıqlamalı. 1900-cü il 1 may qanunun, 1903-cü il 21 may əsasnaməsinin, 1912-ci il 20 dekabr və 1913-cü il 7 iyul qanunlarının mahiyyəti və nəticələrini təhlil etmək, «Müvəqqəti mükəlləfiyyət», «Aqrar qanun», Qanun», «Qaydalar», «Malcəhət», «Müvəqqəti mükəlləfiyyət», «İcarədarlıq», «Kəndli nizamnaməsi», «Torpağın mərzləşdirilməsi», «Dövlət kəndliləri» və başqa terminlərin izahını vermək;

– XX yüzilliyin əvvəllərində Rusiya imperiyasının «köçürmə siyasəti»ndə məqsədləri açıqlamaq bu siyasəti, çarizmin müstəmləkəçilik və ruslaşdırma siyasətinin nəticəsi kimi qiymətləndirmək. Şuşaya köçürülən rusların burada hər cür şəraitlə (evlə, torpaqla, iş heyvanları ilə, pulla) təmin edilməsi, azərbaycanlıların öz dədə-baba torpaqlarından zorla çıxarılması, yerli əhalinin çar Rusiyasına nifrət ruhunun artması, ümumiyyətlə, Rusiya imperiyasının köçürmə siyasətinin Şuşa kəndlilərinin həyatına mənfi təsiri və bu siyasətin nəticələrini açmaq;

– XIX əsrdə Şuşanın sosial vəziyyəti ilə XX əsrin əvvəllərində şəhərin sosial siması arasındakı fərqi faktlara əsaslanaraq

izah etməli. Şuşanın kəndlərində sosial təbəqələşmənin doğurduğu ziddiyyətlərin mahiyyətini aydınlaşdırmaq. Şuşanın kəndlərində təkmil əkinçilik alətlərinin tətbiqinin əhəmiyyətini göstərmək. Milli şüurun və milli özünüdərkin formalaşmasında milli burjuaziyanın rolunu qiymətləndirmək. Mütərəqqi dünya görüşləri insanların kənddə sosial-siyasət sahəsində üstün cəhətlərini açmaq. Şuşada milli və sosial proseslərin qarşılıqlı əlaqələrini və bu əlaqələrin nəticələrini təhlil etməli. Çarizmin Şuşada həyata keçirdiyi müstəmləkə siyasətinin sosial vəziyyəti ağırlaşdıran xüsusiyyətlərini faktlara əsaslanaraq açmaq.

– Birinci dünya müharibəsində Azərbaycana qarşı müharibə edən dövlətlərin planını, Türkiyənin Azərbaycana qarşı planının fərqli cəhətlərini, Birinci Dünya müharibəsinin başlanması zamanı sənayedə böhranın dərinləşməsi səbəblərini, Şuşanın kənd təsərrüfatındakı böhranın səbəblərini, müharibənin Şuşa əhalisinin güzəranının pisləşməsinə təsirini sənədli materiallara əsaslanaraq izah etmək;

– Rusiyadakı fevral-burjua demokratik inqilabından sonra Şimali Azərbaycanın ucqarlarında, o cümlədən Şuşanın idarəetmə sistemində baş verən dəyişikliyi, sovetlərin yaradılmasının Azərbaycan xalqının milli mənafeyinə yabançı qurum olduğunu açıqlamaq. Müsəlman Milli şuralarının yaradılmasının əhəmiyyətini faktlarla göstərmək. Fevral-burjua demokratik inqilabından sonra Şuşada başlamış milli-azadlıq hərəkatının əsas xüsusiyyətlərini müəyyənləşdirmək. Milli azadlıq hərəkatında mübarizənin üç istiqamətini ayrı-ayrılıqda səciyyələndirmək. Mədəni-milli muxtariyyət, ərazi-milli muxtariyyəti anlayışlarının mənasını aydınlaşdırmaq;

– 1900-1917-ci illərdə Şuşada mədəniyyətin inkişafına təsir göstərən amilləri təhlil etmək. XX yüzilliyin əvvəllərində mövcud məktəblərin sayını XIX əsrin birinci yarısı ilə müqayisə etmək. Bəhs etdiyimiz dövrdə Şuşa mədəniyyətinin inkişafında hansı meylin özünü qabarıq şəkildə daha çox büruzə verdiyini açıqlamaq. Maarifin inkişafında milli burjuaziyanın ayrı-ayrı nümayəndələrinin göstərdikləri xidmətlər haqqında, kitabxana-

ların inkişafı və səhiyyə xidmətindəki vəziyyət haqqında araşdırmalar aparıb, məlumat vermək;

– XX yüzilliyin əvvəllərində texnikanın inkişafı sahəsindəki yenilikləri göstərmək. Mənbələrə əsaslanaraq XX yüzillikdə Qarabağ tarixinə həsr olunmuş tarixi əsərlər haqqında məlumat vermək;

– Milli demokratik mətbuatın və bədii ədəbiyyatın rolunu düzgün qiymətləndirmək. 1901-1917-ci illərdə Azərbaycan mətbuatındakı problemləri təhlil etmək, mətbuatdakı ideya istiqamətlərini müəyyənləşdirmək. Azərbaycan burjuaziyasının nümayəndələrinin demokratik mətbuatın inkişafındakı rolunu qiymətləndirmək. Şifahi xalq yaradıcılığının, mütərəqqi romantizmin inkişafını göstərmək;

– 1900-1917-ci illərdə Şuşada incəsənətin inkişaf istiqamətlərini ayırmaq. Şuşada teatr sənətinin inkişafı və əhəmiyyətini göstərmək. Şuşa musiqiçilərinin dünya miqyasında yeri və rolunu işıqlandırmaq. Milli musiqimizin inkişafında və zənginləşməsində xidmətləri olmuş görkəmli Şuşa musiqiçilərinin həyat və yaradıcılığı haqqında müfəssəl məlumat vermək;

– Şuşada şəhərsalma mədəniyyətinin inkişafının, Şuşanın məşhur memarlarının Azərbaycanda və dünyada yeri və rolunu təhlil etmək. Məşhur Şuşa rəssamları haqqında məlumat vermək. Şimali Azərbaycanla Cənubi Azərbaycan arasında vahid mədəni inkişaf ənənələrini müəyyənləşdirmək.

Bəhs etdiyimiz 17 il ərzində (1900-1917) Azərbaycan özünün milli iqtisadiyyatını yarada bilmədi. Rusiya imperiyası tərkibində olduğu dövrdə Azərbaycanın təbii və milli sərvətləri, iqtisadi gücü və elmi potensialı vahid mərkəzə birləşdirilib idarə edildi. Təbii sərvətlərimiz mərkəzin mənafelərinə uyğun istifadə edilməklə məhsuldar qüvvələrin yerləşdirilməsi də Rusiya imperiyasının arzusuna uyğun həyata keçirilirdi. 1900-1917-ci illərdə Azərbaycanın iqtisadi əlaqələrinin artması danılmaz faktlardır. Lakin bu əlaqələr mərkəzin göstərişi ilə formalaşdığından Azərbaycana milyardlarla zərər vurmuşdur. Hər il ixrac idxalı üstələsə də, qazancımızda elə bir ciddi irəliləyiş olmamışdır. Dövlətimiz Rusiya imperiyasının xammal əlavəsinə çevrilmişdir. Bütün

bunlar inkaredilməz faktlardır və yeri gəldikcə yazılı sənədlərə əsaslanaraq bu məsələləri obyektiv tədqiq etməliyik.

– 1918-1920-ci illərdə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının əsassızlığını və AXC-nin Ermənistanın təcavüzünə və Şuşa ərazisində erməni terrorizminə qarşı həyata keçirdiyi tədbirləri ilk mənbələr, dövrü mətbuat və xarici ədəbiyyat əsasında araşdırmaq;

– 1918-1920-ci illərdə AXC hökumətinin ölkəmizin ərazi bütövlüyünün qorunması istiqamətində həyata keçirdiyi əməli tədbirləri izləmək;

– 1919-cu ilin əvvəllərində Azərbaycan hökumətinin ölkənin ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığını təmin etmək məqsədilə Qarabağ General Qubernatorluğu yaratması və onun fəaliyyətinin nəticələrinə aydınlıq gətirmək;

– 1918-1920-ci illərdə Azərbaycan hökumətinin bütövlükdə Qarabağda, o cümlədən Şuşada ermənilərin separatçılıq hərəkətlərinin qarşısını almaq üçün atdığı addımları təhlil etmək;

– 1920-1991-ci illərdə Şuşanın iqtisadi, siyasi və mədəni durumuna aydınlıq gətirmək;

– Ərazidə baş verən 1920-ci il üsyanı onun Azərbaycanın digər regionlarında baş verən üsyanlardan fərqli cəhətləri, üsyanın məğlubolma səbəbləri və əhəmiyyətini təhlil etmək;

– Şuşa rayonunda sosialist təsərrüfat sisteminin formalaşması xüsusiyyətlərini və doğurduğu nəticələri şərh etmək, sənayeləşmənin və zorakı kollektivləşmənin SSRİ-nin mənafeyinə uyğun bir siyasət olduğunu faktlarla sübut etmək;

– Sovet rejimi şəraitində Şuşa rayonunda elmin inkişafının əsas maliyyət, məqsəd və nəticələrini aydınlaşdırmaq «Mədəni inqilab» adı altında azərbaycanlıların milli-mənəvi dəyərlərinə vurulan ağır zərbəni açmaq;

– XX yüzilliyin 40-60-cı illərində Ermənistanın Azərbaycana qarşı yeni ərazi iddiaları, Şuşada yaşayan azərbaycanlılara qarşı zorakılıqları mərkəzi hökumətin antiazərbaycan siyasətinin nəticəsi kimi qiymətləndirmək;

– Sovet hakimiyyəti illərində Dağlıq Qarabağın erməni rəhbərliyi tərəfindən azərbaycanlıların daha çox yaşadığı Şuşa

rayonuna ögey münasibətin səbəblərini açmaq və nəticələrə aydınlıq gətirməklə bütün bu acı həqiqətləri tariximizin ibrət dərsi kimi qiymətləndirmək;

– XX yüzilliyin 50-60-cı illərində Şuşa şəhərinin «bərpa və inkişafı» adı altında erməni vandalları tərəfindən şəhərin qədim mədəniyyət abidələrinin dağıdılması məqsədlərinə aydınlıq gətirmək;

– Heydər Əliyevin bilavasitə rəhbərliyinə göstərişləri əsasında Şuşa şəhərində tarixi abidələrimizin bərpa olunması və Şuşanın ümumittifaq səviyyəli kurort şəhərinə çevrilməsi faktlarının əhəmiyyətini işıqlandırmaq;

– Ermənistan silahlı birləşmələri tərəfindən Şuşanın işğalı və onun törətdiyi faciələri təhlil etmək.

Azərbaycanın hər bir kəndi, qəsəbəsi, şəhəri onun keçmiş əzəmətini özündə əks etdirən silinməz izlərlə zəngindir. Dövlətimiz müstəqillik əldə etdikdən sonra Azərbaycan tarixinin öyrənilməsində alimlərimizin göstərdikləri gərgin səylərə baxmayaraq, hələ də tədqiq edilməsi vacib olan bir çox açılmamış maraqlı səhifələr vardır. Belə səhifələrdən biri də qədim və şanlı tarixə malik, əsrlər boyu mürəkkəb hadisələrin şahidi olmuş və xarici işğalçılara qarşı qəhrəmanlıq mübarizəsi ilə zəngin olan, öz gözəlliyi və təbii şəraiti ilə dünya şöhrəti qazanmış Qarabağımızın tacı Şuşanın tarixidir.

Şuşanın bir-birinə bənzəməyən mədəniyyət abidələri onun keçmişindən xəbər verir. Şuşadakı qüllələrin şiş ucları, məscidlərin təkrarsız naxışları, qala divarlarının daş qüdrəti bizim üçün təkcə təəccüb, heyrət, həzz obyekti olmamalıdır. Buradakı «danışan» daş heykəllər bizim keçmişimizin, bu günümüzün, mövcudluğumuzun sübutu, gələcəyimizə təminatdır. Şuşa, xalqımızın yaratdığı və fəxr etdiyi «Daş poemadır». Bu «poema» bizim milli özünütəsdiqimizə sübut, xalqımızın milli varlıq rəmzidir.

1992-ci il mayın 8-dən basılmazlıq, əyilməzlik rəmzi olan Qala divarları, igidlər oylağı Cıdır düzü, gözəllik çələngi Topxana meşəsi, həzin zümzüməli Daşaltı çayı, məşhur İsa bulağı, min bir dərdin dərmanı olan yaylaqlarımız, təbiətin möcüzəsi hesab olunan Xarı bülbül - Qala adı ilə tanınan qədim Şuşamız

yad əllərdədir. Şuşanın Ermənistan silahlı birləşmələri tərəfindən işğalı xalqımıza, dövlətimizə vurulan ən böyük zərbə oldu. Çünki Şuşa təkcə şuşalıların vətəni deyil, xalqını, torpağını sevən bütün azərbaycanlıların vətənidir. Azərbaycanın böyük bir tarixi abidəsi, incisi olan Şuşa şəhəri təkcə işğal edilmədi, xain qonşularımız tərəfindən dağıdıldı, yandırıldı və yerlə yeksan edildi. Artıq xeyli vaxtdır ki, Şuşanın tarixi erməni müəlliflərinin açıq və həyasız saxtalaşdırma obyektinə çevrilmişdir. Sərt, amansız, hiyləgər və məkrli düşmənə qarşı gərgin və kəskin mübarizə aparmağımız lazımdır. Erməni yalanı və böhtanı bütün dünyanı gəzməkdədir. Oğuz-türk diyarımız haqda erməni saxtakarlığının. qarşısını almaq, əsl həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün Şuşa haqqında sənədli məcmuələrə, tarixi mənbələrə, tədqiqat əsərlərinə, arxiv materiallarına əsaslanaraq, çətin, məsuliyyətli, şərəfli və əhəmiyyətli tariximizi tədqiq və təhlil etməliyik. Şuşanı «erməni şəhəri» hesab edən və ərazidə ermənilərin say çoxluğu ilə çox yaşaması fikrini iddia edən Z.Balayana, Vartanyana, Hambarsumyana, Aqambekyana və başqa obyektivlik hissini itirənlərə tutarlı cavab verməyimiz üçün Şuşanın yaranması, inkişafı, əhalisinin say tərkibi haqda «faktlara doğru geriyə» qayıtmağımız lazımdır.

XVIII əsrin ikinci yarısından Şuşa şəhəri Qarabağ xanlığının paytaxtı olmuşdur. Şuşa adının yaranma tarixi barədə mənbələrin tədqiqi ilə aşkar olunur ki, şəhərin ilk adı «Şuşakənd» olmuş və sonralar dəyişərək Azərbaycan dilinin ahəng qanununa uyğunlaşaraq «Şuşa» adlandırılmışdır. «Şuşa» sözü isə ərazinin təbii şəraiti ilə bağlı seçilmiş addır. Əgər müxtəlif ensiklopediyalara və lüğət kitablarına müraciət edəriksə, «Şuşa» sözünün fars dilində mənasının - düzənlik sahədə ucalan hündürlük, qabarıq yer, daşlı-qayalı təpə, piramida, qala kimi izah edilməsinin şahidi olarıq. Bir çox etibarlı tarixi mənbələrdə «Şuşa» adını daşıyan qalalara təsadüf olunur. Məsələn XVI əsrdə qələmə alınan Şəmsəddin Bidlisin «Şərəfnamə» əsərində, Ələkbər Dexuda və Rezmara Əlinin tədqiqatlarında İranda «Şuşa», «Şuş», «Şuştər» adlarının qalalara, səhərlərə verilməsi haqda maraqlı məlumatlar vardır. XX əsrdə yaşamış rus alimi E.İ.Vasiliyev apardığı tədqi-

qatlardan belə nəticəyə gəlmişdir ki, «Orta əsrlərdə Şərq müsəlman ölkələrində qüdrətli və alınmaz qalalara «Şuşa» qalaları deyilirdi». Belə ehtimal olunur ki, o dövrdə tikilən qalalar şiş qayalar üzərində inşa edildiyindən «Şuşa» sözünün «Şiş» sözündən götürülməsi güman edilir. «Şiş» sözü isə fars dilinə daxil olarkən dəyişərək «Şuş» kimi formalaşmışdır.

Görkəmli rus alimi İrina Rakşa apardığı tədqiqatlarda daha da dərinə gedərək sübut etmişdir ki, «Şuşa» adı alınmaz qalalara verilən adlardır. Bu adda təkcə bütün Şərq ölkələrində deyil, hətta Avropada, Sibirdə yaşayan müsəlmanların yaşayış məskəni olmasını, tarixçi alim Rakşa faktlarla sübut etmişdir. Bütün bunlarla yanaşı, «Şuşa» sözünü kök və şəkilçiyə ayırarıqsa, sözün kökünün sırf türk sözü olduğunun şahidi olur və Zori Balayanların «Şuşanın erməni ərazisi və «Şuşa» sözünün erməni mənşəlin olması» fikrinin tamamilə yalan və böhtan olduğunu sübut edirik.

1988-ci ildə Ermənistan Elmlər Akademiyasının 19 – akademik və professor müəllim heyətinin iştirakı ilə yazılmış «Dağlıq Qarabağ tarixi arayış» kitabında [10] «Şuşanın əsasının ermənilər tərəfindən qoyulması, bir ovuc gəlimə "köçərilər"in (Pənahəli xan və İbrahim xan nəzərdə tutulur) isə həmin ermənilərə kömək etməsi» iddiaları tarixçi adını daşıyan erməni ziyalılarının ən böyük yalanlarından biridir. Əsl həqiqət isə aşağıdakı kimidir: Mirzə Camal Cavanşir Qarabağiyə, Mirzə Yusif Qarabağiyə, Həsən İxfa Əlizadəyə istinadən deyə bilərik ki, Şuşa şəhərinin əsasını Pənah xan qoymuşdur. Şəhərin əvvəlki adı «Pənahabad», «Qala», «Şəhri-Şişə», «Şişə» və ən nəhayət «Şuşa» adlandırılmışdır. Şuşanın inşa edilməsində Pənahəli xan təkcə Azərbaycandan olan sənətkarları deyil, həm də Ərdəbil, Təbriz və başqa şəhərlərdən ustalar gətirmişdir. Belə sənətkarlardan M.M.Nəvvabın, Məmmədyarın, Usta Qəmbərin, Məşədi Əliqulunun, Qarabağlı Kəblə Əkbərin, Məşədi Xaspoladın, Kərbəlayi Səfixanın, Kərbalayi Qarabağinin və başqalarının adlarını çəkə bilərik. Nədənsə arxivdən götürülmüş bu siyahıda bir dənə də olsun erməni familiyası yoxdur və bütün

bunlar bədxah, dələduz «qonşularımızın məntiqsiz «cızmaqaraları»nın tamamilə ağ yalan olduğunu göstərir.

A.A.Bakıxanovun «Gülüstani-İrəm» əsərində Şuşa şəhərinin yaranması haqda fikirləri daha obyektivdir. Həmin əsərdə göstərilir ki, Pənahəli xan Qarabağda hakimiyyəti ələ aldıqdan sonra Bayat, Şahbulaq qalalarının əsasını qoymuş və Şuşa qalasını təmir etdirmişdir. XIX əsrdə Şuşanı gəzən Qərbi Avropa səyyahları da, A.A.Bakıxanovun fikrini təsdiqləmişlər. Belə ki, ingilis səyyahı Ceyms Morye özünün «Səyahətnamə»sində göstərmişdir ki, Şuşadakı maddi mədəniyyət abidələri burada eramızdan əvvəl yaşayışın olduğunu təsdiqləyir. İngilis səyyahı Robert Burter yazırdı: «Şuşada, Qafqazın başqa şəhərlərində olmayan, Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr və qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları vardır. Bütün bunlar Şuşanın qədim şəhər olması haqqında fikir söyləməyə imkan verir», Fransa arxeoloqu Jak de Morqan, ingilis səyyahı Robert Ker Porter Şuşanın qədim şəhər olması haqda dəyərli fikirlər irəli sürmüşdülər.

XVIII əsrin 20-ci illərinə aid mənbələrdə isə Şuşanın Daşaltı mağarasının «Gar» adlanması qeyd edilmişdir. «Gar» sözü isə qədim Azərbaycan dilində «mağara» deməkdir. Bu mağaradan ərazidə yaşayan Qarqar tayfaları müdafiə məqsədilə istifadə etmişdilər.

1971-ci il iyul ayında «Ğar» mağarasında AMEA Tarix İnstitutunun əməkdaşlarının M.Hüseynovun rəhbərliyi altında aparılan arxeoloji tədqiqat işləri nəticəsində burada Qədim Daş dövründən yaşayışın olduğunu təsdiqlədi. Bütün bunlar isə erməni və ermənipərəst «tədqiqatçıların» fikirlərinin qondarma, saxta olduğunu sübut edir.

Tarixi mənbələri ciddi təhrif edərək «Şuşanı erməni şəhəri» adlandıran erməni müəllifləri Şuşa əhalisinin milli tərkibi məsələsinə də qərəzli, qeyri-obyektiv yanaşmış və məqsədli şəkildə, öz mənafeləri xatirinə tariximizi saxtalaşdırmışdılar.

Belə ki, Z.Balayan yazır ki, XIX əsrin əvvəllərində ermənilər Qarabağda, o cümlədən Şuşada əhalinin 98 faizini, hətta 1913-cü ildə 96 faizini təşkil etmişlər. 19 nəfər erməni «tarixçisi-

nin» yazdıqları «Dağlıq Qarabağ tarixi arayış» kitabından isə oxuyuruq: XVIII əsrin ikinci yarısında Pənah xan və İbrahim xan dövründə Şuşaya «köçəri» müsəlmanlar köçürülməsinə və hətta müsəlmanlar içərisində doğumun yüksək olmasına baxmayaraq, XX yüzilliyin əvvəllərində onlar Şuşa əhalisinin yalnız 5 faizini təşkil etmişlər [10, s.18]. Piter Ford isə saxtakarlığın sonuncu zirvəsinə çataraq qeyd edir ki, Şuşa erməni şəhəri olub, buraya azərbaycanlılar yalnız 1921-ci ildən sonra köçərək məskunlaşıblar.

Bütün yuxarıda göstərilən qeyri-elmi, tarixi həqiqətə zidd fikirlər ən aşağısı Azərbaycan xalqına qarşı cinayətdir. Qarabağ və Şuşa əhalisinin milli tərkibi haqqında sənədli arxiv materialları, statistik külliyyatlar «nə deyir?».

XIX əsrdə Şuşa şəhəri əhalisinin sayı və tərkibi haqqında ən etibarlı və mötəbər mənbə Yeremolov və Moqiloviski tərəfindən 1823-cü ildə hazırladıqları «Qarabağ əyalətinin təsviri (Tiflis, 1866)» kitabıdır. Bununla yanaşı N.Şavrov, S.Qlinka, V. Vefiçko və başqa XIX əsr müəlliflərinin, Y.Mahmudov, K. Şükürov, Q.Hacıyev, X.Xəlilov, T.Köçərli [23] və digər Azərbaycan alimlərinin tədqiqatlarında Qarabağ və Şuşa əhalisinin milli tərkibi haqqında dəyərli məlumatlar vardır.

Yuxarıda göstərdiyimiz materiallara əsaslanaraq müəyyənləşdirilmişdir ki, 1823-cü ildə Qarabağda 20.095 ailə yaşayırmış, bundan 15.729-u azərbaycanlı ailəsi (78,3 faiz), 4.366-sı erməni ailəsi olmuşdur (21,7 faiz) [17].

1823-cü ildə ermənilərin daha çox məskunlaşdığı Şuşa şəhərində 1532 ailə yaşayırdı. Bundan 1111-i azərbaycanlı ailəsi (72,5 faizi) və 421-i erməni ailəsi olmuşdur (27,5 faiz). Əgər yuxarıda göstərdiyimiz tarixi tədqiqatları bir az geri, 1804-cü ilə aid aparsaq, Şuşada ermənilərin sayının dəfələrlə az olduğunun şahidi olarıq. Çünki 1805-1823-cü illərdə Qarabağda və o cümlədən Şuşada yaşayan azərbaycanlılar ərazidən məqsədli şəkildə qovulmuş və ermənilərin buraya axını başlamışdır. Rusiyanın rəsmi dövlət siyasəti olaraq ermənilər müxtəlif dövlətlərdən 1828-ci ildən kütləvi şəkildə Zaqafqaziyaya köçürülməyə başladılar. 1828-1832-ci illərdə Zaqafqaziyaya İrandan 40 min,

Türkiyədən 84600 erməni köçürülmüşdü. 1877-1879 və 1893-1894-cü illərdə köçürülmə prosesi daha da artmışdır. Nəticədə XX əsrin əvvəllərində gəlmələrin hesabına Zaqafqaziyada ermənilərin sayı 300 mindən 1 milyon 300 minə çatmışdır. Bəhs edilən dövrdə Çarizm Qarabağda öz dayaqlarını möhkəmləndirmək üçün, oraya 700 erməni ailəsi köçürmüşdür. Zubov və Paskeviçin məlumatlarına görə Qarabağda köçürülmüş ermənilərin böyük bir hissəsi Qarabağın aran hissəsində yerləşdirildiyindən yerli şəraitə uyğunlaşa bilməmişdilər. Qarabağın dağlıq hissəsindəki iqlimi, yeraltı və yerüstü sərvəti görən ermənilər Çar hökumətin-dən oraya köçürülmələrini xahiş etmiş və yeni kəndlər yaratmışdılar. Baxmayaraq ki, bəhs edilən dövrdə Qarabağa xeyli erməni ailəsi köçürülmüşdü, yenə də onların sayı azərbaycanlılarla müqayisədə aşağı idi. Faktlara müraciət edəriksə, bir daha əsil həqiqətin şahidi olarıq.

1897-ci il əhalinin siyahıya alınmasına görə Qarabağda yaşayan 54.841 ailədən 35.701 ailə azərbaycanlı, 18.616 ailə erməni, 193 rus ailəsi, qalanların isə müxtəlif millətlərə malik olmuşdur. Azərbaycanlı ailələrində çoxuşaqlılığı nəzərə alsaq, belə nəticəyə gəlmək olar ki, XIX əsrin sonlarında əhalinin böyük əksəriyyətini azərbaycanlıların təşkil etdiyinin şahidi oluruq [17].

XIX əsrin əvvəllərinə aid elə bir tarixi mənbə, sənəd yoxdur ki, Qarabağda və Şuşada əhalinin "5 faizini azərbaycanlılar təşkil etməsi"nə rast gələk. Beləliklə, tarixi mənbələrə əsaslanaraq, deyə bilirik ki, XX əsr erməni tarixçilərinin mülahizələri tamamilə saxta, ağ yalan və uydurmadır. Necə ola bilər ki, qədim tarixə malik olan «erməni şəhəri» Şuşada 41 məscid olsun? Təkcə elə bu faktın özü erməni müəlliflərinin Şuşa haqqındakı bütün yazdıqlarının böhtan və qeyri-obyektiv olduğunu göstərir. Sıldırım qayalar sinəsində qərar tutmuş dağlar gözəli və bütün Qafqazın gözü qədim Şuşamız azərbaycanlıların vətəni, Oğuz-Türk diyarıdır.

Azərbaycanın 289 kvadrat kilometrlik kiçik bir hissəsini təşkil edən, qədim və şanlı tarixə malik olan Şuşa torpağı özünün təbii, maddi və mənəvi sərvətləri ilə həmişə zəngin və səxavətli olmuşdur. Şuşanın bitib tükənməyən və min bir dərdin dərmanı

olan təbii suları, sərin, şəfalı yaylaqları, dadlı-bərəkətli meyvələri hamını heyrətə gətirmişdir. Təbiət bu torpaqdan bolluğu, səxavəti əsirgəmədiyi kimi, insanlarına da məğrurluq, qəlbigenişlik, dostluqda möhkəmlik, qonaqpərvərlik və sair kimi müsbət insani keyfiyyətləri də bəxş etmişdir. Lakin çox təəssüf ki, təbiət qonşu xəyanət payını da bu torpaqdan əsirgəməmişdir. Qarabağımızın, Şuşamızın sərvətindən vaxtaşırı istifadə edən, çörəyimizi yeyib, suyumuzu içən, üzdə özünü dost kimi göstərən, daxildə isə türkə qənim kəsilən, alçaq xislətli ermənilərı tanımamış, onların xəbis niyyətlərindən xəbər tutmamışıq. XX əsrin istər əvvəllərində, istərsə də sonralarına yaxın, Azərbaycana qarşı ermənilərin törətdikləri vəhşiliklərlə ilk üzləşənlərdən biri həmişə Qarabağın cənnət məkanı olan Şuşa, onun maddi mədəniyyət abidələri, kurort turizm ehtiyatları, meşələri, təbii sərvətləri və eyni zamanda qəlbigeniş, qonaqpərvər şuşalılar olmuşdur. «Böyük Ermənistan» xülyasına qapılan ermənilər Rusiya imperiyasına arxalanaraq Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş, Qarabağımız, Cıdır düzümüz, İsa bulağımız əsirlikdə qalmışdır.

Son 200 ilə yaxın bir vaxtdır ki, milyonlarla azərbaycanlı öz doğma torpaqlarında qaçqına, köçkünə, didərginə çevrilir. Düşünülmüş və planlı şəkildə həyata keçirilən siyasət nəticəsində Azərbaycan xalqı deportasiya və soyqırıma məruz qalır. Zaman-zaman tarixi torpaqlarımız hissə-hissə xain qonşularımız tərəfindən özününküləşdirilir. Çox təəssüflər olsun ki, biz vaxtilə xalqımızın başına gətirilən bu müsibətləri açıqlamağa çətinlik çəkmişik. Sevindirici haldır ki, bu gün Azərbaycan dövləti müstəqillik əldə etmiş və xalqımızın başına gətirilən fəlakətlərin dünya ictimaiyyətinə çatdırılması üçün yeni, imkanlar açılmışdır.

1988-ci ildən başlayaraq Azərbaycan tarixi, xüsusilə Dağlıq Qarabağ və onun gözəl guşəsi olan Şuşanın tarixi erməni müəllifləri tərəfindən qəddarlıqla saxtalaşdırılır. Tariximizin erməni «alimləri» tərəfindən yalan, böhtan və uydurmalarla dünyanın 70-dən çox aparıcı dövlətində məqsədli şəkildə öz mənafelərinə uyğun qələmə alınması canlı və namuslu Azərbaycan övladını dinc buraxmamalıdır. Təəssüf və təəccüb doğuran bir məsələni xüsusilə qeyd etməliyik ki, vaxtilə Dağlıq Qarabağ tarixinin

tədqiqi nədənsə erməni tarixçilərinə «qismət» olmuşdur. Əlbəttə, vaxtilə tariximizi istədikləri kimi yazanlar bu gün həmin «qismətdən» bəhrələnirlər. Böhtan, yalan və uydurmaların əksəriyyəti həmin əsərlərə əsaslanır. Biz, Dağlıq Qarabağ və Şuşa tarixi haqqında nə yazmışıqsa, hələ də azdır. Yazılanlarla kifayətlənmək olmaz. Şuşanın hər bir qayası, daşı, kəndi canlı bir tarixdir. Ona görə də bu gün Şuşanın tarixinin fakt və materiallara əsaslanaraq obyektiv qələmə alınması, onun qaranlıq səhifələrinin işıqlandırılması günün ən önəmli məsələsidir və hər birimizin müqəddəs borcu, vəzifəsidir. Düşmənimiz güclü və ayıq olmaqla yanaşı, həm də mərhəmətsiz, fitnəkar və qəddardır. Ona görə də biz xalqımızı bir yerə elə yığmalı, gücümüzü elə birləşdirməliyik ki, düşmənlə mübarizə aparıb, qalib gələ bilək. Əsarətdə olan Şuşamızı qəhrəman oğullarımız, qeyrətli qızlarımız xilas edəcək. Koroğlu cəsarətini, Babək vüqarını düşmənə göstərərək Qarabağımızı azad etməliyik və edəcəyik.

Tarix üzrə elmlər doktoru Qasım Hacıyevin elmi fəaliyyətində Qarabağ mövzusu xüsusi önəm kəsb edir. Onun Azərbaycan, ingilis və fransız dillərində yazdığı «Qarabağın maddi və mənəvi mədəniyyətin (Bakı, 2010), «Erməni iddialarının əsassızlığına dair» (Bakı, 2007), «Vradimir Kazimirovun «Qarabağda sülh» arzusu və əsl niyyəti» (Bakı, 2011), «Qarabağda erməni terrorunun qədim izləri» (Bakı, 2003), «Qarabağ tarixi» dərslik (Bakı, 2015) və digər əsərlərində çoxsaylı mənbələrə əsaslanaraq Qarabağın və o cümlədən Qarabağın tacı olan Şuşanın iqtisadi-siyasi və mədəni həyatı hərtərəfli işıqlandırılmışdır. Təqdim olunan mövzu təhlil edilərkən Q.Hacıyevin yuxarıda adıgedən əsərlərindən mənbə kimi istifadə edilmişdir. Bundan əlavə Qasım Hacıyev həmmüəllif Ənvər Çingizoğlu ilə birlikdə «Qarabağlı hərbçilər» (Bakı, 2011) əsərində XVIII əsrdən XX əsrin 20-ci illərinədək Qarabağda Rus və AXC ordusunda xidmət etmiş Şuşalı hərbçilərinin həyatı və döyüş yolları geniş işıqlandırılmışdır.

Şuşa şəhərinin qədim və zəngin tarixinə dair yazılmış əsərləri nəzərdən keçirərkən məlum olur ki, şəhərin tarixinə dair yalnız bir elmi tədqiqat əsəri vardır ki, bu da 1800-1917-ci illəri

əhatə etmişdir. G.İsmayılova tərəfindən yazılmış «XIX-XX əsrin əvvəllərində Şuşa şəhərinin tarixi" adlı elmi tədqiqat işində Şəhərin Rusiyaya birləşdirilməsindən, tədqiq olunan xronoloji çərçivədə şəhərin ərazisi, əhalisi, büdcəsi, iqtisadi, siyasi və mədəni həyatından bəhs olunmuşdur [14]. Əsər, Şuşa şəhərinin bəhs olunan xronoloji çərçivəsini öyrənmək baxımından əhəmiyyətlidir. Şuşa şəhərinin, 1800-1991-ci illər tarixinin tədqiqi bu gün həllini gözləyən mühüm məsələlərdəndir.

Sovet dönəmində yazılmış ümumiləşdirici əsərlərdə Şuşa şəhərinin də tarixi öz əksini tapmışdır. Belə ki, 1964-cü ildə nəşr olunmuş «Azərbaycan tarixində» (II cilddə), M.İsmayılovun «XIX-XX yüzilliyin əvvəllərində Azərbaycanda kənd təsərrüfatının inkişafı», A.Ş.Milimanın «XIX yüzillik və XX yüzilliyin əvvəllərində Azərbaycanda siyasi vəziyyət» əsərlərində Şuşa qəzasının yaranmasından (1840) ləğv edilməsi dövründəki (1929-cu ilədək) olan xronoloji çərçivəni əks etdirmişdir. Lakin həmin əsərlərdə bütövlükdə Şuşa qəzası haqqında məlumatlar verildiyindən Şuşa şəhəri haqqında məlumat azdır.

«Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri (B.1986) [4], P.Əliyevin və A.Sarkisovun kitablarında [9] 1900-1909-cu illərdə Şuşa şəhərində ictimai-siyasi vəziyyət təhlil edilmiş, 1905-1907-ci illərdə şəhərdə baş verən təbil, nümayiş və mitinqlərdən bəhs edilmişdir.

Qeyd edək ki, keçən əsrin 70-ci illərindən Şuşa şəhərində arxeoloji tədqiqat işlərinə maraq daha da artırıldı. Aparılan tədqiqatlardan, burada daş (Paleolit, mezolit), tunc, dəmir dövrlərinə aid nümunələr tapılmış, Şuşanın qədim yaşayış məskəni olması aşkarlanmışdı. Bütün bunlar isə A.Q.Cəfərovun [6] və A.A.Həsənovun [11] əsərlərində öz əksini tapmışdır.

Mirzə Camal Cavanşirin və Mirzə Adıgözəl bəyin yazdıqları qiymətli əsərlər [24, 21] Şuşanın XVIII-XIX əsrlər tarixinə aid məxəzlərdəndir. Mirzə Adıgözəl bəy «Qarabağnamə»ni 1845-ci ildə yazmışdır. M.Adıgözəl bəy əsərin yazılma tarixçəsi barədə belə yazırdı: «Mən bu əhvalatın bir hissəsini ... yaşlı adamlarından soruşub öyrənmiş və çoxlu məlumat yığmışam». Doğrudan da, əsəri oxuyarkən Mirzə Adıgözəl bəyin şifahi tarixi

qaynaqlarla yanaşı, zəngin sənəd və materiallardan da istifadə etdiyinin şahidi oluruq. Əsərdə, Şuşanın 1736-cı ildən 1828-ci ilə qədərki siyasi tarixindən, Qarabağ xanlığının banisi Pənah xanın nəslindən, onun Şuşanı bərpa etdirməsindən, Məhəmmədhəsən xan Qacarın xanlığa hücumundan, İbrahim xanın hakimiyyəti dövründə Şuşadakı gərgin hadisələrdən bəhs edilir.

Şuşanın tarixinə dair yazılmış digər əsərin müəllifi Mirzə Camal Cavanşirdir. M.C.Cavanşir «Qarabağ tarixi» əsərini 1847-ci ildə yazmışdı. Mirzə Adıgözəl bəyin «Qarabağnamə»sindən fərqli olaraq bu əsərdə siyasi hadisələrlə yanaşı, xanlığın sosial-iqtisadi həyatına dair bəzi faktlar da verilmişdir. Qarabağ xanlığına, o cümlədən xanlığın mərkəzi Şuşa şəhərinin tarixinə həsr olunmuş hər iki əsər Azərbaycan tarixinin mühüm qaynağı kimi böyük əhəmiyyətə malikdir [24].

Mirzə Yusif Qarabaği (1798-1864), Qarabağın tarixinə həsr olunmuş məşhur «Tarixi Şafi» əsərinin müəllifidir [22]. Əsər XVIII əsrin ikinci yarısı, XIX əsrin əvvəllərində Şuşanın tarixini, onun xarici əlaqələrini öyrənmək üçün böyük əhəmiyyət kəsb edir. Mirzə Yusifin məlumatları ona görə qiymətlidir ki, o təsvir olunan hadisələrin çoxunun şəxsən iştirakçısı və müşahidəçisi olmuşdur.

AMEA-nın üzvü, t.ü.e.d., professor, Əməkdar elm xadimi Y.M.Mahmudovun və t.ü.e.d., professor K.K.Şükürovla birlikdə yazdıqları "Qarabağ: - real tarix, faktlar, sənədlər" və "Qarabağ tarixi (Qarabağ: suallar və faktlar) əsərlərində Azərbaycanın Qarabağ bölgəsinin qədim dövrdən müasir dövrümüzə qədər keçdiyi tarixi inkişaf yolu zəngin qaynaqlar, tarixi mənbələr və faktlar əsasında yazılmışdır. Gərgin elm axtarışların məhsulu olan həmin əsərlər Qarabağşünaslıqda mühüm hadisədir. Eyni zamanda Y.Mahmudov və C.Mustafayevin birgə yazdıqları "Şuşa-Pənahabad" (Bakı, 2012, 152 s.) əsərində Şuşanın qədim tarixi, ictimai-iqtisadi həyatı, ticarətin, mədəniyyətin inkişafı və digər önəmli məsələlər olduqca əhəmiyyətli fakt və materiallar əsasında əhatəli şəkildə tədqiq edilmişdir. Yuxarıdakı adıgedən qiymətli tədqiqat əsərləri təqdim olunan mövzunun mənbə bazasını təşkil edir.

Şuşa şəhərinin salınmasından bəhs edilən əsərlərdən biri də Həsənəli xan Xanqardağskiyə (1847-1929) məxsusdur. Onun «Qarabağ Vilayətinin qədim və cədid kefiyyət və ovzaları, Pənahəli xan və Mehdiqulu xan əyyami-hökumətlərinin əksəri vəqayi və hekayələri» adlı əsəri şəhərin quruluşu tarixinə işıq salmışdır. Əsər o dövrdə məhv olmuş və Həsənəli xanın oğlu Məhəmməd ağa həmin əsərə iqtibaslar etdiyindən həmin iqtibaslara əsaslanaraq Şuşa şəhərinin dəqiq inşası barədə məlumat əldə edirik.

Tarixçi və sair M.M.Nəvvab «1905-1906-cı illərdə erməni müsəlman davası» (Bakı, 1993) adlı əsərində, doğulduğu Şuşa şəhərinin əsasının Pənahəli xan tərəfindən 1756-cı ildə qoyulması və şəhərdə qala-hasarların tikilməsi içməli su quyularının qazılması haqda müyəssər məlumat vermişdir (səh. 6-7). Şuşa şəhərinin inşası, təbii-coğrafi mövqeyi, iqlimi, bulaqları, qala tikililəri haqda ədəbiyyatçı alimlərdən F.Köçərlinin, yazıçılardan Ə.Haqverdiyevin, Y.Çəmənzəmənlinin, Ə.Əlizadənin, C. Qovanlı-Qacarın əsərlərində geniş məlumatlar verilmişdir.

Elçin Əhmədovun elmi yaradıcılığında Qarabağ mövzusu xüsusi yer tutur. Onun 2012-ci ildə yazdığı "Ermənistanın Azərbaycana təcavüzü: Təhlili xronika (1987-2011)" adlı monoqrafiyası bu baxımdan əhəmiyyət kəsb edir. Əsərdə Şuşa rayonunun xəritəsi, təbii-coğrafi mövqeyi, tarixi abidələri və maddi-mədəniyyət nümunələri 1918 və 1991-ci illərdə Şuşa rayonunda mövcud Azərbaycan kəndləri haqda müyəssər məlumatlar vardır. Bundan əlavə E.Əhmədovun "Heydər Əliyev: Şuşasız Qarabağ - Qarabağsız isə Azərbaycan yoxdur" ("Xalq qəzeti" 8 may 2010-cu il), "Şuşanın tarixi, siyasi və hərbi-strateji əhəmiyyəti" (Dirçəliş jurnalı №86-87. Bakı, 2005, s.84-93), "Şuşa: tarixi, siyasi, iqtisadi, strateji və mədəni əhəmiyyətə malik şəhər" (Geostrategiya jurnalı, №5, may 2012), "Şuşa – Azərbaycanın strateji əhəmiyyətli tarixi mədəniyyət mərkəzi" (Qarabağ dünən bu gün sabah 22.05.2012, Bakı, 2013, s.36-47), "Şuşa – Azərbaycanın milli mədəni mərkəzidir (Qarabağ dünən, bu gün, sabah. 20.10.2014, s.55-59) və digər məqalələrində Şuşa haqqında məlumatlar verilmişdir. Lakin bütün bu və ya digər

əsərlər Şuşanın bütöv tarixini əhatə etmir. Yuxarıda adıgedən əsərlərdən "Şuşanın tarixi"ni yazarkən bəhrələnmişik.

XIX əsrin 70-80-ci illərində daha iki «Qarabağnamə» əsəri yazılmışdır. Bunlardan biri Rzaqulu bəy Mirzə Camal oğlu tərəfindən (XIX əsrin 70-ci illərində), ikinci Həsənəlixan Qarabaği tərəfindən (1880-ci ildə) yazılmışdır. Hər iki əsərdə XVIII əsrin ikinci yarısı XIX əsrin əvvəllərində Şuşada baş verən siyasi hadisələr təhlil edilmişdir.

Şuşanın tarixi haqqında kiçik həcmli, lakin olduqca maraqlı və məzmunlu əsərlərdən birinin müəllifi Əhməd bəy Cavanşir olmuşdur. Onun 1883-cü ildə Şuşada yazdığı «1747-ci ildən 1805-ci ilədək Qarabağ xanlığının siyasi vəziyyətinə dair» əsəri bəhs olunan xronoloji çərçivədə Qarabağ xanlığında, o cümlədən xanlığın mərkəzi Şuşa şəhərində baş verən sosial-siyasi proseslərə həsr olunmuşdur [8].

Qarabağın və Şuşanın tarixinə həsr olunmuş qiymətli əsərlərdən biri də Mir Mehdi Həşimzadəyə (1819-1894) aid olmuşdur. Ərəb və fars dillərinin mahir bilicisi olan M.M. Həşimzadə «Kitabi tarixi Qarabağ» adlı əsərini yazmışdır ki, burada 1747-ci ildən 1828-ci ilədək Qarabağda və Şuşa şəhərində baş vermiş hadisələr şərh edilmişdir [12]. M.M.Həşimzadənin yazdığı əsərin, özündən əvvəlki «Qarabağnamə»lərdən fərqli cəhəti onda idi ki, burada siyasi hadisələrlə yanaşı sosial-iqtisadi və mədəni proseslər də işıqlandırılmışdır. Ümumiyyətlə, XIX yüzilliyin ikinci yarısında Şimali Azərbaycan tarixçilərinin əsərlərinin çoxu Qarabağ xanlığının tarixinə həsr olunmuşdur ki, bütün bunlar xanlığın və onun mərkəzi Şuşa şəhərinin tarixinin öyrənilməsi baxımından bu gün də öz elmi əhəmiyyətini saxlamaqdadır.

Tarixçi Baharlının «Təhrirül-Əhrar», M.F.Axundovun «Ömürdən səhifələr», L.Qarabağlının «Şuşa və Hindistan xatirələri» adlı əsərlərində Şuşa şəhərində 17 məhəllənin olmasını tədqiq etmişdilər. Burada adları qeyd olunan əsərlərinin hər birində ayrı-ayrılıqda məhəllələrin yaranma tarixi və adlarını nəzərdən keçirərkən hamısının Türk adı daşıdığının şahidi oluruq. Elə bu

faktın özü Şuşanı «erməni şəhəri» adlandıranlara tutarlı və əsaslı sənəddir.

Şuşa rayonu və mərkəzi Şuşa şəhərinin ərazisi, əhalisi, təbiəti, iqlimi, təsərrüfatı, sənayesi, mədəni inkişafı, səhiyyə və kurort turizminin inkişafı və ən nəhayət Şuşada baş verən 1903, 1905, 1907, 1912, 1917-ci illər tətilləri, bu tətillərin baş vermə səbəbləri, gedişi və nəticələri «Azərbaycan Kommunist Partiyası tarixi oçerkləri» (2-ci cild, Bakı, 1986), «Azərbaycan tarixi (2-ci cild, Bakı, 1964), P.M.Əliyevin «Qarabağ bolşeviklərinin Sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizə» (Bakı, 1963), T.Vəliyevin «XX əsrin əvvəllərində Azərbaycanda ipək emalı sənayesi (1900-1917-ci illər)», (Bakı, 1977), «Sovet Dağlıq Qarabağı» (Bakı, 1983) kitablarında geniş şərh edilmişdir [28, 25, 4, 9].

Tarix üzrə elmləri doktoru Nazim Məmmədovun yazdığı bir sıra əsərlərdə - "Şuşa və şuşalılar" (Bakı, 2004, 128 s.), "Azərbaycanın Şuşa qəzası 1900-1917-ci illərdə" (Bakı, 2005, 188 s.), "Şuşa Qarabağın mərkəzi, mədəniyyət ocağıdır" (ADPU-nin xəbərləri, Bakı, 1998, s.65-68), "1970-1985-ci illərdə Şuşa şəhərində muzeylərin inkişafı" (Milli Azərbaycan Tarixi Muzeyi, Bakı, 2008, s.274-283), "Heydər Əliyevin Azərbaycanda milli-mədəni dirçəliş siyasəti və Şuşa şəhərində maddi mədəniyyətin inkişaf etdirilməsi" (AMEA Naxçıvan bölməsi "Xəbərləri", 2008, №1, s.42-48), "Azərbaycan SSR Dağlıq Qarabağ bölgəsinin şəhər və rayonlarının tarixi (XX əsrin 20-90-cı illəri) Bakı, "Təhsil, 2010, 210 s. və digər tədqiqatlarında sırf Şuşa şəhərinin iqtisadi, siyasi və mədəni həyat tarixi təhlil edilmişdir. Müəllif problemin ayrı-ayrı aspektlərini, müxtəlif səpkilərdə düzgün işıqlandırmışdır. Yuxarıda adıgedən əsərlərdə xeyli faydalı faktlar, materiallar vardır. Lakin bu əsərlər ayrı-ayrılıqda bütövlükdə Şuşanın tarixini əhatə etmir.

Azərbaycan MEA-nın «Xəbərlər» jurnalının, tarix fəlsəfə hüquq seriyasının (1987-ci il) 2-ci sayında G.N.İsmayılovanın «Şuşa şəhərinin ərazisi, əhalisi və idarəetmə sistemi (XIX-XX yüzilliyin əvvəlləri)» mövzusunda məqaləsi nəşr olunmuşdur ki, həmin məqalədə bəhs olunan xronoloji çərçivədə Şuşa şəhərinin

iqtisadi-coğrafi mövqeyi, təbii şəraiti, əhalisi və onun sosial-milli tərkibi, əhalinin məskunlaşması və əmək ehtiyatları, nəqliyyatı, iqtisadi əlaqələri, relyefi, sərhədləri haqda yığcam məlumat verilmişdir. Lakin, cəmi altı səhifəlik məqalədə bütöv Şuşa şəhərinin tarixini vermək mümkün ola bilməzdi [14].

İran tarixçisi Əminə Pakrəvan «Abbas Mirzə» adlı əsərində XIX yüzilliyin birinci yarısında Şuşanın ictimai-siyasi vəziyyətini təhlil etmişdir. Əsərdə car Rusiyasının ağır ictimai və müstəmləkə zülmündən, işğaldan sonra idarə sisteminin dəyişdirilməsindən, xalqın ağır zülmə məruz qalmasından, 1826-cı il Şuşada Hacı Ağalar xan Qasım bəy oğlu tərəfindən üsyanın baş verməsindən, onun apardığı uğurlu əməliyyatlardan geniş bəhs etmişdir. Şuşanın XIX yüzilliyin birinci yarısının tarixini öyrənmək baxımından əsər əhəmiyyətlidir.

Şuşanın tarixinə dair yazılmış maraqlı əsərlərdən biri də C.Quliyevin, N.Volodinin, B.Geverkovun redaktəsi altında 1973-cü ildə nəşr olunmuş «Qardaşlıq ailəsində» kitabıdır [16]. Əsərdə, xarici dövlətlərdən buraya gəlmiş insanların Şuşa haqqında fikirləri daha çox diqqəti cəlb etmişdir. Onlar öz ürək sözlərində Şuşanın gözəlliyini tərənnüm etdirmiş, havasına məftun olduğunu bildirmişlər. Sergey Yesenin yazırdı ki, «Şuşanın havası bütün insanlara oxumaq xoşbəxtliyi bəxş edib.... Əgər oxuya bilmirsənsə, deməli sən şuşalı deyilsən». S.Orconigidze isə Şuşanı bütöv Azərbaycanın ən gözəl guşəsi adlandırmışdır. Alma-Atı, Rostov, Moskva, Leninqrad və digər şəhərlərdən gəlmiş insanlar Şuşa təəssüratlarını ürək dolusu elan etmişdilər. Kubadan olan tələbələr Şuşadan vətənlərinə qayıdarkən rəy kitabına ürək sözlərini bu cür ifadə etmişdilər: «Şuşa, Kubadakı Syera-Mayestra dadlarının gözəlliyini xatırladır. Şəhərin zəngin tarixi var. Şəhərin gözəlliyi ilə insanların qayğıkeşliyi üst-üstə düşür. Professor Fiqroviski Şuşadakı turşsu və şırlan mineral bulaqlarının Koslovodski, Davos (Şvetsariya) və Abastuman mineral bulaqları ilə eyni səviyyədə dayandığını qeyd edir. Kitabda, Şuşanın təsərrüfatı, mədəniyyəti haqqında azda olsa məlumat var.

"Şuşa" nəşriyyatında 2009-cu ildə nəşr olunmuş Ənvər Çingizoğlunun "Şuşa şəhəri (1750-1850)" adlı monoqrafiyası Azərbaycan xalqının mədəniyyətində mühüm rol oynayan Şuşa şəhərinin və Şuşa camaatının yüzillik (1750-1850-ci illər) yaşam yolundan bəhs olunur. Əsərdə XVIII-XIX yüzilliklərdə Şuşa şəhərində baş vermiş önəmli hadisələr, şəhərin iqtisadi, mədəni həyatı sənədlərlə, şahidlərin bilgisinə əsasən yazılıb. Həmçinin kitabda arxiv sənədlərinə istinadən Şuşa əhalisinin demoqrafik vəziyyəti təhlil edilib. Əsərdə xeyli dəyərli faktlar və materiallar var. Lakin əsər bütövlükdə Şuşanın tarixini əhatə etmir.

Firudin Şuşinskinin 1968-ci ildə nəşr olunmuş «Şuşa» adlı kitabında Şuşanın tarixi azda olsa işıqlandırılmışdır. Kitabda, Şuşa haqqında qısa məlumat verilir. Şəhərin inşa olunmasından, qəhrəman keçmişindən, Şuşanın yetişdirdiyi məşhur sənətkarlardan bəhs olunur. Əsərdə, eyni zamanda, Şuşanın bir istirahət ocağı kimi məşhur olmasından, gözəl mənzərələrindən, görülən abadlıq işlərindən, şəhərin gələcəyi haqqında məlumat verilir [26]. Kitabda, əhəmiyyətli bir sıra məsələlərə toxunulsa da, şəhərin əhalisi, sosial-iqtisadi inkişafı haqqında məlumat yoxdur.

Bəylər Məmmədovun «Şuşanın dünəni bu günü və sabahı» adlı məqaləsində XIX yüzillikdən 1988-ci ilədək Şuşanın təsərrüfatı, mədəniyyəti, sənayesi, ticarət əlaqələri, şəhərdəki məscidlər, hamamlar, qədimi binalar haqqında məlumat verilmişdi [18]. Lakin 6 səhifəlik məqalə ilə qədim tarixə malik Şuşa haqqında geniş məlumat vermək mümkün ola bilməzdi.

«Şuşa və şuşalılar» məqaləsində Yusif İsmayılov şuşadakı qədim yaşayış binaları, məscidlər, mədrəsələr, karvansaralar, qəsrlər, türbələr, bulaqlar, qalabürcləri, daş küçələr, qala divarları, memarlıq və incəsənət abidələri haqqında çox maraqlı və əhəmiyyətli məlumatlar vermişdir [15].

Şuşanın mədəni həyatı, onun memarlıq abidələri haqqında M.Axundovanın «Şuşanın əbədi yadigarları», S.Məhərrəmovanın «Şuşanı abadlaşdıraq», E.V.Avalovun «Köhnə Şuşada yeni arxitektura tikililəri» (Elm və həyat» jurnalı, Bakı, 1971, №11), D.Novruzovanın «Azərbaycanın şəhərlərində heykəltaraşlıq» (iskustuva i bit №3, 1968, s.173) P.Axundovun «Dağlar qoynun-

da şəhər», E.V.Avalovun «Şuşada heykəltəraşlıq arxitektura abidələrinin qorunması məsələlərinə dair» (Az.EA xəbərləri, ədəbiyyat, dil, mədəniyyət 1972, №2); E.V.Avalovun «Şuşada mənzil formalaşdırılması məsələləri haqqında» Az. SSR EA Xəbərləri. Ədəbiyyat, dil, mədəniyyət seriyası. Bakı, 1973, №3. N.Veysəllinin «Qartal qanadlı şəhər», V.Quliyevin «Şuşanın keçmişi və bu günü və gələcəyi», «Abidələrin gənclik dövrü» G.İsmayılovanın «Şuşanın ərazisi, əhalisi, idarəçiliyi (XIX əsr XX əsrin əvvəlləri)» və digər məqalələrdə geniş məlumatlar verilmişdir [2].

E.V.Avalovun «Şuşanın arxitektura abidələri və onun tarixi formasının saxlanması problemləri» (Bakı, «Elm», 1977) [1] adlı əsərində Şuşanın şəhərsalma strukturunun formalaşması amilləri, şəhərin və onun ayrı-ayrı məhəllələrinin memarlıq-planlaşdırma quruluşunun yaranmasının mərhələləri, XVIII əsrin 50-ci illərində Şuşanın qala divarlarının və qəsrlərinin tikilməsi, şəhərin Şimal və aşağı məhəllələrinin formalaşması, 1759-1806-cı illərdə şəhərin Yuxarı məhəlləsinin formalaşması, 1805-ci ildən sonra şəhərin qərb sahəsinin yuxarı hissəsinin tikilməsi, burada yeni məhəllələrin salınması məsələləri tədqiq edilmişdir. Müəllif haqlı olaraq göstərir ki, Şuşanın zəngin, tarixi memarlıq irsindən şəhərsalma sənəti abidələri, küçə və meydan ansamblları, yaşayış evləri diqqəti cəlb edir. Bu abidələrdən qala divarları, qaladaxili qəsrlər, Pənahəli xanın sarayı, Qara Böyük xanın bürcü, Şuşanın əsas darvazası olan «Gəncə qapısı». X.Nətavanın evi, Hacı Qulunun saray tipli malikanəsi, Əsəd Bəyin evi, Mehmandarovların evi, Zöhrabbəyovların evi, «Yuxarı məscid», «Gövhərağa məscidi», Aşağı Gövhərağa Məscidi, türbələr, bulaqlar Azərbaycan memarlığının gözəl nümunələrindəndir. Müəllif çox haqlı olaraq həyəcan təbili çalışır ki, yuxarıdakı adıgedən misilsiz Şuşa abidələri sovet hakimiyyəti illərində baxımsızlıq ucbatından və müxtəlif məqsədlərlə istifadə edildiyindən məhv olmaq təhlükəsi qarşısında qalmışdır. Çox təəssüflər olsun ki, Şuşanın bu nadir inciləri erməni vandalları tərəfindən darmadağın edilmişdir.

Şuşa şəhərinin təbii-coğrafi şəraiti, iqlimi, bitki və heyvanat aləmi, təbii meşələri, müalicəvi əhəmiyyətli bulaqları, havası

haqqında B.A.Eyvazov «Şuşa Kurortu» (Bakı, 1956) adlı əsərində geniş məlumat vermişdir [7]. Müəllif haqlı olaraq Şuşanı Qafqazın gözü adlandırır. Kitabda göstərilir ki, gözəl dağ mənzərəsi, bitki zənginliyi, təmiz və saf hava, sərin sulu İsa bulağı, Cıdır düzü, Turşsu, Şirlan və Şuşa ətrafındakı digər təbii sərvətlər insanın duyğu orqanlarına, ilk növbədə mərkəzi sinir sisteminə müsbət və güclü təsir edir.

1986-cı ildə «Elm» nəşriyyatında Azərbaycan, rus və ingilis dilində nəşr olunmuş «Şuşa-Vaqifin türbəsi» kitabının elmi redaktoru C.Quliyev, müəllifləri K.M.Məmmədzadə və N.A.Sərkisov idi. Əsər, Şuşada inşa edilmiş Molla Pənah Vaqifin məqbərəsinə həsr edilmişdir [19]. Həmçinin, kitabın mətnində Şuşanın tarixi, Vaqifin yaradıcılığı qısaca şərh olunmuş və şəkillərində Ə.R.Salamzadə, E.İ.Kanukov, A.Z.Mustafayevin layihəsi üzrə tikilmiş bu türbənin memarlıq – bədii xüsusiyyətləri göstərilmişdir. Kitabda, M.P.Vaqif türbəsinin müasirlik və qədim xalq incəsənəti üzvi surətdə bağlı olan kompozisiya üsulları təsvir edilmişdir.

Beləliklə, Şuşa şəhərinin tarixinə dair yazılmış əsərləri nəzərdən keçirərkən məlum olur ki, Şuşa, tarixən Azərbaycan ərazisi olmuş və tariximizin heç bir mərhələsində Azərbaycandan ayrılmamışdır. Şuşa əhalisinin milli tərkibinə gəldikdə isə, burada türklər həmişə say etibarilə üstünlüyə malik olmuşlar. Həmçinin aşkar olunur ki, XX yüzilliyin 20-60-cı illərində Dağlıq Qarabağın ermənilərin daha çox cəmləşdiyi ərazilər abadlaşmış, inkişaf etmiş, azərbaycanlıların yaşadıqları qədim yaşayış məskənləri, o cümlədən, Şuşa şəhəri, Vilayətin erməni rəhbərliyinin məkrli siyasəti, eyni zamanda Azərbaycan rəhbərliyinin laqeydliyi nəticəsində xarabazara çevrilmişdir. Bütün bunlarla yanaşı Şuşa şəhərinin bütöv tarixi indiyədək tam şəkildə tədqiqat predmeti olmamışdır və inanırıq ki, bu problem tezliklə öz həllini tapacaqdır.

# I FƏSİL

## ŞUŞANIN QISA TARİXİ-COĞRAFİ İCMALI

Şuşa — dünyaya böyük maddi və mənəvi mədəniyyət bəxş etmiş, Qarabağın bol sərvətə, mülayim iqlimə, zəngin bitki və heyvanlar aləminə malik tacıdır.

1992-ci ilin məlumatına görə Şuşanın ərazisi 289 kvadrat kilometr, əhalisinin sayı 24165 nəfər olmuşdur. Şuşa şəhəri Bakıdan 410 kilometr qərbdə yerləşir. Şuşa Qarabağ silsiləsində 1400 metr yüksəklikdə yerləşir və kurort şəhərdir [16]. Şuşanın yaranma tarixi və etimologiyası barədə müxtəlif mülahizələr vardır. Elmi ədəbiyyatda Şuşanın yaranma tarixi XVIII 50-ci illərində Qarabağ xanı Pənahəli xan Cavanşirlə bağlı olsa da, son tədqiqatlar Şuşanın lap qədimlərdən mövcud olduğunu göstərir. Pənahəli xan hakimiyyəti dövründə (1748-1763) Şuşanın ətrafına müdafiə divarları çəkdirmiş və abadlaşdırmışdır. Qarabağ xanlığının mərkəzi olan Şuşa şəhəri bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlandırılıb. Aparılan tədqiqatlar nəticəsində məlum olub ki, Şuşa başqa adlarla — «Şuşakənd», «Qala», «Şəhri şişə» kimi də adlandırılıb. Şuşanın iqlimi, təbiəti, yeraltı və yerüstü sərvətləri ərazinin iqtisadi, siyasi və mədəni cəhətdən inkişafına təkan vermişdir. Şuşada sənətkarlığın dəmirçilik, boyaqçılıq, miskərlik, dərzilik, papaqçılıq, başmaqçılıq, şərbaflıq, kürkçülük, dabbaqlıq, sərraclıq, zərgərlik və sair sahələri inkişaf etmişdir. XIX əsrdə Qarabağ xalçalarının istehsal və satış mərkəzi Şuşa olmuşdur. Burada dünya şöhrəti qazanmış «Malıbəyli», «Ləmpə», «Bağçada güllər», «Bulud», «Saxsıda güllər», «Nəlbəkigül», «Güllü yaylıq», «Muncuq», «Zərimərmər» və sair xalçalar toxunurdu.

XIX əsrin ortalarında Şuşada 84 başmaqçı, 112 dəmirçi, 104 daş ustası, 84 papaqçı və sair işləyirdi. Heç də təsadüfi deyil ki, bu sənətkarlar şəhərin müəyyən bir hissəsində toplaşmış və ona görə də şəhərin həmin hissəsi onların adı ilə (papaqçı, dəmirçi, boyaqçı, başmaqçı) adlandırılmışdır. Şuşada daxili və xarici

ticarət inkişaf etmişdi. Şuşanın Təbriz, Tehran, İstanbul, İsfahan, Moskva və başqa şəhərlərlə ticarət əlaqələri var idi [56].

İbrahim Xəlil xanın dövründə (1763-1806) Şuşa şəhəri xeyli abadlaşdırılmışdır. 1783-1784-cü illərdə İbrahim Xəlil xan Şuşanın ətrafına daha möhkəm qala divarı çəkdirmişdi.

1751, 1795, 1797-ci illərdə Şuşa şəhəri qonşu İranın hücumuna məruz qalsa da təcavüzkarlar şəhər əhalisinin ciddi müqaviməti ilə rastlaşmışdır. XX yüzilliyin əvvəllərində rusların Azərbaycana hücumu 1805-ci ildə Kürəkçay müqaviləsi ilə nəticələndi. Müqaviləyə görə Qarabağ xanlığı və mərkəzi Şuşa şəhəri Rusiyanın himayəsini qəbul etdi. XIX yüzilliyin əvvəllərində Azərbaycanı ələ keçirmək uğrunda başlanan Rus-İran müharibəsi 1813-cü ildə Gülüstan müqaviləsi ilə nəticələndi. Şuşa Qarabağ xanlığının tərkibində Rusiyaya birləşdirildi. 1822-ci ildə Qarabağ xanlığı ləğv olundu. Şuşa şəhəri yeni yaradılmış hərbi dairənin mərkəzinə çevrildi. Şuşa şəhəri hərbi komendant tərəfindən idarə edilirdi [72].

1826-cı ildə Azərbaycan torpaqlarını ələ keçirmək uğrunda Rusiya ilə İran dövlətləri yenidən müharibəyə başladılar. 1826-cı ildə Abbas Mirzənin qoşunları kəskin müqavimətlə rastlaşdı və geri çəkildi. 1828-ci il Türkmənçay sülhü ilə Azərbaycan torpaqlarının İran və Rusiya arasında bölüşdürülməsi başa çatdı. İndiki Şimali Azərbaycan torpaqları Rusiya dövlətinin müstəmləkəsinə çevrildi. Cənubi Azərbaycan isə İrana verildi. Bu vaxt Şuşa şəhəri də, Şimali Azərbaycanın tərkibində Rusiya himayəsini qəbul etməyə məcbur oldu.

Çar hökumətinin 1840-cı il 10 aprel tarixli inzibati islahatına əsasən Xəzər vilayəti tərkibində Şuşa qəzası yaradıldı (1 yanvar 1841-ci il). Qəzanın mərkəzi Şuşa şəhəri idi. 1846-cı il Çar hökumətinin qərarı ilə Şuşa qəzası Bakı quberniyasına, 1867-ci ildə isə Gəncə quberniyasına daxil olmuşdu. Bu vaxt Şuşa qəzası Mehri, Kəbirli, Zəngəzur, Cavanşir, Çələbürd, Vərənd məntəqələrinə bölünürdü. Çar hökumətinin 1867-ci il dekabr fərmanına əsasən Zəngəzur və Cavanşir Şuşa qəzasından ayrılıb müstəqil qəzalara çevrildi. Şuşa qəzası – qəza rəisi, onun müavinləri, xəzinədar, məntəqə iclasçıları və şəhər polisi tərəfin-

dən idarə olunurdu. Qəzanın məhkəməsi də var idi. Bəhs etdiyimiz dövrdə Şuşa qəzasının sahəsi 4911 kvadrat kilometr, əhalisi 140740 nəfər olmuşdur (1897-ci il məlumatı). Şuşada əkinçilik, maldarlıq, ipəkçilik, üzümçülük, bağçılıq təsərrüfatın inkişaf etmiş sahələri idi. Xalça, mahud, ip və sair toxuculuq sahələri xüsusi olaraq inkişaf etmişdi [72].

Yuxarıda qeyd etdik ki, Şuşa qədim yaşayış məskənidir. Ərazidə aparılan arxeoloji tədqiqatlar nəticəsində Şuşada daş dövrünə aid mənbələr aşkar edilmişdir. Şuşanın yaxınlığında, Zarıslı (Daşaltı) çayının dərəsində, dəniz səviyyəsindən yüksəklikdə yerləşən Şuşa mağarasının uzunluğu 120 metr, eni 20 metrdir. Şuşa mağarasının ağzında orta əsrlərə aid daşdan qalın istehkamlar, qala və divar binaların qalıqları var. Arxeoloji axtarışlar zamanı mağarada Paleolit dövrünə aid 2 ədəd kobud çapacaq, Mezolitə aid mikrolit bıçaqlar aşkar edilmişdir. Eyni zamanda buradan qarışıq torpaqlardan e.ə. V-IV minilliklərə aid Eneolit gil qab məmulatları, Tunc, dəmir və orta əsrlərə aid saxsı məmulat qırıqları tapılmış və bununla da təsdiq olunmuşdur ki, Şuşa qədim yaşayış məskənidir [70].

1930-cu ildə Şuşa rayonu yaradılıb. 1963-cü ildə rayon ləğv edilərək Xankəndi rayonuna verilib. 1965-ci ildən yenidən müstəqil rayon olmuşdur. Məkirli niyyət sahibləri olan ermənilər Şuşa rayonunu 1978-ci ildə Əsgəran rayonuna vermişlər. Lakin şuşalılar bu qərara öz etirazlarını bildirmiş və ona görə də Dağlıq Qarabağ rəhbərliyi Şuşanı yenidən müstəqil rayon kimi tanımışdır. Şuşa rayonunda 1 şəhər, 30 kənd və başqa yaşayış məntəqələri var. Kiçik Qafqaz dağlarının şərq hissəsində, şimal eninin $39^0$ $21^1$ dərəcəsi ilə $40^0$ $24^1$ dərəcəsi və Qrinviçdən şərq uzunluğunun $46^0$ $18^1$ dərəcəsi ilə 47 $21^1$ dərəcəsi arasını əhatə edən Şuşa şəhəri Bakıdan 410 kilometr qərbdə yerləşir. Şuşanın əhalisi, 1988-ci il məlumatına görə, 19 min nəfərdir. Şuşanın hər bir kvadrat kilometr sahəsinə orta hesabla 63,3 nəfər əhali düşür. Bu ümumi Vilayət göstəricisindən təqribən 2 dəfə çoxdur (Dağlıq Qarabağda hər kvadrata 34,5 nəfər). Şuşa rayonun ən böyük yaşayış məntəqələri Şuşa şəhəri, Malıbəyli və Daşaltı kəndləridir. Aparılan tədqiqatlara əsasən, onu da qeyd edək ki, son 50 il

ərzində Şuşa əhalisi burada yaşayan azərbaycanlıların deportasiyası hesabına xeyli azalmışdır. «Kafqazskiy kalendar»da göstərilir ki, 1917-ci ildə Şuşada 43 mindən çox əhali yaşayırdı, hansı ki, yuxarıda göstərdiyimiz kimi 1988-ci ildə bu rəqəm 19 minə enmişdi [35].

Şuşanın şimal, şimal-şərq və şimal-qərbi qayalı dağlarla əhatə olunubdur. Şəhərin cənub-şərq tərəfi isə dərinliyi 500 metr, eni 250 metr olan sıldırım qayalı dərin dərə ilə sərhədlənib. Şuşanın cənub tərəfində Kirs dağı yerləşmişdir ki, bu dağdan baxanda şəhər «mis qazan»ını xatırladır. Nəhəng sıldırım qayalarla əhatə olunmuş Şuşa alınmaz qala idi. Hələ vaxtilə Azərbaycanın görkəmli yazıçısı Cəlil Məmmədquluzadə Şuşa haqqında belə yazırdı: «Axşamlar Şuşa şəhəri məqrib tərəfdən behişti xatırladır. Şvetsariyanı görənlər isə Şuşanı Şvetsariyaya oxşadırlar. «Çin yaylaqları» ilə Şuşanın «Xan sarayı» arasında oxşarlıq vardır. Mən isə cürət edib deyərdim ki, Şuşanın axşam çağı məqrib tərəfdən sehirgahı o qədərdir ki, bura insana ürək şadlığı verir, dünyanın az-az yerlərində bu cür səadət ələ düşə bilər. Şuşanın ən yüksək zirvəsi Böyük Kirs dağıdır ki, onun hündürlüyü 2725 metrdir. Həmçinin Keçəldağ aşırımı da Şuşa ərazisindədir. Şuşanın dəniz səviyyəsindən orta hesabla hündürlüyü 1358 metrdir. Öz başlanğıcını Qarabağ sıra dağlarından alan və ümumi uzunluğu 111 kilometrə çatan Qarqar çayı Şuşa ərazisindən keçir. Burada, eyni zamanda Daşaltı və Xəlfəli çayları da vardır ki, bu çaylar dərin dərələrdən axır [28].

Şuşanın əsas torpaqları Qarabağ sıra dağlarının meşələrlə örtülü şərq qollarındadır. Torpaqları çimli dağ-çəmən, qonur dağ-meşə, qəhvəyi dağ-meşə tiplidir. Ərazinin 58 kvadrat kilometrini (20 faizini) meşələr əhatə etmişdir. Meşədə, əsasən, fıstıq, bəzi yerlərdə palıd, cökə, vələs, qoz, armud, alça, zoğal və sair bitir. Yüksək dağlıq sahələrdə subalp və alp çəmənlikləri ilə örtülüdür. Şuşa meşələrinin Quba və Lənkəran meşələrindən fərqi ondadır ki, Şuşa meşələrində həmişəyaşıl meşəaltı örtüyü yoxdur. Bu isə Şuşa meşəsinin sıx olması ilə bağlıdır. Hətta bəzi mənbələrdə Qarabağ sözünün mənasını «qara meşəlik» kimi təqdim edilməsi, burada meşənin sıx olması və yayın ortasında belə yerə günəş

düşməməsi ilə əlaqələndirilmişdir. Enerjinin olmaması isə Şuşa meşələrində epitetlərin və həmişəyaşıl meşəaltı örtüyünün zəifliyinə səbəb olmuşdur. Alçaq dağlıq və dağətəyi sahələrdə meşələr qırılmışdır. Həmin kəsilmiş meşələrin yerində kserofit kolluqlar yaranmışdır. Subalp çəmənliklər ən yaxşı otlaqlar və biçənəklərdir. Eyni zamanda həmin çəmənliklərdə tək-tək ağaclar da bitir. Təbiətimizin təkrarolunmaz sərvəti olan meşələrimizi heç bir varlıqla müqayisə etmək olmaz. Çünki meşələr həm heyvanların yaşayış məskəni, həm günəş enerjisinin, istiliyin, rütubətin bərabər nizamlayıcısı olmaqla yanaşı, həm də insan həyatı üçün zəruri olan hava təbəqəsini oksigenlə təmin edir. Şuşa meşələri özünün ağac və kol bitki növləri ilə zəngindir. Lakin, təəssüflə qeyd etməliyik ki, Azərbaycanın 200 min hektardan artıq meşə sahələri, o cümlədən, 50 kvadrat kilometrlik Şuşa meşələri işğal altında qalmışdır. Mebel və parket üçün əvəzi olmayan meşələrimiz vəhşicəsinə doğranaraq İrana və başqa xarici ölkələrə satılır. Ən başlıcası isə meşə örtüyünün həyatımız üçün oksigen təminatçısı olduğunu unutmamalıyıq. Biz bu gün həmin məhv edilməkdə olan meşə sahələrini qorumalıyıq. Bu məsələ ilə bağlı beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırmalıyıq. Əks halda hava çatışmamazlığına görə gələcək nəsil bizi bağışlamaz. Azərbaycan meşələrini, Qarabağ və Şuşa meşələrini qorumaq üçün bütün imkanlardan maksimum istifadə etmək bu gün ən başlıca vəzifəyə çevrilmişdir [6].

Şuşanın coğrafi şəraitinin müxtəlifliyi və iqtisadi şəraitinin xüsusiyyətləri ərazinin heyvanlar aləminin də zənginliyinə səbəb olmuşdur. Buradakı meşələrdə cüyür, vaşaq, meşə pişiyi, tülkü, boz dovşan yaşayır. Şuşa meşələrində ayıya və nəsli kəsilməkdə olan qabana, İran sincabına da rast gəlinir. Meşə — steplə həmsərhəd olan yerlərdə əkinlər üçün qorxulu olan çöl siçanları yaşayır. Bütün bunlarla yanaşı, Şuşa meşələrində sülöyün və meşə sülöyününə təsadüf edilir. Çılpaq və pulcuqlu sürünənlərdən – qayalıqlarda yaşayan kərtənkələ, koramal, uzun qıçlı Qafqaz qurbağası və başqaları burada yaşayır. Şuşa meşələrində yaşayan quşlar adətən yaşıl və əlvan ağacdələnlərdən, kəklik, göyərçin, sərçə və başqa xırda quşlardan ibarətdir. Şuşa meşə-

lərində yaşayan adlarını çəkdiyimiz və çəkmədiyimiz heyvanların kökləri, məlum hadisə ilə bağlı kəsilmişdir. Aydın məsələdir ki, Şuşa meşələrində yaşayan bu çöl heyvanları təbiətimizin gözəllik sərvəti olmaqla yanaşı, ilin müxtəlif vaxtlarında onların ovlanması iqtisadiyyatımıza müsbət təsir edir. Azərbaycanın, onun ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın təbii sərvətlərindən özümüz, lazımi qaydada istifadə edəriksə, ölkəmizin iqtisadiyyatını yüksəldər, xalqımızın güzəranını yaxşılaşdırarıq. Hələ vaxtilə sovet quruluşu dövründə vilayət rəhbərliyi Şuşa meşələrinə biganə yanaşmış və heyvandarlığın inkişafı məqsədilə Şuşa meşələri tədricən qırılması ilə əlaqədar get-gedə meşələr mənzərələrini dəyişib seyrəkləşmiş və otlaqlara çevrilmişdir. Şuşada bir neçə seysmik ocaq müşahidə edilmişdir ki, bunların zəlzələ gücü 5-6 baldan artıq olmur. Lakin 1903 və 1932-ci illərdə Şuşada gücü 7 bala çatan zəlzələlər baş vermişdir.

Şuşa özünün təbii mənzərəsi, gözəl havası, saf suyu, tərifli İsa bulağı, Turş suyu ilə bütün dünyada tanınmışdır. Narzana oxşar bir neçə mədən suları içərisində Şuşa şəhərindən 19 kilometr cənub-qərb tərəfdə olan lisaqor aşırımı yaxınlığındakı lisaqorsk mədəni daha böyük müalicəvi əhəmiyyətə malikdir. Təbiətinin gözəlliyinə, iqliminin saflığına görə Şuşa Qafqazın yaraşığı hesab edilmişdir. Sağlamlıq və istirahət məskəni, Qarabağın ən gözəl guşəsi olan Şuşa uzun ömürlülər diyarıdır. Ərazidə yaşamış 157 yaşlı Qabil kişinin, 146 yaşlı Həsən Qambalıyevin və başqalarının adlarını fəxrlə çəkmək olar. Müalicəvi əhəmiyyətə malik Şuşa iqlimi dünya alimləri tərəfindən öyrənilmişdir. Professor Fiqroviskiyə görə Şuşa — Kislovodsk və Abastumani kurortlarına bərabər, İsveçdəki Davos kurortlarından üstündür [2].

Şuşanın iqlimi, qışı quraq keçən mülayim isti və qışı quraq keçən soyuq iqlim tipinə aiddir. İqlim nisbətən mülayim və mötədildir. Şuşada yay sərin, qış isə mülayim keçir. Ərazidə daim zəif şərq küləyi əsir. Şuşada həm yayda, həm də qışda günəşli gün çox olur. Havanın orta illik temperaturu 8 dərəcə selsidir. Orta yanvar temperaturu - 1,5 dərəcə selsi (-1-4 selsi dərəcə), orta iyul temperaturu 18,5 dərəcə selsidir (+16+19

dərəcə selsi). Şuşada yağıntının orta illik miqdarı 700-800 millimetrdir. Qafqazın başqa yerlərində olduğu kimi, yalnız yağış çox olduğundan günəşin istiliyi zəifləyir. Dumanlar ən çox payızda və yazda olsa da, Şuşada hava quru keçir. Duman ən çox səhərlər olduğundan bu insan orqanizminə müsbət təsir edir və bəzi xəstəliklərin müalicəsi üçün əhəmiyyətlidir. Professor K.A.Yeqorov qeyd edirdi ki, Şuşa iqlimi — vərəm xəstəliklərinin, qan azlığının, ağır qızdırmanın, göy öskürəyin, ciyər iltihabının, həddindən artıq yorğunluğun, plevrit və başqa xəstəliklərin dərmanıdır. Şuşanın iqlimi burada yaşayan insanların bədəninin möhkəmliyini yaxşılaşdırır. Bütün bunlarla yanaşı «Şuşa mənzərələri» — «Qız qayası», «Yuxarı Daşaltı», «Qırx pilləkən», «Şırşır» və başqa gözəl mənzərələr insanın şəfa tapmasına kömək edir və yorğunluğunu çıxarır [90].

Şuşa, həm də tariximizin yadigarı olan abidələr diyarıdır. Şuşa abidələrini öyrəndikcə yaddaşımız daha da möhkəmlənir və Şuşa şəhərinə olan məhəbbətimiz artır. Belə abidələrə misal olaraq, Şuşanın 5 kilometr cənubunda Zarıslı (Daşaltı) çayının (Qarqar çayının qolu) sol sahilində, Qarabağ dağ silsiləsi ətəyində Daşaltı kəndində müdafiə qalasını, XVIII əsrdə İbrahim Xəlil xanın tikdirdiyi sığınacaq evini, lövhəni, hamamı; uzunluğu 125 metr, eni 20 metr olan (e.ə. IV-II minilliyə aid) Şuşa mağarasını; Şuşanın 15 kilometrliyində yerləşən Malıbəyli kəndindəki tunc dövrünə aid kurqanları, Qarqarların və Albaniya dövlətinin adının saxlanmasına aid toponimləri (Qarqar çayı, Ağvon çayı, Ağvon düzü) və başqalarını göstərə bilərik. Şuşa abidələri, əsrlər boyu müxtəlif dövrlərdə torpaqlarımıza basqın etmiş yağılar tərəfindən dağıdılmış və xarabalıqlara çevrilmişdir.

Şuşanın təbii gözəlliyini daha da artıran onun meyvə bağlarıdır. Belə ki «Aşağı Daşaltındakı» tut bağları, «Şuşa albuxarası», «Məleykə armudu», «Çanaxçı xiyarı», «Zarışlı qaymağı», «Xəlfəli moruğu» və başqaları Şuşanın qiymətini daha da artırır. Şuşa meşələrindəki dərman bitkiləri — itburnu, bağayarpağı, ağtikan, üskükotunun hər bir yarpağı müəyyən xəstəliklərin məlhəmidir. Vaxtilə Şuşa şəhərində yaşamış Məşədi Əkbərin yuxarıda adlarını çəkdiyimiz bitkilərlə müalicəsi bütün

Dağlıq Qarabağda, Azərbaycanda məşhur idi. Suyu turş olan və mədə xəstəliklərinin, iştahasızlığın dərmanı olan «Turşsu» Şuşanın 18 kilometrliyində yerləşir. «Turşsu»yun xüsusi ürəkaçan mənzərəsi vardır. Həmçinin yel xəstəliklərinin dərmanı olan «Dəmirsu» da burada yerləşir. Şuşada belə sular çoxdur. Məsələn, Şırlan kəndi yaxınlığında «Köhnə şir» dağının ətəyində «Xəlfəli» çayı ilə «Sarı Baba» bulağının görüşdükləri yerdə mədə və bağırsaq xəstəliklərinin dərmanı olan daha bir turş su çıxır. Həmin suyun başqa sulardan fərqi ondadır ki, Şırlan suyu digər tərkibli suya qarışdıqda rəngi dərhal dəyişir. Şuşanın kaliumlu və karbonatlı bulaqları 12 saat ərzində 500 min litr su verir [84].

Şuşanın hər yeri — «İsa bulağı»da, «Turşsu»yu da, «Fındıqlı gölü»də, «Cıdır düzü»də, «Qırx pilləkən»i də şəhərə gözəllik verir, onun qiymətini birə min artırır. Şuşanın «Sarı Baba» adlanan ərazisində azbest yataqları vardır ki, bu yataqlardan təkcə Azərbaycanda deyil, bütün İttifaq miqyasında istifadə edilirdi.

Beləliklə, Şuşa zəngin və tayı-bərabəri olmayan kurort-turizm ehtiyatlarına malikdir. Onların əsasını isə ərazinin səfalı, təmiz dağ havası, meşələri, müalicəvi əhəmiyyətli mineral suları, bulaqları, mənzərələri, alp çəmənlikləri, tarixi abidələri, yerli əhalinin qonaqpərvərliyi və sair təşkil edir. Çox təəssüf ki, bunlar tamamilə dağıdılıb, erməni faşistləri tərəfindən məhv edilmiş, talanmış, azərbaycanlılar isə öz ata-baba məskənindən qovulmuşlar. Hər halda gec-tez torpaqlarımızdan erməni cəlladlarının qovulacaqlarına, həmvətənlərimizin öz doğma el-obasına qayıdacağına inanırıq.

Şuşanın iqtisadiyyatında kənd təsərrüfatı üstünlük təşkil edir. Şuşa çoxsahəli kənd təsərrüfatına malikdir. Əsas kənd təsərrüfatı sahələri heyvandarlıq, tütünçülük, bağçılıq, tərəvəzçilik, arıçılıqdır. Şuşada kənd təsərrüfatına yararlı torpaq sahəsi 20 min hektardır (1988-ci il məlumatı). Şuşada 25 kolxoz, 5 sovxoz fəaliyyət göstərir. Kənd təsərrüfatına yararlı torpaqlardan 3,8 min hektarı əkin sahələridir. Əkin sahələrindən yalnız 0,1 min hektarı suvarılır. 3,4 min hektar əkin sahəsinin 1,5 min

hektarında dənli və paxlalı bitkilər – xüsusilə, buğda, arpa, qarğıdalı əkilir. Ərazidə quraqlığa davamlı, bərk buğda sortları əkilir. «Arandəni», «Şirvandəni», «Şərq», «Sevinc» sortları buna misaldır. Əkin sahəsinin 0,1 min hektarında çoxillik bitkilər əkilir. Şuşanın çoxillik bitkiləri arasında Şah-tut ağacları görkəmli yer tutur. Çox qulluq tələb etməyən bu ağac Şuşada qədimdən becərilir. Şah-tut spirt istehsalında əsas xammaldır. Bundan başqa, ondan az miqdarda bəhməz hazırlanır, təzə halda yeyilir. Tut sahələri ildən-ilə genişləndirilirdi. Çünki tut ağacı həm də ipəkçiliyin əsas yem bazasıdır. Əkin sahələrinin 6 faizində tərəvəz-bostan bitkiləri və kartof əkilir. Kartof yerli əhalinin tam tələbatını ödəyir. Hətta həyətyanı təsərrüfatlarda da kartof əkilir. Şuşanın kənd təsərrüfatına yararlı torpaqlardan 0,3 min hektarı biçənəklər, 16,7 min hektarı otlaqlardır. Şuşanın iqtisadiyyatında heyvandarlıq əsas yer tutur. Ona görə də təsərrüfatın 53 faizində heyvandarlıq üçün əhəmiyyətli olan yem bitkiləri əkilir. 1987-ci il məlumatına görə Şuşanın təsərrüfatında 5,2 min qaramal, 15,2 min baş davar var idi. Burada, həmçinin quş da saxlanılır.

Şuşada kənd təsərrüfatı texnikası təmiri müəssisəsi, Şərq musiqi alətləri fabriki, Elektrik şəbəkəsi, Qarabağ ipək kombinatı, istehsalat kombinatı, çörəkbişirmə müəssisəsi, Bakı radioqayırma birliyinin 1 saylı filialı fəaliyyət göstərirdi. Çox təəssüflər olsun ki, yuxarıda adlarını sadaladığımız və adları çəkilməyən müəssisələrimiz xain qonşularımız tərəfindən ələ keçirilmişdir [60].

1932-ci ildən Şuşada «Şuşa» qəzeti çap edilməyə başlamışdır. Həmin qəzetin adı dəyişdirilərək 1938-ci ildən «Sosialist maldarlığı», 1963-cü ildən «Kolxoz bayrağı», 1966-cı ildən «Şuşa kurortu» adlandırılmışdır. 1965-ci ildən isə Şuşada yerli radio verilişləri redaksiyası fəaliyyətə başlamışdı [51].

1987-ci il məlumatına görə, Şuşanın 22 ümumtəhsil məktəbində (bunlardan 1-i ibtidai, 4-ü səkkizillik, 17-si orta məktəb idi) 4075 şagird; 7 məktəbəqədər müəssisəsində 565 uşaq, 1 orta texniki peşə məktəbində 324; 2 musiqi məktəbində 451 şagird, Mədəni maarif məktəbində 643, Kənd Təsərrüfatı

Texnikumunda 530 tələbə təhsil alırdı. Bunlardan başqa, Şuşada 6 mədəniyyət evi, 12 klub, 20 kitabxana, 20 kinoqurğu da fəaliyyət göstərirdi. Bütün bunlarla yanaşı, iqlimi kurort olduğundan, ərazidə 135 çarpayılıq 2 xəstəxana müəssisəsi, 11 feldşer-mama məntəqəsi, sanitar-epidemioloji stansiya, sanatoriya, istirahət evləri, pioner düşərgələri, turbaza var idi [89].

Təəssüf doğuran bir həqiqəti qeyd etməliyik ki, «Alınmaz qala» adlandırılan Şuşamız xəyanətin, biganəliyin qurbanı oldu. Hər şey dağıdıldı, yandırıldı. Şuşanın günahsız insanları isə öz doğma vətənində qaçqına, köçkünə, didərginə çevrildi

## II FƏSİL

## ŞUŞANIN QƏDİM TARİXİ

Şuşanın yaranma tarixi və etimologiyası barədə müxtəlif mülahizələr var. Elmi ədəbiyyatda Şuşanın ərazisinin 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, son tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu sübut edir. Pənahəli xan isə çox mühüm hərbi strateji mövqedə yerləşən həmin yaşayış məntəqəsinin ətrafına müdafiə divarı çəkdirmiş və oranı abadlaşdırmışdır.

«Qala» adı ilə tanınmış Şuşa özü boyda canlı tariximizdir. Buradakı abidələr isə tariximizin yadigarı və səhifələridir. Şuşa abidələri xalqımızın keçdiyi şanlı və böyük həyat yolundan xəbər verir. Bu abidələrin öyrənilməsi keçmişimizə, torpaqlarımıza olan məhəbbətimizi daha da dərinləşdirir. Hələ vaxtilə Əhməd bəy Cavanşir «Qarabağ xanlığının siyasi vəziyyətinə dair» əsərində yazırdı ki, Şuşanın cənub-şərqində dərin dərənin üstündə gözəl bir bürc var idi. Bu bürc Şuşanın o biri tərəfində olan qaya üzərində ətrafında bir cığır belə olmayan yuva kimi görünür. Lakin qayanın eninə dağıdılmış olan hissəsi vaxtilə bu qalaya yol olduğunu və həm də burada yaşayışın mövcudluğunu sübut edir. «Xəzinə qayası» adlanan həmin bürc XIX əsrin ikinci yarısında macəra və dəfinə axtaranlardan Kərbəlayi Məhəmməd adlı birisi dağıtmışdır. Kərbəlayi Məhəmməd isə yerli ağsaqqallara bildirmişdir ki, həmin bürcdə yastı və uzun mis pullar, daş və mis alətlər, insan sümükləri və sair tapmışdır. «Xəzinə qayası»nın aşağısında, ona bitişik, keçmiş tariximizin daha bir yadigarı aşkar edilmişdir ki, həmin qəsrdə qədimdən burada yaşayışın mövcud olduğundan «xəbər verən» dəlillər aşkar edilmişdir. Bu qəsr ən qorxulu düşmənlərdən müdafiə məqsədilə sığınacaq yeri idi. Hətta uzun müddət müqavimət göstərmək məqsədilə qəsrdə bulaq da var idi. Həmin qəsrin ön hissəsində isə «Şahnəzər kahası» adlanan bir kaha da vardır ki, bu kahanın ətrafı hasara alınmışdır. Deyilənlərə görə həmin kahanın ucu dərinliklərə gedir və yeraltı yol vasitəsilə başqa bir kaha ilə birləşir. Belə

məlum olur ki, Şuşa mühasirə olunarkən həmin kahadakı yol vasitəsilə ətraf kəndlərdən ərzaq gətirmək mümkün olurmuş. «Şahnəzər kahası» və oradakı yol xalqımızın lap qədim zamandan bacarıqlı, bilikli bir xalq olduğunu sübut edir. Şuşadakı abidələrimizin çoxu isə müxtəlif dövrlərdə torpaqlarımıza basqın etmiş yağılar tərəfindən dağıdılmış və xarabalıqlara çevrilmişdir.

Şuşanın iqlim şəraiti əlverişli olduğu üçün burada ibtidai insanların məskunlaşmasına səbəb olmuşdur. Burada yaşayan ibtidai insan ən çox mağaralarda, bəzi hallarda isə açıq havada məskən salıb yaşamışdılar. Şuşadakı hər şey - alət və silah düzəltmək üçün keyfiyyətli daş materiallarının bolluğu, daldalanmaq üçün dərin dərələr, təbii mağaralar, yaxşı iqlim şəraiti, zəngin yem və su ehtiyatı, qalın meşəliklər və sair ibtidai insanların diqqətini cəlb etmiş və onların burada yaşamasına səbəb olmuşdur.

Uzaq keçmişimizdən xəbər verən Şuşanın hər bir daşı qiymətli bir kitabdır. Şuşadan baxanda vüqarlı görünən «Dotələb təpəsi» öz görünüşünü bu gün də qoruyub saxlamışdır. Bu təpə zəmanəmizə qədər qəhrəmanlıqla dolu bir «dastan» gətirib çıxarmışdır. Ağsaqqalların dediklərinə görə lap qədimdən Şuşa torpağına qədəm qoyan hər bir pəhləvan «Dotələb təpəsi»nə qalxar və buradan nərə çəkərək özünə qənim istərmiş. Həmin meydan pəhləvanların yarış meydanına çevrilmişdir. O dövrdən belə bir qanun qoyulmuşdu ki, qalib gələn pəhləvana qiymətli bəxşişlər verib şəhərə buraxarmışlar, məğlub olanları isə yarış meydanından geri qaytararmışlar. Bu dastan ulu babalarımızın igidliyindən, mərdliyindən, qorxmazlığından xəbər verir.

Tariximizin mürəkkəb və keşməkeşli inkişaf dövründə Şuşa xalqı özünəməxsus yüksək maddi və mənəvi mədəniyyət yaradaraq, Azərbaycan mədəniyyət xəzinəsinə qiymətli töhfə vermişdir. Zəngin tarixi hadisələrlə dolu olan «Cıdır düzü» xalqımızın istirahət mərkəzi olmaqla yanaşı, həm də ziyarətgahımız hesab edilir. Çünki xalqımızın sevimli şairi Molla Pənah Vaqifin, görkəmli alimimiz Mir Mövsün Nəvvabın ruhları burada uyuyur.

Eyni zamanda «Cıdır düzü» ətrafında tariximizin qədim yadigarları - «Ağzı yastı kaha, «Xəzinə qayası», «Üç mıx» yerləşmişdir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağda və onun ən möhtəşəm abidələrindən olan Şuşada aparılan arxeoloji tədqiqat işləri nəticəsində ərazidə qədim insanın meydana gəlməsi və formalaşmasını sübut edən zəngin elmi məlumatlar və maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. 1950-ci ilədək Azərbaycan ərazisində qədim insan düşərgələrinin olması faktları yox idi. Lakin XX əsrin ikinci yarısında Azərbaycan ərazisində aparılan arxeoloji tədqiqat işləri Respublikamızın ərazisinin qədim insanın yaranma və formalaşması ərazilərindən biri olması elmi faktlarla sübuta yetirilmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, Şuşadakı təbii mağaralar, iqlim şəraiti, meşəliklər və heyvanlar aləmi ərazidə qədimdən yaşayışın mövcudluğunu şərtləndirən amillər idi.

Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının əməkdaşları, hörmətli alimimiz M.M.Hüseynovun rəhbərliyi altında 1971-ci ildən başlayaraq Şuşa ərazisindəki mağaralarda elmi tədqiqat işlərinə başladılar. Mağaralarda iş aparmaq həm çətin, həm də təhlükəli idi. Çünki ulu babalarımızın yaşayış məskəni olmuş mağaralarımız yüz illər boyu insan ayağı dəyməyən daşlı-kəsəkli bir səhraya çevrilmişdi. Uzun müddət Şuşa mağarasının sirri insanlardan gizli qalmışdır. Bəziləri mağaranın ucsuz-bucaqsız olması, digərləri isə buranın müqəddəs yer olduğunu söyləyirdilər. Mil-Qarabağ ekspedisiyası 1971-ci ilin iyulunda Cıdır düzündəki Zarışlı (Daşaltı) çayının dərəsindən işə başlamışdılar. Həmin mağara («Şuşa mağarası») dəniz səviyyəsindən 1400 metr yüksəklikdə yerləşirdi. «Şuşa mağarası»nın girəcəyində çoxlu daş yığılmışdı. Bu da onu deməyə imkan verir ki, qədim insanlar qonşu tayfaların hücumlarından müdafiə olunmaq üçün mağaraya girir və həmin daşlarla özlərini müdafiə edirmişlər. Maraq doğuran cəhətlərdən biri də ondan ibarətdir ki, mağaranın kənarında içməli su da olmuşdur. Şuşa mağarasının uzunluğu 120 metr, eni 20 metr idi. Mağaranın başlanğıcında qədim və orta əsrlərə aid qalın daş istehkamlar, qala və bina divarlarının qalıqları var idi.

Şuşada aparılan arxeoloji qazıntı tədqiqat işləri nəticəsində mağaranın içərisində 2 metr dərinlikdən Paleolit (qədim daş) dövrünə aid 2 ədəd kobud çapacaq aşkar edilmişdir. Həmin alətlərdən biri Şuşa muzeyinə verilmiş, ikincisi isə Azərbaycan Milli Elmlər Akademiyasının «Daş əsri» şöbəsində saxlanılır. Bundan əlavə, Şuşa mağarasındakı qazıntı işləri nəticəsində burada bizim eradan əvvəl 5-4-cü minilliklərə aid torpaq və gil qarışığından hazırlanmış qab məmulatları, enolit, tunc və dəmir dövrlərinə aid saxsı məmulat qırıqları, mezolitə aid mikrolit bıçaqlar aşkar edilmişdir. Mağarada tapılmış əmək alətlərinin, zəngin tarixə malik olduğu sübut edilmişdir. Şuşa mağarasında tapılmış maddi mədəniyyət qalıqları Azıx mağarasının və Quruçay dərəsində yaranan daha qədim mədəniyyətin davamı idi. Burada tapılmış alətlərlə Azıx mağarasındakı kobud daş alətlər arasında bir uyğunluq, oxşarlıq vardır. 240 kvadrat metrlik Şuşa mağarasında müasir insanların əcdadları uzun illər boyu ömür sürmüşlər. Paleolitin erkən və orta dövrlərində Azərbaycan ərazisində insanlar kollektiv əməyə əsaslanmış və kiçik qruplar şəklində yaşamışlar. Onların əsas məşğuliyyəti yığıcılıq və ovçuluq olmuşdur. Şuşa mağarasında yuxarı paleolitə aid çaxmaq daşından bıçaqvari lövhələr və habelə kəsicilər tapılmışdır.

Dağlıq Qarabağ ərazisində mis yataqları olduğu üçün ulu əcdadlarımızın hazırladığı alətlərin çoxu misdən idi. Burada metal məmulatlar - bıçaqlar, bizlər, iynələr, ox ucluqları tapılmışdır. Bu alətlər döymə üsulu ilə hazırlanmışdır. Şuşa mağarasında azacıq cilalanmış, naxışlarla bəzədilmiş kobud və saxsı qablara da təsadüf edilirdi. Qabların rəngli boyalarla naxışlanması Azərbaycanda eneolit dövrünün başlandığını sübut edirdi. Eyni zamanda qablara naxışvurma Azərbaycanın Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrinin olmasını da göstərirdi. Şuşada tapılmış mikrolit alətlərdən bıçaqlara, bizlərə Qobustanda da rast gəlmək mümkün idi. Həmin alətlər daş dövrünün firuz mərhələsinə aiddir.

Şuşa mağarasında eramızdan əvvəl III-II minilliklərə aid əşyalar tapılmışdır ki, bu əşyalar misə qalay, arsen qatmaqla yaranmışdır. Qədim və Orta tunc dövrünə aid olan əmək alətləri,

silah və bəzək əşyaları eynilə I Kültəpədə, Babadərvişdəki əşyalara oxşayırdı. Şuşa mağarasındakı əşyalar üzərində gözəl əl işləri var idi ki, həmin şəkilləri «addımlayan möhürlər» və ya «oyulmuş qıfıl yerləri» adlandırırdılar. Bütün bunlar isə qədim Şuşa sakinlərində şüurun inkişafını, incəsənətin və mədəniyyətin tərəqqisini göstərən amillər idi. Ağdamın Üzərliktəpə adlanan ərazisindəki əşyalar üzərindəki şəkillərə Şuşa mağarasındakı əşyalar arasında tamamilə bir uyğunluq vardır. Eyni zamanda Şuşa mağarasındakı əşyaları bütün Quruçay və Köndələnçay arasındakı ərazilərdə də rast gəlinmişdir. Ərazidə eramızdan əvvəl minilliyə aid əşyalar tapılmışdır ki, bu əşyalar dəmir dövrünə aid idi.

Beləliklə, aparılan tədqiqatlar nəticəsində məlum olur ki, gözəl Qarabağımızın cənnət yaylağı, Oğuz-Türk diyarımız olan barlı-bərəkətli, min bir nemətli Şuşamız dünyada ilk insanların yaşadığı ərazilərdən biri olmuşdur. Dağlıq Qarabağımızın hər bir qarış torpağında, daşında ulu babalarımızın nəfəsi duyulur. Məsələn, Xocalı arxeoloji abidələri (e.ə. 13-7-ci əsrlərə aid), Tağlar mağarasındakı əmək alətlərinin zəngin tarixi (100 min il bundan əvvələ aid), Xankəndindəki kurganlar (e.ə. 5-3-cü minilliklərə aid), Hadrutdakı memarlıq abidələri və başqa maddi mədəniyyət nümunələri nəinki Dağlıq Qarabağda ibtidai insanların yaranmasını göstərir, hətta bu ərazidə yaşayan ən qədim insanların uzun müddət məskən salaraq formalaşmasını, xalqımızın lap qədimdən mədəni, bilikli, bacarıqlı bir xalq olduğunu sübut edir.

Azərbaycanın İrəvan xanlığında özlərinə dövlət yaradan ermənilər bu gün tariximizi saxtalaşdırmağa çalışırlar. Hətta onlar tarixi abidələrimizi özününküləşdirmək üçün bütün yollardan (cinayət işlətməkdən belə) istifadə edirlər. Belə müəlliflərdən biri Ş.Mkrtıçıyandır. Onun 1986-cı ildə İrəvanda çap edilmiş «Dağlıq Qarabağın tarixi memarlıq abidələri» adlı əsəri heç bir elmi əsası olmayan, boş bir cəfəngiyatdır. Ermənilərin «alimi» hesab edilən Ş.Mkrtıçıyan Qarabağdakı bütün abidələrin ermənilərə aid olmasını öz kitabında geniş şərh etmişdir. Ş.Mkrtıçıyan erməni xalqının tarixinin başlanğıcını aşel dövrünə aid edir (350-550 min il bundan əvvələ). Əvvəla, Ş.Mkrtıçıyan

bir həqiqəti bilməlidir ki, 550 min il bundan əvvəl, aşel dövründə müasir insanın heç bir yerdə əcdadı yaşamayıb. Eyni zamanda həmin dövrdə ptikantrop, sinantrop tipli ibtidai insanlar yaşamışdır. Bütün bunlarla yanaşı, «hörmətli uzaqgörən alim» bir həqiqəti də yaddan çıxarır ki, 350-550 min il bundan əvvəl yer kürəsində heç bir millət və xalq olmayıb.

Erməni yazıçısı Sero Xanzadyan isə Ş.Mkrtıçıyanın kitabına geniş həcmli məqalələr həsr etmişdir. Ş.Mkrtıçyanı erməni xalqının «tacı» hesab edən S.Xanzadyan 1986-cı il «Avanqard» jurnalının 5-ci sayında və 1989-cu il (aprel) «Kommunist» qəzetində, həqiqətən Şuşa, Xocalı, Xankəndi, Azıx və başqa tarixi abidələrimizdəki maddi dəlillərin ermənilərə aid olması fikrini təsdiqləyir. Eyni zamanda S.Xanzadyan erməni «aliminə» məsləhət görür ki, onun tutduğu yol yaxşı yoldur, təkcə Qarabağ ərazisi yox, həm də Qazax-Şamxor, Şəki-Zaqatala əraziləri də Ermənistana aid olmuşdur və bu sahədə tədqiqat işini genişləndirmək lazımdır. Erməni «alimi» V.Ulubabayan isə «Kommunist» qəzeti 18 avqust 1988-ci il sayında Dağlıq Qarabağı Ermənistanın Şərq hissəsi olmasını yalançı faktlarla açıqlamağa çalışır. Müəllif Şuşa qalasını «Şoş qalası» adlandırır və həmin qalanın Pənah Əli xana erməni Məlik Şahnəzər tərəfindən bağışlanılması fikri açıqlanmışdır. Elmə, fakta əsaslanmayan tarix, əsası, bünövrəsi olmayan binaya bənzər. Budəfəki erməni yalanı da «ayaq tutsa da, yerimədi». Görünür Ulubabayanlar, Xanzadyanlar, Mkrtıçyanların «Qarabağnamələr»dən xəbərləri yoxdur. Dünyanın 70-dən çox ölkəsində öz naxələf, haqsız işlərinə haqq qazandırmaq üçün təbliğat aparan erməni müəllifləri vaxt gələcək ki, yalançı, saxta, cəfəng uydurmalarına görə xalqımız və dünya ictimaiyyəti qarşısında cavab verəcəklər. Qərəzsiz elmi araşdırmalara əsaslanaraq, qəti surətdə deyə bilərik ki, İrəvan xanlığı da daxil olmaqla, tarixin heç bir mərhələsində Azərbaycan ərazisində heç vaxt ermənilər ayrıca bir dövlət təşkil etməmiş, nə də ermənilərin «Arsax» adlandırdıqları ərazidə (Dağlıq Qarabağda) ermənilər say çoxluğuna qətiyyən malik olmamışlar. Azərbaycanın ərazi bütövlüyü həmişə qorunub saxlanılmışdır. Xalqımızın birliyi əsasında biz yenə də ərazi bütövlüyümüzü bərpa edəcəyik.

## III FƏSİL

## QARABAĞ XANLIĞININ MƏRKƏZİ - ŞUŞA

XVIII əsrin ortalarından Şuşanın ictimai, siyasi və mədəni həyatında böyük dəyişikliklər olduğundan həmin dövrdə şəhərin ictimai həyatında baş vermiş mühüm hadisələri şərh edəcəyik. Dövrün ən başlıca hadisəsi Şuşanın Qarabağ xanlığının mərkəzinə çevrilməsidir.

XVIII əsrin 40-cı illərində Nadir şah Zaqafqaziyanı ələ keçirib orada hakimiyyətini möhkəmləndirdi. Şərqin qədim adətinə görə şaha tabe olan hər bir nüfuzlu ailə şaha xidmət üçün silah daşımağa qadir olan bir nəfəri verməli idi. Həmin qaydaya uyğun olaraq, Qarabağın köçəri tayfalarından Sarcalılı Pənahəli bəy Cavanşir adlı şəxs Nadirin yanında xidmət edirdi. Şah ordusunda xidmət edən Pənahəli bəy bir çox qəhrəmanlıqlar göstərmişdir. Eyni zamanda Pənahəli bəyin hərbi istedadını və şəxsi igidliklərini görən Nadir şah, onu ordulardan birinə sərkərdə təyin edir. Bu vaxt Pənahəli bəyin paxıllığını çəkən saray əyanları Nadir şaha xəbər verirlər ki, guya Pənahəli bəy onu öldürüb İran taxtına yiyələnmək istəyir. Pənahəli bəy çox uzaqgörən şəxs idi. O başa düşürdü ki, bu yalan xəbərə görə Nadir xan onu bağışlamayacaq. Çünki Nadir xan Pənahəli bəyin qardaşı Behbudəli bəyi elə buna bənzər şayiəyə görə öldürmüşdü. Ona görə də Pənahəli bəy onun yanında xidmət edən 6 nəfər qohumları ilə birlikdə Nadir xanın düşərgəsindən qaçır. Onu axtarsalar da tapa bilmirlər. Yalnız 2 ay keçdikdən sonra onun Qarabağda olması xəbərini eşitsələr də, 200 nəfərlik qoçaq atlı dəstəsi düzəldən Pənahəli bəyi məğlub edə bilmədilər. Nadirin hücumları Pənahəli bəyin dəstəsinin möhkəmlənməsinə səbəb oldu. 1747-ci ildə Nadir xanın öz qohumları tərəfindən öldürülməsi xəbəri hər tərəfə yayıldı. 1748-ci ildə Pənahəli bəy öz yaxın adamları ilə birlikdə Qarabağa gedərək, Qarabağ xanlığının əsasını qoydu və özünü xan elan etdi (1748-1763). Xanlığın əhalisini Cavanşir, İyirmi dörd, Otuz iki, Kəbirli, Baharlı, Ziyadoğlular tayfaları ilə təşkil edirdilər. Xanlıq Arazla Kür

arasındakı ərazidə yerləşirdi. Xanlığa həmsərhəd olan ərazilər isə Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qarabağ, Cavad, Şamaxı idi.

Qarabağ xanlığını İran və qonşu xanlıqların hücumlarından qorumaq üçün Pənahəli xan 1748-ci ildə Kəbirli mahalında Bayat qalasını tikdirir. Qısa bir müddətdə Bayat qalası ətrafına möhkəm hasar çəkdirir, xəndəklər qazdırır, bazar, məscid və hamam tikdirir. Xan öz yaxın qohumlarını, əyanları qalaya köçürür. Bütün bunlarla yanaşı, Ərdəbil və Təbrızdən bir çox sənətkarlar öz ailələri ilə Bayat qalasına gəlmişdi. Həmçinin ətraf kəndlərdən də buraya köçən sənətkarlar da var idi. Qarabağ xanlığının qüdrətinin artması qonşu xanlıqları və melikləri narahat etməyə başladı. Erməni melikləri Hacı Çələbiyə yazmışdılar ki, əgər Pənahəli xanın nüfuzu bu cür artmaqda davam edərsə, gələcəkdə onun qarşısında durmaq mümkün olmayacaqdır.

Qarabağ hakiminin möhkəmlənməsini istəməyən Hacı Çələbi, Şamaxı xanlığının və yerli erməni məliklərinin birləşmiş qüvvələri ilə Bayat qalasına hücum etdi. Bir aydan artıq müddətdə Bayat qalası mühasirədə saxlanılsa da, ələ keçirilə bilmədi. Məğlub olan Hacı Çələbi yazırdı ki, bu vaxta qədər Pənah xan sikkə vurulmayan adi gümüşə bənzəyirdi. Biz isə ona (gümüşə) sikkə vurduq və geri qayıtdıq.

Qonşu xanlıqların və yerli erməni məliklərin hücumlarını nəzərə alan Pənahəli xan yeni qala tikmək fikrinə düşdü. Bu isə Bayat qalasından strateji cəhətdən möhkəm olan «Şahbulağı» adı ilə tanınan Tərnəgül qalası idi (Ağdam yaxınlığında). 1751-ci ilin əvvəllərində Pənahəli xan Qarabağ xanlığının mərkəzini Şahbulağa köçürür. Lakin bu vaxt erməni məliklərinin birləşmiş qüvvələri xanlığa qarşı müharibəyə başlayır. Pənahəli xan onlar üzərində qələbə çalsa da, gələcəkdə İran tərəfindən hücum olacağını nəzərə alaraq, xanlığın mərkəzini daha etibarlı yerə köçürməyi qərara alır. Ona görə də Pənahəli xan öz yaxın adamlarının iştirakı ilə müşavirə keçirir. O bildirir ki, biz tezliklə İran tərəfdən hücuma məruz qalacayıq. Ona görə də İran qoşunlarının hücumu vaxtı Şahbulaq bizim üçün etibarlı bir dayaq ola bilməz. Biz yeni bir mərkəz - alınmaz qala - haqqında fikirləşməliyik.

Xanın bir neçə uzaqgörən adamları Qarabağın dağlıq hissəsini gəzib Şuşada dayanırlar. O zaman bura tamam meşəlik idi. Gələn adamlar bu yeri bəyənərək qayıdıb xana xəbər verirlər. Pənahəli xan təcili olaraq Şuşaya gəlir və buranı gəzərək üç tərəfdən möhkəm sıldırım qayalarla əhatə olunduğunu görür. Bu sıldırım qayalar xanlığın müdafiəsi üçün çox əlverişli səngər olacaqdı. Ərazinin iqlimi də çox əlverişli idi. Lakin ərazinin şimal şərq tərəfi 3-4 kilometr məsafədə açıqlıq olduğundan həmin hissənin hasara alınmasına ehtiyac vardı. Qalanın tikilməsi üçün yüksək dağların arasındakı Daşaltı və Xəlfəli çaylarının yaratdığı dərin uçurumu olan yer seçildi. Şuşa, elə özü təbiətin yaratdığı təbii qala idi. Düşmən üçün əlçatmaz olan bu qala böyük strateji əhəmiyyətə malik olmaqla yanaşı, həm də əraziyə yaxınlaşan bütün nəqliyyat yollarını nəzarət altında saxlamağa imkan verirdi. Beləliklə, 1750-ci ildə Qarabağın, gözəl Qarabağımızın ən səfalı bir guşəsində, uca dağlar qoynunda yeni bir qalanın bünövrəsi qoyuldu. Pənahəli xan Şuşa qalasının tikilməsi üçün Təbriz, Ərdəbil və başqa şəhərlərdən buraya məşhur sənətkarlar gətirdi. Qısa bir müddətdə dağlar qoynunda əzəmətli bir qala yüksəldi ki, əvvəlcə bu qalanı Pənahabad, sonra Qala, daha sonralar Şuşa qalası və ən nəhayət özünün əvvəlki adı ilə Şuşa adlandırıldı. Qalada yeni binalar, saray və məscid tikildi. Hündür bürclərlə əhatə edildi. Şuşa qalasına 2 böyük və möhkəm qapı qoyulmuşdu. «İrəvan» və «Gəncə» adlanan bu qapılar axşamlar bağlanır, səhərlər açılırdı və həmişə nəzarətdə saxlanılardı. Pənahəli xan Qarabağın Seyidli, Köçərli, Saatlı, Merdinli, Qurdlar və başqa kəndlərin əhalisinin bir hissəsini Şuşa qalasına gətirdi. Eyni zamanda Gürcüstandan və qonşu xanlıqlardan Pusan, Qaracarlı, Cinli, Dəmirçi, Həsənli, Qızıl Hacılı, Səfi - Kürd, Boy-Əhmədli, Kəngərli və başqa tayfalar da köçüb Pənahəli xanın yanına, Qalaya gəldilər. Yeni iqamətgah olan Şuşa tezliklə Qarabağ xanlığının həm siyasi, həm də iqtisadi və mədəni mərkəzinə çevirərək, Şimali Azərbaycanın iri ticarət və sənətkarlıq mərkəzlərindən biri oldu. Əlverişli mövqeyi olan, vacib iqtisadi karvan ticarəti yollarını strateji nəzarətdə saxlayan Şuşada tezliklə yaşayış və sənətkarlıq məhəllələri salındı.

Pənahəli xan Şuşada «Pənahabad» adlanan 15 qəpiklik gümüş pul da kəsdirdi.

Şuşa qalasının əsası qoyulduqdan 1 il sonra İranlı Məhəmmədhəsən xan Qacar zəngin diyar olan Qarabağ üzərinə hücum etdi. Şuşanın 30 verstliyində, Xatın arxı adlanan yerdə baş verən döyüşdə iranlılar məğlub oldular. Bu döyüşdə Pənahəli xan qənimət kimi İran tərəfdən 2 top ələ keçirdi. Hansı ki, həmin toplar gələcək bir çox döyüşlərdə Şuşalılara müdafiə üçün kömək edəcəkdi.

Pənahəli xanın dövründə Şuşa şəhəri xeyli möhkəmlənmiş və böyümüşdü. Şuşanı Gəncə yolu tərəfindən irəliyə çıxmış Zəhimli Qala bacası və qülləsi olan hündür Daş divarları mühafizə edir. Şəhərin içərisində ictimai, ticarət və təsərrüfat tikililəri daha çox diqqəti cəlb edirdi ki, bunların içərisində Pənahəli xanın öz yaxın adamları ilə birlikdə yaşadığı möhkəm və dördbucaqlı tikilmiş qəsri xüsusi qeyd etmək lazımdır. Şuşanın qüdrətini artıran başqa amillərlə yanaşı, onun təbii alınmaz qala olmasıdır. Şimal, Şərq və Qərbdən dərin uçurum dərələrlə əhatə olunmuş və həmin hissələrdə müdafiə divarları tikmək lazım olmamışdı. Sonralar şəhərin girəcəyində müdafiə divarları və qüllələrlə əhatə olunmuş hündür qala tikildi ki, həmin qalaya Pənahəli xanın ailəsi köçüb yaşayırdı.

Pənahəli xanın qəsri ətrafında cərgə ilə məscid, bazar, sənətkar emalatxanaları yerləşirdi. Şuşaya gələn sənətkarlar şəhərin şərqində özlərinə məhəllələr yaratdılar. Məsələn, dulusçular, papaqçılar və ya Saatlı, Seyidli və sair. Şuşa şəhərinin abadlaşması və inkişafını tədqiqatçı alimlərimiz 3 mərhələyə bölürlər: Birinci mərhələni Pənahəli xan tərəfindən qalanın əsasının qoyulması, möhkəm müdafiə divarlarının, qəsrlərin, Aşağı məhəllənin salınması dövrüdür (1751-1759). İkinci mərhələ isə Pənahəli xanın oğlu İbrahimxəlil xan tərəfindən Şuşanın şərq hissəsində «Yuxarı məhəllə» adlanan 8 məhəllənin, ümumilikdə isə 17 məhəllənin yaradılması dövrüdür (1759-1805-ci illər). Üçüncü mərhələ isə 1805-ci ildən sonrakı dövrü əhatə edir ki, bu vaxt Şuşanın qərbində 12 yeni məhəllə meydana gəlmişdi. Şuşanın hər bir məhəlləsi digərlərindən daş divarları ilə

fərqlənirdi. Şuşa qalasının möhkəmləndirilməsi üçün əlavə tədbirlər də görülmüşdü. Belə ki, 1758-1760-cı illərdə qalanın müdafiəsini gücləndirən «Əskəran» və «Ağoğlan» qalaları tikildi.

Bəhs etdiyimiz dövrdə Şuşada ticarət xüsusilə inkişaf etməyə başladı. Şuşa tacirləri Təbrizə, Tehrana, İstanbula, İsfahana, Moskvaya gedir və Şuşa sənətkarlarının istehsal etdiyi malları və ipək məhsullarını aparıb satırdılar.

Qarabağ xanlığının əsasını qoyan, Şuşa şəhərinin iqtisadi və mədəni inkişafında böyük xidmətləri olan Pənahəli xanın sonrakı taleyi necə oldu?

1756-cı ildə İranda hakimiyyət uğrunda mübarizə aparan Urmiya xanı Fətəli xan Əfşar bir sıra cənub xanlıqlarını özünə tabe edib Şuşanı mühasirəyə aldı. Şəhər 6 ay mühasirədə qalsa da, qəhrəmanlıqla müqavimət göstərdi. Bu vaxt Gülüstan məliyi Yusub, Crabert məliyi Hətəm, Fətəli xanın dəstəsində Pənahəli xana qarşı döyüşürdü. Qələbə çalmağın çətin olduğunu görən Fətəli xan Əfşar hiyləyə əl atdı. O, öz qızını Pənahəli xanın oğlu İbrahim Xəlil ağaya verməyi bəhanə edib, onu düşərgəsinə dəvət etdi. İbrahim Xəlil ağanı girov götürüb, Qarabağ xanlığını öz vassalına saldı, lakin belə bir şəraitdə İranda Kərim xan Zənd hakimiyyət uğrunda mübarizəyə başladı və Pənahəli xanı öz tərəfinə çəkdi. Çünki Pənahəli xanın böyük oğlu İbrahim Xəlil ağa, Fətəli xanın girovu, Qarabağ xanlığı isə vassalı idi. 1759-cu ildə Fətəli xan məğlub oldu və Kərim xan Zənd İbrahim Xəlil ağanı Qarabağ xanı elan edib əsirlikdən azad etdi. Kərim xan Qarabağ xanlığının gələcəkdə qüvvətlənəcəyindən ehtiyat edərək Pənahəli xanı qonaqlıq adı ilə Şiraza apardı və İranda öz sarayında müsafir sifəti adı altında «fəxri» girov kimi saxladı. Bir neçə il İranda girov kimi saxlanılan Pənahəli xan 1763-cü ildə Şirazda müəmmalı şəkildə vəfat etdi. Onun cənazəsi vəsiyyətinə əsasən Ağdama gətirilmiş və İmarət kəndində dəfn edilmişdir. 1763-1806-cı illərdə isə Qarabağda hakimiyyət Pənahəli xanın böyük oğlu İbrahimxəlil ağanın idarəçiliyində olmuşdu. İbrahimxəlil xanın hakimiyyəti dövründə Qarabağ xanlığı daha da güclənmiş və nüfuzu artmışdır.

Qarabağ xanlığının qüvvətlənməsində və inkişafında müdrik və təcrübəli vəzir, məşhur və tanınmış şair Molla Pənah Vaqifin xidmətləri böyük olmuşdur. Molla Pənah Vaqif saray əyanları içərisində birinci şəxs idi. Yeri gəlmişkən, onu da qeyd edək ki, bəhs etdiyimiz dövrdə Qarabağ xanlığının idarəçiliyində 4 divan fəaliyyət göstərirdi. Dövlət Şurası, vergi, hərbi, idarə və məhkəmə orqanı. Bu orqanların hər birinin başında xanın təyin etdiyi adam dayanırdı ki, bunların içərisində M.P.Vaqifin nüfuzu daha böyük idi. M.P.Vaqif Qazax mahalında anadan olmuş, 1759-cu ildə ailəsi ilə Şuşaya köçmüş və ömrünün yarısından çoxunu burada yaşamışdır. Əvvəlcə Şuşanın Saatlı məhəlləsində müəllimlik edən M.P.Vaqif qısa bir müddətdə el arasında böyük nüfuz qazanmış və İbrahimxəlil xanın təklifi ilə saraya dəvət olunmuşdur. Əvvəlcə Qarabağ xanlığında xarici işlər üzrə vəzir, 1769-cu ildə isə xanlığın baş vəziri təyin edilir. Bundan sonra, xanlığın bütün daxili və xarici işlərinə rəhbərliyi əlinə alır. Uzaqgörən siyasətçi vəzirin fəal işi nəticəsində Qarabağ xanlığı Azərbaycanın başqa xanlıqları, həmçinin Gürcüstanla dostluq münasibətləri yaradır. Hətta Qarabağın xarici hücumlardan müdafiəsi üçün Rusiya ilə diplomatik əlaqələr yaratdı. Molla Pənah Vaqif dövrünün ən fəal, bacarıqlı, uzaqgörən dövlət xadimi, həm də gözəl, könül oxşayan şerlər yazan şairi idi. Şairin şerlərinin ən başlıca əhəmiyyəti onda idi ki, məhəbbət lirikası, dostluq və vətənpərvərlik motivləri, ana torpağa hədsiz məhəbbət hissləri burada öz əksini tapırdı. Şair həmçinin haqsızlıqlara etiraz edir, qəddarlıq, ikiüzlülük, yalançılıq kimi mənfi keyfiyyətləri pisləyirdi. Molla Pənah Vaqif nəinki Qarabağda və Azərbaycanda, hətta bütün Zaqafqaziyada böyük hörmətə layiq şəxsiyyət idi.

1779-cu ildə İranda Kərim xan Zəndin ölümü, Məhəmməd Qacarın hakimiyyətə gəlməsi ilə nəticələndi. Qacar Azərbaycanın cənub xanlıqlarını özünə tabe etdikdən sonra, ölkənin şimalını da ələ keçirməyi qərara aldı. İlk növbədə Qacarı maraqlandıran Qarabağ xanlığı idi. A.M.Qacar 1794-cü ildə qoşunlarını Qarabağa göndərdi. Lakin Əsgəran qalası yaxınlığında baş verən döyüşdə İran qoşunları məğlub oldu. Bu məğlubiyyət

A.M.Qacarın yadından çıxmadı. O, Qarabağı ələ keçirmək üçün 1795-ci ilin avqust ayında 85 minlik ordu ilə Xudafərin körpüsü ilə Arazı keçdi. Bu xəbəri eşidən İbrahimxəlil xan Şuşa qalasının müdafiəsinə başladı. Əvvəlcə öz yaxın qohumlarını müttəfiqlərinin yanına göndərdi. Qarabağ və Şirvanın mahallarından çoxlu süvari və piyada dəstələr toplandı. Eyni zamanda Rusiyadan kömək almaq üçün II Yekaterinanın yanına elçilər göndərildi. Qarabağı müdafiəyə hazırlaşanların əsas hərbi qüvvələri Şuşa qalasının içərisində və dağlarda yerləşdirildi. Vətəninin azadlığını hər şeydən üstün tutan, igid şuşalılar silaha sarılaraq öz doğma vətənlərinin müdafiəsinə qalxdılar. Qeyrətli Şuşa qadınları da bu döyüşdə silaha sarılmışdılar. Qısa bir müddət ərzində İbrahimxəlil xan mərd, cəsarətli, igid və vətənpərvər Şuşa əhalisindən 15 minlik xalq qoşunu yaratdı. Şuşanın müdafiəsində Vaqif və xanın qardaşı oğlu Məhəmməd bəy yaxından iştirak edirdilər. Qacar Şuşanın mühasirəsini davam etdirir, gec-tez onların tabe olacağına inanırdı. Lakin mərd Şuşa igidləri öz torpaqlarını cəsarətlə qoruyurdular. Onların yaşadıqları torpağa «Vətən» deməyə hüquqları var idi. Çünki onlar bu torpağın azadlığı üçün canlarını belə fəda etməyə hazır idilər. Qeyrətli döyüşçülərimiz partizan mübarizəsi üsulundan istifadə edirdilər. «Ələkeçməz» döyüşçülər yaxşı silahlanaraq kiçik dəstələrlə fəaliyyət göstərirdilər. Onlar dərələrdə, meşə yollarında, dağ cığırlarında, yüksəkliklərdə hərəkət edərək düşmənin ərzağını, hərbi sursatını ələ keçirir, onların atlarını, qatırlarını, dəvələrini əllərindən alıb aparır və tutarlı zərbələr vururdular. Xüsusi igidlik göstərən dəstə başçılarına misal olaraq Məhəmməd bəy Cavanşiri, Əsgəran qalasının naibi Həsən bəyi, Tuğ kəndindən olan Məlik Abbası və başqalarını göstərə bilərik.

Döyüşlərin gedişində Qacar Şuşanın cənub hissəsində «Topxana» adlanan yerdə çadır qurdurmuş və hərbi əməliyyatlara tamaşa edirdi. Həmin vaxt Qacar İbrahimxəlil xanı qorxuzmaq üçün ona bir məktub göndərir. Hansı ki, bu məktubdakı yazılar Şirazlı şair Seyid Məhəmməd Ürfiyə məxsus idi. Həmin məktubun məzmunu belə idi:

«Əgər məni qoruyan mənim bildiyimdirsə, o şüşəni daşın qoltuğunda mühafizə edər».

Şuşanın qəhrəman müdafiəsi haqqında o dövrdə baş vermiş və el arasında indi də danışılan rəvayət var idi. Qacar İbrahim xana məktub yazır ki, ona elə bir at versin ki, bu at nə ağ, nə qara, nə kəhər, nə səmənd, nə kürən (yəni heç bir rəngi olmayan) olsun. Qacarın həmin bağlamasına M.P.Vaqif cavabında yazır ki, at hazırdır, adam göndərin aparsın. Lakin həmin adam həftənin bütün günlərindən başqa ayrı bir gündə gəlməlidir. Beləliklə, nə Qacara vermək üçün rəngsiz at, nə də atı aparmaq üçün həftədən kənar gün tapılır. Qacar isə öz həmlələrini davam etdirirdi. Hətta qəddar düşmən vaxtilə işlədilmiş «yandırılmış torpaq» taktikasını tətbiq etməkdən belə çəkinmədi. Onlar kəndləri yandırır, mal-qaranı sürüb aparır, əhalini əsir edir, qadın və uşaqlara divan tuturdu. Məqsəd Şuşadakı əhalini və ordunu ac, susuz saxlamaq və onların müqavimətini qırıb tabe etmək idi. Fransız zabitlərinin başçılıq etdiyi Qacarın toplular dəstəsi 3 gün ara vermədən şəhəri top atəşinə tutdu. Piyada həmlələrdə heç bir nəticə vermədi. Əksinə bütün İran artilleriyası sıradan çıxdı. Qacarın piyada korpusu isə xeyli itki verdi. Belə çətin vəziyyətdə mübarizəni davam etdirməyin mənasız olduğunu, ərzaq və döyüş sursatının tükəndiyini, əgər bu cür davam edərsə, Şuşa qalasının divarları yanında biabırcasına məhv olacağından qorxan Qacar ordusunun tör-töküntüsü ilə Gürcüstan istiqamətində hərəkət etdi. Qacar Tiflis əhalisinə vəhşicəsinə divan tutdu. Çoxlu qənimət ələ keçirən Qacar qışı Muğanda keçirmək üçün 1795-ci ildə Azərbaycana qayıtdı. O, burada qışı keçirib, yazı yenidən Şuşaya hücum edəcəkdi. Lakin bu vaxt İranda üsyan baş verdiyindən, tələsik oraya qayıtdı və 1796-cı ildə özünü şah elan etdi.

Qarabağ xanı İbrahimxəlil xan və onun vəziri Molla Pənah Vaqif real bir həqiqəti başa düşdülər ki, Ağa Məhəmməd Şah Qacar Şuşaya yenidən hücum edəcəkdir. Eyni zamanda dinc əhalinin də vəziyyəti yaxşı deyildi. Çünki xeyli vaxt idi ki, ərazidə müharibə getdiyindən burada əsla taxıl əkilməmiş, mal-qara tələf edilmişdi. Aclıq, yoxsulluq, qıtlıq və vəba xəstəliyi onsuz da ağır olan əhalinin vəziyyətini daha da ağırlaşdırmışdı.

Ona görə də xanlıqda ağır iqtisadi böhran hökm sürürdü. Belə bir çətin şəraitdə İbrahimxəlil xan öz nümayəndələrini Molla Pənah Vaqiflə birlikdə Rusiya ekspedisiya korpusunun komandanı general V.Zubovun yanına göndərdi. Zubov İran işğallarına qarşı mübarizədə Qarabağ xanlığına kömək edəcəyinə söz verdi. Lakin Rus çarı II Yekaterinanın ölümü ilə vəziyyət dəyişdi. Rus qoşunları Azərbaycandan geri çağırıldı. Bu xəbəri eşidən Ağa Məhəmməd xan 1797-ci ilin yazında 100 minlik ordu ilə Şuşa şəhərinə hücum etdi. Yuxarıda qeyd etdiyimiz kimi, bu elə bir vaxtda baş verdi ki, orduda aclıq baş verdiyindən dağılmış, Şuşa qalası öz müdafiə qüdrətini itirmişdi. Qonşu xanlıqlardan da kömək almaq mümkün deyildi, çünki onların da iqtisadi vəziyyəti Şuşa əhalisinin vəziyyətindən geri qalmırdı. Vəziyyətin çətin olduğunu görən İbrahimxəlil xan öz ailəsi ilə birlikdə Şuşanı tərk edir.

Ağa Məhəmməd şah Qacar heç bir müqavimətə rast gəlmədən Şuşanı ələ keçirdi. Şəhərdə qarət və qırğın başladı. Lakin gecəynən Qacara qəsd edildi. 12 may 1797-ci ildə Qacar Səfərəli bəy tərəfindən öldürüldü. İran qoşunları Şuşanı tərk etdi. Bu vaxt Molla Pənah Vaqif zindandan azad edildi. O, İbrahimxəlil xana məktub yazıb Şuşaya gəlməsini bildirdi. Lakin yolda qasidin apardığı məktub şahlığa can atan bir qrup tərəfindən ələ keçirilir və M.P.Vaqif oğlu ilə birlikdə öldürülür. Evi qarət edilir və yazdığı əsərlərin çoxu yandırılır.

1805-ci il Kürəkçay müqaviləsi ilə Qarabağ xanlığı, Rusiya təbəəliyini qəbul etdi. 1813-cü il Gülüstan sülhü ilə Şuşa Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1822-ci ildə Qarabağ xanlığı ləğv edildi. Şuşa şəhəri isə yeni yaradılmış hərbi dairənin mərkəzi oldu. Bu vaxt şəhəri Rusiyanın təyin etdiyi komendant idarə edirdi.

1826-cı ildə İran qoşunları Abbas Mirzənin başçılığı altında 60 minlik ordu ilə Şuşanı yenidən mühasirəyə aldı. Əhali 48 gün mühasirədə qalsa da, məğlub olmadı. Düşmənin bütün amansız hücumlarının qarşısı alındı. Bu vaxt Rus qoşunları İran qoşunlarını Şuşa ətrafından geri çəkilməyə məcbur etdi. 1828-ci il fevralın 10-da İranla Rusiya arasında Türkmənçay müqaviləsi

imzalandı. Həmin sülhə görə Azərbaycan 2 hissəyə parçalandı. Araz sərhəd olmaqla Cənub hissə İrana, Şimal hissə isə Rusiyaya birləşdirildi. O cümlədən Şimalı Azərbaycanda yerləşən Şuşa şəhəri də Rusiya təbəəliyinə düşdü.

XIX əsrin əvvəllərində Qarabağ Rusiyaya birləşdirildikdən sonra İran dövlətinin yeni hücumlarından qorxan Çar Rusiyası Şuşa qalasında möhkəmləndirmə, xüsusilə şəhərin qərb hissəsi istisna olmaqla, qalan yerlərində yenidənqurma işləri aparmışdı. Bu dövrdə qala divarları, qaladaxili qəsrlər, Pənahəli xanın sarayı, Qara Böyükxanın bürcü, Şuşanın əsas darvazası olan «Gəncə qapısı», Xurşudbanu Natəvanın evi, Hacı qulunun malikanəsi, Əsəd bəyin evi, Mehmandarovların, Zöhrabbəyovların evi, «Yuxarı» və «Aşağı» məscid, türbələr və sair tikilərək istifadəyə verilmişdir.

Çar hökumətinin 10 aprel 1840-cı il tarixli inzibati islahatı ilə Şuşa qəzası yaradıldı. Qəzanın mərkəzi Şuşa şəhəri idi. Şuşa qəzası Kaspi vilayətinin tərkibinə daxil idi. Qəza Cavanşir, Göyçay, Cavad, Cəbrail, Zəngəzur qəzaları ilə həmsərhəd olmuşdu. 1846-cı ildə Şuşa qəzası Bakı quberniyasına, 1867-ci ildə isə Yelizavetpol quberniyasına daxil edilmişdi. Şuşa qəzası Miqri, Kəbirli, Zəngəzur, Cavanşir, Çiləbörd, Vərənd məntəqələrinə bölünmüşdü. Çar hökumətinin 1867-ci il dekabr fərmanına əsasən Zəngəzur və Cavanşir məntəqələri Şuşa qəzasından ayrılaraq, müstəqil qəzalara çevrilmişlər. Qəzanın idarəçiliyi bu cür bölüşdürülmüşdü: Başda Qəza rəisi otururdu, ikinci adam onun köməkçisi, sonrakı yerlərdə isə qəzanın xəzinədarı, məntəqə üzvləri və şəhər polisi yerləşirdi. Şuşa qəzasında məhkəmə işlərinə qəza məhkəmələri baxırdı. Şuşa qəzasının 1897-ci il məlumatına görə sahəsi 4911 kvadrat kilometr, əhalisi 140740 nəfər olmuşdu. Bəhs edilən dövrdə təkcə Şuşa şəhərində 25 mindən çox adam yaşayırdı. Təsərrüfatının əsasını isə əkinçilik, maldarlıq, ipəkçilik, üzümçülük, bağçılıq təşkil edirdi. Bu dövrdə Şuşada toxuculuq, şərabçılıq, xalçaçılıq, ip və mahud istehsalı da geniş yayılmışdı. XIX əsrin ikinci yarısında Şuşada xalçaçılığın inkişafına daha çox diqqət verilmişdi. Şuşa xalçaları bütün dünyada məşhur idi. XIX əsrin

ortalarından ticarət mərkəzi olan Şuşa ümumrusiya bazarına cəlb olunmuşdu. Ticarət mərkəzi kimi Yaxın Şərq və Qafqazda məşhurlaşan Şuşa şəhərinin görkəmi ilbəil gözəlləşirdi. Yaxın Şərq - Qafqaz ticarət yolu Şuşadan keçirdi. Ticarətlə məşğul olan tacirlər gözəl iqlimə, sərin bulaqlara, təmiz havaya malik olan Şuşa karvansaralarında dincəlib sonra yollarını davam etdirirdilər. Şuşa tacirləri isə yuxarıda adlarını çəkdiyimiz ölkələrlə yanaşı Şərqi və Qərbi Avropa ölkələri, xüsusilə Almaniyaya gedir və həmin ölkələrlə ticarət əlaqələri aparırdılar. Şuşada ticarət və mal dövriyyəsi elə bir sürətlə inkişaf etmişdir ki, hətta Şamaxı, Bakı, Gəncə, Şəki, Naxçıvan kimi şəhərləri ötüb keçmişdi. Şuşa tacirləri isə həmişə Moskva, Nijni-Novqorod, Leypsikdə keçirilən yarmarkalarda fəal iştirak edirdilər. Bu dövrdə İstanbul şəhəri ilə aparılan ticarət daha geniş xarakter daşıyırdı. Ticarət əlaqələrinin inkişafı Şuşada iqtisadiyyatın və mədəniyyətin inkişafına təkan verirdi. Yeni şəhərsalma memarlıq - planlaşdırma quruluşu əsasında ictimai əhəmiyyətə malik binalar, örtülü bazar, karvansaralar, ibadətxanalar, məscidlər, hamamlar və sair tikilərək Şuşa əhalisinin istifadəsinə verilmişdir. Şuşada tikilən evlər istər xarici görünüşü, istərsə də daxili yaraşığına görə diqqəti cəlb edirdi. Şuşanın mədəni abidələri, Daş binaları haqqında Fransa səyyahı Divna-de Monperenin «Qafqaza səyahət» və görkəmli rus rəssamı V.V.Veraşşaqinin qeydləri çox maraqlıdır: «Şuşada evlər daşdan tikilibdir, bütün küçələr genişdir və tavadaşı ilə döşənmişdir. Evlərin damı Avropa qaydası ilə yonulmuş ağacla örtülmüşdür». Şuşada gözəl yaraşıqlı binaların inşa edilməsində yerli əhalinin böyük xidmətləri olmuşdur. Məsələn, usta Qəmbər Qarabağlının gözəl, yaraşıqlı və insanı valeh edən əla naxışlarla bəzədilmiş bir çox binaları, Nəvvabın və Mehmandarovların evləri, Gövhər ağa məscidi və başqaları dövrümüzə qədər gəlib çatmış və öz gözəlliyin qoruyub saxlamışdır.

## IV FƏSİL

## ŞUŞA XIX YÜZİLLİKDƏ

XVIII yüzilliyin sonu - XIX yüzilliyin başlanğıcında Azərbaycanda daxili və siyasi vəziyyət çox mürəkkəb idi. Bu mürəkkəblik bir tərəfdən Şəki və Quba xanlıqlarının Azərbaycan torpaqlarını öz xanlıqları ətrafında birləşdirmək və vahid dövlət yaratmaq cəhdlərinin boşa çıxması ilə müşahidə edilmişdirsə, ikinci bir tərəfdən isə Azərbaycanı ələ keçirmək üçün İran və Rusiyanın işğalçılıq planlarını həyata keçirməyə başlamışdı. İmperator I Aleksandrın 1801-ci il Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında «Manifest»indən sonra Qazax, Borçalı və Şəmşəddil torpaqlarının Rusiya tərkibinə qatılması Azərbaycan torpaqlarının işğalının başlanğıcı demək idi. 1804-cü ilin yanvarında Gəncə xanlığı Rusiya tərəfindən işğalından sonra Sisianov Azərbaycanın digər şimal xanlıqlarına müxtəlif üsullarla təzyiq göstərməyə başladı. Bəhs edilən dövrdə Qarabağ xanlığının daxili və xarici siyasi vəziyyəti son dərəcə ağır idi. Ruslar yaranmış ağır şəraitdən istifadə edərək İbrahimxəlil xanın böyük oğlu Məhəmmədhəsən ağaya və adlı-sanlı bəylərə Sisianova məktub yazmağı təkid etdilər. 1805-ci il mayın 14-də Rusiya ilə Qarabağ xanlığı arasında 11 maddədən ibarət Kürəkçay müqaviləsi imzalandı. Müqaviləyə görə Qarabağ xanlığı Rusiya tərəfindən ilhaq edildi. Şuşa şəhəri isə rus qarnizonunun dayanacağına çevrildi. Rus qoşunlarının Şuşa şəhərində yerləşdirilməsi, təbii, coğrafi, iqlim amilləri ilə bağlı olmaqla yanaşı, həm də siyasi amillə də bağlı olmuşdur. 500 nəfərlik Rusiya qoşunu Şuşada yatacaqla, yeməklə, odunla təmin olunmalı idi. Hətta müqavilənin şərtlərinə belə bir əlavə də edilmişdi ki, «Şuşadan Yelizavetpol və Cavada gedən yollar yenidən sahmana salınmalıdır ki, Rus qoşunları rahat hərəkət edə bilsin.» Şuşalı İbrahimxəlil xan Rusiyaya ildə 8.000 çervon bac verməyi, Rusiyanın gerbi üzərində olan bayrağı xanlığın paytaxtı olan Şuşa şəhərində saxlamalı, nəvəsi Şükürallahı həmişəlik Tiflisdə yaşamaq üçün girov verməyi öz üzərinə götürmüşdü.

Bu gün, arxivlərdə saxlanılan «Kürəkçay müqaviləsinin maddələri» adlı sənəd erməni siyasətbazlarına («Şuşanı XIX əsrin əvvəllərində erməni şəhəri» adlandıranlara) obyektiv cavab vermək baxımından böyük əhəmiyyətə malikdir. Müqavilənin maddələrinin hamısının başlanğıcı Şuşalı, Qarabağlı İbrahim xanın adı ilə adlandırılıb. Müqavilənin 11 maddəsinin heç birində nədənsə XIX əsrin əvvəlində «Şuşanın yiyələri» olan erməni Məliklərinin adları çəkilməyibdir. Bu isə Balayanlara tutarlı cavab üçün maddi əsas və tutarlı dəlildir.

1806-cı ildə Sisianovun öldürülməsi İran qoşunlarının Qarabağda fəallaşmasına səbəb oldu. Vəziyyətin çətin olduğunu görən İbrahimxəlil xan Şuşanı tərk edib ailəsi və uşaqları ilə birlikdə gecə, gizli olaraq Xankəndinə gəldi. Xəyanəti həmişə özünə peşə seçən erməni «uzaqgörənliyi» burada da, öz işini gördü. İbrahimxəlil xanın yeri mayor Lisanoviçə çatdırıldı. Ermənilərin əli ilə İbrahimxəlil xan, bütün ailə üzvləri, hətta kiçik yaşlı uşaqları xüsusi qəddarlıqla öldürüldü.

Azərbaycanın ələ keçirilməsi uğrunda Rusiya ilə İran arasında 1804-1813-cü illəri əhatə edən müharibə 1813-cü il oktyabrın 12-də Qarabağın Gülüstan kəndində sülh müqaviləsinin imzalanması ilə nəticələndi. Həmin müqaviləyə görə İrəvan və Naxçıvan xanlıqlarından başqa Araz çayının şimalında olan Azərbaycan ərazisindəki bütün xanlıqların - Gəncə, Qarabağ, Nuxa, Lənkəran, Şamaxı, Quba, Dərbənd xanlıqlarının ərazisi Rusiya tərkibinə qatıldı.

XIX yüzilliyin əvvəllərində Şimali Azərbaycan xanlıqları çar qoşunları tərəfindən ələ keçirilən vaxt Azərbaycanın bəzi xanlıqları (Şəki, Şamaxı, Qarabağ, Lənkəran) döyüşsüz Rusiya himayəsini qəbul etmiş və ona görə də həmin xanlıqların daxili idarə sistemi olduğu kimi saxlanılmışdır. Lakin belə bir idarə sistemi çar Rusiyasının mənafeyinə uyğun olmadığından 1819-1826-cı illərdə yuxarıda adların çəkdiyimiz xanlıqlarda xan üsul-idarəsi ləğv edildi. Çarizm Qarabağ xanlığının «bütövlüyünün saxlanılmasına imperator zəmanətinə» naxələf çıxıb 1822-ci ildə Qarabağ xanlığını ləğv etdi. Qriboyedov qeyd edir ki, Qarabağ xanlığı ləğv edilən vaxt xanlığın axırıncı xanı Mehdiqulu xan

xeyli Azərbaycanlı ailəsi ilə birlikdə məcburi şəkildə İrana köçürülmüşdür. 1826-cı ildə Azərbaycanda mərkəzi şəhəri Şuşa olan «Müsəlman əyalətləri rəisliyi» yaradıldı.

Əlbəttə, tariximizin öyrənilməsi və tədqiqində tarixi mənbələrin rolu əvəzsizdir. Çünki vaxtilə biganə yanaşdığımız obyektiv tarixi faktlar bu gün Qarabağı və Şuşanı «erməniləşdirməyə» çalışan Z.Balayanlara və V.Stupuşinlərə tutarlı cavabımız üçün canlı şahidlərdir. Doğma Qarabağımızı «erməni əyaləti» kimi təqdim edən Balayanlar görünür bütün canlı, obyektiv «şahidlər»in hamısını məhv edə bilməyiblər. Çar Rusiyasının XIX əsrin əvvəllərində yazdığı sənəddə deyilirdi: 1822-ci ildən Qarabağ xanlığı ləğv edilir, Qarabağ «müsəlman əyaləti» kimi Rusiyaya birləşdirilir. Həmçinin həmin dövrdə (1826-cı ildə) mərkəzi Şuşa şəhəri olmaqla «Müsəlman əyalətləri» rəisliyi yaradıldı. Necə ola bilər ki, erməni müəlliflərinin qeyd etdiyi kimi «ermənilərin daha çox yaşadığı» Qarabağ «müsəlman əyaləti» kimi Rusiyaya birləşmiş və mərkəzi Şuşa şəhəri olmaqla «müsəlman əyalətləri» rəisliyi yaradılmışdır? Əlbəttə, bütün bunlar ermənilərin yazdıqlarının yalan və böhtan olduğunu göstərir.

Azərbaycanı bütövlükdə ələ keçirməyi qarşısına məqsəd qoyan İran hakim dairələri 1826-cı ildən Rusiya ilə müharibəyə başladı. Abbas Mirzənin başçılığı altında İran qoşunu 1826-cı ildə bütün Qarabağı ələ keçirmək üçün Şuşanı mühasirəyə aldı. 1826-cı il iyulun 16-da İran qoşunları Şuşanı top atəşinə tutdu və bir-birinin ardınca şəhərə həmlələr etdi. Lakin Şuşanın müdafiəsi yaxşı təşkil edildiyindən Abbas Mirzə şəhərə girə bilmədi. Hətta qalanın müdafiə olunmasına şuşalı qadınlar da qalxmışdılar. Yuxarıda qeyd etdiyimiz kimi, Şuşada Rus qarnizonu da var idi ki, onlar da İran qoşunlarına qarşı vuruşurdular. Bütün bunlar və ən başlıcası qeyrətli şuşalıların dəmir iradəsi güclü İran qoşunlarının həmlələrinin qarşısını aldı. Şah qoşunları 48 gün Şuşanı mühasirədə saxlasa da, onu ala bilmədi. Rusiya ilə İran arasından Azərbaycanı bölüşdürmək uğrunda başlanan müharibə 1828-ci il Türkmənçay sülhü ilə nəticələndi. Türkmənçay sülh müqaviləsi XIX əsrin birinci yarısında Rus-İran müharibəsinə son qoyaraq xalqımızın və torpaqlarımızın iki yerə bölüş-

dürülməsini başa çatdırdı. İndiki Şimali Azərbaycan torpaqları (o cümlədən İrəvan xanlığı da daxil olmaqla) Rusiyaya, Arazın cənubu İrana verildi. Türkmənçay sülhü xalqımızın dövlətçilik ənənələrinə və milli dirçəlişinə son qoydu. İşğal nəticəsində Şimali Azərbaycan torpaqları Rus imperiyasının xammal mənbəyinə və satış bazarına çevrildi.

Türkmənçay sülhündən sonra Qarabağda və Şuşada əhalinin sayının artması, sülh şəraitinin yaradılması təsərrüfat həyatının canlanmasına səbəb oldu. XIX əsrin birinci yarısında Şuşanın iqtisadiyyatının əsasını əkinçilik, heyvandarlıq, ipəkçilik və əl üsulu ilə emal olunan müxtəlif məişət avadanlıqları, əmək ləvazimatları, sənət nümunələri təşkil edirdi.

XIX əsrin birinci yarısında Şuşa şəhəri Azərbaycanın mühüm ticarət mərkəzi kimi bütün Qafqazda və Yaxın Şərqdə məşhurlaşdı. Zaqafqaziyadan Yaxın Şərq ölkələrinə, Yaxın Şərq ölkələrindən Qafqaza gedən karvanlar Şuşanın geniş və gözəl karvansaralarında dincəlirdilər. İranın, Türkiyənin, İraqın, Hindistanın, Türküstanın şəhərlərindən Şuşaya tez-tez tacirlər gəlirdilər. Eyni zamanda Şuşa tacirləri Avropa ölkələrinə, Təbrizə, Bağdada, İstanbula, Buxaraya, Səmərqəndə, Petrovskiyə, Məkkəyə, Həştərxana gedir və öz məhsullarını satırdılar. Şuşada vahid pul, ölçü, çəki sisteminin tətbiqi ticarətin inkişafına və həm də iqtisadi inkişafa təkan verdi. 1821-ci il oktyabrın 8-də Çar hökumətinin fərmanı ilə Cənubi Qafqazda «güzəştli ticarət tarifi» tətbiq olundu. Bu isə bütün Azərbaycanda, o cümlədən Şuşada ticarətdə canlanmaya təkan verdi. Yeni-yeni ticarət məntəqələri yaranır, ticarət müəssisələrinin sayı və dövriyyəsi çoxalır, ayrı-ayrı bölgələr arasında əlaqələr genişlənir və bu isə Şuşada əmtəə-pul münasibətlərinin inkişafına kömək edirdi.

XIX əsrin birinci yarısında Şuşadan xarici dövlətlərə yun, xalça, ipək mallar, dəri, parça, çini qablar və müxtəlif sənaye, kənd təsərrüfatı məhsulları aparılırdı. Şuşada bəslənən cins atlar dünya bazarlarında böyük şöhrət qazanmışdı. Xarici dövlətlərdən gətirilən pambıq-parça məmulatları, xırdavat, qab-qacaq, dəmir və dəmir məmulatları Şuşa bazarlarında satılırdı.

Təbiət Qarabağımıza və Şuşamıza hər şey bəxş etmişdir: Bol təbii sərvətlər, mülayim iqlim, zəngin bitki, heyvanlar və su mənbələri. Müstəmləkəçilik təcrübəsinə malik olan çar Rusiyası Şuşanın iqtisadi potensial imkanlarını öyrəndi və inkişaf üçün tədbirlər hazırladı. Bu məqsədlə 1836-cı ildə Peterburqda «Cənubi Qafqazda Rusiya sahibliyinin təsviri» adlı 4 cildli kitab çap edildi. Həmin kitablar bir növ Şimali Azərbaycan iqtisadiyyatının daha çox mənimsənilməsi üçün «tədbirlər planı» xarakteri daşıyırdı.

Yuxarıda qeyd etdiyimiz kimi, XIX əsrin birinci yarısında Şuşanın iqtisadiyyatında əsas aparıcı yer kənd təsərrüfatına məxsus idi.

Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra Şuşa şəhərində feodal torpaq mülkiyyətinin 2 əsas forması mövcud idi: xəzinə və xüsusi sahibkar torpaqları. Bununla yanaşı, torpaq mülkiyyətinin köhnə formaları - tiyul, mülk, mülki-xalisə və vəqf də qalmaqda idi. Kəndlilər müxtəlif növ vergilər verirdilər.

XIX əsrin 30-50-ci illərində Şuşanın kənd təsərrüfatında əsas yeri əkinçilik və maldarlıq tuturdu. Əkinçilikdə buğda və arpa becərilməsi üstünlük təşkil edirdi. Bəhs edilən dövrdə buğda və arpa istehsalına görə Şuşa Azərbaycanın başqa ərazilərindən xeyli fərqlənirdi. Şuşada istehsal olunan dənli bitkilər yerli tələbatı ödəməklə yanaşı, xarici dövlətlərə də göndərilirdi.

Şuşanın kənd təsərrüfatında aparıcı sahələrdən biri də, ipəkçilik olmuşdur. Şuşa əhalisinin demək olar ki, hamısı barama becərilməsi işinə cəlb olunmuşdular. Bu Rusiyada xam ipəyə daha çox tələbatla bağlı idi. Şuşa bölgəsində hər il 50 min pud barama əldə edilirdi. Çar Rusiyası xam ipəkdən külli miqdarda gəlir götürdüyü üçün Şimali Azərbaycanda bu sahəyə daha çox diqqət yetirdi. Belə ki, ipəkçiliyin sirlərini gənc nəslə öyrətmək üçün 1843-cü ildə Nuxa şəhərində «təcrübə ipəkçilik məktəbi» yaradıldı. Təkcə 1850-ci ildə həmin məktəbi 236 şagird bitirmişdir ki, bundan 40 nəfəri Şuşa bölgəsinin payına düşürdü. İpəkçiliyi inkişaf etdirmək məqsədilə Şuşada çəkil (tut) bağlarının sahəsi genişləndirildi.

XIX əsrin birinci yarısında Şuşanın kənd təsərrüfatında əkinçilik maldarlıqla paralel inkişaf etmişdi. Hər şeydən öncə Şuşanın əlverişli şəraiti heyvandarlığın inkişafına təkan verirdi. Aparılan arxeoloji araşdırmalar Şuşa əhalisinin qədimdən maldarlıqla məşğul olduğunu göstərir. Ərazidən tapılan at və dəvə sümükləri deyilənləri təsdiq edir. Əkinçiliklə maldarlıq bir-birini tamamlayan sahələrdir. Çünki texnikanın olmadığı dövrdə öküzsüz, kəlsiz, atsız, dəvəsiz əkinçiliyin inkişafı mümkün deyildir. Heyvanlardan həm də ticarətdə nəqliyyat vasitəsi kimi (xüsusilə dəvələrdən) istifadə edilirdi.

Hələ XVIII əsrin ikinci yarısında Pənahəli xan öz hakimiyyətini möhkəmləndirmək üçün Nadir şah tərəfindən Qarabağdan Xorasana köçürülən əhalini geri qaytardı. Onların bəzi vergilərdən azad edilməsi, mal-qara paylanması əkinçilik və maldarlığın inkişafına təkan vermişdi. Təsadüfi deyildir ki, İbrahimxəlil xanın dövründə onun şəxsi mal qarası 3 dəfə artmışdı. Xanın 4 min balalayan madyan atı, xüsusi saxlanılan cins ayğırları var idi. O dövrün mənbələrindən birində deyilir ki, İbrahim xanın qoyun sürüləri, malı, camışı o qədər çox idi ki, saymaqla qurtarmazdı.

XIX əsrin 50-ci illərindən Şuşada əmtəəlik maldarlığı getdikcə genişlənirdi.

Bağçılıq, üzümçülük, bostançılıq Şuşanın kəndlərində geniş yayılmışdı. XIX əsrin 40-cı illərindən ərazidə kartof əkin sahələri genişlənmişdi.

Şuşa Azərbaycanın qədim sənətkarlıq mərkəzlərindən biri olmuşdur. Şuşanın əsas sənətkarlıq sahələri xalçaçılıq, toxuculuq, dulusçuluq, ipəkaçma, metal emalı və başqaları idi. XVIII əsrdən Şuşada xalçaçılıq xüsusi olaraq inkişaf edirdi. Bəhs edilən dövrdə Şuşada xalçaçılığın inkişafına təsir edən 2 başlıca amili xüsusi olaraq qeyd etməliyik. Bunlardan ən başlıcası əhalinin daxili tələbatının ödənilməsi ilə bağlıdır. Şuşalılar xalça toxuyub ondan özü istifadə etməklə yanaşı, həm də toxuduğu gözəl xalçanı bazara çıxararaq satır və özünün iqtisadi tələbatını ödəyirdi. Eyni zamanda Şuşanın gözəl otlaqları, alp çəmənlikləri - yaylaqları qoyunçuluğun inkişafına təkan vermiş, qoyunun yunu isə xalça toxumaq üçün xammal mənbəyinə çevrilmişdir.

Şuşalıların qədim peşəsi olan xalça 2 növdə toxunurdu. Bunlardan birinciyə xovlu xalçalar aiddir ki, buraya xalça, gəbə, xalı və sair daxildir. İkincisi isə xovsuz xalçalardır ki, buraya palaz, kilim, cecim, sumağı, zili aiddir.

XIX əsrin 30-40-cı illərində Şuşada xalçaçılıq daha sürətlə inkişaf etməyə başladı. Bu, hər şeydən əvvəl yaranmış əlverişli şəraitlə bağlı olmuşdur. Belə ki, bu qiymətli sənət incisinə təkcə ümumrusiya bazarında deyil, dünya bazarında ehtiyac var idi. Bəhs edilən dövrdə xalça-gəbə istehsalının çoxçeşidliliyi artdı. Xalça, gəbə, kilim, sumağı, zili ilə yanaşı məfrəş, xurcun, heybə və sairdə toxunurdu.

XIX əsrdə Şuşa sənətkarlığının mühüm sahələrindən biri də, ipək parça istehsalı olmuşdur. Dünya bazarında xam ipəyə, ipək parçaya və ipək parça məmulatlarına böyük ehtiyac olduğundan, bu sahəyə Çar Rusiyasının diqqəti daha çox artırıldı. Əgər 1800-cü ildə Şuşada ipək parça müəssisələrinin sayı 24 idisə, 1832-ci ildə onların sayı 42-yə çatdırıldı. Eyni zamanda yeni yaradılmış müəssisələrə buxar gücü ilə hərəkətə gətirilən dəzgahlar qoyulurdu ki, bu müəssisələrdə ipəyin keyfiyyəti və həcmi əvvəlkilərdən üstün oldu. Şuşada kustar üsulu ilə ipək məmulatları istehsal olunurdu. Əl əməyi ilə istehsal edilən cecim, kəlağayı, darayı, tafta, qanovuz dünya bazarlarında satılırdı.

XIX əsrin 30-cu illərinin sonlarında Şimali Azərbaycanın hər yerində, o cümlədən Şuşa sənayesində müəssisələrin texniki təchizatı yaxşılaşdırılmış, buxar gücü ilə hərəkətə gətirilən yeni müəssisələr yaradılırdı. Sənayedə kapitalist münasibətləri üçün şərait yaradılsa da, dövlət və ya feodal idarə sistemi hələ də saxlanılırdı. Şuşa manufakturaları elə qurulmuşdu ki, istehsal dövriyyəsi tam başa çatdırılmırdı. İstehsal dövriyyəsi natamam saxlanılır və yarımçıq qalmış məhsul Rusiyanın özündə başa çatdırılırdı. Bu Çar Rusiyasının müstəmləkəçilik iqtisadiyyatına xas olan əsas xüsusiyyət idi.

Şuşada inkişaf etmiş sənaye sahələrindən biri də pambıq parça istehsal edən karxanalar olmuşdur. Dünya bazarında pambıq məhsullarına böyük ehtiyac olduğunu nəzərə alan Çar Rusiyası bu sahəyə xüsusi diqqət yetirdi. XIX əsrdə pambıq əkin

sahələri genişləndirilərək, pambıq məntəqələrinin sayı artırıldı. Belə ki, əgər Şuşada 1801-ci ildə 18 pambıq - parça karxanası var idisə, 1832-ci ildə onların sayı artırılaraq 28-ə çatdırıldı. Yarımfabrikat məhsulunu mərkəzə aparan Çar Rusiyası ondan müxtəlif çeşidli məhsul hazırlayır və dünya bazarına çıxararaq böyük məbləğdə gəlir götürürdü. Gəlirli sahə olduğundan Çar Rusiyası sonrakı dövrlərdə də bu sahəyə xüsusi diqqət yetirmişdi.

XIX əsrin birinci yarısında Şuşada sənayenin digər sahələri də, inkişaf etmişdi. 1800 illə müqayisədə 1832-ci ildə Şuşada gön-dəri zavodlarının sayı 10-dan 20-yə, sabun zavodu və kərpic sexi 2-dən 3-ə qalxmışdı. Faktlardan göründüyü kimi istehsal prosesinin sürətli inkişafı Şuşanın iqtisadiyyatının möhkəmlənməsinə kömək etmiş, bu isə öz növbəsində şəhər əhalisinin sosial vəziyyətinə müsbət təsir göstərmiş və mədəni inkişafda irəliləmələr müşahidə edilmişdir. Lakin bir həqiqəti də qeyd etməliyik ki, Şimali Azərbaycanda və onun ucqarlarından olan Şuşada Çar Rusiyasının həyata keçirdiyi tədbirlərin siyasi mahiyyəti ondan ibarət olmuşdur ki, bölgənin yeraltı və yerüstü sərvətlərini öz mənafeyinə uyğun tərzdə qursun və asan yolla mənimsəsin.

XIX əsrin 30-cu illərində Şimali Azərbaycanda Çarizm müstəmləkəçilik əleyhinə baş verən üsyanları yatırsa da, xalqın qəzəbini söndürə bilmədi. Xalq narazılığının qarşısını almaq üçün Çar hökuməti islahatlar keçirməyi qərara aldı. Çar hökumətinin 1840-cı il 10 aprel Cənubi Qafqazın inzibati və məhkəmə islahatına əsasən Xəzər vilayəti tərkibində 7 qəza, 2 nahiyə yaradıldı ki, həmin qəzalardan biri də Şuşa qəzası oldu (Həmin islahat 1841-ci il 1 yanvarda qüvvəyə minmişdi). Şuşa qəzası Cavanşir, Göyçay, Cavad, Cəbrail, Zəngəzur qəzaları ilə həmsərhəd olmuşdu. Şuşa qəzasının mərkəzi Şuşa şəhəri idi. 1840-cı il islahatı ilə Azərbaycanın ərazi bütövlüyü və tarixi sərhədləri pozulmuşdu. Çünki Azərbaycan torpaqlarının çoxu Gürcü-İmeretiya quberniyasına qatılmışdı. «Parçala və ağalıq et» siyasəti yeridən Çar Rusiyası bununla da Azərbaycanda pozuculuq, ərazi və milli münaqişələrin bünövrəsini qoymuş oldu.

1840-cı il «islahatı» heç də Azərbaycanda xalqın narazılığının qarşısını almadı. Əksinə 1841-ci ildən mütləqiyyət əleyhinə kəndli çıxışları genişləndi. 1844-cü ildə Şuşada da, belə bir kəndli üsyanı oldu. Üsyançı kəndlilər vergini verməkdən, mükəlləfiyyətləri yerinə yetirməkdən imtina edir, hökumətin sərəncamlarına tabe olmurdular.

Xalqın narazılığı Qafqazın ilk canişini Vorontsovu yeni inzibati ərazi bölgüsü aparmağa vadar etdi. 1846-cı il dekabrın 14-də çarın fərmanı ilə Gürcü-İmeretiya quberniyası və Xəzər vilayəti ləğv edildi. Əvəzində 4 quberniya - Tiflis, Kutaisi, Dərbənd və Şamaxı quberniyaları yaradıldı. Bu vaxt Şuşa qəzası Şamaxı quberniyasının tərkibinə daxil edildi. Yeri gəlmişkən onu da qeyd edək ki, çar hökuməti Azərbaycanda öz dayaqlarını möhkəmləndirmək məqsədilə 1849-cu ildə yeni bir quberniya, İrəvan quberniyası yaratdı və bu quberniyaya İrəvan, Naxçıvan, Ordubad qəzalarını daxil etdi. Bununla da Azərbaycanın ərazi bütövlüyü pozuldu. Lakin bütün bunlar xalqın vəziyyətini heç də yaxşılaşdırmadı.

Çar hökumətinin 1868-ci il islahatı ilə Yelizavetpol quberniyası yaradıldı ki, Şuşa qəzası da bu quberniyaya daxil idi. 1868-ci il islahatı ilə Şuşa qəzası tərkibində Zəngəzur qəzası yaradıldı. 1883-cü ildə isə Şuşa qəzasının tərkibində yeni 2 qəza yaradıldı - Cavanşir və Cəbrail qəzaları. Beləliklə, XIX əsrin ikinci yarısında mərkəzi Şuşa şəhəri olmaqla, Şuşa qəzası tərkibində Şuşa, Cavanşir, Cəbrail və Zəngəzur qəzaları yaradıldı. Yeri gəlmişkən onu da qeyd edək ki, 1919-cu ildə erməni quldurlarının Şuşa qəzasında müsəlmanları qılıncdan keçirməsi və əsassız ərazi iddiaları Şuşa, Cavanşir, Cəbrail və Zəngəzur qəzalarının Gəncə quberniyası tərkibindən ayrılmasına və mərkəzi Şuşa şəhəri olan Qarabağ general qubernatorluğunun yaradılmasına səbəb oldu.

XIX əsrin ikinci yarısında Rusiyada kapitalist münasibətlərinin inkişafı Şimali Azərbaycanda da bu prosesin inkişafına şərait yaratdı. Çünki Rusiyanın müstəmləkəsi olan Şimali Azərbaycanla imperiyanın iqtisadi əlaqələri ikitərəfli xarakter daşıyır-

dı və Şimali Azərbaycan şəhərləri Ümumrusiya bazarlarına qoşulurdu.

Şimali Azərbaycanın mühüm sənaye ocaqlarından biri də Şuşa ərazisi olmuşdur. Şuşada XIX əsrin ikinci yarısında sənayenin əsas aparıcı sahəsi ipək sənayesi idi. XIX əsrin ikinci yarısında mərkəzi Rusiyada ipək toxuculuğu sənayesində xam ipəyə çox böyük tələbat olduğundan Şuşada bu sahəyə diqqət artmışdı. 1860-cı illərdə Rusiya hökuməti Şuşa ipək fabriklərinin sayını artırdı və həmin fabriklərdə Fransadan aldığı dəzgahları quraşdırdı. Yeni fabriklər özünün yüksək keyfiyyətinə görə fərqlənirdi. İşçi qüvvəsinə olan tələbatı ödəmək üçün sənaye müəssisələrinin əksəriyyəti torpağı az, əhalisi çox olan kəndlərdə tikilirdi. Şuşa ipək emalı müəssisələrində buxar mühərriki ilə hərəkətə gətirilən dəzgahlar quraşdırılmışdı. Lakin aparılan tədqiqatlara əsasən deyə bilərik ki, XIX əsrin ikinci yarısında Şuşada ipək emalı müəssisələrinin əksəriyyəti xırda müəssisələr idi. Şuşa ipək emalı sənayesində fabrik istehsalı hakim olsa da, kustar istehsalı qalmaqda davam edirdi. Kustar ipək toxuma Şuşa əhalisi arasında davam etdirilirdi. Bütün bunlarla yanaşı Şuşada iri sahibkarlara məxsus ipək sənayesi müəssisələri də var idi. Şuşada istehsal olunmuş xam ipək Moskvaya, Lodza, Varşavaya, Milana, Marselə, Liona və başqa şəhərlərə ixrac olunurdu.

XIX əsrin ikinci yarısında Şuşada ipək sənayesi ilə yanaşı pambıq-parça toxuyan karxanalar, gön-dəri zavodları, sabun və kərpic zavodları, boyaqxana sexləri və başqaları inkişaf edirdi. Şuşanın ictimai-siyasi həyatında baş vermiş irəliləyişlər sənətkarlığın ümumi vəziyyətinə də təsir göstərmişdi. Əhalinin məişət və təsərrüfat ehtiyacları hələ də sənaye məhsulları ilə tam təmin olunmadığından Şuşa şəhərində bir sıra kustar peşə və sənət növləri öz fəaliyyətini davam etdirirdi. XIX əsrin ikinci yarısında Şuşada dəmirçi, boyaqçı, miskər, dərzi, papaqçı, başmaqçı və sair sənət növləri qalırdı. Elə sənət növləri var idi ki, fabrik məhsulları onların keyfiyyətini əvəz edə bilmirdi. Daxili və xarici bazarda əl işlərinə daha çox tələbat olurdu. Tikməçilik və xalçaçılıq yuxarıda dediyimizə misal ola bilər. Şuşa sənətkarlarının hazırladıqları məhsullar müxtəlif sərgilərdə nümayiş

etdirilirdi. 1872-ci ildə Moskvada açılmış sərgidə Şuşa xalçası gümüş medal almışdı. Xalça-gəbə toxumaq şuşalıların qədim sənəti olmaqla, həm də gəlirli sahə hesab olunurdu. Çünki, Şuşa xalçaları dünya bazarlarında satılırdı.

XIX əsrin 60-90-cı illərində Şuşada tikmə sənəti çiçəklənmə dövrünü keçirirdi. Həmçinin Şuşada şərbaflıq sənəti də bəhs edilən dövrdə öz mövqeyini qoruyub saxlamışdı. Əhali ipəyi özləri əllə açır və ondan müxtəlif məhsullar toxuyurdular.

Dulusçuluq da şuşalıların qədim sənət sahələrindən idi və ehtiyac olduğundan hələ də öz fəaliyyətini davam etdirirdi. Eyni zamanda, bəhs edilən dövrdə metalişləmənin misgərlik, zərgərlik, dəmirçilik növləri də qalmaqda idi.

XIX əsrin 60-90-cı illərində Şuşada ticarət sürətlə genişlənməyə başladı. İqtisadi inkişaf ticarətin inkişafına təkan verdi. Eyni zamanda 1876-cı il gildiya ticarət qaydasının tətbiqi Şuşada tacirlərin sayının artmasına və ticarət əlaqələrinin genişlənməsinə səbəb oldu. Gildiya ticarət qaydasına görə tacirlər bütün dövlət mallarını Rusiyanın hər yerində satmaq, anbar, dükan açmaq və Rusiyadakı malları quberniyaların hər yerində satmaq hüququ əldə etdilər. Bu qanun isə ticarət yolları ayrıcında yerləşən Şuşa şəhərinin ticarət əlaqələrinin genişlənməsinə səbəb oldu. Bəhs edilən dövrdə Şuşanın bütün iqtisadiyyatı iri şirkətlərin ticarət birliklərinin ixtiyarına keçmiş, məşhur sahibkarlardan Fyazov, Mirsyabov qardaşlarının, Camxarovun əlində cəmləşmişdi. Maliyyə-kredit sahəsindəki durğunluq aradan götürülmüş, ərzaq və yanacaq təminatı qismən yaxşılaşmağa başlamışdı. Şuşanın Asiya, Avropa şəhərləri, xüsusilə Tiflis, Moskva və Marsel şəhərləri ilə birbaşa əlaqələri var idi.

XIX əsrin ikinci yarısında Şuşada sənaye kapitalizminin inkişafı nəticəsində, kənd təsərrüfatında da ticarət əkinçiliyi artmışdı. Bazara daha çox kənd təsərrüfatı məhsulları çıxarılırdı. Kənddə əmtəə-pul münasibətlərinin inkişafı bazara çıxarılan satış məhsullarının növünün artmasına və keyfiyyətinin yüksəldilməsinə səbəb olmuşdu.

Çar hökuməti Şuşada kənd təsərrüfatını inkişaf etdirmək üçün feodal asılı münasibətləri nizama salmağa başladı. Bu

məqsədlə 1865-ci ildə kənd cəmiyyətləri haqqında fərman verildi. Şimali Azərbaycanın hər yerində, o cümlədən Şuşada vahid kənd idarəsi yaradıldı. Kənd idarəsinə yaşı 25-dən yuxarı olan kəndlilər seçilə bilərdilər. Onlar Qubernator tərəfindən təsdiq olmalı idilər. Kənd komitələrinin ali orqanı kənd yığıncağı idi. Lakin onlar müstəqil deyildilər, qəza və quberniyalardan asılı idilər. Kənddə kəndxudalar və mollalar bütün hakimiyyəti öz əllərində cəmləşdirmişdilər. Çarizm kəndlilərin feodal asılı münasibətlərini ləğv etmək məqsədilə 1870-ci il 14 may tarixində «Sahibkar kəndlilərin feodallardan asılılığın ləğv edilməsi» haqqında fərman verdi. Bu islahat kənddə kapitalist münasibətlərinin inkişafına təkan verdi.

XIX əsrin 70-90-cı illərində Şuşa kəndliləri 2 qrupa bölündü: dövlət və sahibkar kəndlilər. Kəndlilərin 68-69 faizini dövlət kəndliləri təşkil edir və onlar daha çox torpaq sahəsinə mənsub idilər. Eyni zamanda onlar dövlətə məxsus otlaq, yaylaq və başqa sahələrdən istifadə edir və bunun müqabilində xəzinəyə müəyyən məbləğdə haqq ödəyirdilər.

Şuşada kənd əhalisinin təxminən 30 faizini sahibkar kəndlilər təşkil edirdilər. Dövlət kəndlilərində olduğu kimi, sahibkar kəndlilərin də torpağı azlıq təşkil edirdi.

XIX əsrin 80-90-cı illərində Şuşanın kəndlərində baş verən ictimai təbəqələşmə nəticəsində ortabab kəndlilərin hesabına varlı kəndlilər (qolçomaqlar) meydana gəldi. Varlı kəndlilər az idilər, lakin onların əlində xeyli torpaq sahəsi cəmləşmişdi.

XIX əsrin ikinci yarısında Şuşanın kənd təsərrüfatında aparıcı rol yenə də əkinçilik və maldarlığa məxsus idi. Şuşada əsasən buğda və arpa əkilirdi. Əkin sahəsinin dörddə üç hissəsini buğda və arpa tuturdu. XIX əsrin 80-ci illərində Şuşada kənd təsərrüfatı maşınları və alətləri satan kontorlar fəaliyyətə başladı. Həmin kontorlarda əsasən bel, kərki, dəryaz, dəmir kotanlar və başqa kənd təsərrüfatı avadanlıqları satılırdı. Əsrin 90-cı illərindən Şuşada kənd təsərrüfatı alətləri hazırlayan və təmir işləri ilə məşğul olan emalatxanalar təşkil edilmişdir. Əhalinin maariflənməsi işində isə «Əkinçi» qəzeti böyük işlər görmüşdü.

Şuşa kəndliləri özlərinin keçmiş ənənələrinə sadiq qalaraq barama istehsalına xüsusi diqqət verirdilər. Baramanın əksəriyyəti yerli ipək müəssisələrində emal edilirdi. İkinci növ barama və sap qırıntıları isə Lion, Marsel, Milan şəhərlərinə göndərilir və təkrar emaldan keçirilirdi. XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda barama istehsalının daha da artırılması üçün Çar Rusiyası xüsusi tədbirlər gördü. Belə ki, 1887-ci ildə Tiflisdə «Qafqaz ipəkçilik stansiyası» açıldı. Şimali Azərbaycanın ayrı-ayrı ərazilərində həmin stansiyanın şöbələri yaradıldı və kəndlərin barama toxumu ilə təmin edilməsində böyük işlər gördü. Şuşa ərazisində barama qurdu becərmək üçün xüsusi yerlər düzəldi. Eyni zamanda 1885-ci ildən Qafqaz tədris dairəsi açıldı ki, həmin dairəyə ipəkçiliyin incəliklərini öyrətmək üçün müəllimlər cəlb edildilər. 1891-ci ildə isə Azərbaycanın barama saxlanılan 18 bölgəsində, o cümlədən Şuşada barama becərməyin üsullarını uşaqlara öyrədən mərkəz yaradıldı. Nəticədə isə XIX əsrin ikinci yarısında Şuşada barama istehsalı əvvəlki dövrlə müqayisədə xeyli artdı.

XIX əsrin ikinci yarısının sonlarında Şuşada ipək emalı sənayesində buxar mühərrikləri ilə işləyən müəssisələrin sayı artdı. İstehsalda yeni texnikanın tətbiqi nəticəsində xırda müəssisələr sıxışdırılıb aradan çıxarılır və təmərküzləşmə prosesi özünü göstərdi. Bütün bunlar isə, XIX əsrin sonlarında təkcə Şuşada deyil, bütövlükdə Qarabağda ipək emalı sənayesində güclü inkişafa səbəb olmuşdur. Bəhs edilən dövrdə Qarabağ ipək istehsalı sahəsi, Nuxa qəzasından sonra Zaqafqaziyada ikinci yerdə dayanırdı. 1899-cu ildə Şuşada «ipəksarıma və ipəkburma səhmdar cəmiyyəti» yaradıldı. Bu cəmiyyət 11 müəssisəni əhatə edirdi və 2 min səhmi özündə birləşdirmişdi. Şuşadakı səhmdar cəmiyyət Moskvadakı ən iri ipək emalı sahibkarlarından - «A.B. Sapajnikovlar», «A.İlin oğulları və K.», «L.S.Braşin varisləri», «A.Sokolov», «S.N.Kondraşyev varisləri», «F.İ. Kondraşyeva» və başqaları ilə iqtisadi ticarət əlaqələri var idi. Həmin sahibkarlar Azərbaycanın Maliyyə Nazirliyinə Şuşada yetişdirilmiş xam ipəyin yüksək keyfiyyətə malik olması haqqında müsbət rəylərini göndərmişdilər.

1900-cü ildə Şuşa qəzasında ipək emalı müəssisələrinin sayı 22-yə çatdı. Həmin müəssisələrin 6-sı Çanaxçıda, 1-i Qişidə, 1-i Nabatxanda, 2-i Ballıcada, 1-i Keşişkənddə, 2-si Tuğda, 1-i Ağbulaqda, 1-i Qışlaqkənddə, 2-si Tağda, 1-i Qaybalıkənddə, 1-i Daşaltıda, 1-i Kərgicahanda, 1-i Sığnaqda, 1-i Şuşakənddə fəaliyyət göstərirdi.

XIX əsrin ikinci yarısında Şuşa qəzasında kənd təsərrüfatının mühüm sahələrindən pambıqçılığı, üzümçülüyü, bağçılığı, bostançılığı göstərə bilərik. Mərkəz öz mənafeyinə uyğun qiymətli, lakin ağır zəhmətlə başa gələn bitkilərin becərilməsinə xüsusi diqqət yetirirdi. Şuşa qəzasının kəndlərində ağır və gərgin zəhmət tələb edən, əhalinin sağlamlığına mənfi təsir edən pambıq əkini sahələri artırıldı.

XIX əsrin ikinci yarısında Şuşanın kənd təsərrüfatında maldarlıq əkinçilikdən sonra 2-ci yerdə gedirdi. Şuşanın təbii coğrafi şəraiti maldarlığın inkişafı üçün əlverişli idi. Bəhs edilən dövrdə Şuşada qoyun, keçi, camış, dəvə, at, inək saxlanılırdı. XIX əsrin ikinci yarısında maldarlıq inkişaf edərək ticarət maldarlığına çevrilmişdi. Çünki xarici ölkələrdə xüsusi olaraq ABŞ, İngiltərə, Fransa, Rusiya bazarlarında yuna böyük tələbat var idi. Eyni zamanda dəmir yolunun çəkilməsi satış üçün, ət, yun, dəri, süd və sair heyvandarlıq məhsullarının daşınması və satışını asanlaşdırmış və bu sahənin inkişafına təkan vermişdir. XIX əsrin 70-90-cı illərində Rusiyada toxuculuq sənayesinin, gön-dəri məhsullarından müxtəlif məmulatlar hazırlayan fabriklərin xammala olan tələbatını nəzərə alan Çar hökuməti Şimali Azərbaycanda, o cümlədən Şuşada maldarlığın inkişafı üçün müəyyən tədbirlər gördü. Belə ki, bölgədə maldarlıq təcrübə stansiyaları, at zavodları, sərgilər yaradıldı və yoluxucu xəstəliklərə qarşı mübarizə tədbirləri görüldü. 1895-ci ildə Şuşada baytar bakterioloji laboratoriyası açıldı. Satılan heyvandarlıq məhsullarına baytar-həkim nəzarəti yaradıldı. Yoluxucu xəstəliklərin qarşısının alınması üçün xüsusi baytar nəzarəti təşkil edildi. Lakin bəhs etdiyimiz dövrdə Qarabağ zonasında baytar həkim çatışmırdı. Ona görə də sonrakı dövrlərdə Çar Rusiyası bu sahəyə xüsusi diqqət yetirmişdi.

Yuxarıda qeyd etdiyimiz kimi, Şuşanın təbiəti, iqlimi kənd təsərrüfatının, xüsusilə heyvandarlığın inkişafında həlledici əhəmiyyətə malikdir. Akademik N.İ.Vavilovun qeyd etdiyi kimi iqlim amilləri iqtisadi inkişafda texnikadan da güclüdür. Dağlıq ərazi olan Şuşada qoyunçuluq xüsusi olaraq inkişaf etmişdir. Aparılan tədqiqatlara əsasən qeyd etmək olar ki, Şuşada XIX əsrin 2-ci yarısında qoyun cinsinin 9 növü olmuşdu. Bunların içərisində isə daha əhəmiyyətlisi Qaradolaq cinsi hesab edilir. Çünki bu cinslər ətlik, yunluq, südlük kimi yüksək keyfiyyətlərə malik idi. Eyni zamanda Qarabağ qoyunları xəstəliyə dözümlüyü, yol getməyə davamlılığı, boyunun uzunluğu, döş qəfəsinin genişliyi və sair əhəmiyyətli cəhətləri var idi.

Bəzi tarixi mənbələrdə məqsədli şəkildə Şuşa əhalisinə «köçəri» damğası vurmaq üçün maldarlığı «köçəri maldarlıq» adlandırırlar. Buna «köçəri» yox, «köçmə» demək olar. Çünki Şuşa kimi bol yay və qış otlaqlarına malik olan bölgədən malqaranı hara köçürmək olardı? Doğrudur, Şuşa maldarları təsərrüfatlarını iqtisadi cəhətdən təmin etmək üçün yayda malqaralarını bir neçə saatlıq məsafəyə - yay otlaqlarına köçürürdülər. Məsələn, 1881-ci il məlumatına görə Şuşanın 81 kəndindən 5223 ev öz mal-qarasını yaylaqlara köçürmüşdü. Tarixi mənbələrə əsaslanaraq deyə bilərik ki, XIX əsrin ikinci yarısında Şuşada yay otlaq sahəsi 13008 desyatin, qış otlaq sahəsi isə 4991 desyatin olmuşdu. Qarabağın və Şuşanın yaylaqları, bol suya, keyfiyyətli ota, təmiz havaya malik idi. Yeri gəlmişkən onu da qeyd edək ki, XIX əsrin sonlarında rus tədqiqatçısı M.A. Skibitski Qarabağ dağlarında 567 yaylaq və yurd yeri qeydə almışdır. Bu 567 addan yalnız 2 toponimin erməni dilinə uyğun olması ehtimalı vardır. Bu fakt isə Qarabağımızı, Şuşamızı «erməniləşdirənlərə» tutarlı cavabdır.

XIX əsrin 2-ci yarısında Şuşanın kəndində tədricən ictimai təbəqələşmə prosesi artırdı. Bu ilk növbədə kəndli islahatı və feodal münasibətlərinin dağılması hadisəsinin baş verməsi ilə əlaqəli idi. Kəndlilərin bir hissəsi varlanır (qolçomaqlaşır), digər hissəsi isə yoxsullaşırdı. Torpaq payı az olan, çoxlu vergilər verən kəndlilərin vəziyyətini ağırlaşdıran digər amil bölgəyə

köçürülən rus və erməni kəndlilərinə çox məhsuldar torpaq verilməsi ilə bağlı olmuşdur. Şuşaya köçürülən erməni və rus kəndlilərindən vergi alınmırdı, onlara paylanmış torpaqlar isə Azərbaycanlılardan məcburi şəkildə alınmış məhsuldar torpaqlar idi. Kəndlilər həm bəylərə - mülkədarlara, həm də dövlətə vergi verirdilər. Deməli, XIX əsrin ikinci yarısının son rübündə Şuşada xalqın narazılığını doğuran ən başlıca amil milli müstəmləkə əsarəti və feodal zülmü ilə bağlı olmuşdur. Xalqın narazılığı özünü müxtəlif formalarda göstərirdi. Belə ki, kəndlilər çar məmurlarının, vergi yığanların özbaşınalığından Mərkəzə-şikayət ərizəsi yazır, vergi verməkdən boyun qaçırır, bəylərin, məmurların evlərinə hücum edir, dağıdır, yandırır, sahibkarları öldürürdülər. Vergilərin ağırlığından cana gəlmiş kəndlilər bəzi hallarda silaha əl atmalı olurdular.

Bəhs etdiyimiz dövrdə Şuşada mülkədar malikanələrinin yandırılması kütləvi hal almışdı. 1888-ci ildə Şuşa qəzasının Qarabulaq kəndinin əhalisi üsyan etmişdilər. Kənd əhalisi əvvəlcə kəndin mülkədarı Şaban ağa Şəfibəyovun kənddən getməsini tələb etdilər. Şaban ağa kəndlilərin bu tələbini yerinə yetirmədikdə kənd əhalisi onun evini mühasirəyə alıb onunla birlikdə yandıracaqlarını bildirdilər. Xalqın qəzəbindən qorxan Şaban ağa kəndi tərk etməyə məcbur oldu. Mülkədarın bütün torpaqları kəndlilər arasında bölüşdürüldü. Yerli hakim dairələr Şaban ağanın torpaqlarının geri qaytarılmasına cəsarət etmədilər. Çünki belə halda onlar «alovu daha da qızışdırmış» olardılar. XIX əsrin 80-ci illərində Şuşanın Tuğ və Qaraçinar kəndlərinin kəndliləri də fəal çıxışlar etmişdir. Lakin kəndli çıxışları Çar qoşunları tərəfindən çox qəddarlıqla yatırılırdı. XIX əsrin ikinci yarısında baş vermiş kəndli çıxışlarının məğlubiyyətə düçar olmasının başlıca səbəbi kəndli hərəkatının kortəbii xarakter daşıması, onlara rəhbərlik və istiqamətverici mərkəzin olmaması ilə bağlı idi. Bütün bunlara baxmayaraq Şuşa qəzasında müstəmləkə əsarətinə, milli zülmə və feodal istismarına qarşı baş vermiş kəndli üsyanının çox böyük tarixi əhəmiyyəti olmuşdu. Belə ki, Çar hökuməti xalqa qarşı öz müstəmləkə siyasətini nisbətən yumşaltmağa məcbur oldu.

XIX əsr ərzində Şuşa əhalisinin say tərkibində artım müşahidə edilmişdi. Bu artım bir neçə amillə bağlı olmuşdur. Birinci, Şuşaya ətraf regionlardan müxtəlif peşə sahibli alim və sənətkarların gəlməsi ilə bağlıdır. Eyni zamanda Çar hökuməti öz mənafeyinə uyğun olaraq bölgəyə ermənilər və rusları köçürməsi ilə Şuşa əhalisinin sayında süni artıma şərait yaratmışdır. Ən nəhayət, vaxtilə Nadir şah tərəfindən Xorasana köçürülmüş azərbaycanlıların geri, öz vətəninə qayıtması da əhalinin sayının artmasına təsir etmişdir. Həmçinin azərbaycanlıların çoxuşaqlılığını da xüsusi olaraq bu artım səbəblərə aid etmək lazımdır. İ.Drozdovun «Kafkaziskiy spornik» kitabına istinadən deyə bilərik ki, 1832-ci ildə Şuşada 20 min əhali yaşayırdısa (bundan 72,5 faizi azərbaycanlı, 27,5 faizi erməni və başqa millətlər), 1882-ci ildə orada yaşayan əhalinin sayı 24 min 522 nəfərə çatmışdı. Bu vaxt azərbaycanlılar yenə də əhalinin 70 faizdən çoxunu təşkil edirdilər, qalanları isə ermənilər, ruslar və qeyri millətlər idi. Əgər bir az da əvvələ (ermənilərin Azərbaycana köçürülməsindən əvvələ) getsək, onda ermənilərin (onların daha çox məskunlaşdığı) Şuşa şəhərində cüzi bir hissənin təşkil etdiyinin şahidi olarıq.

XIX əsrin ikinci yarısında Şuşa əhalisinin 7 faizini tacirlər və sövdəgərlər, 12 faizini karkərlər, 8 faizini xırda sənətkarlar, 5 faizini torpaq sahibləri, təsərrüfat başçıları, yerdə qalanlarını isə dövlət məmurları təşkil edirdilər.

XIX əsrdə Şuşanın sosial iqtisadi və siyasi həyatındakı dəyişikliklər, mədəni inkişafa da öz təsirini göstərmişdi.

XIX əsrin birinci yarısında Şuşada təhsil silki xarakter daşıyırdı. Çarizmin maarif sahəsində gördüyü tədbirlər müstəmləkəçilik siyasətinin həyata keçirilməsinə xidmət edirdi. Məktəb çarizmə sədaqətli qulluq edən məmurlar hazırlamalı idi. Ona görə də XIX əsrin birinci yarısında təhsil sisteminin quruluşunda hələ də aydınlıq yox idi və Şuşada maarif sahəsində bir çox məsələlər hələ də öz həllini tapmamışdı. Təhsilin inkişafına az vəsait buraxılırdı. Lakin yuxarıda qeyd etdiyimiz kimi, Çar Rusiyası Şuşanın müxtəlif idarələrində işləmək üçün yerli əhalidən özlərinə sədaqətli məmurlar hazırlamaq məqsədilə

1829-cu ildə qəza məktəbinin yaradılması haqda qərar verdi. Həmin qərara əsasən 1830-cu ildə Şuşada dövlətə məxsus qəza məktəbi yaradıldı. Tipindən asılı olaraq dövlət məktəblərində şəriət, rus dili, hesab, tarix, coğrafiya və başqa fənlər tədris olunurdu.

XIX əsrin ikinci yarısında Şuşada maarif inkişaf etməkdə idi. Təhsil mədrəsə və məktəblərdə aparılırdı. Məktəblərdə dərsləri əsasən mollalar keçirdilər. Şagirdlər əvvəlcə ərəb əlifbasını, sonra fars dilini öyrənirdilər.

1801-ci ildə Şuşada İbrahim xanın məscidində təşkil edilmiş ibtidai təhsil məktəbi əsrin ikinci yarısında da fəaliyyətini davam etdirirdi. Çarizm müsəlmanları bir-birinə qarşı qoymaq, onları zəiflətmək üçün həmişə dini təfriqədən istifadə etmişdir. 1849-cu ildə Şuşada yaradılmış məktəbdə yalnız şiələr oxuya bilərdilər. Bölgədə sünni məktəbi də, fəaliyyət göstərirdi.

XIX əsrin ikinci yarısında Şuşada Mir Möhsün Nəvvab tərəfindən məktəb yaradıldı. Həmin məktəbdə ana dili və şəriətlə yanaşı, şagirdlər təbiət fənləri, coğrafiya, tarix fənlərini də öyrənirdilər.

1874-cü ildə Şuşada qəza məktəbi şəhər məktəbi ilə əvəz olundu. Həmin məktəblərdə təhsil müddəti 6 il müəyyən olunmuşdu. Qəza məktəbindən fərqli olaraq şəhər məktəbində təhsil alan şagird həmin məktəbə pul köçürməli.

XIX əsrin 70-ci illərində Şuşada xalq məktəblərinin yaradılması böyük tarixi hadisə hesab edilirdi. 1875-ci ildə Şuşada ibtidai kənd məktəbi təşkil edildi ki, bu məktəbdə yalnız kəndlilərin uşaqları təhsil alırdılar. Həmin məktəblərdə cismani cəza tətbiq edilmir, şüurlu mənimsəmə üsulu əsas götürülürdü. Bu məktəblərdə qız uşaqları da oxuyurdular.

Şuşa əhalisinin maariflənməsində 1891-ci ildə burada açılmış Rus-Azərbaycan məktəblərinin rolu böyük olmuşdur. Həmin məktəblərdə tədris rus dilində aparılırdı. Məktəbdə rus dili, hesab, şəriət, tarix, coğrafiya, təbiətşünaslıq, Azərbaycan dili fənləri tədris olunurdu. Rus-Azərbaycan məktəbləri əsasən azərbaycanlılar üçün nəzərdə tutulmuşdu. Şuşanın imkanlı iş adamları və şəhər idarələri Rus-Azərbaycan məktəblərini maliy-

yələşdirirdilər. Bəhs etdiyimiz dövrdə Azərbaycanda 23 belə məktəb yaradılmışdı. Şuşada yaradılmış Rus-Azərbaycan məktəbində 36 şagird təhsil alırdı.

XIX əsrin ikinci yarısında təhsil sahəsində əldə edilmiş nailiyyətlərdən biri də, orta təhsil məktəblərinin yaradılması ilə bağlıdır. 1881-ci ildə Şuşada realnı məktəbinin əsası qoyuldu. Məktəb 6 sinifdən ibarət idi. Həmin məktəbdə şagirdlər institutlara hazırlanırdılar. XIX əsrin 90-cı illərində Şuşa təhsilində yaddaqalan mühüm hadisələrdən biri də qız məktəbinin yaradılması olmuşdur. 1894-cü ildə Şuşada «Marinskoe uçilişe» yaradıldı. Bu, Şuşada yaranmış ilk qadın orta məktəbi idi. Məktəbdə təhsil rus dilində aparılırdı. Bəhs edilən dövrdə Azərbaycanda cəmi 7 qız məktəbi fəaliyyət göstərirdi. Bu dövrdə Şuşada 42 müəllim müxtəlif fənlərdən dərs deyirdi.

Şuşada məktəblərin sayının artması, təhsil sisteminin genişlənməsi, mədəni-maarif müəssisələrinin də sayının artmasını zəruriləşdirdi. Kitabxana və qiraətxanalar ilk illərdə məktəblərin nəzdində açılırdı. 1896-cı ildə Şuşada ilk kitabxana fəaliyyətə başladı. Lakin təəssüflə bir həqiqəti qeyd etməliyik ki, kitabxana və qiraətxanalardakı materiallar rus dilində idi.

XIX əsrin qədim və şanlı tarixə malik Şuşamızın keçmişinə maraq xeyli artmış və bu sahədə bir sıra əsərlər yazılmışdır. Belə əsərlərdən biri Mirzə Adıgözəl bəy tərəfindən 1845-ci ildə qələmə alınmış «Qarabağnamə» əsəridir. Əsərdə 1736-1828-ci illərdə Qarabağ xanlığının siyasi tarixi, Pənahəli xanın fəaliyyəti, Şuşanın bərpası, Qacarın Şuşanı mühasirəyə alması, İbrahimxan dövründə Qarabağ xanlığı və Şuşada siyasi hadisələr təhlil edilmişdir.

Qarabağımızın və onun cənnət məkanı olan Şuşamızın tarixinə dair yazılmış ikinci böyük əsər Mirzə Camal Cavanşirə (1773-1853) aiddir. Qarabağda dünyaya göz açmış, ərəb, fars, türk, rus dillərini yaxşı bilən Mirzə Camal, tarixi ,astronomiyanı, coğrafiyanı dərindən öyrənmişdi. O, 1847-ci ildə «Qarabağ tarixi» əsərini yazmış və burada Qarabağın siyasi hadisələri ilə yanaşı, xanlığın sosial iqtisadi həyatına aid faktları da işıqlandırmışdır.

1829-cu ildə qəza məktəbinin yaradılması haqda qərar verdi. Həmin qərara əsasən 1830-cu ildə Şuşada dövlətə məxsus qəza məktəbi yaradıldı. Tipindən asılı olaraq dövlət məktəblərində şəriət, rus dili, hesab, tarix, coğrafiya və başqa fənlər tədris olunurdu.

XIX əsrin ikinci yarısında Şuşada maarif inkişaf etməkdə idi. Təhsil mədrəsə və məktəblərdə aparılırdı. Məktəblərdə dərsləri əsasən mollalar keçirdilər. Şagirdlər əvvəlcə ərəb əlifbasını, sonra fars dilini öyrənirdilər.

1801-ci ildə Şuşada İbrahim xanın məscidində təşkil edilmiş ibtidai təhsil məktəbi əsrin ikinci yarısında da fəaliyyətini davam etdirirdi. Çarizm müsəlmanları bir-birinə qarşı qoymaq, onları zəiflətmək üçün həmişə dini təfriqədən istifadə etmişdir. 1849-cu ildə Şuşada yaradılmış məktəbdə yalnız şiələr oxuya bilərdilər. Bölgədə sünni məktəbi də, fəaliyyət göstərirdi.

XIX əsrin ikinci yarısında Şuşada Mir Möhsün Nəvvab tərəfindən məktəb yaradıldı. Həmin məktəbdə ana dili və şəriətlə yanaşı, şagirdlər təbiət fənləri, coğrafiya, tarix fənlərini də öyrənirdilər.

1874-cü ildə Şuşada qəza məktəbi şəhər məktəbi ilə əvəz olundu. Həmin məktəblərdə təhsil müddəti 6 il müəyyən olunmuşdu. Qəza məktəbindən fərqli olaraq şəhər məktəbində təhsil alan şagird həmin məktəbə pul köçürməli.

XIX əsrin 70-ci illərində Şuşada xalq məktəblərinin yaradılması böyük tarixi hadisə hesab edilirdi. 1875-ci ildə Şuşada ibtidai kənd məktəbi təşkil edildi ki, bu məktəbdə yalnız kəndlilərin uşaqları təhsil alırdılar. Həmin məktəblərdə cismani cəza tətbiq edilmir, şüurlu mənimsəmə üsulu əsas götürülürdü. Bu məktəblərdə qız uşaqları da oxuyurdular.

Şuşa əhalisinin maariflənməsində 1891-ci ildə burada açılmış Rus-Azərbaycan məktəblərinin rolu böyük olmuşdur. Həmin məktəblərdə tədris rus dilində aparılırdı. Məktəbdə rus dili, hesab, şəriət, tarix, coğrafiya, təbiətşünaslıq, Azərbaycan dili fənləri tədris olunurdu. Rus-Azərbaycan məktəbləri əsasən azərbaycanlılar üçün nəzərdə tutulmuşdu. Şuşanın imkanlı iş adamları və şəhər idarələri Rus-Azərbaycan məktəblərini maliy-

yələşdirirdilər. Bəhs etdiyimiz dövrdə Azərbaycanda 23 belə məktəb yaradılmışdı. Şuşada yaradılmış Rus-Azərbaycan məktəbində 36 şagird təhsil alırdı.

XIX əsrin ikinci yarısında təhsil sahəsində əldə edilmiş nailiyyətlərdən biri də, orta təhsil məktəblərinin yaradılması ilə bağlıdır. 1881-ci ildə Şuşada realnı məktəbinin əsası qoyuldu. Məktəb 6 sinifdən ibarət idi. Həmin məktəbdə şagirdlər institutlara hazırlanırdılar. XIX əsrin 90-cı illərində Şuşa təhsilində yaddaqalan mühüm hadisələrdən biri də qız məktəbinin yaradılması olmuşdur. 1894-cü ildə Şuşada «Marinskoe uçilişe» yaradıldı. Bu, Şuşada yaranmış ilk qadın orta məktəbi idi. Məktəbdə təhsil rus dilində aparılırdı. Bəhs edilən dövrdə Azərbaycanda cəmi 7 qız məktəbi fəaliyyət göstərirdi. Bu dövrdə Şuşada 42 müəllim müxtəlif fənlərdən dərs deyirdi.

Şuşada məktəblərin sayının artması, təhsil sisteminin genişlənməsi, mədəni-maarif müəssisələrinin də sayının artmasını zəruriləşdirdi. Kitabxana və qiraətxanalar ilk illərdə məktəblərin nəzdində açılırdı. 1896-cı ildə Şuşada ilk kitabxana fəaliyyətə başladı. Lakin təəssüflə bir həqiqəti qeyd etməliyik ki, kitabxana və qiraətxanalardakı materiallar rus dilində idi.

XIX əsrin qədim və şanlı tarixə malik Şuşamızın keçmişinə maraq xeyli artmış və bu sahədə bir sıra əsərlər yazılmışdır. Belə əsərlərdən biri Mirzə Adıgözəl bəy tərəfindən 1845-ci ildə qələmə alınmış «Qarabağnamə» əsəridir. Əsərdə 1736-1828-ci illərdə Qarabağ xanlığının siyasi tarixi, Pənahəli xanın fəaliyyəti, Şuşanın bərpası, Qacarın Şuşanı mühasirəyə alması, İbrahimxan dövründə Qarabağ xanlığı və Şuşada siyasi hadisələr təhlil edilmişdir.

Qarabağımızın və onun cənnət məkanı olan Şuşamızın tarixinə dair yazılmış ikinci böyük əsər Mirzə Camal Cavanşirə (1773-1853) aiddir. Qarabağda dünyaya göz açmış, ərəb, fars, türk, rus dillərini yaxşı bilən Mirzə Camal, tarixi ,astronomiyanı, coğrafiyanı dərindən öyrənmişdi. O, 1847-ci ildə «Qarabağ tarixi» əsərini yazmış və burada Qarabağın siyasi hadisələri ilə yanaşı, xanlığın sosial iqtisadi həyatına aid faktları da işıqlandırmışdır.

XIX əsrin ikinci yarısında Qarabağın və onun mərkəzi olan Şuşa şəhərinin tarixinə həsr olunmuş əsərlərin sayı artmışdır. Bunlara misal olaraq Mirzə Yusif Qarabağinin (1798-1864) «Tarixi-safi» əsərini, Rzaqulu bəy Mirzə xan Qarabağinin (1847-1928) 1880-ci ildə yazdığı «Qarabağnamə» əsərini, Əhməd bəy Cavanşirin (1828-1903) 1883-cü ildə Şuşada yazdığı «1747-ci ildən 1805-ci ilədək Qarabağ xanlığının siyasi vəziyyəti haqqında» əsərini, Mir Mehdi Həşimzadənin (1819-1894) «Qarabağ xanlığının tarixi»ni, Mir Mehdi Xəzaninin «Kitabi tarixi Qarabağ» əsərini, Bəhmən Mirzə Qacarın (1811-1884) Şuşada, 1871-ci ildə fars dilində yazdığı «Şükürnameyi-Şahənşahı» əsərini və başqalarını göstərə bilərik. Bu əsərlərdə Şuşanın iqtisadi, siyasi, mədəni həyatı haqqında maraqlı məlumatlar vardır.

XIX əsrdə Şuşada ədəbiyyat və incəsənət sahəsində də böyük irəliləyişlər diqqəti cəlb edirdi. Aparılan tədqiqatlara əsasən deyə bilərik ki, XIX əsrdə Şuşada 95 şair olub. Hansı ki, onların əksəriyyəti haqqında «Şuşanın görkəmli şəxsiyyətləri» fəslində bəhs etmişik. Şuşada anadan olmuş, yaşayıb yaratmış və dünya miqyasında tanınmış belə şairlərdən biri də Qasım bəy Əli bəy oğlu Zakir (1784-1857) olmuşdur. Zakir zadəgan nəslinə mənsub olsa da, kasıb həyat sürmüşdür. Gənc yaşlarında kəndlilərlə birlikdə təsərrüfatda işləmiş və əhalinin istək və arzularına bələd olmuşdur. Onun yaradıcılığında sadəlik, orijinallıq, ahəngdarlıq, qırılmaz vəhdət əsas cəhətlərdir. Şair öz şerlərində qanunsuzluğa, rüşvətxorluğa, ədalətsizliyə qarşı çıxmışdır.

XIX əsrin ikinci yarısında Şuşada yaşayıb yaratmış görkəmli şairlərdən M.M.Nəvvabın (1833-1918), Xurşudbanu Natəvanın (1830-1897), Abdulla bəy Asinin (1839-1874) və başqalarının adlarını çəkə bilərik. Onların yazdıqları əsərlər bütün Şərqdə, Türk dünyasında tanınmış və dərin hörmət hissi ilə öyrənilmişdir.

XIX əsrdə çarizmin müstəmləkəçilik siyasətinə baxmayaraq Şuşa şəhəri Azərbaycanın ədəbi mərkəzlərindən birinə çevrilmiş, elm, ədəbiyyat və incəsənət inkişaf etmişdir. Bəhs etdiyimiz dövrdə Şuşada incəsənətin müxtəlif sahələri, o cümlədən teatr sahəsində irəliləyişlər xüsusi diqqətəlayiq idi. Şuşada ilk

teatr tamaşaları yerli teatr həvəskarları tərəfindən 1848-ci ildə göstərilmişdi. XIX əsrin ikinci yarısında bu sahəyə diqqət daha da artmışdı. 1880-cı illərdə Şuşada Yusif bəy Məlikhaqnəzərovun rəhbərliyi altında M.F.Axundovun komediyaları tamaşaya qoyulmuşdu. Həmin tamaşalarda F.Köçərli, B.Bədəlbəyli, S. Vəlibəyov, Ə.Haqverdiyev, N.Vəzirov, Cabbar Qaryağdıoğlu iştirak etmişlər. Bu tamaşalar Şuşa əhalisi tərəfindən çox yüksək əhval-ruhiyə ilə qarşılanmışdır.

XIX əsrdə Şuşada bir sıra məclislər yaradılmışdı. 1890-cı illərdə Hacı Hüsünün və Nəvvabın rəhbərliyi altında musiqişünaslar məclisi; Kərbalayi Səfixanın rəhbərliyi altında xəttatlar məclisi; Hacı Hüsünün rəhbərliyi altında xanəndələr məclisi; Məşədi Əkbər Muxtarovun rəhbərliyi altında nüsxəbəndlər məclisi; Kərbalayi Səfərəli və Nəvvabın rəhbərliyi altında nəqqaşlar məclisi; Kərbəlayi Səfixanın rəhbərliyi altında memarlar məclisi yaradılmışdır.

Azərbaycanın musiqi mədəniyyətinin inkişafında, Azərbaycan musiqisinin Zaqafqaziyada, Şərq ölkələrində və Avropada tanınmasında XIX əsr Şuşa musiqiçilərinin rolu böyük olmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi, Şuşada musiqi mədəniyyətinin inkişafında, ifaçıların yetişməsində musiqi məktəblərinin rolu xüsusi qeyd olunmalıdır. Xarrat Qulunun, İbrahimin, Kor Xəlifənin Şuşa şəhərində yaratdıqları məktəblərdə klassik musiqi mədəniyyəti inkişaf etdirilmiş, uşaqlara tar-kaman çalmaq və muğam öyrədilmişdir. Filosof, alim, şair M.M.Nəvvab musiqi üzrə də tədqiqatlarla məşğul olmuş və «Muğam sənəti» adlı kitab yazmışdır. Bu kitabda muğamlarımızın yaradılması və inkişaf qayda-qanunları hərtərəfli şərh edilmişdir.

1896-cı ildə Şuşada ilk Şərq Konserti təşkil edilmişdi. Həmin konsertə rəhbərliyi yazıçı Əbdürəhimbəy Haqverdiyev etmişdir. Bu konsertdə Şuşanın məşhur oxuyan və çalanlarından: Məşədi Zeynal, məşhur tarçalan Sadıqcan, Zabul Qasım, Məşədi Dadaş, Əbdülbaqi Zülalov, Keçəçi oğlu Məhəmməd, Cabbar Qaryağdıoğlu və başqaları iştirak etmişdilər. XIX əsrdə Şimali Azərbaycan musiqisinin dünya miqyasında tanınmasında Şuşa

musiqiçilərinin - Sadıqcanın, İsmailin, Həsənin, Abbasın, Məşədi İsinin, Hacı Hüsünün və başqalarının xidmətləri böyük olmuşdur.

XIX əsrdə Şuşada tikinti memarlıq işlərində xüsusi canlanma yaranmışdı. Şəhərdə bəzi tikililər bərpa edilir, bəziləri isə yenidən tikilirdi. Şuşada istehsal prosesinin sürətlə inkişafı şəhərin iqtisadiyyatının möhkəmlənməsinə kömək etmiş, əhalinin sosial vəziyyətinə müsbət təsir göstərmiş və xarici bazarlardan götürülən qazanc Şuşada bir neçə məscid, mədrəsə və karvansaraların tikilməsi ilə nəticələnmişdir. Xurşidbaninin, Gövhər Ağanın, Cəfərqulu xanın, Uğurlubəyin, Fərzəlibəyin, Nəcəfqulu ağanın, Hacı Qulunun, Səfibəyin və başqalarının Şuşada tikdirdiyi yeni tipli saray və imarətlər dövlət tərəfindən əsası qoyulan məktəb binaları, imkanlı iş adamları tərəfindən ucaldılan məscid və hamamlar XIX əsrin memarlıq abidələrinin ən gözəl nümunələrindən sayılırdı.

XIX əsrdə Şuşada inşa edilmiş memarlıq incilərindən biri Mehmandarovların evidir. 5 qapıdan 8 pəncərədən ibarət olan bina 1849-cu ildə, dövrünün məşhur memarı Kərbalayi Səfixan Qarabaği tərəfindən tikilmişdir. Sovet hakimiyyəti dövründə, Mehmandarovların qonaqları üçün tikilmiş bu bina müsadirə edilmiş və xalça muzeyinə çevrilmişdir.

Bir həqiqəti qeyd etməliyik ki, Şuşa bəyləri bir-birinin bəhsinə öz nüfuzunu, var-dövlət sahibi olduqlarını başqalarına nümayiş etdirməkdən ötəri yaraşıqlı binalar, malikanələr ucaldırdılar. Lakin təbiət, torpaq sarıdan şuşalılara bir az xəsislik etmişdi. Çünki camaatın arzusu müqabilində yararlı yerlər çatışmırdı. Ona görə də Şuşada tikinti işləri aparılarkən mümkün qədər torpağın hər qarışından səmərəli istifadə etməyə çalışırdılar.

Şuşanın memarlıq abidələrinin, məscidlərin, karvansaraların, qəsrlərin, yaşayış komplekslərinin inşasında qədim Şuşanın memar və nəqqaşlarından Mir Möhsün Nəvvab Qarabağinin, Məmmədyarın, Usta Qənbər Qarabağinin, Məşədi Xaspoladın, Kərbalayi Səfixan Qarabağinin və başqalarının xidmətləri böyük olmuşdur. Onların yaratdıqları əsərlər öz milliyinə və forma müxtəlifliyinə görə Azərbaycan memarlıq mədəniyyəti tarixində özünəməxsus yer tutur.

XIX əsrdə Şuşada gözəl memarlıq üslubu ilə tikilmiş nümunələrdən biri də «Bazarbağı» deyilən yerdən «Şeytanbazar»a qədər ərazini əhatə edən «Rastabazar» adlanan ticarət mərkəzi olmuşdur. Bu bazar orta əsr Şərq üslubunda tikilmişdir və Şuşa şəhərinə xüsusi yaraşıq verirdi. Bazarın ərazisini əhatə edən səkilər üstüörtülüdür. Bu isə rahat hərəkət üçün nəzərdə tutulubdur. Memar, şuşalıların yayda günəşdən, qışda yağışdan qorunmasını da fikirləşmişdir. Lakin təəssüflə qeyd etməliyik ki, gözəl memarlıq nümunəsi olan «Rastabazar» XX əsrin 30-cu illərində dağıdılmışdır.

XIX əsrdə Gəncə, Nuxa və Şamaxıdan sonra, Şuşa şəhəri yarımsənaye və ticarət mərkəzi kimi formalaşırdı. Şuşa şəhərində yeni-yeni ticarət şəbəkələrinin açılması, yeni sənaye obyektlərinin işə salınması şəhər əhalisinin güzəranının yaxşılaşmasına, bu isə öz növbəsində şəhərdə bərpa, abadlıq işlərinə təsir göstərmişdir. Bəhs etdiyimiz dövrdə Şuşada sənətin müxtəlif növləri - zərgərlik, nəqqaşlıq, rəngsazlıq, bənnalıq, xarratlıq, musiqiçilik, ifaçılıq və sair öz inkişafında indiyənə qədər görünməyən səviyyəyə çatdı. «Qafqaz» qəzeti 1868-ci ildə yazırdı ki, «Şuşa gündən-günə yox, saatdan-saata böyüyür, onun ticarəti inkişaf edir, şəhər əhalisi varlanır və artır».

Şuşanın kurort şəhərinə çevrilməsi ideyası XIX əsrə aiddir. Məşhur klimotoloqlar, fitiziatorlar və mikrobioloqlar Şuşanın flora, fauna və iqlimini dəqiq yoxladıqdan sonra belə qənaətə gəlmişlər ki, Şuşanın havası və suyu vərəm, göy öskürək, malyariya və başqa xəstəliklərin müalicəsi üçün əhəmiyyətlidir. 1854-cü ildə Şuşadan 18 kilometr cənubda Turşsu deyilən ərazidə birdən-birə su fəvvarə vurmuşdu. Böyük müalicəvi əhəmiyyətə malik Turşsuyun səsi-sorağı tezliklə ümumittifaq miqyasında yayılmışdı. Turşsuya yaz-yay aylarında minlərlə xəstə adamlar gəlir və «dirilik çeşməsi»ndən içərək şəfa tapırdılar. Ürək-damar, mədə-bağırsaq xəstəliklərinin müalicəsi üçün Turşsuda müalicə otaqları, su vannalarından ibarət hamam tikilmişdir.

Şuşanın hər bir daşı, qayası, küçəsi canlı bir tarix, incəsənət abidəsidir. Şəhərin 967 daş döşənmiş küçəsi var. Hər bir küçə sirli - soraqlı bir aləmdir. Həm yerə düzülən, həm də divarlardakı

daşlar qəribə düzülüşə malik idi. Ağsaqqalların dediyinə görə Şuşanın küçələri, səkiləri güclü yağışlardan sonra daha gözəl, daha cazibəli olarmış. Yağışdan sonra şüşə kimi görünən küçələr gecələr ağappaq ağararmış. İnsanlar bu qeyri-adi şəhərin süd rəngli küçələrinə tamaşa etməkdən doymazmışlar. Sutkanın hansı vaxtı olursa-olsun şəhərin hansısa səmtindən - «Qurdlar» məhəlləsindənmi, «Ağa dədəli»dənmi, «Hamamqabağı»ndanmı gözəl, təravətli bir səs ucalır. Bu səsə, bu görünüşə gül-çiçəyin ətri də əlavə olanda insan sehrli bir aləmə düşdüyünü hiss edir.

Memarlıq inciləri ilə zəngin olan Şuşanın binalarına, divarlarına hissi-həyəcansız baxmaq mümkün deyildir. Hətta, şəhərdəki daş darvazalar, sütunlar, qövsvari tağlar, küçə və səki daşlarının düzülüşü bir növ Misir ehramlarını xatırladır. Küçədəki divarlara baxdıqca-baxmaq istəyirsən. Bəzən düşünürsən ki, XVIII-XIX əsrlərdə bu küçələri tikən insanlar elmin və texnikanın olmadığı bir vaxtda, həmişə insanları düşündürən, heyrətləndirən bu sirli aləmi necə yaradıbdır?

Qədim Şuşalılar şəhərdə bərpa, abadlıq işləri aparmaqla yanaşı, Şuşanın memarlıq üslubunu və ekoloji şəraitinin də mühafizə edib, qorunmasına çalışmışlar. Şəhərin kommunikasiya xətləri küçənin ortası ilə xüsusi, böyük daşların altı ilə aparılmışdır. Yerli əhali içməli su quyularını və bulaqlarını vaxtaşırı təmizləyirdilər. Yeri gəlmişkən onu da qeyd edək ki, XIX əsrdə Şuşada 2800 içməli su quyusu olub. XX əsrdə isə bunlardan yalnız 18-i fəaliyyət göstərirdi. Su quyularının və bulaqların sayının azalması təbii amillərlə yanaşı, həm də qonşu ərazilərdə süni artezan quyularının qazılması ilə bağlı olmuşdur.

Aparılan elmi araşdırmalara əsasən müəyyən edilmişdir ki, XIX əsrin sonlarında Şuşada 202 memarlıq abidəsi, 171 memarlıq binası, 36 tarixi abidə, 160 incəsənət abidəsi var idi.

XIX əsrin ikinci yarısında Şuşada gözəl üslubda tikilmiş tarixi abidələrdən biri də «Gövhər Ağa» məscididir. Məscid 1883-cü ildə İbrahimxəlil xanın varisi Gövhər Ağanın sifarişi ilə usta Qəmbər Qarabağlı tərəfindən tikilmişdir. Həmin məscid erməni vandallarının hücumunadək (1992 - may) salamat qalmışdı. Məscid istər xarici görünüşü, istərsə də daxili yaraşığı ilə

fərqlənirdi. Yeri gəlmişkən onu da qeyd edək ki, XIX əsrin sonlarında Şuşada 41 məscidin olması faktları vardır. Sovet hakimiyyəti illərində məscidlərin çoxu ermənilər tərəfindən dağıdılmış və yalnız 10-u salamat qalmışdır.

XIX əsrdə Şuşanın memarlıq abidələri içərisində öz möhtəşəmliyi ilə fərqlənən Şərq hamamlarıdır. XIX əsrin sonlarında Şuşada hamamların sayı 16-ya çatmışdır. Bu hamamlar zahiri görkəminə görə bir-birindən az fərqlənirdi. Şuşa hamamları gözəl istirahət guşəsi idi. Hamamların üstündəki uca günbəzlər uzaqdan şəhərə girənin diqqətini cəlb edirdi. Qabaqcıl Avropa dövlətlərinin hamamları ilə rəqabət apara bilən Şuşa hamamları 5 hissədən ibarət idi: qızdırıcı (tulanbar), daşdan hörülmüş isti və soyuq su anbarları, yuyunma və kisələnmə otaqları, ılıq su ilə doldurulmuş hovuz və bir də daş arakəsmələrdən ibarət geyinmə şöbələri. Çox təəssüflər olsun ki, xalqımızın yaratdığı və Şuşaya xüsusi yaraşıq verən bu gözəl abidələrin on altısı da erməni «mütəxəssisləri»nin təhriki ilə 1950-1960-cı illərdə tamamilə dağıdılmışdır.

Şuşanın gəzməli-görməli yerlərindən biri də «Gəncə qapısı» tərəfdir. Şəhərin bu hissəsində həm xan qızı Natəvanın evi, cah-cəlalı, bulağı və sair yerləşir, həm də insanı heyran qoyan «Şuşa muzeyi» yerləşmişdir. Yeri gəlmişkən onu da deyək ki, Xurşudbani Natəvan (1830-1897) İbrahimxanın nəvəsi və Mehdiqulu xanın qızıdır. 1845-ci ildə Mehdiqulu xan vəfat etdikdən sonra xanlıq Natəvanın əlinə keçmiş, Şuşa şəhərinin abadlaşmasında böyük xidmətlər göstərmişdir. Natəvan çox əliaçıq və xeyirxah bir qadın idi. «Xan qızı» Şuşada ədəbi məclislərin açılmasında, yeni məktəblərin tikilməsində, içməli su çəkilişində, kommunikasiya xətlərinin bərpasında, əhəmiyyətli binaların tikilməsində və sair işlərdə fəal iştirak etmişdi. Natəvan həm gözəl şairə, həm də yaxşı xəttat, incə rəssamlıq və təsviri incəsənət əsərlərinin müəllimi, bədii sənətkarlığın mahir ustası olmuşdur. Onun şerlər albomunda karandaşla çəkilmiş 30 şəkil də vardır.

Natəvanın yaşadığı həmin həyət Şuşanın ən könülaçan bağına çevrilmişdir. Heykəltəraş Həyat Abdullayeva burada Xan

qızının büstünü və bir neçə şəkil kompozisiyasını yaratmışdır. Burada həmçinin ləyən, teşt, tava, qab-qacaq, rəsmləri daşların üzərinə işlənmiş və divara hörülmüşdür. Həmin daşların haradan, nə vaxt və kim tərəfindən gətirilməsi haqqında məlumat yoxdur. Lakin bu daşların hər birisi incəsənət abidəsidir.

XIX əsrin sonlarında Şuşa şəhəri öz inkişaf surətini artırmaqda davam etmiş, ticarət əlaqələri ilbəil genişlənmişdir. Şəhərdə əhalinin sayı 25 mini ötüb keçmişdi. Şuşanın bütün iqtisadiyyatı sahibkarların, şirkətlərin, ticarət birliklərinin əlində cəmlənmişdi. Maliyyə kredit sahəsində durğunluq aradan götürülmüş, əhalinin ərzaq və yanacaq təminatı yaxşılaşmışdır. Həmin vaxt Tiflisdə çıxan «Vestnik Kafkaza» jurnalı yazırdı ki, «Şuşanın görünüşü orta əsr Avropa şəhərlərini xatırladır. Şəhər tacirləri ipək-barama alverində üstün mövqeyə malik olub, Tiflis, Moskva və Marsel şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayırlar. Şuşada həyat davam və inkişaf etməkdədir».

XIX əsrdə Şuşanın mədəni inkişafında şair, rəssam, musiqişünas, astronom, xəttat, nəqqaş, dülgər, kimyagər, riyaziyyatçı, hipnozçu M.M.Nəvvabın xidmətləri böyük olmuşdur. Gözəl rəsm əsərlərinin müəllifi olan Nəvvab rəngləri özü hazırlayırdı. Maraqlı cəhət ondan ibarətdir ki, 100 il əvvəl vurulmuş rənglər yenə də öz təravətini qoruyub saxlamışdı. Geniş rəssamlıq üslubu, rəngli rəsm cizgiləri Nəvvabın əsərlərini dekorativ rəssamlığın realist üsuluna yaxınlaşdırmışdır. Onun yaradıcılığında təbiət təsvirləri, orijinal kompozisiyalar üstünlük təşkil edirdi. Nəvvab tərəfindən çəkilmiş «Teymurləngin portreti» böyük əhəmiyyətə malikdir.

XIX əsrdə Şuşa saf təbiəti və gözəlliyi ilə Azərbaycanın bir neçə şəhərini geridə qoyurdu. Şuşanın uca bürcləri, möhtəşəm qala divarları, şəhəri 3 tərəfdən əhatə edən uçurum qayalar qəhrəmanlıqdan, mərdlikdən xəbər verir. Bütün bunlarla yanaşı Şuşa «Qafqazın sənət məbədi», «Azərbaycan musiqisinin beşiyi» adlanırdı. Çünki «Qartal qanadlı şəhər» Qafqaza və dünyaya onlarla görkəmli şair, musiqiçi, xanəndə bəxş etmişdi. Bütün bu müvəffəqiyyətlər şuşalıların qəhrəman əməyinin nəticəsində əldə edilmişdir. Şuşanın mədəni inkişafı onun iqtisadi inkişafı ilə

bağlı olmuşdur. XIX əsrdə Şuşada yeni təhsil ocaqları, əbədi məclislər, təzgirəçilər, xəttatlar yaranmışdır. Şuşanın səsi-sorağı xarici dövlətlərə gedib çatmış, uzaq ölkələrdən bu «möcüzəli dünyanı» görməyə gələnlər arasında məşhur səyyahlar, rəssamlar və hətta missionerlər də olurdu. Əcnəbi qonaqlar Şuşanın gözəlliyini seyr etməkdən doymazmışlar. XIX əsrdə Şuşanın füsnükar təbiəti və mədəniyyəti daha çox Avropa və Şərq səyyahlarını maraqlandırmışdır. Məşhur Fransa səyyahı Dubua-de Monpere XIX əsrdə qələmə aldığı «Qafqaza səyahət» kitabında Şuşanın gözəlliyini dərindən təsvir etmişdir. 1865-ci ildə Şuşaya gəlmiş məşhur rus rəssamı V.V.Vereşşagin şəhərin cazibədar mənzərələri, şəhər abidələri haqqında məlumat vermiş və əhəmiyyətindən bəhs etmişdir.

1873-cü ildə Vyana şəhərində beynəlxalq sərgi keçirilmiş və həmin sərgidə Şuşa nümayəndələri də iştirak etmişdilər. Şuşa sənətkarları tərəfindən hazırlanmış əl işləri sərgidə nümayiş etdirilmiş və iştirakçılar tərəfindən böyük maraq hissi ilə qarşılanmışdır. Sərgidə nümayiş etdirilən dekorativ tətbiqi sənət əsərləri içərisində Şuşa xalçaları kompozisiyalarının rəngarəngliyinə və parlaq rənglərinin ahəngdarlığına görə xüsusi olaraq fərqlənirdi. Şuşa xalçaları təkcə Vyanada deyil, həmçinin Paris, Berlin, Peterburq, Moskva incəsənət sərgilərində də nümayiş etdirilmiş və medallara layiq görülmüşdür. Nümayiş etdirilən eksponatların («Güzgülü Zili», «Göllü kilim», «Xanlıq», «Ləpə» və sair) bədii tərtibatı həndəsiləşdirilmiş nəbati naxışlar, rəmzi xarakterli rəsmlər, müxtəlif kompozisiyalar daxildir. Nümayiş etdirilən xalçaların forması uzunsov, rəngləri isə şux və əlvan idi.

Qədim oğuz-türk diyarı Şuşa əsrlərin yadigarı olan gözəl memarlıq, tarixi və incəsənət abidələri ilə zəngindir. Gözəl dağ mənzərəsi, bitki zənginliyi, təmiz və saf hava, Qarabağ sıra dağlarının qarlı zirvəsinin əzəmətli görünüşü, vadi və dərələrin bədii mənzərəsi, yaşıl ağaclardan ibarət gözəl meşəlik, sərin sulu İsa bulağı, Cıdır düzü, Turşsu, Şirlan, Daşaltı, Şuşa ətrafındakı sıldırım qayalar - bir sözlə Şuşadakı hər şey təbii abidəni xatırladır. Şəhərdəki keçmiş tariximizi özündə əks etdirən gözəl sənət inciləri - şəhər ətrafındakı «Qala hasarı», «Meydan bulağı»,

«Böyük məscid», «Hacıqululların malikanəsi», «Zöhrabbəyovların malikanəsi», «Xınalıq Muxtarın karvansarayı», «Rastabazar», «Gəncə qapısı», «Gövhərağa məscidi», İbrahim xanın divanı, Natəvanın, Əsədbəyin, Uğurlubəyin evləri, Mehmandarovların yaşayış kompleksi, «Qara Böyükxanım» qəsri, Mirsiyabovun karvansarası, «Heydər türbəsi», «Saatlı məscidi» və başqa qədim, milli abidələrimiz, Qarabağımızın incisi Şuşaya xüsusi yaraşıq verir. Bu abidələrdəki gözəl rəsmlər, naxışlar, şəbəkələr, milli naxışlı qapı, pəncərələr, yerli daşlardan yonulmuş sütunlar, pilləkənlər, müxtəlif bəzək daşları memarlıq sənətimizin ən gözəl nümunələrindəndir.

Tanınmış dünya siyasətçisi, böyük öndərimiz Heydər Əliyev çıxışlarından birində göstərmişdir ki, «Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı qədim tikililəri bərpa etmək, hər şeyi qayğı ilə qoruyub saxlamaq və gələcək nəsillərə çatdırmaq bizim ən ümdə və müqəddəs vəzifələrimizdəndir». Vətənini, xalqını, millətini torpağını sevən ümummilli liderimiz H.Ə. Əliyevin təşəbbüsü ilə 1977-ci ildən Şuşa şəhəri Azərbaycanın tarixi memarlıq qoruğu elan edildi. 198 respublika dərəcəli köhnə tarixi abidə Azərbaycan Mədəniyyət Nazirliyinin uçotuna alındı. Şuşa şəhəri başdan-başa tarixi abidədir. Burada hər kvadrat kilometrə 327 tarixi abidə düşür. Ümumiyyətlə, qoruq zonasına 549 qədim bina, ümumi uzunluğu 1203 metr olan daş döşənmiş küçələr, 18 məhəllə bulağı, 15 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 kilsə, qala divarları və bürcləri, 21 sovet dövründə yaradılmış tarixi abidə daxil idi. Şuşa özü boyda böyük bir tarixi abidə, təbii gözəlliyi ilə böyük bir muzey, əvəzolunmaz incidir.

Çox təəssüflər olsun ki, Azərbaycanın cənnət məkanı, qədim Oğuz-Türk diyarımız erməni vandalları tərəfindən 1992-ci ildə dağıdılmış və yandırılmışdır.

# V FƏSİL

## ŞUŞANIN GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİ

Şuşa gözəl Qarabağın gözüdür desək, şişirtmə sayılmaz. Sıldırım qayalar sinəsində məğrur dayanan bu dağlar gözəli Azərbaycanın təbii konservatoriyası, musiqi sənətimizin ocağı olmuşdur. Şuşa həm də qədim abidələri ilə məşhurdur. Ustad memarların əli ilə burada yaradılmış sənət nümunələri xalqımızın qədim mədəniyyətindən xəbər verir. Tarixi sənədlərə müraciət edərkən biz bir daha dediklərimizin şahidi oluruq. Belə ki, tədqiqatlar nəticəsində məlum olmuşdur ki, XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 100 nüsxəbənd, 19 xəttat, 16 nəqqaş, 18 memar, 5 astronom, 16 həkim, 42 müəllim var idi. Həmin ziyalılarımızın Şuşanın mədəniyyət mərkəzlərindən birinə çevrilməsində böyük xidmətləri olmuşdur. Təsadüfi deyildir ki, el arasında Şuşanı sağlamlıq şəhəri, istedadlar məskəni adlandırırlar. Həmin istedadlardan bəzilərinin həyat və yaradıcılığı haqqında qısa xülasəni diqqətinizə çatdırırıq:

İlk növbədə yuxarıda adlarını çəkdiyimiz Pənahəli xanın və İbrahimxəlil xanın xidmətlərini xüsusilə qeyd etməliyik. Şuşanın inşa edilməsində, onun hasarla alınmaz qalaya çevrilməsində, divar və qəsrlərin tikilməsində hər iki dövlət başçıları xeyli işlər görmüşdülər, hansı ki bu barədə biz yuxarıda şərh etmişdik.

Rostov şəhəri xatirə lövhəsində bir igid şuşalının da adı həkk olub: «Qaraşov Aslan Məmməd oğlu (19.XI.1919, Şuşa - 12.02.1943, Rostov)». Aslan 1939-cu ildə ordu sıralarına çağırılmış və Böyük Vətən müharibəsində artilleriya batareyasının komandiri təyin edilmişdir. O, Şimali Qafqazın azad edilməsində böyük igidlik göstərmişdir. Rostovun Semernikova kəndində gedən döyüşlərdə cəsur döyüşçü Aslan düşmənin 8 tankını yandırmış və özü də həlak olmuşdur. Möhkəm əqidəli şuşalı balasına Böyük Vətən Müharibəsi qəhrəmanı adı verilmiş, «Qırmızı Bayraq» ordeni və çoxlu medallarla təltif edilmişdir. Qədirbilən şuşalılar Şuşa şəhərində mərkəzi küçələrdən birinə Aslan Qaraşovun adını vermişdilər.

Şuşanın füsnükar təbiəti, həm də dünya şöhrətli heykəltəraşlar yetişdirmişdir. 1915-ci ildə Şuşada doğulan Qaryağdı Cəlal Məhərrəm oğlu məhz belə şəxsiyyət idi. Cəlal heykəltəraşlığın müxtəlif janrlarında (monumental heykəl, portret, büst, barelyef və sair) əsərlər yaratmışdır. Onun yaratdığı əsərlər içərisində M.P.Vaqifin heykəli (1939-1940), Sovet İttifaqı Qəhrəmanı A.Quliyevin (1945), İ.Məmmədovun (1944) barelyefi, Natəvan (1949) və Z.Qəniyevanın büstləri, N. Nərimanovun (1966-1968), M.Sabirin (1962) heykəli, S. Vurğunun qəbirüstü abidəsi (1966) və başqaları gözəlliyi, dinamikliyi və ifadəliliyi ilə fərqlənmişdir. Onun yaratdığı əsərlər yığcamlığı və milli koloritliyi ilə diqqəti xüsusi olaraq cəlb etmişdir. Məşhur heykəltəraş və rəssam xidmətlərinə görə «Qırmızı Əmək Bayrağı» və «Şərəf nişanı» ordenləri, medallarla təltif edilmişdir.

Repertuarında Azərbaycan xalq mahnıları, muğamlar, eləcə də keçmiş SSRİ xalqlarının və sovet bəstəkarlarının mahnılarının əsas yer tutduğu Qacar Sürəyya Sədrəddin qızı sağlamlıq şəhəri Şuşada doğulmuşdur. Sürəyyanın ifaçılığında sadəlik, səmimiyyət, incə zövq səciyyəvi olmuşdur. O, 1927-1929-cu illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti, 1940-cı ildən Azərbaycan Dövlət Filarmoniyasının solisti, 1968-ci ildən vokal üzrə məsləhətçi müəllim işləmişdir. Q.S.Sədrəddin qızı Azərbaycan müğənnisi, Azərbaycan və Ermənistanın xalq artisti adlarına layiq görülmüş, iki dəfə «Şərəf nişanı» ordeni və medallarla təltif edilmişdir. Qədirbilən şuşalılar Şuşa şəhərində mərkəzi küçələrdən birinə Aslan Qaraşovun adını vermişdilər.

Dağlar gözəli Şuşamız həm də qorxmaz, mərd qəhrəmanlar vətənidir. Bütün Azərbaycan xalqının fəxri sayılan Quliyev Yaqub Allahqulu oğlu 1900-cü ildə Şuşada dünyaya göz açmışdır. 1920-ci illərdə vzvod komandiri, rota komandiri, türkmən süvari polkunun qərargahının rəisi, 1938-ci ildə Türküstan dağ-süvari briqadası qərargahının rəisi, 1939-cu ildə, Orta Asiya Hərbi dairə qərargahının rəis müavini, 1942-ci ildə 97-ci süvari diviziyasının komandiri vəzifələrində işləmişdir. Dərin düşüncəli Yaqub sovet hərbi xadimi adına layiq görülmüş və general mayor

rütbəsi almışdır. İgid şuşalı Stalinqrad vuruşmasında qəhrəmancasına həlak olmuşdur. Xalqımız ölməz qəhrəmanı ilə fəxr edə bilər. Onun adı Mamay təpəsindəki xatirə ansamblında yazılmış, Türkmənistanda Yaqubun adına abidə qoyulmuş və bir məşhur küçəyə Y.Quliyevin adı verilmişdir. Ölümündən sonra Y.A. Quliyevə Lenin ordeni, sağlığında isə 2 dəfə «Qırmızı Bayraq» ordeni ilə təltif olunmuşdur. Lenin ordenli generalın adına Şuşada da, küçə var.

Şuşada doğulmuş (1887-ci il), təhsil almış və sonda doğulduğu vətəndə vəfat etmiş (1938), görkəmli dövlət adamlarından biri də İsay Dövlətov olmuşdur. O, 1920-ci ildə Azərbaycan İstehlak Komitəsinin sədri, 1923-1937-ci illərdə Azərbaycan MİK-nin sədr müavini, XKS-nin baş arbitiri vəzifələrində çalışmışdır. İ.İ.Dövlətov AK(b)P MK və MNK, Zaqafqaziya MİK-nin üzvü, ÜİK(b)P-nın 15-ci qurultayının nümayəndəsi seçilmişdir.

XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində Azərbaycan xalqının görkəmli və qocaman xanəndələrindən biri də Əbdülbağı Zülalov idi (1841-1927). Xalqımızın musiqi mədəniyyətinin inkişafında «Bülbülcan» təxəllüsü almış Əbdülbağı çox böyük işlər görmüşdür. «Bülbülcan» təkcə Azərbaycan xanəndəsi deyildi, o həm də 1927-ci ildə «Əmək qəhrəmanı» adına layiq görülmüşdür. İlk musiqi təhsilini Şuşada Xarrat Quludan alan xanəndə teatr tamaşalarında, konsertlərdə, müxtəlif məclislərdə musiqimizə yeni rəng vermişdir. O, geniş diapazona, məlahətli və təsirli səsə, güclü zəngulələrə malik sənətkar idi. Görkəmli xanəndələrimiz C.Qaryağdıoğlu, Ə.Abdullayev, S.Şuşinski və başqaları Ə.Zülalovdan dərs almışdılar. Görkəmli sənətkar 1920-ci ildən başlayaraq, «Şərq Konservatoriyası»nda və Azərbaycan Dövlət Türk Musiqi məktəbində muğamatdan dərs demişdir. Ümumiyyətlə, Əbdulbağı Zülalov Azərbaycan vokal sənətinin görkəmli nümayəndələrindən biri idi və xalqımızın milli-mənəvi dəyərlərinin inkişafında böyük işlər görmüşdü.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Şuşa musiqiçiləri Azərbaycan musiqisini daha yüksəklərə qaldırmışdır. Belə musiqişünaslardan biri də Əmirov Məşədi Cəmil Əmiraslan oğlu (1875-1928) olmuşdur. O təkcə tarizən deyildi, həm də bəstəkar

və musiqi xadimi idi. Böyük sənətkar və şair M.M.Nəvvabdan dərs alan Məşədi Cəmil məşhur xanəndələrdən M.M.Fərzəliyevi, Malıbəyli Həmidi, Bülbülü tarda müşayiət etmişdir. Onun ifa etdiyi bir sıra muğam və mahnıları Riqanın «Qrammofon» şirkətində lentə alınmışdır. Əmirov həm də məşhur aktyor idi. O, Məcnun, Kərəm, Qərib rollarını oynamışdı. Məşhur musiqişünas ilk dəfə olaraq «Heyratı» muğamını nota salmış, «Seyfəlmülk» operasını və «Namuslu qız» musiqili dramının müəllifidir. O, ömrünün son illərində müəllimlik etmiş və musiqi sənətinin incəliklərinin gənc nəslə çatdırılması işində böyük xidmətlər göstərmişdir.

Şuşanın yetişdirdiyi böyük sənətkarlardan biri də Süleyman Ələsgərov olmuşdur. O, həm bəstəkar, dirijor, artist, həm də pedaqoq və artist idi. Süleyman müəllim müxtəlif janrlarda musiqilər yazmışdır. Onun yaradıcılığında operetto əsas yer tutur. Belə ki, «Ulduz» (1948), «Özümüz bilərik» (1962), «Olmadı elə, oldu belə» (1964), «Milyonçunun dilənçi oğlu» (1966), «Sevindik qız axtarır» (1970), «Həmişəxanım» (1971) və başqa əsərləri ekranlaşdırılmış və xarici dövlətlərdə tamaşaya qoyulmuşdur. S.Ələsgərov bir çox povestlərin, 4 kantatanın, 2 simfoniyanın, simfonik muğamın, simfonik poemaların, suitaların, kamera-vokal və instrumental əsərlərin müəllifidir. Onun əsərlərində musiqi dilinin sadəliyi, səlisliyi, forma aydınlığı səciyyəvidir. Xidmətlərinə görə S.Ələsgərov «Şərəf nişanı» ordeni və medallarla təltif edilmişdir.

Xanəndəlik sənətini Şuşada Xarrat Qulunun məktəbində və məşhur xanəndə Məşədi İsidən öyrənən, geniş diapazonlu, güclü və gözəl səsə malik görkəmli Azərbaycan xanəndələrindən biri də Keçəçi oğlu Məhəmməd (1964-1940) olmuşdur. O, Bayatı-qacar muğamını orijinal və xüsusi ustalıqla oxumuşdur. Onun ifasında bir sıra muğam, təsnif və xalq mahnıları 1912-ci ildə «Spord-Rekord» (Varşava), 1914-cü ildə isə «Ekstrafon» (Kiyev) şirkətləri tərəfindən qrammofon valına yazılmışdır. 1920-ci ildən başlayaraq Məhəmməd öz sənətinin incəliklərini gənc nəslə öyrətməyə başlamış, xanəndəliklə yanaşı müəllimlik də etmişdir. Keçəçi Məhəmmədin ən yaxşı qarmon çalanı Kərbalayi Lətif

(1876-1944) olmuşdur. Qarmon çalmağı atasından öyrənən Lətif tezliklə təkcə Şuşada deyil, bütün Azərbaycanda tanındı. Şuru, Rastı, Segahı, Bayatı-Qacarı, Azərbaycan xalq rəqslərini xüsusi ustalıqla ifa edən sənətkar həmin musiqini 1914-cü ildə qrammofon valına yazdırmışdır.

122 illik ömrünün yarıdan çoxunu Şuşada yaşayıb-yaratmış, İranda, Türkiyədə, Odessada, Aşqabadda özünün gözəl sənəti ilə iz qoymuş görkəmli Azərbaycan memarı Kərbalayi Səfixan (1788-1910) inşa etdiyi tikililərdə, xüsusilə məscidlərin tikilməsində şərq memarlığı ilə yerli ənənələri əlaqələndirmişdir. Bərdədə İmamzadə kompleksinin yenidən qurulması (1868), Ağdam məscidi (1870), Şuşada Aşağı Məscid (1874-1875), Şuşada Gövhərağa məscidinin bərpası, eləcə də Odessada Tatar məscidi (1870), Aşqabadda «Qarabağlar» məscidi (1880) və başqa tikililər Kərbalayi Səfixanın adı ilə bağlıdır. Çox təəssüflə qeyd etməliyik ki, görkəmli sənətkarın yaratdığı gözəl sənət incilərinin çoxu erməni vandalları tərəfindən yandırılmış və dağıdılmışdır.

Qarabağın zümrüd tacı Şuşa - Azərbaycan dekorativ sənət ustası, ornamentçi rəssam, xalçaşünas və sənətşünas, Azərbaycan xalq rəssamı, SSRİ Dövlət Mükafatı laureatı, Azərbaycan Əməkdar İncəsənət xadimi, 2 Qırmızı Əmək Bayrağı ordeni, «Şərəf nişanı» ordeni və medallar sahibi Lətif Paşa oğlu Kərimovun vətənidir. Sənətkarın ən böyük nailiyyəti dekorativ sənəti müasir ornamentlərlə zənginləşdirməsi olmuşdur. Onun yaratdığı «Qonaqkənd», «Şuşa», «Göy-Göl», «Qarabağ», «Vurğun», «Vaqif», «Fizuli», «Nəsimi» və başqa portret xalçalar ornamental bəzəyi, rəsmlərinin zərifliyi və ifadəliliyi, zəngin koloritinə görə xalçaçılıq sənətinin qiymətli nümunələrindəndir. Bacarıqlı rəssam zərgərlik, keramika, ağac, metal və daş üzərində oyma sənəti sahəsində də gözəl nümunələr yaratmışdır. Onun yaratdığı əsərlər Avropada, ABŞ-da, Şərq ölkələrində, keçmiş SSRİ məkanında nümayiş etdirilmiş və böyük maraqla qarşılanmışdır. 1945-ci ildən AMEA-da işləyən Lətif müəllim öz sənətinin incəliklərinin gənc nəslə öyrədilməsi işində çox böyük işlər görmüşdür.

Sənətin sirlərini Hacı Hüsüdən öyrənən, Azərbaycanın məşhur xanəndəsi və tarizanı kimi tanınan Həmid Malıbəyli (1869-1922) gözəl təbiətə malik Malıbəyli kəndində dünyaya göz açmışdı. Onun zil və məlahətli səsi təkcə Şuşada, Qarabağda deyil, Azərbaycanın hər yerində sevinclə qarşılanmışdır. Həmid Malıbəyli Rast və Segah muğamlarını böyük ustalıqla oxumuşdu. Onun bir çox muğam, təsnif və xalq mahnıları vala yazılmışdır. Ömrünün sonlarına yaxın tarizənliklə məşğul olan Malıbəyli, Keçəçi oğlu Məhəmmədi, M.Behbudov, M.Fərzəliyevi, İ. Abdullayevi, Bülbülü və başqa xanəndələri tarda müşayiət etmişdir.

Yüksək zövqə, incə hisslərə, dərin duyğulara malik Azərbaycanın görkəmli aktyorlarından biri də Mehdi Məmmədov olmuşdur. O təkcə aktyor deyildi, həm də rejissor və pedaqoq idi. M.Məmmədovun göstərdiyi tamaşalar Azərbaycan teatr tarixində əhəmiyyətli yer tutur. Onun rejissorluq üslubu əsərin fəlsəfi mənasının qabarıq verilməsi, monumentallığı, səhnə ustalığının dəqiqliyi ilə səciyyələnir. Mehdi müəllim milli dramaturgiyamıza, incəsənət və estetikaya dair çoxlu əsərlərin müəllifidir. M.Məmmədovun xidmətləri nəzərə alınaraq, SSRİ xalq artisti, sənətşünaslıq doktoru adlarına layiq görülmüş, iki dəfə «Qırmızı Əmək Bayrağı» ordeni, «Oktyabr İnqilabı» ordeni və medallarla təltif edilmişdir.

Dərin düşüncəsi, möhkəm iradəsi, qibtə olunan vətənpərvərliyi ilə xalqımızın sevimlisinə çevrilmiş, həm zahirən, həm də mənən əsl azərbaycanlı və türk oğlu adına layiq olan Xəlil Məmməd oğlu Məmmədov gözəlliklər diyarı Şuşada dünyaya göz açmışdır (1916). 1940-cı ildə tank batalyonunun alay məktəbini bitirən Xəlil tank komandiri təyin edilmişdir. Böyük Vətən müharibəsində rota və batalyon komandirləri vəzifəsində işləyən X.Məmmədov Kerç, Krım, Şimali Qafqaz, Ukrayna, Moldava, Rumıniyanın azad edilməsində qəhrəmanlıqlar göstərmişdir. Göstərdikləri qəhrəmanlıqlara görə Xəlil Məmmədova 1945-ci ildə Sovet İttifaqı Qəhrəmanı adı verilmiş və general-mayor rütbəsinədək yüksəlmişdir. 1946-cı ildən ordudan tərxis olunan general, Azərbaycan DİN-nin müavini, DİN, Nazirlər Sovetində

şöbə müdiri, Bədən Tərbiyəsi və İdman Komitəsinin sədri, Azərbaycan Nazirlər Sovetinin şöbə müdiri, Ali Sovetin Deputatı (4-8-ci çağırış), AKP qurultaylarında MK üzvü olmuşdur. Sovet İttifaqı Qəhrəmanı X.Məmmədov Qırmızı Bayraq, Aleksandr Nevski, 2 Qırmızı Ulduz, «Şərəf nişanı» ordenləri və medallarla təltif edilmişdir. X.Məmmədovun həyatı bugünkü gənclərimizə gözəl örnəkdir.

Şuşanın gözəl çiçəklərini qoxulamış, onun min bir dərdin dərmanı olan bulaqlarından su içmiş, saf havasını udmuş məşhur Azərbaycan təzkirəçisi və şairi Məhəmməd ağa Mirzə Saday oğlu Müştəhidzadə (1875-1956) özünün əsərlərini Şuşada yaratmışdır. Məhəmməd ağa Qarabağ şairlərinin həyatından bəhs edən «Riyazül-aşiqin» adlı təzkirəni yazmışdır. Şairin yazdığı həmin əsərin birinci hissəsi 1910-cu ildə İstanbulda nəşr olunmuşdur. Məhəmməd ağa «Məclisi üns» ədəbi məclisinin üzvü olmuş, «Müştəri» təxəllüsü ilə qəzəl, qəsidə, növhə və sinəzənlər yazmışdır. Şairin Ü.Hacıbəyova həsr edilmiş poeması var. Görkəmli ədibin əsərlərinin əlyazmaları AMEA-nın Əlyazmalar Fondunda saxlanılır.

Smolensk meşələrində fəaliyyət göstərən «Deduşka» Partizan dəstəsində «Partizan Aliyə» adı ilə tanınan Aliyə Fətulla qızı Rüstəmbəyova Qarabağın tacı Şuşada dünyaya göz açmışdır (1907-ci ildə). Tibbi İnstitutunu bitirən Aliyə Böyük Vətən müharibəsinin elə ilk günündən öz ərizəsi ilə Alman faşizminə qarşı müharibəyə getdi. Müharibənin ilk günlərində böyük bacarığa malik olması aşkar edilmiş və qeyrətli azərbaycanlı qızı Tibb-sanitariya batalyonuna rəis təyin edilmişdir. Dərin zəkaya malik cərrah Aliyə minlərlə insanı ölümün pəncəsindən xilas etmişdir. 1941-ci ilin əvvəllərində yaralanaraq əsir düşən Aliyə, 1942-ci ilin əvvəllərində əsirlikdən qaçmış və Smolenskdə partizanlara qoşulmuşdur. Cəmi 35 bahar yaşayan həssas, nikbin, qeyrətli Vətən övladı 1942-ci ildə qəhrəmancasına həlak olmuşdur. Təlim, tərbiyə və təhsilini Şuşada alan və ölümündən sonra «Böyük Vətən Müharibəsi Qəhrəmanı» adına layiq görülən «Partizan Aliyə» ilə bütün Azərbaycan xalqı fəxr edə bilər.

Yüksək zövqə, incə hisslərə, nikbin duyğulara malik Məşədi Məmmədin (1872-1962) Azərbaycan xalq musiqisinin yaranması və inkişafında böyük xidmətləri olmuşdur. Məşədi Məmməd Fərzəliyev geniş diapozonlu güclü səsi, yüksək ifaçılıq məharəti ilə başqalarından fərqlənmişdir. Şuşada Xarrat Qulunun məktəbində dərs alan Məmməd qısa bir müddətdə yığcam zəngulələri, qünnələri ilə dinləyicilərini valeh etmişdir. Zaqafqaziya, Orta Asiya, Türkiyə və Avropa ölkələrinin konsert salonlarında böyük alqışlarla qarşılanan M.Məmməd 39 muğam, təsnif və xalq mahnısını qrammofon valına yazdırmışdır. O, «Süstər», «Çahargah», «Kürd-Şahnaz» muğamlarını, «Heyratı», «Mənsuriyyə», «Qarabağ şikəstəsi» və başqa zərb muğamlarını böyük ustalıqla oxumuşdur. Böyük sənətkar 1962-ci ildə 90 yaşında İstanbulda vəfat etmişdir.

Barlı-bərəkətli, tükənməz sərvətlərə malik, təkrarsız və zəngin təbiət muzeyi Şuşa, görkəmli Azərbaycan şairi Teymur Elçinin dünyaya göz açdığı diyardır. Şairin yazdığı şer və poemaların çoxu uşaqlara həsr olunmuşdur. T.Elçinin yazdığı şerlərə mahnılar bəstələnmişdir. Şair həm də, bir sıra əsərləri (K.Çaykoviski, S.Marşak və başqaları) Azərbaycan dilinə tərcümə etmişdir. Ədibin yazdığı əsərlər isə, keçmiş SSRİ xalqlarının dilinə tərcümə olunmuşdur. T.Elçin həm də yüksək dövlət vəzifələrində çalışmışdır. O, 1957-1964-cü illərdə Azərbaycan Tele-Radio Komitəsinin sədri, 1964-1975-ci illərdə Azərbaycan KP MK-nın Təbliğat və Təşviqat şöbəsinin müdiri, 1975-ci ildən Azərbaycan Mədəniyyət Nazirinin müavini, Azərbaycan Ali Sovetinin (5-8-ci çağırış) deputatı olmuşdur. Göstərdiyi xidmətlərə görə T.Elçin bir çox orden və medallara layiq görülmüşdür.

XX əsrin əvvəllərində görkəmli bəstəkar və əməkdar incəsənət xadimi kimi məşhur olan Zülfüqar Hacıbəyov (1884-1950) Şuşada doğulmuş və ilk təhsilini orada almışdır. O, Üzeyir Hacıbəyov, M.Maqamayev, H.Q.Sarabski, H.Terequlovla birlikdə Azərbaycan musiqi mədəniyyətinin inkişafı uğrunda mübarizə aparmışdır. Z.Hacıbəyov Azərbaycan folklorunu Avropa musiqi janrları ilə əlaqələndirməyə çalışmışdır. O, «Əlli yaşında cavan», «Varlı», «Evliykən subay» və başqa liberatorlarında Azərbaycan

məişətindəki eybəcərlikləri, qadın hüquqsuzluğunu ifşa etmiş, dövrünün haqsızlıqlarını açıb göstərmişdir. Müəllifin komediyalarındakı musiqi, sadəliyi, aydınlığı və məzmununa görə fərqlənir. Zülfüqar Hacıbəyov bir sıra mahnılar, simfonik orkestr, nəfəs alətləri və xalq çalğı alətləri üçün əsərlər, kantata, kinofilmə musiqi operalarının müəllifidir. Z.Hacıbəyovun uzun illər səmərəli yaradıcılıq fəaliyyətini və musiqi mədəniyyətimizin inkişafında xidmətləri nəzərə alınaraq «Şərəf nişanı» ordeni və medallarla təltif olunmuşdur. Böyük sənətkar 86 yaşında 1950-ci ildə Bakıda vəfat etmişdir.

XIX əsr Azərbaycanın məşhur xanəndələrindən biri də Hacı Hüsü Niftalı oğlu olmuşdur (1830-1898). O ilk musiqi təhsilini Şuşada Xarraq Qulunun məktəbində almışdır. Hacı Hüsü güclü, diapozonlu, ürəkaçan, xoş, məlahətli səsə malik idi. Şərq və Azərbaycan muğam və təsniflərini çox böyük ustalıqla oxuyan sənətkar təkcə Azərbaycanda deyil, Yaxın və Orta Şərqdə geniş şöhrət qazanmışdır. O, M.M.Nəvvabla birlikdə Şuşada ilk «Musiqişünaslar məclisi»nin əsasını qoymuşdur. Musiqi sənətinə ürəkdən bağlı olan Hüsü, Xarrat Qulunun ölümündən sonra gənc sənətkarlar yetişdirmək və Azərbaycan muğam sənətini inkişaf etdirmək məqsədilə «Xanəndələr İttifaqı» dərnəyini yaratmışdır. Məşhur Azərbaycan musiqiçilərinin yetişməsində bu dərnəyin böyük rolu olmuşdur. Hacı Hüsü musiqiyə böyük yeniliklər gətirmişdir. Belə ki, o, «Rast», «Şur», «Mahur» muğamlarına yeni xallar əlavə etmiş, «Kürd» muğamını «Şahnaz» la birləşdirmişdir («Kürdü-Şahnaz»). Onun musiqi yaradıcılığında «Qatar» muğamının yaratması xüsusi əhəmiyyət kəsb edir. Milli musiqimizi dərindən bilən sağlam zövqlü Hacı Hüsü sənətinin incəliklərini gənc nəslə çatdırılmasında böyük işlər görmüşdür.

Azərbaycan incəsənətinin görkəmli və istedadlı nümayəndələrindən biri də Soltan İsmayıl oğlu Hacıbəyov (1919-1974) olmuşdur. Soltan Hacıbəyovun yaradıcılığı, əmisi Ü.Hacıbəyovun musiqisi və dünya musiqi zəminində formalaşmışdır. Bəstəkarların yaradıcılığında simfonik musiqi janrı əsas yer tutur. Şuşada boya-başa çatan bəstəkar, təbiət vurğunu idi və yara-

dıcılığında təbiət lövhələrinin zərif təsviri, həlim lirizm daha üstün mövqeyə malik olmuşdur. Onun yaradıcılığında simfonik musiqi janrı əsas yer tutur. Onun 1-ci və 2-ci simfoniyaları Böyük Vətən müharibəsinə həsr olunmuşdur. Bəstəkarın «Karvan» simfoniyası çox böyük ustalıqla qələmə alınmışdır. Bəstəkar, musiqili komediyaların, orkestr üçün əsərlərin, bir sıra mahnı və romansların, dram tamaşalarına musiqinin müəllifidir. O, təkcə bəstəkar deyildi, yaxşı pedaqoq, ictimai xadim idi. Soltan Hacıbəyov SSRİ xalq artisti, SSRİ dövlət mükafatı laureatı, Azərbaycan Dövlət mükafatı laureatı adlarına layiq görülmüşdür. Onun əsərləri təkcə keçmiş SSRİ məkanında deyil, Avropa dövlətlərində gurultulu alqışlarla qarşılanmışdır. Bəstəkar Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif edilmişdir.

Şuşanın məşhur şəxsiyyətlərindən biri Mirzə Camal Cavanşirdir (1773-1853). O Xocalıda anadan olmuşdur. Mirzə Camal əvvəlcə Cavanşir tayfasına başçılıq etmiş, sonra isə Şuşanın qalabəyisi (komendantı) vəzifəsinə təyin edilmişdi. Müəyyən təhsilə yiyələndikdən sonra Mirzə Camal İbrahimxəlil xanın arvadı Tutubikə xanımın təsərrüfat işləri müdiri vəzifəsinə təyin olunur. Bu vaxt təhsil almaq üçün Dağıstana göndərilmişdir. 6 il Dağıstanda təhsil alan Mirzə Camal 1797-ci ildə Şuşaya gəlmiş və həmin vaxtdan İbrahimxəlil xanın vəzir-köməkçisi təyin edilir. 1822-ci ildə Şuşanın hərbi dairə mərkəzinə çevrildiyi vaxt A.R.Yermolovun göstərişi ilə dəftərxana katibi vəzifəsində çalışmağa başlayır. 1840-cı ildə Şuşa qəzası yaranan vaxt Mirzə Camal Cavanşir tutduğu vəzifəni istefa vermiş, ömrünün sonunadək Şuşa şəhərində yaşamışdır. Mirzə Camal ərəb, fars, türk, ləzgi və avar dilini gözəl bilirdi. Təbabətə dair dərin biliyə malik olan Mirzə Camal ömrünün sonunadək xalqına təmənnasız xidmət etmişdi. Bədii istedada və zəngin yaddaşa malik olan Mirzə Camal astronomiya, tarix və coğrafiyanı dərindən öyrənmişdi. Mirzə Camal 1847-ci ildə «Tarixi-Qarabağ» («Qarabağ tarixi») əsərini yazmışdır. Əsərlər Qarabağ xanlığının 1747-ci ildən 1813-cüilədək olan dövrü əhatə edilmişdir. Əsər rus dilinə tərcümə edilərək «Qafqaz» qəzetində bir hissəsi 1855-ci ildə, ikinci hissəsi isə 1884-cü ildə çap edilmişdir. Qarabağ

tarixinin bir hissəsini əhatə edən «Qarabağ tarixi» qiymətli tarixi faktlarla zəngindir və əsərdə siyasi hadisələrlə yanaşı, xanlığın sosial-iqtisadi həyatına dair bəzi faktlar da verilmişdir.

Şuşada 1912-ci ildə anadan olmuş görkəmli şəxsiyyətlərindən biri də Ənvər Məcid oğlu Behbudov olmuşdur. O, 1942-ci ildə Ümumittifaq Dövlət Teatr sənəti İnstitutunun rejissorluq fakültəsini bitirmişdir. 1948-1954-cü illərdə Novosibirsk teatrında rejissor və bədii rəhbər işləmişdir. 1959-1964-cü illərdə Ənvər Rostovda yaşamış və orada M.Qorki adına Dram Teatrda baş rejissor olmuşdur. 1965-ci ildə Ənvər Behbudov RSFSR xalq artisti adına layiq görülübdür. 1966-cı ildə Azərbaycan opera və balet teatrında baş rejissor işləməyə başlayan Ənvər «Koroğlu»

operasını tamaşaya qoyur. Görkəmli rejissor 1969-cu ildən Azərbaycan Rus Dram Teatrında baş rejissor işləməyə başlamış və burada «Altı iyul», «Kənar adam», «Öz yolunda», «Sən yanımdasan» və başqa əsərləri tamaşaya qoymuşdur. Azərbaycanın görkəmli rejissoru göstərdiyi xidmətlərə görə «Qırmızı Əmək Bayrağı» və «Şərəf» nişanı ordenləri, həmçinin medallarla təltif edilmişdir.

Azərbaycanın xalq artisti adına layiq görülmüş, «Şərəf nişanı» ordeni ilə təltif edilmiş görkəmli xanəndələrindən biri də Seyid Şuşinskinin gözəl zəngulələri, burunda və dişdə oxuması, uzun nəfəsi həm dinləyiciləri, həm də məşhur xanəndələri valeh etmişdir. S.Şuşinski A.Zeynallı adına musiqi məktəbində müəllimlik etmiş və yeni kadrlarımızın hazırlanmasında böyük işlər görmüşdür.

Şuşada anadan olmuş məşhur sənətkarlardan biri də Bülbül olmuşdur. Dövlət Konservatoriyasını bitirən Bülbül, musiqi ixtisasını artırmaq üçün İtaliyaya getmişdir. Bülbülün səsi təkcə Azərbaycanda deyil, bütün xarici dövlətlərdə sevilmişdir. Azərbaycan musiqi folklorunun toplanmasında, muğam nümunələrinin, xalq havalarının nota salınmasında Bülbülün böyük xidmətləri olmuşdur. Bülbülün yüksək xidmətlərini nəzərə alaraq, dövlətimiz ona SSRİ xalq artisti, 2 dəfə Lenin ordeni, 2 dəfə «Qırmızı Əmək Bayrağı» ordeni, «Şərəf nişanı» ordeni, medalları verilmişdir. Ölməz sənətkar Dövlət Mükafatı laureatı, professor adlarına layiq görülmüşdür.

Özünün böyük diapazonlu, qəlbləri oxşayan gur səsi və güclü nəfəsi ilə təkcə Azərbaycanda deyil, bütün Şərqdə və İttifaq miqyasında şöhrət qazanmış görkəmli el sənətkarlarımızdan biri də, Şuşada dünyaya göz açmış Xan Şuşinski olmuşdur. Xanın ritmik muğamları onu dünyada tanıtmışdır. Təsadüfi deyildir ki, 1959-cu ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti on günlüyündə Xan əminin «Qarabağ şikəstəsi» bütün tamaşaçıları və musiqiçiləri heyran etmişdi. Azərbaycan hökuməti Xan əminin səmərəli fəaliyyətini nəzərə alıb, ona «Azərbaycanın xalq artisti» adı vermiş, «Şərəf nişanı» ordeni və medallarla təltif etmişdir.

Şuşa təkcə xanəndələr məskəni ilə seçilmirdi, həm də ərazinin gözəl təbiəti burada sənətin incəliklərinə yiyələnən tar, kamança, qarmon, tütək çalanlar yetişmişdi. Tarizanlardan Qurban Pirimovun, Məşədi Cəmil Əmirovun, Zeynal Qarabağlının, ustad Sadıqcanın və başqalarının adlarını çəkmək olar. Gözəl qarmon çalan Abutalıb Yusifov, Lətif Əliyev və başqaları Şuşada dünyaya göz açmışlar. Adlarını çəkdiyimiz sənətkarlardan biri haqqında bəzi faktları diqqətinizə çatdırırıq. Məşhur usta tarizan Sadıqcan (1846-1902) Azərbaycan musiqi mədəniyyəti tarixində çox böyük işlər görmüşdür. Belə ki, sənətkar ilk dəfə olaraq «Sola Mahur»u tarda çalmışdır. Sadıqcana qədər tarı diz üstə çalırdılar. Sadıqcan isə tarın sinə üzərində çalınmasını tətbiq etdi. Eyni zamanda novator sənətkar tarın pərdəsini 17-yə, simlərin sayını isə 5-dən 11-ə qaldırmışdı. Bir neçə muğamın yaradıcısı olan Sadıqcan tarın qoluna «Zabul» pərdəsini əlavə etmişdir.

Şuşa şəhərində dünyaya göz açmış, onun təbii gözəlliklərindən ilham alaraq incəsənətimizin, mədəniyyətimizin inkişafında mühüm rol oynamış, adları təkcə Azərbaycanda deyil, bütün dünyada şöhrəti yayılmış məşhur bəstəkarlar da yaşayıb yaratmışlar. Həmin bəstəkarlardan Üzeyir Hacıbəyovun, Zakir Bağırovun, Fikrət Əmirovun, Süleyman Ələsgərovun, Zülfüqar Hacıbəyovun, Əşrəf Abbasovun, Niyazinin, Soltan Hacıbəyovun, Əfrasiyab Bədəlbəylinin və başqalarının adlarını böyük fəxrlə çəkmək olar.

Üzeyir Hacıbəyov (1885-1948) Azərbaycanın böyük sənətkarlarından idi. O, 1908-ci ildə «Leyli və Məcnun» operası ilə Azərbaycan musiqisi tarixində ilk milli operanın əsasını qoydu. Bəstəkarın yaratdığı opera, muğamat əsasında səslənmiş, Yaxın və Orta Şərqdə şöhrət qazanmışdır. Sonralar «Koroğlu», «Şah Abbas və Xurşudbanu», «Əsli və Kərəm», «Şeyx Sənan», «Rüstəm və Zöhrab» kimi operalarını bəstələyən Üzeyir Hacıbəyov, həm də Azərbaycan Dövlət Himnini də yazmışdır. Xalq üçün yaşayan, onun duyğu və düşüncələrini ifadə edən sənətkarımız «Lenin ordeni» ilə təltif edilmiş, SSRİ xalq artisti adını almış, 2 dəfə dövlət mükafatına layiq görülmüşdür.

Şuşa təkcə xanəndələr məskəni ilə seçilmirdi, həm də ərazinin gözəl təbiəti burada sənətin incəliklərinə yiyələnən tar, kamança, qarmon, tütək çalanlar yetişmişdi. Tarizanlardan Qurban Pirimovun, Məşədi Cəmil Əmirovun, Zeynal Qarabağlının, ustad Sadıqcanın və başqalarının adlarını çəkmək olar. Gözəl qarmon çalan Abutalıb Yusifov, Lətif Əliyev və başqaları Şuşada dünyaya göz açmışlar. Adlarını çəkdiyimiz sənətkarlardan biri haqqında bəzi faktları diqqətinizə çatdırırıq. Məşhur usta tarizan Sadıqcan (1846-1902) Azərbaycan musiqi mədəniyyəti tarixində çox böyük işlər görmüşdür. Belə ki, sənətkar ilk dəfə olaraq «Sola Mahur»u tarda çalmışdır. Sadıqcana qədər tarı diz üstə çalırdılar. Sadıqcan isə tarın sinə üzərində çalınmasını tətbiq etdi. Eyni zamanda novator sənətkar tarın pərdəsini 17-yə, simlərin sayını isə 5-dən 11-ə qaldırmışdı. Bir neçə muğamın yaradıcısı olan Sadıqcan tarın qoluna «Zabul» pərdəsini əlavə etmişdir.

Şuşa şəhərində dünyaya göz açmış, onun təbii gözəlliklərindən ilham alaraq incəsənətimizin, mədəniyyətimizin inkişafında mühüm rol oynamış, adları təkcə Azərbaycanda deyil, bütün dünyada şöhrəti yayılmış məşhur bəstəkarlar da yaşayıb yaratmışlar. Həmin bəstəkarlardan Üzeyir Hacıbəyovun, Zakir Bağırovun, Fikrət Əmirovun, Süleyman Ələsgərovun, Zülfüqar Hacıbəyovun, Əşrəf Abbasovun, Niyazinin, Soltan Hacıbəyovun, Əfrasiyab Bədəlbəylinin və başqalarının adlarını böyük fəxrlə çəkmək olar.

Üzeyir Hacıbəyov (1885-1948) Azərbaycanın böyük sənətkarlarından idi. O, 1908-ci ildə «Leyli və Məcnun» operası ilə Azərbaycan musiqisi tarixində ilk milli operanın əsasını qoydu. Bəstəkarın yaratdığı opera, muğamat əsasında səslənmiş, Yaxın və Orta Şərqdə şöhrət qazanmışdır. Sonralar «Koroğlu», «Şah Abbas və Xurşudbanu», «Əsli və Kərəm», «Şeyx Sənan», «Rüstəm və Zöhrab» kimi operalarını bəstələyən Üzeyir Hacıbəyov, həm də Azərbaycan Dövlət Himnini də yazmışdır. Xalq üçün yaşayan, onun duyğu və düşüncələrini ifadə edən sənətkarımız «Lenin ordeni» ilə təltif edilmiş, SSRİ xalq artisti adını almış, 2 dəfə dövlət mükafatına layiq görülmüşdür.

Yüksək zövqə, dərin musiqi biliyinə malik görkəmli musiqişünaslarımızdan biri də Ü.Hacıbəyovun şagirdi Fikrət Əmirov olmuşdu. Fikrət «Namuslu qız», «Sevil» operalarının, «Azərbaycan» suitasının, «Şur», «Kürd-ovşarı» simfonik muğamlarının müəllifidir. Onun yaratdığı əsərlər ABŞ, Fransa, Polşa, Rumıniya, Çexoslovakiya konsert salonlarında çox böyük rəğbətlə qarşılanmışdır

Mir Möhsün Nəvvab Azərbaycanın görkəmli ictimai xadimi, şairi, ədəbiyyatşünası, alimi, filosofu, psixoloqu, pedaqoqu, astronomu, təbibi idi. Görkəmli alimin 20-yə qədər əlyazması, gözəl rəsmləri dövrümüzə qədər çatmışdır. M.M.Nəvvab 1883-cü ildə Şuşa şəhərində doğulmuş və ömrünün sonunadək orada yaşayıb yaratmışdır. Kimyanı, ədəbiyyatı, riyaziyyatı, coğrafiyanı, fəlsəfəni, tarixi, astronomiyanı gözəl bilən Nəvvab XX əsrin əvvəllərində Şuşada fəaliyyət göstərən «Məclisi fərmuşan» məclisinə rəhbərlik etmişdir. O, Məclisə tarın atası Mirzə Sadığı (xalq içərisində Sadıqcan kimi tanınmışdı), xanəndə Hacı Hüsünü, Məşədi İsini də cəlb etmişdi. Nəvvabla Sadıqcan dostluq etmiş və sonralar bu dostluq qohumluğa çevrilmişdir. «Məclisi fərmuşan»da əvvəllər Şuşanın görkəmli ədibləri Mirzə Ələsgər, Abdulla bəy Asi, Həsənəlixan Qaradaği, Fatma xanım Kəmnə, Məşədi Ayyub, sonralar Mirzə Camalzadə, Məmməd Həsən bəy, Mirzə Xosrov, Alış bəy, Məşədi Cəmil, İslam Abdullayev, Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski və başqaları fəaliyyət göstərmişlər. Nüsxə-bənd Əkbər dərman hazırlanmasında M.M.Nəvvaba kömək edirdi. O, təbii otlarla müalicə etmək bacarığına malik idi. Mir Möhsün həm də gözəl rəssam idi. Onun öz otağında çəkdiyi şəkillər dövrümüzə qədər gəlib çatmışdır. Nəvvab rəngləri özü hazırlayardı. Onun hazırladığı rəng oğlu Mirzəağa tərəfindən 100 il bundan əvvəl Şuşadakı Yuxarı Məscidə vurulmuş və bu gün də öz parlaqlığını itirməmişdir. Azərbaycanda ilk dəfə olaraq muğam nəzəriyyəsini M.M.Nəvvab yazmışdır. O, «Vüzühül Ərqam» əsərini yazmış və musiqinin insan sağlamlığına təsirindən geniş bəhs etmişdir. Nəvvabın mühüm xidmətlərindən biri də onun Şuşada ilk dəfə olaraq Azərbaycan dilində qiraətxana və kitabxana açmışdır.

Oğlu Mirzəağa isə həmin kitabxanaya rəhbərlik etmişdir. Mir Möhsün lirik şair, ədəbiyyatçı idi. Onun qəzəllərindən bəziləri dövrümüzə qədər gəlib çatıb. Biz Nəvvabı həm də gözəl astronom kimi də tanıyırıq. Onun otağının damında göy cisimlərini müşayiət etmək üçün müxtəlif cihazlar, alətlər var idi. Mir Möhsün Nəvvab telepatiyanı da bilirdi. Şuşada kimin evində oğurluq olurdusa, o, oğrunun kim olduğunu və oğurlanmış əşyanın harada gizlədildiyini deyirdi.

M.M.Nəvvab etikaya, estetikaya, əxlaqa, davranışa, mədəniyyətə aid də əsərlər yazmışdı. 1912-ci ildə müəllifin yazdığı «Nəsihətnamə» kitabında 500 nəsihət yazılmışdır və xalqımızın mənəvi saflığı üçün böyük əhəmiyyətə malik idi. M.M.Nəvvab 1918-ci ildə Şuşada vəfat etmiş və onu «Cıdır düzü»ndə dəfn etmişdilər. Görkəmli alim xalqımız üçün böyük işlər görmüşdür. Ona görə də qədirbilən xalqımız onun adını əbədiləşdirərək Şuşadakı musiqi məktəbinə və şairin yaşadığı küçəyə M.M.Nəvvabın adı verilmişdir.

Dünya şöhrətli tarixi şəxsiyyət, elmə, sənətə və sənətkara qiymət verən dahi insan Heydər Əliyev 1982-ci ildə Şuşada olarkən birinci növbədə M.M.Nəvvabın qəbri önünə gəlmiş, məzarı üzərinə gül-çiçək dəstələri qoymuş, bir dəqiqəlik sükutla böyük sənətkarı yad etmiş, quran oxutmuş və görkəmli ədibə öz dərin məhəbbətini bildirmişdir.

Bütün Şuşalılar və ümumilikdə xalqımız M.M.Nəvvabla fəxr edir və yaddaşlarında əbədi yaşadacaqlar. Lakin təəssüf hissi ilə qeyd etməliyik ki, bu gün M.M.Nəvvabın yaratdığı hər şey, hətta onun məzarı belə erməni vandalları tərəfindən dağıdılmış, yandırılmışdır.

1869-cu ildə Şuşada dünyaya göz açan, Ağayev Əhməd Mirhəsən oğlu Azərbaycan dövlətini xaricdə təmsil etmiş görkəmli dövlət xadimlərindən biri idi. Əhməd bəy əvvəlcə Parisdə hüquq məktəbini, sonra isə Sorbonna Universitetini bitirmişdir. O, mühacirətdə olarkən «Gənc türklər»lə əlaqə yaratmışdır. Əhməd bəy Türkiyədə olarkən İstanbul Universitetinə dəvət olunmuş və orada rus dilindən dərs demişdir. Əhməd bəy Ağayev birinci dünya müharibəsi dövründə (1914-1918) Türk

ordusunda siyasi müşavir vəzifəsini icra etmişdir. Azərbaycan Demokratik Cümhuriyyəti dövründə Ə.Ağayev Azərbaycan Parlamentinin sədr müavini seçilmişdir. 1920-ci ilin sonlarında ingilislər tərəfindən həbs edilən Əhməd bəy Malta adasına sürgün edilmişdir. O, 1921-ci ildə yenidən Türkiyəyə qayıtmış və ikinci, üçüncü Millət Məclisinə deputat seçilmişdir. Türkiyə Respublika elan edildikdən sonra Ə.Ağayev Atatürk siyasətini dəstəkləmişdir. Əlbəttə, Şuşada dünyaya göz açan, orta təhsilini orada alan, ömrünün ən gözəl çağını (uşaqlıq dövrünü) Qarabağın dilbər guşəsi - Şuşada keçirən Əhməd bəyin sonralar Şuşaya qayıtması müşkül bir məsələyə çevrilmişdi. Bunun ən başlıca səbəbi Azərbaycanda Sovet Hakimiyyəti elan edil-dikdən sonra imperiyanın keçmiş dövlət xadimlərini təqib etməsi, həbs etməsi və güllələməsi ilə əlaqədar idi. Əhməd bəy Ağayev 1939-cu ildə vəfat etmişdir.

Şekspirin «Otello» faciəsinin Azərbaycan dilinə ilk tərcüməçisi, XX əsrin əvvəllərində Azərbaycanda fəaliyyət göstərən «Səda» nəşriyyatının direktoru, görkəmli Azərbaycan ədiblərinin əsərlərinin yayıcısı, görkəmli Azərbaycan jurnalisti və yazıçısı Vəzirov Həşim bəy Mir İman oğlu Şuşanın səfalı dağlarında 1868-ci ildə dünyaya göz açmışdır. Xalqımızın maariflənməsində onun xidmətləri böyük olmuşdur. Həşim bəy İrəvanda, Bərdədə, Şəkidə, Şuşada müəllimlik etmişdir. Eyni zamanda 1907-1916-cı illərdə görkəmli jurnalist «Təzə həyat», «İttifaq», «Səda», «Sədeyi-vətən», «Sədeyi-həqq», «Kafkazets» (rusca) qəzetlərini və «Məzəli» satirik jurnalını dərc etdirmişdir. Xalqını, vətənini, millətini sevən yazıçı «Döymə qapımı, döyərlər qapını», «Evlənmək su içmək deyil», «Xan-xan» komediyalarının müəllifidir. O, 1916-cı ildə vəfat etmişdir.

Abdullayev Qasım İbrahim oğlu 1873-cü ildə Şuşada anadan olmuşdur. M.M.Nəvvabla yaxınlıq edən Qasım «Məclisi Fəramuşan»ın fəal üzvlərindən biri idi. Qasım Abdullayev Azərbaycan xanəndəsi adını almışdı. Qasım «Zabul» segahını bütün şərqdə tanıtmışdır. Hətta təsadüfi deyildir ki, xalq arasında Q.Abdullayev «Zabul Qasım» kimi də tanınırdı. Muğam ustasının həm də, aktyorluq qabiliyyəti də var idi. O, 1913-cü ildə

«Leyli və Məcnun» operasında Məcnunun atası rolunu oynamışdır. Görkəmli musiqiçi Qasım Abdullayev 1927-ci ildə Şuşada vəfat etmişdir.

1949-cu ildə Azərbaycan Respublikasının xanəndəsi və xalq artisti adına layiq görülən İslam Əbdül oğlu Abdullayev 1876-cı ildə Şuşada dünyaya göz açmışdır. M.M.Nəvvabdan dərs alan İslam 17 yaşında bütün Azərbaycanda tanındı. İ.Abdullayev muğamlarımızın mahir ifaçısı idi. Görkəmli xanəndə-mizin xidmətlərindən biri də muğamlarımıza orijinal ahəng və xallar əlavə etməsi olmuşdur. İ.Abdullayev xalq musiqisinin gənc nəslə çatdırılması işində də xeyli işlər görmüşdür. İslam Abdullayev 1964-cü ildə Şuşada vəfat etmişdir.

XVIII əsrin sonu XX əsrin əvvəllərində Şuşada yaşayıb-yaratmış şəxsiyyətlərdən biri də Cəfərqulu xan Məhəmmədhəsən ağa oğlu (1783-1864) olmuşdur. O, Qarabağ xanı İbrahimxəlil xanın nəvəsi idi. 1804-1813-cü illər Rus-İran müharibəsində süvari dəstəyə başçılıq edən Cəfərqulu xan, Abbas Mirzənin 20 minlik ordusunu məğlub etmişdir. Qarabağ xanlığının qanunu varisi olan Cəfərqulu xanın yerinə əmisi Mehdiqulu xanın gəlməsi Cəfərqulu xanın İrana qaçmasına səbəb oldu. 1814-cü ildə Qafqazın baş komandanın icazəsi ilə geri qayıdan Cəfərqulu xan Qarabağ xanı elan edildi. Əslində dövləti Mehdiqulu xan idarə edirdi. 1822-ci ildə Cəfərqulu xanın əmlakı müsadirə edilmiş və Simbiriskə sürgün olunmuşdu. 1829-cu ildə Qarabağa qayıtmasına icazə verilmiş və əmlakı özünə qaytarılmışdır. Cəfərqulu xan yenidən ordu sıralarına cəlb olunmuş, döyüşlərdə şücaət göstərmişdir. 1850-ci ildə ona general mayor rütbəsi verilmişdir. Azərbaycanın ilk generallarından olan Cəfərqulu xan «Nəva» təxəllüsü ilə çoxlu şerlər də yazmışdır. Yazdığı şerlərində müəllif zəhmətkeş xalqa zülm edən imperiya qüvvələrini tənqid atəşinə tutmuşdur. Xidmətləri nəzərə alınaraq Cəfərqulu xan «Müqəddəs Anna» ordeni ilə təltif edilmişdir.

General-mayor rütbəsinədək yüksəlmiş Əmir Kazım Mirzə Qacar 1853-cü ildə Şuşada doğulmuşdur. İbtidai və orta məktəbi Şuşada oxuyan Mirzə Qacar Peterburq süvari məktəbinə daxil olmuş və 1871-ci ildə həmin məktəbi bitirmişdir. 1871-ci ildə

Qafqaz ordusunda hərbi qulluğa götürülmüşdür. Qısa bir müddətdə Əmir Kazıma kornet - zabit rütbəsi verilmişdir (1873-cü il). O, 1877-1878-ci illər Rus-Türk müharibəsinin iştirakçısıdır. Həmin müharibədəki fəallığına görə Kazım Mirzəyə 4-cü dərəcəli «Müqəddəs Anna», 3-cü dərəcəli «Müqəddəs Stanislav» ordenləri verilmişdir. 1881-ci il III Aleksandrın tacqoyma mərasimində Əmir Kazım da iştirak etmişdir. 1895-ci ildə ona podpolkovnik rütbəsi verilmişdir. Öz işini yaxşı bilən Kazım 1902-ci ildə Rus ordusunun Alay komandirinin birinci müavini təyin edilmişdir. 1910-cu ildə isə uzaqgörən vətən övladına general-mayor rütbəsi verilmiş və «Müqəddəs-Anna», «Müqəddəs Vladimir» ordenləri ilə təltif olunmuşdur. 1920-ci ildə general Əmir Kazım Mirzə Qacar vəfat etsə də, xalqını, millətini sevən, əsl vətənpərvər ziyalı kimi yaddaşlarda həmişə yaşayacaqdır.

Qasım bəy Zakirin nəvəsi Asi Abdulla bəy 1839-cu ildə Şuşada dünyaya göz açmışdır. Şuşada yaşayıb yaratmış Asi Abdulla bəy görkəmli Azərbaycan şairidir. O, «Məclisi Fəramuşan»ın fəal üzvlərindən biri olmuşdur. Farsca mükəmməl təhsil alan Asi bəy klassik şərq poeziyasını da gözəl bilirdi. Hafiz, Fizuli, Nəvai ənənələrinin davamçısı olan A.Abdulla bəy orijinal qəzəlləri ilə təkcə Azərbaycanda deyil, bütün Şərqdə, Türk dünyasında tanınmışdı. Şair özbək dilini də bilirdi və həmin dildə bir neçə şerlərdə yazmışdı. Cəmi 35 il ömür sürən şair 1874-cü ildə Şuşada vəfat etmişdir.

1875-ci ildə Şuşada dünyaya göz açan, uşaqlıq və gəncliyini Qarabağın zümrüd tacı sayılan Şuşada yaşayan S.S.Axundov görkəmli Azərbaycan yazıçısı səviyyəsinədək yüksəlmişdir. Axundov 1920-1921-ci illərdə Dağlıq Qarabağ təhsil şöbəsinin müdiri vəzifəsində işləmişdir. 1922-ci ildə S.S.Axundovun yüksək istedadını nəzərə alaraq Azərbaycanın Ədiblər və Şairlər İttifaqına sədr seçilmişdir. Ədəbi və pedaqoji fəaliyyətini nəzərə alaraq, Azərbaycan hökuməti görkəmli yazıçıya Əmək Qəhrəmanı adını vermişdir. S.S.Axundov ömrünün sonunadək (1939) ədəbi yaradıcılıqla məşğul olmuş və xalqımızın maariflənməsində böyük işlər görmüşdür. 1932-ci ildən Azərbaycan MİK-

nin üzvü olan S.S.Axundov «Tamahkar», «Yuxu», «Qonaqlıq», «Türk birliyi», «Qorxulu nağıllar», «Şeytan», «Yeni həyat» və başqa əsərlərin müəllifidir.

Səfalı Şuşada yaşayıb yaratmış Mirzə Xosrov Şaiq (1889-1960) Azərbaycan maarifçisi, pedaqoqu və şairi adlarına layiq görülmüşdür. Mirzə Xosrovun mühüm xidmətlərindən biri Şuşada yaşayan azərbaycanlı qızlarının təhsilə cəlb etməsi olmuşdur. Ömrünü millətinin maariflənməsinə həsr edən Mirzə Xosrov, həm də «Məclisi Fəramuşan»ın üzvü idi və «Şaiq» təxəllüsü ilə şerlər yazmışdır.

Şuşanın çiçəklərini qoxulamış, səfalı bulaqlarından su içmiş, saf havasını udmuş görkəmli şəxsiyyətlərdən biri də 1929-cu ildə anadan olmuş Cəlal Eyvaz oğlu Allahverdiyev olmuşdur. Riyaziyyat sahəsində böyük tədqiqatlar müəllifi olan alim Sovet riyaziyyatçısı adına layiq görülmüşdür. Cəlal müəllim Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü olmuş və Dövlət Mükafatına layiq görülmüşdür. C.Allahverdiyev 1970-ci ildən Azərbaycan Elmlər Akademiyasının Kibernetika İnstitutuna rəhbərlik etmişdir. Böyük tədqiqatçı beynəlxalq konqreslərdə və simfoziumlarda elmi əhəmiyyətli məruzələrlə çıxış etmişdir.

Şuşa, eyni zamanda - Azərbaycanın bəstəkarı, musiqişünası, pedaqoqu, əməkdar incəsənət xadimi, professor, «Şərəf nişanı» ordenli Abbasov Əşrəf Cəlal oğlunun; Sovet Zooloqu, parazitaloqu, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, biologiya elmləri doktoru, bir sıra orden və medallar müəllifi Əsədov Səttar Məcid oğlunun; Azərbaycanın xalq artisti, Qırmızı Əmək Bayrağı ordenli Şəmsi Bədəlbəylinin; Pedaqoq, aktyor, musiqişünas Bədəl Bədəlbəylinin (1875-1932); Azərbaycanın tanınmış bəstəkarı, Azərbaycan incəsənət xadimi, «Şərəf nişanı» ordeni və medallar sahibi Bağırov Zakir Cavad oğlunun; Azərbaycan Respublikasının kinematoqrafı, kinorejissoru, Türküstan və Azərbaycan Respublikalarının əməkdar incəsənət xadimi, Lenin mükafatı laureatı, Venesiya Beynəlxalq kinofestivalının xüsusi mükafatçısı Məmmədov Cavad Məmməd oğlunun; Sovet tarixçisi, tarix elmləri doktoru, professor, Azərbaycan EA-nın müxbir üzvü, Azərbaycan Dövlət Mükafatı laureatı Cəmil

Bahadur oğlu Quliyevin; Azərbaycan müğənnisi və xalq artisti Əbülfət Əliyevin; Məşhur Azərbaycan heykəltəraşı Əhmədov Hüseyn Məmməd oğlunun (1915-1955); Azərbaycan musiqiçisi, qarmonçalanı Abutalıb Yusifovun (1884-1937); İstilik texnikası sahəsində Sovet alimi Validə Yusifovanın; Texnika elmləri sahəsində ilk professorlardan biri Xudat Məlikaslanovun; Azərbaycan maarifçisi, pedaqoqu, şairi Mirzə Xosrov Mirzəli oğlu Axundovun (1889-1960); Sovet mama-ginekoloqu, tibb elmləri doktoru, professor, Azərbaycanın əməkdar həkimi, səhiyyə əlaçısı Məhbubə Kərim qızı Mahmudbəyovanın (1902-1976); Sovet hərbi xadimi, mühəndis qoşunları general-mayoru, Qırmızı Bayraq, Qırmızı Ulduz ordenləri və medallar sahibi Əmir Məmməd oğlu Rüstəmovun; Sovet kimyaçısı, kimya elmləri doktoru, professor, Azərbaycan EA-nın müxbir üzvü Paşa Həbib oğlu Rüstəmovun; Azərbaycan Respublikasının xalq artisti, görkəmli Azərbaycan aktrisası Məhluqə Ələsgər qızı Sadıqovanın; Sovet alimi, texnika elmlər doktoru, professor, Azərbaycan Dövlət Mükafatı laureatı, keçmiş SSRİ-nin əməkdar ixtiraçısı, «Şərəf nişanı», «Qırmızı Əmək Bayrağı» ordenləri və medallarla təltif edilmiş Fatma Həmzə qızı Süleymanovanın; Azərbaycan aktrisası, xalq artisti Barat Şəkinskayanın; Azərbaycan ədəbiyyatşünası, yazıçısı, filologiya elmləri doktoru, professor, Azərbaycanın əməkdar elm xadimi, Böyük Vətən Müharibəsi iştirakçısı, bədii nəsr, xatirə və publisistik əsərlər müəllifi, «Şərəf nişanı», 2-ci dərəcəli Vətən Müharibəsi ordenləri və medalları ilə təltif olunmuş Kamran Dadaş oğlu Məmmədovun; Sovet filosofu, fəlsəfə elmlər doktoru, Azərbaycanın əməkdar elm xadimi Midhət Mirmusa oğlu Ağamirovun; Görkəmli Azərbaycan qrafiki, Azərbaycanın əməkdar incəsənət xadimi, bir çox illüstrasiya və eskizlər müəllifi Əmir Səhliəli oğlu Hacıyevin və başqa görkəmli şəxsiyyətlərin vətənidir.

Bütün bunlarla yanaşı Şuşa şəhəri Azərbaycana yüzlərlə hərbiçi bəxş etmişdir. Onlardan bəzilərinin adlarını xatırlamaq yerinə düşərdi Qasım bəy Cavanşir, Məhəmmədhəsən ağa Sarcalı, Gülməhəmməd bəy Kəbirli, Mirzalı bəy Kəbirli, Mehdiquluxan Sarcalı, Şirin bəy Kəbirli, Xanlar ağa Sarcalı,

Məhəmməd bəy Xıdırlı, Qasım bəy Sarcalı, Cəfərqulu bəy Sarcalı, Hacı Ağalar xan Cavanşir, Rüstəm bəy Cavanşir, Məhəmmədqasım ağa Sarıcalı, İsmayıl bəy Qarabağı, Mirzə Əhməd Davatdarov, Əli bəy Kəbirli, Cəfər bəy Kəbirli, İbrahimbəy Mehdibəyov, Zeynal bəy Zeynalbəyov, Əli bəy Poladov, Hacı Böyük bəy Nurubəyov, Əmiraslan bəy Sarıcalı, Fərəcullah bəy Uğurlubəyov, Mirzə Məhəmməd bəy Hacıbəyov, Kərim ağa Cavanşir, Rüstəmbəy Rüstəmbəyov, Hüseyn bəy Köçərlinski, Fərəc bəy Ağayev, Ağa bəy Rüstəmbəyov, Məmməd bəy Cavanşir, Rəhim bəy Uğurlubəyov, Rzaqulu bəy Vəzirov, Süleyman ağa Ziyadxanov, Yusif bəy Cavanşir, Səfi bəy Xazalanski, Həsən bəy Uğurlubəyov, İbrahim bəy Hacıbəyov, Abdulla bəy Rüstəmbəyov, Mustafa bəy Rüstəmbəyov, Mirzəli bəy İsmixanov, İsgəndər bəy Pənahxanov, Zeynalabdin bəy Rəfibəyov, Abbas bəy Ağayev, Əsəd bəy Cavanşir, Həşim xan Cavanşir, Məmmədəli bəy İsmixanov, Sadiq bəy Hacıbəyov, Hacı bəy Qalabəyov, Məşədi Abış Novruzov, Rzaqulu Qacar, Mehdiqulu bəy Nərimanbəyov, Mehdi bəy Tahirov, Əbdülrəhim bəy Vəzirov, Rüstəm bəy Mirzəyev, Zeynal bəy Rüstəmbəyov, Nəsir bəy Rüstəmbəyov, Allahverdi bəy Ağayev, Həsənqulu bəy Ağayev, Şahmar bəy Qalabəyov, Şəfi bəy Fətəlibəyov, Abbas bəy Vəzirov, Hacı bəy Sultanov, Səlim bəy Rüstəmbəyov, Həmzə bəy Ağayev, İsmayıl bəy Novruzov, Əbdülsəməd Mirzə Qovanlı, Şəfi Mirzə Qovanlı, Əkbər Mirzə Qovanlı, Mahmud mirzə Qovanlı, Fətəli mirzə Qovanlı, Əlusulu mirzə Qovanlı, Həsənalı bəy Əsgərxanov, Əmir Kazım mirzə Qacar, Mehdiqulu xan Usmiyev, Bahəddin mirzə Qacar, Heydərqulu mirzə Qacar, Əmənulla mirzə Qacar, Ruknəddin mirzə Qacar, Elxan mirzə Qacar, Məsum bəy Qayıbov, Humayin mirzə Qacar, Humay bəy Vəlibəyov, Seyfulla mirzə Qacar, Qulamşah mirzə Qacar, Azad bəy Vəzirov, Məmmədqulu mirzə Qacar, Feyzulla mirzə Qacar, Abbas bəy Sadıqbəyov, Xosrov mirzə Qacar, Zülfüqar bəy Bağırbəyov, Zeynalabdin bəy Sadıqov, Məmməd bəy Qaraşarov, Cahangir bəy Nəsirbəyov, Xosrov bəy Şirinbəyov, İdris Quliyev, Əyyub bəy Köçərli, Xosrov bəy Məlikhaqnəzərov

Şuşanın hər qarış torpağı, hər bir daşı tarixə dönmüş bir abidədir, lakin Şuşa şəhərində dövlət tərəfindən qeydə alınmış və qorunan 187 tarixi abidə vardır ki, həmin abidələr erməni vandalizminin qurbanı olmuş, dağıdılmış və yandırılmışdır. Şuşada yaradılmış abidələrin çoxu XIX əsrə aiddir. Həmin abidələrin tikilməsində bacarıqlı memar Kərbəlayi Səfixanın, nəqqaş Kərbəlayi Səfərəlinin və rəssam Usta Qənbərin xidmətləri böyük olmuşdur. XX əsrin ortalarından sonra, xüsusilə 70-ci illərin ikinci yarısı və 80-ci illərin birinci yarısında bəzi abidələr bərpa edilmiş və yeniləri yaradılmışdır. Məsələn Zöhrabbəyovların evi Şəkil qalereyasına, Cümə məscidi - Tarix ölkəşünaslıq muzeyinə, Mamay məscidi isə Poeziya evinə çevrilmişdir. Əlbəttə, məscidlərimizə qarşı bu cür münasibəti, xalqımıza qarşı ermənilərin törətdiyi ağır cinayət hesab etməliyik. Bu dövrdə Şuşada ikimərtəbəli su qalereyası, M.P.Vaqifin məqbərəsi, Ü.Hacıbəyovun abidəsi, Bülbülün, X.Natəvanın, N.Nərimanovun, Ü. Hacıbəyovun büst-abidələri yaradılmışdır. 1977-ci ildən Şuşa şəhəri Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. Bu gün dünya ictimaiyyətində «Əzabkeş», «Humanist» obrazı yaratmağa çalışan ermənilər tariximizin yaddaşı, alınmaz qala olan Şuşa şəhərini yerlə yeksan etmişlər. Babalarımızın zülmətdə qalan qəbirləri, dağıdılmış tarixi abidələrimiz, əsirə çevrilmiş «İsa bulağı»mız, «Turşsu»yumuz, «Səkil bulağı»mız, «Fındıqlı gölü»müz, «Cıdır düzü»müz, «Qırx pilləkən»imiz azadlığa səsləyir bizi. Xalqımız, istər siyasi yolla, istərsə də qan tökməklə milli birliyimizə arxalanaraq, Şuşamızı və bütün Qarabağ torpaqlarımızı düşmən təcavüzündən, tapdağından azad edəcəkdir.

# VI FƏSİL

## ŞUŞANIN SƏNAYESİ (1900-1917)

XX əsrin əvvəllərində Çar Rusiyası Şimali Azərbaycanda hakimiyyətini müstəmləkəçilik formasında möhkəmləndirmək məqsədilə idarəetmədə quberniya və qəza bölgü sistemini saxlayırdı. Azərbaycan xalqı idarə işlərində işləmək hüquqlarından məhrum idilər. Çox az hallarda milliyyətcə azərbaycanlı olanlar inzibati və polis idarələrində işləyirdi. Azərbaycanda inzibati-ərazi islahatı keçirilərkən xalqımızın heç bir maraq və mənafeyi nəzərə alınmamışdı.

Bəhs etdiyimiz dövrdə Şuşa şəhəri Şuşa qəzasının mərkəzi idi. Şuşa qəzası 1867-ci ilin dekabrından 1919-cu ilin yanvarınadək Gəncə quberniyasının tərkibində olmuşdur. Şuşa qəzası Miqri, Kəbirli, Zəngəzur, Cavanşir, Cиləbörd Cəbrayıl məntəqələrinə bölünürdü. Lakin çar hökuməti Cəbrayıl və Cavanşir məntəqələrini Şuşa qəzasından ayıraraq müstəqil qəzalara çevirdi və 1883-cü ildən Gəncə quberniyasına daxil etdi. 1900-cu ildə Şuşa qəzası qəza rəisi, onun müavini, xəzinədar, məntəqə iclasçıları və qəza polisi tərəfindən idarə olunmuşdu. Həmçinin, Şuşada məhkəmə də yaradılmışdı. Məhkəmələr sədr, müavin və 6 üzvdən ibarət idi və açıq aparılırdı. Lakin Şuşada hakimlər yalnız ruslardan təyin olunurdu.

İclaslar rus dilində aparılırdı. Çox hallarda hakimlər xalqımızın adət-ənənəsinə hörmətsizlik edir, rüşvət alır və qanunsuz hərəkətlərə yol verirdilər.

1900-cü ildə Şuşa qəzasının əhalisinin sayı 140740 nəfər, sahəsi 4911 kvadrat kilometr idi. Bəhs etdiyimiz dövrdə, Şuşa qəzasına aşağıdakı yaşayış məntəqələri daxil idi: Şuşa şəhəri, Xankəndi, Qaragədik, Ulubəy, Qayabaşı, Sarıkeşiş, Qışlaqkənd, Şəlvə, Seyidbəyli, Daşbulaq, Mehdikənd, Bədara, Seyidkənd, Xındırıstan, İsmayılbəyli, Məlikbəyli, Xəlfəli, Xocalı, Quşçular, Körpə Ətəfli, Zarıslı, Naxçıvanik, Pircamal, Dağros, Ağdərə, Ağbulaq, Aranzəmin, Lisaqor, Kərgicahan, Cəmilli, Ballıca, Qaybalıkənd, Bəhlul, Xandcək, Mədətkənd, Yuxarı Siznək,

Aşağı Siznək, Dəmirçilər, Sığnaq, Çanaxçı, Qarabulaq, Quş-Baba, Sarıkənd, Xaçmaz, Tuknakal, Qaralı, Pirimkənd, Muxtarkənd, Dağ-dağan, Sarov, Daşkənd, Şuşakənd, Daşaltı, Gülqarlı, Pircamal, Keşişkənd, Daşburun, Xocabörd, Kəndxord, Karyagin, Muşqabad, Qabaxanlı, Maştaqkənd, Quzumkənd, Acıkənd, Keşan, Hadıkənd, Yenikənd, Qarakənd, Yemişan, Cəmiyyət, Qarqarça, Mirikənd, Qaradağlı, Xonaşen, Bəhrəmli, Xocallı, Muğanlı, Abdal, Kotluyarovski, Kurapatkin, Nikalayevka, Skolyevka, Sus, Suxtaraşen, Hirkan, Zavodkənd, Tər-tərkənd, Movos, Amaran, Bül-bül, Ağbulaqkənd, Quzeykənd, Tuğ, Tağ, Azox, Zardanşen, Şəhər, Caqauz, Tağverd, Quzey-Cartaz, Keşan, Güney Cartaz, İsfahankənd, Yenicə, Daşbaşı, Yeni-Xanabad, Xramord, Yuxarı Kliçbağ, Aşağı Kliçbağ, Qrax-tuğ, Mamedzor, Şahinli, Şuşalıx, Köşətli, Axullu, Domı, Toqa, Tsaqor, Çıraqlı.

Şuşanın Yuxarıda qeyd etdiyimiz kəndlərinin adlarını nəzərdən keçirərkən görürük ki, 121 adın yalnız bir neçəsi xislətli ermənilər tərəfindən dəyişdirilmişdir. Azərbaycanın qədim tarixə malik İrəvan xanlığında özlərinə dövlət yaradan xain qonşularımız, zaman-zaman doğma torpaqlarımızı hissə-hissə «Erməni-vilayəti»nə birləşdirdilər. Onlar «Böyük Ermənistan» dövləti yaratmaq üçün bütün çirkin əməllərdən çəkinmədilər. Ermənilər, işğalçılıq müharibəsinə haqq qazandıraraq belə bir saxta mülahizə yayırlar ki, guya Dağlıq Qarabağ ərazisi tarixən erməni torpağı olub. Halbuki, yuxarıda adlarını yazdığımız toponimlər bu fikrin saxta olduğunu sübut edir. Şuşanın kənd adlarındakı toponimlərin çoxu qədim və orta əsrlərdə burada məskunlaşmış alban, qarqar, aran, tərtər, peçeneq, katek və başqa türk mənşəli tayfaların adlarından qalmışdır. Dağlıq Qarabağdakı bütün relyef formalarını və hidronimləri əks etdirən toponimlər mənaca Azərbaycan-türk mənşəlidir. Adicə «Arsak» sözünü götürək. Bəzi erməni «diplomatları» Arsak sözünü erməniləşdirirlər. Halbuki, bu sözü kökə və şəkilçiyə (Ar, sak) ayırarıqsa, «Ar»ər sözündən götürülüb, «sak»isə türk mənşəli tayfa olmuşdur (skiflər). Şuşadakı erməni mənşəli toponimlər XIX əsrdən yaranmağa başlamışdır. Bu fikri erməni tədqiqatçıları da təsdiq

edirlər. Ümumiyyətlə, 1813-cü ildən 1988-ci llədək inzibati rəhbərlikdən istifadə edərək yer adlarının dəyişdirilməsinə baxmayaraq, Dağlıq Qarabağdakı 407 ümumi toponimlərin 309-u (76%) təmiz Azərbaycan dilindədir. Qalanları isə qarışıqdır. 228 oykonimdən isə 173-ü Azərbaycan dilinə mənsubdur. Təsadüfi deyildir ki, XIX əsrin 80-ci illərində Qarabağ yaylaqlarını öyrənən M.A.Skibitski Qarabağ dağlarında 567 yaylaq və yurd yeri qeydə almışdır. O, 567 toponimdən 564-ün sırf Azərbaycan mənşəli, 1-nin rus, 2-nin erməni dilinə uyğun olduğunu göstərmişdir. Bölgədəki qədim çay, zirvə, dağ adları öz təbii adını qoruyub saxlayıbdır (Tərtərçay, Qarqarçay, Gamışdağ və sair). Ermənilər bəzi yer adlarının əvvəlinə, axırına van, şen, kert sözlərini əlavə etməklə həmin toponimi özünküləşdirməyə çalışırlar. Məsələn, Seyidlər kəndini, Seyidşen, Mehdi kəndini Mehdişen, Daşaltını Daşuşen, Qırmızıkəndi Karmiravan və sair adlandırmışlar. Mövzumuzun əhatə dairəsindən uzaqlaşmış olsaq da, yeri gəldikcə obyektiv tarixi materiallara əsaslanaraq Şuşa toponimlərini tədqiq etməli və əsl həqiqəti, ermənilərin məkrli məqsədlərini dünya ictimaiyyətinə çatdırmalıyıq.

XX əsrin başlanğıcında dünya iqtisadi böhranı Azərbaycan sənayesindən də yan keçməmişdi. Lakin bəhs edilən dövrdə Azərbaycanın qəzalarında sənayedə yeni inhisarlar yaranmaqda, kapitalist münasibətləri inkişaf etməkdə idi.

Şuşa torpaqlarının qiymətli sərvətləri sənayenin müxtəlif sahələrinin inkişafına şərait yaratmışdır. Burada ipək emalı, gön-dəri, toxuculuq, ağac emalı, şərab istehsalı, yeyinti sənaye sahələri fəaliyyət göstərirdi. Şuşada sənayenin inkişafı nəqliyyatın, rabitənin, bank kredit sistemin və ticarətin də inkişafına təkan vermişdi. XX əsrin əvvəllərində Şuşanın sənaye müəssisələrində yeni texnikanın tətbiqi istehsalın inkişafını sürətləndirdi. 1900-1903-cü illəri əhatə edən dünya iqtisadi böhranı Şuşadakı yüngül və yeyinti sənayesinə ciddi zərbə vura bilmədi.

Faktlara müraciət edərkən aşkar olur ki, 1900-cü ilin yanvarında Şuşa qəzasında 1465 nəfər fəhlə olmuşdur. Bölgədəki sənaye müəssisələrində 1900-cü ildə 7 milyon 30 min manatlıq mal istehsal edilmişdir.

Şuşa ipəyi əsrlər boyu dünyada Azərbaycanın şöhrətini yüksəltmişdir. XIX əsrin 90-cı illərindən başlayaraq Şuşa ipək emalı sənayesində yüksəliş baş vermişdir. Bu yüksəliş xırda müəssisələrin iri müəssisələr tərəfindən sıxışdırılması və böyük fabriklərin yaradılması, istehsalda yeni texnikanın tətbiqi, buxar mühərriki ilə işləyən müəssisələrin artması və Şuşanın kəndlərindəki kumdarların (barama yetişdirməklə məşğul olanların) Şuşa ipək emalı fabrikinin lazımı səviyyədə xammalla təchiz edilməsi ilə bağlı olmuşdur. Lakin təəssüf doğuran bir həqiqəti qeyd etməliyik ki, çar hökuməti Şuşada yeni səhmdar cəmiyyət yaradarkən həmin iri şirkətə qeyri-azərbaycanlıları başçı təyin edirdi. Məsələn, 1899-cu ildə Şuşada yaradılan 8 ipək emal edən və 3 baramaqurudan müəssisəni əhatə edən «D.Q.Arunyans ipəksarıma və ipəkburma səhmdar cəmiyyəti»nə rəhbərlik Arunyans familiyalı erməninin əlində cəmləşmişdi. Şuşada istehsal edilmiş xammalın çoxu Moskvanın ən iri ipək sənaye sahiblərinə göndərilirdi. Şuşada istehsal edilmiş ipəyin yüksək keyfiyyətə malik olması faktları vardır. Məsələn, arxiv materiallarında «F.İ.Kondratyeva», «S.N.Kondraşyev varisləri», «İ.İ.Braşin», «A.Sokolov», «L.S.Braşin varisləri», «A.İlin oğulları və K», «A.V.Sapojnikovlar» və başqa Moskva sahibkar müəssisələrinin Azərbaycanın Maliyyə Nazirliyinə göndərdikləri müsbət rəylərdə Şuşada ən yüksək keyfiyyətli ipək istehsal edildiyi göstərilmişdir.

XX əsrin əvvəllərində Şuşa qəzası ipək istehsalına görə Nuxa qəzasından sonra Zaqafqaziyada ikinci yerdə dayanırdı. 1900-cü ildə Şuşada 25 ipəkəyirən müəssisə var idi. Aparılan hesablamalara görə Şuşanın 8 ipəkəyirən müəssisəsində 100-150 fəhlə, qalan müəssisələr isə xırda olduğundan çox az fəhlə işləyirdi. Eyni zamanda baramaların mexaniki yolla qurudulması üsulu Azərbaycanda ilk dəfə olaraq Şuşada tətbiq edilmişdir.

1901-ci ildə xırda müəssisələrin təmərküzləşməsi hesabına Şuşada ipək emalı müəssisələrinin sayı 25-dən 22-yə endi. Fəhlələrin sayı isə 1068 nəfərə çatmışdır. Şuşada fəaliyyət göstərən müəssisələrin çoxu ayrı-ayrı kəndlərin payına düşürdü. 1901-ci ildə Şuşa ərazisində ipək emalı müəssisələri aşağıdakı qayda

ilə yerləşmişdi: 6-sı Çanaxçı kəndində, 1-i Kişikənddə, 2-si Ballıcada, 1-i Nabatxanlıda, 2-si Tağda, 1-i Keşişkənddə, 2-si Tuğda, 1-i Ağbulaqda, 1-i Qaybalıkənddə, 1-i Qışlaqkənddə, 1-Daşaltıda, 1-Şuşakənddə, 1-i Kərgicahanda, 1-i Sığnaqda. Bəhs edilən ildə Şuşa ərazisindəki ipək emalı müəssisələri 716 min manatlıq məhsul istehsal etmişdi. 1901-ci ildə Şuşanın kəndlərində fəaliyyət göstərən 20 müəssisənin hər birində 50 nəfər, Şuşanın özündəki müəssisələrin 2-də 68 nəfər (cəmi 1068 nəfər) fəhlə işləyirdi.

1902-ci ildə Şuşada yeni bir ipək emalı müəssisəsi açıldı. Bölgədə ipək emalı müəssisələrinin sayı 23-ə çatdı. Məhsul istehsalı və fəhlələrin sayı dəyişməz qaldı. 1903-cü ildə isə dünya iqtisadi böhranının təsiri ilə Şuşa ipək emalı müəssisəsində məhsul istehsalı 1900-cü illə müqayisədə, təxminən, 40 faiz aşağı düşmüşdü. Belə ki 716.500 manatdan 544.812 manata enmişdi. 1903-cü ildə Şuşa qəzası Qarabağda müəssisələrin sayına, məhsul istehsalının həcminə görə fərqlənirdi. Bəhs edilən dövrdə Cəbrayıl qəzasında 170 fəhləsi olan 4 müəssisə fəaliyyət göstərirdi ki, həmin müəssisələrin ümumi illik məhsul istehsalı 88.828 manata çatırdı.

Çar Rusiyası dünya bazarında ipək parçaya olan tələbatı nəzərə alaraq Şuşada ipək emalı müəssisələrinin məhsul istehsalının həcmini artırmaq məqsədilə 1904-cü ilin fevralında Şuşa şəhərində Kredit şirkətinin açılması haqqında fərman verdi və həmin ilin ortalarında şirkət fəaliyyətə başladı. Fabrik sahiblərinin kapitala olan tələbatı Şuşa Kredit şirkəti hesabına qismən ödənilirdi. Kredit şirkəti barama satışı mövsümündə artıq kapital əldə etmək imkanına malik idi. Ticarət və sənaye müəssisələrinin inkişaf etdirilməsi məqsədilə yaradılmış «Qarşılıqlı kredit cəmiyyəti» sonrakı dövrlərdə öz fəaliyyətini daha da genişləndirdi.

Bütün bunlara baxmayaraq, 1904-cü ildə Şuşa bölgəsində ipək emalı müəssisələrinin sayında (23 ədəd) və məhsul istehsalının həcmində (10 min pud, manatla 544 min) 1903-cü illə müqayisədə elə bir əsaslı irəliləyiş diqqəti cəlb etmədi. Əksinə fəhlələrin sayı 1903-cü illə müqayisədə, 1904-cü ildə 1036-dan 800-ə endi.

1905-ci ildə Şuşada ermənilərin törətdiyi qırğın nəticəsində bölgədəki ipək emalı müəssisələrinin bir hissəsi məhv edilmiş, qalanları isə fasilələrlə işləmişdir. Bütün bunlar isə məhsulun istehsalına mənfi təsir göstərmişdir. 1906-cı ilin yanvar məlumatına görə Şuşa ərazisində ipək emalı müəssisələrinin sayı 23-dən 12-yə endi.

1907-1908-ci illərdə Şuşa bölgəsində ipək emalı sənayesində yüksəliş müşahidə edilmişdir. Bu yüksəlişin ən başlıca amili 1906-cı ildə ayrı-ayrı kumdarların əlində külli miqdarda satılmamış baramanın 1907-ci ildə ipək sənaye sahiblərinə satılması ilə bağlı olmuşdur. Nəticədə, Şuşa qəzasında 1907-ci ildə müəssisələrin sayı 25-ə, 1908-ci ildə isə 29-a çatmışdır. Ayrı-ayrı illərdə bölgədə 10 min puda yaxın birinci və ikinci növ ipək əldə edilmişdir. Müvafiq illərdə məhsul istehsalının həcmi 1,5 milyon manata bərabər idi. 1908-ci ildə burada işləyən fəhlələrin sayı 1361 nəfərə çatdı.

1910-1911-ci illərdə Avropa ölkələrində, xüsusi olaraq, İtaliyada əlverişsiz iqlimlə əlaqədar barama istehsalı aşağı düşmüş, bu isə öz növbəsində ipək parça istehsalını xeyli ixtisar etmişdi. Belə bir dövrdə həm İtaliyanın, həm də Rusiyanın ABŞ və Yaponiya dövləti ilə ticarət müqavilələri var idi və həmin dövlətlər İtaliya və Rusiyadan ipək parça idxal edirdilər. Deməli, Azərbaycan ipəyinə dünya bazarında böyük tələbat var idi. Nəticədə, Azərbaycanda ipək emalı müəssisələri bütün gücü ilə işləməyə başladı. Beləliklə, 1911-ci ildə Şuşada 27 ipək emalı müəssisəsi işləyirdi ki, həmin müəssisələrdə 1370 fəhlə çalışırdı. Sənaye müəssisələrində illik məhsul istehsalının həcmi 1 milyon 227 min manata çatmışdı.

Rusiyada iqtisadi yüksəliş illərində xam ipəyə artan tələbatla əlaqədar 1913-1915-ci illərdə Azərbaycanda onlarla yeni ipək istehsal edən müəssisələr meydana gəldi. Bəhs etdiyimiz dövrdə, ipək emalı sənayesində şirkətlər və səhmdar cəmiyyətlər mühüm rol oynayırdılar. İstehsal edilən məhsulların beşdə dördü şirkət və səhmdar cəmiyyətlərin əlində cəmləşmişdi. 1914-cü ildə Nuxa-Zaqatala zonasında fabriklərin sayı 1900-cü illə müqayisədə 2 dəfə artdı və 87-yə çatdı. Bəhs edilən dövrdə, Qarabağda 36,

Naxçıvanda 14 ipək sənayesi var idi. Azərbaycanda ipək sənayesinin illik istehsal məbləği 20 milyon manat olmuşdu (1913-cü ilin sonu).

1915-ci ildə Şuşada ipək emalı müəssisələrinin sayı indiyə qədər görünməyən həddə çatdı. Əgər 1901-ci ildə burada 22 müəssisə var idisə, 1915-ci ildə 36 oldu. 1915-ci ildə həmin 36 müəssisədə 4 milyon 200 min manatlıq, başqa sözlə, 12 min pud ipək istehsal edilmişdi. Xarici dövlətlərdə ipəyə olan tələbat, onun qiymətinin artmasına səbəb oldu. Belə ki, 1915-ci ilin əvvəlində ipəyin hər bir pudu 500-600 manata satılırdısa, ilin sonunda xaricə göndərilən ipəyin pudu 700-880 manata qalxmışdı. Bəhs etdiyimiz dövrdə satılan əla növ əriş və araqçının pudu 1000 manatdan yuxarı idi. Maraqlı cəhət bundan ibarətdir ki, Yaponiya dövləti Azərbaycanın əla növ ipəyinin rəqabətinə tab gətirə bilmirdi.

1901-ci illə müqayisədə 1915-ci ildə Şuşadakı ipək emalı müəssisələrinin sayı 68 faiz, istehsal məbləği 486,2 faiz, fəhlələrin sayı 24,5 faiz, məhsulun dəyəri 3,1 dəfə artmışdı. Artıq, bölgə müəssisələrindəki fəhlələrin sayı orta fabrik kateqoriyalarına uyğun idi (təxminən 60 nəfər).

Azərbaycanın digər ərazilərindən fərqli olaraq Şuşada kapitalizmin xüsusi xarakterik cəhəti onda idi ki, əmtəə-pul münasibətlərinin genişlənməsi nəticəsində tacirlər daha tez meydana gəlmişdir.

1916-cı ildə Şuşa ipək emalı müəssisələri 1915-ci il göstəricilərini sabit saxlasa da, 1917-ci ildən başlayaraq istehsalın həcmi kəskin şəkildə aşağı düşdü. Şuşa ipəyi dünya bazarlarında uğurla rəqabət aparmışdı.

XX əsrin əvvəllərində Şuşa sənayesinin mühüm sahələrindən biri də şərab istehsalı sənayesi idi. Ərazinin bol xammala malik olması, xüsusilə üzümçülüyün və tut bağlarının inkişafı şərab, spirt və konyak istehsalının artmasına təkan verdi. 1900-cü ildə Azərbaycanda 6 milyon pud üzümün əksəriyyətindən spirt məhsulları hazırlanırdı. Həmin 6 milyonun 1 milyon pudu Şuşanın payına düşürdü. Bəhs edilən ildə, Azərbaycanda istehsal edilmiş 1345 min vedrə (bir vedrə 10-12 litrə

bərabər idi) şərabın 269 min vedrəsi, 20 milyon dərəcə spirt və arağın 4 milyon dərəcəsi Şuşanın payına düşürdü. 1913-cü ildə Şuşada şərab istehsalı 8000 vedrəyə çatdı. Cəmi Azərbaycan üzrə bu göstərici 4 milyon vedrə idi. Eyni zamanda, 1913-cü ildə Azərbaycanda spirt, araq, konyak istehsalı 29 milyon dərəcəyə qalxmışdır ki, bunun 6 milyon dərəcəsini Şuşanın şərab zavodları istehsal edirdi. Bəhs edilən dövrdə Azərbaycanda istehsal edilən şərabın 20 faizini Şuşa verirdi. Cənubi Qafqazda istehsal olunan şərabın üçdən biri Azərbaycanın üzərinə düşürdü.

İqtisadi böhrandan sonrakı illərdə Şuşanın şərab istehsalı ilə məşğul olan şirkət və səhmdar cəmiyyətlərinin sayı artmağa başladı. Həmin şirkət və səhmdar cəmiyyətlər Şuşa ərazisində hazırlanan şərab, araq, spirt və konyakın çox hissəsini verirdilər. 1914-cü ildə Azərbaycanda dəyəri 21 milyon manatdan çox olan şərab, araq, spirt və konyak hazırlanırdı ki, bunun 4,2 milyon manatı Şuşanın hesabına düşürdü.

Şuşada maldarlığın inkişafı gön-dəri sənayesinin inkişafına təkan vermişdi. Hər il Azərbaycanda sənaye məhsulu istehsalı üçün 600 min ədəd gön dəri satılırdı. Əsrin əvvəllərində gön dəri istehsalına görə Nuxa şəhəri birinci yerdə (50 gön-dəri müəssisəsi var idi), Şuşa isə ikinci yerdə (15-dən çox müəssisə) gedirdi. Ümumilikdə isə, 1900-cü ildə Azərbaycanda 160 gön-dəri müəssisəsi fəaliyyət göstərirdi. Azərbaycanda istehsal olunan 600 min ədəd dərinin 65 mini (bu rəqəm satışa hazırlanan illik göstəricidir) Şuşanın payına düşürdü. 1913-cü ildə Şuşada gön-dəri istehsalı müəssisələrinin sayı 1900-cü ildə olduğu kimi qalırdı. Şuşa gön dəri müəssisələrində 600 fəhlə çalışırdı. Sənayenin başqa sahələrində olduğu kimi gön-dəri sənayesində də təmərküzləşmə prosesi güclənirdi. Bu isə öz növbəsində, məhsul istehsalında inkişafa təkan vermişdir. 1900-cü illə müqayisədə 1914-cü ilin əvvəllərində gön-dəri müəssisəsində məhsul istehsalı 4 dəfə artdı. Bütövlükdə Azərbaycanda bu rəqəm 0,5 milyondan 2 milyon manata çatdı. Şuşada isə bu göstərici 52 min manatdan 215 min manata yüksəldi.

XX əsrin əvvəllərində Şuşada sənayenin inkişaf etmiş sahələrindən biri də toxuculuq sənayesi idi. Şuşada əllə toxunan

xalça-gəbəni heç bir fabrik məmulatı əvəz edə bilməzdi. Aparılan hesablamalara görə, Şuşa ərazisində, bəhs etdiyimiz dövrdə, 20 minə qədər adam bu və ya digər şəkildə xalça-gəbə məmulatı istehsalı ilə məşğul idi. Hər il Şuşa sənətkarları 70 min manatlıq xalça-gəbə toxuyub satırdılar. Dünya bazarında Şuşa xalçalarına olan tələbat sənətkarlığın bu sahəsini ev peşəsindən bazar üçün məhsul hazırlayan əmtəə istehsalı səviyyəsinə yüksəltdi.

Bəhs edilən dövrdə, Şuşada sabun və kərpic zavodu, pambıq-parça toxuyan karxana, boyaqxana sexi, kəlağayı arteli, papaqçılıq, misgərlik, rəngkarlıq, nəqqaşlıq, çəkməçi, dərzi, dəmirçi sexləri, tikməçilik, şərbaflıq, dulusçuluq və sair sənətkarlıq sahələri var idi.

Şuşada sənətkarlığın mühüm növlərindən biri də daşişləmə sənəti olmuşdur. Şuşa və onun ətraf ərazilərində zəngin daş yataqlarının (karxanaların) olması XX yüzilliyin əvvəllərində burada daşişləmə sənətinin həkkaklıq, bənnalıq, heykəltəraşlıq, şəbəkəçilik, oymakarlıq kimi sahələrinin inkişafına şərait yaratmışdır. Daşişləmə sənəti çox ağır zəhmətlə başa gəlirdi. Çünki ilk növbədə daş, yerdə bir-birindən aralanması üçün qırılır, çıxarılır, sənətkar emalatxanalarına gətirilərək müxtəlif formalarda yonulur və üzərinə lazımi şəkillər həkk edirdilər. Bəhs edilən dövrdə, Şuşa şəhərində 104 daş işinə baxan sənətkar var idi. Sənətkarlar daşdan müxtəlif məmulatlar hazırlayırdılar: hörgü daşı, tac və sutun daşı, bəzək daşı, künc və zeh daşı, tavan daşı, minarə və günbəz üçün daş, su daşı, kirkirə daş, xırman daşı, duz daşı, darvaza daşları, dəyirman daşları, məzar daşları və sair. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Şuşada istehsal olunmuş daşlar İran bazarında çox yüksək alıcılıq qabiliyyətinə malik idi.

XVIII əsrdən başlayaraq Şuşada daha rəvan inkişaf etmiş sənət sahələrindən biri də zərgərlik olmuşdur. XX əsrin əvvəllərində isə bu sənət öz inkişafında ən yüksək zirvəyə çatmışdır. Bəhs etdiyimiz dövrdə, Şuşada zərgərliyin qəlibkarlıq üsulu daha geniş yayılmışdı. Şuşa zərgərləri yüksək əyarlı qızıl və gümüşdən müxtəlif məmulatlar hazırlanmasına daha çox üstünlük verirdilər. Qızıl və gümüşdən hazırlanmış məmulatlar (üzük, sırqa, boyun-

bağı, bilərzik, toqqa və sair) xarici bazarlara baha qiymətə satılırdı. Bəhs etdiyimiz dövrdə, Şuşa sənətkarları qəliblər vasitəsilə sal toqqalar, cütqabağı, qoza, düymə, yaxalıq, ətəklik, boyunbağılar və sair hazırlayırdılar. Şuşa zərgərləri özlərinin gözəl əl işləri ilə Azərbaycanı, xarici dövlətlərdə tanıtmışlar.

Şuşa əhalisinin təsərrüfat və məişət ehtiyacları sənaye məhsulları ilə tam təmin olunmadığından bir sıra kustar sənət və peşə növləri hələ də öz fəaliyyətlərini davam etdiridi. Belə sənət sahələrindən biri də ayaqqabı istehsal edən — başmaqçılıq, çəkməçilik, çustçuluq, çarıqçılıq kimi müstəqil fəaliyyət göstərən sənət sahələri olmuşdur. Biz bir həqiqəti qeyd etməliyik ki, XX yüzilliyin əvvəllərində sənətin bu sahəsində geriləmə halı müşahidə edilirdi. Bunun başlıca səbəbi ayaqqabı istehsal edən fabriklərin yaranması ilə bağlı olmuşdu. Məsələn, 1848-ci ildə Şuşa şəhərində 84, 1860-cı ildə 75, 1899-cu ildə 57 ayaqqabı istehsalı emalatxanası fəaliyyət göstərirdisə, XX əsrin əvvəllərində bu rəqəm 50-dən aşağı idi. Başmaq istehsal edən sənətkarlar Şuşa əhalisinə nəleyin çust, məst, qondara, çəkələk tikirdilər. Şuşa sənətkarları kəndlərdə yaşayan əhali üçün çarıq tikirdilər. Çarıq isə aşılanmış dana, at, kəl, uzunqulaq dərisindən hazırlanırdı. Çarıxçı emalatxanaları həm də dükan rolunu oynayırdı. Bu emalatxanalar bazar meydanında karvansara və məscid yaxınlığında fəaliyyət göstərirdi. Çarıqçı emalatxanalarının bəzilərində 2 çoxunda 3 şagird işləyirdi.

Şuşada kustar sənət və xırda əmtəə istehsalı sahələrindən biri də kürkçülük olmuşdur. Kürkçülük xəz aşılanmanın bir qolu idi. Kürk dəridən 2 formada geyim (geyinmə və çiyinə atma) hazırlanırdı.

Qarabağda papaqçılıq sənətinin mərkəzi Şuşa şəhəri idi. Papaqçılıq Şuşa sənətkarlarının qədim sənəti olmaqla XX yüz illik boyu da davam etmişdir. “Girvənkə”, “Qarabağı”, “Dairəvi”, “Buxara”, “Şirazi” papaqları həm Azərbaycanın müxtəlif bazarlarında, həm də Şərq ölkələrində satılırdı. XX yüzilliyin əvvəllərində Şuşa şəhərində 30 papaqçı emalatxanası var idi ki, həmin emalatxanalarda 84 papaqçı işləyirdi. Təsadüfi deyildir ki,

Şuşada "Papaqçılar" məhəlləsi öz adını son dövrlərə qədər saxlamışdı.

XX yüzilliyin əvvəllərində Şuşada daha da inkişaf etmiş, dərinləşmiş sənət sahələrindən sərraclıq-yəhərçilik sənətinin adını xüsusi qeyd etməliyik. Şuşada sənətin bu sahəsinin inkişaf etməsi səbəbi maldarlıq təsərrüfatına olan tələbatla bağlı olmuşdur. Şuşada hazırlanan yəhərlər "müsəlman yəhərləri" adlanırdı. Yəhər hazırlayan sənətkarlar həmçinin sinəbənd, tapqır, quşqun, qantarça, yüyən, qançığa bağları, tərlik, üzəngi qayışları, yəhəriçi, qamçı və sair də hazırlayırdılar. Yəhərlər müxtəlif formalarda və müxtəlif materiallardan hazırlanırdı.

Şuşa sənətkarları köçmə maldar elatların daxili ehtiyaclarını ödəmək üçün aşılanmış dəridən məişət əşyaları — dağarcıq, eymə, teşən, tuluq, cılğı, motal və sair hazırlayırdılar. Sənətin bu sahəsi çox yüksək səviyyədə inkişaf etməsə də, XX yüzillik ərzində öz məişət əhəmiyyətini saxlamışdır və bu gün də qalmaqda davam edir. Ümumilikdə isə, Şuşa əhalisinin təsərrüfat məşğuliyyəti ilə bağlı gön-dəri sənət sahəsinin meydana gəlməsi və inkişafına səbəb olmuşdur. Gön dəri aşılayanlar (dabbağlar) öz emalatxanalarını (dabbağxanasını) şəhərin kənar hissəsində axar su üzərində qururdular. Əvvəllər Azərbaycana İrandan, Orta Asiyadan, Rusiyadan gətirilən tumac, müşkü, kocala, sarğı, ətvi indi Qarabağda yerli dabbağlar tərəfindən aşılanırdı.

Yaranma tarixinə və özünəməxsus inkişafına görə Şuşada toxuculuq sənəti xüsusi yer tutur. Sənətin bu sahəsinin inkişaf etməsinin ən başlıca səbəbi Şuşanın bol xammal ehtiyatlarına malik olması ilə bağlıdır. Şuşanın əlverişli iqlimi qoyunçuluğun inkişafına zəmin yaratmışdır. Qoyunçuluğun inkişafı isə bol yun istehsalı demək idi. Şuşada emal olunan yunun bir hissəsi ticarət məhsulu kimi xarici dövlətlərə ixrac olunur, digər hissəsi isə yerli istehsala, xüsusilə xalçaçılığa sərf olunurdu. Yun ip şəklinə düşmək üçün bir neçə mərhələdən keçirdi. Yun əvvəlcə qırxılır, sonra yuyulur, qurudulur, ilişgilərdən təmizlənir, çubuqla çırpılır, "yun darağı" ilə daranır və sonra "əlçim"lənirdi. Hazır yun əl iyi və cəhrə vasitəsilə əyrilərək ip şəklinə salınırdı (dükcə, yumaq,

pəngam, kələf), təbii ("xasa") və süni ("əməli") yolla boyanan yun ip toxumaya hazır idi.

Hələ orta əsrlərdə istehsal texnikasına, çeşidin çalarlarına, rəngarəngliyinə, bədii tərtibatının zənginliyinə görə Şuşa xalçaları öz inkişafında yüksək səviyyəyə çatmış, XIX yüzilliyin ikinci yarısı XX yüzilliyin əvvəllərində isə Şuşa, Qarabağda xalça istehsalı və satışı mərkəzi olmuşdur. Əvvəllər şəxsi ev tələbatının ödənilməsi üçün istehsal edilən xalçaçılıq XIX əsrdən başlayaraq bazar üçün məhsul istehsal edən sənət sahəsinə çevrildi. "Malıbəyli", "Ləmpə", "Bağçada güllər", "Bulud", "Saxsıda güllər", "Nəlbəkigül", "Gülluyaylıq", "Muncuq", "Zərməxər" adlı Şuşa xalçaları dünya bazarlarında tanınırdı. Adlarını çəkdiyimiz yuxarıdakı xalçalar xovlu (ilməli) xalçalar növünə aiddir. Bundan başqa, Şuşada xalça-palaz toxuculuğunun xovsuz (ilməsiz) növü də inkişaf etmişdi. Xovsuz xalçalar palaz, fərməş, kilim, vərni, ladı və başqa adlarla toxunurdu. Şuşa palazları çox hallarda "yer palazı" adlanır və sadə formada toxunurdu. Mürəkkəb formada toxunan "kilimlər" isə müxtəlif bəzəklərlə bəzədilirdi. "Sumax", "Ləmpə", "Kilimalması", "Kərpic", "Şeytan", "Zəncir", "Padnos", "Alma", "Quş", "Buta", "Balıq", "Nal" adı altında toxunan Şuşa kilimlərinin nəqşi-bəzək elementlərindən xalça toxuculuğunda da istifadə edilirdi. Şuşada geniş intişar tapmış sənətkarlığın bu növü XX yüzilliyin əvvəllərində fabrik istehsalının təsiri nəticəsində xeyli geriləsə də xalq xalça-gəbə toxumaq ənənəsini uzun müddət qoruyub saxlamışdır. Bu gün Azərbaycanın bəzi dağlıq ərazisində qədim dəzgah olan dik hana qurulur, həvə, kərki və sair alətlərdən istifadə edilərək xalça-gəvə toxunur.

Köçmə maldarlığı əsas məşğuliyyət sahəsi olan Şuşa elatlarının keçəyə, nəməndə, tərliyə, yapıncıya olan tələbatı əsas verdi ki, bölgədə keçəçilik inkişaf etsin. Məişətdə çox böyük əhəmiyyət kəsb edən keçə məmulatları Şuşada lazımı səviyyədə istehsal olunmuş və yerli əhalinin tələbatını tamamilə ödəmişdir. Sənətin bu sahəsi yüksək xətlə inkişaf etmiş və XX yüzillikdə də qalmaqda idi.

Şuşa əhalisi təkcə yun toxuculuğu sahəsində deyil, həm də barama istehsalı, emalı, ipək toxuculuğu sahəsində də böyük şöhrət qazanmışdır. XIX əsrin ikinci yarısında ipək istehsalı özünün ən yüksək səviyyəsinə çatmışdır. Təsadüfi deyildir ki, N.N.Şavrov bəhs etdiyimiz dövrü "Qafqaz ipəkçiliyinin qızıl əsri" adlandırmışdır. Bu dövrdə Şuşa ipəkçiliyin mühüm mərkəzlərindən biri idi. Şuşada ipəkçiliyin inkişafı bir sıra sənət sahələrinin yaranmasına səbəb oldu: tutçuluq, baramaçılıq, ipəkəyirmə, ipəksarıma, ipəktoxuma, ipəkboyama və sair. İpəkçiliyin inkişafı üçün Şuşanın kəndlərində tumcar, toxmacar çəkillik, kərrik adlanan tut plantasiyaları salınırdı. Mədəni becərilən həmin tut plantasiyalarında çəkil, kər, qara tut, ağ tut, cır tut, şah tut, xar tut, bidanə və başqa sortlar əkilir və becərilirdi.

Şuşa baramaçıları Yaponiya, İtaliya, Xorasan, Buxara, Çin, Fransa və Türkiyədən alınan "Bağdad" toxumundan və yerli "Müsəlman" adlanan toxumdan istifadə edirdilər. Şuşa sənətkarları əldə etdikləri ipək sapdan cecimlər toxuyurdular. Şuşa cecimləri içərisində "saya cecim", "həmran" və "ovagəzər" adlanan zolaqlı cecimlər xüsusi əhəmiyyətə malik idi və başqa cecimlərdən fərqlənirdi.

Şuşada ipəkçiliyin şərbaflıq adlanan mühüm sahəsi də inkişaf etmişdir. Şuşa sənətkarları xam ipək sapdan parça və kəlağayı hazırlayırdılar. Xam ipəkdən hazırlanan məmulatlar özünün keyfiyyətinə, parlaqlığına görə bütün dünyada tanınırdı. Təsadüfi deyildir ki, 1899-cu ildə Tiflisdə keçirilən kənd təsərrüfatı sərgisində Şuşanın karxana ipəyi yüksək keyfiyyətinə görə qızıl medal almışdır. Şuşa sənətkarları "Yezdimo" və "Kələğayi" dəzgahlarından istifadə edərək "Mov", "Darayı", "Qəsabə", "Qanovuz", "Çarqat", "Alyoşa" adlı kəlağayılar istehsal edirdilər. İran və Türkiyə bazarlarında gözəl Şuşa kəlağayılarına həmişə ehtiyac duyulurdu.

XX əsrin əvvəllərində Şuşada sənaye müəssisələrinin demək olar ki, hamısında buxar qazanları, buxar mühərrikləri və başqa sistemli maşınlar tətbiq olunurdu. Bəhs edilən dövr Şuşa sənaye müəssisələrinin fabrik istehsalı mərhələsinə keçid dövrü hesab edilir. Məsələn, 1908-ci ildə Şuşa ipək emalı müəssisə-

lərindən 21-də 19 buxar qazanı, 20 buxar və 1 daxili yanacaqlı mühərrik, 21 buxar turbini, 3 hidravlik turbin və 7 hidravlik çarx tətbiq edilməsi yuxarıda dediyimizə əyani sübutdur. Bəhs edilən dövrdə, xarici dövlətlərdən gətirilən dəzgahlar emal müəssisələrində geniş tətbiq edilirdi. 1908-ci ildə Şuşa ipək emalı müəssisələrində xarici dövlətlərdən gətirilmiş 800 dəzgahdan, 1056 baramaaçan tiyandan, 53 maşından və 4 mindən yuxarı sapburan iydən istifadə edilmişdi. Aparılan tədqiqatlara əsasən, müəyyən olunmuşdur ki, 1912-ci ildə Şuşanın ipək emalı müəssisələrində buxar qazanı tətbiq edilməyən sənaye obyekti qalmamışdı. Hər bir müəssisədə tətbiq olunan mühərriklərin gücü orta hesabla 6 at qüvvəsinə bərabər idi. 1912-ci ildə Şuşanın Daşaltı, Kərkicahan, Çanaxçı, Qışlaqkənd, Şuşakənd, Tuğ kəndlərindəki fabriklər, ümumiyyətlə, Qarabağda ən böyük fabriklər idi.

1915-ci ildə Qarabağ ipək emalı müəssisələrində 25 buxar qazanı, 300 at gücündə 22 mühərrik, 1 dinomamaşın, 6 buxar turbini, 2 hidravlik turbini, 4 hidravlik çarxı, 1574 baramaaçan tiyan, 10-dan çox ipburan və 9 min sapburan iy var idi.

Beləliklə, XX əsrin əvvəllərində Şuşa sənayesində yeni texnikanın tətbiqi, elektirik motorlarının, daxili yanacaqlı mühərriklərin istismara verilməsi, kapital qoyuluşunun ilbəil artması, sənayenin təmərküzləşməsi və yeni inhisar birliklərinin yaradılması istehsalın həcminin artmasına səbəb oldu.

Şuşa sənayesində kapitalizmin inkişafı ilə əlaqədar olaraq yaranan maliyyə-kredit idarələrinin sayı tədricən artdı. Lakin 1900-1902-ci illərdə Şuşada həmin idarələrin sayı az idi. Şuşa sənaye sahibkarları Dövlət bankından borc pul götürə bilmirdilər. Onların yalnız Azov-Don bankının Gəncə şöbəsindən 11-12 faizli borc pul götürmək hüququ var idi. Belə ki, faizlə dövlətdən borc pul götürmək sahibkarlar üçün əlverişli deyildi. Hətta, 1903-cü ildə Şuşa sahibkarları Rusiya Dövlət Əmlak Nazirliyinə məktub yazaraq əldə etdikləri qazancın çox hissəsinin sələm hesabına banklardan götürdükləri borcu ödədiklərindən şikayət etmişdilər. Çar Rusiyası belə bir vəziyyətin sənayenin inkişafına mənfi təsir etdiyini nəzərə alaraq sahibkarların aşağı faizlə borc pul götürmələri üçün maliyyə-kredit idarələrinin sayını artırdı.

1904-cü ildə Şuşa şəhərində "Qarşılıqlı kredit cəmiyyəti" yaradıldı. "Qarabağ kredit cəmiyyəti"nin yaradılması iş adamları, sahibkarlar tərəfindən böyük rəğbətlə qarşılandı. Həmin cəmiyyət Şuşada sənayenin və ticarətin inkişafına təkan verdi. İqtisadi inkişafı daha da sürətləndirmək məqsədilə çar hökuməti 1910-cu ildə Şuşada yeni bir kommersiya bankı — Volqa-Kama kommersiya bankının Şuşa kontorunu açdı. Sonrakı dövrlərdə Şuşada yeni maliyyə-kredit idarələri, qarşılıqlı kredit şirkətləri yaradıldı. Beləliklə, Şuşada səhmdar ticarət banklarının yaradılması və əvvəlki dövrlərlə müqayisədə borc faizlərinin aşağı endirilməsi sahibkarlığın inkişafına təkan verdi. Lakin bir həqiqəti qeyd etmək yerinə düşərdi ki, vətənimizin yeraltı və yerüstü sərvətlərindən daha çox bəhrələnən Çar Rusiyası olmuşdu.

XX əsrin əvvəllərində Şuşada sənaye müəssisələrinin artması ilə fəhlələrin də sayı, təxminən, 2 dəfə artmışdı. Şuşanın ipək emalı müəssisələrində fəhlələrin sayı artdıqca onun tərkibi də dəyişmişdir. Şuşanın başqa sənaye müəssisələrində azyaşlı uşaq və yeniyetmə əməyindən daha çox istifadə edilirdi. Aparılan tədqiqatlara əsasən müəyyən edilmişdir ki, 1903-cü ildə Şuşa ipək emalı müəssisələrində 1004 nəfərə qədər azyaşlı qız uşaqları və qadın işləyirdi. Nuxada bu göstərici 1500, Naxçıvanda 140 nəfər idi. Sonrakı dövrlərdə Şuşa sənaye müəssisələrində çalışan fəhlələrin yaş və cins tərkibində böyük dəyişikliklər olmuşdur. 7 il ərzində Şuşa ipək emalı müəssisələrində işləyən fəhlələrin yaş və cins tərkibinin necə dəyişdiyini aşağıdakı cədvəldən də görmək olar:

***Cədvəl №1***

| İllər | Fəhlələrin sayı | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | azyaşlılar | | yeniyetmələr | | yaşlılar | | cəmi | |
| | kişi | qadın | kişi | qadın | kişi | qadın | kişi | qadın |
| 1908 | 16 | 207 | 84 | 512 | 122 | 402 | 222 | 1121 |
| 1915 | 79 | 193 | 44 | 299 | 69 | 930 | 192 | 1343 |

Bir saylı cədvəldən göründüyü kimi, 1915-ci ildə Şuşa ipək emalı müəssisələrində 1535 nəfər fəhlə işləyirdi ki, bu da, 1908-

ci illə müqayisədə (1343 nəfər) xeyli artım demək idi (192 nəfər). Birinci dünya müharibəsinin başlanması ilə əlaqədar yeniyetmə və yaşlı kişilərin sayı təxminən 50 faiz aşağı düşmüşdü. Yaşlı qadın və yeniyetmə qızlar ümumi fəhlələrin 88 faizini təşkil edirdi. Bununla yanaşı, 1535 nəfərin (100 faiz) 193 nəfəri (13 faizi) kiçik yaşlı qızlar, 343 nəfəri (22 faiz) yeniyetmə oğlan və qızlar, 999 nəfəri (65 faiz) yaşlılardan ibarət idi. Bütövlükdə, Azərbaycan üzrə bu göstəricidə, bəhs edilən dövrdə, azyaşlılar ümumi fəhlələrin 15 faizini, yeniyetmələr 36 faizini, yaşlılar isə 49 faizini təşkil edirdilər. Şuşa ilə müqayisədə Nuxada qadın əməyindən az istifadə olunurdu. Məsələn, 1908-ci ildə ipək emalı üzrə sənaye müəssisələrində işləyən 2272 nəfər fəhlənin yalnız 50 nəfərini qadınlar təşkil edirdi. Həmin müəssisələrdə yeniyetmə və azyaşlı qızlar yox dərəcəsində idi. Şuşa sənaye fəhlələrinin yaş və cins tərkibi haqqında yuxarıdakı rəqəmlərdən aydın olur ki, XX əsrin əvvəllərində azyaşlı, yeniyetmə və qadın əməyindən geniş istifadə edilirdi. Uşaq, qadın və yeniyetmə əməyindən istifadə edilməsi kapitalizmin və texnikanın sənayeyə tətbiqinin əlamətlərindən biri hesab edilir.

Birinci dünya müharibəsi başlandıqdan sonra Şuşada yaşayan xristian əhalisinin müharibəyə səfərbər edilməsi, çar hökumətinin 1915-ci il iyun fərmanı ilə "qeyri rus" xalqlarından olan 18-23 yaşlı gənclərin işləmək üçün səfərbərliyə alınması sənaye müəssisələrində çalışan kişi fəhlələrinin sayını əvvəlki dövrlə müqayisədə xeyli azaltdı.

Şuşanın sənaye müəssisələrində çalışan fəhlələrin əmək haqqı çox aşağı səviyyədə idi. Fəhlələrə əmək haqqı verilərkən yaş və cins fərqləri nəzərə alınırdı. Aparılan araşdırmalar nəticəsində məlum olur ki, XX əsrin əvvəllərində Şuşa sənaye fəhlələri ilə Azərbaycanın başqa regionları fəhlələrinin əmək haqqında fərqlər mövcud olmuşdur. Məsələn, Şuşa və Nuxa ipək emalı müəssisəsində işləyən fəhlələrin bir günlük maksimum əmək haqqını aşağıdakı cədvəldən görə bilərik: (qəpiklə)

*Cədvəl №2*

| Qəzaların adları | Yaşlı kişilər | Yaşlı qadınlar | Yeniyetmə oğlanlar | Yeniyetmə qızlar | Azyaşlı oğlanlar | Azyaşlı qızlar |
|---|---|---|---|---|---|---|
| Şuşa | 55 | 45 | 40 | 30 | 25 | 20 |
| Nuxa | 70 | 55 | 60 | 45 | 35 | 25 |

Cədvəldəki qeyri-bərabərliyi "Çar Rusiyasının Azərbaycanda yeritdiyi siyasət"in nəticəsi kimi qiymətləndirmək olar. Belə ki, çar hökuməti Azərbaycanda möhkəmlənmək üçün müxtəlif bölgələrdən sözəbaxan din qardaşlarını buraya köçürürdü. O cümlədən, Şuşaya köçürülən ermənilər hər cür şəraitlə təmin olundular: onlara yaşayış evləri, pul, münbit torpaqlar, sənətkarlıq emalatxanaları və sair verildi. Bölgəyə köçürülən ermənilərin silah gəzdirmək hüququ var idi. Eyni zamanda, onlar vergi və mükəlləfiyyətlərdən azad edilmişdilər. Mərkəzdən dəstək alan və hər cür şəraitlə təmin olunan ermənilər özlərini yeni məskunlaşdıqları ərazinin sahibi kimi aparmağa və doğrudan da, sənaye sahibkarlarına çevrilməyə başladılar. Qeyri-azərbaycanlıların Şuşa bölgəsində daha çox qazanc əldə etmək niyyəti sənaye sahəsində işləyən fəhlələrin əmək haqqının aşağı düşməsinə, uşaq, qadın və yeniyetmə əməyinin acınacaqlı halda istismarına gətirib çıxarmışdır.

XX əsrin əvvəllərində Şuşada təsərrüfatın bütün sahələrində kapitalist münasibətlərinin inkişafı əhalinin sayının artmasına, şəhər təsərrüfatının, ticarətinin, nəqliyyatın, rabitənin inkişafına ciddi təsir etdi. Şuşa şəhəri Azərbaycanın 12 böyük şəhərləri sırasına daxil idi. Şuşa şəhərində əhalinin artımında çoxalma diqqəti cəlb edirdi. Belə ki, 1800-cü ildə Şuşa şəhərində 10000, 1832-ci ildə 20000, 1882-ci ildə 24522, 1895-ci ildə 25881, 1908-ci ildə 37531 1913-cü ildə 42000, 1917-ci ildə isə 43869 nəfər əhali yaşayırdı. Yeri gəlmişkən onu da qeyd edək ki, 1800-cü ili çıxmaq şərtilə (çünki həmin vaxt bölgəyə ermənilər köçürülməmişdi), sonrakı dövrlərdə Şuşa şəhərində əhalinin milli tərkibini tədqiq edəriksə müəyyən etmiş oluruq ki, istər XIX

əsrin ikinci yarısı, istərsə də XX əsrin əvvəllərində Şuşa şəhərində əhalinin təxminən, 73 faizini azərbaycanlılar, 27 faizini ermənilər və digər millətlər təşkil etmişdi.

Şuşa şəhəri Azərbaycanın mühüm sənaye və ticarət mərkəzlərindən biri idi. Arxiv materiallarına əsaslanaraq müqayisə aparıb Şuşa şəhərinin necə inkişaf etdiyini aşağıdakı cədvəldən görmək olar: (ədədlə).

*Cədvəl №3*

| *Müxtəlif sahələrin adları* | *XIX yüzilliyin əvvəllərində sayı (ədədlə)* | *XX yüzilliyin əvvəllərində sayı (ədədlə)* |
|---|---|---|
| Evlərin sayı | 1698 | 2983 |
| Ticarət müəssisələri | 476 | 1464 |
| Küçələr | 11 | 52 |
| Karvansaralar | 4 | 9 |
| Bazarlar | 2 | 2 |
| Hamamlar | 7 | 16 |
| Su quyularının sayı | 970 | 2800 |
| Körpülərin sayı | 6 | 24 |
| Məscidlərin sayı | 9 | 17 |

Yuxarıdakı cədvəldən (№3) göründüyü kimi iqtisadi inkişaf Şuşada əsaslı dəyişikliklərə səbəb olmuşdur. Şuşada tikilmiş 2983 evin, 2742-si daşdan hörülmüşdü. Bununla yanaşı, Şuşa şəhərində bir şəhər bağı, 3 mehmanxana, 36 yeməkxana, 370 sənətkar emalatxanası, 6 istirahət evi, 3 tipoqrafiya və 3 oxu zalı fəaliyyət göstərirdi.

Aparılan tədqiqatlara əsasən müəyyən olunur ki, Şuşada nəqliyyat vasitələri, sahibləri çox deyildi. Tacirlərin sayı isə əvvəlki dövrlə müqayisədə artmışdı. Şəhərin xırda burjuaziyası, ilk növbədə, sənətkar emalatxanalarının və kiçik ticarət müəssisələrinin sahiblərindən ibarət idi. Bəhs etdiyimiz dövrdə, sənayedə texnikanın tətbiqi ziyalıların sayının artmasını zəruriləşdirmişdi.

Sənayedə yeni texnikanın tətbiqi alimlər, mühəndislər, texniklər tələb edirdi. Dövlət idarələrində məmur və qulluqçular hazırlanması ziyalıların sayca artmasına güclü təsir etdi. Bütün bunlarla yanaşı, ziyalılar mühəndis texniklərə; maarif, tibb işçiləri, alim, ədiblərə; inzibati məhkəmələrə və sair sahələrdə çalışan məmurlara bölünürdülər.

*Cədvəl №4*

| *Sosial zümrənin adı* | *Sayı (ədədlə)* | *Sayı (faizlə)* |
|---|---|---|
| Müəllimlərin sayı | 121 | 0,30% |
| Tacirlərin sayı | 1680 | 4% |
| Həkimlərin sayı | 40 | 0,1% |
| Sövdəgərlərin sayı | 1263 | 3% |
| Astranomların sayı | 5 | 0,01% |
| Karkərlərın sayı | 5040 | 12% |
| Memarların sayı | 18 | 0,05% |
| Xırda sənətkarlar | 3360 | 8% |
| Nəqqaşların sayı | 16 | 0,04% |
| Xəttatların sayı | 19 | 0,05% |
| Torpaq sahibləri | 1260 | 3% |
| Təsərrüfat başçıları | 1260 | 3% |
| Xanəndələrin sayı | 38 | 0,09% |
| Musiqiçilərin sayı | 22 | 0,06% |
| Şairələrin sayı | 95 | 0,24% |
| Nüsxəbəndlərin sayı | 100 | 0,25% |
| İpək emalı fəhlələri | 1535 | 3,5% |
| Hərbçilərin sayı | 334 | 1% |
| Felşer və tibb işçiləri | 40 | 0,1% |
| Bəylərin sayı | 56 | 0,15% |
| Dövlət məmurları | 97 | 0,24% |

Yuxarıdakı cədvəldən (№4) göründüyü kimi, Şuşa əhalisinin əksəriyyətini tacirlər, sövdəgərlər, karkərlər, xırda sənətkarlar, torpaq sahibləri, təsərrüfat başçıları və fəhlələr təşkil etmişlər.

Yaxın Şərq, Türküstan və Avropanı Zaqafqaziya ilə birləşdirən karvan yollarının Şuşadan keçməsi burada ticarətin inkişafına güclü təkan vermişdi. XX yüzilliyin əvvəllərində Şuşanın Rusiya, İran, Türkiyə, Hindistan, Almaniya dövlətləri ilə ticarət əlaqələri var idi. Şuşa tacirləri yunu, xalçanı, ipəyi, dərini, kənd təsərrüfatı məhsullarını, cins atları, yabanı bitki və meyvələrdən hazırlanmış dərman növlərini Təbriz, İstanbul, Bağdad, Buxara, Səmərqənd, Petrovski, Nijni-Novqord şəhərlərində satırdılar. Şuşanın xarici ticarətində əsas aparıcı sahəni xalça və xalça məmulatları təşkil edirdi. Xalçanın hər bir arşını 15 manata satılırdı. Şuşa şəhərinin başlıca ticarət əlaqələri Rusiya ilə aparılırdı. 1900-cü ildə Rusiya ilə Şuşa arasında illik mal dövriyyəsi 80 min manata çatmışdı. Rusiyanın bütün bazarlarında Şuşa tacirlərinə rast gəlmək mümkün idi. Həmin bazarlarda ən çox ipək parça məmulatları satılırdı. Rusiyadan, Nijni-Novqoroddan, Təbrizdən, İrandan tütün məmulatları, yaylıq, mahud parça, qab-qacaq, xırdavat, pambıq parça məmulatları, dəmir məmulatları, bəzək əşyaları, ətriyyat və sair Şuşaya gətirilirdi. Bəhs edilən dövrdə, Şuşanın İranla illik ticarət mal dövriyyəsi 240 min manat (gümüş pulla) olmuşdu. Şuşa tacirləri London, Marsel, Moskva, Leypitsk, Dehli şəhərlərində ticarət edirdilər. Həmin şəhərlərdə Qarabağ ipəyi, meyvə qurusu, Qarabağ atları, tut arağı (ən çox Marseldə) və sair satılırdı. Marsel şəhərindən gətirilmiş şampan Tiflisə aparılır və oradan müxtəlif ərazilərə paylanırdı.

XX yüzilliyin əvvəllərində Şuşada ticarət müəssisələrinin sayı artmışdı. 1860-cı ildə Şuşada 935, 1914-cü ildə 800 ticarət müəssisəsi var idisə, 1917-ci ildə onların sayı 1464-ə çatdı (kəndlər də daxil olmaqla). 1917-ci ildə Şuşada illik ticarət mal dövriyyəsi 5,7 milyon manata çatmışdı. Bakı şəhərində isə bu göstərici 15 milyon manatdan çox olmuşdu. Kənddə kapitalist münasibətlərinin inkişafı, əmtəə istehsalının artması, hətta bazarlar şəbəkəsini genişləndirmişdi. Şuşanın kənd bazarlarında məişət malları, xüsusilə, duz, çay, tütün məmulatları, arşın mal, ətriyyat, neft və sair satılırdı. Şuşa tacirləri Ağdam, Gəncə, Bakı,

Nuxa, Quba, Şamaxı, Lənkəran, Astara, Culfa, Naxçıvan və başqa bazarlarda ticarət edirdilər.

Şuşanın əlverişli təbii şəraiti heyvandarlığın və bitkiçiliyin inkişafına şərait yaratmışdı. Şuşanın iri maldarlıq təsərrüfatlarında əmtəəlik südçülük, satış üçün mal-qara bəslənməsi geniş miqyas almışdı. Həmçinin, Qarabağ atlarına dünya bazarında böyük ehtiyac var idi. Bütün bunlar isə, kənd təsərrüfatı məhsullarının dünya bazarına çıxarılmasına səbəb olurdu. XX əsrin əvvəllərində Şuşa bazarının Azərbaycanın başqa bazarlarından fərqli spesifik xüsusiyyəti olmuşdur. Belə ki, Şuşa bazarında (Bakı bazarı da belə idi) başqa bazarlardan fərqli olaraq kənd təsərrüfatı məhsullarına nisbətən sənaye məhsulları üstün mövqeyə malik idi. Bu da ondan irəli gəlir ki, Şuşanın kəndlərində maldarlığın inkişafı üçün kifayət qədər şərait olması və öz tələbatlarını ödəyəcək qədər kənd təsərrüfatı məhsullarına olan tələbatın ödənilməsi Şuşa bazarlarına kənd təsərrüfatı məhsullarının az çıxarılmasına səbəb olmuşdur.

Gəncə və Naxçıvandan gələn karvan yolları Şuşadan keçərək Zaqafqaziya və İranın şəhərləri ilə birləşirdi. Aparılan tədqiqatlara əsasən müəyyənləşir ki, yuxarıda adları çəkilən şəhərləri birləşdirən karvan yollarının təmirində əsas aparıcı rol Şuşanın üzərinə düşürdü. Həmçinin körpülərin də lazımi səviyyədə olmasına Şuşa tacirləri nəzarət edirdilər. Bəhs etdiyimiz dövrdə, ticarət əlaqələrində ən yaxşı nəqliyyat vasitəsi kimi Qarabağ atlarının qoşulduğu fayton və furqonlardan istifadə edilirdi. Bununla yanaşı, kəllərin, öküzlərin qoşulduğu arabadan, dəvələrdən, qatırlardan istifadə olunaraq ticarət malları daxili və xarici bazarlara daşınırdı.

Bəhs edilən dövrdə, Şuşada rabitənin inkişaf səviyyəsi aşağı idi. Şuşa şəhərini Gəncə və Tiflis şəhərləri ilə əlaqələndirən bir teleqraf xətti var idi ki, bu xətt də 1879-cu ildə çəkilmişdi.

Avropa və Asiyanın ayrıcında yerləşən Azərbaycan dövlətinin bitib tükənməyən çox çeşidli və dünya əhəmiyyətli zəngin sərvətləri onun xarici ticarət əlaqələrinin genişlənməsinə şərait yaradırdı. Şuşada gildiya (tacirlər birliyi) ticarət qaydalarının tətbiqi ticarətin inkişafını daha da sürətləndirdi. I və II gildiya

ticarət şəhadətnaməsinə görə Şuşa tacirləri Çar Rusiyası ərazisinin hər yerində kontor, anbar, dükan açmaq və müxtəlif dövlətlərdən aldıqları malları pərakəndə və topdan satış yolu satmaq və ya həmin ərazilərdən mal almaq hüququ əldə etdilər. Bəhs etdiyimiz dövrlərdə tacirlərin sayında da ciddi artım diqqəti cəlb edirdi. XX əsrin əvvəllərində Şuşada 1680 tacir var idi. Şuşada əhalinin 4 faizini tacirlər təşkil edirdi. Bu dövrdə birja ticarət növünün tətbiqi ticarətin inkişafına daha da təkan verdi.

## VII FƏSİL

## ŞUŞANIN KƏND TƏSƏRRÜFATI (1900-1917)

XX əsrin əvvəllərində Şuşada kənd təsərrüfatının əsasını əkinçilik və maldarlıq təşkil edirdi. Hələ tarixən Şuşa torpağı dünyanın süni suvarma, əkinçilik, heyvandarlıq mərkəzlərindən biri kimi tanınmışdır. Bölgədə aparılan arxeoloji tədqiqatlar Şuşa əhalisinin qədim dövrlərdən əkinçilik, bostançılıq, bağçılıq, maldarlıqla məşğul olduğundan xəbər verir. Şuşada ildən-ilə əkin sahələri genişlənirdi. Kənd təsərrüfatında kapitalizmin inkişafı əkinçilikdə yeni alətlərin tətbiqini xeyli genişləndirdi. Bəhs etdiyimiz dövrdə, Azərbaycanda 70 min ədəd dəmir kotandan istifadə olunurdu ki, bundan 215-i Şuşanın kəndlərinin payına düşürdü. Şuşanın mülkədar, bəy və varlı kəndliləri öz təsərrüfatlarında traktorlardan da, dəmir dırmıqlardan da istifadə edirdilər. Aqrotexniki qaydaların tətbiqi, xüsusi olaraq, varlı kəndli təsərrüfatlarının payına düşürdü. Şuşanın varlı kəndliləri kənd əhalisinin az bir hissəsini təşkil etmələrinə və təsərrüfatların 10 faizinə sahib olmalarına baxmayaraq satış üçün istehsal edilən taxılın 75 faizini verirdilər. Şuşanın kəndlərində torpaqların 28 faizi kəndlilərin ixtiyarında idi. 1906-cı ilin məlumatına görə, Şuşada becərilən torpaqların 62 faizi dövlətin ixtiyarında olmuşdu. Aparılan hesablamaya görə, Şuşada hər bir təsərrüfatçı kəndliyə 0,64 desyatin torpaq payı düşürdü. Ümumi əkin sahəsinin 2692 desyatinini təsərrüfatçı kəndlilər becərirdilər. Yuxarıda qeyd etdiyimiz kimi, torpağın çoxu dövlətin və bəylərin ixtiyarında idi. Şuşada təkcə Fərrux bəy Vəzirovun 8990 desyatin torpağı var idi. Dövlət kəndlilərinin torpaqları isə təsərrüfatçı kəndlilərin pay torpaqlarından 3 dəfə artıq olması qeydə alınmışdır. Aparılan hesablamaya görə, XX yüzilliyin əvvəllərində Şuşada kəndlilərin torpaqla təmin olunması adam başına 0,6 desyatinə çatırdı.

Dənli bitkilər, xüsusilə taxılçılıq sahəsində Şuşa, qəzalar içərisində fərqlənirdi. 1902-ci illə müqayisədə 1913-cü ildə Şuşa-

da taxıl istehsalı 33 faiz artmışdır. Belə ki, 1902-ci ildəki 5892760 puda qarşı 1913-cü ildə 7857013 pud məhsul yığılmışdır. Lakin bəhs etdiyimiz dövrdə, Şuşa bölgəsində kənd təsərrüfatında texnika ləng tətbiq olunurdu. Bunun ən başlıca səbəbi Azərbaycanda kənd təsərrüfatı alətləri və maşınları istehsal edən zavodların olmaması ilə bağlı idi. Başqa dövlətlərdən alınan texnika baha başa gəldiyindən yoxsul kəndlilər onu ala bilmirdilər. Eyni zamanda texnikadan baş çıxaran ixtisaslı mütəxəssislər də az idi. Bəhs etdiyimiz dövrdə, Şuşada hər desyatin torpaq sahəsindən orta hesabla 42 put taxıl götürülürdü. Məhsuldarlığın aşağı olması torpağın aqrotexniki qaydalara uyğun becərilməməsi ilə bağlı idi. Süni suvarma qurğularından lazımi səviyyədə istifadə edilməməsi, təbii fəlakətlər də bu geriləməni şərtləndirən amillərdən hesab olunur.

Hələ 1905-ci ildən başlayaraq məkrli niyyət sahiblərinin mənfur siyasətinin nəticəsi olaraq Şuşa qəzasında yaşayan azərbaycanlıların, birləşmiş erməni-rus qüvvələri tərəfindən təcavüzə məruz qalması yüzlərlə kəndlərimizin viranəyə çevrilməsinə, əkin sahələrinin tapdalanması və yandırılmasına, nəticədə isə, məhsuldarlığın aşağı düşməsinə gətirib çıxarmışdır. 1905-ci illə müqayisədə 1906-cı ildə Şuşa qəzasında taxıl əkin sahələrinin azalmasının məhsul istehsalına necə təsir etdiyini aşağıdakı cədvəldən aydın görmək olar: (Milyon pudla).

*Cədvəl №5*

| Mövsümü bitkilər | 1905-ci ildə (ml.pud) | 1906-cı ildə (ml.pud) | Azalma | |
|---|---|---|---|---|
| | | | Milyon pudla | Faizlə |
| Payızlıq | 2,5 | 1,5 | 1,0 | 40% |
| Yazlıq | 1,5 | 1,0 | 0,5 | 33% |
| Cəmi | 4,0 | 2,5 | 1,5 | 37,5% |

XX yüzilliyin əvvəllərində Şuşada texniki bitkilərin əkin sahəsi xeyli artmışdı. Lakin Şuşa bölgəsində texniki bitkilər kənd təsərrüfatı məhsulunun həlledici hissəsini təşkil etmirdi. Şuşada

texniki bitkilər aran hissəyə yaxın kəndlərdə əkilirdi. Çünki bu ərazilər pambıq və qvaula becərilməsi üçün başqa yerlərə nisbətən əlverişli idi.

Yeri gəlmişkən onu da qeyd edək ki, Azərbaycan ərazisində pambıq əkini VII əsrdə intişar etməyə başlamışdır. Şuşada isə sonralar, 1826-cı ildən pambıq əkilmişdir. 1828-ci ildən Çar Rusiyası iqtisadi mənafelərinə uyğun olaraq Şuşada pambıqçılığın kənd təsərrüfatı məhsulunun bir hissəsi kimi daha da inkişaf etdirməyə başladı.

XX yüzilliyin əvvəllərində Şuşada çəltik əkilən sahələr pambıqçılıqla əvəz edildi. 1900-1913-cü ildə Şuşada pambıq əkin sahəsi 5,5 dəfə artmışdı. Pambıq əkinində traktorlardan da istifadə edilirdi. XX yüzilliyin əvvəllərində Azərbaycanda cəmi 6 traktor var idi ki, bunun biri Şuşanın təsərrüfatında işləyirdi. Pambıqçılığın becərilməsində yeni üsul tətbiq edildi. Belə ki, cərgəli əkin üsulunun tətbiqi pambığın becərilməsini asanlaşdırdı. Əlbəttə, bütün bunlar məhsulun artımına təsir etdi. XX yüzilliyin əvvəllərində Azərbaycanın təsərrüfatlarından (hər il) orta hesabla 5-6 milyon pud pambıq yığılırdı ki, bunun 3200 pudu Şuşanın payına düşürdü. Şuşa tarlalarından toplanan pambıq yeni pambıqtəmizləmə zavodlarına satılırdı. Şuşa əhalisi pambıqdan məişətdə də istifadə edirdilər. Pambıqçılıq milyon manatlarla gəlir gətirsə də, bu gəlir onu becərənlərə çatmırdı. Çünki aztorpaqlı kəndli torpağı icarəyə götürür və möhtəkirdən götürdüyü pula toxum alırdı. Kəndliyə bir şərtlə borc pul verilirdi ki, pambıq yığılarkən həmin borc verən şəxsə satılsın. Möhtəkir kəndlidən pambığı ucuz alıb sənayeçilərə baha satırdı. Bu hal kəndlinin maddi marağını aşağı salırdı. Çar Rusiyası Azərbaycanda, o cümlədən, onun ucqarlarından olan Şuşada pambıqçılığın inkişafı üçün 1909-cu ildən borc-kredit şirkəti yaratdı. Kredit şirkətləri kəndlilərə əlverişli şərtlərlə pul verirdi. Bu hal möhtəkirlərin fəaliyyətinin məhdudlaşmasına və məhsul istehsalının artmasına təkan verirdi.

1914-1918-ci illəri əhatə edən dünya müharibəsi Şuşada pambıqçılığın inkişafına mənfi təsir göstərdi. Çünki müharibə dövründə xam pambığı almaq və satmaq çətinliyə düşdü. Pam-

bığı, pambıqtəmizləmə müəssisələrindən dəmir yoluna gətirib çıxarmaq və Rusiyaya göndərmək mümkün deyildi. Bununla əlaqədar, taxılın qıtlığı taxıl məhsullarının qiymətinin artmasına səbəb oldu. Bu hal isə pambıq əkən Şuşa əhalisinin buğda, arpa əkməsi ilə nəticələndi. Çətin becərilən, lakin son dərəcə əhəmiyyətli və gəlirli sahə olduğuna görə, mərkəz Azərbaycanı yenidən işğal etdikdən sonra ölkəmizin hər yerində, o cümlədən, Şuşanın kəndlərində pambıq əkin sahələrini genişləndirdi. Hətta bu barədə ÜİMİK-nin «Azərbaycanda pambıqçılığın bərpası haqqında» dekreti də verildi. Sovet hakimiyyəti illərində pambıqçılıq çox yüksək sürətlə inkişaf etdirildi.

XX yüzilliyin əvvəllərində Şuşanın kənd təsərrüfatında inkişaf etmiş sahələrdən biri də ipəkçilik (baramaçılıq) olmuşdur. İpəkəyirmə, ipəkeşmə, ipək toxuma sənayesinin inkişafı baramaçılığın inkişafını şərtləndirmişdi. Bəhs etdiyimiz dövrdə Şuşa, Qarabağ ipəkçilik təsərrüfatının mərkəzi hesab olunurdu. 1900-cü ildən başlayaraq Şuşada ipəkçiliklə-kumdarlıqla məşğul olan kəndlilərin sayı iki dəfə artmışdı. Bu isə, öz növbəsində, çəki plantasiyasının sahəsinin genişlənməsinə səbəb oldu. Bəhs etdiyimiz dövrdə, Şuşanın 512 hektarlıq torpaq sahəsində tuncar, toxmaçar, çəkillik, kərrik salınmışdı. Baramaçılıqda, əsasən, Yaponiya, İtaliya, Xorasan, Buxara, Çin, Fransa və Türkiyədən alınan «Bağdad» adlanan ipəkqurdu toxumlardan, eləcə də, yerli toxumlardan («müsəlman») istifadə edilirdi. İpəkçilik kapitalist əmtəə istehsalının inkişaf etdiyi kənd təsərrüfatı sahələrinin birinə çevrildi. 1901-ci ildə hər qutu barama qurdundan 18 kiloqram barama götürülürdü. 1901-ci illə müqayisədə 1914-cü ildə Şuşada barama istehsalı 25 faiz artdı. Şuşa kumdarları 120 ton xam ipək (barama) becərmişdilər. Bu dövrdə, hazır ipək sap istehsalı isə artaraq 22 tona çatdı. 1914-cü ildə Azərbaycanda barama istehsalı 260 min pudu keçmişdi. Yeri gəlmişkən onu da qeyd edək ki, Cənubi Qafqazda əldə edilən baramanın 81 faizini Azərbaycan verirdi.

Şuşada becərilən baramanın hamısı fabriklərdə əyrilir, sarınır, eşilir, parça toxunur və boyanırdı. Baramanın bir hissəsindən isə kəndlilər teşi, əyircək, mansanaqdan istifadə edərək

sap əldə edir və həmin sapdan cecim, geyim və məişət ləvazimatları hazırlayırdılar. Fabriklərdə əyrilmiş ipək sapdan müxtəlif çeşidli parçalar və kəlağayılar (mov, darayı, qasəbə, qanavuz, çarqat, alyoşa) istehsal olunurdu. Şuşa ipək emalı müəssisələrindəki texnikada aşağı növ baramanı emal etmək mümkün olmadığından həmin aşağı növ barama (tompal) İtaliya və Fransanın Milan, Marsel, Lion şəhərlərinə ixrac edilirdi.

XX əsrin əvvəllərində Şuşada kənd təsərrüfatının mühüm sahələrindən biri də tütünçülük idi. Tütünə olan tələbat artdıqca tütün plantasiyaları da genişlənirdi. Bəhs etdiyimiz dövrdə, Şuşada sənaye tütünçülüyü intişar tapmışdı. Tütünçülük gəlirli sahə olduğuna görə Şuşada tütün becərilən sahələri 2,5 dəfə artmışdı. Bu artım həm də tütün yarpağı yığımında özünü göstərirdi. Belə ki, 1900-1914-cü illərdə Şuşada tütün istehsalı 41 tondan 99 tona çatmışdı. Bəhs etdiyimiz dövrdə, Azərbaycanda 46000 pud tütün yarpağı yığılmışdı. Yığılan tütün yarpağı yerli fabriklərdə emal edilirdi. Tütünün bir hissəsi isə İrana ixrac edilirdi. Tütünçülüklə məşğul olan bütün sahələrə (sənaye və kənd təsərrüfatına) yüksək aksiz vergilərinin qoyulması, eyni zamanda, İrana ixrac edilən tütünə böyük məbləğdə gömrük haqqı təyin edilməsi Azərbaycanın hər yerində, o cümlədən, Şuşada tütün əkin sahələrinin azalmasına səbəb oldu.

Şuşa üzümçülüyün qədim diyarıdır. Baxmayaraq ki, üzümçülük çoxlu kapital və yaxşı aqro-texniki qulluq tələb edirdi. Hansı sahədə su var idisə, həmin yerdə üzüm əkilirdi. Sahibkarlar bu sahəyə daha çox diqqət yetirirdilər. Becərilən üzümün müəyyən hissəsi yeyilməyə (süfrə üzümü) sərf edilir, çoxu isə şərab zavodlarına satılırdı. 1901-1903-cü illərdə Azərbaycanda üzüm bağlarının ümumi sahəsi 24000 desyatindən 29000 desyatinə çatmışdı. Şuşada isə bu rəqəm 3117 hektardan 3400 hektara qalxmışdı. Şuşanın əlverişli iqlimi üzümçülüyün yüksək məhsuldarlığına təsir etmişdi. 1901-1913-cü illərdə Şuşada üzüm istehsalı 2 dəfə artmışdır. 1901-ci ildəki 3112 tona qarşı, 1913-cü ildə 6300 ton üzüm yığılmışdır. Əhalinin yediyi (süfrə üzümü) üzümü də buraya əlavə etsək, onda sonuncu rəqəm təxminən 7-8 min ton götürülmüş olar. Üzümdən müxtəlif çeşidli məhsullar

hazırlandığını (şərab, spirt, araq, bəhməz, meyvə suları və sair) nəzərə alaraq Şuşada bu sahəyə xüsusi diqqət yetirilmiş və üzüm bağlarının sahəsi ildən-ilə genişləndirilmişdir. Dünya müharibəsi, quraqlıqlar və sair amillər 1916-1917-ci illərdə üzüm əkini sahələrinin 40 faiz aşağı düşməsinə səbəb olmuşdu.

XX yüzilliyin başlanğıcında Şuşada maldarlıq əkinçiliklə paralel inkişaf etmişdi. Çünki bunlar bir-birini tamamlayan təsərrüfat sahələri olmuşdur. Şuşanın təbii şəraiti və əlverişli iqlimi maldarlığın inkişafına şərait yaratmışdır.

Aparılan tədqiqatlara əsasən deyə bilərik ki, Qarabağda maldarlıq mezolit dövründə əhalinin məişətinə daxil olmuş, neolit dövründə inkişaf etməyə başlamışdır. Arxeoloji qazıntılar nəticəsində bölgədə at, dəvə sümüklərinin tapılması yuxarıda dediklərimizi təsdiq edir.

Şuşada XVIII-XIX əsrlərdə maldarlığın inkişafı üçün xüsusi şərait yaradılmışdır. Belə ki, Pənahəli xan vaxtı ilə Nadir şah tərəfindən Xorasana köçürülmüş qarabağlıları geri qaytarmış, onlara torpaq, mal-qara paylamış və maldarlıqla məşğul olanları vergilərdən azad etmişdir. Bu isə, öz növbəsində, maldarlıqla məşğul olanların sayını artırmış və maldarlığın inkişafına təkan vermişdir. Xanlıq üsuli-idarəsinin ləğv edilməsi Şuşada maldarlığın inkişafına mənfi təsir etmədi. Əksinə, vahid pul, ölçü və çəki sisteminin tətbiqi, daxili və xarici ticarət əlaqələrinin canlanması Şuşada maldarlığın inkişafını daha da sürətləndirdi. Geniş otlaq sahələrinə malik olan Şuşada maldarlığın bütün növləri – qoyunçuluq, iri buynuzlu mal-qara və atçılıq inkişaf etmişdi. Bundan başqa, burada keçi, dəvə, donuz, qatır, müxtəlif quşlar da saxlanılırdı. Maldarlıqla məşğul olanlar bir neçə qrupa bölünürdülər. Şuşanın dağətəyi zonasında yaşayan, suvarma əkinçiliyi ilə bağçılıq, bostançılıq və kənd təsərrüfatının başqa sahələri ilə məşğul olanlar üçün maldarlıq yalnız öz tələbatlarını ödəmək (istehlak) xarakteri daşıyırdı. Onlar yay vaxtı işin çoxluğu ilə əlaqədar yayda köçə bilmədiklərindən mal-qaranı, xüsusilə qoyunu çox az saxlayırdılar. Maldarlıqla müntəzəm məşğul olan kəndlilər sifarişlə işləyirdilər və onlar üçün əmtəə maldarlığı xüsusi əhəmiyyətə malik idi.

XX yüzilliyin əvvəllərində Şuşada qoyunçuluq təsərrüfatı, maldarlığın başqa sahələrinə nisbətən, daha üstün mövqeyə malik idi. Bunun ən başlıca səbəbi dünyada yuna olan tələbatla bağlı olmuşdur. XX əsrin əvvəllərində Azərbaycandan Rusiyaya və xarici ölkə bazarlarına, xüsusilə, İngiltərə, Fransa və Amerika Birləşmiş Ştatlarına və başqa ölkələrə yun ixracı artdı. Həmçinin süd məhsulları da az miqdarda olsa da, xaricə ixrac olunurdu. Bununla yanaşı Şuşada istehsal olunan süd məhsulları, yağ, pendir Azərbaycanın mərkəzi şəhərlərində (Gəncə, Bakı və s.) satılırdı. Gön dəriyə də bazarda böyük ehtiyac var idi. Hətta mal-qaranın vaxtilə faydasız hesab edilən dırnağı, dişi, buynuzu və sair kimi tullantıları əmtəə keyfiyyəti kəsb edir və bazarda satılırdı. 1900-cü il məlumatına görə, Gəncə quberniyasında 1 ildə 3255000 manatlıq mal-qara satılmışdı. 1909-cu ildə 9293 baş qaramal, 316 baş camış, 221270 baş qoyun, 20801 baş keçi 4729 baş at və 10 dəvə gönü 1911-ci ildə isə 22448 qaramal, 10085 baş at, 326659 baş qoyun və keçi, 185 dəvə dərisi satılmışdır. Aparılan tədqiqatlara əsasən demək olar ki, Gəncədə satılan məhsulların çoxu Şuşadan gətirilirdi.

XX əsrin əvvəllərində Rusiya toxuculuq sənayesinin və digər müəssisələrin tələbatını nəzərə alan çar hökuməti Azərbaycanın hər yerində maldarlığın inkişafı üçün bir sıra tədbirlər gördü. İnkişafa mane olan ən böyük amil baytar həkimlərin azlığı ilə bağlı olmuşdur. Tədqiqatlara əsasən müəyyən olunmuşdur ki, 1907-ci ildə Qarabağda bir nəfər azərbaycanlı baytar həkim var idi (Cuvarlı kənd sakini 1907-ci ildə Yuriyev baytarlıq institutunu bitirmiş Mehdi bəy Cuvarlı). İlk növbədə, Şuşada baytar bakterioloji laboratoriya yaradıldı. Həmin laboratoriyada yoluxucu xəstəliklər (bu dövrdə vəba daha geniş yayılmışdı) müayinə edilir və qarşısı alınırdı. Görülən tədbirlərdən biri də sərgilərin təşkili idi. Belə ki, 1914-cü ildən «Qafqaz kənd təsərrüfatı cəmiyyəti»nin maldarlıq bürosu sayılan mal-qaranın sərgisini təşkil etmiş və yaxşı cins heyvan yetişdirən sahibkarlar mükafatlandırılmışdır. Maldarlıq təcrübə stansiyaları və at zavodlarının da açılması görülən tədbirlərdən idi. Bütün görülən bu tədbirlər xəstəliklərin qarşısını almış, Şuşa maldarlarının bilik

və təcrübəsinə kömək etmiş və maldarlığın inkişafına güclü təkan vermişdir.

XX yüzilliyin əvvəllərində Azərbaycanın ümumdünya və Rusiya bazarına cəlb olunması, çarizmin gördüyü tədbirlər Şuşanın kənd təsərrüfatını kapitalist istehsal yoluna cəlb etmişdi. Kənd təsərrüfatının bütün sahələrində, xüsusilə maldarlıqda sələmçi ticarət kapitalizm mühüm rol oynayırdı. Maldarlıqda muzdlu əməkdən istifadə edilirdi.

Bəhs etdiyimiz dövrdə Şuşada qoyunçuluğun inkişafı üçün görülən tədbirlərdən biri də yeni növ qoyunların yetişdirilməsi olmuşdur. Yeni qoyun növü Qarabağ qoyun cinsinin qaradolaq növü idi. Bu növün yaradıcısı Qaradolaq kəndinin məşhur kəllədarı Hacı Məhəmmədhüseyn hesab olunur. Qaradolaq qoyunu Qarabağ cinsinin uzaq məsafəyə yol getmək, yemləməyə az tələbkar, xəstəliklərə qarşı dözümlü və həm də yüksək ətlilik, yunluluq, südlülük kimi xüsusiyyətlərini özündə birləşdirən növüdür. Ət çıxarına görə bütün qoyun növlərindən üstün olan Qaradolaq növü ətlik-südlük və yunluq cins hesab olunurdu. Həmçinin yeni cinsdə ətin kaloriliyi də yüksək idi. Başqa qoyunlarda ekiz bala vermə qabiliyyəti 10-15 faiz idisə, yeni cins isə 20-30 faiz ekiz bala verirdi. Qarabağ qoyunlarının yununda da başqa qoyunlardan üstün cəhətlər var idi. Bu qoyunlardan əldə edilən yun xalçaçılıq üçün birinci dərəcəli əhəmiyyətə malikdir. Şuşada becərilən Qaradolaq qoyun yunu birbaşa xarici ölkələrə ixrac olunurdu. Qarabağ qoyunlarının rəngi boz olduğundan əldə edilmiş yunu müxtəlif rənglərə asanlıqla boyamaq mümkün idi. Bütün bunlarla yanaşı, yeni növün südünün çoxluğu və yağlılığı digər cinslərdən seçilirdi (6 faizə qarşı 10 faiz).

Sovet tarixşünaslığında Şuşa maldarlığına «köçəri» damğası vurulmuşdur. Mənbə və etnoqrafik məlumatlara əsasən deyə bilərik ki, Şuşada «köçəri» maldarlıq olmamışdır. Şuşa maldarları mal-qaranı yayda yaylaqlara aparır, payızda qışlağa qaytarırdılar. Köçmə maldarlığı maldarların əsas məşğuliyyəti olaraq qalırdı. Şuşada əkinçiliklə məşğul olan az miqdarda mal-qara saxlayanlar da var idi ki, onlar mal-qaranı yalnız öz daxili tələbatlarını ödəmək üçün saxlayırdılar.

XX yüzilliyin əvvəllərində Qarabağın 350 kəndindən 21024 ev mal-qaranı yaylaqlara köçürmüşlər. Bu göstərici ayrı-ayrı qəzalar üzrə aşağıdakı kimi olmuşdur:

*Cədvəl №6*

| *Sıra sayı* | *Qəzaların adları* | *Kəndlərin sayı (ədədlə)* | *Evlərin sayı (ədədlə)* |
|---|---|---|---|
| 1 | Cəbrayıl qəzası | 81 | 4048 |
| 2 | Gəncə qəzası | 4 | 381 |
| 3 | Zəngəzur qəzası | 175 | 9432 |
| 4 | Şuşa qəzası | 81 | 5223 |
| 5 | Cavanşir qəzası | 9 | 1940 |
| 6 | Cəmi qəzalar üzrə | 350 | 21024 |

Qarabağın yay otlaq sahələrinə təkcə Qarabağdan deyil, Azərbaycanın başqa ərazilərindən də mal-qara gətirirdilər. Təkcə 1900-cü ildə Qarabağ yaylaqlarından, yuxarıda adlarını çəkdiyimiz qəzalardan başqa, 102 kənddən 5014 ev istifadə etmişdir.

XX yüzilliyin əvvəllərində Şuşanın maldarlıq təsərrüfatlarında muzdlu əməkdən geniş istifadə edilirdi. Əmək haqqı pul və natura ilə ödənilirdi. Lakin elə təsərrüfatlar vardı ki, orada muzdlu əmək tətbiq olunmur və ya az tətbiq olunurdu.

Şuşa zəngin qış və yay otlaq sahələrinə malik idi. Aparılan hesablamalara görə, 1900-cü ildə Şuşada 13008 yay otlaq sahəsi, 4991 desyatin qış otlaq sahəsi olmuşdu. Şuşada təbii biçənəklərdən əlavə (çalmabiçənək) yem bitkilərindən yonca, xoşa, çobantoxmağı, çöl noxudu, gülül, çöl lərgəsi, arpa, çovdar, vələmir, qarğıdalı və sair bitkilərin müxtəlif növləri əkilib becərilirdi.

1900-1913-cü illərdə maldarlıq təsərrüfatlarında cüzi də olsa artım var idi. Azərbaycanda bu göstərici 4,5 milyon başdan 5 milyon başa qalxmışdı (buraya yalnız qoyun, keçi, iri buynuzlu mal-qara daxil idi). Müvafiq illərdə həmin artımdan Şuşanın üzərinə düşən pay 130 minə qarşı 174 min baş olmuşdur. Heyvanların çoxu mülkədarlara, qismən də, ortabab kəndlilərə məxsus idi. Varlı maldarlıq təsərrüfatları bütün xırda buynuzlu

heyvanların 60 faizini öz əllərində cəmləşdirmişdi. İri maldarlıq təsərrüfatlarında əmtəə südçülüyü və əmtəəlik mal-qara bəslənməsi geniş miqyas almışdı. Mal-qaranın təkcə südündən, ətindən, pendirindən deyil, həm də dərisindən, yunundan, buynuzundan və sair istifadə edilmişdi. Şuşa sənətkarlarının mal-qaranın (qoyun, keçi, inək, camış və sair) müxtəlif hissələrindən hazırladıqları məmulatlar — sinəbənd, tapqır, quşqun, qantarğa, yüyən, qançağa bağları, tərlik, üzəngi qayışları, yəhərçi, qamçı, başmaq, çəkmə, cüst, çarıq, kürk, papaq, dağarcıq, eymə, teşən, tuluq, çılğı, motal, xalça, palaz, fərmaş, kilim, vərni, ladı və sair — yerli və dünya bazarlarında böyük həvəslə alınırdı.

Birinci dünya müharibəsi Şuşanın maldarlıq təsərrüfatına çox ağır təsir etdi. Bunun ən başlıca səbəbləri. 18-23 yaşlı azərbaycanlı gənclərin müharibəyə səfərbər edilməsi (arxa cəbhədə işləməyə) və işçi qüvvəsinin azalması, at, öküz və arabanın hərbi ehtiyac üçün müsadirə edilməsi, vergilərin 50 faiz artması, qiymətlərin 300-500 faiz artması, əhalinin əlində olan mal-qaranın müsadirə edilməsi, baxımsızlıq ucbatından epidemiya nəticəsində mal-qaranın tələf olunması və sair olmuşdur. Aparılan tədqiqatlara əsasən, deyə bilərik ki, 1916-cı ildə Şuşada xəstəlik ucbatından 25 min qoyun tələf olmuşdur. Maldarlıqla məşğul olan əmək qabiliyyətli kişilərin yalnız 13 faizi qalmışdır. İş heyvanları 66 faiz azalmış və Şuşanın 120 kəndindən 25-də iş heyvanı tamamilə yox idi. Beləliklə, Şuşada 1913-cü illə müqayisədə 1917-ci ildə bütün kateqoriyalardakı təsərrüfatlarda mal-qaranın sayı dəfələrlə azalmışdır. Bunu aşağıdakı cədvəllərdən də aydın görmək olar (min baş ilə):

*Cədvəl №7*

| *Sıra sayı* | *Mal-qaranın növləri* | *1913 (min başla)* | *1917 (min başla)* |
|---|---|---|---|
| 1 | Qaramal | 67,3 | 20,2 |
| 2 | Qoyun və keçilər | 107 | 32 |
| 3 | Donuzlar | 13,8 | 6,2 |
| 4 | Atlar | 106,6 | 3,7 |
| 5 | Cəmi | 294,7 | 62,1 |

XX yüzilliyin əvvəllərində əkinçiliklə maldarlıq bir-birini tamamlayan və biri digəri üçün maddi baza olan təsərrüfat sahələri olmuşdur. Öküzsüz, kəlsiz, atsız, dəvəsiz əkinçinin həyatı mümkün deyildir. Torpağın şumlanmasında, təsərrüfat işlərinin görülməsində, yüklərin mənzil başına çatdırılmasında, minik və nəqliyyat vasitəsi kimi heyvanların gücündən istifadə edilirdi. Odur ki, maldarlıq sahəsindəki geriləmə kənd təsərrüfatının başqa sahələrinə, ticarətə, sənayeyə, sənətkarlığa da mənfi təsir etdi.

Arıçılıq Şuşa əhalisinin qədim məşğuliyyətlərindən biridir. Şuşanın təbii iqlim şəraiti arıçılığın inkişafı üçün zəmin yaratmışdır. Arıçılıq qədim şuşalıların gəlirli sahələrindən biri idi. XX yüzilliyin əvvəllərində Şuşanın 78 kəndində arı saxlanılırdı. Bəhs etdiyimiz dövrdə, hər 100 hektar sahəyə 27 arı ailəsi düşürdü. Şuşada istehsal edilən bal təkcə daxili tələbatı ödəməklə kifayətlənmirdi, Gəncə, Bakı, İran, Türkiyə, Rusiya bazarlarında satılırdı. Təbii Şuşa balı çox böyük əhəmiyyətə malik olduğundan bazarlarda yüksək alıcılıq qabiliyyətinə malik idi. Aparılan hesablamalara görə, hər pətəkdən orta hesabla 25-35 kq. əmtəəlik bal əldə edilirdi.

XX yüzilliyin əvvəllərində bağçılıq və meyvəçilik, Şuşanın kənd təsərrüfatının faydalı sahəsi kimi, öz əhəmiyyətini saxlayırdı. Rusiyada və dünya bazarlarında Şuşa meyvələrinə böyük tələbat olduğundan bu sahələrin də (üzümçülük, meyvəçilik, tutçuluq) inkişafı həmişə diqqət mərkəzində olmuşdur. Şuşanın təbii gözəlliyini artıran onun meyvə bağlarıdır. Belə ki, «Aşağı Daşaltıdakı tut bağları», «Şuşa albuxarısı», «Məleykə armudu», «Xəltəli moruğu» və başqaları Şuşanın qiymətini daha da artırır. Şuşa meşələrindəki dərman bitkiləri — itburnu, bağayarpağı, ağtikan, üskükotunun hər bir yarpağı müəyyən xəstəliklərin məlhəmidir və qurudulmuş şəkildə bazarlarda satılırdı. Şuşanın torpaq-iqlim şəraiti çoxillik bitkilərin əkilməsi və genişləndirilməsinə imkan verir. Şuşanın çoxillik bitkiləri içərisində şah tut ağacı görkəmli yer tutur. Çox qulluq tələb etməyən bu ağac Şuşada qədimdən becərilirdi. Şah-tut spirt istehsalında əsas xammaldır, eyni zamanda bəhməz hazırlanır və meyvəsi təzə

halda yeyilir. Şah tut başqa tutlardan fərqli xüsusiyyətə malikdir. Belə ki, şah tut yüksək bar verir, tərkibində şəkərlilik çoxdur (32 faiz) və dadlıdır. Şah tutun meyvəsi həm də çox böyük müalicəvi əhəmiyyətə malikdir. Heç də təsadüfi deyil ki, xaricə ixrac olunan məhsullar içərisində tut spirti və bəhməz də vardı. Şuşanın meyvə bağlarından yığılmış meyvələr qurudulmuş şəkildə ixrac olunurdu. İldən-ilə meyvə bağlarının sahəsi genişləndirilirdi.

Şuşanın kənd təsərrüfatında kapitalizmin inkişafı muzdlu əməyin tətbiqini genişləndirmiş və təsərrüfatların bir hissəsi kapitalist əsaslarla qurulmuşdu.

Çar Rusiyası XX yüzilliyin əvvəllərində Azərbaycana qarşı öz müstəmləkəçilik siyasətini davam etdirməkdə idi. Çar Rusiyası Azərbaycanda öz dayaqlarını möhkəmləndirmək üçün milliyyətcə rus olanları 1901-ci ildən etibarən Azərbaycana köçürməyə başladı. 1901-ci ildə 40 min nəfər, 1908-1910-cu illərdə 3000 ailə, 1911-ci ildə 1000 rus ailəsi Azərbaycana köçürüldü. XIX əsrin əvvəllərində olduğu kimi, XX yüzilliyin əvvəllərində də köçürülənlərə çox böyük imtiyazlar verilmişdir. Onlar evlə, mal-qara ilə, torpaqla, işlə təmin olunur və silah gəzdirmək hüququna malik idilər. Əgər kənd. köçürülmüş rusların xoşuna gəlirdisə, həmin halda yerli azərbaycanlılar öz dədə-baba yurdundan məcburi şəkildə qovulurdular. Bu isə, köçürülənlərlə yerli əhali arasında düşmənçilik münasibətləri yaradırdı. Yerli əhalinin hüquqları pozulur və onların torpaqsız hissəsinin sayı artırdı. Şuşadan mərkəzə daxil olmuş materiallardan birindən oxuyuruq: «Əraziyə köçürülənlər mənim malikanəmdə özbaşınalıq edir, pambıq sahələrini korlayır, şumlanmış (münbit) yerləri zorla əllərinə keçirərək özləri əkirlər... Bu güclü köçərilər mənim 5000 desyatin torpağımı tamamilə tutmuşlar... Buna dözmək olmaz...».

Materialdan göründüyü kimi, bölgəyə köçürülən rusların azərbaycanlılara münasibəti yerli əhalidə hakimiyyətə qarşı nifrət ruhu oyatmaqla yanaşı, onların inqilabi əhvalı-ruhiyyəsini gücləndirirdi.

XX yüzilliyin əvvəllərində torpaqların çoxu yenə də dövlətin ixtiyarında idi. Kəndlilərin üçdən bir hissəsi bəylərin və mülkədarların torpaqlarını əkib becərirdi. Yuxarıda qeyd etdiyimiz kimi, çarizmin «köçürmə» siyasəti Şuşa kəndlilərinin vəziyyətini daha da ağırlaşdırdı. Bölgədə yaşayan kəndlilər son dərəcə ağır həyat tərzi keçirirdilər. 1907-ci ildə var-yoxu əllərindən çıxan ac kəndlilərin sayı Qaryagin qəzasında 18239 nəfər, Cavanşir qəzasında 7288 nəfər idisə Şuşa qəzasında bu rəqəm 38000 nəfərə çatırdı.

Çar hökumətinin XIX əsrin 70-ci illərində verdiyi aqrar qanunlar Azərbaycanda həyata keçirilməmiş qaldı. Qanunun qərarı ilə Şuşada kəndlilərin cüzi bir hissəsi öz pay torpağını satın almağa müvəffəq olmuşdu. Bir məsələni xüsusi qeyd etməliyik ki, Şuşada pay torpaqlarının satın alınması üçün qoyulan qiymətlər çox yüksək idi. Ona görə, həmin torpaqların çoxunu Şuşaya sonradan köçürülən və maddi cəhətdən tam təmin olunan ruslar və ermənilər ala bilirdilər. Eyni zamanda, tədqiqatlara əsasən, müəyyən edilmişdir ki, eyni bölgədə yaşayan ruslar və ermənilərə satılan torpağın qiyməti milliyyətcə azərbaycanlı olanlara satılan qiymətdən dəfələrlə aşağı olmuşdur. Ona görə də Şuşada yaşayan azərbaycanlı kəndlilər pay torpağı ala bilmirdilər. Kəndlilər yenə də istifadə etdikləri pay torpağı müqabilində vergilər verir və mükəlləfiyyətlər daşıyırdılar. Torpaq sahibi ilə kəndli arasında «torpaq nizamnaməsi» çox ləng tətbiq olundu. Həmin qanun 1870-ci ildə verilsə də, 1905-ci ildə Şuşada torpaqların 31 faizində hələ də tətbiq edilməmişdi. «Torpaq nizamnaməsi» qanunu Azərbaycanın hər yerində eyni qaydada getmirdi. Məsələn, 1912-ci ildə Bakının kəndlərində həmin qanun 100 faiz yerinə yetirilmişdirsə, Şuşanın torpaqlarının 13 faizində qanun tətbiq edilməmiş halda qalırdı. Bəhs etdiyimiz dövrdə, Şuşada dövlət kəndlilərinin istifadəsindəki torpaqlar sahibkar kəndlilərin istifadəsindəki torpaqlardan 3 dəfə artıq idi. Kənddə əmtəə istehsalı çoxaldıqca torpağın da qiyməti artırdı. Ona görə də, qolçomaqlar və bəylər torpaqlara daha çox sahib olurdular.

1900-cü ilin mayında hökumət kənddə torpaq münasibətlərini nizama salmaq üçün «Cənubi Qafqazda dövlət kəndlilərinin torpaq quruluşu» haqqında qanun verdi. Həmin qanuna görə dövlət kəndlilərinə icma torpaqlarından nəsli istifadə hüququ verildi. Bu isə kənd icması yığıncağının razılığı ilə həyata keçirilməli idi. Bu qanun icma torpaq mülkiyyətinə çox böyük zərbə vurdu.

1903-cü il aprelin 21-də «Cənubi Qafqazın beş quberniyasında pay torpaqlarını müəyyənləşdirmək və torpaq quruluşu işini aparmaq qaydası haqqında» əsasnamə 1900-cü il qanununa uyğun hazırlanmışdı. Lakin nə «Qanun», nə də «Əsasnamə» «dövlət kəndlilərinin torpaq quruluşu» məsələsini həll edə bilmədi. Kəndlilərin istifadəsində olan pay torpaqları yenə də dövlətə məxsus hesab olunurdu.

1905-ci ildə Qafqazın canişini Vorontsov-Daşkov «Qafqazda kəndli işinin nizama salınması haqqında Qeydləri»ni hazırladı. Həmin qeydlərə əsasən 1912-ci il dekabrın 20-də «Cənubi Qafqaz quberniyalarında torpaqların məcburi surətdə satın alınması haqqında» qanun verildi. Bu qanun Azərbaycanın hər yerində olduğu kimi Şuşada da tətbiq edildi və kənddə kapitalist münasibətlərinin inkişafını, eləcə də, ictimai təbəqələşməni sürətləndirdi. Ümumilikdə isə çar Rusiyasının Azərbaycanda, onun ayrılmaz tərkib hissəsi olan Şuşada həyata keçirdiyi tədbirlərdə güddüyü başlıca məqsəd hansı yolla olursa-olsun, Şuşanın yeraltı və yerüstü təbii sərvətlərini daha asan və böyük həcmdə mənimsəməkdir. Eyni zamanda, çar hökuməti yerlərdə öz dayaqlarını möhkəmləndirmək üçün xristianlaşdırma (ruslaşdırma və erməniləşdirmə) siyasətini daha da genişləndirdi. Lakin Rusiya hökumətinin müstəmləkələrdə, o cümlədən Şuşada yeritdiyi ruslaşdırma siyasəti sosial vəziyyəti daha da mürəkkəbləşdirdi. Aparılan hesablamaya görə, xristianların Şuşaya köçürülməsindən qabaq (XIX yüzilliyin əvvəllərində) burada əhalinin 5 faizini təşkil edirdilərsə, XX yüzilliyin əvvəllərində ermənilər və rusların sayı 27 faizə çatdı. Köçürmə siyasəti nəticəsində yerli əhali ilə gəlmələr arasında toqquşmalar baş verir və düşmənçilik yaranırdı. Azərbaycanlılar öz doğma torpaqlarından uzaqlaş-

XX yüzilliyin əvvəllərində torpaqların çoxu yenə də dövlətin ixtiyarında idi. Kəndlilərin üçdən bir hissəsi bəylərin və mülkədarların torpaqlarını əkib becərirdi. Yuxarıda qeyd etdiyimiz kimi, çarizmin «köçürmə» siyasəti Şuşa kəndlilərinin vəziyyətini daha da ağırlaşdırdı. Bölgədə yaşayan kəndlilər son dərəcə ağır həyat tərzi keçirirdilər. 1907-ci ildə var-yoxu əllərindən çıxan ac kəndlilərin sayı Qaryagin qəzasında 18239 nəfər, Cavanşir qəzasında 7288 nəfər idisə Şuşa qəzasında bu rəqəm 38000 nəfərə çatırdı.

Çar hökumətinin XIX əsrin 70-ci illərində verdiyi aqrar qanunlar Azərbaycanda həyata keçirilməmiş qaldı. Qanunun qərarı ilə Şuşada kəndlilərin cüzi bir hissəsi öz pay torpağını satın almağa müvəffəq olmuşdu. Bir məsələni xüsusi qeyd etməliyik ki, Şuşada pay torpaqlarının satın alınması üçün qoyulan qiymətlər çox yüksək idi. Ona görə, həmin torpaqların çoxunu Şuşaya sonradan köçürülən və maddi cəhətdən tam təmin olunan ruslar və ermənilər ala bilirdilər. Eyni zamanda, tədqiqatlara əsasən, müəyyən edilmişdir ki, eyni bölgədə yaşayan ruslar və ermənilərə satılan torpağın qiyməti milliyyətcə azərbaycanlı olanlara satılan qiymətdən dəfələrlə aşağı olmuşdur. Ona görə də Şuşada yaşayan azərbaycanlı kəndlilər pay torpağı ala bilmirdilər. Kəndlilər yenə də istifadə etdikləri pay torpağı müqabilində vergilər verir və mükəlləfiyyətlər daşıyırdılar. Torpaq sahibi ilə kəndli arasında «torpaq nizamnaməsi» çox ləng tətbiq olundu. Həmin qanun 1870-ci ildə verilsə də, 1905-ci ildə Şuşada torpaqların 31 faizində hələ də tətbiq edilməmişdi. «Torpaq nizamnaməsi» qanunu Azərbaycanın hər yerində eyni qaydada getmirdi. Məsələn, 1912-ci ildə Bakının kəndlərində həmin qanun 100 faiz yerinə yetirilmişdirsə, Şuşanın torpaqlarının 13 faizində qanun tətbiq edilməmiş halda qalırdı. Bəhs etdiyimiz dövrdə, Şuşada dövlət kəndlilərinin istifadəsindəki torpaqlar sahibkar kəndlilərin istifadəsindəki torpaqlardan 3 dəfə artıq idi. Kənddə əmtəə istehsalı çoxaldıqca torpağın da qiyməti artırdı. Ona görə də, qolçomaqlar və bəylər torpaqlara daha çox sahib olurdular.

1900-cü ilin mayında hökumət kənddə torpaq münasibətlərini nizama salmaq üçün «Cənubi Qafqazda dövlət kəndlilərinin torpaq quruluşu» haqqında qanun verdi. Həmin qanuna görə dövlət kəndlilərinə icma torpaqlarından nəsli istifadə hüququ verildi. Bu isə kənd icması yığıncağının razılığı ilə həyata keçirilməli idi. Bu qanun icma torpaq mülkiyyətinə çox böyük zərbə vurdu.

1903-cü il aprelin 21-də «Cənubi Qafqazın beş quberniyasında pay torpaqlarını müəyyənləşdirmək və torpaq quruluşu işini aparmaq qaydası haqqında» əsasnamə 1900-cü il qanununa uyğun hazırlanmışdı. Lakin nə «Qanun», nə də «Əsasnamə» «dövlət kəndlilərinin torpaq quruluşu» məsələsini həll edə bilmədi. Kəndlilərin istifadəsində olan pay torpaqları yenə də dövlətə məxsus hesab olunurdu.

1905-ci ildə Qafqazın canişini Vorontsov-Daşkov «Qafqazda kəndli işinin nizama salınması haqqında Qeydləri»ni hazırladı. Həmin qeydlərə əsasən 1912-ci il dekabrın 20-də «Cənubi Qafqaz quberniyalarında torpaqların məcburi surətdə satın alınması haqqında» qanun verildi. Bu qanun Azərbaycanın hər yerində olduğu kimi Şuşada da tətbiq edildi və kənddə kapitalist münasibətlərinin inkişafını, eləcə də, ictimai təbəqələşməni sürətləndirdi. Ümumilikdə isə çar Rusiyasının Azərbaycanda, onun ayrılmaz tərkib hissəsi olan Şuşada həyata keçirdiyi tədbirlərdə güddüyü başlıca məqsəd hansı yolla olursa-olsun, Şuşanın yeraltı və yerüstü təbii sərvətlərini daha asan və böyük həcmdə mənimsəməkdir. Eyni zamanda, çar hökuməti yerlərdə öz dayaqlarını möhkəmləndirmək üçün xristianlaşdırma (ruslaşdırma və erməniləşdirmə) siyasətini daha da genişləndirdi. Lakin Rusiya hökumətinin müstəmləkələrdə, o cümlədən Şuşada yeritdiyi ruslaşdırma siyasəti sosial vəziyyəti daha da mürəkkəbləşdirdi. Aparılan hesablamaya görə, xristianların Şuşaya köçürülməsindən qabaq (XIX yüzilliyin əvvəllərində) burada əhalinin 5 faizini təşkil edirdilərsə, XX yüzilliyin əvvəllərində ermənilər və rusların sayı 27 faizə çatdı. Köçürmə siyasəti nəticəsində yerli əhali ilə gəlmələr arasında toqquşmalar baş verir və düşmənçilik yaranırdı. Azərbaycanlılar öz doğma torpaqlarından uzaqlaş-

dırılır, imperiyanı müdafiə edən qüvvələr mühüm strateji və iqtisadi əhəmiyyətə malik Şuşa torpağında məskunlaşdırılırdı. «Parçala və hökm sür» imperiya siyasətini həyata keçirən Çar Rusiyası Şuşaya köçürdükləri ermənilərdən həmişə bir alət kimi istifadə etmişdir və edir.

# VIII FƏSİL

## 1900-1917-ci ildə ŞUŞA MƏDƏNİYYƏTİ

Özünün münbit, bərəkətli torpaqları, mühüm strateji mövqeyi, zəngin yeraltı-yerüstü sərvətləri, təbii gözəlliyi, iqlimi və ab-havası ilə məşhur olan Şuşa şəhəri həm də Azərbaycanın mədəniyyət mərkəzlərindən biri kimi bütün dünyada tanınmışdır.

XX yüzilliyin əvvəllərində Şuşanın sosial-iqtisadi və siyasi həyatındakı dəyişikliklər, mədəni inkişafa da öz təsirini göstərmişdi. Xalqın milli şüurunun oyanması və millətin ideologiyasının formalaşmasında Şuşa şairlərinin, alimlərinin, musiqiçilərinin və xaricdə təhsil almış istedadlı gənclərin rolu böyük idi. Bəhs etdiyimiz dövrdə xalqımızın milli mənlik şüurunun formalaşması, mənəvi əqidəsinin tərbiyə edilməsi, milli ləyaqət və dəyanət hissinin tərbiyəsi, insanların yurduna, xalqına, onun dilinə, adət və ənənələrinə məhəbbət hisslərinin aşılanması üçün mədəniyyətimizin, tariximizin öyrənilməsi ən vacib məsələ kimi mədəniyyət xadimlərimizin qarşısında duran önəmli iş hesab olunmuşdu. Xalqı gerilik buxovundan xilas etmək üçün gənclərimizi kütləvi şəkildə təhsilin müxtəlif sahələrinə cəlb etmək lazım idi.

1906-cı ilin avqustunda Azərbaycan müəllimlərinin I qurultayı keçirildi. Həmin qurultayda aşağıdakı mühüm məsələlərə baxıldı və qərarlar qəbul etdi: Türk xalqları yaşayan bütün bölgələrdə yeni tipli məktəblər yaratmaq, ibtidai icbari təhsil keçmək, təhsilin ana dilində aparılması, rus dilində təhsil alan gənclərə ana dili və şəriət dərslərinin keçirilməsi, azərbaycanlıların milli və dini ənənələrini yaşadan tədbirlərin həyata keçirilməsi və sair.

XX yüzilliyin əvvəllərində Azərbaycanda maarifin inkişafına mane olan amillər təhsilin rus dilində aparılması, dərslik və dərs vəsaitlərinin çatışmaması ilə bağlı olmuşdur. Təhsil hələ də silki xarakter daşıyırdı. Çarizmin maarif sahəsində gördüyü tədbirlər müstəmləkəçilik siyasətinin həyata keçirilməsinə xidmət edirdi. Məktəblər çarizmə sədaqətlə qulluq edən məmurlar

hazırlamalı idi. Təhsilin inkişafı üçün dövlət tərəfindən buraxılan vəsaitin miqdarı az idi. Bütün bu çətinliklərə baxmayaraq, Azərbaycanda maarifin inkişafında H.B.Zərdabinin, N.Nərimanovun, M.Mahmudbəyovun, S.M.Qənizadənin, R.Əfəndiyevin, Ü.Hacıbəyovun, M.Ə.Sabirin, C.Məmməd-quluzadənin, M.Şahtaxtinskinin, A.Şaiqin, S.S.Axundovun və başqalarının xidmətləri böyük olmuşdur. Onlar, Azərbaycanda imperiyanın təhsil sahəsindəki müstəmləkəçilik siyasətini tənqid edir, mütərəqqi prinsiplərlə yeni məktəblərin yaradılmasını, təhsilin icbari və pulsuz olmasını tələb edirdilər.

Şuşada isə maarifin inkişafı sahəsində böyük fədakarlıqlar göstərmiş Mir Möhsün Nəvvabın, B.Şahinovanın, Q.Zakirin, X.Natəvanın, N.Vəzirovun, A.Ə.Haqverdiyevin, S.S.Axundovun, Y.V.Çəmənzəminlinin və başqalarının adlarını xüsusi qeyd etmək lazımdır.

XX yüzilliyin əvvəllərində Şuşada məktəblərin sayı bir qədər artdı. Ruhani təhsili sahəsində də irəliləmələr oldu. 1901-ci ildə Şuşada yeni mədrəsə fəaliyyətə başladı. Bu vaxt Azərbaycanda 120 ruhani məktəbi var idi ki, bunun 9-u Şuşanın payına düşürdü. Ruhani məktəbində təhsil alanların sayı cəmi Azərbaycan üzrə 3200 nəfər idi ki, bundan 130 nəfəri Şuşa ruhani məktəbində oxuyurdu.

1900-cü ildə Şuşada orta və natamam orta məktəblər çox az idi. Şuşada ilk orta təhsil məktəbi 1872-ci ildə yaradılmışdır (xalq məktəbi adı altında). 1881-ci ildə isə 6 sinifli Şuşa realnı məktəbinin əsası qoyuldu. İldən-ilə Şuşa natamam orta məktəblərində təhsil alanların sayı artırdı. 1883-cü ildə həmin məktəbdə (Şuşada) təhsil alanların sayı 232 nəfər, 1901-ci ildə 452 nəfər idisə, 1913-cü ildə 483 nəfərə çatmışdı.

XX yüzilliyin əvvəllərində Şuşada şəxsi məktəblər də fəaliyyət göstərirdi. Burada şagirdlərə ibtidai təhsil verilirdi. Bu sahədə Mir Mövhsün Nəvvabın, B.Şahinovun, O.Mixayilovun adlarını xüsusi qeyd etməliyik. Onların açdığı məktəblərdə 250 şagird təhsil alırdı. 1910-1914-cü ildə illərdə Şuşada xalq maarifinin inkişafında müəyyən canlanma müşahidə edilmişdir. İbtidai məktəblərdə M.Mahmudbəyovun «Ana dili» kitabı

oxunurdu. Məktəblərin bir qismi Rus-Azərbaycan məktəbləri idi. Bəhs etdiyimiz dövrdə, Şuşanın 8 ibtidai məktəbində 131 şagird təhsil alırdı. 1912-ci il «Əsasnamə»sinə görə şəhər məktəbləri ali ibtidai məktəblərə çevrildi. Ali ibtidai məktəblərə ibtidai məktəbləri bitirənlər daxil olurdu. Belə məktəblər Şuşada 2 hissədə fəaliyyət göstərirdi. Birinci hissəyə qızlar məktəbi daxil idi ki, bunun bünövrəsi 1894-cü ildən qoyulmuşdu. Şuşada «Marinskoe uçiliş» adı altında fəaliyyət göstərən bu təhsil ocağı Şuşanın ilk qadın orta məktəbi idi. Məktəbdə təhsil rus dilində aparılırdı. İkinci hissə isə oğlanlar məktəbi idi. Bu məktəblərdə şəriət, rus dili, latın dili, alman dili, riyaziyyat, coğrafiya, tarix, təbiətşünaslıq, rəsmxət və başqa fənlər tədris olunurdu. 1913-cü ildə Şuşanın orta məktəbində təhsil alan şagirdlərin sayı 483-ə, müəllimlərin sayı 42-yə çatdı. 1915-ci ildə Şuşada orta təhsil verən realnı məktəblərində 470 nəfər şagird oxuyurdu.

XX yüzilliyin əvvəllərində xalq maarifi sahəsində diqqəti cəlb edən əlamətdar hadisələrdən biri, yalnız azərbaycanlı qızları üçün nəzərdə tutulan qız məktəblərinin yaradılması olmuşdu. 1907-ci ildə Şuşada da belə bir məktəb açıldı.

Bəhs etdiyimiz dövrdə qeyrətli, el qədri bilən, xalqına, millətinə, torpağına bağlı olan imkanlı və istedadlı şuşalılar Şuşa əhalisinin savadlanması üçün öz hesablarına məktəblər açdılar. Buna misal olaraq xarrat Qulunun açdığı musiqi məktəbini, Mir Möhsün Nəvvabın qiraətxanasını göstərə bilərik. Bundan əlavə Şuşada Hacı Hüsünün və Mir Möhsün Nəvvabın rəhbərliyi altında musiqişünaslar məclisi, Kərbəlayi Səfixanın xəttatlar, Hacı Hüsünün xanəndələr, Məşədi Əkbər Muxtarovun nüsxəbəndlər, Kərbəlayi Səfixanın və Nəvvabın nəqqaşlar və memarlar məclisləri fəaliyyət göstərirdi. Həmin ədəbi məclislər öz ətrafında 120 şair və sənətkarı toplamış, Şuşanın mədəni inkişafında böyük işlər görmüşdülər. Qüdrətli sənətkarlar, bəstəkarlar, şairlər nəslinin yetişməsində Şuşa məktəbləri böyük rol oynayırdı. 1000-dən çox şagirdi, 75 müəllimi öz ətrafında birləşdirən Şuşanın təhsil ocaqları Azərbaycanı bütün dünyada tanıdan musiqiçilər, xəttatlar, şairlər yetişdirmişdir.

Qori müəllimlər seminariyası uzun müddət Azərbaycan məktəblərini ixtisaslı kadrlarla təmin etmişdir. Lakin burada hazırlanan kadrlar tələbatı ödəmirdi. Azərbaycanın özündə belə bir təhsil müəssisəsinin açılmasına ehtiyacı nəzərə alaraq 1914-cü ildə Gəncədə, 1916-cı ildə isə Bakıda müəllimlər seminariyası açıldı. Yeni açılan bu təhsil müəssisələri müəllimlər hazırlayıb Azərbaycanın ucqarına göndərirdi. Bu isə öz növbəsində, Şuşa maarifinin inkişafında həm dini, həm də dünyəvi təhsil müəssisələrinin, müəllimlərin, şagirdlərin sayının artmasına təkan verdi. Nəticədə 1916-cı ilin sonunda Şuşada məktəblərin sayı 50-yə, şagirdlərin sayı 3000-ə, müəllimlərin sayı 79-a çatdı. 1917-ci ilin sonlarında isə Şuşada müəllimlərin sayı artıq 121 nəfəri keçmişdi.

XX əsrin əvvəllərində Şuşada mədəniyyətin zəif inkişaf etmiş sahələrindən biri mədəni-maarif müəssisələri idi. Mədəni-maarif müəssisələri içində kitabxanalar xüsusi yer tutur. Lakin 1900-cü ildə onların sayı az idi. Məktəblərin nəzdində kiçik kitabxanalar fəaliyyət göstərirdi. Kitabxana və qiraətxanalar şuşalıların öz-özünə təhsil almasını sürətləndirirdi. Kitabxana və qiraətxanaların inkişafına mane olan amillər aşağıdakılar idi: Birinci, Azərbaycan dilində ədəbiyyat lazımı səviyyədə deyildi; ikinci, çətinlik kitabxanalarda işləyəcək ixtisaslı kadrlar çatışmırdı; üçüncü çətinlik Çar Rusiyası Şuşada kitabxanaların inkişafı üçün vəsait buraxmırdı. Bütün bu çətinliklərə baxmayaraq, Şuşa sahibkarları və elm adamları öz şəxsi vəsaitləri hesabına kitabxana və qiraətxanaların inkişafına, oradakı kitabların sayının artırılmasına xüsusi fikir verirdilər. Belə şəxslərdən biri də Mir Möhsün Nəvvab olmuşdur. 1883-cü ildə Şuşada doğulmuş və ömrünün sonunadək bu gözəl məkanda yaşayan M.M.Nəvvab kimyanı, ədəbiyyatı, riyaziyyatı, coğrafiyanı, fəlsəfəni, tarixi, astronomiyanı gözəl bilirdi. M.M.Nəvvab Azərbaycanın görkəmli ictimai xadimi, şairi, ədəbiyyatşünası, alimi, filosofu, psixoloqu, pedaqoqu, astronomu və təbibi idi. Ədibin görkəmli xidmətlərindən biri də Şuşada ilk dəfə olaraq Azərbaycan dilində qiraətxana və kitabxana açması olmuşdur. Mir Möhsünün oğlu Mirzəağa isə həmin kitabxanaya rəhbərlik

etmişdir. Xalqını sevən vətənpərvər şair öz şəxsi kitablarını həmin kitabxanaya vermiş və başqa yerlərdən də kitablar alıb açdığı kitabxananı zənginləşdirmişdi.

1917-ci ildə Azərbaycanda cəmi 25 kütləvi kitabxana var idi ki, bunlardan biri Şuşada idi. Bundan əlavə, Şuşada 3 qiraətxana da fəaliyyət göstərirdi. Yeri gəlmişkən onu da qeyd edək ki, Şuşada Əhməd bəy Ağayev tərəfindən 1896-cı ildə (öz hesabına) əsası qoyulan kitabxana XX yüzilliyin əvvəllərində də fəaliyyət göstərirdi (Bu cür gözəl əqidəli şəxsiyyətlə bütün şuşalılar və Azərbaycan xalqı fəxr etməlidir).

Şuşada təzə poçt yollarının açılması, qəzanın tabeçiliyinin Gəncə quberniyasına keçməsi, şəhərin abadlaşdırılmasına və mədəni yüksəlişinə səbəb olmuşdur. Şuşa şəhərinin başqa şəhərlərlə ticarət və mədəni əlaqələri möhkəmlənirdi. Gəncə, Nuxa və Şamaxıdan sonra Şuşa şəhəri Azərbaycanın yarım-sənaye və ticarət mərkəzi kimi formalaşırdı. Yeni-yeni ticarət şəbəkəsinin açılması, xidmət növlərinin yaranması və sənaye obyektlərinin işə düşməsi Şuşada əhalinin artmasına səbəb oldu. Şuşanın füsünkar təbiətini, yaşıl yamaclarını, min bir dərdin dərmanı olan bulaqlarını, gül-çiçəkli düzənlərini, bərəkətli tarlalarını da bu inkişafa əlavə etdikdə hər tərəfdən əhalinin Şuşaya gəlməsini şərtləndirmişdir. Əhalinin güzaranının yaxşılaşması Şuşa əhalisinin sıçrayışlı inkişafına səbəb olmuşdur. Əhalinin artım dinamikası aşağıdakı cədvəldən aydın görmək olar. (Cədvəl tərtib edilərkən aşağıdakı ədəbiyyatdan istifadə edilib: APMDA F.415; obzor Elızavetpolskiy quberni za 1912 qod – Tiflis, 1913; Pervaya vseobşaya perepis naseleniya Rossiyskiy imperii 1897 qod, Moskva 1904; Kafqazskiy kalendar na 1852 – tiflis, 1851; Nasilenie Kafqaza – Tiflis – 1888; Pamyatnaya knijka Elzavetpolskaya qubernii za 1910 qod – Tiflis, 1909; Kafkazkiy kalendar na 1917 qod, Tiflis 1916; Şuşinskiy listok, 1912, №41).

*Cədvəl №8*

| İllər | Əhalinin sayı | | Cəmi | Faizlə artım |
|---|---|---|---|---|
| | kişilər | qadınlar | | |
| 1800 | 5700 | 4300 | 10000 | 100 |
| 1830 | 5079 | 4500 | 9579 | 93 |
| 1850 | 6556 | 6418 | 12724 | 127 |
| 1870 | 10910 | 9035 | 19945 | 199 |
| 1886 | 15786 | 11020 | 26806 | 268 |
| 1897 | 13318 | 12563 | 25881 | 258 |
| 1904 | 20521 | 14326 | 34847 | 348 |
| 1910 | 19818 | 17713 | 37531 | 375 |
| 1917 | 25404 | 18465 | 43869 | 438 |

Yuxarıdakı cədvəldən göründüyü kimi, XIX əsrin əvvəllərində Şuşa əhalisinin sayının 421 nəfər (başqa sözlə 7 faiz) azaldığını görürük. Bu azalma isə, kişilərə aiddir. Həmin dövrdə əhalinin azalmasının ən başlıca amili Şuşa torpağının Rus-İran təcavüzkarlarının hərb meydanına çevrilməsi ilə bağlı olmuşdur. 30-cu illərdən sonra Şuşa əhalisinin sayının artırıldığını görürük. Artımın səbəbi təbii obyektiv amillərlə yanaşı, həm də subyektiv amil də olmuşdur. Əgər tarixi mənbələrə müraciət edəriksə, 1800-cü ildə Şuşada əhalinin yalnız 5 faizinin ermənilər təşkil etdiyinin şahidi olarıq. 30-cu illərdə isə ermənilər əhalinin 27 faizini təşkil edirdi. Buradan belə bir nəticə çıxarmaq olar ki, 1813 və 1828-ci illər müqaviləsinə görə Şuşa şəhərinə ermənilər köçürüldü və hər cür şəraitlə təmin edildilər. 1800-1830-cu illərdə ümumi əhalinin azalması halı müşahidə edilsə də, (7 faiz), ermənilərin sayı artmışdır (22 faiz). 1917-ci ildə isə əhalinin ümumi sayı təqribən 4,4 dəfə (43869 nəfər) artdı. Aparılan araşdırmalara əsasən həmin vaxt Şuşada əhalinin 72,5 faizini azərbaycanlılar, 27,5 faizini ermənilər və ruslar təşkil etmişdir.

Aparılan araşdırmalara əsasən müəyyən edilmişdir ki, Azərbaycanın başqa şəhərləri ilə müqayisədə Şuşada ziyalılar, bəylər, ədiblər, bəstəkarlar, incə səsli xanəndələr, tacirlər daha

çox idilər. Bunların içərisində bəy ailələri tikinti, abadlıq, iaşə xidməti müəssisələrinin inşasında daha çox fərqlənirdilər. Onlar yol və su çəkilişində, şəhərətrafı hasarın tikintisində, məscid, hamam, ticarət müəssisələrinin inşasında birbaşa iştirak edirdilər və onun təşkilatçıları idilər. Bəhs etdiyimiz dövrdə, Şuşada 56 bəy ailəsi yaşayırdı. 1900-cü ildə Şuşada 2272 aristokrat, 97 dövlət məmurları, 334 hərbiçi, 40 feldşer və tibb işçisi, 121 pedaqoq və tərbiyəçi var idi.

Şuşadakı iqtisadi və mədəni inkişaf onun illik gəlirində də aydın görmək olar. Belə ki, 1830-cu illərdə Şuşa şəhərinin illik gəliri 4200 manat olmuşdursa, 1917-ci ildə bu göstərici 127743 manata çatmışdır. Aparılan tədqiqatlara əsasən, müəyyən edilmişdir ki, şəhərin büdcəsinə gələn gəlirin demək olar ki, hamısı Şuşanın abadlaşdırılmasına, mədəni inkişafına sərf edilmişdir. Qarabağımızın tacı Şuşa şəhərində maarifin, elmin, mətbuatın, ədəbiyyatın, incəsənətin inkişaf amillərini araşdırarkən, başlıca amillərdən biri kimi, şəhərin gəlirinin artması və həmin gəlirin nəzarət altında bütövlükdə Şuşanın mədəni inkişafına sərf olunması ilə bağlı olduğunu xüsusi qeyd etməliyik.

XX yüzilliyin əvvəllərində, iqtisadi inkişafın tələblərinə uyğun olaraq, Şuşada elmin ayrı-ayrı sahələri də inkişaf edirdi. Rus alimlərinin kənd təsərrüfatının öyrənilməsi üçün yazdıqları tədqiqat əsərlərində Şuşanın və bütün Azərbaycanın florasını işıqlandırmışdılar. «Qafqazda bitki oblastları haqqında», «Qafqazın bitkiləri», «Qafqazın botaniki-coğrafi əyalətlərə bölünməsi prinsipləri» əsərləri, bəhs etdiyimiz dövrdə, yazılmışdır və Çar Rusiyası Şuşanın yerüstü sərvətlərini daha çox, asanlıqla mənimsəmək məqsədlərini güdürdü: XX əsrin əvvəllərində Azərbaycanın ayrı-ayrı bölgələrində əkinçiliyə dair təcrübə təsərrüfatlarının əsası qoyulmuşdu. 1907-ci ildə yaradılmış Sarıtəpə və 1912-ci ildə əsası qoyulmuş Səfixan təcrübə stansiyaları kənd təsərrüfatının inkişafına böyük töhfələr verilmişdilər. Rusiya toxuculuq sənayesinin və digər müəssisələrin tələbatını nəzərə alan çar hökuməti Şuşada maldarlığın inkişafı üçün bir sıra tədbirlər gördü. Maldarlıq təcrübə

stansiyaları açıldı və xəstəliklərə qarşı mübarizə aparmaq üçün bəzi işlər həyata keçirilirdi. 1914-cü ildə «Qafqaz kənd təsərrüfatı cəmiyyəti» mal-qaranın sərgisini təşkil etdi. Sərgidə keyfiyyətli məhsul istehsalçıları aşkarlandı və mükafatlandırıldı. Həmin təcrübənin yayılması məqsədə müvafiq hesab edildi. Şuşada açılan baytar bakterioloji laboratoriyası yoluxucu xəstəlikləri (xüsusilə vəba) aşkar edir və onun qarşısının alınması yolları göstərilirdi. 1907-ci ildə Yuriyev Baytarlıq İnstitutunu bitirmiş Mehdi bəy Cuvarlı Şuşada heyvandarlığın inkişafı üçün təcrübələrini davam etdirir və özünün faydalı məsləhətlərini verirdi.

XX yüzilliyin əvvəllərində Şuşada elmi kəşflər davam etməkdə idi. Bəhs etdiyimiz dövrdə, Qaradolaq kəndinin sakini məşhur kəllədar Hacı Hüseyn Qarabağ qoyun cinsinin Qaradolaq növünü yaratdı. Yeni yaradılmış qoyun növünün Azərbaycanda yayılması qərarlaşdırıldı. Çünki yeni yaradılan Qaradolaq qoyunları xeyli böyüklüyü, yaxşı qəddi-qaməti, əkiz bala vermək qabiliyyəti, quyruğunda çoxlu yağ toplanması, uzaq məsafəyə yaxşı yol getməyi, yemləməyə az tələbkarlığı, susuzluğa dözümlülüyü, sıxyunluğu, südünün yağlığı və ətinin az çıxarlılığı keyfiyyətlərinə görə əvvəlki qoyunlardan fərqlənirdi. Odur ki, Qaradolaq heyvanları təkcə Şuşada deyil, Azərbaycanın müxtəlif bölgələrində yayılırdı.

XX yüzilliyə qədər yaradılmış yem bitkilərinin müxtəlif növləri seleksiyaçı alimlər tərəfindən inkişaf etdirilmişdir. Təcrübəçi alimlərimiz yem bitkilərindən yonca, xaşa, çoban-toxmağı, çöl noxudu, gülül, çöl lərgisi, arpa, çovdar, vələmir, qarğıdalı və sair bitkilərinin hansının daha yüksək məhsul ver-diyini aşkarlayıb Şuşada əkirdilər. Bəhs etdiyimiz dövrdə elmin inkişafındakı nailiyyətlərdən biri də mal-qaranın müxtəlif xəstəliklərinin müalicəsi üçün yeni üsulların tapılması olmuşdu. Şuşa maldarları, zəngin təcrübəyə əsaslanaraq, qoyunçuluq təsərrüfatlarında mal-qara xəstəliklərinin (qızdırma, ləkəntə, kəpənək qurdu, bozvurma, yelinsov, dabaq, dəmirov, ütməcə və sair) müalicəsinin sadə üsulları tapırdılar. Qarabağda maldarlığın inkişaf tarixini tədqiq edən tarixçilər A.Q.Dekonski, S.P.Zelinski,

M.A.Skibitski, A.E.Xan-Aqov və başqaları öz əsərlərində maldarlığın inkişafı üçün dəyərli məlumatlar vermişdilər. 1900-1917-ci illərdə onların işini İ.İ.Kalugin, M.Abdullayev davam etdirmişdir. Həsən bəy Zərdabi dənli bitkilərin seleksiyası sahəsində bir sıra təcrübələr aparır və bu təcrübələr əkinçilik təsərrüfatlarında məhsuldarlığın inkişafında böyük əhəmiyyət kəsb edirdi.

XX yüzilliyin əvvəllərində Azərbaycanda humanitar elmlərin inkişafı sahəsində bir sıra nailiyyətlər əldə edilmişdir. Buna misal olaraq, Rəşid bəy İsmayılovun 1904-cü ildə yazdığı «Müxtəsər Qafqaz tarixini, 1905-1913-cü illərdə Hacı Şeyx Həsən Mollazadə Gəncəvinin nəşr olunmuş «Zübdətüt təvarix»ni, 1910-cu ildə Qafur Rəşad Mirzəzadə tərəfindən yazılmış «Qafqaz coğrafiyası haqqında» əsərini və başqalarını göstərə bilərik.

XX yüzilliyin əvvəllərində Qarabağın və Şuşanın tarixinə dair 2 böyük əsər yazılmışdır. Bunlardan biri şair Mirzə Rəhimin 1912-ci ildə yazılmış «Tarixi-cədidi-Qarabağ» («Qarabağın yeni tarixi») əsəridir. Əsərdə Qarabağın XVIII-XIX əsrlər siyasi tarixi işıqlandırılmışdır.

XX əsrin əvvəllərində Həsənli Qarabağinin (1848-1928) Şuşadakı çoxcəhətli fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Öz ana dili ilə yanaşı rus, ərəb, fars dillərini də yaxşı bilən Qarabaği çoxlu şerlər, tərcümələr və kitablar müəllifidir. Böyük həcmli «Vətən dili» kitabının müəllifi olan Qarabaği M.M.Nəvvabla dostluq edərək Şuşadakı «Məclisi fərmüşan» yığıncağının fəal iştirakçısı olmuşdur. Şuşada müəllimlik edən Qarabaği, Qarabağın tarixinə maraq göstərmiş və «Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və əvzaları, Pənah xan, İbrahim xan, Mehdiqulu xan əyyamı hökumətlərinin əksər-vaqeyi hekayətləri» adlı əsərini yazmışdır. Təəssüf ki, əsər məhv edilmiş və bizə tam halda çatmamışdır. Ancaq H.Qarabağinin oğlu Məhəmməd Qarabaği 1936-cı ildə atasının əlyazmalarını toplayıb əsərin qısa şərhini oxuculara təqdim etmişdir. H.Qarabaği Şuşanın tanınmış ədibi, şairi və mətbuat işçisi olmuşdur.

XX əsrin əvvəllərində Şuşada mətbuat və nəşriyyat işləri pis vəziyyətdə idi. Buraxılan qəzet, jurnal və kitablar çox zəif

şəkildə çap edilirdi. Az-çox çap olunan mətbuat müxtəlif zümrələrin mübarizə meydanına çevrilmişdi. 1901-1917-ci illərdə mətbuat demokratik, milli burjuaziya və bolşevik qollara bölünürdü. Milli azadlıq hərəkatının təsiri ilə senzura qismən aradan qaldırılmışdı. Lakin bir həqiqəti qeyd etməliyik ki, Şuşa əhalisi arasında marksizm ideologiyasını təbliğ edən qəzet və jurnallar «Mərkəzə» sədaqətli olmaq, Rusiya himayəsi olmazsa, Azərbaycanın məhv olmaq təhlükəsi olduğunu və sair əsas mövzu başlıqları altında məqalələr çap olunurdu. Bakıda dərc edilmiş Azərbaycan və erməni dillərindəki qəzet və jurnallardan «Dəvəti Qoç», «Təkamül», «Yoldaş», «Opep», «Norxosk», «Banvori Dzayn» («Fəhlənin səsi») və başqa qəzetlər alınaraq Şuşa əhalisi içərisində yayılırdı. Bununla yanaşı, Rusiyada dərc edilmiş «İskra», «Kaspi», «Proletari», «İstorik marksist», «Russkoe boqatstvo» və başqa qəzet və jurnallar şuşalılar içərisində əsas təbliğat vasitəsi hesab olunurdu. Bəhs etdiyimiz dövrdə, Şuşada 3 topoqrafiya fəaliyyət göstərirdi. 1900-1917-ci illərdə aşağıdakı qəzet və jurnallar dərc olunmuşdu: «Şuşuniskiy listok», «Şuşa həyatı», «Qavar» (Pravintsiya), «Qarts («Əmək»)», «Nesuk» («Dayaq») və sair.

1900-1917-ci illər Azərbaycan ədəbiyyatının zəngin və mürəkkəb bir dövrüdür. Çünki bu dövrdə Azərbaycanda kapitalist münasibətləri inkişaf etmiş, sinfi ziddiyyətlər kəskinləşmiş və milli azadlıq uğrunda mübarizə geniş vüsət almışdır. Tarixi şəraitin mürəkkəbliyi və çətinliyi ziyalılarımızın milli mədəniyyətimizi inkişaf etdirmək əzmini qıra bilmədi. Azərbaycanın hər yerində yeni teatr özəkləri yaranır, məktəblər, kitabxanalar açılır, dərsliklər yazılırdı. Dövrün ən maraqlı hadisələrindən biri «Molla Nəsrəddin» jurnalının nəşri və yayılması olmuşdur.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında diqqəti cəlb edən ikinci başlıca cəhət tənqidi realizmin təşəkkülünün başa çatması ilə bağlıdır. Bu dövrün yazarları mövcud həyat tərzinə, ictimai münasibətlərə, siyasi quruluşa qarşı barışmazlıq motivlərini əsas götürürdülər.

Özünün bənzərsiz, özünəməxsus xüsusiyyətləri ilə seçilən, Azərbaycanımızı bütün dünyada görkəmli bəstəkarları, incə səsli xanəndələri, memarları, xəttatları, nəqqaşları, istedadlı rəssamları ilə tanıdan gözəl Şuşa torpağı həm də, dünya ədəbiyyatına N.Vəzirov, Ə.Haqverdiyev, S.S.Axundov, Y.V.Çəmənzəminli kimi görkəmli ədiblər bəxş etmişdir. 1870-ci ildə Qarabağın tacı Şuşada anadan olmuş görkəmli realist sənətkarlardan biri də Əbdürrəhim bəy Haqverdiyev idi. Bəy ailəsində anadan olmuş Ə.Haqverdiyev Şuşada realnı məktəbinin altıncı sinfini bitirmişdir. Tiflisdə orta təhsilini tamamlayan Ə.Haqverdiyev 1891-ci ildə Peterburqa getmiş və Yol Mühəndisləri İnstitutuna daxil olmuşdur. Burada təhsil aldığı müddətdə azad dinləyici kimi Peterburq Universitetində dil və ədəbiyyata dair mühazirələrdə iştirak etmiş, türk-müsəlman tarix və mədəniyyəti ilə maraqlanmışdır.

Ə.Haqverdiyev ədəbi fəaliyyətə Şuşa realnı məktəbində oxuyarkən başlamışdır. Onun formalaşmasında M.F.Axundovun xidmətləri böyük olmuşdur. Yaradıcılığa Şuşada «Hacı Daşdəmir» adlı pyeslə başlayan Əbdürrəhim bəy 1892-ci ildə «Yeyərsən qaz ətini, görərsən ləzzətini» dramını, 1896-cı ildə isə «Dağılan tifaq» faciəsini yazmışdır. 1899-cu ildən Bakıda yaşamağa başlayan Haqverdiyev, burada müəllimlik etməklə kifayətlənmədi. O, teatrlarda verilən tamaşalara rejissorluq edir, həm də əbədi-bədii yaradıcılıqla məşğul olurdu. 1900-cü ildə «Bəxtsiz cavan», 1901-ci ildə «Pəri Cadü» faciələrini yazan Əbdürrəhim bəy dramaturgiyamızı daha da zənginləşdirdi. Bu əsərlərdə mülkədarların faciəsi, maarifçi gənclərin məğlubiyyəti təsvir edilib. Əbdürrəhim bəy Haqverdiyev «Pəri Cadu», «Ağa Məhəmməd Şah Qacar» (1907) faciələrinin, 1906-1910-cu illərdə qələmə aldığı «Ata və oğul», «Ayın şahidliyi», «Cəhənnəm məktubları», «Marallarım» və sair kimi hekayələrin müəllifidir. Müəllif «Ağa Məhəmməd şah Qacar» əsəri ilə Azərbaycan dramaturgiyası tarixində faciə janrının «dramatik salnamə», «faciə-xronika» formasını yaratmışdır. Haqverdiyevin yığcamlığı, gözəl üslubu, dilinin aydınlığı ilə seçilən hekayələri cəmiyyətdəki naqislərə, mənəvi-əxlaqi eybəcərliklərə qarşı

çevrilmişdi. Əsərlərində təsvir olunan tiplər-kənd yüzbaşıları, şəhər qaradavoyları, qırmızısaqqal məşədilər, riyakar Kərbəlayılar, ikiüzlü hacılar, yalançı mühərrirlər, xəbis və xəsis tacirlər, cəhalətpərəst ruhanilər əsas təhlil obyektinə çevrilmişdir. Şuşa şəxsiyyətləri içərisində özünəməxsus yer tutan, yazıçı, rejissor, müəllim kimi tanınan Əbdürrəhim bəy Haqverdiyev geniş oxucu kütləsi üçün aydın bir dildə gözəl əsərlər yaratmış və özünün klassik hekayələri, faciə-xronika janr ilə bütün Azərbaycanda və dünyada tanınmışdır.

Şuşanın yetişdirdiyi məşhur sənətkarlardan biri də XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Nəcəf bəy Vəzirovdur (1854-1926). N.Vəzirov 1854-cü il aprelin 11-də qədim və səfalı oğuz-türk diyarımız Şuşa şəhərində anadan olmuşdur. O, təkcə yazıçı deyildi, həm də realist sənətkar, faciə janrının banisi, aktyor, istedadlı publisist və ilk felyetonist idi. N.Vəzirov 1903-cü ildə Bakı dumasına katib vəzifəsinə seçilir. Az sonra isə Bakı şəhər maarif şöbəsinin rəis müavini təyin edilir. Bundan sonra doğma xalqının maariflənməsi işində yaxından iştirak edir. 1905-1907-ci illər inqilabı N.Vəzirov ədəbi-ictimai dünya görüşünün genişlənməsinə şərait yaratmışdır. Bəhs etdiyimiz dövrdə ədib, həm dövrün eybəcərliklərini açan felyetonlar yazır, həm dram dərnəklərinə rəhbərlik edir, həm də yeni aktyor nəslinin yetişməsi üçün yorulmadan fəaliyyət göstərirdi.

1913-cü il noyabrın 15-də «Şəfa» maarif cəmiyyəti Nəcəf bəy Vəzirovun ədəbi yaradıcılığının 40 illiyi münasibətilə Bakıda təntənəli yubiley keçirmişdi. Yubilyarın əməyinə verilən yüksək qiymət, xalqının ehtiramı onun yaradıcılıq ilhamını artırmışdır. Həmin vaxtdan sonra N.Vəzirov çoxlu əsərlər yaratmışdır. 1920-ci ildə Nəcəf bəy Bakıda Kənd Təsərrüfatı texnikumunda müəllim işləmişdir. Səhhətinin ağırlaşmasına, kəskin ürək ağrılarına baxmayaraq, vətənini, xalqını sevən yazıçı ömrünün sonunadək öz yaradıcılıq işini davam etdirmişdir. 1926-cı ildə Nəcəf bəy Vəzirov təcrübə məşğələləri aparmaq üçün tələbələrlə birlikdə Şamaxıya — Çuxuryurda getmiş və orada ürək tutmasından vəfat etmişdir. N.Vəzirov bədii yaradıcılığa XIX əsrin ikinci yarısında başlamışdır. Həmin dövrdə qələmə aldığı

əsərləri: «Əti sənin sümüyü mənim», «Qaragünlü», «Ev tərbiyəsinin bir şəkli», «Daldan atılan daş topuğa dəyər» (1890), «Sonrakı peşmançılıq fayda verməz» (1890), «Adı var, özü yox» (1891), «Yağışdan çıxdıq yağmura düşdük» (1895), «Müsibəti-Fəxrəddin» (1896), «Pəhləvani zəmanə» (1898) və s.

Vəzirovun şah əsəri «Müsibəti Fəxrəddin» faciəsidir. Əsər Azərbaycan mülkədarlarının həyatından götürülmüş, bədii konflikti yeni ideyalar carçısı olan Fəxrəddin bəylə onun əhatə olunduğu ictimai mühitin hakim əxlaq qanunlarının daşıyıcıları arasındakı ziddiyyətlər üzərində qurulmuşdur. Əsərdə müsbətlə mənfi, zülmətlə-işıq, xeyirlə-şər mübarizə aparır. Əsər 1901-ci ildən tamaşaya hazırlanmış, 1904-cü ildə Tiflisdə, sonra isə Bakıda, Salyanda, Şamaxıda, Lənkəranda, Qazaxda, Naxçıvanda, İrəvanda, Dərbənddə tamaşaya qoyulmuş və böyük rəğbətlə qarşılanmışdır. «Müsibəti-Fəxrəddin» faciəsi Azərbaycandan kənarda — Qafqazda, Orta Asiyada, Başqırdıstanda, Tatarıstanda, İranda da tamaşaya qoyulmuş və burada yaşayan xalqların həyatında yaxşı iz buraxmışdır. Əsər bu gün də özünün yüksək bədii əhəmiyyətini qoruyub saxlayır. Müasir oxuculara humanist hisslər aşılayaraq onların estetik zövqünün inkişafına, saf, təmiz, əxlaqi ruhda tərbiyələnməsinə təsir göstərir. Əsərlərinin süjet xəttində obyektivliyi, xeyirxahlılığı, mərdliyi, sədaqətliyi, təvazökarlığı, alicənablığı, səxavətliyi, təmkinliyi və sair müsbət insani keyfiyyətləri əsas götürən görkəmli dramaturq, realist sənətkar, aktyor və publisist Nəcəf bəy Vəzirov şəxsiyyəti həmişə qədirbilən xalqımızın yaddaşında yaşayacaqdır.

Görkəmli ədəbiyyatşünas, pedaqoq və tənqidçi Firudin bəy Köçərli (1863-1920) Şuşada doğulmuş və orta təhsilini burada almışdı. Qori müəllimlər seminariyasını bitirən F.Köçərli 1895-ci ildən həmin seminariyada işləmişdi. Görkəmli ədəbin ən böyük nailiyyətlərindən biri Azərbaycan ədəbiyyatını tədqiq etməsi olmuşdu. O, 1903-cü ildə Tiflisdə «Azərbaycan tatarlarının ədəbiyyatı» kitabını çap etdirmişdir. Sonrakı dövrlərdə öz tədqiqatlarını davam etdirən F.Köçərli, 1911-ci ildə «M.F.Axundzadə» və 1912-ci ildə «Balalara hədiyyə» əsərlərini yazmışdır.

XX yüzilliyin əvvəllərində Firudin bəy Köçərlinin yazdığı ən böyük əsərlərindən biri «Azərbaycan ədəbiyyatı» kitabıdır. Kitabda 130-dan artıq Azərbaycan şairi haqqında məlumat verilmişdi. Y.V.Çəmənzəminli yazılan kitaba öz münasibətini belə bildirmişdi: «Bütün Azərbaycan ədəbiyyatını ətraflı tədqiq edən təkcə bir adam varsa, o da Firudin bəy Köçərlidir».

F.Köçərli klassik dünya yazıçı və şairləri haqqında da əsərlər yazmış və bununla da, öz tərcümeyi-halını daha da zənginləşdirmişdi. O, 1918-ci ildə Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsini Qazaxa köçürmüş və xalqımızın savadlanması üçün bütün gücünü sərf etmişdir. Xainlikdə, etibarsızlıqda, qədir bilməzlikdə və xəbislikdə tayı-bərabəri olmayan xəbis niyyətli erməni daşnakları parlayan daha bir Azərbaycan övladını 1920-ci ildə vəhşicəsinə qətlə yetirdilər. Firudin bəy Köçərli cismən məhv edilsə də, xalqımızın taleyində gördüyü işlər heç vaxt yaddan çıxmayacaq.

Şuşada anadan olmuş görkəmli ədiblərdən biri də Süleyman Sani Axundov (1875-1939) olmuşdur. Onun yaradıcılığı XX yüzilliyin əvvəllərinə təsadüf olunur. Yaradıcılığının məqsədini və vəzifələrini xalqa xidmət etməkdə görən S.S.Axundov bir sıra bədii əsərlər yazmışdır. Yazıçının yazdığı əsərlərə misal olaraq «Laçın yuvası», «Çərxi-fələk», «Şeytan», «Eşq və intiqam», «Qorxulu nağıllar» və başqalarını göstərə bilərik. S.S.Axundov Azərbaycanda maarifin inkişafı, təlim-tərbiyə işinin yaxşılaşması sahəsində böyük xidmətlər göstərmişdi. Hətta o, Azərbaycan yazıçı və şairlər birliyinin («İldırım dərnəyi»nin) sədri seçilmişdir.

XX əsrin əvvəllərində görkəmli yazıçı və jurnalist kimi məşhur olan Haşımbəy Vəzirov (1868-1916) Şuşada doğulmuş və ilk təhsilini orada almışdır. O, hələ gənc yaşlarında ədəbi yaradıcılığa başlamışdır. O, «Məktəb tərbiyəsi», «Evlənmək su içmək deyil», «Döymə qapını, döyərlər qapını» və sair əsərlərin müəllifidir. Haşımbəy Vəzirov İrəvan seminariyasını bitirdikdən sonra XX əsrin 90-cı illərində doğulduğu Şuşa şəhərinə qayıtmış və «Rus-tatar» məktəbində ana dilindən dərs demişdir.

XX yüzilliyin əvvəllərindən jurnalistik fəaliyyətinə başlayan Haşımbəy «Kaspi», «Novoye-obezreniye» qəzetlərində öz məqalələrini çap etdirmişdir. Haşımbəy Vəzirovun tarixi xidmətlərindən biri də «Otello» faciəsini ilk dəfə Azərbaycan dilinə tərcümə etməsi olmuşdur. H.Vəzirov 30 il ədəbi-jurnalistika sahəsində fəaliyyət göstərmişdir.

Görkəmli ədəbiyyat tarixçisi və folklorşünası, bir sıra roman, povest və hekayələr müəllifi Yusif Vəzir Çəmənzəminli (1887-1943) Qarabağımızın tacı Şuşa şəhərində anadan olmuşdur. Atası Məşədi Mirbaba təbii müalicə üsullarını yaxşı bilirdi və Şuşanın savadlı ziyalılarından idi. Məşədi Mirbaba qədim Azərbaycan şairlərinin yaradıcılığını bilir, muğamları sevir və yeri gələndə şer də yazırdı. Sözsüz ki, atasının və anasının şair təbiəti Yusifin gələcək yaradıcılığına təsir göstərmişdir. Balaca Yusif ilk təhsilini Şuşada Molla Mehdinin məktəbində almışdı. Burada fars dilini, ərəbcə Quranı oxumağı öyrənmiş, Sədinin, Hafizin əsərlərini əzbərləmişdi. 10 yaşlı Yusif imtahan verib Şuşadakı realnı məktəbinə daxil olmuşdu. Balaca Yusifin çəkdiyi şəkillərin, yazdığı ilk yazıların bir qismi AMEA Əlyazmalar İnstitutunda qorunub saxlanılır. 1906-cı ildə atasının vəfatı Vəzirovlar ailəsini ehtiyaca salır. Lakin bu vaxt Cənubi Azərbaycanın Çəmənzəminli kəndindən Şuşaya gələn qohumları Vəzirovlar ailəsinə kömək edir. Bu, Yusifin həyatında dərin iz buraxdığı üçün həmin qohumlarının yaşadıqları kəndin adını özünə təxəllüs götürmüşdür. 1906-cı ildə Bakıda təhsilini davam etdirən Yusif Vəzir 1910-cu ildə Kiyev Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Saratov, Rovno, Simferopol şəhərində işləyən Yusif Vəzir 1918-ci ildə Azərbaycanın Türkiyədə səfiri təyin olunur. 1920-ci il məlum hadisədən sonra Yusif Vəzirin həyatında çətin günlər başlayır. Ömrünün sonunu sürgündə keçirən Yusif Vəzir Çəmənzəminli üzüntülü məhrumiyyətlərə dözə bilməyib vəfat edir.

Y.V.Çəmənzəminlinin yaradıcılığının başlanğıcı «Müdiri möhtərəm» sərlövhəli məqaləsinin çap olunması ilə qoyulur. Onun yazdığı əsərlərə misal olaraq aşağıdakıları göstərə bilərik: «Bir cavanın dəftəri» (1905), «Şahqulunun xeyir işi» (1906),

«Ağ saqqal» (1910), «Divanə» (1910), «Həyat səhifələri» (1910), «Səyani təqvim» (1912), «Cənnətin qəbzi» (1913), «Qumarbazın arvadı», «Günah» (1914), «Studentlər», «Qızlar bulağı», «Qan içində», «Azərbaycan ədəbiyyatına bir nəzər» və sair Y.V.Çəmənzəminli, başlıca olaraq, nəsr sahəsində çalışmış, realist-bədii ədəbiyyatın ideya-bədii keyfiyyətlərlə zənginləşməsində, hekayə və roman janrlarının inkişafında böyük xidmətlər göstərmişdir. Y.V.Çəmənzəminli əsərlərində cəhaləti, mövhumatı, tüfeyliləri acı satira atəşinə tutaraq qamçılamış, qadın hüquqsuzluğunu, satqınlığı, yalançılığı tənqid etmişdir.

Şuşanın gözəl təbiəti həm də mühəndis, hüquqşünas, tədqiqatçı, redaktor, ədib Əhmədbəy Həsən oğlu Ağayev kimi şəxsiyyəti yetişdirmişdi. Ə.H.Ağayev (1868-1939) Şuşada doğulmuş və ilk təhsilini burada almışdır. 16 yaşında Tiflis gimnaziyasını bitirən Əhməd bəy Parisdə Sarbon Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Tələbə ikən elmi tədqiqat işləri ilə məşğul olan Ə.Ağayev 1896-cı ildə Şuşaya qayıtmış və məktəblərdə fransız dili dərsləri tədris etmişdir. Qeyrətli vətən övladının ən mühüm xidmətlərindən biri öz hesabına şuşalılar üçün kitabxana açmasıdır. XX yüzilliyin əvvəllərində Bakıda yaşayan Əhməd bəy, əvvəlcə, «Kaspi» qəzetinin redaksiyasında, sonra isə «İrşad» və «Tərəqqi» qəzetlərində redaktor vəzifəsində işləmişdir. O, öz yaxınlarına sübut etməyə çalışırdı ki, elm və texnikanın böyük nailiyyətlər qazandığı XX əsrdə islam dini, quran, şəriət xalqın ümumi inkişafına kömək edir. İslamçılığı təbliğ edən Əhməd bəy çox uzaqgörənliklə göstərirdi ki, sosializm ideyası baş tutan deyildir. 1909-cu ildən «Ağoğlan» təxəllüsünü qəbul edən Əhməd bəy «Tərcümani-həqiqət» qəzetini dərc etdirmiş və türkçülüyün təbliğini ön plana çəkmişdir. Müəllif «Sərbəst insanlar ölkəsində», «Dövlət və fərd», «Türk hüquq tarixi» və sair əsərlərində azadlıq, bərabərlik, demokratiya haqqında fikirlər irəli sürmüşdü.

Mir Möhsün Nəvvab Azərbaycanın görkəmli ictimai xadimi, şairi, ədəbiyyatşünası, alimi, filosofu, psixoloqu, pedaqoqu, astronomu, təbibi idi. Görkəmli alimin 20-yə qədər əlyazması, gözəl rəsmləri dövrümüzə qədər çatmışdır. M.M.Nəvvab 1883-

cü ildə Şuşa şəhərində doğulmuş və ömrünün sonunadək orada yaşayıb yaratmışdır. Kimyanı, ədəbiyyatı, riyaziyyatı, coğrafiyanı, fəlsəfəni, tarixi, astronomiyanı gözəl bilən Nəvvab XX əsrin əvvəllərində Şuşada fəaliyyət göstərən «Məclisi fərmuşan» məclisinə rəhbərlik etmişdir. O, məclisə tarın atası Mirzə Sadığı (xalq içərisində Sadıqcan kimi tanınmışdı), xanəndə Hacı Hüsünü, Məşədi İsini də cəlb etmişdi. Nəvvabla Sadıqcan dostluq etmiş və sonralar bu dostluq qohumluğa çevrilmişdir. «Məclisi fərmuşan»da əvvəllər Şuşanın görkəmli ədibləri Mirzə Ələsgər, Abdulla bəy Asi, Həsənəlixan Qaradaği, Fatma xanım Kəminə, Məşədi Əyyub, sonralar Mirzə Camalzadə, Məmməd Həsən bəy, Mirzə Xosrov, Alış bəy, Məşədi Cəmil, İslam Abdullayev, Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski və başqaları fəaliyyət göstərmişlər. Nüsxəbənd Əkbər dərman hazırlanmasında M.M.Nəvvaba kömək edirdi. O, təbii otlarla müalicə etmək bacarığına malik idi. Mir Möhsün həm də gözəl rəssam idi. Onun öz otağında çəkdiyi şəkillər dövrümüzə qədər gəlib çatmışdır. Nəvvab rəngləri özü hazırlayardı. Onun hazırladığı rəng oğlu Mirzəağa tərəfindən 100 il bundan əvvəl Şuşadakı Yuxarı Məscidə vurulmuş və bu gün də öz parlaqlığını itirməmişdir. Azərbaycanda ilk dəfə olaraq muğam nəzəriyyəsini M.M.Nəvvab yazmışdır. O, «Vüzühül Ərqam» əsərini yazmış və musiqinin insan sağlamlığına təsirindən geniş bəhs etmişdir. Nəvvabın mühüm xidmətlərindən biri də onun Şuşada ilk dəfə olaraq Azərbaycan dilində qiraətxana və kitabxana açmasıdır. Oğlu Mirzəağa isə həmin kitabxanaya rəhbərlik etmişdir. Mir Möhsün lirik şair, ədəbiyyatçı idi. Onun qəzəllərindən bəziləri dövrümüzə qədər gəlib çatıb. Biz Nəvvabı həm də gözəl astronom kimi də tanıyırıq. Onun otağının damında göy cisimlərini müşayiət etmək üçün müxtəlif cihazlar, alətlər var idi. Mir Möhsün Nəvvab telepatiyanı da bilirdi. Şuşada kimin evində oğurluq olurdusa, o, oğrunun kim olduğunu və oğurlanmış əşyanın harada gizlədildiyini deyirdi.

M.M.Nəvvab etikaya, estetikaya, əxlaqa, davranışa, mədəniyyətə aid də əsərlər yazmışdı. 1912-ci ildə müəllifin yazdığı «Nəsihətnamə» kitabında 500 nəsihət yazılmışdır və bu,

xalqımızın mənəvi saflığı üçün böyük əhəmiyyətə malikdir. M.M.Nəvvab 1918-ci ildə Şuşada vəfat etmiş və onu «Cıdır düzü»ndə dəfn etmişdilər. Görkəmli alim xalqımız üçün böyük işlər görmüşdür. Ona görə də qədirbilən xalqımız onun adını əbədiləşdirərək Şuşadakı musiqi məktəbinə və şairin yaşadığı küçəyə M.M.Nəvvabın adını vermişdir.

Dünya şöhrətli tarixi şəxsiyyət, elmə, sənətə və sənətkara qiymət verən dahi insan H.Ə.Əliyev 1982-ci ildə Şuşada olarkən birinci növbədə M.M.Nəvvabın qəbri önünə gəlmiş, məzarı üzərinə gül-çiçək dəstələri qoymuş, bir dəqiqəlik sükutla böyük sənətkarı yad etmiş, quran oxutmuş və görkəmli ədibə öz dərin məhəbbətini bildirmişdir.

Bütün şuşalılar və ümumilikdə, xalqımız M.M.Nəvvabla fəxr edir və yaddaşlarında əbədi yaşadacaqlar. Lakin təəssüf hissi ilə qeyd etməliyik ki, bu gün M.M.Nəvvabın yaratdığı hər şey, hətta onun məzarı belə erməni vandalları tərəfindən dağıdılmış, yandırılmışdır.

XX yüzilliyin əvvəllərində Şuşada incəsənətin bir qolu olan teatr da inkişaf etməkdə idi. Hələ XIX əsrdə Şuşada yerli həvəskarlar tərəfindən tamaşalar göstərilirdi. Aparılan tədqiqatlara əsasən müəyyən olunur ki, Şuşada ilk teatr tamaşası 1848-ci ildə göstərilib. Sonrakı dövrlərdə əhalinin bu sahəyə diqqəti daha da artmışdır. 1880-1890-cı illərdə Şuşada Yusif bəy Məlikhaqnəzərov gənc teatr həvəskarlarının köməyi ilə Mirzə Fətəli Axundovun komediyalarını tamaşaya qoydu. Yusif bəyin təşkil etdiyi tamaşada gənc müəllimlərdən Firudin bəy Köçərli, Əbdürrəhim bəy Haqverdiyev, B.Bədəlbəyov, C.Vəlibəyov oynayırdılar. XX yüzilliyin əvvəllərində həmin teatr truppası öz fəaliyyətini davam etdirir və öz sıralarını artırırdılar. Belə ki, «Otello»nun birinci mütərcimi Haşımbəy Vəzirov və məşhur xanəndə Cabbar Qaryağdıoğlu həmin teatr truppası tərkibinə daxil olmuşdular. Bir həqiqəti də diqqətinizə çatdıraq ki, göstərilən əsərlər Şuşa əhalisi içərisində yaxşı qarşılandığından Şuşanın şair və yazıçıları dram əsərləri yaratmağa başlamışdılar.

Əbdürrəhim bəy Haqverdiyev hələ uşaq yaşlarında Şuşada yerli həvəskarlar tərəfindən təşkil olunan teatr tamaşalarında

iştirak etmişdir. Ə.Haqverdiyevin yazdığı «Hacı Daşdəmir» adlı komediyası Şuşada XX yüzilliyin əvvəllərində tamaşaya qoyulmuşdur. Əbdürrəhim bəy Haqverdiyev mədəniyyət tarixində istedadlı dramaturq, gözəl rejissor kimi titullara layiq görülmüşdür. Əbdürrəhim bəy Haqverdiyevin xidmətlərindən biri də ondan ibarətdir ki, o, Şuşanın məşhur musiqiçi və xanəndələrinin iştirakı ilə musiqi tariximizdə ilk dəfə olaraq Şərq konsertləri təşkil etmişdir.

XX yüzilliyin əvvəllərində Şuşanın iqtisadi inkişafı onun mədəni inkişafı üçün zəmin yaratmışdı. Belə ki, Şuşada yeni klubların tikilməsi, ədəbi məclislərin inkişafı, yeni məktəblərin açılması aktyorlar nəslinin yetişməsinə və teatrın inkişafına təkan vermişdi. Əsrin əvvəllərində Şuşada milli-azadlıq hərəkatının genişləndiyi dövrdə aktyorların yaradıcı birlikləri yaranır və sıraları artırdı. 1904-cü ildə «Şuşa xeyriyyə cəmiyyəti» nəzdində Şuşa teatr şöbəsi yarandı. Şuşa teatrının repertuarında Azərbaycan dramaturqlarının (xüsusi olaraq, N.Vəzirov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə və başqalarının) əsərləri mərkəzi yeri tuturdu. Burada həmçinin Avropa klassiklərinin, xüsusilə Şillerin «Qaçaqlar»ı, Şekspirin «Otello»su tamaşaya qoyulurdu. Tez-tez Bakı artistləri Şuşada qastrol səfərində olurdu. Ümumilikdə isə, XX əsrin əvvəllərində teatr xalqın ideya-siyasi tərbiyəsində, maariflənməsində mühüm rol oynayırdı.

XX yüzilliyin əvvəllərində Çar Rusiyasının xüsusi əmri ilə konsert və teatr tamaşalarının göstərilməsi qəti qadağan edilsə də, Şuşa ziyalıları şəxsi fədakarlıq göstərərək yeni tamaşaların göstərilməsinə bütün güclərini sərf edirdilər. M.F.Axundovun, N.Vəzirovun, Ə.Haqverdiyevin, N.Nərimanovun, S.M.Qənizadənin əsərləri daha böyük həvəslə oynanılırdı. 1903-cü ildə Şuşa müəllimləri «Hacı Qara» komediyasını, 1904-cü ildə «Müsyo Jordan və Dərviş Məstəli şah» pyesini tamaşaya qoymuşdular. Həmin tamaşalarda Hacı Qara və Məstəli şah rollarını Yusif bəy Məlikhaqnəzərov oynamışdır. Yusif bəy təkcə müəllim deyildi, həm də şəhər dumasının üzvü idi. 1908-ci ildə Şuşada «Hacı Qəmbər», «Ev tərbiyəsinin bir şəkli», «Bəxtsiz cavan», «Otello» əsərləri tamaşaya qoyuldu. Tamaşada H.Sarıcalinskinin,

R.Tahirovun istedadları üzə çıxdı. Şuşanın kəndlərində də teatra böyük həvəs göstərirdilər. Şuşanın qədim və mədəni kəndlərindən olan Malıbəylidə Məmməd Qarayev başda olmaqla, Səlim Əmirov, Qəmbər Hacıyev, Nəcəfqulu Əliyev, Nəbi Hüseynov, Kərim Bədəlov, Musa Hacıyev, Talış Məhərrəmov bir truppada birləşərək «Molla Cəbi», «Evlənmək su içmək deyil», «Ev tərbiyəsinin bir şəkli», «Qırt-qırt» tamaşalarını hazırlamışdılar. Malıbəyli teatr truppası müxtəlif kəndlərdə tamaşalar göstərməklə şuşalıların maariflənməsində böyük xidmətlər göstərmişdilər.

Ə.Haqverdiyev Şuşada yaratdığı teatr truppasının həcmini xeyli genişləndirdi. Belə ki, həmin truppanın ətrafında X.Mamayev, H.Nağıyev, H.Mamayev, İ.Qəniyev, M.Ağayev, L.Qədimov, Q.Muradov, M.Abışov, H.Axundov və V.Quliyev kimi teatr həvəskarları toplandı. 1910-cu illərdə Şuşa aktyorları «Qırt-qırt», «Dağılan tifaq», «Məşədi İbad» tamaşalarını göstərmişdilər. Şuşanın teatr həvəskarları ildən-ilə artır, inkişaf edir və digər kollektivlərlə əlaqə saxlayırdılar. 1911-ci ildə Şuşa teatr həvəskarları H.Ərəblinskinin iştirakı ilə «Bəxtsiz cavan», «Pulsuzluq» əsərlərini Şuşa tamaşaçılarına göstərmişlər. 1911-ci ildə Şuşaya gələn A.Olenskaya və Ə.Qəmərlinski yerli həvəskarla birlikdə «Nadir şah» dramını tamaşaya hazırlamışdılar.

1913-cü ildə Şuşada yerli həvəskarlar «Ağa Məhəmməd şah Qacar» dramını göstərmişdilər. Həmin ildə Bakıdan gələn aktyorlar Şuşada «Əsli və Kərəm», «Evliykən subay», «50 yaşında cavan», «O olmasın, bu olsun», «Hacı Qara», «Lənkəran xanının vəziri», «Yağışdan çıxdıq, yağmura düşdük», «Müsibəti-Fəxrəddin» tamaşalarını göstərmiş və böyük rəğbətlə qarşılanmışlar. Bu tamaşalarda yerli həvəskarlar da çıxış etmişlər. 1914-cü ildə «Leyli və Məcnun», «Bəxtsiz cavan», «Günahsız qurban», «Kimdir müqəssir», «Arşın mal alan» tamaşaları Şuşa teatr truppası tərəfindən həm Şuşada və həm də Qarabağın müxtəlif ərazilərində çox böyük müvəffəqiyyətlə oynanılmışdır.

1915-1916-cı illərdə Şuşa həvəskarları köhnə tamaşalarını bir neçə dəfə təkrar göstərmişdilər. 1916-cı ilin avqustunda C.Məmmədquluzadənin «Ölülər» komediyası Şuşada ilk dəfə

olaraq göstərilmişdir. Elə həmin il Üzeyir Hacıbəyovun rəhbərliyi və iştirakı ilə Şuşa teatr truppası «O olmasın, bu olsun» operettasını tamaşaya hazırlamış və tamaşa böyük müvəffəqiyyət qazanmışdır. 1917-ci ildə yerli «Şuşa dərnəyi»nin yardımı ilə Şuşada bir klub açılmışdır. Klubun açılışında M.Hacınskinin «Sultan Əbdülhəmid Xəli» əsəri oynanılmış və 3000 manat gəlir gətirmişdir.

Beləliklə, 1905-1917-ci illərdə Şuşa teatr həvəskarları səmərəli fəaliyyət göstərərək xalqın maariflənməsində xeyli işlər görmüşlər. Şuşada istedadlı dramaturqlar, bəstəkarlar, aktyorlar yetişdir.

XX yüzilliyin əvvəllərində Şuşada, incəsənətin başqa sahələrində olduğu kimi, musiqi də inkişaf etməkdə idi. Bu dövrdə, musiqi mədəniyyət abidələrinin toplanması, nəşri və yayılması sahəsində ilk addımlar atılırdı. Şuşalı Mir Möhsün Nəvvab 1912-ci ildə muğamlara həsr etdiyi «Vüzuhül-Ərqam» («Rəqəmlərin şərhi») adlı kitabını çap etdirdi. Əsərdə musiqimiz haqqında maraqlı məlumatlar verilmişdir. Azərbaycanın başqa bölgələri ilə müqayisədə Şuşa musiqisinin özünəməxsus xüsusiyyətləri olmuşdur. Görkəmli musiqişünas V.Vinoqradov yazırdı ki, Şuşa musiqiçiləri Azərbaycan musiqisinin tarixini yaratmış və onu yalnız öz vətənlərində deyil, həm də Şərqin başqa ölkələrində təmsil etmişlər. Qarabağın baş şəhəri olan Şuşa Zaqafqaziyanın konservatoriyası hesab olunmuşdu.

Vaxtilə Şuşada olan və onun təbiətini seyr edən xalq şairi Səməd Vurğun Şuşanın şərəfli tarixindən söhbət açarkən demişdir: «Şuşa təkcə öz füsünkar təbiəti ilə deyil, həm də poetik və musiqi mədəniyyəti ilə şöhrət qazanmışdır». Bu həqiqətən belədir. XX yüzilliyin əvvəllərində Şuşanın saf təbiəti, təmiz suyu, gözəl iqlimi Azərbaycanımıza, Qafqaza və bütün dünyaya qüdrətli sənətkarlar, musiqiçilər və xanəndələr bəxş etmişdir.

Şuşada musiqinin inkişafında XIX əsrin 90-cı illərində yaradılmış və XX əsrin əvvəllərində öz fəaliyyətini davam etdirən, Hacı Hüsü və Mir Möhsün Nəvvabın rəhbərliyi altında fəaliyyət göstərən musiqişünaslar məclisinin rolu böyük olmuşdur.

Azərbaycan xalq musiqisini yaxşı bilən V.D.Korqanov özünün 1908-ci ildə qələmə aldığı «Qafqaz musiqisi» adlı kitabında yazırdı ki, Şuşa şəhəri Zaqafqaziyaya çoxlu musiqiçilər və xanəndələr bəxş etmişdir. Şuşada yaranan hər bir şer, musiqi, mahnı Zaqafqaziyada konservatoriya rolunu oynayır. Şuşa musiqiçiləri özlərinin yeni mahnıları ilə hər ay Zaqafqaziya musiqisinə yeni motivlər bəxş edirlər.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında, ifaçıların yetişməsində Şuşa musiqi məktəblərinin rolunu xüsusi qeyd etmək lazımdır. Şuşada yaranmış belə məktəblərə misal olaraq Xarrat Qulu, İbrahim və Kor Xəlifənin açdığı məktəbləri göstərə bilərik. Bu məktəblər klassik musiqi ənənələrini inkişaf etdirir, uşaqlara tar-kaman çalmağı və muğamları öyrədirdi.

XX əsrin əvvəllərində Azərbaycanda musiqiçilərin musiqi həyatının qaynayıb daşdığı Qarabağda, xüsusilə, Şuşada toplanması müşahidə olunurdu. Şuşa görkəmli bəstəkarlar, incə səsli xanəndələr, bir sözlə, istedadlar məskənidir. XX yüzilliyin əvvəllərində yaşayıb-yaratmış həmin musiqiçilər haqda bəzi məqamları diqqətinizə çatdıraq:

Şuşanın görkəmli xanəndələrindən Hacı Hüsünün, Rəşid Behbudovun, Əbdül Baği Zülalovun, Xan Şuşinskinin, Cabbar Qaryağdıoğlunun, Seyid Şuşinskinin, Keçəçi oğlu Məmmədin, Segah İslamın, Bülbülün, Məmməd Fərzəliyevin, Həmid Qurbanovun, Zabul Qasımın və başqalarının adlarını fəxrlə çəkə bilərik. Çünki adlarını çəkdiyimiz bu sənətkarlar XIX əsrin sonu - XX əsrin əvvəllərində Şuşanı musiqi mərkəzinə çevirmiş və Azərbaycan musiqisinin yüksəlməsinə səbəb olmuşdur.

O, təkcə gözəl xanəndə deyildi, həm də yaxşı aktyor və işini bilən bəstəkar kimi tanınırdı. Əlbəttə, söhbət – muğamatımıza yeni ruh, yeni forma, məzmun gətirən, bütün həyatını klassik şərq musiqisinin inkişafına həsr edən, «Rast», «Cahargah» və «Segahımıza» yeni variant və xallar əlavə edən 1861-ci ildə Şuşada dünyaya göz açan - Cabbar Qaryağdıoğlundan gedir (1861-1944). C.Qaryağdıoğlu Azərbaycan musiqisinin Varşava, Moskva, Kiyev, Tiflis və başqa şəhərlərdə tanınmasında böyük işlər görmüşdür. O, Azərbaycan Dövlət

Konservatoriyasının yaradıcılarından olmuş və orada muğamatdan dərs demişdi. C.Qaryağdı oğlu təkcə xanəndə deyildi, o həm də xalq aşığı, bəstəkar idi. 1934-cü ildə Tiflisdə Zaqafqaziya musiqi olimpiyadası keçirilərkən C.Qaryağdıoğlu birinci yerə çıxmış və Zaqafqaziya mərkəzi İcraiyyə Komitəsinin birinci dərəcəli fəxri fərmanına layiq görülmüşdür. 1935-ci ildə isə Cabbar Qaryağdıoğlunun geniş fəaliyyətini və əməyini nəzərə alıb, ona xalq artisti fəxri adı verilmişdir. İttifaq hökuməti isə xalq artistinin yüksək zövqə, incə hisslərə, dərin düşüncəyə, musiqi tarixindəki xidmətlərini nəzərə alıb «Şərəf nişanı» ordeni ilə təltif etmişdir.

1870-ci ildə Şuşada anadan olmuş, Azərbaycan milli vokal məktəbinin görkəmli nümayəndələrindən biri də Behbudov Məcid Behbudalı oğlu olmuşdur. O, Azərbaycan xalq musiqisinin yayıcılarından idi. 1914-cü ildə Məcidin səsi Riqada «Qramofon» şirkətində vala yazılmışdır. Mahir sənətkar Moskva, Tiflis, Sofiya, Təbriz, İstanbul və başqa şəhərlərdə konsertlərlə çıxış edirdi. Məcidin «Mirzə Hüseyn» segahı, «Şüştər», «Çahargah» muğamları və başqa xalq mahnıları onu dinləyənləri valeh etmiş və həmişəlik yaddaşlara həkk olmuşdur. Məcid Behbudov 1945-ci ildə vəfat etmişdir.

Şuşa təkcə xanəndələr məskəni ilə seçilmirdi, həm də ərazinin gözəl təbiəti burada sənətin incəliklərinə yiyələnən tar, kamança, qarmon, tütək ifaçıları yetişdirmişdi. Tarzənlərdan Qurban Pirimovun, Məşədi Cəmil Əmirovun, Zeynal Qarabağlının, ustad Sadıqcanın və başqalarının adlarını çəkmək olar. Gözəl qarmon ifaçısı Abutalıb Yusifov, Lətif Əliyev və başqaları Şuşada dünyaya göz açmışlar. Adlarını çəkdiyimiz sənətkarlardan biri haqqında bəzi faktları diqqətinizə çatdırırıq. Məşhur usta tarzən Sadıqcan (1846-1902) Azərbaycan musiqi mədəniyyəti tarixində çox böyük işlər görmüşdür. Belə ki, sənətkar ilk dəfə olaraq «Sola Mahur»u tarda çalmışdır. Sadıqcana qədər tarı diz üstə çalırdılar. Sadıqcan isə tarın sinə üzərində çalınmasını tətbiq etdi. Eyni zamanda, novator sənətkar tarın pərdəsini 17-yə, simlərin sayını isə 5-dən 11-ə qaldırmışdı. Bir neçə muğamın

yaradıcısı olan Sadıqcan tarın qoluna «Zabul» pərdəsini əlavə etmişdir.

Şuşa şəhərində dünyaya göz açmış, onun təbii gözəlliklərindən ilham alaraq incəsənətimizin, mədəniyyətimizin inkişafında mühüm rol oynamış, təkcə Azərbaycanda deyil, bütün dünyada şöhrəti yayılmış məşhur bəstəkarlar da yaşayıb yaratmışlar. Həmin bəstəkarlardan Üzeyir Hacıbəyovun, Zakir Bağırovun, Fikrət Əmirovun, Süleyman Ələsgərovun, Zülfüqar Hacıbəyovun, Əşrəf Abbasovun, Niyazinin, Soltan Hacıbəyovun, Əfrasiyab Bədəlbəylinin və başqalarının adlarını böyük fəxrlə çəkmək olar.

Üzeyir Hacıbəyov (1885-1948) Azərbaycanın böyük sənətkarlarından idi. O, 1908-ci ildə «Leyli və Məcnun» operası ilə Azərbaycan musiqisi tarixində ilk milli operanın əsasını qoydu. Bəstəkarın yaratdığı opera, muğamat əsasında səslənmiş, Yaxın və Orta Şərqdə şöhrət qazanmışdır. Sonralar «Koroğlu», «Şah Abbas və Xurşudbanu», «Əsli və Kərəm», «Şeyx Sənan», «Rüstəm və Zöhrab» kimi operalarını bəstələyən Üzeyir Hacıbəyov, həm də Azərbaycan Dövlət Himnini də yazmışdır. Xalq üçün yaşayan, onun duyğu və düşüncələrini ifadə edən sənətkarımız «Lenin ordeni» ilə təltif edilmiş, SSRİ xalq artisti adını almış, 2 dəfə dövlət mükafatına layiq görülmüşdür.

Yüksək zövqə, dərin musiqi biliyinə malik görkəmli musiqişünaslarımızdan biri də Ü.Hacıbəyovun şagirdi Fikrət Əmirov olmuşdu. Fikrət Əmirov «Sevil» operasının «Azərbaycan» suitasının, «Şur», «Kürd-ovşarı» simfonik muğamlarının müəllifidir. Onun yaratdığı əsərlər ABŞ, Fransa, Polşa, Rumıniya və Çexoslovakiyanın konsert salonlarında çox böyük rəğbətlə qarşılanmışdır.

XX əsrin əvvəllərində Azərbaycan xalqının görkəmli və qocaman xanəndələrindən biri də Əbdülbağı Zülalov (1841-1927) idi. Xalqımızın musiqi mədəniyyətinin inkişafında «Bülbülcan» təxəllüsü almış Əbdülbağı çox böyük işlər görmüşdür. «Bülbülcan» təkcə Azərbaycan xanəndəsi deyildi, o, həm də 1927-ci ildə «Əmək qəhrəmanı» adına layiq görülmüşdür. İlk musiqi təhsilini Şuşada Xarrat Quludan alan xanəndə teatr

tamaşalarında, konsertlərdə, müxtəlif məclislərdə musiqimizə yeni rəng vermişdir. O, geniş diapazona, məlahətli və təsirli səsə, güclü zəngulələrə malik sənətkar idi. Görkəmli xanəndələrimiz C.Qaryağdıoğlu, Ə.Abdullayev, S.Şuşinski və başqaları Ə.Zülalovdan dərs almışdılar. Görkəmli sənətkar 1920-ci ildən başlayaraq, «Şərq Konservatoriyası»nda və Azərbaycan Dövlət Türk Musiqi məktəbində muğamatdan dərs demişdir. Ümumiyyətlə, Əbdulbağı Zülalov Azərbaycan vokal sənətinin görkəmli nümayəndələrindən biri idi və xalqımızın milli-mənəvi dəyərlərinin inkişafında böyük işlər görmüşdü.

XX əsrin əvvəllərində Şuşa musiqiçiləri Azərbaycan musiqisini daha yüksəklərə qaldırmışdır. Belə musiqişünaslardan biri də Əmirov Məşədi Cəmil Əmiraslan oğlu (1875-1928) olmuşdur. O təkcə tarzən deyildi, həm də bəstəkar və musiqi xadimi idi. Böyük sənətkar və şair M.M.Nəvvabdan dərs alan Məşədi Cəmil məşhur xanəndələrdən M.M.Fərzəliyevi, Malıbəyli Həmidi, Bülbülü tarda müşayiət etmişdir. Onun ifa etdiyi bir sıra muğam və mahnılar Riqanın «Qramofon» şirkətində lentə alınmışdır. Əmirov həm də məşhur aktyor idi. O, Məcnun, Kərəm, Qərib rollarını oynamışdı. Məşhur musiqişünas ilk dəfə olaraq «Heyratı» muğamını nota salmış, «Seyfəlmülk» operasını və «Namuslu qız» operasını yazmışdır. O, ömrünün son illərində müəllimlik etmiş və musiqi sənətinin incəliklərinin gənc nəslə çatdırılması işində böyük xidmətlər göstərmişdir.

Yüksək zövqə, incə hisslərə, dərin duyğulara malik Azərbaycanın görkəmli aktyorlarından biri də Mehdi Məmmədov olmuşdur. O təkcə aktyor deyildi, həm də rejissor və pedaqoq idi. M.Məmmədovun göstərdiyi tamaşalar Azərbaycan teatr tarixində əhəmiyyətli yer tutur. Onun rejissorluq üslubu əsərin fəlsəfi mənasının qabarıq verilməsi, monumentallığı, səhnə ustalığının dəqiqliyi ilə səciyyələnir. Mehdi müəllim milli dramaturgiyamıza, incəsənət və estetikaya dair çoxlu əsərlərin müəllifidir. M.Məmmədovun xidmətləri nəzərə alınaraq, SSRİ xalq artisti, sənətşünaslıq doktoru adlarına layiq görülmüş, iki dəfə «Qırmızı Əmək Bayrağı» ordeni, «Oktyabr İnqilabı» ordeni və medallarla təltif edilmişdir.

Sənətin sirlərini Hacı Hüsüdən öyrənən, Azərbaycanda məşhur xanəndəsi və tarzəni kimi tanınan Həmid Malıbəyli (1869-1922) gözəl təbiətə malik Malıbəyli kəndində dünyaya göz açmışdı. Onun zil və məlahətli səsi təkcə Şuşada, Qarabağda deyil, Azərbaycanın hər yerində sevinclə qarşılanmışdır. Həmid Malıbəyli Rast və Segah muğamlarını böyük ustalıqla oxumuşdu. Onun bir çox muğam, təsnif və xalq mahnıları vala yazılmışdır. Ömrünün sonlarına yaxın tarzənliklə məşğul olan Malıbəyli, Keçəçi oğlu Məhəmmədi, M.Behbudovu, M.Fərzəliyevi, İ.Abdullayevi, Bülbülü və başqa xanəndələri tarda müşayiət etmişdir.

Xanəndəlik sənətini Şuşada Xarrat Qulunun məktəbində və məşhur xanəndə Məşədi İsidən öyrənən, geniş diapazonlu, güclü və gözəl səsə malik görkəmli Azərbaycan xanəndələrindən biri də Keçəçi oğlu Məhəmməd (1964-1940) olmuşdur. O, Bayatı-Qacar muğamını orijinal və xüsusi ustalıqla oxumuşdur. Onun ifasında bir sıra muğam, təsnif və xalq mahnıları 1912-ci ildə «Spord-Rekord» (Varşava), 1914-cü ildə isə «Ekstrafon» (Kiyev) şirkətləri tərəfindən qrammofon valına yazılmışdır. 1920-ci ildən başlayaraq Məhəmməd öz sənətinin incəliklərini gənc nəslə öyrətməyə başlamış, xanəndəliklə yanaşı müəllimlik də etmişdir. Keçəçi Məhəmmədi qarmonda ən müşayiət edən Kərbəlayi Lətif (1876-1944) olmuşdur. Qarmon çalmağı atasından öyrənən Lətif tezliklə təkcə Şuşada deyil, bütün Azərbaycanda tanındı. Şuru, Rastı, Segahı, Bayatı-Qacarı, Azərbaycan xalq rəqslərini xüsusi ustalıqla ifa edən sənətkar həmin musiqini 1914-cü ildə qrammofon valına yazdırmışdır.

Abdullayev Qasım İbrahim oğlu 1873-cü ildə Şuşada anadan olmuşdur. M.M.Nəvvabla yaxınlıq edən Qasım «Məclisi Fəramuşan»ın fəal üzvlərindən biri idi. Qasım Abdullayev Azərbaycan xanəndəsi adını almışdı. Qasım «Zabul» segahını bütün şərqdə tanıtmışdır. Hətta təsadüfi deyildir ki, xalq arasında Q.Abdullayev «Zabul Qasım» kimi də tanınırdı. Muğam ustasının həm də aktyorluq qabiliyyəti də var idi. O, 1913-cü ildə «Leyli və Məcnun» operasında Məcnunun atası rolunu

oynamışdır. Görkəmli musiqiçi Qasım Abdullayev 1927-ci ildə Şuşada vəfat etmişdir.

Azərbaycanda və onun hüdudlarından kənarda ad-san qazanmış xanəndələrdən Hacı Hüsu, Cabbar Qaryağdıoğlu, İslam Abdullayev, Əbdülbaqi Zülalov, Məmməd Fərzəliyev, Məcid Behbudov, Keçəçi Məmməd, Seyid Şuşinski və başqaları musiqi tarixində əbədi izlər qoymuşdular.

Aparılan tədqiqatlara əsasən deyə bilərik ki, 1901-ci ildə şuşalılardan 22 nəfər musiqişünas adını, 38 nəfər isə məşhur xanəndə adını almışdır.

XX əsrin əvvəllərində Şuşada, incəsənətin bir qolu olan təsviri incəsənət də inkişaf etməkdə idi. Mətbuatın və teatr sənətinin inkişafı təsviri incəsənətin tərəqqisinə müsbət təsir göstərirdi. Çünki bölgədə çıxan qəzet və jurnallara rəsmlər çəkmək, teatr sahələrində mövzuya uyğun şəkillər təsvir etmək təsviri incəsənətin inkişaf amili hesab olunurdu. Əzim Əzimzadə (1880-1943) və Bəhruz Kəngərli rəssamlıq sahəsində xüsusi istedadlarını nümayiş etdirmiş və yüzlərlə şəkil, karikatura, rəsmlər çəkmişdilər. Azərbaycanın dilbər guşəsi olan Şuşada təsviri incəsənətin inkişafına xüsusi diqqət yetirilirdi. Hələ XIX yüzillikdə yaşayıb yaratmış görkəmli Azərbaycan şairəsi Xurşudbanu Natəvan bu sahəyə xüsusi diqqət yetirmiş, yaşadığı sarayın divarlarına qəlb oxşayan rəsmlər çəkdirmişdir. Bir həqiqəti də qeyd etmək yerinə düşərdi ki, Xurşudbanu Natəvanın özü də rəsmlər çəkirdi. Eyni zamanda o, həmin sənəti başqalarına da öyrətməyə çalışırdı. Bədii sənətkarlığın mahir ustası olan Natəvanın rəngli saplarla toxunmuş albomunda şerlərlə bərabər, adi karandaşla çəkilmiş 30 şəkil də vardır.

XIX yüzilliyin 90-cı illərində Şuşada bir sıra məclislər — Kərbəlayi Səfixanın rəhbərliyi ilə xəttatlar, Məşədi Əkbər Muxtarovun rəhbərliyi ilə nüsxəbəndlər, Mir Möhsün Nəvvab və Kərbəlayi Səfərəlinin rəhbərliyi altında nəqqaşlar, Kərbəlayi Səfixanın başçılığı altında memarlar məclisinin açılması XX yüzilliyin əvvəllərində Şuşada təsviri və tətbiqi incəsənətin inkişafına təkan verdi.

Mir Möhsün Nəvvabın (1833-1918) çəkdiyi portretlərdə, xüsusilə «Teymurləngin portreti», «Çiçəklər», «Quşlar» kimi əsərində dərin bir həyatilik vardır. Rəssamlıq sənəti sahəsində qazanılmış nailiyyətlərin çoxu M.M.Nəvvabın adı ilə bağlıdır. Təbiət vurğunu olan şairin çəkdiyi əsərlərdə, başlıca olaraq, güllər, quşlar təsvir edilirdi. Görkəmli rəssam, eyni zamanda, kitabların tərtibi və şəkillərlə bəzədilməsi işi ilə də məşğul olurdu. M.M.Nəvvabın rəssamlıq sahəsində xüsusi xidmətlərindən biri də, ondan ibarət olmuşdur ki, o rəssamlığın Avropa üslubunu qədim miniatür sənəti ilə əlaqələndirmişdir. M.M.Nəvvabın əsərlərindəki geniş rəssamlıq üslubu, rəngli rəsm cizgiləri, canlılıq onu dünyada tanıtmışdır. Maraqlı bir cəhəti xüsusi olaraq diqqətinizə çatdırırıq ki, Nəvvabın 1900-cü ilin əvvəllərində Şuşada yaşadığı evin, dərs dediyi məktəbin divarlarına və «Böyük Məscid»in minarələrinə çəkdiyi rəsm və naxışlar bu günə qədər öz parlaqlığını itirməmişdir.

Beləliklə, qeyd edək ki, XX yüzilliyin əvvəllərində Oğuz-Türk diyarımız Şuşa şəhəri görkəmli memarların, xəttatların, nəqqaşların və istedadlı rəssamların vətəni kimi də məşhur olmuşdur. Şəhərdə mövcud olan və dövlət tərəfindən qorunan 72 mühüm tarixi abidə bacarıqlı memar Kərbəlayi Səfixan tərəfindən tikilmiş, nəqqaş Kərbəlayi Səfərli tərəfindən nəqşlənmiş və səliqəli rəssam Usta Qəmbər tərəfindən gözəl şəkillərlə bəzədilmişdir. Lakin təəssüflə qeyd edək ki, bu gözəl və qədim tarixi abidələrimiz erməni vandalları tərəfindən dağıdılmış, yandırılmış və yerlə yeksan edilmişdir.

Bəhs etdiyimiz dövrdə Şuşada 18 memar, 16 nəqqaş, 100 nüsxəbənd, 19 xəttat var idi. Bu cür kadrlara malik olan şəhərdə tətbiqi incəsənətin də inkişafını xüsusi qeyd etməliyik. Sənətin bu sahəsi özünü daha çox xalçaçılıqda göstərməkdə idi. Şuşa torpağı, Azərbaycan dekorativ sənət ustası, ornamentçi rəssam, xalçaşünas və sənətşünas, Azərbaycanın xalq rəssamı Lətif Kərimov kimi şəxsiyyət yetişdirmişdir. Onun yaratdığı «Qonaqkənd», «Şuşa», «Göy-göl», «Qarabağ», «Vurğun», «Vaqif», «Fizuli», «Nəsimi» və başqa portret xalçalar ornamental bəzəyi, rəsmlərinin zərifliyi və ifadəliyi, zəngin kolorist-

liyinə görə xalçaçılıq sənətinin qiymətli nümunələrindəndir. Bacarıqlı rəssam zərgərlik, keramika, ağac, metal və daş üzərində oyma sənəti sahəsində də gözəl nümunələr yaratmışdır. Onun yaratdığı əsərlər Avropada, ABŞ-da, Şərq ölkələrində, keçmiş SSRİ məkanında nümayiş etdirilmiş və böyük maraqla qarşılanmışdır. 1945-ci ildən AMEA-da işləyən Lətif müəllim öz sənətinin incəliklərinin gənc nəslə öyrədilməsi işində çox böyük işlər görmüşdür.

Şuşanın XX əsr görkəmli sənətkarlarından biri də Azərbaycanın dekorativ sənət ustası, Usta Səfər olmuşdur. Onun hazırladığı müxtəlif milli orimentli və naxışlı şəkillər əsasında toxunan xalçalar dünya muzeylərinin bəzəyinə və qiymətli eksponatına çevrilmişdir. Qarabağ xalçaları istehsalı və satışının mərkəzi olan Şuşada ilməli xalçalar — «Malıbəyli», «Ləmpə», «Bağçada güllər», «Bulud», «Saxsıda güllər», «Nəlbəkigül», «Güllüyaylıq», «Muncuq», «Zərməxmər» və sair toxunurdu.

XX yüzilliyin əvvəllərində Şuşada sənətkarlığın mühüm sahələrindən biri olan zərgərlik də öz inkişafında yüksək zirvəyə qalxmışdı. Bəhs etdiyimiz dövrdə, Şuşada zəngin sənət biliklərinə malik olan ustalar — usta Rüstəm, Zərgər Muxtar, toplamaçı Əliş, zərgər İsmayıl, zərgər Seyidəli və başqaları işləmişdilər. Şuşa zərgərləri qarasavad, oymakarlıq, toplamaçılıq (şəbəkəçilik), xətəmkarlıq kimi texniki istehsal üsullarını bilsələr də, qəlibkarlığa üstünlük vermişdilər. XX əsr Şuşa zərgərliyində qəlibkarlıq geniş yayılmış bəzək üsullarından olub, qabarıq naxışlı, orimental formalı məmulatların hazırlanmasında başlıca yer tutmuşdu. Burada sal toqqa, çütqabağı, qoza düymə, qoza yaxalıq, ətəklik, boyunbağılar və başqaları qəlibkarlıq üsulu ilə hazırlanırdı. Şuşa sənətkarlarının şəbəkəçilik üsulu ilə hazırladıqları «quş dimdiyi», «vov», «hörük-buruq», «charqat», «zəncirə», «qıvrım ilan tac», «ətəklik», «guşə», «əncalə», «divarə», «bəndam» və başqaları yüksək alıcılıq qabiliyyətinə malik idi. Şuşa zərgərlik sənəti ümumazərbaycan zərgərlik sənətinin tərkib hissəsi olsa da, özünəməxsus inkişaf xüsusiyyətləri olmuşdur.

XX əsrin əvvəllərində Şuşada bənnalıq, heykəltəraşlıq, şəbəkəçilik, oymakarlıq, həkkaklıq kimi zərif usta əməyi tələb edən sənət sahələri də mövcud olmuşdur. Şuşa və onun ətrafında zəngin daş yataqlarının və karxanalarının olması daşişləmə sənətinin inkişafına böyük təkan vermişdir. Şuşa ustaları daha çox inşaat daşlarının (hörgü daşı, tac, sütun, üz daşı, künc və zeh daşı, tir daşı, məscid daşı), təsərrüfatda və məişətdə əşya və avadanlıqların (su daşı, kirkirə, axur, hovuz, daş vəl, dibək, xırman daşı, duz daşı, darvaza daşları, dəyirman daşları), xatirə-xeyrat abidələrinin (məzar daşları, sinədaşı, sənduqə, qəbir daşı, baş daşı, xeyrat bulaq abidələrinin bulaq növü, çarhovuz, navalça, bulaq daşı, xatirə lövhəsi) yonulmasında xüsusi səriştəyə malik idilər. Bəhs etdiyimiz dövrdə, Şuşada daşişləmə sənəti ilə məşğul olanların sayı 104 nəfərə çatmışdır. Aparılan tədqiqatlara əsasən müəyyən edilib ki, 1917-ci ildə Şuşada 2983 ev var idi ki, bundan 2742-si daşdan tikilmişdi. Bu evlərdən 1185-i son 100 il ərzində tikilmişdir.

İnkişaf edən Şuşa şəhərində XIX yüzillikdə başlamış tikinti-memarlıq işləri XX yüzilliyin əvvəllərində də davam etdirilmişdir. Şuşada nadir memarlıq üslubunda tikilmiş əzəmətli abidələr, yaraşıqlı yaşayış binaları şəhərə xüsusi gözəllik bəxş etmişdi. Şuşada şəhərsalma sahəsində əvəzsiz xidmətləri olmuş Memar Kərbəlayi Səfixan Qarabağinin (1788-1910) adını xüsusi qeyd etmək lazımdır. Kərbəlayi Səfixan XIX əsrin 90-cı illərində Şuşada fəaliyyətə başlayan xəttatlar və memarlar məclisinə rəhbərlik etmiş, Şuşadakı əksər tikinti işlərinin layihələrini vermişdir. Kərbəlayi Səfixan 1788-ci ildə Təbrizdə, Əhər yaxınlığında anadan olmuşdur. 1850-ci ildə Şuşaya gələn Səfixan ömrünün sonunadək burada yaşamışdır. Şuşada ailə həyatı quran Səfixanın bir qızı, 2 oğlu olmuşdur. Oğlanları Səfixanın işini davam etdirmişdilər. Dəqiq layihələr işləyən sənətkar Şuşadakı tikinti işlərinə bilavasitə özü rəhbərlik etmişdir. Elə bunun nəticəsidir ki, Qarabağ bölgəsində bütün məscidlərin tikilişi Kərbəlayi Səfixanın adı ilə bağlıdır. Görkəmli Azərbaycan memarı Oddessaya, Aşqabada dəvət olunmuş və orada məsçidlər tikmişdir. Həsən İxva Əlizadənin, Şamil Fətəliyevin tədqiqat-

larına və Səfixanın nəticəsi Böyükkişinin şahidliyinə əsasən demək olar ki, Kərbəlayi Səfixan 1910-cu ildə 122 yaşında ikən Şuşanın Saatlı məscidini təmir edən zaman yıxılmış və vəfat etmişdir. Üç əsrin canlı şahidi olmuş memar Şuşadakı «Mirzə Həsən» qəbiristanlığında dəfn edilib.

Şuşa mərkəzi meydanın memarlıq ansamblında hakim mövqedə duran binalardan biri də Yuxarı Gövhərağa məscididir. Həmin məscidi də Kərbəlayi Səfixan tikmişdir. Yuxarı Gövhərağa məscidi həm Ağdam məscidinin, həm də Aşağı Gövhərağa məscidinin konstruksiyasına uyğun tikilmişdir.

Bəhs etdiyimiz dövrlərdə, Şuşada 17 məhəllə var idi. Bunlardan səkkizi yuxarı məhəllədə (Mir, Saatlı, Köçərli, Mamay, Xoca-Mircanlı, Dəmirçi, Hamam qabağı, Təzə məhəllə), doqquzu isə aşağı məhəllədə (Qurdlar, Seyidli, Culfalar, Toyluq (Quyuluq), Çuxur, Dördlər, Hacı Yusifli, Dörd Çinar, Çölqala) yerləşir. Bütün məhəllələrin hamısında Kərbəlayi Səfixanın «izi» qalmışdır. Çölqala, Saatlı, Təzə məhəllə, Mamay, Çuxur, Culfalar, Hacı Yusifli və Quyuluq məhəllələrindəki məscidlər Kərbəlayi Səfixanın adı ilə bağlıdır. Kərbəlayi Səfixanın «daş qələminin izləri» təkcə məscidlərdə deyil, ictimai binalarda və fərdi yaşayış evlərində də görünür. Xurşudbanu Natəvanın, Gövhər Ağanın, Bəhman Mirzənin, Uğurlu bəyin, Mehmandarovun, Hacı Dadaşın, Hacı Bəşirin, Mirzəli bəyin və başqalarının saray tipli yaşayış binalarının inşası Kərbəlayi Səfixanın adı ilə bağlıdır. K.Səfixan təkcə binaları inşa etmirdi, o həm də təmir və yenidənqurma işlərində də iştirak etmişdir. Aparılan tədqiqatlara əsasən müəyyən edilib ki, Kərbəlayi Səfixan təkcə Şuşada deyil, qonşu Ağdamda, Fizulidə, Təbrizdə, Bərdə və başqa ərazidə məscidlər, yaşayış binaları inşa etmişdir. Azərbaycanın görkəmli memarı Kərbəlayi, Səfixanın xidmətlərindən biri də ondan ibarət olmuşdur ki, o, özündən əvvəl fəaliyyət göstərmiş Təbriz, Naxçıvan, Aran və başqa müsəlman ərazilərinin memarlıq məktəblərinin yaradıcılığı ilə yaxından tanış olmuş, öyrənmiş və öyrəndiklərini Şuşada açdığı məktəblərdə gənc memar və inşaatçılara öyrətmişdir. Kərbəlayi Səfixanın yaradıcılıq dairəsi təkcə Qarabağla kifayətlənməyib. O

müsəlmanların yaşadığı Odessa ərazisində «Tatar məscidini», Aşqabadda «Qarabağlar» məscidi»n inşa etmişdi. XX yüzilliyin əvvəllərində Şuşada tikinti abadlıq işlərinin geniş vüsət alması şəhərin memarlıq görkəmini xeyli dəyişmişdir.

XX yüzilliyin əvvəllərində Şuşada tikilmiş hər binanın inşasında yerli tikinti materiallarından istifadə edilmiş, xalq memarlığının mütərəqqi milli ənənələri və yerli iqlim şəraiti həmişə diqqət mərkəzində saxlanılmışdır.

Beləliklə, XX yüzilliyin əvvəllərində Şuşada kapitalizmin coşqun inkişafı mədəni inkişafa da öz təsirini göstərdi. Şuşa şəhəri Azərbaycanın inkişaf etmiş mədəni mərkəzlərindən birinə çevrildi. Çarizmin müstəmləkəçilik və xristianlaşdırma siyasətinə baxmayaraq Şuşada mədəniyyətimizin tərəqqipərvər xadimlərinin bütöv bir nəsli yarandı. M.M.Nəvvab, H.Qarabaği, Ə.Haqverdiyev, S.S.Axundov, Y.V.Çəmənzəmənli, N.B.Vəzirov, Ə.H.Ağayev, Y.B.Məlikhaqnəzərov, C.Qaryağdıoğlu, M.B.Behbudov, Sadıqcan, Ü.Hacıbəyov, F.Əmirov, Ə.Zülalov, M.Ə.Əmiraslanov, M.M.Fərzəliyev, H.Malıbəyli, Keçəçi Məhəmməd, Q.İ.Abdullayev, M.Ə.Muxtarov, L.Kərimov, K.Səfixan və başqaları Şuşada mədəniyyətin inkişafında (maarif, elm, mətbuat, ədəbiyyat, rəssamlıq, teatr, musiqi, memarlıq, rəssamlıq, təsviri incəsənət və s.) misilsiz xidmətlər göstərmiş və Azərbaycanı bütün dünyada tanıtmışlar. Şuşanın mədəni inkişafı, yeni tipli məktəb və mədəni-maarif müəssisələrinin, milli mətbuatın, teatrın yaranması, əhalinin qabaqcıl ziyalılarının xalqın milli şüurunun oyanmasına ideya təsiri XX yüzilliyin əvvəllərində mədəniyyətin başlıca xarakterik xüsusiyyətləri hesab olunurdu.

# IX FƏSİL

## ŞUŞADA MÖVCUD QURULUŞA QARŞI ÇIXIŞLAR. ŞUŞA TƏTİLLƏRİ (1900-1917)

Rusiyanı əhatə edən 1900-1903-cü illər sənaye böhranı imperiyanın müstəmləkəsi olan Azərbaycana və onun bütün qəzalarına, o cümlədən Şuşa iqtisadiyyatına və əhalisinin güzəranına mənfi təsir etdi. Müəssisələrin çoxu bağlanmış, işsizlik, iqtisadi böhran hökm sürürdü. Şuşanın sənaye müəssisələrində işsizlərin sayının artmasına baxmayaraq, məqsədli şəkildə Rusiyadan bölgəyə ruslar gətirilir və işlə təmin edilirdilər. Bu hal isə onsuz da ağır olan fəhlələrin vəziyyətini daha da ağırlaşdırırdı. Fəhlələr bir sutka ərzində 12-14 saat işləyir və cüzi əmək haqqı alırdılar. Şuşanın sənaye müəssisələrində çalışan fəhlələrin orta aylıq əmək haqqı (gündəlik 55 qəpikdən – 20 qəpiyədək) 35 qəpiyə çatmışdı. Bir ayda, təxminən, 10-11 manat pul alan fəhlələrin əmək haqqı böhran dövründə 20-25 faiz azaldı. Heç bir səbəb olmadan fəhlələr qeyri-qanuni cərimə olunurdular. Fəhlələrin iş və mənzil şəraiti dözülməz halda idi. Müəssisələrdə sanitariya qaydalarına əməl edilmirdi. Müəssisələrdə ağır bədən xəsarəti alan fəhlələrə heç bir güzəşt verilmirdi. Fəhlənin aldığı cüzi əmək haqqı çox hallarda cərimə şəkildə ondan geri alınırdı. Eyni zamanda, fəhlələrə verilən əmək haqqında onların milli fərqləri də nəzərə alınırdı. Eyni şəraitdə, eyni həcmdə, eyni saatda işləyən azərbaycanlının əmək haqqı nədənsə bölgəyə yenicə köçürülənlərin əmək haqqından aşağı idi. Belə bir şərait fəhlələrin siyasi cəhətdən formalaşmasına səbəb olmuş və inqilabi hərəkatın, tətillərin baş verməsini zəruriləşdirmişdi. Eyni zamanda, Şuşanın sənaye müəssisələrinə Rusiyadan yüzlərlə tətil təcrübəsinə malik olan peşəkar inqilabçılar daxil olmuşdular ki, onlar fəhlələr arasında «xoş gələcəyə» inam (sosializm nəzərdə tutulurdu) ideologiyası yayır və onları tətilə çağırırdılar. 1901-1903-cü illərdə Şuşada bir sıra dərnək və qruplar meydana gəldi. Bununla yanaşı, xalqın içərisində məktublar, vərəqlər və intibahnamələr də yayılırdı. Çar

Rusiyasının müstəmləkəçilik siyasətindən cana doymuş saf ünsürlər — tələbələr, sənətkarlar və fəhlələr həmin dərnəklərdə birləşirdilər.

1903-cü ilin iyulunda Bakıda baş verən ümumi tətil bir sıra şəhərlərin fəhlələrinə də təsir etdi. O cümlədən Şuşada iyul tətili daha mütəşəkkil xarakter almışdı. Tətildə realnı məktəbinin tələbələri və sənaye müəssisələrinin fəhlələri iştirak edirdilər. Şuşa tətilçiləri iqtisadi tələblər irəli sürürdülər: 8 saatlıq iş günü, həbs edilənlərin azadlığa buraxılması, işdən qovulanların işə qaytarılması, əmək haqqının artırılması, fəhlələrə qarşı nəzakətli rəftar edilməsi, işdə şikəstliyə görə onlara müavinat verilməsi, mənzil şəraitinin yaxşılaşdırılması və sair. Şuşa ipək emalı müəssisəsinin sahibi əmək haqqını artıracağına söz verdi. Lakin onların tələblərinin çoxu ödənilmədi. Tətilçilər güclü polis dəstələrinə müqavimət göstərsələr də məğlub oldular. Tezliklə, Şuşada güclü polis nəzarəti həyata keçirildi. Məğlub olmasına baxmayaraq Şuşada baş vermiş 1903-cü il iyul tətilinin böyük əhəmiyyəti oldu. Belə ki, tətilçilər 1903-cü il iyul tətilindən təcrübə əldə etdilər. Fəhlələrin siyasi mütəşəkkilliyi artdı. Tətil hökumətə anlatdı ki, fəhlələr böyük siyasi qüvvədir. 1903-cü il iyul tətili fəhlələri gələcək mütəşəkkil mübarizəyə hazırladı.

XX yüzilliyin əvvəllərində Çarizmin müstəmləkəçilik və ruslaşdırma siyasətinin davamı olan köçürmə siyasəti Şuşa kəndlisi üçün ağır nəticələr verdi. Minlərlə rus ailəsinin kəndlərə köçürülməsi, yerli əhalinin əlindəki münbit torpaqların onların əllərindən alınması, əraziyə yeni köçürülənlərə paylanması yerli əhalinin hüquqlarının pozulması, aztorpaqlı və torpaqsız kəndlilərin sayının artması və nəticədə aclıq, yoxsulluq, qıtlığa səbəb olmuş, bu isə, öz növbəsində, kəndlilərin öz etiraz səslərinin ucalmasına gətirib çıxarmışdır. Aparılan tədqiqatlara əsasən demək olar ki, XX yüzilliyin əvvəllərində Şuşada 4 mindən çox kəndli, torpağı əlindən alındığına görə iş axtarmaq üçün şəhərə üz tutmuşdu.

XX yüzilliyin əvvəllərində kəndlilərin narazılığının digər bir səbəbi onların bir hissəsinin torpaq payının azlığı və onlar üzərinə qoyulan vergilərin ağırlığı ilə bağlıdır. Belə ki, XX

yüzilliyin əvvəllərində Şuşanın kəndlərində tədricən ictimai təbəqələşmə prosesi artırdı. Kənd əhalisi iki təbəqəyə — torpağın çoxunu əllərində cəmləşdirən varlı kəndlilər, mülkədarlar, bəylər; aztorpaqlı və torpaqsız kənd yoxsullarına bölünürdü. Kəndlilər özləri də 2 qrupa bölünürdülər: sahibkar və dövlət kəndlilərinə. Dövlət kəndlilərinin isə torpaq payı az idi. Sahibkar və dövlət kəndliləri dövlətə çoxsaylı vergilər verirdilər. Bu ağır vergilər isə kəndliləri var-yoxdan çıxardırdı. Ona görə də çətin vəziyyətdən cana doymuş kəndlilər onları istismar edənlərə qarşı mübarizə edirdilər.

Kəndlilərin mübarizəsi özünü müxtəlif formalarda göstərirdi: çar məmurlarının, vergiyığanların özbaşınalığından şikayət ərizələri yazır, vergi verməkdən və mükəlləfiyyət daşımaqdan boyun qaçırır, sahibkarlara məxsus torpaqları ələ keçirir, bəylərin evlərinə, malikanələrinə hücum edir, onları dağıdır, yandırır, sahibkarı öldürür, meşələri qırır bir sıra hallarda isə silaha əl atırdılar. Mübarizə formalarından biri də, çar Rusiyasının müstəmləkəçilik siyasətinə tab gətirməyib kəndliləri öz ətrafında toplayaraq qaçaq düşüb zülmkarlara qarşı silahlı mübarizə aparmaq olmuşdur. XIX yüzilliyin sonlarından başlayaraq, XX yüzilliyin əvvəllərində də davam edən Şuşa qaçaqlarından Qaçaq Məmməd bəy Kavalerin adını xüsusi qeyd etməliyik.

Qaçaq Məmməd Kavaler haqqında material hazırlanarkən Mir Möhsün Nəvvabın «Təzkireyi-Nəvvab» kitabından, Qaçaq Məmməd dövründə yaşamış Sadıq Əsəd oğlunun (1846-1902) yazılarından, Şuşanın tanınmış din xadimi, ədibi və şairi Mir Cəlal Əfəndinin şuşalı ağsaqqallara söylədiyi xatirələrdən, İstanbulda yaşayan pedaqoq, alim Hüseyn Mirzəcamalovun yazılarından və ən nəhayət, 1904-cü ildə Şuşada anadan olmuş və 1927-ci ildən təqiblər ucbatından Türkiyədə yaşamağa məcbur olan Hüseyn Baykaranın yazdıqlarından istifadə edilmişdir.

Qaçaq Məmməd Kavaler Şuşanın Çuxur məhəlləsində anadan olmuşdur. Məmməd Şuşada yaşamış, öz dövrünə görə mükəmməl mədrəsə təhsili almış bir dindar — sufi, şair idi. Şuşada böyüyüb boya başa çatan Məmməd ərəbcə, farsca mükəmməl bilirdi. Məmmədin Sufi təxəllüsü ilə yazdığı şerlər

dövrümüzə qədər gəlib çatmışdır. Məmmədin atası Şirin bəy, anası Tükəzban xanım heç vaxt haqqı nahaqqa verməzdilər. Məmmədin 4 qardaşı, 1 bacısı var idi. Onun Həsən adlı qardaşı çar Rusiyasına qarşı Şuşada gedən mübarizədə iştirak etmiş və həbs edilərək öldürülmüşdür. Qardaşlarından ikincisi Taki bəy isə 1905-ci ildə Vladiqafqazdan Şuşaya gələrkən Bakıda ermənilər tərəfindən öldürülüb.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Şuşada hökm sürən ağır iqtisadi böhran millət, xalq qədri bilən Məmmədi sakit buraxmadı. Aclıq, yoxsulluq, qıtlıq onsuz da alıcılıq qabiliyyətinə malik olmayan şuşalıları baha qiymətə satılan Avropa və Rus malları (baha olduğundan) almaqdan tamam məhrum etmişdi. Bunu görən Məmməd İrandan qaçaq yolu ilə sənaye və ərzaq məhsulları gətirmək, onsuz da ağır olan şuşalıların vəziyyətini bir az yaxşılaşdırmaq niyyətinə düşdü. İran Azərbaycanından qaçaq yolu ilə gətirilən məhsul həm keyfiyyətli, həm də ucuz idi. Qaçaq Məmməd Kavaler qaçaqçılıq işini elə bir şəkildə təşkil edirdi ki, şuşalılar bəhrələnir, çar xəzinəsi isə böyük zərər çəkirdi. Ona görə də, çar məmurları Məmmədin dəstəsini məhv etmək niyyətinə düşür. Lakin gedən döyüş Qaçaq Məmmədin qələbəsi ilə başa çatır. Məmmədin dəstəsi gündən-günə artırdı. Qaçaq Məmməd əldə etdikləri nə varsa hamısını Şuşanın aclıqdan əziyyət çəkən əhalisinə paylayırdı. Ələkeçməz dəstə həm də güclənərək məğlubedilməz olmuşdu. Bunu görən çar hökuməti siyasətə əl atır. Onun üzə çıxması, bağışlanılması vəd edilir. Qaçaq Məmmədə Kavaler-kapitan rütbəsi verilir və aylıq maaş təyin edilir. Bundan sonra, Qaçaq Məmməd, «Kavaler» ləqəbi ilə çağırılır. Məmmədin ailəsi isə «Kavalerlər» adlandırılırdı. Lakin Məmmədin «üzə çıxması» uzun müddət davam etmir. O, xalqın ağır vəziyyətinə dözməyib yenidən dağlara çəkilir, çar hökumətinə qarşı partizan mübarizəsinə başlayır. Qaçaq Məmməd Kavaler rus, kazak və straniklərə qarşı mübarizə aparmaqla yanaşı, ruslara canla-başla xidmət edənlərə də qarşı çıxırdı. Onların əlindən olan külli miqdarda vəsaiti alıb yoxsul, ac adamlara paylayırdı.

Qaçaq Məmməd döyüşlərdən birində yaralanaraq tutulur və Sibirə sürgün edilir. Ömürlük həbsə məhkum edilən Qaçaq Məmməd Kavaler sürgündən qaçaraq yenidən Şuşaya gəlir və dəstəsini ətrafında toplayaraq qaçaqlıq edir.

Qaçaq Məmməd Kavalerin Şuşa şəhərindəki ata evinə tez-tez çar qoşunlarının basqını olurdu. Hər dəfə hücum olanda evdə olan bütün əşyalar aparılardı. Məmmədin atasının anası Mehparə xanım və anası Tükəzban xanım rus çinovniklərinə öz etirazlarını bildirirdilər. Namuslu, ismətli, vətənpərvər Mehparə ananın ruslara söylədiyi aşağıdakı sözlər bu gün də şuşalıların çoxunun yaddaşına həkk olub: «Bu yerlər Məmmədin öz torpağıdır, ürəyi istədiyini edə bilər. Axı siz urussunuz, bizim urus İvannan, Nikalaynan ki, qohumluğumuz yoxdur. Siz burada nə gəzirsiniz? Niyə öz yerinizə, torpağınıza getmirsiniz?» Əlbəttə, bu sözlər namuslu şuşalı anasının rusların işğalçı olduğunu onların üzünə qorxmadan söylədiyi dərin mənalı sözlərdir.

Çar qoşunları ilə aparılan döyüşlərin birində mühasirəyə düşüb yaralanan Qaçaq Məmməd tutularaq Şuşa həbsxanasına salınır. Bir gün fürsətdən istifadə edərək həbsxanadan qaçmağa cəhd edərkən Qaçaq Məmmədi həbsxana gözətçiləri güllə ilə vururlar. Ağır yaralanan Qaçaq Məmməd üzü üstə yerə yıxılır. Anası Tükəzban xanım da bu xəbəri eşidib hadisə yerinə gəlir. Hadisə yerinə gələn Tükəzban xanım oğlu Məmmədin üzü üstə yıxıldığını və inildədiyini görür. Ətrafdakı gözətçi və çinovniklər isə prokurorun gəlməsini gözləyirdilər. Bu mənzərəni görən Tükəzban xanım Şuşa camaatı qarşısında oğlu Məmmədi məzəmmət edərək deyir: «Məmməd niyə inildəyirsən? İnildəyib düşməni sevindirmə. Bu urus yarasından ölsən, südümü sənə halal etmərəm!» Doğrudan da, məğrur ananın qətiyyətli, səmimi sözləri Məmmədin yaralarına məlhəm oldu. Qaçaq Məmməd sağaldı və 20 il Sibrə sürgün edildi. Lakin o, 2 il sürgündə qaldıqdan sonra qaçıb Şuşaya gəldi və haqq işi uğrunda öz mübarizəsini davam etdirdi.

Qaçaq Məmməd Kavaler XX yüzilliyin əvvəllərində (ili dəqiq məlum deyil) meşədə yatdığı yerdə öldürülür.

Beləliklə, savadlı, ağıllı, cəsur və igid şuşalı balası Qaçaq Məmməd Kavalerin qaçaqlığı dillər əzbərinə çevrilmişdi. Qaçaq Məmməd Kavaler mətinliyi, cəsurluğu, qətiyyətliyi, etibarlığı, xeyirxahlığı hər bir azəri övladına bir örnək olmalıdır.

1904-1905-ci illəri əhatə edən Rus-Yapon müharibəsində Rusiyanın məğlubiyyəti, Rusiyanın özündə və müstəmləkələrində vəziyyəti yenidən kəskinləşdirdi. Bu vaxt Azərbaycanda ümumi iqtisadi və siyasi vəziyyət mürəkkəb xarakter aldı.

1904-cü il dekabr Bakı tətili Azərbaycanın ucqarlarında, o cümlədən ziddiyyətlərin daha çox kəskin xarakter aldığı Şuşa şəhərində əks səda verdi. Qubernator həmin vaxt mərkəzə verdiyi məlumatlarında göstərirdi ki, Zaqafqaziyada əhalinin say çoxluğuna görə Şuşa, bu gün daha çox qartal yuvasını xatırladır. Şuşalılar ətraf yerlərin əhalisi ilə üzvü sürətdə əlaqə yaratmaqla bərabər Rusiyanın və xarici ölkələrin şəhərləri ilə də əlaqə saxlayırlar. Artıq bu gün Şuşanı Zaqafqaziyanın ən təhlükəli yanğın ocağı hesab etmək olar».

Doğrudan da, 1904-cü ildə Şuşada xalqın səbir kasası o dərəcədə daşmışdı ki, əhali mütləqiyyət əleyhinə təkcə iqtisadi tələblər deyil, siyasi tələblər də irəli sürürdülər. Həmin vaxt tələbələri, sənətkarları, kəndliləri birliyə səsləyən intibahnamələr yayılırdı.

1904-cü il martın 1-də Şuşada Xandəmirovun teatrında Qırmızı aypara Cəmiyyətinin xətti ilə keçirilən ədəbi musiqi gecəsi zamanı zala «Məhv olsun mütləqiyyət», «Yaşasın demokratik müstəqil Azərbaycan» xitabnaməsi atılmışdır. Yoxlama zamanı müəyyən edilmişdir ki, həmin vərəqələr Şuşa realnı məktəbinin tələbələri tərəfindən yazılmışdır. Yeri gəlmişkən onu da qeyd edək ki, Şuşa realnı məktəbində Əli Babayev daha böyük nüfuza malik idi və təşkilati işlərə bilavasitə rəhbərlik edirdi.

1904-cü ildə Şuşada müəssisə sahibləri ilə fəhlələr arasında narazılıq vaxtaşırı xarakter almışdı. Fəhlələrin xırda tətilləri və etirazları adi bir hala çevrilmişdi. 1904-cü ilin martında Şuşa şəhərində fəhlələrin, sənətkarların və tələbələrin böyük mitinqi oldu. Mitinqdə 15 müxtəlif məzmunlu şüarlar səsləndirildi.

Tətilçilər «rədd olsun müharibə», «rədd olsun mütləqiyyət» və sair şüarlarla çıxış edirlər.

1904-cü il dekabrın 30-da Bakı fəhlələrinin ümumi tətili oldu ki, həmin tətil neft sənayeçiləri ilə fəhlələr arasında «müştərək müqavilə» imzalanması ilə başa çatdı.

Rusiyada baş vermiş olan 1905-ci il 9 yanvar «Qanlı bazar» hadisəsi tezliklə Azərbaycanda, o cümlədən Şuşa bölgəsində daha böyük əks-səda verdi. 1905-ci il yanvarın 25-də Şuşanın ipək emalı müəssisələri fabriki fəhlələrin tətili oldu. Şəhər realnı məktəbinin tələbələri də tətilçilərə qoşuldular. Tətil polis və əsgərlərin gücü ilə dayandırıldı. Şuşada baş verən tətil Ali hakimiyyət orqanlarını çox narahat edirdi. Çarizm Şuşa tətillərini dayandırmaq və tətilçilərin gücünü zəiflətmək üçün vaxtaşırı istifadə etdiyi «parçala, zəiflət, hökm sür» siyasətindən yenidən istifadə etdi. Şuşada millətlərarası qırğın törədildi. Çar hökumətinin təhriki və ermənilərin əli ilə minlərlə azərbaycanlı qarət olundu və qətlə yetirildi. Şuşada çar hökuməti hərbi vəziyyəti gücləndirdi. Hərbçilərin sayı artırıldı. Lakin çar hökumətinin həyata keçirdiyi tədbirlər xalq hərəkatının qarşısını ala bilmədi. 1905-ci ilin əvvəllərində Şuşada inqilabi hərəkat daha da genişləndi. Həmin il fevralın 10-da Şuşa realnı məktəbinin tələbələrinin tətili oldu. Səhər saat 10-da başlanan tətildə tələbələrin hamısı iştirak edirdi. Fevralın 11-də tətilə Marinskoe uçiliş... məktəbinin qızları da qoşuldular. Marinski və şəhər məktəblərində əvvəlki vəziyyət tez bərpa olunsa da, realnı məktəbində vəziyyət daha da ciddi şəkil almışdı. Şagirdlər 10 bənddən ibarət olan tələblər hazırladılar ki, həmin tələblər içərisində ən əsası dərslərin ana dilində keçirilməsi idi.

Bəhs etdiyimiz dövrdə, Şuşada xalq içərisində vərəqlər yayılırdı ki, həmin vərəqlərin birindən oxuyuruq: «Dilənçilik, cahillik, kobudluq və hüquqsuzluq — budur bizim həyatımız. Biz gün çıxandan, gün batanadək işləyirik... Lakin biz, öz taleyimizin qarşısında nə qədər müti oluruqsa, bir o qədər də bizə çox zülm edirlər. Biz nə qədər çox işləyiriksə, öz şəxsi əməyimizin bəhrəsindən bir o qədər az istifadə edirik. Bizim

əməyimizdən çar hökuməti bəhrələnir». Xalq başa düşürdü ki, çar hökuməti onların vəziyyətini yaxşılaşdırmayacaq.

1905-ci ilin yazında Azərbaycanda inqilabi hərəkat daha da genişlənirdi. Martın 19-da Gəncə, Bakı, Hacıqabul, Kürdəmir, Yevlax, Ağstafa dəmiryolçularının tətili oldu və bu tətil 12 gün davam etdi. Martın 31-də 400 fəhlə həbs edildi və tətil çar qoşunlarının gücü ilə yatırıldı. Lakin 1905-ci il aprelin 30-da və mayın 1-də Bakı fəhlələrinin ümumi tətili yenidən başladı. 1 may nümayişi Şuşada da mütəşəkkil keçirilmişdi. 1905-ci il mayın 1-də Şuşanın kəndlərində də nümayişlər keçirilmişdi. Həmin vaxt Şuşadan mərkəzə daxil olan sənədlərin birində oxuyuruq: «Qafqaz ölkəsini bürümüş hərəkat bizə də toxunmuşdur. Tətil və nümayişlər Şuşada qayda-qanun üzrə keçirilir. Biz gələcəyə ümidlə baxır və əsarətdən azad olacağımıza inanırıq».

1905-ci il mayın 10-da Şuşada başlanan yeni tətil az bir vaxt ərzində onlarla müəssisəni əhatə etdi və ümumi tətilə çevrildi. Şuşa fəhlələri sahibkarlara siyasi və iqtisadi tələblərdən ibarət tələbnamə təqdim etdilər. Tələblərin bir hissəsi yerinə yetirildi və mayın 19-da tətil yatırıldı.

1905-ci ilin iyun-iyul aylarında Şuşanın sənaye müəssisələrinin, təxminən, 75 faizini tətil dalğası bürüdü. 1905-ci il iyunun 28-də tətilçilər arasında yayılan vərəqlərdən birində (arxivdə saxlanılan materialdan) oxuyuruq: «Milli qırğın dəhşətlərinə son qoyun! Bəsdir, bizi məhv edə bilən, lakin çarizmin faydasına olan ayrı-seçkilik siyasəti. İrqindən, dinindən, mənsubiyyətindən, cinsindən asılı olmayaraq birləşərək bizi əzən məngənəni (çar Rusiyası nəzərdə tutulur — M.N.) məhv etməliyik...»

1905-ci ilin iyununda Şuşa fəhlələri tətilə başladılar. Tətilçilər «bütün zəhmətkeşlərə» başlığı altında «intibahnamə» irəli sürdülər. Həmin «intibahnamə»də 17 maddədən ibarət tələblər irəli sürülmüşdü. Şuşa tətilçilərinin tələblərinin əksəriyyəti siyasi xarakter daşıyırdı: «8 saatlıq iş günü, şəxsiyyətin toxunulmazlığı, vicdan, söz, mətbuat, yığıncaq, tətil və ittifaq azadlıqları, bütün vətəndaşların cinsindən, dinindən, irqindən və milliyyətindən asılı olmayaraq, hüquq bərabərliyi və silk

qanununun ləğvi, əhaliyə dövlət hesabına öz ana dilində təhsil almaq hüququ və sair...» Şuşada baş verən iyun tətili, onun iştirakçılarının tələbləri ilə sahibkarların vədləri ilə üst-üstə düşsə də, davam etməkdə idi.

1905-ci ilin iyununda Şuşada «Difai» (müdafiəçi) təşkilatı yaradıldı. Təşkilata ziyalılardan G.Mehmandarov, Ə.Ağayev, M.Hacınski və başqaları rəhbərlik edirdilər. Onlar xalqı başa salırdılar ki, ictimai-iqtisadi formasiyanı dəyişmək mövcud vəziyyətdən çıxış yolu deyildir. Onlar bildirirdilər ki, bütün bəlaların mənbəyi müstəmləkə əsarətində olmağımızdır. «Difai» təşkilatı daşnak partiyasına qarşı xüsusi, ciddi mübarizə aparmalı olmuşdu. 1905-ci il iyunun 26 Şuşada buraxılan «Üsyanla oyun» başlığı altında vərəqdə göstərilirdi ki, «daşnaklar Şuşada olan siyasi nümayiş və yığıncaqlara manc olmağa, çalışırdılar. Daşnakların bu hərəkətindən nəticə çıxarın: İstismar, zorakılıq və əsarətdən xilas olmağın yeganə yolu bizim birliyimizdir. Məhv olsun istismar, əsarət və zorakılıq!»

1905-ci il iyulun 1-də Şuşa tətilçilərinin «Proletarı» qəzetinə göndərdiyi məktubda deyilirdi ki, daşnaklar Şuşadakı tətilçiləri inqilabi işdən uzaqlaşdırmağa can atırlar, lakin tətil komitəsi bu işdə xalqı ayıq olmağa, ümumi düşmənə qarşı birliyə səsləyir.

1905-ci il iyulun 13-də Şuşa qəzasındakı ipək emalı fabriklərinin və digər müəssisə fəhlələrinin ümumi tətili oldu. Tətilçilər 1905-ci ilin iyununda irəli sürdükləri, lakin həyata keçirilməyən «17 maddə»dən ibarət tələbləri yenidən irəli sürdülər. Həmin tələbnamədə iş gününün qısaldılması, əmək haqqının artırılması, iş şəraitinin yaxşılaşdırılması, fəhlələrlə qaba rəftar edilməsinə son qoyulması və sair tələblər irəli sürülmüşdü.

1905-ci ilin iyununda yaradılmış Şuşa sosial-demokratlar qrupu Şuşada keçirilən tətillərin ümumi şəkil almasında mühüm rol oynamışdır. RSDFP Şuşa qrupu Bakıda, Azərbaycan və erməni dillərində çıxan «Dəvəti-Qoç», «Təkamül», «Yoldaş», «Opep», «Norxosk» və başqa adlarda çıxan qəzetləri alıb şuşalılar arasında yayırdılar. Tətil günlərində xalqı mübarizəyə

çağıran «Çağırış», «Bütün zəhmətkeşlərə», «Tətil oyunu» başlıqları altında bir sıra vərəqələr buraxıldı. Lakin bu dövrdə, Şuşada tətil əleyhinə və anti-Azərbaycan təbliğatı aparan «Daşnaksutyun» partiyasının fəaliyyəti Şuşada tətillərin zəiflənməsinə səbəb olmuşdur. «Daşnaksutyun» partiyasının üzvləri məqsədli şəkildə tətil rəhbərliyinə soxulub fəhlələri aldatmış, bu isə, öz növbəsində Şuşa tətillərinin zəiflənməsinə və uğursuz qurtarmasına səbəb olmuşdur. Həmin dövrdə, Şuşada yayılmış intibahnamələrin birində göstərilirdi ki, daşnakların, şuşalılar üçün çox baha başa gələn dərsindən nəticə çıxarın, onların məqsədləri bizə məlumdur və siz öz dostunuzla düşməninizi seçin.

1905-ci il avqustun 16-21-də Şuşada ermənilərin azərbaycanlılara qarşı qırğın və talanları başlandı. Bu hadisə isə Şuşada bir sıra müəssisələrin fəaliyyətinin dayanmasına, fəhlələrinin fabrikləri tərk etməsinə səbəb oldu. Artıq 1905-ci ilin sonlarında Şuşa ipək emalı müəssisələrinin sayı 2 dəfə azalmış, (24-dən 12-yə) fəhlələrin sayı isə 1036-dan (1903-cü il məlumatı) 682 nəfərə enmişdir.

1905-ci ilin oktyabrında Şuşada tətil hərəkatı davam etməkdə idi. Oktyabrın 16-da Şuşa sənaye müəssisəsi fəhlələrin tətili yüzlərlə fəhləni öz ətrafında birləşdirdi. 1905-ci il oktyabrın 17-də çar hökuməti «Manifest» verməyə məcbur oldu. Həmin «Manifest»də çar hökuməti söz, mətbuat, yığıncaq və ittifaq azadlıqlarını tətbiq edəcəyini və qanunverici Dumaya seçkilər keçirəcəyini vəd etdi. Çarın «Manifest»indən sonra «Hümmət» təşkilatının çağırışı ilə oktyabrın 19-da Şuşada minlərlə adamın iştirak etdiyi siyasi nümayiş keçirildi. Nümayişçilər, iqtisadi tələblərlə yanaşı, siyasi tələblər də irəli sürdülər. Onların səsləndirdiyi şüarlar içərisində «Rədd olsun mütləqiyyət!», «Yaşasın azadlıq» və sair var idi. 1905-ci il oktyabrın 19-da başlayan Şuşa tətilləri oktyabrın 24-dək davam etdi. 1905-ci il oktyabrın axırlarından başlayaraq Şuşa fabriklərində fəhlə komissiyaları təşkil olunurdu.

1905-ci il dekabrın 7-i Moskvada başlanan silahlı üsyan Azərbaycan fəhlələrinə güclü təsir göstərdi. 1905-ci il dekabrın

10-da Şuşada başlanan tətil həmin ayın 24-dək davam etdi. Göründüyü kimi, Şuşada fəhlələrin tətilləri getdikcə artır və hətta bütün müəssisələri əhatə edirdi.

Şuşa şəhərində tətil mübarizəsinin gücləndiyini görən çar Rusiyası orada xüsusi polismeystirlik yaratmaq üçün tədbirlər gördü. 1905-ci ildə Gəncə qubernatoru öz hesabatında yazırdı ki, Şuşada ayrıca polismeysterlik təşkil etmək haqqında layihə çoxdan hazırlanmış və başqa lazımı işlər görülmüşdün. Digər materiallarında arxiv isə göstərilirdi ki, çar Rusiyası xalqı inqilab və tətillərindən uzaqlaşdırmaq üçün bütün yollardan, hətta silahdan da istifadə etməli idi. 1905-ci ilin dekabrından Şuşa şəhərinə «sakitliyi bərpa etmək» üçün əlavə qüvvələr göndərilmişdi.

Beləliklə, 1905-ci il Şuşa tətilləri silah gücünə yatırıldı. Eyni zamanda, çar Rusiyası Şuşada tətili zəiflətmək məqsədilə millətlərarası ədavət «toxumu səpdi». Hansı ki, bu hadisə haqda biz aşağıda ayrıca bəhs edəcəyik.

Çar hökumətinin amansız tədbirləri nəticəsində Şuşada kütləvi həbslər keçirilsə də, tətil iştirakçılarına vəhşicəsinə divan tutulsa da, bütün bu kimi mənfur tədbirlər şuşalıların mübarizə əzmini qıra bilmədi. 1906-1907-ci illərdə Şuşada xalq hərəkatı yeni qüvvə ilə davam edirdi. 1906-cı ilin yaz və yayında Şuşada tətil hərəkatının dalğası getdikcə gücləndi. Belə bir vəziyyətdə, çar hökuməti tətillərin qarşısını almaq üçün xalqı aldatmaq mövqeyini tutdu. Hökumət vəd edirdi ki, Duma çağırıb, orada bütün məsələləri həll edəcəkdir. Belə bir şəraitdə qabaqcıl milli ziyalılarımız Şuşada Dövlət dumasına seçkilərdə iştirak etmək əleyhinə təşviqat aparır, intibahnamələr yayırdılar. Onlar yaydıqları intibahnamələrdə Şuşadakı mövcud siyasi vəziyyəti təhlil edir və qarşıdakı vəzifələri göstərirdilər. Aparılan təşviqat-izahat işləri nəticəsində, Şuşa şəhərində fəhlələr Dövlət Dumasına seçkiləri baykot edirdilər.

XX yüzilliyin əvvəllərində Şuşada milli azadlıq hərəkatının tərkib hissəsi kimi, kəndli hərəkatı da, genişləndi. Yuxarıda qeyd etdiyimiz kimi kəndli hərəkatı özünü müxtəlif formalarda göstərirdi: hökumət sərəncamlarını yerinə yetirməkdən boyun

qaçırmaq, vergi vermək və mükəlləfiyyətlər yerinə yetirməkdən imtina etmək, meşələri və otlaqları zəbt etmək, çar məmurlarına, kazaklara və bəylərə qarşı silahlı müqavimət göstərmək və sair. 1905-ci ildə Şuşada Abasqulu bəyin və Rəhim bəyin silahlı dəstələri ilə kəndlilər arasında silahlı toqquşmalar baş verdi. Kəndlilərdən bir neçə nəfəri öldürüldü. Qarabağın başqa ərazilərində də, bu cür silahlı toqquşmalar tüğyan edirdi. Məsələn, 1905-ci ildə Dəllər və Albaşlı kəndlərində kəndlilər qolçomaqların mülklərini dağıtmışdılar. Bunun əvəzində isə, Dəllər və Albaşlı kəndləri çar qoşunları tərəfindən atəşə tutulmuş və evlər dağıdılmışdır. 1905-ci ilin avqustunda kəndlilər Əbdürrəhim bəy Kərimbəy oğlunu öldürüb naxırını və qoyun sürülərini ələ keçirmişdilər. Şuşa kəndliləri bəylərin silahlı dəstələrinə ciddi müqavimət göstərirdilər. Onlar toplarla silahlanmış hökumət qoşunlarının və torpaq sahiblərinin həmlələrini böyük mərdliklə dəf edirdilər.

XX yüzilliyin əvvəllərində Qarabağda silahlı kəndli dəstələri torpaq sahiblərinə qarşı hücuma keçir, onların malikanələrini zəbt edir, müqavimət göstərənləri öldürürdülər. Kərbəlayi Həsənli oğlunun və Əli Abbas oğlunun başçılıq etdiyi silahlı kəndli dəstələri 1906-cı ilin dekabrında çar qoşunları üzərində hücuma keçərək, hərbi ləvazimatlarını ələ keçirmiş, sahibkarların malikanələrini dağıtmışdılar. Şuşada mülkədar Bahadur bəy Qalabəyova məxsus nə varsa kəndlilər tərəfindən ələ keçirilmişdir. Həmin vaxt əli silahlı kəndlilər Xanabad, Qılıncbax, Qaramurad və Daşbaşı kəndlərinin kəndliləri həmin kəndlərdəki meşələri özbaşına qırıb evlərinə aparmışdılar. 1906-cı ildə şuşalı mülkədar Bahadur bəy Qalabəyovun mülklərinə kəndlilər 150 min manatlıq zərər vurmuşdular. Şuşada baş verən kəndli çıxışları qonşu kəndlərə də təsir etmiş və həmin kəndlərdəki kəndlilərin mülkədarlara — bəylərə və çar məmurlarına qarşı mübarizəsi genişlənmişdir.

XX yüzilliyin əvvəllərində Azərbaycanın hər yerində, o cümlədən, Şuşada qaçaq hərəkatı geniş vüsət almışdı. Çar məmurları qaçaqları xalqın gözündən salmaq üçün müxtəlif hiylələrə əl atırdılar. Belə ki, özləri hər hansısa cinayəti törədir

və bunun qaçaqlar tərəfindən törədildiyini bəyan edir, onları yolkəsən, quldur kimi qələmə verirdilər. Ancaq atalar yaxşı deyib ki, «yalan ayaq tutar, yeriməz». Xalqın gözü tərəzidir, xalq başa düşürdü ki, qaçaqlar onların qeyrətini çəkən, namuslu, qorxmaz və igid adamlardır. Onlar müstəmləkəçilərin və onların yerli əlaltılarının (müdafiəçilərinin) özbaşınalığına, acgözlüyünə, ədalətsizliyinə qarşı mübarizə aparır, xalqı onların zülmündən qoruyurdular. Ona görə də xalq qaçaqları sevir, onları müdafiə edir, saxlayırdılar. Əslində elə qaçaq dəstələri xalqın mərd, güclü, döyüşkən üzvlərindən yaradılırdı. Yuxarıda Şuşalı Qaçaq Məmməd Kavaler haqqında məlumat verilmişdir. Qaçaq Məmmədin işini Qaçaq Süleyman davam etdirmiş və öz dəstəsilə Qarabağda böyük şöhrət qazanmışdır. Qaçaq Süleymanın dəstəsi təkcə mülkədarları, bəyləri deyil, çar məmurlarını da vahiməyə salmışdı. Hətta həmin dövrə aid arxiv sənədlərindən birində çar məmurlarının baş verən hadisələrdən qorxuya düşdüklərini etiraf etdikləri göstərilmişdir: «XX əsrin əvvəllərində Şuşa elə qorxulu bir inqilab ocağına çevrilmişdir ki, oradan qalxan inqilabi hərəkat və inqilabi fəaliyyət alovları Zaqafqaziya ölkəsinin bir çox şəhərlərinə yayılır». XX əsrin əvvəllərində qaçaq hərəkatı və bütövlükdə kəndli çıxışları, geniş ərazini əhatə etməsinə və bir sıra qələbələrinə baxmayaraq, müstəqil və mütəşəkkil bir qüvvəyə çevrilə bilməmiş və məğlubiyyətə düçar olmuşdur.

1907-ci ildən başlayaraq, Şuşada fəhlələrin tətilləri daha geniş vüsət aldı. 1907-ci ilin fevralında Şuşanın ipəkəyirmə və ipəksarıma müəssisələri tətilə başladılar. Şuşada başlayan fevral tətili 8 gün davam etdi. Şuşa ipək emalı müəssisələrinin sarıyıcıları və burucuları 8 saatlıq iş günü, əmək haqqının 20-25 faiz artırılması, həmkarlar ittifaqlarının azad fəaliyyət göstərməsi və digər tələblər irəli sürmüşdülər. Şuşada baş verən fevral tətili müəssisə sahiblərinin onların tələblərinə əməl edəcəyi vədi ilə başa çatdı. Lakin sahibkarlar həmin vədə əməl etmədilər. Ona görə də, 1907-ci il iyunun 10-da Şuşa ipək emalı müəssisələrinin fəhlələri işi dayandırdılar. İyunun 11-də onlara Şuşadakı xarratlar, çəkməçilər, dəmirçilər, çörək bişirənlər, ev qulluqçuları, mətbəə fəhlələri, hamballar — bir sözlə, demək olar ki,

Şuşanın bütün fəhlələri tətilə qoşuldular. Şuşadakı 11 iyun tətili vaxtı tətilçilərin sayı 2000 nəfər oldu. Şuşadakı iyun tətili əvvəlki tətildən inadlı xarakteri və uzun çəkməsi ilə fərqlənirdi. Şuşada iyunun 12-də bir sıra müəssisələr işə başlasalar da, müəssisələrin çoxu, xüsusilə, kəndlərdəki müəssisələrin fəhlələri tətili davam etdirirdilər. Tətilçilər yenidən 8 saatlıq iş günü, əmək haqqının artırılması və sair tələblər irəli sürürdülər. Müəssisə sahibləri isə bütün bu və ya digər tələblərin yerinə yetirilməsindən imtina edirdilər. Bu vaxt Şuşanın Ballıca, Seyidbəyli, Koladəy kəndlərindəki fabriklərində çalışan fəhlələrin tətilləri daha ciddi xarakter almışdı. Hətta tətilçilər tələbləri yerinə yetirilməyənədək tətili davam etdirəcəklərinə and içmişdilər. 1907-ci il iyunun 19-da sahibkarlar tətilçilərin tələblərinin bir hissəsini qəbul etməyə məcbur oldular. Beləliklə, Şuşadakı 1907-ci il iyun tətili fəhlələrin qələbəsi ilə başa çatdı.

1906-cı illə müqayisədə 1907-ci ilin iyununda Şuşada müəssisələrin sayı 2 dəfə artdı və 25-ə çatdı. Lakin kişilərlə müqayisədə qadınların və azyaşlıların əmək haqqı, təxminən, 2 dəfə aşağı idi. Eyni zamanda, tətilçilərin iyun tətilində irəli sürdükləri tələblər tam yerinə yetirilməmişdi. Odur ki, 1907-ci il iyulun 3-dən Şuşa ipək emalı müəssisələrini tətil hərəkatı yenidən bürüdü. Tətilçilərin əksəriyyəti qadınlardan ibarət idi. Qısa bir müddətdə tətilçilərə Şuşanın başqa sənaye müəssisələrinin fəhlələri də qoşuldular. 3 iyul tətilində fəhlələr sahibkarlara 31 maddədən ibarət tələb təqdim etdilər. Həmin tələblərə – iş gününün qısaldılması, əmək haqqının artırılması, heç bir səbəb olmadan işdən azad etmə hallarının aradan qaldırılması həmkarlar ittifaqlarının fəhlələrin səlahiyyətli təşkilatı kimi tanıması, əlavə (pulsuz) işlərin ləğv edilməsi, qadınlar dekretə buraxılarkən onlara 50 faiz əmək haqqı verilməsi və sair daxil idi. 1907-ci il iyul tətili Şuşa şəhərində, Daşaltı, Kərkicahan, Ballıca, Seyidbəyli, Tuğ, Arakül, Xırmançıq və başqa kəndlərdə daha ciddi şəkil almışdı. Ümumilikdə isə, iyul tətili 29 müəssisəni əhatə etmişdi. Tətildə iştirak edən tətilçilərin sayı isə 2500 nəfərə çatmışdı. Şuşa tətilçilərinin böyük əzmkarlıqla, dayanmadan apardıqları mübarizəsi sahibkarları

qorxuya saldı. Sahibkarlar başa düşürdülər ki, əgər tətilçilərin tələbləri yerinə yetirilməzsə, hərəkat daha da genişlənər və silahlı üsyan formasına keçər. Ona görə də 1907-ci il avqustun 6-da sahibkarlar Şuşa tətilçilərinin tələblərini yerinə yetirəcəyinə razılıq verdilər. Avqustun 7-də fəhlələr tətili dayandırıb müəssisələrdə işə başladılar. Beləliklə, Şuşa fəhlələrinin bir aydan artıq davam edən mübarizəsi onların qələbəsi ilə başa çatdı. Bundan sonra Şuşanın sənaye müəssisələrində istehsalın həcmində, əvvəlki dövrlə müqayisədə artım müşahidə, edilməkdə idi. Artıq 1908-ci ilin yanvarında, təkcə Şuşanın ipək emalı müəssisələrinin sayı 1906-cı illə müqayisədə 2,5 dəfə artdı (12-dən 29-a çatdı).

1907-1908-ci illərdə Şuşada kəndli həyəcanları, silahlı kəndli dəstələrinin fəaliyyəti davam edirdi. Müstəmləkə əsarətində olan kəndlilərin vəziyyətinin son dərəcə ağırlığı kəndli çıxışlarını zəruriləşdirmişdi. 1907-ci ildə Şuşada ac və var — yoxdan çıxan kəndlilərin sayı 38000 nəfərə çatmışdı. Ayrı-ayrı savadlı adamlar kəndlilərin düşdüyü acınacaqlı vəziyyəti onlara izah edir və kəndliləri başa salırdılar ki, bu yoxsulluğun daşını atmağın yeganə yolu müstəmləkə əsarətindən xilas olmaqdır. Bu sahədə apardığı işə görə Rzaqulu Həmid Murad oğlunun əməyini xüsusi qiymətləndirmək lazımdır. Hətta 1908-ci ildə Şuşada kəndlilər arasında Rzaqulu Həmid Murad oğlunun apardığı iş ali hakimiyyət orqanlarını narahat etməyə başlamışdı. 1908-ci ildə Şuşa qəzası 2-ci Nahiyə pristavının Gəncə quberniya idarəsinə yazdığı məlumatından da bu narahatçılığı görmək olar. Həmin məlumatda deyilirdi: «Rzaqulu Həmid Murad oğlu Şuşa kəndlilərini çar hökuməti orqanlarının əleyhinə qaldırır, onları vergi verməməyə çağırır, kəndlilərə tədriclə silahlanmağı və qaçaqlara kömək etməyi təklif edir. Onun haqqında təcili tədbir görülməlidir.»

Rzaqulu Həmid Murad oğlu 1908-ci ildə özünə xas olan böyük bir əzmkarlıqla, yorulmaq bilmədən inqilabi mübarizə ideyalarını təbliğ edirdi. Ona görə də, qeyrətli vətən övladı hər yerdə təqib olunmağa başlandı. 1909-1912-ci illərdə də Şuşanın kəndlərində kəndli çıxışları baş verməkdə idi. Silahlı qaçaq

dəstələri təşkil etmiş kəndlilər mülkədar və qolçomaq malikanələrinə basqınlar edir, oradan əldə etdikləri nə varsa yoxsul kəndlilər arasında bölüşdürürdülər. Şuşa kəndlilərinin çıxışını şərh edən Gəncə qubernatoru mərkəzə verdiyi məlumatda göstərirdi ki, «kəndlilər əllərində dəyənək, daş və sair əşyalarla polislərin və onların yanında olan jandarmların üzərinə atılırdılar. Bir neçəsi isə bağda gizlənərək pristav və keşikçi dəstəsinə üçatan tüfəngdən atəş açırdılar. Pristav çıxışın başçılarını tutmuş, lakin kəndlilər onların üzərinə basqın edərək həbs olunanları xilas etmişlər».

XX yüzilliyin əvvəlində xalq içərisində Miriş ağa adı ilə tanınan Mir İbrahim Ağamirzəzadənin Şuşada təbliğat - təşviqat işlərini aparılmasında böyük rol olmuşdur. Miriş ağa kəndlərə gedir və xalqı başa salırdı ki, onların düşdüyü çətin vəziyyətin ən başlıca amili müstəmləkə əsarətində olmalarıdır.

Rusiyada iqtisadi durğunluq və böhrandan sonra (1909-cu ildən) iqtisadiyyatın bir sıra sahələrində canlanma yarandı. Rusiyada baş verən proseslər sözsüz ki, onun müstəmləkələrinə də təsir etdi. Bəhs edilən dövrdə Şuşada sənayenin inkişafı, istehsalın genişlənməsi fəhlələrin sayının artmasına və iri müəssisələrdə cəmləşməsinə səbəb oldu. 1912-ci ildə Şuşada sənaye müəssisələrinin sayı 27-yə (1906-cı ildə onların sayı 12-i idi), illik məhsul istehsalının həcmi – 1173336 manata (1905-ci ildə 544812 manat idi) çatdı. Bəhs etdiyimiz dövrdə Şuşanın təkcə ipək emalı sənayesində çalışan fəhlələrin sayı 1910-cu illə müqayisədə, təxminən, 2 dəfə artmışdır(1910-cu ildə 715 nəfər, 1912-ci ildə 1370 nəfər). Lakin fəhlələrin iş və məişət şəraiti əvvəlki kimi qalırdı. İş saatı yenə də 10-14 saata çatır, təhlükəsizlik texnikasına əməl edilmir, əlilliyə görə heç bir müavinət verilmir, tibb xidməti yarıtmaz vəziyyətdə idi. Fəhlələrin aldıqları əmək haqqı onların ehtiyacını ödəmirdi. Bütün bunlar Şuşa fəhlələrini çox narahat etdi və onlar sahibkarlara vəziyyətlərinin yaxşılaşması üçün müraciət etdilər. Onların tələbləri yerinə yetirilmədiyindən 1910-cu ildən başlayaraq, pərakəndə tətillərə başladılar. Bu tətillər 1911-ci ildə də, davam edirdi. Əvvəlki tətillərdən fərqli olaraq, 1910-1911-ci illər

tətilləri ümumi xarakter daşımırdı və eyni zamanda, bu tətillərdə tətilçilər yalnız iqtisadi tələblər irəli sürürdülər.

Sibirin Lena mədənlərində 1912-ci il aprelin 4-də dinc nümayişçilərin gülləboran edilməsi Azərbaycanda, o cümlədən onun ucqarlarından olan Şuşada da fəhlələrin tətil hərəkatının yüksəlişinə səbəb oldu. Şuşa fəhlələri bir günlük əmək haqlarını toplayıb Lenada öldürülən fəhlələrin ailələrinə göndərdilər. Şuşada 1912-ci ildə, ilk olaraq, ipək emalı fəhlələri tətilə başladılar. 1912-ci il sentyabrın 13-də Şuşada tətil hərəkatı ümumi xarakter aldı. Fəhlələr yenə də iqtisadi tələblər irəli sürdülər. Polis dəstələri tətili dayandırmağa cəhd etsə də tətilçilər tətili dayandırmadılar. Qarşıdurma vaxtı hər iki tərəfdən yaralananlar oldu. Tətilin ümumi xarakter aldığını və geniş ərazini əhatə etdiyini görən sahibkarlar Şuşa fəhlələrinin tələblərini müzakirə etməyə məcbur oldular. Şuşada baş verən 1912-ci il tətili sentyabrın 21-dək davam etdi. 1912-ci il sentyabrın 21-də sahibkarlarla fəhlələr arasında «müştərək müqavilə» imzalandı. Həmin müqaviləyə görə, fəhlələrin əmək haqqı qismən artırıldı və iş günü qısaldıldı.

1914-1918-ci illəri əhatə edən Birinci Dünya müharibəsi Azərbaycan iqtisadiyyatına çox ağır təsir göstərdi. Azərbaycanın başqa yerlərində olduğu kimi, Şuşada da ziddiyyətlər kəskinləşmiş, xalqın ali hakimiyyət orqanlarından narazılığı artmışdır. Müharibə onsuz da ağır olan Şuşa kəndlilərinin vəziyyətini daha da pisləşdirdi. Bunun əsas səbəbi çarın 1915-ci il fərmanı ilə «qeyri rus» xalqlarından olan 18-23 yaşlı gənclərin «arxa cəbhə»yə işləmək üçün səfərbərliyə alınması olmuşdur. Gənclərin orduya aparılması kəndlərdə işçi qüvvəsinin sayını xeyli azaltdı. Eyni zamanda, atların, öküzlərin və arabaların müharibənin ehtiyacı üçün kəndlərdən müsadirə edilməsi onları narazı salırdı. Aparılan tədqiqatlara əsasən müəyyən edilmişdir ki, 1916-cı ildə Şuşanın kəndlərində əmək qabiliyyətli kişilərin 10-13 faizi qalmışdır. Müsadirə nəticəsində isə, Şuşanın kəndli təsərrüfatlarında işçi heyvanlarının sayı 66 faiz azalmışdı. Vergilər 50 faiz artmış, əkin sahələri 59 faiz azalmışdı. Şuşanın təsərrüfatlarında məhsuldarlıq 75 faiz aşağı düşmüşdü. Aparılan

hesablamaya görə Şuşanın kəndlərinin 55 faizində iş heyvanları tamamilə yox dərəcəsində idi. Şuşada texniki bitkilər, xüsusilə pambıqçılıq xeyli ixtisar edilmişdir. Şuşada taxıl əkin sahələri 1913-cü ilə nisbətən 1916-cı ildə 80 faizə qədər azalmışdı. Taxılın məhsuldarlığı isə 75 faiz aşağı düşmüşdü. Şuşada ərzaq qıtlığı və bahalıq son həddə çatmışdı. Çörəyin, ətin, yağın, südün, düyünün və sair zəruri ərzaq məhsullarının qiyməti 250-450 faiz artmışdı. Şuşanın bazarlarında çörək yox idi. Çörək satışı mərkəzlərindən çörək almaq üçün günlərlə növbəyə dururdular. Çörək və başqa ərzaq məhsullarının qıtlığı, yerli məhsul istehsalının azalması ilə bərabər, həm də dəmir yolu ilə hərbi sursat daşındığından Qafqazdan Azərbaycana gətirilən ərzaq məhsulları, ilk növbədə, taxıl və un gətirilməsinin məhdudlaşması ilə bağlı olmuşdur.

Cəbhədən Azərbaycanın hər yerinə, o cümlədən, Şuşaya yüzlərlə yaralı və şikəst gətirilirdi. Yerli əhali bura köçürülənləri iqtisadi cəhətdən təmin etməli idi. Bu hal isə onsuz da ağır olan Şuşa əhalisinin vəziyyətini daha da ağırlaşdırırdı. Bütün bunlar azmış kimi torpaq vergilərinin miqdarı da artırıldı ki, bu isə Şuşa kəndliləri üçün ağır bir yükə çevrildi.

Müharibə illərində mülkədarlar və bəylər tərəfindən kəndlilərin pay torpaqlarının tutulması halları çoxalmışdı. Məsələn, 1915-1916-cı illərdə Şuşa bəylərindən Vəzirovlar Xındırıstan kəndlilərinin torpaqlarını zəbt etmişdilər. Xındırıstan kəndlilərinin narazılığına Şuşa pristavı «belə olmalıdır» cavabını vermişdir. Bütün bunlar Şuşanın kəndlərində kəndlilərin narazılığının artmasına gətirib çıxarmışdır. Kəndlilər öz narazılıqlarını müxtəlif formalarda göstərirdilər. Şuşa kəndliləri vəziyyətlərinin ağırlığı barədə çara və Qafqaz canişininə şikayət məktubu yazdılar. Lakin bu məktublar heç bir nəticə vermədi.

1916-cı ilin iyun ayında Şuşa kəndliləri (hətta qadınlar da burada iştirak etmişdi) dəryaz, yaba və dəyənəklə silahlanaraq torpaqlarını zəbt etmək istəyən çar məmurlarını kənddən qovmuşdular. Şuşa qəza rəisi mərkəzə məlumat verib bildirdi ki, Şuşa kəndliləri silahlı çıxışa hazırlaşırlar.

Kəndlilər öz narazılığını övladlarını ordudan qaçırmaqla, səfərbərlikdən gizlətməklə, qeydiyyatdan keçirməməklə də bildirirdilər. Şuşa qəza rəisi 1916-cı il 24 fevral tarixli məktubunda pristava yazırdı ki, hərbi rəisin məlumatına görə, 1902-1905-ci illərdə hərbi xidmət keçirmiş şəxslərin 1916-cı ilin fevralında keçirilən səfərbərlik zamanı heç biri gəlib qeydiyyatdan keçməmişdir.

Şuşa qəzası hərbi rəisinin Qəza rəisinə 10 iyun 1916-cı il tarixli məktubundan oxuyuruq: «1897-ci ildə anadan olmuş gənclərin yarıya qədəri hərbi çağırışa gəlməmişlər. Xahiş edirik, hərbi çağırışdan boyun qaçıranların tutulub bizə təhvil edilməsi haqqında pristavlara göstəriş verəsiniz».

Beləliklə, Şuşada əhalinin güzəranı ildən-ilə ağırlaşır və onların çarizmin milli müstəmləkə zülmünə qarşı azadlıq hərəkatı genişlənirdi.

Çar Rusiyası cəbhənin təchizi üçün sənayenin inkişafını ön plana çəkmişdi. Bu dövrdə iqtisadiyyatı hərbi rels üzərinə keçirmək məqsədilə hərbi sənaye komitələri təşkil edilmişdi.

1916-1917-ci illərdə Şuşa sənayesində də çətin vəziyyət yaranmışdı. Sənayedəki bu çətinlik, ilk növbədə, xammala olan tələbatın tam ödənilməməsi ilə, təcrübəli fəhlələrin müharibəyə səfərbər edilməsi ilə gündəlik tələbat məhsullarının qiymətlərinin (un, ət, yağ, düyü və sair) artması və əhalinin dolanışıq xətrinə kəndə axını və sair amillərlə bağlı olmuşdur.

Bəhs etdiyimiz dövrdə. Şuşanın sənaye müəssisələrində təmərküzləşmə prosesi sürətləndi. 1915-ci ildə Şuşanın ipək emalı sənaye müəssisələrinin sayı 36 idisə, 1916-cı ildə həmin müəssisələrin sayı azalaraq 21-ə endi. Lakin məhsul istehsalının həcmi 1915-1916-cı illərdə dəyişməz qalmışdır (12000 pud). 1916-cı illə müqayisədə (4200000 manatlıq), 1917-ci ildə aşağı enmə halı müşahidə edilmişdir (4010000 manatlıq).

1917-ci ildə Rusiyada baş verən fevral burjua-demokratik inqilabı Azərbaycanda da əks-səda doğurdu. 1917-ci il martın 2-də Şuşanın küçələrində, meydanlarında, fabriklərində izdihamlı mitinq və nümayişlər keçirildi. Çarizmin devrilməsindən sonra Azərbaycanda gizli fəaliyyət göstərən siyasi partiyalara açıq

fəaliyyət göstərmək azadlığı verildi. Fəhlə və əsgər deputatları sovetləri yaradılmağa başladı. Fəhlə və kəndlilərin siyasi fəallığının artması ilə əlaqədar 1917-ci ilin mart-aprel aylarında Şuşada fəhlə, kəndli və əsgər deputatları sovetləri yaradılırdı. Eyni zamanda, 1917-ci il martın 12-də Şuşa şəhərində Şuşa qəza nümayəndələrindən ibarət icraiyyə komitəsi təşkil edildi.

1917-ci ilin aprelində Şuşa realnı məktəbində şagird deputatları sovetinin yaradılması qərarlaşdırıldı. Həmin ilin mayında Şuşa tələbələrinin Müvəqqəti Komitəsi təsis edildi. 1917-ci ilin martın 29-da Şuşa şagird deputatları sovetlərinin Bakı şagird deputatları sovetlərinə göndərdiyi teleqramda deyilirdi: «Şuşa tələbələrindən təşkil edilən müvəqqəti Mərkəzi Komitə bakılı yoldaşları təbrik edir və vətənimizin azadlığı işlərində onlara müvəffəqiyyətlər arzu edirik. Vətənimizin azadlığı üçün biz tələbə-gənclərin birliyi tələb olunur və biz bunu etməliyik».

1917-ci ilin yanvarında Şuşada fəhlə deputatları Soveti ilə əsgər deputatları Soveti birləşdi. Şuşada ikihakimiyyətlilik yarandı: fəhlə, əsgər deputatları sovetləri və müvəqqəti hökumətin yerli orqanları. Diqqəti cəlb edən cəhət ondan ibarətdir ki, həm sovetlər, həm də onun icraiyyə komitələrində ermənilər və ruslar üstünlük qazanmışdılar. Sovetdə menşeviklər, daşnaklar, eserlər və bolşeviklər təmsil olunmuşdular. Təkcə bu faktı demək kifayətdir ki, Şuşada ayrıca yaradılmış Bolşevik Komitəsinə milliyətcə erməni olan A.Saturyan Ruben başçılıq edirdi. Daşnaklar Şuşa Bolşevik Komitəsini öz təsiri altına almış və onlarla birlikdə hərəkət edirdilər. Daşnaklar özlərinin «Daşnak-sütun» partiyasının fəaliyyətini canlandırmışdılar. Onların şüarı müharibəni qələbəyədək davam etdirmək və himayədarlarının köməyi ilə «Böyük Ermənistan» dövləti yaratmaq niyyətində idilər. Daşnaklar Şuşa şəhərində daha çox cəmləşmişdilər. 1917-ci ilin avqustunda daşnaklar Şuşada erməni milli qurultayını çağırmağı qərara almışdılar. Qurultayda bolşeviklər də iştirak edirdilər. Lakin PK(b)P-nın Şuşa Komitəsi həmin qurultayın keçirilməsinə qəti etirazını bildirdi. Bu etirazın səbəbi həmin sənəddə belə açıqlanırdı: «Şuşada keçirilən qurultaya nümayəndə

seçmək üçün seçicilərin siyahısı dəqiq tərtib edilməyib. Tiflis partiyalararası müşavirəsi tərəfindən dörd üzvlü sistemdə düzgün seçki aparmaq üçün heç bir qayda işlənib hazırlanmamışdır. Eyni zamanda, Şuşanın kəndlərində çətin iqtisadi və siyasi vəziyyət partiyanın platforması ilə tanış olmaq imkanına malik olmadıqlarına görə, Şuşa komitəsi 4 avqust 1917-ci il seçkilərində iştirak etməkdən imtina edir». Beləliklə, daşnakların niyyəti baş tutmur, lakin onlar Şuşa əhalisi içərisində hər cür təbliğat və təşviqat işləri aparırdılar.

Şuşada müvəqqəti hökumət hakimiyyətə gəlsə də, xalqın ağır vəziyyətini yüngülləşdirmək üçün elə bir əsaslı dəyişikliklər həyata keçirmədi. Hakimiyyət bir qrup erməni və rusun əlindən digərinə keçdi. Yeni yaranan hakimiyyət xalqlarımızın milli mənafeyinə tamamilə yabançı hakimiyyət idi. Həmin hakimiyyəti nəzərdən keçirəriksə, bir daha dediklərimizin şahidi olarıq: məsələn, Şuşada əsgər deputatları Sovetinin sədri Semyonov, Bolşevik Komitəsinin sədri Ruben Saturyan, Cavanşir qəzasının rəisi Dobrijanski, Qaryagin qəzasının rəisi Kipyani və başqaları. Bəhs etdiyimiz dövrdə, məşhur mülkədar Vəzirov Şuşa Qəza İcraiyyə Komitəsinin heyətinə daxil edilmişdi. Rus hökuməti bu addımı ona görə atmışdı ki, guya seçkilər humanist, düzgün, obyektiv keçirilmişdir. Buna, bir növ, «gözdən pərdə asmaq» da demək olar.

1917-ci il mart-avqust aylarında Xüsusi Zaqafqaziya Komitəsinin müvəkkili Şuşada olmuş və iqtisadi, siyasi vəziyyəti təhlil edib, mərkəzə məlumat verərək yazmışdır: «Şuşanın kənd əhalisi yerli hakimiyyət orqanlarından çoxdan üz döndərmişlər. Kənddə ümumi əhvali-ruhiyyə belədir. Şuşa kəndliləri deyirlər ki, kim ölkənin idarə edilməsini möhkəm ələ alsa, bizə taxıl, həm də ucuz qiymətə taxıl versə, onun arxasınca gedəcəyik. Ona görə də hökumət qəzalarda bu problemi həll etmək üçün tələsməlidir. Yoxsa sabah gec olacaq və pis nəticələr verəcək».

Arxivdən götürülmüş yuxarıdakı məlumatdan da aydın görünür ki, 1917-ci ildə Şuşada xalqın vəziyyəti çox ağır idi. 1917-ci il məlumatına görə Şuşada hər adama gündə 200-250 qram çörək verilirdi. Bəzi ərazilərdə isə çörək əhalinin yalnız 25

faizinə çatırdı (əgər həmin 200-250 qrama «çatmaq» demək olarsa). Şuşada taxılın qiyməti gündən-günə bahalaşırdı. Bundan istifadə edən möhtəkirlər əhaliyə taxılı baha qiymətə satırdılar. Aclıq gündən-günə şiddətlənir, fəhlələr, kəndlilər və Şuşa şəhərinin əhalisi qırılır və ya yuvalarını tərk edib didərgin düşürdülər. Köçüb getmə, ölüm və orduya məcburi səfərbərliklə əlaqədar Şuşa əhalisinin sayı təkcə 1917-ci ilin sentyabrında 5053 nəfər azalmışdı. Təkcə 1917-ci ildə Şuşanın kəndlərindən kişilərin 37,2 faizi səfərbərliyə alınıb müharibəyə göndərilmişdi.

1917-ci ildə Şuşada, aclıqla yanaşı, erməni quldur dəstələrinin basqınları, özbaşınalıqları, əhalini talan etmələri Şuşanın fəhlə və yoxsul kəndlilərini daha pis vəziyyətə salmışdı. Eyni zamanda, müvəqqəti hökumətin Şuşada yerləşən ordu hissələri də əhali üzərində ağır bir yükə çevrilmişdi. Rusiyadan gətirilmiş xüsusi drujina dəstələri heç kəsə tabe olmur, dükanları dağıdır, əhalinin əlində nə varsa qarət edir, hansı ev xoşlarına gəlirdisə ev sahibini çıxarıb orada yerləşirdilər. Əsgərlərin (bunların içərisində ermənilər də var idi) özbaşınalığı, zorakılığı həddini aşmışdı. Sui-qəsdlər, talançılıq, mal-qaranın oğurlanması, hərc-mərclik, anarxiya adi hala çevrilmiş və bu cür mənfi hallara qarşı heç bir tədbir görülmürdü. «Kaspi» qəzeti 13 avqust 1917-ci il tarixli sayında yazırdı ki, «ölüm hadisəsi hazırda o dərəcədə adi bir şəkil almışdı ki, bu heç kəsi təəccübləndirmirdi. Hökumət isə bu məsələyə etinasız münasibət bəsləyirdi». Bütün bu və buna bənzər faktlar onu göstərirdi ki, 1917-ci ildə yaranmış hökumətin siyasəti ilə, çar mütləqiyyətinin siyasəti arasında heç bir əsaslı fərq yoxdur. Öz xarakteri etibarilə yeni yaranan hökumət milli məsələdə və bütün siyasətində Çarizmin müstəmləkəçilik siyasətini davam etdirdi.

Belə bir çətin şəraitdə, Sovetlər xalq içərisində geniş təbliğat-təşviqat işləri aparmağa başladı. 1917-ci il iyulun 25-də Şuşa fəhlə, əsgər və kəndli deputatları sovetlərinin şuşalılara yazdığı müraciətində göstərilirdi: «Şuşa şəhər və qəza zəhmətkeşlərinə! İyulun 25-i əsgər, fəhlə və kəndli deputatları Soveti üçün ianə toplamaq günüdür. Şuşa şəhərində Sovetlər təşkil edilmişdir. Onun məqsədi tam demokratik respublika

yaratmaqdan, demokratiyanın mənafeyini bütün qüvvə ilə müdafiə etməkdən ibarətdir. Ona görə də bütün əhalidən xahiş edirik ki, əsgər, fəhlə və kəndli deputatları Sovetinin ətrafında möhkəm birləşməklə, ona həm mənəvi cəhətdən, həm də maddi cəhətdən kömək etsinlər».

1917-ci il sentyabrın əvvəllərində Şuşa Soveti yenidən təşkil edildi. Müvəqqəti hökumətin yeritdiyi siyasət xalq içərisində ifşa edildi. Şuşada müvəqqəti hökumətin vəhşi hərəkətlərinə etiraz çıxışları, nümayişlər, mitinqlər keçirilməyə başlandı. 1917-ci il iyunun axırlarında Şuşa ipək fabriklərindən birində fəhlələrin tətili oldu. Fəhlələr, əsasən, iqtisadi tələblər irəli sürdülər. Onlar iş saatının 12-dən 8-ə endirilməsini, əmək haqqının artırılmasını, mənzil şəraitinin yaxşılaşdırılmasını və sair tələblərlə çıxış edirdilər. 1917-ci il iyunun 20-də Şuşanın Daşaltı kəndində Aqronyanın ipək sarıyan fabrikində fəhlələr də tətilə qoşuldular. Onlar təkidlə tələb edirdilər ki, iş günü heç olmasa 2 saat azalsın, əmək haqqı gündəlik ərzaq almaq səviyyəsinə qalxsın. Fabrik sahibi fəhlələri tətili dayandırmağa məcbur etmək üçün fabriki bağladı. Buna cavab olaraq, fəhlələr tətili davam etdirdilər və başqa fabriklər də tətilçilərə qoşuldular. Tətilçilərin tələbləri qismən ödənildikdən sonra tətil dayandırıldı.

Yerli hakimiyyət orqanlarının özbaşınalıqları, erməni quldur dəstələrinin azğın hərəkətləri Şuşada kəndli həyəcanlarının şiddətlənməsinə səbəb oldu. Şuşanın kəndlərində kəndlilər vergi verməkdən imtina edir, mülkədarların meşələrini, torpaqlarını ələ keçirir və başqa hallar genişlənirdi. 1917-ci il iyunun 11-də Şuşanın Hindarx kəndində kəndlilər mülkədar F.Vəzirovun su arxlarını ələ keçirmiş və onu kəndlilərin istifadəsinə vermişdilər. «Kaspi» qəzeti 21 iyun 1917-ci il nömrəsində yazırdı ki: «Adil Hindarxlının rəhbərlik etdiyi kəndli dəstələri bəyin meşələrini qırmağa başlamışdılar. Kəndliləri mülkədarlarla barışdırmaq üçün qəza komissarı tərəfindən göstərilən səy nəticə verməmişdir. Kəndlilər sudan və meşədən tamamilə köhnə dədə-baba mülkiyyəti kimi istifadə edəcəklər. F.Vəzirov Hindarxdakı malikanəsinin müdafiəsi üçün Gəncə qubernatoruna ərizə ilə müraciət etmişdir».

Şuşanın Kəbirli kəndinin kəndliləri 1917-ci ilin sentyabrında sahibkarlara məxsus fermaları ələ keçirmişlər. Bu vaxt kəndli hərəkatı genişlənərək ciddi xarakter almışdır.

1917-ci il noyabrın 9-da Şuşanın Muxur malikanəsinin sahibi Böyük bəy Kəbirlinski vəziyyətin çətin olduğunu görüb Xüsusi Zaqafqaziya Komitəsinin sədrinə ərizə ilə müraciət etmişdir. Həmin ərizədə yazılmışdı: «Kəbirlinin Qərvənd əhalisi 1917-ci il sentyabrın 6-da mənim Muxur malikanəmə enmişlər. Şuşa qəza komissarı tərəfindən dəfələrlə öyüd-nəsihət verilməsinə baxmayaraq kəndlilər mənim malikanəmdə özbaşınalıq edir, pambıq sahələrini korlayır, şumlanmış torpaqlarımı zorla əllərinə keçirərək özləri əkirlər... Kəndlilər çox güclüdürlər və mənim 5000 desyatin Muxur malikanəmi tamamilə tutmaq istəyirlər. Bu böyüklükdə malikanəmdə bir pambıq çöpü belə, ümumiyyətlə, heç bir bitki qalmamışdır. Yuxarıdakıları nəzərə alaraq, mənim malikanəmin və həyatımın təhlükəsizliyi üçün lazımı tədbirlər görməyinizi xahiş edirəm». Bəhs etdiyimiz dövrdə Şuşanın kəndlərini kəndli həyacanları daha artıq əhatə etməkdə idi.

Rusiyanın hər yerində olduğu kimi, Şuşada yerləşən rus əsgərləri içərisində böyük hərc-mərclik, ordudan qaçmaq halları kütləvi şəkil almışdı. Müvəqqəti hökumətin hərbi və dəniz naziri A.Kerenskinın 7 iyul 1917-ci ildə Şuşa qarnizonu üzrə verdiyi 24 saylı əmrində göstərilirdi: 1)Ordu sıralarını özbaşına tərk etmiş və mayın 15-nə kimi qayıtmayan şəxslər Müəssislər məclisinə və yerli özünüidarə orqanlarına seçkilərdə iştirak etmək hüququndan eyni zamanda, torpaq islahatı zamanı, torpaqdan məhrum edilsinlər. 2) Ailə üzvlərinə torpaq payı verilməsin. «Əmr»dən göründüyü kimi, Şuşada kəndli və fəhlələrin həyatında çətin, acınacaqlı vəziyyət yarandığı kimi, əsgərlərin də həyatında qaneedici hal mövcud deyildi.

1917-ci il avqustun 17-də Şuşada erməni dilində «Nesuk» («Dayaq») qəzeti nəşr olunmağa başlandı. Qəzetin redaksiya tərkibini nəzərdən keçirərkən (A.İonesyan, A.Saturyan, S.Ambarsumyan, A.Kamari, Paro Kunyans və başqaları) hansı

məqsədlə yaranması və kimə xidmət etməsini söyləmək elə bir çətinlik gətirmir.

Beləliklə, 1917-ci il fevral burjua — demokratik inqilabının qələbəsindən sonra milli-azadlıq hərəkatında keyfiyyətcə tamamilə yeni bir mərhələ başlandı. Bu vaxtdan başlayaraq hərəkat kütləvi, siyasi səciyyə almış, konkret iqtisadi tələblər irəli sürülmüş, milli dövlətçilik ideyası ətrafında əhalinin bütün tələblərinin birləşməsinə səy göstərilmişdir. Azərbaycanın bütün qəzalarında Müsəlman Milli Şuraları və Komitələri yaradılmışdır ki, bu gələcək milli burjuaziyanın rüşeymlərinin yaranması demək idi. 1917-ci ildə Azərbaycanın hər yerində, o cümlədən Şuşada milli azadlıq hərəkatı genişləndi. Xalq milli ziyalılarımızın ətrafında sıx birləşərək, müvəqqəti hökumətin əsarətdə olan xalqlar barəsində yeritdiyi müstəmləkəçilik siyasətinə qarşı, özlərini «İnqilabçı demokratlar» adlandıran, əslində isə tərkibi ermənilərdən və ruslardan ibarət olan, Azərbaycan xalqının mənafeyinə yabançı siyasət yeridən sovetlərə qarşı mübarizədən, ermənilərin Azərbaycanlılara qarşı törətdikləri soyqırıma qarşı mübarizə aparmaqdan ibarət olmuşdur. Ermənilərin xalqımıza qarşı düşmənçilik siyasəti Şuşada, ümumiyyətlə, Azərbaycanın hər yerində milli azadlıq hərəkatını gücləndirdi. Azərbaycanlı ziyalılar xalqı çox düzgün olaraq başa saldılar ki, ümumi düşmənə qarşı vahid cəbhədən çıxış etmək lazımdır.

1917-ci ilin oktyabrında, müvəqqəti hökumət devrildikdən sonra Azərbaycan xalqı istiqlaliyyət uğrunda mübarizəni davam etdirirdi və 28 may 1918-ci ildə milli dövlətçiliyimiz bərpa edildi.

# X FƏSİL

## ÇARİZMİN ŞUŞADA MİLLİ QIRĞIN SİYASƏTİ (1905-1906)

XX yüzilliyin əvvəllərində Şuşada baş verən nümayişlər, tətillər, yürüşlər, mitinqlər, kəndli üsyanları və qaçaq hərəkatı, ümumilikdə, milli azadlıq hərəkatı çar Rusiyasını milli qırğın törətmək üçün «tədbirlər planı» hazırlamağa vadar etmişdi. Hamımıza məlumdur ki, hələ 1724-cü ildə I Pyotr «Tamamilə məxfi qalsın» adlı vəsiyyətində yazırdı ki, «Rusiyanın dünya ağalığı üçün paytaxtın İstanbul olması gərəkdir. Bizə qonşu olan dövlətlərdə — İran, Türkiyə və Azərbaycanda möhkəmlənməyimiz üçün, onları biri-birindən həmişə təcrid etməyimiz lazımdır. Bunun üçün həmin dövlətlər arasında sünnü-şiə ixtilafı salmağımız gərəkdir. Eyni zamanda ələ keçirdiyimiz müstəmləkələri həmişə əldə saxlamağımız üçün oraya sözəbaxan, xəyanətkar, riyakar, dələduz, tamahkar ermənilər köçürməyimiz lazımdır. Əraziyə köçürəcəyimiz ermənilərə vədlər verməli, dəstəkləməli, azərbaycanlılarla fitnə-fəsad, dava-dalaş salmalı, zəiflətməli və ağalıq etməliyik».

1828-ci il Türkmənçay sülhü ilə I Pyotrun «Layihə»si reallaşdı. Vahid Azərbaycan dövləti 2 hissəyə parçalandı və Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı başa çatdı. Şimali Azərbaycana məqsədli şəkildə ermənilər köçürülməyə başlandı. Ermənilər bol suya, münbit torpaqlara, əlverişli iqlim şəraitinə, tükənməz yeraltı və yerüstü sərvətlərə malik, Qarabağın tacı Şuşa şəhərində daha çox məskunlaşdılar. Şuşalılar gözəl yaraşıqlı evlər tikdirməyi çox sevirdilər. O dövrdə tikilmiş evlərin əksəriyyəti ikimərtəbəli, geniş aynabəndli, böyük zallı otaqlardan ibarət idi. Bu evləri görənlər həmişə fərəh hissi keçirərdilər. Azərbaycanlılar çox vaxt evlərini erməni ustalarına tikdirirdilər (Bu ənənə son dövrədək davam edirdi). Azərbaycanın aran hissəsindən usta kimi Şuşaya gələn ermənilər (hansıki, onlar vaxtilə İran və Türkiyədən köçürülmüşdür) ərazinin bağ-bostan üçün bərəkətli torpağını, gözəl təbii mənzərəsini, şəffaf, saf sulu

bulaqlarını və ən nəhayət, bizim ürəkli, böyük səxavətli şuşalıları görəndə məftun olmuş və burada ev tikib qalmaq arzusuna düşmüşdülər. Erməni ustaları azərbaycanlıların evini tikib qurtardıqdan sonra imkanlı şuşalılara yalvarırdılar ki, dolanmaq üçün onlara kiçik bir daxma tikməyə torpaq versin. Yuxarıda qeyd etdiyimiz kimi, Şuşanın havası, suyu, torpağı kimi insanları da saf və təmizdir. Onlar həmin ermənilərə nəinki torpaq verir, hətta evin bütün materiallarına köməklik edir, üstəlik şeytan libası geyən ermənilərə bir balalı inək də bağışlayırdılar ki, qoy, qatığından, südündən istifadə etsinlər. Ümumiyyətlə özlərini «sədaqətli» nökər kimi tanıtdırmağı bacaran ermənilər azərbaycanlıların qılığına girib Şuşada xeyli ev tikə bildilər. Bu evlərin sayı zaman keçdikcə artdı. Mərkəzdən dəstək alan vəfasız ermənilər sonralar özlərini həmin torpağın sahibi kimi aparmağa başladılar. Xain ermənilər XIX yüzilliyin axırlarından «erməni xəbisliyi»nə tutuldular. Ara qızışdırmağa, dələduzluğa başladılar. Azərbaycanlıların mal-qarasını oğurlayır, ot tayalarını yandırır və sair əməlləri ilə azərbaycanlılara zərbə vurmağa çalışırdılar. Əlbəttə, tariximizə edilən ekskuriziv ekspedisiyada məqsəd ermənilərin kimliyini azacıq da olsa oxuculara çatdırmaq olmuşdur.

Ermənilərin «casusluq və satqınlığını» (fikir Puşkin, Nekrasov və Prutkovundur) nəzərə alan çar hökuməti Şuşada vəziyyəti nizama salmaq üçün «xüsusi tədbirlər planı» hazırladı. Onun həyata keçirilməsi Bakı qubernatoru Nakaşidzeyə və Şuşadakı səlahiyyətli nümayəndəsi Qalaşpova tapşırıldı.

«Xalqlar həbsxanası» adlandırılan Rusiya 1905-ci ilədək bu cür «məkrli siyasətdən» məharətlə istifadə etmişdi (Polşada, Baltikyani ölkələrdə). Rusiya, imperiyaya daxil olan qeyri-millətləri bir-birinə qarşı qoyur, milli ləyaqətlərini təhqir edir, bu millətlərin qan yaddaşları unutdurularaq soy köklərindən uzaqlaşdırılırdılar. İmperiyaya daxil olan xalqların milli dövlətçiliyi və tarixən sabitləşmiş sərhədləri dağıdılmışdı. Belə bir hal millətlərarası münaqişə yaratmağa rəvac verirdi. Deməli, Şuşada baş verən 1905-1906-cı illər qırğınının görünməyən tərəfində çar Rusiyasının dayanması inkaredilməz faktdır. Çar və onun yüksək

rütbəli məmurları erməni daşnaklarını hər cür vasitələrlə (silah, sursat, ərzaqla) təmin etmiş, rus qoşunlarını (kazakları) onlara köməkçi vermişdi. Polis baş verən hadisələri yalnız soyuqqanlılıqla seyr edən bir tamaşaçıya çevrilmişdi. Çar hökuməti Azərbaycandakı milli qırğın siyasətini Daşnaksütun partiyası və erməni quldurlarının əli ilə həyata keçirdi.

1905-ci ilədək Şuşada ermənilərlə azərbaycanlılar nisbi milli sülh şəraitində yaşamışdılar. 1905-ci ildən başlayaraq, ermənilər xalqımıza qarşı vəhşiliklərə başladılar. Gürcü müəllifi Qaribi özünün «Qızıl kitab»ında belə yazırdı: «Erməni inqilabçılarının, xüsusilə Daşnaksütun partiyasının yaradılmasına qədər Zaqafqaziyada sülh və dostluq hökm sürürdü. Həmin vaxta qədər bu ölkədə türklərlə (azərbaycanlılar - M.N.) ermənilər arasında olan qanlı qırğınların kölgəsini belə xatırlayan yoxdur. Daşnakların gəlişi ilə Patriarxal Qafqaz kəndlərinə milli ədavət və qarşılıqlı nifrət hissləri doldu».

Vaxtilə Rusiyanın Türkiyədə baş səfiri işləmiş Mayeviski də haqlı olaraq yazırdı ki: «Mən tam təkidlə təsdiq edə bilərəm ki, «Daşnaksütun», «Qıncaq» və digər cəmiyyətlərin mövcud olmaları həmişə erməni əhalisini yeni-yeni müsibətlərlə hədələyəcəkdir».

1905-1906-cı illər hadisələrinin ilk təşəbbüskarları ermənilər olmuşdur. Bəhs edilən dövrdə minlərlə dinc azərbaycanlı qətlə yetirilmiş, 158 müsəlman kəndi dağıdılmış və yandırılmışdır. Həmin illərdə erməni quldurları və terrorçuları tərəfindən 500 cinayət hadisəsi törədilmişdir.

Daşnaklar öz məqsədlərini pərdələsələr də, niyyətləri «Böyük Ermənistan» yaratmaq olmuşdu. Bu fikir qatı millətçi, yazıçı Arsuriyə məxsus idi. Daşnaklar öz murdar niyyətlərinə çatmaq üçün Rusiyanın gücünə daha çox bel bağlayırdılar.

Rəhmli və humanist azərbaycanlılar, hiyləgər və satqın ermənilərin məkrli niyyətlərini, təəssüflər olsun ki, başa düşməmişdilər. Lakin könüllü azərbaycanlı gənclərinin cəsarəti və igidliyi bizim qələbəmiz üçün əsas olmuşdur. Onu da qeyd edək ki, əfsanəvi qəhrəmanlıqlar göstərən igid qartallarımız təkcə

ermənilərə qarşı deyil, həm də imperiya qoşunlarına və çar məmurlarına qarşı döyüşürdülər.

1905-ci ilin ilk günlərindən başlayaraq erməni «təbliğat maşını» açıq fəaliyyətə başladı. Hər yerdə, gecə-gündüz dayanmadan müsəlmanların qaniçən vəhşi olduğunu təbliğ edən ermənilər hər cür çirkin yol və vasitələrdən istifadə edərək azərbaycanlıları doğma yurdlarından didərgin salmağa çalışırdılar. 1905-ci il fevralın 2-3-də plan şəklində bir-birinin ardınca bir neçə azərbaycanlının öldürülməsi kütləvi qırğınlar üçün ilkin qığılcımlar oldu. 1905-ci il fevralın 6-dan 10-dək Bakıda baş verən döyüşlərdə hər iki tərəfdən 1000-dən çox adam öldü. Bakı şəhərinə milyonlarla manat həcmində zərər dəydi. Bu döyüşlərdə ermənilərin itkisi daha çox idi və döyüşə yaxşı hazırlaşmadıqlarından məğlub oldular. Bundan sonra döyüşlər Naxçıvanda, İrəvanda, Zəngəzurda, Cəbrayılda davam etdi. Ermənilər burada da məğlub oldular.

Erməni daşnakları məğlubiyyətlərinin əvəzini Şuşada çıxmaq istəyirdilər. Doğrudan da, Azərbaycandakı 1905-ci il hadisələri içərisində Şuşa faciəsi daha kədərli oldu və xalqımızın qan yaddaşına ermənilər qara hərflərlə yazıldı. Ermənilər əvvəlki döyüşlərdən fərqli olaraq, Şuşa döyüşlərinə xüsusi hazırlıq görmüşdülər. Onlar Şuşada böyük canlı qüvvə, sursat, ərzaq toplamışdılar. Yeri gəlmişkən onu da qeyd edək ki, erməni daşnakları azərbaycanlılara qarşı birləşdirilmiş mərkəzlər yaratmışdılar ki, həmin mərkəzlərə erməni ziyalıları, cavanlar, sənətkarlar və erməni icmasının başqa nümayəndələri cəlb olunmuşdular. Həmin mərkəzlərdə hərbi sursat və pul toplanırdı ki, bundan təbliğat, təşviqat, sui-qəsdlərdə və silahlı toqquşmalarda istifadə olunurdu. Təəssüf hissi ilə qeyd etməliyik ki, tanrı məbədi olan Alban kilsələri də bu cür mərkəz rolunu oynayırdı. Şuşada yerləşən erməni kilsəsində də 1905-1906-cı illərdə hərbi sursat cəbbəxanası aşkar edilmişdir. Ardı-arası kəsilməyən qırğınlardan cana doymuş bir neçə erməni 1906-cı ildə Şuşa kilsəsinin yeraltı qatlarında hərbi sursat anbarı olması haqqında çar generalına məlumat vermişdir. Həmin kilsənin anbarında yoxlama aparılmış və burada çoxlu miqdarda tüfəng,

güllə, top, bomba, dinamit, evlərin yandırılması üçün xüsusi hazırlanmış silahlar tapılmışdır. Kilsənin keşişləri Ter-Avanesyan, Ter-Arsen Vartapetov, Mirzəbekov, Asatur Vartapetov törətdikləri cinayətə görə yalnız Şuşadan uzaqlaşdırılmaqla «cəzalandırıldılar».

1905-ci ildə Şuşada xüsusi təlim görmüş rus əsgərləri də saxlanılırdı ki, onların gücündən müsəlman soyqırımında istifadə ediləcəkdi. Deməli, yuxarıda deyilənlərdən belə aydın olur ki, erməni daşnakları Şuşa döyüşünə böyük hazırlıq işləri görmüşdülər. Hiyləgər erməni tayfaları gizlincə tədarük görüb yollar üzərində, gizli yerlərdə, hündür qayalarda səngərlər yaradırdılar. Eyni zamanda, dələduz və bic ermənilər şuşalıların sadəlövhlüyündən, etibarlılığından, səmimiliyindən istifadə edib onlarda olan silahı ələ keçirmək üçün belə bir hiyləyə əl atdılar: silahı bazar qiymətindən beş dəfə baha alacaqlarını elan etdilər (Tüfəngin qiyməti 20 manat idisə 100 manata, 6 manatlıq tapançanı 30 manata). Şuşa əhalisi silahların ermənilər tərəfindən belə baha qiymətə alındığını görüb evlərində nə qədər silah və sursat var idisə, hamısını ermənilərə satdılar.

Yalançılığı özlərinə peşə edən erməni alverçiləri növbəti riyakarlığa əl atdılar. Müxtəlif bəhanələr gətirərək müsəlman məhəllələrindəki bazarlardan köçməyə başladılar. Onlar bazardan köçərkən satış köşklərini çox baha qiymətə satmış, içərisindəkilərin isə özü ilə ermənilərin daha çox məskunlaşdığı hissəyə aparmışdılar. Əksinə ermənilər məhəlləsində dükanları olan azərbaycanlılar heç bir tədbir görmədilər. Belə bir fikrə düşənlərin isə dükanını alan yox idi. Çünki ermənilər müharibənin labüdlüyünə tam əmin idilər və həmin mağazaların dağılacağına və ya onların özlərinə qalacağına inanırdılar.

«Şuşa döyüşləri»nə erməni «din xadimləri» və «ziyalıları» «xüsusi plan» işləyib hazırlamışdılar. Doğrudan da, özlərini «Allah adamı» adlandıran erməni din xadimlərinin müsəlmanlara qarşı qəddar, bədxah münasibətini adam ağlına belə sığışdıra bilmir. Rus diplomatı general Mayaviskinin erməni din xadimləri haqqında fikirləri çox obyektivdir: «Erməni din xadimlərinin dini fəaliyyəti olduqca cüzidir. Onların fəaliyyəti «Allah kəlamını»

çatdırmaqdan çox, müsəlmanlarla xristianlar arasında nifaqı qızışdırmaqdan ibarətdir». Eyni zamanda, Fransa alimi Baron de-Bayırın erməni kilsələri haqqında fikriləri də maraqlı və haqlıdır: «Erməni kilsəsi bir müddət saxta pul düzəldənlərin yuvası olmuşdur... Mən öz sözlərimdə səmimi olmalıyam. Erməni kilsələri məndə, dini mərkəzdən çox siyasi mərkəz təəssüratı yaratdı».

Bu cür təəssüf doğuran nümunələri çox gətirmək olar. Buradan belə bir nəticə çıxarmaq olar ki, 1905-1906-cı illərdə erməni mafiyasının ən qüdrətli dayaqlarından biri, terror və təbliğatın təşkilatçısı və onun maddi cəhətdən təminatçısı kilsə və din xadimləri olmuşdur. Beləliklə, erməni din xadimləri, ziyalıları, «Daşnaksütun» partiyası «Şuşa döyüşü»nün planını işləyib hazırladılar. Həmin planda hücumun tarixi, vaxtı və hətta saatına qədər hesablanmışdı. «Planda» nəzərdə tutulmuşdu: «Şuşada yaşayan bütün müsəlmanların hamısını (böyükdən kiçiyədək) qırmalı, onların nəyi varsa hamısını qarət etməli; ev eşiklərini yandırıb xarabalığa çevirməli; 12 saat ərzində müsəlmanların «Böyük Məscid»ində nahar etməli, 24 saat ərzində isə Qalanın ən hündür yerində bayrağımız dalğalanmalıdır; qələbə əldə edənə qədər rusların gücündən istifadə etməli, sonra isə onlar haqqında da nə isə fikirləşərik».

Rus ordusunda qulluq edən 15 nəfər erməni əsgəri, könüllü olaraq, komandanlığın razılığı ilə silahını da götürüb erməni quldurlarının təşkil etdiyi quldur dəstəyə qoşuldu. Eyni zamanda, Gürcüstandan 100 nəfər könüllü ermənilərin köməyinə gəlmişdi.

Şuşada yaşayan mərd, cəsarətli, cəsur müsəlmanlar da döyüşə hazırlaşırdılar. Ağsaqqal, dünyagörmüş, tədbirli müsəlmanlar özlərinin «Məclisi-xeyriyyə» adlı cəmiyyətini yaratdılar. Həmin cəmiyyət müharibəyə yol verməməyi, sülh yaratmağı qarşısına məqsəd qoymuşdu. Cəmiyyətin üzvləri müsəlman camaatını başa saldı ki, ermənilərin onlardan baha qiymətə aldığı silahlar gələcəkdə onların özlərinə qarşı çevriləcəkdir. Ona görə də müsəlmanların ermənilərə silah və sursat satması qadağan edildi. Hər məhəlləyə xüsusi adamlar təyin edildi ki, öz tayfasında erməniyə silah satmağa imkan verməsin. Eyni zamanda,

ermənilərin hücum edəcəyini bildiklərinə görə hər ailəyə tapşırıldı ki, öz imkanı daxilində bir və ya iki tüfəng, tapança və patron alıb evində saxlasın. Şuşalılar satdıqlarından da baha qiymətə silah aldılar. Erməni hiyləsini başa düşüb ərzaq tədarükü də, görməyə başladılar. Bu xəbər Şuşanın bütün kəndlərinə yayıldı və orada da hazırlıq gördülər.

Mərd şuşalılar etibarsız və qəddar düşmənə layiqli cavab vermək üçün şəhərin müxtəlif yerlərində 6 səngər qurmuşdular. Hər səngərə bacarıqlı adamlar başçılıq edirdi. Birinci səngər Vəzirzadələrin evlərinin qarşısında, ikinci səngər isə Hacı Həsən Qaraşırzadənin evinin içində və baş tərəfində idi. Bu 2 səngərə Abbas bəy Talıb bəy oğlu başçılıq edirdi. Üçüncü səngər Məşədi Kərimin evində yerləşirdi ki, bu səngərin başçısı Mir İbrahim Ağamirzadə idi. Əfrasiyab Hacı Əzim oğlunun başçılıq etdiyi 4-cü səngər Ağadədəlidə yaradılmışdı. Beşinci səngər Təzə məhəllədə yerləşirdi onun da başçısı Əfrasiyab Hacı Əzim oğlu idi. Altıncı səngər isə Gövhər ağanın evi və həyəti idi ki, həmin səngərə rəhbərlik Axund Molla Şükürə tapşırılmışdı.

Şuşanın işbilən, qeyrətli əyanları, ağsaqqalları şəhər sakinlərini, cavan, igid şuşalıları müdafiəyə qaldıraraq səngərlərə göndərirdilər. Bu işdə Nəcəfqulu bəyin, Şeyx Hüseynin və Axund Molla Qasımın xidmətləri böyük olmuşdur. Onlar tez-tez səngərlərə baş çəkir, xalqı cəsarətlə müdafiə olunmağa ruhlandırırdılar. Axund Molla Qasım libasını dəyişərək əsgər paltarı geymiş, çiynində tüfəng, at belində bütün səngərləri gəzərək «Ya Əli» nərəsi çəkə-çəkə heyrətamiz sözlər və şüarlarla hamıda qələbəyə əminlik hissi yaradırdı. Əlbəttə, qələbə çalmaq üçün bu amil mütləq, əsgərə lazım idi.

Beləliklə, azərbaycanlılar tərəfdə də müharibəyə hazırlıq görülmüşdü. Artıq 1905-ci ilin əvvəllərində erməni fitnələri törədilirdi. Həmin günlərdə üç nəfər rus, bir çamadanda padşahlıq xəzinəsinə 3000 manat pul və əlavə çoxlu veksel apararkən, divarın arxasından çıxan erməni saqqallıları həmin rus xadimlərini öldürüb pulu götürüb qaçmışdılar. O dövrdə bu pul böyük məbləğ idi və həmin pulla ermənilər çox silah, sursat alıb fitnə-fəsadlarını davam etdirirdilər. Elə həmin günlərdə Şuşa

küçələrinin işığını yandıran Kərbəlayi Məhəmmədhüseyn ermənilər tərəfindən öldürüldü.

1905-ci il avqustun 16-da Şuşada ermənilərin hücumu başlandı. Erməni saqqallıları (döyüşçüləri) 3 istiqamətdə hücuma keçdilər. Birinci dəstə Köçərli məhəlləsinə, ikinci dəstə Yuxarı Xəlfəli qapısına, üçüncü dəstə isə Mərkəzi meydana doğru irəlilədilər. Yerdə qalan silahlı quldurlar səngərlərə doldular. Köçərli məhəlləsinin girəcəyində 90 yaşlı, gözəl ev-eşiyi olan Abbas bəyin evi yerləşirdi. Erməni silahlılarından ikisi Abbas kişini tanıyırdılar. Vaxtılə «dostluq» etmişdilər. Onlar Abbas bəyi çağırdılar ki, silahını yerə qoy bizim səninlə işimiz yoxdur. Abbas bəy sadəlövhlük edib eyvana çıxdı. Qəddar və naxələf «qonşular» Abbas kişini öldürdülər. Onun oğlu və qardaşı oğlu da öldürüldü. Meyitlərlə birlikdə evlərə od vurulub yandırıldı. Ermənilər Köçərli məhəlləsində 15 evi qarət edib yandırdılar. Əllərinə keçən müsəlmanları güllələdilər. 7 nəfər mərd şuşalı şəhid oldu.

Xəlfəli istiqamətdə hücum edən erməni silahlı dəstələri evləri gülləboran etdilər. Bu hücum vaxtı 3 nəfər mərd şuşalı balası şəhid oldu. 10 ev tamamilə qarət edilib yandırıldı.

Yuxarıda qeyd etdik ki, ermənilərin 3-cü dəstəsi mərkəzi istiqamətdə hücum etdilər. Döyüşün ilkin gedişində 3 nəfər Zarıslı sakini şəhid oldu. Bu istiqamətdə bazar da var idi ki, orada müsəlmanlara məxsus 15 dükan fəaliyyət göstərirdi. Həmin satış mağazalarında 30-a qədər şuşalı-müsəlman işləyirdi. Erməni silahlıları bazara hücum edərkən buradakı ermənilər öz dükanlarını bağlayıb silahlandılar. Bazardakı 30 azərbaycanlıdan yalnız 10 nəfəri qaça bildi. Qalanları isə dükanlarını içəridən bağlayıb orada oturdu, bir qismi isə özünə «dost» bildiyi qonşu erməni köşkünə pənah gətirdi. V.L.Velçko ermənilərə çox düzgün qiymət verərək yazırdı: «Ermənilər əzəldən ziyankar və xain xalq olublar. Onların dostluğu xəyanət özülü üzərində qurulub» («Kafkaz», SPB, 1904). Erməni etibarsızlığı onların yanına pənah gətirən 11 satıcıya qarşı özünü daha qabarıq şəkildə göstərdi. Onlar elə «dost evlərində» «dostları» tərəfindən güllələndilər. Dükanlarında qalan 9 müsəlmanın da aqibəti,

eynilə, güllələnmə ilə nəticələndi. Bütün müsəlman dükanları qarət və talan edildi. Həmin gün erməni bazarına bazarlığa gələn müsəlmanlardan bir hissəsi qaça bilsə də, ağsaqqal və ağbirçəklər qaça bilmədi. Mərhəmətini itirən erməni cəlladları yara alanlara rəhm etməyib tutduqları yerdə çox əzabla öldürmüşdülər. Həmin hadisələrin şahidi olmuş Mir Möhsün Nəvvab bu acı həqiqəti belə qələmə almışdı: «Bu qırğında ermənilər əllərinə keçən müsəlmanları böyük işgəncə ilə öldürərək, onların burun-qulağını, cinsi əlaqə üzvlərini kəsərək, başlarına mıx və mismar çalmışdılar. Meyitləri ip ilə sürüyüb dərələrə, xəndəklərə ataraq gizləyir, üzərlərində qiymətli nə varsa götürürdülər. Sonralar bu cəsədlərə baxanda məlum olur ki, cəsədlərin hər biri 5-10 yara almışdır. Cəsədlərin çoxu isə od vurulub yandırılmışdır».

Bütün yuxarıdakılar 1905-ci ilin avqustun 16-da baş vermişdi. Erməni vəhşilikləri Şuşanın hər yerinə yayıldı. Tezliklə, igid şuşalılar tüfəng, tapança, qılınc, balta, bel, külüng, yaba ilə silahlanaraq «Ya Əli» deyərək qışqırır və «Ura» sədası ilə ermənilərin üzərinə hücum etdilər. Belə bir anda müsəlman bazarındakı erməni sövdəgər və sənətkarlarından bəziləri dükanlarında gizləndilər, bəziləri azərbaycanlı dostlarına pənah gətirdilər. Alicənablığı və etibarlığı özünün həyat simvoluna çevirən təmkinli şuşalılar onların evinə pənah gətirən erməniləri hörmətlə qarşıladılar, gizlədib mühafizə etdilər. Bazarda gizlənənləri isə bazarın darğası İsmayıl bəy öz evlərinə aparıb orada saxlamış və oradan da buraxmışdır. Əlbəttə, yuxarıdakı faktlar istər ermənilərin, istərsə də azərbaycanlıların daxili aləmlərinin (mənəviyyatlarının) göstəriciləridir. Belə bir şəraitdə müsəlmanların erməni məhəlləsinə əks hücumu başlandı. 30 ildən artıq ermənilərin tədarük gördüyü hər növ silahlarını müsəlmanlara qarşı yönəltdilər. Erməni məhəlləsi şəhərin daha hündür yerində yerləşirdi. Deməli, ermənilərin döyüş mövqeyi daha əlverişli idi. Şuşakənd və Keşişkənddən gələn erməni silahlıları Topxanadakı səngərlərdən müsəlmanları irəliləməyə qoymurdular.

Döyüşün ilk günündə müsəlmanlar erməni səngərlərinə yaxın evləri linglə deşib erməni evlərinə daxil olmuşdular.

1905-ci il avqustun 17-də azərbaycanlı dəstələri hər tərəfdən hücum edərək ermənilərı mühasirəyə aldılar. İkinci və üçüncü səngərin igidləri hücuma keçib Xoca Söhrab kilsəsinə çatdılar və erməniləri oradan geri oturtdular.

1905-ci il avqustun 18-də Abbas bəyin və Məşədi Kərimin dəstələri hücum edib Böyük Kilsəyə və Cəmşid bəyin evinə çatdılar. Buradakı erməni silahları məğlub olub geri çəkildilər. Avqustun 18-də Şuşanın ətraf kəndlərindən 700 atlı və piyada-qeyrətli azəri igidləri şuşalıların köməyinə gəldilər. Onlar 6 səngərin hamısına paylanaraq hücumu davam etdirdilər.

Müharibənin üçüncü günü bir daha «erməni qəddarlığı» özünü qabarıq şəkildə göstərmişdi. Belə ki, müharibə başlamazdan əvvəl çar hökumətinin himayəsi ilə kiçik erməni tayfası məktəb tikintisinə başlanmışdı. Bu tikintidə İrandan gəlmiş 18 nəfər müsəlman fəhləsi işləyirdi. Müharibə başlayan vaxt həmin İran fəhlələri bina sahibinin (milliyyətcə erməni idi) sözü ilə, onun evində gizlədildi. Fəhlələrdən biri erməninin sözünə inanmayıb gecəykən qaçır. Ev sahibinin verdiyi xəbərlə erməni silahdaşlarından bir neçəsi həmin evə gəlir, həmin 17 nəfəri zülm və işgəncə verərək öldürürlər. Sonralar həmin 17 nəfərin cəsədi bir dərədən üstünə peyin tökülmüş halda tapılmışdır. Cəsədlərin üzərində — başlarına mismar çalınmış, qulaq, burun və başqa bədən üzvləri kəsilmiş, gözləri çıxarılmış dırnaqları, dişləri çəkilmiş və sair əlamətlər aşkar edilmişdir. Belə yerdə Fransız səyyahı Qraf-de Şolenin sözləri yada düşür. «Ermənilər çox çirkin hiyləgər, biabırçı rəzil, namərd və alçaqdırlar».

Müsəlmanlar bu erməni qəddarlığından xəbər tutmuş və onları həmin dərədən çıxarıb Cıdır düzündə dəfn etmişdilər. Bu dəhşətli «səhnə»ni görən süvari dəstələrimiz «Ya Əli» nərəsi çəkib düşmənləri oturduqları səngərdən geri çəkilməyə məcbur etdilər. 1905-ci il erməni-müsəlman davasında rus kazaklarının erməni silahlılarına kömək etməsi faktları vardır. Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, rus kazakları muzdla ermənilər tərəfindən döyüşüblər və hər bir döyüşçüyə 1000 manat pul, hər cür yeyib-içmək və sair verilirdi. Məşhur Fransız maarifçisi Ş.Furye yazmışdır ki, «mahir dələduzluq

ermənilərə dərindən xasdır... Despotizmə, təhqirlərə, satqınlığa alışmış ermənilər, məqsədlərinə nail olmaq üçün heç bir şeydən çəkinmirlər, hətta din onların əlində yalnız tamah və aldatma alətidir». Doğrudan da, rus kazaklarını ələ almaq üçün ermənilər onları hər cür vasitələrlə təmin etmişdilər.

Şuşada vuruşan ermənilərə kömək etmək üçün Gürcüstandan yüzlərlə erməni gəlmişdi. Lakin geri qayıdanda onlardan yalnız 60 nəfəri salamat qalmışdı.

Müsəlman ordusu səngərdən-səngərə irəliləyərək hər saat qələbələr əldə edirdi. Abbas bəyin dəstəsi yürüşünü davam etdirərək Manas Muğdus oğlunun evinə çatmışdılar. Mir İbrahim və Ağa Şəmilin dəstələri litoqrafiya çapxanasını ələ keçirmişdilər. Əfrasiyab və Məşədi Abış bəyin dəstələri isə məhkəmənin binasına çatmışdılar. Döyüşün gedişini durbinlə izləyən şəhərin qubernatoru müsəlmanların döyüşkənliyinə təəccüb qaldığını bildirərək demişdir: «Bu hünər heç yaponda da olmayıb. Heç bir təlim görməyən bir millətin ordusunun belə bir hünər göstərərək səngərlər tutması, doğrudan da, çox qəribədir». Qısa vaxtda, azərbaycanlı döyüşçülər yüzlərlə qulduru qanına qəltan elədi. Quldur ermənilər evlərini qoyub qaçırdılar. Böyük Kilsə, Aşağı meydan və Qapan geri qaytarıldıqdan sonra ermənilərin çoxunun səngərdə ürəyi partladı. Artıq «saqqallılar»ın qələbəyə heç bir ümid yeri qalmamışdı. Ona görə də erməni silahlılarının bir hissəsi Şuşanın Üçmix və Daşaltı tərəfindən qaçmağa başladılar. Yerdə qalan qismi isə əlacsız qalıb arvad-uşaqlarını da götürüb rus kazarmalarına qaçıb gizlənmişlər. Beləliklə, 1905-ci il avqustun 16-dan 21-dək Şuşada ermənilərin törətdikləri milli qırğın azərbaycanlıların qələbəsi ilə başa çatdı. Azərbaycanlılar, öz torpaqlarını quldurlardan azad edərək qələbə yenidən bayrağını kilsənin üstündən və Xəlfəli qapısından sancdılar.

1905-ci il Şuşa döyüşlərindəki qələbəmiz haqqın, ədalətin, obyektivliyin, məğrurluğun, mərdliyin-qəddarlıq, namərdlik, etibarsızlıq, dələduzluq üzərində qələbəsi idi.

Salamat qalan ermənilər, tezliklə, çara kədər və həyəcan içərisində teleqram vurub onlara məhvolmadan xilas olmaq üçün kömək etmələrini xahiş etdilər.

Vəziyyətin çətin olduğunu görən ermənilər xəlifəni «barış» üçün Məscidə göndərməyi qərara aldılar. Sənədli materiallardan birində yazılır ki, xəlifə qabaqda, keşişlər əllərində xaç, İncil və bayraqların bir parçası ağlaya-ağlaya məscid həyətinə daxil oldular ki, bizi əfv edin, bağışlayın. Eyni zamanda, ermənilərin xahişi ilə 1905-ci il avqustun 24-də Şeyxülislam da Şuşa şəhərinə təşrif gətirdi. Böyük ürək sahibi olan, sadəqəlbli, mərhəmətli, rəhmli, təmkinli azəri övladları olan şuşalılar, çox böyük günahlar törətmiş cəlladları bağışladılar.

Atalarımızın belə bir gözəl misalı var: «Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir».

1905-ci il Şuşanın çətin günlərində yerli əhaliyə Bakıdan çoxlu ərzaq və pul yardımı edilmişdir. Belə ki, H.Z.Tağıyev 750 pud un, 150 pud çay-qənd, xeyli neft və digər şeylər, M.Muxtarov xeyli məbləğdə pul, Məşədi Xəlil xeyli pul və ərzaq vermişdilər. Həmçinin ucqarlarda yaşayan qarabağlılar müharibə dövründə öz həmvətənlərinə kömək etmişdilər.

Bəzi hallarda isə göndərilən yardım müsəlmanlara çatmırdı. Belə ki, 1905-ci ilin çətin günləri idi. Yol bağlı olduğundan yüklə dolu 60 yük arabası yığılıb Ağdamda qalmışdı. Həmin arabadakı yükün Şuşaya çatdırılması üçün rus kazaklarına və divan məmurlarına rüşvət verildi. Arabada Məşədi Dadaş və Ağa İsmayıl da kazaklarla birgə yükə nəzarət edirdilər. Əskəranla Xocalı arasında ermənilər səngər qurmuş və Şuşaya gedən «yardım karvanı»nı dayandırdılar. Arabaları idarə edən müsəlmanlar öldürüldü. Rus kazaklar bu hadisəyə göz yumdu. Onlar ermənilərlə «razılığa gəlib», sadəcə olaraq çıxıb getdilər. Dadaş və İsmayıl kazakların ermənilərlə olub onlara xəyanət etdiklərini başa düşdülər və arabaya qoşulmuş atlardan ikisini açıb döyüşə-döyüşə oradan uzaqlaşdırdılar. Arabadakı mallar ermənilər arasında bölüşdürüldü.

Məşədi Bəşirin də qarət olması, bu baxımdan, müsəlmanlar üçün ağır zərbə idi. Məşədi Bəşir müsəlman ordusuna yeri gəldikcə mal-heyvan, ət, süd, qatıq, pendir və sair verirdi. Bu ermənilərin diqqətindən yayınmamış və onun evinə hücum edərək 200 baş qaramalını aparmışdılar.

Sülh danışıqları getməsinə baxmayaraq, 1905-ci il avqustun 22-də erməni daşnakları Şuşanın kəndlərində öz işğalçılıq siyasətini davam etdirirdilər. Həmin gün Şuşaya xəbər çatdırdılar ki, bir qrup erməni silahlısı Əsgəran səngərinə girərək Şuşaya gəlib-gedənləri güllələyirlər (öldürür və yaralayırlar). Bu xəbəri eşidən Abbas bəy Talıb bəy oğlu öz dəstəsi ilə Əsgərana gəldi və buradakı erməni daşnaklarını səngərdən çıxarıb qaçmağa məcbur etdi. Əsgərandan qaçan ermənilər meşələrdə gizlənərək yenidən toplaşdılar və avqustun 23-də onlar Xanabad kəndinə hücum etdilər. Xanabad kəndi talan və qarət edildikdən sonra erməni quldurları tərəfindən yandırıldı. Həmin gecə ermənilərin Badara kəndində qətl hadisəsi oldu. Onlar həkim Mirzə Allahqulu oğlunu, övladları Cahangir bəy və Kərim bəyi tutaraq ağır işgəncə ilə öldürdülər. Azğınlaşmış erməni quldurları yuxarıda adlarını çəkdiyimiz bəylərin nökərlərini, qadınları, ağsaçlı ananı və beşikdəki körpəni belə qətlə yetirməkdən çəkinmədilər. Badaradakı ailələrin evləri də erməni quldurları tərəfindən qarət edildikdən sonra yandırıldı.

Şuşa ərazisindəki erməni vəhşilikləri qonşuluqda yaşayan qeyrətli azəri cəngavərlərini çox narahat edirdi. Onlar bir neçə yüz atlı dəstəsi düzəldərək Minkənd, Xınzirək və başqa kəndləri erməni vandallarından xilas etmək üçün hücum etdilər. Əvvəlcədən kəndlərin ətrafına çəkilmiş səngərlərdə ermənilər müqavimət göstərsələr də, güclü azərbaycanlı dəstələri qarşısında onlar tab gətirə bilmirdilər. 4-5 saatlıq erməni müqaviməti son nəticədə məğlubiyyətlə nəticələndi. Həmin kəndlərdəki erməni quldurlarının bir qismi döyüş vaxtı öldürüldü, bir qismi qaçıb meşələrdə gizləndi, qalan hissəsi isə silahlarını atıb təslim oldular.

Erməni silahlı dəstələri öz fəaliyyətlərini davam etdirməkdə idilər. Onlar əlsiz-ayaqsız insanları da namərdcəsinə öldürürdülər. Diqqətinizi Şuşa şəhərinin yaxınlığında baş vermiş hadisəyə yönəltmək istərdim. 1905-ci ilin sentyabrında erməni quldurları Xaspoladın dəyirmanına hücum etdilər. Həmin dəyirman bir nəfər azərbaycanlı tərəfindən icarəyə götürülmüşdü. Burada ər-arvad və 4 uşaq yaşayırdılar. Erməni cəlladları

dəyirmana çatıb əvvəlcə kişini öldürdülər. Sonra qadını tutub öldürmək istəyəndə, qadın bildirdi ki, məni öldürün, amma uşaqlara dəyməyin. Quduzlaşmış cəlladlar ananın gözləri qarşısında 3 yaşlı uşağı «nişangah» etdilər (yəni «uzaq məsafədən gözü və ya alnının ortasını kim vura bilərdi» deyib, güllələdilər). Bu mənzərəni görən ana nalə çəkdi və beşikdəki körpəsinin öldürülməməsi üçün erməniyə yalvardı. Cəlladlardan ikisi irəliyə çıxıb dedilər ki, «qorxma uşağı öldürməyəcəyik». Uşağı beşikdən götürüb bələyini açdılar. Ermənilərin hərəsi uşağın bir qılçasından tutub yuxarı qaldırdılar və qüvvətli zərbə ilə hərəsi bir tərəfə çəkdi. Körpə 2 parça oldu. Bu vəhşilik ananın gözləri qarşısında baş verdi və ana ürəyi tab gətirməyib partladı.

Erməni quldurları dəyirmanda nə vardısa hamısını götürüb, sonra dəyirmana od vurdular. Belə yerdə İsveçrə şərqşünası Adam Metsin sözləri yada düşür: «Ermənilər ağ dərili qulların ən pisidir. Onlar abırsız, qəddar və namərddirlər. Ermənilər yalnız dəyənək və qorxu altında yaxşı işləyirlər».

Erməni fitnə-fəsadı davam etməkdə idi. 1905-ci il avqustun 30-da erməni yaraqlıları 14 nəfərlik dəstə ilə Şuşanın Yarma adlı yerinə gəlib yol kəsməklə, gəlib-gedənləri güllələməklə məşğul idilər. Müsəlmanlar bundan xəbər tutub həmin dəstəni dağıtsalar da, onlar daha böyük dəstə düzəldərək Yel dəyirmanı adlı yerdə pusqu qurub gəlib-gedənləri öldürdülər və izi itirmək üçün həmin öldürülənləri basdırdılar. Həmin hadisələrdən birini diqqətinizə çatdıraq: 1905-ci il sentyabrın 1-də Səfəralı oğlu Qulu kişi odun yüklədiyi atın dalınca Şuşaya (evinə) gəlirdi. O, Yel dəyirmanının yanına çatanda erməni quldurları onu tutub əvvəlcə, gözlərini çıxardılar (yəqin ki, 80 yaşlı Allah adamı Qulu kişini ağır cəza verərək öldürən «erməni saqqallısı»nın allah qarşısında cəzası daha ağır olacaqdır). Bu cür insafsız hərəkətlərlə ermənilər heç nəyə nail ola bilməzdilər. Çünki onlar öz «əməllərinə» görə nə vaxtsa, kiminsə tərəfindən layiqli cəzalarını alırdılar. 1905-ci ildə «erməni zülmünü» eşidən Almaniyanın dövlət xadimi və alimi bildirirdi ki, «Ermənilər ki, bu cür yol tutublar, çox tezliklə dünya üzündən məhv olub gedəcəklər, yer üzərində onlardan bir əsər əlamət qalmayacaqdır».

1905-ci il sentyabrın ortalarında Şuşadakı müsəlman silahlı dəstələri Xənəzək, Sissi, Qarabulaq, Xəlfəli kəndlərində erməni silahlılarını məğlub etdilər.

Şuşadakı məğlubiyyətin əvəzini çıxmaq üçün Şuşakənddən, Daşkənddən, Muxtarkənddən, Keşişkənddən, Daşaltıdan olan ermənilər 1905-ci il noyabrın 17-də bir yerə yığılıb erməni daşnakları ilə məsləhətləşdilər ki, Malıbəyli üzərinə hücum edib kəndin əhalisini məhv etməklə evlərini yandırsınlar. Həmin gecə səhər saat 5-də erməni quldurları Malıbəylini mühasirəyə aldılar. Bu hücumda yüzlərlə erməni iştirak edirdi. Ermənilər kəndi qarət etmək üçün kəl arabaları da gətirmişdilər. Erməni silahlılarının qəfil hücumu Malıbəyli kəndinin bir neçə evin səngərinin ələ keçirilməsi ilə nəticələnsə də, atlı çapar Şuşaya və Xankəndinə kömək gətirmək üçün getmişdi. Tezliklə Şuşadan Ağa Şamil və Bəşir bəyin rəhbərliyi altında dəstə Malıbəylilərin köməyinə gəldi. Bu vaxt Xankəndindən də kömək gəlib çıxmışdı. Kömək gələnədək Malıbəyli igidləri erməni silahlı dəstəsini kəndin içərilərinə buraxmadılar. Şuşa şəhərindən və Xankəndində gələn dəstələrin köməyi ilə Malıbəyliyə hücum edən ermənilər geri oturuldu və qısa bir müddətdə tab gətirə bilməyib pərən-pərən olub qaçmağa başladılar. Malıbəyli döyüşündə malıbəylilər 2 nəfər itki verdi. 80 nəfərdən artıq erməni meyitini, onların özlərinin gətirdikləri (qarət üçün nəzərdə tutulmuşdu) arabalara yükləyib əsir düşən ermənilərlə göndərdilər. (Yəqin ki, erməni dəstəsi bizim dəstənin yerinə olsaydı, həmin meyitləri yandırardı). Erməni meyitləri arasında 5 nəfəri kazak paltarı geyinmiş halda idi. Belə bir vəziyyəti onlar planlı şəkildə ediblər ki, uzaqdan erməni silahlılarını rus kazakları hesab edib atəş açmasınlar.

1905-ci il noyabrın 18-də bir dəstə erməni silahlısı Qaybalı kəndinə hücum etdi. Kənd sakinləri bu hücumun olacağını əvvəlcədən bilirdilər. Ona görə də ciddi hazırlıq aparmışdılar. Həmin hücum 11 ermənının məhv olması qalanlarının qaçması ilə nəticələndi.

1905-ci ilin noyabrında Cavanşir qəzasından olan Əhməd bəyin qızı Həmidə xanım bir dəstə atlı ilə Ağdama gələrək, xalq

qarşısında böyük nitq söylədi. O çıxışında bildirdi ki, Şuşada bizim qan qardaşlarımızın çox zəhmət və əziyyət çəkməsi, şəxsən məni gecə-gündüz rahat buraxmır. Mən, bu gün 200 atlı ilə şuşalıların köməyinə getmək üçün buraya gəlmişəm. Mənə yaraşmaz ki, siz olan yerdə mən döyüşə gedim. Ona görə də sizdən xahiş edirəm, erməni daşnaklarının müsəlman qardaşlarımızın yolundan təmizlənməsinə siz də kömək edəsiniz. Həmidə xanımın çıxışını Ağdam camaatı ürəkdən alqışladı və hətta çoxu kövrəlib ağladı da. Onlar bildirdilər ki, bu gün biz, hamımız - 7 yaşdan 70 yaşadək mübarizə aparmağa hazırıq.

Həmidə xanım 200 manat pulu, 200 pud unu, 200 pud arpanı və sairi Şuşadakı əziyyət çəkən bacı və qardaşlarına göndərdi. Ağdamlı Cəfər bəy, Həmidə xanımın gətirdiklərini şuşalılara çatdırdı. Erməni fitnə fəsadının davam etdiyi bir vaxtda Şuşanın «Aşağı Bağlar» adlı ərazisində 800 nəfərlik dəstə düzəldilməsi xəbəri tezliklə ermənilərə çatdı. Şuşadakı ermənilər bu xəbəri eşidib bərk qorxuya düşdülər. Qubernatora təcili xəbər göndərdilər ki, müsəlmanlarla yenidən sülh bağlamaq istəyirlər. 1905-ci il noyabrın 18-də Gəncə qubernatoru çinovnikləri ilə birlikdə Şuşa şəhərinə gəldi. Qubernator erməniləri də buraya dəvət etmişdi. Lakin qorxudan heç kəs üzə çıxa bilmirdi. Özləri o qədər çirkin əməllər etmişdilər ki, burada onlara qarşı «nə isə» olacağından qorxurdular. Buraya yalnız 5 nəfər erməni və keşişlər gəlmişdi. Qubernator bildirdi ki, «ermənilər öz çirkin hərəkətləri ilə özlərini nüfuzdan saldılar, etibarlarını itirdilər. Çar müharibəni dayandırmağı əmr edir və sizə aşağıdakı «azadlıq-lar»ı bəxş edir:

1. Bu gündən milli məsələlər üzrə məsləhətləşmələr aparmaq üçün yığıncaqlar azaddır. Bunun üçün kimdənsə icazə almaq lazım deyil.

2. Söz azadlığı verilir sizə. Yəni özünüzə və millətinizə əhəmiyyətli və xeyirli hesab etdiyiniz məsələləri danışmağa, yazmağa və çap etdirməyə icazə verilir.

3. Vicdan azadlığı bəxş edilir. Yəni kim hansı dinə və məzhəbə istəyirsə, inana bilər.

4. Mal və can təhlükəsizliyi. Yəni milyonlarla malın və mülkün olsa, heç kəs, heç bir halda ona toxuna bilməz».

Çar «fərmanı»nı şuşalılar böyük sevinclə qarşıladılar. Mirhaşım bəy Vəzirzadə xalq qarşısında çıxış etdi. 1905-ci il noyabrın 20-də Qubernator yenidən müşavirə çağırdı və hər iki tərəfdən nümayəndələri bir yerə yığıb barışıq elan etdi. Xalqın rəyi soruşulmadan və nümayəndəsi iştirak etmədən, çarın verdiyi fərman heç də obyektiv xarakter daşımamalıdır. Çar verdiyi bu «fərman»la xalqın narazılığının qarşısını almaq, müstəmləkə hakimiyyətini möhkəmləndirmək və Azərbaycan iqtisadiyyatını öz mənafeyinə uyğun tərzdə qurmaq məqsədini güdürdü.

Beləliklə, erməni daşnaklarının xalqımıza qarşı başladığı 1905-ci il müharibəsi onların məğlub olması ilə başa çatdı. Bu haqqın, ədalətin qələbəsi idi. Xalqımız heç vaxt nahaq qan tökməyib.

1905-ci ilin noyabrında hər iki tərəfin razılığı ilə sülh əldə edilsə də, ermənilər yenə də sakit dayanmırdılar. Onlar yenə də azərbaycanlılardan oğurluq edir, tək gördüklərini öldürür, yanğınlar törədirdilər. Malıbəylidə, Kosalarda, Qaybahda, Sisyanda və Şuşanın başqa kəndlərində erməni tör-töküntüləri öz layiqli cəzalarını aldılar. 1905-ci ilin sonlarında Cənubi Azərbaycandan gəlmiş qüvvə ermənilərin cəmləşdiyi axırıncı yuvaları – Aranzəmin və Pircamal kəndləri üzərinə hücum edib darmadağın etdi. 213 nəfər erməni qulduru öldürüldü. Qalanları isə qaçıb meşədə gizləndi.

1906-cı ildə erməni daşnakları 1905-ci il məğlubiyyətinin əvəzini çıxmaq üçün hazırlıq işləri aparırdılar. Onlar silahlar — tüfəng, top, barıt alır, ərzaq, hərbi sursat gətirir, dayanmadan müharibəyə hazırlaşırdılar. Ermənilər, gələcək döyüşdə qələbə çalmağın yeganə yolunu kazak dəstələrinin və piyada rus əsgərlərinin, hərbi texnikaları ilə, onlarla birlikdə döyüşmələrində görürdülər. Bunun üçün isə Şuşanın komendantı olan general Qalaşakovu ələ almağı qərarlaşdırdılar. Erməni daşnakları, din xadimləri, saqqallıları, ziyalıları yuxarıdakı məsələni dəqiqləşdirdikdən sonra general Qalaşkovun ələ alınması işini duma başçısı, qatı millətçi, erməni Kiki

Kələntərova həvalə etdi. K.Kiki generalla «söhbət etmiş» və onun razılığını aldıqdan sonra, onu Şuşa şəhərində üsuli-idarənin rəhbəri təyin edəcəyinə söz vermişdi. Odur ki, siyasətcil Kiki azərbaycanlı nümayəndələri yanına çağırıb, «Şuşada ermənilərlə müsəlmanlar arasında əmin-amanlıq yaratmağımız lazımdır» təklifini etmişdi. Bu vəzifəyə elə adam təyin olunmalıdır ki, nüfuzlu olsun, erməni və müsəlman deyil, qeyri-millətin nümayəndəsi seçilməlidir — fikrini bildirmişdir. Kikinin işlətdiyi cümləyə fikir verin: «Hərçənd ki, general Qalaşakov həmişə ermənilərə xəyanət edib, bizi heç vaxt sevməyib, amma əlac yoxdur, sülh naminə o seçilməlidir».

Müsəlmanlar deyilən sözün səmimiyyətinə inanıb razılıq verdilər. Hər iki tərəfin razılığı ilə general Qalaşakov Şuşa şəhər üsuli-idarənin rəisi təyin edildi. O vəzifəyə başladığı ilk gündən «əmin-amanlıq» yaratmaq üçün bəzi tədbirlərə əl atdı. Qalaşakov iqamətgahını ermənilər məhəlləsində yerləşdirdi. Müsəlmanlar yaşayan hissədəki ermənilər, erməni məhəllələrinə köçürüldü. Kazak və əsgərlər isə erməni məhəlləsindəki çadırlarda yerləşdirildi. Erməni saqqallıları, Kiki və Qalaşakovun hazırladıqları birgə plana əsasən ətraf ərazilərdə yaşayan ermənilər öz silahları ilə Şuşaya gətirildi. Adını isə «vəziyyəti nizama salmaq üçün hərbi səfərbərlik keçiririk» kimi adlandırdılar. Tezliklə ətraf ərazilərdən 7 min erməni səfərbər edilərək Şuşada yerləşdirildi (İrəvandan, Gəncədən və başqa şəhərlərdən də gələnlər var idi). Ermənilərin 11 topu var idi ki, bunun 5-i rus əsgərlərinə, 6-sı sonradan toplanmış erməni könüllülərinə aid olmuşdur. Kiki general Qalaşakova 10000 manat rüşvət vermişdi. Generala verilən rüşvətdən əlavə atılan hər topun atəşinə görə 15 manat, əsgərlərin atdığı hər bir gülləyə görə 1 manat pul verəcəkdi. Qalaşakov 24 saat ərzində Şuşada yaşayan azərbaycanlıları tamamilə məhv edəcəyini, öldürmədiklərini isə dağlara pərakəndə edəcəyini, rus kilsəsindən başlamış Böyük məscidə kimi Rastabazarı, Meydanı, Şeytanbazarını və bütün azərbaycanlılar yaşayan evləri darmadağın edib yandırmağı öz üzərinə götürmüşdür.

General Qalaşakovun və ermənilərin başçısı Kikinin əvvəlcədən hazırladıqları plana əsasən, rus əsgərləri erməni erməni keşikçilərindən birini öldürüb müsəlmanlar yaşayan tərəfə atdılar. Sonra hay-küy qopardılar ki, Şuşadakı müsəlmanlar erməni keşikçilərinin başını kəsmiş və silahını da aparmışdır. Eyni zamanda, bu vaxt rus əsgərlərindən 2 nəfər gedib müsəlmanlar yaşayan tərəfdən ermənilər yaşayan səmtə güllələr atmağa başladılar. Əlbəttə, Qalaşakovun və Kikinin hiylələri baş tutdu. Onlar erməniləri müsəlmanlara qarşı qaldıra bildilər. General Qalaşakovun əmri ilə 10 minlik erməni və rusların birləşmiş dəstələri səngərlərə bölüşdürüldü. Müsəlmanların səngərlərini mühasirə edən quldurlar oranı gülləboran etdi.

Bununla da, 1906-cı il iyulun 12-də günorta vaxtı erməni quldurları Şuşada müsəlmanlara qarşı yenidən müharibəyə başladılar. Həmin gün ermənilər tərəfindən atılan güllə «Böyük Məscid»in sütununa dəyib oranı zədələdi. Bundan sonra yarım saat ərzində müsəlmanlar silahlanıb səngərlərə doldular. Bu vaxt, əvvəlcədən məqsədli şəkildə müsəlmanlar tərəfdən yerləşdirilən bir dəstə kazak onları başa saldı ki, bu atışma ermənilərlə rus əsgərləri arasındadır, siz narahat olmayın. Lakin axşam Köçərli məhəlləsindəki evlərə və məscidlərə erməni və rus əsgərləri od vurdular. Artıq şuşalılara məlum oldu ki, Qalaşakov dəstəsi erməni silahlıları ilə bir cəbhədə vuruşur. 1906-cı il iyulun 13-də şuşalılar bazar və dükandakı mallarını evlərinə gətirməklə məşğul ikən erməni silahlıları Köçərli məhəlləsindəki bir neçə boş evi yandırdılar. İyulun 13-də gecə əli silah tutan qeyrətli şuşalılar döyüşə başladılar. Bu vaxt hamının gözü qarşısında Köçərli məscidi ətrafında çadırda mövqe tutmuş ruslar məscidə tərəf gələn Hacı Abdullanı və Kərbəlayi Əlini güllələyib öldürdülər və onlara tərəf gələn müsəlmanı da güllələdilər. Bundan sonra rus əsgərləri (onların çoxu erməni idi) «Köçərli məscidini» yandırdılar. Ermənilər Şahzadə Bəhmanın, Mirzənin, Rzaqulu Mirzə bəyin və oğlanlarının, başqa əyanların evlərini, bu məhəllədə yerləşən hamamları od vurub yandırdılar.

Şuşada yaranmış ağır vəziyyət hər bir azərbaycanlını düşündürür və onlar əllərindən gələn köməyi edirdilər. Bəhs

etdiyimiz dövrdə, Azərbaycanda yaranmış «Difai» partiyası da erməni-müsəlman savaşanın müsəlmanların xeyrinə həll edilməsi üçün yaranmış partiya idi. «Difai» («Müdafiə») partiyasının tərkibinə milli burjuaziya, mülkədarlar və ziyalıların nümayəndələri daxil idi. Həmin partiya Azərbaycanda ermənilərin azərbaycanlılara qarşı törətdikləri milli qırğın siyasətinin qarşısını almağı qarşısına məqsəd qoymuşdur. «Difai» partiyası 1905-ci ilin yayında və payızında Əhməd bəy Ağayevin rəhbərliyi altında yaranmışdır. Partiyanın xalqın mənafeyini müdafiə edən proqramı var idi. Partiyanın rəsmi çap orqanları üzərində aypara, altı guşəli ulduz və başqa işarələr əks olunmuşdu.

Şuşanın çətin, ağır günlərində Şuşa şəhərində «Difai» partiyasının «Qarabağın birlik məclisi» adlanan şöbəsi yaradıldı. «Qarabağ birlik məclisi»nə Kərim bəy Mehmandarov sədrlik edirdi. «Qarabağ birlik məclisi» şöbəsinin 400 nəfərlik döyüşçü drujinası yaradıldı. İlk növbədə, bu 400 nəfərlik drujina erməni silahlılarına qarşı döyüşən əsgərlər idi. Eyni zamanda, həmin şöbəyə Şuşanın qabaqcıl, dünyagörmüş ziyalıları daxil olduğu üçün onlar müsəlmanların birliyini, maarifin genişlənməsini, cəmiyyətdə qanun-qayda yaradılmasını və sair məsələləri şuşalılar arasında təbliğ edirdilər. Onlar çarizmin milli qırğın siyasətinin məqsədini, çar ordusunun ermənilərlə birliyini, erməni daşnaklarının gizli məqsədlərini və ən nəhayət, qələbəmiz üçün birliyimizin alınmasını və sair məsələlərə aydınlıq gətirir, xalqı başa salırdılar.

«Qarabağ birlik məclisi» şöbəsinin Şuşada 1906-cı ildə çıxan bəyanatında bildirilirdi ki, ermənilər yenə də qan tökmək niyyətindədirlər, lakin onlar 1905-ci ildə olduğu kimi öz layiqli cəzalarını alacaqlar. Ermənilər tökdükləri nahaq qana görə ən amansız cəzalar alacaqlar. «Qarabağ birlik məclisi»nin fəaliyyəti və kəskin çıxışları general Qalaşakovu bərk qorxuya salırdı. «Difai»nin Şuşa şöbəsi Şuşada erməni quldurlarının hücumlarına tutarlı cavab verirdi.

1906-cı ildə iyulun 14-də Şuşa şəhərinin erməni hücumlarına məruz qaldığı ağır günlərdə Azərbaycanın qeyrətli oğlanları hər tərəfdən öz döyüş sursatları ilə birlikdə Şuşaya

köməyə gəldilər. Bir neçə yüz nəfərdən ibarət olan dəstələrə Sultan bəy Paşa bəy oğlu Sultanov və İbrahim bəy Əli Məmməd oğlu başçılıq edirdi.

Sultan bəy Zəngəzurda böyük hörmət sahibi, müdrik insan Paşabəyin oğludur. Sonralar Qarabağ general-qubernatoru olmuş Xosrov bəy, Sultan bəyin qardaşıdır. Sultan bəy hərb sənətini gözəl bilirdi və mükəmməl təhsilə malik idi. O, rus ordusunda xidmət etməkdənsə öz el-obasının qayğısına qalmağı, onların güzəranını yaxşılaşdırmağı üstün tutmuşdu. Onun Çalbayır yaylaqlarında on minlərlə davarı, qaramalı saxlanılırdı. Sultan bəyin yağ-pendir, konyak istehsal edən zavodları var idi. Sultan bəy, millət, vətən, torpaq qayğısı çəkən xalq içərisində böyük hörmətə malik xalq qəhrəmanı səviyyəsinə yüksəlmişdi. Sultan bəyin ermənilər haqqında fikri çox maraqlıdır: «ermənilər Qafqazlı deyillər. Onlar dünya ölkələrindən qovularkən bu yerlərdə özlərinə sığınacaq tapmışlar. Ermənilər Qafqaza gələndən bəri Qafqaz xalqları narahatdır. Biz ermənilərin Qafqazda qalıb-qalmamalarını Qafqaz xalqları ilə birlikdə həll etməliyik». Elinin vətənpərvər oğlu, qayğıkeşi, xilaskarı kimi tanınan Sultan bəy özünün yaraqlı-yasaqlı dəstəsilə şuşalıların köməyinə gəldi. O, şuşalılara bildirirdi ki, «mən Şuşanı Qarabağın tacı hesab edirəm. Əgər Qarabağı bütöv bir insana bənzətsək Şuşa onun başıdır. Əgər baş salamatdırsa, əlsiz-ayaqsız, həmin insan yaşaya bilər. Başa zərər toxunarsa, bu bütövlükdə insanın məhvi deməkdir. Beləliklə, biz bu gün mübarizə aparıb doğma Şuşamızı erməni quldurlarından təmizləməliyik».

Gecə düşən kimi Sultan bəy və İbrahim bəyin dəstələri səngərlərə bölüşərək vuruşmağa başladılar. Erməni və rusların birləşmiş dəstəsində 11 top, müsəlmanların səngərlərində isə yalnız 1 top var idi. Bu topu şuşalı bir sənətkar düzəltmişdi. Top elə bir gurultu qoparırdı ki, düşmən bu səsdən dəhşətə gəlirdi. Bürüncdən düzəlmiş top hədəfi çox sərrast vururdu. Müsəlman döyüşçüləri həmin topu iki təkərin üzərində bərkidib bütün səngər boyu gəzdirir və atırdılar. Bir gecədə erməni quldurlarının topundan və rus əsgərlərinin 5 topundan birlikdə 120 atəş açıldı.

Hətta Qalaşakovun əmri ilə evlərin partladılmasında dinamitdən də istifadə edilirdi. Rus generalı müharibənin gedişinə özü nəzarət edirdi.

Xəlfəli istiqamətində gedən döyüşlərdə xalqımızın igid, mərd oğlu İbrahim bəy düşmən gülləsinə tuş gəldi. Şəhid olmuş qeyrətli vətən övladını Böyük Məscidin həyətində dəfn etdilər. Bu hadisə heç də dəstənin döyüş əhval-ruhiyyəsinə mənfi təsir etmədi. Əksinə dəstə üzvləri öz başçılarının qanını almaq üçün çox böyük mərdliklə döyüşə atıldılar. Birləşmiş azəri xalqı onlardan qat-qat çox olan və yaxşı silahlanmış erməni-rus qüvvələri üzərinə hücuma keçdilər. Əli silah tutan bütün şuşalılar döyüşdə iştirak edirdilər. Ən nəhayət, 1906-cı il iyulun 16-da cəsarətli və igid Azərbaycan övladları birləşmiş erməni və rus qoşunları üzərində qələbə çaldılar.

1906-cı il iyulun 12-16-da baş verən erməni müsəlman davasında müsəlmanlar tərəfindən 30 nəfər şəhid olmuş, 21 nəfər yaralanmışdı. Birləşmiş erməni və rus qoşunlarından isə 500 nəfərdən çox ölmüş, 290 nəfər yaralanmışdır.

1906-cı il iyulun 21-də «möhtərəm» general, erməni və rus keşişləri, əllərində ağ və qırmızı bayraq tutmuş rus əsgər və kazakları barışıq üçün müsəlmanların yanına gəldilər. Lakin «əmin-amanlıq» yaratmağa çalışan rus generalı Qalaşakov müsəlmanlara qarşı etdiyi xəyanətə görə onu öldürəcəklərindən qorxurdu. Ona görə həmişə ehtiyatla dolanırdı. Müsəlmanlar, Qalaşakovun Şuşada törətdiyi cinayətlər barədə mərkəzi hökumətə məlumat verdilər. Çar hökumətinin Qalaşakov haqqında gördüyü «tədbir», sadəcə olaraq, onun yerinin Tiflisə dəyişdirilməsi ilə bitmiş hesab olunurdu. Şuşaya onun yerinə general Bauer təyin edildi. 1906-cı il noyabrın 1-də axşamtərəfi Qalaşakov hamamdan çıxarkən, başından aldığı 2 güllə yarasından öldü. Beləliklə, 1905-1906-cı illər şuşalıların və bütün Azərbaycan xalqının taleyinə qanlı hərflərlə yazıldı. Çox təəssüflər olsun ki, çarizmin Azərbaycanda törətdiyi milli qırğın siyasəti bununla bitmədi. 1905-1906 və 1918-1920-ci 1948-1953-cü illərdə baş verən hadisələr yüksələn xətt üzrə davam edərək, 1988-ci ildə yenidən təkrar olundu. Hər dəfə də imperiya

himayədarlarının idarəsi ilə ermənilər xalqımıza qarşı soyqırım törədərək azərbaycanlıların qanına susamışlar. Yuxarıdakı hadisələrdən gəldiyimiz nəticələrdən biri də ondan ibarətdir ki, Azərbaycanın dinc həyatını pozan qırğın və fitnələrin başqa bir səbəbi «Daşnaksütun» partiyasının mənfur «Böyük Ermənistan» xülyası və bu məqsədlə icraçıların həyata keçirdiyi «siyasətdir». Ermənilərin əsassız ərazi iddiaları tarixini nəzərdən keçirəriksə görərik ki, daşnakların həmişə məqsədləri də eyni olub, mübarizə üsulu da eynidir, məkanı da dəyişməyib, dəyişən təkcə zamandır (1905-1906, 1918-1920, 1948-1953, 1988). Bu müharibələrdə zərər çəkən xalq, bəhrələnənlər isə məkrli niyyət sahibləri, təhrikçilər və milli ədavət ideoloqlarıdır.

# XI FƏSİL

## 1918-1920-ci illərdə ŞUŞA QƏZASINDA ERMƏNİ TƏCAVÜZÜNƏ QARŞI MÜBARİZƏ

Fəsildə, mənbələrə əsaslanaraq 1918-1920-ci illərdə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının əsassızlığı, erməni təcavüzünə və Qarabağın Dağlıq hissəsində erməni terrorizminə qarşı ölkəmizin ərazi bütövlüyü uğrunda Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər, Rəsmi Ermənistanın AXC dövründəki ərazi iddiaları ilə müasir dövrdəki ərazi iddiaları arasındakı oxşarlıq əlaqələri təhlil edilmişdir.

Azərbaycan tarixinin 1918-1920-ci illər dövrü, xüsusilə Qarabağda erməni terrorizminə qarşı aparılmış mübarizə Sovet hakimiyyəti dövründə araşdırılması «məsləhət» bilinməyən qapalı mövzulardan sayılırdı. Hakim kommunist ideologiyası mövqeyindən icazə verilən formada problemə toxunulması hadisələrin mahiyyətinin saxtalaşdırılmasını və bir sıra vacib məsələlərin antimilli mövqedən izah edilməsinə gətirib çıxarmışdı. Sovet Azərbaycanı tarixşünaslığımızda Azərbaycan xalqının 1918-1920-ci illərlə bağlı tarixinin obyektiv izahı yox idi. Həmin illərlə baş vermiş siyasi hadisələrin mahiyyəti hakim ideologiyanın tələblərinə uyğun təhrif edilmiş problemə dair sənədlər və materiallar tədqiqatçılardan gizlənilmiş, tariximizin bu səhifələri təhrif olunmuş və Azərbaycanın mənafeyinə uyğun dövrü tədqiq etmiş xarici ölkə alimlərinə «burjua saxtalaşdırıcıları» damğası vurulmuşdu.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin obyektiv tədqiq edilməsi, o zaman əldə olunmuş nailiyyətlər və buraxılmış səhvlərin düzgün dərk olunması xüsusi əhəmiyyət kəsb edir.

1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək fəaliyyət göstərsə də, Azərbaycan xalqının taleyində böyük rol oynayan məhz milli dirçəliş və dövlətçilik mərhələsi, həmçinin müsəlman dünyasında ilk respublika olan Azərbaycan Xalq Cümhuriyyəti Şərq ölkələrində demokratik ideya və hərəkatların inkişafına da müsbət təsir göstərmişdir. Odur ki, Azərbaycan Xalq Cümhuriy-

yətinin ümumdünya miqyasında tarixi hadisə olması zaman keçdikcə daha böyük əhəmiyyət kəsb edir.

Bütün bunlara rəğmən Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti ilə əlaqəli müxtəlif məsələlərin, ümumiyyətlə həmin dövrdə Azərbaycanda və onun yerləşdiyi Cənubi Qafqaz regionunda tarixi hadisə və prosesləri tədqiq edən, əsasən son onilliklərdə formalaşmış tarixşünaslığın təhlil edilməsi xüsusi əhəmiyyətlidir.

Azərbaycan müstəqillik qazanandan sonra tariximizə, o cümlədən AXC-nin tarixinə maraq və diqqət artmışdır. Son illərdə AXC hökumətinin fəaliyyətinin bütün sahələri əsasən obyektiv tarixi gerçəkliyin aşkarlanması meyarı ilə öyrənilir. Buna görə də 1918-1920-ci illərdə Qarabağ bölgəsində baş vermiş siyasi-hərbi durumun və bu məsələdə böyük dövlətlərin mövqeyi ilə əlaqədar problemlərin obyektiv və hərtərəfli araşdırılması, zəngin arxiv materiallarının elmi dövriyyəyə gətirilməsi çağdaş tarix elmimizin qarşısında duran zəruri vəzifələrdən biridir.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin öyrənilməsinə maraq hələ Cümhuriyyətin öz dövründə başlamışdı. AXC-nin siyasi xadimləri tərəfindən yazılmış ölkə daxilində və xaricdə çap edilmiş əsərlərdə dövrün müxtəlif məsələlərinə, o cümlədən Qarabağa Ermənistan ekspansiyası ilə bağlı məsələlərə toxunulmuşdu. Ə.M.Topçubaşovun, M.Ə.Rəsulzadənin, A.Ziyadxanovun, R.Vəkilovun, C.Hacıbəylinin, Y.V.Çəmənzəminlinin və digər ictimai-siyasi xadimlərin müxtəlif illərdə yazdıqları məqalə və əsərlərdə Azərbaycan tarixinin bu dövrünün bir sıra məsələləri ilə yanaşı Ermənistan-Azərbaycan münaqişəsi, erməni millətçilərinin Qarabağda separatçılıq hərəkətləri böyük dövlətlərin isə məsələyə münasibətləri məsələsi də öz əksini tapmışdır. Bu məsələnin əhəmiyyəti ondadır ki, həmin şəxslər o dövrdə baş verən hadisələrin bilavasitə iştirakçıları idilər.

M.B.Məmmədzadənin 1938-ci ildə Berlində, 1991-ci ildə Ankarada yenidən nəşr olunmuş «Milli Azərbaycan hərəkatı» kitabında Azərbaycan tarixinin XIX əsr mənzərəsi və XX əsrin əvvəllərində baş vermiş erməni-azərbaycanlı münaqişələri ətraflı

işıqlandırılmışdır. Müəllif, erməni millətçilərinə Çar və Sovet Rusiyasının hərtərəfli kömək göstərdiyini faktlarla sübut etmişdir. Əsərin elmi dəyəri ondadır ki, müəllifin özü həmin hadisələrin bilavasitə şahidi olmuşdur [1].

Paris Sülh Konfransında Ə.M.Topçubaşovun məsləhətçisi olmuş M.Mehdiyevin «Qafqaz problemi» kitabında Versal konfransında ermənilərin ərazi iddiaları, Qafqaz barəsində böyük dövlətlər arasında ziddiyyətlər və digər mühüm məsələlər öz əksini tapmışdır.

Bolşeviklər Azərbaycanda hakimiyyətə gələndən sonra Cənubi Qafqaz regionunda onların yeritdikləri «Leninçi milli siyasət» və böyük dövlətlərin Qafqazdakı milli münaqişələrə ziddiyyətli münasibəti barədə böyük və kiçik həcmli xeyli əsərlər yazılmışdır. Bunlardan R.Arski, S.T.Arkomed, V.A.Qurko-Kryajin, B.A.Boryan, S.Y.Xeyfes, O.Minasyan və digərlərinin əsərlərinin adlarını çəkmək olar [2].

Yuxarıda adı gedən müəlliflərin əsərlərində Azərbaycanın 1918-1920-ci illər tarixinin bəzi məsələlərinə, o cümlədən Cənubi Qafqazdakı milli münaqişələrə də toxunulmuş, həmin hadisələr yeni formalaşan bolşevik ideologiyası baxımından izah edilmişdir. Eyni zamanda, bu əsərlərdə Ermənistanın ərazi iddiaları, Zəngəzurda erməni vəhşilikləri, Qarabağda daşnak qiyamı, onun ağır nəticələri işıqlandırılmışdır.

Qeyd etmək lazımdır ki, XX əsrin 20-30-cu illərində və ondan sonrakı dövrdə erməni tarixşünaslığında Ermənistan-Azərbaycan münaqişəsinin tarixi tamamilə təhrif edilmiş, erməni tarixçiləri öz əsərlərində «Böyük Ermənistan» xülyasını ideoloji baxımdan əsaslandırmağa çalışmışlar. Bunlardan R.Hovvannesyanı, S.Atamyanı, L.Lüləyanı, R.Süninin və digərlərinin əsərləri məhz bu səpgidədir. Bu gün də xarici dövlətlərdəki erməni və ermənipərəst nəşrlərində bu proses davam edir [3].

Azərbaycanda yazılmış tarixi əsərlər içərisində ölkənin siyasi tarixinə dair yazılanlardan bir çoxunda (müəlliflər: Y.Mahmudov, D.Hüseynova, D.Seyidzadə, E.Əliyev, İ.Bağırova, A.Balayev, S.Mustafayeva, D.İsmayılzadə, N.Tahirzadə, S.Talıbova və b.) XIX-XX əsrlərdə Azərbaycan-Rusiya

münasibətləri, çarizm siyasətini Azərbaycanda həyata keçirənlər, rus kəndlilərinin Zaqafqaziyaya, o cümlədən Azərbaycana köçürülməsi, Azərbaycan ziyalıları, Azərbaycanda təhsil, Rusiya ali məktəblərində təhsil alan azərbaycanlılar, Azərbaycanda siyasi təhsil məsələləri, Azərbaycan məktəbləri, maarif məsələləri, Azərbaycan burjuaziyasının maarifçilik fəaliyyəti və s. məsələlərin tədqiqinə daha çox yer verilmişdir.

1918-1920-ci illərdə baş vermiş Ermənistan-Azərbaycan müharibələrinin, erməni millətçilərinin Qarabağın dağlıq hissəsində separatçılıq hərəkətlərinin tarixi kökləri, hadisələrin gedişi və erməni millətçilərinin havadarları haqqında məlumat toplamaq olduqca çətindir. Ona görə ki, vaxtilə bir sıra arxiv sənədləri müxtəlif yollarla Azərbaycandan Ermənistana aparılmışdır. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivində mövcud olan bir sənəddən məlum olur ki, Qarabağ general-qubernatorluğunun arxivi vaxtilə Şuşadan Yerevana aparılmışdır [4]. Bu haqda 1924-cü ildə Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin katibi işləmiş S.Manutsiyanın, daha sonralar 1930-cu il aprelin 29-da Bakıdakı S.Şaumyan adına Partiya Tarixi İnstitutunun direktorunun Raxetova yazdığı məktubda da məlumat vardır [5].

Erməni tarixçiləri Dağlıq Qarabağ hadisələrinin başlama səbəblərini onunla izah edirlər ki, 1918-1920-ci illərdə guya Müsavat hökuməti Dağlıq Qarabağı zorla Ermənistandan qoparmışdır. Onlar belə hesab edirlər ki, Dağlıq Qarabağ ermənilərinin Azərbaycanın hakimiyyətini tanımaq haqqında VII qurultayında qəbul etdikləri qərar Xosrov bəy Sultanovun təzyiqi nəticəsində qəbul olunmuşdur. Bu müəlliflər hətta ingilis komandanlığının da X.B.Sultanova köməklik göstərdiyini qeyd edirlər.

Erməni tarixçilərindən V.Mikaelyan və L.Xurşudyan faktları saxtalaşdıraraq belə hesab edirlər ki, Qarabağın erməni əhalisi 1918-1920-ci illərdə Azərbaycanda Sovet hakimiyyəti qurulana qədər müsavatçı bandaların hücumundan özünü qorumuş və Azərbaycandan ayrı «siyasi müstəqilliyini» saxlaya bilmişdir [6].

Azərbaycan Xalq Cümhuriyyəti hərb tarixinin tədqiqində

P.Darabadinin «Военные проблемы политической истории Азербайджана начала XX века» (Bakı, 1998) kitabı qeyd edilməlidir. AXC Hərb tarixinin tədqiqində başqa bir müəllifin adı çəkilməlidir. Son illərdə çıxmış M.Süleymanovun «Azərbaycan Ordusu (1918-1920)» adlı kitabı həqiqətən hərb tarixində yeni bir səhifə olmuşdur.

XX əsrin 60-80-ci illərində respublikamızda çap olunmuş əsərlərdə də AXC-nin yarandığı tarixi şərait, o dövrdə beynəlxalq aləmdəki ictimai-siyasi vəziyyət, Antanta dövlətlərinin Azərbaycana münasibəti, xüsusilə Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağda ermənilərin separatçı hərəkətləri ilə bağlı məsələlər hakim ideologiyanın tələblərinə uyğun sovetlərin totalitar, saxta beynəlmiləlçi çərçivəsi daxilində araşdırılmışdır. Bunlardan akademik C.B.Quliyev, Ə.S.Sumbatzadə, T.Köçərli, Y.Tokarjevski kimi tədqiqatçıların adlarını çəkmək olar [7]. Bununla yanaşı Akademik C.Quliyev, T.Köçərli və İ.Əliyevin 90-cı illərdə nəşr olunmuş əsərlər Dağlıq Qarabağla bağlı tarixi həqiqətin ortaya çıxarılmasında mühüm rol oynadı. 90-cı illərdə 1918-1920-ci illər dövründən bəhs edən bir sıra kitablar çap olunmuşdur [8]. Bunların içərisində T.Köçərlinin «Qarabağ: Yalan və həqiqət» və «Yaddan çıxmaz Qarabağ, Nəqşi-Cahan Naxçıvan» kitabları xüsusilə qeyd olunmalıdır. Bu kitablarda Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları tarixi dövrlər üzrə verilmiş, Dağlıq Qarabağ hadisələrinin köklərinin hələ 1920-ci ildə bolşeviklər tərəfindən qoyulması sənədlərlə göstərilmişdir.

1917-1920-ci illərə aid tarixi əsərlərin müəlliflərindən – A.Rayevski, Y.Ratqauzer, N.Pçelin, A.Popov, S.Sef, A.Steklov, A.Dubner və digərləri hadisələri tədqiq və təqdim edərkən tarixi reallığın təfsilatlarına maraq göstərmək, hadisələrin izahında ideologiyaya üstünlük vermək, mənbələrdən geniş iqtibas gətirmək və s. kimi xüsusi yanaşma üslubu nümayiş etdirmişlər. Həmin əsərlərdə «Zəhmətkeşlərə vəhşi nifrət», «dünya miqyaslı quldurlar», «müsavat nökərləri», «bəy-xan hökuməti», «öz xalqının mənafeyi ilə alver edənlər» və s. məfhumlardan gen-bol

istifadə edilən bu əsərlərdə Azərbaycan Xalq Cümhuriyyəti «Müsavat rejimi», «Müsavat dövləti» kimi təqdim edilmişdir.

Azərbaycanın 1918-1920-ci illər tarixi Qərb tədqiqatçılarında diqqət mərkəzində olmuşdur. F.Kazımzadənin, T.Svyatexovskinin, C.K.Makkartilərin, Jori de Malevilin, O.Altstadan və ingilis jurnalisti S.Liddelin əsərləri məlumdur [9]. Qərb tarixçiləri Azərbaycan tarixinin bu dövrünü nisbətən obyektiv işıqlandırmışdır. Onlar belə bir ümumi fikrə gəlmişlər ki, 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Demokratik Respublikasının yaranması qanunauyğun müsbət bir hadisə idi. Onların əsərlərində Ermənistan Azərbaycan münaqişəsinə də toxunulmuş, erməni separatistlərinin hərəkətləri bəzi hallarda ziddiyyətli şəkildə olsa da işıqlandırılmışdır. Vaxtı ilə Sovet tarixşünaslığında bu əsərlər burjua ideologiyasının mövqeyi kimi qiymətləndirilmişdi. Yuxarıda adıgedən müəlliflərin əsərlərində tədqiq olunan mövzuya aid qiymətli materiallar vardır.

1918-1920-ci illərdə Zəngəzur və Qarabağdakı hadisələrin şahidi olmuş S.Liddelin məqalələri də diqqəti cəlb edir.

ABŞ-ın tanınmış azərbaycanşünas alimi O.Altstadt «Mərkəzi Asiya icmalı» jurnalında çap etdirdiyi məqalələrində Zəngəzur və Qarabağa aid məsələlərə öz münasibətini bildirmişdir. Jorj de Malevilin kitabında ermənilərin separatçılıq hərəkətlərinin tarixi qədim dövrlərdən başlayaraq Birinci Dünya müharibəsi illərinə qədər ardıcıllıqla işıqlandırılmışdır. Makkartilərin kitabında erməni türk münasibətlərinə tamamilə yeni, obyektiv mövqedən baxılmışdır. Müəlliflər tarixi faktları üzə çıxardaraq əvvəllər təhrif olunmuş hadisələrə öz münasibətlərini bildirirlər. Onların birgə yazdıqları əsərdə erməni millətçilərinin taktikasını, özgə xalqların torpaqlarını ələ keçirmək cəhdləri aydın şəkildə faktlar əsasında açılmışdır.

Qərb ölkələrinin tarixçiləri ilə yanaşı qonşu Türkiyədə də bu dövr haqqında çoxlu kitab və məqalələr yazılıb çap olunmuşdur. Bu, onunla izah olunur ki, 1918-1920-ci illərdə qardaş Türkiyə ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında sıx əlaqələr mövcud olmuş, ərazi bütövlüyünün qorunmasında və erməni separatistlərinin hərəkətlərinin qarşısının alınmasında

Türkiyə dövləti Azərbaycana yaxından yardım göstərmişdir. 1995-ci ildə Ankarada «Qarabağ məsələsi: keçmişdən günümüzə qədər» adlı böyük həcmli kitab çap olunmuşdur. Bu kitabda qədim dövrdən başlayaraq müasir dövrə qədər erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddiaları, düşmənçilik hərəkətləri və Türkiyə dövlətinin Qarabağ məsələsində ədalətli mövqeyi açıqlanmışdır.

1996-1997-ci illərdə İstanbulda çap olunmuş «Qafqaz araşdırmaları» toplusunun II-III cildlərində Ermənistan-Azərbaycan münaqişəsinə toxunulmuş, Türkiyənin həmin dövrdə Qarabağ məsələlərinə münasibəti təsvir edilmişdir [10].

Qeyd etmək lazımdır ki, qardaş Türkiyədə ermənilərin və onların havadarlarının tarixi saxtalaşdırdıqları barədə onlarla qiymətli əsərlər yazılmışdır [11]. Bu kitablarda Ermənistan-Azərbaycan məsələsinə də geniş yer verilmişdir. Türk müəllifləri Qarabağın əzəli Azərbaycan torpağı olduğunu və ermənilərin bu yerlərə sonradan gəldiklərini tarixi faktlarla göstərirlər... Öyrənilən problemin araşdırılmasında son dövrdə çap olunmuş bir sıra elmi və publisistik əsərlərə də müraciət olunmuşdur [12].

Azərbaycan Baş Arxiv İdarəsi kollektivinin fəaliyyəti nəticəsində AXC-nin 80 illiyi ilə əlaqədar hazırlanmış materiallar məcmuələrinin işıq üzü görməsindən sonra müasir tarixşünaslıq geniş mənbəşünaslıq bazasına malikdir. Buraya ilk Azərbaycan parlamentinin fəaliyyətinə həsr olunmuş üç kitab daxildir ki, onlar parlamentin 145 iclasının stenoqramından ibarət yeganə sistemli nəşrdir və əhəmiyyətlidir.

Azərbaycan Xalq Cümhuriyyəti tarixşünaslığını zənginləşdirən kitablar siyahısına həmçinin 1918-1920-ci illərdə ölkənin silahlı qüvvələrinin yaradılması tarixini əks etdirən «Xüsusi sənədlər toplusu» da daxildir. Bu nəşr dövlətin öz silahlı qüvvələrini yaratmaq, öz ərazi bütövlüyü və müstəqilliyini qorumaq sahəsində göstərdiyi fəaliyyəti ilə bağlı olan sənəd və materialların ilk tam külliyyatıdır və mənbə kimi əhəmiyyət kəsb edir.

1918-1920-ci illər Azərbaycan tarixinin öyrənilməsində, həmin dövrdə Azərbaycanın beynəlxalq aləmdə tutduğu mövqe

haqqında C.Həsənovun monoqrafiyasının elmi əhəmiyyəti qeyd olunmalıdır. Kitabda ADR-in yarandığı tarixi şərait onun təşkili prosesi, daxili və xarici siyasəti, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, Ermənistan Azərbaycan münasibətləri, Paris Sülh Konfransında Azərbaycan nümayəndə heyətinin fəaliyyəti, konfransda böyük dövlətlərin Qafqaz siyasəti AXC-yə münasibət və digər məsələlər zəngin elmi faktlar və sənədlər əsasında geniş şəkildə işıqlandırılmışdır. Eyni zamanda müəllifin «Qarabağ: Kürəkçay müqaviləsindən bolşevik oyunlarına doğru» məqaləsi də əhəmiyyətlidir [13].

P.Darabadinin və P.Əzizbəyovanın əsərlərində XX əsrdə Azərbaycanın siyasi, hərbi tarixi və millətlərarası münasibətlər məsələləri araşdırılmışdır [14].

AXC-nin tarixi İ.Musayevin, B.Nəcəfovun, A.İskəndərovun, M.Süleymanovun, V.Quliyevin, S.Əsədəovun, İ.Məmmədovun əsərlərində geniş təhlil olunmuşdur. İ.Musayevin 1966-cı ildə çapdan çıxmış, Azərbaycanın 1917-1921-ci illər dövrünü əhatə edən sanballı monoqrafiyası Azərbaycanın Naxçıvan, Zəngəzur və Qarabağ bölgələrində azərbaycanlılara qarşı törədilmiş qanlı cinayətlər və bu bölgələrdə xarici dövlətlərin ikili siyasətini əks etdirir [15].

1997-ci ildə çapdan çıxmış: «1918-ci il mart qırğınının tarixşünaslığı» kitabının müəllifi A.İskəndərov tarixi faktlara söykənərək ermənilərin məkrli, mənfur siyasətlərini dəlillisübutlu verə bilmişdir. Kitabın üstün cəhəti də odur ki, müəllif erməniləri ifşa edən çoxlu tarixi faktları ilk dəfə olaraq üzə çıxarmışdır və dövrün təhlili üçün əvəzolunmaz mənbədir [16].

1998-ci ildə Azərbaycan Cümhuriyyətinin 80 illiyi ilə bağlı Azərbaycan Respublikası MEA-nın buraxdığı elmi monoqrafiyada AXC-nin ərazi bütövlüyü problemi ilə bağlı ayrıca fəsil vardır və əhəmiyyətlidir [17].

Verdiyimiz xülasədən göründüyü kimi, Azərbaycanın 1918-1920-ci illər tarixinə dair müxtəlif vaxtlarda bir sıra əsərlər yazılsa da tədqiq etdiyimiz mövzunun ayrı-ayrı tərəfləri Azərbaycan tarixşünaslığında indiyədək tədqiqat predmeti olmamışdır.

Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ə.M.Topçubaşov, Ə.Ağaoğlu, C.Hacıbəyov, N.Nərimanov, E.Sultanov, S.Eynullayev, M.B.Məmmədzadə, N.Minasazov və başqaları milli zəmində baş verən qırğınlara həsr edilmiş çıxışları, Qafqazın bir çox qəzet və jurnallarında dərc edilirdi. Onlar milli dözümlülüyün tərəfdarı kimi Qafqaz ocağında dinc birgəyaşayışa səsləyir, millətçiliyi mühakimə edir erməni-daşnak təhdidlərinə qarşı milli qüvvələri birliyə, ittifaqa çağırırdılar.

1918-1920-ci illərdə baş vermiş hadisələrin bilavasitə iştirakçıları olmuş siyasi xadimlərin əsərləri həmin dövr tarixşünaslığının mühüm tərkib hissəsidir. Doğrudur, bu əsərlər istifadə olunmuş metod və prinsiplər nöqteyi-nəzərindən sırf elmi-tədqiqat xarakteri daşımır, ancaq izlənilən məqsədlərə, xüsusən hadisələrin xronoloji ardıcıllıqla işıqlandırılması və onlara ümumiləşdirici baxışla yanaşılmasına görə etibarlı mənbə sayılmalıdır. Həmin əsərlərin ilk mənbə kimi bir üstünlüyü də ondadır ki, onları qələmə alan, dövrün görkəmli tarixi şəxsiyyətləri olan müəlliflər sırasında Azərbaycan Xalq Cümhuriyyəti, həmçinin Azərbaycan Sovet Respublikasının yaradıcıları və başlıca siyasi xadimləri xüsusi yer tuturlar.

AXC xadimlərinin əsas siyasi hadisələrdən bəhs edən əsərləri həm AXC dövründə ölkədə, həm də onun süqutundan sonra xaricdə çap edilmiş, onların bir çoxu isə Demokratik Azərbaycan Respublikasında yenidən işıq üzü görmüşdür. Onların sırasına M.Rəsulzadənin, Ə.Topçubaşovun, A.Ziyadxanlının, C.Hacıbəyovun, Y.V.Çəmənzəminlinin, M.Məmmədzadənin, Ş.Rüstəməbəylinin, Mir Yəqubun, R.Vəkilovun, N.Şeyxzamanovun, Ə.Əsgərov-Kəngərlinskinin və digər fəal xadimlərin əsərləri daxildir.

Bu siyahıda M.Ə.Rəsulzadənin müstəsna yeri vardır. Onun əsərlərində milli dövlətçilik ideyası xüsusi elmi maraq doğuran əsas amillərdəndir. Sosial-nəzəriyyəçilər – tarixçilər, siyasətçilər, ədəbiyyatşünaslar, mədəniyyətşünaslar, hüquqşünaslar üçün hədsiz dərəcədə maraqlı olan bir sıra məsələlər – milli Azərbaycan ideyasının təşəkkülü və inkişafı, dövlətçilik baxışlarının formalaşması, siyasi mübarizənin gözlənilməz dönüşlərlə zəngin

mürəkkəbliyi və s. qeyri-adi şəxsiyyət olan müəllifin əsərlərində öz əksini tapmışdır.

Ə.M.Topçubaşovun fakt və hadisələrlə zəngin əsərləri də AXC tarixşünaslığında xüsusi yer tutur. Azərbaycan dövlətinin səlahiyyətli nümayəndəsi, parlamentin yeganə sədri olmuş müəllifin İstanbul və Paris təəssüratları, müstəqil respublikanın öz həllini tapmamış problemləri onun əsərlərinin əsas mövzusudur.

Demokratik Cümhuriyyət dövründə insanların fikir və düşüncələrinin əsas məzmununu təşkil edən subyektiv gerçəkliyi daha düzgün anlayıb qiymətləndirmək üçün M.V.Məmmədzadə və Ə.Əsgərov-Kəngərlinskinin yazıları diqqətə layiqdir. Əgər birinci müəllifdə hadisələrə baxış və yanaşmada mübarizə əzmi üstünlük təşkil edirsə, ikincidə tarixi gerçəkliyə bədbin münasibət daha qabarıqdır. Lakin buna baxmayaraq, onların hər ikisi tarixin düzgün dərk edilməsi baxımından mühüm əhəmiyyət kəsb edən gerçəklik faktlarına istinad edir.

1918-ci il mart qırğınını ilk dəfə qətliam – soyqırım kimi qiymətləndirən M.B.Məmmədzadə 1919-cu ildə «Bəsirət» qəzetində dərc etdirdiyi «Ermənilər və biz» (№233, 234), «Qansız mümkün deyilmi» (№235), «Yeni Ermənistan və Azərbaycan» (№240), «Üç təhlükə» (№276) adlı məqalələrində erməni-daşnak qüvvələrinin məkrli siyasətini, Azərbaycan türklərinə qarşı düşmənçiliyini bütün ciddiliyi ilə açaraq kəskinliklə ifşa edirdi. O, sanki Azərbaycanın bugünkü vəziyyətindən çıxış edərək yazırdı: «Biz həmişə görmüşük: vətənimiz Şimal təhlükəsinə məruz qalarkən erməni iştahası baş qaldırır... Vətənimizin cənub-qərb hissələri qəti surətdə Ana Yurda ilhaq edilməyincə silah əldən buraxılmamalıdır. Zaqafqaziyanın asayişini istəyənlər Ermənistanı türk xalqlarının hesabına qurmaqdan imtina etməlidirlər» [18].

T.ü.e.d. Q.Ə.Hacıyevin yazdığı əsərlərin əksəriyyəti Qarabağın tarixinə həsr olunmuş və həmin əsərlərdə Qarabağın tarixən Azərbaycan ərazisi olduğu ermənilərin bölgəyə köçürülmə tarixinədək burada azərbaycanlıların say üstünlüyünə malik olması, 1918-1920-ci illərdə Ermənistanın Azərbaycana qarşı

əsassız ərazi iddiaları, Qarabağda erməni vandalizminə qarşı Cümhuriyyət rəhbərliyi tərəfindən həyatın keçirilən tədbirlər və nəticədə erməni təcavüzünün iflası və digər önəmli məsələlər təhlil edilmişdir [19].

M.Hadi «Təraneyi-əhraranə» əsərində çarizmin Zaqafqaziyada törətdiyi milli ədavəti lənətləyir. «İnsanların tarixi faciəsi, yaxud əlvahi-intibah» poemasını yazaraq, müharibələrin bəşəriyyətin həyatındakı dağıdıcı rolunu tənqid edirdi. Törədilən qırğınları nəticəsində başqaları kimi doğma Göyçəni tərk etməyə məcbur olaraq Qarabağda sığınacaq tapmış Aşıq Ələsgər «Dağlar» rədifli qoşmasında yolları bağlanmış dağlarla dərdləşirdi. M.Ə.Sabir erməni-müsəlman davası ilə bağlı yazdığı «Beynəlmiləl» əsərində fitnə-fəsadı «məlum-iblis» adlandırır, həmvətənlərini şər felinə uymamağa səsləyirdi. Ə.Hüseynzadə, A.Səhhət, A.Şaiq yaradıcılığında Vətən və millət ideyaları, azadlıq və qurtuluş motivləri xüsusi yer tuturdu. Ə.Hüseynzadə 1905-ci ildə yazdığı «Siyasəti-fürsət» əsərində çarizmin müsəlman xalqlarının azadlıq hərəkatına qarşı mürtəce münasibətini çar Rusiyasının dövlət naziri Pruçkeviçik səyahəti sərgüzəştlərindən bəhs etməklə – bu obrazın vasitəsilə ifşa edir. Qafqaz müsəlmanları arasında at oynatmaq, əzmək, döymək, əritmək kimi millətçi-şovinist siyasətin mahiyyətini açıb lənətləyirdi. C.Məmmədquluzadə «Kamança», Y.Vəzir «Dinayri qardaşlar», A.Şaiq «İntiharmı», yaşamaqmı?», Ə.Haqverdiyev «Xortanın cəhənnəm məktubları» əsərləri ilə hər şeydən öncə dostluğa, dinc birgəyaşayışa, ümumi problemləri əl-ələ verib bir yerdə həll etməyə səsləyirdilər. Milli və dini ayrı-seçkilik zəminində yeni, daha kütləvi qırğınların törədiləcəyini duymuş kimi, N.Nərimanovun «Bahadır və Sona» romanının faciəsi məhəbbət motivi əsasında təxminən iyirmi ildən sonra eyni adlı faciəsini yazması da təsadüfi olmamış, gözlənən növbəti məkr və qırğınların qarşısını almaq məqsədi daşımışdır.

Akademiyanın müxbir üzvü, t.ü.e.d., professor Y.M.Mahmudov və t.ü.e.d., professor K.K.Şükürov tərəfindən 2009-cu ildə «Təhsil» nəşriyyatında nəşr olunmuş «Qarabağ - Real Tarix-Faktlar-Sənədlər» adlı əsərdə mötəbər tarixi

mənbələrə əsaslanaraq Ermənistanın əsassız ərazi iddiaları, erməni quldurlarının Qarabağda azərbaycanlılara qarşı törətdiyi vəhşiliklər, AXC hökumətinin ermənilərin Qarabağda törətdikləri soyqırımının qarşısını almaq üçün həyata keçirdiyi tədbirlər, ermənilərin AXC daxilində separatçı fəaliyyəti, Qarabağda daşnak qiyamı, Ermənistanın Azərbaycana təcavüzü onun ağır nəticələri geniş təhlil edilmişdir [20].

Keçmiş SSRİ məkanında, o cümlədən Azərbaycanda 80-90-cı illərdə baş verən proseslərlə paralel yaranan yeni mənəvi şərait AXC tarixinə aid bir sıra problemlərin öyrənilməsinə qoyulan qadağaların aradan qalxmasına, dövrü öyrənən yeni istiqamətin – liberal və milliyyətçi tarixşünaslığın formalaşmasına imkan verdi. Onun əsas nümayəndələri olan H.Həsənov, A.Balayev, C.Həsənli, N.Maksvell, P.Darabadi, N.Nəsibzadə, R.Xudiyev və digər alimlərin tədqiqatları AXC tarixinin öyrənilməsi sahəsində xeyli iş görüldüyünü söyləməyə əsas verir.

«Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin tarixindən (1918-1980) Sənədlər və materiallar» adlı mənbədə və S.Şadunsun «Qarabağ» adlı məqaləsində («Бакинский рабочий», 21 dekabr 1922-ci il sayında) bəzi həqiqətlər təhrif olunmasına baxmayaraq, bütövlükdə Qarabağın AXC dövründə Azərbaycanın tərkibində olduğu etiraf olunmuşdur [21].

Beləliklə, mötəbər tarixi mənbələrə əsaslanaraq Qarabağın tarixinə ekskuriziv edərək deyə bilərik ki, Qarabağ Azərbaycanın qədim tarixi bölgələrindən biridir. Kiçik Qafqaz dağları ilə Kür və Araz çayları arasındakı ərazini əhatə edir. Məlumatlara görə, «Qarabağ» anlayışı XII əsrdən işlədilib, həmin əsrdən isə daha geniş yayılıb. «Qarabağ» «qara» və «bağ» sözlərinin birləşməsindən əmələ gəlib («qara» sözü türk dillərində, o cümlədən Azərbaycan dilində, rəng bildirməklə yanaşı, «böyük», «qalın», «sıx» mənasında da işlədilir). Tədqiqatçılar «Qarabağ»ın «böyük bağ», «şəfalı bağ» mənasında işlədiyini də bildirirlər. Bəzi mənbələrdə Qarabağın dağlıq hissəsi «Arsax» adlandırılır. Etimoloji araşdırmalar göstərir ki, «Arsax» sözü də Qarabağın qədim türk etnoslarından biri olan saklarla bağlıdır. «Arsax» «ər» və «sak» sözlərinin birləşməsi kimi də izah olunur. Əlverişli

təbii-coğrafi mövqeyə malik olan Qarabağ təkcə Azərbaycanın deyil, eləcə də bütün dünyanın ən qədim tarixə malik diyarlarındandır.

1918-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin yaradılması Vətənimizin şimalında Azərbaycan dövlətçiliyinin bərpası yolunda ən böyük tarixi hadisə idi. 1918-1920-ci illəri əhatə edən Cümhuriyyət dövründə torpaqlarımızın bütövlüyünün qorunması sahəsində böyük işlər görülməsinə baxmayaraq, daxildə bolşevik-daşnak qrupları Xalq Cümhuriyyətinin fəaliyyətinə maneçilik törətməyə çalışırdılar. Xarici hərbi müdaxiləçilərin və daxili antiazərbaycan siyasəti yeridənlərin birliyi nəticəsində Şərqdə və Türk-İslam dünyasında ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Fəsil yazılarkən qarşımıza aşağıdakı əsas vəzifələri təhlil etməyi qoymuşuq. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətinin meydana gəlməsinin obyektiv səbəblərini aydınlaşdırmaq; Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə mane olan qüvvələri müəyyənləşdirmək; Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan dövlətçiliyinin bərpasındakı roluna qiymət vermək; Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanması yolunda Azərbaycan milli ordusunun xidmətlərinə qiymət vermək; Xalqımızın mədəni irsinin qorunub saxlanması və inkişafında Azərbaycan Xalq Cümhuriyyətinin həyata keçirdiyi tədbirləri ümumiləşdirmək; Azərbaycan Xalq Cümhuriyyətinin siyasi vəziyyətini gərginləşdirən amillərlə aprel işğalı və ermənilərin xəyanəti arasındakı əlaqələrə dair ümumiləşdirmələr aparmaq.

Demokratik Cümhuriyyət ordusunun formalaşdığı dövrdə ölkədə mürəkkəb hərbi-siyasi şərait mövcud idi. Bu isə həm ordunun formalaşması prosesinə, həm də bütünlükdə ölkənin bütün ictimai-siyasi həyatına öz təsirini göstərirdi. Bir tərəfdən, ölkənin cənub bölgəsi – Lənkəran Azərbaycanın müstəqilliyinə yad olan qüvvələrin nəzarəti altında idi və bu qüvvələr Azərbaycan Cümhuriyyətini tanımaq istəmirdilər. Digər tərəfdən isə Qarabağ və Zəngəzur bölgəsində erməni daşnakların təcavüzkarlığı kəskinləşməkdə davam edirdi [63]. Həmin əraziləri parçalayaraq Ermənistana birləşdirmək istəyənlər hər

cür vasitələrə əl atırdılar. Bir tərəfdən də çar Rusiyasının sərhədlərini bərpa etməyə çalışan denikinçi qüvvələr şimaldan Azərbaycanın müstəqilliyinə təhlükə yaradırdılar. Bu real təhlükələrin aradan qaldırılması üçün həm hökumət, həm də Hərbi Nazirlik tərəfindən qətiyyətli addımların atılması tələb olunurdu. Bütün bunları reallaşdırması isə Gənc Müstəqil Dövlət üçün olduqca çətin idi.

Müstəqil Azərbaycan hökuməti regiondakı mübahisəli sərhəd məsələlərini siyasi yollarla həll etmək niyyəti ilə hələ 1918-ci ilin iyun ayında qonşu tərəflərə, o cümlədən Ermənistana danışıqlara başlamağı təklif etdi. Azərbaycan Milli Şurası müstəqilliyini elan etmiş qonşu dövlətə yardım məqsədi və gələcəkdə onunla vahid Qafqaz Konfederasiyasına daxil olmaq istəyi ilə 1918-ci il mayın 29-da İrəvan şəhərini Ermənistan Respublikasının paytaxtı kimi tanıdı [164]. Lakin bu xeyirxah addım iki dövlət arasındakı münasibətlərin kəskinləşib hərbi münaqişəyə çevrilməsinin qarşısını ala bilmədi. Çünki bu dövrdə Qafqazda yaranmış vəziyyəti və beynəlxalq şəraiti «Böyük Ermənistan» ideyasının reallaşdırılması üçün əlverişli sayan ermənilər Azərbaycana qarşı ərazi iddiaları irəli sürərək, onun Naxçıvan, Qarabağ və Zəngəzur mahallarında etnik təmizləmə siyasəti həyata keçirməyə başladılar. Bunun nəticəsində Azərbaycanın bir sıra bölgəsində, xüsusilə həmin mahallarda yaşayan dinc azərbaycanlı əhali Andronik, Dro və Njdenin quldur dəstələri tərəfindən məqsədyönlü soyqırıma məruz qalmış, köçkün və didərginə çevrilmişdi [72].

1914-1918-ci illəri əhatə edən Birinci Dünya müharibəsində Türkiyənin məğlubiyyəti 1918-ci ilin axırlarında ermənilərin yenidən fəallaşmasına şərait yaratdı. Artıq dövlət siyasəti səviyyəsinə qaldırılan «Dənizdən Dənizə Böyük Ermənistan» iddiaları yerli türk əhalisini görünməmiş faciələrə düçar etdi [26].

Mövcud vəziyyətdən çıxmaq üçün Azərbaycan Cümhuriyyətinin qarşısında duran əsas vəzifə erməni dəstələrinin zorakılığının qarşısını almaq və Ermənistanla normal qonşuluq münasibətləri bərqərar etmək idi. Lakin Azərbaycan hökuməti dəfələrlə müraciət etsə də, Rəsmi Ermənistan təcavüzkar

siyasətini dayandırmadığı üçün iki dövlət arasında nəinki normal münasibətlər yaratmaq mümkün olmadı, hətta əksinə bir sıra böyük dövlətlər tərəfindən dəstəklənib qızışdırılan və onların əlində oyuncağa çevrilən Ermənistan Zəngəzuru, Naxçıvanı və Qarabağın dağlıq hissəsi kimi qədim Azərbaycan torpaqlarını açıq və gizli şəkildə işğal etmək yolunu seçdi [34].

Türk xalqının qəddar düşməni olan Andronik 1918-ci ilin yayından başlayaraq Naxçıvan, Zəngəzur və Qarabağ bölgələrində Azərbaycan sərhədlərini pozub dinc əhaliyə qarşı kütləvi qırğınlara başladı. Erməni quldur dəstələri Zəngəzur və Qarabağ əhalisindən tələb edirdilər ki, ya Ermənistan hökumətinə tabe olsunlar, ya da Zəngəzuru boşaltsınlar. Lakin əhali Andronikin bu həyasız tələbini rədd edərək öz torpaqlarının müdafiəsinə qalxdı. 1918-ci ilin payızından Azərbaycan torpaqlarının müsəlman əhalisindən təmizlənməsi əməliyyatına Ermənistan hökuməti bilavasitə rəhbərlik etməyə başladı. Mənbələrdən məlum olur ki, 1918-ci ilin axırlarında daşnaklar Zəngəzurda 115, Cavanşir, Cəbrayıl, Şuşa qəzalarında 21, İrəvan quberniyasında 60-dan çox Azərbaycan kəndini məhv etdilər və əhalisini soyqırımına məruz qoydular. Həmin ərazilərin 100 mindən artıq türk-müsəlman əhalisi öz dədə-baba yurdundan qovulub didərgin oldu [37].

1918-ci ilin noyabr-dekabr aylarında türk qoşunlarının Azərbaycan ərazisini tərk etməsi Zəngəzurda və Qarabağda erməni təcavüzünün yeni bir faciəli dövrünün başlanmasına səbəb oldu. Azərbaycanlılara qarşı həyata keçirilən qırğınlar xeyli genişləndi. Həmin il dekabr ayının 2-də Gülyataq erməniləri böyük bir silahlı dəstə ilə Sırxavənd kəndi üzərinə hücum etdi. Bütün gücü ilə müdafiə olunan azərbaycanlılar 1 erməni öldürüb, 6 ermənini yaralasalar da, aparılan yüzlərlə mal-qaranı geri qaytara bilmədilər [163].

Apardığımız tədqiqatlardan məlum olur ki, müxtəlif xarici siyasi himayədarlığa can atan Andronik hərbi-maliyyə əlaqələri yaratmaq məqsədilə 1919-cu ilin yayında bir tərəfdən, S.Şaumyan vasitəsilə Sovet Rusiyasına yaxınlaşmağa, digər tərəfdən isə ermənilərin katolikosunun vasitəçiliyi ilə ingilislərlə

ittifaq yaratmağa çalışırdı [164]. Daşnakların 1918-ci ilin martında Tiflisdə keçirilən müşavirəsində onlara «... Bizim yeganə dostumuz Rusiyadır... Rusiyanın qapılarını üzümüzə bağlamayın» [165] – deyən Andronik 1918-ci ilin yayında Naxçıvanı Sovet Rusiyasının ayrılmaz hissəsi elan etmişdi. O, burada Sovet hakimiyyətinin qurulduğunu bildirmiş, iyunun 4-də isə S.Şaumyana xüsusi teleqram göndərərək, öz dəstəsi ilə birlikdə Rusiya mərkəzi hökumətinin sərəncamına keçməyə və «Bakı Kommunası»na yardım göstərməyə hazır olduğunu xəbər vermişdi [166]. Həmin teleqram barədə Leninə məlumat verən Şaumyan Andronikə cavabında yazırdı: «Culfa, Xalq rəhbəri Andronikə. Sizin 577 №-li teleqramınızı aldım. Tam mətnini Moskvaya – mərkəzi hökumətə xəbər verdim. Öz tərəfimdən Sizin şəxsinizdə əsl xalq qəhrəmanını salamlayıram» [164].

«Известия» və digər Moskva qəzetləri Andronikin Sovetlərə meylini alqışlayaraq, onun Naxçıvana dair mövqeyini və yürütdüyü siyasəti «Sovet Rusiyasının böyük qələbəsi» kimi qiymətləndirirdilər. Andronikin Sovet Rusiyasına istiqamətlənməsi və «Bakı Kommunası»nı müdafiə etməsini daşnak liderlərindən A.Camalyan 1918-ci il avqustun 16-da alman hərbi missiyasının başçısı general Fon Kresslə görüşündə təsdiqləmişdi: onun fikrincə, Andronik Zəngəzurdan Qarabağa keçmək, türklərə arxadan zərbə endirmək və Bakıya yol açmaq istəyirdi [166].

Mənbələrdən məlum olur ki, Andronikin Biçeraxov və Denikinlə əlaqələri var idi. O, bir sıra dövlətlərdən hərbi-siyasi və maliyyə yardımı alırdı [167]. Andronik Azərbaycan torpaqlarında soyqırım siyasəti yeridərkən Ermənistan rəhbərliyi ilə sıx əlaqələrə malik olmuş və hətta xaricə qaçdıqdan sonra, bir sıra məclislərdə, o cümlədən də Paris sülh konfransında daşnakları təmsil etməyə çalışmışdı [168].

Rusca «Azərbaycan» qəzeti 17 noyabr 1918-ci il sayında yazırdı ki, Ermənistan silahlı qüvvələrinin, ilk növbədə isə Andronikin quldur dəstəsinin Naxçıvan və Zəngəzurdakı qəsbkarlığının genişləndiyi bir vaxtda Qarabağın Şuşa qəzası problemi meydana atıldı. Belə ki, Ermənistanın hiyləgər siyasi

təbliğatı və güclü hərbi yardımı nəticəsində Qarabağın Şuşa qəzasında kök salmış ermənilər 1918-ci ilin iyul və sentyabr aylarında keçirdikləri qurultaylarda bu mahalın müstəqilliyini elan etdilər [168]. Bunun ardınca isə 1918-ci ilin payızında Zəngəzurun bir hissəsində möhkəmlənən Andronik burada bir növ erməni «qubernatorluğu» təşkil edərək, Gorusu onun «mərkəzi»nə çevirdi, sonra da paytaxtı «Şuşa olacaq» «Kiçik Ermənistan» dövlətini yaratmağa çalışdı [169].

ARDTA və ARPİİSSA-də saxlanılan sənədlərdən məlum olur ki, 1918-ci ilin sentyabrında Türkiyənin hərbi siyasi yardımı vasitəsilə Bakıdakı hərc-mərcliyə son qoyan Azərbaycan rəhbərliyi dövlətin ərazi bütövlüyünə edilən qəsdlərə qarşı dövlət müstəqilliyinin saxlanması və möhkəmləndirilməsi, ölkənin ərazi bütövlüyünün təmin olunması məqsədilə bir sıra hərbi-siyasi və iqtisadi-maliyyə tədbirləri həyata keçirməli oldu [170]. Mudros müqaviləsinə əsasən, Türkiyə qoşun hissələrinin Qarabağdan, o cümlədən də Şuşa qəzasından, Zəngəzur və Naxçıvandan çıxması ilə Azərbaycanın ərazi bütövlüyü və onun əhalisinin taleyi yenidən təhlükə qarşısında qaldı. Çünki Türkiyə silahlı qüvvələri bölgəni tərk etdiyi zaman azərbaycanlı əhali özünü və torpağını qorumaq üçün hələlik qüvvətli dövlət qurumlarına, nizami hərbi hissələrə malik deyildi. Regionda əcnəbi müttəfiqlərin, xüsusən ingilislərin ikili siyasət yürütdükləri bir şəraitdə separatçı ermənilər fəallaşmışdılar [171]. Buna görə də istər Azərbaycan hökuməti, istərsə də Qarabağda və həm də Şuşa qəzasında milli-vətənpərvər siyasi qüvvələr tanınmış, nüfuzlu şəxslər tərəfindən Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi istiqamətində məhəlli səciyyə daşısa da, yaranmış şəraitlə uzlaşan, müəyyən əhəmiyyət kəsb edən tədbirlər görürdü.

Ermənistan hökuməti tərəfindən ruhlandırılan, maliyyələşdirilən və təchiz olunan Andronik və onun quldur dəstəsi Qarabağda və o cümlədən Şuşada yeni-yeni özbaşınalıq və vəhşiliklər törədirdi.

Andronikin Qarabağda «etnik təmizləmə» fəaliyyəti 1918-ci il noyabrın ikinci yarısında özünün yeni, azərbaycanlı əhali üçün daha faciəli mərhələsi başladı. Onun quldur dəstələrinin

1918-ci il noyabrın 22-də Şuşa qəzasına soxulması, qəzanın kəndlərini viran etməsi, əhaliyə divan tutması nəticəsində qısa müddətdə burada 30-dan çox azərbaycanlı kəndi dağıdıldı [181].

Andronikin quldur dəstələrinin Qarabağda və o cümlədən Şuşada törətdikləri özbaşınalıqlar və qanlı hadisələr barədə ayrıca məsələ Azərbaycan parlamentinin 1918-ci il dekabrın 20-də keçirilmiş fövqəladə iclasında müzakirə olundu [182]. Hökumətin gördüyü tədbirlər haqqında F.X.Xoyskinin çıxışı və onun müzakirəsindən sonra Parlament Azərbaycanın ərazi bütövlüyünün qorunması və təcavüzə məruz qalmış əhaliyə mənəvi və maddi yardımın göstərilməsi istiqamətində aparılan işlərin gücləndirilməsi barədə qərar qəbul etdi.

Arxiv sənədlərində göstərilir ki, erməni silahlı dəstələrinin azğınlığı getdikcə daha dəhşətli xarakter alırdı. Bu özbaşınalıqlara qarşı qətiyyətli mübarizə aparmaq üçün Nazirlər Şurası 15 yanvar 1919-cu il tarixli iclasında Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları üzrə müvəqqəti general-qubernatorluq yaradılmasını qərara aldı. Müvəqqəti general-qubernatorluğa fövqəladə səlahiyyətlər verilməsi nəzərdə tutulmuşdu [283].

Nazirlər Şurasının 1919-cu il 15 yanvar tarixli iclasında Xosrov bəy Sultanov Qarabağın general-qubernatoru vəzifəsinə təsdiq edildi və aprelin 3-də onun səlahiyyətləri müttəfiq qoşunlar komandanlığı tərəfindən də tanındı [284].

Qarabağ general-qubernatorluğunun təşkilinin zəruriliyi aşağıdakı amillərlə şərtlənirdi: Rəsmi İrəvanın hərtərəfli dəstəklədiyi bölgə ermənilərinin separatçılıq hərəkətləri və yerli müsəlman əhalisinə qarşı törətdikləri zorakılıqlar; Andranikin silahlı quldur dəstəsinin mahallara soxulmasından sonra burada vəziyyətin daha da ağırlaşması; həmin qəzaların, xüsusən də Zəngəzurun Gəncə qubernatorluğunun tabeçiliyində olmasının çətinlikləri.

ARPİİSSA-də saxlanılan sənədlərdən məlum olur ki, Qarabağ general-qubernatorluğunun yaradılması haqqında Azərbaycan hökumətinin qərarı Qarabağda və o cümlədən Şuşada müsəlman əhaliyə qarşı qırğınların genişlənməsinə yeni bir təkan verdi. Andranikin quldur dəstəsi isə Zəngəzur istiqa-

mətindən Qarabağın içərilərinə doğru irəliləyərək qarşısına çıxan bütün kəndləri talan etdi [185]. O, Şuşanın 35 kilometrliyinə çatmışdı. 1919-cu il fevralın ikinci yarısında 200 nəfərlik ingilis qoşun bölməsinin Şuşaya gəlməsi silahlı quldur dəstəsinin irəliləməsinin qabağını aldı [186].

ARPİİSSA-də saxlanılan sənədlərdə göstərilir ki, 1919-cu ilin aprel ayında Qarabağ o cümlədən Şuşa ermənilərinin 5-ci qurultayı çağırıldı. Burada başlıca olaraq erməni – Azərbaycan münasibətləri müzakirə olundu. Şovinist-millətçi ünsürlərin təsiri və təzyiqi altında qurultay belə bir qərar qəbul etdi ki, Azərbaycan hökuməti ilə əlaqəsi olan hər hansı bir dövlət idarəçiliyi forması qəbul edilə bilməz [187]. Yəni qurultay bir daha erməni qüvvələrinin təcavüzkar xəttini təsdiqlədi və ermənilərin Azərbaycan torpaqlarına olan təcavüzkar iddialarından əl çəkmədiyini nümayiş etdirdi.

Demokratik Azərbaycan Cümhuriyyəti hökumətinin öz ərazisində general-qubernatorluq yaratmasını və X.Sultanovu ona başçı təyin etməsini Ermənistan hökuməti genişmiqyaslı siyasi-diplomatik hay-küylə qarşıladı. Ermənistan Xarici İşlər Nazirliyinin beynəlxalq təşkilatlara və dövrün sözükeçən nüfuzlu dövlətlərinə, Azərbaycan rəhbərliyinə ünvanlandığı çoxsaylı teleqram və etiraz notalarında, daşnak mətbuatında («Vpered», «Aşxatavor» və s.) Azərbaycan hökuməti «Ararat Respublikasının hüquqlarına qəsd etməkdə», qonşu xalqlar arasındakı münasibətləri pozmaqda təqsirləndirirdi. Vəziyyətdən yeganə çıxış yolu kimi, bölgə ermənilərinə ya hər hansı bir general-qubernatorsuz yaşamaq imkanı verilməsi, ya da heç olmazsa burada müvəqqəti ingilis general-qubernatorluğunun yaradılması məsləhət görülürdü [188].

Rəsmi Ermənistanın Azərbaycanın daxili idarəçiliyi işlərinə kobudcasına müdaxilə cəhdlərinə qarşı xarici işlər naziri əvəzi A.Ziyadxanovun Ermənistan hökumətinə etiraz notalarında Azərbaycan tərəfi özünün Qarabağa dair tarixi-etnik hüquqlarını bir daha xatırlatmış, onun daxili işlərinə hər hansı müdaxiləyə yol verilməyəcəyini, bütün münaqişələri sülh yolu ilə həll etməyə tərəfdar çıxdığını bildirmişdi.

Ərazidə ikili siyasət yürüdən ingilislər əvvəlcə Zəngəzur qəzasının bir hissəsinin Ermənistana verilməsini bildirsələr də, az sonra Azərbaycan hökumətinin Qarabağ general-qubernatorluğu yaratmasını himayə etmişdilər [189]. Bu, erməniləri xeyli çaşdırmış və narazı salmışdı. Onlar «müxtəlif dəlillər» gətirməklə və cürbəcür tədbirlərlə Böyük Britaniya hökumətini öz «tarixi hüquqları»na inandırmağa cəhdlər göstərmiş, öz mənafelərinə uyğun şərtlər nümayiş etdirmişlər.

Bütün bunlarla yanaşı ingilislər ermənilərin şərtlərini bəzən diplomatik üsulla, bir sıra hallarda isə hədə yolu ilə rədd etmişdilər. Şatelvorqun 1919-cu il 3 aprel tarixli bəyanatı ilə X.Sultanovun general-qubernator vəzifəsinə təyinatını tanımaqla ingilislər Andranikin silahlı dəstəsinin bölgədən çıxarılması tələbini irəli sürdülər [190].

Bütün bunlara əsaslanaraq belə bir nəticəyə gəlmək olar ki, Qarabağ və o cümlədən Şuşaya dair ingilis siyasəti bütövlükdə ziddiyyətli səciyyə daşımışdır. Bunu X.Sultanovun apardığı təhlil və gəldiyi nəticələr də təsdiqləmişdir. İngilislər vədlərinə xilaf çıxaraq, bölgələrdə hakimiyyəti əslində Azərbaycan deyil, Erməni Milli Şurasına vermiş, hətta ermənilərin Qarabağ və onun bir hissəsi olan Şuşada möhkəmlənməsinə mane olan bir şəxs kimi Xosrov bəyi vəzifəsindən kənarlaşdırmağa cəhd göstərmiş, bütün bunlarla da ermənilərin bölgədə çoxlu zorakılıq hərəkətlərinə yol verməsinə, Azərbaycan hökumətini tanımamasına şərait yaratmışdılar. 1919-cu il iyun ayının 4-də Qarabağ general-qubernatoru Xosrov bəy Sultanovun Şuşa-Yevlax yolunun təhlükəsizliyini təmin edilməsi üçün Şuşa ətrafında və yol boyunca hərbi postlar yaratması erməni millətçilərini daha da qəzəbləndirmiş və nəticədə onların silahlı bölmələri Azərbaycan hərbçilərinin postları üzərinə hücum etmişdilər. Bu silahlı basqın zamanı 4 azərbaycanlı əsgər şəhid olmuşdu [191].

Azərbaycan əsgərlərinə qarşı belə təxribatın həyata keçirilməsi kütləvi təcavüzün başlanmasına bir işarə oldu. Ermənilər Şuşa-Yevlax yolu ilə hərəkət edən Azərbaycan köçlərinin üstünə hücum çəkdilər. Köç adamları arasında da ölənlər və yaralananlar oldu. Bu hadisələr böyük əks-səda verərək, bir

sıra yaşayış məntəqələrində silahlı qarşıdurmaya gətirib çıxartdı. Bəzən yerlərdə bu silahlı qarşıdurmanın kütləvi qırğınlara çevrilməsi üçün general-qubernatorun xahişi ilə qoşun bölmələri göndərildi. Lakin bütün münaqişə məntəqələrinə hərbi qüvvələrin göndərilməsi mümkün deyildi. Çünki qoşunların səpələnməsi Xankəndi qarnizonunun zəifləməsinə və ermənilər tərəfindən güclü hücumlara məruz qalmasına səbəb ola bilərdi [292].

Azərbaycan hökumətinin Şuşa qəzası ermənilərinə münasibətdə yürütdüyü sülhsevər siyasət bu diyarda mövcud olan ümumi vəziyyətin tədricən dinc məcraya yönəlməsində mühüm rol oynadı. Şuşa qəzasında Azərbaycan Cümhuriyyəti hakimiyyətinin tam bərqərar edilməsi perspektivinə yerli ermənilərdə müsbət münasibətin formalaşmasına imkan verdi. Hətta danışıqların gedişində Azərbaycan hökuməti erməni ruhanilərinin dəstəyinin almağa nail ola bildi [194]. Tezliklə Qarabağ erməniləri ilə Azərbaycan hökuməti arasında 26 maddədən ibarət razılaşma bağlandı. Razılaşmada göstərilirdi ki, məsələnin sülh konfransında qəti həllinə qədər Qarabağın dağlıq hissəsinin, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarının erməni əhalisi bu ərazilərin Azərbaycan Cümhuriyyəti hüdudları daxilində olduğunu qəbul edir [195]. Razılaşmanın 5-ci bəndinə əsasən Qarabağ general-qubernatorluğu nəzdində erməni və azərbaycanlı əhalisini təmsil edən və hər tərəfdən üç nəfər olmaqla Şura yaradılması nəzərdə tutulurdu. Ümumiyyətlə, razılaşmanın Azərbaycan üçün əhəmiyyəti onda idi ki, orada Şuşa qəzası erməni əhalisinə yalnız mədəni özünüidarəetmə hüququ verilirdi [196].

1919-cu il avqustun 19-da Dağlıq Qarabağ ermənilərinin 7-ci qurultayı yekdilliklə Azərbaycan hökuməti ilə bağlanmış razılaşmanın şərtlərini qəbul etdi [197].

1919-cu il fevralın 12-dən Xosrov bəy Sultanov general-qubernator təyin edildi. General-qubernatora tapşırıldı ki, Qarabağda separatist hərəkatı ləğv edib, qayda-qanun yaratsın və yerli hakimiyyəti təşkil etsin [198].

Ermənistan hökuməti Qarabağ general-qubernatorluğunun yaradılmasına və Xosrov bəy Sultanovun general-qubernator təyin olunmasına dərhal etiraz etdi və belə iddia irəli sürdü ki,

buranın böyük hissəsi Ermənistan ərazisidir, Xosrov Sultanov isə ermənilərin düşmənidir [200].

1919-cu il yanvarın 2-də Azərbaycan Cümhuriyyətinin xarici işlər naziri Ermənistanın xarici işlər nazirinə göndərdiyi teleqramda Ermənistanın etirazını əsassız sayaraq bildirdi ki, Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzaları Azərbaycanın ayrılmaz hissəsidir. Eyni zamanda, Ermənistanın etirazı suverenliyə qəsd və Azərbaycanın daxili işlərinə qarışmaq cəhdi kimi qiymətləndirildi. Onu da qeyd etmək vacibdir ki, Ermənistan Qarabağ general-qubernatorluğunun yaradılması ilə əlaqədar öz etirazını Qafqazda Böyük Britaniya qoşunlarının baş komandanı general Tomsona və müttəfiq dövlətlərin Zaqafqaziyadakı baş komissarı Haskelə də bildirmişdi. Lakin onlar Azərbaycanın Qarabağ qubernatorluğu yaratmaq və ona general-qubernator təyin etmək hüququnu müdafiə etdilər [201].

1919-cu il iyunun 18-də Azərbaycan Ermənistana nota göndərdi. Bu notada Ermənistanın etiraz və iddiaları rədd edilərək, Qarabağ məsələsində Azərbaycan Cümhuriyyətinin daxili işlərinə qarışmamaq tələb olunurdu [202].

İyunun əvvəlində Şuşada vəziyyət yenidən gərginləşdi. Bu zaman Qarabağda baş vermiş hadisələr bilavasitə Erməni Milli Şurasının planı əsasında törədilmişdi. Bu Şuranın Qarabağda erməni və müsəlman icmaları arasında sabitliyi pozmağa yönəlmiş fəaliyyətini öyrəndikdən sonra ingilis komandanlığı hələ aprel ayında onun üzvlərinin Qarabağın hüdudlarından uzaqlaşdırılacağını vəd etmişdi. 1919-cu il iyun ayının əvvəllərində məlum oldu ki, Erməni Milli Şurası Şuşanın ermənilər yaşayan məhəlləsinə gizli yolla silah gətirir. Onların məqsədi Qarabağ yaylaqlarına qalxaraq azərbaycanlıların qarşısını almaq idi [206]. Belə olduqda, X.Sultanov köç gedən yollarda təhlükəsizliyi təmin etmək üçün Azərbaycan Ordusunun əsgərlərini təhlükəli yerlərə göndərdi və eyni zamanda Erməni Milli Şurasının üzvlərinin həbs edilib Qarabağdan çıxarılması haqqında göstəriş verdi. Buna cavab olaraq, silahlanmış ermənilər iyun ayının 4-də Azərbaycan əsgərlərinə atəşə açdılar və üç əsgər öldürüldü. Bu hadisədən sonra X.Sultanov Şuşada və ətraf

kəndlərdə qayda-qanun yaratmaq üçün fəaliyyətə başladı və ilk addım kimi Erməni Milli Şurasının üzvlərinin Azərbaycandan çıxarılmasına nail oldu. Həmin vaxt Şuşada hərbi toqquşma baş verdi və hər iki tərəfdən itkilər oldu. İyunun 6-da Şuşada sülh əldə edildi. Baş vermiş hadisə ilə bağlı Şuşa ermənilər X.Sultanova üzrxahlıq məktubu yazaraq bildirdilər ki, çox hörmətli Xosrov bəy, icazə verin Sizin şəxsinizdə Şuşa şəhərinin müsəlman camaatından dünən törədilmiş hadisə ilə bağlı üzr istəyək. Biz adını erməni qoymuş xuliqanların Sizin əsgərlərə qarşı törətdiyi zorakılıq faktından çox həyəcanlanmışıq və bu, haqlı olaraq Sizin ordunun və zabitlərin həyəcanına səbəb olmuşdur» [217]. Lakin Ermənistan hökuməti Azərbaycan Ordusunun Qarabağdan çıxarılmasını tələb edirdi. Bu tələb Azərbaycanın Xarici İşlər Nazirliyi tərəfindən rədd olundu.

Azərbaycan hökumətinin qəti mövqeyi və məqsədyönlü siyasəti nəticəsində 1919-cu ilin yayında respublikanın qanuni hakimiyyəti Qarabağda bərpa edildi. Qarabağın dağlıq hissəsində, deməli həm də Şuşa qəzasında və ermənilərin planlarına daxil olan digər yerlərdə Azərbaycanın suveren hüquqlarının bərpa edilməsində Qarabağ general-qubernatoru Xosrov bəy Sultanov böyük xidmət göstərdi. Qaniçən Andranik X.Sultanovun ciddi təkidi və müttəfiqlərin yardımı ilə nəinki Azərbaycanı, hətta bütün Cənubi Qafqazı tərk etməyə məcbur olmuşdu [223].

Beləliklə, 1918-1920-ci illər Azərbaycan xalqının həyatında çox böyük əhəmiyyət kəsb edən bir dövrdür. Azərbaycan məhz bu taleyüklü dövrdə ilk dəfə olaraq dövlət suverenliyini qazanaraq dünya birliyində layiqli yer tutmuşdur. Bu dövr xalqımızın həyatında mühüm mərhələ olmaqla yanaşı, onun gələcəyinin və istiqlalının bünövrəsini qoymuşdur. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda mövcud olmuş ictimai-siyasi, ədəbi, fəlsəfi fikrin məntiqi nəticəsi olmuşdur. Azərbaycan Cümhuriyyəti çox mürəkkəb tarixi və coğrafi-siyasi şəraitdə mövcud olmuş, məhz əlverişli coğrafi-strateji əhəmiyyətinə, təbii-iqtisadi sərvətlərinə görə o, dünyanın iri dövlət-

lərinin marağını özünə cəlb etmişdi. Gənc Respublikanın müstəqilliyinə və ərazi bütövlüyünə real təhlükə, onun milli mənafeyinin qorunması təsirli tədbirlər görülməsini tələb edirdi. Məhz 1918-1920-ci illərdə ermənilərin Azərbaycanın əzəli torpaqlarının işğalına yönəlmiş siyasəti daha geniş xarakter almış, bu isə Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi üçün ən ciddi maneəyə çevrilmişdi. Buna görə də ölkənin ərazi bütövlüyünü qorumaq üçün Azərbaycan rəhbərliyi çox böyük qüvvə sərf etməli olurdu. Bolşevik – erməni talanlarından milləti xilas etmək üçün milli ordunun yaradılması Azərbaycan Cümhuriyyətinin ən böyük xidmətlərindən biri hesab edilməlidir. Məhz qısa vaxtda formalaşdırılan güclü nizami ordu 1919-cu ildə Qarabağda o cümlədən Şuşa qəzasında Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü bərpa etməyə imkan verdi. 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyətinin topladığı böyük tarixi təcrübə, əsasını qoyduğu demokratiya, demokratik dövlət quruculuğu bu gün onun hüquqi və mənəvi varisi olan Azərbaycan Respublikasında yaranandan həyata keçirilir və inkişaf etdirilir. Tam əsasla demək olar ki, varis öz sələfinin müstəqillik və suverenlik prinsipini hər şeydən əziz və uca tutur. Azərbaycan Respublikası varisi olduğu Demokratik Cümhuriyyətin ərazi bütövlüyü prinsipinə sadiq qalacaq, torpaqlarımızı düşmən əsarətindən azad edəcəkdir!!!

## XII FƏSİL

# AZƏRBAYCANIN ŞUŞA RAYONUNDA ZORAKI KOLLEKTİVLƏŞDİRMƏ və ONUN NƏTİCƏLƏRİ (1920-1930)

Azərbaycan tarixinin 1920-1930-cu illərini əhatə edən dövrü Vətən tarixinin ən mürəkkəb və ziddiyyətli dövrlərindən biridir. Bəhs etdiyimiz dövrdə xalqımız müstəqillikdən məhrum edilmiş, Azərbaycanın dövlət idarəçiliyində yeni sistem yaranmış, ölkənin iqtisadiyyatında, cəmiyyətin ictimai-siyasi həyatında, mədəni-mənəvi aləmində köklü dəyişikliklər baş vermişdir. XX əsrin 20-30-cu illərində sovet hakimiyyətinin qurulması üçün qarşıya müəyyən şərtlər qoyulmuşudur ki, həmin şərtləri yenidən, hərtərəfli təhlil etməli və qiymətləndirilməliyik. Bu problemlərə – ictimai-siyasi durumun təhlili, hakim dairələrdə qarşıdurmalar «sovet cəmiyyətinin» qurulmasında Azərbaycan sərvətlərinin rolu acınacaqlı kollektivləşdirmə prosesi, Azərbaycanda kənd təsərrüfatı siyasəti, «milli dövlət» quruculuğunun mahiyyəti, «müstəqilliyin» görünən və həqiqi tərəfi, «xəyalı hüquqlar», «beşillik təsərrüfat planları», «mədəni quruculuq» problemləri, totalitar rejiminin və bürokratiyanın mahiyyəti, idarəetmədə inzibati amirlik sisteminin yaranması, repressiyalar və digər önəmli məsələlərin obyektiv təhlili aiddir. Bu və ya digər problemləri araşdırarkən tarixilik prinsipi əsas tutmuş, obyektiv və subyektiv amillərin qarşılıqlı əlaqələrini hərtərəfli təhlil etməyə çalışmışıq.

Azərbaycanın Şuşa rayonunda sosialist inqilabının qələbəsi və sovet idarə rejiminin qurulması, bütövlükdə ölkəmizdə, o cümlədən Şuşa rayonunda imperiyanın mənafeyinə uyğun zorakı kollektivləşmənin həyata keçirilməsi, kollektiv təsərrüfat formasının mənfi nəticələri, kolxoz quruculuğunda MTS-in rolu, kolxoz quruculuğuna qarşı üsyanların baş vermə səbəbləri, kolxoz quruculuğunun sosial-iqtisadi nəticələrinin tədqiqi və təhlili üçün A.Məmmədovun «Azərbaycanda Staxanov hərəkatı» (Bakı, 1975), F.İbişovun «Azərbaycanın kəndində sosial-siyasi

proseslər (1920-1930)» (Bakı, 1956), Əliyev X., Əlimirzəyev X. «Azərbaycanın kənd təsərrüfatının kollektivləşməsi tarixindən» (Bakı, 1956), P.Əliyevin «Sovet Dağlıq Qarabağı» (Bakı, 1983), «Qarabağ bolşeviklərinin sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizəsi» (Bakı, 1963), N.Məmmədovun «Dağlıq Qarabağın kənd təsərrüfatı (1920-1940)» (Bakı, 2003), A.Xəlilovun «Azərbaycan zəhmətkeşlərinin Lenin kooperasiya planının həyata keçirilməsi uğrunda mübarizəsi» (Bakı, 1970), C.Avanesovun «Dağlıq Qarabağda kolxoz quruculuğu» (Bakı, 1933), İ.Qasımovun «Azərbaycanda kolxoz quruculuğu» (Bakı, 1956), N.Nərimanovun «Ucqarlarda inqilabımızın tarixinə dair» (Bakı, 1992) D.Bünyadzadənin «Kənd təsərrüfatı kooperasiyası haqqında» (Bakı, 1925), C.Quliyevin «Lenin və Azərbaycanda sovet hakimiyyətinin qələbəsi və möhkəmlənməsi uğrunda mübarizə» (Bakı, 1957), Ə.Qurbanovun «Azərbaycan Kommunist Partiyasının kənd təsərrüfatının elliklə kollektivləşməsi dövründə kənddə sovetlərin möhkəmləndirilməsi uğrunda mübarizə» (Bakı, 1981), D.Qüdrətovun «Birinci beşillikdə Azərbaycanda sovxoz quruculuğu» (Bakı, 1962), Ə.Dilbazovun «Bakı fəhlələrinin Azərbaycan kəndinə köməyi (1920-1923)» (Bakı, 1959), E.İ.Məmmədovun «Kənd təsərrüfatının elliklə kollektivləşməsi ərəfəsində Azərbaycan kəndində sinfi mübarizə» (Bakı, 1961, 1967), M.Səlimovun «AKP-sı YİS-ə keçid dövründə (1921-1922)» (Bakı, 1959), Z.Şıxlınskinin «İkinci beşillik illərində Azərbaycanda fəhlə sinfi ilə kolxozçu kəndlilərin ittifaqının möhkəmlənməsi (1933-1937)», Bakı, 1961, «Azərbaycan kəndində sovet quruculuğu (1926-1932)», (Bakı, 1975) və digər monoqrafiyalardan Arxiv sənədlərindən (ARDTA-də saxlanılan, f, 17, 27, 130, 139, 194, 1114, 61, 411, 52, 1, 2, 379, 795, 796; ARPİİSSA-də saxlanılan – fond 74, 1, 2, 240, 248 sənədlərdən, dövrü mətbuat materiallarından, Partiya qurultayları, konfransları, plenumları, Zaqafqaziya və Azərbaycan haqqında partiya qərarları, Ümumrusiya sovetlər qurultayları, plenumları, Zaqafqaziya və Azərbaycan qurultayları, konfransları, plenumları, qərarları 1920-1930-cu illərə aid rəsmi sənədlərdən və digər mənbələrdən istifadə edilmişdir.

Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Qarabağ bölgəsi Sovet Rusiyasının başlıca iqtisadi bazası, xammal mənbəyi idi. 1918-1920-ci illərdə belə bir tükənməz mənbədən məhrum olan Sovet Rusiyası «sosializm» bayrağı altında 1920-ci ilin aprelindən şimali Azərbaycana qarşı «zəfər yürüşünə» başladı. Əslində imperiya öz məqsədlərini V.İ.Leninin Qafqaza (Sminq və Orconikidzeyə) yazdığı teleqramda bəyan etmişdir. Teleqramda göstərilirdi ki, «Azərbaycanı tutmaq bizə son dərəcə və son dərəcə zəruridir. Çalışın bütün diqqətinizi və səyinizi bu işə yönəldin» [1]. Bundan sonra işğalçı XI Ordu Bakıya daxil oldu və 28 may 1920-ci ildə Müstəqil Azərbaycan dövlətinin varlığına son qoyuldu. İmperiya Azərbaycanı işğal etməklə keçmiş müstəmləkələrini yenidən bərpa etdi. Hətta, həmin dövrdə imperiyaya başçılıq edən V.İ.Lenin öz bəyanatında bildirirdi ki, «Azərbaycanın ələ keçirilməsi ilə Sovet Rusiyasının vəziyyəti yaxşılaşmışdır, indi Rusiya sənayesini inkişaf etdirə bilən iqtisadi bazamız vardır» [2]. Deməli, Rusiya tərəfindən Azərbaycanın işğalının ən başlıca iqtisadi amili vətənimizin tükənməz yeraltı və yerüstü sərvətlərinə yiyələnmək olmuşdur. Sovet Rusiyasının Azərbaycanı işğal etməklə həm də özünün siyasi məqsədlərini həyata keçirməyə çalışırdı. Belə ki, Azərbaycan strateji əhəmiyyətli coğrafi mövqeyə malik idi və Azərbaycanın ələ keçirilməsi Gürcüstan və Ermənistanın zəbti üçün şərait yaradırdı. Eyni zamanda, Sovet Rusiyası Türk dünyasının (Azərbaycan, Türkiyə və İranın) birləşməsinə maneə olmaq, Yaxın və Orta şərq ölkələrində öz hegemonluğunu qüvvətləndirmək niyyətində idi.

Beləliklə, Azərbaycanda sosialist inqilabının qələbəsi üçün heç bir zəmin olmadığı halda, V.İ.Lenin tərəfindən əvvəlcədən hazırlanmış ssenari əsasında «Aprel çevrilişi» baş verdi. Bu vaxt Qarabağda daşnakların məkirli ərazi iddiaları daha kütləvi xarakter aldı. Qarabağda daşnaklar dinc əhaliyə qarşı təcavüzkarlıq edir, vahimə salır, qarətçilik və zorakılıqla məşğul olur, bütöv kəndləri yandırır, azərbaycanlılara qarşı qanlı terror törədirdilər. AK(b)P-nın Qarabağ Komitəsi bölgədə yaranmış çətin vəziyyətdən istifadə etdilər. Dağlıq Qarabağda gizli fəaliy-

yət göstərən bolşeviklər Bakıda 28 aprel çevrilişi xəbərini eşidib açıq fəaliyyətə keçdilər və kəndlərə öz nümayəndələrini göndərdilər. Bəhs edilən dövrdə, Dağlıq Qarabağ Bolşevik Komitəsinin katibi milliyyətcə erməni olan Akop Kamari idi. Komitənin tərkibində Ş.Şahnazaryan, B.Qaragözyan, A.Bədəlyan, A.Tataryan, A.Qevelyan və başqaları fəaliyyət göstərirdilər [3]. 1920-ci ilin aprelin 29-da Şuşa Qəza İnqilab Komitəsinin xalqa müraciəti qəbul edildi. Müraciətdə «müstəqillik» uğrunda mübarizə aparmaq üçün xalqın bolşeviklər ətrafında birləşməsi göstərilirdi. Dağlıq Qarabağın Fərəcan, Suarası, Bəşərat, Arpagədik, Tezxarab, Qaradağlı və başqa kəndlərində kəndli silahlı dəstələri düzəldən bolşeviklər, həmin dəstələri təlimatlandırıb silahla təmin etdilər və ərazidə hakimiyyətin ələ alınması üçün bütün güclərini işə saldılar [4].

XI Ordu hissələri ucqarlara «Zəfər yürüşü»nü davam etdirərək 1920-ci ilin mayın 2-3-də Yevlaxda qərarlaşdı. XI Ordunun 32-ci atıcı diviziyası buradan Qarabağ üzərinə yeridi. 12 may 1920-ci ildə XI Ordu artıq Şuşada qərarlaşmışdı. S.Orconikidze Şuşadan Moskvaya V.İ.Leninə teleqram vurub bildirdi ki, Sizin planınızı Qarabağda həyata keçirdik... Əhali XI Ordu hissələrini böyük sevinclə qarşıladı... » [5].

Orconikidzenin bu sözlərinin məntiqi mənasını açarkən belə qənaətə gəlmək olar ki, Qarabağda yaşayan azərbaycanlılar daşnak-erməni hücumlarından təngə gəldikləri üçün XI Ordunun gəlişini yaxşı qarşılamalı idilər. Ərazidə yaşayan ermənilər isə öz gizli, məkirli niyyətlərini həyata keçirmək üçün XI Ordunun gəlişinə sevinir və onları hər cür ərzaqla təmin edirdilər. Hətta tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Qarabağ istiqamətində hücum edən XI Ordu sıralarında çoxlu ermənilər var idi [7]. Bu da bir həqiqətdir ki, ordu sıralarında Qarabağa gələn vandallar öz silahları ilə daşnakların tərəfinə keçmiş və onların ərazi iddialarının həyata keçirilməsinə kömək etmişdilər.

1920-ci il mayın 26-da Tağverd kəndində Qarabağ kəndlilərinin X qurultayı çağırıldı. Qurultayda hakimiyyətin Qarabağ inqilab komitəsinin əlinə keçdiyi elan edildi [5]. Qarabağda fövqəladə komissar vəzifəsinə xalq maarif və dövlət nəzarəti

komissarı D.X.Bünyadzadə, Dağlıq Qarabağ İnqilab Komitəsinin sədri vəzifəsinə isə Sako Ambarsumyan təyin edildilər. İnqilab komitəsi Dağlıq Qarabağda ilk ali qanunverici və icra hakimiyyəti idi. Rus, erməni silahlı dəstələrinin köməyi ilə Dağlıq Qarabağın bütün şəhər və kəndlərində qısa bir müddətdə hakimiyyət İnqilab Komitəsinin əlinə keçdi. Dağlıq Qarabağ İnqilab Komitəsi Şuşanın yaxınlığında yerləşən Daşaltı, Turşsu, Xaçın, Çartaz, Xanabert, Qarabağ və Quşçular kəndində silahlı dəstələrin müqavimətini qırdılar [10]. İnqilab Komitəsi bölgədə yerləşən Müsavat silahlı qüvvələrinin ləğv olunması işinə başladı.

Qırmızı Ordu hissələrinin gizli niyyətləri özünü büruzə verdi. Qırmızı Ordu döyüşçülərinin soyğunçu, quldur, işğalçı hərəkəti daha da artdı. Hakimiyyətə gələn ermənilərin qarətçilik siyasəti, varlı adamların, o cümlədən ziyalıların evlərində kütləvi şəkildə axtarışlar aparılması, əmlaklarının müsadirə edilməsi, insan ləyaqətinin tapdalanması və təhqirlər xalqımızın yeni yaranmış hakimiyyətə qarşı narazılığını artırırdı. Azərbaycanın başqa əraziləri ilə müqayisədə Qarabağda yuxarıda göstərilən hal daha kütləvi xarakter almışdı [11]. Çünki bütün bunlarla yanaşı Qırmızı Ordunun timsalında mənfur ermənilərin böyük qüvvəsini duyan daşnaklar 1920-ci ilin mayından torpaq iddiası ilə daha da azğınlaşmış və kəndlərin yandırılması, dinc əhalinin güllələnməsi adi hala çevrilmişdi. Bölgədəki qəzəb dalğası xalq müqavimət hərəkatını yetişdirmişdi [12]. 1920-ci ilin mayın axırlarında Azərbaycan Milli Ordusu erməni təcavüzkarlığının, erməni basqınlarının qarşısını almaq məqsədilə Qarabağ bölgəsində yerləşdirilmişdi. Milli Ordu hissələrindəki əsgərlərimiz, Qırmızı Ordunun xalqımızın adət-ənənəsinə, milli xüsusiyyətlərinə toxunan hərəkətləri ilə barışmır, hətta yeni hakimiyyətin özbaşınalığına qarşı biganə qalmır və onların qarşısını almağa cəhd göstərirdilər. Qarabağda milli müqavimət hərəkatının fəal üzvlərindən Sultan bəy Sultanovun, Polkovnik Zeynalovun, Polkovnik Sofiyevin, Yadigarovun, Həmidbəyin Türk generalı Nuru Paşanın, Aslanbəyin, Bəhlul Behcətin, Balakişinin, Əhmədin, Xəlilin, Kərəmin, Dəli Xanların və başqalarının adlarını xüsusi

fəxrnən çəkə bilərik. Bir çox qələbələr əldə etmələrinə baxmayaraq Qarabağda xalqımızın ərazi bütövlüyü və azadlığı uğrunda apardığı milli-azadlıq hərəkatı 14 iyun 1920-ci ildə qan içində boğuldu. Arxiv sənədlərində göstərilir ki, Qarabağda azərbaycanlılar yaşayan kəndlər cəhənnəmi xatırladırdı. Bütün evlər yandırılmış və dağıdılmışdı.

Birbaşa Mərkəzin göstərişi və Azərbaycan İnqilab Komitəsinin qərarı ilə əks-inqilabçılığa, təxribatçılığa və alverçiliyə qarşı mübarizə aparmaq üçün 1920-ci ildə Fövqəladə Komissiya (FK) yaradıldı. FK təşkil olunduğu ilk gündən terrorçu bir orqan kimi fəaliyyətə başladı [17]. Bəhs edilən dövrdə, Respublikamızın qəzalarda, o cümlədən, Dağlıq Qarabağda da belə bir orqan yaradıldı. Dağlıq Qarabağda Fövqəladə Komissiyanın sədri vəzifəsinə Armenak Mıkırtıçeviç Qaragözov təyin edildi. O, «şübhəli ünsür» adı altında milliyyətcə azərbaycanlı olan imkanlı şəxslərin, mədəniyyət xadimlərimizin həbsinə başladı. Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, 1920-ci illərin əvvəllərində 414 nəfər qeyrətli azərbaycanlı övladları milli ayrı-seçkilikdə, milli ədavətlə bağlı məsələlərlə təqsirli sayılaraq Şuşa və Qıraxtin həbsxanalarına salınmış və ən ağır cəzaya məhkum edilmişdir [18]. FK həm də Dağlıq Qarabağ ərazisində vahimə yaratmaq məqsədini güdürdü. Belə bir çətin şəraitdə bölgədə XI Ordunun Siyasi Şöbəsinin də fəaliyyətində mənfi hallar müşahidə edilməkdə idi. Siyasi Şöbə özlərinin qeyri-məhdud səlahiyyətlərindən istifadə edərək əhalinin qarət olunması, təqiblər, insan ləyaqətinin tapdalanması və sair halları adi hala çevirmişdilər [19]. Bütövlükdə Qarabağın keçmiş qəza rəisləri, pristavlar, kəndxudalar, din xadimləri, varlı hampalar, onların ailə üzvləri, hətta arvadları və uşaqları həbsxanalara salınmış və camaatın gözləri qarşısında güllələnmişdir. Həmin dövrdə "Kommunist" qəzetindəki yazılarda göstərilirdi ki, bütün bu kimi cəzalar yalnız azərbaycanlılara qarşı tətbiq edilirdi. Dağlıq Qarabağda əhali böyük qorxu, ciddi təlaş içərisində idi. Xalqımızın adət-ənənələrinə, dininə, dilinə hörmət qoyulmur, onlarla vəhşicəsinə rəftar edilirdi [20].

ARPİİSSA-də saxlanılan sənədlərdən oxuyuruq: «1920-ci ilin sonlarında Şuşadan AK(b)P MK-nə daxil olan məlumatda göstərilirdi ki, Şuşada vəziyyət son vaxtlar daha da ağırlaşıb. Müsəlmanlar keçmişə daha çox meyillidirlər. Bunun əsas səbəbi heç bir qaydaya sığmayan mal-qaranın, taxılın, ot-alafın, qiymətli əşyaların müsadirəsi, Fövqəladə Komissiya və XI Ordunun siyasi şöbəsinin repressiyalar tətbiq etməsidir. Ona görə də xalq yeni hakimiyyətə inanmır» [21]. Bəhs olunan dövrdə Şuşa ərazisində siyasi durum ciddi böhran içində idi. Yeni yaranan hakimiyyəti təhlükə gözləyirdi. Ciddi repressiyalara baxmayaraq, ərazidə vəziyyət gərgin olaraq qalırdı. Çünki bütün yuxarıda göstərilənlərlə yanaşı bölgədə Ermənistanın əsassız ərazi iddiaları baş qaldırmış və erməni təxribatı güclənmişdi. Bütün bunlar isə Şuşanın iqtisadiyyatına ağır zərbə vurmuşdu. Eyni zamanda vahid iqtisadi konsepsiyanın olmaması, qanunsuz ərzaq toplanması və sair hallar iqtisadi böhranı daha da dərinləşdirmişdi. 1913-cü illə müqayisədə 1920-ci ildə Şuşada iribuynuzlu heyvanlar 67,3 min başdan 51,9 min başa, ikiillik heyvanlar 23 min başdan 14,7 min başa, donuzlar 13,8 min başdan 4,5 min başa, atlar 10,6 min başdan 2,4 min başa enmişdi [23]. Bölgədəki heyvanların bir qismi XI Ordunun əsgərləri tərəfindən qeyri-qanuni kəsilmiş, başqa bir qismi isə xain qonşularımız tərəfindən Ermənistana aparılmışdır. 1913-cü illə müqayisədə 1920-ci ildə Şuşa ərazisində sənaye məhsulları 7 dəfə, kənd təsərrüfatı məhsulları isə 35 faiz aşağı düşmüşdü. Eyni zamanda bölgədə kənd təsərrüfatı əkin sahəsi 1913-cü illə müqayisədə 47,8 faiz təşkil edirdi [26]. Texniki bitkilərin əkilməsi tamamilə aşağı səviyyədə idi (12 faiz). Şuşanın yüzlərlə kənd əhalisinin sənaye məhsullarına, paltara, ayaqqabıya, ərzağa və isti geyimə ehtiyacı ödənilmirdi. Ərazidə aclıq çəkən təkcə kəndlilər deyildi. Fəhlələr, müxtəlif təbəqələrin nümayəndələri də acınacaqlı vəziyyətdə yaşayırdılar. Kəndli təsərrüfatının 41 faizinin iribuynuzlu mal-qarası, 55 faizinin isə qoşqu qüvvələri, xışı, kotanı çatışmır, 101 təsərrüfatda isə mal-qara tamamilə yox idi. Kənddə suvarma sistemi yararsız hala düşmüş, suvarma kanallarının su vermək qabiliyyəti 4 dəfə azalmışdı [29].

Azərbaycan Respublikasının Arxiv materiallarından birində yazılmışdır ki, «1920-ci ildə torpaq nizamnaməsinin əksəriyyətində su və suvarma vasitələrinin çox hissələri torpaq sahiblərinin mülkiyyətindədir.... Şuşa qəzası Şükürbəyli kəndinin nizamnaməsində yazılmışdır ki, ərazidə yerləşən bütün əkin sahələri sahibkarın xüsusi himayəsində olan bir bulaqdan suvarılır. Həmin qəzanın Arazpərli kənd nizamnaməsində isə həmin ərazidə bir kəhriz olması, həmin kəhrizin suyunun əkin sahələrinə çatmaması, kəndlilərə suyun olduqca baha qiymətə satılması və sair haqda məlumat verilmişdir. Nəticədə Şuşanın min hektarlarla suvarılan torpaq sahələri sıradan çıxmışdı» [31].

Bəhs olunan dövrdə kənd təsərrüfatı istehsalındakı tənəzzülü aradan qaldırmadan bölgədəki bütün əhalinin çörəklə, yeyinti məhsulları ilə, sənayeni xammalla təmin etmək mümkün olmayacaqdı. Ona görə də kənd təsərrüfatının bərpa etmək günün ən vacib məsələsi idi. Lakin Şuşa ərazisində dinc quruculuğa keçid çox ağır təsərrüfat dağınıqlığı şəraitində baş verdi. Belə ki, erməni daşnaklarının törətdiyi təxribatlar, FK və XI Ordu hissələrinin özbaşınalığı, torpağın sahiblərindən alınması və sair hallar bəhs etdiyimiz dövrdə baş verir və inkişafa maneə olurdu. Erməni quldur dəstələrinin əraziyə silahlı basqınları, kəndləri qarət etməsi, kəndlilərin qətlə yetirilməsi, bölgədə kənd təsərrüfatının dərin böhran içinə düşməsi üçün başlıca amilə çevrilmişdi [33].

ARPİİSSA-də saxlanılan sənədlərdən birində bölgədəki vəziyyət bu cür xarakterizə edilmişdir: «Bölgədə fəaliyyət göstərən İnqilab Komitələrinin fəaliyyəti çox aşağı səviyyədədir. Ermənilərə qarşı heç bir ölçü götürülmür, erməni hissələri tərkisilah edilmirlər. Daşnaklar öz cinayətkar təbliğatlarını davam etdirir, erməni silahlı dəstələri müsəlmanları qırır, onların əmlaklarını əllərindən alırlar. Şuşada İnqilab Komitələrinin üzvlərinin demək olar ki, hamısı ermənilərdir» [35].

Azərbaycan rəhbərliyi bütün Dağlıq Qarabağda o cümlədən Şuşa ərazisində vəziyyətin çətin olduğunu nəzərə alaraq 1920-ci il mayın 20-də Dadaş Bünyadzadəni, Həmid Sultanovu və Çingiz İldırımı bölgəyə ezam etdi. Şuşaya gələnlər özləri ilə ərzaq,

geyim və gündəlik tələbat malları da gətirmişdilər. Nümayəndələr bir sıra iqtisadi məsələlərlə yanaşı siyasi məsələlərə də baxdılar. Şuşa İnqilab Komitəsinin tərkibi «millətçi» ünsürlərdən «təmizlənərək», Sako Hamparsumuyan, Abram Markuryan, Armenak Mıkırtıçeviç Qaragözyan və başqalarından ibarət «obyektiv və səxavətli» erməni siyasətçilərinin hakimiyyəti təsdiq edildi [40].

Qarabağda ordunun yenidən təşkili, hərbi səfərbərlik, sərhədlərin möhkəmləndirilməsi, hakimiyyət və icra orqanlarının təşkili ilə yanaşı mühüm siyasi və sosial iqtisadi əhəmiyyət kəsb edən torpaq məsələsinin həll olunması üçün tədbirlər görüldü. Azərbaycan inqilab komitəsi 5 may 1920-ci ildə torpaq haqda dekret qəbul etdi. Həmin dekretlə torpaq üzərində xüsusi mülkiyyətin ləğv edildiyi elan olundu. Sonra torpaq haqqında «Əsasnamə» işlənib hazırlandı [42]. «Əsasnamə»yə görə müsadirə olunmuş torpaqların heç birindən ödənc alınmadan bərabərçilik prinsipləri əsasında zəhmətkeş kəndlilər arasında bölüşdürülməsi nəzərdə tutulurdu. Azərbaycan İnqilab Komitəsinin 5 may 1920-ci il «torpaq haqqında dekreti bölgədə həmin ilin 15 dekabrında həyata keçirilməyə başlandı. İnqilab Komitəsinin qərarı ilə Şuşa ərazisində 25.286 desyatindən çox əkin sahəsi, 11.394 desyatin otlaq sahələri, 31.379 desyatin meşə sahəsi milliləşdirildi [46].

Azərbaycan İnqilab Komitəsinin «Torpaq haqqında Dekreti» ilə xanların, bəylərin, mülkədarların və dini idarələrin torpaqları, iş heyvanları, avadanlıqları onların əllərindən alındı.

Dövlətə məxsus təsərrüfatların toxunulmazlığı, torpaqların avadanlıqları və iş heyvanlarının bölüşdürülməsi, torpaq haqqında dekreti həyata keçirmək üçün Şuşada torpaq komitələri təşkil olundu. Aparılan araşdırmalar nəticəsində məlum olur ki, bölgədə torpaq komitələrinin tərkibi məqsədli şəkildə təşkil edilmişdir. Yüksək mənsəb sahibləri olan «intizamlı», «işgüzar» ermənilər torpağın, avadanlıq və iş heyvanlarının bölgüsündə, əraziyə sonralar köçürülmüş ermənilərə qarşı əliaçıqlıq göstərir, öz dədə-baba torpağını azərbaycanlıya qaytararkən (yenidən bölərkən) ikiüzlü mövqe tutaraq öz «səxavətini» ondan əsirgəmirdi.

Ermənilərin ərazidə apardıqları bu cür ikili siyasət haqlı olaraq narazılığa səbəb olurdu. Bir həqiqəti də qeyd etmək yerinə düşərdi ki, Şuşada kənd əhalisi, ümumi əhalinin təxminən 80 faizini təşkil edirdi. Bundan isə yalnız kiçik bir hissəni ermənilər təşkil edirdilər. Ona görə də azərbaycanlıların narazılığı mərkəzi narahat etməyə başladı [48].

Yeni yaranan Bolşevik hökuməti mülkədar, məscid və vəqf torpaq sahələrini milliləşdirərək dövlətin əlində qalmaq şərti ilə heç bir ödənc almadan milliyyətindən asılı olmayaraq kəndlilərin istifadəsinə verilməsi yolu ilə «milli sülh», imperiyanın möhkəmləndirilməsi naminə «inam» yaratmağı qarşısına məqsəd qoymuşdu.

Ucqarlarda heç bir dayağı olmayan yeni hakimiyyət respublikada yaşayan qeyri azərbaycanlılara, xüsusilə ruslara, ermənilərə arxalanmağa başladı. Kəndlilər içərisində bu cür dayaqlar çoxluq təşkil edirdi. 1920-ci ilin may-avqust aylarında Bakıdan bütövlükdə Dağlıq Qarabağ ərazisinə, o cümlədən Şuşaya 80 nəfər, həmin ilin oktyabr-noyabr aylarında isə 120 nəfər nümayəndə gəldi. Araşdırmalardan məlum olur ki, bu nümayəndələrin çoxu milliyyətcə ermənilərdən ibarət idi [49].

1920-ci ilin yay və payız aylarında Ermənistanda iqtisadi və siyasi böhran son dərəcə kəskinləşdi. Ölkədə kütləvi aclıq baş qaldırmışdır. Aclığın törətdiyi ağır fəlakətdən istifadə edilərək Ermənistandan Azərbaycana əhalinin kütləvi köçməsi baş verdi. 1920-ci ilin iyul-noyabr aylarından Ermənistandan Azərbaycana 350 ailə, 1921-ci ildə 500 ailə köçürülmüşdür. Bu ailələrin böyük bir hissəsi Şuşa ərazisində məskunlaşdırıldı [50]. Tədqiqatlardan məlum olur ki, sonrakı illərdə Dağlıq Qarabağa köçürülən yeni ailələrin böyük əksəriyyəti milliyyətcə erməni olmuşdu. Beləliklə, Çar Rusiyası dövründə olduğu kimi, Sovet imperiyası dövründə də Dağlıq Qarabağ bölgəsi barədə Mərkəzin gördüyü ilk tədbirlərdən biri öz dayaqlarını möhkəmləndirmək məqsədilə bu yerlərdə erməni ailələrinin çoxluğunu təşkil etməkdən ibarət idi. Dağlıq Qarabağa erməni ailələrinin kütləvi axınına nail olmaq üçün dövlət səviyyəsində «beynəlmiləlçilik» bayrağı altında tədbirlər görüldü. Burada məskunlaşmış və yenicə gələn

ailələr üçün məhsuldar torpaq sahələri verildi. Həmçinin onlar yaşayış evləri ilə təmin olundular. 1921-ci il iyun məlumatına görə Şuşa ərazisinə köçürülmüş erməni ailələrinə 4013 desyatin torpaq sahələri ayrılmışdır [51].

Şuşada həyata keçirilən bütün bu tədbirlər iqtisadiyyata müəyyən qədər təsir etsə də, ictimai-siyasi vəziyyəti sabitləşdirə bilmədi. Kəndlilərin və xırda dağınıq təsərrüfat sahibi olan təbəqələrin sərbəst təsərrüfat fəaliyyəti üçün 1920-ci il iyulun 3-də ticarətin azad olmasına dair qərar qəbul olundu. Bu qərarla respublikanın bir çox bölgələrində, habelə dövlət tədarükü zonası elan olunması haqqında verilən tarixi qərarları ilə artıq məhsulun kəndlinin əlindən alınmasının əsası qoyuldu.

Arxiv sənədlərdən birində göstərilir ki, 1920-ci ilin avqustunda Şuşada vəziyyət son dərəcə gərgindir.... Bunun əsas səbəbi milliləşdirmənin düzgün aparılmaması, XI ordu hissələrinin və daşnakların müsəlmanları qarət etməsidir. Hətta elə vəziyyət yaranıb ki, əhali yeməyə çörək tapmır, ayaqyalın, çılpaq gəzirlər [52].

Çətin vəziyyətdən çıxmaq üçün Azərbaycan hökuməti bir sıra tədbirlər həyata keçirdi. Belə ki, Azərbaycan İnqilab Komitəsinin «Taxıl inhisarı haqqında» avqustun 23-də verdiyi dekretlə Şuşada taxıl satışı qadağan olundu. Dekretdə göstərilirdi ki, azadlıq uğrunda döyüşüb qanlarını tökən əsgərlər ərzağa həsrət qalmışlar. Dekretdə həmçinin bildirilirdi ki, əlavə taxıl alıb dövlətə təhvil vermək istəməyənlər xalq düşməni elan olunur. «Kəndlilərin yem və taxıl məhsullarının dövlətə təhvil verilməsi qaydası haqqında» 2 sentyabr, «Ümumi əmək mükəlləfiyyəti haqqında» 24 sentyabr tarixli dekreti ilə «hərbi kommunizm» siyasəti tətbiq olunmağa başlandı. Ərzaq ehtiyatı toplamaq, ordunu və şəhər əhalisini ərzaqla təchiz etmək üçün ərzaq sapalağı tətbiq olundu. Yeni ərzaq siyasətinin tətbiqi üçün Respublikanın bir çox bölgələrinə və o cümlədən, Şuşaya xüsusi silahlı dəstələr gətirildi [52].

Azərbaycan İnqilab Komitəsinin qəbul etdiyi dekretlə Xalq Ərzaq Komissarlığında hərbi vəziyyət elan olundu. Həmin dekretə əsasən yerlərdə ərzaq sapalağı vaxtında həyata

keçirilməli, toplanan məhsullar mərkəzi dövlət fonduna təhvil verilməli, ərzaq vergisinin toplanılması gedişində əyintiliyə yol verən şəxslər isə hərbi tribunala verilməli idi. Bu dekretlə bağlı Xalq Ərzaq Komissarlığı "təlimat" xarakterli qərar qəbul etdi. Əmrə əsasən ərzaq komissarlığının bütün işçiləri qeydə alınmalı və Ərzaq Komissarlığı sistemində çalışan bütün işçilər və qulluqçular cinsindən və yaşından asılı olmayaraq hərbi qulluqçular hesab olunurdular. Bu işçilər öz arzuları ilə işdən azad ola bilməzdilər. Onlar hərbi sistemdə olduğu kimi əmri danışıqsız yerinə yetirməli idilər.

Bütün bunlarla yanaşı Azərbaycan İnqilab Komitəsinin əmri ilə əksinqilabçılara, təxribatçılar və alverçiliyə qarşı Fövqəladə Komissiyanın (FK) fəaliyyəti genişləndi. FK tərəfindən görülən tədbirlərə hökm verilməsi Ali İnqilabi Tribunala həvalə olundu. FK təşkil olunduğu ilk gündən Sovet Rusiyasında olduğu kimi terrorçu bir orqan kimi fəaliyyətə başladı. Dağlıq Qarabağda FK sədri Armenak Mkrtıçeviç Qaragözovun rəhbərliyi altında «şübhəli ünsür» adı altında imkanlı şəxslərin, mədəniyyət xadimlərimizin həbslərinə başlandı. 1920-ci ilin sonu və 1921-ci ilin birinci rübündə Şuşada 75 nəfər, 1921-ci ilin fevral-mart aylarında 35 nəfər adam məsuliyyətə cəlb olunmuşdular. Məsuliyyətə cəlb olunanların böyük əksəriyyəti azərbaycanlılar idi. 1922-ci ilin yayında Şuşada həbs olunmuş 60 nəfərdən çox adam Şuşa və Qıraxtin (Cəbrayıl) həbsxanasında saxlanılmış, qaçaq düşən və ya İrana gedənlər qohumları və ya yerliləri ilə gizli əlaqə saxladıqlarını bəhanə edərək məhkəməsiz, şahidsiz, sübutsuz ən ağır cəzaya məhkum olunmuşlar [53]. Araşdırmalardan məlum olur ki, təqib olunanların, həbs edilənlərin çoxu milli ayrı-seçkiliklə, milli ədavətlə bağlı məsələlər üstündə mühakimə edilmişlər. FK yerlərdə əhali arasında vahimə yaratmaq məqsədini reallaşdırdı.

Azərbaycanın kəndlərində, xüsusi olaraq sərhəd rayonlarında, o cümlədən Şuşada FK ilə bərabər XI Ordunun Xüsusi Şöbələri də, geniş fəaliyyət göstərirdi. FK kimi XI Ordunun Xüsusi Şöbəsi də qəzalara, kəndlərə gedərkən ilk növbədə varlı adamların siyahısını tələb edir, qaçaqçılıqla

məşğul olanları axtarır, hər bir ailənin keçmişi ilə maraqlanır, onların həbsi üçün tədbirlər görürdülər. FK-nın və XI Ordunun Siyasi Şöbəsinin qeyri məhdud səlahiyyətləri var idi. Kənd təsərrüfatının bərpasına keçid dövründə respublikanın hər yerində və xüsusilə Şuşada siyasi vəziyyət son dərəcədə gərgin bir halda idi. Əhalinin qarət olunması, təqiblər, insan ləyaqətinin tapdanması adi bir hala çevrilmişdir. Buna görə Qarabağda imkanlı ailələr İrana, bir qismi isə Türkiyəyə çıxıb getməli oldular [54]. XI Ordunun 8-ci diviziyasının siyasi şöbəsinin əməkdaşları Şuşaya daxil olarkən keçmiş qəza rəisləri, pristavları, kəndxudaları, bir çox din xadimlərini, varlı hampaları, onların ailə üzvlərini, həbs etmiş, bir çox bəylər əhalinin gözü qarşısında güllələnmişlər. Cavanşir qəzası İnqilab Komitəsinin fəaliyyəti ilə bağlı 1920-ci il 17 oktyabr məlumatında bildirilirdi ki, Tərtərə gələn komissiya inqilab düşmənlərinin güllələnməsini həyata keçirtdi [57]. Əhali böyük qorxu, ciddi təlaş içərisində idi. Şuşadan mərkəzə daxil olan məlumatdan aydın olur ki, son zamanlar bölgədə yerləşən ordu hissələri azərbaycanlı əhali arasında iş apararkən onların adət-ənənələrinə, dininə, dilinə hörmət etmir, onlarla vəhşicəsinə rəftar edir, heç bir səbəb olmadan həbs edirdilər [58].

Şuşa ərazisinin 1920-ci ilin sonlarına aid vəziyyət Arxiv sənədlərindən birində öz təhlilini tapmışdır. Sənəddə göstərilir ki, Şuşa ərazisində vəziyyət son vaxtlar daha da ağırlaşıb. Şuşa ərazisində yaşayan müsəlmanlar keçmişə daha çox meyillidirlər. Bunun əsas səbəbi heç bir qaydaya sığmayan mal-qaranın, taxılın, ot-ələfin müsadirəsi, kəndlilərə qarşı FK-nın repressiyalar tətbiq etməsidir. Ona görə də xalq yeni hakimiyyətə inanmır və hətta öz etirazlarını müxtəlif yollarla bildirirlər.

1920-ci ilin sonu 1921-ci ilin əvvəllərində Sovet dövlətinin apardığı siyasət, ərzaq sapalağı respublikanın hər yerində və o cümlədən Dağlıq Qarabağda sinfi mübarizənin daha da kəskinləşməsinə, kütləvi silahlı müqavimətə səbəb oldu. Ancaq güclü nizami ordu qarşısında bu üsyanlar məğlubiyyətlə nəticələnirdi.

1921-ci ildən başlayaraq, Şuşada torpağın aqrotexniki qaydada yenidən becərilməsinə başlandı. Azərbaycan hökuməti Şuşada kənd təsərrüfatının inkişafı üçün 1921-ci ilin əvvəllərində 50 min manat vəsait ayırdı [59].

1921-ci ildə Şuşa ərazisində 4135 kəndli təsərrüfatı, 349 iş atları, 1394 inək və buzov, 1237 camış, 2827 öküz, 194 kotan, 1316 xış, 22 furqon, 476 araba qeydə alınmışdır. Faktlardan göründüyü kimi Şuşa ərazisindəki təsərrüfatlarının üçdə ikisinin xış və kotanı yox idi, fərdi təsərrüfatların isə 65 faizinin qoşqu qüvvəsi çatışmırdı [60].

Sovet hakimiyyətinin ilk illərində Azərbaycanda baş verən qiyamlar, qaçaqçılıq hərəkatı aydın göstərirdi ki, yaradılan yeni rejim Azərbaycanın daxili sakitliyinə nail ola bilmir. Buna görə Moskvanın göstərişi ilə Azərbaycana göndərilən nümayəndələr bolşeviklər partiyasının X qurultayının qərarlarını burada tətbiq etməyə başladılar. Belə ki, Rusiyada olduğu kimi Azərbaycanda da ərzaq sapalağı ərzaq vergisi ilə əvəz olunması üçün tədbirlər görüldü. Bu siyasətdə Azərbaycanda yenicə yaradılan sosialist iqtisadiyyatı ilə xırda kəndli iqtisadiyyatı arasında rabitə yaratmağa, feodalizm və yarıdağılmış kapitalizm cəmiyyətinin yerində yeni, sosializm cəmiyyəti yaratmaq və möhkəmləndirmək planlaşdırılmışdı.

Yeni yaranan iqtisadi siyasətə görə ərzaq vergisi qoyulmaqla ticarət azadlığına yol verilirdi. Ticarət azadlığı isə kapitalizmin bir qədər canlanması, qolçomaqların artması, xırda müəssisələrin açılması demək idi. Bütün bunlar sovet rejimi üçün təhlükə törədirdi. Lakin bu təhlükə o qədər də qorxulu deyildi. Çünki xalq təsərrüfatının bütün idarəetmə hakimiyyəti dövlətin əlində idi [64].

Azərbaycan Kommunist Partiyasının göstərişlərinə əsasən 1921-ci il mayın 17-də «Bütün ərzaq növləri inhisarının ləğv edilməsi haqqında» dekret verildi. Həmin dekretdə deyilirdi: «Bütün inhisar növləri, eləcə də dövlət tədarükünün həyata keçirilməsi metodu olan sapalaq ləğv edilir və ərzaq vergisi ilə əvəz olunur».

Ərzaq növləri üzərində inhisarın ləğv edilməsinə baxmayaraq Azərbaycanda 1921-ci il üçün ərzaq vergisi tətbiq etmək mümkün deyildi. Çünki ölkənin vəziyyəti olduqca ağır bir hal almışdı. Xüsusilə daşnak və sonra da Rus silahlı qüvvələri tərəfindən dağıdılan, qarət olunan Şuşa ərazisində vəziyyət dözülməz idi. Ərazidəki qədim Azərbaycan kəndləri dağıdılmış, bir növ xarabalığa çevrilmişdir. Buna görə də Azərbaycan KP MK 1921-ci ilin aprelində çağırılmış plenumunda ərzaq vergisi məsələsi müzakirə olunaraq onun tətbiq olunmasının bir il təxirə salınması lazım bildi. Bunun əvəzində «Çanaq» tətbiq olunmağa başlandı. «Çanaq» hər bir adam başına 20 girvənkə müəyyən olundu [65].

«Çanaq» toplamaq kompaniyası Şuşa ərazisində əhalinin yoxsul təbəqələrinin güclü narazılığına səbəb oldu. Yerlərdə 20 girvənkə taxıl əvəzinə əhalinin bütün ərzaq ehtiyatlarının, malqaralarının zor ilə əllərindən alınması kəndli çıxışlarına səbəb oldu. 1921-ci ilin payızında Şuşadan 895 pud taxıl və başqa kənd təsərrüfatı məhsulları, 864 baş qoyun, iri buynuzlu mal-qara, at toplayaraq Moskvaya aparılmışdır [67].

Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, ermənilər yaşayan kəndlərdə «Çanaq» vergisi cüzi tətbiq edilmiş (və ya tətbiq olunmamış), vergilərin ağırlığı azərbaycanlıların üzərinə düşmüşdür.

1921-ci ildə bütövlükdə Azərbaycanda «Çanaq»la yanaşı «Aclara yardım» kompaniyası təşkil olundu. Bu dövrdə Volqaboyu rayonlarda dəhşətli aclıq hökm sürürdü. Belə bir fəlakətin qarşısını almaq üçün Moskvanın bilavasitə tapşırıq və tələbi ilə Azərbaycan kəndinə «səlib yürüşü» təşkil olundu. Volqaboyu əhalisinə kömək üçün əhalinin bütün ərzaq ehtiyatları, mal-qaraları zor ilə əllərindən alınmağa başlandı. Respublikanın bütün bölgələrində və o cümlədən, Qarabağın şəhər və kəndlərində çalışan fəhlə və qulluqçuların əmək haqqı əllərindən alınaraq Rusiyaya verildi. 1921-ci ilin avqust ayında «Aclara yardım» komitəsinin təşəbbüsü ilə 500 milyon manat pul, bir kiloqram qızıl, 8 girvənkə gümüş, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Qaryagin bölgələrindən 25 min pud taxıl və digər kənd

təsərrüfatı məhsulları, Şuşanın Daşaltı, Zarıslı, Malıbəyli, Quşçular, Xəlfəli, Qaybalı, Şırlan, Paşalar, Göytala, Qaladərəsi, Əsgər Dərəsi və digər kəndlərindən 2 milyon manat, Qarabağın digər kəndlərindən 4 milyon manat pul toplanaraq Volqaboyuna göndərildi [69].

1921-ci ilin payızında Şuşanın əksər kəndləri canaq vergisini verməkdən boyun qaçırdılar. Buna görə Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı sovetlərinin birinci qurultayının qərarına əsasən hər adam başına bir çanaq vergisi toplamaq haqqında xüsusi «təlimat» hazırlandı. Bununla da «Çanaq» toplamağın könüllülük prinsipi aradan qaldırıldı. Məcburi olaraq hər adam başı bir çanaq vergi toplanması işinə başlandı. Bu işdə Daxili İşlər Komissarlığının yerli orqanları fəal iştirak edirdi. Beləliklə, əhalidən könüllü vergi toplamağın yeni mərhələsi: Məcburi qarətçilik dövrü başlanmış oldu. Şuşanın Əsgər dərəsi, Qaladərəsi, Göytala, Turşsu, Daşaltı, Xanalı, İmamqulubəyli, Allahqulular, Xanlıqpəyə, Səfıxanlar, Məmişlər, Çaykənd və b. kəndlərdə silahın gücü ilə ərzaq, mal-qara, paltar, palazın toplanmasına başlandı. Ərzaq verməyə imkanı olmayan ailələrdən ev əşyaları, geyim paltarı və sair məcburi qarət edilmişdir.

Mövcud çətin vəziyyətdən çıxmaq üçün Azərbaycan K(b)P MK 1921-ci il noyabrın 29-da yeni iqtisadi siyasətə keçmək barədə göstəriş verdi. 1922-ci ilin martın 5-də Azərbaycan MİK-nin III sessiyasında ərzaq vergisi almaq qaydası haqqında qanun qəbul etdi. Həmin ilin may ayında çağırılan II Sovetlər qurultayında ərzaq vergisi barədə qanun təsdiq edildi. Bununla da taxıl tədarükü planı yerinə yetirilmədən ərzağın alqı-satqısı qadağan olundu. Bununla yanaşı vergidən yayınan, ərzağı gizlədən adamların əmlakının müsadirə olunması barədə də dekret verildi. Beləliklə, əhalinin qarət olunması hüquqi baxımdan qanunlaşdırıldı. 1921-ci il mayın 15-də Azərbaycan İnqilab Komitəsi Fövqəladə Ərzaq Komissiyasının yaradılması haqqında dekretində yazılırdı: «...Fövqəladə Ərzaq Komissiyasının işinə mane olanlarla amansızcasına rəftar ediləcəkdir ... Çünki bu qanun pozquntusu demək idi» [70].

Yuxarıdakıları ümumiləşdirərək belə bir nəticə əldə etmək olar ki, Moskva imperiyanın möhkəmləndirilməsi üçün milli müstəmləkəçiliyin bütün yollarından istifadə etmiş və məqsədinə nail olmuşdur.

Bütün səylərə baxmayaraq Azərbaycan hökumətinin aqrar siyasəti sahəsində atdığı addım uğursuzluqla nəticələndi. Belə ki, respublikanın bütün bölgələrində və xüsusi ilə Şuşa ərazisində ağır bir vəziyyət, ciddi ərzaq böhranı yarandı. Rusiyada, onun milli ucqarlarında yaranmış fəlakətli vəziyyətin qarşısını almaq üçün açıq qarətçilik tədbirlərinə əl atıldı. «Aclara kömək» bayrağı altında Şuşanın kəndlərində həyata keçirilən tədbirlər açıq qarətçilik xarakteri daşıyırdı. Əhalinin ərzaq ehtiyatı, mal-qaraları zorla onların əllərindən alınırdı. Bütün bu və ya digər tədbirlər əhalinin sosial-iqtisadi vəziyyətinin daha da ağırlaşmasına səbəb oldu.

Yeni iqtisadi siyasətə keçid dövründə Şuşada varlılar və ortabablar fəaliyyətə başladılar. Xaricə qaçmış, ölkənin ayrı-ayrı bölgələrində gizlənmiş imkanlı adamlar, Azərbaycan Demokratik Respublikasının idarə orqanlarında çalışmış, ordu hissələrinə cəlb olunmuş adamların bir çoxları üzə çıxarıldı. Çıxılmaz vəziyyətdə olan qolçomaqlar, ortabab kəndlilər yenidən silaha əl atmağa məcbur oldular. Respublikanın hər yerində xüsusilə sinfi mübarizənin, milli çəkişmələrin ən güclü nöqtələrindən biri olan Şuşada sovet hakimiyyəti əleyhinə bəy, xan və ruhanilərdən ibarət bir cəbhə yarandı və etirazlarını müxtəlif formalarda bildirdilər.

Şimali Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra bolşeviklərin qarşısında duran əsas vəzifə sosialist inqilabı donu geydirilmiş işğalçılıq yürüşünü davam etdirmək, sovet hakimiyyətini möhkəmləndirmək və ilk sosialist dəyişiklikləri keçirməkdən ibarət idi. Belə bir vaxtda Azərbaycanda V.İ.Leninin bilavasitə göstərişi və bolşeviklərinin səyi ilə AXC-nin dövlət aparatı dağıdılıb Rusiyada olduğu kimi Azərbaycanda Yeni dövlət aparatı yaratmaq işinə başlandı. İlk növbədə siyasi hakimiyyətdən uzaqlaşdırılmış sinfin iqtisadi-sosial bazasını sarsıtmaq, respublikanın yeraltı və yerüstü sərvətlərini, bütün

istehsal vasitələrini yenicə yaradılmış Sovet dövləti aparatının əlində cəmləşdirməkdən ibarət idi. Devrilmiş Demokratik Respublikanın sosial köklərinə sarsıdıcı zərbələr endirmək, milli azadlıq uğrunda mübarizə aparan mərd insanların müqavimətini qırmaq üçün əməli tədbirlər görmək vəzifəsi dururdu.

Bu və ya digər vəzifələri yerinə yetirmək üçün hər şeydən əvvəl partiya orqanlarını möhkəmləndirmək, onların bütün səylərini yeni rejimin yaradılması işinə yönəltməkdən ibarət idi. 1920-ci il mayın 5-də birinci leqal ümumbakı partiya konfransı oldu. Konfransda hazırkı vəziyyət və Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının (AK(b)P) vəzifələri, partiya quruculuğu, sovet quruculuğu məsələləri müzakirə olundu. Konfransın işinə Azərbaycan bolşeviklərinin rəhbərliyi ilə yanaşı V.İ.Leninin bilavasitə tapşırığı ilə Azərbaycana göndərilmiş V.Q.Yeqerov, S.M.Kirov, A.İ.Mikoyan, V.İ.Nanayşvili, Q.K.Orconikidze və başqaları iştirak edirdilər [73].

Konfransda hazırkı vəziyyət və AK(b)P vəzifələr haqqında S.M.Kirov məruzə etdi. Məruzədə və konfrans tərəfindən qəbul olunmuş qətnamədə Azərbaycanda Sovet rejimini təşkil etmək və möhkəmləndirmək üçün qarşıda duran vəzifələr müəyyən edilmişdir. Başlıca vəzifələrdən biri kənddə aqrar inqilabi həyata keçirməkdən, torpağı milliləşdirməkdən, xalqı yeni rejimin ətrafında birləşdirmək üçün torpağı kəndlilərə verməkdən ibarət idi [77].

Yuxarıda adıgedən qətnamənin qərarına uyğun olaraq 1920-ci ilin yaz və yay aylarında respublikanın bütün qəzalarında, o cümlədən Şuşada partiya konfransları keçirildi. Yerlərdə partiya özəklərinin möhkəmləndirilməsi, yeni yerli hakimiyyət orqanlarının yaradılması barədə qərar qəbul olundu.

Şimali Azərbaycanda Sovet hakimiyyəti qurulduğu gündən bütün ali siyasi hakimiyyət Müvəqqəti İnqilab Komitəsinin əlində cəmləşdirildi. Azərbaycan İnqilab Komitəsinin sədri vəzifəsinə N.Nərimanov təyin edildi. İnqilab Komitəsinin 1920-ci il 28 aprel tarixli birinci iclasında Azərbaycan SSR xalq Komissarları Soveti - ali icraiyyə orqanı təşkil olundu. Bütün qəzalarda, o cümlədən Şuşada inqilab komitəsi yaradıldı.

Mərkəzdə və yerlərdə yaradılan yeni dövlət aparatını möhkəmləndirmək, onu xarici və daxili düşmənlərdən qoruyub saxlamaq, hər cür sabotajlığa qarşı mübarizə aparmaq üçün fövqəladə tədbirlər həyata keçirildi.

1920-ci il aprelin 28-də Azərbaycan İnqilab Komitəsinin dekreti əsasında Azərbaycan Ali İnqilab Tribunası, aprelin 29-da Fövqəladə Komissiya, mayın 12-də Xalq Məhkəmələri, mayın 28-də Fəhlə-Kəndli Müdafiə Şurası, iyunun 29-da Ali Xalq Təsərrüfatı Şurası yaradıldı. Beləliklə, qısa bir müddətdə proletar diktaturasının ali hakimiyyət və təsərrüfat orqanları mərkəzdə və yerlərdə yerli hakimiyyət orqanları yaradıldı [85].

1920-ci il aprelin 28-dən avqustun 25-dək Azərbaycanda 16 qəza, 46 nahiyə, 12 rayon, 435 kənd inqilab komitəsi təşkil edilmişdir [86].

XX yüzilliyin 20-ci illərində Azərbaycanda təşkil olunan inqilab komitələri Sovet Rusiyasının təcrübəsi əsasında yaradılmışdır. Azərbaycan SSR DİK-sı üç nəfərdən ibarət qəza inqilab komitəsi təşkil olundu. Qəza inqilab komitəsi nahiyə və kənd inqilab komitəsinin üzvlərini təyin edirdi. Qəza inqilab komitəsinin on bir şöbəsi var idi. Bu zaman Nahiyə İnqilab Komitəsinin də şöbələri fəaliyyət göstərirdi. Qəza inqilab şöbələri müvafiq komissarlığa tabe idilər. Yeri gəlmişkən onu da qeyd edək ki, Dağlıq Qarabağ İnqilab Komitəsinin sədri milliyyətcə erməni olan Sako Ambarsumyan təyin edilmişdi.

Azərbaycan inqilab komitələrinin böyük səlahiyyətləri var idi. Onlar dövlətin bütün funksiyalarını daşıyırdılar. İnqilab komitələri kəskin sinfi mübarizə şəraitində fəaliyyət göstərirdi. Xüsusilə Şuşa bölgəsində gedən sinfi mübarizə, milli çəkişmələr, qisasçılıq cəhdləri komitənin fəaliyyətinin daha da canlanmasına, bölgədə daxili «sabitliyin» yaradılması üçün silahlı qüvvələrin gücündən istifadə etməyə məcbur oldu. Bununla əlaqədar olaraq Azərbaycan K(b)P MK-nın tapşırığı ilə Şuşaya əlavə silahlı qüvvə, partiya-sovet işçiləri göndərildi. 1920-ci ilin iyun-dekabr aylarında Dağlıq Qarabağa 268 nəfər nümayəndə göndərilmişdi. Bu nümayəndələrdən 65 nəfəri Şuşada fəaliyyət göstərirdi [87]. Yerli qəza, nahiyə və kənd inqilab komitələri Sovet hakimiy-

yətinə qarşı çıxış edən qüvvələrə qarşı mübarizə aparmaq üçün bütün vasitələrə əl atdılar. Onlar ilk növbədə təbliğat və təşviqat işləri aparır, əhalinin öz ətraflarında birləşdirmək üçün cəhdlər edirdilər. Lakin, onlar əksər hallarda silahın gücü ilə «fəaliyyət» göstərirdilər. Bütün bu işlər XI Ordunun bilavasitə nəzarəti altında aparılırdı. 1920-ci ilin yayında Şuşada, bitərəf kəndlilərin qurultayı keçirildi. Qurultayda elan olunduğu kimi, bir çox inqilab komitələri millətçi qüvvələrlə əlaqəyə girərək azərbaycanlılara qarşı mübarizə apararaq pozuculuq işləri həyata keçirmişlər. 1920-ci il iyunun 24-də AK(b)P MK-nə daxil olmuş məlumatda göstərilir ki, «Şuşada İnqilab Komitəsi fəaliyyətsizdir. Onlar bütün işlərdə ermənilərə qarşı güzəştlər edirlər. Daşnakların cinayətlərinin qarşısı alınmır. Müsəlmanlar qırılır və əmlakları müsadirə edilir. İnqilab Komitəsinin üzvlərinin çoxu daşnaklardır ... Onlar Şuşada özbaşınalıq edirlər...» [89]. Belə bir çətin vəziyyəti aradan qaldırmaq üçün Azərbaycan K(b)P MK-nın qərarı ilə bölgədə yerli hakimiyyət orqanlarından ibarət komissiya təşkil olundu.

1920-ci il iyunun 22-də Bakıda qəza inqilab komitələrinin birinci respublika qurultayı çağırıldı. Qurultayda görülən işlərə yekun vurularaq qeyd olundu ki, «Qəzalarda, nahiyələrdə və kəndlərdə müvəqqəti inqilab komitələri təşkil edilmişdir. Bunlar hazırkı dövrdə yerlərdə inqilabi hakimiyyətin ali orqanlarıdır» [90].

Azərbaycanda Sovet hakimiyyətinin ilk aylarında bir sıra sosialist tədbirləri həyata keçirilmişdir ki, onun nəticəsində Sovet imperiyasının dayaqları respublikanın hər yerində xeyli möhkəmlənə bildi. Bununla belə 1920-ci ilin sonunda respublikanın bütün bölgələrində, xüsusi ilə Şuşada sinfi mübarizə, milli çəkişmələr kəskin dərəcədə idi. Bu dövrdə erməni millətçiləri siyasi qüvvə kimi fəaliyyət göstərirdilər. Azərbaycanın müxtəlif bölgələrindən habelə Rusiyadan, Ermənistandan bölgəyə köçürülən ermənilər XI Ordunun silahlı qüvvələri, həmçinin Bakının partiya, sovet, inzibati idarə orqanlarında çalışan soydaşları ilə əlaqəyə girərək azərbaycanlılara qarşı təxribatçılıq edirdilər. Onlar Şuşada hakimiyyəti öz əllərinə

almaq üçün hər cür vasitələrə əl atırdılar. İnqilab komitələrinə, torpaq, və ərzaq orqanlarına daxil olan ermənilər azərbaycanlılar yaşayan kəndlərə gedib pozuculuq işləri aparırdılar. Ermənilər bir sıra kəndlərdə (Şuşa, Daşaltı, Zarıslı, Şırlan, Mirzələr, Şülü, Qaybalı, Laçınlar, Zamanpəyəsi, Dükanlar, Xəlfəli, Yuxarı Quşçular, Aşağı Quşçular və digər kəndlərdə) torpaq haqqında dekreti, ərzaq siyasəti üzrə partiya və hökumət tədbirlərini xalqdan gizlədir, Bakıdan ayrılan vəsaiti, ərzağı mənimsəyirdilər [93]. 1920-ci ilin payızında mülkədarlardan alınmış torpaq sahələrinin ən yararlı yerləri erməni ailələrinə verilir, ərzaq sapalağının ağırlığını yoxsul və ortabab azərbaycanlı ailələrinin üzərinə düşməsinə çalışırdılar. Erməni kənd yoxsul komitələri azərbaycanlı kəndlilərinə qarşı çıxışlar da təşkil edirdilər. Bütün bunlara baxmayaraq, Şuşada yoxsul komitələrinin təşkil olunmasına xüsusi diqqət verilirdi. Yoxsul komitələri kənd yoxsullarını, muzdurları öz ətrafında toplayaraq varlı kəndlilərə qarşı mübarizəni genişləndirmək üçün Mərkəzdən bölgəyə göndərilən fəhlə nümayəndələri ilə birləşərək varlılara, ortabablara qarşı mübarizə aparırdılar [94].

İctimai təşkilatlar yeni yaranan cəmiyyət qurmaqda fəal iştirak edirdilər. Bunların içərisində Həmkarlar İttifaqı və Komsomolun işini xüsusi qeyd etmək lazımdır. Lakin AK(b)P-da olduğu kimi həmin təşkilatlar da Mərkəzin göstəricilərini yerinə yetirirdilər. Azərbaycan Komsomol təşkilatı Rusiya Kommunist Gənclər İttifaqının Qafqaz Diyar Komitəsinə tabe idi. Azərbaycanda komsomolun 1920-ci il iyulun 16-da keçirilmiş birinci qurultayında Azərbaycanın ucqarlarında, o cümlədən Şuşada ilk komsomol özəyinin yaradılması haqda qərar qəbul edildi. Lakin Şuşa Komsomol təşkilatının tərkibini nəzərdən keçirərkən burada da demokratik prinsiplərin pozulmasının şahidi oluruq. Şuşa Gənclər İttifaqı fəaliyyətlərində sərbəst olmasalar da bir çox işlərdə xüsusi fəallıq göstərirdilər. Belə ki, komsomolçular könüllü surətdə ordu sıralarına yazılır, iməciliklər keçirir, kəndlərdə özlərinin yeni özəklərini yaradır, kütləvi siyasi işləri təşkil edir, məhsulun becərilməsi, yığılmasında yaxından iştirak edir və digər işləri yerinə yetirirdilər [95].

Həmkarlar İttifaqı Azərbaycanda yerli hakimiyyət orqanlarının işini gücləndirmək məqsədli yaradılmış təşkilatlardan biri idi. Bu təşkilat da partiyanın rəhbərliyi altında fəaliyyət göstərirdi. 1920-ci ilin iyununda Azərbaycan Həmkarlar İttifaqı Şurası yaradıldı. Bu təşkilat Bakıda yaradıldıqdan sonra Şuşada da Həmkarlar İttifaqı Şurası yaradılmışdır. Həmkarlar İttifaqı Şuşada təsərrüfat-təşkilat və mədəni tərbiyə işində fəal iştirak etdi. Lakin istər Azərbaycanda, istərsə də onun Şuşa bölgəsində Həmkarlar İttifaqına rəhbərliyin ermənilərin əlində cəmləşdiyindən bölgədə azərbaycanlıların əmək fəaliyyətini məhdudlaşdıran tədbirlər həyata keçirilirdi.

Yerlərdə yaradılmış hakimiyyət orqanlarından biri də sovetlər olmuşdur. Rusiyadan fərqli olaraq, Azərbaycanda və xüsusi ilə Şuşada Sovetlərə keçmək üçün şərait yox idi. Buna görə Azərbaycan bolşevikləri Sovetlərə keçmək üçün ciddi hazırlıq işləri gördü. O dövrdə Şuşanın mürəkkəb ictimai-siyasi və iqtisadi-sosial vəziyyətinə uyğun olaraq inqilab komitələri, yoxsul komitələri və Sovetlər olmaqla üç mərhələdə keçirildi.

1920-ci il oktyabr ayının 16-da Azərbaycan KP-nın çağırılan II qurultayının müəyyən etdiyi kimi yoxsul komitələrinin yaradılmasına başlandı. Şuşanın hər yerində «kəndli həftələri», bitərəf kəndlilərin konfransları keçirildi. Bu işlər bilavasitə bolşeviklərin rəhbərliyi ilə Şuşaya göndərilmiş nümayəndələrin başçılığı ilə təşkil olunurdu [99].

N.Nərimanov, H.Sultanov, Ə.H.Qarayev, D.Bünyadzadə və başqaları yerlərə gedərək bitərəf kəndli konfranslarında, yoxsul komitələrinin təşkili işində bilavasitə iştirak edirdilər. Respublikanın 15 qəzasında və o cümlədən Şuşada kəndli konfransları keçirilmiş və Yoxsul Komitələrinin işi açıqlanmışdır.

Azərbaycan Təşkilat komitəsinin 1920-ci il 20 noyabr tarixli dekreti əsasında İnqilab Komitələri ləğv edildi. Onların əvəzində hər yerdə yoxsul komitələri yaradıldı. Yoxsul komitələri Rusiyadan fərqli olaraq Azərbaycanda hələ kəndlərdə Sovetlər olmadığı bir dövrdə yaradılmışdır. Buna görə yoxsul komitələri yerlərdə hakimiyyət orqanları vəzifəsini yerinə yetirərək Sovet Hakimiyyətinin ilk tədbirlərini həyata keçirmək

uğrunda ciddi mübarizəyə başladılar. Onlar düşmən ünsürlərə qarşı mübarizə apararaq kənd yoxsullarını təşkil edir, inqilabi qayda-qanunu qorumaq, ərzaq təchizatı orqanlarına kömək etmək kənd təsərrüfatı kooperasiyaları təşkil etmək və başqa bu kimi dövlət işləri ilə məşğul olurdular.

1920-ci il iyulun 26-da Şuşada I kəndli qurultayı çağırıldı. Qurultay Şuşada yoxsul komitələrinin yaradılması işində mühüm rol oynadı. Həmin ilin payızında Şuşada yoxsul komitələri yaradıldı.

Yenicə yaradılmış Yoxsul Komitələri qolçomaqlara, onlarla birlikdə fəaliyyət göstərən ortabablar və hətta onlarla qohum olan muzdurlara qarşı mübarizə aparır, torpaqlarını müsadirə edərək yoxsul kəndlilər arasında paylayırdılar. Buna görə Sovet hakimiyyətinin ilk dövrlərində kəndlilərin böyük bir hissəsi yoxsul komitəsinin ətrafında birləşirdilər. Bəhs etdiyimiz dövrdə Şuşanın Əsgər Dərəsi, Çaykənd, Qaladərəsi, Məmişlər, Göytala, Səfixanlar, Paşalar, Xanlıqpəyə, Cəmillər, Allahqulular, İmamqulular, Turabxan, Xanalı və s. kəndlərində yaradılmış yoxsul komitələri Sovet dövlətinin dayaq nöqtəsi kimi fəaliyyət göstərirdi. 1920-ci ilin oktyabr-dekabr aylarında təşkil olunmuş yoxsul komitələri 610 desyatin torpaq sahəsini, 186 kotanı, 401 baş qoşqu qüvvəsini müsadirə edərək yoxsul kəndlilərin arasında bölünmüşdür. Şuşa bölgələrində müsadirə edilən 11864 desyatin torpaq sahəsinin 68,5 faizi yalnız XIX-XX yüzilliklərdə bölgəyə köçürülmüş ermənilərə verilmişdir. Şırlan, Turşusu, Mirzələr, Daşaltı, Qaybalı, Zarıslı, Laçınlar, Quşçular, Xəlfəli və digər kəndlərindən müsadirə olunan mal-qaraların çoxu ermənilərə paylanmışdır. Tədqiqatlardan məlum olur ki, 1920-ci ilin sonu və 1921-ci ilin əvvəllərində Bakıdan Dağlıq Qarabağa göndərilən 3 min pud ərzağın, 15000 pud taxılın, 75 min sentner toxumluq arpa və buğdanın böyük bir hissəsi Şuşada məskunlaşmış erməni kəndliləri arasında bölüşdürülmüşdü. 1921-ci ilin yanvarında Zarıslı kəndində 250 desyatin, Turşsu kəndində 480 desyatin müsadirə olunmuş torpaq sahəsi kəndlilərə paylanmışdır. Şuşanın kəndlərindən müsadirə olunan torpağın xeyli hissəsi sovet təsərrüfatını qurmaq üçün ayrılmışdır. Eyni zamanda, meşə

sahələri, qoşqu qüvvələri, kənd təsərrüfatı alətləri müsadirə olunaraq kəndlilərə paylanmışdır [100].

1921-ci ildə Yoxsul Komitələrinin həyata keçirdiyi tədbirlər nəticəsində qəzalarda Sovetlərin təşkili üçün əlverişli şərait yaradıldı. Azərbaycan KP MK 1921-ci il fevralın 11-18-də olmuş III qurultayında yoxsul komitələrinin fəaliyyəti ilə əlaqədar yaranmış vəziyyəti müzakirə olundu. Qurultay yoxsul komitələrinin fəaliyyəti nəticəsində kəndlilərin təbəqələşməsi ilə əlaqədar olaraq Azərbaycanda Sovetlərə keçmək haqqında qərar qəbul etdi. Bununla bərabər qurultayda göstərildi ki, yoxsul komitələri kəndlilərin təbəqələşməsi sahəsində öz vəzifəsini yerinə yetirə bilmədiyi üçün Sovetlər hələlik yoxsul komitələrinin mahiyyətini saxlamalıdır. 1921-ci ilin yazından etibarən öz tarixi rolunu oynamış olan yoxsul komitələrinin əvəzində Azərbaycanın bütün kənd və şəhərlərində Fəhlə Kəndli Deputatları Sovetinin təşkilinə başlansın. Həmin ilin mart-may aylarında Respublikanın hər yerində olduğu kimi Şuşada da Sovetlərə seçkilər keçirildi.

Azərbaycanın Şuşa ərazisində Sovetlərin təşkili aşağıdakı istiqamətdə təşkil olunmuşdur: Sovetlərin təşkili kompaniyası yalnız yoxsul komitələri özünün inqilabi vəzifəsini - kəndin təbəqələşməsini, yoxsulların formalaşmasını və təşkilini yerinə yetirməkdən və kənddə Sovetlər üçün ilkin zəmin yaratdıqdan sonra başlandı. Sovetlərin təşkili vahid, əvvəlcədən işlənib hazırlanmış plan üzrə və həm də ciddi dövlət nəzarəti altında həyata keçirilirdi. 1921-ci ildə Azərbaycanda 1400-ə yaxın kənd soveti təşkil olundu. Onların tərkibinə 30 minə yaxın üzv seçildi. Bütün qəza sovetinə, o cümlədən Şuşa sovetinə seçilmiş deputatların 76,1 faizi yoxsul kəndlilər idi. Milli tərkibinə gəldikdə isə deputatların 68,5 faizi milliyyətcə ermənilərdən ibarət olmuşdur və təəssüflər olsun ki, getdikcə bu rəqəm artmışdı [104].

Azərbaycan rəhbərliyinin göstərişləri ilə Dağlıq Qarabağda Sovetlərə seçkilər başa çatdıqdan sonra qəzalarda sovet qurultayları keçirildi. Bu qurultaylarda Ümumazərbaycan Sovetlər qurultayına nümayəndələr seçildilər. 1921-ci ilin mayında

Bakıda keçirilən Ümumazərbaycan I Sovetlər qurultayı yerli hakimiyyət orqanlarının yaranması və möhkəmlənməsi işinə yekun vuraraq qeyd etdi ki, «Sovetlər aparatı bir sıra yerlərdə və o cümlədən Şuşada çox bəsit şəkildə qurulmuşdur. Şuşada Sovet orqanlarının işinin mahiyyətini, xarakterini, forma və metodlarını dəyişdirmək və eyni zamanda bir sıra yeni vəzifələrin yerinə yetirilməsi zərurəti yaranmışdır. Yerli Sovet orqanlarının fəaliyyəti Şuşada yaranmış şəraitə tam uyğunlaşdırılması tələb edilirdi. Qurultay Sovetlərin saxlanması üçün maliyyə vəsaitinin ayrılmasını, yerli idarə orqanlarında baş verə biləcək paralelçilik hallarının aradan qaldırılmasını, rəhbər işçilərin ümumi iş qabiliyyətinə xüsusi diqqət verilməsini ən vacib bir vəzifə kimi irəli sürdü və bu sahəyə xüsusi diqqət yetirilməsini bir vəzifə kimi müəyyənləşdirdi [106].

Azərbaycanda ermənilərin özbaşınalıqlarının qarşısını almaq və vaxtaşırı Dağlıq Qarabağdakı vəziyyəti öyrənmək məqsədilə 1921-ci il mayın 30-da Azərbaycan MİK-nin göstərişi ilə Şuşada Xüsusi İnzibati Təsərrüfat Aparatı yaradıldı [107].

1921-ci il iyulun 20-də Azərbaycan K(b)P MK-nın Siyasi və Təşkilat bürosu Dağlıq Qarabağ konstitusiyasının hazırlanması üçün komissiya yaratdı.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməni daşnaklarının məkirli ərazi iddiaları yenidən baş qaldırdığı üçün 1921-ci il avqustun 8-də AK(b)P MK-nın Siyasi və Təşkilat bürosu Şuşada daha bir orqan, Fövqəladə Müvəkkillik yaratdı. Həmin vəzifəyə isə Ə.H.Qarayev təsdiq edildi. Həmin ilin 26 sentyabrında isə Dağlıq Qarabağda Xüsusi Komissiyanın yaradılması haqqında qərar qəbul edildi. Yeni yaradılmış orqanlar «ərazi iddiaları» məsələsinin nizamlanmasında Mərkəzi və yerli hakimiyyət orqanlarına yaxından «kömək» etdilər [108].

Bütün yuxarıda deyilənləri yekunlaşdıraraq belə bir nəticəyə gəlirik ki, rus imperiyası Azərbaycan Demokratik Respublikasının dövlət aparatını dağıdıb yeni dövlət aparatı yaratdı ki, həmin aparat vasitəsilə devrilmiş demokratik respublikanın sosial köklərinə sarsıdıcı zərbə endirmək, milli azadlıq uğrunda mübarizə aparan mərd insanların müqavimətini qırmaq,

Azərbaycanın yeraltı və yerüstü sərvətlərindən maneəsiz istifadə etmək üçün zəmin hazırlamış və dövlətimiz yenidən Mərkəzin xammal mənbəyinə çevrilmişdi.

Belə bir şəraitdə darmadağın edilmiş əksinqilabçı partiyaların qalıqları da gizli şəkildə öz fəaliyyətlərini genişləndirdilər. Xaricə qaçan bir çox imkanlı ailələr bu qüvvələrə ümidlə baxırdılar. Onlar ölkədə, o cümlədən bölgədə baş verən hadisələri diqqətlə izləyir, bir çox hallarda onlara maddi və mənəvi köməklik göstərirdilər. Kəndlilərin psixologiyasına, arzu və istəklərinə yaxşı bələd olan bəylər, xanlar, ortabablar, ruhanilər kütlələri öz ətraflarında birləşdirə bildilər. Hərbi İnqilab Komitələrinin, yoxsul komitələrinin və xüsusi ilə Sovet dövlətinin silahlı dəstələrinin özbaşınalığından təngə gələn kəndlilər onların ətrafında birləşdilər. 1921-ci ilin yazında Şuşada ərzaq vergisinə qarşı müxtəlif şayiələr: «vergi elə ad dəyişikliyidir, əslində sapalaqdan başqa bir şey deyildir», «kütlələr yenidən talan olunacaqdır», «yenə də bütün artıqlar alınacaqdır» sözləri ifadə olunurdusa, 1922-ci ilin yazında Şuşada şüarlar belə ifadə olunurdu: «Ərzaq vergisi yoxsullardan alınacaqdır» [112].

1922-ci il mayın əvvəllərində çağırılmış II Ümumazərbaycan Sovetlər qurultayında göstərilmişdir ki, düşmən ünsürləri yeni şəraitdə iqtisadi siyasətin bəzi xüsusiyyətlərindən istifadə edərək ərzaq tədarükü planlarını poza bilərlər. Vəzifə - qolçomaqların, möhtəkirlərin və başqa ünsürlərin bu cür cəhdlərinin qarşısını almaqdan ibarətdir.

Mövcud vəziyyəti nəzərə alan Azərbaycan partiya təşkilatı və onun yerli orqanları Sovet dövlətinin əleyhinə olan bütün qüvvələrə qarşı mübarizə aparmaq üçün əvvəlcədən bir sıra hazırlıq işləri gördü. Mərkəzi Komitənin təşviqat şöbəsi Respublika xalq ərzaq komissarlığı ilə birlikdə ərzaq işçiləri hazırlayan kurs təşkil etdi. Bakıda, Gəncədə, Naxçıvanda, Şuşada bu cür kurslar yaradıldı. Şuşada açılan kursa 70 nəfər fəal cəlb olunmuşdur. Mərkəzi və yerli mətbuat səhifələrində ərzaq vergisi kompaniyasının keçirilməsi məsələlərinin şərhinə geniş yer verildi. 1922-ci il mayın 14-də S.M.Kirovun imzası ilə «Azərbaycan Kommunist Partiyasının bütün qəza komitələrinə və qəza

icraiyyə orqanlarına müraciəti» elan olundu. Müraciətdə Sovet dövlətinin varlığı üçün ərzaq vergisinin toplanması yolları izah edilirdi [113].

1922-ci ildə AK(b)P MK-si təcrübəli kommunistlərin bir hissəsini səfərbərliyə alıb qəzalara göndərildi. Təkcə 1922-ci ilin yazında Şuşaya 30 nəfərdən çox rəhbər işçi göndərilmişdir. Həmin nümayəndələrin bilavasitə başçılığı altında qəza və nahiyə mərkəzlərində, habelə kəndlərdə yığıncaqlar təşkil olundu. Bu yığıncaqlarda ərzaq vergisinin məzmunu, onun toplanma yolları izah edilirdi. Kütləvi izahat işləri ilə yanaşı ərzaq vergisinin toplanması üçün əməli tədbirlər görüldü. Şuşada, Xocavənddə, Xankəndində, Ağdərədə, Hadrutda tədarük orqanları yaradıldı. Kəndlərin əkin sahələri hesaba alındı.

Azərbaycan SSR XKS əkin sahələrinin məhsuldarlığına görə vergi tutulması haqqında dekret verdi. Həmin dekretə görə əkin sahələri yeddi dərəcəyə bölünürdü. Bu dərəcələr torpağın məhsuldarlığı ilə ölçülürdü. Həmin dərəcələrə görə verginin həcmi müəyyən olunurdu. Vergilərin həcmi müəyyən olunarkən milli fərqlər nəzərə alınmırdı. Lakin aparılan araşdırmalardan aydın olur ki, eyni regionda yerləşən, əkin sahələrinin məhsuldarlığı eyni olan erməni, azərbaycanlı kəndliləri üçün müəyyən olunan verginin miqdarında kəskin dərəcədə fərqlər müşahidə edilmişdir. 1922-ci ilin yaz əkin kompaniyası zamanı XIX yüzillikdə Şuşaya köçürülmüş ermənilərin yaşadıqları kəndlərlə müqayisədə qonşu azərbaycanlılar yaşayan kəndlərdəki verginin həcmində 15-20% fərq olmuşdur [114].

Ərzaq vergisinə qarşı çıxışlar həm də ərizəbazlıq şəklində də özünü göstərirdi. 1921-1922-ci ildə AK(b)P MK və XKS-nin ünvanına göndərilmiş şikayət məktublarının böyük əksəriyyəti milliyyətcə ermənilərdən ibarət olan kəndlilər idi. Onlar izi yayındırmaq üçün, böyük güzəştlər almalarına baxmayaraq, həm də ərizə ilə müraciət edirdilər. Yalançı hay-küy salmaq onların köhnə peşəsi idi. Şuşa kəndliləri ərzaq vergisinə qarşı mübarizədə başqa vəsaitlərə də əl atırdılar. Milliyyətcə erməni olan kəndlilər tədarük məntəqələrində, digər yerli idarə orqanlarında özlərinə yer etməyə, bu idarələrdə çalışan işçiləri pul və qiymətli

hədiyyələrlə ələ almağa cəhd göstərirdilər. Bir çox hallarda onlar öz məqsədlərinə nail ola bilirdilər. 1922-ci ilin payızında Şuşa bölgəsindən 8 min pud taxıl toplanaraq tədarük məntəqələrinə təhvil verilmişdir [119].

Qolçomaqların, ortababların bir hissəsi, onların qohum-əqrəbaları ərzaq üçlüklərinə qarşı qəsdlər təşkil edir, ərzaq anbarlarına silahlı basqınlar edirdilər. Erməni quldur dəstələri özlərini sovet işçiləri kimi qələmə verərək azərbaycanlılar yaşayan kəndlilərini soyub talayırdılar. «Kommunist» qəzetinin müxbirlərindən biri Şuşa bölgəsindən göndərdiyi məktubda yazırdı: «Şuşada son zamanlar yeni quldur dəstələri əmələ gəlmişdir. Onlar kəndlərdə və ya təsərrüfat sahələrində rus dilində yazılmış kağız göstərir, ərzaq və ya mal-qara verilməsini tələb edirdilər». Vergini verdiklərini bildirən sənədlər təqdim olunarkən «həmin silahlı qüvvələr kəndliləri həbs olunmaları ilə hədələyir», bir çox hallarda «cismani cəza» verirdilər... Başqa bir məktubda qeyd olunurdu ki, «Kənddə vergi verənlərin siyahısı tutularkən burada ancaq qolçomaqlar qalmışdır. Axırıncılar fürsətdən istifadə edərək siyahıya elə adamı saldılar ki, onun nə heyvanı, nə də əkini var idi ...Kənd təsərrüfatı vergisi toplanan zaman mübahisə başladı...silahlı dəstələr bildirirdilər ki, indi hökumət fəhlə və kəndli hökumətidir, hökumətə vergi vermək onların borcudur» [122].

Azərbaycan hökumətinin göstərişi ilə Şuşa ərazisində yerli idarə orqanları bu cür hallara qarşı "tədbirlər" gördü. Ərzaq üçlükləri tədarük məntəqələrində çalışanların milli və sinfi tərkibini yenidən nəzərdən keçirdilər. Bu tədbir ərzaq məntəqələrinə ermənilərin daha çox cəlb olunması ilə nəticələndi. Eyni zamanda, bir çox erməni yoxsul və ortabab kəndlilərinə bəzi güzəştlər edildi. Onlardan alınan vergilər varlı və qolçomaq kəndlilərin üzərinə qoyuldu. Araşdırmalardan məlum olur ki, Mərkəzdən göndərilən "Ərzaq üçlüklərinin" tərkibi milliyyətcə qeyri-azərbaycanlılar olmuşdur.

Aparılan tədqiqatlardan məlum olur ki, Şuşanın ayrı-ayrı kəndlərində ərzaq üçlükləri əhalinin əmlaklarının siyahıya alınmasını düzgün tərtib etməmişdilər. Bəzən bir çox varlı

erməni ailələrinin əmlakı gizlədilirdi. Qaladərəsi, İmamqulular, Göytala, Xəlfəli, Qaybalı, Daşaltı, Xanalı kəndlərində keçirilən mitinqdə kəndlilər çıxış edərək deyirdilər: «Biz, ərizəbazlıq edən və əkin sahələrini, mal-qarasını gizlədən varlı kəndlilərin əvəzinə veririk... «Vergi toplayanların dilini bilmirik, bir parça kağız göstərərək toyuq-cücələrimizə qədər əmlakımızı əlimizdən alırlar ... vəziyyətimiz olduqca acınacaqlıdır».

Mövcud vəziyyət tədarük məntəqələrində çalışanları hərəkətə keçirdi. Onlar kəndlərə gedir, xalq içərisində geniş təbliğat işləri aparırdılar. Onların bir məqsədi var idi, əhalinin narazılıqlarının qarşısını almaq. 1922-ci ilin oktyabrında Şuşada keçirilən konfrans kəndlilər üzərinə bir növ hücum xarakteri daşıyırdı. Şuşada keçirilən kəndli konfransının qəbul etdiyi qətnamədə deyilirdi: «...Ərzaq vergisi bizim üçün zəruridir. Fəhlə-kəndli respublikasının anbarlarında olan hər pud artıq taxıl fəhlə-kəndli hakimiyyətinin möhkəmlənməsi və güclənməsi deməkdir... Ona görə də vergidən heç kəs imtina etməməlidir!» [122].

Tədqiqatlardan məlum olur ki, əhalinin kəskin müqavimətinə baxmayaraq Şuşada 1922-ci il üçün müəyyən olunmuş ərzaq vergisi 100 faiz ödənilmişdir. Bu, kəndlilərin var-yoxdan çıxması, əhalinin fəlakətə məruz qalması demək idi. Belə bir vəziyyətdə Şuşada ərzaq vergisinin tətbiqi ilə əlaqədar olaraq ticarət azadlığına yol verildi. Bu tədbir bölgədə xırda alverçiliyin genişlənməsinə, əhalinin sonuncu qəpik-quruşunun əllərindən alınmasına və onların daha da müflisləşməsinə səbəb oldu.

Bütün bunların nəticəsində bəhs olunan dövrdə Şuşanın kəndlərində ağlasığmaz bahalıq baş verdi. Həm sənaye, həm də kənd təsərrüfatı məhsullarının qiyməti sürətlə artdı. 1921-ci ilin yazında duzun, neftin girvənkəsi 1000 manata, buğdanın pudu 140-150 min manata qalxmış ən çox işlənən sənaye mallarının qiyməti 1920-ci ilə nisbətən 1921-ci ildə 5-6 dəfə artmışdır [124]. Möhtəkirlər kəndliləri soyub talayırdılar. Onlar sənaye malları ilə kənd təsərrüfatı malları arasında olan fərqləri daha da dərinləşdirməyə cəhd edir və vəziyyətdən istifadə edib varlanırdılar.

Sovet Rusiyasının və digər respublikaların təcrübəsinə əsaslanaraq, Azərbaycan hökuməti dövlət ticarətini genişləndirmək üçün bir çox tədbirlər həyata keçirdi. Hələ 1920-ci il mayın 20-də verilən dekretə əsasən Azərbaycanda olan bütün kooperativlər yenidən təşkil olundu. Bir çox qəzalarda, o cümlədən Şuşa ərazisində yeni kooperativlər yaradıldı. Lakin bu kooperativlər həm maliyyə, həm də təşkilat cəhətdən zəif olduqları üçün geniş fəaliyyət göstərə bilmirdilər.

1921-ci il aprelin 7-də ölkədə kooperasiyanın hüquq və imtiyazlarının artırılması haqqında dekret qəbul edildi. 1922-ci il mayın 30-da ərzaq vergisi yığılıb qurtaranadək respublikada taxıl satışının qadağan edilməsi haqqında xüsusi göstəriş verildi. Respublika XKS-nin 1922-ci il 27 iyun tarixli qərarı ilə bütün ərzaq məhsullarının respublika ərazisindən kənara çıxarılması qadağan olunmuşdur. Verilmiş əmrə və sərəncamlara riayət etməyənlərin bütün əmlakı müsadirə olunur və ağır cəzalara məruz qalırdılar [130].

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra siyasi hakimiyyətdən uzaqlaşdırılan və iqtisadi cəhətdən ağır zərbəyə məruz qalan əhalinin böyük bir hissəsi torpaq məsələsinin həllində ciddi müqavimət göstərirdilər. Torpaq məsələsi aqrar məsələsinin düyün nöqtəsi idi. Xalq təsərrüfatının bərpasına keçid dövründə torpaq məsələsi sinfi mübarizənin, milli çəkişmələrin ən kəskin obyektlərindən birinə çevrilmişdi. Bu ziddiyyətlərə baxmayaraq mərkəzi və yerli idarə orqanlarının inzibati tədbirləri ilə 1920-1921-ci illərdə bəy, xan və mülkədar torpaqlarının müsadirə olunması əsasən başa çatdırıldı. Başqa sözlə desək, qolçomaqların bir hissəsinin mülkləri müsadirə olundu. Lakin müsadirə olunan torpaqların kəndlilər və kəndlər arasında bərabər surətdə bölünməsi məsələsi hələlik tam həll edilməmişdir. Xüsusilə Şuşa, Xocavənd, Xankəndi, Cəbrayıl, Qaryagin, Hadrut bölgələri arasında ərazi bölgüsü ziddiyyətləri olaraq qalmaqda idi. Eyni zamanda, əhalisi ermənilərdən ibarət olan kəndlərlə Azərbaycan kəndləri arasındakı torpaq bölgüsü hələlik tam həll olunmamışdır və gündəlikdə duran vacib məsələlərdən idi [132].

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra mülkədarlardan müsadirə edilmiş torpaqların bir hissəsi toxunulmamış qalırdı. Bir çox qəzalarda torpaq bölüşdürülərkən ciddi nöqsanlara yol verilmişdir. Belə ki, bölgü düzgün təşkil olunmamış, siyahı torpağı bölənlərin istəyi əsasında aparılmış və ya torpağın bərabər sürətdə bölüşdürülməsi prinsipinə əsaslanmışdır. Nəticədə eyni bölgədə, eyni şəraitdə və eyni vəziyyətdə olan kəndlilər müxtəlif normalarda torpaq almışlar. Bundan başqa, siyasi şüur cəhətdən geridə qalmış kəndlilərin bir hissəsi müsadirə edilmiş torpaqların bölüşdürülməsi məsələsinə laqeyd münasibət bəsləyirdilər. Belə kəndlilər «başqalarının torpağına yiyələnmək haramdır» deyərək ona ayrılan torpaq sahələrini götürmürdülər. Eyni zamanda, rus qoşunlarına arxalanaraq torpaqların xeyli hissəsini mənimsəyən ermənilərin istifadəsində olan torpaq sahələrindən də azərbaycanlı kəndlilər imtina edirdilər. Beləliklə, bəhs olunan dövrdə aqrar məsələsinin həlli hələlik tam həyata keçirilməmişdir. Belə bir vəziyyət nəinki iqtisadi-sosial və həm də milli ziddiyyətlərin qalması demək idi [133].

Torpağın milliləşdirilməsi gedişində ölkənin hər yerində olduğu kimi Şuşa bölgəsində də yeni təsərrüfat formalarının - sovxozların, kənd təsərrüfatı artelinin, kommunaların və şirkətlərin yaradılması ilə nəticələndi. Bu təsərrüfatlar sayca o qədər də çox deyildir. Lakin təcrübə nümunəsi olmaq etibarilə bu təsərrüfatların bir hissəsi sovet imperiyasının siyasətinə tam uyğun idi.

1920-ci ilin yay-payız aylarında yoxsul komitələrin bilavasitə köməyi ilə Şuşanın ayrı-ayrı kəndlərində kommuna və artellər yaradıldı. 1920-ci ilin avqust ayında Şuşada bir artel, iki kommuna təşkil olunmuşdur. 1920-ci ilin sonunda Şuşada kənd təsərrüfatı artelləri, kommunaları və şirkətlərinin sayı xeyli artdı. Bəhs olunan dövrdə Şuşa bölgəsində 4 artel, 3 kommuna var idi. 1920-ci ilin yazında Şuşada bir sıra kəndlərində yeni kommuna və artellər yaradıldı. Ərazidə kommuna və artellərin sayı 26-ya çatdı [137].

Yerlərdə həyata keçirilən bütün iqtisadi tədbirlər, o cümlədən yeni iqtisadi siyasətə keçid dövründə aqrar islahatların həyata keçirilməsi sahəsində əldə edilmiş müvəffəqiyyətlər yerlərdə sovet idarə aparatının möhkəmlənməsi ilə bilavasitə bağlı idi.

Yerlərdə fəaliyyət göstərən İnqilab Komitələri və yoxsul komitələrindən sonra yaradılan Sovetlər ən geniş kütlələri əhatə edirdilər. Yerli Sovetlər kəndlilərin bir hissəsini öz ətrafına birləşdirərək imperiyanın Şuşa ərazisində dayağını möhkəmləndirmək üçün tədbirlər həyata keçirməyə başladı. Yerli Sovetlər kənddə bütün təsərrüfat və mədəni quruculuq işlərinin dayağına çevrildi. Bu dayaq sonrakı illərdə getdikcə möhkəmləndirildi və inkişaf etdirildi.

Aparılan elmi araşdırmalardan, əldə olunmuş tarixi faktlardan tam aydın olur ki, 1920-ci ilin aprel çevrilişindən sonra Şuşada həyata keçirilən tədbirlərin ən başlıca yekunları Sovet imperiyasının müstəmləkəçilik rejiminin iqtisadi, siyasi və ideoloji təməlinin yaradılması olmuşdur. Bu təməl xalq təsərrüfatının ən mühüm sahələrinin milliləşdirilməsi, onu Sovet imperiyasının strategiyasına uyğun bir şəkildə, vahid bir mərkəzdə birləşdirilməsi, siyasi hakimiyyətdən uzaqlaşdırılmış, iqtisadi cəhətdən sarsıdılmış sinfin məhv edilməsi, onların böyük bir hissəsinin öz doğma yurdlarından didərgin salınmasına, sovet dövlətinin dayaqlarının möhkəmlənməsinə səbəb oldu.

1920-ci ilin aprel çevrilişinə qədər və çevrilişdən sonrakı illərdə həyata keçirilən tədbirlərə aid tarixi sənədləri, faktları və materialları nəzərdən keçirərkən belə bir qənaətə gəlmək olur ki, bolşeviklər partiyasının, onun mərkəzi və yerli hakimiyyət orqanlarının Şuşa ərazisində həyata keçirdiyi tədbirlərdə güddüyü başlıca məqsəd müstəmləkəçilik rejimini əbədiləşdirmək üçün beynəlmiləlçilik bayrağı altında yerli əhalinin milli mənlik şüurunu öldürməkdən, ölkənin təbii sərvətlərini yeni rejimin tələblərinə uyğun şəkildə istifadə etməkdən və onu Moskvanın mənafeyinə uyğun istiqamətə yönəltməkdən ibarət olmuşdur.

Sovet hakimiyyətinin ilk illərində Cəmiyyətin iqtisadi təməlini möhkəmləndirmək üçün birinci növbədə kənd təsərrüfa-

tını inkişaf etdirmək başlıca vəzifələrdən biri idi. 1922-ci ilin fevralında AK(b)P-nın qurultayında kənd təsərrüfatını müharibədən əvvəlki səviyyəyə çatdırmağı vacib vəzifə kimi irəli sürdü. Taxılçılığın, pambıqçılığın və heyvandarlığın inkişafı ön plana çəkildi. AK(b)P-nın Dağlıq Qarabağdakı səlahiyyətli nümayəndəsi Ə.Qarayevin sədrliyi ilə Şuşada keçirilən qurultay (1922-ci ilin martı) kənd təsərrüfatı sahəsində qazanılan nailiyyətlərdən və qarşıdakı vəzifələrdən bəhs olundu. Ə.Qarayevin məruzəsindən kiçik bir hissədən oxuyuruq: «Dağlıq Qarabağda vəziyyət hələ də gərginləşir. Quldurlar (ermənilər nəzərdə tutulur – N.M.) hər yerdə fəaliyyət göstərirlər. Onlar bölgəyə 10 milyon rubl məbləğində zərər vurmuşlar. Erməni quldurları əliqabarlı azərbaycanlı kəndlisini öldürür, evlərini yandırır və təsərrüfatlarını dağıdırlar... Dağlıq Qarabağda yalnız bir aqranom var... Bu gün Bakının Dağlıq Qarabağa köməyi zəruridir...» [137].

Göründüyü kimi, Dağlıq Qarabağda o cümlədən Şuşada öz məkirli niyyətlərini, əsassız ərazi iddialarını həyata keçirməyə çalışan erməni daşnaklarının fəallaşması təsərrüfatın inkişafına maneə olan ən başlıca amil idi. Eyni zamanda, torpağı şumlamaq üçün alət və qoşqu heyvanları, toxum çatışmırdı. İxtisaslı kadrlara ehtiyac var idi.

Bütün bunlarla yanaşı Şuşada maldarlığın inkişafına mane olan amillərdən biri də, əraziyə məqsədli şəkildə köçürülmüş, hər cür şəraitlə təmin olunmuş və maliyyələşdirilmiş ermənilərin iri sahibkara çevrilərək heyvandarlıq sahəsindəki dövlət tədbirlərinə müqavimət göstərməsi olmuşdur. Onlar dövlətin qanunlarına tabe olmaq istəmir, öz mal-qaralarını xarici ölkələrə gizli yolla keçirib baha qiymətə satmağa çalışırdılar, eyni zamanda ərazidə yerləşdirilən Qızıl Ordu əsgərlərinin ətə olan tələbatını ödəmək heyvandarlıqla məşğul olan əhalinin çiynində ağır bir yükə çevrilmişdi. Onların şəxsi mal-qarası, atı, qoyunu tez-tez müsadirə olunur, bu isə öz növbəsində heyvandarlıqla məşğul olan kəndlinin maddi marağını aşağı salır və inkişafa mane olurdu.

Qurultayın qəbul etdiyi mühüm məsələlərdən biri də Dağlıq Qarabağda fəaliyyət göstərən Torpaq idarəsinin Şuşa şöbəsinin yaradılması olmuşdur. Buraya aqronomluq, baytarlıq, su

təsərrüfatı, torpaq və yardım şöbələri daxil idi. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, hər bir şöbəyə rəhbərliyi milliyyətcə erməni olan kommunistlər təyin edilmişlər. Azərbaycan hökuməti Şuşada kənd təsərrüfatının inkişafı üçün 1923-cü ildə xeyli miqdarda pul, 6 min arşın bez, 6 min pud ağ neft, müxtəlif tikinti materialları və əkmək üçün 6.000 pud toxum göndərmişdir [144].

Yuxarıda qeyd etdiyimiz kimi Şuşada kənd təsərrüfatının inkişafı üçün müxtəlif peşə sahibli mütəxəssislərin hazırlanması tələb olduğundan ali məktəblərin, texnikumların, kursların geniş şəbəkəsinin yaradılmasında, onun coğrafiyasında ciddi dəyişikliklər aparılmışdır. Respublika miqyasında fəaliyyət göstərən ali və orta təhsil ocaqlarına Dağlıq Qarabağdan 200 nəfər gənc cəlb olunmuşdur [145]. Bu gənclərin əksəriyyəti milliyyətcə ermənilər idi. 1923-cü ildə Dağlıq Qarabağda Kənd Təsərrüfatı Texnikumu açıldı. Təəssüflə qeyd etməliyik ki, Dağlıq Qarabağda (Xankəndində) fəaliyyətə başlayan bu texnikumda dərslər yalnız erməni dilində aparılır və milliyyətcə erməni olan gənclər burada təhsil alırdılar. Burada heyvandarlıq elminin sirləri öyrədilir, kənd təsərrüfatı heyvanlarının yetişdirilməsi və saxlanılması üsulları tələbələrə çatdırılırdı. Həmin ildə Xankəndində Aqromərıtəqə fəaliyyətə başladı. 1923-cü ildən başlayaraq Şuşada heyvandarlığın saxlanılmasında yeni üsul tətbiq edilməyə başlandı. Belə ki, yarımköçəri maldarlıqdan tövlə şəraitində heyvanların saxlanılması üsuluna keçirildi. Mövcud yaylaqlardan səmərəli istifadə edilməyə başlandı. Azərbaycan hökuməti Şuşada maldarlığın inkişafı üçün əlverişli şərait yaratdı. Kəndlər qismən yem bazası ilə təmin olundu. Şuşa kəndliləri xırda buynuzlu heyvanlar və quşlar saxladıqlarına görə vergidən tam azad oldular. Beş başa qədər iribuynuzlu mal saxlayanlar da vergi vermirdilər. Bütün bunlar isə bölgədəki əhalinin heyvandarlıqla məşğul olması sahəsinə marağı artırırdı.

1923-cü ildən fəaliyyətə başlayan Azərbaycan Dövlət Kənd Təsərrüfatı Bankı Şuşada kiçik kəndli təsərrüfatının inkişafı üçün 5 000 manat uzunmüddətli kredit verdi. Azərbaycan Torpaq

Komissarlığı öz vəsaiti hesabına maldar mütəxəssislər hazırlamaq üçün ərazidə qısamüddətli kurslar açmışdır [146].

Bütün bunlarla yanaşı Şuşa ərazisində heyvanların cinsinin yaxşılaşdırılması sahəsində də Azərbaycan hökuməti xeyli işlər görmüşdü. Belə ki, 1925-ci ildə Lisaqork kəndində Nümunəvi Heyvandarlıq ferması yaradılmışdır. Bu ferma bölgədə heyvanların cinsinin yaxşılaşdırılmasında mühüm rol oynamışdır. Bölgənin ayrı-ayrı kəndlərindən südlük və ətlik sortlar seçilərək Lisaqorsk fermasına gətirmişdir. Yaradılmış bu ferma Şuşa ərazisində heyvandarlığın inkişafında mühüm rol oynamışdır.

Heyvandarlıq üçün bəla olan taun xəstəliyinə qarşı mübarizə aparmaq məqsədilə 1925-ci ildən Şuşanın Turşsu ərazisində Baytarlıq və Diaqnostika Mərkəzi yaradıldı. 1926-cı ildə isə bölgədə belə mərkəzin sayı 3-ə çatdırılmışdı. 1924-1925-ci illər ərzində Şuşada xəstəlikdən 500 baş qaramal məhv olmuşdur. Yaradılan bu mərkəz Şuşa ərazisində heyvanların xəstəliklərinə qarşı mübarizədə, mal-qaranın sayının artırılmasında və cinsinin yaxşılaşdırılmasında başlıca amilə çevrilmişdir. Azərbaycan dövlətinin Şuşada heyvandarlığın inkişafı üçün keçirdiyi tədbirlər irəliləyiş üçün zəmin hazırladı. Ümumilikdə götürüldükdə 1926-cı ilin əvvəlində mal-qaranın sayı 1914-cü ilin 80 faizini təşkil edirdi. Şuşada iri buynuzlu mal-qara isə ümumrespublika göstəricilərindən aşağıda dayanmışdı. Qoyun, keçi və donuzların sayı isə 1914-cü il səviyyəsinə çatmışdı. Əgər 1921-ci ildə Şuşa ərazisində mal-qarası olmayan kəndlilərin sayı 40 faiz idisə, 1926-cı ildə bu rəqəm 34 faizə enmişdi [147].

Şuşanın təbii şəraiti və iqlimi quşçuluğun inkişafı üçün əlverişli idi. Quşçuluq Şuşada kənd təsərrüfatının ümumi payının 9 faizini təşkil edirdi. Quşçuluq əhəmiyyətli sahə olmaqla, həm ətindən, həm yumurtasından həm də tükündən istifadə edilirdi. 1925-1926-cı təsərrüfat ilində Azərbaycan dövləti Şuşada bu sahənin inkişaf etdirilməsinə diqqəti artırdı. Belə ki, bölgəyə yeni sortlar «Monriko» və «Lanqşan» sortları gətirildi. Şuşada «inqibatorlar» (cücə çıxan yerlər) yaradıldı. Bu isə bölgədə quşçuluğun inkişafına təkan verdi. Bəhs edilən dövrdə Şuşanın

quşçuluq fermalarında 35105 toyuq, 478 ədəd qaz, 453 ədəd ördək, 1098 ədəd hinduşka var idi.

Azərbaycanın əsas aparıcı sahələrindən biri də pambıqçılıq olmuşdur. Azərbaycan dövləti IV qurultayın qərarından sonra pambıqçılığın inkişafına xüsusi diqqət verməyə başladı. Pambıqçılıq çox çətin becərilən və həm də olduqca gəlirli sahə idi. Dünya bazarında pambığa və ondan hazırlanan məmulatlara böyük tələbat olduğundan Rusiya hökuməti daha çox varlanmaq məqsədilə Azərbaycanda pambıqçılığın bərpa və inkişafı üçün xüsusi qərar qəbul etmişdi. Belə ki, əvvəllər pambıq əkən təsərrüfatlarda pambıq əkininə yenidən üstün yer verilməsi, köhnə təcrübə tarlaları və seleksiya stansiyalarını bərpa etmək və yenilərini yaratmaq tapşırıqları verilmişdi. Hansı təsərrüfat pambıq əkirdisə onlara torpaqdan və sudan istifadəyə görə vergi güzəştləri edildi. Azərbaycan Xalq Təsərrüfat Şurası və Xalq Torpaq Komissarlığına tapşırıldı ki, pambıq əkən təsərrüfatları alətlər, gübrələr, mütəxəssislər və toxumla təmin etsinlər. Əhali içərisində maddi maraq yaratmaq məqsədilə pambığın azad ticarətinə icazə verildi. Pambıqçılıqla məşğul olan təsərrüfatlar sənaye, məhsullarını 25 faiz ucuz qiymətə alırdılar. Eyni zamanda dövlətə təhvil verilmiş hər bir pud pambığın manatla qiyməti ödənilməklə yanaşı, həm də həmin şəxsə mükafat olaraq xeyli miqdarda çay, stəkan, çıraq şüşəsi, qənd, duz, sabun, ağ neft verildi. Pambıqçılığa rəhbərlik Azərbaycan Pambıq Sənayesi İdarəsinə tapşırıldı. RSFSR hökuməti pambıqçılığın inkişafı məqsədilə Azərbaycana 20 min pud çiyid (toxumluq), 200 traktor, 150 çiyidsəpən, kotan, kultuvator və sair göndərdi [153].

Dağlıq Qarabağda pambıqçılığın inkişaf etdirilməsi məqsədilə 1924-cü il aprelin 4-də Xankəndində konfrans keçirildi. Konfransda RSFSR hökumətinin irəli sürdüyü tapşırıqları bəyəndiklərini bildirmişdilər. Konfrans iştirakçıları Moskvaya məktub yazaraq onlarla həmfikir olduqlarını bəyan etdilər. Konfransda Dağlıq Qarabağda pambıqçılığın inkişaf etdirilməsi məqsədilə tədbirlər planı işlənib hazırlandı.

Konfransın qərarlarından irəli gələn vəzifələri həyata keçirmək üçün Dağlıq Qarabağda pambıq əkin sahələri müəyyən

edildi. Pambıq əkiləcək sahələr düzənlik olmalı idi ki, onun becərilməsi və xüsusilə suvarılması mümkün olsun. Ona görə də pambıq əkiləcək sahələrin çox hissəsi Ağdərə, Xocavənd, Hadrut ərazilərinin payına düşmüşdür. Yuxarıda qeyd etdiyimiz kimi, pambıq gəlirli sahə olmaqla yanaşı, həm də becərilməsi və toplanması ağır, gərgin əmək tələb edirdi. Odur ki, ermənilər bu sahədə çox «uzaqgörənlik» etmişdilər. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, pambıq əkilən kəndlərin əksəriyyətində azərbaycanlılar yaşayırdılar. Ermənilər yaşayan kəndlərdəki pambığın becərilməsi isə işsiz olan qonşu rayonların (Ağdam, Tərtər, Füzuli, Cəbrayıl) kənd əhalisinin üzərinə düşürdü. Sadəcə olaraq həmin işsiz əhalini günəmuzd işlədir, az miqdarda qəpik-quruş verir və özləri həddindən artıq gəlir götürürdülər. Azərbaycanlıların savadsızlığı da bu istismarı daha da dərinləşdirirdi. Çünki onlar RSFSR hökumətinin verdiyi güzəştlərdən xəbərsiz idilər. Zəruri aqrotexniki maşınların və suvarma mexanizmlərin olmadığı bir şəraitdə azərbaycanlı kəndlilərin sağlamlığına və genafonuna çox böyük ziyan dəyirdi.

Dağlıq Qarabağda pambıqçılığın inkişafı üçün Azərbaycan dövləti bəhs etdiyiniz dövrdə bölgəyə 404 kotan, 6 traktor, 19 kultuvator, 12 toxumsəpən, 250 milyon manat uzunmüddətli kredit və sənaye məhsulları verdi [158].

Qarabağ ərazisində suvarma sisteminə böyük ehtiyac olduğunu nəzərə alaraq kəhrizlərin bərpasına başlandı. 1925-ci ildə suvarma arxlarının yenidən çəkilişi və çoxunun tikintisi başa çatdırıldı. Su-melerasiya işlərinin genişləndirilməsi əkinçiliyin inkişafına təkan verdi.

Dağlıq Qarabağda pambıq əkini ilbəil artırıldı. Belə ki, 1924-cü ildə desyatin, 1925-ci ildə 180 desyatin, 1926-cı ildə isə 210 desyatin sahədə pambıq əkilmişdir. Bu əkin 1913-cü il səviyyəsinin 85 faizi demək idi. 1913-cü illə müqayisədə pambığın toplanması 80 faiz təşkil etmişdir [160].

1921-1926-cı illərdə pambıqçılıq sahəsində olduğu kimi üzümçülük sahəsində də xeyli müvəffəqiyyətlər əldə edilmişdir. Üzümçülüyün qədim diyarı olan Qarabağda 1925-ci ildən üzümün yeni üsulla əkilməsinə başlandı. Əvvəllər böyük

ağaclara dırmanan üzümün becərilməsi olduqca çətin idi. 1925-ci ildən alimlərimiz üzümü cərgə üsulu ilə əkməyə və ona cərgə ilə dirəklər basdırmağa başladılar. Bu isə üzümün aqrotexniki qaydada becərilməsini asanlaşdırdı və məhsuldarlığı artırdı. Təbiət, iqlim, yeni üsul və əməkçi əhalinin fədakarlığı Qarabağ ərazisində bəhs edilən dövrdə üzümçülüyün inkişafına təkan verdi. 1925-1926-cı təsərrüfat ilində üzüm sahələri genişləndirilərək 1913-cü il səviyyəsinə çatdırılmışdır. Məhsuldarlıq isə 1921-ci illə müqayisədə 2,5 dəfə çox idi. Beləliklə, Qarabağ ərazisində bəhs edilən dövrdə üzümlüklər yenidən bərpa olundu.

Bəhs edilən dövrdə taxılçılığın bərpası mühüm vəzifələrdən biri idi. Alimlərimiz taxılçılığın inkişafı üçün böyük elmi yeniliklər, səmərələşdirici təkliflər vermişdilər. Belə ki, 1924-cü ildə Şuşa ərazisində taxılçılığın yeni sortlarının yetişdirilməsi üçün sahələr ayrıldı. Burada «Arandəni» və «Şirvandəni» sortlarının yetişdirilməsinə başlanmış və yüksək məhsuldarlıq əldə edilmişdir. Azərbaycan dövləti Şuşada taxılçılığı inkişaf etdirmək məqsədilə toxumluq taxıl göndərmiş, sahələr tədricən mexanikləşdirilməyə başlamışdır. Suvarma sisteminin də nisbətən qaydaya salınması ərazidə taxılçılığın inkişafına təkan vermişdir. Belə ki, 1923-cü ildə hər desyatin taxıl zəmisindən 55 pud buğda, 60 pud arpa götürülmüş, 1924-cü ildə bu rəqəm müvafiq olaraq 40 pud və 45 puda enmişdirsə, 1925-1926-cı təsərrüfat ilində Şuşa ərazisində taxıl istehsalı 1913-cü ilin 90 faizini təşkil etmişdir.

Şuşada əhalinin qədim məşğulluq sahələrindən biri də barama qurdu saxlamaq olmuşdur. Lakin 1920-ci illərin əvvəllərində Şuşada ipəkçilik ən ağır vəziyyətə düşmüşdü. Belə ki, erməni daşnaklarının Azərbaycana qarşı elan olunmamış müharibəyə girməsi, dinc, zəhmətkeş əhalinin öldürülməsi, şikəst edilməsi, tut və çəkil bağlarına baxımsızlıq və sair hallar 1921-ci ildə 1913-cü illə müqayisədə barama istehsalını xeyli aşağı salmışdır. Bərpa dövrünün ilk illərində Azərbaycan hökuməti ipəkçiliyin inkişafı üçün ilkin tədbirlər gördü. Belə ki, Azərbaycan İpək Sənayesi İdarəsi yaradıldı ki, onun köməyi ilə Şuşaya barama toxumu verildi. Zaqatalada ilk barama toxumu

tədarükü stansiyası açıldı. Görülən tədbirlər nəticəsində Şuşa ərazisində barama istehsalı 1923-cü ildə 1921-ci illə müqayisədə 5 dəfə artdı. Lakin, bu heç də qənaətbəxş deyildi. Çünki 1923-cü ildə istehsal olunan barama 1913-cü ildəkindən 3 dəfə aşağı idi. Məhsuldarlığın yüksəldilməsi üçün 1924-1926-cı illərdə Azərbaycan dövləti yeni səmərələşdirici tədbirlərə əl atdı. Gəncədə Elmi Tədqiqat İpəkçilik Stansiyası yaradıldı. Alimlərimiz hibridləşdirmə yolu ilə ən yaxşı yeni tut sortları - «zərif tut», «sıxgöz tut», «azəri tut» növləri yetişdirmiş və həmin sortlar əvvəlkindən 2 dəfə məhsuldar olmuşdur. Barama qurdunun saxlanılması üçün həmin sort tut ağacları Şuşada gətirilmiş və geniş sahələrdə əkilmişdir. Bundan əlavə ipəkçilik stansiyası sonralar «Azərbaycan», «Azad» adlı yeni ipəkqurdu sortları yetişdirmişdir ki, bu sortlar əvvəlkindən 6 gün tez barama sarıyır və bu quru baramada ipək 53 faiz təşkil edirdi. Həmin sortlar Şuşaya göndərilmiş və əhaliyə paylanmışdır. Ərazidə yeni Kumxanalar (ipəkqurdu saxlanılan yerlər) tikilmişdir. İpəkqurdu saxlamaq üçün orta və ali təhsilli mütəxəssislərə böyük ehtiyac olduğunu nəzərə alaraq Nuxa şəhərində İpəkçilik Texnikumu, Azərbaycan Kənd Təsərrüfatı İnstitutu yanında ipəkçilik kafedrası açılmışdır. Burada hazırlanmış mütəxəssislər Şuşaya göndərilmişdir. Şuşada yeni tut və çəkil bağları salınmış, barama qurdu üçün yem bazası yaradılmışdır. Bəhs edilən dövrdə Şuşanın kəndlərində 150 hektar sahədə tut və çəkil ağacları əkildi. 1924-cü ildə hər qutu barama qurdundan 18,5 kiloqram məhsul götürüldü. Bu da 1921-ci illə müqayisədə 2 dəfə artıq idi. Eyni zamanda Şuşa kumçuları (barama qurdu saxlayanları – M.N.) 1925-ci ildə dövlətə 9 ton barama təhvil verdilər. Lakin barama istehsalı hələ də geri qalırdı. Yəni 1925-1926-cı təsərrüfat ilində Şuşada əldə edilmiş barama 1913-cü ildə yetişdirilmiş baramanın 60 faizini təşkil edirdi [160, 161].

1924-cü ildən Şuşada torpağın təmizlənməsi, melerasiyası və aqrotexniki qaydalar əsasında becərilməsinə başlanmış, 1925-1926-cı təsərrüfat ilində bu sahədə irəliləmələr baş vermişdir. 1921-1925-ci illərdə Dağlıq Qarabağda əkin sahələri 6 min desyatindən 12 min desyatinə çatmışdır. Heyvandarlıq və

bitkiçilik sahəsində 1924-1926-cı illərdə bir neçə təcrübə məntəqələri və təcrübə-nümunə təsərrüfatları yaradılmışdır. Şuşada yaradılmış ümumittifaq miqyaslı Lisaqor Nümunə Heyvandarlıq Ferması buna misaldır [163].

Azərbaycan hökuməti 1921-1926-cı illərdə Şuşa bölgəsində kənd təsərrüfatının bərpa və inkişafı üçün müntəzəm olaraq (hər il) pul, müxtəlif növ toxum, yeni tipli alətlər «vermişdir. Nəticədə, 1926-cı ildə Şuşanın kənd təsərrüfatı barama istehsal edilən bütün məhsulun demək olar ki, 85 faizini verməyə başladı. Bundan əlavə həmin ildə taxıl istehsalı artaraq müharibəyə qədər istehsal edilən taxılın 90 faizindən çox məhsul istehsal edilmişdir. 1921-ci illə müqayisədə üzüm və tütünün məhsuldarlığı 1926-cı ildə 2,5 dəfədən çox artmışdır. Heyvandarlıq, ipəkçilik sahəsində də xeyli müvəffəqiyyətlər əldə edilmişdir. 1921-1926-cı illərdə Şuşada yuxarıda göstərdiyimiz irəliləyişlərin əldə edilməsinin başlıca amili Azərbaycan hökumətinin regiona ardıcıl və yaxından köməyi olmuşdur. Eyni zamanda, Azərbaycan xalqının əməksevərliyini, işgüzarlığını, bütün çətinliklərə sinə gərmək bacarığını da bu inkişafın şərti kimi qeyd etməliyik. Bütün bunlarla yanaşı Şuşada kənd təsərrüfatı məhsullarının inkişaf etdirilməsi üçün münbit torpaq, əlverişli iqlim şəraiti və su ehtiyatları irəliləmələrə geniş imkan yaratmışdır [165].

XX yüzilliyin iyirminci illərinin əvvəllərində Moskva ucqarlarda bütün təsərrüfat sistemini vahid mərkəzdə birləşdirmək üçün sosialist təsərrüfat sistemi yaratmağı qarşıya bir vəzifə kimi qoydu. RK(b)P-nın X qurultayının qərarlarını əldə rəhbər tutaraq sovet təsərrüfat sisteminin təşkili işinin planlı qaydada aparmaq üçün 1920-ci ilin avqustunda Azərbaycanın SSR Xalq Torpaq Komissarlığının nəzdində kolxoz və sovxoz şöbələri yaradıldı. Kolxoz quruculuğu üçün tədbirlər həyata keçirilməsi məqsədilə respublikanın bütün qəzalarında və o cümlədən Dağlıq Qarabağda torpaq şöbələri nəzdində xüsusi kolxozlar bölməsi təşkil olundu. Sovet təsərrüfatı yaratmaq üçün əsasnamə hazırlandı. Sovet təsərrüfat quruculuğu üçün ştat vahidi müəyyən olundu, vəsait ayrıldı.

1920-ci il avqustun əvvəllərində Bakıda Azərbaycan Xalq Torpaq Komissarlığının, torpaq komitələri sədrlərinin qurultayı keçirildi. Qurultayda bəylərin, xanların, məscid və kilsə torpaq sahələrinin tamamilə müsadirə olunması barədə qərar qəbul edildi. Partiya ən yaxşı təşkilat və təşviqat qüvvələrini yoxsul kəndlilərə arxalanmaq, ortabab kəndliləri qorumaqla mülkədarların tamamilə məhv edilməsini irəli sürdü.

Azərbaycan Kommunist Partiyasının 1921-ci ilin oktyabrında keçirilən II qurultayında da sovet təsərrüfat quruculuğu məsələlərinə toxunuldu. Qurultay respublikada olan ən iri təsərrüfatlarda sovet təsərrüfatının yaradılmasını irəli sürdü.

1920-ci il iyunun 4-də Şuşa qəzasının Lənbəran kəndi yaxınlığında nümunəvi təsərrüfatlarda sovxoz təşkil etmək üçün tədbirlər görüldü. İyunun sonunda Xankəndində, iyul-avqust aylarında Hadrut, Şuşa, Əsgəranda sovet təsərrüfatı yaradıldı [168]. Lakin yeni iqtisadi siyasətə keçidlə əlaqədar yaranmış kolxoz və sovxozların ömrü çox çəkmədi. 1922-ci il martın 1-də müvəqqəti olaraq bölüşdürülməmiş və ehtiyat fondunda qalmış torpaq sahələrinin müddəti 3 ildən yuxarı olmaq şərtilə müqavilə əsasında xüsusi şərtlərlə icarəyə verildi. İyunun 3-də respublikanın bir çox qəzalarında, o cümlədən Şuşa ərazisində olan bağların bir hissəsi keçmiş sahiblərinə qaytarıldı [169].

Bəhs olunan dövrdə Şuşa ərazisində sovet təsərrüfatları ilə yanaşı artellər, kommunaların yaradılmasına da cəhdlər olundu. 1920-ci il i avqustun 22-də kənd təsərrüfatı artelinin, avqustun 24-də isə kommunaların yaradılması barədə nizamnamə qəbul edildi [170]. Nizamnamədə artelə və ya kommunaya daxil olanların hüquq və vəzifələri müəyyən olundu. Kollektiv təsərrüfat yaratmaq məqsədilə Bakıdan respublikanın ayrı-ayrı qəzalarına xüsusi təlimatçı qruplar göndərildi. Təlimatçılar artel və kommunaların yaradılması, onların kənd təsərrüfatı avadanlıqları ilə təchiz olunmasında bilavasitə iştirak etməli, eyni zamanda torpaq sahələri ayrılarkən ortaya çıxa biləcək hər hansı münaqişəli məsələləri yerindəcə həll etməli idilər. 1921-ci ilin aprel ayında Azərbaycan SSR Xalq Torpaq Komissarlığının

(XTK) bilavasitə göstərişi ilə Şuşaya 7 nəfər nümayəndə göndərilmişdir [171].

Azərbaycan SSR XTK-nın kollegiyasında 1921-ci il mayın 28-də «kolxozlar şöbəsi və onun yerli orqanları haqqında əsasnamə» qəbul olundu. Əsasnaməyə əsasən respublikanın bütün qəzalarında torpaq şöbələri öz işlərini yaradılacaq artellər üçün yararlı torpaq sahələri ayırmaq, suvarma işlərinə nəzarət etmək, kənd təsərrüfatı alətləri və qoşqu qüvvələri ilə təchiz etmək, artelə daxil olmaq istəyən təsərrüfatların maddi-texniki köməyini təşkil etmək və s. vəzifələri həyata keçirməli idilər. Bütün bu vəzifələri həyata keçirmək üçün xüsusi fond yaradıldı. Bu fonda ilk növbədə 100 milyon manat məbləğində pul ayrıldı.

Azərbaycan İnqilab Komitəsinin 15 dekabr 1920-ci il tarixli dekretinə əsasən Şuşa ərazisində 22 min desyatin torpaq sahəsi, 9120 desyatin otlaq, 28 min desyatin meşə milliləşdirilərək yerli əhalinin ixtiyarına verildi. 1921-ci il 17 mart tarixli «Bütün növ məhsul inhisarının ləğv edilməsi haqqında» verilmiş dekretə əsasən Şuşanın bütün kənd nahiyələrində ərzaq sapalağı ləğv olundu. Azərbaycanın hər yerində olduğu kimi, Şuşanın kəndlərində də «Çanaq» tətbiq edildi. Kənddə artel, kommuna quruculuğu işləri genişləndirildi. Ərazidə ilk artel Daşaltı, Qaybalı, Şırlan, Çaykənd, Qaladərəsi, İmamqulular, Xəlfəli, Paşalar, Xanalı, Malıbəyli və digər kəndlərində yaradıldı. Şuşanın kəndlərində hər biri 26-30 təsərrüfatdan ibarət artel təşkil edilmişdir. 1921-ci ilin yaz əkin kompaniyası zamanı aparılan hesablamalara görə Şuşada olan min fərdi kəndli təsərrüfatının təxminən üç faizi artellərdə birləşmişlər. Bu artellərin yarısından çoxu milli tərkibcə qeyri-azərbaycanlı idi [172].

Qeyri-azərbaycanlılardan ibarət yaradılmış təsərrüfatların təşkili prosesində Azərbaycan kəndlərini bu təsərrüfata cəlb etmək məqsədilə beynəlmiləlçilik təbliğatına diqqət artırılırdı. Təsərrüfatlar yaradılarkən təmtəraqlı adlar seçilirdi. Şuşada təşkil olunan artelə «Engeles», «Kommunist», «Sosializm» və s. adları verilmişdir [173].

Respublikanın bir çox bölgələrində olduğu kimi Şuşada da artellərə, kommunalara, kolxoz və sovxozlara daxil olmaqla öz

mülklərini qoruyub saxlamağa cəhd edən, iri torpaq sahibləri, varlı kəndlilər də az olmamışdır. 1921-1926-cı illərdə Şuşanın Aşağı Quşçular, Yuxarı Quşçular, Kiçik Qaladərəsi, Zarıslı, Turşsu, Çaykənd, Səfixanlar və b. kəndlərdə 130 nəfər iri təsərrüfat sahibləri bu cür üsullardan istifadə etməyə cəhd göstərmişlər. 1923-cü ilin yazında respublika Xalq Torpaq Komissarlığının, Vilayət partiya və təsərrüfat orqanları ilə birlikdə apardıqları yoxlama zamanı məlum olmuşdur ki, 60 nəfərdən çox iri torpaq sahibləri artel, kommuna, kolxoz yaratmışdır. Burada yaradılmış artillerə ancaq iri torpaq sahibləri cəlb olunmuşlar [176].

Şuşada artel, kommuna və sovxozların yaradılması işi 1920-1921-ci illərdə qismən sürətlə getmişdir. 1922-ci ilin sonu və 1923-cü ilin payızında bu təsərrüfatların çoxu dağıdıldı. 1925-1926-cı təsərrüfat ilindən başlayaraq artel və sovxozların yaradılması işində yenidən canlanma yarandı [177].

Dağlıq Qarabağda kollektiv təsərrüfat formalarının yaranması şərti olaraq bir neçə mərhələlərə bölmək mümkündür. Onun ilk mərhələsi 1921-1926-cı illəri əhatə etmişdir. Bu vaxt yaradılmış kollektiv təsərrüfatlar içərisindən kommunalar, artellər və ilk sovet təsərrüfatları daha çox yer tuturdu. Bəhs olunan illərdə respublikada 132 kommuna, 46 kənd təsərrüfatı arteli, 40-a yaxın sovet təsərrüfatları yaradılmışdır. 1921-1926-cı illərdə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 6 sovet təsərrüfatı, 16 artel 7 kommuna yaradılmışdı ki, onlar 270 təsərrüfatı birləşdirirdi [180]. Həmin təsərrüfatların isə 890 desyatin yararlı torpaq sahələri, 2000 baş mal-qarası var idi. Bəhs olunan dövrdə Şuşa ərazisində 60 təsərrüfatı birləşdirən 2 sovet təsərrüfatı, 5 artel, 2 kommuna yaradılmışdır ki, onların 2531 desyatin yararlı torpaq sahəsi, 700 baş mal qarası var idi. Bu təsərrüfatlar xırda təsərrüfatlar olduğundan uzun müddət fəaliyyət göstərə bilmədi. 1925-1926-cı illərdə Vilayətdə cəmisi bir neçə sovxoz və kolxoz fəaliyyət göstərirdi. Bəhs etdiyimiz dövrdə kommunalar, xırda artellər ləğv olundu [181].

1926-cı ildən başlayaraq kolxozların və sovxozların fəaliyyətində qismən canlanma yarandı. Bu illərdə Şuşanın kəndlə-

rində ən çox yoldaşlıq cəmiyyətləri inkişaf edirdi ki, bunların sayı 41-ə çatmışdı. O dövrdə Vilayətdə cəmi 6 təsərrüfat arteli, 2 bağçılıq fəaliyyət göstərirdi. Ümumi kollektiv təsərrüfatın sayı isə 21 idi. 1926-cı ildə sənaye sahəsində olduğu kimi kənd təsərrüfatı sahəsində də xüsusi canlanma yarandı. 1924-1926-cı illərdə taxıl əkini sahəsi 58 faiz, mal-qaranın ümumi sayı 43 faiz, texniki bitkilərin səpini isə 32 faiz artmışdır. Bu artım Azərbaycanın hər yerində olduğu kimi Şuşanın kəndlərində də təbəqələşməni gücləndirdi. Bəhs olunan dövrdə Şuşanın təsərrüfat həyatında və əhalinin sosial vəziyyətində yaranan nisbi canlanma, siyasi gərginliyin güclənməsinə səbəb oldu [185].

Sovet dövlətinin Vilayətdəki o cümlədən Şuşanın yerli orqanları mərkəzin verdikləri göstərişlərə, mətbuatın çağırışlarına cavab olaraq sosial-siyasi proseslərin səmtini, imperiya siyasətinə uyğunlaşdırmağa çalışdı. Bu məqsədlə əhalinin, ilk növbədə yoxsul təbəqəsini sosializm quruculuğuna cəlb etmək üçün kooperativləşdirmə, kredit verilməsi, vahid kənd təsərrüfatı vergisi, yer quruluşunda güzəştlər, yoxsul fondunun yaradılması və s. tədbirlərdən istifadə etməyə başladılar.

1921-1926-cı illərdə Şuşada kəndlilərin təbəqələşməsi artdı. Kənddə yaşayan kəndlilərin 54 faizi ortabablaşdı. Muzdlu və aztorpaqlı kəndlilər 43 faiz, varlı (qolçomaq) kəndlilər isə kənd əhalisinin 3 faizini təşkil etdi. Artıq 1926-cı ilin sonlarında kəndlilərin 70 faizi ortabablaşdı və əsas istehsalçıya çevrildi. Kənddə sosialist elementlərinin inkişaf etdirilməsi məqsədilə xüsusi tədbirlər həyata keçirilməyə başlandı. Əgər 1925-ci ilin əvvəllərində kəndlilərin 15 faizi qolçomaq və varlı kəndli idisə, 1926-cı ildə onların xüsusi çəkisi 3 faizə endi. Çünki onlar bütün kənd təsərrüfat vergisinin 47 faizini verirdilər. Belə inzibati xarakterli tədbir tədricən varlı kəndlilərin ortabablaşmasına səbəb olurdu. Bəhs edilən dövrdə Şuşanın kənd təsərrüfatında tədricən sosialist elementləri inkişaf edirdi. 1924-1926-cı illərdə Şuşada kooperasiyaların sayı 3 dəfə artmışdı. Eyni zamanda, kəndlilərin kooperasiya ilə əhatə olunması 4 faizdən 21 faizə qalxmışdı. Həmçinin ticarətdə mühüm mövqe tutan istehlak kooperasiyalarının rolu artmış və əhalinin ehtiyaclarının

ödənilməsində mühüm rol oynamışdır. 1923-cü illə müqayisədə 1926-cı ildə istehlak kooperasiyalarının mal dövriyyələrinin xüsusi çəkisi 12 faizdən 25 faizə qalxmışdır. 1924-1925-ci təsərrüfat ilində ümumilikdə Dağlıq Qarabağda gəlir 1.025 milyon idisə, 1925-1926-cı təsərrüfat ilində artaraq 1.570 milyona çatmışdır [192].

Beləliklə, 1920-1926-cı illər Şuşa ərazisində sosial-iqtisadi durumu təhlil edərkən aşağıdakıları qeyd etmək olar: 28 aprel 1920-ci il çevrilişi ilə Azərbaycan torpaqları, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Şuşa ərazisi Sovet Rusiyasının müstəmləkəsinə çevrildi, yeraltı və yerüstü sərvətlərimiz yenidən Mərkəzə xidmət etməyə başladı. Şuşa ərazisində sovet hakimiyyəti qurulduqdan sonra Qızıl Ordu hissələrinin özbaşınalığı artdı. «Şübhəli ünsürlər»in sıxışdırılması adı altında müsadirəçilik kompaniyası müsəlman əhalisinə aid edildi. Hakimiyyətə gələn ermənilər Fövqəladə Komissiyalarını əli ilə terrora əl ataraq ziyalılarımız, din xadimlərimiz, tacirlərimizin əmlakı əllərindən alınaraq sürgün edilir, istintaq aparılmadan güllələnirdilər. Bütün bunlar isə «çevrilişin» ilk günlərində xalqımızın narazılığına, üsyanlarına səbəb oldu və iqtisadiyyatında böhranlı vəziyyət yarandı. Dağlıq Qarabağda həyata keçirilən tədbirlərdə sovet imperiyasının ən başlıca məqsədi müstəmləkəçilik rejiminin təməlini yaratmaq, onu əbədiləşdirmək yeni rejimin tələblərinə uyğun şəkildə yenidən qurmaq, tükənməz və qiymətli sərvətlərimizdən əbədi istifadə etməkdən ibarət olmuşdur. Ən nəhayət, Yeni İqtisadi Siyasət və onun bütövlükdə Dağlıq Qarabağda o cümlədən Şuşada sosial-iqtisadi və siyasi nəticələri: YİS-in tətbiqi nəticəsində insanların yaradıcılığı, təşəbbüskarlığı, işgüzarlığı və aktivliyi artdı. Bu isə öz növbəsində Şuşanın iqtisadiyyatında, xüsusilə kənd təsərrüfatında nisbi sabitlik yaradılması üçün zəmin hazırladı. Şuşada kənd təsərrüfatı yenidən inkişaf etməyə başladı. Azad ticarətə icazə verildi ki, nəticədə yeni mağazalar, xüsusi ticarət müəssisələri açılır, əhalinin tələbatını ödəmək üçün müxtəlif mallar gətirilir, əmək məhsuldarlığı artaraq istehsal genişlənir və manatın məzənnəsi sabitləşirdi. Ərzaq sapalağından ərzaq vergisinə keçid nəticəsində fəhlələrlə

kəndlilər arasında iqtisadi əlaqələr inkişaf edirdi. Bütün bunlar isə əhalinin həyat səviyyəsinin yüksəlməsinə şərait yaratmışdır. Lakin bir həqiqəti də qeyd etməliyik ki, YİS-in prinsiplərindən Şuşada yaşayan erməni daşnakları məharətlə istifadə edərək daha çox varlanmışdılar. Bütün bunlarla yanaşı, 1921-1926-cı illərdə Şuşa ərazisində artel, kommuna və sovxozların yaradılması gələcəkdə kollektivləşmənin həyata keçirilməsinə zəmin hazırlamış oldu.

1921-1926-cı illərdə Şuşanın kənd təsərrüfatında dirçəlişə baxmayaraq 1926-1927-ci təsərrüfat ilindən bəzi çətinliklər meydana çıxdı. Bu çətinliklərdən ən başlıcası, 1927-ci ildə Stalinin təkbaşına hakimiyyətə yiyələnməsi və YİS-in demokratik prinsiplərini ləğv etməsi ilə bağlı olmuşdur. Həmin vaxtdan başlayaraq Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağda hiyləgər ermənilərdən ibarət güclü bürokratik aparat yaradıldı. Dağlıq Qarabağ xalq Komissarları Sovetinin tərkibini nəzərdən keçirərkən biz bir daha deyilənlərin şahidi oluruq. Belə ki, həmin 9 nəfərdən ibarət tərkibdə tək bircə nəfər azərbaycanlı var idi. İcraedici orqanlar da, bu səpgidə təşkil edilmiş və 1927-1928-ci illərdə kəndlərdə əliqabarlı, zəhmətkeş kütləyə qarşı antidemokratik tədbirlər həyata keçirmişlər [193].

Mərkəzdən - xüsusilə Kirovdan, Mirzoyandan dəstək alan erməni rəhbərliyi Dağlıq Qarabağda o cümlədən Şuşada xalqımızın dini hissiyyatına toxunur, onların psixologiyasını nəzərə almırdılar. Məscidlərin bağlanması, insanların güllələnməsi, həbs və təhqirlər zəhmətkeş kəndlilərin əl-qolunu işdən soyudur və inkişafa mane olurdu.

Eyni zamanda, 1926-1927-ci təsərrüfat ilində Dağlıq Qarabağda bütün sənaye sahələri dövlətin ixtiyarına keçmiş və sənayeləşmə planı həyata keçirilməyə başlanmışdır. Lakin kənd təsərrüfatı xırda əmtəə kəndli təsərrüfatına əsaslanırdı. Bu isə istər-istəməz iqtisadiyyatda böhran yaradırdı. Kənddə zəruri olan sənaye məhsullarının çatışmaması kənd təsərrüfatına mənfi təsir etdi. Bəhs edilən dövrdə Şuşanın hər 100 təsərrüfata 6,6 kotan düşürdü. Bütün kənd təsərrüfatının 48 faizində qoşqu qüvvəsi yox idi. 32 faizində isə yalnız 2-yə çatırdı. Sənayeləşmənin

həyata keçirilməsi, onun xammala olan tələbatının ödənilməsi üçün kənd təsərrüfatının inkişafı tələb olunurdu [195].

Çünki, 1926-1928-ci illərdə Şuşadakı mövcud sənaye müəssisələrində məhsul artımı 70 faiz olmuşdursa, kənd təsərrüfatında bu rəqəm 6 faiz təşkil edirdi.

Mərkəzə daxil olan materialları nəzərdən keçirərkən məlum oldu ki, 1926-1927-ci illərdə Dağlıq Qarabağ ərazisində erməni daşnakları özlərinin xalqımıza qarşı bəd əməlləri ilə hələ də fəaliyyət göstərirdilər. 1927-ci il avqustun 16-17-də Xankəndində keçirilən plenumda Vilayət Partiya komitəsinin səlahiyyətli nümayəndəsi Arustamyanın məruzəsindən oxuyuruq: «Dağlıq Qarabağ ərazisində banditlər (ermənilər nəzərdə tutulur – M.N.) fəaliyyət göstərirlər. Son altı ay ərzində onlar Dağlıq Qarabağda 35 adam öldürmüşlər. Bunlardan ikisi milis işçisidir. Eyni zamanda, onlar ərazinin kəndlərindən minlərlə mal-qara, 300 at və qiymətli əşyalar ələ keçirərək aparmışlar... Kəndlərdə əhali hələ də qorxu içərisində yaşayır...» [198].

Məruzədən göründüyü kimi, bəd əməl sahibli ermənilərin əliqabarlı, öz zəhməti ilə dolanan kənd əhalisinə qarşı amansız hərəkətləri, onları qorxu və təlaş içərisində saxlayır, bu isə öz növbəsində təsərrüfatın inkişafına mane olurdu.

Bütün bunlarla yanaşı, Şuşada ixtisaslı kadrlar, aqronomlar, baytarlar, müalicə mərkəzləri və sair çatışmırdı. Eyni zamanda, süni suvarmanın istifadə olunduğu ərazilərdə su qıtlığı mövcud idi [198].

Sənaye, nəqliyyat və tikinti sahəsində əldə edilmiş irəliləmələr kənddə də əsaslı dəyişiklər aparılmasını zəruriləşdirdi. Stalin, kənd təsərrüfatında yuxarıda göstərdiyimiz çətinlikləri aradan qaldırmaq və böhrandan çıxmaq yolunu xırda kəndli təsərrüfatlarının birləşdirilməsində - kollektivləşməsində görürdü. Eyni zamanda, burada imperiyanın gizli məqsədi də var idi. Belə ki, Sovet imperiyasının iqtisadi təməlini qurmaq üçün fərdi kəndli təsərrüfatının kollektiv təsərrüfat halında yenidən qurulması tələb olunurdu. ÜİK(b)P-nın XV qurultayının (dekabr 1927-ci il) kənd təsərrüfatının kollektivləşməsi haqqında qərarı kolxoz quruculuğunu genişləndirməsinə yeni bir mərhələ oldu.

Qurultayın qərarlarında kənd təsərrüfatının sosialistcəsinə yenidən qurulması yolları göstərilmişdi. Burada kooperasiyanın bütün formalarının inkişafı və torpağın elliklə becərilməsi məsələləri açıqlanmış, kollektivləşmənin müddəti, həyata keçirilməsi forma və üsulları haqda vəzifələr müəyyən edilmişdi. Qurultaydan bir qədər sonra, Bakıda kollektiv təsərrüfat nümayəndələrinin, AK(b)P MK-nın rəhbərliyi altında fevral (1928-ci il) plenumu keçirildi. Plenumda «kənddə iş haqqında» xüsusi qərar qəbul edildi. Həmin qərarda Azərbaycanın kənd təsərrüfatının kollektivləşməsi tədbirləri müəyyənləşdirildi. Plenumda kollektiv təsərrüfatların təsərrüfat sahələrini genişləndirmək, yer quruluşu işlərini nizama salmaq, bu məqsədlə kəndlərə kredit ayırmaq haqqında qərar qəbul edildi. Eyni zamanda, kolxoz quruculuğu işinə bilavasitə rəhbərlik etmək üçün mərkəzi idarə «kolxozsentr»in yaradılması barədə də göstəriş verildi [202].

ÜİK(b)P-nın XV, AK(b)P-nın VIII qurultaylarının, AK(b)P MK-nın fevral plenumunun qərarlarından irəli gələn vəzifələri müzakirə etmək üçün Xankəndində 1928-ci ilin martın 2-3-də plenum keçirildi. Plenumda kənddə vəziyyət, çətinliklər və onun həlli yolları, kollektiv təsərrüfatların (kolxozların) yaradılması üçün vəzifələr müəyyənləşdirildi. Birinci növbədə xalq içərisində təbliğat aparmaq üçün xüsusi dəstələr yaradılması, onların xalq içərisində - «kollektiv təsərrüfat yaradılarsa kəndlərin vəziyyətlərinin yaxşılaşacağına inam» aşılamaq məsələsi ön plana çəkildi.

1927-1928-ci təsərrüfat ilində Şuşa ərazisinə xüsusi təbliğatçı dəstələr gəldilər. Onlar kənddə aqrar məsələ ilə bağlı 50 məruzə, 80 toplantı aparmışlar. Şuşada kənd təsərrüfatının kollektivləşməsi, taxılçılığın, maldarlığın, bağçılığın, ipəkçiliyin inkişafı üçün Azərbaycan hökuməti 1927-1928-ci təsərrüfat ilində bölgəyə maddi və texniki kömək göstərdi. Belə ki, 1927-ci ildə Azərbaycan kənd Təsərrüfatı bankından Dağlıq Qarabağın kəndlərinə 67.000 manat kredit ayrıldı. Bundan Xankəndinə 14.500, Hadruta 11.500, Hadruta 25.000, Ağdərəyə 11.500, Şuşaya 5.000 manat verilmişdi. Həmin vəsait qısa müddətdə vəziyyətdən çıxmaq üçün yoxsullara kömək məqsədilə gətiril-

mişdir. 1927-1928-ci təsərrüfat ilində Azərbaycan hökuməti Şuşada kolxoz quruculuğu üçün 3 min manat, 1928-1929-cu təsərrüfat ilində isə 2 dəfə artırılaraq 6 min manat pul vermişdir [203].

1927-1928-ci təsərrüfat ilində Şuşada ayrılan vəsait 1925-1926-cı təsərrüfat ili ilə müqayisədə 60 faiz, artıq olmuşdur. Sonrakı illərdə Şuşaya qoyulan vəsaitin həcmi daha da artırılmışdır. Bəhs edilən dövrdə Şuşada kənd təsərrüfatının kollektivləşməsi məqsədilə Azərbaycan hökuməti tərəfindən texniki kömək də edilmişdir. Belə ki, 1927-ci ildə Şuşanın kooperativlərinə 3 traktor, 56 kotan, 4 yer dırmaqlayan, müxtəlif kənd təsərrüfatı alətləri, 1928-ci ildə isə bir daha 5 traktor, 4 kotan, 2 torpaq yumşaldan, 3 arx çəkən, 1 toxumsəpən (dənli bitkilər üçün), 1 taxıldöyən, 1 taxılı sortlara ayıran, 1 taxıl sovuran, 2 ot çalan, 3 dərz bağlayan, 2 ot yığan, maşın və avadanlıqlar, ehtiyat hissələr verildi [209].

XV qurultaydan sonra kollektiv təsərrüfatların genişləndirilməsinə, onların texniki bazalarının gücləndirilməsinə diqqət artırıldı. Kənddə varlı təbəqələrin üzərinə hücum gücləndirildi. Bu məqsədlə qəza partiya komitəsinin işini yoxlanılmasına da diqqət artırıldı. 1928-ci ildə Şuşa partiya komitələrinin işi Azərbaycan K(b)P MK tərəfindən yoxlanıldı. Yoxlama zamanı yerlərdə gedən sosial-siyasi proseslərə ciddi diqqət verildi [214].

1927-1928-ci illərdə keçirilən ərzaq kompaniyasında yaranmış böhranlı vəziyyət respublikanı çıxılmaz bir hala saldı. Qolçomaq adı altında varlılara qarşı necə mübarizə aparmaq yolları ciddi bir məsələ kimi ortaya çıxdı. Bu dövrdə Buxarin-Rıkov və onların tərəfdarları qolçomaqlara qarşı tətbiq edilən tədbirlərə, kolxoz və sovxozların genişləndirilməsinə qarşı çıxdılar. Onlar təsərrüfat sahəsində özünü doğrultmayan kolxoz və sovxozların çıxış yolunun olmadığını bildirdilər. Buxarin-Rıkov qrupu eyni zamanda keçid dövründə sinfi mübarizənin labüd bir hal olduğunu inkar edir, qolçomaqlara dinc yanaşmağı vacib hesab edirdilər. Buxarin-Rıkov qrupunun bu ideyaları ölkənin əksər yerlərində, o cümlədən Azərbaycanda, onun ziddiyyətlərlə dolu bir bölgəsi olan Dağlıq Qarabağda da

tərəfdarları meydana çıxdı. Bakıda, DQMV-nin bir çox iri təşkilatlarından Buxarin-Rıkov qrupunun ideyasını dəstəkləyənlər tapıldı. Bir çox təşkilatlar kənddə partiya siyasəti əleyhinə çıxdılar. Onlar kolxoz və sovxozların təsərrüfat fəaliyyətini kəskin şəkildə tənqid edirdilər. Şuşada və Xankəndi dairəsi fəallarının yığıncağında qolçomaqlara göstərilən müqavimətin düzgün olmadığını qeyd etmişlər: «Qolçomaq bir o qədər qorxulu deyil və onu sıxışdırmaq yersizdir». Şuşa qəza partiya fəallarının toplanışında bildirilirdi ki, «sahibkarlara qarşı mübarizə, təsərrüfatı dağıtmaq, əhalini bir-birinə qarşı qoymaq deməkdir» [214].

Kənd təsərrüfatını fəal surətdə inkişaf etdirməyə çalışan sahibkarlara qarşı müqavimətin dayandırılmasının tərəfdarları gənclər təşkilatının içərisində də ortaya çıxdı. Həmkarlar, gənclər təşkilatlarının yığıncaqlarında sənayenin kəndlilərin hesabına inkişaf etdirməklə onların dilənçi vəziyyətinə salınması barədə partiya siyasətinə yenidən baxılması tələb olunurdu.

Şuşada kollektiv təsərrüfatların yaradılmasına sovet hakimiyyətinin ilk illərindən başlanmışdır. 1921-1926-cı illər ərzində Şuşada yaradılan təsərrüfatlar xırda olduqlarından, kəndlilərin şüurunun geriliyindən və başqa amillərin təsirindən dağılmışdı. Lakin 1921-1926-cı illərdə kənd təsərrüfatının sosialistcəsinə yenidən qurulması üçün hazırlıq dövrü olmuş, kollektivləşmə üçün maddi texniki bazanın mövcudluğu üçün şərait yaradılmışdır. Eyni zamanda, kollektiv təsərrüfat yaratmaq məqsədilə qolçomaqlar (varlı kəndlilər – M.N.) sıxışdırılmış, qaçmağa məcbur edilmişlər. Kənd əhalisinin böyük bir hissəsini təşkil edən ortababları yeni təsərrüfatın yaradılması işinə cəlb edilməklə iqtisadi və siyasi zəmin hazırlanmışdır. 1926-1928-ci illərdə Şuşada kollektiv təsərrüfatlar yenidən təşkil olunmağa başlandı. 1927-ci ilin yanvar-iyun aylarında Şuşada 4 artel yaradıldı. Şuşa ərazisində 1927-ci illə müqayisədə 1928-ci ildə torpağı birgə becərmək şirkətinin sayı təxminən 3 dəfədən çox artaraq 30-a çatmışdır. Aparılan araşdırmalardan məlum olur ki, 1928-ci ildə Şuşada torpağı elliklə becərən şirkətlərin 2445

təsərrüfatı, 1929-cu ildə 2593 hektar torpaq sahəsi, 12905 insanı özündə birləşdirirdi [215].

Apardığımız təhlillərdən məlum olur ki, 1928-ci ildə kənddə aparılan vergi siyasəti kəndliləri dilənçi kökünə gətirib çıxartmışdı. Bu dövrdə respublikanın 13 qəzasında, o cümlədən DQMV üzrə fərdi kəndli təsərrüfatlarının vahid kənd təsərrüfat vergisinə cəlb olunması məsələsinə baxılan zaman məlum olmuşdu ki, vergi yoxlanılan təsərrüfatların hər birinin üzərinə qoyulacaq. Kəndlərdən alınan vergi nəzərdə tutulduğundan iki dəfə və bəzən isə hətta üç dəfə artıq alınmışdır. Bu iş bütövlükdə Dağlıq Qarabağ ərazisinin azərbaycanlılar yaşayan kəndlərində daha kobud formada pozulmuşdur. Belə ki, 1928-ci ilin dekabr ayında Dağlıq Qarabağın ermənilər yaşayan kəndlərində «gəlmə» adı altında kəndlilərin yarıdan çoxu vergidən azad olduğu halda, rayonun azərbaycanlılar yaşayan kəndlərində əhalinin hamısından nəzərdə tutulan vergi normasından iki dəfə çox vergi toplanmışdır. 1928-ci ilin payızında Şuşada 68 nəfər varlı kəndli siyahıya götürülmüş, onların əmlakları əllərindən alınmışdır. Beləliklə qolçomaqlara qarşı aparılan «sinfi mübarizə» sosial-siyasi vəziyyətə ağır təsir göstərdi.

1928-ci ilin yanvarında İ.Stalinin Sibirə olan səfəri zamanı göndərilən direktivlərdə yerlərdə yaranmış böhran, ərzağın bahalaşması, qolçomaqların bazar cəbhəsini yarması kimi qiymətləndirildi. Buna görə bütün alverçiləri, qolçomaqları həbs etmək vəzifəsi irəli sürüldü. Eyni zamanda varlılara, xüsusilə iri təsərrüfatçı hesab olunan qolçomaqlara, ticarətlə məşğul olan adamlara qarşı «yumşaqlıq göstərən» partiya, sovet işçiləri cəzalandırıldı və onların böyük əksəriyyəti vəzifələrindən kənar edildi.

1927-1928-ci təsərrüfat ilində Şuşa kooperativ şəbəkələri kənd təsərrüfatının bütün sahələrini - xüsusilə pambıqçılıq və maldarlıq sahələrini əhatə etdi. Onların sayı genişləndi və kolxozların yaradılması üçün zəmin yaratdı. Əgər 1927-ci ildə Şuşada kənd təsərrüfatı kooperativləri bütün kəndli təsərrüfatının 30 faizini təşkil edirdisə, 1928-ci ildə onların sayı artaraq 37 faizə çatmışdır. 1928-ci il 31 dekabr məlumatına görə Azərbay-

canda kolxozların sayı 289-a çatdı. Bəhs edilən dövrdə Şuşada 19 təsərrüfatı birləşdirən 2 kolxoz var idi. Bu isə ümumi kəndli təsərrüfatının 1,3 faizini təşkil edirdi. 1928-ci ildə ümumilikdə Dağlıq Qarabağda yaranmış kolxozların ayrı-ayrı rayonlar üzrə təlimat göstəricilərini aşağıdakı cədvəldən görmək olar: [228, 229]

| S/№ | Rayonların adı | Kolxozla-rın sayı (ədədlə) | Təsər. sayı (ədədlə) | Evlərin sayı (ədədlə) | Torpaq sahəsi (hektarla) |
|---|---|---|---|---|---|
| 1. | Ağdərə | 2 | 47 | 284 | 58 |
| 2. | Xankəndi | 2 | 18 | 700 | 499 |
| 3. | Hadrut | 7 | 70 | 410 | 334 |
| 4. | Xocavənd | 5 | 77 | 385 | 376 |
| 5. | Şuşa | 2 | 19 | 250 | 300 |
| 6. | Cəmi birlikdə | 18 | 231 | 2029 | 1567 |

1928-ci ilin axırlarından başlayaraq kolxoz quruculuğuna kənd yoxsulları cəlb olundular. Kənd əhalisinin yoxsul təbəqəsinin kolxoz quruculuğu işinə cəlb edilməsində Dağlıq Qarabağın hakimiyyət orqanlarının məqsədləri var idi. Belə ki, oxuyub yazmağı bacarmayan bu təbəqə ali hakimiyyət orqanlarının tapşırıqlarını sözsüz yerinə yetirəcəkdilər. Kolxoz quruculuğu işində ictimai təşkilatların - xüsusilə komsomolçuların və kommunistlərin rolunu qeyd etmək lazımdır.

Bəhs edilən dövrdə Şuşa ərazisində komsomolçular kəndlərdə fəal iş aparırdılar. Bölgədə komsomolçuların sayı 1926-cı illə müqayisədə 5 dəfə, kommunistlərin sayı isə 2 dəfə artmışdı. 1928-ci ilin sonlarından başlayaraq Şuşada kolxozların təşkili işini süni şəkildə «sürətləndirmə»yə başladılar. Məcburetmə, zorakılıq halları da müşahidə edilirdi.

1929-cu ildən başlayaraq RSFSR-də, Azərbaycanda və onun ucqarlarından olan Şuşa ərazisində «kəndli təsərrüfatlarının elliklə tamam kollektivləşdirilməsi» şüarını qəbul etdilər. 1929-cu ilin birinci yarısında dövlət tərəfindən verilən sərt amiranə tədbirlər sahibkarların marağının aşağı düşməsinə bu isə öz

növbəsində məhsuldarlığın və istehsalın zəifləməsinə gətirib çıxarmışdır. Kənd təsərrüfatındakı geriləmə sənayeyə də təsir etmişdi. Çünki kənd təsərrüfatı sənaye üçün əsas xammal mənbəyi idi. Bəhs olunan dövrdə ərzaq məhsulları üzərində kartoçka sistemi tətbiq edilirdi və çörək ticarəti qadağan olunaraq, artıq taxılın müsadirəsinə başlandı. Mərkəzin iqtisadi siyasətini əldə rəhbər tutan erməni rəhbərliyi ərazinin qədim sakinləri olan azərbaycanlıların nəyi varsa müsadirə etməyə başladılar [230].

1929-cu ilin yaz taxıl kompaniyası zamanı ölkədə fövqəladə tədbirlər görüldü. Həmin dövrdə «Pravda», «Kommunist», «Bakinski raboçi» və s. qəzetlər kənddə sinfi mübarizənin genişlənməsini böyük «ilhamla» işıqlandırdılar. «Kommunist» və «Bakinski raboçi» qəzetləri 1929-cu ilin təkcə aprel-may aylarında öz səhifələrində bu məsələyə aid 200-dən çox məlumat dərc etmişdir. Mətbuatda «Sinfi düşmənə qarşı hücum», «Aramızda qolçomağa yer olmamalıdır», «Kulaqlar», «Qolçomaqları hər vasitə ilə susdurmalı», «Yad ünsürlər» və s. başlıqları altında yazılar dərc olunmuşdur. Ölkədə yaranan belə bir vəziyyət kəndlilərin kütləvi çıxışlarına səbəb oldu. 1929-cu ildə təkcə Şuşa ərazisində 9 kəndli çıxışı, 5 silahlı toqquşma qeydə alınmışdır [231].

RSFSR hökuməti Azərbaycanın təbii və insan əməyi ilə yaradılan sərvətlərindən səmərəli bəhrələnmək, onu ucqarlarının iqtisadi inkişafını tənzimləmək və həmişə nəzarətdə saxlamaq məqsədilə daha geniş və uzunmüddətli plan işləyib hazırladı. Bu 1928/1929 – 1932/1933-cü illəri əhatə edən beşillik plan idi. Beşillik planın müddəaları 1929-cu ilin mayında təsdiq edilmişdi. Beşillik planda xırda kəndli təsərrüfatlarının kollektivləşməsi, kənd təsərrüfat məhsullarının 1913-cü illə müqayisədə 1,5 dəfə artırılması, RSFSR-in xammal mənbəyi kimi «pambıqçılıq işinin maksimum inkişaf etdirilməsi» və sair konkret vəzifələr müəyyən edilmişdir. Əslində, nəzərdə tutulmuş həmin «vəzifələr» kəndlilərin həddindən artıq istismarı demək idi. Bu isə öz növbəsində ölkəmizdə gərgin ictimai-siyasi vəziyyət yaradırdı.

Stalin yerlərdə kollektivləşməni sürətləndirmək, ölkədə taxıl qıtlığını aradan qaldırmaq məqsədilə Azərbaycana «təlimat» göndərmişdi. Həmin «təlimatı» əldə rəhbər tutan Azərbaycan hökuməti Şuşada kənd təsərrüfatını inkişaf etdirmək məqsədilə 1929-cu ildə «yaxın beş ildə bütün xışları kotanla əvəz etmək» şüarını irəli sürdü və bölgəyə maliyyə yardımı, maşının, avadanlıqlar, ixtisaslı kadrlar göndərdi [233]. Belə ki, 1929-cu ildə Şuşa rayonunda taxıla olan tələbatın ödənilməsi məqsədilə Azərbaycan hökuməti 16 toxum təmizləyici, 25 kotan, 1 dırmıxlayıcı, 14000 manat pul, çoxlu avadanlıqlar və ehtiyat hissələri göndərdi. Suvarmadan istifadə etmək üçün kanallar çəkildi. Eyni zamanda, bölgədə fəaliyyət göstərən Elmi Tədqiqat mərkəzi Kuznitsovun rəhbərliyi altında yeni taxıl toxumu əldə etdi ki, həmin toxum dəmyə şəraitdə (süni suvarmadan istifadə edilmədən) məhsul verirdi. 1929-cu ildə Dağlıq Qarabağın ayrı-ayrı rayonlarında, taxıl əkini kompaniyası göstəricilərini aşağıdakı cədvəldən görmək olar:

| S/№ | Rayonların adı | Nəzərdə tutulub (hektarla) | Buğda əkilib (hektarla) | Arpa əkilib (hektarla) | Cəmi əkilmişdir (hektarla) |
|---|---|---|---|---|---|
| 1. | Xankəndi | 6190 | 4655 | 1560 | 6215 |
| 2. | Şuşa | 750 | 735 | 105 | 840 |
| 3. | Hadrut | 4420 | 3970 | 31 | 4282 |
| 4. | Ağdərə | 8500 | 6769 | 1825 | 8594 |
| 5. | Xocavənd | 10470 | 7499 | 3501 | 11000 |
| 6. | Cəmi birlikdə | 20330 | 23628 | 6022 | 20931 |

Cədvəldən göründüyü kimi 1929-cu ildə Dağlıq Qarabağda 20330 hektara qarşı 20931 hektar sahədə taxıl əkilmiş və plan 100 faiz yerinə yetirilmişdir. Lakin Mərkəzin məqsəd və məramına uyğun olaraq Dağlıq Qarabağda pambıq əkininə xüsusi diqqət verilmişdir. Çünki bu qiymətli və çətin becərilən

məhsul Rusiya sənayesini xammalla təmin edəcəkdi. Ərazidə pambıqçılığın inkişafı üçün müəyyən tədbirlər görüldü. Görülən tədbirlər nəticəsində Dağlıq Qarabağda pambıq əkini sahəsi xeyli genişləndirildi və məhsul istehsalı az da olsa artdı.

1929-cu ilin ikinci yarısından başlayaraq kollektivləşmənin sürətləndirilməsi üçün Respublikalar və rayonlar arası «yarış» təşkil edildi. Həmin vaxtdan başlayaraq əhalinin milli təsərrüfat formaları, həyat tərzi, mədəni səviyyəsi, məişəti, dinə inamı və sair amillər nəzərə alınmır, inandırma əvəzinə zorakı tədbirlər tətbiq edilirdi. Bütün bunlar isə Şuşada kollektiv təsərrüfatların yaranmasını sürətləndirdi. Belə ki, 1929-cu il yanvarın 1-dən oktyabrın 1-dək Şuşa ərazisində 5 kolxoz yaradılmışdı. Bu isə əvvəlki bütöv illərdə yarandığından 2,5 dəfə artıq idi. Həmin dövrdə Azərbaycanda cəmi 144 kolxoz yaradılmışdı. 1929-cu ilin 31 dekabrında Şuşada 191 təsərrüfatı birləşdirən 10 kolxoz var idi. Bu isə Şuşada təsərrüfatların 4,5 faizinin kollektivləşməsi demək idi. Eyni zamanda, həmin dövrdə Şuşada artellərin sayı 16-ya çatdı. Bəhs edilən dövrdə Azərbaycanda kolxozların sayı 535-ə çatmışdı. Kollektiv təsərrüfatlarının yaradılması Şuşada taxılçılıq təsərrüfatlarında başqa təsərrüfatlara nisbətən asan idi. Çünki həmin təsərrüfatların texnikası var idi və bu təsərrüfatlarda kəndlilərin təbəqələşməsi daha da dərinləşmişdi [236]. Lakin Şuşada yarımköçəri həyat tərzi keçirən maldar kəndlilərin kolxozlara cəlb olunması son dərəcə çətin bir iş idi. Bunun ən başlıca səbəbi maldarların şüur səviyyəsinin aşağı olması, dədə-baba adətinə dərin bağlılığı və kollektivləşmənin həyata keçirilməsi üçün maddi texniki bazanın son dərəcə məhdudluğu ilə bağlı olmuşdur. Maldarlıq, təsərrüfatlarının kollektivləşməsi kəndlilərin marağını aşağı salmış, baxımsızlıq, qış hazırlığı, müəyyən xəstəliklər, ixtisaslı kadrların çatışmaması, mal-qaranın kəsilərək Rusiyaya və Ermənistana aparılması və sair hallar 1929-cu ilin sonlarında bütün kateqoriyalardakı təsərrüfatlarda mal-qaranın sayı Dağlıq Qarabağda 1913 və ya 1921-ci illə müqayisədə dəfələrlə aşağı düşmüşdür.

1929-cu ildə Şuşada mal-qaranın sayı 1913-cü illə müqayisədə təxminən 9 dəfə, 1921-ci illə müqayisədə isə 2 dəfə

aşağı düşmüşdü. Heyvandarlıq Şuşanın iqtisadiyyatında ən əsas və həlledici sahələrdən biri olduğu üçün həmin sahəni inkişaf etdirmək məqsədilə Azərbaycan K(b)P MK-nın göstərişinə əsasən Vilayət Partiya Komitəsi bəzi tədbirlər həyata keçirdi. Bəzi yoluxucu «xəstəliklərin qarşısını almaq üçün bölgəyə ixtisaslı kadrlar və dərman preparatları verildi. Xanbulağı ərazisində heyvanların müalicəsi və diaqnostikası mərkəzi açıldı. İribuynuzlu mal-qaranı çuma xəstəliyindən xilas etmək məqsədilə mübarizə tədbirləri görüldü.

Tariximizin hansısa dövrü olursa olsun dərin araşdırmalar apararıqsa dələduz ermənilərin xalqımıza qarşı bədxah hərəkətlərinin şahidi oluruq. Məsələn, 1929-cu ilin mərkəzə daxil olan materiallardan birindən oxuyuruq: «Dağlıq Qarabağda Kaaşiyan Avaqim adlı erməni öz ətrafında xeyli adam toplayaraq 1929-cu ildə ağır cinayət işləri törətmişlər. Dəstə üzvləri müxtəlif odlu silahlarla silahlanmışlar. Onlar ən çox gecə vaxtı fəaliyyət göstərirdilər. Onlar yerli dinc əhalinin qiymətli nəyi varsa məcburi şəkildə əllərindən almışlar. Müqavimət göstərənlər öldürülmüş və ya yaralanmışlar...» [242]. Onu da xüsusilə qeyd etmək yerinə düşərdi ki, cinayət törədilən kəndlər azərbaycanlıların yaşadıqları kəndlər olmuşdur.

Azərbaycanda kollektivləşmənin tam başa çatması 1933-cü ililə müəyyən edilmişdi. Lakin 1929-cu ilin noyabrında ÜİK (b)P MK-nin plenumu bu məsələni tezləşdirərək 1930-cu ilin yaz əkin kampaniyasında başa çatdırmağı qərarlaşdırdı. 1930-cu ilin yanvarından Şuşa rayonunda təzyiqlər, zorakılıqlar daha güclü xarakter almağa başladı. Kollektivləşmənin könüllülük prinsipi pozuldu. Hətta xırda heyvanlar, quşlar, həyətyanı sahələr ictimailəşdirilirdi. Bəhs edilən dövrdə də kolxoz quruculuğunun əsas forması arteldən kommunaya keçmək olmuşdur. Yəni 1930-cu ilin yanvarından başlayaraq Şuşa rayonunda təkcə torpağın, iş heyvanlarının, avadanlıqların deyil, həm də istehsalın və məişətin ən yüksək səviyyədə ümumiləşdirilməsinə başlandı. Zorakı tədbirlərin tətbiqi ilə Şuşa rayonunda qısa bir müddətdə kolxozların sayı çox «böyük sıçrayışla» artmışdır. Belə ki, 1930-cu il yanvarın 1-dən 15-dək vilayətdə 86 təsərrüfatı birləşdirən 4

kolxoz, yanvarın 16-dan 30-dək isə 121 təsərrüfatı birləşdirən 3 yeni kolxoz yaradıldı. Bu dövrdə ortabablar hələ də kolxoza girməkdən tərəddüd edirdilər. Ona görə də 1930-cu ilin əvvəllərindən təkcə qolçomaqları deyil, ortababları da sıxışdırmağa başladılar, hətta onları «qolçomaq» adlandırıb təqib edir və seçki hüquqlarından məhrum edirdilər [245].

1930-cu il yanvarın 11-də «Pravda» qəzetinin «Qolçomaqları bir sinif kimi ləğv etmək günün vacib məsələsidir» adlı baş məqaləsi Azərbaycanın hər yerində olduğu kimi Şuşa rayonunda da geniş vüsət aldı. «Pravda» qəzetinin irəli sürdüyü bu tezis İ.Stalinin hələ 1929-cu il dekabrın 28-də marksist – aqrarların konfransında hərtərəfli «əsaslandırılmışdır». İmperiyanın başçısı İ.Stalin qeyd edirdi ki: «Biz qolçomaqları istismarçılıq meyllərinin məhdudlaşdırmaq siyasətindən qolçomaqların bir sinif kimi ləğv olunması siyasətinə keçmişik».

Bütün ölkədə olduğu kimi, Şuşa rayonunda da qolçomaqlara qarşı mübarizə əsasən üç istiqamətdə, antisovet, antibolşevik, əksinqilabçı bayrağı altında aparılırdı. Bu qəbildən olan adamlar ailə başçısı olarsa güllələnir, ailə üzvləri Sibirə, Orta Asiyaya sürgün edilirdi. Kəndlərin digər şübhəli adamları respublikanın daxilində ayrı-ayrı regionlara köçürülürdülər. Bundan istifadə edən ermənilər qədimdən Şuşa rayonu ərazisində yaşayan azərbaycanlıların kütləvi köçürülməsini təşkil etmişdilər.

İqtisadi cəhətdən geridə qalmış rayonlarda ən çox əyintilərə yol verildiyinə görə ÜİK(b)P MK-nın 1930-cu il fevralın 20-də «İqtisadi cəhətdən geridə qalmış milli rayonlarda kollektivləşmə və qolçomaqlara qarşı mübarizə haqqında» xüsusi qərar qəbul etdi. MK xəbərdarlıq etdi ki, bu rayonlarda əsas diqqət kollektivləşmənin yüksək faizi dalınca qaçmaq deyil, kütləvi kollektivləşdirmə üçün təşkilati-siyasi və iqtisadi zəmin yaratmağa yönəldilməlidir. Partiyanın bu çağırışı beşillik ərzində kapitalist ünsürləri hesab olunan varlı və hətta ortabab kəndlilərinin ticarətdən sıxışdırılması, təsərrüfatından çıxarılmasına səbəb oldu. Sosializmin bütün cəbhə boyu hücumu ilə bərabər kənddə «sinfi düşmən» hesab olunan bacarıqlı təsərrüfatçılara,

«kulak» adlandırılan adamlara qarşı mübarizə genişləndirildi. Bu məqsədlə 1929-cu ilin sonu və 1930-cu ilin əvvəllərində respublikanın kəndlərinə və o cümlədən Şuşa rayonuna «Mərkəzdən» partiya, sovet işçiləri, bacarıqlı fəhlə adı altında xüsusi təlimat keçmiş şəxslər göndərildi. Bəhs olunan dövrdə Bakıdan Şuşa rayonuna - 40 nəfər nümayəndə gəlmişdir. Bu nümayəndələrin böyük əksəriyyəti milliyyətcə ermənilər idi. Yerli partiya, sovet orqanlarının rəsmi nümayəndələri ilə rayonda «yad ünsürlər» adlandırılan adamlara qarşı mübarizə aparılırdı [246].

Sosializmin bütün cəbhə boyu hücumu düşmən adlanan sinfi qüvvələr tərəfindən kəskin müqavimətlərlə qarşılandı. Şuşa rayonunun azərbaycanlılar yaşayan kəndlərinə qarşı kütləvi repressiyalar baş verdi. Şuşa rayonunun bütün partiya, dövlət orqanları bir növ erməniləşdirildi. 1930-cu ilin sonu 1931-ci ilin əvvəllərində olan məlumatlara görə Şuşa rayonunda fəaliyyət göstərən partiya və sovet orqanlarında çalışan adamlar əsasən ermənilərdən ibarət idi. Yerli partiya orqanları rayonun bütün əhalisini siyasi sayıqlığa, dövlət idarə orqanlarını bürokratik ünsürlərdən qorumağa qarşı mübarizəyə çağırırdı. Bu çağırış azərbaycanlıların kütləvi şəkildə dövlət və partiya orqanlarından qovulması ilə nəticələndi. Beynəlmiləlçilik bayrağı altında həyata keçirilən bu tədbirlər Şuşa rayonunda qorxulu bir vəziyyətin yaranmasına səbəb oldu.

Yaranmış çətin vəziyyətdən çıxmaq üçün Azərbaycan K(b)P-nin XIII qurultayı çağırıldı. Qurultayın «məramı» belə idi: «daha çox «xalq düşməni» aşkara çıxartmaq» hesabat məruzəsi ilə çıxış edən Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırov son sözündə demişdir: «Belə bir şəraitdə kimisə əfv etmək partiyamızın mərkəzi komitəsini, Stalin yoldaşı aldatmaq deməkdir. Heç kimi əfv etmək olmaz. Son günlərin faktları bir daha göstərir ki, biz hələ düşmənlərin hamısını aşkara çıxarıb ifşa etməmişik. Mən bir daha təkrar edirəm ki, buna görə də bizi döyürlər, həm də haqlı olaraq döyürlər».

Azərbaycan K(b)P MK-nın təkcə 5 noyabr 1931-ci il tarixli büro iclasında 279 nəfərin partiyadan çıxarılması (bunlardan 6 nəfəri Şuşa rayonundan idi) təsdiq olundu.

1930-cu il aprelin 3-də Stalin «Pravda» qəzetində «Kolxozçu yoldaşlara cavab» adlı məqaləsində yazırdı: «Qolçomaq Sovet hakimiyyətinin düşmənidir. Onunla bizim aramızda sülh yoxdur və ola bilməz. Qolçomaqlar barəsində bizim siyasətimiz onları bir sinif kimi ləğv etmək siyasətidir». O, qolçomaqları kənddən qovmağa, cismani məhv etməyə çağırırdı. Belə bir göstəriş nəticəsində də Şuşa rayonunda 1930-cu illərin əvvəllərində varlı kəndli təsərrüfatlarının 2 min hektar torpaq sahəsi və 600 baş mal-qarası müsadirə olundu. Buna görə də orta və ya varlı təsərrüfat sahibləri mal-qaralarının müsadirə olunmaması üçün ya kəsir ya da dəyər-dəyməzinə satırdılar. 1930-cu ilin yanvarında SSRİ MİK və XKS mal-qaraların kəsilməməsinə qarşı mübarizə aparmaq haqqında qərar qəbul etdi [247].

1930-cu ilin fevralında «Qolçomaq təsərrüfatlarının özbaşına köçməsinin və onlar tərəfindən əmlakın satılmasının qadağan edilməsi haqqında» qərar qəbul edildi. Respublikanın yerli idarə orqanlarına tapşırıldı ki, özbaşına köçən və əmlakım satan qolçomaqların əmlakı dərhal müsadirə edilsin. Beləliklə, hər bir təqiblərə və təzyiqlərə məruz qalan kəndlilərin özbaşına yerdəyişməsi qadağan olundu. Bu, əslində təhkimçilik hüququnun tətbiq olunması və onun yeni forması demək idi. Digər tərəfdən kənd «fəalları» tərəfindən məcbur edilən kəndlilər onların kəndlərdən qovulmasını və məhkəmə məsuliyyətinə cəlb olunmasını tələb edirdilər. Beləliklə, qolçomaq adı altında kənd varlılarına və hətta ortabablara qarşı mübarizənin başlanması demək idi. Belə bir mübarizənin gedişində öz fərdi təsərrüfatlarından asanlıqla ayrılmaq istəməyən ortabab qolçomaq adı altında məhv edilməyə başladı. Kəndli təsərrüfatının kollektivləşdirilməsi ərəfəsində «kulak» təsərrüfatının sayı 2,7 faiz göstərilsə də, ilkin hesablamalara görə «kulak» hesab olunan təsərrüfatların sayı bundan iki dəfə çox hesaba alınmışdır. Şuşa ətrafındakı kəndlərdə qolçomaq təsərrüfatı olmadığı bir halda 1930-cu ilin yazında bu rayonda 100 nəfərə qədər iri təsərrü-

mart tarixli qərarından sonra 1930-cu il aprelin 14-də «Azərbaycanda kolxoz hərəkatındakı səhvlər və əyintilər haqqında» qəbul olunmuş qərarda Respublikanın bir çox bölgələrində və habelə Şuşa rayonunda kollektivləşmənin gedişində yol verilmiş səhvlər, nöqsanlar qeyd olundu. Həmin ilin yayında kütləvi şəkildə kolxozlara girən kəndlilərin çoxu 1930-cu ilin sonunda kolxozlardan çıxdılar. AK(b)P MK-nın məlum qərarında göstərilirdi ki, «rəqəmlər arxasınca» qaçan bir sıra yerli təşkilatlar qolçomaqlıqdan salmaq işində çox ağır səhvlərə yol vermişlər. AK(b)P MK-nın X qurultayında MK-nın birinci katibi N.F.Qikalo hesabat məruzəsində etiraf edərək bildirmişdi ki, kollektivləşdirmədə yol verilən səhvlərin ən başlıcası inzibatçılığa görə Azərbaycan birinci yeri tutur. 1930-cu ilin yaz əkin kompaniyası zamanı Şuşa rayonunda 30 qolçomaq təsərrüfatının müsadirə edilməsində kobud səhvlərə yol verilməsi rəsmi orqanlar tərəfindən təsdiq edilmişdir. Aparılan araşdırmalara görə 1930-cu ildə Şuşa rayonunda kəndli təsərrüfatının 11 faizi qolçomaq təsərrüfatı hesab olunmuş, onların çoxu seçki hüquqlarından məhrum edilmişdir [264].

Səhvlər nəticəsində yaradılmış kolxozlar 1930-cu ilin aprelindən dağılmağa başladı. Eyni zamanda əyintiləri olan kolxozlardan ortabablar çıxdılar. Nəticədə 1930-cu ilin aprel ayı ərzində Şuşa rayonunda kolxozların sayı 28-dən 23-ə enmişdir.

Yuxarıda göstərilən səhvləri və nöqsanların aradan qaldırılması üçün Azərbaycan K(b)P MK-nın 20 may 1930-cu il (Dağlıq Qarabağ Vilayət Komitəsinin kolxoz quruculuğundakı səhvləri haqqında) xüsusi qərarı çıxdı. Həmin qərardan irəli gələn vəzifələri həll etmək üçün bölgəyə xüsusi təlimatçılar göndərildi. Mədəni-maarif işi xeyli genişləndirildi. Azərbaycan K(b)P MK həmin vaxtdan Vilayət Partiya Komitəsinin son 3 ay ərzində kolxoz quruculuğu haqqında çıxardığı bütün qərarları ləğv etdi. Kolxoz quruculuğu üçün əraziyə xeyli kredit verdi. Dağlıq Qarabağ Vilayət Partiya komitəsinin 1930-cu il 20-22 iyununda Xankəndində keçirdiyi plenumda bölgədə əyintilərin düzəldilməsi, nöqsanların, kolxoz quruculuğundakı səhvlərin aradan qaldırılması, ortababların kolxoz quruluşunda iştirakı (istiqamət-

lənməsi) və sair məsələlərə baxıldı. 1930-cu ilin payızından Şuşa rayonunda kolxoz hərəkatı yenidən canlanaraq kütləvi kolxoz quruculuğuna başlandı. Kolxozlardan çıxmış kəndlilər, xüsusilə yoxsul və ortabablar kolxozlara qayıtmağa başladılar. 1930-cu il oktyabrın 1-dək Şuşa rayonunda kəndli təsərrüfatının 15,7 faizi, həmin ilin dekabrında isə 19,5 faizi kollektivləşdirilmişdi. Bəhs edilən dövrdə Azərbaycanda 55.304 təsərrüfatı birləşdirən 1.839 kolxoz var idi [265].

Azərbaycan SSR-in Şuşa rayonunda kollektiv təsərrüfatların yaradılması çox çətin bir dövrə təsadüf edirdi. Bu dövrdə Şuşa Rayon Partiya Komitəsi Moskvanın göstərişi ilə islam dininə, milli adət ənənələrimizə qarşı çıxaraq məscidlərimizi dağıdır, məhərrəmlik, orucluq, Novruz bayramı qadağan edilirdi. Belə bir şəraitdə kəndlinin olan-qalan əmlakı əlindən alınır, onun sərbəstliyinə xitam verilir, aclıq, yoxsulluq və qıtlıq yaranırdı. Zorakı kollektivləşmə, əmlakın müsadirəsi, kolxoz quruculuğuna qarşı çıxanların güllələnməsi, sürgün edilməsi, siyasi hüquqlardan məhrum edilməsi Şuşa rayonunda kəndlilərinin etirazının artmasına səbəb olurdu. Eyni zamanda kolxoz quruculuğundakı əyintilər vergi siyasətindəki özbaşınalıqlar, zorakı metodlar kənd təsərrüfatının bütün sahələrində inkişafın aşağı düşməsinə səbəb olmuşdu. 1931-ci ilin yanvarında Şuşa rayonunda kollektiv təsərrüfatlarının faizi 19,5-dən 12,3-ə endi. Bütün yuxarıda göstərilənlər mərkəzin mənafeyinə uyğun olmadığından 1931-ci il yanvarın 28-də ÜİK(b)P MK-nın «Zaqafqaziya Respublikalarında kollektivləşmə xəttində buraxılan səhvlər haqqında» qətnaməsi qəbul edildi. Qətnamədə ortababılara münasibətin yaxşılaşması, vergi siyasətinin, kəndlərə münasibətin «yumşaldılması» və zorakı metodlarının tətbiqinin aradan qaldırılması məsələlərinə baxıldı. Əslində bu siyasət Mərkəzin ikili mövqe tutmasını sübut edirdi. Çünki bütün zorakılıqların, özbaşınalıqların, qarətlərin, bilavasitə təşkilatçısı mərkəz idi.

1931-ci il fevralın 16-da Bakıda Azərbaycanın qabaqcıl kolxozlarının I qurultayı keçirildi. Qurultayda ÜİK(b)P MK-nın kənd təsərrüfatı haqqında qətnaməsi, eyni zamanda kolxoz quruculuğundakı irəliləmələr, çətinliklər və qarşıdakı vəzifələr

müzakirə edildi. Qurultayda kolxoz quruculuğu və kənd təsərrüfatının inkişafı üçün tədbirlər planı işlənib hazırlandı.

Yerlərdə iş aparmaq üçün AK(b)P-nın xətti ilə 200 nəfər nümayəndə göndərildi. Xeyli miqdarda vəsait, toxum və texnika ayrıldı. Kolxozçuların I qurultayının qərarlarından irəli gələn vəzifələrin həyata keçirilməsi üçün 1931-ci il fevralın 20-də Xankəndində kolxoz başçılarının, kənd partiya təşkilatlarının və kolxoz fəallarının birgə plenumu keçirildi. Plenumda ayrı-ayrı kolxozlardakı vəziyyət müzakirə edilərək qarşıdakı vəzifələr barədə göstərişlər verildi.

Otuzuncu illərin əvvəllərində Şuşa rayonunda kolxoz quruculuğunda, kənd təsərrüfatının inkişafında canlanma yarandı. Azərbaycan hökuməti «birinci növbədə rayonda kolxoz quruculuğu üçün 5000 manat pul tərxis etdi. Şuşa rayonunda taxılçılığın inkişaf etdirilməsi məqsədilə 300 pud toxumluq taxıl verildi.

1931-ci ildə Şuşa rayonunda ortababların kolxoza daxil olması və dövlətin bu sahəyə maraq və diqqətinin artırılması nəticəsində kolxozların sayı artdı. 1930-cu illə müqayisədə 1931-ci ildə kollektivləşmənin faizi 12,3-dən 16,2-yə çatdı. 1931-ci ildə Şuşa rayonunda kolxozlarının ümumi gəliri 70 min manat oldu. Bu vaxt Azərbaycanda 154.457 təsərrüfatı birləşdirən 3.300 kolxoz var idi. Bəhs etdiyimiz dövrdə fərdi heyvandarlıq təsərrüfatlarının birləşməsi prosesi sürətləndi. 1931-ci ildə Şuşa rayonunda 20 kolxoz əmtəə ferması fəaliyyət göstərirdi. Bu da 1930-cu illə müqayisədə 2,5 dəfə artıq idi. Fermaya «şvits» inəklər, merinos qoyunlar, cins ayğırlar və donuzlar gətirildi. Həmin fermanın yem bazasının möhkəmlənməsi üçün 1931-ci ildə əkin sahələri genişləndirildi. Nəticədə ilin sonunda təsərrüfatlardan 200 ton silos, 5000 pud ot, 6000 pud saman yığılmışdır [272].

1932-1933-cü təsərrüfat ilində Şuşa rayonunda kənd təsərrüfatının kollektivləşməsi Mərkəzin planı əsasında inzibatçılıq və zorakılıqla, eyni zamanda xırda kəndli təsərrüfatlarının birləşdirilməsi yolu ilə aparılırdı. Beşillik plana əsasən Şuşa rayonunda kənd təsərrüfatının kollektivləşməsi və inkişafına

1932-ci ildə 260 min manat, 1933-cü ildə isə 345 min manat vəsait sərf edilmişdir. Kənddə təbliğat-təşviqat işləri aparmaq məqsədilə Azərbaycan dövləti tərəfindən 1932-ci ildə rayona 60 təbliğatçı göndərilmişdi. 1933-cü ildə isə təbliğatçıların sayı 75 nəfərə, çatmışdır. Təbliğatçılar əksər hallarda inzibatçılığa yol verir və zorakı metodlara əl atırdılar. Şuşa rayonunda kənd təsərrüfatının texniki cəhətdən yenidən qurulmasında MTS-lər mühüm rol oynayırdılar. Hər il onların sayı artırdı [275].

1932-1933-cü illərdə Dağlıq Qarabağda 2 MTS yaradılmışdır ki, onların 40 traktoru, 4 yük avtomaşını, 196 kotanı, 80 dırmığı, 30 taxıldöyəni, 107 taxıltəmizləyəni, 305 toxumsəpəni, 107 çiləyici və toxalayıcısı var idi. Bundan əlavə 1933-cü ilin sonlarında Azərbaycan hökuməti Dağlıq Qarabağda əlavə olaraq 10 traktor və 100 kotan göndərdi. 1933-cü il Dağlıq Qarabağda 80 traktor, 300 kotan, 500 toxumsəpən var idi ki, bütün bunlar Şuşa rayonunda kənd təsərrüfatının inkişafına təkan verməklə məhsuldarlığın artırılmasına təkan verirdi.

1933-cü ildə isə Şuşa rayonunda əkin sahəsi 500 hektara çatmışdı. Bundan 400 hektarı suvarılırdı [276].

XX yüzilliyin 30-cu illərinin əvvəllərində kolxoz quruluşunda baş verən əyintilər təsərrüfatların məcburi kolxozlara daxil edilməsi, ortababların, bəzi hallarda isə yoxsulların «qolçomaq» kimi qələmə verilməsi, vergi siyasətində özbaşınalıqlar kolxoz hərəkatına qarşı narazılığı artırdı. Belə hallar xüsusilə ermənilərin cəmləşdiyi Şuşa rayonunda tez-tez və daha acınacaqlı hallarda rast gəlmək mümkün idi. Çünki bölgənin icraedici və qanunverici hakimiyyətində işləyənlərin demək olar ki, hamısı milliyyətcə ermənilərdən təşkil edilmişdi. Vergilərin ağırlığı, ictimailəşmə, yoxsulun «qolçomaq» kimi qələmə verilməsi və sair hallar azərbaycanlı təsərrüfatlarına aid edilirdi. «Qolçomaq» adlandırılan keçmiş azərbaycanlı bəylərinin müqavimət göstərməsi qanunauyğun hal idi. Bəhs edilən dövrdə xalqın etirazı özünü müxtəlif formalarda göstərirdi. Belə ki, ot və saman tayasının yandırılması, kolxoz zəmilərinin otarılması və tapdalanması, texnikanın qəsdən xarab edilməsi və sair hallar müşahidə edilmişdir. Lakin xalqın etirazı erməni cəlladları

tərəfindən qan içində boğulurdu. Bəhs edilən dövrdə yüzlərlə azərbaycanlı həbs edilmiş, sürgün edilmiş, güllələnmiş və ya başqa yerlərə qaçmağa məcbur edilmişdir. Bütün bunları isə məkirli niyyət yiyəsi olan ermənilər məqsədli şəkildə edirdilər ki, bölgədə azərbaycanlıları deportasiya edib onların sayını azaltsınlar.

1932-1933-cü illərdə mal-qaranın sayında aşağı düşmə halları müşahidə edilmişdir. Bunun ən başlıca səbəbi zorakı tədbirlərin tətbiq edilməsi, həmin zorakılığa qarşı etiraz əlaməti olaraq heyvanların kəsilməsi, heyvandarlığın kollektiv təsərrüfata hazır olmaması ilə bağlı olmuşdur. Lakin buna baxmayaraq kolxoz əmtəə fermalarının sayı artırdı. Bəhs etdiyimiz dövrdə Şuşa rayonunda Südçülük Əmtəə Ferması (SƏF) yaradılmışdır. 1931-1933-cü illərdə SƏF-nın sayında dəyişiklik olmamışdır. Həmin fermalarda (SƏF) mal-qaranın sayında irəliləyiş çox da ciddi deyildi, yəni 3 il ərzində 885-dən 1473-ə qalxmışdır. Hələ ki, mal-qaranın ümumi sayı 1926-cı il səviyyəsinə çatmamışdır [284].

1933-cü ilin sonlarında Şuşa rayonunda yeni bir ferma Quşçuluq Əmtəə Ferması (QƏF) da yaradıldı. 1930-1933-cü illər ərzində Şuşa rayonunda sovxozların yaranması işində irəliləyiş daha böyük idi. Bəhs etdiyimiz dövrdə Şuşa rayonunda 25 min hektar torpaq sahəsini, 24 traktoru olan 3 sovxoz fəaliyyət göstərirdi.

1933-cü ildə Azərbaycanda cəmi 114 sovxoz var idi ki, onlara 75000 hektar əkin sahəsi, 802 traktor xidmət edirdi. Bu vaxt bütövlükdə Naxçıvanda 15 traktoru, 1500 hektar əkin sahəsi olan 4 sovxoz var idi. DQMV-də isə 12 sovxoz, 45726 torpaq sahəsi, 4120 hektar əkin sahəsi, 37 traktor xidmət edirdi [292].

Çətinliklərə, məhrumiyyətlərə, məşəqqətlərə baxmayaraq birinci beşillik dövründə Şuşa rayonunun kəndində köklü dəyişikliklər baş vermişdir. Belə ki, əkin sahələri ilbəil güclənmiş, təsərrüfatların texniki cəhətdən təchizi güclənmiş, kənddə kolxoz və sovxozların aparıcı rol oynayaraq onların artımında irəliləyişlər baş vermişdir. Əgər 1929-cu ildə Şuşa rayonunda 191 təsərrüfatı birləşdirən 10 kolxoz var idisə, 1931-ci

ildə 198 təsərrüfatı birləşdirən 30 kolxoz, 1932-ci ildə isə 205 təsərrüfatı birləşdirən 31 kolxoz yaradılmışdır. 1932-ci ildə Şuşa rayonunda kəndli təsərrüfatlarının 48 faizi kollektivləşmişdirsə, 1933-cü ildə bu rəqəm 60 faizə çatmışdır. Bütün əkin sahəsinin 70 faizi kolxozlara məxsus idi. Bəhs edilən dövrdə Azərbaycanda cəmi 171.948 təsərrüfatı birləşdirən 3440 kolxoz var idi. Bu isə ümumi kəndli təsərrüfatının 68 faizinin kollektivləşməsi demək idi. Eyni zamanda, bu dövrdə Naxçıvanda isə kollektivləşmənin faizi 41,5-ə çatmışdır. Göründüyü kimi istər Azərbaycanın Dağlıq Qarabağ bölgəsi, istər onun Şuşa rayonu, istərsə də Naxçıvanda kollektivləşmə faizi ümumi Azərbaycan göstəricilərindən geri qalırdı. Bunun başlıca səbəbi Azərbaycanın həmin regionlarının tarlaçılıq-heyvandarlıq, bağçılıq-bostançılıq təsərrüfat sahələri ilə daha çox məşğul olması idi. Pambıqçılıq rayonlarında kollektiv təsərrüfatların yaradılması daha asan idi. Bunun nəticəsidir ki. Azərbaycanın pambıqçılıqla məşğul olan Bərdə, Goranboy və başqa rayonlarında kollektivləşmənin faizi təxminən 90 faizə çatmışdı [292].

1927-1933-cü illərdə təkid və məcburiyyət üsullarından istifadə etməklə, kəndli əməyinin istismarı, zor tətbiq etmə yolu ilə kənd təsərrüfatında cüzi də olsa irəliləmələr diqqətə cəlb edirdi. Lakin bu irəliləmə dərininə deyil, eninə getmişdir. Yəni, əkin sahələrinin genişlənməsi, yeni bağ və bostan sahələrinin əkilməsi, heyvandarlıq fermalarının yaradılması yolu ilə eninə inkişaf getmiş və məhsuldarlıq səviyyəsi son dərəcə aşağı olmuşdur. Bunun başlıca səbəbi kəndlinin yaradıcılıq, təşəbbüskarlıq qabiliyyətinin əlindən alınması, ciddi amiranə inzibati tədbirlərin tətbiqi, onun maddi marağının aşağı düşməsi ilə bağlı olmuşdur. Kənd təsərrüfatının inkişafı sənayesinin xammala olan tələbatının ödənilməsi və işsizliyin aradan qaldırılması üçün əhəmiyyətli idi.

Azərbaycanın tükənməz sərvətlərindən daha çox və vaxtaşırı bəhrələnmək, xalqın gücündən səmərəli istifadə etmək, onun istismarını gücləndirmək və bu məqsədlə inzibati amirlik metodu ilə milliləşdirilmiş iqtisadiyyatımızın inkişafını tənzimləmək, nəzarətdə saxlamaq üçün Mərkəz ikinci beşillik planın

direktivlərini işləyib hazırladı. İkinci beşillik planın vəzifələri ÜİK (b) P-nın XVII qurultayı (yanvar-fevral 1934) tərəfindən müzakirə edilərək qəbul olundu. İkinci beşilliyin əsas siyasi vəzifəsi kapitalist ünsürlərini tamamilə məhv etmək, iqtisadiyyatda və insanların şüurunda kapitalist qalıqlarını yaradan səbəbləri aradan qaldıraraq «sinifsiz sosializm cəmiyyəti» yaratmaqdan ibarət olmuşdur. Beşilliyin başlıca təsərrüfat vəzifəsi inzibati amirlik sistemini gücləndirməklə İttifaqın maraqları əsasında xammal mənbələrini aşkara çıxarmaq və iqtisadiyyatı inkişaf etdirməkdən ibarət olmuşdur. Həmçinin Mərkəz Azərbaycanın tükənməz və toxunulmamış xammal mənbələrini aşkarlamaq yolu ilə iqtisadiyyatımızı bütövlükdə öz mənafelərinə uyğun yenidən qurulmasını başa çatdırmalı idi. İkinci beşilliyin direktivləri Zaqafqaziya ölkə komitəsi tərəfindən 1932-ci ilin martında keçirilmiş Plenumunda (1933-1937-ci illər üçün) tərtib və təsdiq edilmişdir [293].

İkinci beşillikdə kənd təsərrüfatı sahəsində aşağıdakı vəzifələri qarşıya qoymuşdu: Kollektivləşmənin başa çatdırılması, kolxozların təşkili – təsərrüfat cəhətdən möhkəmləndirilməsi, kənd təsərrüfatında istehsalın yenidən qurulması, sənayenin xammalla təmin etmək məqsədilə pambıqçılığın sürətlə inkişaf etdirilməsi, kənd təsərrüfatında məhsuldarlığın artırılması, heyvandarlığın inkişafı, kənd təsərrüfatı zərərvericiləri ilə mübarizə aparmaq üçün preparat istehsalının genişləndirilməsi, kənd təsərrüfatının sosialistcəsinə yenidən qurulmasının başa çatdırılması, kənd zəhmətkeşlərinin maddi və mədəni həyat səviyyəsinin yüksəldilməsi.

1933-cü il martın 20-də Bakıda zərbəçi kolxozçuların Birinci ümumazərbaycan toplanışı keçirildi. Toplantıda ikinci beşilliyin Azərbaycan kəndində həyata keçirilməsi üçün vəzifələr müəyyənləşdirildi.

Azərbaycanın rayonlarında beşilliyin vəzifələri müzakirə edilməyə başlandı. O cümlədən, 1933-cü il dekabrın 21-də AK(b)P MK-nın nümayəndələrinin iştirakı ilə Şuşa şəhərində Dağlıq Qarabağ Vilayət partiya komitəsinin plenumu keçirildi. Plenumda birinci beşillikdə görülən işlərdən, kolxoz quruculu-

ğundakı nailiyyətlərdən, çətinliklərdən və kənd təsərrüfatı sahəsində qarşıdakı vəzifələrdən geniş bəhs edildi. Həmin plenumda Dağlıq Qarabağ ərazisində 1934-1938-ci illər ərzində kənd təsərrüfatı sahəsində aşağıdakı vəzifələrin həyata keçirilməsini qərarlaşdırdı: kollektivləşmənin bölgədə başa çatdırılması, kolxoz və sovxozların təşkili təsərrüfat cəhətdən möhkəmləndirmək, sənayenin xammala olan tələbatım ödəmək məqsədilə pambıq, barama, üzüm, meşə təsərrüfatının genişləndirilməsi ön plana çəkilsin, bu məqsədlə əkin sahələri 1927-1930-cu illərlə müqayisədə 2 dəfə artırılmalı, tezliklə MTS-in traktor parkına 15 traktor, 50 toxumsəpən, 20 taxıldöyən, 150 kotan, 150 torpağı yumşaldan verməli, ipəkçiliyin inkişafı üçün 25 min, pambıqçılığın inkişafı üçün 50 min pul buraxmalı, sağmal inəyi olmayan kolxozlara 1500 baş inək verilsin. Əmtəə Südçülük Fermalarına 17 baş cins buğa, 30 baş döngə, 7 cins dana verilməklə heyvandarlığın cinsi yaxşılaşdırılsın, kolxozlar arasında «yarış» təşkil edilməli, ən yaxşı kolxoz və ya kolxozçu mükafatlandırılsın. Şuşanın kəndlərində qaramal və xırda buynuzlu malqaranın inkişafına xüsusi vəsait ayrılsın [294]. Zootexnik binası 1935-ci ilədək tikilib qurtarsın. Xalq Torpaq Komissarlığına qəti olaraq tapşırılsın ki, Vilayətdəki Barama toxumu zavodu rekonstruksiya edilməklə genişləndirilsin. 1934-cü ildə malqaranın xəstəliklərinə qarşı müalicə diaqnoz mərkəzi yaradılsın, təsərrüfatların suya olan tələbləri maksimum ödənilsin. 1934-cü il dekabrın 25-dək ərazisində bir neçə artezian quyusu qazılsın, inşasına başlanan kanalların çəkilişi yekunlaşsın və yeni kanallar çəkilsin. Şuşa rayonu ərazisində bitkiçilik və heyvandarlığın inkişafı, sortlaşdırılması, xəstəliklərinə qarşı mübarizə aparılması və sair məqsədilə Xankəndində Elmlər Akademiyasının şöbəsi açılsın. Kənd əhalisinin maddi və mədəni həyat səviyyəsi yaxşılaşdırılsın. Şuşa rayonunda kənd təsərrüfatının yenidən qurulması işi başa çatdırılsın.

1933-1937-ci illərdə Şuşa rayonunda kolxoz quruculuğu «kənddə qolçomaqlara qarşı kolxozlar uğrunda» şüarı altında həyata keçirilməyə başladı. Bu dövrdə partiya, sovet və hüquq mühafizə orqanlarının başlıca hədəfi varlı kəndlilər idi. Rayonda

kollektivləşmənin faizi artdıqca qolçomaq damğasına məruz qalan kəndlilərin də sayı artırdı. Kənddə partiya və sovet orqanlarından tələb edilirdi ki, «bütün cəbhə boyu qolçomaqların üzərinə hücumu gücləndirməli, bütün sahələrdə onların müqavimətini qırmalı». Dağınıq fərdi kəndli təsərrüfatçılarına qarşı aparılan mübarizə 1933-cü ildə ölkədə kütləvi aclığın, yoxsulluğun, qıtlığın baş verməsinə, bu isə əhalinin kütləvi axınına səbəb oldu, Vilayətin bir çox sənaye müəssisələrində işçilərin sayı kəskin dərəcədə azaldı. 1933-1934-cü ildə sovxozlarda, MTS-da yaradılan siyasi şöbələr bu cür əhali axınının qarşısını inzibati yolla ala bildi. İş yerlərindən qaçan işçilərin bir çoxları məhkəmə məsuliyyətinə alındı. 1935-1937-ci illərdə kolxozların, MTS-nın təşkilat-təsərrüfatın möhkəmləndirilməsi üçün görülən tədbirlərin sayı genişləndirildi. Beləliklə, 1937-ci ildə Şuşa rayonunda sosialist istehsal münasibətləri zor gücünə olsa da qalib gəldi. 1937-ci ilin oktyabrın 1-nə olan məlumata görə Şuşa rayonunda kəndli təsərrüfatının 77,4 faizini, əkin sahələrinin 90 faizini kollektiv təsərrüfatı əhatə edirdi. Rayonda nisbi sinfi «sabitlik» yaradılmışdır.

Birinci beşillikdə kənd təsərrüfatının 60 faizdən çoxunun kollektivləşdirilməsi, kolxozlar üçün maşın-traktor stansiyalarından ibarət maddi-texniki baza yaradılması, sovxoz şəbəkəsinin genişləndirilməsi - bütün bunlar kənd təsərrüfatının yenidən qurulmasının əsasən başa çatması, kənddə yeni rejimin yaradılması demək idi [294].

1934-cü ilin sentyabr-oktyabr aylarında Şuşa rayonunda ümumi təsərrüfatların 65 faizi kollektivləşdirildi. Təkcə bir ay ərzində (1934-cü ilin noyabrında) 75 təsərrüfatda kollektivləşmə işi aparılmış və həmin vaxt Şuşa rayonunda kollektivləşmənin faizi 68,2-yə çatdı. Bu isə 1933-cü illə müqayisədə 8,2 faiz artıq demək idi. 1934-cü ildə Azərbaycanda cəmi 3331 kolxoz var idi. Bu dövrdə Şuşa rayonunda kolxozların sayı artırdı. 1934-cü ilin dekabrında rayonda 3588 təsərrüfatı birləşdirən 19 kolxoz var idi. Təkcə 1934-1935-ci təsərrüfat ilində kollektivləşdirmənin faizi 70-i keçmişdi. Kəndli təsərrüfatının zorla kolxozlara daxil edilməsi, varlı və çox hallarda ortabab kəndlilərə qarşı qanunsuz

cəza tədbirləri əhalinin narazılığını artırırdı. Həmin narazılığın qarşısını almaq üçün kəndlilərə qarşı ağır cinayətlər törədilirdi. Rayonda həbslər, sürgünlər adi hala çevrildi. «Sosializm yarışı» bayrağı altında kütlələr təsərrüfat quruculuğuna cəlb olundu. MTS-də iki il yarım fəaliyyət göstərən siyasi şöbələr 1934-cü il noyabr ayından ləğv olundu.

1934-1935-ci illərdə Bakıdan respublikanın ayrı-ayrı rayonlarına və o cümlədən Şuşa rayonuna göndərilən nümayəndələr kolxozların möhkəmləndirilməsi üçün kütləvi təbliğat işi aparır, «yad ünsürlər» adlanan bəzi kolxozçular kolxozlardan qovularaq məsuliyyətə alınmışlar. Bəhs olunan dövrdə təkcə Şuşa rayonundan – 70 nəfər məsuliyyətə cəlb olunmuşdur. 1936-cı ildə Şuşa rayonunda - 350 nəfərdən çox fərdi təsərrüfatçı zor ilə kolxozlara daxil olmuşlar. Nəticədə 1936-cı ilin aprelində Şuşa rayonunda bütün kənd təsərrüfatlarının 77 faizi, əkin sahələrinin isə 75 faizi kolxozlarda birləşmişdi. Bu vaxt Azərbaycanda kollektivləşmənin faizi 85,2-yə çatdı [302]. 1936-cı il üçün kolxoz quruculuğunda ən xarakterik cəhət Mərkəzin göstərişi ilə bütün rayonlarda, o cümlədən Şuşada kolxozların yaradılması işinin «sürətləndirilməsi» olmuşdur. Əgər 1933-1934-cü illərdə kolxoz quruculuğunda artım 7 faiz təşkil edirdisə, 1935-1936-cı illərdə bu artım 18 faizə çatmışdır. 1937-ci ildə də həmin artım müşahidə edilmişdir. Məsələn, 1934-cü ildə Xankəndi rayonunda kollektivləşmənin faizi 80,7-i idisə, 1937-ci ildə 94,5-ə çatmışdır. Bəhs olunan dövrdə Ağdərə rayonunda kollektivləşmə 24,7 faiz, Şuşa rayonunda 20,8 faiz, Hadrut rayonunda 25,7 faiz, Şuşa rayonunda isə 28,5 faiz artmışdır. 1937-ci ildə Şuşa rayonunda kənd təsərrüfatının 85%-i, əkin sahələrinin 77%-i kollektivləşdirildi. Bu vaxt rayonda 16 kolxoz var idi ki, həmin kolxozlara 25 traktor, 91 taxıldöyən kombayn xidmət edirdi. 1937-ci ildə Azərbaycanda 304982 kəndli həyətini birləşdirən 3654 kolxoz var idi. 1939-cu ildə Şuşa rayonunda kolxozların sayı 16-ya çatdı ki, həmin kolxozlarda 3885 təsərrüfat birləşmişdi [305].

1934-1940-cı illərdə Dağlıq Qarabağda, AK(b)P MK-nın 1933-cü il sentyabr plenumunun qərarına əsasən, xırda kolxozlar

iriləşdirildi. Bəhs edilən dövrdə Dağlıq Qarabağda kolxozların sayı 214-dən 195-ə enmişdir. Vilayətdə kolxozların «sürətlə» artımı və iriləşməsi gedişini aşağıdakı cədvəldən daha aydın görmək olar.

| | Xankəndi | | Ağdərə | | Xocavənd | | Hadrut | | Şuşa | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| İllər | Həcmi | faiz | Həcmi | faiz | Həcmi | faiz | Həcmi | faiz | Həcmi | faiz |
| 1934 | 50 | 80,7 | 57 | 67,0 | 43 | 65,0 | 45 | 65,7 | 19 | 48,5 |
| 1937 | 48 | 94,5 | 57 | 91,7 | 41 | 85,8 | 45 | 91,0 | 16 | 77,4 |
| 1940 | 45 | 99,4 | 55 | 99,1 | 40 | 98,9 | 44 | 97,7 | 15 | 99,2 |
| 1941 | 45 | 99.9 | 55 | 99,8 | 40 | 99,8 | 43 | 100 | 12 | 100 |

1940-cı ildə olan məlumata görə Vilayətdə 199 traktor, 33 kombayn, 27 yük maşını var idi ki, bundan 40 traktor, 7 kombayn, 6 yük maşını Şuşa rayonunun payına düşürdü [306].

Bəhs edilən dövrdə Dağlıq Qarabağın kəndində əməyə sosialist münasibəti «tərbiyə» olunmasında, istehsalat intizamının möhkəmləndirilməsi, kolxozlarda əməyin «düzgün» təşkil olunması, kəndlilərin kənd təsərrüfatı texnikasından düzgün istifadə etmək vərdişləri qazanması, kadrların seçilməsi və «düzgün» yerləşdirilməsində kənd sovetlərinin rolu artdı. 1940-cı ildə Şuşa rayonunda 6 kəndi birləşdirən 20 kənd soveti var idi. Bu zaman Xocavənddə 21, Hadrutda 25, Şuşada 6, Xankəndində 23 kənd soveti fəaliyyət göstərirdi [308].

Kənddə Sovet imperiyasının mövqelərinin möhkəmləndirilməsində kollektivləşdirmə xətti mühüm rol oynadı. Kəndli kütlələrinin sosial-iqtisadi həyatında baş vermiş hadisələr Şuşa rayonunda kapitalist münasibətlərinin yox edilməsi ilə nəticələndi. Kollektivləşmə ölkənin hər yerində olduğu kimi, Şuşa rayonunda da əhalinin əsas kütləsinin həyat tərzini imperiyanın prinsipləri əsasında dəyişdirdi. Rayon əhalisinin milli, etnik tərkibində xeyli dəyişikliklərə səbəb oldu. Bu sahədə daha güclü sosial baza yaradılması üçün zəmin hazırladı. 1930-cu ildə bütün kənarda qalmış kəndli təsərrüfatları Mərkəzin planı əsasında inzibati amirlik yolu ilə kolxozlara cəlb olunaraq kollektivləşmə

başa çatdı. Kolxozlar Şuşa rayonunun kənd təsərrüfatı məhsullarının əsas istehsalçısına çevrildilər.

1934-1940-cı illərdə Şuşa rayonunun kənd təsərrüfatında nəzərə çarpacaq dəyişiklər olunmuşdur. Belə ki, əkin sahəsi 1934-cü ildə 2986 hektar idisə 1940-cı ildə artırılaraq 3261 min hektara çatdırılmışdır. Şuşa rayonunda əkin sahələrinin artırılması ilə yanaşı yerli şəraitə uyğun yeni toxum sortları da əldə edilirdi. Bəhs edilən dövrdə ən yüksək göstərici isə mal-qara üçün yem otlarının əkilməsindən əldə edilmişdi [312].

RSFSR hökuməti ikinci beşillik dövründə Azərbaycan kənd təsərrüfatının qarşısına qoyduğu ən başlıca vəzifə Respublikamızı özünün ikinci pambıq bazasına çevirmək olmuşdur. Mərkəz, çətin becərilən məhsula Azərbaycanın kəndlərində maddi maraq yaratmaq üçün pambığın satış qiymətini 4 dəfə artırmış və mükafatlandırma sistemi tətbiq etmişdir. Azərbaycan hökuməti Dağlıq Qarabağ pambıqçılarının ixtisaslı kadrlara olan ehtiyacını ödəmək üçün yüzlərlə aqronom, briqadir, fəhlə göndərdi. Eyni zamanda, təsərrüfatlar pambıq toxumu (çiyid), traktorla, müxtəlif texnika ilə təmin edildi. Yeni su arxları çəkildi. Dağlıq Qarabağda pambıq əkini sahəsi xeyli genişləndirildi. Belə ki, 1934-cü ildə pambıq əkini sahəsi 2570 hektar sahədə əkildi. Bundan 1975 hektarı kolxozların, 595 hektarı xüsusi təsərrüfatların payına düşürdü. 1939-cu ildə vilayətdə pambıq əkini 2834 hektara, 1940-cı ildə isə artaraq 3000 hektara çatmışdı [312].

1939-cu ildə Dağlıq Qarabağın pambıq tarlalarından 28000 ton əvəzinə 31000 ton pambıq yığılmışdır. Bu vaxt ümumi Azərbaycan üzrə bu göstərici 210 min ton olmuşdur. Mərkəzin inzibati tədbirləri Azərbaycan hökuməti tərəfində göstərilən kömək nəticəsində pambığın məhsuldarlığı hər hektardan 1934-cü ilin 9.5 sentnerindən, 1940-cı ildə 15.2 sentnerə çatmışdır. Dağlıq Qarabağdakı bu göstərici ümumi Respublika göstəricisindən yüksək idi. (Azərbaycan üzrə orta göstərici 12,9 sentner). Dağlıq Qarabağda elə kolxozlar vardır ki, onlar müxtəlif vasitələrdən istifadə edərək daha yüksək göstəricilər əldə etmişdilər. Bu, hər şeydən əvvəl yüksək aqrotexnikanın tətbiqi,

«əmək coşqunluğu» yaratmaq üçün, yüksək pambıq məhsulu ustalarının iş təcrübələrinin bölgədə yayılması, əlavə mükafatlandırma sisteminin tətbiqi, «yarış» təşkil edilməsi və ən əsası zəhmətkeş kənd əhalisinin ağır, gərgin əməyi nəticəsində qazanılmışdır. Pambığın keyfiyyətində də irəliləmələr müşahidə olunurdu. Lakin bəzi kolxozlarda lazımi göstəricilər əldə edilməmişdir. Bu kolxozlardakı gerilik heç də Dağlıq Qarabağdakı ümumi göstəriciləri geri çəkmədi. «Plan»a 110 faiz əməl edildi. İkinci beşillik dövründə məhsuldarlığın müntəzəm surətdə artması ilə Dağlıq Qarabağda pambıqçılıq kolxozlarının pul gəliri 8 dəfə artmışdı. Beləliklə, istər Azərbaycanda, istərsə də onun ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağda zəhmətkeş xalqımızın gərgin əməyi sayəsində pambıq planı yerinə yetirilərək Azərbaycan dövləti Mərkəzin ikinci pambıq bazasına çevrildi [314, 316].

Üzümçülük, meyvəçilik və tutçuluq Şuşa rayonunda qədimdən mövcud olan mühüm təsərrüfat sahələridir. Bir çox kolxozların iqtisadiyyatında bu sahələr başlıca yer tuturdu. Şuşa rayonun kolxozları üzüm və meyvə bağlarını daha çox əkirlər. 1920-1940-cı illərdə rayonda bağçılıq sahəsində xeyli irəliləyişlər diqqəti cəlb etmişdir. Həmin illər ərzində bağçılıq bərpa edilərək əkin sahələri genişlənmişdir. Aparılan araşdırmalardan məlum olur ki, bağçılıq sahələrinin genişlənməsi meşə zolaqlarının qırılması və məhsuldar otlaqların hesabına aparılmışdır. 1934-1939-cu illər ərzində Şuşa rayonunda üzüm bağları təxminən 20 faiz, şah tut bağları 10 faiz, Çəkilliklər 15 faiz, Meyvə bağları isə 50 faiz artmışdır. Bu artım özünü həm məhsuldarlıqda, həm də məhsul istehsalında da göstərmişdir.

Şuşa rayonunun kənd təsərrüfatının yüksək gəlirli sahələrindən biri də ipəkçilikdir. Bəhs edilən illər ərzində rayonda ipəkçiliyin yem bazasının bərpası və genişləndirilməsi işində böyük irəliləyişlər olmuşdur. Onu da qeyd edək ki, Dağlıq Qarabağın erməni rəhbərliyinin tələbi ilə Vilayətə bitişik qonşu Ağdam, Cəbrayıl, Tərtər, Füzuli rayonlarının kəndlərində çəkil bağları salındı ki, həmin bağların məhsulundan Dağlıq Qarabağ kumçuları (barama qurdu saxlayanlar) vaxtaşırı istifadə edirdilər.

Azərbaycan hökuməti Şuşa rayonunda baramaçılığın inkişafı üçün toxum, kənd təsərrüfatı mütəxəssisi göndərmiş və rayonda yeni nümunəvi kumçuluq binalarının tikilməsi üçün 15 min manat vəsait ayırmışdır. Apardığımız araşdırmalardan məlum olur ki, ipəkçiliyin inkişafı üçün Dağlıq Qarabağın digər rayonlarına ayrılan vəsait Şuşa rayonuna ayrılan vəsaitdən 2 dəfə çox olmuşdur. Xatırladaq ki, mərkəzdən ayrılan vəsait Dağlıq Qarabağ rəhbərliyi tərəfindən istiqamətləndirilirdi. Vilayət Partiya Komitəsinin erməni rəhbərliyi isə həmin vəsaitin çoxunu ermənilərin daha çox məskunlaşdığı rayonlara (kəndlərə) yönəldirdi. Lakin bütün banlara baxmayaraq Şuşa əhalisinin əməksevərliyi nəticəsində 1934-1940-cı illər ərzində rayonda barama saxlanılması və dövlətə quru barama təhvil verilməsində artım diqqəti cəlb etmişdir. Həmin dövrdə barama istehsalı 747 sentnerdən 1.181 sentnerə çatmışdır. 1934-cü ildə hər qutu barama qurdundan orta hesabla 24 kiloqram məhsul götürülmüşdürsə, 1940-cı ildə bu göstərici orta hesabla 2 dəfə artaraq 48.4 kiloqrama çatmışdır [316].

Şuşa rayonunda bağçılığın inkişafına mane olan müəyyən çətinliklər hələ də var idi. Belə ki, bölgədə intensiv aqronomik xidmət lazımi səviyyədə deyildi. Xüsusilə aqrotexniki tədbirlər, günün tələblərinə cavab vermirdi. Məsələn, üzüm bağlarının yalnız 55 faizində, məhsul verən meyvə bağlarının 40 faizində, şah tut bağlarının 30 faizində, şəxsi çəkil bağlarının 45 faizində dərmanlama becərilmə işləri aparılmışdır. Təkcə üzüm bağlarında 10 hektar sahə mildium xəstəliyinə tutulmuşdur. Həmin bağların sidium xəstəliyinin 8 hektarında dərmanlama işləri aparılmışdır. Eyni zamanda, 1935-ci ildə bağ əkin sahələrinin genişləndirilməsi üçün qələmə (ting) sahələrinin artırılması, yeni şitillərin yaradılması nəzərdə tutulsa da bu sahədə Şuşa rayonunda heç bir iş görülməmişdir. Odur ki, bağçılıq sahəsində çətinliklərin aradan qaldırılması məqsədilə 1936-cı il noyabrın 9-10-da Şuşada, Rayon Partiya Komitəsi və Dağlıq Qarabağ Vilayət Partiya Komitələrinin kənd təsərrüfatı qabaqcılları, kolxoz rəhbərliyinin iştirakı ilə VII sovetlər qurultayı keçirildi. Qurultayda bağçılığın daha da inkişaf etdirilməsi üçün aşağıdakı

vəzifələri qərarlaşdırdı: Biçənək, bağ, əkin sahələrinin mal-qara tərəfindən tələf edilməsinin, eyni zamanda ağacların qanunsuz kəsilməsinin qarşısının alınması məqsədilə nəzarət gücləndirilsin, gözə görünməyən həşəratları məhv etmək məqsədilə xüsusi dərmanlar hazırlansın, meyvə bağlarında təmizlənmə (budama) işləri vaxtında aparılsın, bağçılığın əkin sahələri genişləndirilsin, sahələr yüksək keyfiyyətli toxum materialları ilə təmin edilsin, təsərrüfatlarda ixtisaslaşdırılma aparılsın, hər bir təsərrüfatlarda briqadalar yaradılsın və sair. Görülən tədbirlər öz müsbət nəticələrini verdi. 1937-ci ildə Şuşa rayonunun bağçılıq təsərrüfatlarından yüksək məhsuldarlıq əldə edildi [317].

Şuşada əhalinin qədimdən məşğul olduğu sahələrdən biri də üzümçülükdür. 1921-1926-cı illərdə Vilayətdə üzümçülük yenidən bərpa olunaraq üzüm sahəsi 1913-cü il səviyyəsinə çatmışdır. Üzüm bağları ümumiləşdirildikdən sonra onun sahəsi genişləndirildi və becərilməsi üsulu təkmilləşdirildi. Yeni dəmir-beton dayaqlarla və cərgə ilə üzümün əkilməsi əmək məsrəfinin azalmasına, maya dəyərin aşağı salınmasına, məhsuldarlığın artmasına səbəb olmuşdur. Üzümün çoxu əsasən şərab hazırlanmasına sərf edilirdi. Bu işdə Qarabağ Şərab Tresti mühüm rol oynayırdı. Trest üzümün ilkin işlənməsi, spirt alınması, xammalın qəbulu üçün geniş məntəqələr şəbəkəsinə malik idi. Trestin vəzifəsi yalnız kolxozlardan alınan xammalı emal etmək deyil, həmçinin öz xüsusi xammal bazasının yaradılma və kolxozlara üzüm və tut bağlarının əkilməsi, becərilməsi işinə yaxından kömək edirdi. 1939-cu ildə Trestin 131 hektar üçün bağı, 55 hektar meyvə bağı var idi. Trestin əkdiyi üzüm bağlarının hər hektarından 580 sentner məhsul götürülmüşdür. Meyvə bağlarının məhsuldarlığı isə 22,8 sentnerə çatmışdır. Qarabağ şərabçılıq Trestinin Həsənabad kolxozunda baxımsızlıq ucbatından üzüm bağlarından məhsul götürmək mümkün olmamışdır. Bəhs edilən dövrdə Şuşa rayonunda əsasən «Xindoqni» və «Bayan şirey» sort üzümlər əkilirdi. 1934-1940-cı illərdə rayonda şərab istehsalı ilə əlaqədar üzüm əkini sahəsi 20 faiz artmışdır. Ümumi məhsul istehsalının həcmində də artım var idi. Belə ki, 1934-cü illə müqayisədə 1939-cu ildə Şuşa

rayonundakı üzüm bağlarından 25 faiz artıq üzüm yığılaraq dövlətə təhvil verilmişdir. Lakin sonralar iqlim və təbii şərait üzümçülük təsərrüfatının azalmasına səbəb olmuşdur. Üzüm əsasən şəxsi təsərrüfatlarda əkilirdi [321].

Bəhs edilən dövrdə Şuşa rayonunda hələ də ixtisaslı kadrlara ehtiyac var idi. Aqrotexniki xidmət yüksək səviyyədə deyildi. Təsərrüfatlarda fəaliyyət göstərən aqronom və briqadirlər öz nəzəri biliklərini təcrübədə həyata keçirə bilmirdilər. Yaradılmış qısa müddətli kurslar isə lazımi nəticələr vermirdi. Bütün bunları nəzərə alaraq Azərbaycan hökuməti bölgəyə yenidən mütəxəssislər göndərdi. Eyni zamanda rayonun özündə təcrübə laboratoriyaları yaradıldı. Azərbaycanın ayrı-ayrı təhsil müəssisələrində 5 aylıq kurslar yaradıldı ki, həmin kurslarda bağlara qulluq qaydaları, xəstəliklərin aşkarlanması və ona qarşı mübarizə və sair öyrədildi, nümunəvi bağçılar və üzümçülər hazırlandı.

1937-ci il avqustun 20-də Xocavənd rayonunda, Hadrut və Xankəndi, Ağdərə, Şuşa bağçılarının toplanışı keçirildi. Toplanışda vilayətdə qabaqcıl iş təcrübəsinin öyrənilməsinin və yayılması məsələsi müzakirə edildi. Həmçinin həvəsləndirmə metodundan istifadə edilərək bağçılığın inkişafını yüksək həddə çatdırmaq və bağçılıq təsərrüfatlarını texnika ilə təchizini yaxşılaşdırmaq məsələlərinə də baxıldı.

Azərbaycan hökuməti 1937-ci ilin sonunda vilayətdə daha bir MTS yarandı. Bəhs edilən dövrdə Azərbaycanda cəmi 57 MTS fəaliyyət göstərirdi ki, bundan 3-ü Dağlıq Qarabağda idi. MTS-lər bütün əkin sahələrinin 64,8 faizini becərirdilər. Əgər 1934-cü ildə 2 MTS-də 40 traktor, 4 avtomaşın, 196 traktor kotanı və sair var idisə, 1938-ci ildə Azərbaycan hökumətinin vilayətə yeni texnika və avadanlıqlar göndərməsi nəticəsində bölgədə traktorların sayı 158-ə, avtomaşınların sayı 88-ə, kotanların sayı isə 450-ə, kombaynların sayı 24-ə çatdı. Bəhs edilən dövrdə Azərbaycanda cəmi 5,6 min traktor, 454 kombayn, 1159 avtomaşın işləyirdi. Şuşa rayonunda kənd təsərrüfatının yeni əsaslarla qurulmasında MTS-lərin böyük rolu var idi. Kənd təsərrüfatında texnikanın tətbiqi çox böyük zəhmət tələb edən

istehsal prosesini mexanikləşdirməyə imkan yaradırdı. Lakin müharibə ərəfəsində kənd təsərrüfatında texnikanın sayı ilk dəfə azalmağa başladı. Bunun başlıca səbəbi isə müdafiə məqsədilə metalın başqa səmtə yönəlməsi ilə bağlı idi. Texnikanın azalmasında isə ən çox əziyyət çəkən əliqabarlı kəndlilər oldu [322].

1937-1939-cu illərdə Şuşa rayonunda kənd təsərrüfatı istehsalında çətinliklər qalmaqda idi. Kolxozlarda məhsuldar qüvvələrin inkişaf səviyyəsi kolxozçuların tələbini ödəmirdi. Kəndlilər şəxsi həyətyanı sahələrindən istifadə edərək çətinlikdən çıxırdılar. Çox hallarda isə onlar kolxoz torpaqları hesabına öz şəxsi torpaqlarını genişləndirir, əkir, biçirdilər. Bütün bunlar isə kəndlini ictimai işlərdən (kolxozlardan) uzaqlaşdırırdı. Nəticədə yeni yaranmış təsərrüfatlara ağır zərbə dəyirdi.

1937-ci ildə Şuşa rayonunda kolxozlara daxil olmayan, 500 təsərrüfat qeydə alınmışdır. Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, şəxsi təsərrüfatların əksəriyyəti bölgəyə sonradan köçürülən, Mərkəzdə və Vilayətdəki erməni rəhbərlərinə arxalanan ermənilərin əlində cəmləşmişdi. Arxiv materiallarından birində yazılır ki, Enqibariyan Edik və Sarkisiyan Seroj çox böyük həcmdə torpaq sahəsi zəbt edərək, onun gəlirini mənimsəmişlər. Ümumiyyətlə, bəhs edilən dövrdə Dağlıq Qarabağda 9856 hektar torpaq sahəsi şəxsi istifadədə idi. Müqayisəli təhlillər aparılarkən məlum olur ki, Dağlıq Qarabağdakı şəxsi təsərrüfatların həcmi Azərbaycanın digər regionlarından 2 dəfə çox idi. Bu isə gəlimə erməni əhalisinin sosial-iqtisadi durumunun yaxşılaşmasına xidmət edirdi [322].

Şəxsi torpaqların sahəsinin artırılması kəndlilərin mənafeyinə uyğun olsa da yeni yaradılmış sosialist təsərrüfatlarının geriləməsinə səbəb olurdu. Bu hal, bir tərəfdən kəndlilərin kolxozlarda işləmək marağını aşağı salır, ikinci bir tərəfdən isə dövlət təsərrüfatları işçi qüvvəsini itirirdi. Eyni zamanda, şəxsi torpaq sahələrinin artması kapitalist münasibətləri yaradırdı. Ona görə də ÜİK(b)P MK və SSRİ XKŞ 1939-cu ilin mayında «Kolxoz ictimai torpaqlarının dağıntılardan müdafiə olunması haqqında» qərarı çıxarıldı. Həmin qərarda nəzərdə tutuldu ki, tezliklə kənddəki bütün torpaqlar alınıb kolxoz və sovxozlara

birləşdirilsin və kolxozlardakı əmək intizamını bərpa etmək üçün qəti tədbirlər həyata keçirilsin. Yerlərə 2 mindən artıq partiya və sovet işçisi göndərildi.

1939-cu ilin əvvəllərində Şuşa rayonunda 25 nəfərdən ibarət komissiya yaradılaraq kəndlərə göndərildi. 45 nəfər təbliğat-təşviqatçılar kəndlərdə iş aparmaq üçün ayrıldılar. Aparılan «fəal iş» nəticəsində Şuşa rayonunda 1939-cu ildə şəxsi torpaq sahələrinin 1765 hektarı «kəsilərək» kolxozlara birləşdirildi. Artıq, bundan sonra kəndlilərin ixtiyarında 365 hektar şəxsi torpaq sahəsi qaldı. Həmin şəxsi torpaqlardan hər bir evə 0,066 hektar torpaq payı düşürdü. Bəhs edilən dövrdə Şuşa rayonunda cəmi 128 təsərrüfat kolxoz və sovxozlara birləşdirilmişdir ki, bundan 119-u sırf kolxozçu kəndli həyəti idi. Şuşa rayonunda yeni birləşdirilmiş təsərrüfatların dirçəlməsi məqsədilə Azərbaycan hökuməti 26500 manat vəsait ayırdı. Əlahiddə təsərrüfatların birləşməsi prosesi sürətlə davam etdirilirdi. 1939-cu ilin noyabr-dekabr aylarında Şuşa rayonunda 80 tək təsərrüfatlar kolxoza birləşdirilmişdi. Artıq 1940-cı ilin yanvarında Azərbaycanda cəmi 92 min hektar sahəsi olan şəxsi torpaqlar onların sahiblərindən alınaraq kolxozlara birləşdirildi ki, bundan 1800 hektarı Şuşa rayonunun payına düşürdü. Apardığımız araşdırmalardan məlum olur ki, Dağlıq Qarabağın digər rayonları ilə müqayisədə Şuşa rayonunda şəxsi həyətyanı torpaqların alınması həcmi daha çox olmuş və bu torpaq sahələrinin əksəriyyəti qədimdən burada yaşayan yerli azərbaycanlılara aid edilmişdir. Komissiya "gəlmə", "köçkün" adı ilə erməni ailələrini bu prosesdən uzaqlaşdırmışdır. Sözsüz ki, Vilayət Partiya Komitəsi tərəfindən rəsmiləşdirilən "Komissiyanın" tərkibi qeyri-azərbaycanlılar idi və onlar da bu "prosesdə" ikili mövqe tutmuşdular [324].

Bəhs etdiyimiz dövrdə Şuşa rayonunda əhalinin 21 faizi işləmirdi. İşləməyənlərdən 250 nəfəri körpə uşaqlı analar idi. Onu da qeyd edək ki, qadınlar rayonun kolxoz işlərinə lazımi səviyyədə cəlb edilmirdilər. Şuşa rayonunun kəndlərində əmək, iş prinsipi lazımı səviyyədə təşkil edilməmiş, bütün kolxozçuların gücü «düzgün» istiqamətlənməmiş, əmək günü aşağı

düşmüşdür. Məsələn, bəhs edilən dövrdə Malıbəyi kolxozunda il ərzində 65 kolxozçunun bir gün də olsun əmək günü yox idi, 60 kolxozçunun isə əmək günü olduqca aşağı səviyyədə olduğu aşkar edilmişdir. Qaladərəsində 98 kolxozçunun, Paşalarda 45 kolxozçunun, Xəlfəlidə 55 kolxozçunun əmək günü tamamilə, həmin kolxozların 318 kolxozçunun əmək günü minimum həcmdə olmuşdur. «ÜİK(b)P MK-nin kolxozçuların ictimai torpaqlarının dağıntılardan müdafiə olunması haqqında» qərarından sonra, Azərbaycanın hər yerində, o cümlədən Şuşa rayonunda əmək intizamını möhkəmləndirmək üçün qəti tədbirlər həyata keçirildi. Nəticədə 1940-cı ilin ortalarında bütövlükdə Azərbaycanda işə çıxmayan 40.000 nəfər kolxozçu kolxoz və sovxozlara qaytarıldı ki, bundan 9 mini bütövlükdə Dağlıq Qarabağın 1500 – nəfəri isə Şuşa rayonunun payına düşürdü [325].

Beləliklə, Mərkəzin zorakılıq və inzibatçılıq yolu ilə həyata keçirdiyi tədbirlərdə yalnız bir əsas məqsədi var idi: Hansı yolla olursa olsun Azərbaycanın tükənməz və əhəmiyyətli sərvətlərimizdən bəhrələnmək, RSFSR sənayesini xammala olan tələbatını ödəmək.

Bütün bunlarla yanaşı 1920-1940-cı illər ərzində Bütövlükdə DQMV-də o cümlədən Şuşa rayonunda kənd təsərrüfatında inkar edilməyən inkişaf olmuşdur. Öz həcminə görə rayonun bitkiçiliyində ikinci yeri şah-tut plantasiyaları tutur. Şuşa rayonunda gözəl təbiəti və onun yaratdığı iqlim, torpaq şəraiti şah-tut bağlarının genişlənməsinə və inkişafına şərait yaratmışdır. Bu bitki Şuşa ərazisində qədimdən əkilirdi. Spirt istehsalı üçün əsas xammal mənbəyi olan şah-tutun şəkərlilik faizi 32-dir. Şah-tutdan bəhməz, irçal hazırlanır və meyvəsi müalicəvi əhəmiyyətə malikdir. Həm də bu bitkinin yarpağı barama istehsalı üçün xammal, oduncağı isə təsərrüfat əhəmiyyətli taxta idi. Bütün bunları nəzərə alaraq Şuşa rayonunda şah-tut bağlarının həcmini artırdılar. 1934-cü ildə bölgədə 10 hektar şah-tut bağı var idisə, 1940-cı ildə 20 faiz artırılaraq 12 hektara çatdırıldı. Şah-tutun sortunu yaxşılaşdırmaq üçün tədbirlər görüldü. Calaq etmək yolu ilə məhsuldarlığı yüksək olan tut

ağacı əldə edildi. Eyni zamanda tutun meyvəsi üzərində 1939-cu ildə tədqiqat işləri aparılaraq səmərəli təkliflər irəli sürüldü. «Meyvə verən 3 növ tut ağacının biokimyəvi xüsusiyyətləri», «spirt çəkildikdən sonra tut tör-töküntülərindən mal-qara üçün yem hazırlanması üsulları» mövzusunda işlənmiş tədqiqat işləri şah tutun əhəmiyyəti daha da artırmaqdır. Şah-tut əkin sahələrinin genişlənməsi ilə yanaşı məhsuldarlığında da artım olmuşdur. 1940-cı ildə Daşaltı, Xəlfəli, Qaybalı, Zarıslı, Laçınlar, Mirzələr və digər kolxozların hər bir hektar şah-tut bağından 200 dərəcə spirt əldə edilmişdir [326].

Şuşanın bəzi kəndlərində isə bu göstərici 400 dərəcəyə çatmışdır. 1940-cı ildə Şuşa rayonunda şah-tutun ümumi məhsulu 4 tona çatmışdır [327].

1930-cu ilin ortalarından başlayaraq Azərbaycanda, o cümlədən onun Şuşa rayonunda taxıl əkini sahələri tədricən azalmağa başlamışdır. Bu hər şeydən əvvəl yeni texniki bitkilərin, daha sürətlə bərpa və inkişafı ilə, eləcə də yem üçün əkin sahələrinin genişləndirilməsi ilə əlaqədar idi.

Şuşa rayonunun təbii şəraiti heyvandarlığın bütün sahələrinin inkişafına əlverişli zəmin hazırlayır. Heyvandarlıq Şuşa rayonunun əhalisinin qədimdən məşğul olduğu sahədir. Həm də kənd təsərrüfatının heyvandarlıq sahəsi başqa sahələrdən öndə getmişdir. 1920-ci illərin əvvəllərində xain qonşularımızın əsassız iddiaları ilə qan tökməsi, əhalinin var yoxunun, mal-qarasının əlindən alınması, Ermənistana daşınması və Qırmızı Ordu hissələrinin özbaşınalıqları bölgədə heyvandarlığa ağır zərbə vurmuşdur. YİS dövründə heyvandarlıqda irəliləyiş müşahidə edilsə də, kollektivləşmə dövründə yenidən geriləmə halı baş vermişdir. Yuxarıda qeyd etdik ki, mal-qaranın ictimailəşdirilməsi, kənd təsərrüfatının başqa sahələri ilə müqayisədə xeyli geridə qalırdı. 1934-cü ildə Şuşa rayonunda iribuynuzlu heyvanların 20 faizi, qoşqu heyvanlarının isə 50 faizi ictimailəşdirildi. Hansı ki, bu dövrdə pambıqçılıq təsərrüfatlarında kollektivləşmə 70 faizə çatmışdır [328].

Şuşa rayonunda kənd təsərrüfatının əsas aparıcı sahələrindən olan heyvandarlığın inkişaf etdirilməsi 1934-cü ildən ön

plana çəkilmişdir. ÜİK(b)P MK-nin 1934-cü il iyul plenumunda «heyvandarlığın inkişafı üçün bütün qüvvələrin səfərbər etməli» şüarını əldə «rəhbər» tutan Şuşa Rayon Partiya Komitəsi «tədbirlər planı» işləyib hazırladı. Həmin planda - heyvanların sayının artırılması, Kolxoz Əmtəə fermalarının sayının çoxaldılması, heyvanların yem bazasının genişləndirilməsi nəzərdə tutulmuşdur. Eyni zamanda, Azərbaycan hökuməti Şuşa rayonunda heyvandarlıq fermalarının tikintisi üçün 1934-cü ilin iyulunda 20.000 manat vəsait ayırdı. 1935-ci ilin birinci yarısında Şuşa rayonunda yeni əmtəə ferması yaradıldı. 1939-cu ilin axırınadək əmtəə fermalarının sayında çox ciddi irəliləyişlər olmuşdur. Belə ki, Südçülük Əmtəə Fermalarının (SƏF) sayı 40-dan 47-ə, QƏF-sı 14-dən 49-a, AƏF-ları 13-dən 31-ə çatmışdır. Fermaların yaradılması heyvandarlığın ictimailəşməsi, kollektivləşməsi demək idi [329].

1934-1940-cı illər ərzində Şuşa rayonunda heyvanların cinslərinin yaxşılaşdırılmasında xeyli işlər görülmüşdür. Belə ki, qaramal içərisində «şvits», «lebedenski», «karpat» metisləri, qoyunçuluqda isə «merinos» cinsləri yayılmışdır. Təkcə donuzçuluq sahəsində cinsləşdirmə 1938-ci ildə başa çatdırılmışdır.

Heyvandarlığın inkişaf etdirilməsi üçün başlıca vəzifələrdən biri də ixtisaslı kadrlara olan ehtiyacın ödənilməsidir. Şuşa rayonunda ixtisaslı kadrlara olan ehtiyacın ödənilməsində Azərbaycan Kənd Təsərrüfat İnstitutu və orta ixtisas kadrları hazırlayan texnikumlar mühüm rol oynamışdır. Vilayətin özündə də belə texnikumlar fəaliyyət göstərirdi. Həmin təhsil ocaqları Şuşa rayonunun heyvandarlarına xeyli miqdarda baytar həkimlər, zootexniklər, aqronomlar və başqa ixtisas sahibləri vermişlər. Nəticədə, Şuşa rayonunda baytarların sayı 1934-cü ildə 3 idisə, 1939-cu ildə 9-a, zootexniklərin sayı 2-dən 7-ə, feldşerlər 13-ə, sanitariya həkimləri 8-ə çatdı. 1934-cü ildən Şuşa şəhərində qısa müddətli kurslar açılmışdır ki, həmin kurslarda rayonun müxtəlif kəndlərindən sağıcılar, briqadirlər, mala baxanlar və başqaları öz ixtisaslarını artırmışdılar [330]. 1934-cü ildə Şuşa rayonunun bir baytarlıq mərkəzi var idisə, 1939-cu ildə onların sayı artaraq 2-yə çatdı. 1934-1940-cı illər ərzində Şuşa rayonunda - feldşer

mərkəzi, diaqnoz mərkəzi, ətə nəzarət mərkəzi, xəstəliklərə qarşı laboratoriya, qəssabxana, baytarlıq mərkəzi yaradılmışdı. Bəhs etdiyimiz dövrdə Azərbaycanda cəmi 933 zootexnik, 450 baytar həkim var idi. Şuşa rayonunda zootexnik-sanitariya xidmətlərini yaxşılaşdırmaq məqsədilə kompleks tədbirlər həyata keçirilirdi. Belə ki, vaxtaşırı olaraq heyvanxanalarda dzinfeksiya, təmizlik, xəstəlikləri vaxtında aşkarlamaq və sair işlər aparılırdı. Ərazidə birselyoz, qızdırma və Sibir yarası xəstəliklərinin aradan qaldırılması günün ən vacib məsələlərindən idi. Azərbaycan hökuməti Şuşa rayonunda yeni fermaların yaradılması üçün lazımi səviyyədə vəsait ayırmış və həmin vəsaitin məbləğini ildən-ilə artırmışdır. Nəticədə Əmtəə fermalarının sayında xeyli irəliləyiş olmuşdur. Belə ki, təkcə 1939-1940-cı illər ərzində QƏF-nin sayı 25 faiz, SƏF-ları 10 faiz, AƏF-nın sayı 10 faiz artmışdır. 1939-cu ildə isə Azərbaycanda heyvandarlıq fermalarının sayı 3317-yə çatdı ki, bundan 140-ı Şuşa rayonunda fəaliyyət göstərirdi [332].

Nəticədə Şuşa rayonunda heyvanların sayında da irəliləyiş olmuşdu. Təkcə 1933-1935-ci illərdə rayonda iribuynuzlu mal-qara 20 faiz, xırdabuynuzlu heyvanları 20 faiz, donuzlar isə 10 faiz artmışdı.

1934-1940-cı illər ərzində bölgədə heyvandarlığın yem bazasının yaxşılaşdırılması işində xeyli irəliləyiş olmuşdur. Belə ki, silos tayaları 1-dən 12-yə, silos quyuları 1-dən 22-ə, açıq yay tövlələri 1-dən 10-a, hər biri 150 ton olan üstü bağlı ot tayaları 10-dan 30-a, hər biri 100 tonluq olan açıq ot tayaları isə 4-dən 12-yə çatdırıldı. Eyni zamanda fermalarda mexanikləşdirmə işlərinə başlanmışdır. Bu işi yalnız 12 kolxozda aparmaq mümkün olmuşdur.

1936-1940-cı illərdə Azərbaycan hökumətinin ayırdığı vəsait hesabına Şuşa rayonu ərazisində heyvanlara xidmət edənlər üçün 12 ev, 3 yaşayış binası, 5 yaylaq evi, heyvanların yuyunması üçün 4 vanna, 8 at çardağı, 40 yem saxlanma anbarı, 4 dərz bağlama zavodu, 2 peyin saxlamaq üçün xüsusi dəyə, 5 süni mayalanma mərkəzi, 6 çiyid qurudulan və çəkilən yer tikilib istifadəyə verilmişdir. Hansı ki, bunlar 1934-cü ildə yox

dərəcəsində idi. Heyvanların cins tərkibinin yaxşılaşdırılması ilə onların döl vermə qabiliyyəti yüksəlmişdir.

XX yüzilliyin 30-cu illərində Şuşa rayonunun təsərrüfatlarında mənfi hallar da aşkarlanmışdır. Belə ki, bəhs edilən dövrdə Azərbaycan hökuməti tərəfindən ayrılan vəsaitin Şuşa rayon təsərrüfat rəhbərləri tərəfindən mənimsənilməsi halları aşkar edilmişdir. Sözsüz ki, həmin rəhbərlik milliyyətcə ermənilərin əlində idi. Fermaların mexanikləşməsi ləng gedirdi. Eyni zamanda, heyvan saxlanılan yerlərin çoxu primitiv tikilmişdi. Belə bir vəziyyətdə ÜİK(b)P MK-nin «Kolxozlarda heyvandarlığın ümumi inkişafı haqqında» qərarı verildi ki, həmin qərar Azərbaycanın hər yerində, o cümlədən DQMV-də 17 iyun 1939-cu ildə müzakirə edildi. Xankəndində keçirilmiş həmin plenumda Dağlıq Qarabağın bütün kolxoz, sovxoz və MTS-dən nümayəndələr iştirak edirdi. Vilayətdə heyvandarlığın inkişafı üçün «tədbirlər planı» işlənib hazırlandı. Dağlıq Qarabağda neqativ halların aradan qaldırılması üçün komissiya yaradıldı. Azərbaycan hökuməti Dağlıq Qarabağa ayrılan vəsaitin həcmini artırdı. Eyni zamanda, Azneft fəhlələri öz vəsaitləri hesabına müxtəlif avadanlıqlar və texnika göndərdilər. Əraziyə mütəxəssislər cəlb edildi. Heyvandarlığın cinsinin yaxşılaşdırılması məqsədilə Azərbaycan hökuməti Şuşa rayonuna yeni növ heyvanlar verdi. Belə ki, 1939-cu ilin iyul-avqust aylarında bölgəyə 5154 baş cins iri buynuzlu mal-qara, 90 baş donuz, 1568 baş qoyun gətirilmişdir. Həmin cins heyvanlar kolxozlar arasında bölüşdürülmüşdür. 1939-cu ilin iyun plenumundan sonra Fermalarda komplektləşdirmə işinə başlanmışdır. Komplektləşdirmə tədricən, lakin yüksələn xətt üzrə gedir və yüksək nəticələr verirdi. Ümumiyyətlə, tədbirlərin Şuşanın kolxoz və sovxozlarında həyata keçirilməsi nəticəsində heyvandarlıq sahəsində qısa bir müddətdə irəliləyiş əldə edildi.

1939-cu ilin sonlarında Şuşa rayonu biçənəklərindən 300 ton silos, 2000 hektar sahədən isə ot biçilmişdir. 1934-1940-cı illər ərzində Azərbaycan hökumətinin yaxından köməyi və qayğısı nəticəsində Şuşa rayonunda Yeni Əmtəəlik Heyvandarlıq Fermaları yaradılmış, mal-qara üçün nümunəvi binalar tikilmiş,

yem bitkilərinin əkin sahələri genişləndirilmiş, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması üçün tədbirlər görülmüş və heyvandarlıq üzrə kadrlar hazırlanmışdır. Bütün bunlar isə rayonda heyvandarlıq sahəsində bütün kateqoriyalar üzrə uğurlar əldə edilməsinə şərait yaradılmışdır. 1941-ci il 1 yanvar məlumatına görə Şuşa rayonunda dövlət və şəxsi təsərrüfatlar nəzərə alınmaqla mal-qaranın sayının 1913 və 1929-cu illərdə müqayisədə dəfələrlə artdığını aşağıdakı cədvəldən aydın görmək olar (min baş ilə):

| S/ № | Mal-qaranın növü | 1913 | 1929 | 01.11.1941 |
|---|---|---|---|---|
| 1. | Qaramal | 6 | 2 | 7 |
| 2. | O cümlədən inək və camışlar | 2 | 1 | 2 |
| 3. | Davarlar | 12 | 4 | 13 |
| 4. | O cümlədən qoyun və keçilər | 13 | 4 | 15 |
| 5. | Donuzlar | 2 | 1 | 2 |

Bəhs olunan dövrdə Şuşa rayonunda mal-qara və davarların sayının çoxalması həm də, heyvandarlıq məhsullarının artması, sənayenin xammala olan tələbatının ödənilməsi, əhalinin maddi rifah halının yaxşılaşması demək idi. 1934-1940-cı illərdə rayonda süd, ət, dəri istehsalı xeyli artmışdır. Məsələn, 1938-ci ildə süd istehsalı 350 ton, 1939-cu ildə 400 ton, 1940-cı ildə isə 500 ton olmuşdur. Həmin müvafiq illərdə yun istehsalı 1938-ci ildə 2 ton, 1939-cu ildə 4 ton, 1940-cı ildə 8 tona çatmışdır. Dəri istehsalında da artım olmuşdur. Belə ki, 1938-ci ildə 1160 ədəd, 1939-cu ildə 1361 ədəd, 1940-cı ildə isə 1586 ədəd dəri dövlətə təhvil verilmişdir. Şuşa rayonunda süd istehsalının artması, həm də pendir və brınza istehsalını genişlənməsi demək idi. Belə ki, 1940-cı ildə bölgədə 10 ton pendir və brınza istehsal edilmişdik ki, bu da 1937-ci ildə müqayisədə 2 dəfə artıq idi [336].

1940-cı ildə Şuşa rayonunun kəndlərindən 2,5 ton yağ, 13 ton ət, 400 min ədəd yumurta dövlətə təhvil verilmişdir [336].

Azərbaycanın Şuşa rayonunda kənd təsərrüfatının mühüm sahələrindən birini də arıçılıq təşkil edirdi. Arıçılıq rayonun əhalisinin qədim və həm də gəlirli sahəsidir. Ermənilərin əsassız ərazi iddiaları, apardığı müharibələr xalqımızın bu qədim və əhəmiyyətli istehsal sahəsinə də öz təsirini göstərmişdir. YİS dövründə arıçılıq təsərrüfatına xüsusi diqqət verilmiş və 1927-ci ilin əvvəllərində Şuşa rayonun arıçılıq təsərrüfatlarından 3 pud bal götürülmüşdür. 30-cu illərdə rayonda arıçılığın daha da inkişaf etdirilməsi üçün mühüm tədbirlər həyata keçirilmişdir. İlk növbədə kolxoz və sovxozlarda arı ailələrinin sayı artırılmışdır. 1934-cü ildə Şuşa rayonunun 9 kolxozunda arı saxlanılırdısa 1940-cı ildə bu rəqəm 13-ə çatmışdı. Təmiz havaya, gözəl iqlimə, güllü-çiçəkli çəmənliklərə malik olan Şuşa rayonun hər yerində arı saxlanılırdı. Hətta otuzuncu illərin birinci yarısında sırf arıçılıqla məşğul olan sovxozlar yaranmışdır. Şuşa rayonunda fəaliyyət göstərən Aqrar sənaye mərkəzi arıçılığın inkişafı üçün yeni üsullar tapmışdılar. Belə ki, 1938-ci ildə yeni üsulla «Dadan üsulu» ilə arıçılıq təsərrüfatının təkmilləşdirilməsinə başlandı. Bu məqsədlə «Dadan üsulu ilə arılara necə qulluq etməli» kitabı çap olunub arıçılıq təsərrüfatlarına verilmişdir. 1938-ci ilə Xankəndində Arı Damazlıq Mərkəzi yaradılmışdır. Həmin mərkəzə Şişkin rəhbərlik edirdi. Şişkin göstərdiyi xidmətlərə görə (yeni sortların yetişdirilməsi və yayılmasına görə) Ümumittifaq kənd təsərrüfatı sərgisinə namizəd seçilmişdir. Həmin mərkəz təsərrüfatları bal arısı ilə təmin edirdi. Bütün bunlar Şuşa rayonunda arı ailələrinin sayının artmasına, hər pətəkdən 25-35 kiloqram bal götürülməsinə səbəb olmuşdur.

Azərbaycanın Şuşa rayonunda 1940-cı ildə kartof əkin sahəsi 107 hektara çatdı. Bu 1921-ci illə müqayisədə 2 dəfə çox demək idi. Fərdi həyətyanı sahələrdə də kartof əkilirdi. 1940-cı ildə Şuşa rayonunda kartof əkini sahəsində dəyişiklik edildi. Belə ki, akademik Lisenkonun təklifi ilə rayonda yerli şəraitə uyğun yeni sortlar əkildi. Eyni zamanda aqrotexniki qulluq, ziyanvericilərə qarşı mübarizə aparıldı və əkin sahəsi genişləndirildi.

Artıq 1940-cı ilin məhsul yığımında Şuşa rayonunda əhalisinin kartofa olan tələbatı tamamilə ödənilirdi [336].

Şuşa rayonunda kolxozlarının yüksək gəlirli və perspektivli sahələrindən biri də tərəvəzçilikdir. Mərkəzin tapşırığı ilə 30-cu illərdə tərəvəzçiliyə xüsusi diqqət yetirilmişdir. 1940-cı ildə Şuşa rayonun təsərrüfatlarında 25 hektar sahədə tərəvəz əkilmişdir. Bəhs etdiyimiz dövrdə Şuşa rayonunun kolxoz və sovxozlarının təsərrüfatlardan 50 ton məhsul götürülmüşdür.

1939-cu ildən Dağlıq Qarabağda Sünjen İstinad Məntəqəsi yaradıldı. K.K.Oqanesovun rəhbərlik etdiyi həmin mərkəzdə təcrübə məqsədilə günəbaxan, qarğıdalı və sorqo bitkiləri əkildi. Ən yüksək məhsuldarlıq günəbaxan bitkisindən əldə edilmişdir (hər hektardan 316 sentner). Qarğıdalıda məhsuldarlıq 149 sentner, sorqoda 192 sentner oldu. Ona görə də 1939-cu ildən Şuşa rayonunda günəbaxan bitkisinin kütləvi əkininə başlanmışdır. 1940-cı ildə rayonun kolxoz və sovxozları 225 hektar sahədə yem bitkiləri əkmişdilər [336].

Rayonun təbii iqlim şəraiti dənli bitkilərin əkilməsinə şərait yaradırdı. Dənli bitki əkini əhalinin qədimdə məşğul olduğu sahə idi. Lakin mərkəzin maraqlarına uyğun olaraq rayonda texniki bitkilərin əkin sahəsinin genişləndirilməsi ilə əlaqədar taxıl əkini sahəsi 1940-cı ildə azalmışdır. Belə ki, 1940-cı ildə Şuşa rayonunun kolxoz və sovxozlarında 2901 hektar sahədə taxıl əkilmişdir. Bundan 1429 hektar buğda, 1472 hektar isə arpa idi. 1940-cı ildə rayonun təsərrüfatlarından götürülən taxıl məhsulu 497 ton olmuşdur. Bu isə 1937-ci illə müqayisədə 40 ton az idi. 1937-ci ildə Azərbaycanda cəmi 349 min ton, 1940-cı ildə isə 298 min ton taxıl yığılmışdır [337].

1940-cı ilin noyabrında Moskvada keçirilən ümumittifaq kənd təsərrüfatı sərgisində Azərbaycanın hər yerindən, o cümlədən Şuşa rayonunun əmək qabaqcılları da iştirak edirdilər. Şuşa rayonunun nümayəndələri həcmcə kiçik, lakin mənaca böyük, sahə və qiymətli əşyalarla, 2 beşillik ərzində qazanılan nailiyyətlərə dair plakatlarla çıxış edirdilər. Eyni zamanda, burada nümayiş etdirilənlər içərisində xırda əmtəə istehsalçılarının buraxdığı məhsullardan nümunələr, qədimdən qalma

əşyalar, keçmişi və bu günü əks etdirən ümumiləşdirici səhnələr, nadir bitkilərdən, meyvələrdən, otlardan nümunələr və sair var idi. Həmçinin, kənd təsərrüfatı sərgisində Şuşa rayonunda əmək qabaqcıllarının adları qeyd olunmuş və həmin siyahı Şuşa rayonunda Vilayət Partiya Komitəsi və İcraiyyə Komitəsi tərəfindən təsdiq edilmişdir. Hətta onların bir neçəsi haqqında qısa məlumat da verilmişdir. Çox təəssüflə qeyd etməliyik ki, həmin siyahı nəzərdən keçirilərkən rayonda əhalinin böyük əksəriyyətini, təsərrüfatlarda isə işləyənlərin çox hissəsini azərbaycanlılar təşkil etməsinə baxmayaraq həmin siyahıda çox cüzi bir hissəni təşkil edirdilər. Həmin siyahı, «işgüzar» ermənilərin zəhmətkeş müsəlmanlara qarşı «səxavətliliyinə» nümunədir.

Beləliklə, 1920-1940-cı illər ərzində Azərbaycanda, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Şuşa rayonunda Mərkəzin planına uyğun inzibati amirlik və zorakılıq yolu ilə kənd təsərrüfatının kollektivləşməsi başa çatdı. Kolxozlar kənd təsərrüfatı mallarının istehsalçısına çevrildilər. 20-30-cu illərdə Mərkəzin maraqları əsasında Şuşa rayonunda həyata keçirilən tədbirlər, rayonun kəndində köklü dəyişiklərə səbəb oldu. Belə ki, kapitalist təsərrüfatları tamamilə ləğv edildi. Mərkəz, «plan və bölgü» mexanizm vasitəsilə Şuşa rayonunda kənd təsərrüfatını öz nəzarəti altına aldı, bu isə xüsusi mülkiyyətin aradan qaldırılmasına və ticarətin zəifləməsinə gətirib çıxardı. Vəziyyətdən istifadə edərək rayonda hakimiyyəti ələ almış erməni kommunistləri kənd təsərrüfatının bütün sahələrində ən kiçik vəzifəyə qeyri-azərbaycanlıları yerləşdirmiş, bu isə təsərrüfatsızlığa və məsuliyyətsizliyə səbəb olmuşdur. Nəzarətçilərin «əliaçıqlığı» və «beynəlmiləlçilik» şüarı altında xalq əmlakı Ermənistana və Rusiyaya daşınır, talan edilirdi. Kollektiv əmək kəndlinin necə və nə qədər işlədiyini pərdələyir, bu isə əməyə maddi marağı aşağı salırdı. Kənddə bərabərçilik psixologiyası formalaşdırılır, əslində isə kəndli asılı olduğu erməni rəhbərliyinin bütün tələblərini yerinə yetirən «roboto» çevrilirdi. Xalq içərisində var-dövlətə nifrət ruhu aşılanır, yoxsulluq təbliğ edilirdi. Əslində, elə yoxsulluğun özü yaradılırdı. Yeni cəmiyyət möhkəmləndikcə,

erməni rəhbərliyinin, Şuşa rayonunun təsərrüfat, partiya orqanlarına müdaxiləsi artmış və nəzarət etmək imkanı genişlənmişdir.

1920-1940-cı illər ərzində Şuşa rayonunda nisbətən mexanikləşdirilmiş çoxsahəli kolxoz, sovxoz və MTS-lər yaradılaraq fəaliyyət dairələrini genişləndirmişlər. Şuşa rayonunda kənd təsərrüfatında ixtisaslı mütəxəssislərin sayı artmışdır. Azərbaycanın hər yerində, mərkəzin planı əsasında pambıqçılığın inkişafına «xüsusi diqqət» yetirilmiş və Respublikamız keçmiş SSRİ-nin «ikinci pambıq bazası»na çevrilmişdir. Bəhs edilən illər ərzində Şuşa rayonunda kənd təsərrüfatında qazanılan nailiyyətlər əmək məhsuldarlığının, ictimai sərvətin artmasına bu isə öz növbəsində xalqın maddi rifah halının yaxşılaşmasına gətirib çıxarmışdır. 1940-cı ildə 1930-cu illə müqayisədə hər bir kolxozun gəliri 6 dəfə, kolxozçuların hər birisinin əmək gününə düşən pul isə 4 dəfə artmışdır [339].

Ümumiyyətlə, 1920-1930-cu illər ərzində bütövlükdə Azərbaycanda kənd təsərrüfatının inkişafı nəticəsində bütün Rusiya sənayesini canlandıra bilən xammal mənbəyi yaradılmışdır.

# XIII FƏSİL

## AZƏRBAYCANIN ŞUŞA RAYONUNUN KƏNDİ İYUN 1941 - DEKABR 1950-Cİ İLLƏRDƏ

Azərbaycanın 1940-1951-ci illər tarixi xalqımızın böyük fədakarlıq, ümid və qürurla keçdiyi bir tarixi yoldur. Həmin tarixi yolun ciddi, qərəzsiz elmi tədqiqi mühüm nəzəri və əməli əhəmiyyəti vardır. Tarixi keçmişimizin həqiqətləri yalnız konkret zaman və məkan daxilində, fakt və hadisələrin dərin təhlili əsasında aşkar edilə bilər. Azərbaycan tarixinin bu mühüm problemləri bir sıra elmi tədqiqat əsərlərində, monoqrafiyalarda, ümumiləşdirici əsərlərdə, məqalələrdə müxtəlif yönüm və mövqelərdən işıqlandırılmışdır. 1963-cü ildə Azərbaycanın görkəmli tarixçiləri Ə.S.Sumbatzadə, İ.A.Hüseynov, Y.A.Tokarjevski, Ə.N.Quliyev, Z.İ.İbrahimov, M.A.Dadaşzadə tərəfindən nəşr olunmuş «Azərbaycan tarixi»ndə (üçüncü cild, ikinci hissə) Azərbaycanın 40-50-ci illər tarixi geniş, lakin bir çox problemlərdən yan keçməklə işıqlandırılmışdır. 2003-cü il yeddi cildlik «Azərbaycan tarixinin» yeddinci cildində Azərbaycanın 1941-1950-ci illər tarixi – ikinci dünya müharibəsinin səbəbləri, xarici dövlətlərin Azərbaycana maraqları, faşizm üzərində qələbədə Azərbaycan mədəniyyətin rolu, Bakının Qırmızı Ordu üçün cəbbəxana rolu oynadığı, Milli Azərbaycan diviziyalarının, partizanlarımızın, arxa cəbhənin qələbə əldə edilməsində rolu, müharibənin bəşəriyyətə vurduğu ağır zərbə, faşistlərin «Barbarossa», «Eydelveys», «Vilvet» planlarının mahiyyəti və digər önəmli məsələlər tarixi faktlara, mənbələrə əsasən tədqiq edilmişdir.

Azərbaycanın 1941-1945-ci illər tarixi – Q.Mədətovun «Azərbaycan Böyük Vətən müharibəsində» (Bakı, 1976), M.Abbasovun «Bakı Böyük vətən müharibəsi illərində» (Bakı, 1967), X.İbrahimlinin «Azərbaycanın xarici mühacirəti» (Bakı, 1993), T.Qaffarovun «Azərbaycan tarixi (1920-1991)» (Bakı, 1999), A.A.Qreçkonun «Qafqaz uğrunda döyüşlər» (Moskva, 1969), «Azərbaycan SSR xalq təsərrüfatı Böyük Vətən müha-

ribəsi illərində» (Bakı, 1985), Q.Orucovun «Azərbaycan Qafqaz döyüşlərində» (Bakı, 1984), N.Əlizadənin «Azərbaycan dəmir yolu nəqliyyatı Böyük Vətən müharibəsi illərində» (Bakı, 1997), Ə.Bağırzadənin «Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində» (Bakı, 1970), İ.İsmayılovun «Azərbaycan Moskva uğrunda döyüşlərdə» (Bakı, 1991), «Azərbaycanın qızıl ulduzları» (Bakı, 1975), N.Məmmədovun «Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayəti iyun 1941 – dekabr 1950-ci illərdə» (Bakı, 2006) və digər əsərlərdə mötəbər tarixi mənbələrə əsaslanaraq bu və ya digər önəmli məsələlər təhlil olunmuşdur.

Azərbaycanın Şuşa şəhərinin 1940-1950-ci illər dövrü bu günədək bir problem kimi xüsusi tədqiqat obyekti olmamışdır. Fəsil yazılarkən əsas məqsədimiz həmin boşluğu aradan qaldırmaqdan, mövcud arxiv sənədləri, dövri mətbuat, elmi tədqiqat əsərləri əsasında qeyd edilən bölgədə Azərbaycana qarşı Almaniyanın işğalçılıq planlarını, Azərbaycan SSR-in və Sovet İttifaqının «Böyük Vətən müharibəsi» cəlb olunmasını, dövlətimizə qarşı ABŞ və Böyük Britaniya dövlətlərinin işğalçılıq planlarını, Arxa Cəbhənin respublika iqtisadiyyatının müharibənin tələblərinə uyğun qurulmasını, düşmənin məğlub edilməsində Bakı neftinin rolunu, cəbhəyə ümumxalq köməyini, Azərbaycan döyüşçülərinin qəhrəmanlıqlarını, Milli Azərbaycan diviziyalarının fəaliyyətini, azərbaycanlıların partizan və antifaşist müqavimət hərəkatının qələbənin əldə edilməsində rolunu, müharibənin vurduğu ağır nəticələrin obyektiv elmi mənzərəsini yaratmaqdan ibarətdir. Həmin məqsədə nail olmaq üçün fəsildə qarşıya qoyulan aşağıdakı konkret vəzifələr öz həllini tapmışdır:

- Azərbaycanın coğrafi mövqeyi, strateji əhəmiyyəti, iqtisadi imkanları ilə müharibə aparan dövlətlərin maraqlarını əlaqələndirmək;

- Faşizm üzərində qələbədə Azərbaycan mədəniyyətinin rolunu açıqlamaq;

- Müharibə illərində Azərbaycanda xalq təsərrüfatının hərbi qaydada qurulması ilə əlaqədar faktları xalqımızın milli mənafeyi ilə əlaqələndirərək qiymətləndirmək;

- Cəbhəyə ümumxalq köməyini milli dövlətçilik baxımından açıqlamaq;

- Müharibə illərində Bakının Qırmızı Ordu üçün cəbbəxana rolunu oynadığını sübut etmək;

- Müharibə cəbhələrində partizan dəstələrində və antifaşist hərəkatında Azərbaycan oğul və qızlarının göstərdikləri qəhrəmanlıqların faşizm üzərində qələbədə başlıca rol oynadığını faktlarla açmaq;

- Milli Azərbaycan diviziyalarının yaradılmasının səbəblərini aydınlaşdırmaq;

- Ziyalılarımızın müharibə illərindəki fəaliyyətini izləmək;

- Faşizm üzərində qələbədə xalqımızın fədakar əməyinin rolunu göstərmək və bütün bunları faktlarla əsaslandırmaq;

- Alman faşizmi ilə erməni faşizm arasında oxşarlığı göstərmək.

Fəsil işlənərkən geniş mənbə bazasından istifadə edilmişdir. Mövzunun mənbə və qaynaqlarını əsasən arxiv sənədləri, dövrü mətbuat materialları, rəsmi sənədlər, ayrı-ayrı müəlliflərin əsərləri, illik hesabatlar, Ümummilli liderimiz Heydər Əliyevin çıxışları, məruzələri təşkil edir. Fəsildə qarşıya qoyulan məqsəd və vəzifələrdən irəli gələn məsələlərin mahiyyəti onu deməyə imkan verir ki, fəslin elmi tədqiqat işi səviyyəsində tədqiqinə ehtiyac vardır.

1939-cu ilin sentyabrında dünya tarixinə ən böyük, ən qəddar və dağıdıcı müharibə kimi daxil olan, 67 milyon insanın ölümü ilə nəticələnən İkinci Dünya müharibəsi başlandı. Dünyada ağalıq etmək məqsədini qarşıya qoyan Almaniya 1941-ci il iyunun 22-də qəfil və güclü zərbə ilə SSRİ üzərinə xaincəsinə hücum etdi [1]. Bununla da tariximizə Böyük Vətən Müharibəsi adı ilə daxil olan müharibə başlandı. Almaniyanın SSRİ üzərinə hücumu «İldırımsürətli müharibə» strategiyasına «Barbarossa planı»na əsaslanırdı. Həmin plana görə Almaniya ordusu qısa bir müddətdə Sovet Ordusunu darmadağın etməli, qışa qədər Arxangelsk-Həştərxan xəttinə çıxmalı idi [2].

Hitler Almaniyasının işğalçılıq planında Azərbaycan xüsusi yer tuturdu. Hitlerin «Edelveys» planına görə Bakı 1941-ci il

sentyabrın 25-də tutulmalı, Bakı nefti Almaniyanın «Kontinental neft cəmiyyəti»nə verilməli və onların rəhbərliyi ilə emal olunub daşınmalı, satılaraq gəlir Almaniyaya çatdırılmalı idi [3]. Hitler «Mənim mübarizəm» adlı kitabında yazırdı ki, «müsəlman monqoloidlər dağıdıcı qüvvədir, onlar ali irqin (almanlar nəzərdə tutulur. - M.N.) qullarına çevrilməlidirlər» [4]. Rozenberqin «Qafqazın idarə olunması» planına görə Azərbaycan istila edildikdən sonra Bakıda idarəedici orqan olan «komissarlıq» yaratmalı, bütövlükdə dövlətimizin iqamətgahı Tiflisdə yerləşəcək Qafqaz reyxkomissarlığına tabe edilməli idi [5]. Faşist Almaniyasının işğalçılıq planında türkdilli xalqları (Şimali və Cənubi Azərbaycanı, Orta Asiyanı, Qazaxıstanı, Başqırdıstanı, Tatarıstanı, Krımı, Şimali Qafqazı, Qərbi Çin və Əfqanıstan) «Böyük Türkmənistan» dövlətində birləşdirib özünün müstəmləkəsinə çevirmək də var idi. Faşist Almaniyasının diqqətini cəlb edən təkcə ölkəmizin tükənməz və qiymətli yeraltı və yerüstü sərvətləri deyildi. Azərbaycan həm də Şərqlə Qərb arasında əlverişli strateji-coğrafi mövqeyə malik idi və almanlar bu mövqedən məharətlə istifadə etməyi qərarlaşdırmışdılar.

Bəhs etdiyimiz dövrdə Azərbaycanın təbii sərvətləri ABŞ və Böyük Britaniya dövlətlərinin də diqqətini cəlb edirdi. Onlar Qafqazın, xüsusilə Azərbaycanın ələ keçirilməsi üçün məxfi «Vilvet» planı işləyib hazırlamışdılar.

SSRİ rəhbərliyi isə tükənməz sərvətlər diyarı Azərbaycanı hansı hesaba olursa olsun əldə saxlamaq, burada yaşayan azərbaycanlıları zorla Mərkəzi Asiya və Qazaxıstana köçürmək, öz dayaqlarını möhkəmləndirmək üçün rusların və ermənilərin sayını artırmaq kimi gizli və mənfur bir planı var idi.

Almaniyanın dünya ağalığı iddiası ABŞ, Böyük Britaniya və SSRİ dövlətlərinin 1941-ci ilin sentyabrında «Atlantik xartiyası» adlı ittifaq yaratmağa vadar etdi. Bu antifaşist koalisiyası idi və sonralar 50 dövlət həmin ittifaqa daxil olmuşdur [6].

1941-ci il iyunun 30-da İ.V.Stalinin başçılığı ilə ölkədə bütün hakimiyyəti öz əlində cəmləşdirən Dövlət Müdafiə Komitəsi (DMK) yaradıldı [7]. DMK-nın əsas diqqəti silahlı qüvvələrin möhkəmləndirilməsinə və iqtisadiyyatı müharibənin

tələbləri əsasında yenidən qurulmasına yönəldilmişdi. Bütün sovet xalqı kimi Azərbaycan xalqı «Hər şey cəbhə üçün, hər şey qələbə üçün» şüarı altında alman faşizminə qarşı müharibəyə qalxdı. Azərbaycanın bütün şəhər, rayon, qəsəbə və kəndləri, o cümlədən DQMV-nin əhalisi son qələbəyə qədər bu müharibədə fəal iştirak etdi.

1941-ci il iyunun 22-də Bakıda olduğu kimi Xankəndində, Şuşada, Ağdərədə qəsbkarlara qarşı izdihamla mitinq və yığıncaqlar keçirildi. DQMV-nin bütün əhalisi mitinqlərdə çıxış edir, təcavüzkarların iyrənc hərəkətlərini pisləyir və hərbi komissarlığa ərizə ilə müraciət edərək vətənin müdafiəsinə hər vaxt hazır olduqlarını bildirirdilər. Müharibənin ilk günlərində Azərbaycanın şəhər və kəndlərindən 40 min nəfər könüllü olaraq cəbhəyə getmək üçün Respublika Hərbi Komissarlığına müraciət etdi ki, bundan 1917 nəfəri Dağlıq Qarabağın gənc oğlan və qızları idi [8].

1941-1942-ci illərdə Respublikada təşkil edilən hərbi birləşmələrə Azərbaycandan 5.000 kommunist və komsomolçu daxil olmuşdur ki, bundan 457 nəfəri DQMV-dən idi [9]. Ümumiyyətlə, 1941-1945-ci illərdə Azərbaycandan orduya 700 minə qədər adam, o cümlədən DQMV-dən 45 min qarabağlı səfərbər olunmuşdu [10]. Beləliklə, müharibə başlanan andan Dağlıq Qarabağda cəbhəyə xidmət, arxada qüvvələri səfərbər etmək sahəsində çoxlu iş görüldü. Xalqımızın fədakarlıq, mətnlik, dözümlülük nümayiş etdirməsini aşağıdakı faktlardan da aydın görmək olar. 1941-1945-ci illərdə Dağlıq Qarabağ əhalisi müdafiə fonduna 42 milyon manat pul köçürmüşdü ki, bunun 9 milyonu Şuşa əhalisi tərəfindən ödənilmişdi.

Müharibə başlanan vaxtdan Azərbaycan ərazisində hərbi xəstəxanalar yaradıldı. Yaralı əsgər və komandirlərə kömək məqsədilə 1942-ci ilin yanvarında Azərbaycan Respublikası Yardım Komitəsi təşkil etdi. Tibb elmlər doktoru, professor Əziz Əliyev Komitəyə sədr təyin olundu. Bu vaxt Azərbaycanda 76 hərbi xəstəxana təşkil edildi ki, bunlardan ikisi Şuşa və Xankəndində fəaliyyət göstərirdi [11].

SSRİ üzərinə xaincəsinə basqın edən Hitler kolxoz quruluşunun zəifliyinə, kəndlilərin narazılığına bel bağlasa da, mövcud iqtisadi, siyasi sistem kənd əhalisinin səfərbər olmasına şərait yaratdı. Kəndin işlək əhalisinin 3-dən 2-nin müharibəyə səfərbər edilməsinə baxmayaraq yeniyetmələr və qadınlar kənd təsərrüfatı işlərinə cəlb olunur və məhsul istehsalını artırmağa çalışırdılar.

Bu vaxt Dağlıq Qarabağın kənd təsərrüfatının mühüm sahələrindən biri olan heyvandarlığın inkişafına daha çox diqqət yetirilirdi. 1942-ci ilin ortalarında Vilayət rəhbərliyi Xocavənd, Şuşa və Ağdərənin kolxoz və sovxozlarında işləmək üçün 1768 komsomolçu göndərdi. 1943-cü ildə Vilayətdə əkin sahələri 15 min hektar artırılmış, məhsul toplanışı 1942 ildəkindən 20 gün tez qurtarmışdır. 1943-cü ilin sonunda DQMV-nin əməkçiləri dövlətə 90 min ton taxıl vermişdilər [12]. Dağlıq Qarabağ zəhmətkeşləri 1943-cü ildə pambıq planını 73,6 faiz yerinə yetirməyə nail oldular. Bu işdə`Şuşa əhalisinin zəhmətini xüsusi qeyd etməliyik.

Müharibədə tütünə daha çox ehtiyac olduğundan 1942-ci ildən Dağlıq Qarabağın kolxozlarında tütün əkilməyə başlanmışdır. İlk vaxtlar 25 hektar sahədə tütün əkən əhali sonrakı illərdə əkin sahələrini daha da artıraraq 80 hektara çatdırmış və dövlətə tütün satışı planı yerinə yetirmişdir.

DQMV-nin komsomolçu gəncləri müharibə dövründə kənddə tükənməz yaradıcı qüvvə kimi çıxış edirdilər. Belə ki, təkcə 1943-cü ildə DQMV-nin o cümlədən Şuşanın 20 min gənci iməciliklərdə fəal iştirak etmiş, 42 su arxı təmizləmiş, tarlaya 9088 ton kübrə daşımış, 29 hektar üzüm bağı becərmişdi. Komsomolçular qazandıqları 2000 əmək gününü və 63325 manat pulu müdafiə fondu hesabına keçirmişdilər. 1943-cü ilin fevralında komsomolçu gənclərin texniki hissələr və alət toplanışı həftəsində 1675 mühüm kənd təsərrüfatı maşın hissələri, 39 kombayn və taxıldöyən maşın təmir edilmişdir [13].

Azərbaycanın hər yerində hərbi xəstəxanalara hamilik işi gündən-günə genişlənirdi. Dağlıq Qarabağ əhalisi suxarını, quru meyvəni, doşabı, spirti, tənbəkini, ət və süd məhsullarını qab-

laşdırıb hərbi xəstəxanalara göndərirdilər. 1943-cü il avqustun 11-də təkcə Şuşa rayonunun bir kolxozunda «Vətən müdafiəçilərinin hamilik günü» keçirib, həmin gün qazanılmış 500 əmək gününün pul dəyərini, 1500 kq taxıl və digər kənd təsərrüfat məhsullarını toplayıb Respublikanın hərbi xəstəxanalarına hədiyyə göndərmişdilər [14].

1944-cü ildə işğaldan azad edilmiş Rusiya ərazilərinə hamilik köməyi daha geniş xarakter aldı. DQMV Qaraçay Muxtar Vilayətini hamiliyə götürmüş və bəhs etdiyimiz dövrdə Dağlıq Qarabağ əhalisi qaraçaylılara 52 ton buğda, 8 ton arpa, 1600 kq çovdar, 3200 kq noxud, 16 qaramal, 43 davar, 435 min manat nağd pul göndərmişdilər [15]. Hadrut rayonu isə Oryol vilayətinə 40.000 manat nağd pul, 500 əmək günü dəyərində müxtəlif məhsullarla kömək etmişdilər. DQMV-nin o cümlədən Şuşa gəncləri hamilik etdikləri rayonlara 43300 manat nağd pul və 2007 əməkgününə düşən məhsul göndərmişlər [16].

1941-1943-cü illərdə Azərbaycanın hər yerində olduğu kimi Şuşa rayonu vətəndaşları öz şəxsi qənaətləri hesabına tank dəstələri yaratmaq hərəkatına qoşulmuşlar. Ümumi Azərbaycan üzrə bu göstərici 230 milyon manat idisə, bunun 11 milyonu Dağlıq Qarabağ 3 milyon Şuşa zəhmətkeşləri tərəfindən göndərilmişdir [17].

1942-1943-cü illərdə Azərbaycanda əlillərin və əsgər ailələrinin işlə təmin olunması hərəkatı genişləndi. 1942-ci ildə Şuşa şəhərində 2 əlillər evi fəaliyyətə başladı. Orada 100-dən artıq əlil işləyirdi. Ümumi Azərbaycan üzrə bu göstərici 3295 nəfərə çatırdı. 1943-cü ildə DQMV-də əsgər ailəsi olan 6 nəfər qadın Kənd Soveti sədri, 22 nəfər Kənd Soveti katibi, 10 nəfər kolxoz hesabdarı, 132 nəfər kolxoz briqadiri, 34 nəfər ferma müdiri işləyirdi. 1941-1944-cü illərdə Azərbaycanda 91 min nəfər cəbhəçi ailəsi işlə təmin olunmuşlar [18].

Əsgər ailələrinə ümumxalq qayğısında komsomolçu gənclər yaxından iştirak edirdilər. 1943-cü ildə DQMV-nin o cümlədən Şuşa rayonunun komsomolçuları 201 əsgər ailəsinin evini təmir etmiş, onların mal-qarasına 27 ton yem tədarük etmiş,

115 $m^3$ odun daşımış, döyüşçü ailələrinin uşaqlarına geyim, ayaqqabı və sair vermişlər [19].

Müharibə dövründə Bakı neftinin qələbənin əldə edilməsində rolu misilsiz olmuşdur. 1941-1945-ci illərdə SSRİ neft sənayesi 110 milyon ton neft hasil etmişdir ki, bunun 75 milyon tonu Azərbaycanın payına düşürdü. Başqa sözlə desək müharibədə ordunun döyüş texnikasının 75-80 faizi Azərbaycan neftçilərinin qəhrəman əməyi nəticəsində hərəkətə gətirilmişdir.

Müharibə başlayan ilk gündən Dağlıq Qarabağda fəaliyyət göstərən 24 müəssisə cəbhə üçün işləyirdi. Müəssisələrdə dəzgah arxasında gənclər, qızlar və qadınlar dayanırdı. Müharibə dövründə Vilayətin ən böyük müəssisə olan Qarabağ İpək Kombinatının kollektivi xüsusilə fərqlənirdi. Ağır illərdə onlar ehtiyacı olan ailələrə 421 min kubmetr odun daşımış və 473 ton metal toplayıb Stavropol vilayətinə göndərmişlər. Sənayedə əhəmiyyətli müvəffəqiyyətlər qazanılmışdı. Belə ki, 1944-cü ildə 1940-cı ilə nisbətən sənayenin ümumi məhsulu 9 faiz artmışdı. Əkin sahələri xeyli genişlənmiş, davarların sayı 31,2 faiz, qaramalın sayı 11,5 faiz artmışdı. Dağlıq Qarabağ zəhmətkeşləri müdafiə fonduna 11.497.000 manat köçürülmüşdür. 1944-cü ildə DQMV-nin Şuşa rayonu, heyvandarlığı inkişaf etdirmək planını – qaramal üzrə 114,9 faiz, qoyun və keçilər üzrə 113,2 faiz, atlar üzrə 106,7 faiz yerinə yetirilmiş və yarış qalibi hesab edilərək DMK-nın Keçici Qırmızı Bayrağını və pul mükafatını almışdır [20].

Ümumiyyətlə, 1941-1945-ci illərdə DQMV-də o cümlədən Şuşada xalq təsərrüfatının bütün sahələri və sosial-ictimai həyat hərbin tələblərinə uyğun yenidən qurulmuş, əmək və istehsalat intizamı güclənmişdi. Dağlıq Qarabağ o cümlədən Şuşa əhalisi ön və arxa cəbhənin strateji mallarla təmin olunmasında öz layiqli köməyini göstərmişdir.

Böyük Vətən müharibəsi dövründə Dağlıq Qarabağdan 45 min nəfər oğlan və qız cəbhəyə getmiş, Vətənə hədsiz sədaqət, mərdlik, fədakarlıq və igidlik nümayiş etdirmişdilər. 22 min nəfər Dağlıq Qarabağ sakini vətənin azadlıq və istiqlaliyyəti uğrunda döyüşlərdə qəhrəmanlıqla canını qurban vermişdi. Onlar

Sovet Ordu hissələrində, partizan dəstələrində, müqavimət hərəkatı sıralarında hitlerçilərə qarşı vuruşmuşlar. Dağlıq Qarabağda anadan olmuş 15 min döyüşçü döyüş orden və medalları ilə təltif edilmiş, 18 nəfəri Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüşlər [21]. Onlardan bir neçəsinin döyüş yolunu xatırlatmaq yerinə düşərdi: Smolensk meşələrində fəaliyyət göstərən Partizan dəstəsində «Partizan Aliyə» adı ilə tanınan Aliyə Fətulla qızı Rüstəmbəyova Qarabağın tacı Şuşada dünyaya göz açmışdır (1907-ci ildə). Tibb İnstitutunu bitirən Aliyə Böyük Vətən müharibəsinin elə ilk günündən öz ərizəsi ilə alman faşizminə qarşı müharibəyə getdi. Müharibənin ilk günlərində böyük bacarığa malik olması aşkar edilmiş və qeyrətli azərbaycanlı qızı Tibb-sanitariya batalyonuna rəis təyin edilmişdir. Dərin zəkaya malik cərrah Aliyə minlərlə insanı ölümün pəncəsindən xilas etmişdir. 1941-ci ilin əvvəllərində yaralanaraq əsir düşən Aliyə, 1942-ci ilin əvvəllərində əsirlikdən qaçmış və Smolenskdə partizanlara qoşulmuşdur. Cəmi 35 bahar yaşayan həssas, nikbin, qeyrətli Vətən övladı 1942-ci ildə qəhrəmancasına həlak olmuşdur [22]. Təlim, tərbiyə və təhsilini Şuşada alan və ölümündən sonra «Böyük Vətən Müharibəsi Qəhrəmanı» adına layiq görülən «Partizan Aliyə» ilə bütün Azərbaycan xalqı fəxr edə bilər.

Dağlıq Qarabağda dünyaya göz açmış Sovet İttifaqının donanma admiralı İ.S.İsakov Böyük Vətən müharibəsi illərində qoşunlara bacarıqlı rəhbərlik etdiyinə, igidlik və qəhrəmanlıq göstərdiyinə görə Sovet İttifaqı Qəhrəmanı adı almış, 6 Lenin ordeni, 3 Qırmızı Bayraq Ordeni, 2 dəfə birinci dərəcəli Uşakov ordeni, birinci dərəcəli Vətən Müharibəsi və Qırmızı Ulduz ordenləri ilə, bir çox medallarla, habelə bir sıra xarici dövlətlərin ordenləri ilə təltif olunmuşdur [23].

Rostov şəhərinin xatirə lövhəsində bir igid şuşalının da adı həkk olub: «Qaraşov Aslan Məmməd oğlu (10.XI.1919, Şuşa – 12.02.1943, Rostov)». Aslan 1939-cu ildə ordu sıralarına çağırılmış və Böyük Vətən müharibəsində artilleriya batareyasının komandiri təyin edilmişdir. O, Şimali Qafqazın azad edilməsində böyük igidlik göstərmişdir. Rostovun Semernikova kəndində

gedən döyüşlərdə cəsur döyüşçü Aslan düşmənin 8 tankını yandırmış və özü də həlak olmuşdur. Möhkəm əqidəli şuşalı balasına Böyük Vətən Müharibəsi qəhrəmanı adı verilmiş, «Qırmızı Bayraq» ordeni və çoxlu medallarla təltif etmişdir [24].

Təhsilini Leninqrad və Moskva hərbi məktəbində almış A.F.Vəzirov Böyük Vətən müharibəsi illərində Zaqafqaziya cəbhəsi Şimal ordu qrupunun 5-ci dağ minaatan – mühəndis briqadasının, 3-cü Ukrayna cəbhəsinin Qırmızı Bayraq Ordenli 51-ci mühəndis-istehkam briqadasının tərkibində olmuş və sonra briqadaya komandirlik etmişdir. Polkovnik A.F.Vəzirov göstərdiyi şücaətə görə Sovet İttifaqı Qəhrəmanı, 4 Qırmızı Bayraq Ordeni, II dərəcəli Boqdan Xmelnistki ordeni və medallarla təltif olunmuşdur [25].

Böyük Vətən müharibəsi iştirakçısı M.A.Parseqov 1940-cı ildən artilleriya diviziyasına komandirlik etmişdir. O, Mannerheym xəttinin dağıdılmasında, Kiyevin müdafiəsində, Yapon militaristlərinin darmadağın edilməsində fəal iştirak etmiş və öz əsgər borcunu şərəflə yerinə yetirmişdir. Göstərdiyi xidmətlərə görə general-polkovnik M.A.Parseqova Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir [26].

Bütün Azərbaycan xalqının fəxri sayılan Quliyev Yaqub Allahqulu oğlu 1900-cü ildə Şuşada dünyaya göz açmışdır. 1920-ci illərdə vzvod komandiri, rota komandiri, türkmən süvari polkunun qərargahının rəisi, 1938-ci ildə Türküstan dağ-süvari briqadası qərargahının rəisi, 1939-cu ildə Orta Asiya Hərbi dairə qərargahının rəis müavini, 1942-ci ildə 97-ci süvari diviziyasının komandiri vəzifələrində işləmişdir. Dərin düşüncəli Yaqub sovet hərbi xadimi adına layiq görülmüş və general mayor rütbəsi almışdır. İgid şuşalı Stalinqrad vuruşmasında qəhrəmancasına həlak olmuşdur. Xalqımız ölməz qəhrəmanı ilə fəxr edə bilər. Onun adı Mamay təpəsindəki xatirə ansamblına yazılmış, Türkmənistanda Yaqubun adına abidə qoyulmuş və bir məşhur küçəyə Y.Quliyevin adı verilmişdir. Ölümündən sonra Y.A.Quliyev Lenin ordeni, sağlığında isə 2 dəfə «Qırmızı Bayraq» ordeni ilə təltif olunmuşdur. Lenin ordenli generalın adına Şuşada da küçə vardır [27].

Qarabağlı müharibə iştirakçılarından biri olan S.A.Xudyakov general və aviasiya marşalı rütbəsinədək yüksəlmişdir. O Moskva ətrafında gedən döyüşlərdə, Kursk, Oryol, Belqrad və sol sahil Ukraynasının azad olunmasında, Yassı-Kişinov əməliyyatlarında fəal iştirak etmişdir. İgidlik və mərdlik nümayiş etdirdiyinə görə S.A.Xudyakov bir sıra orden və medallarla təltif olunmuşdur.

Dərin düşüncəsi, möhkəm iradəsi, qibtə olunan vətənpərvərliyi ilə xalqımızın sevimlisinə çevrilmiş, həm zahirən, həm də mənən əsl azərbaycanlı və türk oğlu adına layiq olan Xəlil Məmməd oğlu Məmmədov gözəlliklər diyarı Şuşada dünyaya göz açmışdır (1916). 1940-cı ildə tank batalyonunun alay məktəbini bitirən Xəlil tank komandiri təyin edilmişdir. Böyük Vətən müharibəsində rota və batalyon komandirləri vəzifəsində işləyən X.Məmmədov Kerç, Krım, Şimali Qafqaz, Ukrayna, Moldova, Rumıniyanın azad edilməsində qəhrəmanlıqlar göstərmişdir. Göstərdikləri qəhrəmanlıqlara görə Xəlil Məmmədova 1945-ci ildə Sovet İttifaqı Qəhrəmanı adı verilmiş və general-mayor rütbəsinədək yüksəlmişdir. X.Məmmədov Qırmızı Bayraq, Aleksandr Netski, 2 Qırmızı Ulduz, Şərəf nişanı ordenləri və medallarla təltif edilmişdir. Qəhrəmanın həyatı bugünkü gəncliyimizə gözəl örnəkdir.

Bütün Taqanrok sakinləri arasında «məğlubedilməz» ləqəbi ilə tanınan Şuşa rayonunun Zarıslı kənd sakini Əli Rza oğlu Bədəlov müharibə başlayan vaxtdan öz ərizəsi ilə cəbhəyə getdi. Cəsur topçu Ə.R.Bədəlov Mozdok, Taqanrok, Melitopol, Kişinyov ətrafında, Macarıstan və Polşada gedən döyüşlərdə yüzlərlə alman tankını məhv etmişdir. Ali Baş Komandanlığının imzaladığı təşəkkür əmrində onun adı həmişə birinci çəkilmişdir.

Şuşalı Əmir Məmmədoğlu Rüstəmov müharibə dövründə, azərbaycanlılar arasında birinci texnik-mühəndis olmuşdur. 1942-ci ildə Qafqaz uğrunda gedən döyüşlərdə düşmən obyektlərinin yerini və hücum üçün planı Ə.Rüstəmov çox dəqiqliklə çəkmişdir. Kapitan Ə.Rüstəmov 1942-ci ilin yanvarında 56-cı orduya, sonra isə 25-ci minaaxtaranlar briqadasına komandirlik etmişdir. General-mayor rütbəsinədək yüksələn komandir çoxlu

orden və medalların sahibidir. Böyük Vətən müharibəsi dövründə Dağlıq Qarabağdan onlarca döyüşçü – Sovet İttifaqı qəhrəmanı A.C.Qasparov, Bəylər və Əşrəf Cahangirovlar, Musa, Baxış və Alyoşa Hüseynov qardaşları, Kamran Məmmədov və başqaları fövqəladə mərdlik göstərmişdilər.

Keçmiş tariximizə "Böyük Vətən müharibəsi" adı altında daxil olan İkinci Dünya müharibəsi SSRİ-nin qələbəsi ilə başa çatdı. Qələbənin əldə edilməsində bütün Azərbaycan xalqının, o cümlədən Şuşa əhalisinin böyük xidmətləri olmuşdur. Alman faşizm üzərində qələbə əldə edilməsinin ən başlıca səbəbi ölkənin və xalqın bütün gücünün səfərbər edilməsində idi. Həmçinin ölkə rəhbərliyi inzibati idarəçilik metodlarını daha da möhkəmləndirib, iqtisadiyyatı qısa bir zamanda hərbin tələbləri əsasında yenidən qura bildi və xalqların iqtisadi, hərbi, mənəvi qüvvələrini birləşdirdi. Azərbaycan xalqı İkinci Dünya müharibəsində SSRİ-nin qalib çıxmasına öz layiqli töhfəsini vermiş, adı XX əsrdə qəsbkarlığa və mürtəce qüvvələrə qarşı mütərəqqi qüvvələrin tarixi salnaməsinə qızıl hərflərlə əbədi həkk olunmuşdur. Azərbaycan xalqı 1941-1945-ci illəri əhatə edən müharibənin ağır yükünü öz çiyinlərində daşımış və faşizm üzərində tarixi qələbə qazanılmasında mühüm rol oynamışdır. Ümummilli liderimiz Heydər Əliyev çıxışlarından birində qeyd etmişdir: «1941-1945-ci illər Azərbaycan xalqının tarixində çox görkəmli yer tutur və xalqımızın tarixində parlaq səhifələrdəndir... İkinci Dünya müharibəsi əyani şəkildə bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan üzüağ çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadir olan çox dözümlü və qəhrəman xalqdır. Faşizm üzərində qələbədən sonra xalqımızın keçdiyi yol Azərbaycanın gələcək milli azadlığına, müstəqilliyinə gedən yol olmuşdur... Azərbaycan yüksək inkişaf yolu keçdi və böyük iqtisadi, intellektual potensial topladı. Bunların əsasında xalqımız öz müstəqilliyini əldə etdi və dünya birliyində öz yerini tutdu» [28].

İkinci Dünya müharibəsində Azərbaycan xalqı bütün iqtisadi, hərbi və mənəvi gücünü səfərbər edərək SSRİ-nin qalib çıxmasına öz layiqli töhfəsini vermiş və XX əsrdə qəsbkarlığa və

mürtəce qüvvələrin tarixi salnaməsinə öz adını qızıl hərflərlə əbədi həkk etdirmişdir. Azərbaycanın oğul və qızları faşizmə qarşı mərdliklə vuruşaraq 121 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, arxada çalışan əməkçilərimiz cəbhəyə böyük köməklik göstərmişdilər. Müharibənin bütün ağırlığını öz çiynində çəkən Azərbaycan xalqı öz milli sərvətlərinin xeyli hissəsini itirmişdir.

Müharibədən sonrakı illərdə SSRİ-də totalitar rejim daha da gücləndi. Onun xalqları qorxudub mütiləşdirmə, parçalama siyasəti fəallaşdı. Stalinin vəfatından sonra siyasi həyatda isinişmə başlasa da, partiya təkhakimiyyətliliyi ciddi dəyişikliklərə imkan vermədi.

Müharibə Azərbaycana, onun təsərrüfatına ciddi ziyan vurmuş, 420 minə qədər azərbaycanlı cəbhədə həlak olmuşdu. Minlərlə mütəxəssis, ixtisaslı fəhlə müharibədən qayıtmamışdı. Sənayedən və kənd təsərrüfatından minlərlə texniki avadanlıq alınıb cəbhəyə göndərilmişdi. Bir çox müəssisə profilini dəyişib hərbi sifarişlər üzrə işləyirdi. Kənd təsərrüfatında məhsul istehsalının səviyyəsi getdikcə aşağı düşürdü.

Müharibə Azərbaycanın hər yerinə, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Şuşa rayonunun bütün təsərrüfatına çox ağır zərbə vurdu. Müharibə illərində Şuşa rayonunda istehlak malları istehsalı kəskin surətdə aşağı düşmüşdü. 1945-ci ildə 1940-cı ilə nisbətən əkin sahələri 2 dəfə, məhsul istehsalı yarıbayarı azalmış, kənd təsərrüfatının maddi-texniki bazası xeyli zəifləmişdi.

1946-1950-ci illəri əhatə edən dördüncü beşillik planda kənd təsərrüfatının inkişafı, müharibədən əvvəlki səviyyəyə yüksəldilməsi və bu səviyyəni ötüb keçmək əsas vəzifə kimi irəli sürülmüşdü. Beşillik planda Şuşa rayonunda buğda əkininin hər hektarından 80 pud buğda, hər hektardan 20 sentner pambıq, barama qurdunun hər qutusundan 55 kq. barama, hər hektardan 2,8 sentner yonca toxumu və 6 sentner xaşa toxumu götürməyi, atların sayını 25 faiz, qaramalın sayını 10 faiz, o cümlədən inək və camışların sayını 25 faiz, davarların sayını 10 faiz artırmaq nəzərdə tutulmuşdu [29]. Eyni zamanda, hər yüz doğar hey-

vandan 20 buzov, 80 qulun və 102 quzu əldə etmək, hər inəkdən 2300 kiloqram süd sağmaq, hər qoyundan 50 faiz artıq yun qırxmaq (1946 ilə müqayisədə) Şuşa rayonunun kənd təsərrüfatı ilə məşğul olan əhalinin mühüm vəzifələrindən idi [30].

Şuşa rayonunun kənd təsərrüfatının bərpa və inkişafı həmişə Azərbaycan hökumətinin diqqət mərkəzində olmuşdur. ÜİK(b)P MK-nın fevral (1947-ci il) plenumunun «Müharibədən sonrakı dövrdə kənd təsərrüfatını yüksəltmək tədbirləri haqqında» qərarından [31] sonra Azərbaycan hökuməti Şuşa rayonunda əkin sahələrinin genişləndirilməsi, dənli və texniki bitkilərin məhsuldarlığının yüksəldilməsi, heyvandarlığın məhsuldarlığının artırılması, MTS və sovxozların işinin yaxşılaşdırılması, kənd təsərrüfatı maşınları istehsalının artırılması barədə tədbirlərin həyata keçirilməsi nəticəsində, rayonda kənd təsərrüfatının istehsalat-texniki bazası xeyli möhkəmləndirildi. 1946-1950-ci illərdə Azərbaycan hökuməti bu sahəyə 1939-1945-ci illərlə müqayisədə 3 dəfə artıq vəsait qoymuşdu. Həmin vəsait hesabına Şuşa rayonuna 40 traktor, 2 taxıl kombaynı, 20 yük maşını və çoxlu miqdarda digər kənd təsərrüfatı maşın və alətləri verildi [32]. Şuşa rayonunda 1940-cı ilə nisbətən yük avtomobillərinin sayı 1950-ci ildə 4 dəfə artmışdı. Ümumi Azərbaycan üzrə bu artım təxminən 3,5 dəfəyə bərabər idi [33]. 1946-1950-ci illərdə Azərbaycanın kəndlərində yaradılmış 12 MTS-dən 3-ü, 3 MHS-dən 1-i DQMV-nin payına düşürdü [34]. MTS-lər təkcə təsərrüfat işlərinin görülməsində kolxozların sifarişlərini yerinə yetirən təsərrüfat müəssisəsi deyildi, bu müəssisə həm də təsərrüfat kadrlarının hazırlanması, əmək intizamının möhkəmlənməsi, təsərrüfatlararası «yarışın» təşkili məsələlərini həyata keçirirdi.

1946-1950-ci illərdə Şuşa rayonunda irriqasiya tikintisi genişləndirildi. Rayonda kolxoz və sovxozların təsərrüfatlarının suvarılmasının həyata keçirilməsi üçün mühüm tədbirlər görüldü. Belə ki, rayon ərazisindən və ona yaxın ərazilərdən axan çaylardan təsərrüfatların suvarılması üçün yeni kanallar çəkildi. Şuşa rayonunda suvarma sistemlərinin yenidən qurulması və

tikintisi əsasən başa çatdırıldı. Nəticədə əkinə yararlı, suvarılan torpaq sahələri genişləndirildi.

ÜİK(b)P MK-nin 1946-cı il 19 sentyabr tarixli «Kolxozlarda kənd təsərrüfatı arteli nizamnaməsinin pozuntularını ləğv etmək tədbirləri haqqında» qərarına [35] uyğun olaraq Azərbaycan hökuməti Şuşa rayonunda kənd təsərrüfatının təşkili təsərrüfat cəhətdən möhkəmləndirilməsi üçün mühüm tədbirlər həyata keçirməyə başladı. Belə ki, rayonda kolxozların ictimai mülkiyyəti möhkəmləndirildi, torpaqlardan istifadə edilməsi nizama salındı, kolxozçuların əməyi səmərəli təşkil edildi. SSRİ Nazirlər sovetinin 7 iyun 1950-ci il "Xırda kolxozların iriləşdirilməsi haqqında" qərarına uyğun olaraq Xocavənd rayonunda kolxozlar birləşdirilməyə başlandı. Belə ki, 1946-1950-ci illər ərzində rayonda kolxozların sayı 12-dən 8-ə endi [36]. Nəticədə isə ixtisara düşən kolxozlardan 450 nəfər inzibati işçi istehsalata göndərildi. Artıq 1950-ci ildə Şuşa rayonunda kəndli təsərrüfatları yüz faiz kollektivləşdirilmişdi. Bəhs edilən dövrdə Şuşa rayonunun ümumi əkin sahəsini dəyişməz halı müşahidə edilmişdir.

1940-1950-ci illərdə Azərbaycan SSR-in Şuşa rayonunda ayrı-ayrı kateqoriyalar üzrə əkin sahələrinin ümumi həcmini aşağıdakı cədvəldən də aydın görmək olar:

| Sıra №-si | Əkin sahəsinin növləri | 1940 | 1950 |
|---|---|---|---|
| 1 | Ümumi əkin sahəsi (hektar) | 3261 | 2430 |
| 2 | Dənli bitkilər (hektar) | 2901 | 2162 |
| a. | O cümlədən buğda (hektar) | 1429 | 1306 |
| b. | O cümlədən arpa (hektar) | - | 523 |
| 3 | Texniki bitkilər | 1 | - |
| | o cümlədən | | |
| a. | Pambıq | - | - |
| b. | Tütün (hektarla) | 1 | - |

| | | | |
|---|---|---|---|
| 4 | Kartof və tərəvəz (hektarla) | 332 | 95 |
| | o cümlədən | - | - |
| a. | Kartof (hektarla) | 107 | 69 |
| b. | Tərəvəz (hektarla) | 25 | 26 |
| 5 | Yem bitkiləri (hektarla) | 225 | 171 |

Apardığımız araşdırmalardan məlum olur ki, 1950-ci ildə Şuşa rayonunda ümumi əkin sahəsinin 2153 hektarı kolxozların, 234 hektarı sovxozların, 43 hektarı şəxsi yardımçı təsərrüfatların payına düşmüşdür. Şuşa rayonunun iqtisadiyyatında ən mühüm sahələrdən biri taxılçılıqdır. Azərbaycan hökuməti rayonda taxılçılığın inkişafı üçün yeni növ taxıl «Arandəni» buğdası daha yüksək nəticələr verdiyi üçün 1949-cu ildə bütün əkin sahəsinin dörddə üçündə əkilməyə başlandı [37]. Dənli bitkilər Şuşanın əksər kəndlərində əkilirdi: 1940-cı ildə dənli bitkilər ümumi əkin sahəsinin 86 faizini təşkil edirdi. Yəni 3261 hektar ümumi əkini sahəsindən 2901 hektarında dənli bitkilər əkilmişdi [38]. 1950-ci ildə isə 2430 hektar ümumi əkin sahəsindən 2162 hektarında dənli bitkilər əkilmişdi [39]. Faiz hesabatı ilə götürüldükdə bu ümumi əkin sahəsinin təxminən 90 faizini təşkil edir. Taxıl əkini sahəsində yeni aqrotexniki üsullarının tətbiqi, becərmə işlərinin yaxşılaşdırılması, toxumçuluq işlərinin düzgün qurulması nəticəsində Şuşa rayonunda əkin sahələrinin məhsuldarlığı xeyli artmışdı. Belə ki, 1940-cı ildə Şuşa rayonu dövlətə 231 ton taxıl təhvil verilmişdirsə, 1950-ci ildə bu göstərici 261 tona çatmışdır [40].

Şuşa əhalisinin ən çox sevdiyi peşələrdən biridə ipəkçilik olmuşdu. 1946-1950-ci illərdə Azərbaycan dövləti bu sahəyə də xüsusi diqqət yetirmiş və Şuşa rayonunda tut və çəkil bağlarının sahəsini xeyli genişləndirmiş, bölgəyə yeni növ, daha məhsuldar barama qurdu vermiş və ixtisaslı mütəxəssislər göndərmişdir. 1940-cı illə müqayisədə 1950-ci ildə tut bağları 35 faiz artırılaraq 16 hektara çatmışdır [45]. 1940-1950-ci illər ərzində arı ailələrinin sayında da artım müşahidə edilmişdir. Belə ki, 1941-ci ildə rayonda 414 arı ailəsi saxlanılırdısa 1951-ci ildə bu rəqəm

təxminən 40 faiz artaraq 595-ə çatmışdır. Həmçinin, barama qurdu becərmək texnikasını öyrənmək sahəsində barama məhsulu xeyli yüksəlmişdir. 1924-cü ildə hər qutu barama qurdundan 18,5 kiloqram barama götürüldüyü halda, [46] 1950-ci ildə bu rəqəm 50,4 kiloqrama çatmışdır.

1946-1950-ci illərdə bağçılıq, Şuşa rayonunun iqtisadiyyatında əsas sahələrdən birini təşkil edirdi. Bəhs olunan dövrdə Azərbaycan hökuməti rayonda bağçılığın inkişafı üçün bir sıra tədbirlər həyata keçirdi. Belə ki, bağların sahəsini genişləndirdi [48]. Bağlar salınarkən mexanizasiyadan istifadə etməyi nəzərdə tutan mütərəqqi üsullar tətbiq olundu. Yeni və daha məhsuldar ağac növləri gətirilərək Şuşa rayonunun kəndlərində əkildi. Azərbaycan hökumətinin gördüyü tədbirlər nəticəsində əmək məsrəfi azalaraq, məhsulun maya dəyəri aşağı düşdü və məhsuldarlıq artdı. Bütün bunların nəticəsi idi ki, 1940-cı illə müqayisədə Şuşa rayonunda məhsul yığımı xeyli artmışdır [49]. Tədarük edilən məhsulun bir hissəsi Azərbaycanın və SSRİ-nin müxtəlif şəhərlərinə göndərilir, digər bir qismi isə istehsal üçün Qarabağ şərab sənayesi trestinə verilirdi.

Şuşa rayonunda çoxillik bitkiləri içərisində şah-tut ağacları görkəmli yer tutur. Çox qulluq tələb etməyən bu ağac Şuşa ərazisində qədimdən becərilirdi. Şah-tut spirt istehsalında əsas xammaldır. Bundan başqa ondan bəhməz, mürəbbə hazırlanır və təzə halda yeyilir. Şah-tut digər tut növlərindən fərqli olaraq çoxlu bar verir, dadlıdır və şəkərliliyi 32 faizə bərabərdir [50]. Müharibənin başlanması ilə əlaqədar baxımsızlıq ucbatından şah-tut bağları 1945-ci ildə 1940-cı illə müqayisədə 2 dəfə azalmışdı. 1946-1950-ci illərdə yeni şah-tut bağları yaradılmış və 1950-ci ildə şah-tut bağlarının ümumi sahəsi 16 hektara çatmışdır [51]. Bu isə 1940-cı illə müqayisədə 2 dəfə artıq demək idi.

1946-1950-ci illəri əhatə edən beşillik planda Şuşa rayonunda tərəvəz, kartof və yem bitkiləri sahələrinin də inkişafı nəzərdə tutulmuşdu. 1940-cı ildə Şuşa rayonunun təsərrüfatları 107 hektarda kartof, 25 hektarda tərəvəz və 225 hektar sahədə yem bitkiləri əkmişdilərsə, 1950-ci ildə yem bitkiləri 171 hektar, kartof 69 hektar, tərəvəz 26 hektarda əkilmişdi [53]. Müvafiq

illərdə Şuşa rayonunda kartof istehsalı 107 tondan 69 tona, tərəvəz istehsalı 25 tondan 26 tona, yem bitkiləri isə 70 tondan 80 tona çatdı [54]. Onu da qeyd edək ki, kartof və tərəvəz yerli əhalinin tələbatını tam ödəyirdi.

1940-cı illə müqayisədə 1950-ci ildə Şuşa rayonunda ümumi əkin sahəsinin azalmasına baxmayaraq kənd təsərrüfatı məhsulları istehsalında artım müşahidə edilmişdir ki, bunu aşağıdakı cədvəldən də aydın görmək olar:

| Sıra №-si | Məhsulun növləri | Ölçü vahidi | 1940 | 1950 |
|---|---|---|---|---|
| 1. | Taxıl | ton | 497 | 589 |
| 2. | Kartof | ton | 107 | 69 |
| 3. | Tərəvəz | ton | 25 | 26 |
| 4. | Üzüm | ton | 40 | 30 |
| 5. | Ət (diri çəkidə) | ton | 200 | 315 |
| 6. | Yem bitkiləri | ton | 225 | 171 |
| 7. | Süd və süd məhsulları | min tonla | 450 | 970 |
| 8. | Yumurta | min ədədlə | 400 | 1015 |
| 9. | Yun | tonla | 8 | 16 |
| 10. | Dəri | ədədlə | 1586 | 1874 |

Heyvandarlıq Şuşa rayonunu iqtisadiyyatında ən əsas və həlledici sahələrdən biridir. Rayonun bərəkətli otlaqları, geniş düzənlikləri, əlverişli iqlim şəraiti, təmiz dağ bulaqları maldarlığın inkişafına zəmin yaratmışdır. Lakin müharibə başqa sahələrdə olduğu kimi heyvandarlıq təsərrüfatına da öz mənfi təsirini göstərmişdi. Azərbaycan hökuməti 1946-1950-ci illərdə Şuşa rayonunda heyvandarlığın inkişafı üçün xüsusi tədbirlər gördü. Belə ki, 1946-cı ildə rayona 38 aqronom göndərildi və ərazidə 6 aqronom məntəqəsi yaradıldı [55]. Azərbaycan hökuməti Şuşanın bütün kolxozlarına böyük miqdarda şvis inəklər, merinos qoyunlar, cins ayqır və donuzlar verdi. Bütün zootexnika və baytarlıq tələblərini ödəyən onlarla böyük heyvandarlıq binası tikildi və onların sayı 1948-ci ildə 200-ə çatdırıldı

[56]. Hər bir kolxozda əmtəə fermalarının sayı artırılaraq 2-ə çatdırıldı [57]. Hər bir fermaya isə yüzlərlə mal-qara verildi. Yem bitkilərinin əkin sahələri genişləndirildi. Dövlətimiz ildən-ilə bölgəyə ayrılan vəsaitin miqdarını artırdı. Görülən tədbirlər nəticəsində Şuşa rayonunda bütün kateqoriyalardakı təsərrüfatlarda 1950-ci ildə mal-qaranın sayı əvvəlki illərlə müqayisədə xeyli artmışdır [58]. Bunu aşağıdakı cədvəldən də aydın görmək olar (min baş ilə) [59].

| **Sıra sayı** | **Kateqoriyalar** | **1913** | **1920** | **1940** | **1950** |
|---|---|---|---|---|---|
| 1 | İribuynuzlu mal-qara | 6 | 2 | 7 | 5,4 |
| 2 | İnək və camışlar | 2 | 1 | 2 | 1,5 |
| 3 | Qoyun və keçilər | 13 | 4 | 15 | 12 |
| 4 | Donuzlar | 2 | 1 | 2 | 1,4 |
| 5 | Quşlar (ədədlə) | 5001 | 3704 | 835 | 2172 |
| 6 | Arı ailəsi (ailə ilə) | 559 | 580 | 414 | 595 |

Yuxarıdakı cədvəldən göründüyü kimi Şuşa rayonunda 1950-ci ildə mal-qaranın sayında 1940-cı ilə nisbətən təxminən 30 faiz artım olmuşdur. 1940-cı illə müqayisədə 1950-ci ildə heyvandarlıq məhsulları istehsalında da yüksək artım müşahidə edilmişdir. Belə ki, bəhs edilən illərdə rayonda mal-qara və quş əti (diri çəkidə) 200 tondan 315 tona, süd məhsulları 450 tondan 970 tona, yumurta 400 min ədəddən 1015 min ədədə, yun 8 tondan 16 tona çatmışdır [60].

Arıçılıq Şuşa rayonu ərazisində yaşayan əhalinin qədim məşğuliyyətlərindən biridir. Xüsusilə subalp və dağətəyi qurşaqlarda külli miqdarda bitən şirəli bitkilər Şuşa rayonunda arıçılıq işinin inkişaf etməsi üçün əlverişli şərait yaratmışdır. Arıçılıq perspektivli və gəlirli sahə olduğundan Şuşanın demək olar ki, kəndlərinin əksəriyyətində əhali arı saxlayırdı. Məlum hadisə ilə bağlı XX əsrin 40-cı illərinin birinci yarısında arıçılıq sahəsində geriləmə halı müşahidə edilmişdir. Azərbaycan hökuməti rayonda arıçılığın inkişaf etdirilməsi üçün bəzi tədbirlər

həyata keçirdi ki, bunlardan biri 1946-cı ildə Xankəndi Arı Damazlıq Mərkəzinin işini yenidən qurması üçün vəsait ayırdı. Bundan əlavə Şuşaya yeni arı ailələri gətirildi. 1946-1950-ci illərdə rayonda arıçılıq həm eninə, həm də dərininə inkişaf etdi. Belə ki, 1934-cü ildə Şuşanın 7 kolxozunda, 1940-cı ildə 10 kolxozunda arı saxlanılırdısa 1950-ci ildə rayonun 80 faiz təsərrüfatlarında arı saxlanılırdı [61]. Şişkinin rəhbərlik etdiyi Xankəndi Arı Damazlıq Mərkəzi bütün Dağlıq Qarabağ ərazisində, o cümlədən Xocavənd rayonunda yeni, məhsuldar növlər yetişdirməyə başladı. Nəticədə hər pətəkdən 25-35 kiloqram bal əldə edildi. 1940-cı ildə müqayisədə 1950-ci ildə Şuşa rayonunda arı ailələrinin sayı 20 faiz azaldı. Belə ki, müvafiq illərdə Şuşada arı ailələri 15-dən 12-ə çatdı. 1950-ci ildə bal istehsalı 1927-ci illə müqayisədə 3 dəfə çoxaldı [62]. Beləliklə, 1946-1950-ci illərdə Şuşa rayonunda xalq təsərrüfatının müvəffəqiyyətlə bərpa edilməsi, dördüncü beşilliyin əsas istehsal tapşırıqlarının yerinə yetirilməsi, sənayenin, kənd təsərrüfatının, tikintinin, nəqliyyat və rabitənin səviyyəsinin daha da yüksəlməsi ilə əlamətdar oldu.

Şuşa rayonunda kənd təsərrüfatı bitkilərinin əkin sahəsi 1950-ci ildə 1945-ci ilə nisbətən 831 hektar artaraq 2430 min hektara çatdı və ümumi məhsul istehsalının həcmi 1940-cı illə müqayisədə 32 faiz çox oldu. Belə ki, taxıl yığımı 92 ton, üzüm 10 ton, diri çəkidə mal-qara və quş əti 115 ton, süd və süd məhsulları 540 ton, yumurta 615 min ədəd, tərəvəz bir ton quşlar 3 dəfə, arı ailəsi 30 faiz, xırda buynuzlu heyvanlar 30 faiz, donuzların sayı 20 faiz artdı [64]. Beləliklə, Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Şuşa rayonunda Mərkəzi hökumətin həyata keçirdiyi tədbirlər nəticəsində yeraltı və yerüstü sərvətlərimiz bir yerdə və hazır şəkildə cəmləşərək «beynəlmiləlçilik» şüarı altında Ermənistana və Rusiyaya daşınır, talan edilirdi.

# XIV FƏSİL

## ŞUŞA RAYONUNUN KƏND TƏSƏRRÜFATI 1950-1960-cı illərdə

Real maddi və mənəvi mənbələr sübut edir ki Azərbaycan xalqı qədim və zəngin tarixə malikdir. Dünyada ilk sivilizasiyaların yarandığı məkanlardan biri olan Azərbaycanın zəngin tarixi ilə fəxr etməyə hər bir azərbaycanlının mənəvi haqqı vardır. Sovet dövründə elmi ədəbiyyatda Azərbaycan tarixinin müxtəlif dövrləri və problemləri eyni səviyyədə araşdırılmamış, Azərbaycan xalqının etnogenezi, təşəkkülü, dövlətimizin tarixi coğrafiyası və digər önəmli məsələlər elmi cəhətdən əsaslandırılmayan, qərəzli fikirlər söylənilmiş, uzun illər Azərbaycan xalqının tarixi ondan gizlədilmiş, Azərbaycan xalqına türkçülüyü, onun əsl etnik mənşəyini unutdurmağa çalışmışlar.

1950-1960-cı illərdə bütövlükdə Azərbaycanda, o cümlədən onun ayrılmaz bir hissəsi olan Şuşanın kəndində baş verən sosial siyasi proseslərin tədqiqi «Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri» (Bakı, 1964), Q.B.Allahverdiyevin «Azərbaycan kəndinin sosial inkişafı» (Bakı, 1980), B.Q. Aşırovun «Kəndin mənəvi inkişafının mühüm amili» (Bakı, 1985), T.B.Qaffarovun «Azərbaycan SSR kənd əhalisinin maddi rifahı və mədəni səviyyəsinin yüksəlməsi (1960-1980-ci illər)» (Bakı, 1986), E.H.Qədirovanın «Azərbaycan qadınları kommunizmin fəal qurucularıdır» (Bakı, 1982), H.T.Əmirovun «Azərbaycan SSR-in kənd təsərrüfatı 1960-1980-ci illərdə» (Bakı, 1989, O.B.Əhmədovun «Melarasiya və irriqasiya kənd təsərrüfatını yüksəltməyin mühüm amilidir» (Bakı, 1976), F.S.Maniyevin «Azərbaycan kəndinin sosial tərəqqisi (1960-1970)» (Bakı, 1987), A.P.Torinanın «Azərbaycan sovet kəndinin sosial-iqtisadi inkişafı (1965-1980)» (Moskva, 1982), M.Ə.Xalıqovun «Azərbaycan kəndinə mütəxəssis hazırlanması prosesi (1966-1975)» (Bakı, 1981), F.A.Əhmədşinanın «Azərbaycan SSR-in İttifaq Respublikaları ilə iqtisadi əlaqələri (1946-1980)» (Bakı, 1987) və digər əsərlərdə geniş, lakin bəzi

önəmli problemlərdən yan keçməklə işıqlandırılıb. Müstəqilliyini bərpa etdikdən sonra Ümummilli liderimiz Heydər Əliyevin müdrik rəhbərliyi ilə Gənc Azərbaycan Respublikası inamla gələcəyini qurmağa başladı. Sosial-iqtisadi, siyasi mədəni sahələrdə, o cümlədən elm sahəsində xalqımızın fəaliyyəti üçün geniş imkanlar açıldı. Bu gün, digər sahələrdə olduğu kimi tarix elminin inkişafı istiqamətində də mühüm nailiyyətlər əldə edilmişdir. Azərbaycanın görkəmli tarixçi alimləri son illərdə tariximizin «qaranlıq» səhifələrinə işıq salmış və tarixi həqiqətləri dünya ictimaiyyətinə çatdırmışlar. Bu mənada Y.Mahmudovun «Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti» (Bakı, 2002), Yenə onun «Azərbaycan diplomatiyası» (Bakı, 1996), N.Məmmədovun «Şuşa və şuşalılar» (Bakı, 2004), Q.Hacıyevin «Qarabağ tarixi» (Bakı, 2014), Y.Mahmudov və C.Müstafayevin «Şuşa Pənahabad» (Bakı, 2012), Y.Hüseynovun «Şuşa salnaməsi» (Bakı, 2015), Y.Mahmudov, K.Şükürovun «Qarabağ: Real tarix, faktlar, sənədlər» (Bakı, 2005), Q.Hacıyevin «Bərdə şəhəri Coğrafi, siyasi, mədəni tarix» (Bakı, 2008) və digər dəyərli əsərlərdə Qarabağ tarixi, o cümlədən Şuşanın tarixi fakt və mənbələrin məcmusu əsasında geniş təhlil edilmiş və xüsusi əhəmiyyətə malikdir. Fəsil yazılarkən yuxarıda adıgedən dəyərli əsərlərdən bəhrələnmişik.

«Şuşa rayonunun kənd təsərrüfatı 1950-1960-cı illərdə» bəhsi burada baş verən sosial-siyasi prosesləri, təqdim olunan xronoloji çərçivədə yeni konsepsiya əsasında, kompleks şəkildə öyrənən tədqiqatdır. Mövzunun elmi yeniliyi aşağıdakı xarakterik cəhətləri ilə səciyyələnir: 1950-1960-cı illərdə Şuşa rayonun kənd təsərrüfatında ümumi vəziyyət təhlil olunmuşdur; Vilayət rəhbərliyi tərəfindən Şuşada yaşayan azərbaycanlılara ögey münasibətin səbəbləri açıqlanmış, bu isə tariximizin ibrət dərsi kimi qiymətləndirilmişdir; XX əsrin 40-60-cı illərində Şuşaya qarşı ögey münasibət təkcə vilayət rəhbərliyinin qərəzli mövqeyi deyil, həm də Azərbaycan rəhbərliyinin laqeydliyinin nəticəsi olması faktlarla açılır; Ümumiyyətlə inkişafın başlıca amilini əliqabarlı azərbaycanlı zəhmət adamlarının öz işinə can

yandırması və Azərbaycan rəhbərliyinin qayğısı kimi qiymətləndirilir.

1950-1960-cı illərdə Moskva Azərbaycanda xalq təsərrüfatının inkişafı üçün bir sıra islahatlar həyata keçirdi. O cümlədən Azərbaycanda həyata keçirilən aqrar islahat imperiyanın mənafeyinə xidmət edirdi. Pambıq, ipək, tütün, tərəvəz və üzüm istehsalı artırılır, taxıl, kartof və digər ərzaq məhsulları istehsalına lazımi diqqət verilmirdi. Bununla da mərkəzdən asılılıq daha da artırdı. Xırda kolxozlar ya ləğv edilir ya da başqa iri təsərrüfatlara birləşdirilirdi. Onlara «etibarlı kommunistlər» rəhbər təyin edilirdi. Aqrar sahəyə rəhbərlikdə inzibati amirlik gücləndirilirdi. Kənd rayonlarına yeni texniki vasitələr-traktor, kombayn, yük maşınları və sair verməklə kənd təsərrüfatının texniki təchizatı yaxşılaşdırıldı. Maşın Traktor Stansiyalarının xidmət səviyyəsi yüksəldilirdi. 1958-ci ildə MTS-lər ləğv edildi. Onların texnikası kolxozlara verildi. Suvarma şəbəkələri genişləndirildi. Bu dövr Yuxarı Qarabağ, Samur-Abşeron kanalları işə salınmışdı. Mərkəzin marağı olmadığından heyvandarlığın inkişafına diqqət azalmışdı.

XX yüzilliyin 50-60-cı illərinin ortalarında Sov.İKP MK aqrar sahədə bir sıra islahatlar keçirməyə cəhd göstərsə də, ölkədə iqtisadi inkişaf sürətinin durmadan aşağı düşməsinin qarşısını almaq mümkün olmadı. Lakin imperiya elə bir mexanizm yarada bilmişdi ki, Respublikanın rəhbərliyi daha yüksək göstəricilər əldə etməklə Moskvanı razı salmağa can atırdı.

Keçən əsrin 50-60-cı illərində Azərbaycan SSR Şuşa rayonunda çoxsahəli kənd təsərrüfatında üzümçülük, bağçılıq, taxılçılıq, tütünçülük, həmçinin baramaçılıq və arıçılıq əsas yer tuturdu. 50-ci illərin əvvəllərində rayonun kənd təsərrüfatında bəzi problemlər mövcud idi. Belə ki, təsərrüfatlara rəhbərlik edən ermənilər çox hallarda təşkilati tədbirlərin işlənməsinə formal yanaşır, idarəçilikdə subyektivizmə yol verirdilər. Rəhbərlikdə inzibati amirlik metodu hökm sürürdü. Şuşa rayonunu sovxoz, kolxoz və MTS rəhbərləri planlaşdırmada bürokratik üsula əl ataraq öz şovinist mövqelərini tətbiq edirdilər. Onu da qeyd

etmək yerinə düşərdi ki, Şuşa rayonunda kənd kolxoz sədrləri, MTS rəhbərləri, sovxoz direktorları, ferma müdirləri və digər vəzifəli şəxslər Vilayət Partiya Komitəsi tərəfindən təyin edilir və sözsüz ki, onların əksəriyyəti milliyyətcə ermənilər idilər. Kənddə əsas fəhlə işçi qüvvəsi kimi çıxış edən azərbaycanlı zəhmət adamlarına laqeyd münasibət göstərilirdi. Kənd təsərrüfatının kreditləşmə və maliyyələşməsində ciddi səhvlərə yol verilmişdir. Belə ki, bəzi kənd təsərrüfatı məhsullarının, o cümlədən ət, süd, taxıl, kartof və başqa strateji məhsulların dövlət tərəfindən satınalınma qiymətləri çox aşağı səviyyədə idi. Bu isə məhsulun istehsalçılarının maddi marağının aşağı düşməsinə səbəb olurdu. Vəzifəyə kadrlar təyin edilərkən onların iş qabiliyyəti, düşüncəsi savadı deyil, xüsusi olaraq milliyyəti nəzərə alınırdı. Rayonun ali və icraedici strukturlarında çalışan erməni rəhbərləri kadrları şəxsi sədaqət, dostluq, qohumluq prinsiplərinə görə seçirdilər. Texnikadan lazımi səviyyədə istifadə olunmurdu və düzgün istiqamətləndirilmirdi.

Ümumilikdə Azərbaycanın kənd təsərrüfatındakı nöqsanlar və istehsaldakı gerilik imperiyanın mənafeyinə uyğun deyildi. Mərkəz, Azərbaycanın yerüstü sərvətlərindən daha çox bəhrələnmək məqsədilə 1953-cü ilin sentyabrında plenum çağıraraq mövcud vəziyyəti təhlil etdi. Kənd təsərrüfatını daha da inkişaf etdirmək haqqında qərar qəbul olundu. Həmin qərara görə kənd təsərrüfatında işləyənlərin maddi marağını artırmaq məqsədilə kənd təsərrüfatı məhsullarının satınalınma qiymətləri artırıldı; Kolxozçulara əməyə görə avans verilməyə başlandı; Taxılçılığı inkişaf etdirmək məqsədilə xam və dincə qoyulmuş torpaqlar mənimsənildi; heyvandarlığı inkişaf etdirmək məqsədilə həvəsləndirmə prinsipi tətbiq edildi [1]; kolxoz və sovxozlara torpaqdan istifadə, mal-qaranın sayını, əkilən bitkilərin növünü müəyyən etmək hüquqları verildi. Kolxoz və sovxozlardan alınan məhsulun həcmini, planı yenə də vahid konsepsiya əsasında dövlət müəyyən edirdi və sözsüz ki, bütün bunlar Mərkəzin mənafeyinə uyğun idi.

Moskva 1965-ci il mart plenumunda kənd təsərrüfatına dair öz iqtisadi siyasətində bəzi dəyişikliklər apardı [2]. Belə ki, kənd

təsərrüfatı məhsullarının satınalma qiymətləri qaldırıldı, idarəetmə sistemi xeyli təkmilləşdi, əsaslı vəsait qoyuluşu artdı. Lakin işdəki inzibati amirlik üsulu idarəsi, mərkəzdən asılılıq, vahid idarəetmə sistemi, ictimai mülkiyyət və başqa amillərin mövcudluğu hələdə qalmaqda davam edirdi. Bütün bunlarda rəsmi SSRİ rəhbərliyinin məqsədi müstəmləkələrin mərkəzdən asılılığını gücləndirmək olmuşdu.

Azərbaycandakı aqrar nəticələr imperiyanı tam qane etmədiyindən SSRİ Nazirlər Soveti və Sov. İKP MK Azərbaycanın kənd təsərrüfatı ilə bağlı 2 mühüm qərar qəbul etdi. Bunlardan birincisi 1954-cü il iyulun 31-də «1955-1960-cı illərdə Azərbaycan SSR-in kənd təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında», ikincisi isə 1957-ci ilin iyulunda «Azərbaycan SSR-in dağlıq, dağətəyi və sərhəd rayonları kolxozlarına kömək göstərmək haqqında» [3] qəbul olunan qərarlar idi. Dövlət, kolxozların maddi texniki bazasını möhkəmləndirmək məqsədilə 1957-ci ildən zəif inkişaf edən kolxozların hesabından kənd təsərrüfatı məhsullarının məcburi tədarükü üzrə olan borclarını sildi və əsaslı vəsait qoyuluşunu artırdı.

Azərbaycan hökuməti 1950-1960-cı illərdə Şuşa rayonunda kənd təsərrüfatını inkişaf etdirmək məqsədilə uzunmüddətli kredit verdi və həmin məbləğ ildən-ilə artırıldı. Təkcə 60-cı illərin kredit məbləğini nəzərdən keçirəriksə 6 dəfə artım olduğunu görərik. Belə ki, Şuşa rayonunun kolxozlarına 1962-ci ildə 35 min, 1962-ci ildə 40 min, 1963-cü ildə 85 min, 1965-ci ildə 105 min, 1966-cı ildə 215 min manat, 1967-ci ildə 240 min manat uzunmüddətli kredit verilmişdi [4]. ARPİİSSA-də saxlanılan mənbələrə əsaslanaraq deyə bilərik ki, 1950-1960-cı illərdə Şuşa rayonunu təsərrüfatlarına ayrılan vəsait DQMV-nin digər rayonlarına ayrılan kreditdən 2 dəfə aşağı olmuşdur. Onu da qeyd edək ki, DQMV-nin rayonlarına ayrılan vəsaiti Dağlıq Qarabağ XDS-i müəyyən edirdi. Vilayətin XDS-nin tərkibi isə qeyri-azərbaycanlılardan ibarət idi və onlar da məqsədli şəkildə Azərbaycan hökumətinin Vilayətə ayırdığı vəsaiti istədikləri istiqamətə yönəldirdilər [4]. Həmin vəsait xüsusi olaraq heyvandarlıq fermalarının tikintisinə, kənd təsərrüfatı texnikasının

əldə olunmasına, elektrikləşmə işinə, toxum almağa, kənd təsərrüfatı mütəxəssislərinin əmək haqqını ödəməyə, kolxozçuların şəxsi təsərrüfatlarının saxlanılmasına, kolxozçuların əmək haqlarının ödənilməsinə yönəldilmişdi.

Keçən əsrin 50-60-cı illərində Şuşa rayonunun xalq təsərrüfatına 2 milyon 100 min manat vəsait ayrılmışdı. Apardığımız araşdırmalardan məlum olur ki, bəhs olunan dövrdə Şuşa rayonuna ayrılan Vəsait Dağlıq Qarabağın digər rayonlarına ayrılan vəsaitdən 2 dəfə az olmuşdur [5].

1951-1961-ci illərdə Respublikamızın kənd təsərrüfatına dövlət və kolxozlar tərəfindən qoyulan vəsait 750 milyon manat, 60-cı illərdə isə 1 milyard 763 milyon manat olmuşdur [6]. XX yüzilliyin 60-cı illərində Azərbaycan SSR kənd təsərrüfatına 30 min traktor, 4,5 min taxılyığan kombayn, 2,6 min pambıqyuyan maşın və başqa kənd təsərrüfatı maşınları verdi ki, bundan Şuşa rayonun payına 102 traktor, 29 taxılyığan və 81 yük avtomobili düşürdü. Azərbaycan Respublikası Kənd təsərrüfatı Nazirliyinin Arxivindəki Mühasibat Şöbəsinin 1970-ci il materiallarına əsasən deyə bilərik ki, DQMV-nin rayonları arasında texnika bölgüsü aparılarkən yenə də Vilayətin erməni rəhbərliyi Şuşa rayonuna ögey münasibət göstərmiş və texnika bölüşdürülərkən Şuşa rayonunun payı 2,5 dəfə aşağı olmuşdur [F.1-14, s.16, i.570, v.211]. Qeyd edək ki, 1957-ci ildə Azərbaycanda 105 maşın Traktor Stansiyası (MTS) var idi ki, bundan biri Şuşa rayonunun payına düşürdü [7]. Lakin MTS-lər kolxozlara lazımi şəraitdə istehsal-texniki xidmət göstərə bilmirdi. Texnikanın kolxozlardan uzaqda yerləşməsi həmin təsərrüfatların texnikanın gücündən lazımınca istifadə edilməsini çətinləşdirirdi. Həm də uzaq məsafədən kolxozlara gedən texnika xeyli yanacaq sərf edir, bu xərc isə kolxozların üzərinə düşürdü. Bütün bunları nəzərə alan SSRİ Ali Soveti 1958-ci il martın 31-də «Kolxoz quruluşunu daha da inkişaf etdirmək və MTS-ləri yenidən təşkil etmək haqqında» qanun qəbul etdi. Qanunda MTS-lərin tədriclə ayrı-ayrı kolxozların iqtisadiyyatını və rayonların xüsusiyyətlərini nəzərə almaqla yenidən təşkili zəruri hesab edilmişdir.

Yuxarıda adıgedən qərara uyğun olaraq Azərbaycanın hər yerində, o cümlədən Şuşa rayonunda 1958-ci ilin sonunadək MTS-lər ləğv edildi. Rayonda MTS-lərin əvəzinə Təmir Texniki Stansiyası (TTS) yaradıldı. Həmin vaxt Azərbaycan hökuməti MTS-lərə məxsus 133 traktor, 54 kombayn, 127 yük avtomobili, 304 min manatlıq digər texnika DQMV rayonunun kolxozlarına payladı [8]. 1961-ci ildə Azərbaycan hökumətinin qərarı ilə Şuşa rayonunda Azərbaycan Kənd Təsərrüfatı Texnikasının Şuşa Rayon Birliyi yarandı. Yaranan vaxt həmin Birliyin sayı 1, 1970-ci ildə isə 2 oldu. Şuşa rayonunun kolxoz və sovxozlarının texniki təchizatı ilə Azərbaycan Kənd Təsərrüfatı Texnikası Birliyinin 5 müəssisəsi məşğul olurdu [9]. Həmin müəssisələr rayonda istifadə olunan ibtidai kənd təsərrüfatı alətlərini kənd təsərrüfatı maşınları – traktorlar, kombaynlar, avtomaşınlar, dörd və səkkiz korpuslu kotanları ilə əvəz etdi. Nəticədə Şuşa rayonunu kolxoz və sovxozlarında 1950-ci illə müqayisədə 1960-cı ildə təxminən 2 dəfə artdı [10].

Azərbaycan hökuməti 1950-ci illərdə respublikamızın kolxoz və sovxozlarında kənd təsərrüfatı üzrə ixtisaslı mütəxəssislərin kolxoz təsərrüfatlarında işləməyə 13 min mütəxəssis, o cümlədən 300 mühəndis texnik, 10 min traktorçu, 2 min kombaynçı göndərildi. Bundan 500 mütəxəssis, 15 mühəndis texnik, 40 traktorçu və başqa mütəxəssislər DQMV-nin rayonunun kolxozlarında işləməyə göndərildilər [11]. 1960-cı ildə Şuşa rayonunun kolxozlarında ayrı-ayrı ixtisaslar üzrə işləyən ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı təxminən 30 faiz azalmışdı [12].

Faktlara və materiallara əsasən müəyyən edilib ki, Şuşa rayonunun kolxozlarında mütəxəssislərin sayının azalmasının 2 başlıca səbəbi olmuşdur: Kiçik kolxozların birləşərək böyüdülməsi və kolxozların sovxozlara çevrilməsi. 1966-cı ilin dekabr məlumatına görə ümumilikdə Şuşa rayonu xalq təsərrüfatında 400 ali və orta ixtisas təhsilli mütəxəssis işləyirdi ki, bundan 190-ı sovxozların, 210-u kolxozların payına düşürdü. 1966-cı ildə Şuşa rayonunun kolxozlarında işləyən kənd təsərrüfatı mütəxəssisləri: 15 aqronom, 9 zootexnik, 1 baytar

həkim, 7 feldşer həkim çalışırdı [13]. Yeri gəlmişkən onu da qeyd edək ki, 60-cı illərdə Şuşa rayonunda bütün xalq təsərrüfatında işləyən ali və orta ixtisas təhsilli mütəxəssislərin 40 faizini qadınlar təşkil edirdi [14].

Şuşa rayonunu mütəxəssis kadrlara olan ehtiyacını ödəmək üçün Azərbaycan dövləti bölgədə 1920-1960-cı illər ərzində 5 texnikumun açılmasını qərarlaşdırmışdır. Bu texnikumlardan ikisi, Şuşa və Xankəndi Kənd Təsərrüfatı Texnikumları sırf kənd təsərrüfatı mütəxəssisləri hazırlamaqla məşğul olurdu [15].

Beləliklə, Azərbaycan dövləti Dağlıq Qarabağın o cümlədən Şuşa rayonunun təsərrüfatlarını ixtisaslı mütəxəssislərlə tam təmin etmək üçün bütün vasitələrdən istifadə edirdi. Tədqiqatlar nəticəsində məlum olur ki, bəhs etdiyimiz illərdə Naxçıvan MR-da çalışan mütəxəssislərin sayı DQMV-də işləyən kadrlardan 30 faiz aşağı idi. Bu hal Şuşa rayonu ilə müqayisədə Dağlıq Qarabağın digər rayonlarına da aid idi.

Araşdırmalar nəticəsində məlum olur ki, DQMV-i ərazisində ixtisaslı mütəxəssislərin yerləşdirilməsində də Vilayətin erməni rəhbərliyi «DQMV-i haqqında qanun»un 21-ci maddəsini əldə rəhbər tutaraq ikili siyasət yeritmişlər. 1966-cı ildə Vilayətin kolxoz və sovxozlarında çalışan 2827 mütəxəssisdən yalnız 23-ü Şuşa rayonunun payına düşmüşdü. Burada çalışan mütəxəssislərdən yalnız 2-si ali təhsilli idi [16].

Azərbaycan SSR Şuşa rayonunda kənd təsərrüfatının inkişaf etdirməyin mühüm şərtlərindən biri də, kolxoz və sovxozların tam elektrik enerjisinə olan tələbatının ödənilməsi idi.

Keçən əsrin 50-ci illərində DQMV-də Madagiz, Əsgəran, Sacan, Xankəndi SES-ları və digər stansiyalar işləyirdi. Bəhs etdiyimiz dövrdə DQMV-nin bütün energetika obyektləri ildə orta hesabla 19 milyon kilovat – saat elektrik enerjisi istehsal edirdi [17]. 1950-ci ildə Şuşa rayonunun kolxozlarının yalnız 6 faizi elektrik enerjisindən istifadə edirdi. Azərbaycan SSR dövlət büdcəsindən ayrılmış vəsait hesabına 1960-cı illərdə Şuşa rayonunun yeni yüksək gərginlikli elektrik xətti çəkildi. Görülən işin nəticəsi idi ki, 1960-cı ildə Şuşa rayonunun kolxozlarının 30 faizi, 1970-ci ildə isə 70 faizi elektrik enerjisindən istifadə edirdi

[18]. Mənbələrə əsaslanaraq demək olar ki, 1970-ci ildə bütövlükdə DQMV-də elektrik enerjisindən istifadə faizi 99,5 faizə çatmışdı. Ümumrespublika üzrə bu göstərici 99,3 faiz idi. Artıq 70-ci illərin sonlarında Şuşanın sovxozları 100 faiz elektrikləşdirilmişdir [19].

Bəhs olunan dövrdə bütövlükdə Qarabağda kənd təsərrüfatını inkişaf etdirmək məqsədilə Azərbaycan hökumətinin gördüyü tədbirlərdən biri də, su təsərrüfatı tikintisində vacib obyektlərin inşa edilməsi idi. Yuxarı Qarabağ kanalının istifadəyə verilməsi bölgədə suvarılan torpaq sahələrinin genişlənməsinə və bu da öz növbəsində məhsuldarlığın yüksəldilməsinə təsir etdi [20].

XX yüzilliyin 60-cı illərində su anbarlarından, çaylardan böyük arxlar, kanallar çəkilib, Şuşa rayonunda kənd təsərrüfatı bitkilərinin suvarılmasında istifadə olunurdu. Nəticədə 1970-ci ildə Şuşa rayonunda suvarılan torpaqların sahəsi genişləndirilərək 242 hektara çatdı [22, 23].

Bütün bunlarla yanaşı «Kolxoz quruluşunu daha da inkişaf etdirmək və kolxozların maddi texniki bazasını möhkəmləndirmək» məqsədilə Şuşa rayonunda bir sıra tədbirlər həyata keçirildi. Belə ki, kiçik kolxozlar birləşərək xeyli möhkəmləndi və iri çoxsahəli təsərrüfatlara çevrildi. 1950-1960-cı illərdə Şuşa rayonunda kolxozların birləşməsi prosesini aşağıdakı cədvəldən də izləmək olar [24]:

| Sıra sayı | Məzmunu | illər | | | | |
|---|---|---|---|---|---|---|
| | | 1940 | 1950 | 1958 | 1960 | 1970 |
| 1. | Kolxozların sayı (ədədlə) | 15 | 8 | 8 | 8 | 7 |
| 2. | Kolxozlara birləşən təsərrüfatlar (min ədəd) | 23 | 21 | 18 | 19 | 14 |
| 3. | Hər bir kolxozda evlərin sayı (ədədlə) | 11 5 | 23 4 | 22 0 | 23 0 | 19 9 |

1950-ci ildə Azərbaycanda 1615 kolxoz var idi. 1970-ci ildə onların sayı 992-yə endi. Müvafiq illərdə Şuşa rayonunda kolxozlar 23-dən 7-yə enmişdi [25]. Bu azalmaya səbəb kolxozların birləşməsi və bəzi kolxozların sovxozlara çevrilməsi prosesi olmuşdur. Kolxozların birləşdirilməsi bir sıra ştat ixtisarlarına, bu isə öz növbəsində kolxozların mənfəət və büdcə mədaxilinin artmasına səbəb oldu.

Bəhs etdiyimiz illərdə, Azərbaycanda sovxoz quruculuğu müvəffəqiyyətlə inkişaf edirdi. Sovxozların sayı 1950-ci ildə 46-dan 1970-ci ildə 406-ya çatmışdı. Yəni 9 dəfədən çox artım müşahidə edilmişdir [26]. 1960-1970-ci illərdə Azərbaycanın Şuşa rayonunda isə bu göstərici aşağı səviyyədə idi.

XX yüzilliyin 30-cu illərində Şuşa rayonunda sovxoz quruculuğu sürətlə getmişdir. Azərbaycandakı 114 sovxozun 4-ü Şuşa rayonunun payına düşürdü [27]. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar həmin sovxozların birləşməsi və ixtisaslaşması prosesi baş vermişdir. Eyni zamanda, torpaq sahəsi az olan sovxozlar da həmin rayonda fəaliyyət göstərən digər sovxozlarla və ya digər rayonlarda fəaliyyət göstərən eyni istehsal sahələri ilə birləşdirildi. Məsələn, Ağdərədəki 8 saylı Arıçılıq sovxozunun 7 hektar, Şuşadakı Arıçılıq sovxozunun 3 hektar, Novxanı Arıçılıq sovxozunun 205 hektar, 1 saylı Xankəndi Arıçılıq sovxozunun 222 hektar torpaqları var idi [28]. Həmin sovxozların ixtisaslaşma və təmərküzləşmə ilə əlaqədar birləşməsi prosesi baş vermişdir. Beləliklə, 1941-ci ildə Şuşa rayonunda 1 sovxoz fəaliyyət göstərirdi. 1950-ci illərdən başlayaraq Şuşa rayonunda sovxozların sayı artmağa başladı. 19635-ci ildə Şuşa rayonunda daha bir sovxoz yaradıldı [29].

Beləliklə, 1970-ci ildə Şuşa rayonunda sovxozların sayı 2-ə çatdı. Həmin 3 sovxozdan ikisində şərab zavodu yaradılmışdı. Bundan 1-i Qarabağ şərab Trestinin nəzdində, 1-i müstəqil sənaye müəssisəsi idi. Sovxozların sayında artım olmasına baxmayaraq onların əkin sahəsində azalma halı müşahidə edilmişdir. Həmin azalmanı aşağıdakı cədvəldən də aydın görmək olar: [30].

| Sıra sayı | Məhsulun növü | İllər və əkin sahələri (hektarla) | | | |
|---|---|---|---|---|---|
| | | 1940 | 1950 | 1960 | 1970 |
| 1. | Dənli bitkilər (hektar) | 295 | 222 | 48 | 4 |
| 2. | Texniki bitkilər (hektar) | - | 2 | 1 | - |
| 3. | Kartof (hektar) | - | 5 | 1 | - |
| 4. | Tərəvəz (hektar) | - | 5 | 4 | 1 |
| 5. | Yem bitkiləri (hektar) | 16 | 1 | 33 | 46 |

Yuxarıdakı cədvəldən göründüyü kimi 1950-ci illə müqayisədə 1970-ci ildə Şuşa rayonunun sovxozlarında əkin sahələri təxminən 4 dəfə azalmışdı. Texniki bitkilərin əkini azalmışdır, tütün əkini Dağlıq Qarabağın sovxozlarından tamam yığışdırılmış, pambıq əkini isə yalnız Ağdərə rayonunun düzən ərazilərində əkilmişdir. Şuşa rayonunda yeni bitkilərin əkinində çox böyük artım müşahidə edilmişdir [31].

Yeri gəlmişkən qeyd edək ki, aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1968-ci ildə DQMV-nin 11 sovxozundan yalnız ikisi Şuşa rayonunun üzərinə düşürdü. Şuşa rayonundakı sovxozların ümumi əkin sahəsi isə 1950-ci ildəki 234 hektara qarşı 1960-cı ildə 8 hektara enmişdi. Bundan 48 hektarında dənli bitkilər, 4 hektarına tərəvəz, 2 hektarında yem bitkiləri əkilmişdi. 1950-1960-cı illərdə Mərkəz öz mənafeyinə uyğun olaraq Azərbaycanda kənd təsərrüfatını inkişaf etdirmək məqsədilə bir sıra aqrar islahatlar həyata keçirdi ki, bunlardan biri də «Kolxozçuların şəxsi təsərrüfatlarından alınan kənd təsərrüfatı vergilərinin azaldılması, kənd təsərrüfatı məhsullarının satınalınma qiymətlərinin artırılması, kəndlilərin quş, mal-qara saxlaması üçün həvəsləndirmə prinsipinin tətbiq edilməsi haqqında» sentyabr 1953-cü il qərarı idi [32]. Azərbaycanın hər yerində, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Şuşa rayonunda da, 50-ci illərdən həmin qərar tətbiq olundu. Nəticədə, Şuşa rayonunda şəxsi yardımçı təsərrüfatların əkin sahəsində xeyli

artım müşahidə edilmişdir. Apardığımız araşdırmalardan məlum olur ki, Şuşa rayonunda şəxsi yardımçı təsərrüfatların əkin sahəsi ümumi vilayət üzrə olan göstəricilərə görə beşinci yerdə dayanmışdır ki, bunu aşağıdakı cədvəldən də görmək olur: (Hektarla) [33, 34].

| İllər | Bütün Vilayət üzrə | Xankəndi rayonu | Ağdərə rayonu | Xocalı rayonu | Hadrut rayonu | Xocavənd rayonu | Şuşa rayonu |
|---|---|---|---|---|---|---|---|
| 1940 | 824 | 216 | 325 | 37 | 113 | 107 | 33 |
| 1950 | 1014 | 306 | 402 | 129 | 134 | 129 | 43 |
| 1960 | 993 | 294 | 391 | 127 | 124 | 119 | 57 |
| 1970 | 1153 | 324 | 449 | 139 | 174 | 139 | 73 |

Apardığımız araşdırmalardan məlum olur ki, şəxsi təsərrüfatların əkin sahəsinə görə Dağlıq Qarabağ ümumrespublika səviyyəsində öndə getmişdir. Bütün bunlar isə Vilayətdə yaşayan əhalinin sosial-iqtisadi durumunun daha da yaxşılaşmasına güclü təkan vermişdir.

1950-1960-cı illərdə Şuşa rayon əhalisinin şəxsi mülkiyyətində olan mal-qaranın sayında çox böyük artım müşahidə edilmişdir. Bu inkişafı aşağıdakı cədvəldən də, aydın görmək olar: (Başla) [35, 36, 37].

| Heyvanların kateqoriyaları | 1940 | 1950 | 1960 | 1970 |
|---|---|---|---|---|
| İri buynuzlu mal-qara | 8269 | 1188 | 1721 | 2844 |
| İnək və buzovlar | 1508 | 627 | 870 | 1267 |
| Donuzlar | 68 | 11 | 32 | 134 |
| Qoyun və keçilər | 7530 | 1775 | 5838 | 9512 |

Şuşa rayonunda şəxsi təsərrüfatların 10 illik inkişaf göstəricilərini (1950-1960) nəzərdən keçirərkən ümumi heyvanların sayının 3601 başdan 13757 başa çatdığını və təxminən 4 dəfə artım olduğunu görürük [35]. Sosializm cəmiyyətində əhalinin şəxsi təsərrüfatlarının inkişafı hakim dairələri qane etmirdi. 60-cı

illərin əvvəllərində mövcud şərait (inkişaf) düzgün qiymətləndirilmir, şəxsi təsərrüfatlara ehtiyac olmaması, hətta onların ictimai təsərrüfatlarının inkişafına maneçilik törətməsi haqqında qeyri elmi fikirlər əsasında tələsik tədbirlər həyata keçirilirdi. 60-cı illərdə şəxsi həyətyanı təsərrüfatlar haqqında Azərbaycan dövlətinin 2 qərarı olmuşdur. Bunlardan biri Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 12 may 1962-ci il qərarı idi. Həmin qərarda göstərilirdi ki, kənd yerlərində yaşayıb işləyən fəhlə və qulluqçuların həyətyanı təsərrüfatları tikintilərinin sahəsi də daxil olmaqla 0,15 hektara çatdırılsın [36]. Azərbaycan dövlətinin noyabr 1963-cü il tarixli 2-ci qərarı isə kolxozçuların həyətyanı təsərrüfatları üçün (tikililərin də sahəsi daxil olmaqla) 0,25 hektar torpaq sahəsi müəyyən olundu [37]. Nəticədə, Şuşada 1940-cı illə müqayisədə 1968-ci ildə şəxsi təsərrüfatların ümumi əkin sahəsi 33 hektardan 75 hektara qalxdı. Apardığımız tədqiqatlardan məlum olur ki, Vilayət üzrə fəhlə, kəndli və qulluqçuların şəxsi təsərrüfatlarından ümumi torpaq sahəsi üzrə azalma halı 5 rayon üzrə 25 hektar olmuşdur. Aparılan araşdırmalar nəticəsində məlum olur ki, həmin 25 hektarın 20 hektarı (94 hektardan 73 hektara) azərbaycanlıların daha çox yaşadığı Şuşa rayonunun payına düşmüşdür [38].

1960-cı illərdə Şuşa rayonunun şəxsi təsərrüfatlarda olan mal-qaranın ümumi sayında böyük artım müşahidə edilmişdir. Belə ki, 1960-cı illə müqayisədə 1970-ci ildə iribuynuzlu mal-qaranın sayı 1721 başdan 2844 başa, inək və camışlar 870 başdan 1267 başa, donuzlar 32 başdan 134 başa, qoyun və keçilər 5838 başdan 9512 başa çatmışdır. 60-cı illərdə bütövlükdə DQMV-nin fəhlə, qulluqçu və kolxozçularının təsərrüfatlarında mal-qaranın sayı 106.423 başdan 181.152 başa, başqa sözlə təxminən 70 faiz artım müşahidə edilmişdir. Apardığımız müqayisəli təhlillərə əsasən deyə bilərik ki, Şuşa rayonunda şəxsi təsərrüfatlarda olan mal qaranın sayı ümumrespublika səviyyəsini üstələmişdir. Sonrakı dövrlərdə Şuşa rayonunda əhalinin yem, toxum, əmək alətləri əldə etmək çətinlikləri, həyətyanı təsərrüfatlarına qayğının olmaması, mal-qaranı çox saxlayanlar haqqında haqsız olaraq «xüsusi mülkiyyətçi», «möhtəkir», «alverçi» kimi ictimai

rəy yaradılması ucbatından fəhlə, qulluqçu və kəndlilərin şəxsi təsərrüfata marağı getdikcə azalmağa başlamışdır [40].

XX yüzilliyin 50-60-cı illərində kolxoz təsərrüfatlarının inkişafı dövlətin xüsusi diqqət mərkəzində idi. Bu məqsədlə müxtəlif tədbirlər həyata keçirilir və nəzarət gücləndirilirdi.

XX yüzilliyin 50-60-cı illərində Azərbaycan hökuməti Şuşa rayonunda kənd təsərrüfatında əkin sahələrinin məhsuldarlığını artırmaq məqsədilə mədən gübrələrinin, bitkiləri xəstəlikdən və ziyanvericilərdən qoruyan kimyəvi vasitələrin tətbiqini genişləndirdi. Rayonun kənd təsərrüfatında irriqasiya və meliorasiya, mexanikləşdirmə və elektrikləşdirmə işlərini həmişə diqqət mərkəzində saxlayan Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti Şuşanın təsərrüfatlarını mədən gübrələrlə də təmin olunmasını öz üzərinə götürmüşdür. Bu məqsədlə, Azərbaycan hökuməti Respublikamızın kəndlərinə 1966-cı ildə 285 min ton, 1970-ci ildə isə 434 min ton mineral gübrə və ziyanvericilərə qarşı müxtəlif kimyəvi maddələr göndərmişdi [41]. Bundan Şuşa rayonunun kənd təsərrüfatında istifadə olunmaq üçün 1966-cı ildə 4 min ton, 1970-ci ildə isə 2 min ton verilmişdi [42]. Hətta Şuşa rayonun kənd təsərrüfatının inkişafında Azərbaycan hökumətinin verdiyi gübrələrin əhəmiyyətini erməni müəllifləri öz əsərlərində etiraf edərək yazmışlar: «DQMV-nin kənd təsərrüfatında taxıl, pambıq, üzüm məhsullarının taleyi həm də Sumqayıt superfosfat zavodunun sexlərində, Sumqayıt kimya zavodunun qurğularında, Gəncə alüminium zavodunda, RSFSR-nın, Ukraynanın, Belorusiyanın, Qazaxıstanın, Orta Asiyanın kimya müəssisələrində həll olunur. Bakı, DQMV-nin kəndlərinə fasiləsiz olaraq mineral gübrələr göndərir. Həmin gübrələr möcüzələr yaradır. Əgər superfosfatdan, azot selitrasından və digər kimyəvi maddələrdən ağıllı surətdə istifadə etsək istənilən nəticəni əldə etmək olar» [43].

Azərbaycan hökuməti həm də Dağlıq Qarabağa təyyarələr vermişdir ki, bu təyyarələr vasitəsilə Vilayətlərin təsərrüfatlarının əkinlərin becərilməsində, kənd təsərrüfatı ziyanvericilərinə qarşı kimyəvi mühafizə vasitələrinin və mineral gübrələrin səpilməsində istifadə olunurdu.

Beləliklə, XX yüzilliyin 50-60-cı illərində Şuşa rayonunda kənd təsərrüfatı bitkilərinin, xüsusilə ipəyin, tütünün, taxılın, kartofun ictimai mal-qaranın çəkisini və sayını artırmaqla yanaşı, onun məhsuldarlığını yüksəltmək, əkinçiliyin və maldarlığın ümumi və əmtəə məhsulunu çoxaltmaq, irriqasiya tikintisini genişləndirmək kimi ciddi vəzifələr dururdu.

Vətənimizin ən gözəl və bərəkətli rayonlarından biri olan Şuşa rayonu münbit torpaqlara, əlverişli iqlimə, bol su ehtiyatlarına malik olması, eyni zamanda dövlətimizin dərin qayğısı nəticəsində burada çoxşaxəli kənd təsərrüfatının inkişafına zəmin yaratmışdır. 1950-1960-cı illərdə Şuşa rayonunda bütün kateqoriyalar üzrə ayrı-ayrı kənd təsərrüfatı bitkilərinin ümumi əkin sahəsi aşağıdakı kimi olmuşdur [44]:

| Sıra sayı | Əkilən bitkilərin adı | İllər | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 1940 | 1950 | 1955 | 1960 | 1965 | 1970 |
| 1. | Ümumi əkin sahəsi: (min hektar) | 3,3 | 2,4 | 1,1 | 3,3 | 1,8 | 2,7 |
| 2. | Dənli bitkilər (min hektar) | 2,9 | 2,2 | 2,2 | 2,3 | 1,1 | 1,4 |
| 3. | Texniki bitkilər (min hektar) | - | - | 11 | 13 | 9 | - |
| 4. | Tərəvəz və bostan bitkiləri (hektar) | 25 | 26 | 38 | 38 | 37 | 42 |
| 5. | Kartof əkini (hektar) | 107 | 69 | 61 | 62 | 65 | 60 |
| 6. | Yem bitkiləri (hektar) | 225 | 171 | 345 | 848 | 720 | 1226 |

Cədvəldən göründüyü kimi, 1950-ci ilə nisbətən 1960-cı ildə Şuşa rayonunda bütün təsərrüfatlarında əkin sahəsi 2,4 hektar artmışdır. Bu artımın xüsusi çəkisi yem bitkilərinin üzərinə düşmüşdür. 1950-ci illə müqayisədə isə 1970-ci ildə əkin sahəsi 0,9 min hektar azalmışdır. Həmin azalma dənli və texniki bitkilərdə daha çox müşahidə edilmişdir. 1970-ci ildə Şuşa

rayonunda ümumi əkin sahəsindən 1465 hektarı suvarılan torpaqlar idi. Sonrakı dövrlərdə suvarılan əkin sahələrinin həcmi xeyli genişlənmişdi. Çünki suvarılan bitkilərin məhsuldarlığı dəmyə əkin sahələrindəkindən 2-3 dəfə artıq olurdu [45].

Tədqiqatlardan məlum olur ki, 1968-ci ildə DQMV-nin kənd təsərrüfatı bitkilərinin ümumi əkin sahəsindən (75 559 hektardan) təxminən 26 faizi (20073 hektarı) Xankəndinin kolxoz və sovxozlarına, 27 faizi (20 832 hektarı) Ağdərə rayonuna, 30 faizi (22074 hektarı) Xocavənd rayonuna, 12 faizi (7780 hektarı) Hadrut rayonuna, 5 faizi (3641 hektarı) Şuşa rayonunun payına düşürdü [46].

Araşdırmaların nəticəsi olaraq deyə bilərik ki, 1940-cı illə müqayisədə 1970-ci ildə Şuşa rayonunun kolxozlarında ümumi əkin sahəsi 2,9 min hektardan 2,7 min hektara enmişdi. Bəhs olunan illərdə rayonun sovxozlardakı əkin sahəsi 0,3 min hektardan 0,1 min hektara enmişdi. 1960-cı ildə ümumi DQMV-də 210 hektar sahəsində tütün əkilirdi ki, bunun 13 hektar Şuşa rayonunun payına düşürdü. 70-ci illərdə bu proses tamamilə dayandırılmış və 1973-cü ildən sonra DQMV-də əkilən bütün tütün sahəsi Ağdərə rayonuna aid olmuşdu. Bəhs edilən dövrdə Xocavənd rayonunda istehsal olunan kənd təsərrüfatı məhsullarının təxminən 57 faizi bitkiçiliyin, 43 faizi isə heyvandarlığın üzərinə düşürdü [47].

Şuşa əhalisinin qədim peşələrindən biri də taxılçılıq idi. Ayrı-ayrı dövrlərdə ümumi kənd təsərrüfatı bitkilərinin əkin sahələri nəzərdən keçirilərkən dənli bitkilər əkininin daha üstün olmasını görürük. Belə ki, 1950-ci ildə ümumi əkin sahəsinin (2,4 min hektarın) 90 faizini (2,2 min hektarını), 1960-cı ildə (3,3 min hektarın) 68 faizini (2,3 min hektarını), 1970-ci ildə isə (2,7 min hektarın) 50 faizini (1,4 min hektarını) dənli bitkilər təşkil etmişdir [48]. Şuşa rayonunda buğda və arpa həm payızda həm də yazda əkilirdi. Buğda əkinin 45 faizi payızlıq buğda əkini idi. Rayonun təbii şəraitində «Qılçıqsız–1» buğda sortu özünü daha yaxşı göstərmişdir. Bu sort Şuşa rayonunun təsərrüfatlarında yetişdirilən bütün sortlar arasında birinci yerə çıxmışdır. Təbiətin hər cür şıltaqlıqlarına davamlı və məhsuldar olan «Qılçıqsız–1»

sortu 60-cı illərdə vilayətin bütün ərazisində əkilməyə başlandı. Bu sortdan ən çox payızlıq buğda əkini vaxtı istifadə edilirdi. Şuşa rayonunda həmişə taxıl əkini arpa əkinindən üstün olmuşdur. Məsələn, Şuşa rayonunun kolxoz və sovxozlarında 1950-ci ildə 1,3 min hektar sahədə buğda, 0,5 min hektar sahədə arpa, 1960-cı ildə 1,2 min hektara qarşı 1 min hektar, 1970-ci ildə isə 0,9 min hektar buğda əkininə qarşı 0,4 min hektar arpa əkilmişdir [49]. Aparılan hesablamalar nəticəsində məlum olur ki, 1950-1960-cı illərdə Şuşa rayonunda dənli bitkilər əkini sovxozlara nisbətən kolxozlarda daha çox olmuşdur.

XX yüzilliyin 50-60-cı illərdə Azərbaycan dövləti Şuşa rayonunda taxılçılıq mədəniyyətinin yüksəldilməsinə, dənli bitkilərin sort tərkibinin dəyişdirilməsinə, əkin və biçin texnologiyasının yaxşılaşdırılmasına diqqətini artırır və yüksək məhsuldar buğda sortları ilə təsərrüfatları təmin edirdi. Dövlətimiz rayonun kənd təsərrüfatı texnikasına olan tələbatını ödəmək üçün bütün imkanlardan istifadə edir və ərazinin kolxoz və sovxozlarında işləyən texnikanın tam tələbatını ödəyirdi. Azərbaycan Kənd Təsərrüfatı Texnikası Birliyinin müəssisələri rayonun kolxoz və sovxoz tarlalarında, bağ və bostanlarında işləyən yüzlərlə traktor, kombayn və digər maşınların texniki təchizatını təmin edirdi. Azərbaycan alimləri tərəfindən Şuşa rayonunun enerji ehtiyatları aşkara çıxarılır, onlardan düzgün istifadə edilməsi şərtləri müəyyənləşdirilir, mövcud enerji sistemlərinin səmərələşdirilməsi üsulları işlənib hazırlanırdı. Dövlətimizin daxili vəsaiti hesabına 60-cı illərin sonlarında Şuşa rayonunun SES və İES-ları fəaliyyət göstərirdi. Şuşa rayonunun kolxoz və sovxozlarında su vurulmasında və müxtəlif əməliyyatların yerinə yetirilməsində 40 elektrik mühərriki işləyirdi [50]. Azərbaycanın nəbatatçı alimləri rayonun florasını öyrənir, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını artırmağın həllinə köməklə əlaqədar, xüsusi olaraq dənli bitkilərin yeni növlərini almaq və mövcud növlərini dəyişdirmək prosesinin öyrənilməsi sahəsində səmərəli işlər təqdim edirdilər.

Azərbaycan hökumətinin gördüyü məqsədyönlü tədbirlərin nəticəsi idi ki, Şuşa rayonunda 1970-ci ildə dənli bitkilərin əkin

sahəsi 1950-ci ildəkinə nisbətən 25 faiz azalmasına baxmayaraq 1965-1970-ci illərdə taxıl yığımı 752 ton artmışdır [51]. Şuşa rayonunda 1950-1960-cı illərdə ayrı-ayrı kateqoriyalar üzrə dövlətə satılan dənli bitkilər əsas göstəriciləri aşağıdakı cədvəldəki kimi olmuşdur: (tonla) [52].

| Sıra sayı | Kateqoriyaların adı | Ölçü vahidi | İllər | | | |
|---|---|---|---|---|---|---|
| | | | 1950 | 1960 | 1965 | 1970 |
| 1. | Ümumi yığım | Ton | 589 | 638 | 297 | 1049 |
| 2. | Kolxozlardan | Ton | 571 | 632 | 297 | 1049 |
| 3. | Sovxozlardan | Ton | 18 | 6 | - | - |

Yuxarıdakı cədvəldən göründüyü kimi sovxozlar dənli bitkilərin əkini ilə az məşğul olmuşlar. Sovxozlar əsasən üzümçülük, qoyunçuluq və quşçuluqla məşğul olurdular [53].

1950-1960-cı illər dənli bitkilərin hər hektarından götürülən məhsuldarlığı müqayisə edəriksə, Şuşa rayonunun kolxoz və sovxozları Vilayət üzrə olan göstəricilərdən orta səviyyədə olduğunu görərik. Təkcə 1970-ci faktlarını müqayisə etməklə deyilənlərin həqiqət olduğunu görərik. Belə ki, 1970-ci ildə Vilayət üzrə hər hektardan götürülən məhsuldarlıq 11,7 sentner, Ağdərədə 14,2 sentner, Xocavənddə 13,3 sentner, Xankəndində 11 sentner, Şuşada 7,5 sentner olduğu halda Hadrutda 7,2 sentnerə çatmışdır.

Bəhs olunan 1950-1960-cı illərdə Şuşa rayonun kənd təsərrüfatının zəif inkişaf edən sahələrindən biri üzümçülük olmuşdur. 1950-1960-cı illərdə Şuşa rayonunun kolxoz və sovxozlarında üzüm əkini sahələrinin necə inkişaf etdiyini aşağıdakı cədvəldən də aydın görmək olar (hektarla): [56]

| İllər | Ölçü vahidi | Ümumi üzüm əkini sahəsi | O cümlədən | |
|---|---|---|---|---|
| | | | Kolxozlarda | Sovxozlarda |
| 1950 | Hek. | 10 | 10 | - |
| 1960 | Hek. | 11 | 11 | - |
| 1965 | Hek. | 13 | 13 | - |
| 1970 | Hek. | 7 | 7 | - |

Cədvəldən göründüyü kimi Şuşa rayonunu kolxoz və sovxozlarında 1950-ci illə müqayisədə, 1970-ci ildə üzüm əkini plantasiyaları 1088 hektar artmışdır. Məhsuldarlığı artırmaq üçün Şuşa rayonunun kolxoz və sovxozlarında qabaqcıl təcrübədən və aqrotexnikanın nailiyyətlərindən istehsalda geniş istifadə edilirdi. Xankəndi Qarabağ Zona Təcrübə Stansiyası, Leninavan Qarabağ Elmi-eksperimental bazası, habelə Daşbulaq və Harov sortluq məntəqələri bu işdə kolxoz və sovxozlara böyük yardım göstərirdilər.

1950-1960-cı illərdə DQMV-nin təsərrüfatlarında yerli üzüm sortları «Xidoqin», «Bayan Şirey», «Marandəni», «İzabella», «Gəncə ağ süfrəsi», «Tavakvari» və başqa məhsuldar sortlar əkilmişdir [57].

Azərbaycan dövləti DQMV-də üzüm sahələrini gübrələrlə təmin etmək üçün min tonlarla, fasiləsiz olaraq, mineral gübrələr və ziyanvericilərə qarşı kimyəvi maddələr göndərmişdir. Eyni zamanda, həmin gübrələr və ziyanvericilərə qarşı kimyəvi maddələr üzüm plantasiyalarına səpilməsində Bakıdan göndərilən təyyarələrdən geniş istifadə edilirdi. Plantasiyalarda işlərin mexanikləşdirilməsi, aqrotexniki qaydalara ciddi riayət olunması istənilən nəticələri verirdi. Azərbaycan hökumətinin gördüyü tədbirlər nəticəsində 1965-1970-ci illərdə Dağlıq Qarabağda üzüm istehsalı 2 dəfə artmışdır. 1970-ci ildə Vilayətin təsərrüfatları 58064 ton üzüm əldə etmişlər. Dağlıq Qarabağda üzümdən alınan pul gəlirləri kolxozların bütün pul gəlirinin üçdən bir hissəsini, bitkiçilikdən alınan gəlirin 68 faizini təşkil etmişdir [58]. Əmək məhsuldarlığı isə ildən ilə artmışdır. Belə ki, 1950-ci illə müqayisədə 1960-cı ildə əmək məhsuldarlığı 2,5 dəfə, 1965-ci ildə 3,7 dəfə, 1970-ci ildə isə 7,3 dəfə artmışdır. 1950-1960-cı illərdə DQMV-nin kolxoz və sovxozlarında hər hektardan götürülən məhsulun həcmi təxminən 3 dəfə artmışdır. 1950-ci ildə hər hektardan 27,5 sentner məhsul götürülmüşdürsə, 1960-cı ildə bu göstərici 30 sentnerə, 1965-ci ildə 60 sentnerə, 1970-ci ildə isə təxminən 110 sentnerə çatmışdır [59]. Sonrakı dövrlərdə bu artım sürətlə davam etmişdir.

1950-1960-cı illərdə DQMV-də kolxoz və sovxozlarında üzümçülüyün inkişaf dinamikasını aşağıdakı cədvəldən də görmək olar (tonla) [61]:

| İllər | DQMV-də ümumi üzüm yığımı (tonla) | O cümlədən | | Əmək məhsuldarlığı. 1 hektara sentnerlə |
|---|---|---|---|---|
| | | Kolxozlarda | Sovxozlarda | |
| 1950 | 5826 | 4885 | 931 | 28 |
| 1960 | 7479 | 6517 | 980 | 33 |
| 1965 | 21067 | 13158 | 7909 | 47 |
| 1970 | 58064 | 27988 | 30076 | 82 |

Qeyd edək ki, 1970-ci ildə ümumilikdə DQMV-nin rayonları arasında üzüm istehsalına görə Xocavənd rayonu birinci yerdə (25619 ton), Şuşa rayonu isə axırıncı yerdə (4 ton) olmuşdur. 1970-ci ildə Vilayətdə daha yüksək məhsuldarlıq əldə edilmişdir (hər hektardan 28 sentner). Daha dəqiq desək 1950-ci illə müqayisədə 1970-ci ildə məhsuldarlıq 3 dəfə artmışdır.

Cədvəldən göründüyü kimi DQMV-də 1950-ci ildən 1970-ci ilədək üzüm yetişdirilməsi təxminən 3 dəfə artmışdır. Müvafiq illərdə Vilayətin sovxozlarında məhsul artımı ümumi göstəricilərdən 2 dəfə çox müşahidə edilmişdir. Dağlıq Qarabağ üzümçüləri əldə etdikləri yüksək göstəricilərə görə dəfələrlə Sov. İKP MK-nın, SSRİ Ali Soveti Rəyasət Heyətinin, SSRİ Nazirlər Sovetinin, UİHİMŞ-nın, Azərbaycan KP MK-nın mükafatlarına, orden və medallarına layiq görülmüşlər. Təsadüfi deyildir ki, 1969-cu ildə DQMV-nin 26 nəfər üzümçüsü o dövr üçün ən yüksək ad alan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. Lakin təəssüflər olsun ki, həmin 26 nəfər sosialist əməyi qəhrəmanının hamısı milliyyətcə erməni idi [62]. Gələcəkdə üzüm əkin sahələrini daha da artırmaq nəzərdə tutulmuşdur.

1950-1960-cı illərdə DQMV-nin təsərrüfatlarında tütün əkinində azalma halı müşahidə edilmişdir. DQMV-nin bütün rayonları bitkiçiliyin bu sahəsi ilə məşğul olurdular. DQMV-də

1950-ci ildə 297 hektar, 1960-cı ildə 310 hektar, 1965-ci ildə 246 hektar, 1970-ci ildə isə 100 hektar sahədə tütün əkilmişdir [65]. Ağdərə və Xankəndi rayonları Dağlıq Qarabağın başqa rayonları ilə müqayisədə daha çox tütün əkirdilər. Xankəndi rayonunda tütün əkinində azalma (1950-ci ildəki 44 hektara qarşı, 1967-ci ildə 30 hektara enmə), Xocavənd, Hadrut və Şuşa rayonlarında isə tamamilə tütün əkinini dayandırma halı müşahidə edilmişdir. Xankəndi və Şuşa rayonlarının sovxozlarında yalnız 2 il – 1962-ci ildə cəmi 21 hektarda, 1964-cü ildə 22 hektarda tütün əkilmişdir. Şuşa rayonunda tütün əkini 1960-cı ildə 13 hektar, sonrakı illərdə ardıcıl olaraq 10-12 hektar arasında əkilmiş, 1965-ci ildə isə 9 hektar əkilmiş və artıq 1966-cı ildə tamamilə dayandırılmışdır. Qeyd edək ki, 1950-1960-cı illərdə Şuşa rayonunda hər hektardan 4 sentner məhsul götürülmüşdür [66].

Azərbaycan SSR Şuşa rayonunda əhalinin qədimdən məşğul olduğu təsərrüfat sahələrindən biri də kartofçuluq və tərəvəzçilikdir. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1950-1960-cı illərdə təsərrüfatın bu sahəsi ilə rayonun bütün kəndləri məşğul olurdu. Hətta burada yaşayan əhali öz şəxsi təsərrüfatlarında kartof, bağ və bostan bitkiləri əkirdilər. Bəhs etdiyimiz 20 il ərzində Şuşa rayonunun bütün təsərrüfatlarında kartof əkinində 70 faiz (188 hektardan 67 hektara) azalma halı müşahidə edilmişdir [68]. Kartof əkini sahəsində DQMV-i üzrə ən yüksək göstərici Xankəndi rayonunun payına düşürdü. Belə ki, 1950-ci ildə ümumi kartof əkin sahəsinin 30 faizi, 1970-ci ildə 39 faizi Xankəndi rayonu kolxoz, sovxoz və başqa dövlət müəssisələrinin üzərinə düşmüşdü [69]. DQMV-nin sovxozları əkinin bu sahəsinə az diqqət yetirirdilər. Xüsusilə ən aşağı göstərici Şuşa və Xocavənd rayonlarının sovxozlarının üzərinə düşürdü (orta hesabla 1 hektardan 3 hektaradək).

XX yüzilliyin 50-60-cı illərində Şuşa rayonunun bütün kəndləri tərəvəzçiliklə məşğul olmuşlar. Bəhs etdiyimiz illərdə rayonun kolxoz, sovxoz və digər dövlət müəssisələrində tərəvəz əkin sahəsində azalma müşahidə edilmişdir. Yəni, 1950-ci ildəki 144 hektara qarşı 1970-ci ildə 126 hektar [70]. Ümumi DQMV-nin rayonlarının kolxoz və sovxozlarının tərəvəz əkini sahəsi

üzrə ən yüksək göstərici, kartofçuluqda olduğu kimi Xankəndi rayonunun üzərinə düşmüşdür (təxminən 30 faiz). Kartof əkin sahəsi ilə müqayisədə rayonunun sovxozları, təsərrüfatlarında ümumi tərəvəz əkininin 17 faizi müqabilində bostan bitkiləri əkmişdilər.

1950-1960-cı illərdə Şuşa rayonunun bütün kateqoriyalarından olan təsərrüfatlarında kartof və tərəvəz bitkilərinin əkin sahələri, ümumi məhsul yığımı, hər hektardan götürülən kartof və tərəvəzin məhsuldarlığı haqqında aşağıdakı cədvəldən məlumat əldə etmək olar [71].

| **Məhsulun növləri** | **Ölçü vahidi** | **İllər** | | | |
|---|---|---|---|---|---|
| | | **1950** | **1960** | **1965** | **1970** |
| **Kartof (bütün kateqoriyalar üzrə)** | | | | | |
| 1. Əkin sahəsi | Hektarla | 69 | 62 | 65 | 62 |
| 2. Yığılan məhsul | tonla | 155 | 150 | 151 | 140 |
| 3. Məhsuldarlığı | Hər hektardan sentnerlə | 50 | 44 | 58 | 40 |
| **Tərəvəz (bütün kateqoriyalar üzrə)** | | | | | |
| 1. Əkin sahəsi | Hektarla | 26 | 38 | 37 | 45 |
| 2. Yığılan məhsul | Ton | 78 | 84 | 120 | 150 |
| 3. Məhsuldarlıq | Hər hektardan sentnerlə | 75 | 80 | 78 | 83 |

Cədvəldən göründüyü kimi Şuşa rayonunda 1950-1960-cı illər ərzində kartof əkini sahəsində olduğu kimi yığılan məhsulun ümumi həcmində də, hər hektardan götürülən məhsuldarlıqda da azalma halı müşahidə edilmişdir. Bölgədə kartofun məhsuldarlığının azalması hər şeydən öncə aqrotexniki qulluğun düzgün aparılmaması ilə bağlı olmuşdur. Kartof əkini sahələrindən yığılan məhsulların çoxu yerli əhalinin tələbatının ödənilməsinə

sərf olunurdu. Az bir hissə isə dövlətə satılırdı. Təsərrüfatlardan yığılan kartof yerli əhalinin tələbatını tam ödəyirdi.

Kartofçuluqdan fərqli olaraq Şuşa rayonunda tərəvəzçilikdə, əkin sahələrində də, yığılan məhsulun həcmində də (100 faiz), hər hektardan götürülən tərəvəzin məhsuldarlığında da (40 faiz) artım müşahidə edilmişdir. Şuşa rayonunun tərəvəzçilik təsərrüfatları ilk növbədə yerli əhalinin tələbatını ödəyir, qalan hissəni isə dövlətə satırdı. Ümumi tərəvəz məhsulunun həcmi ilə müqayisədə müvafiq illərdə əhalinin istifadə etdiyi məhsulu faizlə hesabladıqda 70-80 faiz olduğunu müşahidə edirik [72].

Şuşa rayonunun mənzərəsi üçün ən səciyyəvi cəhət yaraşıqlı meyvə bağlarının bolluğudur. Bağçılıq Qarabağ əhalisinin qədim, ənənəvi məşğuliyyəti olmuş və burada yaşayanların iqtisadi həyatında mühüm rol oynamışdır. Şuşa rayonunun hər yerində bağçılıqla məşğul olmuşlar. Bağlarda üzüm, alma, armud, qoz, fındıq, nar, əncil, qaragilə, zoğal, şahtut və başqa ağaclar əkilirdi. Üzüm və tut (çəkil) bağları müstəsna olmaqla, 60-cı illərdə Şuşa rayonunun kolxoz və sovxozlarındakı meyvə bağlarının əkin sahəsində, məhsuldarlıqda və məhsul yığımında əsaslı dəyişmə halı müşahidə edilmişdir. Belə ki, 1965-ci ildə Şuşada meyvə bağlarının həcmi 143 hektardan 109 hektara, götürülən məhsuldarlıq 25 sentnerdən 15 sentnerə, ümumi yığılan məhsul 400 tondan 143 tona enmişdir [73].

1950-1960-cı illərdə Şuşa rayonunda kənd təsərrüfatında bağçılıqda ümumi əkin sahəsinin 15 faiz, məhsuldarlığın 3,1 dəfə, ümumi məhsul yığımının 3,3 dəfə azalması səbəblərini araşdırarkən məlum olur ki, 60-cı illərdə köhnə bağlar yeniləri ilə əvəzləndirmək üçün məhv edilmişdir. Yeni bağları yaratmaq işi isə ləngiyirdi. Qoz, fındıq və digər qiymətli oduncağa malik ağaclar, ağac emalı müəssisələrinin işçiləri tərəfindən doğranırdı. Bəzi yaşlı ağaclar isə qanunsuz olaraq yanacaq məqsədilə kəsilirdi. Eyni zamanda, meyvə bağlarına qarşı Vilayət rəhbəri tərəfindən laqeydlik, biganəlik göstərilirdi. Təsərrüfat başçıları aqrotexniki qaydalara əməl etmirdilər. Bütün bunlar isə 1960-cı illərdə Şuşa rayonunda meyvə bağlarının 40 hektar ixtisarına səbəb olmuşdu.

Azərbaycanın Şuşa rayonunda bitkiçiliyin mühüm sahələrindən birini tutçuluq tuturdu. Bölgədə tutçuluq 2 istiqamətdə inkişaf edirdi. Bunlardan biri meyvə verən misilsiz dada və müalicəvi əhəmiyyətə malik tut bağları idi. İkincisi isə Qarabağ İpək Emalı Sənayesini xammalla təmin edən çəkil bağları hesab olunurdu.

Yeri gəlmişkən qeyd edək ki, rayonda yaşayan əhali şah tut ağacını qədimdən əkirdilər. Ecazkar qüvvəyə malik olan şahtutu «ömür ağacı» adlandırırdılar. Şəkərliliyin miqdarı 37 faizə çatan şahtutun bəhrəsi misilsiz dada və müalicəvi əhəmiyyətə malikdir. Şahtutdan bəhməz və irçal hazırlanır, qurudularaq ilin bütün fəsillərində yeyilir. Müalicəvi əhəmiyyətə malik olan tutu adi halda yedikdə insanda gümrahlıq, dinclik yaranır. Tutdan istehsal olunan spirt isə tibbi nöqteyi-nəzərdən böyük əhəmiyyətə malikdir. Oduncağından ağac emalı sənayesində qiymətli material kimi istifadə edilir. Dözümlü və quraqlığa davamlı olan şahtutun bəhrəsi ildə 8 dəfə yığılır. Aparılan araşdırmalar nəticəsində məlum olur ki, Şuşa ərazilərindəki şahtut ağaclarının bəzilərinin ömrü 150-200 ilə çatır. Bütün yuxarıda dediklərimiz müsbət cəhətləri nəzərə alan Şuşa əhalisi tut əkini sahələrini keçən əsrin 40-50-ci illərində genişləndirirdilər. Məsələn, Şuşa rayonunun kolxoz və sovxozlarında 1941-ci ildə 12 hektar tut bağı var idisə, 1955-ci ildə bu rəqəm 16 hektara, 1970-ci ildə 18 hektara çatmışdır. 1965-1970-ci illərdə Şuşa rayonu sovxozlarında yeni tut bağları əkilmiş, lakin həmin ağaclar balaca olduğundan lazımi səviyyədə məhsul verə bilməmiş, bu isə öz növbəsində hər hektardan götürülən məhsuldarlığın aşağı düşməsinə səbəb olmuşdur. Belə ki, 1955-ci ildə hər hektardan götürülən məhsuldarlıq 61,2 sentner olmuşdursa, 1965-ci ildə 54,7 sentnerə, 1970-ci ildə isə 41,8 sentnerə enmişdir [74]. Bəhs etdiyimiz dövrdə şəxsi həyətyanı təsərrüfatlarda da, şah tut ağacı əkilirdi. Şəxsi təsərrüfatlardan yığılan məhsullar istisna olmaqla, Şuşanın kolxoz və sovxozlarındakı tut bağlarından 1955-ci ildə 20 ton, 1965-ci ildə 25 ton, 1970-ci ildə isə 32 ton tut yığılmışdır. Onu da qeyd edək ki, DQMV-nin Xocavənd və Xankəndi rayonları tutçuluqla daha geniş məşğul olurdular. Bölgədəki

ümumi tut bağlarının təxminən 80 faizi bu 2 rayonun payına düşürdü. Yeri gəlmişkən onu da qeyd edək ki, 1970-ci ildə DQMV-də 1139 hektar sahədə tut bağı əkilmişdir ki, bunun 18 hektarı Şuşa rayonun payına düşmüşdür [75].

Bəhs olunan illərdə Şuşa rayonunda heyvandarlığı inkişaf etdirmək məqsədilə onun yem bazasının inkişafı ön planda dayanmışdır. Çünki aparılan tədqiqatlar nəticəsində məlum olur ki, XX yüzilliyin əvvəllərində heyvandarlıq məhsullarının aşağı səviyyədə olmasının əsas səbəbi yem bazasının zəifliyi ilə bağlı olmuşdur. Yəni həmin dövrdə əsas yem təbii biçənəklərdən yığılan ot, saman və ləmbədən ibarət idi. Azərbaycan hökuməti Şuşa rayonunda heyvandarlığı inkişaf etdirmək məqsədilə onun yem bazasının təkmilləşdirilməsi üçün 1939-cu ildən Sünjen İstinad Məntəqəsini yaratdı. 50-60-cı illərdə həmin məntəqəyə ayrılan vəsait 40-cı illə müqayisədə 2,5 dəfə artırıldı [77]. Günəbaxan, sarqo və qarğıdalı bitkilərdən daha çox məhsuldar olan qarğıdalı bitkisi (hər hektardan 316 sentner) bütövlükdə Dağlıq Qarabağın təsərrüfatlarında geniş sahələrdə əkilməyə başlandı.

1950-1960-cı illərdə DQMV-nin ayrı-ayrı rayonlarının kolxoz və sovxozlarında yem bitkilərinin əkin sahələrinin necə artdığını aşağıdakı cədvəldən də görmək olar (hektarla) [78]:

| **İllər** | **Bütün DQMV üzrə** | **O cümlədən rayonlarda** | | | | |
|---|---|---|---|---|---|---|
| | | **Xankəndi** | **Ağdərə** | **Xocavənd** | **Hadrut** | **Şuşa** |
| 1940 | 4966 | 1491 | 1842 | 762 | 646 | 225 |
| 1950 | 6740 | 1349 | 3410 | 1028 | 782 | 171 |
| 1960 | 22442 | 4901 | 6993 | 6050 | 3650 | 848 |
| 1970 | 24680 | 8100 | 7450 | 5930 | 2440 | 460 |

Cədvəldən göründüyü kimi 1970-ci ildə Xankəndi və Ağdərə rayonlarında əkilən yem bitkiləri bütün DQMV-də əkilən ümumi yem bitkilərinin 61 faizini təşkil edirdi. Əkilən yem bitkilərinin 75 faizi kolxozların üzərinə düşürdü.

1970-ci ildə Şuşa rayonunun kolxoz və sovxozlarında yem əkin sahəsi 1950-ci illə müqayisədə təxminən 3 dəfə artmışdır. Daha dəqiqini desək 15 hektardan 46 hektara çatmışdır. Qış yem bazası hazırlığında isə orta hesabla 38,5 faiz artım müşahidə edilmişdir. Bu artım quru ot yığımında 50 faizdən çox idisə, küləş və saman toplanışında 12,5 faiz, silos hazırlığında 10 faiz idi. Şuşa rayonunda yığılan yem, yerli tələbatın yalnız 70 faizini verirdi. Qalan 30 faizi isə kəpək, çiyid, müxtəlif qatışıqlı yem şəkilində Azərbaycan hökuməti tərəfindən göndərilmişdir. Yerli yem bitkilərinin isə hər hektarından əldə edilən məhsuldarlıq qənaətbəxş deyildir. Otlaqların hər hektarından 26 sentner quru ot, qarğıdalının hər hektarından 60 sentner qarğıdalı silosu, hər hektardan 90 sentner meyvə köklü bitkilər (çuğundur və s.), 13 sentner arpa yığılmışdır [79]. Şuşa rayonunda yem əkini sahələrinin dəfələrlə genişlənməsinə baxmayaraq, məhsuldarlığın aşağı düşmə səbəbləri araşdırılarkən məlum olur ki, yem əkini sahələrinin adi şumlanması tələbata uyğun deyildi. Məhsul yetişdirilərkən aqrotexniki qaydalara düzgün əməl edilmirdi. Məhsul yığımında, saxlanılmasında təsərrüfat qaydaları pozulurdu. Bütün bunlara baxmayaraq Azərbaycan hökuməti bölgədə saxlanılan heyvanların tələbatı müqabilində Şuşa rayonunun təsərrüfatlarını yem məhsulları ilə tam təmin edirdi.

Heyvandarlıq Şuşanın qabaqcıl kənd təsərrüfatı sahələrindən biridir. Bölgənin zəngin biçənəkləri və yaylaqları, ümumiyyətlə təbii şəraiti heyvandarlığın bütün sahələrinin inkişafına əlverişli şərait yaratmışdır. 1941-1945-ci illəri əhatə edən müharibə başqa sahələrdə olduğu kimi heyvandarlığa da, ağır zərbə vurmuşdur. 1946-1950-ci illərdə Azərbaycan hökumətinin gördüyü tədbirlər nəticəsində, mal-qaranın ümumi sayında 15 faiz artım müşahidə edilsə də, 1940-cı illə müqayisədə 1950-ci ildə qoyunların sayı 1,5 dəfə, keçilərin sayı 1,3 dəfə azalmışdır [80]. Mal-qaranın cins tərkibi pis olduğuna görə heyvandarlıqda məhsuldarlıq yüksək deyildir. Heyvandarlıq məhsullarının satınalma qiymətlərinin aşağı səviyyədə olması, rəhbərliyin azərbaycanlı zəhmət adamlarına laqeyd münasibəti, maliyyələşmə və kreditləşmə əməliyyatında rayonun azərbaycanlı

kəndlərinə qarşı mənfur siyasət və başqa obyektiv və subyektiv amillər Şuşanın heyvandarlıq sektorunda ciddi problemlər yaratmışdı. Bütün bunlar isə mərkəzi qane etmirdi. Odur ki, Sov. İKP MK 1953-cü ilin sentyabrında plenum keçirdi və mövcud vəziyyəti təhlil etdi. Həmin plenumda kənd təsərrüfatının, xüsusilə onun aparıcı sahələrindən biri olan heyvandarlığın inkişafı haqqında əlahiddə qərar qəbul olundu. Qərara əsasən kəndlilərin quş, xırdabuynuzlu mal-qara saxlaması üçün həvəsləndirmə prinsipləri tətbiq edildi. Kolxoz və sovxozlara mal-qaranın sayını planlaşdırmaq, torpaqdan səmərəli istifadə üçün becərilən bitkinin növünü müəyyənləşdirmək hüquqları verildi. Həmçinin dövlət tərəfindən heyvandarlıq məhsullarının satınalma qiymətləri artırıldı.

SSRİ Nazirlər Sovetinin və Sov. İKP MK-nın 31 iyul 1954-cü il «1955-1960-cı illərdə Azərbaycan SSR-nin kənd təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında» [81] və 1957-ci il iyulunda «Azərbaycan SSR-in dağlıq, dağətəyi və sərhəd rayonları kolxozlarına kömək göstərmək haqqında» qərarları [82] da, heyvandarlığın inkişafına təkan verdi. Çünki həmin qərara əsasən Azərbaycanın iqtisadi cəhətdən zəif olan kolxozlarının hesabından heyvandarlıq məhsullarının məcburi tədarükü üzrə olan borcları silindi. Həmin kolxozlar 5 il müddətinə gəlir vergisi ödəməkdən azad edildi.

Azərbaycan hökuməti Şuşa rayonunda maldarlığı daha da inkişaf etdirmək məqsədilə 1960-cı illərdə əsaslı vəsait sərfini artırdı. Belə ki, 1961-1964-cü illərdə Şuşa rayonunda mal-qara tövlələrinin tikintisi üçün 105 min manat vəsait ayrılmışdırsa, 1965-1967-ci illərdə bu rəqəm 2 dəfə artırılaraq 208 min manata çatmışdır [83]. 1960-cı illərdə mal-qaranın cins tərkibini yaxşılaşdırmaq və yeni, məhsuldar heyvanlar almaq üçün 60 min manat, yem bitkilərinin əkini üçün 95 min manat, əmtəəlik fermalarının təşkili, onların mexanikləşdirilməsi, texniki avadanlıq və maşınların alınması üçün Azərbaycan hökuməti tərəfindən 408 min manat vəsait ayrıldı. Apardığımız tədqiqatlardan məlum olur ki, mal qara tövlələrinin tikintisi üçün Şuşa rayonuna ayrılan vəsaitin həcmi, Dağlıq Qarabağın Xankəndi, Ağdərə, Xocavənd,

Hadrut rayonlarına ayrılan vəsaitdən 2 dəfə az olmuşdur. 1950-1960-cı illərdə Azərbaycan hökuməti Şuşa rayonunda ictimai fermaların tikintisini genişləndirdi. Belə ki, 1953-1971-ci illərdə iribuynuzlu mal-qara üçün 9 min yerlik, donuzçuluq üçün 6 min yerlik, qoyunçuluq üçün 40 min yerlik, quşçuluq üçün 60 min yerlik əmtəəlik heyvandarlıq fermaları tikildi [84]. Həmin fermalarda mexanikləşdirmə işləri həyata keçirildi. Yemin hazırlanması və mal-qaraya verilməsi, mal-qaranın su ilə təmin edilməsi və tövlələrin təmizlənməsi kimi çox əmək tələb edən işlər avtomat qurğular vasitəsilə yerinə yetirilirdi. Azərbaycan hökuməti tərəfindən heyvandarlıq fermaları, işini yaxşı bilən mütəxəssislərlə təmin olundu. Hansı ki, bu mütəxəssislər mal-qaranın düzgün yedizdirilməsində, xəstəliklərə qarşı mübarizədə maşın, aqreqat və elektrik avadanlıqlarının qaydasında işləməsində, heyvanların cins tərkibinin yaxşılaşdırılmasında xeyli işlər görmüşdülər.

Hələ 1920-1940-cı illərdə Azərbaycan hökuməti tərəfindən DQMV-nin Şuşa ərazisində baytarlıq məntəqəsi, Xankəndində Mərkəzi Aqroməntəqə, «Turşsu» damazlıq sovxozunda Diaqnoz Kabinəsi və başqa baytarlıq müalicəxanalarının təşkili Şuşa rayonunda mal-qara arasında xəstəliklərin aradan qaldırılmasına böyük təsir göstərmişdir. 1958-ci ildə isə DQMV-i ərazisində Rayonlararası Dövlət Damazlıq Stansiyası yaradılmışdır [85]. Bu stansiyada inəklərin süni sürətdə mayalanması işi həyata keçirildi. Bu tədbir Şuşa rayonunda mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına imkan vermişdir.

Bəhs etdiyimiz dövrdə Şuşa rayonundakı mal-qara sürülərində yerli cinslər üstünlük təşkil edirdi. Qaramal içərisində «Şilvs», «Lebedinski», «Qonur Karpat», «Qonur-Latviya» cinsləri üstünlüyə malikdir. Qoyunlarda isə «Sovet merinosu», «Azərbaycan dağ merinosu», «Qroznı merinosu». «Qafqaz» və «Salski» merinosları geniş yayılmışdır.

Eyni zamanda yay dövründə yaylaqlardan səmərəli istifadə olunması məsələsi də qaydaya salındı. Belə ki, qonşu dağ rayonlarının otlaq sahələrindən Şuşanın qoyunçuluqla məşğul olan təsərrüfatları lazımi səviyyədə istifadə edirdilər.

Azərbaycan hökumətinin Şuşa rayonuna göstərdiyi qayğının nəticəsi olaraq 1950-1960-cı illərdə bölgədə bütün kateqoriyalardan olan təsərrüfatlarda mal-qaranın və quşların sayı xeyli artdı. Həmin artımı aşağıdakı cədvəldən də, aydın görmək olar (bütün kateqoriyalar üzrə; dekabr məlumatı [86].

| **İllər** | **İri buynuz-lu mal-qara** | **Qoyun və keçilər** | **Donuzlar** | **Quşlar** | **Arı ailəsi** |
|---|---|---|---|---|---|
| 1950 | 5400 | 11717 | 136 | 2172 | 598 |
| 1960 | 5988 | 19571 | 852 | 5477 | 643 |
| 1965 | 5595 | 17656 | 740 | 3113 | 443 |
| 1970 | 6776 | 21676 | 1047 | 3506 | 311 |

Cədvəldən göründüyü kimi 1950-1960-cı illərdə Şuşa rayonunda bütün kateqoriyalardan olan təsərrüfatlarında iribuynuzlu mal-qaranın sayında təxminən 0,5 faiz, qoyun və keçiləri sayında 20 faiz, donuzların sayında 80 faiz, quşların sayında 90 faiz artım müşahidə edilmişdir. 1970-ci il məlumatına görə DQMV-i ərazisində saxlanılan iribuynuzlu mal-qaranın 32 faizi Ağdərə rayonunun, 23 faizi Xankəndi rayonunun, 22 faizi Xankəndi rayonunun, 14 faizi Hadrut rayonunun, 9 faizi Şuşa rayonunun payına düşürdü. Şuşa rayonunun iribuynuzlu mal-qaranın 60 faizi kolxozlarda, 15 faizi sovxozlarda, 25 faizi şəxsi təsərrüfatlarda saxlanılırdı [87].

Azərbaycan KP MK-nın və Azərbaycan SSRİ Nazirlər Sovetinin «şəxsi təsərrüfatlardan alınan kənd təsərrüfatı vergilərinin azaldılması» və «kənddə yaşayan fəhlə və qulluqçuların həyətyanı təsərrüfatların artırılması» haqqında qərarlarının Şuşa rayonunda tətbiq edilməsi nəticəsində 1950-1960-cı illər ərzində bölgədə fərdi təsərrüfatlardakı iribuynuzlu mal-qaranın sayı 3 dəfə artmışdır.

1950-1960-cı illərdə Azərbaycanın digər rayonları ilə müqayisədə Şuşa rayonunda donuzçuluq heyvandarlığın digər sahələri ilə müqayisədə daha zəif inkişaf etmişdir. Rayonun təsərrüfatdan bir neçəsində donuzçuluqla məşğul olurdu [88]. 1960-cı illərdə donuzçuluğun məhsuldarlığı 40 faizədək yüksəlmişdir. Donuzların cins tərkibinin yaxşılaşdırılması ilə fermalarda ağır çəkili, çox məhsuldar və daha çox bala verən donuzlar

əldə edilmişdir. Hətta, çox hallarda hər 100 doğar donuz 1500-2200 çoşka vermişdir. Nəticədə, 1950-1960-cı illərdə donuzların sayında böyük artım müşahidə edilmişdir. Belə ki, 1940-cı ildə rayonda 238 donuz, 1960-cı ildə 852-ə qarşı 1970-ci ildə 1047 başa çatmışdır. 1970-ci ildə kolxozlarda 882 baş, sovxozlar və digər dövlət müəssisələrində 14 baş, şəxsi təsərrüfatlarda isə 151 baş donuz saxlanılırdı [89]. Onu da qeyd edək ki, DQMV-nin 5 rayon arasında Şuşa rayonu təsərrüfatlarında donuzçuluqla daha az məşğul olurdular.

Qarabağ əhalisi qoyunçuluqla qədimdən məşğul olmuşlar. XX yüzilliyin birinci yarısında Şuşa rayonunda qoyunçuluğun inkişafına Azərbaycan hökumətinin diqqəti daha da artmışdır. Qoyunların cins tərkibi yaxşılaşdırılmış, mexanikləşdirilmiş iri Qoyunçuluq Əmtəə Fermaları yaradılmışdı. 1950-1960-cı illərdə Şuşa rayonunda qoyunçuluq təsərrüfatı sənaye əsasında inkişaf etmişdir. Burada saxlanılan heyvanlardan yarısı sırf zərifyunlu heyvanlar idi. Rayonda xəstəliyə, soyuğa, istiyə, aclığa və sair çətin vəziyyətə davamlı, yağlılığı və çəkisi çox olan ətlik-südlük növlər də vardır. Fermaların əksəriyyətində hər 100 qoyundan 110 quzu əldə edilmişdir. Görülən tədbirlərin nəticəsində Şuşa rayonunda bütün kateqoriyalardan olan təsərrüfatlarında qoyun və keçilərin sayı 1950-ci illə müqayisədə 1970-ci ildə təxminən 100 faiz artaraq 11717 başdan 21676 başa çatmışdır. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, iribuynuzlu mal-qara və donuz saxlanılmasında olduğu kimi, qoyunçuluğun da inkişafında 1970-ci ildə Şuşa rayonunda qoyun və keçilərin 6989 başı kolxozlarda, 6289 başı sovxozlarda, 8398 şəxsi təsərrüfatlarında saxlanılırdı [90]. Faktlardan aydın göründüyü kimi Şuşa rayonunun şəxsi təsərrüfatlarında saxlanılan qoyun və keçilərin sayı dövlət müəssisələrində saxlanılandan, həm də digər qonşu rayonlarla müqayisədə artıq idi. Lakin müqayisələr aparılarkən məlum olur ki, DQMV-nin digər rayonlarındakı şəxsi təsərrüfatları ilə müqayisədə Şuşa rayonunun şəxsi təsərrüfatlarında saxlanılan xırda buynuzlu heyvanların sayı təxminən 2 dəfə az olmuşdur. Bütün bunlar isə Vilayətdə məskunlaşmış erməni əhalisinin yaxşı yaşamasına şərait yaradırdı.

Şuşa rayonunda başqa təsərrüfat sahələrinə nisbətən daha cavan təsərrüfat sahəsi olan quşçuluq 1950-ci ildən sürətlə inkişaf etməyə başladı. Belə ki, Şuşa rayonunda quşların sayı 1940-cı ildəki 835-ə quşa qarşı 1950-ci ildə 3 dəfə artaraq 2172-y çatmışdır [91].

Sonrakı dövrlərdə Azərbaycan hökuməti Şuşa rayonunda ildən-ilə quş fermalarının tikintisinin genişləndirmişdir. Belə ki, 1953-1955-ci illərdə 5 min yerlik quş ferması, 1956-1960-cı illərdə 400 min yerlik, 1961-1965-ci illərdə 10 min yerlik, 1966-1970-ci illərdə isə 8 min yerlik quş fermaları tikilmiş, lazımi avadanlıqla, zootexnik xidmətilə, elektriklə, istiliklə, tələb olunan səviyyədə yemlə təmin olunmuş və quşların cins tərkibi yaxşılaşdırılmışdır [92]. Bütün bunlar isə öz müsbət nəticələrini vermişdir. Belə ki, 1970-ci ildə Şuşanın kolxoz və sovxozlarında quşların sayı 1940-cı illə müqayisədə 4 dəfə, 1950-ci illə müqayisədə isə 2 dəfə artmışdı. Qeyd edək ki, Şuşa rayonu ərazisində şəxsi təsərrüfatlarda saxlanılan quşlar yuxarıdakı siyahıya daxil deyildir. Bütün ev təsərrüfatlarında quşçuluqla məşğul olduğunu nəzərə alsaq rayonda quşçuluğun sürətli inkişafını aşkarlamış olarıq.

Arıçılıq Şuşa əhalisinin qədim və əhəmiyyətli məşğuliyyətlərindən biri olmuşdur. Buradakı məhsuldar torpaq, əlverişli iqlim şəraiti və havanın xoşluğu arıçılığı inkişaf etdirmək üçün əlverişli şərait yaradırdı. Ona görə də rayonun təsərrüfatlarında bu sahəyə daha yaxından fikir verilirdi. Artıq 60-cı illərdə arıçılıq Şuşa rayonunun kolxoz və sovxozlarının gəlirli sahələrindən birinə çevrilmişdi. Burada arıçılıq sürətlə inkişaf edirdi. 1963-cü ildə DQMV-də 78 Əmtəə Arıçılıq Ferması fəaliyyət göstərirdi. Burada az təsərrüfat tapılardı ki, arıçılıqla məşğul olmasın. Şuşa rayonunda hər 100 hektar sahəyə 30 arı ailəsi düşürdü. Şuşa rayonundakı arı fermalarından 50-si orta hesabla hər pətəkdən 25-35 kq. əmtəəlik bal verirdi [93]. Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində, Şuşa rayonunda 1941-1961-ci illərdə arı ailələrinin sayında artım halı müşahidə edilmişdir. 1961-1971-ci illərdə isə müəyyən obyektiv və subyektiv səbəblər ucbatından arı ailələrinin sayı xeyli

azalmışdır. Bu azalmaya səbəb bir tərəfdən hava şəraiti ilə bağlı olmuşdursa, ikinci bir tərəfdən həmin sahəyə baxımsızlıq halları müşahidə edilmişdir. 1940-1960-cı illərdə DQMV-də bütün kateqoriyalardan, ayrı-ayrı rayonlar üzrə arı ailələrinin inkişaf tempi barədə məlumatı aşağıdakı cədvəldən əldə etmək olar (arı ailələri: 1 yanvar məlumatı) [94].

| Rayonlar | İllər | | | | |
|---|---|---|---|---|---|
| | 1941 | 1951 | 1961 | 1966 | 1971 |
| DQMV-i üzrə cəmi: O cümlədən | 4944 | 9972 | 9964 | 6565 | 6559 |
| Xankəndi | 1908 | 3097 | 2374 | 1842 | 3406 |
| Ağdərə | 943 | 2372 | 2078 | 1446 | 1050 |
| Xocavənd | 939 | 2433 | 2644 | 1301 | 889 |
| Hadrut | 140 | 1475 | 2225 | 1533 | 903 |
| Şuşa | 414 | 595 | 643 | 443 | 311 |

Cədvəldən göründüyü kimi Şuşa rayonunda 1941-ci illə müqayisədə 1951-ci ildə arı ailələrinin sayı 229 ailədən çox artmışdır. 1952-1959-cu illərdə arı ailələrinin sayında nisbi çoxalma tempi müşahidə edilmişdir. Belə ki, dekabr 1959-cu il məlumatına görə Şuşa rayonunun təsərrüfatlarında 651 arı ailəsi var idi. Şuşa rayonunda 1962-ci ildən başlayaraq arı ailələri azalmışdır. 1961-ci illə müqayisədə 1971-ci ildə arı ailələri 3 dəfə aşağı düşmüşdür. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, Dağlıq Qarabağın sovxozlarında 1960-cı illərin ortalarından arı saxlanılmağa başlanmışdır. Şuşa rayonu sovxozlarında arı saxlanılmırdı.

Beləliklə, 1950-1960-cı illərdə Azərbaycan hökumətinin Şuşa rayonunda kənd təsərrüfatlarını inkişaf etdirmək sahəsində həyata keçirdiyi tədbirlər nəticəsində bütün kateqoriyalardan olan təsərrüfatlarda heyvanların sayı çoxaldı və onların cins tərkibi yaxşılaşdırıldı. Heyvandarlıq məhsullarının istehsalı və tədarükü artdı. Şuşa rayonunda 1950-1960-cı illərdə dövlətə

heyvandarlıq məhsullarının satışı vəziyyətini aşağıdakı cədvəldən görmək olar [95]:

| Məhsulun növləri | Ölçü vahidi | İllər | | |
|---|---|---|---|---|
| | | 1950 | 1965 | 1970 |
| Mal-qara və quş əti (diri çəkidə) | ton | 151 | 167 | 191 |
| Süd və süd məhsulları | ton | 1010 | 1042 | 1088 |
| Yumurta | min ədəd | 51 | 54 | 97 |
| Yun | ton | 14 | 15 | 22 |

Cədvəldən göründüyü kimi Şuşa rayonunda 1950-ci illə müqayisədə 1970-ci ildə ət istehsalı təxminən 10 faiz, süd və süd məhsulları istehsalı 3 dəfə, yumurta 2 dəfə, yun istehsalı 50 faiz artmışdı [96].

1950-1960-cı illərdə Şuşa rayonunda heyvandarlığında dövlətə süd satışı başlıca yer tuturdu. Bu sahə pul gəlirinə görə yalnız üzümçülükdən geridə qalırdı. Aparılan araşdırmalara əsasən məlum olmuşdur ki, Şuşa rayonunun bütün kolxozları və sovxozlarının əksəriyyəti əmtəə süd istehsalı ilə məşğul olmuşlar. 1958-ci ildə DQMV-də Rayonlararası Dövlət Damazlıq Stansiyasının açılması Şuşa rayonunda mal-qaranın cinsinin yaxşılaşmasına və məhsuldarlığın artmasına kömək etmişdir. 1953-cü ildə Şuşa rayonunda hər inəkdən ildə orta hesabla 2541 kiloqram süd sağılmışdırsa, 1965-ci ildə təxminən 2 dəfə artaraq 5081 kiloqrama, 1970-ci ildə isə 3 dəfə artaraq 8150 kiloqrama çatmışdır. Nəticədə, 1940-1960-cı illərdə Şuşa rayonunun kolxoz və sovxozlarında dövlətə süd satışı dəfələrlə artmışdır. Belə ki, 1940-cı illə müqayisədə 1950-ci ildə 50%, 1960-cı ildə 3 dəfə, 1970-ci ildə isə 5 dəfə artım müşahidə edilmişdir [97].

Şuşa rayonunun təbii-coğrafi mövqeyi qoyunçuluğun inkişafına şərait yaratmışdır. Rayonda saxlanılan qoyunlar ətlik-südlük və yunluq cins idi. Burada bəslənən qoyunlar boz, qumral və sarımtıl rəngdə olduğundan yunu boyamaq asan idi. Dünya bazarında, Rusiya sənayesində və yerli bazarlarda yuna böyük

tələbat var idi. Çünki yun xalça istehsalı üçün başlıca xammal mənbəyi hesab olunurdu. Odur ki, Şuşa rayonu ərazisində bu sahəyə dövlətimiz xüsusi diqqət yetirir və qoyunçuluq fermalarının sayını artırırdı. Belə ki, 1953-1955-ci illərdə 7 min yerlik, 1956-1960-cı illərdə 10 min yerlik, 1961-1965-ci illərdə 6 min yerlik Qoyunçuluq Əmtəə Fermaları (QƏF) tikilmişdi [98]. Azərbaycan hökuməti Şuşa rayonunda yaratdığı bu fermalarda mexanikləşmə, elektrikləşmə işlərini həyata keçirmiş, qoyunçuluğun yem bazasını yaxşılaşdırmışdır. 1950-1960-cı illərdə Şuşa rayonunda qoyunçuluğun inkişafı sahəsində Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər öz müsbət nəticəsini verdi. Belə ki, 1940-cı illə müqayisədə 1950-ci ildə qoyunların sayı 1,5 dəfə, 1960-cı ildə 2,7 dəfə, 1970-ci ildə 2,4 dəfə artdı. Başqa sözlə desək 1940-cı ildə Şuşa rayonunda qoyun və keçilərin sayı 15579 baş, 1950-ci ildə 11717 baş, 1960-cı ildə 19740 baş, 1970-ci ildə isə artaraq 21676 başa çatmışdır. 1970-ci ildə xırdabuynuzlu heyvanların 6989 başı kolxozlarda, 6269 başı sovxozlarda, 8418 başı şəxsi təsərrüfatlarda saxlanılırdı. Qoyunların sayındakı çoxalma dövlətə yun satışında da artıma səbəb olmuşdur. 1950-1960-cı illərdə Şuşa rayonunun müxtəlif kateqoriyalarından olan təsərrüfatlarından dövlətə yun satışının artım tempini aşağıdakı cədvəldən də görmək olar (tonla) [99]:

| **Kateqoriyalar** | **İllər** | | | |
|---|---|---|---|---|
| | **1940** | **1950** | **1960** | **1970** |
| Şuşa rayonunda bütün təsərrüfatlarından: O cümlədən | 8 | 16 | 15 | 22 |
| Kolxozlardan | 8 | 13 | 11 | 14 |
| Sovxozlardan | - | 3 | 4 | 8 |

Cədvəldən göründüyü kimi Şuşa rayonunda 1970-ci ildə dövlətə təhvil verilən yunun 14 tonu kolxozların payına düşürdü. Qeyd edək ki, Şuşa rayonunda şəxsi təsərrüfatlardan əldə edilən yun yuxarıdakı cədvəldə göstərilən ümumi göstəricilərə daxil

deyildi. Şuşa rayonunda şəxsi təsərrüfatlardan əldə edilən yunun bir hissəsi Şuşa, Tərtər, Ağdam, Bərdə bazarlarında satılır və ya yerli əhali tərəfindən xalça toxunması işinə sərf edilirdi.

1950-1960-cı illər Şuşa rayonu ərazisində quşçuluq da sürətlə inkişaf etmişdi. Bölgədə quşların sayı 2 dəfə artmışdı. Bu artımın səbəbləri hər şeydən öncə Azərbaycan hökuməti tərəfindən rayonda Quşçuluq Əmtəə Fermalarının yaradılması, fermalara yeni daha məhsuldar quş növlərinin verilməsi, quşçuluqda tələb olunan yem bazası ilə təmin olunması, quşçuluq fermalarının mexanikləşdirilməsi və elektrikləşməsi ilə əlaqədar olmuşdur. 1953-1955-ci illərdə Şuşa rayonunun kolxoz və sovxozlarında 10 min yerlik, 1956-1960-cı illərdə 20 min yerlik, 1961-1966-cı illərdə 25 min yerlik, 1966-1970-ci illərdə 20 min yerlik quş fermaları tikilmişdir [100]. 1950-1960-cı illərdə ümumilikdə Dağlıq Qarabağın kolxoz, sovxoz və digər dövlət təsərrüfatlarında bütün növlərdən olan quşların sayının necə artdığını aşağıdakı cədvəldən aydın görmək olar [101]:

| **DQMV-də O cümlədən rayonlarda** | **İllər** | | | | |
|---|---|---|---|---|---|
| | **1940** | **1950** | **1960** | **1965** | **1970** |
| | 19532 | 62350 | 85034 | 89912 | 162173 |
| Xankəndində | 3824 | 12626 | 8997 | 7701 | 15897 |
| Ağdərədə | 6581 | 24921 | 22300 | 21066 | 40777 |
| Xocavənddə | 3411 | 11775 | 27855 | 25307 | 44856 |
| Hadrutda | 4881 | 10856 | 20405 | 32725 | 57137 |
| Şuşada | 835 | 2172 | 5477 | 3115 | 3506 |

Şəxsi təsərrüfatlarda da quş saxlanılırdı ki, bu yerli əhalinin tələbatının ödənilməsinə istiqamətlənmişdi. Şuşa rayonunda saxlanan quşlar həm ətlik üçün istifadə edilirdi, həm də yumurta vermək qabiliyyətinə malik idi. Bəhs etdiyimiz dövrdə toyuqların illik yumurta verməsində artım müşahidə edilmişdir. Belə ki, 1960-cı ildə orta hesabla hər toyuq 60 yumurta verirdisə, 1965-ci ildə 66-ya, 1970-ci ildə isə 73-ə qalxmışdı. 1950-1960-cı illərdə dövlətə ümumi yumurta satışında böyük artım müşahidə

edilmişdir. 1940-cı illə müqayisədə 1970-ci ildə yumurtanın sayı 13 dəfə artmışdı. Şuşa rayonunda dövlətə yumurta satışı 1940-cı ildə 400 min, 1950-ci ildə 1 milyon 115 min, 1965-ci ildə 1 milyon 408 min, 1970-ci ildə isə 1 milyon 993 minə çatmışdır [102].

XX yüzilliyin 50-60-cı illərində DQMV-nin kənd təsərrüfatlarında yüksək gəlirli sahələrdən biri ipəkçilik olmuşdur. Qarabağ İpək emalı sənayesinin xammala olan tələbatını ödəmək məqsədilə barama istehsalını artırmaq tələb olunurdu. 1950-1960-cı illər ərzində DQMV-də barama qurdunun yem bazasının bərpası və genişləndirilməsi məqsədilə Azərbaycan hökuməti mühüm tədbirlər həyata keçirdi. İlk növbədə kumxana (barama qurdu saxlanan yer) tikintisinin genişləndirdi. Barama qurdu xəstəliklərini vaxtında aradan qaldırmaq məqsədilə Bakıdan mütəxəssislər göndərildi. 1950-1960-cı illər ərzində çəkil bağlarının əkini 5 dəfədən çox artdı. Əkilən yeni çəkil bağlarında əsasən yüksək keyfiyyətli enli yarpaqlı sortlar becərilməyə başlandı. Nümunəvi barama qurdu məntəqələri yaradıldı. Qabaqcıl iş təcrübəsi bölgədə tətbiq edildi. Nəticədə, 1950-1960-cı illərdə Vilayətdə bütün kateqoriyalardan olan təsərrüfatlarından dövlətə quru barama satışı xeyli artdı. Belə ki, 1940-cı ildə dövlətə 114 ton barama satılmışdırsa, 1950-ci ildə 152 ton, 1960-cı ildə 186 ton, 1970-ci ildə isə 194 ton barama istehsal olunmuşdur [103]. 1924-cü illə müqayisədə 1970-ci ildə hər barama qutusundan götürülən məhsuldarlıq 2,5 dəfə artmışdır [104].

Beləliklə, 1950-1960-cı illərdə Azərbaycan hökumətinin Şuşa rayonunda kənd təsərrüfatını inkişaf etdirmək sahəsində həyata keçirdiyi tədbirlər kolxoz və sovxozların maddi texniki bazasını nisbətən möhkəmləndirdi. Kolxozlar iri çoxsahəli təsərrüfatlara çevrildi. Sovxozların sayı və onların təsərrüfatları genişləndi. Dövlətimizin dərin qayğısı nəticəsində Şuşa rayonunda kənd təsərrüfatı məhsullarının istehsalı və tədarükü artdı. 1950-1960-cı illərdə bütövlükdə Azərbaycan üzrə kənd təsərrüfatının ümumi məhsulu 1,9 dəfə çoxalmışdırsa, Respublikamızın məhsuldar torpağa, əlverişli iqlim şəraitinə və bol su ehti-

yatlarına malik bütün Dağlıq Qarabağ təsərrüfatlarında o cümlədən Şuşa rayonunda bu göstərici 4,5 dəfəyə qalxmışdır [105].

XX yüzilliyin 80-ci illərinin sonlarından mənfur «Böyük Ermənistan» yaratmaq niyyətində olan erməni ideoloqları bütün dünyada ictimai rəyi öz tərəflərinə çəkmək məqsədilə tarixi faktları saxtalaşdıraraq əzabkeş obrazından çıxış edərək pis yaşadıqlarından şikayət etməyə başlamışdılar. Halbuki aşağıdakı, 1950-1960-cı illərə aid rəqəmlər erməni böhtanını yalanını bir daha sübut edir. Belə ki, aparılan müqayisəli araşdırmalar nəticəsində məlum olur ki, yanvar 1970-ci ildə hər bir adam günə düşən ümumi məhsul, Respublikamızın kolxozlarında orta hesabla 4,7 manat təşkil etmişdir. Bu göstərici Lənkəran-Astara bölgəsində 1,9 manat Naxçıvan MSSR-də 3,5 manat, Gəncə-Qazax bölgəsində 3,8 manat, Şirvan zonasında 4,8 manat idisə, Dağlıq Qarabağda 6 manata çatmışdır [106]. Ən yüksək əmək məhsuldarlığı səviyyəsinə malik olan DQMV-də Lənkəran-Astara bölgəsinə nisbətən 3,1 dəfə artıq olmuşdur. Həmin vəziyyət hər 100 hektar kənd təsərrüfatına yararlı torpaq sahəsinə düşən ümumi məhsulun dəyərində də müşahidə olunur. Məsələn, ümumrespublika üzrə bu göstərici 13,1 min manata bərabər idisə, Naxçıvan MSSR-də 12,2 min manat, Qarabağ-Mil zonasında 12,6 min manat, Gəncə-Qazax bölgəsində 9,4 min manat, Lənkəran-Astara zonasında 3,9 min manata, DQMV-də isə 17,4 min manata çatırdı [107].

1969-cu ildə Azərbaycanda hər bir kənd təsərrüfatında işləyən kolxozçuların aylıq qazancı orta hesabla 143 manat idi. Aparılan araşdırmalar nəticəsində məlum olur ki, Azərbaycanın ayrı-ayrı bölgələri arasında bu göstərici DQMV-də daha üstün olmuşdur. Belə ki, Lənkəran-Astara bölgəsində 77 manat, Naxçıvan MSSR-də 129 manat, Gəncə-Qazax bölgəsində 123 manat, Şirvan zonasında 149 manat, Muğan-Salyan zonasında 136 manat olmuşdursa Dağlıq Qarabağda 161 manata çatmışdır. Aparılan araşdırmalardan məlum olur ki, hər bir kolxozçuya düşən əsas istehsal zonalarının dəyərinə görə Dağlıq Qarabağ ümumrespublika üzrə birinci yerdə dayanmışdır. Belə ki, bəhs etdiyimiz ildə Naxçıvan MSSR-də bu göstərici 594,8 manat,

Lənkəran-Astara zonasında 366,3 manat, Gəncə-Qazax zonasında 523,1 manat olmuşdursa, Vilayətdə isə 1 milyon 574,2 manata çatmışdır. Eyni vəziyyət kolxoz və sovxozlarda becərilən çoxillik bitkilərin əkinində də özünü göstərmişdir. Məsələn, Naxçıvan MSSR-də bu göstərici 5,2 faiz, Qarabağ Mil zonasında 5,2 faiz, Muğan-Salyan zonasında 1,6 faiz, Lənkəran-Astara zonasında 2 faiz olmuşdursa, Dağlıq Qarabağda 11,1 faizə çatmışdır [108]. Əlbəttə, bu və ya buna bənzər faktlar minlərlədir. Bütün yuxarıda sadalanan yüksək iqtisadi göstəricilər hər şeydən öncə Azərbaycan hökumətinin bütövlükdə DQMV-ə, göstərdiyi dərin qayğısının nəticəsi idi.

1950-1960-cı illər Şuşa rayonunda kənd təsərrüfatının inkişafı sahəsində Vilayət rəhbərliyinin kəndlərdə həyata keçirdiyi tədbirlər nəzərdən keçirilərkən məlum olur ki, Vilayət Partiya Komitəsi və Rayon İcraiyyə hakimiyyəti azərbaycanlılar yaşayan kəndlərə ögey münasibət göstərmişlər. Əliqabarlı azərbaycanlı zəhmət adamlarının ağır əməyi heç vaxt qiymətləndirilməyib və həmişə diqqətdən kənarda qalıb. Azərbaycanlılar yaşayan kəndlərdəki əkin üçün yararlı torpaq sahələri vaxtaşırı qeyri kənd təsərrüfatı məqsədlər üçün istifadə edilmiş, məqsədli şəkildə müxtəlif yerlərdə qazıntı axtarış işləri aparmaqla əkin yerləri yararsız hala salınmışdır. Burada məkirli niyyət sahiblərinin yeganə mənfur siyasəti, qədimdən Şuşa rayonunda yaşayan azərbaycanlıları bezdirib ata-baba yurdundan çıxarmaq və süni surətdə ermənilərin say çoxluğuna nail olmaq kimi xəyanətkar məqsədləri var idi və çox təəssüflər olsun ki, bir qrup gəlimə «qonşularımız» həm də, bizim təvazökarlığımızdan, ürəyitəmizliyimizdən, eyni zamanda laqeydliyimizdən istifadə edib, iyrənc məqsədlərinə nail oldular. Zaman-zaman Şuşa rayonunda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə məruz qaldı və hissə-hissə min illər boyu yaşadıqları öz doğma tarixi etnik torpaqlarından didərgin düşdülər.

Beləliklə, 1950-1960-cı illərdə Sov. İKP MK-nın Azərbaycanda aqrar sahədə həyata keçirdiyi bir sıra «islahatlar» nəticəsində kənd təsərrüfatı əvvəlki dövrlərlə müqayisədə inkişaf

etdi və Respublikamızın kənd təsərrüfatı məhsulları vaxtaşırı olaraq Ermənistana, Rusiya və onun ucqar ərazilərinə daşınmağa başlanıldı. Lakin aqrar bölmənin inkişafına maneə olan bəzi amillər hələ də qalmaqda davam edirdi.

1950-1960-cı illər Azərbaycanda kənd təsərrüfatının ümumi inkişaf məsələlərinə qiymət verən ümummilli liderimiz Heydər Əliyev öz fikrini belə ifadə etmişdir: «1940-cı illə müqayisədə 1960-cı ildə Azərbaycanda kənd təsərrüfatının məcmu məhsulu 2 dəfə, bütün maliyyələşdirmə mənbələri üzrə kapital qoyuluşu 3,8 dəfə artmışdır... 50-60-cı illərdə qazanılan nailiyyətlərin əhəmiyyətini azaltmadan onu da qeyd etmək vacibdir ki, həmin dövrdə Respublikamızın iqtisadi inkişafında bir sıra mənfi meyillər də özünü göstərməyə başlamışdır. Belə ki, 60-cı illərdə Azərbaycanda kənd təsərrüfatında istehsalın həcmi, ictimai əməyin məhsuldarlığı ümumittifaq göstəricilərindən geri qalırdı... Kənd təsərrüfatında meliorasiya və dəmyə torpaqların suvarılması işində nöqsanlar var idi. Kənd təsərrüfatı işlərinin mexanikləşdirilməsi aşağı səviyyədə idi. Aqrotexniki qaydaların pozulması üzündən taxılın, pambığın, tərəvəzin... və başqa bitkilərin məhsuldarlığı istənilən səviyyədə deyildi. İstehsal qüvvələrinin yerləşdirilməsi işində kobud yanlışlıqlara yol verilmişdi... Təsərrüfatlarda struktur dəyişiklər aparmalı, yeni həvəsləndirmə metodları tətbiq etməli və kənd təsərrüfatını daha da inkişaf etdirmək lazım idi [109].

## XV FƏSİL

# AZƏRBAYCANDA İDARƏÇİLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİ və ŞUŞA RAYONUNDA KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI (1970-1988-ci illər)

Bu gün müstəqillik və tərəqqi yolunda inamla addımlayan, azad və demokratik dövlət kimi dünya birliyində layiqli yer tutan, iqtisadi və siyasi islahatları uğurla həyata keçirən Azərbaycan Respublikasının müasir tarixinin təqribən yarım əsrə bərabər dövrü və bu dövr ərzində qazandığı nailiyyətlər, uğurlar xalqımızın ümummilli lideri, dünya şöhrətli siyasətçi Heydər Əliyevin həyatı və fəaliyyəti ilə bilavasitə bağlı olmuşdur. 1969-cu ildə Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə ölkə həyatının bütün sahələrində çox böyük müsbət dəyişikliklər baş vermişdir. Sovet totalitar rejiminin yaratdığı məhdud imkanlardan məharətlə istifadə edən Heydər Əliyev Azərbaycanın sosial-iqtisadi, mənəvi-mədəni inkişafına zəmin yaradacaq mühüm qərarlara imza atmaqla, doğma vətəninin çiçəklənməsi üçün mümkün olan hər şeyi etmişdir. Hələ o zaman Azərbaycanın gələcək müstəqil dövlət kimi yaşaya bilməsi üçün zəruri olan əsaslar – iqtisadi, mənəvi-mədəni potensial yaradılmış, milli kadr problemi həll edilmişdi. O dövrdə iqtisadiyyat, mədəniyyət, təhsil sahəsində əldə edilən tərəqqi, milli birliyə nail olunması, milli özünüdərkin yüksəlişi müstəqil dövlətin yaranmasına xidmət edən strategiyanın bünövrəsini qoymuşdu. Bugünkü müstəqil Azərbaycanın əldə etdiyi uğurlar məhz həmin dövrdə Heydər Əliyev tərəfindən yaradılmış möhkəm təmələ əsaslanır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi «Heydər Əliyev ictimai-siyasi quruluşdan asılı olmayaraq, sözün əsl mənasında, bütün dövrlərdə Azərbaycan xalqının lideri idi. 1970-1980-ci illərdə ölkəyə rəhbərlik etdiyi dövr ərzində onun tərəfindən görülmüş işlər Azərbaycan xalqının maraqlarına xidmət edirdi. Məhz onun fəaliyyəti nəticəsində

Azərbaycana mərkəzi fondlardan böyük həcmdə vəsait gətirilirdi. Yeni zavodlar, fabriklər tikilirdi. İndi bu zavod və fabriklər Azərbaycanın iqtisadi və sosial potensialına böyük dəstəkdir. Əgər o dövrdə Azərbaycanda iri sənaye infrastrukturu yaranmasaydı, xüsusilə neft sahəsində, neft emalı sahəsində nəhəng qurğular tikilməsəydi, bu gün Azərbaycanın iqtisadi potensialı o qədər də güclü ola bilməzdi» [Azərbaycan qəzeti, 12.03.2007].

Heydər Əliyev respublikaya rəhbərlik etdiyi bütün fəaliyyəti ərzində vətəninə sədaqətli xidməti ilə əsl azərbaycançılıq nümunəsi göstərmişdir. O, əsl millət rəhbəri, dövlət başçısı kimi Azərbaycanın bütün bölgələrinin ahəngdar inkişafına böyük diqqət yetirirdi.

Vətənin torpağı, hər guşəsi onun üçün müqəddəs və əziz idi. Heydər Əliyevin vətən məhəbbəti, hər hansı etnik, regional amillərin fövqündə dayanan, ilahi məhəbbəti idi. Lakin etiraf etməliyik ki, ümummilli liderimizin Qarabağa münasibəti Azərbaycanın digər bölgələrinə olan münasibətindən bir az müsbət mənada fərqli səciyyə daşıyırdı.

Heydər Əliyev peşəkar tarixçi, təhlükəsizlik orqanlarının təcrübəli rəhbər işçisi kimi bu regionun hansı mürəkkəb geosiyasi və coğrafi şəraitdə yerləşdiyini, ermənilərin tarixən bu torpağı ələ keçirmək üçün hansı fitnələrə əl atdığını çox gözəl bilir, buna görə də muxtar vilayətin təkcə sosial-iqtisadi cəhətdən inkişafına deyil, burada Azərbaycanın milli mənəvi, sosial-demoqrafik faktorlarının daha da artaraq mütləq üstünlük təşkil etməsinə çalışırdı. Bu məqsədlə hələ sovet hakimiyyəti illərində muxtar vilayətdə iri sənaye potensialının yaradılmasına, kənd təsərrüfatının inkişaf etdirilməsinə, sosial infrastrukturun, elm, təhsil sisteminin formalaşmasına, ziyalı təbəqəsinin, kadr potensialının yüksəldilməsinə şərait yaradan kompleks qərarlar vermişdi.

Heydər Əliyevin həyat və fəaliyyəti Azərbaycan xalqı üçün elə bir tükənməz xəzinədir ki, bu xəzinədən qədirbilən xalqımız hələ neçə əsrlər faydalanacaq, onun zəngin və çoxşaxəli irsindən öyrənərək ibrət dərsi alacaqdır. Neçə illər, əsrlər keçsə də onun siyasi dühası milyonlarla insanı özünə cəlb edəcək, bu

böyük insanın tarixi irsindən, dövlətçilik ənənəsindən, idarəçilik məktəbindən neçə-neçə nəsillər bəhrələnəcəklər. Heydər Əliyevin davamlı inkişaf strategiyasının mühüm tərkib hissəsini Azərbaycanın bütün bölgələrinin ahəngdar surətdə inkişafı təşkil edirdi. Bu baxımdan Heydər Əliyevin Azərbaycan bölgələrinin inkişaf strategiyasının hərtərəfli araşdırılması və təhlili mühüm nəzəri və əməli əhəmiyyət kəsb edir. Heydər Əliyev Azərbaycan xalqının tarixinin, mədəniyyətinin tədqiqini və öyrənilməsini daim diqqət mərkəzində saxlamış, tarix elminin inkişafı üçün əlverişli şərait yaratmışdı. Qarabağın çoxəsrlik tarixini yüksək qiymətləndirən Heydər Əliyev Azərbaycanın bu zəngin tarixə malik bölgəsinin qədim və orta əsrlər, yeni dövr tarixini hərtərəfli araşdırmağı tövsiyə edirdi. Milli lider qeyd edirdi: «Azərbaycanın bir hissəsi olan Qarabağ tarixi ilə əlaqədar gərək çox fundamental əsərlər yaradaq, bu əsərlərlə də təkcə iddiaçılara cavab vermək üçün yox, bütün dünyaya Azərbaycanın qədim, zəngin tarixini, mədəniyyətini göstərək» («Azərbaycan» qəzeti, 11.02.1999-cu il). Bu baxımdan təqdim olunan fəslin təhlili mühüm aktuallıq kəsb edir.

«Azərbaycanda idarəçiliyin möhkəmləndirilməsi və Şuşa rayonunda kənd təsərrüfatının inkişafı (1970-1988-ci illər)» mövzusu tarixşünaslıqda bilavasitə ayrıca tədqiqat obyekti olmasa da, mövzu ilə bağlı bir çox məqamlar tarixi, siyasi, iqtisadi ədəbiyyatda öz əksini tapmışdır. Tədqiqatımızın predmetinə uyğun ədəbiyyatın təsnifatını şərti olaraq iki qrupa ayırmaq olar.

Birinci qrupa ulu öndərimiz Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinə, dövlətçilik baxışlarına həsr edilmiş əsərlər daxildir ki, həmin əsərlərdə bütövlükdə Azərbaycanın, o cümlədən onun ayrılmaz bir hissəsi olan Qarabağın və onun tacı olan Şuşa şəhərinin sosial-iqtisadi və mədəni inkişafının işıqlandırılmasıdır.

Bu baxımdan R.Mehdiyevin, Y.Mahmudovun, İ.Hüseynovanın, İ.Hacıyevin, M.Qasımlının, E.Axundovanın, İ.Zeynalovun, O.Sultanovun, E.Axundovanın, B.Budaqovun, Ə.Məmmədovun, A.Səmədovun, İ.Zeynalovun yazdıqları əsərlər

böyük əhəmiyyət kəsb edir və fəsil təhlil edilərkən yuxarıda adı gedən əsərlərdən bəhrələnmişik [1].

İkinci qrupa daxil olan əsərlərə 1970-1980-ci illər Şuşanın iqtisadi-siyasi və mədəni həyatını özündə əks etdirən monoqrafiyalar, məqalələr, elmi tədqiqat əsərləri daxildir.

Q.Hacıyevin “Qarabağ tarixi (dərs vəsaiti)” (Bakı, 2014), R.İmanovun «Sosialist Dağlıq Qarabağı» (Bakı, 1971), Yenə onun «Çisəklənən diyar» (Bakı, 1984), «Azərbaycanın ərazi bütövlüyünə qəsd və qondarma DQMV» (Bakı, 2005), M.Əliyevin «Azərbaycan iqtisadiyyatı» (Bakı, 1998), Y.Fərzəliyevin «DQMV-nin kəndlərinin sosial-iqtisadi inkişafı» (Bakı, 1984), N.Hacıyevin «Dağlıq Qarabağın tarixindən sənədlər» (Bakı, 2005), N.Məmmədovun «Azərbaycan SSR-in DQMV-də ictimai-siyasi həyat, iqtisadi və mədəni inkişaf (1823-1991)» (Bakı, 2008), M.Səfərovun «Sovet Dağlıq Qarabağı» (Bakı, 1983, S.Borsun «Dağlıq Qarabağ» (Bakı, 1975), N.Məmmədovun «Azərbaycan SSR Dağlıq Qarabağ bölgəsinin şəhər və rayonlarının tarixi (XX yüzilliyin 20-30-cu illəri)» (Bakı, 2010), «Azərbaycan SSR DQMV-nin tarixi mənbələrdə» (Bakı, 2014) və digər əsərlər ikinci qrupa daxil olan əsərlərdir və yeri gəldikcə bu əsərlərdən mənbə kimi istifadə edilmişdir.

1970-1980-ci illərdə Azərbaycanın kənd təsərrüfatındakı vəziyyəti qısaca olaraq aşağıdakı kimi səciyyələndirmək olar. Belə ki, bəhs olunan dövrdə Azərbaycanın kənd təsərrüfatının, xüsusən pambıqçılığın, tərəvəzçiliyin, tütünçülüyün inkişafına diqqət artırılmışdı. Kənd təsərrüfatında texniki təchizat səviyyəsi, ittifaq üzrə orta göstəricilərə belə çatmasa da xeyli yaxşılaşmışdı. 1989-cu ildə kolxoz və sovxozlarda 36,1 min traktor, 4,5 min taxılyığan kombayn, 4,2 min pambıqyığan maşın, 10 minlərlə başqa texnika var idi. Buna baxmayaraq, işlərin mexanikləşmə səviyyəsi çox aşağı idi. Pambıqçılıqda, tütünçülükdə, tərəvəzçilikdə, yığım işlərində əsasən əl əməyi tətbiq olunurdu. 1970-ci illərdə Baş Mil, Ciqar – Cibar, Abşeron, Lənkəran kanalları, Araz su qurğusu, Arpaçay, Sərsəng, Yuxarı Xanbulançay, Sirab, Şəmkir, Köndələnçay dəryaçaları tikilib istifadəyə verildi. 80-ci illərdə Əyriçay, Vələşçay, Bənənyar,

Qozluçay, Cavanşir, Aşağı Əkərə, İncəçay dəryaçaları yaradıldı, Yuxarı Qarabağ, Yuxarı Şirvan kanalları, Şirvan kollektorları yenidən quruldu, Şəmkir kanalı çəkildi. 80-ci illərin axırlarında Respublikada 1,4 milyon hektara qədər suvarılan torpaq vardı. Mərkəzin tələb etdiyi kimi, texniki bitkilərin, xüsusən pambığın əkin sahələri xeyli genişlənmişdi. 1986-cı ildə artıq 300,4 min hektar sahədə pambıq əkilirdi. Bərdə, Ağcabədi, Sabirabad və Beyləqan iri pambıq istehsalı rayonlarına çevrilmişdi. Dənli bitkilərin əkin sahəsi 412 min hektar təşkil edirdi. Sonrakı illərdə pambıq əkini sahələri ixtisar edildi. Dənli bitkilərin əkin sahələri artırıldı. XX yüzilliyin 80-ci illərinin sonlarında Azərbaycanda 245 min hektar sahədə pambıq, 652 min hektar sahədə isə taxıl əkilirdi. 70-ci illərin sonu – 80-ci illərin birinci yarısında Azərbaycanda üzümçülük intensiv surətdə inkişaf etdirildi. 90 min hektara qədər üzümlüklər salındı. 1985-ci ildə burada 268 min hektar üzümlük vardı. Lakin 80-ci illərin ikinci yarısında bütün Sovet imperiyasında alkoqolizmə qarşı mübarizə kompaniyası başlanandan sonra yüz min hektardan çox üzümlük məhv edilmiş, xalqa böyük ziyan vurulmuşdu. 50-60-cı illərdə Azərbaycan dağlıq rayonlarında kiçik heyvandarlıq təsərrüfatlarının ləğv edilməsi burada heyvandarlığın inkişafının xeyli ləngiməsinə səbəb olmuşdu. Hətta 70-80-ci illərdə iri heyvandarlıq komplekslərinin tikilməsi, təsərrüfatlararası heyvandarlıq müəssisələrinin yaradılması, yem bazasının nisbətən genişləndirilməsi də bu sahədə köklü dəyişikliyə şərait yaratmadı. 80-ci illərin sonunda Respublikada 2 milyon başa qədər qoyun və keçi vardı. Heyvandarlıq ən zəif sahə olaraq qalırdı. Bu illərdə Azərbaycanda tərəvəzçilik daha da inkişaf etdirildi. Tərəvəz əkini sahələri, əsasən Lənkəran, Astara və Quba-Xaçmaz, Qarabağ zonalarında xeyli artırıldı. SSRİ-nin mərkəzi şəhərlərinə hər il yüz min tonlarla tərəvəz göndərildi. 80-ci illərin axırlarında hər il 900 min tona yaxın tərəvəz istehsal edən Respublikanın əhalisi tərəvəzi ölkə üzrə orta göstəricidən az istehlak edirdi. 70-80-ci illərdə Azərbaycan SSR-də kənd təsərrüfatı məhsulu istehsalı 2 dəfə artmışdı. Lakin texniki monokultura, şəxsi təsərrüfatların sıxışdırılması, kəndlilərin, habelə bütün əhalinin

ərzaqla təminatını əsaslı şəkildə yaxşılaşdırılmağa imkan vermirdi. Respublika ərzaq sarıdan mərkəzdən, demək olar ki, tam asılı idi. 1989-cu ildə burada istehlak olunan taxılın cəmi 30, ətin 43, südün 32, 3 faizini Azərbaycanın təsərrüfatları verirdi. 80-ci illərin ikinci yarısında aqrar sahəyə diqqətin azalması 70-ci illərə nisbətən 80-ci illərdə kənd təsərrüfatı məhsulları istehsalı artım sürətinin 2,3 dəfə aşağı düşməsinə səbəb olmuşdu.

Azərbaycan KP Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilən plenumunda Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nin birinci katibi seçildi [1, s.191]. Bu hadisə Azərbaycan tarixində böyük əhəmiyyət kəsb edir. Çünki, 1969-cu ildən Azərbaycan tarixində dönüş mərhələsinin təməli qoyuldu və Respublikamızın iqtisadi, siyasi və mənəvi həyatında dinamik inkişaf baş verdi. Ümummilli liderimiz Heydər Əliyev çıxışlarından birində həmin dövrü belə qiymətləndirilmişdir: «1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur... Həmin dövrdə, qəbul olunmuş proqramın həlli yollarında böyük iş aparmağa başlayan fəhlə və kolxozçular, respublika ziyalıları iqtisadiyyat və mədəniyyətin bütün sahələrində xalqın maddi və mənəvi baxımından artan tələbatının təmin olunması işində çox yüksək nəticələr əldə etmişlər. Müharibədən sonrakı dövlətlərdə, ilk dəfə olaraq, doqquzuncu və onuncu beşilliklər üçün xalq təsərrüfatının inkişaf planları vaxtından əvvəl yerinə yetirilmişdir» [2, s.18].

1969-cu il avqustun 5-də Heydər Əliyev Azərbaycan KP MK Plenumundakı çıxışında respublikanın iqtisadiyyatını dərin və hərtərəfli təhlil edərək, təsərrüfata rəhbərlikdə, mədəni quruculuqda, ideoloji işdə ciddi nöqsanlar olduğunu qeyd etdi və onların aradan qaldırılması yollarını göstərdi. Plenumda, dövlət əmək intizamını möhkəmləndirmək və respublikada mənəvi-psixoloji sağlamlıq yaratmaq vəzifələri irəli sürüldü. Heydər

Əliyevin rəhbərliyi altında Azərbaycan KP-nin XXVIII (10-12 may 1971-ci il), XXIX (28-30 yanvar 1976-cı il), XXX (28-30 yanvar 1981-ci il) qurultaylarında, MK-nin plenumlarında, vaxtaşırı çağırılan müşavirələrdə respublikamızın iqtisadi, mənəvi və sosial-mədəni inkişafının konkret vəzifələri, təşkilati tədbirlər müəyyən edildi [3, s.492].

XX yüzilliyin 70-ci illərində Azərbaycanda idarəçilik sistemi xeyli möhkəmləndi. Korrupsiyaya və rüşvətxorluğa qarşı ciddi tədbirlər görüldü. Bəhs etdiyimiz dövrdə bütün dövlət hakimiyyət orqanlarının işi xalqın iqtisadi, sosial-mədəni tərəqqisi və milli oyanış siyasətinin reallaşmasına yönəldi. Ümummilli liderimiz Heydər Əliyevin xalqımız üçün ən böyük xidmətlərindən biri Azərbaycanda xalq təsərrüfatının inkişafı üçün ittifaq fondundan külli miqdarda vəsait ayrılmasına nail olmasında idi. Hətta dövlət başçımızın bilavasitə təşəbbüsü ilə SSRİ rəhbərliyi, bəhs etdiyimiz illərdə Azərbaycanın iqtisadi inkişafı üçün 5 mühüm qərar qəbul etmişdir. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra regionların iqtisadi, sosial və mədəni inkişafına qayğısı daha da artdı. O cümlədən Azərbaycanın ayrılmaz hissəsi olan DQMV həmişə uzaqgörən dövlət başçısının diqqət mərkəzində olmuşdur. Şuşa şəhərinin inkişafı üçün Azərbaycan KP MK-si bir neçə dəfə qərar qəbul etmişdir. 1970-ci ilin əvvəllərindən başlayaraq Şuşa şəhərinin tarixi abidələrinin bərpa olunmasına, yeni binaların tikilməsinə başlanmışdır. 1980-1981-ci illərdə Molla Pənah Vaqifin qəbri üzərində böyük məqbərə ucaldılmışdır. Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərində Üzeyir Hacıbəyovun, Bülbülün ev muzeyləri açılmış və Xan qızı Nətavanın heykəli qaldırılmışdır. Şəhərdə böyük mehmanxana, çoxmərtəbəli yaşayış binaları, inzibati binalar tikilmişdi. Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində Şuşa ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi [4, s.69]. Görülən tədbirlərin nəticəsi idi ki, Dağlıq Qarabağda əhalinin təminatı həmişə Azərbaycan SSR üzrə orta göstəricilərdən yüksəkdə dayanmışdır. Hansı ki, aşağıda bu barədə geniş bəhs ediləcəkdir. 1973-cü ildə Xankəndində Azərbaycan Pedaqoji

İnstitutunun filialı əsasında Pedaqoji İnstitut açıldı. 1979-cu ildə Ağdamdan Xankəndinə dəmir yolu çəkildi [4, s.49].

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə ən mühüm iqtisadi nəticələrdən biri Respublikamızda kənd təsərrüfatının dinamik inkişaf etməsi və iqtisadiyyatda onun rolunun artması təşkil edir. Bu dövrdə istehsalın elmi əsaslarla intensivləşdirilməsi və təkmilləşdirilməsi kənd təsərrüfatında nailiyyətlərin artmasında mühüm rol oynadı. Kənd təsərrüfatında dərin islahatlar səviyyəsində həyata keçirilən zəruri yeniləşmə onun inkişafının heç zaman görünməmiş tərəqqisini təmin etdi.

Şuşa Azərbaycanın münbit torpaqlara, əlverişli iqlim şəraitinə və su ehtiyatlarına malik rayonlarındandır. Şuşa rayonunu belə bir təbii-coğrafi mövqeyə malik olması kənd təsərrüfatının inkişaf etdirilməsinə şərait yaratmışdır. İqtisadi rayonun ərazisində taxılçılıq, üzümçülük, heyvandarlıq təsərrüfatlarının inkişafı aparıcı sahələr olmuşdur. Şuşa rayonu ərazisində istehsal olunan məhsulların 57 faizi bitkiçiliyin, 43 faizi heyvandarlığın üzərinə düşmüşdür.

Azərbaycan hökuməti 1970-1985-ci illərdə Şuşa rayonunda kənd təsərrüfatının inkişafı üçün mühüm tədbirlər həyata keçirdi. Həmin tədbirlərdən biri, Şuşa rayonunun bütün iqtisadiyyatının və mədəniyyətinin yüksəldilməsində Azərbaycan KP MK-nın və Nazirlər Sovetinin «DQMV-nin xalq təsərrüfatının daha da inkişaf etdirmək tədbirləri haqqında» 1973-cü ilin mayında qəbul etdikləri qərarın böyük əhəmiyyəti olmuşdur [5, s.95]. İlk növbədə Azərbaycan KP MK-nın qərarlarına uyğun olaraq Şuşa Rayon Partiya Komitəsinin kənd təsərrüfatının inkişafı üçün «tədbirlər planı» işlənib hazırlandı.

Şuşa rayonunda kənd təsərrüfatının inkişafına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə Azərbaycan hökuməti 1970-ci ildə 10 milyon manat vəsait ayırdı [6, s.112]. Bu vəsait istər Ağdərəyə, istərsə də Xocavəndə və Dağlıq Qarabağın digər rayonlarına ayrılan vəsaitdən 4 dəfə az idi. Azərbaycan hökuməti tərəfindən Vilayətə ayrılan vəsait Vilayət XDS tərəfindən bölüşdürülürdü ki, erməni deputatlar kənd təsərrüfatının inkişafı

üçün vəsait bölgüsü apararkən azərbaycanlıların daha çox yaşadıqları Şuşa rayonuna ögey münasibət göstərmişlər.

Şuşa rayonunda kənd təsərrüfatı inkişafı üçün Azərbaycan hökuməti 1970-1979-cu illərdə 1 milyon manat uzunmüddətli kredit verdi. 1980-1985-ci illərdə isə həmin kreditin məbləği artırılaraq 1,5 milyon manata çatdı. Bütövlükdə Şuşa rayon Aqrar-Sənaye Kompleksinə daxil olan idarələrə – əkinçilik və heyvandarlıq məhsulları istehsal edən Rayon Sovet İcraiyyə Komitəsinin kənd təsərrüfatı idarəsinə, Şuşa rayon Aqrar-İstehsalat Birliyinə, Şuşa Sovxoz Ərazi istehsalat Birliyi sistemində birləşən kənd təsərrüfatı xammalı emal edən sənaye müəssisələrinə, rayon kənd təsərrüfatı orqanlarına, rayon kənd kimya idarələrinə, nəqliyyat müəssisələri və tikinti təşkilatlarına, kənd təsərrüfatı texnikumları və peşə məktəblərinə konkret tapşırıqlar verildi.

Bütün bunlarla yanaşı Şuşa rayonunun kənd təsərrüfatının inkişafı üçün Azərbaycan hökuməti meliorasiya və irriqasiya işlərini daha da genişləndirdi. Bu məqsədlə, dövlətimiz 1970-ci ildə 25 min manat, 1975-ci ildə 26 min manat, 1980-ci ildə isə 40 min manat əsaslı vəsait ayırdı. Rayonda mühüm əhəmiyyətə malik çoxlu su təsərrüfatı qurğusu yaradıldı və kanallar çəkildi. Yeri gəlmişkən onu da qeyd edək ki, Şuşa rayonunun relyefi müxtəlifdir. Bölgənin yeraltı və yerüstü su ehtiyatları genişdir. DQMV Kür-Araz su hövzələrinə aid olub Qarqarçay, Xaçınçay, Tərtərçay suvarma şəbəkəsindən ibarətdir. Həmçinin, bu çaylar 3500 metrədək hündürlükdən axarlarını götürdüyündən düzənlikdə sürətli axır və enerji ehtiyatları yaradır [7]. Ərazidəki su ehtiyatları enerji mənbəyi kimi istifadə edilməklə yanaşı, Dağlıq Qarabağın düzən ərazilərinin suvarılmasında çox böyük əhəmiyyət kəsb edirdi. Dağ sularından mənbələrini alan bu çayların suyunun təmizliyi əhalinin məişətdə də istifadəsinə imkan yaradırdı. DQMV-də qrunt suları çox yerlərdə bulaq suları şəklində səthə çıxır ki, bunlardan içmək və məişət xidmətləri üçün istifadə olunurdu.

Azərbaycan KP və onun birinci katibi Heydər Əliyev, bütövlükdə DQMV-nin o cümlədən Şuşa rayonunun kənd

təsərrüfatını su ilə təmin etmək məsələsini daim diqqət mərkəzində saxlamışdır. Təsadüfi deyildir ki, 1970-1981-ci illərdə Şuşa rayonunda təkcə irriqasiya və meliorasiya işlərinə 55 min manat vəsait ayrılmışdı [8, s.218].

Azərbaycan hökuməti tərəfindən ayrılmış vəsait hesabına XX yüzilliyin 70-ci illərində Şuşanın kolxoz və sovxozlarında 100-400 metr dərinlikdən çıxan artezian quyuları qazıldı. Eyni zamanda həmin vəsaitlə rayonun dərin dərələrindən axan çaylardan su vurmaq üçün təkcə 1971-1975-ci illərdə 10 mexaniki aqreqat verildi.

Bəhs etdiyimiz dövrdə Dağlıq Qarabağın suya olan tələbatının ödənilməsində Tərtər su anbarının əhəmiyyətini xüsusi olaraq qeyd etmək lazımdır. Tərtər çayı üzərində tikilən Sərsəng su anbarının tikintisinə Azərbaycan KP MK-nin birinci katibi həmişə diqqət yetirmişdir. Hətta, 1970-ci ildə Azərbaycan KP MK «Tərtər çayında magistral kanallarla birlikdə su anbarı tikintisini sürətləndirmək tədbirləri haqqında» xüsusi qərar da qəbul etmişdir. Sərsəng su anbarında tikinti işləri 1976-cı başa çatdırılmışdır. Heydər Əliyev həmin kompleksin açılışında iştirak etmiş və bu nəhəng tikintini «dostluq tikintisi» adlandırmışdır. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, Azərbaycan dövləti Sərsəng Su anbarının tikintisinə 95 milyon manatdan çox vəsait sərf etmişdir ki, bu da altıncı beşillik ərzində respublikada təsərrüfat qurğuları tikintisinə sərf edilən bütün vəsaitə təxminən bərabər idi. Tikinti zamanı 20 milyon kubmetr beton və sement tökülmüş, 2800 tondan artıq metal konstruksiya və texnoloji avadanlıq quraşdırılmış, uzunluğu bir kilometrdən çox olan yeraltı tunellər çəkilmişdir [9]. Səthi 35 kvadrat kilometr olan Sərsəng Su anbarı 560 milyon kub metr su tutur. Bu su, ümumi uzunluğu təqribən 100 kilometr olan kanallar vasitəsilə DQMV-nin kolxoz və sovxoz tarlalarına axıdılırdı. Burada əsas iki magistral kanal tikilib. Birinci kanal, uzunluğu 75 kilometr olan sağ kanaldır, ikinci isə sol kanaldır ki, onun uzunluğu 25 kilometrə bərabər idi [434, s.102]. Sərsəng Su anbarındakı sudan 120 min hektar sahədə yeni əkinləri və çoxillik bitkiləri suvarmaq nəzərdə tutulmuşdu [9, s. 48].

1970-ci illərdə Yuxarı Qarabağ kanalı yenidən quruldu. Bəhs etdiyimiz illərdə rayonlararası kanallar şəbəkəsi və təsərrüfat daxili kanalların çəkilişi genişləndirildi. Dövlətimizin ayırdığı xüsusi vəsait hesabına DQMV-i ərazisində 1976-1981 illərdə uzunluğu 388,5 kilometr olan iri həcmli rayonlararası dövlət kanallar, 348 kilometr uzunluğunda təsərrüfatlar daxili kanallar çəkilib istifadəyə verilmişdir [10, s.59]. Hətta, Vilayətin təsərrüfatları suvarmaq üçün «süni yağış» adlı suvarma sistemi tətbiq olundu ki, bu vasitə həm suyun itkisinin qarşısını alır, həm də bitkilərin əmək məhsuldarlığını yüksəldirdi.

Azərbaycan hökuməti 1970-1985-ci illərdə Şuşa rayonunda kənd təsərrüfatını inkişaf etdirmək üçün irriqasiya və meliorasiya işlərini lazımi səviyyədə həyata keçirdi və suvarılan torpaqların həcmi 1970-ci ildəki 242 hektara qarşı, 1980-ci ildə 250 hektara çatdı. Apardığımız araşdırmalardan məlum olur ki, Şuşa rayonun sovxozları heyvandarlıqla məşğul olduqlarından suvarılan torpaqlar tamamilə Şuşanın kolxozlarına aid olmuşdur [11].

1970-1985-ci illərdə Azərbaycan hökumətinin Şuşa rayonunda kənd təsərrüfatını inkişaf etdirmək üçün həyata keçirdiyi tədbirlərdən biri də, rayonun kolxoz və sovxozlarını kənd təsərrüfatı maşınları və digər texniki vasitələrlə daha yaxşı təchiz edilməsindən ibarət olmuşdur. Şuşanın təsərrüfatlarının texniki təchizat səviyyəsi xeyli yaxşılaşmışdı. Azərbaycan hökuməti 1971-1981-ci illər ərzində rayonun kolxoz və sovxozlarında işləmək üçün 20 kənd təsərrüfatı maşınları göndərdi. Bəhs etdiyimiz illərdə Şuşa rayonunda traktorların sayı 102-dən 104-ə, taxılyığan kombaynların sayı 29-dan 37-yə, yük avtomobillərinin sayı isə 81-dən 96-ya çatdı [12].

Bununla yanaşı Azərbaycan hökuməti 1970-1985-ci illərdə Şuşa rayonuna yüzlərlə kotan, müxtəlif toxumsəpən maşın, taxıldöyən, silosdoğrayan, taxıltəmizləyən maşın, çiləyici və tozlayıcı qurğular və sair göndərdi. Texniki vasitələrin getdikcə təkmilləşməsi, gücünün artması, idarə olunmasının intellektual xarakter kəsb etməsi kənd təsərrüfatı əməyində mütərəqqi dəyişikliklərə təsir edən amillərdən biri idi. Şuşa rayonunda kənd

təsərrüfatının texniki bazası dövlətimizin ayırdığı xüsusi vəsait hesabına hər beş ildən bir tamamilə təzələnirdi.

XX yüzilliyin 70-ci illərində Şuşa rayonunda elmi-texniki tərəqqi gücləndi, təsərrüfatlar nisbətən daha mükəmməl texnika və mexanizmlərlə təchiz olunduqca, istehsalın və əməyin enerji ilə silahlanma səviyyəsi artırdı. 1971-1981-ci illərdə Azərbaycan hökuməti Şuşanın kolxoz və sovxozlarında işlətmək üçün 15 elektrik mühərriki, 14 texniki mühərrik verdi. Bununla da Şuşa rayonunun təsərrüfatlarında işlədilən elektrik mühərriklərinin sayı 25-dən 39-a, mexaniki mühərriklərinin sayı isə 25-dən 35-ə çatdı [13]. 1970-1985-ci illərdə Azərbaycan hökuməti tərəfindən Şuşa rayonunun təsərrüfatlarının kompleks mexanikləşdirilməsi və Aqrar Sənaye Kompleksinin ardıcıl olaraq möhkəmləndirilməsi, maya dəyərini azaltmağa, əmək məhsuldarlığının yüksəldilməsinə və kənd təsərrüfatının dinamik inkişafına şərait yaratdı.

1970-1985-ci illərdə Şuşa rayonunda kənd təsərrüfatı məhsuldar qüvvələrinin inkişafı kənd əməkçilərinin peşə ustalığının artmasını tələb edirdi. Şuşa rayonunda kadrlara olan tələbatın ödənilməsində Vilayətdə fəaliyyət göstərən peşə məktəblərinin rolu böyük idi. Bəhs etdiyimiz dövrdə DQMV-də 5 texniki peşə məktəbi fəaliyyət göstərirdi. Bunlardan 21 və 159 saylı peşə məktəbləri Xankəndində, 129 saylı məktəb Ağdərədə, 72 saylı məktəb Şuşada, 125 saylı peşə məktəbi Xocavənddə gənc nəslə peşə təliminin sirlərini öyrədirdi. Hadrutda isə 125 saylı Xocavənd peşə məktəbinin filialı yaradılmışdı [14, s.86]. Həmin peşə məktəbləri 1971-ci ildə 480 nəfər ixtisaslı fəhlə və 500 nəfər ixtisaslı mütəxəssis hazırlamışdırsa, 1975-ci ildə onun sayı 2966-ya, 1980-ci ildə isə 3118-ə çatmışdı. Bəhs etdiyimiz dövrdə DQMV-də 5 texnikum var idi ki, bunlardan biri — Xankəndi sovxoz texnikumu sırf kənd təsərrüfatı mütəxəssisləri hazırlamaq işini həyata keçirirdi [15, s.127]. DQMV-də fəaliyyət göstərən peşə məktəbləri və texnikumlar burada oxuyan tələbələrə təkcə elmin sirlərini öyrətmirdilər, eyni zamanda öyrəndiklərini praktikada tətbiq edirdilər. Artıq, məktəbi qurtaran məzun işini

tam bilən bir mütəxəssis kimi Şuşa rayonunda kolxoz və sovxozlarında işə başlayırdı.

Azərbaycan dövləti respublikanın bütün kəndlərini ixtisaslı kadrlarla təmin etmək üçün ali və orta ixtisas müəssisələrində təhsil alanların sayını ilbəil artırdı. Təkcə 1965-1980-ci illərdə Azərbaycan hökuməti Şuşa rayonunun kolxoz və sovxozlarında işləmək üçün 15 ixtisaslı kadr göndərmişdir. Həmin illərdə rayonda ixtisaslı kadrların sayı 610-dan 677-yə çatdı [16, s.29-31].

1970-1985-ci illərdə Şuşa rayonunun kənd təsərrüfatında mülkiyyət münasibətlərində dərin dəyişikliklər baş vermişdi. Kənd təsərrüfatında dövlət mülkiyyətinin rolu getdikcə artmışdı. 1970-1985-ci illərində Şuşa rayonunda kolxozların iriləşməsi və sovxozlara çevrilməsi nəticəsində sayı 2 dəfə azalmışdı. Belə ki, 1970-ci ildə Şuşada 7 kolxoz var idisə, 1985-ci ildə 5-ə endi. Bu zaman Azərbaycanda cəmi 608 kolxoz var idi [17]. Bəhs etdiyimiz illərdə, Şuşa rayonunda da sovxozların sayı üç dəfə artdı. 1970-ci ildə Şuşada 2 sovxoz var idisə, 1980-ci ildə artaraq 4-ə, 1985-ci ildə isə 5-ə çatdı. 1985-ci ildə Azərbaycanda 805 sovxoz var idi. Şuşa rayonunda kolxozların sovxozlara çevrilməsi bir sıra mənfi hallar doğurdu. Əhalinin kənddən şəhərə axını gücləndi və məşğulluq problemləri meydana gəldi.

1970-1985-ci illərdə Azərbaycan hökumətinin Şuşa rayonunda həyata keçirdiyi tədbirlərdən biri də kənd təsərrüfatı bitkiləri zərərvericilərinə, xəstəliklərinə və alağa qarşı icbari tədbirləri həyata keçirmək məqsədi ilə kimyəvi dərmanlarla təminatı işini yaxşılaşdırdı. Eyni zamanda, torpağın münbitliyini yüksəltmək üçün Şuşanın kolxoz və sovxozları üzvi və mədəni gübrələri ilə təmin edildi. Baytarlıq xidməti, sanitariya qaydalarına əməl olunmuş, heyvandarlıqda xəstəliklərə qarşı mübarizə, onun cins tərkibinin yaxşılaşdırılması ön plana çəkildi. Azərbaycan hökuməti Şuşa rayonunun kolxoz və sovxozlarını gübrələr və ziyanvericilərə qarşı kimyəvi dərmanlarla təminatını ilbəil artırırdı. Belə ki, 1970-ci ildə Azərbaycan hökuməti Şuşa rayonunun 1 min ton gübrə vermişdirsə, 1980-ci ildə bu rəqəm 2 dəfə artaraq 2 min tona çatmışdır. 1985-ci ildən hər il ardıcıl olaraq Şuşanın təsərrüfatlarına təxminən 2 min ton gübrə

verilmişdi [18, s.97]. Bütün bunlar Şuşa rayonunun təsərrüfatlarında torpaqların münbitliyini artırdı, eroziyanın, şoranlaşmasının qarşısını aldı və məhsuldarlığı yüksəltdi.

1970-1985-ci illərdə DQMV Aqrar-Sənaye Kompleksinə 33 kolxoz, 40 sovxoz, 6 təsərrüfatlar arası birlik və sənaye müəssisələrinin 5 heyvandarlıq kompleksi daxil idi. 70-ci illərdə Şuşa rayonunda kənd təsərrüfatı istehsalının intensivləşməsi, ixtisaslaşması və təmərküzləşməsi, təsərrüfatlararası kooperasiyanın və aqrar-sənaye inteqrasiyasının genişlənməsi kənd təsərrüfatının inkişaf etməsinin mühüm amillərdən biri idi.

Bəhs etdiyim illərdə DQMV-nin kənd təsərrüfatının ixtisaslaşması sahəsində elmi cəhətdən əsaslandırılmış tədbirlər həyata keçirildi. 70-ci illərdə kənd təsərrüfatında əmək bölgüsünün dərinləşməsi prosesi sürətləndi. DQMV-nin kənd təsərrüfatında struktur dəyişiklik aparılarkən Vilayətin təbii-coğrafi mövqeyi, iqlim, torpaq quruluşu və şair nəzərə alındı. Məsələn, 70-ci illərin ortalarında Dağlıq Qarabağda pambıq əkini dayandırıldı. Pambıq əkin sahələri üzüm əkini ilə əvəzləşdirildi. Şuşa, Hadrut, Xocavənd və Xankəndi rayonlarında tütün əkininə son qoyuldu. Tutun yalnız Ağdərə rayonunun dağlıq ərazisində əkildi [19, s.218].

70-ci illərdə Şuşa və Xocavənd rayonlarının sovxozları kartof əkinini dayandırdılar, Kartof əkini ilə ən çox Xankəndi və Ağdərə rayonları məşğul olurdu. Taxıl əkini ilə DQMV-nin bütün təsərrüfatları məşğul olsa da, Şuşa rayonunda taxıl əkini 3 dəfə azaldıldı. Şuşa rayonunun sovxozlarında isə taxıl əkini 1974-cü ildən tamam dayandırıldı. Həmçinin Şuşa rayonu sovxozlarında 1972-ci ildən tərəvəz əkini ixtisar edildi. 70-ci illərdən Şuşanın təbii coğrafi mövqeyi ilə bağlı burada dəmyə bitkilər əkilməyə başlandı. Şuşanın sovxozlarında üzüm əkilmirdi, kolxozlarında yalnız 2 hektar üzüm əkilirdi. 1970-ci ildən başlayaraq Şuşa rayonu barama istehsalı planından azad edilmişdi [20, s.272]. 1970-ci illərdə arıçılıq, quşçuluq, bağçılıq və heyvandarlıq Şuşa rayonunun kənd təsərrüfatının əsas aparıcı sahələri olmuşdu.

Beləliklə, 1969-1982-ci illərdə də Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin şəxsi prinsipial mövqeyi, nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin bütün ərazisində, o cümlədən Şuşa rayonunun kənd təsərrüfatında ardıcıl olaraq kompleks tədbirlər həyata keçirildi. Belə ki, elmi nailiyyətlər və qabaqcıl təcrübə istehsalata tətbiq edildi; kolxoz və sovxozlarının ixtisaslı kadrlarla təmin olunması işi tam həyata keçirildi; Elektrikləşmə, mexanikləşmə, irriqasiya, meliorasiya, ixtisaslaşma işləri rayonun bütün təsərrüfatlarında tətbiq olundu; kənddə tikinti-abadlıq, quraşdırma işləri həyata keçirildi; əmək haqqı tamamilə maliyyələşdirildi; dövlətimiz tərəfindən ayrılan vəsaitin həcmi ilbəil artırıldı; Şuşanın bütün təsərrüfatları avadanlıq, toxum, cins heyvan, texnika, maddi vəsait və başqa aqrar sektora lazım olan vəsaitlə təmin olundu və dövlətimizin qayğısının nəticəsində, 1970-1985-ci illərdə Şuşa rayonunun kənd təsərrüfatı dinamik şəkildə və yüksək sürətlə inkişaf etdi.

1970-1985-ci illərdə Şuşa rayonunda kənd təsərrüfatı təyinatlı torpaqlar həcmcə az dəyişmişdi. Belə ki, 1970-ci ildə həmin torpaq sahəsi 2,7 min hektar idisə, 1985-ci ildə artaraq 5 min hektara çatmışdır [21, s.38]. Aparılan tədqiqatlardan məlum olur ki, kolxoz təsərrüfatlarının torpaqları azalmış, sovxozlarınkı isə artmışdır. Şuşa rayonunda kənd təsərrüfatına yararlı torpaqlardan 80 faizi kolxozların, 15 faizi sovxozların, 5 faizi dövlət meşə fondunun və digər torpaqlara aid idi [21, s.40]. Şuşa rayonunda kənd təsərrüfatına yararlı torpaqlardan şum yerləri 1965-ci ildəki 1,8 min hektardan 1975-ci ildə 4,4 min hektara, 1985-ci ildə isə artaraq 5 min hektara çatmışdır [21, s.52].

1980-ci ildə DQMV-nin rayonları arasında əkin şum sahələri bölgüsü qeyri bərabər idi. Belə ki, Vilayətdən ümumi şum sahəsinin 35 faizi Ağdərə rayonunun, 30 faizi Xocavənd rayonunun, 20 faizi Xankəndinin, 10 faizi Hadrutun, 5 faizi Şuşa rayonunun payına düşmüşdü. 1980-ci ildən başlayaraq, Dağlıq Qarabağda torpaqların herikə (dincə) qoyulması prosesi başlamışdır. 1980-ci ildə Vilayətin təsərrüfatında 1,1 min hektar, 1985-ci ildə 0,8 min hektar, 1986-cı ildə isə 1,8 min hektar şum yeri dincə qoyulmuşdur [22, s.270]. 1970-1985-ci illərdə Şuşa

rayonunun müxtəlif kateqoriyalardan olan təsərrüfatlarından kənd təsərrüfatı bitkilərinin əkin sahəsi aşağıdakı kimi aparılmışdır [22, s.272].

| İllər | Ümumi əkin sahəsi (min hektarla) | O cümlədən | | | |
|---|---|---|---|---|---|
| | | Dənli bitkilər (min hektarla) | Bostan bitkilər (hektarla) | Kartof (hektarla) | Yem bitkiləri (hektarla) |
| 1966 | 1,8 | 1,0 | 37 | 65 | 720 |
| 1970 | 2,7 | 1,4 | 42 | 60 | 1226 |
| 1975 | 4,4 | 0,5 | 59 | 49 | 3444 |
| 1980 | 4,7 | 0,4 | 60 | 50 | 3816 |
| 1985 | 5,1 | 0,5 | 65 | 50 | 4015 |

Bəhs etdiyimiz dövrlərdə, Şuşa rayonunda yem bitkiləri istehsalının intensivləşdirilməsi kənd təsərrüfatının inkişafının ən mühüm problemlərindən biri olaraq qalırdı. 1970-ci ildə Şuşa rayonunda yem bitkiləri 1226 hektardan artıq sahəni tuturdu ki, bu da rayondakı ümumi əkin sahənin təxminən 45 faizi demək idi. Şuşada əkilən yem bitkilərin yarısından çoxu suvarılardı. 1961-1968-ci illərdə bu sahəyə diqqət zəif olmuş və yemçilik təsərrüfatı başlı başına buraxılmışdı. 1970-ci ildən yemçilik mədəniyyətinin yüksəldilməsinə, bitkilərin sort tərkibinin dəyişdirilməsinə, onların əkin və biçin texnologiyasının yaxşılaşdırılmasına diqqət artdı və yalnız yüksək məhsuldar yem bitkiləri sortları əkilməyə başlandı. 1985-ci ildə 1970-ci illə müqayisədə yem bitkiləri əkin sahəsi 1789 hektar artmışdı. Bəhs etdiyimiz illərdə, Şuşa rayonunda taxılın məhsuldarlığı təxminən 2 dəfə artmışdır [29, s.53].

1970-1985-ci illərdə Dağlıq Qarabağda kənd təsərrüfatı istehsalının strukturunda üzümçülüyün xüsusi çəkisi artdı. Azərbaycan hökumətinin xüsusi qayğısı nəticəsində Vilayətdə üzümçülük intensiv surətdə inkişaf etdirildi. Bəhs etdiyimi illərdə, DQMV-nin təsərrüfatlarında 5 min hektar sahədə yeni üzümlüklər salındı. Bu zaman respublikamızda cəmi 90 min

hektar sahədə üzüm tingi əkilmişdir. 1965-ci ildə Dağlıq Qarabağda üzüm plantasiyaları 9171 hektar idisə, 1970-ci ildə 10417 hektara, 1985-ci ildə isə artaraq 15494 hektara çatmışdır. 1970-1985-ci illərdə Vilayətdə üzüm istehsalı və üzümlüklərin məhsuldarlığı ildən-ilə artmışdır. Məsələn 1965-ci ildə Vilayətin üzüm plantasiyalarından hər hektardan 47,1 sentner üzüm əldə edilmişdirsə 1975-ci ildə bu göstərici 2 dəfə artaraq 81 sentnerə yüksəlmişdir. Dağlıq Qarabağda üzümçüləri yüksək məhsul ustası kimi şöhrət qazanmış və həmin təsərrüfatların yüzdən çox üzümçüsü hər hektardan 300-350 sentner üzüm məhsulu əldə etmişlər. Hətta bəzi təsərrüfatların hər hektarından 400-450 sentner məhsul götürənlər də vardır ki, onlar o dövr üçün yüksək adlara - «Sosialist əməyi qəhrəmanı», «SSRİ Dövlət Mükafatı laureatı» və «Lenin Ordeni»nə layiq görülmüşlər [24, s.176].

Apardığımız tədqiqatlardan məlum olur ki, yüksək titullara «layiq görülən»lərin hamısı milliyyətcə ermənilər olmuşdur. Hansı ki, rayonun üzümçülük təsərrüfatlarında minlərlə azərbaycanlı işləyirdi. Eyni zamanda ARDTA-də saxlanılan sənədlərdən məlum olur ki, eyni sahədə, eyni işlə məşğul olan azərbaycanlı ilə erməninin əmək haqqında çox böyük fərqlər müşahidə edilmişdir. Bu fərqlər özünü on üçüncü əmək haqqında da göstərmişdir.

Bəhs etdiyimiz illərdə Azərbaycan hökumətinin Dağlıq Qarabağda həyata keçirdiyi mühüm tədbirlər - üzüm plantasiyalarında işlərin mexanikləşdirilməsi, mineral gübrələrdən istifadə edilməsinin yaxşılaşdırılması, aqrotexniki qaydalara ciddi riayət olunması üçün lazımi şərait yaradılması və digər tədbirlər üzüm istehsalının ildən ilə artmasına şərait yaratmışdır. 1970-ci ildə orta hesabla hər hektardan 81 sentner məhsul götürülürdüsə, 1981-1985-ci illərdə bu göstərici 102 sentnerə çatmışdır. Bəhs olunan dövrdə Vilayətdə istehsal olunan məhsulların 30 faizi üzümçülüyün payına düşürdü [25, s.53]. Son 20 il ərzində Vilayətdə üzüm istehsalı 18 dəfə artmışdır. 1965-ci ildə dövlətə 21067 ton üzüm təhvil verilmişdirsə, 1970-ci ildə bu rəqəm artaraq 58064 tona, 1975-ci ildə 76943 ton, 1976-1985-ci illərdə isə, hər il orta hesabla dövlətə 80 min ton üzüm

satılmışdır. Üzümün 20 faizi sovxozların 80 faizi kolxozların təsərrüfatlarından yığılırdı. 1985-ci ildə Azərbaycanda 286 min hektar üzümlük var idi və təsərrüfatlardan 750 min ton üzüm yığılmışdı [26]. Lakin 80-ci illərin ikinci yarısında bütün sovet imperiyasında «alkoqolizmə qarşı mübarizə» kompaniyası başlanandan sonra yüz min hektardan çox üzümlük məhv edilmiş, Azərbaycan xalqına böyük ziyan vurulmuşdur.

Qeyd edək ki, Şuşa rayonunda üzüm əkini çox cüzi bir hissəni təşkil edirdi və tədricən əkin prosesi azalırdı. Belə ki, 1965-ci ildə Şuşanın təsərrüfatlarında 13 hektar sahədə üzüm əkilmişdirsə, 1970-ci ildə 7 hektara, 1975-ci ildə isə 2 hektara enmişdi. Üzüm əkini ilə yalnız rayonun kolxozları məşğul olurdu. Rayonda üzüm yığımında da azalma halı müşahidə edilmişdir. Belə ki, 1965-ci ildə dövlətə 4 ton üzüm təhvil verilmişdirsə, 1975-ci ildə bu göstərici 2 tona enmişdi.

XX yüzilliyin 70-80-ci illərində DQMV-nin kənd təsərrüfatında texniki bitkilər arasında tütün də yetişdirilirdi. Yuxarıda qeyd etdiyimiz kimi Azərbaycan hökumətinin kənd təsərrüfatı sahəsində həyata keçirdiyi ixtisaslaşma siyasəti nəticəsində 1965-ci ildə Hadrut, Xocavənd və Şuşa rayonlarında, 1973-cü ildə isə Xankəndi rayonunda tütün əkini dayandırıldı. 1974-cü ildən Vilayətdə yalnız Ağdərə rayonunda tütün əkilirdi.

1970-1980-ci illərdə tərəvəzçilik və kartofçuluq Şuşa rayonunun kənd təsərrüfatında əsas sahələrdən hesab olunurdu. Kartof və tərəvəzi Şuşa rayonunun demək olar ki, bütün təsərrüfatlarında əkirdilər. Kartof əkini 1965-ci ildə 62 hektar, 1970-ci ildə 60 hektar, 1975-ci ildə 49 hektar, 1980-ci ildə 51 hektar, 1985-ci ildə 60 hektar sahədə əkilmişdir. Rayonda tərəvəz əkinində yüksəlmə müşahidə edilmişdir. Belə ki, 1965-ci ildə 37 hektar, 1970-ci ildə 42 hektar, 1975-ci ildə 59 hektar sahədə tərəvəz əkilmiş, 1985-ci ildə isə 65 hektara çatmışdır. Dövlətə kartof satışı 1965-ci ildə 128 ton, 1970-ci ildə 13 ton olmuşdursa 1985-ci ildə artaraq 26 tona çatmışdır [27, s.727]. Tərəvəz tədarükü isə 1965-ci ildə 235 ton, 1970-ci ildə 307 ton, 1975-ci ildə 447 ton, 1985-ci ildə 586 tona çatmışdır. Şuşa rayonunda, bəhs olunan illərdə tərəvəzin məhsuldarlığında artım

müşahidə edilmişdir. Belə ki, 1965-ci ildə rayonun təsərrüfatlarının hər hektarından 101 sentner məhsul götürülmüşdürsə 1975-ci ildə bu göstərici 147 sentnerə, 1985-ci ildə isə 160 sentnerə çatmışdır. Onu da qeyd edək ki, şəxsi təsərrüfatlardan əldə olunan kartof və tərəvəz yuxarıdakı rəqəmlərə daxil deyildir. Təsərrüfatlardan yığılan kartof və tərəvəz ilk növbədə Vilayət əhalisinin tələbatının ödənilməsinə sərf edilir, artıq qalan hissəsi isə dövlətə satılırdı. Apardığımız tədqiqatlardan məlum olur ki, yığılan kartofun yalnız 10 faizi, tərəvəzin isə təxminən 40 faizi dövlətə satılırdı. Təzə dərilmiş tərəvəzin gizli yollarla Ermənistana daşınması faktları da aşkar edilmişdir.

1970-1985-ci illərdə Şuşa rayonunda hər hektardan kartofun məhsuldarlığı ilə 28 sentnerdən 55 sentnerə qalxmışdır. Şuşa təsərrüfatlarında tərəvəz bitkilərindən soğan, pomidor, xiyar, istiot, kələm, yerkökü və sair becərilirdi. Azərbaycanda 1966-1970-ci illərə nisbətən 1981-1985-ci illərdə orta illik məhsul istehsalı - kartof 844 tondan 1513 min tona, tərəvəz 1351 tondan 2012 min tona çatmışdır [666, s.104].

Azərbaycanın Şuşa rayonunun mənzərəsi üçün ən səciyyəvi cəhət meyvə bağlarının mövcudluğu və inkişafıdır. Rayonun hər yerində bağçılıqla məşğul olurdular. İstər kolxoz və sovxozlarda, istərsə də şəxsi təsərrüfatlarda əkilən bütün meyvə bağları suvarılırdı. Şuşanın torpaq, iqlim şəraiti çoxillik bitkilərin əkininin xeyli genişlənməsinə imkan verir. Üzüm bağları müstəsna olmaqla, 1970-ci ildə bağçılıq təsərrüfatının həcmi 1960-cı illə müqayisədə 60 hektar artaraq 360 hektara çatmışdır [27]. Şuşanın meyvə bağlarının həcmi 1980-ci ildə 750 hektara, 1985-ci ildə 740 hektara çatırdı. Şuşanın təsərrüfatlarında armud, alma, gavalı, alça, qaragilə, qoz, fındıq, nar, heyva, zoğal, tut və başqa meyvə ağacları əkilirdi. 1970-1985-ci illərdə əkin sahələrinin azalmasına baxmayaraq Azərbaycan hökumətinin həyata keçirdiyi kompleks tədbirlər nəticəsində Şuşa rayonunda həm məhsul istehsalının həcmi, həm də əmək məhsuldarlığı ilbəil artmışdı. Məsələn, 1960-cı ildə rayonun təsərrüfatlarından 160 ton məhsul yığılmışdırsa, 1970-ci ildə həmin məhsul 180 tona, 1980-ci ildə 280 tona, 1985-ci ildə isə 190 tona çatmışdır [28].

Bəhs etdiyimiz illərdə əmək məhsuldarlığında böyük artım müşahidə edilmişdir. 1970-ci ildə hər hektardan 16 sentner meyvə və giləmeyvə götürülmüşdürsə 1985-ci ildə bu rəqəm artaraq 42 sentnerə çatmışdır. 1970-ci illə müqayisədə 1985-ci ildə Azərbaycanda meyvə və giləmeyvələr 82,8 min tondan 317,5 min tona çatmışdır [28]. 1985-ci ildə Naxçıvan MR-da meyvə və giləmeyvə bağlarının sahəsi 6125 hektar, məhsulun ümumi həcmi 7,7 min ton, məhsuldarlıq 17,6 sentner idi [28, s.336]. Şuşa rayonundakı əmək məhsuldarlığı istər ümumrespublika səviyyəsindən, istərsə də Naxçıvan MR ilə müqayisədə yüksək olmuşdur. Bütün bunlar isə Azərbaycan rəhbərliyinin rayona və bütövlükdə Vilayətə göstərdiyi dərin qayğının nəticəsi idi.

Azərbaycanın Şuşa rayonunda qədimdən əkilən çoxillik bitkilər içərisində şah-tut ağacı görkəmli yer tutur. Çox zəhmət tələb etməyən və tərkibində şəkərliyin faizi 32% olan bu ağac Şuşa ərazisində qədimdən becərilirdi. Tutdan müxtəlif növ məhsullar, o cümlədən spirt, bəhməz, irçal və sair hazırlanır, təzə halda yeyilir və ya meyvəsi qurudularaq ilin müxtəlif fəsillərində istifadə edilir. Şah-tut ağacının oduncaqdan keyfiyyətinə görə mebel istehsalında istifadə edilir. Eyni zamanda, tutun yarpağı ipəkqurdunun yem bazası rolunu oynayır. Şah-tut ağacının sərin kölgəsi, misilsiz dadı və müalicəvi əhəmiyyəti vardı. Bütün bu kimi müsbət cəhətlərinə görə Şuşa rayonu ərazisində şah-tut ağacı qədimdən əkilirdi və burada 150-200 yaşlı olan tut ağaclarına rast gəlmək mümkündür [29].

Yuxarıda qeyd etdiyimiz kimi Dağlıq Qarabağın bütün rayonlarında şah-tut bağları var idi. Tut bağlarının təxminən 60 faizi Xocavənd rayonunun payına düşürdü. Belə ki, 1960-cı ildə Vilayətdəki 1838 hektar tut bağlarının 938 hektarı, 1965-ci ildə 1368 hektarın 733 hektarı, 1970-ci ildə 1139 hektarın 683 hektarı, 1975-ci ildə isə 920 hektarın 658 hektarı Xocavənd rayonunun payına düşmüşdü. Apardığımız araşdırmalardan məlum olur ki, 1965-1975-ci illərdə tut bağlarının üzüm bağları ilə əvəzləşdirilməsi səbəblərindən Vilayətdə tut bağları 248 hektar azaldı [29]. 1965-ci ildə Vilayətdə tut bağları 1368 hektar olduğu halda 1975-ci ildə 920 hektara enmişdir (şəxsi həyətlərdəki tut

bağları bura daxil deyildi). Şuşa rayonunda 1970-ci ildən sonra şah-tut bağlarında artma-azalma halı müşahidə edilməmişdi. Belə ki, bəhs olunan dövrdə rayonda 18 hektar sahədə tut bağı becərilirdi. Orta hesabla hər il təsərrüfatlardan 100 ton məhsul götürülmüşdü. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, XX yüzillik ərzində şah tut ağacının ən yüksək məhsuldarlığı 1970-1980-ci illərdə əldə edilmişdir. Bölgədə istehsal olunan kənd təsərrüfatı məhsullarının 15 faizi meyvə-tərəvəzçiliyin payına düşürdü [29]. Şuşa rayonunda meyvə, üzüm, tərəvəz, kartof, bostan məhsuldarlığının xeyli hissəsi şəxsi yardımçı təsərrüfatlar hesabına əldə olunmuşdu. 1970-1985-ci illərdə yeni maddi-texniki bazaya və sənaye xarakterli texnologiyalara əsaslanaraq Şuşa rayonunda kənd təsərrüfatının taxılçılıq, tərəvəzçilik, meyvəçilik və digər sahələri dinamik inkişaf etmişdi. Bu inkişafı aşağıdakı cədvəldən də aydın görmək olar (bütün kateqoriyalardan dövlətə kənd təsərrüfatı məhsulları satışı) [30].

| **Məhsulun növləri** | **Ölçü vahidi** | **1970** | **1975** | **1980** | **1985** |
|---|---|---|---|---|---|
| Üzüm | ton | 4 | 2 | - | - |
| Taxıl | ton | 1049 | 343 | 450 | 480 |
| Kartof | ton | 49 | 39 | 50 | 60 |
| Tut | ton | 100 | 98 | 104 | 92 |
| Meyvə | ton | 180 | 270 | 280 | 190 |
| Tərəvəz | ton | 307 | 447 | 470 | 550 |

Azərbaycanın Şuşa rayonunun qabaqcıl kənd təsərrüfatı sahələrindən biri də heyvandarlıq olmuşdu. Rayondakı istehsal olunan kənd təsərrüfatı məhsullarının 43 faizi heyvandarlıq təsərrüfatlarının payına düşmüşdür [31, s.45]. 1970-1985-ci illərdə Şuşa rayonunda heyvandarlıq dinamik inkişaf etmişdir. Şuşa rayonu ümumrespublika əmək bölgüsündə ət, süd, meyvə-tərəvəz istehsalında ixtisaslaşmışdı. Respublikada bu məhsulların istehsalının ümumi həcminin təqribən bir hissəsi rayonun payına

düşürdü. Şuşa Azərbaycan SSR-in iri heyvandarlıq rayonlarından biri idi. Rayonda heyvandarlığın inkişafı Azərbaycan hökumətinin və dövlətimizin başçısı Heydər Əliyevin həmişə diqqət mərkəzində olmuş, onun məqsədyönlü rəhbərliyi nəticəsində bütün DQMV-də o cümlədən Şuşa rayonunda heyvandarlığın inkişaf yolu, ixtisaslaşma və təmərküzləşmə, sənaye təməlinə keçid və sair tədbirlər bu inkişafa böyük kömək etmişdir. 70-ci illərdə Şuşa rayonunda sənaye tipli iri təsərrüfatlararası və kolxoz heyvandarlıq kompleksi, yem sexləri tikilib istismara verilmiş, heyvandarlıq binalarının tikintisi, yenidən qurulması və yeni texnika ilə təchiz olunması sahəsində geniş proqram həyata keçirilmişdir. Bəhs etdiyimiz dövrdə, Şuşa rayonunda suvarılan örüş, otlaq sahələri xeyli artmış və 1970-ci ildə 1226 hektar idisə, 1975-ci ildə 3744 hektara, 1985-ci ildə 1,8 min hektara çatmışdır [31, s.89]. 1985-ci ilin məlumatına görə Şuşa rayonunda kənd təsərrüfatına yararlı torpaq sahəsi 20,9 min hektar idi ki, bunun 0,3 hektarını biçənəklər 16,7 min hektarını otlaqlar 3,8 min hektarını şum yeri, 0,1 min hektarını çoxillik bitkilər təşkil edirdi. Həmçinin bəhs olunan illərdə rayonda suvarılan torpaqların 41 faizində yem bitkiləri əkilirdi ki, bu da heyvandarlığın inkişafına təkan verdi. Azərbaycan hökuməti rayonda heyvandarlığın inkişafı üçün 1971-1975-ci illərdə Şuşa rayonunda ictimai fermaların tikintisini xeyli genişləndirdi. Belə ki, həmin illərdə 3 min yerlik iribuynuzlu mal-qara tövləsi, 300 yerlik donuzçuluq ferması, 9 min yerlik qoyunçuluq və 22 min yerlik quşçuluq fermaları tikilib istifadəyə verilmişdir [706]. Azərbaycan rəhbərliyi rayonda Zoobaytarlıq xidmətinin təkmilləşdirmək, mal-qaranın cinsini yaxşılaşdırmaq, yem bazasını inkişaf etdirmək, heyvandarlıq sahəsini ixtisaslı kadrlarla təmin etmək üçün önəmli tədbirləri reallaşdırdı.

1976-1980-ci illərdə Azərbaycan hökumətinin ayırdığı xüsusi vəsait hesabına Şuşanın kolxoz və sovxozlarda sənaye xarakterli texnologiyaya əsaslanan mexanikləşdirilmiş heyvandarlıq fermaları; 3 min yerlik iribuynuzlu mal-qara ferması, 28 min yerlik donuzçuluq, 6 min yerlik qoyunçuluq, 7 min yerlik quşçuluq fermaları tikilib istifadəyə verilmişdir [92].

1970-ci illərdə Şuşa rayonunda heyvandarlığın inkişafı üçün onun yem bazasının möhkəmləndirilməsi istiqamətində tədbirlər həyata keçirilirdi. Təsərrüfatlarda yeni yem bitkiləri – qarğıdalı, çuğundur, yerkökü, yonca, arpa və sair əkilməyə başlandı. Suvarılan yem bitkilərinin sahəsi 2 dəfə genişləndirildi. Həmin sahələr üzvü və mineral gübrələrlə təmin edildi. Azərbaycan hökuməti ot əkin sahələrindən, otun biçilməsi, bağlanması, daşınması üçün Şuşa rayonunun təsərrüfatlarını tam texnika ilə təmin etdi. Bəhs olunan dövrdə ot tayalarını saxlamaq üçün çardaqlar və silos quyuları tikilib istifadəyə verildi. 1965-ci ildə müqayisədə 1980-ci ildə yem əkini sahəsi 40 faiz, yem bitkilərinin istehsalı isə 70 faiz artdı [33]. Aparılan tədqiqatlardan məlum olur ki, heyvandarlığın inkişafında yem bazası əsas rol oynayır. Ona görə də bu sahəyə 70-ci illərdə xüsusi diqqət yetirilmişdir. Sahələrə düzgün aqrotexniki qulluq nəticəsində yem bitkilərinin həcmi və məhsuldarlığı artmışdır. 1975-ci illə müqayisədə 1981-ci ildə quru ot yığımı bir min ton, senaj 22 min ton, küləş və saman 350 min ton, silos 3,5 min ton artmışdı. Hər hektardan götürülən məhsuldarlıq isə quru ot 30 sentner, qarğıdalı və silos 60 sentner, meyvəköklü bitkilər 100 sentner, arpa 20 sentner olmuşdur [34]. Bu isə 1970-ci illə müqayisədə təxminən 2-3 dəfə çox demək idi. 1976-1981-ci illərdə Azərbaycan hökumətinin ayırdığı xüsusi vəsait hesabına Şuşanın heyvandarlıq təsərrüfatında 5 yem sexi, 12 yem mətbəxi, 4 mexanikləşdirilmiş vitaminlərlə yemi qatışdıran sex tikilib istifadəyə verilmişdi. Bütün bunlar Şuşa rayonunun kolxoz və sovxozlarının heyvandarlıq təsərrüfatının yem bazasının tələblərə cavab verən səviyyədə olmasını göstərir.

1970-1985-ci illərdə Azərbaycan hökumətinin Şuşa rayonunda həyata keçirdiyi tədbirlərdən biri də heyvanların cins tərkibinin yaxşılaşdırılması və təsərrüfatları mütəxəssislərlə təmin etməkdən ibarət idi. Təkcə 1970-1975-ci illərdə kənd təsərrüfatında çalışan mütəxəssislərin sayı 30 faiz artdı. 1975-ci ildə DQMV-nin təsərrüfatlarında 70 kolxoz sədri, 13 sovxoz direktoru, 11 ayrıca fəaliyyət göstərən ferma müdiri, 55 aqronom, 43 zootexnik, 85 mal həkimi, 245 ferma briqadiri, 27

injiner-texnik işləyirdi [35, s.333]. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, DQMV-də çalışan ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır. Yuxarıda adıgedən mütəxəssislərin təxminən 25 faizi Şuşa rayonunun payına düşürdü.

Bəhs etdiyimiz illərdə Azərbaycan hökumətinin Şuşa rayonunda həyata keçirdiyi tədbirlərdən biri də mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasından ibarət olmuşdur. Azərbaycan hökumətinin ayırdığı vəsait hesabına təkmilləşdirilən və mütəxəssislərlə tam təmin edilən Xankəndindəki Qarabağ zona təcrübə stansiyası, Marquşavandakı Qarabağ eksperimental bazası, Daşbulaq və Qaro sortluq məntəqələri, «Tursu» damazlıq diaqnoz kabinəsi Şuşa rayonunda xəstəliklərə qarşı mübarizə və yeni növlərin, süni mayalanmanın əldə edilməsində böyük işlər görmüşlər.

Rayonda ictimai mal-qara əsas etibarı ilə yaxşı avadanlıqlarla təchiz edilmiş binalarda saxlanılırdı. Fermaların əksəriyyətində çox zəhmət tələb edən proseslər — qoyunların qırxılması, heyvanların suvarılması onlara yem verilməsi, binaların təmizlənməsi və başqa işlər mexanikləşdirilmişdi. Fermalar öz işini yaxşı bilən mütəxəssislərlə tam təmin edilmiş, heyvanların xəstəliklərinə qarşı mübarizə gücləndirilmişdi. Heyvandarlıq fermalarındakı maşınlara və aqreqatlara, elektrik avadanlıqlarına texniki xidmət göstərilməsi işi bacarıqlı mütəxəssislərə tapşırılmışdı. Mal-qara, mütəxəssislərin tərtib etdikləri qayda əsasında yemlənirdi. 1978-ci ildə DQMV-də daha bir heyvandarlıq təsərrüfatı — «Təsərrüfatlararası Heyvandarlıq Kompleksi» istifadəyə verilmişdi [35, s.337]. Heyvandarlıqda, məhsuldarlığın artırmasında bu təsərrüfatların çox böyük xidmətləri olmuşdur. Heyvandarlıq Kompleksi Şuşa rayonunun heyvandarlıq təsərrüfatı ilə sıx əlaqə əsasında inkişaf edirdi. Azərbaycan hökumətinin 1970-1985-ci illərdə Şuşa rayonunda heyvandarlıq təsərrüfatlarında həyata keçirdiyi tədbirlər nəticəsində bütün kateqoriyalardan olan təsərrüfatlarda mal-qaranın sayı artdı. Belə ki, 1971-ci illə müqayisədə 1985-ci ildə iri buynuzlu mal-qaranın sayı 6776 başdan 7016 başa, qoyun və keçilərin sayı 21676

başdan 22616 min başa, donuzların sayı 1047 başdan 1152 başa, quşların sayı 3506 başdan 7669 başa çatdı (şəxsi təsərrüfatlarda olan quşlar daxil deyil). Qeyd edək ki, iri buynuzlu mal-qaranın, qoyun və keçilərin təqribən 30 faizindən çoxu Şuşa rayonundakı şəxsi təsərrüfatlarda saxlanılırdı.

XX yüzilliyin 70-80-ci illərində kənd təsərrüfatı heyvanları arasında yalnız arı ailələrinin sayında azalma müşahidə edilmişdi. Rayonun kolxoz və sovxozlarında 1970-ci ildə 311, 1976-cı ildə 242 arı ailəsi var idisə, 1981-ci ildə bu göstərici 169-a enmişdir [35, s.335]. Bəhs etdiyimiz illərdə mal-qaranın sayının artması ilə yanaşı, heyvandarlıq məhsullarının istehsalı və tədarükünün müntəzəm sürətdə dinamik inkişafı da müşahidə edilmişdir. Məsələn, 1970-ci ildə hər inəkdən il ərzində orta hesabla 2119, 1975-ci ildə 2564 kiloqram süd sağılmışdırsa, 1985-ci ildə bu göstərici 2691 kiloqrama çatmışdır. Hər qoyundan qırxılan illik yunun həcmi isə 1970-ci ildəki 3,1, 1975-ci ildə 3,3 kiloqramdan, 1985-ci ildə 3,4 kiloqrama qalxmışdır. Hətta Şuşa rayon südçülük fermalarında hər inəkdən 4500-5300 kiloqram süd sağımı halları da müşahidə edilmişdir [36]. Apardığımız tədqiqatlardan məlum olur ki, Şuşa rayonu istər hər inəkdən sağılan südün ümumilikdə sağılan südün həcminə, istərsə də hər qoyundan əldə edilmiş yunun həcminə və ümumilikdə yun istehsalına və dövlətə təhvil verilən ətin və barama həcminə görə DQMV-nin rayonları arasında birinci yerdə dayanmışdır. 1970-1985-ci illərdə Şuşa rayonunda dövlətə heyvandarlıq məhsullarının satışında böyük artım müşahidə edilmişdir ki, bu artımı aşağıdakı cədvəldən də aydın görmək olar (bütün kateqoriyadan olan təsərrüfatlardan) [36].

| **Məhsulun növü** | **Ölçü vahidi** | **1970** | **1975** | **1980** | **1985** |
|---|---|---|---|---|---|
| Mal-qara və quş əti | ton | 191 | 194 | 205 | 250 |
| Süd və süd məhsulları | ton | 1088 | 1466 | 1578 | 1691 |
| Yumurta | min | 97 | 189 | 201 | 256 |

başdan 22616 min başa, donuzların sayı 1047 başdan 1152 başa, quşların sayı 3506 başdan 7669 başa çatdı (şəxsi təsərrüfatlarda olan quşlar daxil deyil). Qeyd edək ki, iri buynuzlu mal-qaranın, qoyun və keçilərin təqribən 30 faizindən çoxu Şuşa rayonundakı şəxsi təsərrüfatlarda saxlanılırdı.

XX yüzilliyin 70-80-ci illərində kənd təsərrüfatı heyvanları arasında yalnız arı ailələrinin sayında azalma müşahidə edilmişdi. Rayonun kolxoz və sovxozlarında 1970-ci ildə 311, 1976-cı ildə 242 arı ailəsi var idisə, 1981-ci ildə bu göstərici 169-a enmişdir [35, s.335]. Bəhs etdiyimiz illərdə mal-qaranın sayının artması ilə yanaşı, heyvandarlıq məhsullarının istehsalı və tədarükünün müntəzəm sürətdə dinamik inkişafı da müşahidə edilmişdir. Məsələn, 1970-ci ildə hər inəkdən il ərzində orta hesabla 2119, 1975-ci ildə 2564 kiloqram süd sağılmışdırsa, 1985-ci ildə bu göstərici 2691 kiloqrama çatmışdır. Hər qoyundan qırxılan illik yunun həcmi isə 1970-ci ildəki 3,1, 1975-ci ildə 3,3 kiloqramdan, 1985-ci ildə 3,4 kiloqrama qalxmışdır. Hətta Şuşa rayon südçülük fermalarında hər inəkdən 4500-5300 kiloqram süd sağımı halları da müşahidə edilmişdir [36]. Apardığımız tədqiqatlardan məlum olur ki, Şuşa rayonu istər hər inəkdən sağılan südün ümumilikdə sağılan südün həcminə, istərsə də hər qoyundan əldə edilmiş yunun həcminə və ümumilikdə yun istehsalına və dövlətə təhvil verilən ətin və barama həcminə görə DQMV-nin rayonları arasında birinci yerdə dayanmışdır. 1970-1985-ci illərdə Şuşa rayonunda dövlətə heyvandarlıq məhsullarının satışında böyük artım müşahidə edilmişdir ki, bu artımı aşağıdakı cədvəldən də aydın görmək olar (bütün kateqoriyadan olan təsərrüfatlardan) [36].

| **Məhsulun növü** | **Ölçü vahidi** | **1970** | **1975** | **1980** | **1985** |
|---|---|---|---|---|---|
| Mal-qara və quş əti | ton | 191 | 194 | 205 | 250 |
| Süd və süd məhsulları | ton | 1088 | 1466 | 1578 | 1691 |
| Yumurta | min | 97 | 189 | 201 | 256 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | ədəd | | | | |
| Yun | ton | 22 | 28 | 35 | 46 |
| Barama | Ton | 20 | 22 | 25 | 28 |

1980-ci illərdə DQMV-də il ərzində adambaşına 325 kq süd, 75 kq ət düşürdü ki, bu da ümumrespublika göstəricilərində 2 dəfə yüksək idi [429, s.28]. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1980-ci illərin ortalarında adambaşına düşən ümumi kənd təsərrüfatı məhsullarının həcminə görə bütövlükdə DQMV-i ümumrespublika üzrə olan göstəricilərdən öndə dayanmışdır. Adambaşına düşən kənd təsərrüfatı məhsullarının həcmi 1986-cı ildə ümumrespublika üzrə 588 manat, Naxçıvan Muxtar Respublikasında 500 manat idisə, Azərbaycanın DQMV-də isə 695 manata çatmışdır [37].

Beləliklə, 1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Çünki bu dövrdə xalq təsərrüfatının bütün sahələri dinamik inkişaf etmiş Azərbaycan ittifaq miqyasında üzüm istehsalına görə birinci yeri, barama istehsalında ikinci yeri, pambıq istehsalında dördüncü yeri tutmuş, xalqın maddi rifah halı yaxşılaşmış, orta aylıq əmək haqqı 1,5 dəfə artmış, milli iqtisadiyyatımız miqyaslı və ardıcıl inkişaf etmiş, Azərbaycanın sosial-iqtisadi həyatında çox böyük yüksəliş baş vermişdir. Ümummilli lider Heydər Əliyev «Azərbaycanın yeni əsr – XXI əsr münasibətilə Azərbaycan xalqına müraciətində» demişdir ki, «Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi sistemli şəkildə artan xarici-iqtisadi əlaqələri dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensiyalına əsaslanır» [s. 12].

1970-1985-ci illərdə Şuşa rayonunun kolxozçularının da orta aylıq əmək haqqında artım müşahidə edilmişdir. Bəhs etdiyimiz dövrdə, bu artım 2 dəfəyə çatmışdır. Şuşanın kolxoz və sovxozların illik gəlirlərinin yüksək dərəcədə artması burada işləyən kolxozçuların da əmək haqqına güclü təsir etmişdir. 1965-ci ildə kolxoz və sovxoz təsərrüfatlarında işləyən hər bir

fəhləyə gündə 2 manat 65 qəpik verilirdisə, 1970-ci ildə bu rəqəm 3 manat 87 qəpiyə, 1975-ci ildə 4 manat 42 qəpiyə, 1980-ci ildə 5 manat 17 qəpiyə, 1985-ci ildə 6 manat 12 qəpiyə qalxmışdır. Kənd təsərrüfatında çalışan işçilərin orta aylıq gəliri 1960-cı ildə təxminən 50 manat olmuşdursa, 1970-ci ildə 441 manat, 1975-ci ildə 565 manat, 1980-ci ildə 892 manat, 1985-ci ildə isə 976 manat olmuşdur [38]. Bu baxımdan Şuşa rayonu kənd əməkçilərinin orta illik gəliri 1960-cı ilə nisbətən, 1965-ci ildə iki dəfə, 1970-ci ildə 2,7 dəfə, 1976-cı ildə 3,5 dəfə, 1980-ci ildə 5,5 dəfə artmışdır. Tədqiq edilən illərdə, rayonun kolxozçu kəndlilərinin təkcə orta illik əmək haqqı deyil eyni zamanda onların gəlirləri, təqaüdləri, güzəştli və maddi kömək ictimai fondların artması hesabına çoxalmışdır. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, Şuşa rayonu kənd təsərrüfatı işçilərinin orta aylıq əmək haqqı respublika göstəricilərindən xeyli çox olmuşdur. Məsələn, ümumrespublika üzrə kənd təsərrüfatında işləyənlər 1965-ci ildə 51,3 manat, 1970-ci ildə 76,7 manat, 1975-ci ildə 98,4 manat, 1985-ci ildə 119 manat aylıq əmək haqqı almışlarsa, Şuşa rayonunda bu göstərici 1965-ci ildə 80 manat, 1970-ci ildə 95 manat, 1975-ci ildə 120 manat, 1985-ci ildə isə 285 manata çatmışdır [39].

XX yüzilliyin 80-ci illərinin ikinci yarısında Şuşa rayonunun münbit torpaqlara, əlverişli iqlim şəraitinə və su ehtiyatlarına malik olması kənd təsərrüfatı məhsullarının inkişaf etdirilməsinə və yüksək məhsul əldə edilməsinə geniş imkanlar yaratmışdır. Əvvəlki illərdə olduğu kimi bəhs olunan illərdə rayonun ərazisində taxılçılıq, üzümçülük, heyvandarlıq sahələrinin inkişafı aparıcı sahələr olmuşdur. Şuşa rayonunda istehsal olunan məhsulların 57 faizi bitkiçiliyin, 43 faizi heyvandarlığın payına düşürdü [40]. Rayonun Aqrosənaye Kompleksinin maddi-texniki bazası müntəzəm olaraq Azərbaycan hökuməti tərəfindən təzələnmiş və möhkəmlənmişdir. Şuşa rayonunda əməyin fond təchizatının səviyyəsi əvvəlki illərdə olduğu kimi 1987-ci ildə də orta respublika göstəricilərindən 1,6 dəfə yüksək olmuşdur [41].

1986-1988-ci illərdə, Şuşa rayonunda əkin sahələri 0,8 min hektar artdı. Bəhs etdiyimiz illərdə Şuşa rayonunda əkilən kənd

təsərrüfatı bitkilərinin bəzilərinin artması, digərlərinin azalması halları müşahidə edilmişdir ki, bunu aşağıdakı cədvəldən də izləmək olar [42-44].

| **Məhsulun növü** | **Ölçü vahidi** | **1985** | **1986** | **1987** | **1988** |
|---|---|---|---|---|---|
| Ümumi əkin sahəsi | Min hek. | 3,8 | 3.8 | 3,9 | 4,6 |
| Taxıl əkini | Min hek. | 1,4 | 1,4 | 1,5 | 1,6 |
| Kartof və tərəvəz | Min hek. | 0,3 | 0,3 | 0,3 | 0,5 |
| Yem bitkiləri | Min hek. | 2,1 | 2,1 | 2,1 | 2,5 |

Azərbaycanın Şuşa rayonunda kənd təsərrüfatında əsas aparıcı sahələrdən olan və meyvə-tərəvəz bağları da var idi. Ərazidə istehsal olunan ümumi kənd təsərrüfatı məhsullarının 41 faizi dənli-paxlalı, buğda arpa, qarğıdalının üzümçülüyün, 6 faizi tərəvəzçiliyin payına düşürdü [44]. 1986-1988-ci illərdə Şuşa rayonunda meyvə bağlarının sahəsi 70 hektar artmışdı. Belə ki, 1985-ci ildə meyvə bağlarının sahəsi 740 hektar idisə, 1986-cı ildə 780 hektara, 1988-ci ildə isə 810 hektara çatmışdı. Həmin bağların 60 faizi kolxoz, sovxozların, 40 faizi şəxsi həyətyanı təsərrüfatların payına düşürdü [44]. Yuxarıda qeyd etdiyimiz kimi, Şuşa rayonunda kənd təsərrüfatının kiçik bir sahəni təşkil edən üzümçülük 1986-cı ildən ləğv edilməyə başlandı. Bir tərəfdən mərkəzin «alkoqolizmə qarşı mübarizə» siyasəti bu işdə mühüm rol oynayırdısa, ikinci bir tərəfdən həmin sahəyə baxımsızlıq yaranmışdı.

1986-1988-ci illərdə Şuşa rayonunun meyvə bağlarından yığılan məhsul çox da böyük fərq etməmişdir. 1985-ci ildə 190 ton, 1988-ci ildə isə 200 ton meyvə yığılmışdır. Hər hektardan götürülən məhsuldarlıq isə 24 sentnerdən 25 sentnerə qalxmışdır [47].

Bəhs etdiyimiz illərdə, Şuşa rayonunda bütün kateqoriyalardan olan təsərrüfatlardan dövlətə təhvil verilən kənd təsərrüfatı məhsullarının həcmi haqqında məlumatı aşağıdakı cədvəldən izləmək olar (tonla) [48, s.392]:

| İllər | Ölçüsü | Taxıl | Kartof | Tərəvəz | Meyvə |
|---|---|---|---|---|---|
| 1985 | ton | 480 | 60 | 550 | 190 |
| 1986 | ton | 475 | 65 | 560 | 210 |
| 1987 | ton | 450 | 78 | 580 | 215 |
| 1988 | ton | 490 | 84 | 565 | 200 |

Bəhs olunan dövrdə, rayonda bütün kateqoriyalardan olan təsərrüfatlarda hər hektardan götürülən məhsuldarlıqda isə cüzi (1 sentnerdən 2 sentnerədək) artım müşahidə edilmişdir. Yeri gəlmişkən onu da qeyd edək ki, 1986-cı il (yanvar) məlumatına görə Şuşa rayonunda 5 sovxoz var idi.

Əvvəlki dövrlərdə olduğu kimi bəhs olunan dövrdə də heyvandarlıq, Şuşa rayonunun inkişaf etmiş, qədim təsərrüfat sahələrindən hesab olunurdu. Rayonun təbii coğrafi mövqeyi, yay və qış otlaq sahələri heyvandarlığın inkişafına əlverişli şərait yaratmışdır. XX yüzilliyin 80-ci illərinin ikinci yarısında kənd təsərrüfatının heyvandarlıq sahəsini inkişaf etdirmək həmişə Azərbaycan hökumətinin diqqət mərkəzində olmuş, onun cins tərkibi yaxşılaşdırılmış, yem bazası möhkəmləndirilmiş, xəstəliklərə qarşı mübarizə tədbirləri gücləndirilmişdir. Bütün bunlara baxmayaraq, Şuşa rayonunun təsərrüfatlarında 1986-cı il müstəsna olmaqla 1987-1989-cu illərdə heyvanların sayında azalma halı müşahidə edilmişdir. 1985-ci illə müqayisədə 1989-cu ildə iribuynuzlu mal-qaranın sayı təxminən 6 faiz, donuzların sayı 4 faiz, qoyun və keçilərin sayı 15 faiz azaldı. 1985-1989-cu illərdə Şuşa rayonunda bütün kateqoriyalarından olan təsərrüfatlarından heyvanların sayının necə azaldığını aşağıdakı cədvəldən də izləmək olar (başla) [48, s.393]:

| İllər | **İri buynuzlu mal-qara** | **Qoyun və keçilər** | **Donuzların sayı** | **Quşlar** |
|---|---|---|---|---|
| 1985 | 7016 | 22616 | 1152 | 7669 |
| 1986 | 6872 | 21519 | 1144 | 7981 |
| 1987 | 7104 | 21482 | 1165 | 7660 |
| 1988 | 6819 | 20986 | 1172 | 7591 |
| 1989 | 6596 | 20521 | 1124 | 7481 |

1985-ci illə müqayisədə, 1988-ci ildə Şuşa rayonunda heyvanların sayında olduğu kimi dövlətə heyvandarlıq məhsullarının satışında da geriləmə halı müşahidə edilmişdir. Belə ki, həmin illərdə mal-qara və toyuq əti 250 tondan 240 tona, süd və süd məhsulları 1691 tondan 1600 tona, yumurta 256 min ədəddən 210 min ədədə, barama 28 tondan 20 tona enmişdir [49]. Bəhs etdiyimiz illərdə yalnız yun istehsalında artım müşahidə edilmişdir (46 tondan 55 tona qalxmışdır). 1985-ci ildə hər inəkdən il ərzində 2201 kiloqram süd sağılırdısa 1988 bu göstərici 2196 kiloqrama enmişdi. Həmin illərdə hər qoyundan il ərzində yun qırxımı 3,4 kiloqramdan 3,8 kiloqrama qalxmışdır. Aparılan hesablamalara görə 1985-ci illə müqayisədə 1988-ci ildə dövlətə kənd təsərrüfatı məhsullarının satışı 91 faiz təşkil etmişdir [49]. Təbii ki, bu enmənin səbəbi Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə bağlı olmuşdur.

1988-ci ildə, 1985-ci illə müqayisədə kənd təsərrüfatı məhsulları istehsalının 10 faiz aşağı düşməsi Şuşada rayon əhalisinin kənd təsərrüfatı məhsulları ilə təminatının heç də aşağı düşməsi demək deyildir. Yanvar 1988-ci il məlumatına görə bütövlükdə DQMV-də, o cümlədən Şuşa rayon əhalisinin kənd təsərrüfatı məhsulları ilə təminatı ümumrespublika səviyyəsində öndə dayanmışdır. Belə ki, həmin ildə adambaşına düşən kənd təsərrüfatı məhsulunun həcmi ümumrespublika üzrə 588 manat, Azərbaycan SSR-in Naxçıvan MSSR-da 501 manat təşkil etmişdirsə, respublikamızın bütövlükdə DQMV-də o cümlədən Şuşada 692 manata çatmışdır [50]. Yəqin ki, «əzabkeş» obrazı yaratmağa çalışan C.Xanzadyan, B.Ulubabyan, Z.Balayan, S.Kaptukyan və başqa erməni millətçiləri yuxarıdakı kiçik faktlardan «xəbərsizdilər», əgər xəbərləri olsaydı yəqin ki, tariximizi saxtalaşdırıb Dağlıq Qarabağda yaşayan ermənilərin «iqtisadi və sosial çətinliyindən» söz açıb ağız dolusu dünyaya səs salmazdılar.

# XVI FƏSİL

## ŞUŞA RAYONUNDA SƏNAYENİN İNKİŞAFI (1920-1988)

Dünyada mövcud olan bütün xalqlar tarixin, o cümlədən bəşəriyyətin yaratmış olduğu bütün maddi və mənəvi dəyərlərin sahibidir. Bu baxımdan xalqların mürəkkəb və keşməkeşli həyat yolu, milli şüurunun formalaşması, mənəvi inkişafı, yeni cəmiyyət, demokratik ideallar uğrunda mübarizəsi, dövlətçilik ənənələri tarixi inkişaf prosesində həlledici rol oynamaqla yanaşı, insan təfəkkürünün ən ali məhsulu olan tarixi yaddaşda geniş əks olunur.

Bəşəriyyət tarixində mövcud ideyalar, ictimai-siyasi, iqtisadi formasiyalar, müharibələr, xalqların, dövlətlərin tarixidir. Bəşər övladının yaratdığı, yüzilliklərin süzgəcindən keçib gələn fikirlər, ideyalar, nəzəriyyələr tədricən formalaşıb kitab səhifələrinə köçərək faktlara çevrilir və tariximizin əbədi səhifələrini təşkil edir. Hər bir tarixi onun mənsub olduğu xalqlar yaradır, bu tarixi tədqiq edərək ümumiləşdirən tədqiqatçı alimlər isə yoxlanılmış, həqiqəti əks etdirən aydın dəlillərə, inkarolunmaz mənbələrə əsaslanaraq, tarixi proseslərin məntiqi ardıcıllığını izləyərək bəşəriyyətin tarixini yazır və demək olar ki, həmin tarixi yaşadır. Lakin tarix təkcə quru rəqəmlər və faktlardan ibarət olmayıb, əsrlərdən əsrlərə boylanan təhlillərlə, şərhlərlə, mülahizələrlə, münasibətlərlə yazılır və ona görə də tarixi olduğu kimi qəbul etmək, dərk etmək və işıqlandırmaq gərəkdir.

Bəşəriyyətin inkişaf prosesi heç vaxt bir nöqtədə donub qalmadığı kimi, ictimai elmlərin ön sırasında gedən və bu proseslərdə aparıcı rol oynayan tarix elmi də dəyişməz qalmır, cəmiyyətin, ictimai quruluşun və zamanın nəbzinə müvafiq axarda inkişafa davam edir, təkmilləşir, yeniləşir.

Bütün bunlara görə tarix elmində cəmiyyətin təkamül proseslərinin, ictimai quruluşların, hakimiyyət və ideyalar uğrunda mübarizələrin, müharibələr və münaqişələrin, repressiyaların izi var. Bu və ya digər tarixi faktları izləmək üçün təkcə müxtəlif

dövrlərdə və ictimai-siyasi şəraitlərdə yazılmış tarixi mənbələrə, ədəbiyyata diqqət yetirmək lazımdır ki, deyilənlərin həqiqət olduğunu dərk edəsən.

Müasir dünyada qlobal informasiya mühiti XXI əsr tarixçilərinin qarşısına yeni vəzifələr qoyur. Xalqımızın əsrlərdən əsrlərə əmanət edilən tarixini tədqiq edən alimlərimiz tarixdə Azərbaycanı yaşatmaq kimi bir şərəfli vəzifəni yerinə yetirirlər. Müasir tarixçi alimlər bəşəriyyətin formalaşdırdığı zəngin tarixi irsə müraciət edərkən ilk olaraq mənbələrə üz tuturlar. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsinin dövlətimiz üçün xüsusi önəm kəsb etdiyi bir şəraitdə Vətənimizin tarixinə dair sovetlər dönəmində yazılmış əsərləri nəzərdən keçirərkən ilk növbədə onun müəllifinin kimliyinə diqqət yetirməyimiz tövsiyə olunur. Çünki həmin dövrdə Vətənimizin Qarabağ bölgəsi tarixini «yazan» erməni müəllifləri tariximizə qərəzli mövqedən yanaşmış və məqsədli şəkildə onu saxtalaşdırmışlar. Ona görə də həmin saxta «əsərlərə» tənqidi yanaşmağımız tələb olunur. Amma unutmamalıyıq ki, bu mənbələrin özünü də tarixçilər yaradır.

Azərbaycanın Şuşa rayonunun (1920-1988-ci illər) tarixi Vətən tarixinin ən mürəkkəb və ziddiyyətli dövrlərindən birini əhatə edir. Azərbaycanda həmin illərdə dövlət idarəçiliyinin yeni sistemi yaranmış, ölkənin iqtisadiyyatında, cəmiyyətin ictimai-siyasi həyatında, mədəni-mənəvi aləmində köklü dəyişikliklər baş vermişdi. Xalqımızın keçdiyi bu tarixi yolun obyektiv və ciddi elmi tədqiqinin mühüm prinsipial əhəmiyyəti vardır və ona görə də təhlil edilməlidir.

Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, «Azərbaycan xalqı yetmiş il kommunist rejimi şəraitində, sosialist dövlətinin tərkibində yaşamışdır. Həmin dövr Azərbaycan xalqının həyatında böyük bir tarixi dövrdür, onun doğru-düzgün qiyməti verilməlidir... Əsas cəhət budur ki, yetmiş il ərzində Azərbaycan xalqı böyük tarixi yol keçmiş, respublikanın iqtisadiyyatı yüksək sürətlə inkişaf etmiş, xalqımızın mədəni, təhsil səviyyəsi yüksəlmiş, Azərbaycanın elmi, mədəniyyəti, həyatının bütün sahələri inkişaf etmiş, respublikada böyük iqtisadi, sosial

və mədəni-intellektual potensial yaranmışdır. Tarix elmi keçmiş fakt və hadisələr məcmusu əsasında, konkret zaman və məkan çərçivəsində, yalnız obyektiv tədqiq etməklə əsil həqiqəti üzə çıxara bilər».

Azərbaycanın sovet dövrü tarixinin, xüsusilə saxtalaşdırma obyektinə çevrilən Dağlıq Qarabağ tarixinin yenidən hərtərəfli dərin təhlil edilməsinə və qiymətləndirilməsinə ehtiyac olan əsas problemlərə peşəkar tarixçilərin prinsipial elmi münasibətlərinin müəyyənləşdirilməsi məsələsi indi daha kəskinləşmişdir. XX əsrin 20-30-cu illəri ərzindəki məsələlərin böyük bir qismi, o cümlədən Azərbaycanda sovet hakimiyyəti qurulmasını şərtləndirən amillər; respublikada yaranmış ictimai-siyasi vəziyyət; hakim dairələrdə qarşıdurmalar; «sovet cəmiyyəti» qurulmasında mərkəzin gizli planları «acınacaqlı» kollektivləşdirmə prosesi; Azərbaycanda kənd təsərrüfatı siyasəti; «milli dövlət quruculuğunun» mahiyyəti – «müstəqilliyin» gerçək və dekorativ tərəfi; «xəyali hüquqlar»; «beşillik təsərrüfat planlarının» yerinə yetirilməsində və inkişafında Azərbaycan fəhlə sinfinin rolu; mədəni quruculuğun xüsusiyyətləri, «bolşevik ideologiyasının» hakimiyyəti; dinə münasibətin öxünəməxsusluğu; respublikada totalitar rejimə keçid; bürokratiyanın güclənməsi, idarəetmədə inzibati-amirlik sisteminin bərqərar olması; Azərbaycanda qanunçuluğun pozulması, repressiyalar və sair məşəqqətlərin analtik təhlili və düzgün, obyektiv qiymətləndirilməsi həmin problemlər sırasına daxildir.

Təqdim olunan monoqrafiyada bəhs olunan xronoloji çərçivədə «Stalin eksperimenti»nin bütün keçmiş sovet ölkəsində olduğu kimi, Azərbaycanda, o cümlədən Dağlıq Qarabağda və Şuşa ərazisində necə həyata keçirildiyini aşkarlamaq üçün bütün bacarığını sərf etməyə çalışan müəllif stereotıplərindən, üstüörtülü təqdimatdan» uzaqlaşmış və həmin müddət çərçivəsində Azərbaycanda mövcud olan cəmiyyətin tarixi inkişafını obyektiv şərh etməyə səy göstərmişdir. Müəllif tarixi prosesi araşdırarkən, ılk növbədə tarixilik prinsipini əsas tutaraq, obyektiv və subyektiv amillərin qarşılıqlı əlaqələrini hərtərəfli təhlil etmək mövqeyindən çıxış etmişdir.

Apardığımız tədqiqat erməni müəllifləri tərəfindən saxtalaşdırma obyektinə çevrilən Dağlıq Qarabağın sovet dövrü tarixinin analitik, hərtərəfli, tam elmi tarixini yaratmaq üçün görülməli böyük, çox diqqət və zəhmət tələb edən məsul bir işin ancaq başlanğıcıdır. Bu istiqamətdə yeni axtarışlar və dərin analitik tədqiqatlar Azərbaycan tarixçilərinin alim borcu, müqəddəs vəzifəsidir və gələcəkdə bu işlər davam edəcəkdir.

Azərbaycanın Şuşa rayonunun tarixini tədqiq edilib işıqlandırılarkən vaxtilə Moskva, Sankt-Peterburq, Tbilisi və respublikamızın arxivlərindən götürülmüş sənəd və materiallara üstünlük verilmişdir. Bu sənəd və materiallar əsərin mənbəşünaslıq bazasını təşkil edir. Bir çox aktual problemlər araşdırılarkən dövri mətbuatdan, alimlərin, tarixi şəxsiyyətlərin bərpa olunmuş nəşrlərindən, kitab və xatirələrindən istifadə edilmişdir. Həmçinin ərazidə yaşayan və həqiqətləri görən, könüllü olaraq «Birinci Qarabağ Savaşı»nda iştirak edən, xalqımızın başına gətirilən min-bir müsibətləri görən, şahidi olduğumuz hadisələri də qələmə almışıq.

«Azərbaycanın Şuşa rayonunda sənayenin inkişafı (1920-1988-ci illər)» fəsli yazılarkən Azərbaycanın görkəmli tarixçilərində Ə.S.Sumbatzadə, Y.M.Mahmudov, İ.A.Hüseynov, Q.Ə.Hacıyev, Z.İbrahimov, Ə.N.Quliyev, Y.A.Tokarjevski, A.Ə.Məmmədov, T.H.Musayeva, E.İ.Məmmədov, C.B.Quliye, P.A.Əzizbəyova, Z.M.Bünyadov, M.A.Dadaşzadə, Ə.N.Quliyev, B.M.Abdullayev, R.Q.İsmayılov, B.S.Qurbanov, C.Ə.Bəhramov, N.R.Məmmədov və digər alimlərimizin yazdıqları qiymətli əsərlərdən istifadə olunmuşdur.

Bəhs olunan 1920-1988-ci illərdə Azərbaycan sənayesindəki ümumi vəziyyəti təhlil edərkən aşağıdakı önəmli məsələlər diqqəti cəlb edirdi: XX yüzilliyin iyirminci illərinin ikinci yarısından etibarən Azərbaycanda xalq təsərrüfatının bütün sahələrinin sosialistcəsinə yenidən qurulmasına başlandı. Məqsəd Stalin və onun həmfikirlərinin sosializm ideyalarını əməli olaraq Azərbaycanda gerçəkləşdirmək idi. Tez bir zamanda reallaşdırılan sənayeləşdirmə, planlaşdırmada və idarəçilikdə sərt mərkəzləşdirmə, kommunist partiyasının cəmiyyətdə bölünməz və

şəriksiz ağalığını bərqərar etmək yenidənqurmaların, o cümlədən sənayeləşdirmənin başlıca istiqaməti idi. 20-30-cu illərdə sənayeləşdirmə xəttinin həyata keçirilməsi sayəsində Azərbaycan aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrildi. Yeni iş yerlərinin açılması hesabına Azərbaycanda işsizliyə son qoyuldu. Bununla yanaşı, sənayeləşdirmə respublikamızı SSRİ-nin xammal bazasına çevirdi. 1941-1945-ci illərdə Azərbaycanın bütün sənaye sahələri cəbhə üçün məhsul istehsalına keçdi. Neftçilər fədakarlıqla çalışaraq cəbhəni, xalq təsərrüfatını yanacaqla təmin edirdi. Onlar müharibə dövründə ölkəyə 75 milyon ton neft verdilər. 1946-1950-ci illərdə Azərbaycan sənayesi bərpa edildi. Onlarla yeni sənaye müəssisələri yaradıldı. 70-ci illərdə Respublikada idarəçiliyin güclənməsi, dövlət və plan intizamının möhkəmlənməsi kadrlara qarşı tələbkarlığın, tapşırılan iş üçün məsuliyyətin artırılması nəticəsində xalq təsərrüfatında mühüm irəliləyişlər əldə olundu. Respublikanın rəhbəri mərkəzdəki nüfuzundan istifadə edərək iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı üçün müvafiq qərarlar qəbul edilməsinə, vəsait ayrılmasına nail oldu. Əhalinin tələblərini ödəmək üçün istehlak malları istehsal edən müəssisələr şəbəkəsi genişləndi. 70-ci illərdə Bakıda lampa zavodu, tikiş, yeni ayaqqabı, Sumqayıtda trikotaj, xovlu iplik fabrikləri, Gəncədə ət kombinatı, qənnadı fabriki, melixor qablar, Yevlaxda yunun ilkin emalı zavodları, Xankəndində ayaqqabı fabriki, 80-ci illərdə Bakıda «Şampan şərabları» zavodu, makaron, Xırdalanda dəri mallar, Abşeronda iri broyler fabrikləri, Xırdalanda metal örtük konstruksiyaları zavodu, habelə onlarla çörək, şərab zavodları, «Sirab» mədən suları zavodu, konserv kombinatları işə salındı. Tikinti materialları istehsalı artırıldı. Bakıda iki evtikmə kombinatı, Sumqayıt və Mingəçevirdə evtikmə zavodları, Sumqayıtda şüşə zavodu, Əlat ağac emalı kombinatı, habelə bir neçə dəmir-beton konstruksiyalar istehsal edən müəssisə işə düşdü. Enerji tutumlu sahələrin inkişafı Respublikada elektrik enerjisi istehsalının artmasını tələb edirdi. 1971-ci ildə Naxçıvan MSSR-də Araz su elektrik stansiyası, 70-ci illərin ortalarında Tərtər su-elektrik stansiyası, 1981-1984-cü illərdə Şəmkir su-elektrik stansiyası və

Azərbaycan dövlət rayon elektrik stansiyası tikilib işə salınmışdı. 500 kilovoltluq elektrik xətləri çəkilmişdi. Hər il orta hesabla 2800 kilometr elektrik xətləri çəkilirdi. 70-80-ci illərdə elektrik enerjisi istehsalı iki dəfəyə qədər artmış, 1990-cı ildə 23,2 milyard kvt. saata çatmışdır. Azərbaycanın enerji müstəqilliyi təmin olunmuşdu. Azərbaycan SSR-də 90-cı illərin əvvəllərində 1026 sənaye müəssisəsi vardı. Onların yarıdan çoxu ağır sənayenin payına düşürdü. 70-80-ci illərdə Respublikada sənaye məhsulu istehsalı 3 dəfəyə qədər artmışdı. Əmək ehtiyatlarını istehsalata daha geniş cəlb etmək üçün xırda və orta müəssisələrin çoxu paytaxtdan kənarda tikilirdi. 1970-ci ildə sənaye məhsulunun 32, 1985-ci ildə isə 42 faizi Bakı-Sumqayıt sənaye rayonunun hüdudlarından kənarda istehsal edilirdi. XX yüzilliyin 80-ci illərinin ikinci yarısında sənayeyə rəhbərliyin zəifləməsi istehsalın artım sürətinin 80-ci illərdə əvvəlki 10 ildəkinə nisbətən 1,8 dəfə azalmasına səbəb olmuşdu.

Təqdim olunan mövzu təhlil edilərkən yaxın tariximizə eksklüziv baxış etmək yerinə düşərdi: Sovet imperiyasını quran bir ölkə üçün təkcə təsərrüfat dağınıqlığını aradan qaldırılması əlbəttə kifayət deyildir. Bunun üçün ilk növbədə mövcud sənaye müəssisələrinin bərpa olunmasını başa çatdırmaq, onun maddi-texniki bazasını möhkəmləndirmək və ölkə üçün lazım olan yeni sənaye sahələrinin yaradılması tələb olunurdu. Bunsuz ölkənin iqtisadi geriliyini aradan qaldırmaq, müstəmləkəçilik rejimini möhkəmləndirmək olmazdı. Sovet rejimini qoruyub saxlamaq, ölkənin iqtisadi müstəqilliyinə nail olmaq, müdafiə qabiliyyətini möhkəmləndirmək, imperiyanın cənub bölgələrində ən etibarlı dayaqlarını yaratmaq, möhkəmləndirmək, Azərbaycanı qonşu cənub ölkələrindən, soy qardaşlarından uzaqlaşdırmaq üçün sənayeni inkişaf etdirmək son dərəcədə vacib idi. Belə bir tədbir Dağlıq Qarabağ kimi bir bölgədə yerli milli və dini ənənələri sarsıtmaq, xristianlıq ənənələrinə söykənən rus-erməniləşdirmə siyasətini həyata keçirmək üçün lazım idi. Bütün bu zəruriyyəti nəzərə alaraq bolşeviklər partiyası öz milli, müstəmləkəçilik siyasətini həyata keçirməyə başladı.

Ölkəni sənayeləşdirmək uğrunda mübarizə partiya, sovet, komsomol, həmkarlar təşkilatının başlıca vəzifələrinə çevrildi. Yenicə yaradılan partiya, sovet və təsərrüfat orqanları, onun Dağlıq Qarabağdakı dayaqları bölgədə sosialist tədbirlərini həyata keçirməyə, xalq təsərrüfatının bütün sahələrini və xüsusi ilə mövcud sənaye müəssisələrinin bərpa olunmasını başa çatdırmaq işinə cəlb edildi. Azərbaycan İnqilab Komitəsi Sovet Rusiyasının təcrübəsindən istifadə edərək bir çox islahatların həyata keçirilməsi işinə başladı.

Azərbaycan İnqilab Komitəsi 1920-ci il mayın 5-də torpağın, mayın 15-də meşələrin, sular və yeraltı sərvətlərin dövlət mülkiyyəti elan etdi. Mayın 16-da qəbul edilmiş dekretə əsasən istehsalat üzərində fəhlə nəzarəti, iyulun 9-da bankların, iyunun 15-də tütün fabriklərinin, sement zavodlarının, daş karxanalarının, noyabrın 29-da isə pambıqtəmizləmə zavodlarının və başqa sənaye müəssisələrinin, nəqliyyat və tikinti avadanlıqlarının milliləşdirilməsi haqqında dekret verildi. Azərbaycanın hər yerində və habelə Dağlıq Qarabağda istehsal vasitələri üzərində xüsusi mülkiyyətə son qoyuldu. Beləliklə, Azərbaycan suveren dövlətinin iqtisadi əsası kökündən dağıdıldı. İqtisadiyyatın hakim mövqeləri imperiyanın yerli dayaqlarının əlinə keçdi. Bununla da respublikanın bütün bölgələrində olduğu kimi, Dağlıq Qarabağda da müstəmləkəçilik rejiminin iqtisadi təməlini yaratmaq üçün zəmin yaradıldı. Respublika hökumətinin verdiyi dekret, qərar və qətnamələr əsasında əhali arasında formal olaraq məhdudiyyətlər, hüquq bərabərsizliyi ləğv edildi. 1920-ci ilin ikinci yarısından başlayaraq Dağlıq Qarabağda o cümlədən Şuşa ərazisində olan bütün torpaq sahələri, meşələr, sular, fabriklər, sexlər, emalatxanalar, daş karxanaları milliləşdirildi. Xalq təsərrüfatının ən mühüm sahələrinin milliləşdirilməsi 1921-ci ilin birinci yarısında əsasən başa çatdırıldı [1].

Azərbaycan K(b)P MK-nın respublika hökumətinin qərarları ilə milliləşdirilmiş təsərrüfat sahələrinin bərpası işinə başlandı. «milliləşdirmə və bərpa işləri»nə mane olan, onu pozmağa çalışanlara qarşı ciddi tədbirlər görüldü.

Respublika hökuməti Sovet Rusiyasında olduğu kimi, başlıca diqqəti sənayenin inkişafına verdi. Çünki iqtisadi geriliyi yalnız sənayenin hər vasitə ilə bərpa və inkişaf etdirilməsi əsasında aradan qaldırmaq olardı.

Dinc quruculuğa keçid olduqca mürəkkəb beynəlxalq və daxili şəraitdə davam edirdi. Belə ki, 1920-ci illərin əvvəllərində Azərbaycanın bir çox bölgələrində, o cümlədən Dağlıq Qarabağda və Şuşa ərazisində sosializm əleyhinə xalq üsyanları baş verdi. Azərbaycanın hər yerində olduğu kimi Şuşa ərazisində də vəziyyət son dərəcə ağır idi. 1920-1921-ci ildə Şuşanın Şırlan, Qaybalı, Xəlfəli, Quşçular, Zarıslı, Daşaltı, Turşsu, Xanalı, Göytala və başqa kəndlərində güclü yanğınlar törədilmişdir [1, s.2, iş 171, v.34]. 1923-cü ilin yaz və payız aylarında daşnak quldur dəstələri azərbaycanlılar yaşayan bir sıra kəndlərində ot tayalarını, taxıl zəmilərini, taxıl anbarlarını yandırmış və ya qarət etmişdilər [133, s.201]. İrəvandan gələn atlı quldur dəstələri Qarabağın o cümlədən Şuşanın kəndlərinə basqın edir, əhalini qarət edir, mal-qaralarını, qoyun sürülərini, at ilxılarını ələ keçirərək daşıyıb aparırdılar. Arxiv sənədlərindən birində göstərilir ki, 1923-cü ilin may-avqust aylarında erməni quldur dəstələri Şuşanın kəndlərinə basqınlar edib yerli idarə orqanlarının binalarını dağıtmışlar [2, s.125, iş 428, v.2]. 1920-1923-cü illər Şuşa ərazisində vəziyyət olduqca ağır idi. Təsərrüfat sahələri bərbad hala düşmüşdü. Mövcud sənaye müəssisələri və tikinti müəssisələri dağıdılmışdır. Nəqliyyat sahəsində də vəziyyət ağır idi. Sənaye, əsaslı tikinti sahələrində çalışan işçilərin çoxu öz peşələrindən uzaqlaşaraq müxtəlif bölgələrə çıxıb getmişdilər. Beləliklə, bərpa işləri üçün işçi qüvvəsi çatışmırdı. İxtisaslı işçilər yox dərəcəsində idi. Arxiv sənədlərinin birində yazılırdı: «Yuxarı Qarabağın kəndlərində bir dənə də olsun salamat müəssisə qalmamışdı...bir çox kəndlərdə əhalinin böyük əksəriyyəti evlərini tərk edərək çıxıb getmişlər» (Bunlar azərbaycanlılar yaşayan kəndlər idi – N.M.) [2, s.5, iş 52, v.5].

Bütün bunlar Şuşada təsərrüfatın bərpa olunması üçün ciddi çətinliklər törədirdi. Xüsusilə toxuculuq müəssisələrində ixtisaslı kadrlara böyük ehtiyac var idi. Eyni zamanda, erməni quldur-

larının qarətçi basqınları nəticəsində əhali qıtlıq içərisində boğulurdu. Qəzənfər Musabəyov 1921-ci il martın 27-də Sovet dövlətinin mərkəzi orqanlarına verdiyi məlumatda bildirirdi ki, Bakıda, Azərbaycanın bütün qəzalarında və xüsusilə Dağlıq Qarabağda fəhlələrin, kəndlilərin ərzaqla təchiz olunması işi çox ağır bir vəziyyətdədir [3, s.4, iş 19, v.36]. Aprelin 12-də Moskvaya göndərilən bir teleqramda Q.Musabəyov Azərbaycanda yaranmış aclıq təhlükəsi barədə həyəcanlı məlumatlar vermişdir. Mövcud çətin vəziyyətdən çıxmaq üçün 1922-ci il yanvarın 1-dən fevralın 27-dək olan müddətdə Bakıdan Şuşaya 120 pud gündəlik tələbat məhsulları, həmin ilin may-iyun aylarında isə 130 pud ərzaq göndərmişdir [3, s.4, iş 19, v.37].

Azərbaycan rəhbərliyinin həyata keçirdiyi tədbirlərdən biri də yarmarkaların təşkili did. Belə ki, Azərbaycan SSR XKS 1922-ci il may, sentyabr ayında, 1923-cü ilin martında Bakıda, respublikanın digər iri şəhərlərində yarmarkalar təşkil olunmuşdur. Yarmarka zamanı əldə edilən ərzağın bir hissəsi Şuşaya verilmişdir. 1923-cü ilin aprel-may aylarında Bakıdan və Gəncədən Şuşaya, 125 min manat dəyərində ərzaq, paltan və müxtəlif əşyalar göndərilmişdir [1, s.1, iş 114, v.35]. 1921-ci il oktyabrın 19-da RSFSR Əmək və Müdafiə şurasının Azərbaycanın sənaye müəssisələrinin bərpası üçün ayrılan 500 min manat pulun bir hissəsini Şuşanın sənaye müəssisələrinin bərpası üçün verilmişdir [9, s.1, iş 116, v.27].

1922-ci ilin fevralında AK(b)P-nin IV qurultayı Azərbaycanın bütün rayonlarının, o cümlədən Şuşada xalq təsərrüfatının bərpası işinə daha çox diqqət verilməsi barədə qərar qəbul etdi. Qurultayın qərarı ilə əlaqədar olaraq Şuşaya ərzaq, geyim paltarları, digər sənaye malları, texniki avadanlıqların göndərilməsi işinə böyük diqqət verildi. Eyni zamanda, Şuşaya müxtəlif ixtisaslı mühəndis, texniklər göndərildi. 1923-cü ilin yazında Bakı və Gəncədən Şuşaya 45 nəfərdən çox müxtəlif ixtisaslı mütəxəssislər göndərildi. Şuşanın sənaye müəssisələrinin ixtisaslı fəhlələrlə, müxtəlif texnika, dəzgahlarla təchiz olunması istehsalatın xeyli genişlənməsinə, Şuşada olan ipək karxanalarının, dəmirçi sexlərinin, şərab, spirt müəssisələrinin fəaliy-

yətinin xeyli canlanmasına səbəb oldu. 1924-1925-ci ildə Şuşada fəaliyyət göstərən ipəkçilik, gön-dəri müəssisələrində yeni emalatxanaların təşkil olunmasına imkan verdi. Bəhs olunan dövrdə Şuşada dülgər, xarrat sexləri açıldı. Bu müəssisələrin bir hissəsi elektrik enerjisi ilə təmin edildi [11].

Şuşa ərazisində Toxuculuq sənayesinin bərpa və inkişaf etdirilməsi üçün görülən tədbirlər də öz bəhrəsini verdi. 1923-1929-cu illərdə Şuşada xalçaçılıq kombinatı yaradılmışdır.

1920-1921-ci illərdə Dağlıq Qarabağda toxuculuq müəssisələrində çox ağır vəziyyət hökm sürürdü. Mövcud toxuculuq müəssisələrinin dəzgahlarının çoxu köhnəlmiş və dağıdılaraq sıradan çıxmışdır. Bakının toxuculuq müəssisələrinin bilavasitə köməyi ilə 1921-1925-ci illərdə Dağlıq Qarabağda 23 toxuculuq, əyricilik, boyaqçılıq və tikiş sexləri bərpa edilərək işi salınmışdır. 1926-cı ildə toxuculuq müəssisələrində 680 əyrici sexi, 120 toxuculuq dəzgahı yeniləşdirilmiş və ya təmir olunmuşdur [34, s.3, iş 3451, v.6].

1918-ci ilədək Dağlıq Qarabağda elektrik mühərrikləri yox idi. 1915-ci ildə Azərbaycanda cəmi 200 mln.kv. saat elektrik enerjisi istehsal edildi. Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 12 iyun tarixli dekreti ilə elektrik stansiyaları milliləşdirildi [42, s.3, iş 3451, v.43]. 1921-ci ildə Şuşada, Ağdamda elektrik stansiyasının tikintisi üçün tədbirlər görüldü 1923-1925-ci illərdə Şuşada elektrik mühərrikləri işə salındı.

Azərbaycan hökuməti xalq təsərrüfatının bərpası illərində Şuşa ərazisində tikinti sahəsində də xeyli tədbirlər həyata keçirdi. Yeni yaşayış binaları, inzibati idarələr, xəstəxanalar, sahibsiz uşaqlar üçün evlər, məktəb binaları tikilib istifadəyə verildi. Eyni zamanda, Hadrut, Ağdərə, Xankəndi, Şuşa, Xocavənd arasında yeni yolların çəkilməsi üçün də tədbirlər görüldü. Tədqiqatlardan məlum olur ki, Dağlıq Qarabağda həyata keçirilən abadlıq işləri əsasən ermənilər yaşayan kəndlərdə aparılırdı. Qeyd edək ki, «DQMV-i haqqında Qanun»un müvafiq maddəsində göstərilmişdir ki, DQMV-nin Xalq Deputatları Sovetinin Bölgədə tikinti, abadlıq, quraşdırma işlərinin istiqamətlənməsi hüquqları vardır və tərkibi ermənilərdən ibarət «deputatlar» da.

həmin abadlıq işlərini ermənilərin cəmləşdikləri kəndlərdə aparırdılar.

Xalq təsərrüfatının bərpasının sonunda Dağlıq Qarabağın iqtisadi və siyasi həyatında imperiyanın tələblərinə uyğun bir «sabitlik» yaranmışdır. Bu sabitlik, əldə edilən iqtisadi nailiyyətlər, Vilayətdə sənayeləşdirmə tədbirlərinin daha da genişləndirilməsinə imkan verdi. 1925-ci ilin dekabr ayında çağırılan XIV qurultayın qəbul etdiyi qərarlara uyğun olaraq Azərbaycanda, o cümlədən DQMV-də və onun Şuşa ərazisində geniş tədbirlər həyata keçirilməyə başlandı.

1926-cı ilin fevralında Azərbaycanda sənayeləşdirmə komissiyası təşkil edildi. Komissiyanın tərkibinə D.Bünyadzadə, L.Mirzoyan, Q.Musabəyov və digərləri daxil oldu. Komissiyanın nəzdində müxtəlif şöbələr: xammal, fəhlə qüvvəsi, sənayeləşdirmənin təşkili, elektrikləşdirmə və s. yaradıldı [61].

Azərbaycan K(b)P MK-nın may 1926-cı il Plenumu Mərkəzi Komitəsinin Rəyasət Heyətinin hesabatını dinləyib respublikada sənayenin beşillik planı haqqında məsələ müzakirə edərək AXTŞ-yə təklif edildi ki, beşillik əsasında 1926-1927-ci illər üçün yeni zavodlar, işçi qüvvəsinin planını işləyib hazırlanması barədə qərar qəbul etdi [74].

1926-cı il iyunun 4-də Vilayət partiya komitəsinin plenumunda yeni sənaye obyektləri, mənzil tikintisi, abadlıq, quraşdırma və s. aid məsələlər müzakirə edildi. Qərarda Vilayətə toxuculuq müəssisələrinin, əyirici sexlərin, xalça fabrikinin yaradılması, barədə konkret vəzifələr müəyyən olundu. Müəyyən edilən vəzifələrdən biri də Vilayətdə istilik elektrik stansiyasının tikilməsi idi.

Respublikanın Dövlət Plan Komitəsi, komissiya ilə birlikdə Azərbaycanın 1926-1930-cu illərə aid sənayeləşdirmə planını hazırlamaq işinə başladı. 1926-cı ilin martın əvvəllərində ZSFSR Dövlət Plan Komitəsi Zaqafqaziyanın elektrikləşdirilməsi planının layihəsini hazırladı. Layihədə, yerlərdə sənaye obyektinin yaradılması məsələlərinə respublikanın rayonlarında və o cümlədən Şuşada yeni sənaye obyektlərinin tikilməsi işinə xüsusi diqqət verildi.

Azərbaycanın sənayeləşdirilməsi haqqında ASSR AXTŞ-nın direktivinə əsasən üç ildə (1925/26, 1926/27, 1927/28-ci illərdə) Azərbaycanda sənaye, nəqliyyat və əsaslı tikintisi işlərinə və elektrikləşməyə 25 milyon manatdan çox vəsait ayrılmışdır. Bu vəsaitin 13.300 min manatı yeni tikinti, quraşdırma işlərinə, 11.700 min manatı mövcud sənaye müəssisələrinin yenidən qurulmasına, onun maddi-texniki bazasının möhkəmləndirilməsi işlərinə sərf ediləcəkdi [75].

1928-1929-cu il üçün əsaslı xərclər 10.238 min manat məbləğində nəzərdə tutulmuşdur [38, s.74, iş 63, v.68]. 1926-1927-ci təsərrüfat ilində Şuşada sənaye tikinti işlərinə 120 min manat vəsait sərf olunmuşdur [75, s.1, iş 276, v.43]. Apardığımız araşdırmalardan məlum olur ki, bəhs etdiyimiz dövrdə Şuşanın sənaye-tikinti işlərinə ayrılan vəsait qonşu Xankəndinə ayrılan vəsaitin üçdən biri, Ağdərəyə ayrılan vəsaitin yarısı qədər idi. 1928-1929-cu təsərrüfat ilində kapital qoyuluşu 28 faiz artırılmışdır. Ayrılan bu vəsaitlərin hesabına təkcə 1926-cı ildə Şuşada mahud sexi, 50 mənzildən ibarət yaşayış binası tikilib istifadəyə verilmişdir. 1927-ci ilin yanvar ayında olan məlumata görə Şuşada ipəkəyirmə sexin tikintisi işinə başlanmışdır [5, iş 595, v.5].

Şuşada sənayeləşdirmə xalq təsərrüfatının bərpasının başa çatması illərində başlandı. Sənayeləşmənin genişlənməsi ilə Şuşa ərazisində işsizlərin sayı azalmağa başladı.

Sənayeləşdirmənin genişləndirilməsi müxtəlif ixtisaslı kadrların hazırlanmasını tələb edirdi. Bununla yanaşı Şuşa ərazisində sənayeləşdirmədə çoxlu vəsait və həm də elmi-texniki kömək tələb olunurdu. Bu məqsədlə Azərbaycan hökuməti Şuşada sənayeləşdirmənin vəzifələrini həyata keçirmək üçün yenidən xeyli miqdarda vəsait ayırdı. Eyni zamanda, Bakı sənaye müəssisələri Şuşaya texniki vəsait sahəsində köməklik etdi. «Azneft» sənayeni yanacaqla təmin etmək üçün geniş tədbirlər gördü. Bakıdan Şuşaya 2 ədəd istilik elektrik mühərriki göndərildi [81].

Sənayeləşdirmənin ilk günlərindən başlayaraq Azərbaycan SSR-nın hər yerində və habelə Şuşada fəhlələrin, mühəndis və

texniklərin geniş əmək fəallığı baş qaldırdı. Fəhlələrin əmək fəallığının artması az bir müddətdə müəyyən nəticələr verdi: Artıq 1927-ci ildə sənayedə əmək məhsuldarlığı respublika miqyasında müharibədən əvvəlkinə nisbətən 15 faiz yüksəldi. Dövlətin vəsaitini sənayeləşdirmə işinə sərf etmək məqsədi ilə İttifaq rəhbərliyi (SSRİ hökuməti) 1927-ci ildə 200 milyon manat məbləğində xüsusi sənayeləşdirmə istiqrazı, 1928-ci ildə isə 500 milyon manat məbləğində ikinci sənayeləşdirmə istiqrazı buraxıldı. Hər iki istiqraz Azərbaycanda və habelə Şuşada inzibati yolla paylandı. Azərbaycan xalqının İttifaq büdcəsinə borc adı altında daxil etdiyi vəsaitin məbləği ildən-ilə çoxalırdı. 1929-1930-cu illərdə bu məbləğ demək olar ki, 1928-ci ildəkinə nisbətən 2,3 dəfə artırılmışdır [82, s.1, iş 387, v.14]. Bu siyasətdə Mərkəzin gizli bir planı idi və Moskva imperiyanı qoruyub saxlamaq üçün ucqarlara borc verməklə özündən asılı vəziyyətdə saxlamaq məqsədlərini güdürdü. Təəssüflər olsun ki, sonrakı dövrlərdə də bu proses davam etdirilmişdir.

Xalq təsərrüfatının gəlirinin artması, əhalinin vəsaitinin səfərbər edilməsi, ən ciddi qənaət, sənayeyə əsaslı vəsait qoyuluşunu genişləndirməyə imkan verdi. Təxminən üç il ərzində (1925-1928-ci illərdə) sənayeyə 3,3 milyard manata qədər vəsait qoyulmuşdur [11, s.1, iş 316, v.27].

Bəhs edilən dövrdə Azərbaycanın sənaye müəssisələrində və habelə Şuşanın sənaye obyektlərində istehsal texniki cəhətdən yenidən quruldu. Şuşanın mövcud toxuculuq müəssisələri, tikinti müəssisələri, dəmirçilik və taxta emalı müəssisələrində yenidənqurma tədbirləri ilə yanaşı yeni müəssisələr, istilik elektrik stansiyaların tikilməsi genişləndirildi. Sənayeləşdirmənin ilk illərində enerji bazasının genişləndirilməsinə diqqət artırıldı. Vilayətin bir çox bölgələrində istilik elektrik stansiyası istifadəyə verildi. 1925-ci ildə Şuşanın elektrikləşdirilməsinə 3 min manat vəsait ayrılmışdır. Bu DQMV-nin digər rayonlarına ayrılan vəsaitin 50 faizi həcmində idi. 1926-cı ildə Şuşadakı barama sexi bərpa edilərək işə salındı. Bu işdə Bakı fəhlələrinin mühəndis və texniklərin böyük rolu olmuşdur.

Azərbaycan hökumətinin ayırdığı vəsait hesabına 1926-cı ildə DQMV-də sənayedə tikinti quraşdırma işləri sürətlə davam etmişdi. Belə ki, 1926-cı il fevralın 11-də Əsgəranda spirt zavodu, martın 3-də Şuşa xalça-ipək fabriki işə salındı. Həmin il Vərənd və Tağverd spirt zavodu, 8 ipək burma fabrikinin əsası qoyuldu. Həmin müəssisələrdə 600 nəfərdən çox işçi çalışırdı. İlin sonunda Bakıdan həmin müəssisələrə 200 ədəd əyrici dəzgah gətirib quraşdırılmışdır. 1926-cı ildə Əsgəranda yeni spirt zavodu, həmin il Xankəndində yeni ipək fabriki «Karşel-kombinat» işə salındı. Kombinatda 246 fəhlə çalışırdı. Kombinat birinci ili 12,3 ton xam ipək, 1,5 top ipək sapı istehsal etmişdir. 1926-cı ildə Şuşada əyirici sex yenidən bərpa edildi [87].

Keçən əsrin 30-cu illərində Şuşa rayonunda yeyinti sənaye məhsulları istehsalına xüsusi diqqət verilməyə başlandı. 20-ci illərin sonu və 30-cu illərdə yerli xammalla işləyən mexanikləşdirilmiş müəssisələr yaradıldı. Bəhs olunan dövrdə Dağlıq Qarabağda şərabın ilkin emalı müəssisəsi istifadəyə verildi. Həmin şərab müəssisəsini və digər müəssisələri birləşdirən Qarabağ Şərabçılıq Tresti Azərbaycan Xalq Komissarları Sovetinin Dövlət üzümçülük və şərabçılıq istehsalat Komitəsinin sisteminə daxil edildi. Əgər 1927-ci ildə trestin cəmi iki təmiz spirt zavodu 650 min manatlıq ümumi məhsul buraxırdısa, 1938-1939-cu təsərrüfat ilində II müəssisədə 26 milyon 102 min manatlıq məhsul istehsal olunurdu. Zavodda «Qarabağ», «Martuni», «Gişi», «Çartar» şərabları və habelə müxtəlif növ konyaklar istehsal olunurdu. Bu müəssisələr Qarabağla qonşu rayonlardan gətirilən xammalın hesabına istehsal həcmini ildən-ilə genişləndirirdi [90].

1930-cu illərdə Xankənddə süd kombinatı, çörək zavodu, Əsgəranda spirtsiz içkilər zavodu tikilib istifadəyə verildi. 1933-1938-ci illərdə Şuşa, Vankli, Ağdərə, Hadrut və Xocavənd kombinatlarını birləşdirən sənaye müəssisələrinin maddi-texniki bazası xeyli möhkəmləndirildi, məhsul istehsalı genişləndirildi. Bu müəssisələrdə yerli materiallardan mebel, parket, musiqi alətləri, pambıq parça, tikiş məmulatı və s. istehsalına başlanıldı [91].

Dağlıq Qarabağda elektrikləşdirmə işlərinə hələ 1923-cü ildə başlanmışdır. İlk dövrdə Şuşada, Xankənddə neft yanacağı ilə işləyən və gücü az olan 4 mühərrik qoyulmuşdur. Bu mühərriklər şəhəri minimum həcmdə elektrik enerjisi ilə təchiz edirdi. 1928-ci ilin avqustunda 350 at gücündə Xankəndi elektrik stansiyasının bünövrəsi qoyuldu. Stansiya 1930-cu ilin mayında istifadəyə verildi [99].

1934-cü ildə Tərtər çayının sahilində, Ağdərənin Madagiz kəndi yaxınlığında, 1.800 kilovat gücündə su-elektrik stansiyasının tikintisinə başlandı. Lakin bu tikinti müharibə təhlükəsinin yaranması ilə əlaqədar olaraq 1940-cı ildə dayandırıldı.

Beşilliyin vəzifələri ilə əlaqədar olaraq Dağlıq Qarabağ Muxtar Vilayətinə kapital qoyuluşu xeyli artırıldı. Təkcə 1929-1930-cu illərdə Vilayətdə sənaye, nəqliyyat və əsaslı tikinti işlərinə 1.350.000 manat vəsait ayrılmışdır. Bu Naxçıvan MSSR-na ayrılan vəsaitin həcmindən 2 dəfə çox idi.

1928-1930-cu illərdə yeni sənaye müəssisələri tikinti ilə yanaşı mövcud sənaye müəssisələrinin maddi-texniki bazalarının möhkəmləndirilməsinə də böyük diqqət verildi. Ölkənin sənayeləşdirilməsi, ağır sənayenin inkişaf etdirilməsi bütün sənaye sahələrinin maddi-texniki bazasının gücləndirilməsinə şərait yaratdı. Beşilliyin birinci ilində əmək məhsuldarlığının artırılmasından əldə olunan müvəffəqiyyətlər köhnə sənaye müəssisələrinin yenidən bərpası və yeni zavodların qurulması ölkədə sənayenin ümumi texniki yüksəlişinə səbəb oldu. Müəssisələrdə yeni avadanlıqların sayı ildən ilə çoxalır, istehsal prosesinin mexanikləşdirilməsi artırdı. Yeni elektrik stansiyalarının işə salınması sənayenin elektrik enerjisi ilə təmin edilməsini yaxşılaşdırırdı. Bu zaman istehsalda səmərələşdirmə sahəsində xeyli müvəffəqiyyətlər qazanılmışdır. Toxuculuq, şərabçılıq, əyiricilik, mebel, ağac emalı və s. sahələr müvəffəqiyyətlə inkişaf etdirilirdi. Pambıq parça, ipəkçilik fabriklərinin ixtisaslaşdırmağa imkan verirdi.

1930-1931-ci illərdə Azərbaycan dövlətinin vəsaiti hesabına Şuşada yeni sexlər yaradıldı. Təkcə 1931-ci ildə Şuşada boyaqçı sexi istifadəyə verilmişdir [87, iş 314, v.23 (24)].

İkinci beşillikdə sənayeləşdirmə uğrunda mübarizə daha da genişləndirildi. Birinci beşillikdə ağır sənayenin, xüsusi ilə maşınqayırma sənayesinin yaradılması sənayenin daha da inkişaf etdirmək üçün əsas yaratmış oldu. Artıq 30-cu illərin ortalarında sənaye nəhənglərinin tikilməsində xeyli təcrübə toplanmışdır. Təsərrüfat təşkilatçıları və sənaye qurucuları xeyli dərəcədə yetişmişdir. Mühəndis-texniki işçilərinin, ixtisaslı fəhlələrin sayı xeyli dərəcədə artmışdır. Onların yaradıcı əmək fəallığında da əsaslı irəliləyiş yaranmışdır. Bütün bunlar sənaye quruculuğunun, istehsalatın təşkili işinin keyfiyyət artımına, əmək məhsuldarlığının yüksəlməsinə səbəb olmuşdur.

Sənayeləşdirmə üçün iqtisadi-maliyyə imkanları da qismən artmışdır. Xalq təsərrüfatında, o cümlədən sənayedə yığım xeyli genişlənmişdi. İkinci beşilliyin ilk illəri birinci beşillikdə başlanmış bir çox tikintiləri başa çatdırmaq uğrunda mübarizə əlaməti altında keçdi. 1933-1934-cü illərdə yeni texnika ilə təchiz olunmuş onlarla yeni müəssisə Xankəndi, Şuşa, Hadrut, Ağdərə, Xocavənd rayonlarının toxuculuq, yeyinti sənaye müəssisələri, tikiş fabrikləri, şərab, spirt müəssisələri, dəmirçixanalar və digər müəssisə tam gücü ilə fəaliyyətə başladı. Vilayətin şəhər və kəndlərinin bir hissəsi elektrik enerjisi ilə təchiz olundu. Təkcə 1934-1936-cı illərdə 15 toxuculuq, 24 tikiş, 9 şərabçılıq müəssisələri işə salınmışdır.

1935-ci ildə başlanan istehsalat yenilikləri hərəkatı öz əksini onda tapdı ki, bacarıqlı fəhlələr yeni texnikaya yiyələnməklə, əməyin daha səmərəli təşkili və iş vaxtından səmərəli şəkildə istifadə etməklə əmək məhsuldarlığı xeyli yüksəldi, mövcud texniki normaları bir neçə dəfə artırıldı. Respublikada gedən yenilikçilik hərəkatında Şuşa rayon fəhlələri, mühəndis və texnikləri də fəal iştirak edirdilər. Əmək məhsuldarlığının yüksəlişinin iqtisadi şərti xalq təsərrüfatının texniki cəhətdən yenidən qurulmasından ibarət idi. Məhz bunun nəticəsində də sənaye, nəqliyyat və kənd təsərrüfatı yeni texnika ilə təchiz olunurdu.

Keçən əsrin 30-cu illərin ikinci yarısında Şuşa rayonunda sənayenin ümumi məhsulu 1913-cü ildəkinə nisbətən 4 dəfə, 1923-cü ildəkinə nisbətən isə 2 dəfədən çox artmışdır. 1936-cı

ildə Şuşa rayonunda yüngül və yeyinti sənayesi 2,5 milyon manatlıq məhsul vermişdi ki, bu da 1913-cü ildəkinə nisbətən 7 dəfə, 1933-cü ildəkindən isə 50 faiz çox demək idi [9, s.74, iş 138, v.54].

1933-1938-ci illərdə Sovet İttifaqında sənaye məhsulunun illik artımı orta hesabla 17,1 faiz olmuşdursa, Ümumrespublika üzrə 20,3 faiz, Azərbaycanın Şuşa rayonunda isə 18,5 faizə çatmışdır [77, s.74, iş 139, v.16].

İkinci beşillikdə Şuşa rayonunda yüngül və yeyinti sənayesi inkişaf etdirilmiş, texnikanın 30-cu illərindəki nailiyyətləri ilə silahlanmış, bir sıra fabrik, zavod, tikilib işə salınmışdır [101, s.3, iş 344, v.13].

1933-1940-cı illərdə yüngül və yeyinti sənayesi müəssisələri – toxuculuq, əyiricilik, parça, tikiş, yağ-sabun, gön-dəri, ət-süd, şərab və s. müəssisələr tikilib istifadəyə verilmişdir. 1936-cı ildə DQMV-də bütünlükdə 200-dən çox sənaye müəssisələri, sexlər, dəmirçixanalar, emalatxanalar var idi. Üçüncü beşilliyin əvvəllərində Şuşa rayonunda sənaye məhsulları istehsal edən müəssisələrin yarıdan çoxu 30-cu illərdə tikilib istifadəyə verilən müəssisələri istehsal etmişdir [67, s.3, iş 314, v.37].

XX yüzilliyin 30-cu illərində sənaye müəssisələrinin genişləndirilməsində fəhlə sinfinin tərkibində də kəmiyyət və keyfiyyət dəyişikliyinə səbəb olmuşdur. 1933-1938-ci illərdə təkcə toxuculuq sənaye müəssisələrində çalışan fəhlələrin sayı təxminən 17 faiz artmışdır. 1937-1939-cu illərdə Şuşa rayonunda sənaye və əsasla tikinti sahələrində çalışan fəhlə və qulluqçuların sayı 1913-cü ildəkindən 3 dəfə çox idi. Qadınların istehsalata cəlb olunması sahəsində də ciddi fərqlər yaranmışdır. 1929-cu ildə Şuşanın bütün sənaye müəssisələrində işləyənlərin cəmisi 26 faizi qadın idisə, 1939-cu ildə onların dinamik çəkisi 40 faizə çatmışdır [101].

Toxuculuq müəssisələrində çalışan işçilərin 62 faizini qadınlar təşkil edirdi. Sənaye, tikinti müəssisələrində çalışan işçilərin milli tərkibinə gəldikdə isə işçilərin üçdə iki hissəsindən çoxu ermənilərdən ibarət olmuşdur. Şərabçılıq, gön-dəri, tikinti quraşdırma işlərində çalışan işçilərin böyük əksəriyyəti ermənilər

idi. Bu fəhlələrin xeyli bir hissəsini respublikadan kənar ölkələrdən və xüsusi ilə Ermənistandan gələn işçilər təşkil edirdi. 1930-1938-ci illərdə Ermənistan SSR-dan, Rusiya Federasiyasından, Ukraynadan Azərbaycana, o cümlədən Şuşa rayonuna çoxlu işçi qüvvəsi gəlmişdir. Beləliklə, Mərkəzin məqsədli siyasətinin nəticəsi olaraq DQMV-də, o cümlədən Şuşa rayonunun sənaye müəssisələrində çalışan işçilərin milli tərkibində ciddi dəyişikliklər yaranmışdır. Azərbaycana kənar yerlərdən gələn işçilər ilk növbədə mənzillə təmin olunur, vilayətin erməni rəhbərləri tərəfindən onların sosial vəziyyətlərinə xüsusi qayğı ilə yanaşılırdı. Araşdırmalardan məlum olur ki, kənardan, gələn bu fəhlələr milliyyətcə qeyri azərbaycanlılar idi.

Fəhlə sinfinin səyi ilə ikinci beşilliyin vəzifələri 4 il 3 ay yerinə yetirildi. 1939-cu ildə Dağlıq Qarabağ sənayesi araba və xidmət istehsalına görə Azərbaycanda birinci yeri tutdu [105].

XX yüzilliyin 30-cu illərində Şuşa rayonunda ümumi sənaye məhsullarının artım tempi də ildən-ilə artaraq 1928-ci ildəkinə nisbətən 1932-ci ildə 130 faiz, 1933-cü ildə 150 faiz, 1934-cü ildə 240 faiz, 1935-ci ildə 270 faiz, 1936-cı ildə 300 faiz, 1938-ci ildə isə 350 faizə çatmışdır [106].

1937-1940-cı illərdə Şuşa rayonunda sənaye, nəqliyyat və əsaslı tikinti sahəsində xeyli müvəffəqiyyətlər əldə edilmişdir. Yeni sənaye müəssisələrini tikən daimi tikinti quraşdırma podratçı təşkilatları yaradıldı. Tikinti işləri mexanikləşdirildi, müxtəlif ixtisaslı kadrlarla təchiz olundu. Bu, əsaslı tikinti işlərinin ildən-ilə genişlənməsinə kömək etdi.

Beləliklə, Sovet dövlətinin sənayeləşmə siyasətinin Şuşa rayonunda həyata keçirilməsi nəticəsində yeni sənaye sahələrinin əmələ gəlməsi ilə işsizlik problemi aradan götürüldü və istehsal artdı. Rus imperiyası isə iqtisadi təməlini möhkəmləndirmək üçün Azərbaycanı öz xammal bazasına çevirməklə yeraltı və yerüstü sərvətlərimizin talan edilməsini daha da sürətləndirdi.

1941-1945-ci illəri əhatə edən və tarixə “Böyük Vətən müharibəsi” adı ilə daxil olan dövrdə Şuşada çox acınacaqlı vəziyyət yarandı. İqtisadiyyatın zəifləməsi, təbii imkanların kasadlaşması əhalinin güzəranına mənfi təsir etdi. Bəhs etdiyimiz

dövrdə Şuşada sənaye obyektlərindən yalnız dəri zavodu, sənaye kombinatı, kəlağayı arteli işləyirdi ki, orada da əhalinin az bir hissəsi işləyirdi. Müharibə dövründə nəzarətsizlik nəticəsində yiyəsiz qalmış tarixi evlər, memarlıq nümunələrinin taxta və tirləri sökülüb yandırıldı. Pəncərə və qapılar, damlar ehtiyac üçün sökülüb, müxtəlif məqsədlərlə istifadə edildi. Bu vaxt İbrahim xanın "Xəzinə qayası"nda bina etdirdiyi saray, hərəmxana, tövlə, hamam və qoşun sığınacağından ibarət olan kompleks tamamilə dağıdıldı.

1950-1960-cı illərdə Azərbaycanda xalq təsərrüfatını, o cümlədən, sənayeni inkişaf etdirmək üçün V, VI, VII, VIII beşillik və yeddiillik (1959-1965) plan qəbul edilmişdir. Həmin planda sənayedə çətinliklər, onun aradan qaldırılması yolları, qarşıdakı vəzifələr müəyyən edilmişdir. Ən başlıca vəzifə elektrik enerjisi istehsalının artırılması, yeni sənaye sahələrinin yaradılması və inkişafı, xalq istehlakı malları istehsal edən sənaye sahələrinin genişləndirilməsi nəzərdə tutulmuşdu.

Azərbaycan SSR-in Şuşa rayonu çoxsahəli kənd təsərrüfatının inkişafı, əsasən kənd təsərrüfatı xammalı emal edən sənayenin inkişafına şərait yaratmışdır. XX yüzilliyin 50-60-cı illərində bölgədə yüngül və yeyinti sənayesi, ipəkçilik, ağac emalı, mebel, süd emalı müəssisələri, tikinti materialları kombinatı, istehsalat kombinatı və başqa müəssisələr fəaliyyət göstərirdi [111].

İpəkçilik Qarabağ əhalisinin qədim sənəti olmuşdur. İstər çar Rusiyası dövründə, istərsə də sovet hakimiyyəti illərində Mərkəz, Azərbaycanda ipəkçiliyin inkişafına xüsusi diqqət yetirirdi. Çünki ipək parça həm xarici bazarlarda baha qiymətə satılır, həm də Rusiya ərazisində ipəyə böyük tələbat var idi. Bütün bunları nəzərə alan Azərbaycan hökuməti mərkəzin göstərişi ilə «ipəkçiliyin inkişafı üçün tədbirlər planı» işləyib hazırladı. Həmin planda göstərilirdi ki, XX əsrin 50-60-cı illərində Azərbaycan ərazisində ipəkçiliyi inkişaf etdirmək məqsədilə əvvəlki dövrlə müqayisədə qoyulan vəsaitin miqdarını 2 dəfə artırmaq, müəssisələrin xammala olan tələbatını ödəmək, ipək emalı müəssisələrinin texniki səviyyəsini yüksəltmək, yeni

toxuculuq kombinatları yaratmaq, idarə sistemini təkmilləşdirmək və məhsulun maya dəyərini aşağı salmaq məqsədilə elmin son nailiyyətlərindən istifadə etmək, məhsulların keyfiyyətini və növlərini təkmilləşdirməklə məhsulun istehsalını artırmaq qarşıya məqsəd olaraq qoyulmuşdu.

Azərbaycan SSR DQMV-də 1950-ci ildə Kiyev mütəxəssislərinin layihəsi əsasında ipək emalı fabriki tikilməyə başlamış və 1953-cü ildə başa çatdırılmışdır. 1954-cü ilin yanvarından həmin müəssisə məhsul istehsal etməyə başladı [114]. 1959-1965-ci illərdə DQMV-nin ipək emalı müəssisələrinin sexləri yenidən qurularaq modernləşdirilmiş, onların mükəmməl avadanlıq və cihazlarla təchiz olunması işi davam etdirilmişdir. Sexlərdə Bakı, Moskva, Leninqrad, Kuybışev, Tbilisi müəssisələrinin buraxdıqları ən yeni dəzgahlar quraşdırılmışdır. Toxuculuq sənayesinin yeni korpusunda isə Çexoslovakiyada istehsal edilmiş «jakkard» dəzgahları işləyirdi [115]. Həmçinin bəhs etdiyimiz dövrdə Şəki ipək kombinatının və Ordubad baramaaçma fabrikinin qabaqcıl iş təcrübəsi Dağlıq Qarabağda tətbiq olunurdu.

1950-1960-cı illərdə Dağlıq Qarabağın İpək emalı müəssisələrində ixtisaslı kadrların sayında artım müşahidə edilmişdir. Belə ki, 1945-ci ildə burada 1 mühəndis, 16 texnik və texnoloq mütəxəssis işləyirdisə, 1970-ci ildə mühəndislərin sayı 100-ə çatırdı [116]. Həmin mütəxəssislər ipək sənayesini inkişaf etdirmək məqsədilə yeni səmərələşdirici təkliflər irəli sürür, avtomatlaşdırma, mexanikləşdirmə, yeni avadanlıqların mənimsənilməsi işini uğurla davam etdirirdilər. Məsələn, 1960-cı ildə müəssisələrdə 48 baramaaçma avtomatı (SKE-4 BU) quraşdırıldı ki, bu qurğu məhsuldarlığı 25 faiz yüksəltdi [117]. Həmçinin yeni tətbiq edilmiş dəzgahlar nəticəsində barama tullantılarının təkrar istehsalı ilə itkisiz və yüksək keyfiyyətli məhsul əldə etmək mümkün oldu.

Azərbaycan hökuməti DQMV-ipək emalı müəssisəsini həmişə yeni texnika ilə təmin edirdi. Maşın və dəzgahlar Tiblis, Kamenski, Moskva, Şuiski, Vicuqi, Klima, Kuybışev zavodlarından, kiçik hissələr və köməkçi materiallar Pavlovo-Posada

şəhərindən, bəzi avadanlıqlar isə Gəncə, Mingəçevir, Tiblis, Çerkasov, Mogilyov şəhərlərindən alınaraq DQMV-nə göndərilirdi.

Qarabağ İpək Kombinatının DQMV-ın ərazisində bir neçə filialı yaradılmışdır ki, o cümlədən bunlardan bir neçəsi Şuşa rayonu ərazisində fəaliyyət göstərirdi. Lakin ermənilərin məkirli niyyəti burada da özünü göstərmişdir. Tədqiqatlardan məlum olur ki, Şuşa ərazisində yaranan ipək müəssisələri ermənilərin daha çox məskunlaşdıqları ərazilərə şamil edilmişdir.

XX yüzilliyin 50-60-cı illərində DQMV-də ipək emalı müəssisəsi xam ipək, rənglənmiş parça, ipək sap istehsal edirdi. İstehsal olunmuş xam ipəyin bir hissəsi Moskvaya göndərilir və istehsal prosesi axıra çatdırılaraq xarici dövrlərə, o cümlədən Yaponiya, İtaliya, Macarıstan və başqa dövlətlərə ixrac edilirdi. Xam ipəyin bir hissəsi isə xarici dövlətlərə birbaşa göndərilirdi. Qarabağ İpək Kombinatında istehsal olunan rəngsiz xam parça isə Şəki ipək emalı müəssisəsinə gətirilərək rənglənir və satışa buraxılırdı. Bəhs etdiyimiz dövrdə Qarabağ İpək Kombinatında 120 nəfər fəhlədən ibarət baramanın növlərə ayrılması sexi, çeşidlərə ayırma, yükləmə, mexaniki təmir, qablaşdırma, tökmə və ştamplama şöbələri fəaliyyət göstərirdi [120]. 1930-cu ildən Kombinatda nəqliyyat şöbəsi yaradılmışdır. Burada 25 yük avtomobili və 3 avtobus işləyirdi. Bu nəqliyyat vasitələri xammalı, hazır məhsulları və fəhlələri daşıyırdı. Qarabağ İpək sənayesinin elektrik enerjisinə olan tələbatı Mingəçevir SES-nin hesabına ödənilirdi. Kombinat istiliyə olan tələbatı isə su qızdırıcı katyollar vasitəsilə su buxarı ilə qızdırılırdı. Kombinatın işığa, istiliyə, suya, elektrikə olan tələbatı lazımi səviyyədə ödənilirdi.

DQMV-nin ipək emalı sənayesinin texniki səviyyəsinin təkmilləşdirilməsi və avtomatlaşdırılması nəticəsində 1952-ci ilə nisbətən 1968-ci ildə boş dayanma halları 2,6 dəfə təxirə salınmışdı. Nəticədə hər bir fəhlənin orta aylıq istehsal həcmində sıçrayışlı inkişafı baş vermişdi. Belə ki, 1913-cü ildə bu göstərici 200 manat, 1940-cı ildə 381 manat, 1958-ci ildə 852 manat olmuşdursa 1968-ci ildə təxminən 2 dəfə artaraq 1718 manata

çatmışdır. Vilayətin ipək emalı müəssisələrində çoxdəzgahçılıq hərəkatı genişlənmiş, məhsul istehsalının həcmi artmışdır. Ona görə də hər bir fəhlənin orta aylıq əmək haqqı 1958-ci ildə artaraq 200 manatı keçmişdir. 1968-ci ildə isə istehsalın həcmində 115 faiz artım müşahidə edilmişdir ki, bunun da nəticəsində fəhlələrin əmək haqqı 1958-ci ilə nisbətən 112 faiz qalxmışdır.

Dövlətimizin bölgəyə dərin qayğısının nəticəsi olaraq Qarabağ ipək emalı sənayesinin texnikaya, xammal və avadanlıqlara olan tələbatı tamamilə ödənilmiş və məhsulun istehsalı artaraq keyfiyyəti yaxşılaşmışdır. Təkcə 1966-1967-ci illərdə Qarabağ İpək Kombinatında 1 milyon 765 min manatlıq məhsul istehsal edilmişdir. 1961-ci ildə hazır məhsul istehsalının həcmi 1913-cü ildəkindən 6 dəfə, 1940-cı ildəkindən 7 dəfə çox artmışdır. İldən-ilə ayrı-ayrı sahələr üzrə məhsul istehsalındakı sıçrayışlı inkişafı aşağıdakı cədvəldən də aydın görmək olar [125]:

| Sıra № | **Məhsulun növləri** | **Ölçü vahidi** | **1913** | **1926** | **1940** | **1950** | **1958** | **1960** | **1968** | **1970** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Xam ipək | ton | 120 | 123 | 99 | 120 | 117 | 121 | 116 | 124 |
| 2. | İpək sap | ton | 22 | 12 | 26 | 75 | 88 | 93 | 103 | 114 |
| 3. | İpək parça | min $m^2$ | - | - | 120 | 163 | 2079 | 2259 | 7015 | 7368 |

Cədvəldən aydın göründüyü kimi 60-cı illərdə DQMV-nin ipək emalı sənayesində İpək parça istehsalı 4 dəfə artmışdır. Ümumrespublika üzrə isə sənaye məhsulu istehsalında 94 faiz artım müşahidə edilmişdir.

1960-cı ildə ipək emalı müəssisəsində məhsulun keyfiyyətini yaxşılaşdırmaq və maya dəyərini aşağı salmaq məqsədilə «ümumi tədbirlər planı» işlənib hazırlandı. Həmin «planda» nəzərdə tutulmuşdur ki, əmək məhsuldarlığını və məhsul istehsalını yüksəltmək, xammala, materiala, istiliyə, elektrik enerjisinə qənaət etmək, sexlərdə və ümumi fabrikdə vəsait məsrəfini qismən azaltmaq. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1959-1965-ci illər ərzində Qarabağ İpək emalı müəssisəsi 1 milyon 44 min manata qənaət etmiş və 273 min manatlıq gəlirlə işləmişdir [126].

1964-cü ildən Qarabağ İpək Kombinatında yeni məhsul növü, süni lifdən ipək parça istehsalı mənimsənilmiş və 1965-ci ildə 5 milyon metr parça istehsal edilmişdir [127].

1970-ci ilin məlumatına görə Dağlıq Qarabağın İpək emalı müəssisələrində 3 min nəfər fəhlə və qulluqçu işləyirdi ki, bundan 360 nəfəri Kommunist Partiyasının, 800 nəfəri isə Gənclər İttifaqının üzvü idi. Kombinatda 60 təbliğatçı fəaliyyət göstərirdi.

Kombinat həmişə qəbul edilmiş perspektiv və cari planları qısa müddətdə yerinə yetirirdi. Təkcə 1966-1968-ci il planını 5 ay tez, beşillik planı isə 4 il 2 aya yerinə yetirmişlər. Sözsüz ki, bütün bunlar əmək haqqına öz müsbət təsirini göstərirdi. Belə ki, 1970-ci ildə fəhlə və qulluqçuların əmək haqqı 1940-cı illə müqayisədə 2,7 dəfə, 1958-ci illə müqayisədə isə 84 faiz artmışdır. 1969-cu ildə Qarabağ İpək Kombinatının fəhlələri 337 min manat (bundan günəmuzdçular 105 min manat) mükafat almışdır [128].

Kombinatın işçilərindən 30 faizi orta və ali təhsilli idilər və yenə də təhsillərini davam etdirirdilər. Kombinatın işçilərinin yaşayışı üçün Xankəndi şəhərində 5 mərtəbəli, 400 evdən ibarət 14 yaşayış binası tikilib istifadəyə verilmişdir. Kombinatın öz daxili vəsaiti hesabına Xankəndinə içməli su xətti çəkilmişdir. Kombinatın işçilərindən 80-85 faizi qadınlar olduğundan sənaye müəssisəsinin yaxınlığında 400 nəfərlik körpələr evi fəaliyyət göstərirdi. Burada həmçinin hər cür avadanlıqlarla təmin olunmuş klub, kitabxana, 25 nəfərlik xəstəxana, mədəniyyət

sarayı, istirahət mərkəzi, Ballıcada yay pioner düşərgəsi (400 nəfərlik) ipək kombinatı işçilərinin istifadəsində idi. Kombinatda məişət xidməti lazımi səviyyədə idi. Yeməkxana, ayaqqabı və paltar təmiri emalatxanaları, hamam və sair fəhlələrə xidmət göstərirdi.

Azərbaycan hökuməti və Yüngül Sənaye Nazirliyi, Qarabağ İpək sənayesinin gələcəkdə daha geniş inkişaf etdirmək üçün xammala olan tələbatı ödəmək məqsədilə Özbəkistan dövləti ilə müqavilə imzalamış və yeni boyaqçı sexin tikilməsini qərara almışdı. Həmçinin, dövlətimizin dərin qayğısı nəticəsində işçilərin məişət şəraitini yaxşılaşdırmaq məqsədilə 16 yeni yaşayış binası tikmək planlaşdırılmışdı. Kombinatın yeni texnikaya olan tələbatını ödəmək üçün dövlətimiz Tbilisi, Çerkassov, Mogilyov, Klima, Kuybışev, Moskva şəhərlərinin sənaye müəssisələri ilə müqavilələr imzalamışlar. Respublikamızın Ali təhsil müəssisələrində təhsil almış kadrların Dağlıq Qarabağ ipək emalı müəssisələrinə göndərməsi qərara alınmışdır.

Dövlətimizin bölgəyə dərin qayğısını yuxarıdakı faktları nəzərdən keçirməklə aydın görmək olur. Bütün bunlar yaxşı haldır və məsələnin zahiri görünüşüdür. Gəlin bir anlığa məsələnin dərininə inkişafını nəzərdən keçirək və görünməyən məqamları izləyək: DQMV ərazisində işləyən ipək emalı müəssisələri və onların filiallarının yerləşdiyi ərazilərin adlarını nəzərdən keçirərkən məlum olur ki, həmin sənaye mərkəzləri ermənilərin daha çox cəmləşdiyi ərazilərdə tikilmişdir. Dağlıq Qarabağın erməni rəhbərliyinin məqsədi ermənilərin məskunlaşdıqları ərazinin sosial-iqtisadi inkişafını təmin etmək və əhalinin süni artımına nail olmaq olmuşdursa, digər məqsədləri azərbaycanlıların yaşadıqları ərazilərə baxımsızlıq göstərməklə, əhalinin süni sürətlə köçürülməsinə və ermənilərin say çoxluğunu yaratmağa nail olmaq kimi mənfur niyyətləri var idi. Yeri gəlmişkən qeyd edək ki, Qarabağ İpək Emalı müəssisəsinin filialları ermənilərin məskunlaşdıqları kəndlərdə yaradılmışdır. Ermənilər bu məsələni əvvəlcədən planlaşdırılmış şəkildə «DQMV-nin Qanun»a daxil edərək hazırlamışdılar. Belə ki, həmin «Qanun»un 19 və 20-ci maddələrinin 1-ci bəndlərində

göstərilir ki, «DQMV XDS-i Vilayət tabeliyindəki sənaye müəssisələri və birliklərə rəhbərlik etməklə onların yerləşdirilməsi və tikintisinə nəzarət edir. Əlbəttə belə bir «nəzarətin» necə aparılması göz qabağındadır.

Başqa bir fakt «Qarabağ İpək emalı sənayesi işçilərinin əmək qabaqcılları, onların təltif və mükafatlandırılması» ilə bağlıdır. Qarabağ İpək Kombinatının cari arxivindəki sənədlər nəzərdən keçirilərkən məlum olur ki, XX yüzilliyin 50-60-cı illərində kombinatda əmək fəaliyyəti nəzərə alınaraq 4 nəfər əmək qabaqcılı SSRİ Ali Sovetinə deputat, 4 nəfər Azərbaycan SSR Ali Sovetinə deputat, 1 nəfər Azərbaycan KP MK-nın üzvü, 1 nəfər Qırmızı əmək bayrağı ordeni, 9 nəfər Xankəndi şəhər sovetinin deputatı, Vilayət Xalq Deputatları Sovetinin deputatı, 1000 nəfər orden və medal, fəxri fərman və «yarış qabaqcılı» kimi yüksək fəxri adlara layiq görülmüşlər. Lakin təəccüb doğuran bir məsələni təəssüflə qeyd etməliyik ki, sadalanan bu yüksək adlara layiq görülən əmək qabaqcılları arasında 1 nəfərdə olsun azərbaycanlı familiyası yox idi. Bəlkə bu fabrikdə azərbaycanlı işləmirdi? Əlbəttə, kombinatda milliyyətcə azərbaycanlıların işləməsini arxivdə rastlaşdığımız 13-cü əmək haqqı cədvəlində izlədik. Cədvəldə elə bir bərabərsizliyə rast gəldik ki, erməni rəhbərliyinin müsəlmanlara qarşı düşmən, şovinist mövqeyini sözlə ifadə etmək çətindir. Eyni fabrikdə, bərabər saatda, rejimdə işləyən azərbaycanlıya 500 manat, erməniyə 5000 manat mükafat verilmişdir. Bütün dünyada «əzabkeş erməni» obrazı yaratmağa çalışan separatçı erməni rəhbərlərinin görünür ağıllarına gəlməyib ki, bu cür tarixi həqiqətlərlə nə vaxtsa rastlaşıb mətbuatda çap etdirə bilərik. Əks halda başqa acı həqiqətlər kimi həmin tarixi faktları da məhv edərdilər. Əlbəttə, erməni ideoloqlarının «Dağlıq Qarabağda əzilirik, sıxışdırılırıq, dayaqsız, köməksiz, zəif və kasıbıq» sözlərinin ağ yalan olmasını, bu sözlərin bölgədə qədimdən yaşayan milliyyətcə azərbaycanlılara aid olmasını görürük. Bundan əlavə, 1970-ci ildə ümumi Respublika üzrə fəhlə və qulluqçuların əmək haqqı 109,6 manat idisə DQMV-də bu göstərici 200-350 manata çatırdı [131].

Azərbaycan SSR Şuşa rayonu çoxsahəli sənayeyə malikdir. Rayonda sənayenin irili-xırdalı 10 növü inkişaf etmişdir. Şuşa rayonunda ümumi sənaye məhsullarının 60 faizini yeyinti sənayesi verir. Rayonda yeyinti məhsulları sənayesinə xas olan cəhətlərdən biri yüksək məhsuldarlıqdır. Yeyinti sənayesi istehsal həcminə görə vilayətdə birinci yerdə dayanırdı. Şuşa rayonunda yeyinti sənayesi əsas etibarilə yerli xammalla işləyirdi. Dağlıq Qarabağda yeyinti sənayesinin aparıcı sahəsi şərabçılıq olmuşdur. DQMV-i şərabçılığın inkişaf səviyyəsinə görə 1950-1960-cı illərində ümumrespublika üzrə əhəmiyyətli yer tutmuşdur. Azərbaycan hökuməti rayonda şərabçılığı, sənaye əsasında qurmuşdur. Dövlətimiz Vilayətdə şərabçılıq sənayesini inkişaf etdirmək üçün ilk növbədə zavodların texniki səviyyəsini yüksəltməyi qərara almışdı. 1955-ci ildə xarici dövlətlərdən alınan yeni dəzgahlar Dağlıq Qarabağın şərab emalı müəssisələrində quraşdırılırdı. Ötən illər ərzində konyak spirti istehsalı üçün bir sıra müəssisələr - şərabın ilkin emalı müəssisələri və şərab-spirt müəssisələri tikilib istifadəyə verilmişdir.

Qeyd edək ki, müharibədən sonra Şuşanın abadlaşmasında nəzərə çarpacaq bir dönüş yaranmışdı. Cəbhədən tərxis olunanların, Daşaltı, Qaladərəsi, Xəlfəli, Qaybalı və digər kəndlərdən köçüb gələnlərin hesabına şəhərdə əhalinin sayı xeyli artdı. Şəhərdə sökülüb dağılmış evlərin çoxu təmir edildi. Şuşada örtülü bazar, yay kinoteatrı, park, istirahət evinin yeni korpusu istifadəyə verildi. Təəssüflər olsun ki, 60-cı illərin əvvəllərində Şuşada "abadlıq tikinti" işlərini bəhanə edən Vilayətin erməni rəhbərliyi şəhərdə qədimliyi və türkçülüyü özündə əks etdirən 2-3 mərtəbəli 7 yaşayış qurğuşunu, 2 kommunal təsərrüfat binasını, 3 şəxsi evi, bir hamamı, bir karvansaranı, onlarla satış-sənətkar emalatxanalarını, 100-dən artıq çoxillik ağacı, böyük su ehtiyatına malik 11 quyunu, 16 Şərq hamamını dağıtmışdılar. Qeyd edək ki, Şuşa hamamları özünün həm gözəlliyinə, həm də keyfiyyətinə görə ən yaxşı Avropa hamamları ilə rəqabət apara bilərdi. Təəssüflər olsun ki, bu tarixi abidələrdən nümunə üçün bir dənə də olsun qalmamışdır. Şəhərə xüsusi gözəllik verən

"Alaqapı"nın və "Çanaqqala" gəzinti xiyabanını da bu dövrdə dağıdılmış tarixi abidələrimizdəndir.

Bəhs olunan illərdə ümumilikdə Dağlıq Qarabağda xammala olan tələbatı ödəmək məqsədilə üzüm əkini sahəsi genişləndirildi və üzüm istehsalında yüksək artım müşahidə edildi. Belə ki, Vilayətdə 1950-ci ildə 5826 ton, 1965-cı ildə 21067 ton üzüm yığılaraq dövlətə təhvil verilmişdirsə, 1970-ci ildə isə axırıncı rəqəm təxminən 2 dəfə artaraq 58 min tona çatmışdır [134]. Bu artım, ilk növbədə Azərbaycan hökumətinin rayona yeni növ daha məhsuldar üzüm tənəkləri verməsi, becərmə işinin vaxtında aparılması üçün maşın və traktorlarla təmin edilməsi, zərərvericilərə qarşı mübarizə məqsədilə gübrələrlə təmin olunması, ixtisaslı kadr çatışmazlığının aradan qaldırılması ilə əlaqədar olmuşdur. Bütün bunların nəticəsi idi ki, DQMV sənayesində 1950-1960-cı illərdə 1940-cı illə müqayisədə sıçrayışlı inkişaf baş vermişdir [135]

1940-cı illə müqayisədə 1970-ci ildə şərab və konyak istehsalı təxminən 5,2 dəfə artmışdır. 1970-ci ildə Qarabağ Şərabçılıq Tresti ümumi sənaye məhsullarının 34 faizini verirdi. Vilayətdə fəaliyyət göstərən şərabın ilkin emalı, şərab-konyak, spirt və digər müəssisələri birləşdirən Qarabağ Şərabçılıq Tresti Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət üzümçülük və Şərabçılıq İstehsalat Komitəsinin sisteminə daxil edilmişdir.

Qarabağ Şərab Trestinin məhsullarına təkcə keçmiş SSRİ məkanında deyil xarici dövlətlərdə də böyük tələbat vardır. 1958-ci ildə Budapeşt ümumdünya sərgisində «Qarabağ» süfrə şərabı gümüş medala layiq görülmüşdür. Qarabağda istehsal olunan «Qarabağ», «Xindoqni», «Çəhrayi Qişi», və digər markalı yüksək keyfiyyətli şərabları, habelə müxtəlif növ konyaklar dünyanın çox yerində şöhrət qazanmışdır. Macarıstanla imzalanmış müqaviləyə əsasən hər il Qarabağ Şərab Trestindən 120 min dekaletir məhsul ixrac olunurdu [138]. Həmçinin Trestin məhsulları Çexoslovakiya dövlətinə də göndərilirdi. Onu da qeyd edək ki, 1968-ci ildə Vilayətin Şərab zavodunun ehtiyat pul vəsaiti 1965-ci ilə nisbətən 36 faiz artmışdı. Bu artım Qarabağ İpək Kombinatında 20 faiz, Yağ-pendir zavodunda 6 faiz, tikiş

fabrikində 9 faiz, elektro zavodda 16 faiz olmuşdur. Bəhs etdiyimiz illərdə əmək məhsuldarlığı isə Dağlıq Qarabağın şərab zavodunda 150 faizə çatmışdır [137].

Azərbaycanın Şuşa rayonunun bol xammala (pambığa, ipəyə, yuna) malik olması burada xalçaçılığın inkişafı üçün şərait yaratmışdır. Gəbə, kilim, xalı toxumaq rayonun azərbaycanlılar yaşayan kəndlərində qadınların qədim sənəti olmuş və həmin sənətin sirləri qorunub saxlanılaraq XX yüzillik ərzində intişar etmişdir [138].

Şuşa rayonunun azərbaycanlılar yaşayan kəndlərində azərbaycanlı qadınlar xalçaçılıq sənətinin sirlərini öz sələflərindən mənimsəyərək XX yüzillikdə daha da inkişaf etdirmişdilər. Orijinal və gözəl naxışları, əla yaradıcılıq üslubu, müstəsna dərəcədə davamlılığı, naxış incəliyi, rəng zənginliyi, süjetli kompozisiyası Vilayətdə istehsal olunan xalçalara dünya bazarında, müxtəlif beynəlxalq sərgilərdə böyük müvəffəqiyyət qazandırmışdır. Şuşada istehsal olunan xalçalara keçmiş SSRİ məkanında, İngiltərədə, İtaliyada, İsveçdə, Danimarkada, Misir Ərəb Respublikasında böyük maraq göstərilir və bazarlarda həvəslə alınırdı. Ümumilikdə, Şuşa rayonunda xalçaçıları 1970-ci ildə 800 kvadrat metrlik xalça toxumuşdular. Dövlətə, nəzərdə tutulduğundan 20 min manatdan artıq məhsul satılmışdır. Bütün bunları nəzərə alaraq rayonda xalçaçılıq sənayesini gələcəkdə daha da inkişaf etdirmək planlaşdırılmışdır.

Azərbaycanın Şuşa rayonunda yerli xammala əsaslanan və inkişaf etmiş sənaye sahələrindən biri də tikinti materialları sənayesidir. Buraya ağackəsən (meşədoğrayan), ağac emalı (taxta-şalban), kərpic, kirəmit, əhəng daşı, daş yonan sexlər daxil idi. Ağac emalı, tikinti materialları istehsalı sənayesi Şuşa rayonunun iqtisadiyyatında mühüm yer tuturdu. Ağac emalı materialları sənayesinin əsas mərkəzi Şuşa və ona bitişik kəndlərdə yerləşmişdi. Belə ki, burada meşə təsərrüfatları, meşə kombinatı, tikinti materialları kombinatı, istehsalat kombinatları, əhəngdaşı müəssisəsi yerləşirdi [139].

1950-1960-cı illər ərzində Azərbaycan hökuməti Şuşa rayonunda tikinti materialları sənayesini inkişaf etdirmək məqsədilə

bölgəyə 6 mütəxəssis göndərdi. Həmçinin xarici dövlətlərdən alınan kəsici və yonucu dəzgahlar, alətlər, yük maşınları verildi. Ayrılan vəsaitin həcmi artırıldı. Nəticədə 1966-cı ildə meşə sənayesi 50 min manatlıq gəlirlə işlənmişdir. Əmək məhsuldarlığının inkişaf tempi 1962-ci illə müqayisədə 1963-cü ildə 120%, 1964-cü ildə 140%, 1965-ci ildə 150% artmışdır [140].

1950-ci illə müqayisədə 1970-ci ildə Şuşa rayonunda taxta-şalban istehsalı 9 dəfə, əhəng istehsalı 5 dəfədən artıq, yonulmuş daş 30 faiz artdı [142].

Azərbaycan hökuməti DQMV-də sənayenin daha da inkişaf etdirilməsi üçün 50-ci illərin əvvəllərində daha bir sənaye sahəsi olan tikiş fabrikinin tikintisinə başladı. Qısa bir müddətdə istifadəyə verilən həmin müəssisənin Şuşa ərazisində də filialları yaradıldı. Apardığımız araşdırmalardan məlum olur ki, Qarabağ-da yaradılmış həmin filialların əksəriyyəti XIX yüzillikdə əraziyə köçürülmüş ermənilərin məskunlaşdıqları kəndlərə şamil edilmişdi. Qarabağ tikiş fabriki filiallarında və məhsul istehsalı ildən-ilə artdı. Belə ki, 1958-ci illə müqayisədə istehsalın həcmi 1959-cu ildə 140%, 1962-ci ildə 180%, 1970-ci ildə 400% yerinə yetirilmişdir [144]. Fabrikdə istehsal olunan çoxçeşidli məhsullar nəinki respublikamızda, hətta ittifaq miqyasında tanınır və bazarlarda böyük həvəslə alınırdı. Xüsusi olaraq fabrikdə tikilən uşaq geyimləri özünün keyfiyyətinə və yaraşığına görə həmişə alıcıların diqqətini cəlb edirdi. Onu da qeyd etmək yerinə düşərdi ki, 1965-ci ildə ümumilikdə Qarabağ fabrikin istehsal etdiyi məhsullar 1 milyon 377 min manata satılmışdırsa, 1966-cı ildə 1 milyon 654 min manat 1970-ci ildə isə 2 milyon manatlıq məhsul satılmışdır. Şuşa rayonunda tikiş fabriki filialları ilə yanaşı fərdi paltarların tikişi, təmiri emalatxanaları da fəaliyyət göstərir və yerli əhalinin tələbatını ödəyirdi. Ümumiyyətlə, Şuşa tikiş fabriki başmaqçı, papaqçı, sexləri bölgədəki ümumi sənaye məhsulları istehsalında yeri 1965-ci ildə 2,5 faiz, 1970-ci ildə isə 3,1 faiz təşkil edirdi [146]. Faktlardan göründüyü kimi, Azərbaycan dövlətinin dərin qayğısı nəticəsində rayonda sexlərin istehsal tempi ildən-ilə artırdı.

Şuşa rayonunun əsas sənaye sahələrindən olan yağ-pendir və çörək zavodları da yerli xammala əsaslanırdı. Rayonda mal-qaranın sayının artması və cinsinin yaxşılaşması, dövlətə taxıl tədarükü satışının ildən-ilə genişlənməsi müxtəlif çeşidli un məmulatlarının, mal-qara yağının, pendir və yağlı brınza istehsalının da artmasına şərait yaratdı. Həmin artımı aşağıdakı cədvəldən də görmək olar: [151]

| **Sıra sayı** | **Məhsulun növləri** | **Ölçü vahi di** | **1950** | **1958** | **1960** | **1965** | **1966** | **1967** | **1970** |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Mal-qara yağı | Ton | 25 | 108 | 145 | 209 | 208 | 204 | 222 |
| 2 | Pendir və yağlı brınza | Ton | 26 | 87 | 103 | 91 | 123 | 154 | 215 |
| 3 | Çörək məmu-latları | Ton | 2 | 3 | 3 | 4 | 3 | 4 | 4 |

Yuxarıdakı cədvəldəki rəqəmlər yalnız Şuşada istehsal olunan məhsullar idi. Vətəndaşların şəxsi istehsal etdiyi yağ pendir və çörək məmulatları buraya daxil deyildi. Aparılan hesablamalar nəticəsində məlum olur ki, 1970-ci ildə Şuşa rayonunda yağ-pendir zavodunun istehsal etdiyi məhsullar rayondakı ümumi sənaye məhsullarının 4 faizini, çörək zavodu isə 2 faizini təşkil edirdi [152].

1950-1960-cı illərdə Şuşa rayonunda sənayenin başqa sahələri – Məişət xidməti idarəsi, yerli sənaye müəssisəsi, Nəşriyyat, Ərzaq məhsulları müəssisəsi, Tikinti tresti də fəaliyyət göstərirdi [153]. Şuşadakı yerli sənaye kombinatı sırf yerli xammala əsaslanırdı və getdikcə inkişaf edib daha da möhkəmlənirdi. Burada yerli materiallarından müxtəlif pambıq parça, tikinti məmulatları və başqa məhsullar buraxılırdı. Yerli sənaye Şuşa rayonunun ümumi sənaye məhsulları istehsalında yeri 1966-cı ildə 1,4 faiz, 1968-ci ildə isə 1,6 faiz təşkil edirdi [154].

Şuşa rayonu ərazisində keçən əsrin 50-ci illərində yaradılmış sənaye müəssisələrindən biri də Meşə Təsərrüfatı Kombinatı idi. Ərazidəki meşələrin yararsız və qurumuş ağaclarından doğrayaraq odun kimi istifadə edilirdi. Eyni zamanda kombinat qurumuş ağaclardan kömür istehsal edirdi. Kombinatın istehsal etdiyi məhsullar təkcə Vilayət ərazisində deyil, əvvəlki illərdə olduğu kimi, Vilayət rəhbərliyi tərəfindən gizli və açıq yolla qonşu Ermənistana da göndərilirdi. 1965-1970-ci illərdə Şuşa rayonunun sovxozlarında da sənaye müəssisəsi yaradıldı [155].

XX yüzilliyin 50-60-cı illərdə Azərbaycanda energetika sənayesi sahəsində çox böyük nailiyyətlər əldə edildi. Belə ki, 150 min kilovat gücündə «Şimal» elektrik stansiyası, 600 min kilovat gücündə açıq tipli Əli Bayramlı elektrik stansiyası, 75 min kilovat gücündə 1 saylı Gəncə elektrik stansiyası istifadəyə verildi və Azərbaycan Ermənistan, Gürcüstan enerji sistemləri birləşdirildi [156]. Bütün bunlar, DQMV-də elektrik enerjisinə olan tələbatın ödənilməsinə təsir etdi. XX yüzilliyin 50-ci illərinin ortalarında Ağdam-Xankəndi yüksək voltlu elektrik xətti çəkilib qurtardı. Mingəçevir SES-nın turbinlərində istehsal edilən elektrik enerjisi bu magistral xətlə Dağlıq Qarabağın şəhər və kəndlərinə, sənaye müəssisələrinə və tikintilərinə, kolxoz və sovxozlarına verildi. Bundan əlavə Azərbaycan hökuməti 1928-1946-cı illərdə DQMV-i ərazisində bir neçə stansiya, o cümlədən Madagiz, Əsgəran, Sacan, Xankəndi və başqa elektrik stansiyaları tikib istifadəyə vermişdi [157]. 1950-1960-cı illərdə Dağlıq Qarabağda elektrik enerjisi istehlakı təxminən 15 dəfə artmışdı. Belə ki, 1950-ci ildə bölgədə elektrik enerjisi istehlakı 4 milyon 669 min kilovat, 1960-cı ildə 13 milyon 880 min kilovat idisə, 1972-ci ildə 70 milyon kilovata çatmışdı [158]. Onu da qeyd edək ki, 1971-ci ildə Naxçıvan MSSR-da 5 milyon kilovat elektrik enerjisindən istifadə edilmişdir. 1970-ci ildə, demək olar ki, DQMV-nin bütün ərazisində o cümlədən Şuşa rayonunda elektrikləşmə işi başa çatmışdır. Belə ki, 1950-ci ildə ərazinin yalnız 12%-i, 1960-cı ildə 55%-i, 1965-ci ildə 80%-i elektrik enerjisindən istifadə edirdisə, 1970-ci ildə ərazinin 99 faizi elektrikdən istifadə etməyə başladı [159]. Aparılan tədqiqatlar nəti-

cəsində məlum olur ki, elektrikləşməyən həmin 0,5% azərbaycanlılar yaşayan kəndlərin payına düşmüşdür. Eyni zamanda, azərbaycanlılar yaşayan kəndlərə işıq fasilələrlə verilir, sıradan çıxan elektrik nizamlayıcıları, dəyişən elektrik cərəyanının artırıb-azaldan aparatlar süni sürətdə ləngidilir və aylarla verilmirdi.

1950-1960-cı illərdə Şuşanın mövcud sənaye müəssisələri 4,2 dəfə, 1923-cü illə müqayisədə 1950-ci ildə 75%, 1960-cı ildə 135%, 1970-ci ildə 316% artmışdır. Bəhs etdiyimiz illərdə Şuşanın bütün sənaye müəssisələri gəlirlə işləmişdi [160].

XX yüzilliyin 50-60-cı illərində, Şuşa sənayenin bir qolunu təşkil edən sənətkarlıq da mövcud olmuşdur. Burada yun emalı, boyaqçılıq, xalçaçılıq, keçəçilik, papaqçılıq, misgərlik, dəmirçilik, başmaqçılıq, şərabçılıq, dəriçilik, dərziçilik, kürkçülük, sərraclıq, nalbəndlik, daşişləmə kimi qədim sənət sahələri fəaliyyət göstərirdi. Tədqiqatlardan məlum olur ki, Qədim yaşayış məskəni olan rayonun azərbaycanlılar yaşayan kəndlərində sənətkarlıq xüsusi olaraq inkişaf etmiş və keçmiş ənənəvi xüsusiyyətlərini qoruyub saxlamışdır.

Apardığımız araşdırmalardan məlum olur ki, ümumiyyətlə, 60-cı illərdə Azərbaycanda ümumi sənaye məhsulu istehsalı 94 faiz artmışdır. Həmin dövrdə Şuşa rayonunda bu göstərici 180 faizə çatırdı. Bu yüksək göstəricinin ən başlıca amili Azərbaycan rəhbərliyinin rayonda göstərdiyi qayğının nəticəsi idi. Təkcə 1950-1960-cı illərdə Azərbaycan hökumətinin Şuşa rayonunda xalq təsərrüfatının inkişafına qoyduğu vəsait 20 dəfə artmışdı. Rayon ixtisaslı kadr, dəzgah və avadanlıqlarla, xammalla tam təmin edilmişdir [161].

Azərbaycanın Şuşa rayonunun zəngin xammal ehtiyatları rayonda çoxşaxəli sənayesinin inkişafını şərait yaratmışdır. Rayonda istehsal olunan sənaye məhsulları dünyanın bir çox ölkələrinə ixrac edilirdi. Lakin 50-60-cı illərdə Şuşa rayonunda, sənayenin inkişafına baxmayaraq ziddiyyətli hallar da mövcud olmuşdur. Belə ki, müəssisələrdə dövlət intizamının pozulması, köhnə sahələrin yenidən qurulması prosesinin ləngiməsi, Vilayətin və rayonunun erməni rəhbərlərinin ciddi nöqsanları,

onların məhsulun keyfiyyətinə yox kəmiyyətinə fikir verməsi, rəhbərliyin inzibati amirlik metodları, müəssisələrdə işləyən az-çox azərbaycanlı fəhlələrə ögey münasibət, sənaye müəssisələrinin yerləşdirilməsində hökm sürən volyuntarizm və azərbaycanlılar yaşayan kəndlərin bu siyahıdan çıxarılması və başqa bu kimi mənfi hallar müşahidə edilmişdir. Həmin dövrə obyektiv qiymət verən Ümummilli Lider Heydər Əliyev çıxışlarından birində göstərmişdir ki, 1960-cı ildə Azərbaycan sənayesi müharibədən əvvəlki səviyyəni ötmüş, 40-cı ildəki sənayeni 2,8 dəfə üstələyən məhsul buraxılışına nail olunmuşdur. 1950-1960-cı illərdə yeni sənaye sahələri əmələ gəlmiş, energetika və su təsərrüfatı tikintisi genişlənmişdir. Müharibədən sonrakı beşilliklər ərzində Sovet Azərbaycanın keçdiyi tarixi yolun əhəmiyyətini azaltmadan onu da qeyd etmək vacibdir ki, 60-cı illərdə respublika iqtisadiyyatının inkişafında mənfi meyllər də özünü göstərməyə başlamışdı. Azərbaycan milli gəlirin inkişaf tempinə, sənaye və kənd təsərrüfatında istehsalın həcminə, elmi-texniki tərəqqinin nailiyyətlərinin mənimsənilməsinə, ictimai məhsuldarlığına görə ümumittifaq göstəricilərindən geri qalırdı. Bu dövrdə, istehsal qüvvələrinin yerləşdirilməsi işində kobud yanlışlıqlara yol verilmişdi. Odur ki, yaranmış vəziyyətdən çıxış yolu tapmalı, gələcəkdə iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişikliklər aparmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi [162].

Beləliklə, 1950-1960-cı illərdə ziddiyyətli, tərəddüdlərə və qeyri sabit olsa da, Şuşa rayonunda yeni sənaye sahələri əmələ gəldi və bununla da işsizlik problemi aradan götürülməklə istehsal xeyli artdı. Mərkəz isə öz iqtisadi təməlini möhkəmləndirmək üçün Azərbaycanı öz xammal bazasına çevirməklə yeraltı və yerüstü sərvətlərimizin talan edilməsini daha da sürətləndirdi. İstehsal olunan sənaye məhsulları Rusiyaya və Ermənistana daşınırdı.

Ümummilli lider Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra Şuşanın sosial-iqtisadi inkişafına xüsusi

diqqət yetirmişdir. Yetmişinci illərdə Şuşaya yeni su və təbii qaz kəmərləri çəkildi. Burada yeni mehmanxana, rabitə evi, musiqi alətləri fabriki, yeni çörək zavodu, xalça arteli, gön-dəri arteli, kəlağayı arteli tikilib istifadəyə verildi ("Azərbaycan" jurnalı, 1988, №10, s.155-158).

1986-1988-ci illərdə Şuşa rayonunda xalq istehlakı malları istehsalının artırılmasına xüsusi diqqət yetirilmişdir. Əmək ehtiyatlarından daha səmərəli istifadə etmək üçün Vilayətin ermənilər yaşayan kəndlərində «Qarabağ İpək Kombinatı»nın filialları şəbəkəsi xeyli genişlənmişdir. Yeri gəlmişkən onu da qeyd edək ki, 1987-ci ildə DQMV-i ipək istehsalına görə respublikamızın ikinci mərkəzi idi. DQMV-də yüngül sənaye məhlulunun 67 faizi və respublikamızın ipəkçilik sənayesinin 25 faizi Dağlıq Qarabağ ipək emalı sənayesinin payına düşürdü. 1986-1987-ci illərdə Dağlıq Qarabağ ipək emalı sənayesində inkişaf prosesi getsə də 1988-ci ildə erməni millətçilərinin bölgədə törətdikləri fitnəkarlığı bu sahəyə ağır zərbə vurdu. İlk növbədə xammal ehtiyatları təxminən yarıbayarı azaldı ki, bu da istehsalın aşağı düşməsinə çox böyük təsir etdi. Çoxşaxəli istehsala malik Qarabağ ipək emalı sənayesi 1985-1988-ci illər ərzində aşağı enmə halı müşahidə edilmişdir. Belə ki, 1985-1988-ci illərdə bölgədə Xam ipək 117 tondan 50 tona, ipək sap 108 tondan 78 tona, ipək parça 16,5 milyon kvadrat metrdən 9 milyon kvadrat metrə, barama 146 tondan 89 tona enmişdir [169, 170, 171].

SSRİ Elmlər Akademiyasının akademiki T.Xaçaturovun və Azərbaycan yüngül sənaye nazirinin müavini C.Aventisovun fikirlərinə görə Qarabağ İpək Kombinatında 1988-ci ildə istehsalın həcminin azalmasının ən başlıca amili müəssisələrin yeni texnika ilə təchiz edilməməsi və ixtisaslı kadrların çatışmaması ilə bağlı olmuşdur [175]. Lakin, bir məsələni xüsusi qeyd etməliyik ki, Qarabağ İpək Kombinatında məhsul istehsalının azalmasının ən başlıca səbəbi Ermənistanın Azərbaycana qarşı növbəti ərazi iddiaları və DQMV-də ermənilərin növbəti münaqişəsi ilə bağlı idi. Yuxarıdakı cədvəldən göründüyü kimi DQMV-də baş verən erməni fitnəkarlığı barama istehsalını aşağı

salmış, kombinatın xammala olan tələbatı ödənilməmiş və nəticədə ipək parça istehsalı azalmışdır.

1986-1988-ci illərdə Vilayət sənayesində artma, azalma və hətta istehsalın tamamilə dayandırılması halları müşahidə edilmişdir. Məsələn, bəhs edilən illərdə alkoqolizmə qarşı mübarizi pərdəsi altında Dağlıq Qarabağda rayonunda üzüm sahələri 40 faiz azaldı. Eyni zamanda, Dağlıq Qarabağda başlayan erməni separatizmi üzüm bağlarına baxımsızlıq yaratmış, ağır zəhmət və külli miqdarda vəsait hesabına yaradılmış məhsuldar bağlar ləğv edilmişdi. Xammal çatışmazlığı nəticəsində 1985-1988-ci illərdə şərab emalı təxminən 9 dəfə azalmışdı. 1985-ci ildəki 1 milyon 211 min dekaletrdən 135 min dekaletrə enmişdir. Yuxarıda qeyd etdiyimiz səbəblər ucbatından əhəng istehsalı 10,1 min tondan 4 min tona enmişdir.

1986-1988-ci illərdə Şuşa rayonunda ərzaq məhsulları istehsal edən sənaye müəssisələrinin istehsalında artım müşahidə edilmişdir. Məsələn, pendir və yağlı brınza istehsalı 1985-ci ildə 169 ton, 1986-cı ildə 2050 ton istehsal olunmuşdursa, 1988-ci ildə artaraq 214 tona çatmışdır. Mal-qara yağı istehsalında isə cüzi azalma halı olmuşdur. Belə ki, 1985-ci ildə Şuşa rayonunun yağ zavodunda 205 ton yağ istehsal olunmuşdursa, 1986-cı ildə bu göstərici 1950 tona və 1988-ci ildə 190 tona enmişdir [181]. 80-cı illərin ikinci yarısında heyvandarlıq məhsulları istehsal edən sənayenin inkişafını sürətləndirmək nəzərdə tutulmuşdur. 1986-1988-ci illərdə Şuşa rayonunda yeyinti sənayesində rayon əhalisinin tələbatını ödəməli olan köməkçi sahələr - süd, ət, çörəkbişirmə, qənnadı və başqa sahələr üstünlük təşkil edirdi [192]. DQMV-nin süd kombinatında respublikamızda quru süd zərdabı hazırlayan yeganə sex işləyirdi. Süd kombinatındakı quru süd sexində xaricdən gətirilmiş avadanlıqlar quraşdırılmışdır. Aparılan hesablamalara görə 1988-ci ildə adambaşına düşən yeyinti məhsullarının ən mühüm növlərinin istehsalı səviyyəsinə görə DQMV-i Azərbaycan SSR-nin iqtisadi rayonları arasında ilk yerlərdən birini tutmuşdur [200]. Bunun ən başlıca amili bölgənin bol xammal ehtiyatlarına malik olması ilə yanaşı

Azərbaycan hökumətinin Vilayətə göstərdiyi dərin qayğının nəticəsi idi.

Aparılan tədqiqatlardan məlum olur ki, Şuşa rayonunda aqrar sahənin inkişafı sənayenin də inkişafına şərait yaratmışdır. Çünki Vilayətdə sənaye sahələri əsasən kənd təsərrüfatı məhsullarının və yerli xammalların hesabına inkişaf etdirilmişdir. Dekabr 1987-ci il məlumatına görə ümumilikdə DQMV-i üzrə sənaye məhsulu istehsalı respublikanın ümumi məhsul istehsalının 2,8 faizini, istehsal fondlarının 1,6 faizini, sənayedə çalışanların 2,8 faizini təşkil etmişdir. İqtisadi rayonun məhsul istehsalına kapital qoyuluşu artaraq, hər adama düşən istehsal məhsullarının həcmi 1987-ci ildə ümumrespublika üzrə 21 manata qarşı, Vilayətdə 29,5 manat olmuşdur. Son 20 il ərzində DQMV-də 30-dan çox sənaye müəssisələri yaradılmış və il ərzində məhsul istehsalının həcmi 3 dəfə artaraq respublika səviyyəsini ötmüşdür [211].

Araşdırmalardan məlum olur ki, Şuşa rayonunda sənaye strukturunda adambaşına düşən yeyinti sənayesi 65,9 faiz, yüngül sənayesi 24,2 faiz, meşə və ağac emalı sənayesi 1,7 faiz, tikinti materialları sənayesi 1,5 faiz artmışdır [214]. Sənaye məhsullarının müqayisəli həcminə görə yeyinti sənayesi üstünlük təşkil etmişdir. Bu ilk növbədə rayonda aqrar sektorun inkişafı ilə bağlıdır. Şuşadakı ət, süd kombinatları, meyvə-tərəvəz kombinatı konserv zavodu, çörək kombinatları, süd və süd məhsulları hazırlayan zavodlar məhsul istehsalı və onların keyfiyyət göstəricilərinə görə ümumrespublika səviyyəsində güclü inkişaf etmişdir.

1987-ci ildə DQMV-də tikiş, xalça, musiqi alətləri fabrikləri, maşınqayırma, elektrotexnika, texniki təmir, zavodları, minik avtomobillərinə texniki xidmət stansiyası və onun Şuşa rayonunun filialları güclü inkişaf etmişdi [217]. Bəhs etdiyimiz dövrdə Şuşa rayonunda tikinti sənayesi yerli xammal hesabına inkişaf etdirilirdi. Ümumiyyətlə, Respublikamızdakı üzlük daşın 15 faizini, tikinti daşlarının 30 faizini, mişar daşlarının 10 faizini, sənaye əhəmiyyətli gilin 10 faizini DQMV-i vermişdir [223]. Şuşa rayonunda meşə və ağac emalı kombinatları, mebel sexləri

respublikamızın çoxşaxəli sənaye sahələrinin inkişafında mühüm rol oynamışdır.

Şuşa rayonunun infrastrukturunda yüksək voltlu elektrik xətlərinin çəkilməsində və bununla elektrik təchizatı sahəsində şəbəkələr yaradılması böyük rol oynamışdır. 1986-1989-cu illərdə Şuşa rayonunda energetika təsərrüfatının inkişafı üçün Azərbaycan hökuməti 1970-1985-ci ildəki vəsaitdən 1,4 dəfə artıq vəsait ayırdı [225]. Çox hissəsinin dağlıq ərazi olmasına baxmayaraq 1986-1988-ci illərdə rayonda uzunluğu 25 kilometr olan yüksək voltlu elektrik xətti çəkildi. Artıq 1988-ci ildə Şuşa rayonu ərazisində yüksək gərginlikli elektrik xətlərinin uzunluğu 350 kilometrə çatmışdır [228]. Rayonun elektrik enerjisi ilə təminatında Sərsəng Su Elektrik Stansiyası mühüm rol oynamışdır. Azərbaycan hökumətinin dərin qayğısı nəticəsində Şuşa rayonu üçtərəfli elektrik enerjisi ilə təchiz edilmişdir. Respublikamızda üçtərəfli elektrik təchizatı yalnız DQMV-nə nəsib olmuşdur. 1986-1988-ci illərdə Şuşa rayonunda elektrik enerjisi istehsalı 2,5 dəfə artdı [231]. 1970-ci illə müqayisədə isə bu artım 9 dəfəyə bərabər idi. Ümumilikdə DQMV-də 1970-ci ildə 1,6 milyon kilovat saat elektrik enerjisi istehsal olunmuşdursa, 1986-cı ildə 57,8 milyon kilovat saata, 1988-ci ildə isə artaraq 140,8 milyon kilovat saata çatmışdır. Bəhs etdiyimiz dövrdə Respublikamızda 23,2 milyard kilovat saat, Naxçıvan MR-da 124,1 milyon kilovat saat elektrik enerjisi istehsal olunurdu. Adambaşına düşən elektrik enerjisinin həcminə gəldikdə isə DQMV-i ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır. Vilayətdə adambaşına düşən elektrik enerjisi ümumrespublika səviyyəsindən 2,5 dəfə, Naxçıvan MR ilə müqayisədə isə təxminən 2 dəfə çox olmuşdur. Əlbəttə bu faktın özü tariximizi saxtalaşdıran erməni millətçilərinə tutarlı cavabdır. Çox təəssüflə qeyd etməliyik ki, bölgədəki sənaye müəssisələrinin əsas hissəsi Vilayətin ermənilərin daha çox cəmləşdiyi ərazilərdə yerləşdirilmişdir. Dağlıq Qarabağın erməni rəhbərliyi «Sənaye müəssisələri və onların filiallarının yerləşdirilməsi səlahiyyətləri»ndən istifadə edərək bölgədə qədimdən yaşayan azərbaycanlıların yaşayış məntəqələrində sənaye və onun infras-

trukturu inkişaf etdirilmədi. Erməni rəhbərliyinin məqsədi süni surətdə işsizlik problemi yaradıb azərbaycanlıların bölgədən çıxarılmasına nail olmaq idi və son nəticədə bu mənfur siyasəti reallaşdırdılar.

1988-ci ilin əvvəllərində Azərbaycan SSR-in DQMV-i ərazisində «antitürk mitinq», yürüş və nümayişlərin keçirilməsi, «Qarabağ» Komitəsinin uzun müddət gizli fəaliyyət göstərən yerli təşkilatı «Krunk» adı altında açıq fəal mübarizəyə başlaması, «Miatsun» (birləşmə) hərəkatının genişlənməsi, Vilayət Sovetinin sessiyasında «DQMV-nin Azərbaycan SSR-nin tərkibindən çıxarılıb, Ermənistan SSR-in tərkibinə verilməsi haqqında» qərar qəbul etməsi, Vilayətdə erməni fitnəkarlığının genişlənməsi Şuşa rayonundakı mövcud sənaye müəssisələrində çox ağır və böhranlı vəziyyət yaratdı. Vilayətin erməni rəhbərləri tərəfindən Şuşadakı sənaye müəssisələri əmlakının dağıdılması, rüşvətxorluq və korrupsiya əməllərinin getdikcə daha açıq şəkildə yer alması da iqtisadiyyatın geriləməsi prosesini gücləndirdi [244].

**1940-1980-ci illərdə DQMV-də sənaye məhsulları istehsalının əsas göstəriciləri**

| Sıra № | Məhsulun növü | Ölçü vahidi | İllər | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | 1940 | 1950 | 1960 | 1970 | 1980 |
| 1. | İpək parça | kv.m | 120 | 163,3 | 2259 | 7015,5 | 7368,2 |
| 2. | İpək sap | ton | 91,1 | 120 | 120,7 | 114,6 | 121,4 |
| 3. | Ət (xalis çəkidə) | ton | 12,8 | 62,3 | 262,2 | 459,1 | 495,2 |
| 4. | Yağlı pendir | ton | 61,2 | 113,3 | 268,3 | 391,1 | 476,8 |
| 5. | Şərab (çaxır) | min dkl. | 105,2 | 158,2 | 471,5 | 311,2 | 418,5 |
| 6. | Konyak | min dkl. | 1,2 | 6,0 | 11,4 | 6,4 | 7,4 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 7. | Taxta-şalban | kub metr | 1,3 | 2,0 | 11,7 | 8,3 | 12,8 |
| 8. | Əhəng materiallar ı | ton | 1222 | 1313 | 7118 | 5244 | 8171 |
| 9. | Kərpic | min ədəd | 172 | 729 | 325 | 81 | 678 |
| 10. | Yonulmuş daş | min kub | 46,8 | 42,7 | 24,2 | 24,4 | 52,5 |
| 11. | Tikiş məmulatla rı | min man | - | - | 1377 | 1428 | 1587 |
| 12. | Elektrik avadanlıql arı | min man | - | - | 1416 | 6134 | 7498 |
| 13. | Mebel | min man | 26,3 | 177,8 | 785,5 | 1654,1 | 1789,4 |
| 14. | Elektrik enerjisi isteh. | m.kus. | 1514 | 4669 | 13880 | 10376 | 14861 |
| 15. | Kirəmid | min. kv.m | 43,0 | 49,5 | 98,0 | 61,1 | 99.5 |

# XVII FƏSİL

## AZƏRBAYCANIN ŞUŞA RAYONUNDA MƏDƏNİYYƏTİN İNKİŞAFI (1920-1988)

Mədəniyyət ictimai həyatın son dərəcə mürəkkəb və dəyişkən hadisəsi olmaqla siyasi, sosial münasibətləri, mənəvi və əxlaqi dəyərləri əks etdirir. Tarixi inkişafın müəyyən mərhələlərində yaradılmış mədəni sərvətlər hər bir xalqın spesifik xüsusiyyətlərini müəyyən etməklə onun sonrakı nəsillərə ötürülməsini təmin edir. Gənc nəsil bu miraslardan səmərəli istifadə edir, dəyişdirir və təkmilləşdirirlər. Fəsildə araşdırılan mövzu istər tarix elmi, istərsə də mədəniyyət baxımından olduqca aktualdır. 1920-1980-ci illərdə Azərbaycanda mədəni quruculuq prosesi ictimai həyatın bütün sahələrinə nüfuz etməklə özündə, elm, təhsil, mədəni-maarif işi, ədəbiyyat və incəsənət kimi aparıcı sahələri birləşdirir və bu sahələr isə insan şəxsiyyətinin formalaşmasına təsir etməklə cəmiyyətdəki prosesləri bu və ya digər şəkildə formalaşdırır.

Dövlətimiz müstəqillik əldə etdikdən sonra cəmiyyətimizin qarşısında duran mühüm vəzifələrdən biri yeni əsasda, ideoloji ehkamlardan azad və ümumbəşəri dəyərlərə istiqamətlənmiş mədəni quruculuğu inkişaf etdirməkdən ibarətdir. Dövlətimizin gələcək inkişafı üçün respublikamızda mədəni quruculuğun inkişafı tarixini öyrənmək və işıqlandırmaq böyük elmi və siyasi əhəmiyyət kəsb etməklə tədqiq etdiyimiz mövzunun yüksək dərəcədə aktual olduğunu göstərir.

1920-1980-ci illər bütövlükdə Azərbaycanda o cümlədən Qarabağda və onun tacı olan Şuşada mədəni quruculuq tarixində xüsusi yer tutur. Bu illər ölkənin tarixində mürəkkəb bir dövrü əhatə edir. Bəhs olunan xronoloji çərçivədə Müstəqil dövlətimiz ləğv edilmiş, Azərbaycan Rusiyanın müstəmləkəsinə çevrilmiş, milli-mənəvi dəyərlərimiz unutdurulmuş, repressiyalar soyqırımlar baş vermiş, eyni zamanda müharibənin ağır nəticələri aradan qaldırılmış, xalq təsərrüfatı bərpa edilmiş, iqtisadiyyat və mədəniyyətin inkişafında mühüm nailiyyətlər qazanılmışdır.

Sovetlər dönəmində bir sıra çətinliklərə, çatışmamazlıqlara baxmayaraq Azərbaycanda, o cümlədən Qarabağda mədəni quruculuq, əsasən, bütün ölkədəki istiqamətlər üzrə inkişaf etdirilirdi. Respublikanın, demək olar ki, bütün şəhər və kəndlərinin mədəni həyatında irəliləmələr baş vermişdi. Tədqiq edilən illərdə xalq təhsili inkişaf etmiş, əhalinin ümumtəhsil səviyyəsi xeyli yüksəlmişdi. Elmi müəssisələrin və onlarda məşğul olan əməkdaşların sayı çoxalmış, uğurlu elmi nəticələr əldə edilmişdi. Bu yüksək inkişafın kökündə isə Azərbaycan SSR Elmlər Akademiyasının yaranması və elmi fəaliyyəti ictimai tələblərə uyğun koordinasiya etməsi dayanırdı. Mədəni-maarif müəssisələrinin şəbəkəsi genişlənmiş, əhalinin mədəni səviyyəsinin yüksəldilməsində və mənəvi tərbiyəsində onların rolu artmışdı. Ədəbiyyat və incəsənət sahəsində yeni müvəffəqiyyətlər qazanılmış, bədii özfəaliyyət genişlənmişdi. 1920-ci ildən etibarən Azərbaycanda müəyyən uğurlar və nöqsanlarla müşahidə edilən bu mədəni quruculuq prosesində özünü doğruldan və həmçinin effekti olmayan üsul və metodlar bir-birini əvəz etmişdir. Bu baxımdan 1920-1980-ci illər ərzində baş vermiş dəyişiklikləri dərindən və hərtərəfli öyrənmədən bütövlükdə Azərbaycan o cümlədən Qarabağ və Şuşa milli mədəniyyətinin inkişaf tarixini dərk etmək mümkün deyil.

Bütün bu və ya digər önəmli məsələlər bəhs etdiyimiz xronoloji çərçivədə kompleks şəkildə indiyədək tədqiq edilib öyrənilməmiş və elmi cəhətdən ümumiləşdirilməmişdir. Bununla yanaşı bu dövrdə mədəni quruculuğun tarixi təcrübəsi kifayət qədər zəngin olduğu üçün onun hərtərəfli elmi tədqiqinə ciddi ehtiyac vardır. Bütün bunlara əsasən mədəni quruculuq tarixini tədqiq etməyin ciddi elmi, tərbiyəvi və siyasi əhəmiyyəti vardır və mövzunun tədqiqini zəruriləşdirmişdir.

Bütövlükdə Qarabağın, o cümlədən Şuşa şəhərinin 1920-1980-ci illər mədəni quruculuq prosesinin bir sıra istiqamətləri üzrə öyrənilməsi sovet tarixşünaslığında özünə müəyyən yer tapmışdır. Sovet tarixşünaslığında tarixin ayrı-ayrı məsələləri ideoloji səpkidən dövrün tələblərinə uyğun işıqlandırılmışdır. Sosializm ideologiyasının tələblərinə uyğun olaraq sovet

cəmiyyətinin ancaq uğur və nailiyyətləri qabardılmış, bəzi qüsur və nöqsanlar isə cəmiyyətdən gizlədilmişdir. Sosializm cəmiyyətinin bütün qüsurlarına baxmayaraq, mədəni quruculuq istiqamətində böyük uğurlar qazanılmışdır. Bu dövrdə ölkədə kütləvi savadlandırma aparılmış, məktəb sistemi təşkil edilmiş və əhali elmə, təhsilə yiyələnmişdi. 1920-ci ildən bütövlükdə Azərbaycanda o cümlədən Şuşada mədəni quruculuğun yeni mərhələsi başlanmışdır. Bütün bu tədbirlərdən hökumət özünün və ideologiyasının təbliğində geniş istifadə etdiyi üçün mədəni quruculuq sovet ədəbiyyatında əsas tədqiqat sahələrindən olmuşdur. 1920-1980-ci illərdə sovet mədəniyyətinin bəzi istiqamətlərinə aid kitablarda problemlər ümumi şəkildə araşdırılmış, ayrı-ayrı şərhlər üzərində təhlillər aparılmışdır. Tədqiqini apardığımız dövrün və mövzunun mürəkkəb və çoxşaxəli olduğunu nəzərə alaraq tarixşünaslığı tematik şəkildə təhlil etmək məqsədəuyğundur.

Azərbaycan, o cümlədən Qarabağ mədəniyyət tarixini öyrənilməsi sahəsində Respublikamızda müəyyən işlər görülmüşdür. Belə ki, üç cildlik «Azərbaycan tarixi»nin üçüncü cildində mədəniyyət tarixinin öyrənilməsinin əksər tərəfləri işıqlandırılaraq çoxlu faktiki material toplansa da, lazımi ümumiləşdirmələr aparılmamışdır. Yeddi cildlik «Azərbaycan tarixi»ndə 1920-1980-ci illər ərzində ölkədə, eləcə də Azərbaycan SSR-də vəziyyət ümumi şərh edilir, mədəni quruculuq, problemlər və perspektiv inkişaf ilk dəfə olaraq müstəqil milli maraqlar baxımından təhlil olunur. T.B.Qaffarovun əsəri də fərqli yanaşma baxımından maraqlıdır. Müəllif 1920-1991-ci illərdə baş vermiş hadisələri qruplaşdıraraq icmal şəkildə şərh etmişdir. Azərbaycanda mədəni quruculuq məsələləri - «Azərbaycan partiya təşkilatı tarixin»ə həsr olunmuş kitabda XVII fəslin ikinci paraqrafında ideoloji məsələlərlə bağlı qəbul edilmiş partiya qərarları öz əksini tapıb [1].

Müharibədən sonrakı dövrdə tarixçi kadrların və mütəxəssislərin sayca artması Azərbaycan milli mədəniyyət tarixinin müxtəlif problemlərini tədqiq edib öyrənmək üçün geniş imkanlar yaratdı bu baxımdan mədəni quruculuq məsələlərinin

tədqiqat obyekti kimi seçilməsi mühüm əhəmiyyətə malik olmuşdur. Bu istiqamətdə M.Vəkilovun, N.Paşayevin, X.Əlimirzəyevin, A.Atakişiyevin, T.Musayevanın tədqiqatları qeyd olunmalıdır [2].

M.Y.Vəkilovun tədqiqatlarında Azərbaycanda mədəni inqilabın mahiyyəti açıq göstərilir, sosialist mədəniyyətinin xüsusiyyətləri səciyyələndirilir. Azərbaycanın görkəmli alimlərindən M.Mehdizadənin 1962-ci ildə nəşr olunmuş «Azərbaycan sovet məktəbinin tarixinə dair xülasələr» kitabı sovet hakimiyyəti illərində Azərbaycanda ümumtəhsil məktəblərinin inkişaf mərhələlərinə həsr olunmuşdur. Kitabda, Azərbaycanda o cümlədən Qarabağda sovet maarifi sahəsində böyük təcrübə qazanmış müəllif tərəfindən yazıldığına görə bu mövzuya aid yazılmış digər kitablardan keyfiyyətcə fərqlənir. Əsərdə sovet ümumtəhsil sisteminin yalnız müsbət cəhətlərinin işıqlandırılması və mövcud nöqsanların göstərilməməsi kommunist rejiminin tələblərindən qaynaqlanmışdı.

Sovet hakimiyyəti illərində Azərbaycanda ali pedaqoji təhsil sahəsində əldə edilmiş nailiyyətlərdən danışılır, ali pedaqoji təhsilin inkişafı, pedaqoji məktəblərin professor-müəllim heyəti tərkibində baş vermiş kəmiyyət və keyfiyyət dəyişiklikləri və digər məsələlər A.H.Rzayevin yuxarıda adıgedən əsərində mənbələr əsasında işıqlandırılır.

XX əsr mədəniyyət mövzusu M.Məmmədovun əsərlərində xüsusi yer tutur. Yuxarıda qeyd etdiyimiz kitabda, müəllif əsrin əvvəllərində bu sahədə mövcud vəziyyəti şərh edir, sovet hakimiyyətinin həyata keçirdiyi tədbirləri işıqlandırır. Əsərdə xalq təhsilinin uzun bir dövr ərzində problemlərini əks etdirməyə səy göstərilmişdir. Ümumi icbari təhsilin tətbiqi, özünəməxsus xüsusiyyətləri əsərdə geniş şəkildə şərh edilir.

Mövzu ilə bağlı S.M.Babayevin yazdığı dissertasiyada Azərbaycan SSR-də məktəb quruculuğu ilə bağlı müəyyən məsələlərə toxunulmuş, 60-cı illərdə mövcud vəziyyət öz əksini tapmışdır [3].

«Azərbaycan Respublikasının Şuşa şəhərində mədəniyyətin inkişafı (1920-1980-ci illər)» mövzusu yazılarkən M.Salahovun

Azərbaycanda ali təhsilin tarixinə, problem və perspektivlərinə dair yazmış olduğu monoqrafiya nəzərdən keçirilmişdir.

Azərbaycanda, o cümlədən Qarabağda sovet dövrü mədəni quruculuğunun tədqiqində N.A.Paşayevin əsərlərinin öz yeri vardır. Onun kitablarında mədəni quruculuq prosesindəki uğurların və çatışmazlıqların özünəməxsus təhlili müşahidə olunur. Amma onu da qeyd etmək lazımdır ki, tədqiq olunan dövr N.A.Paşayevin əsərlərində tam əhatə edilməmişdir.

Mövzu ilə bağlı X.Q.Əlimirzəyevin əsərlərini xüsusi qeyd etmək lazımdır. Onun əsərlərində Azərbaycanda iqtisadiyyat və mədəniyyətin inkişafının qısa icmalı şərh edilir, xalq təhsili, elm və səhiyyə sahəsində yeniliklər və dəyişikliklər təhlil olunur.

Azərbaycanda mədəni quruculuq məsələləri A.M.Atakişiyevin tədqiqatlarında öz əksini tapmışdır. Onun əsərlərində 1959-1965-ci illərdə respublikada ümumtəhsil məktəbi, ali, orta ixtisas və texniki peşə təhsili, ədəbiyyat və incəsənət sahəsində əldə edilmiş müvəffəqiyyətlər təhlil olunur.

Əməkdar elm xadimi, t.ü.e.d., professor T.H.Musayevanın elmi əsərləri 1920-1930-cu illər Azərbaycanın mədəni quruculuq tarixinə həsr edilmiş, dövrün problemləri, nailiyyətləri geniş şərh edilmişdir. Müəllif tərəfindən üç cildlik «Azərbaycan tarixi» kitabında yazılmış bölmələr konkret olaraq müharibədən sonrakı illərdə Azərbaycanda mədəni quruculuq problemlərinə həsr edilmişdir. 3 və 7 cildlik «Azərbaycan tarixi» kitablarının onun tərəfindən yazılmış mədəniyyət tarixinə aid bölmələrində sovet mədəniyyəti kompleks şəkildə tədqiq edilir, ümumiləşdirmələr aparılır.

Qarabağ mövzusu, xüsusilə onun mədəniyyət mövzusu t.ü.e.d. Q.Ə.Hacıyevin elmi yaradıcılığının əsasını təşkil edir. Onun «Qarabağın maddi və mənəvi mədəniyyəti» (Bakı, 2011), Yenə onun «Qarabağ bölgəsində alban mədəniyyəti izləri və onların tarixi xüsusiyyətləri» (QAT X - konfrans materialları. Bakı, 2011); Yenə onun «Qarabağın maddi və mənəvi mədəniyyəti Azərbaycanın maddi və mənəvi mədəniyyətidir» (AMEA Elmi konfrans materialları. Bakı, 2006) və digər əsərləri

Qarabağın maddi və mənəvi mədəniyyətini öyrənmək üçün mühüm mənbə rolunu oynayır.

Qarabağda mədəni inkişaf (1920-1980-ci illər) tarixşünaslığında xüsusi yerlərdən birini xalq təhsili, məktəb quruculuğu, pedaqoji kadrların hazırlanması kimi məsələlər tutmuşdur. Bu baxımdan M.Mehdizadə, A.Rzayevin, M.Məmmədovun, T.Musayevanın tədqiqatları xüsusi əhəmiyyət kəsb edir.

K.Q.Əliyevin, A.M.Atakişiyevin, T.Ş.Baxşəliyevin, E.R.İsmayılovun, R.C.Süleymanovun, Z.B.Şıxlinskinin birgə yazdıqları kollektiv monoqrafiya sovet hakimiyyəti illərində respublikada ali təhsilin inkişaf tarixinin oçerkidir. Əsərdə Azərbaycanda ali məktəb sisteminin bərpası və inkişafı tarixi ətraflı şəkildə işıqlandırılmışdır [4].

Təqdim olunan mövzunun tarixşünaslığında elmin inkişafı özünəməxsus yer tutmuşdur. Bu sahə tarixçilər tərəfindən, əsasən, Elmlər Akademiyasının yaranması fonunda təhlil edilmiş, araşdırılmışdır. Bu istiqamətdə T.H.Musayevanın və A.A.Məmmədovun zəngin materiallar əsasında hazırladıqları tədqiqat əsəri xüsusi əhəmiyyət kəsb edir. Əsərdə sovet dövründə elmin keçdiyi tarixi inkişaf yolu səciyyələndirilmiş, Elmlər Akademiyasının formalaşması, strukturu, fəaliyyəti geniş şəkildə işıqlandırılmış, elmi kadrların, ziyalıların fəaliyyət istiqamətləri şərh edilmişdir. T.Kərimovanın bu mövzuya həsr edilmiş mühüm əhəmiyyətə malik əsəri də diqqəti cəlb edir. Qeyd etmək lazımdır ki, hər iki əsər Milli Elmlər Akademiyasının 60 illiyinə həsr edilmişdir. Lakin təəssüflə vurğulamaq gərəkdir ki, Azərbaycanda elmin durumu və tarixi inkişaf yolu tarixşünaslıqda indiyədək özünəməxsus və hərtərəfli şəkildə əks olunmamışdır və bu məsələ həllini gözləyən məsələlərdəndir [5].

Bu dövr peşə və orta ixtisas təhsili də tədqiqatçılarda maraq doğurmuşdur. C.Saniyevin «Azərbaycanda ixtisaslı fəhlə kadrların hazırlanması» namizədlik işi və A.Atakişiyev, R.Süleymanov və S.Kərimovun hazırladıqları monoqrafiya təhsilin bu növünün tədqiqində vacib araşdırmalardı. Ə.Muxtarovanın «Aqrar-sənaye kompleksi şəraitində fəhlə kadrların formalaşması» və «Azərbaycan SSR-də kənd təsərrüfatı fəhlə-

ləri» monoqrafiyaları aqrar sahə üçün orta-ixtisaslı kadrların hazırlanmasına, A.Rzayevin dissertasiyası səkkizinci, K.Mirzəyevin dissertasiyası isə doqquzuncu beşillikdə texniki-peşə təhsilinin inkişafına həsr olunmuşdur [6].

XX yüzilliyin ayrı-ayrı ali məktəblərin tarixi haqda maraqlı tədqiqat işlərindən A.Atakişiyevin Azərbaycan Dövlət Universiteti, B.Ağayevin Azərbaycan Dövlət Pedaqoji Universiteti haqda kitabları qiymətli faktlarla zəngindir və yeri gəldikcə bu əsərlərdən bəhrələnmişik [7].

Respublikada sovet dövrü elmi haqqında dəyərli və maraqlı məlumatlar Elmlər Akademiyasının yubileylərinə həsr olunmuş nəşrlərdə toplanmışdır. Lakin bunlar, əsasən, xronoloji xarakter daşımış, geniş şərh və təhlillərə yer ayrılmamışdır. Azərbaycanda elmin və texnikanın inkişafında ən mühüm hadisələrin toplusu kimi bunlar 1920-1987-ci illəri əhatə etməklə maraqlı vəsaitlərdir. Qeyd etmək lazımdır ki, 1920-1980-ci illərdə elmin tarixi inkişaf yolu xüsusi elmi araşdırma obyekti kimi tədqiq olunmamışdır [8].

Azərbaycanda o cümlədən Qarabağda mədəni quruculuq tarixində mədəni-maarif müəssisələrinin özünəməxsus xüsusi yeri vardır. Bu müəssisələr arasında kitabxanalar mühüm əhəmiyyət kəsb edir. Tarixşünaslıqda bu sahə müxtəlif alimlərin tədqiqat obyekti olmuşdur. Elm və mədəniyyət tarixinin ayrılmaz tərkib hissəsi olan kitabxana işinin Azərbaycanda müstəqil elm, bilik sahəsi kimi formalaşması A.Xəlilovun adı ilə bağlıdır. Onun gərgin elmi fəaliyyəti nəticəsində kitabxanaşünaslıq bir elm kimi formalaşdı. Onun əsərləri bu sahə üzrə fundamental monoqrafiyalar olmaqla, kitabxanaşünaslığın məlum dövr ərzində formalaşması və inkişaf yolunu ətraflı şəkildə əks etdirir. Digər tədqiqatçılardan H.Tağıyev, T.Quliyev, X.İ.İsmayılov əsərləri ilə bu sahənin tədqiqinə öz töhfələrini vermişlər. Ş.İsmayılovanın «Azərbaycan Respublikası Elmlər Akademiyası kitabxana şəbəkəsinin təşəkkülü və inkişafı (1923-1990)» və A.Rüstəmovanın «Azərbaycanda elmi-sahə kitabxanalarının yaranması və fəaliyyəti (1920-1941)» mövzularında namizədlik dissertasiyaları bu sahə üzrə araşdırmalarda özünəməxsus yer

tutur [9]. Lakin qeyd olunmalıdır ki, göstərilmiş əsərlərdə 1920-1980-ci illər ərzində Azərbaycanda kitabxana işi tarixi baxımdan tam və ətraflı şəkildə öz əksini tapmışdır.

Mədəniyyətin inkişaf tarixində muzeylərin xüsusi yeri və rolu vardır. Azərbaycanda muzey işinin tarixi inkişaf yolunu tədqiq etmiş A.Baxşıyevanın 2005-ci ildə işıq üzü görmüş əsəri 1920-1952-ci illəri əhatə edir [10].

M.Salahovun zəngin material əsasında yazdığı monoqrafiyası Azərbaycanda ali təhsilin 50 ildən artıq bir dövrünü əhatə edir. Onun tədqiq etdiyimiz dövrə dair arxiv materiallarından, gəldiyi vacib elmi nəticələrə baxmayaraq, əsərin sovet dövründə yazılması onun bir sıra vacib məsələlərə dövrün tələbi ilə yanaşmasına səbəb olmuşdur. Onu da qeyd edək ki, bu elmi işdə 80-ci illər zəif işıqlandırılmışdır [11].

M.Mərdanovun «Azərbaycan təhsili dünən, bu gün, sabah» əsərində və «Azərbaycan təhsil tarixi» yeddi cildlik kitabında 20-80-ci illərdə təhsil sahəsində həyata keçirilən islahat və tədbirlər, o cümlədən tədqiq edilən dövrün tarixi ətraflı şəkildə şərh edilmişdi [12].

Etiraf etmək lazımdır ki, bu sahə kifayət qədər tədqiq edilməmişdir. Bu qənaəti digər mədəni-maarif müəssisələrinə – kitablara, nəşriyyat işinə, mətbuata, mədəniyyət evlərinə aid etmək olar. Qeyd etmək gərəkdir ki, tədqiqat işinin xronoloji çərçivəsi daxilində A.A.Hüseynovun əsəri istisna olmaqla, bu istiqamətdə, konkret olaraq, kiçik məqalələrdən başqa bir şey dərc edilməmişdir. Qeyd olunmuş əsərdə Azərbaycan sovet mətbuatının müxtəlif problemləri şərh edilir [13].

Azərbaycanın iqtisadi-sosial həyatına, beşilliklərin nəticəsinə həsr edilmiş ümumiləşdirici və fərdi kitablarda mədəniyyət məsələləri əksini tapmışdır. Onlardan H.Əliyev, Y.Mahmudovun, S.Qəndilov, Z.Səmədzadə və M.Musayevin, C.Quliyev, Q.Ə.Mədətov, T.Qaffarov müəllifləri olduqları nəşrlər xüsusi önəm kəsb edir [14].

N.Paşayevin monoqrafiyası mədəni quruculuq sahəsini kompleks şəkildə əhatə edən böyük həcmli işdir. Burada Sovet Azərbaycanı qurulduğu ildə 1970-ci illərin əvvəllərinə qədər

mədəniyyətin inkişafının yolları izlənilir. Lakin bu əsr həddən artıq ideologiyalaşdırılmışdır [15].

1920-1980-ci illər orta məktəb quruculuğu S.İsmayılovanın, Ş.Əfəndiyevanın elmi işlərində tədqiq olunmuşdur. Bu əsərlərdə ümumtəhsilə keçid, məktəb təminatı və başqa məsələlər təhlil olunmuşdur [16].

Ədəbiyyat və incəsənətə gəldikdə isə, təəssüflə qeyd etmək lazımdır ki, bu problemlər tarixçilər tərəfindən xüsusi tədqiqat obyekti kimi seçilmişdir.

1969-1982-ci illərdə Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə mədəniyyətin inkişafına verdiyi töhfələr tədqiqatçıların marağından yayınmamışdı. Onlardan İ.Hüseynovanın «Müstəqil Azərbaycan dövlətinin yaranması və möhkəmləndirilməsində Heydər Əliyevin rolu» monoqrafiyası və S.Pişnamazzadənin «Heydər Əliyev və Azərbaycan Respublikasında milli mənəvi dəyərlərin qorunması» namizədlik dissertasiyalarını göstərmək olar [17].

Ə.Qasımovun «Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası (XX əsrin 70-80-ci illəri)» monoqrafiyasında Heydər Əliyevin 70-80-ci illərin birinci yarısında Naxçıvan Muxtar Respublikasının tərəqqisi naminə göstərdiyi fəaliyyət təhlil edilmiş iqtisadiyyatla yanaşı mənəvi-mədəni həyatda işıqlandırılmışdır [18].

Yaradıcı ittifaqlar haqqında N.Mehdiyevanın və Ş.Qasımovun əsərləri xüsusi əhəmiyyətə malikdir. Qeyd etməlidir ki, praktiki olaraq bədii yaradıcılığın tədqiqinə həsr olunmuş əsərlər də məhz bunlardır [21].

Bu problem müəyyən dərəcədə ədəbiyyatşünasların və incəsənətşünasların tədqiqatlarında araşdırılmışdır. Azərbaycan mədəniyyəti və incəsənəti tarixinə aid yazılmış əsərlər içərisində K.Ç.Kərimov, R.S.Əfəndiyev, N.İ.Rzayev, H.D.Həbibovun «Azərbaycan incəsənəti» kitabı vurğulanmalıdır. F.Şuşinskinin böyük həcmli monoqrafiyası diqqəti cəlb edir [22].

Heydər Əliyevin tədqiq edilən illərdə respublikada mədəniyyətin inkişafının ayrı-ayrı sahələrində tutduğu mövqe Y.Mahmudov, B.Nəbiyev, M.Qasımlı, H.Hüseynov, V.Əliyev,

Ə.Əhmədov, N.Cəfərov və E.Axundovanın kitablarında əksini tapmışdır [19].

Bundan əlavə mədəniyyət Nazirliyinin nəşr etdirdiyi «Heydər Əliyev» iki cild kollektiv monoqrafiyasında da tədqiq edilən dövrdə Azərbaycan mədəniyyətinin inkişafında da tədqiq edilən dövrdə Azərbaycan mədəniyyətinin inkişafında görülən məsələlər əksini tapmışdır [20].

Mədəni quruculuq məsələlərinin tədqiqində mədəni əlaqələr mühüm yer tutur. Bu mövzu T.Musayeva, A.Məmmədov, M.Qasımlı kimi alimlərin tədqiqat obyekti olmuşdur. Qeyd etmək lazımdır ki, bu problemin tədqiq edilməsi 70-80-ci illərdə daha geniş vüsət almışdır. T.Musayevanın A.Məmmədovla birgə hazırladıqları məqalə Azərbaycanla Rusiya arasındakı əlaqələrə həsr edilmişdir. Bu iki dövlət arasında mövcud əlaqələrin inkişaf tarixi geniş şəkildə işıqlandırılmışdır. M.Qasımlı yarım əsrə yaxın bir dövrü əhatə edən monoqrafiyasında respublikamızın Sovet İttifaqı çərçivəsində, eləcə də beynəlxalq mədəni əlaqələrini sistemli şəkildə şərh etmiş, bu istiqamətdə əhəmiyyətli elmi nəticələrə gəlmişdir [23].

Yuxarıdakı tarixşünaslıq materiallarının yığcam təhlilindən sonra qeyd etmək olar ki, müasir Azərbaycan tədqiqatçıları 1920-1980-ci illər mədəni quruculuq tarixinin ayrı-ayrı məsələlərinə toxunsalar da, kompleks halda və sistemli şəkildə yeni tədqiqat əsərlərinin yazılmasına böyük ehtiyac vardır.

Mövzu yazılarkən zəngin mənbəşünaslıq bazasından istifadə edilmişdir. İşin yazılması zamanı cəlb olunan mənbələr içərisində Azərbaycan arxivlərindəki fondlar, mətbuat orqanları, mütəmadi nəşr olunan statistik toplular da vardır. Mənbə bazasından istifadə edilərkən onlardakı məlumatlar qarşılıqlı tutuşdurma və təhlil nəticəsində öyrənilmişdir. Belə ki, tarixşünaslıqda olduğu kimi, mənbələrdə də bir sıra məlumatlar ideoloji tələblər baxımından tərtib edildiyi üçün reallıqları olduğu kimi əks etdirməmişdir. Xüsusən mədəni quruculuğun sovet ideologiyasına zidd tərəfləri haqqında məlumatlar müəyyən təhriflərə uğramışdır. Ancaq bütün çatışmazlıqlarına baxmayaraq, mənbələr ümumən problemə dair məsələləri əhatə edir. Fəslin

yazılması zamanı mənbələrdə olan məlumatlar qarşılıqlı təhlil prinsiplərinə əməl edilərək verilmişdir.

Azərbaycan Respublikası Dövlət Arxivi, ARPİİSSA, A.A.Bakıxanov adına Tarix İnstitutunun Arxivi, S.Mümtaz adına Azərbaycan Respublikası Ədəbiyyat və İncəsənət Arxivinin fondlarının böyük əhəmiyyətini vurğulamaq lazımdır. ARDA-da 57-ci fond bütövlükdə Maarif Nazirliyini əhatə etməklə böyük bir dövrü əhatə edir və məktəb quruculuğu, ali təhsil şəbəkəsinin işıqlandırılmasında əvəzsiz rol oynamışdır. Bundan başqa, 1640, 3055, 3065-ci fondlarından, eləcə də ARPİİSSA-nın 2-ci fondundan, S.Mümtaz adına ARDƏİA-nın 345, 404, 501-ci fondlarından tədqiqatın aparılmasında istifadə edilmişdir. Qeyd etmək lazımdır ki, 1953-cü ilədək Nazirlər Soveti yanında İncəsənət İşləri İdarəsinin bütün sənədləri 345-ci fondda saxlanılır. Sonrakı dövrdə həmin qurumun Mədəniyyət Nazirliyinin tərkibinə verilməsi ilə yeni mərhələ başlayır. S.Mümtaz adına ARDƏ İA-nın 404, 501-ci fondlarında da məhz Mədəniyyət Nazirliyinin tədqiq olunan dövrə aid sənədləri qorunur və fəsil təhlil olunarkən onlardan bəhrələnmişik.

«Şuşa şəhərində mədəniyyətin inkişafı (1920-1980-ci illər)» fəslinin yazılması zamanı mətbuat orqanlarından da çox geniş şəkildə istifadə edilmişdir. «Kommunist», «Бакинский рабочий», «Вышка», «Azərbaycan müəllimi» qəzetlərinin müxtəlif nömrələri, eləcə də «Azərbaycan məktəbi» jurnalındakı 1920-1980-ci illər mədəni quruculuq tarixini əks etdirən yazılardan bəhrələnmişik.

Dövrü mətbuat, arxiv materialları ilə yanaşı, fəslin yazılmasında sovet dövründə nəşr edilmiş statistik məlumat toplularının böyük əhəmiyyəti olmuşdur. 1963-cü ildə Azərbaycan sovet hakimiyyətinin 40 ili ərzində nailiyyətlərini əks etdirən statistik toplu nəşr olunur. Bu toplunun bir hissəsi Azərbaycanın elm, təhsil, mədəni-maarif, ədəbiyyat və incəsənətdəki nailiyyətlərinin böyük dövrü haqqında dəyərli məlumat verir. Göstərilən toplunun çıxmasından 10 il sonra Sovet Azərbaycanının 50 illik göstəricilərini əks etdirən eyni adlı toplu da mənbəşünaslıq bazasına daxil edilmiş və ondan geniş istifadə edilmişdir.

Azərbaycanda elmin inkişafının öyrənilməsi zamanı əhəmiyyətli mənbələrdən biri kimi 1920-1980-ci illərdə elmin inkişafını əks etdirən toplunu da göstərmək olar ki, bu toplu elmin inkişaf dinamikasını izləməyə və təhlil etməyə imkan verir.

Fəsildə toxunulan problemin tədqiqi və açılması zamanı fakt və materiallar müqayisəli təhlil metodu vasitəsilə araşdırılmış, bu isə əsaslı ümumiləşdirmələrin və elmi nəticələrin meydana çıxmasına zəmin yaratmışdır. İstifadə olunan mənbələr qarşılıqlı tutuşdurulmuş, onlara tənqidi yanaşılmış, elmi nəticələr əldə edilmişdir.

Azərbaycan müstəqillik qazandıqdan sonra, ilk dəfə olaraq, Qarabağın mədəniyyət tarixinin mühüm bir dövrü olan 1920-1980-ci illər kompleks şəkildə öyrənilmişdir. Mənbələrə və tarixşünaslıq materiallarına yeni metodlarla yanaşılmış, dövrlə yanaşı, mühüm faktiki materiallar da təhlil edilmişdir. Xüsusi olaraq onu da qeyd etməliyik ki, araşdırılan mövzu 1920-1980-ci illərdə Şuşa şəhərinin mədəni quruculuq tarixinə həsr edilmiş ilk elmi əsəridir.

Fəsil yazılarkən əsas məqsəd və vəzifələr aşağıdakılardan ibarət olmuşdur». 1920-1930-cu illərdə Azərbaycanda, o cümlədən Şuşa rayonunda sovet mədəniyyətinin kommunist ideologiyası tələbləri əsasında qurulduğu, bununla yanaşı Azərbaycan mədəniyyətinin öz milli xüsusiyyətlərini qoruyub saxladığını sübut etmək. Sovet rejimi şəraitində Azərbaycanda elmin inkişafının əsas mahiyyət, məqsəd və nəticələrini aydınlaşdırmaq, Proletar mədəniyyəti adı altında Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə; xalq musiqisinə, musiqi alətlərinə, ərəb əlifbası ilə yazılan nadir əsərlərə qarşı hücumlarda Azərbaycanda xalqının özünüdərkinə, öz milli mənəvi dəyərlərinə olan məhəbbəti öldürmək məqsədi güddüyünü izah etmək. Eyni zamanda fəsildə 1940-1980-ci illərdə Qarabağda və onun tacı olan Şuşada Azərbaycan SSR-də mövcud mədəni şərait, ümumtəhsil məktəblərinin inkişafı, ümumi icbari, yeddiillik təhsilin bərpası, əhalinin ümumtəhsil səviyyəsinin və onun peşə hazırlığının yüksəlməsi, ali və orta ixtisas təhsili miqyasının genişlənməsi, elmin tərəqqisi, mədəni-maarif işinin

müvəffəqiyyətləri, ədəbiyyat və incəsənət sahəsindəki nailiyyətlər kimi məsələlər müfəssəl şəkildə tədqiq edilir. Məlum olduğu kimi, bütün bu məsələlər zəngin faktiki materiallar əsasında işıqlandırılır. Həmin materialın böyük əksəriyyəti, ilk dəfə olaraq, elmi dövriyyəyə daxil edilmiş, problemin kompleks halında öyrənilməsi respublikada mədəni quruculuğun əsas amilləri, meyilləri, müvəffəqiyyətləri, çətinlikləri və nöqsanları haqqında kifayət qədər tam təsəvvür yaradır. Fəslin elmi yeniliyi haqqında fikir söyləyərkən qeyd olunmalıdır ki, fəsildə ilk dəfə olaraq, müasir dövr tarixçilərinin əsərlərindən, monoqrafiyalardan istifadə edilmiş, müqayisəli təhlil aparılmış, kompleks şəkildə araşdırmalara geniş yer verilmiş və elmi nəticələr əldə edilmişdir.

Azərbaycanın Şuşa rayonunun 1920-1988-ci illər tarixi Vətənimizin siyasi, iqtisadi və mənəvi həyatında xarakterik xüsusiyyətləri ilə fərqlənin üç mühüm dövrü – 1920-1930-cu illər Azərbaycanda sovet rejiminin bərqərar olması, sosialistcəsinə yenidənqurmalar və onların nəticələri, 1941-1945-ci illər Böyük Vətən müharibəsi, 1946-1988-ci illərdə quruculuq, mürəkkəb, ziddiyyətli inkişaf dövrlərini əhatə edir.

Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, «1941-1945-ci illər Azərbaycan xalqının tarixində çox görkəmli yer tutur, xalqımızın tarixinin parlaq səhifələrindəndir... İkinci Dünya müharibəsi əyani şəkildə bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan üzüağ çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadir olan çox dözümlü və qəhrəman xalqdır... Faşizm üzərində qələbədən sonra xalqımızın keçdiyi yol Azərbaycanın gələcək milli azadlığına, müstəqilliyinə gedən yol olmuşdur... Azərbaycan yüksək inkişaf yolu keçdi və böyük iqtisadi, intellektual potensial topladı. Bunların əsasında dövlətimiz öz müstəqilliyini əldə etdi və dünya birliyində öz yerini tutdu».

Xalqın böyük fədakarlıq, ümid və qürurla keçdiyi bu tarixi yolun ciddi, qərəzsiz elmi tədqiqi mühüm nəzəri və əməli əhəmiyyət kəsb edir. Tarixi keçmişin həqiqətləri yalnız konkret zaman və məkan daxilində, fakt və hadisələrin, onlar arasında

üzvi və sistem-funksional əlaqələrin dərin təhlili əsasında aşkar edilə bilər. Azərbaycan tarixinin bu mühüm problemləri bir sıra elmi-tədqiqat əsərlərində, monoqrafiyalarda, ümumiləşdirici əsər və dərsliklərdə müxtəlif yönüm və mövqelərdən işıqlandırılmışdır. Bu dövrə aid ilk ümumiləşdirici əsər – böyük müəllif kollektivi tərəfindən yazılmış üçcildlik «Azərbaycan tarixi»nin Respublikanın görkəmli tarixçiləri İ.A.Hüseynov, M.A.Dadaşzadə, Ə.S.Sumbatzadə, Z.İ.İbrahimov, Ə.N.Quliyev və Y.A.Tokarjevskinin redaktəsi ilə 1963-cü ildə çap olunmuş, bu gün də əhəmiyyətini itirməmiş üçüncü cildinin ikinci hissəsində Azərbaycan SSR-in 40-50-ci illər tarixi geniş, lakin o zaman açıqlanması mümkün olmayan bir çox problemlərdən yan keçməklə işıqlandırılmışdır. Son illərdə, fikirlər plüralizminə geniş meydan verildiyi şəraitdə, SSRİ-nin Böyük Vətən müharibəsində Azərbaycanın iştirakı, bütün mürəkkəbliyinə və ziddiyyətlərinə baxmayaraq, müharibədən sonrakı quruculuq və inkişaf, habelə respublikanın dövlət müstəqilliyinin bərpası, müstəqil respublikada baş vermiş siyasi, iqtisadi və mənəvi proseslərlə bağlı populist, nihilist çıxışlar, qarayaxmalar tarixçilərdən tarixi həqiqətləri elmi əsasda üzə çıxarmağı və qiymətləndirməyi tələb edir. Son dövrlər yeddinci cild Azərbaycan tarixində 1940-1980-ci illər Vətənimizin tarixinin kompleks araşdırılmasına ilk cəhd göstərilmişdir. Müəlliflər hesab edir ki, bu dövrün tam əhatəli elmi tarixinin yazılması üçün daha dərin obyektiv tədqiqat işləri aparılmalıdır və yeddinci cildi müxtəlif tarixi mənbələr, arxiv sənədləri, dövri mətbuat materialları, mövcud elmi ədəbiyyat əsasında yazılmışdır. Müəlliflər keçmiş SSRİ-nin respublikanın mərkəzi, habelə ayrı-ayrı nazirliklərin, dövlət komitələrinin arxivlərindən, dövri mətbuatdan, statistika külliyyatından, çap olunmuş dövlət və partiya sənədlərindən, Azərbaycana 30 ildən artıq rəhbərlik etmiş Ümummilli liderimiz Heydər Əliyevin nitq və çıxışlarından, xüsusən onun Azərbaycan xalqına Yeni 2001-ci il, Yeni əsr və üçüncü minillik münasibətilə «Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında» adlı müraciətindən geniş istifadə etmiş, ən prinsipial məsələlərin şərhində onun müddəaları rəhbər tutulmuşdur. Heydər Əliyevin

bu müraciəti Azərbaycan xalqının çoxminillik tarixinə elmi və lokanik baxış olmaqla bərabər, 1960-1988-ci illər tarixinin tədqiqi üçün çox qiymətli mənbədir.

«Azərbaycanın Şuşa rayonunda mədəniyyətin inkişafı (1920-1988-ci illər)» adlı fəsli yazılarkən Azərbaycanın görkəmli tarixçilərindən Y.Mahmudovun, K.Şükürovun, Q.Hacıyevin, O.Sultanovun, T.Mustafazadənin, C.Bəhramovun, A.İskəndərovun, N.Məmmədovun, İ.Məmmədovun, H.Məmmədovanın, A.Məmmədovun, A.Baxşəliyevin, R.İmanovun, Z.Səmədzadənin və digər əsərlərdən bəhrələnmişik. Xüsusi olaraq bölgədə yaşayan bir Vətəndaş kimi canlı şahidi olduğumuz hadisələri, mühüm prosesləri işıqlandırmış, müqayisələr, təhlillər apararaq nəticələr çıxarmışıq. Onu da diqqətinizə çatdırım ki, Azərbaycanın hər bir rayonunun tarixi, o cümlədən Şuşa rayonunun tarixi, rayonun kitabda təqdim olunan hər bir fəsli ayrı-ayrılıqda tədqiq olunmalı, erməni müəllifləri tərəfindən saxtalaşdırma obyektinə çevrilən bütövlükdə Dağlıq Qarabağ tarixi faktlara materiallara əsaslanaraq araşdırılıb vətənimizin həqiqi tarixi dünya ictimaiyyətinə çatdırılmalıdır. Bu baxımdan monoqrafiyanın, o cümlədən on yeddinci fəslin əhəmiyyətini xüsusi vurğulamaq lazımdır.

Keçən əsrin iyirminci illərinin ikinci yarısından etibarən Azərbaycanda xalq təsərrüfatının bütün sahələrinin yenidən qurulmasına başlandı. «Yenidənqurma»nın başlıca prinsiplərindən biri də bolşevizm ideologiyasına xidmət edən mədəni quruculuq idi ki, bu prosesdə Mərkəzin məqsədi Kommunist Partiyasının cəmiyyətdə bölünməz və şəriksiz ağalığını bərqərar etmək, sosializm ideyalarını gerçəkləşdirmək olmuşdu. Moskva, özünə sadiq kadrlar yetişdirmək və Azərbaycanın maddi sərvətlərindən daha səmərəli istifadə etmək üçün bilikli, savadlı adamlara ehtiyac duyurdu. Buna görə də Mərkəz, təhsilə, onun inkişafına xüsusi qayğı göstərirdi. Bu sahədə onun ilk tədbiri savadsızlığı ləğv etmək olmuşdur. Əsas məqsəd əhaliyə yazıb-oxumağı öyrətməkdən ibarət idi. Sovetləşmənin ilk aylarından savadsızlığı ləğv edən kurslar təşkil edildi. 1923-cü ildə savadsızlıqla mübarizə üçün Xüsusi Komitə yaradıldı. Artıq

1926-cı ildə əhalinin 25 faizi, 1930-cu ildə yarıdan çoxu yazıb-oxumağı bacarırdı.

Azərbaycanda ümumtəhsil məktəblərinin inkişafına böyük diqqət yetirilirdi. Demək olar ki, bütün yaşayış məntəqələrində məktəblər açılır və bina ilə təmin edilirdi. 1930-cu illərin sonlarında Azərbaycanda 4500-ə qədər ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Onlarda 695 min şagird oxuyurdu.

Ali təhsilin inkişaf etdirilməsində diqqət ruslaşdırma siyasətinə uyğun olaraq rus dilinin tədrisinə xüsusi fikir verilirdi. 1938-ci ildən etibarən rus dilinin öyrənilməsinə diqqət daha da artırıldı. 1940-cı ildən isə xarici dil tədris edilməyə başlandı. Bu illərdə mədəni-maarif müəssisələrinin inkişafına da qayğı göstərilirdi. Kitabxana, klub və mədəniyyət evlərinin sayı getdikcə artırdı. Savadsızlığın ləğvində, qadınların ictimai həyata cəlb olunmasında mədəni-maarif müəssisələri mühüm rol oynayırdı. XX əsrin 30-cu illərinin sonlarında Azərbaycanda 1389 kitabxana, 1633 klub fəaliyyət göstərirdi. Azərbaycanın sərvətlərindən daha çox faydalanmaq üçün mərkəz Respublikanın elmi gücünü artırmağa və ondan səmərəli istifadə etməyə çalışırdı. Bu məqsədlə 1923-cü ildə «Azərbaycanı Öyrənən Cəmiyyət» yaradılmışdı. 1929-cu ildə həmin cəmiyyət «Dövlət Elmi Tədqiqat İnstitutu»na çevrildi. Onun təbiət elmləri, humanitar elmlər və s. üzrə bölmələri var idi. 1932-ci ildə bu institutun əsasında SSRİ Elmlər Akademiyası Cənubi Qafqaz Filialının Azərbaycan Şöbəsi təşkil edildi. 1935-ci ildə bu şöbə SSRİ EA Azərbaycan filialına çevrildi.

Kommunist ideologiyasının təbliğində kütləvi informasiya vasitələri mühüm rol oynayırdı. 20-30-cu illərdə Respublikada «Kommunist», «Bakinski raboçi» qəzetləri ilə yanaşı, yeni nəşr edilən bir sıra qəzet və jurnallar, o cümlədən «Yeni yol», «Gənc işçi», «Vışka», «Müəllim qəzeti», «Ədəbiyyat», «Azərbaycan pioneri» qəzetləri, «Molla Nəsirəddin», «Maarif və mədəniyyət», «Şərq qadını» kimi jurnallar nəşr edilirdi.

1924-cü ildə Bakıda ilk radio qurğusu quraşdırılmışdı. 1926-cı ildən isə radiostansiya fəaliyyətə başladı. Sonra bütün Respublika sürətlə radiolaşdırıldı.

XX əsrin 20-30-cu illərdə Azərbaycan ədəbiyyatı xeyli inkişaf etdi. 30-cu illərin ortalarınadək ədəbiyyat cəbhəsində aparıcı mövqe inqilabdan əvvəlki qələm sahiblərinin – Əhməd Cavadın, Hüseyn Cavidin, Cəlil Məmmədquluzadənin, Süleyman Sani Axundovun, Cəfər Cabbarlının, Yusif Vəzir Çəmənzəminlinin, Əbdürrəhimbəy Haqverdiyevin, Seyid Hüseynin, Məmməd Səid Ordubadinin və digər şair və yazıçıların əllərində idi. Onlar 1925-ci ildə Bakıda təşkil olunmuş «Ədəbiyyat cəmiyyəti»ndə birləşmişdilər.

XX yüzilliyin 30-cu illərinin ikinci yarısından başlayaraq bolşeviklərin həyata keçirdiyi qanlı terror nəticəsində H.Cavidin, Ə.Cavidin, Y.V.Çəmənzəminlinin, M.Müşfiqin, A.M.Şərifzadənin, Ü.Rəcəbin və başqalarının edam edilməsi ədəbiyyat və incəsənətimizin inkişafına ağır zərbə vurdu.

Keçən əsrin 20-30-cu illərində bolşeviklər öz hakimiyyətlərini qoruyub saxlamaq və möhkəmləndirmək üçün ilk növbədə insanların şüurlarını kommunist ideologiyasına uyğun olaraq formalaşdırmağa çalışırdılar. Bunun üçün «mədəni inqilab» siyasəti həyata keçirildi. Onun tərkib hissələrindən biri də dinə qarşı mübarizə və ateizmin təbliği idi, çünki yüz illər boyu adamların beyninə və qəlbinə hopmuş dini dəyərlər bolşeviklərə öz məqsədlərini həyata keçirməkdə mane olurdu. 1920-ci ilin mayında məktəblərdə dini etiqadların təlimi və ayinlərin icrası qadağan edildi. Dövlətin elan etdiyi vicdan azadlığı əslində kağız üzərində qaldı. 1924-cü ildə «Din əleyhinə komissiya» yaradıldı. Şəhər və kəndlərdə «Allahsızlar cəmiyyəti» təşkil edildi. 1929-cu ildən din əleyhinə hücum daha da gücləndi. Yüzlərlə məscid bağlandı, dağıdıldı və ya klublara, anbarlara çevrildi. Ziyarətgahlar yerlə-yeksan edildi. Dini mərasimlərin, bayramların keçirilməsi qadağan olundu. Hətta, dinlə heç bir əlaqəsi olmayan Novruz bayramı da 30-cu illərdə yasaqlandı. Sovet hökuməti xalqı öz soy-kökündən uzaqlaşdırmaq siyasəti yeridirdi. Bu illərdə «Rədd olsun tar!», «Rədd olsun kamança!» və s. şüarlar altında keçirilən «mədəni yürüş» və hücumlar milli-mənəvi dəyərlərə qarşı çevrilmişdi. Milli-mənəvi sərvətlər olan tar, kamança, saz kimi musiqi alətlərimiz, dastanlar keçmişin

qalığı kimi tənqid edildi. Xüsusən tara qarşı geniş kampaniya başlandı. Açıq diskussiya ilə «tarın məhkəməsi» keçirildi. Üzeyir Hacıbəyov, Qurban Pirimov, Mikayıl Müşfiq kimi dahi sənətkarların köməyi ilə tara bəraət qazandırıldı.

Bəhs etdiyimiz dövrdə Azərbaycanda əlifba dəyişdirildi, ərəb qrafikasından latın qrafikasına keçildi. 1929-cu ildə bu iş başa çatdırıldı. Lakin Türkiyə Respublikası da latın əlifbasına keçdiyi üçün Azərbaycanın Türkiyə ilə mənəvi əlaqələrinin inkişaf edəcəyindən xoflanan sovet imperiyasının rəhbərliyi 1939-cu ilin sonunda latın əlifbasını yenidən dəyişdirdi. 1940-cı ildən kiril qrafikalı əlifba tətbiq edildi. Bu, mərkəzin ruslaşdırma siyasətinin yeni təzahürü olmaqla yanaşı, Azərbaycan xalqını onun çoxəsrlik tarixini özündə əks etdirən zəngin mənbələrdən məhrum etmək qəsdi idi.

1915-ci il məlumatına görə Dağlıq Qarabağ ərazisində 3 min şagirdi, 79 müəllimi olan 49 ibtidai, bir orta məktəb qeydə alınmışdı. Məlum hadisələrlə bağlı bu məktəblər də, öz fəaliyyətini dayandırmışdı [26]. Azərbaycan hökumətinin Dağlıq Qarabağda təhsilin inkişafı üçün atdığı ilk addım 1920-ci ilin mayından qəza və dairə maarif şöbələri, Fövqəladə Komissiyalar yaratması olmuşdur. Həmçinin 1920-ci il mayın 12-də «Köhnə orta məktəb tiplərinin politexnik məktəblə əvəz etmək haqqında» dekret verildi. Din dövlətdən, məktəb məsciddən və kilsədən ayrıldı. Bütün məktəb binaları, mədəni-maarif müəssisələri milliləşdirildi. Lakin, bütün bu çətinlikləri aradan qaldırmaq və bölgədə təhsili inkişaf etdirmək məqsədilə 1920-ci ilin oktyabrında N.Nərimanov bir qrup partiya və dövlət xadimləri ilə birgə Şuşaya gəldi. N.Nərimanov Dağlıq Qarabağda Xalq Maarifinin təşkil olunması sahəsində qarşıda duran vəzifələrin həyata keçirilməsi yollarını göstərmişdir. Dağlıq Qarabağda maarif işini qurmaq üçün Bakı Şəhər Baş Siyasi Maarif İdarəsi S.S.Axundovu həmin bölgəyə ezam etdi, eyni zamanda Azərbaycan Xalq Maarif Komissarlığı xətti ilə Dağlıq Qarabağa 96 nəfər nümayəndə, kitab. dəftər, dərs vəsaitləri, paltar ayaqqabı göndərildi. Bu nümayəndələrin köməyi ilə təşviqatçı qruplar yaradıldı və savadsızlığı ləğv etmək üçün yeni məktəblərin

yaradılması işinə başlandı. 1921-1922-ci illərdə təşviqatçı qruplar Dağlıq Qarabağda 22 yığıncaq keçirmişdir ki, buraya 715 dinləyici cəlb edilmişdir [27].

XX yüzilliyin 20-ci illərində Azərbaycanın Dağlıq Qarabağ bölgəsində, o cümlədən Şuşa ərazisində təhsilin inkişafına maneə olan bir sıra çətinliklər üzə çıxdı. İlk növbədə Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları davam edir, günahsız azərbaycanlıların qanı axıdılırdı. Müxtəlif peşə sahibli kadrlara böyük ehtiyac var idi. Məktəb binaları çatışmırdı, vəsait isə yox dərəcəsində idi.

Araşdırmalardan məlum olur ki, Şuşa sakinləri özləri yeni məktəb yaratmaq və savadsızlığı ləğv etməyi qarşılarına məqsəd qoymuşdular. Bu məqsədlə, ərizələrlə Bakıya müraciətlər daxil olurdu. 1921-ci ildə mərkəzə daxil olan həmin ərizələrdən birindən oxuyuruq: «Kəndlilər məktəblərin və başqa mədəni müəssisələrin açılmasını səbirsizliklə gözləyirlər. Hər bir kənd, məktəblər üçün bina düzəltməyə, partalar hazırlamağa, müəllimləri taxıl və başqa ərzaq məhsulları ilə təmin etməyə hazır olduqlarını bildirirlər» [29].

Azərbaycanın Şuşa bölgəsində məktəblərin ixtisaslı kadrlara olan ehtiyacını ödəmək üçün 1921-1922-ci illərdə Şuşada pedaqoji məktəb, Şuşada pedaqoji texnikum, Xocavənddə pedaqoji fəhlə fakültəsi açıldı. 1923-cü ildə Xankəndində sovet-partiya işçiləri hazırlayan xüsusi məktəb fəaliyyətə başladı. Məktəblərin şəbəkəsi xeyli genişləndi [30]. Artıq 1922/1923-cü tədris ilində Şuşa ərazisində 580 şagirdi, 25 müəllimi özündə birləşdirən 8 məktəb fəaliyyət göstərirdi [32]. 1923-cü il iyulun 21-də Dağlıq Qarabağda Qaragözovun sədrliyi altında məktəb quruculuğunu genişləndirmək savadsızlıqla mübarizə üçün Xüsusi Komitə yaradıldı. 1923-1925-ci illərdə Şuşanın bütün kəndlərində savadsızlığı ləğv etmək üçün kurslar təşkil edildi. Azərbaycan hökuməti Şuşada təhsilin inkişafı üçün 1923-cü ildə 25 min manat vəsait ayırdı. Apardığımız tədqiqatlardan məlum olur ki, bu rəqəm qonşu Xankəndinə ayrılan vəsaitdən təxminən 2 dəfə az idi. Ayrılan vəsait hesabına Şuşada yeni məktəb açıldı.

Bundan əlavə, 1923-cü ildə Şuşada 1 savad kursu təşkil olunmuşdur ki, onun 25 nəfər üzvü var idi [33].

1924-cü ilin aprelin 15-də Şuşada maarif işçilərinin konfransı keçirildi. Konfransda qəbul edilmiş qərarla Şuşada «Savadsızlığı ləğv etmək mərkəzi» yaradıldı. 1924-cü ildə 10, 1925-ci ildə 13 savadsızlığı ləğv edən məntəqə yaradılmışdı [34].

1925-ci il mayın 25-də Bakıda Ümumazərbaycan müəllimlərin qurultayı oldu. Qurultayda xalq maarifinin inkişaf etdirilməsi sahəsində həyata keçirilmiş tədbirlərə bir növ yekun vurularaq Dağlıq Qarabağda məktəblərin şəbəkəsinin genişləndirilməsi, onun tədris bazasının yaradılması və getdikcə möhkəmləndirilməsi, ixtisaslı müəllim kadrları ilə təchiz olunması barədə qərar qəbul olundu [35].

Azərbaycan hökuməti bütün DQMV ərazisində, o cümlədən Şuşa ərazisində təhsilin inkişafını həmişə diqqət mərkəzində saxlayırdı. 1920-1930-cu illərdəki faktlar bir daha deyilənləri sübut edir. Belə ki, 1925-ci ildə Azərbaycan hökuməti Şuşada xalq maarifinə 2100 manat, 1926-cı ildə 1650 manat, 1927-ci ildə 7000 manat vəsait ayırdı. Bu qonşu Xankəndinə, Hadruda, Xocavəndə, Ağdərəyə ayrılan vəsaitdən 2 dəfə az idi. 1921-1926-cı illər ərzində Şuşada sahibkarlardan, varlılardan müsadirə edilmiş binalar məktəblərin istifadəsinə verildi [36]. Keçmiş ziyalı kadrlar məktəb quruculuğu işlərinə cəlb edildilər. Bütün bu və ya digər tədbirlər Şuşada təhsilin inkişafına təkan verdi.

Şuşada ümumtəhsil məktəblərin inkişafına Azərbaycan hökuməti tərəfindən göstərilən xüsusi diqqət nəticəsində burada məktəblərin şəbəkəsi genişləndi və təhsil alan şagirdlərin sayı artdı. Belə ki, 1923-cü ildən 1928-ci ilə qədər Şuşa ərazisində 2 yeni məktəb tikilib istifadəyə verilmişdi. Beləliklə, 1927/1928-ci tədris ilində Şuşa ərazisində məktəblərin sayı 11-ə çatdı. 1922/1923-cü illə müqayisədə, bəhs olunan ildə şagirdlərin sayı 2,5 dəfə, müəllimlərin sayı 60 faiz artmışdır. 1927/1928-ci tədris ilində Şuşanın məktəblərində 1486 şagird, 40 müəllim var idi [37]. Təkcə 1930/1931-ci tədris ilində Şuşanın Daşaltı, Turşsu, Malıbəyli kəndlərində yeni məktəb binaları tikilib istifadəyə verilmişdir [38].

Keçən əsrin 20-30-cu illərində Şuşada mədəni-maarif quruculuq işləri çox çətin bir şəraitdə davam etməkdə idi. Ziyalıların, xüsusilə müəllimlərin müəyyən bir hissəsi öz milli baxışlarından, adət və ənənələrindən uzaqlaşa bilmirdilər. Bir çox müəllimlər yeni cəmiyyətin sinfi mahiyyətini, onun gələcəyini kifayət dərəcədə başa düşmürdülər. Bütün bunlarla yanaşı beynəlmiləlçilik şüarı altında Azərbaycan məktəblərinə, digər tədris ocaqlarına laqeyd münasibətlər müəllimlərin fəaliyyətinə ciddi təsir edirdi. Bütün bunlarla yanaşı Azərbaycanda baş verən inzibati amirlik sistemi, milli zəmindən uzaqlaşa bilməyən, elmin siyasətə çevrilməsinə uyuşmayan müəllimlərə qarşı aparılan axtarışlar, təqiblər, həbslər, sürgünlər respublikanın hər yerində olduğu kimi, Şuşada da, məktəb quruculuğu işlərinə mane olurdu. Bütün bunlarla yanaşı ərazidə erməni, rus millətçiliyi, yerli idarə orqanlarında çalışan erməni mütəxəssislərinin şovinist siyasətləri, sovet rejiminə «sədaqətlə qulluq edən adamların» böhtançı tədbirləri məktəb quruculuğu işlərinə, mədəni-maarif müəssisələrinin fəaliyyətinə ciddi maneə olurdu. Şuşanın partiya, sovet orqanlarında, mədəni-maarif müəssisələrində çalışan erməni, rus mütəxəssisləri proletar beynəlmiləlçiliyi şüarı altında azərbaycanlı mütəxəssislərinə qarşı gizli mübarizə aparırdılar. Bu «nəzəriyyə» ayrı-ayrı sovet orqanlarında çalışan bir qrup adamlarda, o cümlədən Dağlıq Qarabağda təhsil işlərinə bilavasitə rəhbərlik edən Ter Karapetov, Zaropyan, Baqdatiyan, Babayan, Arustamova, Baqdasarova və başqaları «Azərbaycan dilində təhsilin gələcəyinin olmadığı» iddiası ilə gördükləri tədbirlər Şuşada tədris işlərinə böyük zərbə vururdu [40]. Təəssüflər olsun ki, bu proses bütün XX yüzillik boyu davam etmişdir.

Faktlara və materiallara əsaslanaraq apardığımız araşdırmalar nəticəsində məlum olur ki, Dağlıq Qarabağ ərazisində ayrılan vəsaitin böyük hissəsi erməni icmasının daha çox cəmləşdiyi kəndlərə istiqamətləndirdi. Bu məqsədlə müxtəlif vaxtlarda azərbaycanlılar yaşayan kəndlərə ayrılan vəsait ermənilər yaşayan kəndlərə ayrılan vəsaitdən 2-3 dəfə az olması

təsdiq edilmişdir [41]. Dağlıq Qarabağda azərbaycanlılara qarşı bu cür ögey münasibət sonrakı dövrlərdə də davam etmişdi.

Birinci və ikinci beşilliklər dövründə Şuşa rayonunda məktəb tikintisinə xüsusi diqqət yetirilmişdir. 1927/1928-ci tədris ilindən 1940/1941-ci tədris ilinədək Şuşa rayonunda 4 məktəb binası tikilib istifadəyə verilmişdi [43].

İkinci Dünya müharibəsi illərində Azərbaycanın mədəniyyəti də hərbin tələblərinə uyğun inkişaf etməyə başladı. Mədəniyyət xidmətləri bütün qüvvələrini qələbə naminə xalqın mənəvi cəhətdən səfərbər edilməsinə yönəltdi. Minlərlə maarif işçisi cəbhəyə göndərildi. Bu, mədəniyyətə və təhsilə olduqca mənfi təsir göstərsə də, iş dayandırılmadı. Təhsil işçiləri böyüməkdə olan nəsli yüksək vətənpərvərlik və vətəndaşlıq ruhunda tərbiyə edirdilər. Bunun nəticəsi idi ki, orta məktəbi bitirən yüzlərlə yeniyetmə gənc könüllü cəbhəyə getmək üçün hərbi komissarlıqlara müraciət edirdilər. Azərbaycanın elm xadimləri öz bacarıqlarını ümumxalq işinə – qələbəyə sərf etmək üçün var gücləri ilə çalışırdılar. Alimlər hərbi sifarişləri vaxtında yerinə yetirmək üçün gecə-gündüz çalışırdılar. Görkəmli kimyaçı alim Yusif Məmmədəliyevin rəhbərliyi ilə aviasiya üçün yüksək oktanlı benzin istehsalının yeni texnologiyası hazırlandı. Geoloqlar – Mirəli Qaşqay, Şamil Əzizbəyov və başqaları yeni strateji xammal yataqları kəşf etdilər. Məşhur cərrah Mustafa Topçubaşov hərbi cərrahiyyədə yeni müalicə metodları hazırlayaraq minlərlə əsgəri ölümdən xilas etdi. Bu vaxt Respublikada 70 hərbi qospital yaralılara xidmət göstərirdi.

İctimai elmlər sahəsində çalışan alimlər xalqın tarixi keçmişindən, qəhrəmanlığından bəhs edən əsərlər yaradırdılar. 1943-cü ildə Heydər Hüseynov və Məmməd Arif Dadaşzadənin redaktəsi ilə «Azərbaycan ədəbiyyatının qısa tarixi» nəşr edildi. 1945-ci ilin martında Azərbaycan SSR Elmlər Akademiyasının yaradılması Respublikanın mədəni həyatında mühüm hadisə oldu. Ədəbiyyatımızda müharibə mövzusu aparıcı istiqamətə çevrildi. Azərbaycan ədəbiyyatı xalqın coşqun qəzəb və həyəcanını düşmənin məhv edilməsinə yönəldirdi. Səməd Vurğunun «Şəfqət bacısı», «Qızıl şahinlər», «Ananın öyüdü»,

«Qəhrəmanın hünəri», Süleyman Rüstəmin «Ana və poçtalyon», Məmməd Rahimin «Müqəddəs kədər», Rəsul Rzanın «Sevgi», «Əsgər anasının sözləri», Nigar Rəfibəylinin «Get sevgilim, uğur olsun!», Osman Sarıvəllinin «Gətir oğlum, gətir!», Əhməd Cəmilin «Can nənə, bir nağıl de», Mirvarid Dilbazinin «Krım», «Sevinc» və digər əsərlər bu baxımdan daha təsirli idi. Əhməd Cəmilin «Can nənə, bir nağıl de» şeri müharibə dövrünün ən gözəl əsərlərindəndir. Burada yüksək vətənpərvərlik və insanpərvərlik hissləri tərənnüm olunur.

Səməd Vurğun Azərbaycan döyüşçülərinin müharibədəki qəhrəmanlığını bəşəriyyətin xilas edilməsi uğrunda aparılan mübarizə kimi qiymətləndirir. Polşa qəbiristanlıqlarından birində baş daşına yazılmış İslam adı, şairi «İslam» balladasını yazmağa vadar edir. Müharibə dövründə döyüşçü və partizanlarımızın şücaətlərini təsvir edən onlarla oçerk, hekayə, povest, pyes və sair yazılmışdır. Əbdülhəsənin «Görüş yeri», Mir Cəlalın «Anaların üsyanı», «Şərbət», «Qardaş qanı», Rəsul Rzanın «Leytenant Bayramın gündəliyi» hekayələrində, Mehdi Hüseynin «Vətən çiçəkləri», «Fəryad» povestlərində döyüşçülərimizin igid obrazı yaradılmışdır. Müharibə illərində Azərbaycan dramaturgiyası Səməd Vurğunun «Fərhad və Şirin», Mehdi Hüseynin «Nizami» kimi əsərləri ilə zənginləşdi. Azərbaycan bəstəkarları müharibə dövründə onlarla yeni marş, simfoniya, mahnı, opera və s. yaratdılar. Üzeyir Hacıbəyovun «Şəfqət bacısı», «Qələbə himni», Səid Rüstəmovun «Cəbhəyə», Süleyman Ələsgərovun «Gözlə məni» mahnıları dillər əzbəri oldu. Gənc bəstəkarlar Qara Qarayev və Cövdət Hacıyevin «Vətən» operası musiqi aləmində mühüm hadisə idi. Cəbhəyə xidmət üçün konsert briqadaları yaradıldı. Ümumiyyətlə, Azərbaycan artistləri hərbi hissələrdə 35 min konsert vermişdilər. Azərbaycan kinomatoqrafçıları «Vətən oğlu», «Bəxtiyar», «T-9 sualtı gəmisi» filmlərini çəkmişdilər.

1940/1941-ci tədris ilində Azərbaycanda 654902 şagirdi, 22016 müəllimi birləşdirən 3575 məktəb fəaliyyət göstərirdi ki, bundan 196 məktəb 40766 şagird, 1696 müəllim DQMV-nin, 196 məktəb, 30453 şagird, 1039 müəllim Naxçıvan MSSR-nin

payına düşürdü. Maraqlı cəhət ondan ibarətdir ki, aparılan tədqiqatlar nəticəsində məlum olur ki, DQMV-i əhalinin sayı ilə müqayisədə məktəblərin və müəllimlərin sayına görə Azərbaycanda birinci yerdə dayanmışdır. Məsələn, Ümumrespublika səviyyəsində hər məktəbə 6,1 müəllim düşürdüsə, bu göstərici Naxçıvan MSSR-də 5,3-ə, DQMV-də isə 8,6-ya bərabər idi. Eyni zamanda, Respublikamızda hər müəllimə 29 şagird düşürdüsə, Azərbaycanın DQMV-də hər müəllimə 24 şagird düşürdü [51]. Axırıncı göstərici Naxçıvan MSSR-da ümumrespublika səviyyəsi ilə eyni idi (29 şagird). Bütün bunlar Azərbaycan hökumətinin DQMV-nə göstərdiyi dərin qayğının nəticəsi idi və sözsüz ki, bütün bunlar əhalinin lazımınca savadlanmasına öz müsbət təsirini göstərirdi.

Qeyd edək ki, 1935-ci ildə məktəblərin strukturu dəyişdirildi, ibtidai, natamam orta və orta məktəblər açıldı [53]. 1940/1941-ci tədris ilində DQMV-də 45 ibtidai, 116 natamam orta (yeddi illik), 35 orta məktəb fəaliyyət göstərirdi ki, bundan Şuşa rayonunun payına 4 ibtidai, 7 natamam orta, 4 orta məktəb düşürdü. Bu vaxt Naxçıvan MSSR-da isə 87 ibtidai, 74 natamam orta, 35 orta məktəb var idi. Yeddiillik məktəblər 1924-cü ildə fəhlələr üçün, 1926-cı ildə isə kəndli-gənclər üçün açılmışdı. 1940/1941-ci ildə Bakı şəhərində cəmi 64 natamam orta (yeddiillik) məktəb var idi [57]. Aparılan hesablamalara görə 1926-cı ildə Şuşa əhalisinin 26 faizi, 1933-cü ildə 52 faizi oxuyub yazmağı bacarırdı. 1939-cu ildə isə 10 yaşdan yuxarı olan hər 1000 nəfərdən 113-ün tam və natamam orta təhsili vardı. 1939-cu ildə aparılan siyahıyaalınmaya görə Şuşa rayonunda 9 yaşından 49 yaşınadək olan adamlar arasında savadlıların sayı – 80 faizə çatmışdır. 1940-1941-ci dərs ilində DQMV-də 6 texnikum var idi. Həmin texnikumlarda 818 nəfər tələbə təhsil alırdı. Bütün məktəblərdə rus dilinin tədrisinə xüsusi diqqət yetirilirdi. 1940-cı ildən başlayaraq məktəblərdə xarici dil tədris edilməyə başlandı [62].

1920-ci ilin aprel çevrilişindən sonra Azərbaycan hökuməti Dağlıq Qarabağda o cümlədən Şuşada xalq maarifi işini daha da yaxşılaşdırmaq, kütlələrlə aparılan ideya siyasi tərbiyə işinin

səviyyəsini yüksəltmək, mədəni-maarif ocaqlarının təşkili və onların şəbəkəsinin genişləndirilməsi kimi çox mühüm vəzifələr müəyyənləşdirdi. Bu işlərin həyata keçirilməsi üçün xalqın şüurunun yüksəldilməsi lazım idi. Bu işdə mədəni-maarif ocaqlarının kitabxanalar, klublar, qiraət komaları, siyasi savad kursları, savadsızlığı və azsavadlılığı ləğv etmək məktəbləri qarşısında vəzifələr qoyuldu. Həmin vəzifələr Azərbaycan KP-nin 24 may 1920-ci il tarixli «Azərbaycan KP rayon komitəsinin mədəni-maarif işi üzrə təlimatı»nda öz əksini tapmışdı [69].

1920-ci illərdə Dağlıq Qarabağda kitabxana və qiraətxanaların açılması üçün xüsusi diqqət yetirilmişdir. Əgər 1920-ci ildə Dağlıq Qarabağda 2 kitabxana var idisə, artıq 1924-cü ildə burada 4 kitabxana və 5 qiraət koması, 1 qırmızı guşə təşkil edilmişdir [71]. 1924-cü ilin sonlarında Azərbaycan hökumətinin ayrıldığı xüsusi vəsait hesabına Şuşa və Xankəndi şəhərlərində Mərkəzi Kitabxana açılmış və fəaliyyətlərinin ilk illərində hər birinin fonduna 2000 nüsxə (müxtəlif dillərdə) ədəbiyyat toplanmışdır. Çətin şəraitə baxmayaraq, Azərbaycan hökuməti DQMV-də kitabxana və qiraətxanaların açılmasına xüsusi diqqət vermiş, artıq 1926-cı ildə ərazidə 13 kitabxana və qiraət koması fəaliyyət göstərirdi. Onların fondunda 9848-i ədəbiyyata dair idi ki, bunlardan 1595 nüsxə Azərbaycan dilində, 2053 nüsxə ermənicə, 6200 nüsxə isə rus dilində olmuşdur. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, kitabxanaların rəhbərlərinin hamısı milliyyətcə erməni olduqlarından, onlar Respublika nəşriyyatlarından və Baş Siyasi Maarif idarəsindən erməni dilində ədəbiyyat istəyir, Azərbaycan dilində ədəbiyyata isə etinasız yanaşırdılar. Tədqiqatlardan məlum olur ki, 1926-cı ildə Şuşa ərazisində 1 kitabxana və qiraət koması mövcud olmuşdur. Bu kitabxana və qiraət komalarında 2000 kitab fondu var idi. Mövcud kitabların 30 faizi Azərbaycan dilində, 70 faizi isə rus və erməni dilində idi [75].

XX yüzilliyin 30-cu illərində Şuşada klub kitabxanalarının yaradılması da geniş vüsət almışdı. Bunların əksəriyyəti Azərbaycan Həmkarlar Təşkilatının vəsaiti hesabına açılmışdı. 1933-cü ildə Şuşa şəhərində Malıbəylidə kənd, kolxoz, klub

kitabxanaları qiraətxanalar, qadınların klub kitabxanaları fəaliyyət göstərirdi. 1933-cü ildə Xankəndində 2 yeni klub kitabxanası, 2 qiraətxana açılmış, Şuşa kitabxanasında rus şöbəsi yaradılmışdır. 1935-ci ildə Azərbaycan hökuməti tərəfindən Vilayət kitabxanalarının maddi texniki bazasına 233.632 manat vəsait ayrılmışdır. Bundan yalnız 2700 manatı Şuşa Pedaqoji Texnikumuna sərf edilmiş, qalanları Vilayətin ermənilərin daha çox cəmləşdiyi kəndlərə istiqamətləndirilmişdir. 1938-ci ildə Şuşada Mərkəzi Uşaq Kitabxanası açıldı. Həmin kitabxanaya 130 uşaq cəlb olunmuşdu.

Azərbaycan hökumətinin gördüyü tədbirlər nəticəsində artıq 1941-ci ilin əvvəllərində vilayətdə 66 müstəqil kitabxana fəaliyyət göstərirdi ki, bundan 5-i Şuşa rayonunun payına düşürdü. Dağlıq Qarabağdakı bu kitabxanaların fondunun ümumi həcmi 54000 nüsxəyə çatmışdır. Şuşa rayonunun kitabxanalarında isə beş min kitab var idi. Bu zəngin mədəni irsdən isə əhalinin savadlı hissəsinin əksəriyyəti səmərəli istifadə edirdi. Mədəni-maarif müəssisələrinin geniş və etibarlı şəbəkəsi yaradılaraq inkişaf etdirilməsi Şuşa rayonunda yaşayanlar üçün böyük əhəmiyyətə malik oldu. Bu proses Şuşa rayonunda savadsızlığın ləğvi üçün böyük əhəmiyyət kəsb etdi [90].

Şuşa rayonunda 30-cu illərdə yaradılmış mədəni-maarif müəssisələrindən biri də klublar olmuşdur. 1933-cü ildə Xanalı, Xəlfəli, Daşaltı, Köhnəkənd kəndlərində klublar fəaliyyət göstərməyə başladı. 1940-cı ildə Şuşa rayonunda klubların sayı artaraq 8-ə çatdı [89]. Bəhs olunan dövrdə rayonda yaradılmış mədəni-maarif müəssisələri ermənilər tərəfindən əhalinin milli və sosial tərkibi nəzərə alınmaqla təşkil edilirdi.

Şuşa rayonunda mədəni-maarif ocaqlarının sayı artdıqca əhalinin kitaba və şəxsi təhsilə olan marağı da artır, savadsızlıq aradan qaldırılırdı.

ARPİİSSA-də saxlanılan sənədlərdə göstərilir ki, tərkibi ermənilərdən ibarət olan AK(b)P Azərbaycanda din əleyhinə mübarizədə xüsusi rol oynamışdı. 1924-cü il yanvarın 8-də AK(b)P Siyasi Bürosunun iclasında “Din əleyhinə komissiya” yaradıldı. Bu komissiyanın tərkibinə Çakin, İ.Kasparov və

R.Axundov daxil edilir. İslam dininə qarşı mübarizə altında Kirov-Mirzoyan kampaniyası Azərbaycanı və onun müsəlman əhalisini simasızlaşdırmaq siyasəti yeridirdi. Onlar 1924-cü ildə Bakıda "Allahsızlar cəmiyyəti" yaratdılar və islam əleyhinə böhtanlara başladılar. Onlar təkcə din və dini ayinlərə qarşı deyil milli adət-ənənələrə qarşı da çıxırdılar. İyirminci illərdə Şuşada çadraya, yaşamağa, papağa qarşı geniş kompaniya aparılırdı. Bəhs olunan dövrdə Şuşada milli adət-ənənələrə qarşı da mübarizə aparılırdı. Məhərrəmliyə, orucluğa, qurban bayramına, bahar bayramı olan Novruz bayramına qarşı kompaniyaya başlandı və hətta, bu işlərə dövlət səviyyəsində qadağalar qoyuldu. İyirminci illərdə təkcə din və onun ayinlərinə qarşı deyil, eyni zamanda dini idarələr (Məscidlər) mədəni-məişət obyektinə çevrildi, din xadimləri repressiyalara məruz qaldı [f.1, s.1, i.138, v.1-2].

1920-1930-cu illərdə Şuşa rayonunda hüquqsuz və avamlıq simvolu hesab olunan çadraya qarşı mübarizə kəskin xarakter aldı. Xüsusilə Şuşanın azərbaycanlılardan ibarət olan qədim yaşayış məskənlərində çadraya qarşı mübarizə böyük kompaniyaya çevrildi.

1929-cu ildə bütövlükdə Şuşada 900 nəfərdən çox qadın öz çadranı atmağa məcbur edilmişlər. Çadraya qarşı mübarizə ilə yanaşı qadınların ictimai işlərə cəlb olunması üçün də tədbirlər görüldü. 1937-ci ildə Şuşa rayonunda 40 nəfər qadın kənd sovetlərinə rayon, şəhər icraiyyə komitələrinə, komsomol və həmkarlar təşkilatlarına işə cəlb olunmuşlar. Şuşada fəaliyyət göstərən 3 uşaq bağçaları, körpələr evinə gənc qadınlar başçılıq edirdilər [90]. Şuşa ərazisində 1915-ci ildə məktəblərdə təhsil alan qızların sayı 40 nəfər idisə, 1937-ci ildə oxuyan qızların sayı 140 nəfərə çatdı. 1940-cı ildə olan məlumata görə Şuşa rayonunda fəaliyyət göstərən ziyalıların 3 faizini qadınlar təşkil edirdi. Bunların bir hissəsi müəllim, tibb işçisi, partiya və sovet orqanlarında çalışan qadınlardan ibarət idi. Sənayedə çalışan işçilərin 6 faizini, toxuculuq müəssisələrində çalışan işçilərin üçdə iki hissəsini qadınlar təşkil edirdi. 1937-ci ildə Şuşa rayonunda 18 nəfər tibb işçisi qadın idi [91].

1930-cu illərdə Şuşa rayonunda, uşaq evləri və uşaq bağçalarından ibarət tərbiyə ocaqlarının təşkili və inkişafı sayəsində də xeyli irəliləyiş baş verdi. Beləliklə, 1940-cı ildə Şuşa rayonunda 12 tərbiyəçini, 165 uşağı birləşdirən 3 uşaq bağçası, 180 uşağa malik 4 körpələr evi fəaliyyət göstərirdi [92].

Siyasi, mədəni-maarif işində qiraət komalarının rolu böyük idi. Birinci beşilliyin əvvəllərində Şuşada 30 qiraət komaları qeydə alınmışdır. Qiraət komaları Şuşanın ayrı-ayrı kəndlərində 100-150 nəfərə xidmət edirdi. 1930-1940-cı illərdə Şuşa rayonunda qiraət komalarının sayı təxminən iki dəfədən çox artmışdır. 1939-cu ildə Şuşa rayonu kolxozlarının 60 faizində qiraət komaları var idi [93].

İyirminci illərin ikinci yarısında Şuşa rayonunda kənd təsərrüfatının sosialistcəsinə yenidən qurulması dinə qarşı mübarizə ilə müşahidə olunurdu. 1929-cu il aprelin 9-da Azərbaycan K(b)P MK-nın plenumu kənddə «Allahsızlar cəmiyyəti»nin işini gücləndirmək, dinə qarşı mübarizə, çadranın və papağın atılması ilə bağlı məsələləri müzakirə etdi. Plenumun qəbul etdiyi qərarda göstərilirdi ki, türk kəndlilərinin «Allahsızlar cəmiyyəti»ndə iştirak etməməsi ən böyük nöqsandır, təxirə salınmadan qabaqcıl ictimaiyyətçilərdən, kolxozçu və komsomolçulardan ibarət cəmiyyətin kənddə özəyini yaratmaq lazımdır» [96].

Kənddə yaranan bu cəmiyyətlər sonralar «mübariz allahsızlar ittifaqına çevrildi». Hər yerdə belə təbliğ olundu ki, guya din sinfi düşmənin son və həm də ən güclü dayağıdır. Apardığımız araşdırmalardan məlum olur ki, iyirminci illərdə Şuşada yaradılmış "Allahsızlar Cəmiyyətinin xüsusi şöbəsi"nin üzvləri qeyri-azərbaycanlılar olmuşdu.

İyirminci illərin birinci yarısında olduğu kimi ikinci yarısında da Şuşada dinə, milli adət-ənənələrə, milli mərasimlərə və hətta milli musiqiyə qarşı mübarizə geniş xarakter aldı. Qadınlar arasında çadranın atılmasının planı müəyyən olunmuşdur [105].

Azərbaycan K(b)P MK-nın 1929-cu il aprelin 9-da keçirilən plenumu kənddə «Allahsızlar cəmiyyəti»nin fəaliyyətinin genişləndirilməsinə səbəb oldu. Həmin ilin may ayının 4-də

Xankəndində keçirilən Vilayət partiya komitəsinin iclasında, mayında Şuşada keçirilən partiya yığıncaqlarında qəbul olunan qərarlar rayonda dinə qarşı mübarizənin geniş vüsət almasına səbəb oldu. Rayonun kəndlərində partiya və komsomol təşkilatları yanında «xüsusi fəallar qrupu» təşkil edildi [107]. Maarif şöbəsi Şuşanın bütün ümumtəhsil məktəblərində ateizm təbliğatını gücləndirmək üçün xüsusi guşələr yaratdı. Eyni tədbir rayonun kütləvi kitabxanalarında, qiraət komalarında da yaradıldı. Beləliklə, kənddə sinfi mübarizə dinə qarşı mübarizə ilə birləşdirildi. Məscidlər kluba, kitabxanaya, anbarlara çevrildi. 1929-1931-ci illərə aid olan məlumatlara görə Şuşada 10 məscid, dini mərasimlər keçirilən evlər klublara və ya anbarlara çevrilmiş, bir çox dini abidələr, pirlər dağıdılmışdır. Şuşada məscidlərin zor ilə bağlanması azərbaycanlı əhalisinin güclü narazılığına səbəb oldu. Şuşanın Malıbəyli, Xəlfəli, Xanalı, Zarıslı, Turşsu, Qaybalı, Şırlan və digər kəndlərində məscidlərin bağlanmasına, dindarların təqib olunmasına qarşı güclü etirazlar baş verdi [109].

Şuşa rayonunda aparılan bolşevik təbliğatında dini ayinlər, milli bayramlara qarşı aparılan mübarizə xüsusi yer tuturdu. Xüsusilə Məhərrəmliyə, Oruclu günlərə, Novruz bayramına qarşı mübarizə geniş xarakter almışdı. Novruz bayramı keçirmək rayonda yaşayan azərbaycanlılara qadağan olmuşdur. Halbuki, Azərbaycanda Sovet hakimiyyətinin ilk illərində Azərbaycan SSR XKS-nin sədri N.Nərimanovun göstərişi ilə Əmək Komissarlığının, Respublika Həmkarlar Şurasının «Kommunist» qəzetinin 21 mart 1921-ci il tarixli sayında çap edilən qərarına əsasən, martın 21 və 22-də bütün müsəlman fəhlə və qulluqçuları bayram münasibətilə işdən azad edilmişdir. Lakin, sonra Novruz bayramı da, «əksinqilab» damğası ilə damğalandı. 1939-cu ildə respublikanın mərkəzi və yerli qəzetləri yazırdılar ki, «Novruz bayramı əksinqılab mahiyyəti daşıyır və ona qarşı geniş mübarizə aparılmalıdır» [109].

1920-1930-cu illərdə sovet hökuməti xalqı öz soy kökündən uzaqlaşdırmaq siyasəti yeridirdi. Bu illərdə «Rədd olsun tar», «Rədd olsun kamança», «Rədd olsun saz» şüarları altında

keçirilən «mədəni yürüş» və hücumlar milli-mənəvi dəyərlərimizə qarşı çevrilmişdi [114].

Bütün bu təzyiqlərə, zorakı tədbirlərə baxmayaraq, əhalinin əksəriyyəti öz dini əqidəsindən, milli adət-ənənələrindən dönmədilər. Xalq çox çətin və olduqca mürəkkəb şəraitdə öz milli, dini psixologiyasını qoruyub saxlaya bildi.

Beləliklə, görülən tədbirlər nəticəsində Şuşa rayonunda xalqımızın uzun əsrlər ərzində yaratdığı milli mənəvi dəyərlər - ilk növbədə mənəvi həyatda güclü təsirə malik islam dini ardıcıl surətdə sıxışdırılmaqla, minlərcə məscid və başqa müqəddəs ocaqlarımız dağıdıldı. Apardığımız tədqiqatlarından məlum olur ki, Şuşada vaxtilə 41 məscid olmuşdur ki, 1930-cu ildə bunlardan 10-u qalmışdı. Qədim və əhəmiyyətli kitablarımız, musiqi alətlərimiz, əlifbamız fanatizmin mənbəyi kimi damğalanaraq məhv edildi. Xalqımızın milli-mənəvi dəyərlərini öldürmək məqsədilə qədim adətlərimizin – Məhərrəmlik, Orucluq, Qurban bayramı, Novruz bayramı və sair keçirilməsi qadağan edildi. Bütün bu tədbirlər isə sovet imperiyasının Şuşada dayaqlarının daha da möhkəmləndirilməsinə ciddi təsir göstərdi [118]. Eyni zamanda, rayonda mədəni-maarif müəssisələrinin yaradılması əhalinin savadlanması, onların ümumtəhsil mədəni səviyyəsinin yüksəldilməsi üçün böyük əhəmiyyətə malik oldu.

Rus imperiyası Azərbaycanın elmi potensialını artırmaqla respublikanın sərvətlərindən daha çox bəhrələnmək və buna münasib ideoloji şərait yaratmaq üçün elmin gücündən səmərəli istifadə etməyə çalışırdı. Bu məqsədlə 1923-cü ildə Azərbaycan Geologiya Komitəsi yarandı ki, həmin ilin noyabrında Xankəndində Komitənin «Azərbaycanın tədqiqi cəmiyyəti»nin şöbəsi təsis edildi. Mərkəzin ciddi nəzarəti altında Azərbaycanın təbii sərvətlərinin, enerji ehtiyatlarının öyrənilməsi və istifadə olunması üzrə elmi-tədqiqat işləri sürətlə genişlənirdi. 1920-1940-cı illərdə Şuşada təbii sərvət və ehtiyatların öyrənilməsi məqsədilə ekspedisiya təşkil edilmişdir. Bu dövrdə Şuşanın kəndlərində bir sıra faydalı qazıntı yataqları aşkar edilmişdir.

Şuşa ərazisində taxılçılığın inkişafı üçün 1920-ci illərdə yeni sahələr ayrıldı və «Arandəni», «Şirvandəni» sortlarının

yetişdirilməsinə başlandı [121]. Əldə edilmiş sortlar yüksək məhsuldarlığına görə Azərbaycanın hər yerində yayıldı. 1925-ci ildən üzümçülüyün qədim diyarı olan Qarabağda üzümün yeni üsulla əkilməsinə başlandı. Əvvəllər böyük ağaclara dırmanan üzümün becərilməsi olduqca çətin idi. 1925-ci ildən alimlərimiz üzümü cərgə üsulu ilə əkməyə və ona cərgə ilə dirəklər basdırmağa başladılar. Bu isə üzümün aqrotexniki qaydada becərilməsini asanlaşdırdı və məhsuldarlığı artırdı.

Azərbaycanın qədim yaşayış məskəni olan Şuşa ərazisində qazıntı-tədqiqat işlərinə keçən əsrin 30-cu illərindən başlanmışdır. Azərbaycanın qədim tarixə malik Şuşa ərazisi memarlıq abidələri ilə zəngindir. Belə ki, Şuşa şəhərində Tunc dövrünə aid kurqan, daş qutu qəbir, Daşaltı çayının sol sahilində Şuşa maqara düşərgəsi, Qarabulaq kəndində dəmir dövrünə aid daş qutu nekropolu, Şuşa şəhərində qala divarları, 135 adda XVII-XIX əsrlərə aid tarixi abidələr keçmiş tariximizi özündə əks etdirən körpülər və digər qədim abidələr var [140]. Qeyd edək ki, Azərbaycanın yuxarıda adıgedən tarixi abidələri bu gün Ermənistan silahlı birləşmələri tərəfindən dağıdılmış və yandırılmışdır.

1920-1930-cu illərdə elmin inkişafı sahəsində bir sıra çətinliklər mövcud idi. Belə ki, tədqiqatlar aparmaq üçün müasir avadanlıq, hesablama texnikası, cihazlar çatışmırdı. Alimlərimizə xarici ədəbiyyatdan, arxivlərdən istifadə etmək, beynəlxalq aləmə çıxmaq qadağan edilmişdir. Həm də azərbaycanlıların açıq və ya gizli yolla mənəvi və cismani cəzalara məruz qaldığı bütün bu işləri aparmaq olduqca çətin idi.

Bütün yuxarıda göstərilən çətinliklərə baxmayaraq, Şuşa rayonunda elm, ədəbiyyat və incəsənət inkişaf edirdi. Ən əsası isə ərazinin bol təbii sərvətləri imperiyanın diqqətini daha çox cəlb edirdi. 1939-cu ildə aparılan tədqiqat işləri əsasən təsərrüfat sahələrini əhatə etmişdir. Belə ki, «Dənli bitkilərin toxumluğu və onun DQMV-nin rayonlarında əkilməsi üsulları», «Meyvə verən 3 növ tut ağacının biokimyəvi xüsusiyyətləri», «Kiçik Qafqaz sıra dağlarındakı yaylaqlar və onlardan səmərəli istifadə edilməsi üsulları», «Spirt çəkildikdən sonra tut tör-töküntülərindən mal-

qara üçün yem hazırlanması üsulları», «Silos bitkiləri və onların saxlanması üsulları» və s. Dağlıq Qarabağ alimləri tərəfindən araşdırılan əsas mövzular idi. XX yüzilliyin əvvəllərində A.S.Ginisburq dəstəsinin Kiçik Qafqazın o cümlədən Şuşanın faydalı qazıntılarını öyrənmək məqsədilə apardıqları tədqiqat işlərini F.Osvald davam etdirmiş, 1929-cu ildə S.G.Sarkisiyan, M.Əsgərov, A.Rakitin, A.Qavrilov, A.Solovkin və V.Barqanov tərəfindən axıra çatdırılmışdır. Tədqiqatlar nəticəsində Şuşa ərazisində qiymətli faydalı qazıntı yataqlarının olması aşkar edilmişdir [162]. 1931-ci ildə bu işə Q.Taffelhonsun dəstəsi də qoşulmuşdur. Azərbaycanın rayonlarının, o cümlədən Şuşanın potensial imkanlarını üzə çıxarıb ondan istifadə etməyi qarşısına məqsəd qoyan imperiya, ərazidə elmi-tədqiqat işlərinin aparılmasını sürətləndirir və daha çox mənfəət götürürdü. S.Daidbəyovun ekspedisiyası ilə Şuşanın hidro-energetika ehtiyatlarını öyrənilmiş, çayların axımını nəzərə alınaraq SES-lərin yaradılması imkanları aşkarlanmışdır.

Şuşa ərazisində heyvandarlığın inkişaf etdirilməsi üçün təbii yem bazasını, birinci növbədə yay otlaqlarının öyrənilməsi və yabanı çöl bitkilərdən təbabətdə istifadə edilməsi məqsədilə 1931-1940-cı illərdə L.Kreçetovun, İ.Neklepayevin, X.Pobedinanın tədqiqatlarının əhəmiyyəti böyük olmuşdur. Tədqiqatlar nəticəsində Şuşa ərazisində zəhərli, zərərli, əhəmiyyətli və dərman bitkiləri aşkar edilmişdir.

XX yüzilliyin 20-30-cu illərində DQMV-də musiqinin inkişafı üçün bir sıra tədbirlər həyata keçirildi. Belə ki, 1923-1924-cü ildə Şuşada musiqi məktəbi fəaliyyətə başladı. 1936-cı ildə xor dərnəyi yaradıldı.

Azərbaycanda milli mədəniyyətin inkişafında kino sənəti də mühüm rol oynamışdır. Kino sənəti vasitəsilə xalqın məişət və düşüncələrinə, həyat tərzinə təsir etmək, yeniləşdirmək, yeni sosialist məişət və mədəniyyəti yaratmaq məqsədi daşımağa başladı. Kino sənəti vasitəsilə milli mənlik şüurunun bütün istehkamlarını – din, şəriət, mövhumat, məscid, kilsə, çadra və sairəyə qarşı qəti hücuma keçmək şəraitindən istifadə olunurdu. 1940-cı

ildə Azərbaycanda 426 kino-qurğu var idi ki, bundan 22-si DQMV-nin 3-ü isə Şuşa rayonunun payına düşürdü.

Beləliklə, Rus imperiyası Şuşa rayonunun elmi potensialını artırmaqla, ərazinin bol sərvətlərindən daha çox bəhrələnmək və buna münasib ideoloji şərait yaradılmasına nail oldu. Onlar yeni cəmiyyətin ədalətli, demokratik, xəlqi və qanunauyğun proses olmasına inam yaratmaq məqsədilə elmin müxtəlif sahələrini birtərəfli inkişaf etdirdilər. Etiraz və azadfikirlilik amansızcasına boğularaq, xalqımız müstəqil dövlətçilikdən məhrum edilmiş, iqtisadiyyat, siyasət və ideologiya imperiyanın maraq dairəsinə uyğun qurularaq, ermənilərin əli ilə Dağlıq Qarabağda öz dayaqlarını daha da möhkəmləndirmişdilər.

XX əsrin iyirminci illərinin sonlarında Şuşa əhalisi Vilayətin radio verilişlərinə qulaq asmağa başladılar. 30-cu illərdə rayonda radiolaşdırma işləri əsasən başa çatdırıldı. Sovet rejiminin yarandığı ilk günlərdən başlayaraq kütlələri yeni imperiyanın siyasətə uyğun şəkildə tərbiyə olunmasına xüsusi diqqət verildi.

Xalq təsərrüfatının bərpasına keçid dövründə yenicə yaradılmış imperiyanın təbliğat «maşınları» işə salındı. Bu işdə mərkəzi qəzet və jurnallarla birlikdə yerli mətbuat orqanları geniş fəaliyyətə başladı. Azərbaycanda sinfi mübarizənin hələ də ən qızğın bir dövründə Dağlıq Qarabağda kütləvi qəzetlər təsis olundu. Belə ki, 1921-ci ilin aprel ayında «Qolos Karabax» (Qarabağın səsi) qəzeti, 1923-cü ilin iyun ayının 9-da Şuşada «Karabaxi İxucq» (Qarabağ kəndlisi) nəşrə başladı. Bu qəzet üçünü sayından sonra «Xoridani Karabax» (Şura Qarabağı) adı altında nəşr olundu. Həmin ilin avqust ayının 5-də Xankəndində nəşrə başlanan «Sovetakan Karabax» («Sovet Qarabağı») qəzetinin ilk nömrəsi çapdan çıxdı. 1930-cu ildə Şuşada və Xankəndində yeni mətbəə yaradıldı. Bu mətbəələrin bilavasitə gücü ilə Dağlıq Qarabağda nəşr olunan qəzetlərin sayı və həm də onların tirajı xeyli çoxaldı. Bununla belə qəzetlərin keyfiyyətində də xeyli müvəffəqiyyətlər qazanıldı. 1932-ci ildə Şuşada "Şuşa" qəzeti nəşr olunmağa başlandı. 1938-ci ildə həmin qəzet "Sosializm maldarlığı, 1963-cü ildən "Kolxoz bayrağı", 1966-cı

ildən "Şuşa kurortu" adı ilə çıxmışdır. Qəzetlərin təkcə sayında deyil, onların tirajlarında da xeyli artım müşahidə edilmişdir.

Sovet imperiyasının milli siyasətini təbliğ edən kütlələr arasında beynəlmiləlçilik bayrağı altında Marksist-Leninçi ideologiyasının təbliğ olunması işində mərkəzi və yerli mətbuat orqanları mühüm rol oynayırdı

Beləliklə, mədəni quruculuq sahəsində görülən tədbirləri yekunlaşdıraraq qeyd etməliyik ki, yenicə yaranmış dövlət, Şuşa rayonunda xalqın təhsil və mədəni səviyyəsinin yüksəldilməsində böyük işlər görmüşdür. Həmin irəliləyişlər yerinə yetirilərkən çətinliklərə, səhvlərə, bürokratiya və inzibati amirlik sisteminin bərqərar olmasına baxmayaraq, bütün nailiyyətlər xalqın zəhməti ilə əldə edilmişdir. Diqqəti cəlb edən mühüm məsələ ondan ibarətdir ki, 1920-1941-ci illər ərzində bölgədə yaşayan əhalinin savadsızlığı, əsasən həll edilərək, yeni təhsil sistemi yaradılmış, qadınlarımızın ictimai həyatda rolu artmış, elm, ədəbiyyat və incəsənət inkişaf etmişdir. Bəhs edilən dövrdə Şuşa rayonunda ciddi çətinliklər, səhvlər və əyintilər – milli musiqimizlə bağlı diskussiyalar, çadra, papağın atılması haqda dekretlər, xalqımızın dilinə, dininə, milli adət-ənənəsinə qarşı verilən dekretlər – mədəni inkişafa mənfi təsir göstərsə də inkişafı dayandıra bilmədi. Artıq 1941-ci ilin əvvəllərində rayonda təhsil, elm və mədəniyyəti öz inkişafının ən yüksək səviyyəsinə çatdı. Ana və uşaqlara qayğı, istirahət ocaqlarının, müalicə profilaktikası müəssisələrinin yaradılması, yüksək doğum, ölüm hallarının aşağı olması və başqa tədbirlər Şuşa rayonunda əhalinin çoxalmasına, onun məişət şəraitinin yaxşılaşmasına böyük təsir göstərdi. Dövlətimizin bölgəyə yaxından qayğısı nəticəsində rayonun kəndlərinin xarici görkəmi dəyişmiş, elektrik stansiyaları, məktəblər, xəstəxanalar, uşaq bağçaları, müalicə – profilaktika və başqa mədəni-məişət müəssisələri tikilib istifadəyə verilmişdir. 1920-1940-cı illər ərzində repressiya və zorakılıqlara əsaslanaraq, zəhmətkeşlərin yaradıcı əməyinin nəticəsi olaraq yeni bir cəmiyyət – totalitar bürokratik rejim yaradıldı.

Müharibədən sonrakı illərdə Sovet hökuməti kommunist ideologiyasının bütün ictimai şüur formaları – elm, ədəbiyyat, incəsənət, əxlaq, fəlsəfə, din və s. üzərində hakim mövqe tutması siyasətini davam etdirirdi. İnsanların beyninə sosializm cəmiyyətinin ədalətli, xalqın azadlıq və səadətini təmin edən, millətlər arasında qardaşlıq və dostluğun qarantı olması ideyası yeridilirdi. Bu ideyaların həyata keçirilməsində əsas rolu ümumtəhsil məktəbləri oynayırdı. 1945-ci ildə məktəblərdə buraxılış imtahanları müəyyən olundu. Ən yaxşı oxuyan şagirdlər üçün qızıl və gümüş medallar təsis edildi. Axşam və növbəli məktəblərin şəbəkəsi genişləndirildi. 1949-cu ildən məcburi, 1959-cu ildən isə icbari səkkizillik təhsil müəyyən edildi. Yuxarı sinif şagirdlərinə peşə öyrətmək üçün əmək təliminə geniş yol verildi. Lakin bunun üçün lazımi baza yox idi.

Bu illərdə təhsilin ruslaşdırılması istiqamətində ciddi işlər görüldü. Dövlət idarələrində işə rus dilini mükəmməl bilənlər irəli çəkildiyindən adamların rusca təhsil almaq meyli artdı. 1966-cı ildə məcburi on illik təhsilə keçildi. Texniki peşə məktəblərinin şəbəkəsi genişləndirildi. Ali təhsil sistemi də inkişaf etdirilirdi. 1945-ci ildə Bakıda Teatr İnstitutu, 1948-ci ildə Pedaqoji Xarici Dillər İnstitutu, 1950-ci ildə Politexnik İnstitutu, 1952-ci ildə isə Rus Dili və Ədəbiyyatı İnstitutu açıldı. 1969-cu ildən ali məktəblərin yanında fəhlə, kolxozçu və ordudan tərxis olunanlar üçün hazırlıq şöbələri yaradıldı.

Respublikada mədəni-maarif müəssisələrinin sayı da ilbəil çoxalırdı. Yüzlərlə yeni kitabxana və klublar təşkil edilir, kino qurğuları istifadəyə verilirdi. Mədəniyyət sarayları yaradılırdı. Muzeylər açılırdı. 1959-cu ildə Şuşada Ü.Hacıbəyovun, Xızıda C.Cabbarlının ev muzeyləri açıldı. İdeoloji təbliğat hər sahədə genişləndirilirdi. Tarixi hadisələrə başqa don geyindirilərək təhrif edilirdi. Dövlətin təntənə ilə keçirdiyi bayramlar var idi. «Oktyabr», «1 May», «Qızıl Ordu günü» və s. 1964-cü ildə Azərbaycanın Rusiya tərəfindən işğalının 150 illiyi bayram kimi qeyd edildi. «28 Aprel» - Azərbaycan Xalq Cümhuriyyətinin süqutu günü də bayrama çevrilmişdi.

Sovet imperiyası hərbi gücünü və beynəlxalq nüfuzunu artırmaq üçün alimlərin gücündən səmərəli istifadə etməyə çalışırdı. Azərbaycan SSR-in güclü elmi potensialı var idi. Bunları səfərbər etmək üçün Sovet hökuməti 23 yanvar 1945-ci il tarixli qərarı ilə Azərbaycan SSR-də Elmlər Akademiyasını yaratmağa icazə verdi. 16 nəfər Akademiyaya üzv seçildi. Ü.Hacıbəyov, S.Vurğun, M.İbrahimov, Mirsədulla Mirqasımov, M.Topçubaşov, Y.Məmmədəliyev və başqaları bunların sıralarında idi. Akademiyanın ilk prezidenti M.Mirqasımov oldu. Azərbaycanda neft geologiyasının əsası qoyulmuşdu. Bu dövrdə 300-dən çox yeni neft-qaz, faydalı qazıntı, tikinti materialları yataqları, çoxlu mineral su mənbələri aşkar edilmişdi.

İctimai elmlər sahəsində də böyük nailiyyətlər əldə edildi. Ü.Hacıbəyovun «Azərbaycan xalq musiqisinin əsasları», Heydər Hüseynovun «XIX əsr Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən», Əbdüləzəl Dəmirçizadənin «Azərbaycan dilinin tarixi», «Kitabi-Dədə Qorqud» dastanlarının dili», Feyzulla Qasımzadənin «XIX əsr Azərbaycan ədəbiyyatı tarixinin oçerkləri», Həmid Araslının «XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi» əsərləri, Əlövsət Quliyev, Əbdülkərim Əlizadə və Ziya Bünyadovun tariximizə dair qiymətli tədqiqat əsərləri xalqın mənəvi sərvətinə çevrildi. Qobustan qayaüstü təsvirlərinin, Azıx mağarasında qədim insan izlərinin aşkar və tədqiq edilməsi tarix elminə ən dəyərli töhfə oldu. Sovet ateist təbliğatı dinin inkişafına mane olsa da, xalq öz milli-mənəvi ənənələrini qoruyub saxlamağa çalışırdı. Dini bayramlar, milli mərasimlər yarı gizli, yarı açıq şəkildə qeyd olunurdu. Müqəddəs ocaqlar ziyarət edilirdi. Məscidlərin sayı az da olsa, fəaliyyətlərini davam edirdi.

Müharibədən sonrakı illərdə Respublikada 84 qəzet və 23 jurnal nəşr edilirdi. Getdikcə nəşrlərin sayı artırdı. Belə ki, 1952-ci ildən «Kirpi» jurnalı, 1958-ci ildən «Bakı», 1963-cü ildən «Baku» axşam qəzetləri, 1967-ci ildən «Ulduz» jurnalı, 1969-cu ildən isə «Qobustan» incəsənət toplusu çap olunmağa başladı. Kitab nəşri də xeyli genişləndi.

Klassik Azərbaycan şair və yazıçılarının əsərləri külliyyatlarının çapına da diqqət artmışdı. Görkəmli şair və yazıçıların

yubileylərinin təntənə ilə qeyd olunması, poeziya günlərinin keçirilməsi ənənəyə çevrilmişdi. Bütün bunlar konkret ideoloji məqsəd güdsə də, xalqın milli oyanışına müsbət təsir göstərirdi. Azərbaycan radiosu və televiziyasının verilişləri daha məzmunlu və cəlbedici olmuşdu. 40-cı illərin ikinci yarısı – 50-ci illərin əvvəllərində partiya ədəbiyyat və incəsənət haqqında bir neçə qərar qəbul etmişdi. Bu qərarlar mədəniyyət xadimlərini sosializm realizmi metodu ilə yazmağa məcbur edir, onun çərçivəsindən kənara çıxmağa imkan vermirdi. Bu üslubdan kənara çıxanlar kosmopolitizmdə, formalizmdə, Avropaya pərəstiş etməkdə və s. günahkarlandırılaraq təqib edilirdilər. Yaradıcı ziyalılar partiyanı, onun rəhbərlərini, mövcud quruluşu təbliğ etmək, onun nailiyyətlərini şişirtmək üçün maraqlandırılırdılar. Stalinin vəfatından sonra ölkədə siyasi şəraitin müəyyən qədər yumşalması ədəbiyyatda həyat gerçəkliklərinə tənqidi yanaşmaq meylinin formalaşmasına imkan yaratdı. S.Vurğunun «Aygün», M.Hüseynin «Qara daşlar», M.İbrahimovun «Böyük dayaq», İ.Şıxlının «Ayrılan yollar» və başqa əsərlərdə mövcud nöqsanlar tənqid edilir, lakin onu törədən səbəblər açıqlanmırdı. Ancaq sonralar cəmiyyətdəki eybəcərlikləri, saxtakarlığı, insan hüquqlarının tapdalanmasını, qanunsuzluğu mövcud quruluşla əlaqələndirən əsərlər də yazıldı. R.Rzanın «Sarı dana» əsərində insanın mal-qaradan ucuz tutulduğu qabarıq şəkildə göstərilirdi. Əbülhəsənin «Tamaşa qaranın nəvələri», İsa Hüseynovun «Tütək səsi», «Yanar ürək», Ənvər Məmmədxanlının «Od içində», İsmayıl Şıxlının «Dəli Kür», İlyas Əfəndiyevin «Şən həmişə mənimləsən» və başqa əsərlərdə sosializm cəmiyyətindəki nöqsanlar, nəsillər arasındakı ziddiyyətlər, onların səbəbləri ustalıqla verilmişdir. 1958-ci ildə B.Vahabzadənin 1813-cü ildə Rusiya və İran arasında Azərbaycanı bölmək üçün bağlanmış bədnam Gülüstan müqaviləsinə dair yazdığı «Gülüstan» poeması gizli yayılır, əldən-ələ gəzirdi. R.Rza «rənglər» silsilə şerlərində eyhamlardan istifadə edərək cəmiyyətdə getdikcə dərinləşən ədalətsizliyi ifşa edirdi. O.Sarıvəlli, M.Dilbazi, Ə.Vahid, aşıq M.Azaflı, B.Vahabzadə, N.Xəzri, H.Arif, Anar, Ə.Əylisli, Elçin və başqalarının əsərləri xalq tərəfindən rəğbətlə qarşılanırdı.

Xalqın milli şüurunun oyanmasında Cənub mövzusu xüsusi əhəmiyyət kəsb edirdi. Süleyman Rüstəmin silsilə şerləri, Mirzə İbrahimovun «Gələcək gün» romanı, Balaş Azəroğlunun, Söhrab Tahirin, Mədinə Gülgünün və b. əsərləri Cənub mövzusuna həsr edilərək vətənin parçalandığını, ayrılıq, həsrət kimi insani duyğuları əks etdirirdi. Məhəmməd Hüseyn Şəhriyarın «Heydər babaya salam» poeması geniş şöhrət qazanmışdı. Bu illərdə Azərbaycan musiqisi də xeyli inkişaf etmişdi. Müharibədən sonra dahi bəstəkarımız Ü.Hacıbəyov öz yaradıcılığını daha da zənginləşdirərək «Nizami» kantatasını yazdı. Qara Qarayevin «Yeddi gözəl», «İldırımlı yollarla» baletləri, Fikrət Əmirovun «Sevil» operası, A.Məlikovun «Məhəbbət əfsanəsi» baleti səhnəmizi bəzədi. Soltan Hacıbəyov, Cahangirov kimi bəstəkarlar simfonik muğamlar yazdılar. Niyazi Azərbaycan dirijorluq məktəbinin formalaşması və inkişafında mühüm rol oynadı.

Respublikada ifaçılıq sənəti yüksəlməkdə davam edirdi. Xan Şuşinskinin, Bülbülün, Rəşid Behbudovun, Sara Qədimovanın, Şövkət Ələkbərovanın oxuduğu mahnılar, tarzənlər Əhməd Bakıxanovun, Bəhram Mansurovun, Əhsən Dadaşovun, kamança çalan Habil Əliyevin ifa etdiyi melodiyalar dinləyici ürəyini fəth edirdi.

Görkəmli aktyorlar Ələsgər Ələkbərov, Mərziyə Davudova, İsmayıl Osmanlı, Leyla Bədirbəyli, Möhsün Sənani, Nəsibə Zeynalova, Mustafa Mərdanov, Barat Şəkinskaya və b. Azərbaycan səhnəsində yüzlərlə orijinal və yadda qalan obrazlar yaratmışlar. Adil İsgəndərov, Tofiq Kazımov və Mehdi Məmmədov kimi görkəmli rejissorlar yüzlərlə səhnə əsərlərini tamaşaya qoymuşdular. Azərbaycan kinosu 1945-ci ildə çəkilmiş «Arşın mal alan» filmi ilə dünya ekranına çıxmışdır. 1956-cı ildə «O olmasın, bu olsun» (rejissor Hüseyn Seyidzadə), 1958-ci ildə «Uzaq sahillərdə» (rejissor T.Tağızadə) filmləri meydana gəldi. Bunlar kino sənətimizin uğurlu əsərləri idi.

Azərbaycan rəssamlıq məktəbi də bir sıra görkəmli fırça ustaları yetişdirmişdir. Səttar Bəhlulzadə, Tahir Salahov, Mikayıl Abdullayev, Vəsihə Səmədova, Maral Rəhmanzadə, Toğrul Nərimanbəyov və b. xalçası-rəssam Lətif Kərimov və başqa

sənətkarların əsərləri xalqın milli ruhunu oxşayır, öz təkraredilməz gözəlliyi ilə seçilirdi. Bu illərdə görkəmli heykəltəraş Fuad Əbdürrəhmanov «Nizami Gəncəvi», «Azad qadın», Səməd Vurğun». Cəlal Qaryağdı «M.Ə.Sabir», «N.Nəri-manov», Ömər Eldarov «Natəvan», Tokay Məmmədov «Üzeyir Hacıbəyov», «Füzuli» kimi möhtəşəm heykəllər yaratmışdır.

Beləliklə, müharibədən sonra Respublikada təhsil inkişaf etdirildi. Yeddiillik, səkkizillik və orta icbari təhsilə keçdi. Ali təhsil şəbəkəsi genişləndirildi. Yeni ali təhsil ocaqları yaradıldı. Azərbaycan SSR Elmlər Akademiyası fəaliyyətə başladı. Azərbaycan mədəniyyətinin bütün sahələrinin inkişafında yeni meyllər meydana gəldi.

1946-1950-ci illəri əhatə edən bərpa dövründə sənaye və kənd təsərrüfatı ilə yanaşı mədəni quruculuq sahəsində də bir sıra vəzifələr müəyyənləşdirildi. Azərbaycanın hər yerində, o cümlədən Şuşa rayonunda xalq maarifi şəbəkəsinin tədris-maddi bazasını möhkəmləndirmək, məktəbləri pedaqoji kadrlarla təmin etmək, təlim və tərbiyə sistemini yaxşılaşdırmaq, tədrisin səviy-yəsini yüksəltmək üçün əməli tədbirlər həyata keçirmək və sair nəzərdə tutulmuşdu. 1946-cı ilin avqust ayında Azərbaycan müəllimlərinin III qurultayı keçirildi. Qurultayda 1946-1950-ci illər üçün yeni dövrün tələblərinə uyğun xalq maarifinin vəzifələri tam müəyyən edildi. Həmin planda Şuşa rayonunda məktəblərin, ali təhsilli müəllimlərin sayını artırmaq, yaşlı nəsil arasında savadsızlığı ləğv etmək, bütün məktəbləri texniki təlim vasitələri və dərs vəsaitləri ilə təmin etmək planlaşdırılmışdı.

1946-cı ildə Şuşa rayonunun mədəni inkişafa 2 milyon manat vəsait ayrıldı ki, bundan 600 min manatı orta ixtisas məktəblərinin genişləndirilməsinə sərf edilməli idi. Yeri gəl-mişkən qeyd edək ki, bu vəsait ümumən DQMV-ə ayrılan vəsaitin ondan biri, vilayətin digər rayonlarına ayrılan vəsaitin əlli faizi müqabilində idi. Vilayətin erməni rəhbərliyinin Şuşaya ögey münasibəti sonrakı dövrlərdə də davam etmişdi.

Plana uyğun olaraq Azərbaycan hökumətinin ayırdığı vəsait hesabına 1946-1950-ci illərdə Şuşa rayonunda yeni məktəb binası tikilib istifadəyə verildi. Köhnə məktəblərdə isə təmir –

abadlıq işləri aparıldı. 1940/1941-ci tədris ilində Şuşa rayonunda 15 məktəb var idisə, 1950/1951-ci tədris ilində bu rəqəm 16-ya çatmışdır. Burada təhsil alan şagirdlərin sayı isə son 25 ildə 2 dəfədən çox artaraq 1894 nəfərə çatmışdır. Həmin məktəblərdə isə dərs deyən müəllimlərin sayı 160 nəfər idi. DQMV-də maarif sahəsindəki böyük nailiyyətlərdən biri də Xankəndində müəllimlər institutunun açılması ilə bağlıdır [172]. 1940-cı ildə institutun iki (Azərbaycan və erməni) bölmələri, 15 müəllimi, 150 tələbəsi var idi. Sonralar bu institut 2 müstəqil instituta bölündü. Xankəndində Azərbaycan Müəllimlər İnstitutu yarandı. 1950-ci ildə Xankəndi Müəllimlər İnstitutu genişlənərək daha 3 şöbəsi yarandı. Artıq İnstitutun 5 şöbəsi: erməni dili və ədəbiyyatı, rus dili və ədəbiyyatı, fizika riyaziyyat, tarix, təbiət və coğrafiya şöbələri fəaliyyət göstərir. 1950-ci ildə burada 450 nəfərdən artıq tələbə oxuyurdu. İnstitut hər il respublikamızın məktəbləri üçün 60-a qədər müəllim buraxırdı. 1950-ci ildə İnstitutda 6 nəfər elmlər namizədi adını almış alim var idi. İnstitut DQMV-də fəaliyyət göstərən məktəbləri ali təhsilli mütəxəssislərlə təmin olunmasında xüsusi əhəmiyyətə malik idi. Belə ki, 1923/1924 tədris ilində DQMV-də 1 nəfər ali, 24 nəfər orta təhsilli müəllim var idisə 1950/1951-ci ildə məktəblərdə dərs deyən ali təhsilli müəllimlərin sayı 212-yə, orta-ali təhsilli müəllimlərin sayı isə 1949 nəfərə çatmışdır. Azərbaycan hökuməti DQMV-də işləyən yaxşı müəllimlərin əməyini yüksək qiymətləndirmiş, onlardan 13 nəfəri əməkdar müəllim adına layiq görülmüş, onlarla müəllim isə orden və medallarla təltif edilmişdir. Hətta DQMV-nin müəllimləri arasında «Şərəf nişanı» ordeninə layiq görülən, Azərbaycan SSR Ali Sovetinə, SSRİ Ali Sovetinə deputat seçilən müəllimlərdə vardır. Lakin çox təəssüflər olsun ki, yüksək ada layiq görülən müəllimlər arasında bir nəfərdə olsun azərbaycanlı soyadına rast gəlmədik.

1950-ci ildə DQMV-də 4 texnikum fəaliyyət göstərirdi. Bəhs olunan ildə həmin texnikumlarda oxuyan tələbələrin sayı 827-yə, oranı qurtaranların sayı isə 227-yə çatırdı.

Böyük Vətən müharibəsində əhalinin müharibəyə səfərbər edilməsi ilə əlaqədar azyaşlı uşaqlar arasında azalma halı

müşahidə edilmişdir. 1940-cı illə müqayisədə 1950-ci ildə Şuşa rayonunda uşaq bağçalarında uşaqların sayı 110-dan 86-ya, tərbiyəçi müəllimlərin sayı 10-dan 7-yə, uşaq bağçalarının sayı isə 5-dən 3-ə enmişdir. Bəhs etdiyimiz illərdə uşaq evlərində uşaqların sayı 107-dən 70-ə, uşaq evlərinin sayı isə 4-dən 2-dək azalmışdı. Qeyd edək ki, bəhs olunan illərdə Şuşa rayonunda körpələr evlərinin uşaq bağçalarına birləşdirilməsi prosesi baş vermişdi. Aparılan araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, Şuşa rayonu ərazisində 1946-1950-ci illərdə fəaliyyət göstərən uşaq bağçası və evləri ermənilərin daha çox cəmləşdiyi kəndlərdə yaradılmışdır [223].

XX yüzilliyin ortalarında Azərbaycanın Şuşa rayonunda fəhlə və kəndli gənclər məktəbləri də yaradılmışdı. 1946-1950-ci illərdə burada 60 şagirdi olan fəhlə gənclər məktəbi, 50 şagirdi olan qiyabi yeddiillik və orta yaşlılar məktəbi yaradılmışdı. Apardığımız araşdırmalardan məlum olur ki, Dağlıq Qarabağın digər rayonlarındakı fəhlə kəndli gənclər, qiyabi yeddiillik və orta yaşlılar məktəblərinin və uşaqların sayı Şuşa rayonunda olduqdan təxminən 40 faiz çox olmuşdur. Bəhs etdiyimiz dövrdə Bakıda 6, Naxçıvan MR-da 6 qiyabi yeddiillik və orta yaşlılar məktəbi var idi. Əlbəttə axırıncı müqayisəni nəzərdən keçirərkən Azərbaycan hökumətinin DQMV-nə nə dərəcədə qayğı göstərdiyini görürük.

1940-1950-ci illərdə Şuşa rayonunda təhsilin inkişafı inkaredilməz bir həqiqətdir. Lakin bununla yanaşı rayonda erməni, rus millətçiliyi, yerli idarə orqanlarında çalışan erməni mütəxəssislərinin şovinist siyasətləri, sovet rejiminə «sədaqətlə qulluq edən adamlar»ın böhtançı tədbirləri məktəb quruculuğu işlərinə, mədəni-maarif müəssisələrinin fəaliyyətinə ciddi mane olurdu. Bütövlükdə Vilayətdə o cümlədən Şuşa rayonunda partiya, sovet orqanlarında, mədəni maarif müəssisələrində çalışan erməni, rus mütəxəssisləri proletar beynəlmiləlçiliyi şüarı altında azərbaycanlı mütəxəssislərə qarşı gizli mübarizə aparırdılar. Bu «nəzəriyyə» ayrı-ayrı sovet orqanlarında çalışan bir qrup adamlarda, o cümlədən Dağlıq Qarabağda təhsil işçilərinə bilavasitə rəhbərlik edən Ter-Karapetrov, Baqdatyan, Babayan,

Arustamova və Xocavənd rayonuna rəhbərlik edən «elit» idarə rəhbərləri «Azərbaycan dilində təhsilin gələcəyinin olmadığı» iddiası ilə gördükləri tədbirlər vilayətdə azərbaycanlıların yaşadıqları kəndlərdə o cümlədən Şuşada tədris işlərinə böyük zərbə vurmuşlar.

Azərbaycan SSR Elmlər Akademiyasının 1944-cü ildə təşkil olunmuş Dağlıq Qarabağ şöbəsi DQMV-nin o cümlədən Şuşa rayonun tarixində böyük və mühüm bir hadisə olmuşdur. Bu elmi mərkəzin qarşısında duran ən mühüm vəzifələrdən biri 1946-1950-ci illərdə xalq təsərrüfatının, xüsusilə kənd təsərrüfatının yüksəldilməsi işinə kömək edə bilən elmi tövsiyələr irəli sürməli idilər. Bəhs edilən dövrdə Akademiyanın elmi işçiləri bir sıra elmi tədqiqat əsərlərini başa çatdırdılar və həmin əsərlər praktikada tətbiq olunmağa başlandı. Belə ki, həmin əsərlər sırasında «Kənd təsərrüfatında ziyanvericilərə qarşı mübarizə», «Toxumçuluğun inkişaf perspektivləri», «Dənli bitki toxumçuluğa və onun DQMV rayonları arasında bölüşdürülməsi», «Meyvə verən 3 növ tut ağacının biokimyəvi xüsusiyyətləri», «Kiçik Qafqaz sıra dağlarındakı yaylaqlar və bunlardan Lisaqorsk sovxozunda istifadə etmək haqqında», «Şahtut ağaclarının iqtisadiyyatı», «DQMV-də ipəkçilik sənayesinin yerləşməsi və inkişafı», «Çiçəklərin və yay otlaqlarının yaxşılaşdırılması», «Spirt çəkildikdən sonra tut tör-töküntüsünün yem hazırlamaq üsulları» və başqa mövzular var idi.

Elmi işçilər təkcə elmi əsərlər yazmaqla kifayətlənmirdilər. Onlar eyni zamanda vilayət əhalisinə otlaqlardan yaxşı istifadə olunması, mal-qaranın otarılmasının düzgün təşkil edilməsi, əməyin təşkili və heyvandarlıq məhsullarının hesaba alınması, ot çalımı və yem basdırılması, bağ-bostanlara xidmət və sair bu kimi müxtəlif məsələlər üzrə məsləhətlər də verirdilər. Onlar təkcə 1950-ci ildə Şuşanın müxtəlif idarə və müəssisələrində 50-ə qədər mühazirə oxumuş, yerli mətbuatda və respublika qəzetlərində elmi-kütləvi məqalələrlə çıxış etmişdilər. Vilayətin elm mərkəzinin elmi işçiləri öz işlərini Şuşa rayonunun xalq təsərrüfatının əməli məsələləri ilə sıx əlaqələndirirdilər.

DQMV-də fəaliyyət göstərən elm mərkəzinin bölgədə o cümlədən Şuşada xalq təsərrüfatının bərpa və inkişafı üçün irəli sürdükləri elmi tövsiyələr yüksək qiymətləndirilsə də, burada mənfi hallar da mövcud olmuşdur. Belə ki, aparılan elmi araşdırmalar nəticəsində məlum olur ki, Elmlər Akademiyasının bütün heyət üzvləri (işçiləri) hamılıqla milliyyətcə ermənilərdən ibarət idi. Həmçinin Azərbaycan SSR EA-nın Xankəndi şöbəsinin elmi katibi Q.A.Mıkırtıçıyanın yazdığına görə burada tədqiq olunan əsərlər erməni dilində çap edilir, yalnız DQMV ərazisində və Ermənistanda yayılırdı [267]. Bu fakt isə erməni alimlərinin nə dərəcədə «humanist» olduqlarını sübut edir.

1946-1950-ci illərdə Şuşa rayonunda inkişaf edən sahələrdən biridə mədəni-maarif müəssisələri olmuşdur. Hələ 1945-ci ilin sonlarında Azərbaycan XKS-nin nəzdində yaradılmış Mədəni Maarif Müəssisələri Komitəsi, Rayonda mədəni-maarif işinin inkişafı üçün tədbirlər planı işləyib hazırladı. İlk növbədə Şuşa rayonu İcraiyyə Komitəsi nəzdində Şuşa Rayon Mədəni Maarif İşləri Şöbəsi yaradıldı. Mədəni-maarif müəssisələri içərisində kitabxanaların inkişafı xüsusi əhəmiyyət kəsb edirdi. 1946-1950-ci illər üçün qəbul edilmiş «Mədəni maarif müəssisələrinin bərpa və inkişafına dair beşillik plan»a uyğun olaraq 1950-ci ilədək Şuşa rayonunda kütləvi kitabxanaların sayının artırmaq proqramı tərtib edilmişdi. Azərbaycan hökuməti Şuşa rayonunda kitabxanaların maddi-texniki bazasına əsaslı vəsait qoyuluşunu 1940-cı illə müqayisədə 2 dəfə artırdı. 1950-ci ildə Şuşa rayonunda təkcə kitabxanaların kompleksləşməsinə qoyulan vəsait 10 min manat idi. İlk növbədə Şuşa rayonunda 1946-1950-ci illərdə 5 yeni kitabxana yaradılmışdı [274]. 1940-cı ildə Şuşa rayonunda 11 kitabxana var idisə 1950-ci ilin sonlarında bu rəqəm 11-ə çatdı. 1950-ci ildə Şuşa rayonunda kütləvi kitabxanaların kitab fondu 13 min nüsxəyə çatdı. Araşdırmalardan məlum olur ki, Şuşa rayonunda hər 1000 nəfərə 2 kitabxana, hər bir sakinə 20 kitab düşürdü. Kənd kitabxanalarının fondunda isə 8 min nüsxə müxtəlif ədəbiyyat var idi. Lakin bütün bunlarla yanaşı vilayətin erməni rəhbərliyi yeni kitabxanaların açılmasında və kitabların komplektləş-

məsində azərbaycanlılar yaşayan ərazilərə ögey münasibət göstərmişdilər. Kitabxanalar yalnız erməni dilli kitablarla zənginləşdirilirdi. Belə ki, aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1951-ci ildə Hadrut rayonunda 48, Xocavənd rayonunda 47, Ağdərə rayonunda 59, Xankəndi rayonunda 50 kitabxana olduğu halda, əsasən azərbaycanlılar yaşayan Şuşa rayonunda cəmi 8 müstəqil dövlət kitabxanası və 6 klub kitabxanası fəaliyyət göstərirdi. Xankəndi rayonun ermənilər yaşayan bütün kəndlərində kitabxanalar olduğu halda, rayonun azərbaycanlılar yaşayan 10 kəndlərin yalnız Kərkicahan və Kosalar kəndlərində kitabxana var idi. DQMV-nin azərbaycanlılar yaşayan kəndlərdəki kitabxanalara daha çox erməni dilində olan ədəbiyyat verilirdi. Məsələn, təkcə 1950-ci ildə Şuşanın Malıbəyli kənd kitabxanasına daxil olan 210 nüsxə ədəbiyyatın 170 nüsxəsi erməni, 23 nüsxəsi rus, yalnız 12 nüsxəsi Azərbaycan dilində olmuşdu [277]. Bütün bunlara baxmayaraq Azərbaycan hökuməti Vilayətdə mədəni-maarif işinin inkişafı üçün öz qayğısını davam etdirirdi.

Mədəni-maarif işinin ən kütləvi vasitələrindən biri kino idi. 1946-1950-ci illərdə Azərbaycan hökuməti Şuşa rayonunda 2 yeni kinoqurğu göndərdi. Rayondakı kino qurğularının sayı 1940-cı ildə 2 ədəd idisə, 1950-ci ildə artırılaraq 4-ə çatdı. Bu kinoqurğulardan 2-i stasionar, 2-i isə səyyarı idi. Rayonda xalqın maariflənməsi işində kinoların rolu böyük olmuşdur. 1950-ci ildə Şuşa rayonu ərazisində göstərilən kinoların sayı 25000-ə bərabər idi ki, bu da 1940-cı illə müqayisədə 25 faiz artıq demək idi.

Azərbaycanda 1946-1950-ci illərdə mədəni-maarif işini inkişaf etdirmək məqsədilə 1947-ci ildə «Azərbaycan Siyasi və Elmi Birlikləri Yayan Cəmiyyət» yaradıldı. Həmin Cəmiyyət 1947-1949-cu illərdə öz sıralarında 2,2 min ziyalını və istehsalat qabaqcılını birləşdirmişdi. Cəmiyyətin Şuşa rayonunda da filialı yaradılmış və əhali arasında mədəni-maarif işinin aparılmasında xeyli işlər görmüşdür. Xalqın maariflənməsi işində teatrın rolunu xüsusi qeyd etmək lazımdır. 1950-ci ildə Azərbaycanda cəmi 9 teatr fəaliyyət göstərirdi ki, bunlardan biridə DQMV-nin payına düşürdü. M.Qorki adına Xankəndi Dövlət Dram Teatrı XX əsrin

20-ci illərində həvəskar dram dərnəyi şəklində fəaliyyətə başlamış və 1932-ci ildən dövlət teatrı kimi təşkil edilmişdir [279]. Dram Teatrı 1946-1950-ci illərdə Şuşanın kəndlərində səyyarı tamaşalar göstərirdilər. Aparılan araşdırmalar nəticəsində məlum olur ki, tamaşalar yalnız Şuşa rayonunun ermənilər yaşayan kəndlərdə nümayiş etdirilirdi. Bunun əsas səbəbi, bir tərəfdən azərbaycanlılar yaşayan kəndlərdə tamaşanın göstərilməsi üçün yer problemi ilə bağlı idisə, ikinci bir tərəfdən teatr truppasının tərkibinin sırf ermənilərdən ibarət olması ilə əlaqəli olmuşdur. Yeri gəlmişkən onu da qeyd edək ki, XX yüzilliyin 40-cı illərinin sonlarında Dağlıq Qarabağ rəhbərliyi xalqımıza qarşı öz «etibarlılığını» bir daha nümayiş etdirdi. Belə ki, əsası Ə.Haqverdiyev tərəfindən XIX əsrin sonlarında qoyulan Şuşa Teatrı namərd «gülləsinə» tuş gələrək bağlandı.

1946-1950-ci illərdə Şuşa rayonunda klubların sayında da 30 faiz artım müşahidə edilmişdir. Belə ki, rayonda 1940-cı ildə 10 klub fəaliyyət göstərirdisə, 1950-ci ildə klubların sayı artaraq 13-ə çatmışdır. Başqa sahələrdə olduğu kimi klublar yaradılarkən də, azərbaycanlılar yaşayan kəndlər diqqətdən kənarda qalmışdır.

Bəhs etdiyimiz dövrdə Şuşa rayonunda 10 mədəniyyət evi, istirahət və mədəniyyət parkları fəaliyyət göstərirdi. 1946-1950-ci illərdə Şuşa rayonunda mətbuat və radio verilişi sahəsində böyük müvəffəqiyyətlər əldə edilmişdir. Vilayətdə 6 adda qəzet nəşr olunur ki, bunlarda 4-ü erməni dilində, 1-i Azərbaycan dilində, 1-i isə rus dilində buraxılır. Şuşa rayonunda «Sosialist maldarlığı» qəzeti nəşr edilirdi. Lakin əvvəlki dövrlərlə müqayisədə Şuşa rayonunda nəşr olunan qəzetin illik tirajında azalma halı müşahidə edilmişdi. Məsələn, 1940-cı ildə 3 min tirajla buraxılırdısa, 1950-ci ildə bu rəqəm 2 minə enmişdi.

1946-1950-ci illərdə Şuşa rayonunda xalq təsərrüfatı, mədəniyyət və maarifin inkişafı ilə yanaşı səhiyyənin də inkişafında irəliləyiş diqqəti cəlb edirdi. Rayonda insanlara tibbi xidmət ilbəil yaxşılaşır, əhalinin sağlamlığının mühafizəsinə sərf edilən vəsait artır, müalicə-profilaktika müəssisələrin şəbəkəsi genişlənirdi. Belə ki, 1940-cı ildə Şuşa rayonunda 43 çarpayılıq 3 xəstəxana olduğu halda, 1950-ci ildə 110 çarpayılıq 2 xəstəxana

var idi. Bu zaman Azərbaycanda cəmi 12 min çarpayısı olan 222 xəstəxana fəaliyyət göstərirdi [281].

Bəhs olunan illərdə Şuşa rayonunda həkimlərin və orta tibb işçilərinin sayı da durmadan artırdı. Belə ki, 1940-cı ildə həkimlərin sayı 6, 1950-ci ildə isə 20-yə çatmışdı.

1932-ci ildə Xankəndində açılan tibb məktəbi DQMV-nin o cümlədən Şuşa xəstəxanalarını ixtisaslı mütəxəssislərlə təmin etməkdə böyük işlər görmüşdü. 1940-1950-ci illər ərzində orta tibb işçilərinin sayında çox böyük irəliləyiş müşahidə edilmişdir. Belə ki, 1940-cı ildə Şuşanın müalicə müəssisələrində 24 orta tibb işçisi var idisə, 1950-ci ildə onların sayı 69-a çatmışdır. Vilayətin bütün rayonlarında xəstəxanalar fəaliyyət göstərirdi. 1950-ci ildə Şuşada 2, Ağdərədə 5, Hadrutda 3, Xocavənddə 3, Xankəndində 4 xəstəxana var idi [291]. Bundan başqa 1950-ci ildə Şuşa rayonunda poliklinika, qadın və uşaq məsləhətxanası, feldşer – analıq məntəqəsi və ambulatoriyalar fəaliyyət göstərirdi. Göründüyü kimi Şuşa rayonunda xəstəxanaların sayı DQMV-də axırıncı yerdə dayanmışdır. Apardığımız tədqiqatlardan məlum olur ki, bəhs olunan dövrdə, istər xəstəxanaların, istərsə də xəstəxanalardakı çarpayıların sayına görə DQMV-i ümumrespublika rayonları arasında birinciliyi qoruyub saxlamışdır.

Dünya müharibəsi əhalinin həyat səviyyəsinin aşağı düşməsinə səbəb olmuşdu. Əhalinin ərzaq məhsullarına olan tələbatını ödəmək üçün dövlət 1944-cü ildən kommersiya ticarətinə icazə verdi. Kommersiya ticarətində mallar kartoçkalarla, lakin yüksək qiymətlərlə satılırdı. Kommersiya ticarəti kolxoz bazarında qiymətlərin aşağı düşməsinə kömək edir və azad ticarətin inkişafına təkan verirdi. 1940-cı illə müqayisədə 1950-ci ildə Şuşa rayonunun illik mal dövriyyəsində böyük irəliləmə müşahidə edilmişdir. Belə ki, müvafiq illərdə Şuşa rayonunda bu göstərici 1 milyon manatdan 3 milyon manata qalxmışdır. Bundan kommersiya ticarətinin illik mal dövriyyəsi bir milyondan iki milyona, dövlət ticarəti mal-dövriyyəsi isə 80 mindən 120 minə çatmışdır [294].

Müharibə illərində şəhər əhalisinin mühüm ərzaq və sənaye mallarını ilə təchizi üçün kartoçka sistemi tətbiq edilmiş, 1947-ci ilə isə ləğv edilərək, onların vahid dövlət pərakəndə qiymətləri ilə satışına keçirilmişdir. Bəhs etdiyimiz dövrdə pul islahatı da keçirilmişdir ki, bu da kənddə pul sisteminin möhkəmlənməsinə imkan vermişdir. İstehsalın ardıcıl olaraq artması Şuşa rayonunda əhalinin gəlirlərinin çoxalmasına səbəb olmuşdur. 1945-1947-ci illər ərzində fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 3 faiz artmışdırsa, 1950-ci ildə isə 1940-cı illə müqayisədə 80 faizi ötüb keçmişdir. Rayonda əhalinin gəlirlərinin çoxalmasını əmanət kassalarının və əmanətçilərin sayının artması faktlarında da görmək olar. Belə ki, 1950-ci ildə Şuşa rayonunda əmanət kassalarının sayı 3, əmanətçilərin sayı isə 1804 çatırdı. Bu isə əvvəlki dövrlərlə müqayisədə 2 dəfə artıq demək idi. 1948-ci ildən başlayaraq ərzaq və qeyri-ərzaq məhsullarının pərakəndə satışı qiymətlərində aşağı enmə halı müşahidə edilmişdir. 1950-ci ildə 1947-ci illə müqayisədə ümumi pərakəndə satış qiymətləri təxminən 40 faiz, ərzaq məhsulları 45 faiz, sənaye malları 30 faiz aşağı düşmüşdü [301]. Lakin əhalinin alıcılıq qabiliyyəti hələ ki, lazımi səviyyədə deyildi.

1946-1950-ci illərdə Şuşa rayonunda kənd təsərrüfatındakı irəliləmələr – istehsalın artması, heyvandarlıq məhsulları tədarükünün mütləq normalarının azaldılması, kənd təsərrüfatı məhsullarının tədarük və satınalma qiymətlərinin artırılması kolxozçuların maddi vəziyyətinin yaxşılaşmasına kömək edirdi. 1950-ci ildə Şuşa rayonunda kolxozçuların pul gəliri 1940-cı ildəkindən 1,5 dəfə çox idi [302].

1946-1950-ci illərdə DQMV-də nəqliyyat sahəsində də xeyli müvəffəqiyyətlər əldə edilmişdi. Həmin dövrdə planda nəzərdə tutulmuşdu: «Yol azlığını tamamilə aradan qaldırmaqdan, hərəkət surəti artmış olduğu şəraitdə avtomobil nəqliyyatı vasitəsilə və yük daşınması sahəsində artan tələbatı ödəyə biləcək təkmilləşdirilmiş möhkəm yollar yaratmaq üçün yol təsərrüfatını əsaslı surətdə dəyişib yenidən qurmaqdan ibarətdir». Azərbaycan hökuməti Şuşa rayonunda yolların uzunluğunu 2 dəfə, o cümlədən şose yollarını 3 dəfə artırmağı, yeni dəmir yolu

xəttini çəkməyi qarşıya məqsəd qoymuşdu. Bütün bunların həyata keçirilməsi üçün dövlətimiz 1940-cı illə müqayisədə 1946-cı ildə Şuşada yol tikinti abadlıq işlərinə 2,5 dəfə artıq vəsait ayırmışdı. Beləliklə, 1950-ci ildə Şuşada yolların uzunluğu 1923-cü illə müqayisədə 2 dəfə, o cümlədən şose yollarının uzunluğu 4 dəfə artmışdı [306].

Beş il ərzində Şuşa rayonunda nəqliyyatın təkmilləşdirilməsi sayəsində mühüm nailiyyətlər qazanılmışdır. 1950-ci ildə avtomobil nəqliyyatının yük dövriyyəsi 1940-cı ilə nisbətən 3 dəfə, ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə sərnişin daşınması isə 2 dəfə artdı.

Azərbaycan hökumətinin dərin qayğısı nəticəsində 1946-1950-ci illərdə Şuşa rayonunda radiorabitə vasitələri böyük sürətlə inkişaf edirdi. 1950-ci ildə vilayətdə 3 radio verilişi nöqtəsi, 3 radioqovşağı və 2810 radioqəbuledici nöqtələri fəaliyyət göstərirdi ki, bundan 450-i Şuşa rayonunun payına düşürdü. Ümumilikdə Azərbaycanda radioqəbuledicilərin sayı 181 minə çatırdı. Naxçıvan MSSR-da isə bu göstərici 1927-yə bərabər idi [308].

Sovet Rusiyası Azərbaycanda öz hakimlik mövqeyini daim saxlamaq məqsədilə süni sürətdə 1923-cü ildə «Dağlıq Qarabağ Muxtar Vilayəti»nin təşkilinə nail oldu. Bu «xəyanətkar səxavətlilik» Azərbaycanın milli mənafeyinə, vətənin gələcəyinə ciddi, ağır ziyan vuran bağışlanılmaz cinayət idi. Çünki Muxtar Vilayət yarandığı gündən özünü Azərbaycanın qanunlarına tabe olmayan «dövlət içərisində dövlət» kimi aparırdı. Həmçinin, Ermənistan və onu himayə edən qüvvələr «Qarabağ kartı»ndan öz məqsədləri üçün istifadə etməyə şərait yaratdı. Bütün XX yüzillik ərzində Qarabağı Ermənistana birləşdirməyə cəhd edən ermənilər faktları saxtalaşdıraraq ictimai rəyi öz tərəfinə çəkmək məqsədilə əzabkeş obrazından çıxış edərək pis yaşadıqlarından şikayət etməyə və Azərbaycan hökuməti tərəfindən erməni kəndlərinə biganəlik göstərilməsi kimi böhtançı fikirlər yaymağa başladılar. Halbuki tarixi faktlar rəhimsiz ermənilərin tamamilə yalan və böhtan dediklərini sübut edir. Bu gün kimliyindən asılı olmayaraq hər bir Azərbaycan ziyalısı, ermənilərin saxta mülahi-

zələrinə biganə qalmamalı, mötəbər tarixi mənbələrə əsaslanaraq əsl həqiqəti oxucuların nəzərinə çatdırmalıdır. XX yüzilliyin hansı dövrünə müraciət etsək Azərbaycan hökumətinin, Azərbaycanın başqa əraziləri ilə müqayisədə bütövlükdə DQMV-nə üstün münasibətinin şahidi olur, Dağlıq Qarabağ rəhbərliyinin isə bölgədə azərbaycanlılar yaşayan kəndlərə məqsədli şəkildə biganəlik, laqeyd münasibət bəslədiklərini görürük. 1950-1960-cı illər Azərbaycan SSR-in Şuşa rayonunun mədəni quruculuq tarixini nəzərdən keçirməklə bir daha yuxarıda dediklərimizin şahidi olarıq: Müharibədən sonrakı illərdə Sovet hökuməti kommunist ideologiyasının hakim mövqe tutması siyasətini davam etdirirdi. İnsanların şüuruna sosializm cəmiyyətinin ədalətli, xalqın azadlıq və səadətini təmin edən, millətlər arasında dostluq və qardaşlığın qarantı olması ideyası yeridilirdi. Həmin ideyaların həyata keçirilməsində məktəblər əsas rol oynayırdı. Bu dövrdə təhsil sahəsində qarşıdakı ən başlıca vəzifələr xalq maarifi şəbəkəsinin tədris-maddi bazasını möhkəmləndirmək, məktəbləri pedaqoji kadrlarla təmin etmək, təlim-tərbiyə sistemini yaxşılaşdırmaq və tədrisin səviyyəsini yüksəltmək üçün əməli tədbirlərin həyata keçirilməsi müəyyən edildi. Belə ki, Şuşa rayon maarif şöbəsinin 24 mart 1965-ci il tarixli «Şuşa rayon məktəblərini pedaqoji kadrlarla təmin etmək və xalq maarifi şəbəkəsinin tədris-maddi bazasını möhkəmləndirmək tədbirləri haqqında» qərarı qəbul edildi. Təkcə 1965-ci ildə Azərbaycan hökuməti tərəfindən Şuşa rayonunun xalq təhsili müəssisələrinin təmirinə 20 min manat, məktəblərin tədris texniki vasitələri ilə təmin olunmasına 10 min manat, laboratoriyalarına və kitabxanalarına 10 min manat vəsait ayrıldı [311]. Sonrakı dövrlərdə Azərbaycan hökuməti Şuşa rayonunda maarifin inkişafına qoyulan vəsaitin miqdarını artırdı. Belə ki, 1930-cu ildə Şuşa rayonunun xalq maarifinə ümumi vəsaitin 38,5 faizi ayrılmışdırsa, 1950-ci ildə bu rəqəm 63 faizə qalxmışdı. 1967/1968-ci tədris ilində ayrılan vəsaitin həcmi təxminən 2 dəfədən çox artaraq 1 milyon manata çatmışdır [313]. Araşdırmalardan məlum olur ki, 1967/68-ci illərdə Şuşa rayonunun xalq maarifinə ayrılan vəsait DQMV-nin digər rayonlarına ayrılan

vəsaitin əlli faizi həcmində idi. Nəticədə, rayonda tədris-tərbiyə müəssisələrinin şəbəkəsi tədricən genişlənir, şagirdlərin sayı artırdı. Belə ki, 1940-1960-cı illərdə Şuşa rayonunda 2 yeni məktəb tikilib istifadəyə verildi. Bəhs edilən illərdə müəllimlərin sayı 110-dan 220-yə çatdı [315].

Müharibədən sonrakı dövrdə Azərbaycan SSR-in Şuşa rayonunda başqa sahələrdə olduğu kimi, mədəni-maarif və mətbuatın inkişafında da çox böyük tərəqqi müşahidə edilmişdir.

1950-1960-cı illərdə Azərbaycan hökuməti Şuşa rayonunda mədəni-maarif müəssisələrini inkişaf etdirmək üçün bütün lazımi tədbirləri həyata keçirirdi. Mədəni-maarif müəssisələri içərisində kitabxanalar, əvvəlki illərdə olduğu kimi, bəhs etdiyimiz dövrdə də Azərbaycan hökumətinin xüsusi diqqət mərkəzində olmuşdur. Belə ki, 1950-ci ildə Azərbaycan hökuməti Şuşa rayonunda kitabxanaların komplektləşdirilməsi üçün 20 min manat vəsait ayırdı. 1953-cü ildə isə Azərbaycan hökuməti DQMV-in İcraiyyə Komitəsi nəzdində Şuşa rayon mədəniyyət idarəsi təşkil etdi. Həmçinin, yeni kitabxana binalarının tikilməsi, mövcud kitabxana binalarının əsaslı təmir edilməsi və Şuşa rayonundakı kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədi ilə 50 min manat vəsait ayırdı [323]. Kitabxana işçilərinin ixtisasını artırmaq üçün Şuşa şəhərində ixtisasartırma kursu təşkil edildi. Şuşa rayonun ixtisaslı kadrlarla təmin etmək məqsədilə 1958-ci ildə Bakıdan ali təhsilli mütəxəssislər göndərildi. 1960-1962-ci illərdə Şuşa rayonunda kitabxana xidməti ilə təmin olunmayan kənd və qəsəbələrdə yeni müstəqil kitabxanaların və səyyar fondların təşkili, fəaliyyətdə olan kitabxanaların yeni ədəbiyyatla təmin edilməsi, kitabxanaların yeni bina, avadanlıq və bəzi texniki vasitələrlə təchizi sahəsində böyük işlər görüldü. Azərbaycan hökumətinin gördüyü bütün bu və ya digər tədbirlər öz müsbət nəticəsini verdi. Belə ki, Şuşa rayonunda 1940-cı ildə 5 müstəqil kitabxana var idisə, 1950-ci ildə onların sayı 11-ə, 1967-ci ildə isə 15-ə çatmışdı. Həmçinin həmin kitabxanalarda olan kitab fondu 1940-cı ildə 6 min, 1950-ci ildə 13 min, 1960-cı ildə 60 min, 1970-ci ildə isə 85 min nüsxəyə çatdı [328].

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, DQMV-i istər kitabxanaların sayına görə, istərsə də kitab fondu cəhətdən ümumrespublika rayonları arasında çox böyük üstünlüyə malik olmuşdur. Məsələn, 1961-ci il yanvar məlumatına görə Naxçıvan MSSR-da 135, Astarada 20, Bərdədə 27, Saatlıda 22, Mingəçevirdə 18 kitabxana olduğu halda, DQMV-də bu göstərici 166-a bərabər idi. Bu vaxt Bakı şəhərində 172 kitabxana fəaliyyət göstərirdi [319]. Həmçinin kitab fondunda da bu üstün mövqe Vilayətdə mövcud olmuşdur. Belə ki, həmin ildə kitab fondu Naxçıvanda 596 min nüsxə olduğu halda, DQMV-də 857 min nüsxəyə bərabər idi. Bu vaxt Bərdədə 128 min, Ağcabədidə 109 min, Mingəçevirdə 103 min kitab oxucuların istifadəsində olmuşdur. Bütün bunlar Azərbaycan hökumətinin Vilayətə göstərdiyi diqqət və qayğının nəticəsi idi [320].

Tədqiqatlar nəticəsində həm də bir acı həqiqət aşkarlanmışdır ki, Dağlıq Qarabağ rəhbərliyinin diktəsi ilə Bakıdan alınan kitablar Ermənistan SSR-nin Myasnikov adına kitabxanasına verilir və oradan erməni dilində kitablar alınırdı. Həmin kitablarda isə xalqımızın, Qarabağın tarixi haqqında təhrif olunmuş şəkildə materiallar verilmişdir. Bununla yanaşı bəhs etdiyimiz dövrdə, DQMV-nin erməni rəhbərliyi azərbaycanlılar yaşayan kəndlərə biganə münasibət göstərmişdi. Belə ki, 1960-cı illərdə Vilayətin Hadrut rayonunda 40, Xocavənd rayonunda 40, Xankəndi rayonunda 50, Ağdərə rayonunda 50 kitabxana olduğu halda, Şuşada cəmi 8 kitabxana fəaliyyət göstərirdi. Dağlıq Qarabağın ermənilər yaşayan bütün kəndlərində mədəni-maarif müəssisələri (xüsusilə kitabxanalar) olduğu halda, Vilayətin azərbaycanlılar yaşayan kəndlərin yalnız bəzilərində kitabxana var idi. Başqa kəndlərin heç birində mədəni-maarif müəssisələri yox idi. Hələ bu azmış kimi azərbaycanlılar yaşayan kəndlərinin kitabxanalarındakı, onsuzda az olan kitabların, demək olar ki, 10 faizi Azərbaycan dilində, 70 faizi erməni dilində, 20 faizi rus dilində idi [332]. Məkirli siyasət sahiblərinin xalqımıza qarşı bu cür «səxavətliliyi» sonrakı dövrlərdə də davam etdirilmişdir.

Mədəni-maarif işinin ən kütləvi vasitələrindən biri də kino idi. Azərbaycan hökuməti 1950-1960-cı illərdə Şuşa rayonunda

klubların şəbəkəsinin genişləndirilməsi üçün xeyli vəsait ayırmışdır. Məsələn, 1950-ci ildə bu sahəyə 50 min manat vəsait ayrılmışdırsa, ildən-ilə həmin vəsait artırılaraq 1960-cı ildə 200 min manata, 1968-ci ildə 250 min manata çatmışdır. Nəticədə Şuşa rayonunda klubların sayı xeyli artmışdır [309]. 1940-cı ildə burada 15 klub, 1950-ci ildə 13 klub var idisə, artıq 1968-ci ilin yanvarında Şuşa rayonunda 15 klub fəaliyyət göstərirdi. Əgər faktları nəzərdən keçirsək, Azərbaycanın başqa əraziləri ilə müqayisədə Vilayətdə klubların sayının çox olmasının şahidi olarıq. Məsələn, 1961-ci il yanvar məlumatına görə Bakıda 117, Naxçıvanda 122 klub var idisə, Vilayətdə 170 klub (bundan 161-i kənddə) fəaliyyət göstərirdi. Bəhs etdiyimiz illərdə Ağsuda 18, Cəbrayılda 18, Kəlbəcərdə 19, Mingəçevirdə 13 klub var idi. DQMV-nin rayonlarındakı klubların sayına gəldikdə isə qədim tarixə malik Şuşa şəhəri və onun kəndlərindəki klubların sayı qonşu Xocavənd rayonundakı klubların sayından 2 dəfə az idi [335].

1950-1960-cı illərdə Şuşa rayonunda kino qurğularının sayında da artım müşahidə edilmişdir. Belə ki, 1950-ci ildə 4, 1960-cı ildə 5 idisə, 1970-ci ildə kinoqurğuların sayı 2 dəfədən çox artaraq 10-a çatmışdır. Bundan 2-i səyyarı, 8-zi stasionar quraşdırılmış kinoqurğu idi [340]. Azərbaycan hökumətinin qayğısı nəticəsində rayondan kino işçiləri ildən-ilə əhaliyə kino xidmətini getdikcə yaxşılaşdırırdı. Belə ki, 1950-ci ildə Şuşa rayonunda 25 min kinoseans göstərilmişdirsə, 1960-cı ildə onların sayı 130 minə, 1967-ci ildə isə 275 minə çatmışdır. 1968-ci ildə Şuşa rayonunda kinoseans planı 110 faiz, tamaşaçılarla əhatə edilmə planı 100 faiz olmuşdur [350].

Yuxarıdakı faktlardan aydın göründüyü kimi, bəhs etdiyimiz illərdə, Şuşa rayonunda kino xidməti işi xeyli yaxşılaşmış, qış və yay kinoteatr müəssisələri tikilib istifadəyə verilmişdir. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, kinofilmlərə tamaşa edən insanların sayına və kino seanslarının sayına görə DQMV-i nəinki ümumrespublika səviyyəsində, hətta keçmiş ittifaq miqyasında ən yüksək yerlərdən birini tutmuşdur. Məsələn, kino qurğularının sayına görə hər 1000 nəfərə ittifaq məka-

nında 5,4, Ermənistanda 2,9, ümumi respublika miqyasında 3 qurğu düşdüyü halda DQMV-də bu göstərici 12-ə bərabər idi [352].

1947-ci ildən Azərbaycanda yaranan «Azərbaycan Siyasi və Elmi Bilikləri Yayan Cəmiyyət» respublikamızın hər yerində, o cümlədən, Şuşa rayonunda mədəni-maarifin inkişafında xeyli işlər görmüşdür. Həmin cəmiyyət öz sıralarında 2 min ziyalını və istehsal qabaqcılını birləşdirmişdir. Şuşa rayonunda yaşayan əhalinin mədəni səviyyəsinin yüksəldilməsində yaradılmış Dövlət Mahnı və Rəqs ansamblının xidmətləri böyük olmuşdur. Ansamblın repertuarı zəngin və rəngarəng idi. Onun repertuarında keçmiş SSRİ xalqlarının mahnı və rəqsləri mühüm yer tuturdu.

Azərbaycan SSR DQMV-də yaşayan əhalinin maariflənməsində, ictimai-siyasi fəaliyyətinin artmasında mətbuat əhəmiyyətli rol oynayırdı. 1960-cı ildə Azərbaycanda 107 qəzet çıxırdı ki, bundan 1-ci Naxçıvan MSSR-nin, 3-ü DQMV-nin payına düşürdü [354]. 1969-cu ildə isə onların sayı ümumrespublika üzrə 118-ə çatdı ki, bundan 5-i DQMV-də nəşr olunurdu. Qəzetlərin tirajında da böyük irəliləyiş müşahidə edilmişdir. Belə ki, 1960-cı ildə DQMV-də qəzetlər 9,3 min tirajda buraxılırdısa, 1969-cu ildə 24,3 min tiraja çatmışdı. Vilayətdə nəşr olunan qəzetlərdən 1-i Azərbaycan dilində, qalanları erməni dilində buraxılırdı. Şuşa rayonunda nəşr olunan «Şuşa kurortu» qəzetinin 1968-ci ildəki birdəfəlik tirajı 2,3 min nüsxəyə bərabər idi [356].

DQMV-də mədəni-maarif işi Azərbaycanın başqa regionları və SSRİ-də yaşayan digər xalqlarla mədəni əməkdaşlıqla inkişaf edirdi. Bölgədə yaşayan mədəni-maarif işçiləri Ermənistan SSR-i ilə daha yaxın «əməkdaşlıq» edirdilər. Təəssüflər olsun ki, əvvəllər bu «əməkdaşlığın» mahiyyətinə varmamış, zahiri görkəmə aldanmışıq. Həmin vaxtlar erməni təbliğat maşını erməni əhalisi arasında öz çirkin niyyətlərini reallaşdırmış «Böyük Ermənistan» ideyasını təqdim etmişlər. XX yüzilliyin 80-ci illərində baş verən hadisələrin kökü məhz həmin vaxtlara gedib çıxır.

1950-1960-cı illərdə Şuşa rayonunda sənaye müəssisələrində, kolxoz və sovxozlarında iqtisadiyyatı öyrədən dərnəklər, seminarlar və məktəblər yaradılmışdır. Vaxtaşırı olaraq Şuşa rayonunun istehsalat qabaqcılları ilə müşavirə və konfranslar keçirilir, adlı-sanlı adamların təcrübəsinə dair vərəqlər və büllетenlər buraxılırdı. Bütün bunlar isə rayonda yaşayan əhalinin mədəni səviyyəsinin ümumi yüksəlişinə səbəb olurdu.

Bəhs etdiyimiz dövrdə, Dağlıq Qarabağda yaşayan ermənilərin təşəbbüsü ilə «Mədəniyyət Universitetləri» də yaradılmışdır. Arxiv materiallarında həmin Universitetlərin ermənilərin daha çox cəmləşdiyi kəndlərdə fəaliyyət göstərməsi faktları vardır. Buradan belə bir nəticə çıxır ki, həmin «Xalq Universitetləri» burada yaşayan erməniləri gələcəkdə «Böyük Ermənistan» yaratmaq kimi bədnam ideoloji iş aparmışdır və əsrin sonlarında baş verən hadisələr bir daha deyilənləri sübut etdi. Hətta, həmin dövrdə erməni məktəblərinin nəzdində belə «Valideyin Universitetləri» yaradılmışdı [359]. Universitetin lektorları «xüsusi təlim» keçmiş, milliyyətcə erməni olan «ziyalılar» idi.

XX yüzilliyin 50-60-cı illərində Şuşa rayonu əhalisinin mədəni və ümumi təhsil səviyyələrinin yüksəldilməsində radio mühüm rol oynamışdı. XX yüzilliyin 60-cı illərində DQMV-nin 4 rayonunda radio verilişləri studiyası yaradılmışdı. 1965-ci ildə Şuşada yerli radio verilişləri studiyası fəaliyyətə başlamışdır. İlk yaranan vaxt 4 radio nöqtəsi fəaliyyət göstərirdisə, 60-cı illərin sonlarında radio nöqtələrinin sayı artmış və radioqəbuledicilərin sayı 1 minə çatmışdır. Aparılan tədqiqatlara əsasən müəyyən edilmişdir ki, adambaşına düşən radio nöqtələrinin və radioqəbuledicilərinin sayına görə DQMV-i ümumrespublika göstəricilərindən 2 dəfə çox idi [365].

Beləliklə, 1950-1960-cı illərdə Azərbaycan hökumətinin böyük qayğısı nəticəsində Şuşa rayonunda mədəni-maarif və mətbuat, mürəkkəb və ziddiyyətli hal müşahidə edilsə belə, çox mühüm irəliləyiş olmuşdur. Rayonda mədəni-maarif müəssisələrinin sayı ilbəil çoxalırdı. Onlarla yeni kitabxanalar təşkil edilmiş, kino qurğuları istifadəyə verilmişdir. Şuşada yeni klublar, mədəniyyət sarayları yaradılmış, muzeylər açılmışdı.

Bəhs edilən illərdə Şuşa rayonunda qəzetlərin nəşri 2,7 dəfə artmış, yeni yerli radio verilişləri studiyası yaradılmışdı. 20 il ərzində rayonda radio verilişlərinin məzmunu dəyişərək daha cəlbedici olmuşdu. Bütün bunlar isə Şuşa rayonunda yaşayan əhalinin mədəni və ümumi təhsil səviyyələrinin yüksəlməsinə müsbət təsir göstərmişdir.

1941-1961-ci illərdə Naxçıvan Muxtar Respublikasında məktəblərin sayı 196-dan 198-ə, müəllimlərin sayı isə 1039-dan 2018-ə çatdı. Həmin illərdə Naxçıvanda 2 məktəb, Bakı şəhərində 8 məktəb tikilmişdirsə, DQMV-də 10 məktəb tikilib istifadəyə verilmişdir. 1960-1961-ci tədris ilində Azərbaycanda 300 səkkizillik məktəb tikilmişdir ki, bundan 13-ü Naxçıvan MSSR-nın, 24-ü isə DQMV-nin, 2-si Şuşa rayonunun payına düşürdü. Bəhs etdiyimiz tədris ilində Vilayətdə hər məktəbə 13 müəllim düşürdüsə qonşu Füzuli, Ağdam, Cəbrayıl rayonlarında bu göstərici 11-ə çatırdı. Həmçinin ümumrespublika üzrə bu göstərici 11-ə bərabər idi [377]. Diqqəti cəlb edən məsələlərdən də biri ondan ibarətdir ki, arxiv materiallarında, yaradılmış məktəblərin yerləşdiyi ərazilərin əksəriyyəti ermənilərin cəmləşdiyi kəndlərdə olması faktları müəyyənləşmişdir. Vilayətdə bütün kargüzarlıq, məhkəmə işləri, erməni məktəblərində təhsil erməni dilində aparılırdı. Vilayətin idarə orqanlarında az-çox çalışan azərbaycanlılar erməni dilində danışmalı, dövlət sənədləri, rəsmi yığıncaqlardakı mühazirələr və sair erməni dilində aparılırdı. Hər yerdə erməni daşnakları tərəfindən məqsədli şəkildə Azərbaycan dili sıxışdırılır, tariximiz, ədəbiyyatımız yaddaşlardan silinirdi.

Şuşa rayonunda gənclərin və yaşlıların istehsalatdan ayrılmadan təhsil alması üçün 1967-1968-ci dərs ilində 2 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Bu məktəblərdə 125 istehsalatçı təhsilini artırırdı. Rayonda yeddiillik və orta qiyabi axşam məktəbləri də fəaliyyət göstərirdi ki, onların sayı ümumrespublika səviyyəsindən çox-çox yüksəkdə dayanırdı. Məsələn 1950-51-ci tədris ilində Azərbaycanda belə məktəblərin sayı 140-a çatırdısa, bundan 6-sı Naxçıvan MR-da, 17-si DQMV-də, ikisi Şuşa rayonunda fəaliyyət göstərirdi. Şagirdlərin sayında isə

qonşu Xankəndi, Hadrud rayonlarına nisbətən Şuşa rayonunda 2 dəfədən az şagirdin təhsil alması halı müşahidə edilmişdir [383].

Azərbaycanın Şuşa rayonunda 1950-1960-cı illərdə məktəbəqədər və məktəbdənkənar uşaq müəssisələri şəbəkəsi genişləndi. Belə ki, 1950-ci ildə rayonda uşağ bağçalarının sayı 2, orada tərbiyə olunan uşaqların sayı 60-a endi. 1965-ci ildə isə Vilayət Partiya Komitəsinin "əmri" ilə Şuşa rayonunda mövcud uşaq bağçaları tamamilə ləğv edildi.

1970-ci ildə Azərbaycan Respublikası üzrə 172 məktəbdənkənar uşaq müəssisəsi, pioner və məktəblilər sarayı, gənc texniklər, təbiət stansiyaları, park və idman məktəbləri vardır ki, bundan 27-si DQMV-nin, ikisi Şuşa rayonunun, 12-si isə Naxçıvan MSSR payına düşürdü [399].

Şuşa rayonundakı müəllimlər Respublika və Bakı müəllimləri təkmilləşdirmə institutlarında elmi və metodiki cəhətdən öz bilik səviyyələrini yüksəldirdilər. Təsadüfi deyildir ki, Şuşa rayonunun 1940-cı illə müqayisədə 1961-ci ildə ali təhsilli müəllimlərin sayı 2 dəfə artaraq 220 nəfərə çatmışdır. Bu Şuşa rayonu müəllimlərinin ümumi sayının 35 faizi demək idi. Naxçıvan Muxtar Respublikasında isə bütün müəllimlərin 30 faizi ali təhsil almışdılar. Bu hal Azərbaycan hökumətinin Vilayətə göstərdiyi qayğının nəticəsi kimi qiymətləndirilməlidir. Xatırladaq ki, Vilayət üzrə bu göstərici 40 faiz, Ümumrespublika üzrə isə bu göstərici 38,9 faiz təşkil edirdi.

XX yüzilliyin 50-60-cı illərində DQMV-də o cümlədən təlimin məzmununda bəzi dəyişikliklər edildi. VIII-X siniflərdə erməni dilinin tədrisinə həftədə 1 saat əlavə vaxt ayrıldı. Rus dili və erməni dilinə ciddi fikir verilir, rus dili müəllimlərinin hazırlanması genişləndirilirdi. 1950-ci ildən II-X siniflərdə rus dili və ədəbiyyatının tədrisinə tədris planlarında həftədə 5-6 saat ayrıldı. Erməni və rus ədəbiyyatı, habelə Qərbi Avropa ölkələri ədəbiyyatının tədrisinə xüsusi diqqət yetirilirdi. 1958-1959-cu tədris ilində orta məktəblərdə «Azərbaycan tarixi»nin tədrisinə həftədə 1 saat ayrılsa da, həmin fənn tədris edilmirdi. 1960-1961-ci tədris ilindən orta məktəblərin tədris planına «İctimaiyyət» fənni də əlavə olundu. 1949-1950-ci illərdə ümumi yeddiillik

təhsil, 1959-1960-cı illərdə isə icbari səkkizillik təhsil tətbiq olundu. 1966-cı ildən orta təhsil-ümumtəhsil elan edildi. Şuşa rayonunda məktəblərin şəbəkəsi genişləndi və 1950-1951-ci tədris ilində məktəblərin sayı müharibədən əvvəlki səviyyəni ötüb keçdi. Artıq 1970-1971-ci tədris ilində rayonda 7 orta, 9 səkkizillik və 2 ibtidai məktəb fəaliyyət göstərirdi. Həmin tədris ilində şagirdlərin sayı 1516, müəllimlərin sayı 210-a çatdı. Bəhs etdiyimiz dövrdə Şuşa rayonunda politexnik təlimə diqqət artırıldı. Məktəblərin nəzdində tədris emalatxanaları, kənd məktəblərində isə məktəb nəzdində tədris-təcrübə sahələri yaradılırdı. Məktəblərdə istehsalat təliminin tətbiqi ilə rayonda minlərlə ixtisaslı mütəxəssis hazırlanmışdır [393].

Şuşa rayonunda orta məktəbi bitirən məzunların 3-dən 1-i öz təhsillərini Bakı, İrəvan, Moskva, Leninqrad, Kiyev, Minsk, Riqa, Daşkənd universitet və institutlarında davam etdirirdilər. Artıq 70-ci illərin sonlarında Şuşa rayonunda xalq təsərrüfatında çalışan mütəxəssislərin sayı 1500 nəfəri keçmişdi [408].

İkinci dünya müharibəsindən sonrakı illərdə Azərbaycanın hər yerində, o cümlədən, Şuşa rayonunda ali təhsil daha da inkişaf etdi. Yeri gəlmişkən qeyd edək ki, 1938-ci ildə Xankəndində Müəllimlər institutunun yaradılması Şuşanın məktəblərini ali təhsilli mütəxəssislərlə təmin etməkdə böyük işlər gördü. İlk yaranan vaxtlar 15 müəllimi, 150 tələbəni birləşdirən İnstitutun 1950-ci ildə daha 3 şöbəsi yaradıldı. 1940-1950-ci illər ərzində Xankəndi Müəllimlər İnstitutunda tələbələrin sayı 450-yə müəllimlərin sayı 60-a çatdı. İnstitutda erməni dili və ədəbiyyatı, rus dili və ədəbiyyatı, fizika-riyaziyyat, tarix, təbiət və coğrafiya şöbələri fəaliyyət göstərirdi. Sonrakı illərdə Vilayətin Müəllimlər İnstitutunun yeni fakültələri (ibtidai təhsilin pedaqogikası və metodikası, Ümumi texniki fənlər) yarandı. 1970-ci ildə Xankəndi Müəllimlər İnstitutunun həm müəllimlərinin, həm də tələbələrinin sayı 1950-ci illə müqayisədə 2 dəfə artdı [401].

XX yüzilliyin 50-60-cı illərində orta ixtisas təhsilli müəssisələrin sayı da artırdı. Həmin təhsil ocaqlarında sənaye, tikinti, nəqliyyat və kənd təsərrüfatı mütəxəssisləri hazırlanırdı.

Beləliklə, 1950-1960-cı illərdə, Azərbaycanın başqa rayonları ilə müqayisədə, Şuşa rayonunda təhsil səviyyəsi üstün idi və sürətlə inkişaf edirdi. Həmin dövrdə yeddiillik, səkkizillik və orta icbari təhsilə keçid baş verdi. Ali təhsilin şəbəkəsi genişləndi və Şuşa rayonunda müxtəlif ixtisaslı millətlərdən olan kadrların sayı xeyli artdı. Eyni zamanda, həmin kadrların yerləşdirilməsinə «beynəlmiləlçilik» pərdəsi altında xüsusi diqqət yetirildi. Rayonun idarə orqanlarında qeyri-azərbaycanlıların yerləşdirilməsi sovet imperiyasının bölgədə dayaqlarının daha da möhkəmlənməsinə ciddi təsir göstərdi. DQMV-də təhsil işinə rəhbərlik edən qeyri-azərbaycanlılar «Azərbaycan dilində təhsilin gələcəyinin olmadığı» iddiası ilə gördükləri tədbirlər nəticəsində Vilayətin azərbaycanlılar yaşayan kəndlərdə tədris işlərinə ağır zərbə vurmuşdular. Həmçinin, Vilayətin azərbaycanlılar yaşayan kəndlərə biganə münasibət həmin kəndlərin süni surətdə boşalmasına şərait yaratdı.

1950-1960-cı illərdə bütövlükdə Azərbaycanda, o cümlədən DQMV-də elm böyük uğurla inkişaf edirdi. Hələ XX yüzilliyin 40-cı illərinin ortalarında yaradılmış Azərbaycan SSR Elmlər Akademiyasının Dağlıq Qarabağ filialı qısa bir müddətdə xeyli işlər görmüşdür. 1950-ci ildə Dağlıq Qarabağda daha bir elmi mərkəz «Azərbaycan SSR Elmlər Akademiyası Genetika və Seleksiya İnstitutunun Qarabağ Elmi təcrübə bazası» açılmışdır [418].

Azərbaycan Elmlər Akademiyasının Dağlıq Qarabağ Filialı və Şuşa Elmi Təcrübə Bazası öz fəaliyyətlərini inkişaf etdirir, müxtəlif problemlərin öyrənilməsini daha da dərinləşdirir, istehsalatla əlaqələri genişləndirir, elmi kadrların hazırlanması işinə xüsusi diqqət yetirirdi. XX yüzilliyin 50-60-cı illərində Şuşa rayonunda elmi kadrların sayı 8 dəfə artmışdı [412].

XX yüzilliyin 50-60-cı illərində ictimai və humanitar elmlər sahəsində mühüm nailiyyətlər əldə edilmişdi. Azərbaycanın bir çox ərazilərində o cümlədən Şuşa rayonunda arxeoloji qazıntı işləri aparılmış və rayonda qədim və orta əsrlər tarixinin bir çox öyrənilməmiş məsələlərini işıqlandıran maraqlı arxeoloji materiallar tapılmışdır. Bu işdə M.M.Hüseynovun, Ə.Q.Cəfəro-

vun bölgədə apardıqları arxeoloji elmi-tədqiqat işləri mühüm əhəmiyyətə malik idi. 1964-cü ildən Azərbaycan SSR Şuşa rayonu ərazisində abidələrin öyrənilməsinə başlanmışdır.

Beləliklə, aparılan tədqiqatlar nəticəsində məlum olur ki, gözəl Qarabağımızın cənnət yaylağı, Oğuz-Türk diyarımız olan barlı-bərəkətli, min bir nemətli Şuşa ərazisi dünyada ilk insanların yaşadığı ərazilərdən biri olmuşdur. Şuşanın hər bir qarış torpağında, daşında ulu babalarımızın nəfəsi duyulur.

Azərbaycanın İrəvan xanlığında dövlət yaradan ermənilər bu gün tariximizi saxtalaşdırmağa çalışırlar. Hətta onlar tarixi abidələrimizi özününküləşdirmək üçün bütün yollardan (cinayət işlətməkdən belə) çəkinmirlər. Belə müəlliflərdən biri Ş.Mkrtıçyandır. Onun 1986-cı ildə İrəvanda çap edilmiş «Dağlıq Qarabağın tarixi memarlıq abidələri» adlı əsəri heç bir elmi əsası olmayan, boş bir cəfəngiyatdır. Ermənilərin «alimi» hesab edilən Ş.Mkrtıçyan Qarabağdakı bütün abidələrin ermənilərə aid olmasını öz kitabında geniş şərh etmişdir. Ş.Mkrtıçyan «erməni xalqı»nın tarixinin başlanğıcını aşel dövrünə aid edir (350-550 min il bundan əvvələ). Əvvəla, Ş.Mkrtıçyan bir həqiqəti bilməlidir ki, 550 min il bundan əvvəl, aşel dövründə müasir insanın heç bir yerdə əcdadı yaşamayıb. Eyni zamanda, həmin dövrdə ptikantrop, sinantrop tipli ibtidai insanlar yaşamışlar. Bütün bunlarla yanaşı, «hörmətli uzaqgörən alim» bir həqiqəti də yaddan çıxarır ki, 350-550 min il bundan əvvəl yer kürəsində heç bir millət və xalq olmayıb.

Erməni yazıçısı Sero Xanzadyan isə Ş.Mkrtıçyanın kitabına geniş həcmli məqalələr həsr etmişdir. Ş.Mkrtıçyanı erməni xalqının «tacı» hesab edən S.Xanzadyan 1986-cı il «Avanqard» jurnalının 5-ci sayında və 1989-cu il (aprel) «Kommunist» qəzetində, həqiqətən Qarabağ abidələrindəki tarixi maddi dəlillərin ermənilərə aid olması fikrini «təsdiqləyir». Eyni zamanda S.Xanzadyan erməni «aliminə» məsləhət görür ki, onun tutduğu yol yaxşı yoldur, təkcə Qarabağ ərazisi yox, həm də Qazax-Şamxor, Şəki-Zaqatala əraziləri də Ermənistana aid olmuşdur və bu sahədə tədqiqat işini genişləndirmək lazımdır. Erməni «alimi» V.Ulubabyan isə «Kommunist» qəzetinin 18

avqust 1988-ci il sayında Dağlıq Qarabağı Ermənistanın Şərq hissəsi olmasını yalançı faktlarla açıqlamağa çalışır. Elmə, fakta əsaslanmayan tarix, əsası, bünövrəsi olmayan binaya bənzər. Bu dəfəki erməni yalanı da «ayaq tutsa da, yerimədi». Görünür Ulubabyanlar, Xanzadyanlar, Mkrtıçyanların «Qarabağnamələr»-dən xəbərləri yoxdur. Dünyanın 70-dən çox ölkəsində öz naxələf, haqsız işlərinə haqq qazandırmaq üçün təbliğat aparan erməni müəllifləri vaxt gələcək ki, yalançı, saxta, cəfəng uydurmalarına görə xalqımız və dünya ictimaiyyəti qarşısında cavab verəcəklər. Qərəzsiz elmi araşdırmalara əsaslanaraq, qəti surətdə deyə bilərik ki, İrəvan xanlığı da daxil olmaqla, tarixin heç bir mərhələsində Azərbaycan ərazisində heç vaxt ermənilər ayrıca bir dövlət təşkil etməmiş, nə də ermənilərin «Arsax» adlandırdıqları ərazidə (Dağlıq Qarabağda) ermənilər say çoxluğuna qətiyyən malik olmamışlar. Azərbaycanın ərazi bütövlüyü həmişə qorunub saxlanılmışdır. Xalqımızın birliyi əsasında biz yenə də ərazi bütövlüyümüzü bərpa edəcəyik.

XX yüzilliyin 50-60-cı illərində Azərbaycan tarixçiləri dövlətimizin qədim tarixinin öyrənilməsi məqsədilə vacib tədqiqatlar aparmışlar. Azərbaycan tarixinə dair yeni və qiymətli mənbələr – 1949-cu ildə «Azərbaycan tarixinin oçerkləri», 1958-1963-cü illərdə üçillik «Azərbaycan tarixi», «Azərbaycanda Sovet hakimiyyəti uğrunda fəal mübarizələr», «Azərbaycan Kommunist partiyasının tarixi oçerkləri», o cümlədən sırf Qarabağın tarixinə dair 1950-ci ildə «Qarabağnamə», 1959-cu ildə «Qarabağ tarixi», 1963-cü ildə «Qarabağ bolşeviklərinin Sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizəsi», 1970-ci ildə «DQMV Sovet hakimiyyəti illərində» və başqa əsərlər nəşr olundu.

Bəhs etdiyimiz dövrdə ictimai elmlər sahəsində – xüsusilə Azərbaycanın fəlsəfi və ictimai fikir tarixinin öyrənilməsində, filosoflarımızın fəlsəfi fikirlərinin tədqiqində, memarlıq abidələrinin, Azərbaycan klassiklərinin ədəbi irsinin tədqiqində böyük nailiyyətlər əldə edildi. Ü.Hacıbəyovun «Azərbaycan xalq musiqisinin əsasları», H.Hüseynovun «XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən», Ə.Dəmirçizadənin «Azərbaycan dilinin

tarixi», «Kitabi Dədə Qorqud dastanlarının dili», F.Qasımzadənin «XIX əsr Azərbaycan ədəbiyyatı tarixinin oçerkləri», H.Araslının «XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi», Ə. Quliyevin, Ə.Əlizadənin, Z.Bünyadovun və başqa alimlərimizin qiymətli tədqiqatları xalqımızın qiymətli, mənəvi sərvətinə çevrildi.

XX yüzilliyin 50-60-cı illərində Azərbaycan SSR-in DQMV-nin müxtəlif sahələrinin əhatə edən əsərlər yazıldı. Belə ki, F.Şuşinskinin «Şuşa» (1968), «M.Qorki adına DQMV-nin kitabxanası» (1962), «DQMV-i Sovet hakimiyyəti illərində» (1970, «Qarabağ ipəkçilik sənayesi sovet hakimiyyəti illərində» (1957), S.Barsenin «Dağlıq Qarabağ Muxtar Vilayəti» (1963), N.S. Şaxnazarovun «DQMV» (1960), «V.İ.Leninin kooperasiya planının DQMV-də həyata keçirilməsi» (1958), «DQMV-nin dövlət tarixi muzeyinə ekspedisiya» və başqa əsərlər nəşr olundu. Lakin həmin dövrdə yazılmış əsərlərin nəşri irəliyə doğru mühüm addım olsa da Azərbaycanın ayrılmaz tərkib hissəsi olan DQMV-nin tarixinin bir sıra problemlərinin işlənilməsinin elmi səviyyəsi hələ yüksək deyildi. Təəssüf və təəccüb doğuran bir məsələni xüsusi qeyd etməliyik ki, XX yüzilliyin 50-60-cı illərində DQMV-nin tarixinin tədqiqi erməni müəlliflərinə «qismət» olmuşdur. Yazılan həmin əsərlər isə erməni müəllifləri öz mənafelərinə uyğun qələmə almış, yalnız çaşdırma, yanıltma xarakteri daşımışdır. Qarabağımızın qədim, orta və yeni dövrünə aid problemlər özünün dərin və əsaslı tədqiqini gözləyirdi.

Azərbaycan sərvətlərindən – o cümlədən zəngin yeraltı və yerüstü təbii sərvətlərə malik Dağlıq Qarabağ sərvətlərindən daha çox faydalanmaq üçün mərkəz, Respublikamızın elmi gücünü artırmağa və ondan səmərəli istifadə etməyə çalışırdı. Bu məqsədlə 1950-ci ildən bölgəyə ekspedisiya təşkil olunmağa başlandı. Dağlıq Qarabağda çox böyük əhəmiyyətə malik olan faydalı qazıntı ehtiyatları vardır. Belə ki, ərazidə Mezozoy və Kaynazoy erasına aid əhəng daşları, gillər, şistlər aşkar edilmişdir. Tərtərçay və Xaçınçay arasında Ağdərənin Mehmana yatağında qalay, mis, sink, gips, əhəngdaşı, Vilayətdə qranit yataqları, dağlarda xromit, qurğuşun, polimetal filizləri, tikinti

materialları, mərmər, gips, üzlükdaşı, mergellər, odadavamlı gil, təbaşir və sair mövcuddur. Dağlıq Qarabağda bülöv daşı və dəyirman daşı istehsalı üçün xammal vardır. Azərbaycanın Dağlıq Qarabağ adlı səfalı bölgəsində dünya miqyasında tanınmış müalicəvi əhəmiyyətli hidrokarbonatlı Turşsu mineral bulağı daha çox məşhurdur. Bununla yanaşı ərazidə 11 növ müxtəlif tərkibli su sistemləri yerləşir. Bütün bu cəlbedici gözəlliklər və təbii sərvətlərimiz xain qonşularımızın diqqətindən yayınmamış və bu gün Qarabağımız işğal olunaraq təbii sərvətlərimiz talan edilib Ermənistana daşınmaqdadır.

Sənayenin xammala olan tələbatını ödəmək və xalq təsərrüfatını inkişaf etdirmək məqsədilə 1950-ci ildən başlayaraq Dağlıq Qarabağın florası öyrənilməyə başlandı. Tədqiqatçı alimlərimiz kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını artırmağın həllinə köməklə əlaqədar bitkilərin fiziologiyası və mühafizəsi məsələlərinin tədqiqini genişləndirdilər. Burada üçüncü bir vəzifə də vardır ki, torpağın eroziyasının qarşısı alınsın. Bu məqsədlə 1950-ci ildə «Torpaq-Eroziya Stansiyası» yaradıldı. Dağlıq Qarabağın müxtəlif sahələrində nəbatatçı alimlərimizdən – Ə.İ.Quliyevin (1965), V.Z.Quliyevin (1950), İ.S.Səfərovun (1966), N.H.Axundovun (1963) apardıqları tədqiqatlar nəticəsində 1000 hektarla sahədə terraslaşdırma yolu ilə yeni növ bitki plantasiyaları salındı. Hibritləşmə yolu ilə yeni bitki növlərinin yetişdirilməsi məhsuldarlığı 100 faizə qədər yüksəltdi. Məsələn Ə.İ.Quliyev 1965-ci ildə Vilayət ərazisində yetişdirdiyi yeni növ qoz ağacının meyvəsi 10,8 qramdan 17,5 qrama, yağlılığı 61 faizdən 71 faizə qalxmışdır. A.Nikitin isə 1959-cu ildə Dağlıq Qarabağ meşələrində bitən ağacların oduncaqlarının möhkəmliyi, yaraşığı ilə fərqləndiyini göstərmişdir. 1960-cı ildə aparılan tədqiqatlarda Dağlıq Qarabağ rayonu ərazisində dəniz səviyyəsindən 1200-1300 metr yüksəkliklərdə şabalıd ağaclarının bitdiyi göstərilirdi. Nəbatatçı alimlər yeni növ şabalıd, fındıq, əzgil, alça, saqqızağacı və sair yetişdirib bölgəyə yaymışlar.

XX yüzilliyin 50-ci illərindən Vilayət ərazisində dənli bitkilərin yeni növlərini almaq və mövcud növlərin dəyişdirmək

prosesinin öyrənilməsi sahəsində səmərəli işlər aparılırdı. Vilayət şəraitində seleksiyaçı alimlər tərəfindən yüksək məhsuldar buğda növü olan «Qılcıqsız – 1» yetişdirilmişdir [445]. Bütün növlər arasında birinci yerə çıxan həmin növ bölgənin taxılçılıq təsərrüfatlarında yayılaraq əkilmişdir.

Üzüm yetişdirmək Qarabağlıların çoxdankı sənətidir. Lakin qədimdə tənəklər sistemsiz və qaydasız əkilirdi. 1957-ci il Vilayətdə üzümçülüyün inkişafında mühüm mərhələ olmuşdur. Həmin il böyük sahələrdə mexanikləşdirilmiş üsulla üzüm plantasiyaları yaradılmış yeni və daha məhsuldar «Rakasteli», «Bayan-Şirey», «Xidoqni» kimi üzüm növləri əkilmişdir. Məhsuldarlığı daha da artırmaq üçün alimlərimiz superfosfatdan, azot selitrasından və digər gübrələrdən istifadə olunmasını təkmilləşdirib daha geniş sahələrə tətbiq etdilər [461].

Misilsiz dada və müalicə keyfiyyətinə malik Şah tut ağacının Şuşada «ömür ağacı» adlandırırdılar. Tutda şəkərliliyin miqdarı 37 faizə çatdığından ondan müalicəvi əhəmiyyətli bəhməz və spirt hazırlanır [467]. Təsadüfi deyildir ki, rayonda yazılmış elmi tədqiqat əsərləri içərisində tut ağacına onun meyvəsinə, yarpaqlarından istifadəyə, əkilməsi və hibridləşməsinə həsr edilmişdir. Məsələn, «Meyvə verən üç növ tut ağacının biokimyəvi xüsusiyyətləri», «Şah tut ağacı və onun DQMV ərazisində yetişdirilməsi», «Spirt çəkildikdən sonra tut törtöküntülərindən yem hazırlamaq üsulları» və sair belə əsərlərdəndir. Çox qulluq tələb etməyən, quraqlığa davamlı, əhəmiyyətli şah tut bağları genişləndirilərək 1600 hektara çatdırıldı [470]. Həm də barama qurdu saxlamaq üçün yem bazarı rolunu oynayan tut bağlarını gələcəkdə daha da genişləndirmək nəzərdə tutulmuşdur.

Şuşa rayonunun zəngin yaylaqları və biçənəkləri, ümumiyyətlə təbii şəraiti heyvandarlığın inkişafı üçün əlverişlidir. Lakin mal-qaranın cinsinin pis olması heyvandarlıqda məhsuldarlığın aşağı düşməsinə səbəb olmuşdu. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, XX yüzilliyin əvvəllərində Şuşada baytarlıq xidməti bir həkimdən və bir feldşerdən ibarət olmuşdur. Azərbaycan hökuməti bölgədə heyvanların cins tərkibinin yaxşı-

laşdırılması üçün ciddi tədbirlər həyata keçirdi. Belə ki rayona bacarıqlı mütəxəssis kadrlar göndərildi. Aqromantəqə diaqnoz kabinəsi və damazlıq stansiyası açıldı. Baytar mütəxəssislərin apardıqları elmi təcrübələrə əsasən süni mayalanma sistemi tətbiq olundu. Nəticədə mal-qaranın cins tərkibi yaxşılaşmış və məhsuldarlıq yüksəlmişdi. Yeni cinslər – «şvits», «lebedenski», «karpat» metisləri vilayətin fermalarında yayılmışdır [471].

XX yüzilliyin əvvəllərində Qarabağın Qaradolaq kənd sakini məşhur kəllədar Hacı Məhəmmədhüseyinin yeni cins qoyun yaratmaq işini, 50-ci illərdə F.A.Məlikovun rəhbərliyi altında mütəxəssis alimlər tərəfindən davam etdirilmişdir. Alimlərimiz yarımzərif yunlu, xəstəliyə və təbii amillərə qarşı dözümlü yeni qoyun cinsi – Azərbaycan dağ merinosu yetişdirmək işini başa çatdırdılar [448]. Beləliklə, mütəxəssis alimlərimiz kənd təsərrüfatı heyvanlarının məhsuldarlığını artırmağın bioloji əsaslarını hazırlamaq sahəsində mühüm işlər gördülər.

Dağlıq Qarabağın elmi nailiyyətlərindən danışarkən Harov kənd sakini G.T.İlyenkonun adını xüsusi qeyd etməliyik. İlyenkonun ətrafında Dağlıq Qarabağın mütəxəssis alimləri toplanmışdı. Yeni növ sahəsinin aqronomu İlyenko diyarın kənd təsərrüfatının elmi əsaslarla inkişaf etdirilməsində böyük rol oynamışdır. Alimin ətrafında toplaşan miçurinçilər bol məhsul yetişdirmək bacarığını kənd əməkçilərinə öyrədir müxtəlif bitkilərin ən yaxşı növlərini geniş yayırdılar.

Dağlıq Qarabağın sənaye müəssisələrində elmi yeniliklər böyük müvəffəqiyyətlə tərtib olunurdu. Məsələn, Qarabağ İpək Kombinatının fəhlələri bəhs etdiyimiz dövrdə yaradıcılıq və yüksək siyasi şüurluluq nümayiş etdirərək müəssisədə yeni üsul tərtib edib çoxdəzgahçılıq hərəkatını genişləndirmişdilər. Azərbaycan hökumətinin dərin qayğısı nəticəsində müəssisədə işləyən fəhlələr öz təhsillərini ali və orta ixtisas məktəblərində davam etdirirdilər. Nəticədə həmin müəssisənin fəhlələrinin əksəriyyəti öz ixtiraları və səmərələşdirici təklifləri ilə fərqlənirdilər. Bütün bunlar isə məhsulun əmək məsrəfinin azalmasını, keyfiyyətin və məhsuldarlığın yüksəlməsinə səbəb olurdu.

Dağlıq Qarabağın xalçaçılıq, şərabçılıq, elektrotexnika məmulatları zavodu və başqa müəssisələri Bakıda fəaliyyət göstərən Elmi Tədqiqat İnstitutları ilə əlaqə əsasında yeni qabaqcıl metodları, ixtiraları tətbiq edir və yüksək məhsuldarlığa nail olurdular. Bakı Elmi Tədqiqat və layihə İnstitutları Şuşa rayon müəssisələrinin genişləndirilməsi və yenidən qurulması, istehsalın texnologiyasının təkmilləşdirilməsi üçün faydalı işlər aparmışlar.

XX yüzilliyin 50-60-cı illərində DQMV-nin relyefi, geoloji quruluşu, iqlimi, daxili suları, torpaq və bitki örtüyü, landşaftı, iqtisadi-coğrafi mövqeyinin öyrənilməsi işi uğurla davam etdirilirdi. Bu işdə E.Ş.Şıxalıbəylinin (1966), Quliyevin (1966-cı il), Tanrıverdiyevin (1967-ci il), Şirinovun (1967-ci il), V.Q.Zavaryevin (1948-ci il), B.T.Nazirovanın (1949-cu il) və başqalarının xidmətləri böyük olmuşdur [479].

Azərbaycan alimləri DQMV-də enerji ehtiyatlarını aşkara çıxarır, ondan düzgün istifadə olunması şərtlərini müəyyənləşdirir, mövcud enerji sistemlərinin səmərələşdirilməsi üsullarını işləyib hazırlayırdılar. Belə enerji mənbələrindən biri Tərtər çayı üzərində Madagiz kəndi yaxınlığında, əsası 1938-ci ildən qoyulan və müharibənin başlanması ilə tikintisi dayandırılan Sərsəng SES idi. Sərsəng SES məşhur Sovet energetika alimi Q.O.Qrattionun müddəalarına, böyük təcrübəyə, dərin biliyə malik mühəndis alim Bəxtiyar Məmmədovun layihəsinə və T.V.Prokofyeviçin dəqiq hesablamalarına əsaslanmışdır. Həmin hidrotexniki qurğu 1965-1976-cı illərdə tikilib istifadəyə verilmişdir. Qovşağın torpaq bəndinin hündürlüyü 130 metr, su aşırma qabiliyyəti 900 $m^3$ san. Elektrik stansiyasının gücü 50 min kilovat və 565 milyon $m^3$ su anbarından ibarətdir [490].

Azərbaycan SSR DQMV-də 1940-cı ildən Azərbaycan Yazıçılar İttifaqının Vilayət Birliyi yaranmışdır. Çox təəccüblə qeyd etməliyik ki, aparılan tədqiqatlar nəticəsində DQMV-nin «Ədəbiyyat və incəsənət» mövzusunu əhatə edən əsərlər nəzərdən keçirilərkən dünya ədəbiyyatına N.Vəzirov, Ə.Haqverdiyevi, S.S.Axundov, Y.V.Çəmənzəminli kimi görkəmli ədiblər bəxş etmiş Qarabağ torpağında onların davamçılarının adları

çəkilmir. Yalnız V.Akopyan, O.Qabrelyan, R.Beqlaryan, V.Ovyan, İ.Alaverdiyan, M.Avanesiyanların adları böyük fəxrlə vurğulanır. Burada yaşayanlar Nəvvabın, Zakirin, Nətavanın övladları deyilmi? Məkan dəyişməyib. Dəyişən zaman və insanlardır. Məkirli niyyət, mənfur siyasət sahibləri torpaqlarımıza köçürüldükdən sonra dərin düşüncəli azərbaycanlıları sıxışdırmağa, süni əngəllər yaratmağa və ərazidən uzaqlaşdırmağa başladılar. Bütün bunlar isə sonrakı dövrdə öz mənfi nəticələrini verdi.

«Dağlıq Qarabağ Dövlət Mahnı və Rəqs ansamblı» 1959-cu ildən fəaliyyət göstərməyə başlamışdır. Bəhs etdiyimiz illərdə DQMV-də «Qarabağ» Dövlət Estrada orkestri də, rəngarəng çıxışları ilə şöhrət qazanmışdır. Onların repertuarı zəngin və rəngarəng idi. Bu kollektivlər şəhər və kənd sakinləri qarşısında SSRİ-nin bütün mahnı və rəqslərini fəal təbliğ edirdilər. Hər 2 kollektivin qastrol səfərlərinin coğrafiyası geniş olmuşdur. Həmin səfərlərin marşrutuna Ukrayna, Belarusiya, Ermənistan, Moldaviya, Gürcüstan, Şimali Qafqaz, Arxangelsk, Rostov, Baykal-Amur və başqa ərazilər daxil idi.

Bəhs etdiyimiz dövrdə Şuşada yaşayıb yaratmış Mirzə Xosrov Şaiq (1889-1960) Azərbaycan maarifçisi, pedaqoqu və şairi adlarına layiq görülmüşdür. Mirzə Xosrovun ən mühüm xidmətlərindən biri Şuşada yaşayan azərbaycanlı qızlarının təhsilə cəlb etməsi olmuşdur. Ömrünü millətinin maariflənməsinə həsr edən Mirzə Xosrov, həm də «Məclisi Fərmuşan»ın üzvü idi və «Şaiq» təxəllüsü ilə şerlər yazmışdır [518].

Azərbaycan musiqisinin inkişafına istedadlı özfəaliyyət kollektivlərinin yaradıcılığı kömək edirdi. 1960-cı ilin əvvəllərində Bakıda keçirilmiş «Özfəaliyyətə Respublika baxışı» tədbirində Şuşa xalq çalğı alətləri üçlüyü, müxtəlif janrların ifaçıları, xor və rəqs kollektivi də iştirak etmiş və yüksək səviyyədə qarşılanmışdır.

1970-ci ildə Şuşa rayonunda 100-dən çox özfəaliyyət dərnəyi və birliyi fəaliyyət göstərirdi ki, bunlara mindən çox həvəskar cəlb edilmişdir.

XX yüzilliyi 50-60-cı illərdə bir tərəfdən Sovet ateist təbliğatı, ikinci tərəfdən namərd erməni rəhbərlərinin xəyanətkar

siyasəti nəticəsində Şuşa ərazisində islam dini sıxışdırılır, məscidlərimiz dağıdılırdı. Lakin bölgədə yaşayan müsəlmanlar öz milli-mənəvi ənənələrini qoruyub saxlamağa çalışır, dini bayramlar, milli mərasimlər gizli qeyd olunur, müqəddəs ocaqlar ziyarət edilir və məscidlərimizin sayı az da olsa fəaliyyətlərini davam etdirirdilər [519].

Beləliklə, 1950-1960-cı illərdə Azərbaycan SSR-in Şuşa rayonunu Sovet hökuməti kommunist ideologiyasının hakim mövqe tutması siyasətini davam etdirir, insanların şüurunda sosializm cəmiyyətinin ədalətli, dostluğun, azadlığın qarantı olması ideyası yeridilirdi. Mərkəzi hökumətin bu siyasəti ilə yanaşı məkirli niyyət sahibi olan ermənilər böyüməkdə olan erməni gənclərinə gizli yollarla «müsəlmanların onlara düşmən olması, qədim torpağımız «Qarabağın Ermənistana mənsubluğu» və sair bədnam ideologiya da əlavə edilmişdi. Şuşa rayonu ərazisində yeni faydalı qazıntı, tikinti materialları yataqları və mineral su mənbələri aşkar edilərək Moskvaya və Ermənistana daşınırdı. Mərkəz, Azərbaycan alimlərinin gücündən səmərəli istifadə etməklə kənd təsərrüfatı və sənayenin üstün və sürətli inkişafına nail olmuş öz hərbi gücünü, və beynəlxalq nüfuzunu artırmışdır.

Əvvəlki illərdə olduğu kimi XX yüzilliyin 70-80-ci illərində də Sovet təbliğat maşını adamlarda belə bir inam yaratmağa çalışırdı ki, guya Sovet cəmiyyəti dünyada ən ədalətli cəmiyyətdir. Sovet həyat tərzi kapitalist həyat tərzindən daha üstündür. Məqsəd Kommunist partiyasına və onun liderlərinə əhalini inandırmaqdan ibarət idi. Təhsil sistemi mövcud rejimə sədaqətli kadrlar yetişdirilməsi işinə tabe edilmişdi. 90-cı illərin əvvəllərində Azərbaycan SSR-də 17 ali məktəb, 77 orta ixtisas məktəbi var idi. Azərbaycan üçün SSRİ-nin digər ali məktəblərində ən zəruri ixtisas sahələri üzrə on minlərlə kadrlar hazırlanırdı. Bu iş Heydər Əliyevin rəhbərliyi dövründə daha da genişləndi. Belə ki 1970-1982-ci illərdə Heydər Əliyevin böyük qayğısı sayəsində SSRİ-nin ən mühüm ali məktəblərində Azərbaycan üçün 17 mindən çox yüksək ixtisaslı mütəxəssis hazırlanmışdı.

1970-ci ildə Azərbaycanda 4500-dən artıq ümumtəhsil məktəbi, 182 texniki-peşə məktəbi vardı. Azərbaycanda milli hərbi kadrlar yetişdirilməsi məqsədi ilə Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə C.Naxçıvanski adına Respublika orta ixtisaslaşdırılmış internat məktəbinin açılması mühüm hadisə idi. Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərdən biri məhz onun istər Respublikadan kənarda, istərsə Respublikada hərbi kadrlar hazırlanmasını təşkil etməsi sayılmalıdır. Bu gün həmin məktəbin məzunları gənc Azərbaycan ordusunun möhkəmləndirilməsinə töhfə verirlər. İmperiya həmin illərdə təhsilin ruslaşdırılması istiqamətində fəal iş aparırdı. Məktəblərdə «SSRİ tarixi» adı altında Rusiyanın tarixi tədris olunurdu. «Azərbaycan tarixi» müstəqil fənn kimi tədris edilmirdi. Texnikum və institutlara qəbul zamanı ədalətsizlik, qeyri-obyektivlik adi hala çevrilmişdi. İstedadlı gənclər ali məktəblərə çətinliklə qəbul olunurdular. Bacarıqlı mütəxəssislər çox zaman layiq olduğu vəzifədən kənarda qalırdı. Mənfi cəhətlərə baxmayaraq, Azərbaycan təhsil sistemi inkişaf etməkdə idi. Ümumtəhsil məktəblərində 1,5 milyona yaxın şagird, ali təhsil ocaqlarında 100 mindən çox tələbə təhsil alırdı. Mədəni-maarif müəssisələrinin sayı da kifayət qədər artırılmışdı. 1975-ci ildə Bakıda Ü.Hacıbəyovun və S.Vurğunun, 1981-ci ildə Naxçıvanda H.Cavidin, 1982-ci ildə Bakıda C.Cabbarlının, Bülbülün ev-muzeyləri fəaliyyət göstərməyə başladı. Bütün bunlar hər cür təbliğat cəhdlərinə baxmayaraq, sovet cəmiyyətinə inamı getdikcə azaldırdı. 1990-cı ildə Respublikada 125 elmi idarə, 23 min nəfərdən çox elmi işçi, o cümlədən 10 mindən çox elmlər doktoru, elmlər namizədi, professor, dosent vardı. Görkəmli alimlər Xudu Məmmədovun kristalloqrafiyanın, Zahid Xəlilovun, Əşrəf Hüseynovun, Məcid Rəsulovun, Qoşqar Əhmədovun riyaziyyatın, Tofiq İsmayılovun kosmik cihazqayırmanın, Həsən Abdullayevin, Çingiz Cuvarlının fizikanın, Ümnisə Musabəyovanın, Sona Vəlixanlının, Zərifə Əliyevanın oftolmologiyanın, Mirəsədulla Mirqasımovun, Mirməmməd Cavadzadənin urologiyanın, Həsən Əliyevin torpaqşünaslığın, Cəlal Əliyevin bitki fiziologiyasının inkişafında, Validə Tutayu-

qun Qafqaz florasının öyrənilməsində böyük xidmətləri olmuşdur. 1987-ci ildə Bakıda Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyi fəaliyyətə başladı. Azərbaycanda yüzlərlə neft-qaz, faydalı qazıntılar, tikinti materialları yataqları, çoxlu mineral su mənbələri aşkar edildi. Neftçıxarma texnologiyası, yeraltı hidrodinamika sahəsində akademik A.Mirzəcanzadənin və onun yaratdığı elmi məktəbin nailiyyətləri böyük idi. Geologiya-mineralogiya elmləri doktoru Fərman Salmanovun rəhbərliyi altında Qərbi Sibirin neft və qaz yataqları kəşf olunmuşdu. Təkcə Tümen vilayətində F.Salmanov 20-dən çox neft yatağı kəşf etmişdi. Görkəmli neftçi-geoloq, alim Mirkazım Məmmədov Neft Daşları, Bahar, Qaradağ, Girovdağ, Qarabağlı və başqa qazkondensat yataqlarının açılması və istismarı işlərinin rəhbəri və iştirakçısı olmuşdu. Azərbaycan Geofizikləri Xəzər dənizinin İrana məxsus bölməsində qonşu dövlətin xahişinə əsasən 44 perspektivli neft-qaz strukturu aşkar etmişdilər. Azərbaycan astronomlarının elmi işləri bütün dünyada tanındı. Beynəlxalq Astronomiya İttifaqının qərarı ilə görkəmli astronom N.İbrahimovun şərəfinə Mars planeti kraterlərindən birinə «İbrahimov krateri», üç asteroidə «Azərbaycan», «Nizami Gəncəvi» və «ŞAR» (Şamaxı Astroloji Rəsədxanası) adı verildi. Lakin elmlərin, xüsusən ictimai elmlərin inkişafına kommunist ideologiyasının güclü təzyiqi ləngidici təsir göstərirdi. Xüsusən Azərbaycan tarixinin, ədəbiyyatının, incəsənətinin Sovet dövrü birtərəfli öyrənilir, ictimai quruluşun, sosialist təsərrüfat sisteminin qurğuları ört-basdır edilirdi. Bununla belə Ziya Bünyadov kimi vətənpərvər alimlərimiz əsl həqiqətləri üzə çıxarmaq, tarixi saxtalaşdıranlara qarşı öz sözünü deməkdən çəkinmirdilər. Bu illərdə Azərbaycan mətbuatı da xeyli inkişaf etmişdi. 1970-ci ildən Bakıda «Sovet Türkologiyası» jurnalı çap olunmağa başlamışdı. 1990-cı ildə Respublikada 168 qəzet, 91 jurnal çap olunurdu. Xalqın özünüdərk, milli dirçəliş prosesində «Qobustan» incəsənət almanaxı və «Ulduz» jurnalı mühüm rol oynayırdı. Hər il orta hesabla 1300 adda kitab nəşr edilirdi. 1976-1987-ci illərdə ilk milli ensiklopediya – «Azərbaycan Sovet Ensiklopediyası» çap olundu. Azərbaycan radiosu və televiziyası

xeyli inkişaf etmişdi. Respublika radiosu müxtəlif dalğalarda hər gün 1 proqram, «Araz» və «Sterio» proqramları ilə müxtəlif dillərdə 37 saat veriliş verirdi. Azərbaycan Beynəlxalq Radiosu təsis edilmişdi. Respublika radiosu və televiziyası bəşəri və milli dəyərlər fondunda Sovet həyat tərzini geniş təbliğ edirdi, milli oyanışa əhəmiyyətli təsir göstərirdi. Bu illərdə Azərbaycan ədəbiyyatı Anarın «Ağ liman», «Şəhərin yay günləri», Elçinin «Ağ dəvə», «Sos», İ.Əfəndiyevin «Büllur sarayda», Y.Səməd-oğlunun «Qətl günü» və b. əsərlərlə daha da zənginləşdi.

Azərbaycan incəsənəti daha da inkişaf etdi. Azərbaycan musiqisi Qara Qarayevin «zəriflik» monoqrafiyası, «Dostluq himni» Kantatası, Fikrət Əmirovun «1001 gecə» və «Nizami» baletləri dünyada ilk opera yazan qadın bəstəkar Şəfiqə Axundovanın «Gəlin qayası» operası, Rauf Hacıyevin, Emin Sabitoğlunun, Ağabacı Rzayevanın, Polad Bülbüloğlunun və b. mahnıları ilə zənginləşdi. Müğənnilər Zeynəb Xanlarova, Fidan və Xuraman Qasımovalar, Müslüm Maqomayev, Rübabə Muradova, Lütfiyar İmanov, Qədir Rüstəmov və b., pianoçular Fərhad Bədəlbəyli, Vaqif Mustafazadənin ifaçılıq sənəti özünəməxsus zəngin koloriti ilə seçilirdi. Azərbaycan səhnəsində Məlik Dadaşov, Əliağa Ağayev, Bəşir Səfəroğlu, Lütfəli Abdullayev, Amalya Pənahova, Fuad Poladov, Səməndər Rzayev, Yaşar Nuri, Rasim Balayev və b. rəngarəng obrazlar yaratdılar. Azərbaycan kinomatoqrafçıları «Yeddi oğlu istərəm» (rejissor T.Tağızadə), «Nəsimi» (rejissor H.Seyidbəyli), «Babək» (rejissor E.Quliyev), «İstintaq» (rejissor R.Ocaqov), «Dədə Qorqud» (rejissor T.Tağızadə), «Yaramaz» (rejissor V.Mustafazadə) və b. maraqlı kinofilmlər yaratdılar. Görkəmli heykəltəraşlar Fuad Əbdürrəhmanovun «İbn Sina» (Buxarada), Ömər Eldarovun «Ayni» (Düşənbədə), Cəlal Qaryağdının «N.Nərimanov», Tokay Məmmədovun və İbrahim Zeynalovun «Nəsimi», Mirələsgər Mirqasımovun «C.Məmmədquluzadə» və «C.Cabbarlı» və b. əsərləri möhtəşəmliyi və dərin ifadə tərzi ilə seçilirdi. Sovet siyasi sisteminin ateist təbliğatına baxmayaraq xalq milli ənənələrini qoruyub saxlayır, dini dəyərlərə söykənən bayram və mərasimləri yaşadırdı. Belə olduqda gizli fəaliyyət

göstərən müsəlman birliklərini nəzarətdə saxlamaq üçün 1976-cı ildə Ali Sovetin Rəyasət Heyəti «Azərbaycan SSR-də dini birliklər haqqında əsasnamə» qəbul etməli oldu.

1970-1985-ci illərdə Azərbaycan hökumətinin, dövlətimizin başçısı Heydər Əliyevin dərin qayğısı nəticəsində Azərbaycan SSR Şuşa rayonunda əhalisinin sosial-iqtisadi həyatında, məişətində, rifahında mühüm dəyişikliklər baş vermiş, gəlirlər, alıcılıq qabiliyyəti, ticarət, ictimai-iaşə, tibb, rabitə, məişət xidmətlərinin səviyyəsi yüksəlmiş, yaşayış məntəqələrinin su, qaz, kanalizasiya sistemləri ilə təchizatı yaxşılaşmışdı. Lakin bəhs etdiyimiz dövrdə Vilayətin erməni rəhbərliyi bir strateji xətt kimi bölgədə yaşayan azərbaycanlıların sosial-iqtisadi vəziyyətinin yaxşılaşmasına, onların intellektual səviyyəsinin yüksəldilməsinə bütün çirkin vasitələrdən istifadə edilməklə mane olmaq siyasəti yeritmişlər [536].

1970-1985-ci illərdə Azərbaycan SSR-in Şuşa rayonunda ictimai-iqtisadi həyatında olduğu kimi mədəni həyatında da mühüm irəliləyişlər olmuşdur. Bu dövr ərzində rayonun, uşaq müəssisələrinin, məktəblərin maddi-texniki və təhsil bazası möhkəmlənmiş, tədrisin keyfiyyət səviyyəsi yüksəlmişdir. Əlbəttə, Şuşa rayonunda bütün bu nailiyyətlərin əldə edilməsi Azərbaycan hökuməti və onun başçısı Heydər Əliyevin şəxsi təşəbbüsü və dərin qayğısı nəticəsində əldə edilmişdir. İlk növbədə, Azərbaycan hökuməti Şuşa rayonunda maarif və mədəniyyətin inkişafı üçün 1970-1985-ci illərdə xeyli vəsait ayrılmış və ildənilə bu vəsaitin həcmini artırmışdır. Belə ki, 1970-ci ildə 1 milyon manat vəsait ayrılmışdırsa, 1971-ci ildə 1 milyon 64 minə, 1972-ci ildə 1 milyon 205 minə, 1973-cü ildə 1 milyon 300 minə, 1974-cü ildə 1,5 milyona, 1975-ci ildə 1,7 milyon manata çatmışdır [542].

1976-1980-ci illərdə Şuşa rayonunda məktəb və maarifə 4 milyon manat, 1981-1985-ci illərdə isə 4,5 milyon manat vəsait ayırmışdı. Ümumiyyətlə, 1970-1985-ci illərdə Azərbaycan hökuməti DQMV-də təhsil, elm və maarifin inkişafına 45 milyon 435 min manat vəsait ayrılmışdır [546]. Ayrılan vəsait hesabına 1970-1985-ci illərdə Şuşa rayonunda 1 daimi məktəbəqədər uşaq

müəssisəsi tikilib istifadəyə verildi. 1970-ci ildə rayonda 6 daimi məktəbəqədər uşaq müəssisəsi var idisə, onların sayı 1985-ci ildə 7-ə çatdı. Təkcə bir il ərzində, yəni 1986-cı ildə məktəbəqədər uşaq müəssisələrində 565 nəfər və ya 1970-ci illə müqayisədə 2 dəfə çox uşaq tərbiyə olunmuşdu. Bu müəssisələrdə 50 tərbiyəçi və xidmətçi çalışırdı. Tərbiyəçilərin 50 faizinin ali, 22 faizinin orta ixtisas təhsili var idi [547]. 1970-1985-ci illərdə bütövlükdə Naxçıvan MR-da 3 daim məktəbəqədər uşaq müəssisəsi tikilib istifadəyə verilmişdi ki, bu da Dağlıq Qarabağda tikiləndən təxminən 3 dəfə az idi. Bəhs etdiyimiz dövrdə Naxçıvan MR-da daimi məktəbəqədər uşaq müəssisələrinin sayı 65-dən 73-ə çatdı. Aparılan araşdırmalardan məlum olur ki, əhalinin məktəbəqədər uşaq müəssisələri ilə təminatında DQMV-i istər ümumrespublika səviyyəsində, istərsə də Naxçıvan MR ilə müqayisədə üstün olmuşdur. Məsələn, 1985-ci ildə əhalinin məktəbəqədər uşaq müəssisələri ilə təminatı ümumrespublika səviyyəsində 20 faiz, Naxçıvan MR-da 12 faiz təşkil etmişdirsə, Azərbaycanın DQMV-ə bu göstərici 35 faizə çatmışdır [548].

Azərbaycanın başqa rayonlarında fərqli olaraq Şuşa rayonunda 1970-1985-ci illərdə məktəb tikintisi sürətlə getmişdir. Azərbaycan hökuməti 1971-1975-ci illərdə Şuşa rayonunun 3 məktəb, 1976-1980-ci illərdə 4 məktəb, 1981-1985-ci illərdə isə 3 məktəb tikib istifadəyə verdi. Apardığımız tədqiqatlardan məlum olur ki, son 15 il (1970-1985-ci illər) ərzində tikilən məktəblərin sayı əvvəlki 50 ildə (1920-1970-ci illərdə) tikilənlərə bərabər olmuşdur. Orta məktəblərin sayının artması ilə səkkizillik və ibtidai məktəblərin sayı azalırdı. 1970-ci ildən başlayaraq Şuşa rayonu ərazisində fiziki cəhətdən qüsurlu olan uşaqlar üçün məktəb tikilib istifadəyə verildi. Bundan əlavə Şuşa rayonunda 2 axşam (növbəli) ümumtəhsil məktəbi də fəaliyyət göstərdi ki, bu məktəblərdə istehsalatdan ayrılmadan yaşlı nəslə dərslər tədris olunurdu. Qeyd edək ki, 1980-ci illərin sonlarında Azərbaycanda 88 axşam (növbəli) məktəb vardır. Şuşa rayonunun ümumtəhsil məktəblərində hər il orta hesabla 2,5 min şagird təhsil alırdı [558]. Rayonun həmin məktəblərində müəllimlərin sayı 400 nəfərdən 450 nəfərə çatmışdı. Şuşa rayonunun ümumtəhsil

məktəblərində işləyən müəllimlərin 80 faizindən çoxu ali, 3 faizi natamam ali, 15 faizi orta-pedaqoji təhsilli idi. Məktəblərin 98 faizində fənn kabinələri, emalatxanalar fəaliyyət göstərirdi [562].

1985-ci ildə Naxçıvan MR-da 6,3 min müəllimi, 64,8 şagirdi birləşdirən 217 ümumtəhsil məktəbi var idi. Maraqlı cəhət ondan ibarətdir ki, Naxçıvan MR-da hər məktəbə 296 şagird düşdüyü halda dağlıq Qarabağda 177 şagird düşmüşdür [538]. Eyni zamanda Naxçıvan MR-da hər müəllimə 10 uşaq düşürdüsə, Vilayətdə 7 uşaq düşürdü. Ümumiyyətlə, aparılan tədqiqatlar nəticəsində məlum olur ki, ümumrespublika səviyyəsində əhalinin sayı ilə müqayisədə müəllimlərin, məktəblərin sayı Dağlıq Qarabağ üstün mövqeyə malik olmuşdur. Bu isə Azərbaycan hökumətinin bölgəyə göstərdiyi dərin qayğısının nəticəsi idi. Təkcə, 1970-1982-ci illərdə Heydər Əliyevin böyük qayğısı sayəsində SSRİ-nin ən mühüm ali məktəblərində Azərbaycan üçün 17 mindən çox yüksək ixtisaslı mütəxəssis hazırlanmışdı. Həmin mütəxəssislər Azərbaycanın hər yerinə, o cümlədən, Şuşa rayonuna göndərilmişdi [564].

1975-1976-cı tədris ilində Şuşa rayonunda müxtəlif fənlər üzrə dərinləşmiş, proqramlarla təlim keçən təmayüllü internat məktəbləri fəaliyyətə başladı. Dağlıq Qarabağın həmin internat təmayüllü məktəblərində təkcə 1975-1976-cı tədris ilində 2397 nəfər şagird təhsil alırdı. Azərbaycanda milli hərbi kadrlar yetişdirilməsi və SSRİ ali hərbi məktəblərinə Azərbaycanlı gənclərin daxil olmasını təmin etmək məqsədilə 1971-ci ildə C.Naxçıvanski adına orta respublika ixtisaslaşdırılmış internat məktəbi təşkil olunmuşdu [566].

1970-1985-ci illərdə Şuşa rayonunda işləyən gəncləri təhsilə cəlb etmək üçün gündüz məktəbləri yanında müstəqil qiyabi məktəblər təşkil olundu. Şuşa rayonunda kolxoz və sovxozlarında rayon qiyabi məktəblərinin 500 şagirdi birləşdirən 2 tədris-məsləhət məşğələsi açılmışdı. Həmin məktəbləri bir ildə orta hesabla 120 məzun bitirirdi. Bundan əlavə Şuşa rayonunda 50 məktəbdənkənar uşaq müəssisələri, pioner və məktəblilər sarayı, pioner düşərgələri, uşaq idman məktəbi, musiqi və bədii

özfəaliyyət məktəbi, uşaq parkları, gənc texniklər və turistlər stansiyası, uşaq kitabxanaları fəaliyyət göstərirdi [576].

Tədqiqatlardan məlum olur ki, 1971-1975-ci illər ərzində Şuşa rayonunda ümumi orta təhsilə keçid başa çatdırıldı. Yeni məktəblərin tikilməsi hesabına Şuşa rayonunda dərslər bir növbədə keçirilirdi. 1970-1975-ci illərdə Şuşanın 6 məktəbində dövlətimizin ayırdığı xüsusi vəsait hesabına yemək verilirdi. Şagirdlərə isti yemək verilməsi sahəsində Şuşa rayonu məktəblərinin təcrübəsi Azərbaycan SSR Maarif Nazirliyinin kollegiyası tərəfindən bəyənilmişdir [553].

1970-1985-ci illərdə Şuşa rayonunda peşə təhsili sistemi də sürətlə inkişaf edirdi. Şuşa rayonunun 4 orta məktəbində şagirdlərə müxtəlif peşələr öyrədilirdi. 1970-1985-ci illərdə rayonun məktəblərində peşə təhsili alanlar 20 faiz artdı. Hər il orta hesabla 250 nəfərdən çox şagird sənaye, tikinti, nəqliyyat, kənd təsərrüfatı, məişət xidməti və başqa sahələr üzrə 100 dən artıq peşəyə yiyələnirdilər. Texniki peşə məktəblərinin maddi texniki bazası ilbəil möhkəmlənirdi [581].

1970-ci illərdə Şuşa rayonunda müxtəlif sahələr üzrə orta ixtisas kadrları hazırlayan məktəb fəaliyyət göstərirdi. Həmin məktəbdə 200 tələbə təhsil alırdı. Bir ildə həmin məktəb 50-dən çox mütəxəssis buraxırdı. Bəhs etdiyimiz illərdə tələbələrə verilən təqaüdlər 3 dəfə artırıldı. Qeyd edək ki, 1985-ci ildə DQMV-də texnikumların sayı 6-ya, orada təhsil alanların sayı isə 1970-ci ildəki 2,1 minə qarşı 2,4 minə çatdı. 1985-ci ildə Naxçıvan MR-da isə 2,2 min nəfərin oxuduğu 4 texnikum fəaliyyət göstərirdi [582].

1970-1980-ci illərdə Azərbaycanda ali təhsil daha da inkişaf etdi və yeni ali təhsil ocaqları fəaliyyətə başladı. Belə ki, 1971-ci ildə Pedaqoji Dillər İnstitutu bazasında Rus dili və ədəbiyyatı, Pedaqoji Xarici Dillər İnstitutları, 1972-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialı əsasında Naxçıvan Pedaqoji İnstitutu, 1976-cı ildə İnşaat Mühəndislər İnstitutu, 1981-ci ildə Gəncə Texnologiya İnstitutu təşkil edildi. Həmin ali təhsil müəssisələri DQMV-də mütəxəssislərə olan tələbatın ödənilməsində mühüm işlər görmüşlər. Heydər

Əliyevin şəxsi təşəbbüsü ilə DQMV-də yaradılmış Xankəndi Pedaqoji İnstitutu (XPİ) bölgənin və ətraf rayonların pedaqoji kadrlara olan tələbatının ödənilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi. Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin 23 noyabr 1973-cü il tarixli qərarı ilə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialı kimi XPİ təşkil edildi. İnstituta hər il 500-ə yaxın tələbə qəbul olurdu ki, bundan 300-ü əyani təhsil alırdı. 1980-ci XPİ-da 2 min tələbə oxuyurdu. 1985-ci ildə isə həmin institutda təhsil alanların sayı 2100 nəfərə çatmışdı. Burada tədris Azərbaycan, rus və erməni dillərində aparılırdı. Bəhs etdiyimiz illərdə Naxçıvan Pedaqoji institutunda da tələbələrin sayı 2100 nəfər idi.

1969-cu ildən başlayaraq ali məktəblərin yanında fəhlə, kolxozçu və ordudan tərxis olunanlar üçün hazırlıq şöbələri yaradıldı. 70-ci illərdən isə ali məktəblərdə istehsalın və elmi texniki tərəqqinin tələb etdiyi yeni bilik sahələri-avtomat idarəetmə sistemi, elektrotexnika, biokimya, rabitə texnikası və başqa mütərəqqi ixtisaslar üzrə mütəxəssislər hazırlanmasına başlandı. 1980-ci illərin sonlarında Azərbaycanda 4534 ümumtəhsil orta məktəbi, 182 texniki-peşə məktəbi, 77 texnikum, 17 ali məktəb fəaliyyət göstərirdi. Bəhs etdiyimiz illərdə, əhalinin təhsil səviyyəsi artmaqda davam edirdi. 80-ci illərin sonlarında yaşı 15-dən yuxarı olan əhalinin hər 1000 nəfərindən 129-u ali, 146-sı orta ixtisas, 425-i ümumi orta, 190-nı natamam orta təhsilli idi [588]. Şuşa rayonunda azərbaycanlılar yaşayan kəndlərdə yeni məktəb tikintisi zəif aparılırdı. Məktəblər lazımı avadanlıqlarla və ixtisaslı mütəxəssislərlə az təmin edilirdi. Vilayətin azərbaycanlılar yaşayan bir neçə kəndi birləşdirən bir məktəb olduğundan və məktəblər miniklə təmin edilmədiyindən şagirdlərin çoxu məktəbə getmirdi. Vilayətin Təhsil İdarəsi məktəbəqədər və məktəbdənkənar uşaq tərbiyə müəssisələrinin yerləşdirilməsində də ikili mövqe tutmuşdur. Həmçinin, Rayon Təhsil İdarəsinə rəhbərlik edən erməni millətçiləri Azərbaycan dilində təhsilin gələcəyinin olmayacağı konsepsiyası ilə çıxış edərək Azərbaycan dilli məktəbləri heç bir səbəb olmadan bağlayırdılar [590].

1970-1985-ci illərdə Şuşada yaşayan əhalinin biliyinin mədəni səviyyəsinin yüksəldilməsində təhsil müəssisələri və kütləvi informasiya vasitələri mühüm rol oynamışdı. Mədəni maarif-müəssisələrinin inkişafında kitabxanaların rolu xüsusi əhəmiyyət kəsb etmişdir. Bəhs edilən dövrdə Azərbaycan hökuməti Şuşa rayonunda kitabxana işini inkişaf etdirmək üçün mühüm tədbirlər həyata keçirdi. Azərbaycan Respublikası Nazirlər Sovetinin 1967-ci iyunun 17-də qəbul etdiyi «Respublikada kitabxanaların vəziyyəti və onları yaxşılaşdırmaq tədbirləri haqqında» Sov.İKP MK-nin «Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq haqqında» 8 may 1974-cü il qərarları kitabxana işinin inkişafında mühüm rol oynadı. Azərbaycan hökuməti Şuşa rayonunda yeni kitabxana binaları tikintisi üçün əvvəlki dövrlə müqayisədə qoyulan vəsaitin miqdarını 2 dəfə artırdı [593]. 1970-ci ildə Şuşa rayonunda 15 müstəqil dövlət kitabxanası fəaliyyət göstərirdi. Həmin ildə bu kitabxanalarda 85 min kitab var idi. 70-ci illərdə Şuşa rayonunda kitabxana işi öz inkişafının yeni mərhələsinə daxil olmuşdu. Azərbaycan hökumətinin «1976-1980-ci illərdə kitabxana işinin daha da inkişaf etdirilməsi» haqqında qərarından sonra kitabxanaların mərkəzləşdirilməsi planı işlənib hazırlandı. Həmin plana uyğun olaraq Şuşa rayonunda 70-ci illərdə Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) təşkilinə başlandı. Kitabxana fondu əvvəlki illərə nisbətən yeni ədəbiyyatla daha zəngin komplektləşdirildi, oxucuların sayı, dövriyyəsi xeyli artdı [596].

1970-1975-ci illərdə Şuşa rayonunda 3 yeni tipli kitabxana binası tikilib istifadəyə verildi. 1975-ci ildə Şuşa rayonunda kütləvi kitabxanaların sayı 18-ə, onların kitab fondu isə 95 minə çatdı. 1976-1980-ci illərdə Şuşa rayonunda Azərbaycan Mədəniyyət Nazirliyi və M.F.Axundov adına Respublika Dövlət Kitabxanasının yaxından iştirakı və təşkilati-metodiki köməyi ilə kütləvi kitabxanaların mərkəzləşdirilməsi başa çatdırıldı. Şuşa rayonunda MKS-ləri yeni texnoloji prinsiplər əsasında fəaliyyət göstərməyə başladı. Kitabxanalarda oxucuların sayı isə əvvəlki dövrlə müqayisədə xeyli artmışdı. 1980-ci illərdə Şuşa

kitabxanalarından 45 min oxucu istifadə etmişdir ki, bu da 1975-ci illə müqayisədə 11% çox idi. İl ərzində oxucular Şuşa rayonunu kütləvi kitabxanalarında 1929 nüsxə kitabdan istifadə etmişlər.

1970-1985-ci illərdə Şuşa rayonunda kitabxana işçilərinin tərkibi Azərbaycan hökuməti tərəfindən xeyli təkmilləşdirilmişdi. BDU-nin kitabxanaçılıq fakültəsi, Bakı mədəni Maarif Texnikumu, Şuşa Mədəni-Maarif məktəbi Şuşa rayonunun kitabxanaları üçün Azərbaycan hökumətinin qərarı ilə müsabiqədən kənar tələbə qəbul etmiş və rayonu ixtisaslı kadrlarla təmin etmişdir. 80-ci illərdə rayonda kitabxana şəbəkəsi çox sürətlə inkişaf etmişlər. Belə ki, 1980-ci ildə Şuşa rayonunda kütləvi kitabxanaların sayı 19, 1985-ci ildə artaraq 20-ə çatmışdır. Kitab fondu isə 1980-ci ildəki 103 mindən 1985-ci ildə 144 minə çatmışdır. DQMV-də kütləvi kitabxanalarla yanaşı 60 klub kitabxanası, 4 tibb kitabxanası, 25 məktəb kitabxanası, 5 sənaye müəssisələri, kolxoz və sovxoz kitabxanaları, 3 həmkarlar ittifaqı kitabxanası fəaliyyət göstərirdi [609].

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, yaşayış məntəqələrinin kitabxana ilə təminatı, adambaşına düşən kitablar və kitabxanaların sayı DQMV-i həm ümumrespublika səviyyəsində, həm də Ermənistanla və keçmiş SSRİ ilə müqayisədə üstün olmuşdur. Məsələn, 1986-cı ildə Vilayətdə hər adama 11 kitabxana kitabı düşdüyü halda, respublikamızda 6 kitab, Naxçıvan MR 7 kitab düşmüşdü [612].

1980-ci illərin sonlarında Vilayətin yaşayış məntəqələrinin kütləvi kitabxanalarla təmin edilməsi 100 faiz olduğu halda, ümumrespublika üzrə bu göstərici 94,4 faiz, Naxçıvanda 98,4 faiz idi. Bundan əlavə əhalinin hər 10 min nəfərinə düşən kütləvi kitabxanaların sayı keçmiş SSRİ məkanında 4,8, Ermənistan SSR-də 4,1, Azərbaycanda 6 olduğu halda, Azərbaycanın DQMV-də bu göstərici 13-ə çatmışdı [614]. Faktlardan göründüyü kimi hər adama düşən kitabxanaların sayı Vilayət, ümumrespublika səviyyəsini 2 dəfədən də artıq üstələmişdir. Bütün bunlarla yanaşı, Vilayətin azərbaycanlılar yaşayan kəndlərdə mövcud kitabxanalar Azərbaycan dilli ədəbiyyatla tam-təmin

edilmirdi. Aparılan tədqiqatlardan məlum olur ki, Azərbaycanlılar yaşayan kəndlərdəki kitabxanalardakı kitabların təxmini 80 faizi erməni dilində, 10 faizi Azərbaycan və 10 faizi rus dillərində idi [615].

1980-ci illərin sonlarında Azərbaycanda 4605 kütləvi kitabxana var idi ki, buradakı kitab və jurnalların sayı 1970-ci ildəki 23 milyon nüsxədən 45,3 milyon nüsxəyə çatmışdır [616].

Bəhs etdiyimiz dövrdə Azərbaycan hökuməti Şuşa rayonunda mədəni-maarif müəssisələri içərisində klubların inkişafına xüsusi diqqət yetirmişdir. Xalqın mədəni səviyyəsinin yüksəldilməsində klublar mühüm rol oynayırdı. Çünki burada həm kino, teatr göstərilir, özfəaliyyət dərnəkləri fəaliyyət göstərir və mühüm əhəmiyyətli yığıncaq, iclaslar keçirilirdi. Şuşa rayonunun klublarında çalışanların 10 faizi orta ixtisas təhsilli, qalanları ali təhsil almış mütəxəssislər idi [622].

1970-1985-ci illərdə Azərbaycan hökumətinin ayırdığı xüsusi vəsait hesabına Şuşa rayonunda klub tikintisi xeyli artdı. Belə ki, həmin illərdə 2 klub tikilib əhalinin istifadəsinə verildi. 1970-ci ildə Şuşa rayonunda 10 klub fəaliyyət göstərirdisə, 1985-ci ildə isə 12-yə çatdı. Bəhs etdiyimiz dövrdə Respublikamızda klubların sayı 2146-dan 3680-nə, Naxçıvan MR-da isə 166-dan 255-ə çatdı [631].

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, adamların sayına görə klubların sayı DQMV-i ümumrespublika səviyyəsindən 3 dəfə, Ermənistanla müqayisədə təxminən 4,5 dəfə artıq olmuşdur. Belə ki, 1986-cı ildə əhalinin hər 10 min nəfərinə düşən klubların sayı SSRİ məkanında 4,8-ə, Azərbaycan Respublikasında 5-ə, Ermənistanda 3,8-ə çatırdısa, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində bu göstərici 15-ə bərabər idi. 1980-ci illərin ortalarında Vilayətin bütün yaşayış məntəqələrinin 90 faizi klub müəssisələri ilə təmin edilmişdir. Ümumrespublika səviyyəsində isə klub müəssisələri ilə təmin edilmiş belə yaşayış məntəqələri 40 faizə çatırdı. Azərbaycanda 746 iri yaşayış məntəqəsindən yalnız 319-da klub var idi [639].

Əhalinin ideya-siyasi tərbiyəsində kino mühüm rol oynayırdı. Azərbaycan hökuməti 1970-1985-ci illərdə Şuşa rayo-

nunda kinoteatr şəbəkəsinin inkişafının daha da yaxşılaşdırdı. Klubların sayının artırılması bu baxımdan böyük əhəmiyyətə malik idi. Hətta rayon mərkəzlərində yay kinoteatrlar da fəaliyyət göstərirdi. Dövlətimizin Şuşa rayonunda həyata keçirdiyi mühüm tədbirlərdən biri də, bölgəni kino qurğuları, avtomühərriklər və kino lentləri ilə tam təmin etməsi olmuşdur.

Aparılan araşdırmalardan məlum olur ki, 1980-ci ildə Şuşa rayonunda kinoqurğuları ümumrespublika üzrə mövcud kinoqurğuların təxminən 15 faizini təşkil etmişdir. Həmin il Respublikamızda 2002 kinoqurğu var idi ki, bunun 17-si Şuşa rayonunun payına düşürdü [648]. 1970-1985-ci illərdə Respublikamızda 163 kinoqurğu yaradılmışdı ki, bunun 3-ü Şuşa rayonunun payına düşmüşdür. Həmin illərdə Respublikamızda kinoqurğuların sayı 2004-dən 2167-yə, Azərbaycanın Şuşa rayonunda isə 10-dan 20-yə çatmışdı. 1980-ci illərdə kinoseanslarına baxış orta hesabla il ərzində Respublikamız üzrə 60 milyon təşkil etmişdirsə, Naxçıvan MR-da 3 milyon 100 min, Şuşa rayonunda 475 minə çatmışdır. 10 min nəfər hesabı ilə əhaliyə düşən kino qurğuların sayı keçmiş SSRİ məkanında 5,4-ə, Azərbaycan Respublikasında 3-ə, Ermənistanda 2,9-a, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 11-ə çatmışdır. Həmçinin kinoya baxış səviyyəsində də, Vilayət birinciliyi saxlanılmışdır. Təkcə bir faktı qeyd edək ki, Naxçıvan MR-da əhalinin sayı Dağlıq Qarabağdakından təxminən 2 dəfə çox olmasına baxmayaraq 1985-ci ildə Naxçıvan MR-da kino seanslarında iştirak edənlərin sayı 3 milyon 166 minə, DQMV-də isə 3 milyon 259 minə çatmışdır [657]. Bütün bunlar isə Azərbaycan hökumətinin DQMV-ə göstərdiyi dərin qayğının nəticəsində əldə edilmişdir.

1970-1985-ci illərdə Şuşa rayonunda əhali arasında mədəni-maarif işinin aparılmasında muzeylərin də rolu böyük olmuşdur. Dövlətimizin ayırdığı xüsusi vəsait hesabına 1970-1985-ci illər ərzində Şuşa rayonunda bir muzey açıldı. Muzeyə gələnlərin sayı ilbəil artırdı. Belə ki, 1970-ci ildə Şuşa rayonunda muzeyə gələnlərin sayı 4 min nəfər idisə, 1980-ci ildə 15 min nəfərə, 1985-ci ildə isə 20 min nəfərə çatmışdı. Muzey daxilində keçirilən elmi-kütləvi işlər, səyyar sərgilər, müharibə veteranları

və əmək qəhrəmanları ilə görüşlər əhali arasında böyük rəğbətlə qarşılanırdı. Şuşa rayonunda fəaliyyət göstərən muzeylərdə ekspozisiya ilə yanaşı, hər il mühüm hadisələr və əlamətdar günlərə həsr edilmiş tematik və səyyar sərgilər təşkil edilirdi. Şuşa rayonunun muzeylərində sərgi zalı, uşaq şəkil qalereyası, ədəbiyyat və incəsənət xadimlərinin xatirə lövhələri nümayiş etdirilirdi. Şuşa rayonunda yerli diyarşünaslıq muzeyi də fəaliyyət göstərirdi ki, onun fondları getdikcə zənginləşir və ekspozisiyaları daim təzələnirdi. Qeyd edək ki, 1980-ci illərin sonlarında Azərbaycanda 124 muzey fəaliyyət göstərirdi [655].

1970-1985-ci illərdə Şuşa rayonunda xalq universitetləri də mədəni-maarif müəssisələri sisteminin mühüm dayaqlarından birinə çevrilərək fəaliyyət göstərirdi. Bu dövrdə Şuşa rayonunda 3 ideoloji iş və partiya fəalları məktəbi, 13 konkret iqtisadiyyat məktəbi, 160 kommunist əməyi məktəbi yaradılmışdır. Şuşa rayonunun qəsəbə və kəndlərində 150 məktəb və nəzəri seminar, 12 xalq universiteti, partiya təbliğatının digər kütləvi formalarında 30 məktəb fəaliyyət göstərirdi [659]. Şuşa rayonunda xalq universitetləri üçün ildə 50 dinləyici SSRİ-nin müxtəlif regionlarında kursdan keçir və təhsil alırdılar. Şuşa rayonunda xalqın siyasi maarif və iqtisadi təhsilinin bütün formaları ilə 1287 nəfər əhatə olunmuşdu. Konkret iqtisadiyyat məktəblərində, iqtisadi seminarlarda və iqtisadi bitkilər xalq universitetlərində 3 yüzdən çox, məhsuldar əmək məktəblərində təxminən 3 min adam təhsil alırdı. 1980-ci ildə Şuşada təbliğat işində 205 nəfər məşğul olurdu. Onların 120 nəfəri «Təbliğatçı-səmərəlilik və təbliğat beşilliyinə» hərəkatında iştirak edirdi. Şuşa rayonunda 250-dən çox təbliğatçı şəxsi yaradıcılıq planları üzrə işləyirdi. Təbliğatçıların köməyi ilə dinləyicilər əmək məhsuldarlığının, işin keyfiyyətinin yüksəlməsinə dair şəxsi və kollektiv planlar, səmərəlilik və keyfiyyət barədə kompleks şəxsi hesablar, şəxsi qənaət hesabları işləyib hazırlayırdılar [661].

1980-ci illərin əvvəllərində Şuşa rayonu Partiya Komitəsi yanında ictimai rəyi öyrənmə və Sosial Tədqiqatlar Şurası yaradıldı. Şura tikinti təşkilatlarında, yüngül sənaye müəssisələrində fəhlə kadrları ilə aparılan işin vəziyyətini öyrənmiş,

orta məktəblərin və texniki peşə məktəblərinin gələcək məzunları arasında konkret sorğu keçirilmişdir. Əldə olunan məlumatların təhlili isə Şuşa rayonunun xalq təsərrüfatında kadr məsələsinin həll olunmasında mühüm rol oynamışdı. 1970-1980-ci ildə Şuşa rayonunda bütün idarə və təşkilat, hüquq mühafizə orqanlarının iştirakı ilə açıq məktub günləri keçirilirdi. Belə tədbirlərə əvvəlcədən ciddi hazırlıq görülürdü. Həmin tədbirlərin keçiriləcəyi yer, onun mövzusu barədə yerli qəzetlər və ya radio, habelə ictimai təşkilatlar vasitəsilə məlumatlar verilirdi. Alınan məktublar «açıq məktub günü» ərəfəsində müvafiq təşkilatların rəhbərləri, rayon partiya komitələrinin nümayəndələri, respublika və vilayət qəzetlərinin müxbirləri, partiya komitələrinin katibləri, müəssisələrin rəhbərləri ilə birlikdə təhlil olunurdu. Bəhs etdiyimiz illərdə, sual-cavab gecələri də keçirilirdi. Həmin gecələrdə rabitə, nəqliyyat, ticarət müəssisələrinin işi, əmək intizamının, möhkəmləndirilməsi və məhsulun keyfiyyətinin yaxşılaşdırılması ilə əlaqədar məsələlər müzakirə edilirdi. Bir il ərzində, Şuşada təxminən 20-dən çox açıq məktub günü, sual-cavab gecəsi keçirilmiş və hər bir tədbirdə beş yüzdən artıq adam iştirak etmişdir. Lakin Şuşa rayonunda qazanılan iqtisadi və mədəni nailiyyətləri yalnız rayonda aparılan «ideoloji iş»in ayağına yazmaq olmaz. Əlbəttə, bu nailiyyətlərin əldə edilməsi Azərbaycan hökuməti və onun başçısının bölgəyə göstərdiyi dərin qayğının nəticəsi kimi qiymətləndirilməlidir. Apardığımız araşdırmalardan məlum olur ki, Vilayətdəki ideoloji işçilərin əksəriyyəti milliyyətcə qeyri-azərbaycanlılar olmuşdu. Onlar xalq içərisində, öz çirkin niyyətlərini («Böyük Ermənistan» ideyasını) reallaşdırmaq üçün geniş təbliğat aparmışlar. XX yüzilliyin 80-90-cı illərində baş verən hadisələr bir daha deyilənləri sübut etdi.

1970-1985-ci illərdə Şuşa rayonunda kütləvi informasiya şəbəkəsi inkişaf etməkdə idi. Əhalinin maariflənməsində, mədəni səviyyəsinin yüksəlməsində, ictimai-siyasi fəaliyyətinin artmasında mətbuat mühüm rol oynayırdı. Bəhs etdiyimiz dövrdə DQMV-də 6 qəzet erməni dilində, 1-i Azərbaycan dilində və 1-i rus dilində buraxılırdı. Bunlardan «Sovetakan Karabax» («Sovet

Qarabağı»), «Metaksaqorst» («İpəkçi»), «Karmir Droş» («Qırmızı Bayraq»), «Berekatyun» («Dostluq»), «Aşxatan» («Əmək»), «Koltitesakan» («Kolxozçu»), «Şuşa» və «Sovetskiy Karabax» qəzetləri nəşr olunaraq Şuşa rayonunda yayılırdı [664]. Qəzetlərin illik tirajında da artım müşahidə edilmişdir. Belə ki, 1970-ci ildə Şuşa rayonunda 4 milyon nüsxə qəzet buraxılmışdırsa 1985-ci ildə 1 milyon nüsxə artaraq 5 milyon nüsxəyə çatmışdır [665].

Bəhs etdiyimiz illərdə, Şuşa rayonu əhalisi ittifaq miqyaslı müxtəlif jurnallara abunə yazılmışlar. Şuşa rayonu əhalisi 1965-ci ildə 1 milyon min tiraj jurnal alınmışdısa, 1980-ci ildə bu rəqəm artaraq 2 milyon minə çatmış, 1985-ci ildə isə 3 milyonu keçmişdir.

Bəhs etdiyimiz illərdə Şuşa rayonunda ittifaq və respublika radio verilişləri qəbul edilirdi. Erməni dilində yerli radio verilişləri Şuşa rayonun bütün qəsəbə və kəndlərində ardıcıl yayımlanır və qəbul edilirdi. Sutkanın kiçik bir hissəsində Azərbaycan dilində veriliş efirə gedirdi. Şuşa rayonunda Azərbaycan televiziya verilişləri qəbul edilirdi. Burada həmçinin yerli televiziya verilişləri də transiliyasiya olunurdu. 1970-1980-ci illərdə Azərbaycan Radiosu və Televiziyası qurumu getdikcə təkmilləşirdi. Azərbaycan radiosu müxtəlif dalğalarda hər gün 2 proqram «Araz» və «Stereo» proqramları ilə müxtəlif dillərdə [birlikdə] 37 saat veriliş yayırdı. Bu dövrdə, Azərbaycan Beynəlxalq Radiosu təsis edilmişdi. Azərbaycan kütləvi informasiya vasitələri bəşəri və milli dəyərlər fonunda sovet həyat tərzini, rəsmi ideologiyanı geniş təbliğ edirdi [673].

1970-ci illərdə «geniş kommunizm quruculuğu», «inkişaf etmiş sosializm cəmiyyəti» haqqında fərziyyələr sovet ideologiyasının əsas ehkamlarına çevrilmişdi. Hətta SSRİ hökuməti sosializm cəmiyyətinə qəti inam yaratmaq üçün qüsurları gizlədirdilər.

Şuşa rayonunda «ideoloji cəbhə» anlamından istifadə edən Vilayət rəhbərliyi azərbaycanlıların bir çox adət-ənənələrini sıxışdırırdılar. Qədim dövrlərdə xalqımızın məişətinə daxil olmuş, əməksevərliyi, nəcibliyi, tərənnüm edən, müəyyən dərə-

cədə beynəlmiləl xarakterli Novruz bayramı rayonda yaşayan azərbaycanlılara qəti qadağan edilmişdi. Şuşada yaşayan azərbaycanlılar bu bayramı gizli şəkildə keçirirdilər. Kənd yerlərində 21 «sosialist» bayram və mərasimi rəsmi «ənənəyə» çevrilmişdi. Dini mərasimlər açıq şəkildə sıxışdırılırdı. Bir faktı xüsusi qeyd etməliyik ki, XX əsrin əvvəllərində Vilayətdəki məscidlər erməni vandalları tərəfindən dağıdılmış, anbara, idarəyə çevrilmişdi. İslam dini əleyhinə Dağlıq Qarabağın erməni rəhbərliyinin ideoloji əks təbliğatına baxmayaraq, burada yaşayan azərbaycanlılar dini bayram və mərasimləri gizli şəkildə qeyd edirdilər. Xalqımız öz milli ənənələrini qoruyub saxlamağa çalışırdı. Heydər Əliyevin xalqımız üçün misilsiz xidmətlərindən biri də ondan ibarət olmuşdur ki, O Dağlıq Qarabağdakı «məscidlərin bərpası haqqında qərar» (4 noyabr 1976-cı il) və «Azərbaycan SSR-də dini birliklər haqqında əsasnamə» (13 sentyabr 1976-cı il) qəbul etmişdir. Həmin vaxtdan bölgədəki mövcud məscidlərimizin bərpasına başlandı [675].

1970-1985-ci illərdə Dağlıq Qarabağda Dövlət Mahnı və Rəqs ansamblının və «Qarabağ» Dövlət estrada orkestrinin repertuarı daha da zənginləşmişdi. SSRİ-nin bütün xalqlarının mahnı və rəqslərini ifa etməyi bacaran kollektivlər Ukrayna, Belarusiya, Ermənistan, Moldova, Gürcüstan, Şimali Qafqaz, Arxangelsk, Rostav, Baykal-Amur, Moskva ərazilərində qastrol səfərlərdə olmuşdular.

Mədəniyyətimizin başqa sahələrində olduğu kimi, Qarabağın tacı sayılan Şuşa, həm də Azərbaycanın təbii konservatoriyası, musiqi sənətinin beşiyi olmuşdur. Şuşa musiqiçiləri Azərbaycan musiqisinin tarixini yaratmış və onu bütün dünyada tanıtmışdı. Təsadüfi deyildir ki, XIX əsr Şuşasının 22 musiqişünası, 38 xanəndəsi olmuşdu. Azərbaycan musiqisini bütün şərqdə, Zaqafqaziya məkanında tanınmasında Qacar Sürəyə Sədrəddin qızının, Əbülbaqi Zülalovun, Məşədi Cəmil Əmirovun, Süleyman Ələsgərovun, Keçəçi oğlu Mühəmmədin, Həmid Malubəylinin, Məşədi Məmmədin, Zülfüqar Hacıbəyovun, Hacı Hüsünün, Soltan Hacıbəyovun, Rəşid Behbudovun, Xan Şuşunskinin, Seyid Şuşunskinin, Segah İslamın, Bülbülün,

Həmid Qurbanovun, Zabul Qasımın və başqalarının xidmətləri böyük olmuşdur. 1970-ci illərdə Şuşa Rayon Mədəniyyət Evində xalq çalğı alətləri ansamblı və dram kollektivi fəaliyyət göstərirdi. Lakin çox təəssüflə qeyd etməliyik ki, bəhs etdiyimiz dövrdə Şuşada Azərbaycan musiqisini erməni vandalları tərəfindən sıxışdırılması nəticəsində, dünya şöhrətli musiqiçilər yetişdirən bu torpaq bu gün həmin musiqiçilərə «həsrət» qalmışdır. DQMV ərazisində və bütün Azərbaycanda Şuşa xalq çalğı alətləri ansamblının rəngarəng çıxışları çox xoş təəssüratla qarşılanırdı. 1980-ci ildə DQMV-də 700 bədii özfəaliyyət dərnəyi və birliyi fəaliyyət göstərirdi ki, bunlara 8 mindən çox həvəskar cəlb edilmişdir [676].

XIX əsrdə Azərbaycanımıza 95 şair, 100 nüsxəbənd, 19 xəttat, 16 nəqqaş, 18 memar, 5 astronom, 16 həkim, 42 müəllim bəxş etmiş Yuxarı Qarabağ 20-ci yüzillikdə də bu ənənəni davam etdirmişdir. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1980-ci ildə SSRİ Elmlər Akademiyası və müttəfiq respublikanın Elmlər Akademiyalarının 23 həqiqi üzvü, 27 bəstəkar, 40 yazıçı, 32 xalq artisti, 115 nəfərdən çox elmlər doktoru, Sovet ordusunun 23 generalı, görkəmli dövlət xadimləri Dağlıq Qarabağda doğulmuş, böyümüş və orada təhsil almışdır [654]. Bunlara misal olaraq, Azərbaycan SSRİ EA-nın vitse-prezidenti, ASE-nin baş redaktoru Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Sovet tarixçisi, tarix elmlər doktoru, professor C.B.Quliyevi, görkəmli Sovet fiziki-kimyaçısı, akademik, Lenin Mükafatı laureatı N.S.Yenikolopovun, filologiya elmləri doktoru, professor N.Axundovun, AMEA müxbir üzvü, dövlət mükafatı laureatı, professor, Ə.C.Abbasovu, Azərbaycan Milli Elmlər Akademiyası müxbir üzvü, filologiya elmləri doktoru, S.M.Əsədovu, məşhur Azərbaycan heykəltəraşı H.M.Əhmədovu texnika elmləri sahəsində ilk professor X.Məlikaslanovu, Azərbaycan maarifçi-pedaqoqu, şairi M.Axundovu, istilik texnikası sahəsində sovet alimi V.Yusifovanı, Sovet mama-ginekoloqu, tibb elmlər doktoru, professor M.K.Mahmudbəyovu, Azərbaycan Milli Elmlər Akademiyası müxbir üzvü, kimya elmlər doktoru, professor P.H.Rüstəmovu, Sovet filosofu, fəlsəfə

elmlər doktoru, əməkdar elm xadimi M.M.Ağamirovu və başqalarını misal göstərə bilərik.

1970-ci illərdən Şuşa rayonundakı maddi-mədəniyyət abidələri yenidən qeydə alındı. Onların tədqiqinə, mühafizəsinə və səmərəli istifadə olunmasına diqqət artırılırdı. Lakin ictimai elmlərin inkişafına «hakim ideologiya»nın güclü təzyiqi mənfi təsir göstərirdi. Xüsusilə Şuşa rayonunda qədim tarixə malik Oğuz-Türk abidələrini erməni vandalları saxtalaşdırmağa çalışırdılar. Hətta Şuşanın «abadlaşdırmaq» adı altında qədim maddi-mədəniyyət abidələrimiz rayonun hakim dairələri tərəfindən dağıdılmışdı. 70-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun əməkdaşları M.Hüseynovun rəhbərliyi altında Şuşa ərazisində arxeoloji qazıntı tədqiqat işlərini davam etdirmiş və ərazidə tapılan qədim maddi-mədəniyyət izləri, əşyalar ibtidai insanların burada yaşamasını sübut etmişdilər.

1970-1985-ci illərdə DQMV-də fəaliyyət göstərən elmi idarələr — Xankəndi Zona Təcrübə Stansiyası, Leninakan Genetika və Seleksiya İnstitutunun Qarabağ Elmi Təcrübə bazası, AMEA-nın Dağlıq Qarabağ filialı, Turşusu Dövlət Damazdığ Stansiyası, Azərbaycan Kənd Təsərrüfatı Texnikası Birliyinin DQMV filialı, Xankəndi Aqrar Sənaye Birliyi və başqa idarələr bölgədə xalq təsərrüfatı sahəsində yüksək məhsuldarlıq əldə etmək üçün yeni ixtiralar edir, səmərələşdirici təkliflər irəli sürürdülər [681]. Həmin idarələr Şuşa rayonunun təbii sərvətlərini dərindən öyrənib, aşkarlamış və mənimsəmişdilər. DQMV-də nəbatatçılarının səyləri Vilayətin florasını öyrənməyə və xalq təsərrüfatında ondan istifadə etməyin genişləndirilməsinə, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılmasında həllinə köməklə əlaqədar bitkilərin fiziologiyası və mühafizəsi məsələlərinin tədqiqinə yönəldilmişdi. Eyni zamanda, bəhs etdiyimiz illərdə Şuşa rayonunda kənd təsərrüfatı heyvanlarının məhsuldarlığını artırmağın bioloji əsaslarını hazırlamaq sahəsində mühüm işlər görüldü. Azərbaycan MEA, Dövlət Plan Komitəsi, elm-iqtisadiyyat idarələrində tədqiqatların miqya-

sının genişləndirməsi Şuşa rayonunda iqtisadiyyatın inkişafı üçün ehtiyat mənbələrdən istifadəni genişləndirdi.

Beləliklə, 1970-1985-ci illərdə Azərbaycan SSR-in Şuşa rayonunda mədəniyyətin inkişafında mühüm dövr oldu. Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Şuşa rayonunda təhsil, elm, mətbuat, ədəbiyyat və incəsənətin tərəqqisi üçün münasib imkanlar açıldı. Rayonun mənəvi sərvəti, kadr potensiyalı daha da artdı. Dövlətimizin dərin qayğısı nəticəsində Şuşa rayonunda mədəniyyət dinamik inkişaf etdi.

1986-1987-ci illərdə başqa sahələrdə olduğu kimi Şuşa rayonunun mədəni həyatında da irəliləmələr olmuşdu. 1985-ci ildə Şuşa rayonunda məktəbəqədər uşaq müəssisələrinin sayı 7 idisə, 1987-ci ildə 8-ə çatdı. Həmin müəssisələrdə tərbiyə olunan uşaqların sayı 1985-ci ildəki 565 nəfərdən, 1988-ci ildə 694 nəfərə yüksəldi [682]. 1988-ci ilin məlumatına görə Azərbaycan əhalisinin 20 faizi məktəbəqədər uşaq müəssisələri ilə təmin olunmuşdur, bu göstərici Naxçıvan MSSR-da 12 faiz, Vilayətdə 35 faiz təşkil etmişdir. Aparılan hesablamalara görə 1988-ci ildə Vilayətin azərbaycanlılar yaşayan kəndlərin 12 faizi məktəbəqədər uşaq müəssisələri ilə təmin olunduğu halda, ermənilər yaşayan kəndlərdə bu rəqəm 35 faizə çatmışdır.

1986-1988-ci illərdə Şuşa rayonunda 1 məktəb binası tikilib istifadəyə verilmişdi. 1987/1988-ci tədris illərində Şuşa rayonunda 23 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Həmin məktəblərdə 5 min şagird təhsil alırdı. 1985-ci illə müqayisədə 1988-ci ildə Şuşa rayonunun ümumtəhsil məktəblərində müəllimlərin sayı artaraq 300 nəfərdən 350 nəfərə çatdı. Aparılan müqayisələr nəticəsində məlum olur ki, istər məktəblərə istərsə də şagirdlərə düşən müəllimlərin sayı Dağlıq Qarabağ ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır. Məsələn, 1988-ci ildə Naxçıvan MSSR-da hər məktəbə orta hesabla 37 müəllim düşdüyü halda Vilayətdə bu göstərici 50 idi. Dağlıq Qarabağda hər müəllimə 8,5 şagird, Naxçıvan MSSR-da 10 şagird düşürdü.

1986-1988-ci illərdə DQMV-də peşə təhsili sistemində də irəliləyiş müşahidə edilmişdir. Dağlıq Qarabağın texniki peşə məktəblərində minlərlə şagird sənaye, tikinti, nəqliyyat, kənd təsərrüfatı, məişət xidməti və başqa sahələr üzrə peşələrə yiyələnirdilər. 1988-ci ildə Dağlıq Qarabağda səhiyyə, mədəniyyət, maarif, təsərrüfat və başqa sahələr üzrə orta ixtisaslı kadrları hazırlayan 6 texnikum fəaliyyət göstərirdi ki, bu texnikumlarda hər il 2,3 min tələbə təhsil alırdı [683]. 1987-ci ildə DQMV-də bir ali təhsil müəssisəsi – Xankəndi Pedaqoji İnstitutu fəaliyyət göstərirdi. İnstitutun müxtəlif şöbələrində, ayrı-ayrı ixtisaslar üzrə 2,2 min tələbə təhsil alırdı. Xankəndi Pedaqoji İnstitutunun milliyətcə azərbaycanlı olan müəllim və tələbələri 1988-ci il mayın 16-da Ermənistanın Azərbaycana qarşı başladığı əsassız ərazi iddiaları ilə Xankəndindən qovuldular. Azərbaycanlılardan ibarət pedaqoji kollektiv Şuşa şəhərində müvəqqəti sığınacaq tapdı. Lakin az sonra erməni lobbisinin antitürk, antiazərbaycan siyasətinin təsiri ilə institutun Azərbaycan bölməsi Gəncəyə köçürüldü. SSRİ Nazirlər Sovetinin 14 oktyabr 1988-ci il tarixli 1208 saylı qərarı ilə Xankəndi Pedaqoji İnstitutu öz fəaliyyətini dayandırmışdır [691]. Lakin mərkəzdə yüksək vəzifə tutan ermənilərin himayəsi ilə institutun erməni şöbəsi bu qərarı tanımadı və fəaliyyətlərini Xankəndi İnstitutun binasında davam etdirdilər. İnstitutun azərbaycanlılardan ibarət kollektivi Azərbaycan SSR Nazirlər Sovetinin 22 fevral 1991-ci il sərəncamına əsasən Respublika Təhsil Nazirliyinin qərarı ilə Şuşada öz fəaliyyətlərini davam etdirdilər. 1992-ci il mayın 8-də erməni vandallarının Şuşanı işğal etməsi ilə N.Tusi adına ADPU-nin Şuşa filialı Ağcabədidə öz işini davam etdirdi.

1986-1988-ci illərdə Azərbaycan hökumətinin dərin qayğısı nəticəsində Şuşa rayonunda mədəni-maarif müəssisələrinin maddi texniki bazası xeyli möhkəmlənmişdi. Belə ki, 1985-ci illə müqayisədə 1988-ci ildə Şuşa rayonunda kütləvi kitabxanaların sayı 19-dan 21-ə, oradakı kitabların sayı 144 min nüsxədən 151 min nüsxəyə, klublar 12-dən 14-ə, muzeylər 2-dən 3-ə, qəzetlərin tirajı 3 milyondan 4 milyona çatdı [692]. 1988-ci ildə Şuşada muzeylərə gələnlərin sayı 20 min nəfər, teatra baxanlar 25 min,

kinoya baxanlar bir milyon idi. Aparılan araşdırmalardan məlum olur ki, əvvəlki dövrlərdə olduğu kimi 1988-ci ildə də DQMV-də əhalinin mədəni-maarif müəssisələri ilə təminatı bütövlükdə keçmiş SSRİ məkanında, ümumrespublika səviyyəsində, Ermənistanla müqayisədə birinci yerdə dayanmışdır [693]. Məsələn, 10 min nəfərə düşən kütləvi kitabxanaların sayı keçmiş SSRİ-də 4,8, Ermənistan SSR-də 4,1, ümumrespublika üzrə 6 olduğu halda Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 13-ə çatırdı. 10 min nəfərə düşən klubların sayı SSRİ-də 5,4, Ermənistanda 3,8, Azərbaycan üzrə 5 idisə, Vilayətdə 15-ə çatmışdı. Bundan əlavə əhalinin 10 min nəfərinə düşən kino qurğularının sayı Azərbaycanda 3, Ermənistanda 2,9, SSRİ-də 5,4 olduğu halda Dağlıq Qarabağ bölgəsində bu rəqəm 11 idi [694]. Yuxarıdakı statistik rəqəmlər erməni millətçilərinin bütün dünyaya yaydıqları «DQMV-də yaşayan əhalinin sosial-iqtisadi geriliyi» tezisinin tamamilə ağ yalan olduğunu göstərir. Lakin təəssüflə qeyd edək ki, Vilayətin erməni rəhbərliyi buradakı azərbaycanlı kəndlərinə ögey münasibət göstərmiş və həmin kəndlərin çoxunda mədəni-maarif müəssisəsi tikilməmişdir. Az-çox mövcud olan klub və kitabxanalar lazımı avadanlıq və vəsaitlə təmin edilmir, baxımsızlıq ucbatından dağılırdı. Təkcə bir faktı qeyd edək ki, 1988-ci ildə azərbaycanlılar yaşayan kəndlərdə bədən tərbiyəsi və idman qurğuları ilə təminat 24 faiz təşkil etdiyi halda bu göstərici ermənilərin məskunlaşdığı kəndlərdə 48 faizə çatmışdır [695].

XX yüzilliyin 80-ci illərinin sonlarında Azərbaycanda ictimai həyatın bütün sahələrində olduğu kimi, mədəniyyət sahəsində də keçid dövrünün çətinlikləri özünü göstərirdi. Vəsait çatışmamazlığı, SSRİ məkanında əlaqələrin kəsilməsi, Respublikanın daxilində siyasi sabitliyin olmaması da öz növbəsində ciddi problemlər doğurmuşdu. Bütün bunlara baxmayaraq elm, ədəbiyyat və incəsənət sahələrində kommunist ideologiyasına qarşı mübarizə davam etməkdə idi. Cəmiyyətdəki sosial ziddiyyətlər xüsusilə ədəbiyyatda öz əksini tapırdı. Azadlıq ideyalarının xalqa aşılanmasında poeziya xüsusən əhəmiyyətli rol oynayırdı. Müasir Azərbaycan poetik fikrinin görkəmli

simalarından olan Xəlil Rzanın şeirləri əldən-ələ gəzirdi. İnsan hüquqları uğrunda böyük mübariz olan Xəlil Rza Ulutürk gənclik illərindən çılğın bir poeziya ilə yaradıcılığa başlamış və ömrünün sonuna qədər bu hiss ilə yaşamışdır. Hələ 60-cı illərdə qorxub-çəkinmədən-azadlıq və müstəqillikdən söz açırdı. Son illərdə yaratdığı dünya şöhrətli «Davam edir 37» və «Zindan» silsilə şeirlərinə görə M.F.Axundov mükafatına layiq görülmüş şairin şer və poemaları qara və qırmızı imperiya əsarətinə, köləliyə amansız nifrət, azadlıq və milli müstəqillik uğrunda çağırışla dolu idi. Onun xalqın zəngin qaynaqları olan mənəvi aləmi, öz poetik əksini Bəxtiyar Vahabzadənin, Mirvarid Dilbazinin, Nəbi Xəzrinin, Məmməd Arazın və başqalarının əsərlərində də ustalıqla tapşırdı. B.Vahabzadə «Şəhidlər» poemasında xalqı mətin olmağa, birliyə çağırır, Sovet imperiyasının qanlı siyasətini ifşa edirdi.

Beləliklə, XX əsrin sonlarında Azərbaycan mədəniyyəti inkişafının mühüm dövrlərindən birini yaşadı. Müstəqillik əldə edilməsi təhsilin, elmin, ədəbiyyat və incəsənətin, idmanın inkişafında böyük imkanlar açdı. XXI əsrin astanasında Azərbaycan xalqı tarixinin ən mürəkkəb, çətin və şərəfli dövrünü yaşamaqdadır.

Ümummilli liderimiz Heydər Əliyev «Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti»ndə sovet dövründə mədəni inkişafa aşağıdakı kimi qiymət vermişdir: «1920-1991-ci illərdə Azərbaycanın iqtisadiyyatı ilə yanaşı təhsili, elmi və mədəniyyəti də böyük inkişaf yolu keçmişdir. Dünyəvi teatr, müasir məktəb və demokratik mətbuatın yaranması bünövrəsi XIX əsrdə qoyulsa da, məhz bu 70 ildə ölkəmizdə savadsızlıq ləğv olunmuş, tam orta təhsil tətbiq edilmiş, təhsil müəssisələrinin, o cümlədən ali məktəblərin inkişaf etmiş şəbəkəsi yaranmış, Elmlər Akademiyası formalaşmış, qadınların hüquqlarının qorunması və sosial-iqtisadi həyatda fəal iştirakı təmin olunmuş, onlarla teatr açılmış, kino sənəti inkişaf etmiş, minlərlə qəzet və jurnal çap olunmağa başlanmışdır... Təəssüflər olsun ki, həmin dövrdə yaradılmış bu böyük potensial hərc-mərclik illərində dağıntılara məruz qaldı...

Azərbaycanın düçar olduğu Dağlıq Qarabağ faciəsi vəziyyəti daha da ağırlaşdırdı (Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında» Bakı, «YNS», 2001, s.23).

## Şuşanın tarixi abidələri və maddi mədəniyyət nümunələri

| S № | Tarixi abidənin növü, adı | Yaranma tarixi | Abidənin yerləşdiyi ərazi |
|---|---|---|---|
| 1. | Kurqan | Tunc dövrü | Şuşa şəhəri |
| 2. | Daş qutu qəbirləri | Son tunc və ilk dəmir dövrü | Şuşa şəhəri |
| 3. | Şuşa mağara düşərgəsi | Daş dövrü | Daşaltı çayı sahili |
| 4. | Daş qutu nekropolu | Dəmir dövrü | Qarabulaq kəndi |
| 5. | Nekropol | Son tunc və ilk dəmir dövrü | Dolanlar kəndi |
| 6. | Şuşa qalasının divarları | 1750-ci il | Şuşa şəhəri |
| 7. | Pənah xanın sarayı | XVIII əsr | Şuşa şəhəri |
| 8. | Ağabəyim ağanın qəsri | XVIII əsr | Şuşa şəhəri |
| 9. | Heydər türbəsi | XIX əsr | Şuşa şəhəri |
| 10. | Hacı Quluların malikanəsi | XIX əsr | Şuşa şəhəri |
| 11. | Natəvanın evi | XIX əsr | Şuşa şəhəri |
| 12. | Əsəd bəyin evi | XIX əsr | Şuşa şəhəri |
| 13. | Yuxarı Gövhərağa məscidi | 1768-1769-cu illər | Şuşa şəhəri |
| 14. | Aşağı Göhərağa məscidi | XVIII əsr | Şuşa şəhəri |
| 15. | İkimərtəbəli karvansaray | XIX əsr | Şuşa şəhəri |
| 16. | Mehmandarovların malikanə kompleksi; məscid, yaşayış evi | XVIII əsr | Şuşa şəhəri |

| | | | |
|---|---|---|---|
| 17. | İbrahim xanın bürcü | XVIII əsr | Daşaltı kəndi |
| 18. | İsa bulağı | XIX əsr | Şuşa şəhərinin yaxınlığında |
| 19. | İbrahim xanın qəsri | XVIII əsr | Daşaltı kəndi |
| 20. | Üzeyir bəy Hacıbəyovun ev muzeyi | XIX əsr | Şuşa şəhəri |
| 21. | Xanlıq Muxtar karvansarayı | XVIII əsr | Şuşa şəhəri |
| 22. | Ağa Qəhrəman Mirsiyab oğlunun karvansarayı | XIX əsr | Şuşa şəhəri |
| 23. | Zülfüqar Hacıbəyovun evi | XIX əsr | Şuşa şəhəri |
| 24. | Saatlı məscidi | XVIII əsr | Şuşa şəhəri |
| 25. | Gəncə qapısı | XVIII əsr | Şuşa şəhəri |
| 26. | Ə.Haqverdiyevin evi | XVIII əsr | Şuşa şəhəri |
| 27. | Qazançı kilsəsi | XIX əsr | Şuşa şəhəri |
| 28. | Y.V.Çəmənzəminlinin | XVIII əsr | Şuşa şəhəri |
| 29. | Yuxarı məscid mədrəsəsi | XVIII əsr | Şuşa şəhəri |
| 30. | Səfərov qardaşlarının karvansarayı | XVIII əsr | Şuşa şəhəri |
| 31. | Tarzən Sadıqcanın evi | XVIII əsr | Şuşa şəhəri |
| 32. | Uğurlu bəyin evi | XVIII əsr | Şuşa şəhəri |
| 33. | Xan sarayı | XVIII əsr | Şuşa şəhəri |
| 34. | Şirin su hamamı | XVIII əsr | Şuşa şəhəri |
| 35. | Xanəndə Seyid Şuşinskinin evi | XIX əsr | Şuşa şəhəri |
| 36. | Şair M.P.Vaqifin məqbərəsi | XX əsr | Şuşa şəhəri |
| 37. | Qasım Bəy Zakirin evi | XVIII əsr | Şuşa şəhəri |
| 38. | Mədrəsə | XVIII əsr | Şuşa şəhəri |
| 39. | Behbudovların evi | XVIII əsr | Şuşa şəhəri |
| 40. | Firudin bəyin evi | XVIII əsr | Şuşa şəhəri |
| 41. | M.M.Nəvvabın evi | XVIII əsr | Şuşa şəhəri |
| 42. | Bülbülün evi | XIX əsr | Şuşa şəhəri |

| | | | |
|---|---|---|---|
| 43. | F.B.Köçərlinin evi | XIX əsr | Şuşa şəhəri |
| 44. | Hüseyn bəyin evi | XVIII əsr | Şuşa şəhəri |
| 45. | Keçəçi oğlu Məhəmmədin evi | XIX əsr | Şuşa şəhəri |
| 46. | Karvansaray | XVIII əsr | Şuşa şəhəri |
| 47. | Gəray Əsədovun evi | XVIII əsr | Şuşa şəhəri |
| 48. | S.S.Axundovun evi | XIX əsr | Şuşa şəhəri |
| 49. | C.Qaryaqdıoğlunun binası | XX əsr | Şuşa şəhəri |
| 50. | Realni məktəbinin binası | XX əsr | Şuşa şəhəri |
| 51. | Xəstəxana binası | XIX əsr | Şuşa şəhəri |
| 52. | Yaşayış binası | XIX əsr | Şuşa şəhəri |
| 53. | Qız məktəbi | XIX əsr | Şuşa şəhəri |
| 54. | Aslan Qaraşarovun evi | XIX əsr | Şuşa şəhəri |
| 55. | Məşədi İbrahimin yaşayış evi | XIX əsr | Şuşa şəhəri |
| 56. | Yaşayış evi | XVIII əsr | Şuşa şəhəri |
| 57. | Məşədi Novruzun evi | XIX əsr | Şuşa şəhəri |
| 58. | Həsən ağanın evi | XIX əsr | Şuşa şəhəri |
| 59. | Yaşayış evi | XIX əsr | Şuşa şəhəri |
| 60. | Yaşayış evi | XVIII əsr | Şuşa şəhəri |
| 61. | Şükür Bəyin evi | XIX əsr | Şuşa şəhəri |
| 62. | Cəfərqulu ağanın evi | XVIII əsr | Şuşa şəhəri |
| 63. | Məbəd qalıqları | ? | Şuşa şəhəri |
| 64. | Türbə | ? | Şuşa şəhəri |
| 65. | Bulaq | XVIII əsr | Şuşa şəhəri |
| 66. | "Laçın" su anbarı | XIX əsr | Şuşa şəhəri |
| 67. | Qız monastrı | XIX əsr | Şuşa şəhəri |
| 68. | Süleyman Vəzirovun evi | XIX əsr | Şuşa şəhəri |
| 69. | Hamam | XIX əsr | Malıbəyli kəndi |
| 70. | Məscid | XIX əsr | Malıbəyli kəndi |
| 71. | Novlu bulaq | XIX əsr | Malıbəyli kəndi |

| | | | |
|---|---|---|---|
| 72. | İnzibati bina | XIX əsr | Malıbəyli kəndi |
| 73. | Mamay bəyin evi | XVIII əsr | Şuşa şəhəri |
| 74. | Məşədi Teymurun evi | XVIII əsr | Şuşa şəhəri |
| 75. | Şor bulaq | XIX əsr | Şuşa şəhəri |
| 76. | Xəlil Məmmədovun evi | XIX əsr | Şuşa şəhəri |
| 77. | Ələkbər bəyin evi | XIX əsr | Şuşa şəhəri |
| 78. | Məscid (Çuxur məhəllə) | XIX əsr | Şuşa şəhəri |
| 79. | Lətif İmanovun evi | XVIII əsr | Şuşa şəhəri |
| 80. | Hacı Abbas məscidi və karvansaray | XVIII əsr | Şuşa şəhəri |
| 81. | Mərdinli məscidi | XIX əsr | Şuşa şəhəri |
| 82. | Cahangir bəyin evi | XIX əsr | Şuşa şəhəri |
| 83. | Hacı Məmmədin evi | XVIII əsr | Şuşa şəhəri |
| 84. | Hacı Yusifli məscidi | XVIII əsr | Şuşa şəhəri |
| 85. | Məşədi Salmanın evi | XVIII əsr | Şuşa şəhəri |
| 86. | Culfalar məscidi | XIX əsr | Şuşa şəhəri |
| 87. | Dəyirman | XX əsrin əvvəli | Şuşa şəhəri |
| 88. | Hacı Əlibalanın evi | XIX əsr | Şuşa şəhəri |
| 89. | Kəblə Azadın evi | XIX əsr | Şuşa şəhəri |
| 90. | Hacı Sadığın evi | XIX əsr | Şuşa şəhəri |
| 91. | "Çöl qala" bulağı | XVIII əsr | Şuşa şəhəri |
| 92. | Məşədi Süleymanın evi | XVIII əsr | Şuşa şəhəri |
| 93. | Musəvinin evi | XVIII əsr | Şuşa şəhəri |
| 94. | Hacı Məmmədbağırın evi | XIX əsr | Şuşa şəhəri |
| 95. | Hüsü Hacıyevin evi | XIX əsr | Şuşa şəhəri |
| 96. | Məşədi Zeynal Hətəmovun evi | XVIII əsr | Şuşa şəhəri |
| 97. | Məşədi Zlinin evi | XVIII əsr | Şuşa şəhəri |
| 98. | Məşədi Səhliyarın evi | XVIII əsr | Şuşa şəhəri |
| 99. | Hacı Dadaşın evi | XVIII əsr | Şuşa şəhəri |
| 100. | A.Əzimovun evi | XVIII əsr | Şuşa şəhəri |
| 101. | Məşədi İbrahimin evi | XVIII əsr | Şuşa şəhəri |

| | | | |
|---|---|---|---|
| 102. | Məşədi Cəlalın evi | XVIII əsr | Şuşa şəhəri |
| 103. | Meydan Bulağı | XVIII əsr | Şuşa şəhəri |
| 104. | Hacı Bəşərin evi | XVIII əsr | Şuşa şəhəri |
| 105. | Dərzi Bəhramın evi | XIX əsr | Şuşa şəhəri |
| 106. | Məşədi Hüsnünün evi | XIX əsr | Şuşa şəhəri |
| 107. | Məmməd Həsən oğlunun evi | XVIII əsr | Şuşa şəhəri |
| 108. | Kəlbə Məhəmmədin evi | XIX əsr | Şuşa şəhəri |
| 109. | Xoca Mərcanlı məscidi | XVIII əsr | Şuşa şəhəri |
| 110. | Xoca Mərcanlı bulağı | XVIII əsr | Şuşa şəhəri |
| 111. | Bəhmən Mirzənin evi | XIX əsr | Şuşa şəhəri |
| 112. | Bəhmən Mirzənin ərzaq anbarı | XIX əsr | Şuşa şəhəri |
| 113. | Qulam şahın yaşayış evi | XIX əsr | Şuşa şəhəri |
| 114. | N.B.Vəzirovun evi | XIX əsr | Şuşa şəhəri |
| 115. | Köçərli məscidi | XIX əsr | Şuşa şəhəri |
| 116. | Quyuluq məscidi | XVIII əsr | Şuşa şəhəri |
| 117. | Seyid Məcidin evi | XVIII əsr | Şuşa şəhəri |
| 118. | Bulaq (Seyidli məhəlləsi) | XVIII əsr | Şuşa şəhəri |
| 119. | Seyidli məscidi | XVIII əsr | Şuşa şəhəri |
| 120. | Məşədi Qaranın evi | XIX əsr | Şuşa şəhəri |
| 121. | Kəlbə Yusifin evi | XVIII əsr | Şuşa şəhəri |
| 122. | Zöhrabbəyovun evi | XIX əsr | Şuşa şəhəri |
| 123. | Məşədi İbişin evi | XVIII əsr | Şuşa şəhəri |
| 124. | Məşədi Zülfüqarın evi | XIX əsr | Şuşa şəhəri |
| 125. | Hacı Aslanın evi | XVIII əsr | Şuşa şəhəri |
| 126. | Hacı Məlik oğlunun evi | XVIII əsr | Şuşa şəhəri |
| 127. | Mir Həsən Vəzirovun evi | XIX əsr | Şuşa şəhəri |
| 128. | Mamayı məscidi | XIX əsr | Şuşa şəhəri |
| 129. | Mamayı bilağı | XIX əsr | Şuşa şəhəri |
| 130. | Fərəməzovların evi | XIX əsr | Şuşa şəhəri |
| 131. | Bulaq (Hacı Yusifli məhəlləsi) | XVIII əsr | Şuşa şəhəri |

| | | | |
|---|---|---|---|
| 132. | Bulaq "Ağadədəli məhəlləsi) | XIX əsr | Şuşa şəhəri |
| 133. | Bulaq (Köçərli məhəlləsi) | XVIII əsr | Şuşa şəhəri |
| 134. | Bulaq (Çuxur məhəlləsi) | XVIII əsr | Şuşa şəhəri |
| 135. | Saxsı bulaq | XVIII əsr | Zarıslı kəndi |

## XVIII FƏSİL

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA MİLLİ-MƏDƏNİ DİRÇƏLİŞ SİYASƏTİ VƏ ŞUŞA ŞƏHƏRİNİN MADDİ-MƏDƏNİYYƏTİNİN İNKİŞAF ETDİRİLMƏSİ

1969-cu ildə Azərbaycanın müasir tarixində dönüş mərhələsinin təməli qoyuldu. Ağlı və işgüzarlığı sayəsində general-mayor rütbəsinədək yüksəlmiş görkəmli tarixi şəxsiyyət Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi seçildi [12]. Həmin ilin avqustun 5-də Heydər Əliyev Azərbaycan KP MK Plenumunda çıxış edərək Respublikamızın iqtisadiyyatının dərin və hərtərəfli təhlilini vermiş, təsərrüfata rəhbərlikdə, mədəni quruculuqda, ideoloji işdə ciddi nöqsanlar olduğunu qeyd edərək onun aradan qaldırılması yollarını göstərmişdi [11].

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan KP-nın qurultaylarında, MK-nın plenumlarında, vaxtaşırı çağırılmış müşavirələrdə dövlətimizin iqtisadi, mənəvi və sosial-mədəni inkişafının konkret vəzifələri müəyyən edilmişdi. Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində Azərbaycanda milli özünüdərk prosesi xeyli güclənmiş, yaradıcı ziyalılarımız üçün sərbəst düşüncə və iş şəraiti yaradılmışdır.

1970-ci illərdə DQMV-nin iqtisadi və mədəni tərəqqisinə diqqət daha da artırılmışdır. Şuşa şəhərinin inkişafı ümummilli lider Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Belə ki, o çıxışlarından birində göstərmişdir ki, «Şuşa abidələri şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qayğı ilə qorumaq, buradakı qədim tikililəri bərpa etmək lazımdır» [10]. Gözəl memarlıq abidələri ilə zəngin olan Şuşa şəhərinin kompleks inkişafı üçün Azərbaycan hökuməti, dövlət başçısının təşəbbüsü ilə bir neçə xüsusi qərar qəbul etmişdir. Bunlardan biri, «Şuşa şəhərində kurort kompleksini daha da inkişaf etdirmək tədbirləri haqqında» Azərbaycan KP MK-nın və Respublika Nazirlər Sovetinin 4 noyabr 1976-cı il qərarı idi [8]. Həmin qərara uyğun olaraq Azərdövlətlayihə İnstitutu tərəfindən şəhərin

«Baş planı» layihələşdirildi. Layihədə, Şuşa şəhərində 2000-ci ilədək olan dövrdə görüləcək işlər öz əksini tapmışdı. «Baş plan»da – 2 doqquz mərtəbəli, 45 mənzilli yaşayış evi, 300 yerlik turist bazası, məişət evi, 400 yerlik uşaq sanatoriyası, Şuşanın cənub-qərbində 40 mənzilli «Azərqaznəqliyyat» Nazirliyinin binası, Cıdır düzü – Topxana, Şuşa – Xankəndi kanat yolunun çəkilməsi və digər tikinti abadlıq işlərinin aparılması nəzərdə tutulmuşdur [6]. Lakin təəssüf hissi ilə bir məsələni xüsusi qeyd etməliyik ki, DQMV-nin erməni rəhbərliyi və Vilayət XDS-i öz səlahiyyətlərindən istifadə edərək türkçülüyü, müsəlmançılığı öz üzərində əks etdirən Xurşud Banunun, Gövhər Ağanın, Cəfərqulu xanın, Uğurlu Bəyin, Fərzəlibəyin, Nəcəfqulu Ağanın, Hacı Qulunun, Səfibəyin, tikdirdikləri saray və imarətlər, məscid və hamamlar, Camxarov, Mirsiyabov, Fayazovların tikdirdikləri ticarət-sənaye mərkəzlərinin «Şuşa şəhərinin Kurort kompleksini inkişaf etdirmək» adı altında dağıtmağa başladılar. Bu acı həqiqətdən məlumat tutan dövlət başçısı Heydər Əliyev dərhal məsələyə öz münasibətini bildirmiş və 10 avqust 1977-ci ildə Azərbaycan KP MK-nın, Azərbaycan SSR Nazirlər Sovetinin 280 №-li qərarı ilə «Şuşa şəhəri Tarixi Arxitektura Qoruğu» elan edilmişdir [13].

Doğrudanda dağlar diyarı Şuşa şəhəri əsrlərin yadigarı gözəl memarlıq abidələri ilə zəngindir. Şuşa özü boyda canlı abidədir desək yanılmarıq. Çünki burada tarixi keçmişimizi özündə əks etdirən gözəl sənət inciləri - «Alaqapı», «Çanaqqala», «Gəncə qapısı», «Gövhərağa Məscidi», «Xan qızı bulağı», «Böyük meydan bulağı», «Rasta-Bazar», «Hacıqululuların malikanəsi», «Zöhrabbəyovun malikanəsi», «Bülbülün ev muzeyi», «Saatlı Məscidi», «Mirsiyabovun Karvansarası», «Heydər Türbəsi» qala divarları şəhərə xüsusi gözəllik verir. Qədim Şuşanın memar və nəqqaşlarından Mir Möhsün Nəvvab Qarabağı, Məmmədyar, Usta Qənbər Qarabağı, Məşədi Əliqulu, Qarabağlı Kəblə Əkbər, Məşədi Xaspolad, Kərbəlayi Səfixan Qarabağı və digər azərbaycanlı sənətkarlarının əllərinin məhsulu olan bu sənət əsərləri öz milliliyinə və forma müxtəlifliyinə görə Azərbaycan memarlıq mədəniyyəti tarixində özünəməxsus yer

tutmuşdur. Başdan-başa tarixi abidələrlə zəngin olan Şuşa şəhərində hər kvadrat kilometrə 327 tarixi abidə düşürdü. Şəhərin 190 hektar sahəsini əhatə edən 198 Respublika dərəcəli köhnə tarixi abidə 1977-ci ildən «Tarixi memarlıq qoruğu» elan edilmiş, Azərbaycan SSR Mədəniyyət Nazirliyinin uçotuna alınmışdır. Azərbaycan SSR Nazirlər Sovetinin 1977-ci il yuxarıda adı gedən «Qərarın»dan sonra Şuşa şəhərinin qoruq zonasına daxil edilən 549 qədim bina, ümumi uzunluğu 1203 metr olan daş döşənmiş küçələr, 18 məhəllə bulağı, 15 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr, kilsə, qala divarları və bürcləri, 21 sovet dövründə tikilmiş tarixi abidə dövlət tərəfindən qorunmağa və bərpa edilməyə başlandı [7].

Doğrudan da, Heydər Əliyevin uzaqgörənliyi olmasaydı Şuşanın qədim abidələrindən, təkrarsız sənət incilərindən bir dənə də olsun əsər-əlamət qalmazdı. Heydər Əliyevin təşəbbüsü ilə 1977-ci ilin sentyabrında Şuşadakı Tarixi Memarlıq Abidələrinin qorunub saxlanılması işini daha da yaxşılaşdırmaq məqsədilə Azərbaycan SSR Elmlər Akademiyasının İncəsənət və Memarlıq İnstitutu tərəfindən geniş «Tədbirlər planı» işlənib hazırlandı. Planın icrasına mütəxəssislər, alimlər, Mədəniyyət Nazirliyinin idarə, müəssisə və ictimai təşkilatları cəlb edildi. 1977-ci ilin oktyabrında Şuşa şəhərində Dövlət Tarixi Memarlıq Qoruğu İdarəsi yaradıldı. Hətta mədəniyyət abidələrinin bərpa və inkişafı, kurort kompleksini inkişaf etdirmək məqsədilə yerli əhalidən ibarət «Şuşa Mədəniyyət Abidələrinin Mühafizəsinə Könüllü Yardım Cəmiyyəti» də təşkil edildi. «Cəmiyyət»in 40-a yaxın ilk təşkilatı var idi. Beləliklə, Heydər Əliyev Şuşanın mədəniyyət abidələrinin erməni vandalları tərəfindən dağıdılmasının qarşısı böyük uzaqgörənliklə alındı və bölgədəki 236 tarixi memarlıq abidəsi qeydə alınaraq mühafizə olunmağa, şəhərin kurort kompleksi inkişaf etdirilməyə başlandı [14].

1976-1982-ci illərdə Şuşa şəhərində bir neçə tarixi abidə tamamilə bərpa olundu. Bunlardan biri öz gözəlliyi və möhtəşəmliyi ilə diqqəti cəlb edən «Gəncə qapısı»nın bərpasıdır. Bərpa vaxtı şəhərin girəcəyində yerləşən «Gəncə qapısı»nın milli xüsusiyyətləri qorunub saxlanmışdır. «Gəncə qapısı»nın müha-

fizə zonasında Azərbaycanda birinci dəfə olan «Açıq muzey» təşkil olunmuşdur. Muzeydə ulu-babalarımızdan bizə yadigar qalan milli naxışlı bəzək daşları, qapı və pəncərə üstü karnizlər, müxtəlif daşlardan yonulmuş kitabələr, sütunlar və digər memarlıq nümunələri nümayiş etdirilmişdir.

Bəhs etdiyimiz illərdə Şuşada Şorbulaq, Meydan, Hamamqabağı məhəlləsinin bulaqları, Saatlı məhəlləsindəki məscid, keçmiş realnı məktəbinin binası, qala divarlarının bir hissəsi, «Şirin su» hamamı qazılıb üzə çıxarılaraq bərpa olunmuşdur. Təsadüfi deyildir ki, 12 yanvar 1979-cu ildə Ümummilli lider Heydər Əliyev Şuşaya gəlmiş, burada bərpa olunmuş bir sıra abidələrin açılışında iştirak etmiş və gələcək işlər üçün özünün dəyərli məsləhətlərini vermişdir [13]. Qısa bir müddətdə Şuşanın gözəl memarlıq nümunələrinin, tarixi abidələrinin bərpasında ciddi irəliləmələr müşahidə edildi. Zöhrabbəyovun və Hacı Qulunun imarətləri, Aşağı məscid, Qala divarlarının bərpası, Vaqifin, Natəvanın, Nəvvabın və başqa tarixi şəxsiyyətlərin ev muzeylərinin açılışı 70-ci illərin sonları 80-ci illərin əvvəllərinə təsadüf edilmişdir. Bu dövrdə Ü.Hacıbəyovun ev muzeyində yenidənqurma və yeni tərtibat işləri aparılmış, Natəvanın evinin qarşısında şairin heykəli qoyulmuş, vaxtilə Şuşanı düşmənlərdən qoruyan qədim «Qala divarları» bərpa olunmuşdur.

XX yüzilliyin 70-ci illərində Şuşada 1176 yerlik orta məktəb binası, 600 yerlik «Azərbaycan» kino-teatrı, yay kinoteatrı, 9 mərtəbəli 100 nəfərlik mehmanxana, 36 və 40 mənzilli yaşayış binaları, hər biri 70 çarpayıdan ibarət 2 pansionat və digər mədəni-məişət obyektləri tikilib istifadəyə verilmişdir. Bu dövrdə Daşaltı su kəməri ilə Şərq milli-musiqi alətləri fabriki yanında «Hədiyyələr korpusu», «Kommunalar bağı», «Pionerlər», «Gənclik», «Natəvan» adına parklar tikilib yerli əhalinin istifadəsinə verilmişdir [14]. «Baş plan»a uyğun olaraq 70-ci illərdə Şuşada xeyli quruculuq və abadlıq işləri görülmüşdür. Məşhur «İsa Bulağı»nın, «Turş su» mineral bulağının abadlaşdırılması, sanatoriya ərazisində «Su qaleriyası»nın tikilməsi bəhs edilən illərin məhsullarıdır. Ümumiyyətlə, 1976-1982-ci illərdə Şuşada tikinti-abadlıq işlərinə 20 milyon manat vəsait ayrılmışdır

ki, bu da 1971-1975-ci illərlə müqayisədə 2 dəfə, 1965-1969-cu illərdə isə müqayisədə 10 dəfə artıq demək idi [10]. Bütün bunlar isə Ümummilli lider Heydər Əliyevin Vətənimizə, onun keçmişinə vurğunluğu, tarixi abidələrimizə olan sevgisi ilə əlaqədar idi. Bu böyük sevginin, vurğunluğu nəticəsi idi ki, Heydər Əliyev 1982-ci ildə Şuşa şəhərində 2 dəfə olmuşdur. 1982-ci il yanvarın 14-də Şuşa şəhərinə gələn Heydər Əliyev ilk növbədə M.P.Vaqifin yerli mərmərdən tikilmiş 20 metr hündürlüyündə olan əzəmətli məqbərənin açılışında iştirak etmişdir [4]. Bu zaman Respublikamızın 400-dən çox ədəbiyyat, incəsənət və elm xadimi də həmin abidənin açılışında iştirak etmişdilər [6]. Həmin vaxt Heydər Əliyev «Baş plan»da nəzərdə tutulmuş və bərpa edilmiş tarix və mədəniyyət abidələrinə baxış keçirmişdir.

Elmə, sənətə və sənətkara qiymət verən dahi insan Heydər Əliyev həmin ildə ikinci dəfə 1982-ci il iyulun 28-də ailə üzvləri ilə birlikdə Şuşa şəhərinə gəlmiş bir sıra mədəniyyət abidələrinin və obyektlərin açılışında iştirak etmişdir [13]. Heydər Əliyev M.P.Vaqifin poeziya bayramında iştirak etmiş, şairin dərs dediyi mədrəsəni, şəkil qalereyasını, Ü.Hacıbəyovun ev muzeyini, məscidləri, X.B.Natəvanın büstünü ziyarət edərək görülən işlərdən razı qaldığını bildirmişdir. Dövlət başçısı qarşıda görüləcək işlər barədə öz tapşırıqlarını vermiş, konkret vəzifələr, təşkilati tədbirlər müəyyənləşdirmişdir.

Beləliklə, ulu öndərimiz Heydər Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi tədbirlər nəticəsində Şuşa şəhərinin tarixi abidələri bərpa olunmuş, böyük mehmanxana, çoxmərtəbəli yaşayış binaları, inzibati binalar tikilmiş, Şuşa Ümumittifaq səviyyəli kurort şəhərinə çevrilmişdir. Lakin çox təəssüflər olsun ki, Azərbaycanın cənnət məkanı, qədim Oğuz-Türk diyarımız Şuşa şəhəri 1992-ci ildə erməni vandalları tərəfindən ələ keçirilmiş, qədim tarixi abidələrimiz dağıdılmış və yandırılmışdır.

Azərbaycan tarixinin qaranlıq səhifələrinin işıqlandırılmasında muzeylərimizin rolu əvəzsizdir. Muzeylərimiz-tariximizin öyrənilib-öyrədilməsində, mədəni sərvətlərimizin toplanıb

qorunması və təbliğində çox böyük işlər görmüşlər və görürlər. Ümummilli lider Heydər Əliyev çıxışlarından birində bu müqəddəs məbədlərin (muzeylərin) əhəmiyyətindən bəhs edərək göstərmişdir ki, «Muzeylər mühüm mədəniyyət ocaqlarına, zəhmətkeşlərin, xüsusilə cavan nəslin ideya-siyasi və mənəvi tərbiyəsinin mərkəzlərinə çevrilmişdir. Muzeylər, söz yox ki, hər bir vətəndaşın öz diyarının, rayonunun, kəndinin tarixinə bələd olması üçün vacibdir.... Muzeylərimiz, Azərbaycan xalqına məxsus milli sərvətlərin tarix və mədəniyyətimizlə bağlı dəyərlərin, ulu keçmişimizi özündə yaşadan yadigarların toplanması, qorunması, öyrənilməsi və gənc nəslin tərbiyəsində istifadə edilməsi üçün çox böyük əhəmiyyətə malikdir...» [15]. Tanınmış dünya siyasətçisinin çox böyük uzaqgörənliklə irəli sürdüyü bu fikirləri əldə rəhbər tutaraq dövlətimiz ötən əsrin 70-ci illərində muzeylərimizin inkişafına diqqət və qayğını artırdı.

Azərbaycanda muzeylərin inkişafı 1970-ci illərdən başlamışdır. Dövlətimizin bu sahəyə göstərdiyi qayğı və diqqət nəticəsində 1970-1985-ci illərdə Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağda müxtəlif profili muzeylər yaradılmışdır. Xüsusi olaraq, XIX əsrdə 95 şairə, 22 musiqişünasa, 38 xanəndəyə, 100 nüsxəbəndə, 19 xəttata, 16 nəqqaşa, 18 memara, 5 astronoma, 16 həkimə, 42 müəllimə və yüzlərlə qədim tarixi abidələrə məxsus [16] Şuşa şəhərində muzeylərin inkişafı 70-ci illərdə Respublikamıza rəhbərlik edən dövlət başçısının xüsusi diqqət mərkəzində olmuşdur. Hətta 70-ci illərdə zəngin sənət incilərinə malik Şuşa şəhərində memarlıq abidələrinin bərpa və inkişafı ilə bağlı Azərbaycan KP MK və Respublika Nazirlər sovetinin xüsusi qərarı da olmuşdur. Hansı ki, yuxarıda bu önəmi məsələ ətrafında geniş şərh edilmişdir. Başdan-başa tarixi abidələrlə dolu olan Şuşa şəhərinin hər kvadrat kilometrinə 327 tarixi abidə düşürdü [17]. 1977-ci ildə şəhərin 190 hektar sahəsini əhatə edən tarixi hissəsi Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Tarixi Memarlıq Qoruğu elan edilmişdir. Qoruq zonasına 198 Respublika dərəcəli köhnə tarixi abidə, 549 qədim bina, uzunluğu 1203 metr olan daş döşənmiş küçə, 15 məscid, 18 məhəllə bulağı, 6 karvansara, 2 qəsr, 4 türbə,

9 qala bürcü, 900 daş küçə, 36 tarixi abidə, 202 memarlıq abidəsi, 160 incəsənət abidəsi daxil idi [18]. Əlbəttə, bunların içərisində tarix, ölkəşünaslıq və ev muzeylərinin yaradılması, bərpası və inkişafı xüsusi əhəmiyyət kəsb edirdi.

Bəhs etdiyimiz dövrdə Şuşada yaradılmış muzeylərdən biri «Yaşıl Aptek muzeyi»dir. Muzeydə 1892-ci ildə Sankt-Peterburqda çap olunmuş «Ümumi terapiya», 1901-ci ildə yenə orada çap olunmuş «Canlı mineralların və bitkilərin təsviri», professor Horbert Otnerin «Daxili xəstəliklərin xüsusi terapiyası üzrə mühazirələr»i və digər tibbə aid nadir kitablar nümayiş etdirilirdi [19]. Muzeydə, Şuşada bitən müalicəvi əhəmiyyətli bitki nümunələri səliqə ilə səbətlərə yığılmış, divardakı xüsusi lövhələrdə həmin bitkilər haqqında məlumat öz əksini tapmışdır. «Yaşıl Aptek muzeyi»nin başqa bir guşəsində isə XVIII-XIX əsrlərə aid qədim əczaçılıq əşyaları, gülab qabları, mis parçalar, daş çaynik və s. toplanmışdır. Muzeyin daş döşəməsi öz qədimliyini qoruyub saxlamışdır. 1877-ci ildə Peterburq Tibb-Cərrahlıq Akademiyasını bitirmiş, Peterburq klinik hərbi xəstəxanasında həkim işləmiş, 1883-cü ildə Şuşaya qayıdaraq həkimlik peşəsini davam etdirmiş tədqiqatçı alim Kərimbəy Mehmandarovun portreti və onun haqqında məlumat da muzeyin eksponatları arasında idi.

1980-ci ildə Şuşa Dövlət Tarixi Memarlıq Qoruğu İdarəsi əməkdaşlarının təşəbbüsü və Şuşa şəhər əhalisinin köməyi ilə «Gəncə qapısı»nın mühafizə zonasında xarakterinə görə Respublikamızda birinci olaraq «Açıq muzey» təşkil olundu [20]. Burada ulu-babalarımızdan bizə yadigar qalmış qədim əşyalar nümayiş etdirilirdi. Muzeyin eksponatları milli naxışlı bəzək daşlarından, müxtəlif məmulatlardan yonulmuş kitabələrdən, sütun pilləkənlərdən və başqa gözəl memarlıq nümunələrdən ibarət idi.

Bəhs edilən illərdə Şuşada yaradılmış muzeylərdən biri də, 1849-cu ildə məşhur memar Kərbalayi Səfixan Qarabaği tərəfindən inşa edilmiş Mehmandarovların qonaq evlərində «Xalça muzeyi»nin təşkili olmuşdur [21]. Binanın özü memarlıq ənənələrini qoruyub saxlamışdır. Beş qapıdan, səkkiz pəncərədən

ibarət olan Muzeyin tavanının orta hissəsində gül xonçası həkk edilmiş və bir əsir yarım əvvəl rənglənməsinə baxmayaraq öz gözəl ornamentlərini itirməmişdir. Muzeyə respublikanın xalq rəssamı Lətif Kərimov rəhbərlik edirdi. Bir vaxtlar Paris, Berlin, Vyana, Peterburq, Moskva incəsənət sərgilərində nümayiş etdirilərək medallara layiq görülmüş Qarabağ xalçaları 1970-1980-ci illərdə xalça muzeyinin əsas eksponatlarını təşkil edirdi. Eksponatlar arasında «Fatma xanım», «Ləpə», «Güzgülü zili», «Balıq xalı», «Xanlıq», «Göllü kilim» və digər xalçalar diqqəti daha çox cəlb edirdi. Şuşa «Xalça Muzeyi»ndə təkcə qədim xalçalar deyil, həm də yundan toxunmuş yaşı əsrlərə bərabər olan xurcunlar, farmaşlar, at çulu, yəhərüstülər, cəhrə, daraq, kirkid, iy, dükcə, yumaq, qayçı və digər əşyalar nümayiş etdirilirdi.

Yeri gəlmişkən onu da qeyd edə ki, XVIII-XIX yüzilliklərdə Şuşa xalçaları bütün dünyada məşhur idi. Təəssüflər olsun ki, Şuşa xalçalarını dünya bazarına çıxarıb böyük məbləğdə gəlir əldə edən məkirli erməni tacirləri, bu sənət incilərini özününküləşdirməyə çalışmışlar. Hətta, 1985-ci ildə Texasda Kimbella muzeyində keçirilən sərgidə nümayiş etdirilən Şuşa xalçaları çox böyük məharətlə ermənilər tərəfindən saxtalaşdırılmış, bu gözəl sənət incilərinin müəlliflərini erməniləşdirmişlər. Lakin mənfur siyasət sahibləri bir məsələdə yanılırlar ki, gözəl Şuşa xalçalarında xalqımızın həyatı, məişəti, dünyagörüşü, siması əks olunur, onun nəfəsi (türkçülük, müsəlmançılıq) duyulur. Ona görə də xalqımızın bacarıqlı əlləri ilə yaratdığı sənət inciləri öz ünvanını heç vaxt dəyişməyəcək.

1981-ci ildə Şuşada istifadəyə verilmiş «Rəsm Qalereyası» şəhərin Ocaqqulular məhəlləsində yerləşirdi [22]. 1750-ci ildə tikilmiş, üç mərtəbədən ibarət, tacir Abbasqulu ağa Zöhrabbəyova məxsus möhtəşəm on otaqlı bina öz gözəlliyini və tarixiliyini qoruyub saxlamışdır. Şuşa şəhər Şəkil Qalereyasına SSRİ rəssamlar ittifaqının üzvü Rövşən Bayramov rəhbərlik etmiş və muzeyin eksponatlarla zənginləşdirilməsində xeyli işlər görmüşdür. Rəsm Qalereyasında 500-dən artıq rəsm əsəri nümayiş etdirilmişdi. Burada dünyanın ən mahir fırça ustalarının şedevrləri ilə yanaşı, respublikamızın, o cümlədən, yerli rəssam-

ların da əsərləri özünə həmişəlik ünvan tapmışdır. Muzeydə Şuşalı rəssamlar Rövşən Bayramovun, Tofiq Zeynalovun, Valeh Məmmədovun və başqalarının işləri çox maraq doğururdu. Hətta yerli rəssamların əsərləri 1985-1986-cı illərdə Moskva sərgisində nümayiş etdirilmişdir. Rövşən Bayramovun «Şuşada küçə», «İllər keçdi», «Köhnə şəhərdə məscid», «Günorta», «Şaxtaçı» və digər əsərləri böyük maraqla qarşılanmışdır. Şuşanın keçmişinə həsr edilmiş əsərlər Qalereyada daha çox diqqəti cəlb edir və Qədim Şuşa haqqında aydın təsəvvür yaradır. Muzeydə təbiət təsvirləri, dumanlı dağlar, qalın meşələr, yaşıl otlaqlar, qırmızı lalələri, qədim binalar, qədim əşyalar və digər rəsmlər Şuşa haqqında sanki maraqlı xatirələr nəql edir. S.Bəhlulzadə, S.Salamzadə, N.Əbdürrəhmanov, M.Rəhmanzadə və digər görkəmli rəssamların əsərləri Rəsm Qalereyasının qiymətli eksponatların təşkil edirdi. Qalereyada müxtəlif məişət əşyaları, Daş məmulatları və mis qablar da nümayiş etdirilirdi. Bütün bunlarla yanaşı, Rəsm Qalereyasında Üzeyir Hacıbəyova həsr olunmuş «xüsusi guşə» yaradılmışdır. Dahi Üzeyir sənətinə dərin hörmət əlaməti olaraq burada görkəmli bəstəkarın portreti, «Leyli və Məcnun» əsərinə reproduksiya, «Uzun ömrün akkordları» filminə çəkilmiş illüstrasiyalar, «Arşın mal alan»dan səhnə və digər əsərlər nümayiş etdirilmişdi [23].

Qədim tarixə malik Şuşa şəhəri həm də görkəmli ədiblər, şairlər, yazıçılar məskənidir. Təsadüfi deyildir ki, XIX əsrin sonlarında Şuşada 95 şairin olması qeydə alınmışdır. 1970-ci il məlumatına görə isə Qarabağdan 15 nəfər akademik, 16 nəfər bəstəkar, 32 nəfər yazıçı, 20 nəfər xalq artisti, 62 nəfər əməkdar incəsənət xadimi, 100 nəfər elmlər doktoru, 23 nəfər general çıxmışdır [24].

Qarabağın zümrüd tacı olan Şuşa torpağı M.P.Vaqif, X.B.Nətavan, M.M.Nəvvab, N.Vəzirov, Ə.Haqverdiyev, F.Köçərli, M.M.Xəzani, M.Rzaqulubəy, Mirzə Ələsgər, A.Asi, H.Qarabaği, M.Cəfərqulu xan, S.S.Axundov, Mirzə Xosrov, Y.V.Çəmənzəmənli kimi görkəmli ədiblər yetişdirmişdir.

Həmin böyük şəxsiyyətlər, onların yazdığı əsərlərlə bağlı mövcud materialların toplanması, qorunması, öyrənilməsi və

təbliğ edilməsi üçün 1970-ci ilin sonlarından Şuşada «Poeziya Evi» yaradılmağa başlamış və 1982-ci ilin yanvarından həmin muzey açılmışdır [25]. Muzeydə görkəmli Şuşa ədiblərinin həyat və fəaliyyətinə aid sənəd və eksponatlar nümayiş etdirilmişdir. Poeziya evində hər şey bir vaxtlar M.P.Vaqifin lirik misralarının səsləndiyi və ya Xurşid Banu Natəvanın öz rübailərini oxuduğu şer məclislərinin şəraitini xatırladırdı. Burada kiçik taxta kətillərin üzərində açıq şer kitabları qoyulmuşdur. Həmin kitabların səhifələrini şamdanlarda yanan şamların sarımtıl şöləsi işıqlandırırdı. Poeziya evində Şuşanın şair və yazıçılarının həyat və fəaliyyətinə, yaradıcılığına aid kitablar, əlyazmalar, şəkillər, ədiblərin qiymətli əşyaları, səs lentləri və digər materiallar qoyulmuşdur.

Şuşa, həm də özünün musiqiçiləri ilə şöhrət qazanmışdır. Haqlı olaraq Şuşanı Azərbaycanın təbii konservatoriyası, musiqi sənətinin ocağı adlandırırlar. Təsadüfi deyildir ki, Şuşanın saf suyu və təmiz havası dünyanın əksər dövlətlərində tanınan 60 musiqişünas-xanəndə yetişdirmişdir [26]. Bunlara misal olaraq Q.S.Sədrəddinqızını, Y.A.Quliyevi, Ə.Zülalovu, Ə.Ə.Məşədi Cəmili, S.Ələsgərovu, K.Məhəmmədi, H.Hüsnü, H.Malıbəylini, M.Məmmədi, Z.Hacıbəyovu, S.Hacıbəyovu, R.Behbudovu, X.Şuşinskini, S.Şuşinskini, Bülbülü, H.Qurbanovu, C.Qaryağdıoğlunu, Q.Primovu, Ü.Hacıbəyovu və digərlərini misal göstərə bilərik. Məşhur musiqişünas Vinaqradov yazırdı ki, «Şuşa musiqiçiləri Azərbaycan musiqisinin tarixini yaratmış və onu yalnız öz vətənlərində deyil Şərqin başqa ölkələrində təmsil etmişlər. Qarabağın baş şəhəri olan Şuşa Zaqafqaziyanın konservatoriyasıdır» [27].

Elmə, mədəniyyətə, sənətə, sənətkara düzgün qiymət verməyi bacaran tanınmış dünya siyasətçisi, Heydər Əliyev Şuşa musiqiçilərinin həyat və fəaliyyətini öyrənmək, qorumaq və gələcək nəslə çatdırmaq məqsədilə Ü.Hacıbəyovun və Bülbülün ev muzeylərinin açılması haqqında xüsusi qərar vermiş və həmin muzeylərin açılışında iştirak etmişdir. Şuşada tarixi abidələrin bərpa olunması, 1980-1981-ci illərdə M.R.Vaqifin böyük məqbərənin ucaldılması, Natəvanın heykəlinin qoyulması da

məhz Heydər Əliyevin adı ilə bağlıdır [27].

Azərbaycan, professional musiqisinin banisi Ü.Hacıbəyovun Şuşadakı ev muzeyinin görkəmi xüsusi olaraq diqqəti cəlb edirdi. Ü.Hacıbəyovun ev muzeyi yaradılarkən Azərbaycan milli-memarlıq sənətinin ünsürlərindən çox zövqlə istifadə edilmişdir. Muzeyin ətrafı mərmərlə döşənmişdir. 5 otaqdan ibarət olan muzeydə Ü.Hacıbəyovun ilk yaradıcılıq illərinə aid zəngin materiallar, onun şəxsi əşyaları, qohum, ailə üzvlərinin foto şəkilləri, həmçinin böyük sənətkarın lent yazıları vardır.

Ü.Hacıbəyovun dövlət mükafatları, orden və medalları, paltarları, anasının sandığı da nümayiş etdirilən eksponatlar arasında idi. Ən mühüm diqqəti cəlb edən məsələlərdən biri də ondan ibarətdir ki, Ü.Hacıbəyovun doğulduğu, yaşadığı və ev muzeyinin yerləşdiyi küçəyə görkəmli sənətkarın adı verilmişdir.

Dahi sənətkar unudulmaz Bülbülün ev muzeyinin də yaradılması bəhs etdiyimiz dövrün məhsuludur [28]. Bülbülün ev muzeyinin yaradılması işində Adilə xanımın böyük əməyi olmuşdur. Kənd evini xatırladan bu həyətdə yerdən təndir, saray, odunxana, surahili və kürsülü taxta döşəməli eyvan, palıd sütunlarla əhatə olunan qarğıdan hörülmüş tavan Bülbülün yaşadığı evin öz təbiiliyini qoruyub saxladığını bir daha nümayiş etdirirdi. Otaqlarda taxça, kürsü, şkaf və rəflərin üzərində çoxlu eksponatlar, böyük sənətkarın həyatından xəbər verən əşyalar, foto şəkillər, lent yazıları, albomlar və digər qiymətli şəxsi əşyalar nümayiş etdirilirdi.

Şuşa şəhərinin əbədi yadigarlarından biri də Tarix-Ölkəşünaslıq Muzeyidir. Şuşa Tarix muzeyinin zəngin eksponatları XVIII əsrdə inşa edilmiş binada toplanmışdır. Şuşa Tarix Muzeyinin ekspozisiyası muzeyə gələn tamaşaçıları Azərbaycan xalqının çoxəsrlik tarixi ilə tanış edir. Təsadüfi deyildir ki, 70-ci illərdə dövlətimizin qayğısı nəticəsində yerli əhalidən pulla alınan əşyalar hesabına Şuşa tarix muzeyində saysız-hesabsız qədim və təsirli eksponatlar toplanmışdır [29]. Toplanmış əşyaların müxtəlifliyi muzeyin şöbələrə bölünməsinə səbəb olmuşdur. Qarabağın qədim dövr tarixini özündə əks etdirən salonda müxtəlif rayonlarda, kəndlərdə və Şuşanın özündə

aparılan qazıntı işləri nəticəsində əldə edilmiş arxeoloji materiallar, maddi mədəniyyət abidələri, məişət və mədəniyyəti əks etdirən əşyalar, qədim sikkə, maket, foto-şəkillər və digər köməkçi materiallar nümayiş etdirilirdi.

Digər salonda isə Qarabağın orta əsrlər dövrünə həsr edilmiş materiallar toplanmışdır. Burada nümayiş etdirilən əşyalar arasında həmin dövrə aid əmək alətləri, silahlar, saxsı məmulatlar, sənətkarlığa aid əşyalar, Qarabağın görkəmli xadimlərinin fəaliyyətinə dair sənədlər, elm, ədəbiyyat və incəsənət xadimlərinin əlyazmaları, şair və dövlət xadimlərinə aid materiallar var idi.

Şuşa Tarix Muzeyinin digər salonlarında XIX-XX yüzilliklərə aid materiallar nümayiş etdirilmişdi. Burada, Şuşada dünyaya göz açmış və Azərbaycan mədəniyyətinə böyük töhfələr bəxş etmiş görkəmli mədəniyyət xadimlərinin həyat və fəaliyyətinə aid materiallar qoyulmuşdur. Muzeyin 1941-1945-ci illərə həsr olunmuş salonunda Dağlıq Qarabağ və Şuşa əhalisinin ön və arxa cəbhədə göstərdiyi qəhrəmanlıqları əks etdirən materiallar nümayiş etdirilmişdir. Həmçinin muzeydə, xalq təsərrüfatının bütün sahələrində əldə edilmiş nailiyyətləri özündə əks etdirən materiallar, Şuşanın flora və faunasına, yeraltı və yerüstü təbii sərvətlərinə aid materiallar, əmək qəhrəmanları, sənaye müəssisələri haqqında maraqlı məlumatlar var idi.

Beləliklə, 70-ci illərdə və 80-ci illərin birinci yarısında Ümummilli liderimiz Heydər Əliyevin çoxcəhətli dövlət idarəçiliyi sayəsində DQMV-nin iqtisadi və mədəni tərəqqisinə diqqət artırılmış, Şuşa şəhərinin inkişafı üçün bir neçə xüsusi qərar qəbul olunmuş, şəhərin tarixi abidələri bərpa olunmuş, yeni muzeylər yaradılmış, çoxmərtəbəli yaşayış və inzibati binalar tikilmiş, Şuşa şəhəri ümumittifaq səviyyəli kurort şəhərinə çevrilmişdir. Şəhərdə tikinti, abadlıq, bərpa işlərini şəxsən nəzarətə götürən Heydər Əliyev 12 yanvar 1979-cu ildə və 14 yanvar 1982-ci ildə bir qrup ədəbiyyat, incəsənət və elm xadimi ilə birgə Şuşada olmuş bir sıra abidələrin açılışında iştirak etmiş və muzeyləri gəzmişdir [30]. Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində Şuşada M.P.Vaqifin məqbərəsi,

Ü.Hacıbəyovun abidəsi, Bülbülün, X.Natəvanın büst abidələri yaradılmışdır. 1982-ci il iyulun 28-də ailə üzvləri ilə birlikdə Şuşaya gələn Heydər Əliyev Vaqifin dərs dediyi mədrəsəni Şəkil Qalereyasını, Ü.Hacıbəyovun ev muzeyini, X.B.Natəvanın büstünü, məscidləri və digər obyektləri gəzmiş, bərpa işindən razı qaldığını bildirmişdir [31].

Ümumiyyətlə, 1970-1985-ci illər ərzində DQMV-də muzeylərin sayı 2,3 dəfə artaraq 3-dən 7-ə, muzeyə gələnlərin sayı isə 35 min nəfərdən 152 min nəfərə çatmışdı [32]. 1980-ci illərin sonlarında Azərbaycanda 124 muzey fəaliyyət göstərirdi [33].

Mədəni-maarif müəssisələri arasında muzeylərin çox böyük əhəmiyyəti vardır. Belə ki, muzeylərin daxilində keçirilən elmi-kütləvi iş, habelə muzeylərin təşkil etdikləri ekskursiyalar, səyyar sərgilər, müharibə veteranları və əmək qəhrəmanları ilə görüşlər əhalinin ideya-siyasi tərbiyəsində mühüm rol oynayır. Eyni zamanda, xalqımızın tarixi, mədəniyyəti, böyük şəxsiyyətləri ilə bağlı dəyərlərin gənc nəslə çatdırılmasında muzeylərimiz əvəzsiz rol oynayırlar. Bu baxımdan AMEA Azərbaycan Tarixi Muzeyinin bugünkü fəaliyyətini Azərbaycan xalqı çox yüksək qiymətləndirir. Çünki Azərbaycan Tarixi Muzeyi dünənimiz və bu günümüzlə bağlı dəyərləri toplayır, dəyərli materiallarla zənginləşdirir və gələcək nəsillər üçün qoruyub saxlayır.

Çox təəssüflər olsun ki, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə bağlı qədim abidələr diyarı olan Şuşa 1992-ci il mayın 8-də erməni vandalları tərəfindən ələ keçirildi [34]. Bu zaman Şuşanın 27 sənaye və tikinti müəssisəsi, 103 mədəni-maarif ocağı, 31 kənd və qəsəbəsi, 249 tarixi abidəsi və muzeyi erməni quldurlarının əlinə keçdi [35]. Ümumilikdə isə Qarabağ savaşı zamanı Ermənistan tərəfindən Azərbaycan torpaqlarının 20 faizi işğal edildi. İşğal nəticəsində 900-dən artıq yaşayış məntəqəsi, 6000 istehsal obyekti, ümumi sahəsi 9 min kvadrat metr olan 180 min yaşayış binası [36], 1010 təlim-tərbiyə müəssisəsi, 4545 mədəni-maarif ocağı, 667 tibb müəssisəsi, 927 kitabxana, 464 tarixi abidə və muzey, 40 mindən artıq muzey eksponatı, 100-dən artıq arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası erməni vandalları tərəfindən dağıdıldı [37].

Qarabağ savaşında 20 min Azərbaycan, vətəndaşı həlak olmuş, 100 min nəfər yaralanmışdır. 1 milyon 200 min Azərbaycan vətəndaşı öz doğma vətənində qaçqın və köçkünə çevrilmişdir. Bu zaman 4959 nəfər həmvətənimiz itkin düşmüş, 4 min nəfər girov götürülmüşdür [38].

Lakin XX yüzilliyin sonları, XXI yüzilliyin əvvəllərində Respublikamızın istər daxili və xarici siyasətdə, istərsə də iqtisadi, siyasi və mədəni həyatda əldə etdiyi uğurlar Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa olunacağından xəbər verir. Biz, Heydər Əliyev siyasətini uğurla davam etdirən, gənc və istedadlı Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşməklə Şuşanı və bütün Qarabağ torpaqlarını düşmən təcavüzündən azad edə bilərik və edəcəyik!!

İnanırıq ki, tezliklə torpaqlarımız düşmən tapdağından azad olacaq, xalqımızın məbədgahları olan muzeylərimiz bərpa olunaraq yenidən xalqımıza xidmət edəcəkdir.

# XIX FƏSİL

## AZƏRBAYCANIN ŞUŞA RAYONUNDA SOSİAL VƏZİYYƏT (1920-1988-ci illər)

XX yüzilliyin sonlarında bir sıra daxili və xarici amillər SSRİ-nin süqutunu labüdləşdirdi. Rəsmi Moskva keçmiş imperiyanın sərhədlərini qoruyub saxlamaq üçün bir sıra iqtisadi manevrlər etsə də bu SSRİ-ni dağılmaqdan xilas edə bilmədi. Əksinə bu konsepsiyalar İttifaqın dağılmasını daha da sürətləndirdi. Belə bir şəraitdə Mərkəz keçmiş tarixi təcrübəsindən istifadə edib Respublikalarda etnik və milli münaqişələr törətdi. Bu isə öz növbəsində müasir dünyanın qlobal problemlərindən olan separatçılığın, terrorun genişlənməsinə rəvac verdi və eyni zamanda sosial problemlər də törətdi. Keçmiş İttifaqda baş verən ən ağır və dəhşətli etnik münaqişə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi olmuşdur ki, nəticədə bu münaqişə Azərbaycanın dövlətçiliyinə, infrastrukturuna ağır zərbə vurmaqla ciddi sosial problemlər (işsizlik, maddi rifahın aşağı düşməsi, qaçqınlıq və köçkünlük problemləri) doğurdu.

Rəsmi Ermənistan öz işğalçılıq siyasətini pərdələmək üçün bütün dünyaya bəyan etdi ki, guya Dağlıq Qarabağ ərazisi tarixən Ermənistana aid olub və burada yaşayan ermənilər Azərbaycan rəhbərliyi tərəfindən sıxışdırılır, onların sosial-iqtisadi inkişafı acınacaqlı vəziyyətdədir. Fəslin yazılmasını aktual edən ən başlıca cəhət mənbələrə əsaslanaraq Dağlıq Qarabağın tarixən Azərbaycanın ayrılmaz üzv hissəsi olduğunu, müqayisələr apararaq Dağlıq Qarabağın sosial iqtisadi inkişafının Azərbaycanın digər regionlarından tamamilə üstün olduğunu, azərbaycanlıların daha çox yaşadığı kəndlərin, o cümlədən Şuşa rayonunun sosial vəziyyətini təhlili və bölgədə yaşayan müsəlmanların sıxışdırılması, baxımsızlıq ucbatından geridə qalması, gənclərin yaxşı yaşamaq üçün bölgəni tərk etməsi, azərbaycanlılar yaşayan kəndlərin boşalması və xarabazara çevrilməsi və digər önəmli məsələlər tədqiq və təhlil olunmuşdu.

Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edən Şuşa rayonunun sosial-iqtisadi inkişafının tədqiqi olduqca vacib və əhəmiyyətlidir. Bu hər şeydən öncə bölgənin tarixinin erməni "tarixçiləri" tərəfindən saxtalaşdırılması ilə bağlıdır. Ümummilli liderimiz Heydər Əliyev çıxışlarından birində göstərmişdir ki, «Ömrümüzdən ötüb keçmişə çevrilən hər bir gün tarixə məxsusdur. Əlbəttə iki yüz əsrin qovşağında min illərin tarixi faktlarını, inkişaf salnaməsini araşdırmaq həftələrlə, aylarla vaxt apara bilərdi. Qısaca olaraq yalnız bunu deyə bilərəm ki, Azərbaycan xalqının bizim eranın iki min ili ərzində keçib gəldiyi yol yenilməz, zəngin, mərdanə bir qəhrəmanlıq tarixidir! ... Ötən əsrin tarixi gerçəkliyi, bəşəri dəyərləri barədə danışmaq həm asandır, həm də çətin! Asandır ona görə ki, ötən yüz il bizə vaxt etibarilə digər əsərlərdən yaxındır. Bu əsrin demək olaraq hər ili, hər ayı, hər həftəsi, hər günü nəinki tarixçilər, alimlər tərəfindən qələmə alınmış, eyni zamanda onun bir çox əhəmiyyətli hadisələri bizim nəsillərin gözü qarşısında baş vermişdir. Bu əsrin xidmətləri daha geniş, daha böyükdür... Mən açığını deyim ki, Azərbaycanda dövlət rəhbəri işlədiyim dövrdə Dağlıq Qarabağın sosial-iqtisadi inkişafını həmişə diqqət mərkəzində saxlamışam və sözsüz ki, bölgənin inkişafı digər rayonlarla müqayisədə üstün olmuşdur... Bu gün tarixçilərimiz faktlara əsaslanaraq həmin həqiqəti dünya ictimaiyyətinə çatdırılmalıdırlar».

Azərbaycanın «Şuşa rayonunda sosial vəziyyət (1920-1988)» fəslini yazarkən başlıca məqsədiniz rayonun sosial iqtisadi və mədəni inkişaf mərhələlərini öyrənmək, bu istiqamətdə Azərbaycan dövlətinin humanist siyasətinin ermənilər tərəfindən saxtalaşdırılması cəhdlərinin iftira xarakteri daşımasını, Dağlıq Qarabağın o cümlədən Şuşanın sosial-iqtisadi geriliyi barədə ortaya atılan tezisin əsassız olduğunu, bütövlükdə Qarabağın tarixən Azərbaycan ərazisi olması və tarixin heç bir mərhələsində Azərbaycandan ayrılmadığını arxiv sənədləri, tarixi mənbələr, faktlar, dövrü mətbuat və digər materiallar əsasında sübut etməkdən ibarətdir; 1950-1960-cı illərdə Şuşa rayonunun xalq təsərrüfatının bütün sahələrində baş verən yüksəlişi

səciyyələndirmək; Şuşada fəaliyyət göstərən bütün sənaye, nəqliyyat, tikinti, səhiyyə, mədəniyyət və digər müəssisələrin məhz Azərbaycan dövləti tərəfindən yaradılıb inkişaf etdirilməsini tarixi sənədlər və faktlar əsasında sübuta yetirmək; Qərəzsiz statistikanın dili ilə Dağlıq Qarabağın sosial-iqtisadi durumun Azərbaycanın digər regionlarına nisbətən yüksəkdə dayandığını göstərməklə, erməni ideoloqlarının «bölgədə yaşayan erməni əhalisinin sosial-iqtisadi vəziyyətinin geriliyi» tezisinin ağ yalan olduğunu sübut etmək; XX yüzilliyin 40-60-cı illərində Vilayətdəki erməni kəndlərinin abadlaşması, böyüməsi, azərbaycanlılar yaşayan qədim yaşayış məskənlərinin isə xarabazara çevrilməsi, əsasən rayonun erməni başçılarının qatı millətçilik siyasətinin nəticəsi olmaqla yanaşı Azərbaycan rəhbərliyinin bölgədə qədimdən yaşayan azərbaycanlılara laqeydliyi, biganəliyini də açmaq; Tariximizi saxtalaşdıran erməni müəlliflərinin «bütövlükdə Dağlıq Qarabağın iqtisadiyyatının Ermənistandan asılılığı» qeyri-obyektiv fikirlərinin əsassız olduğunu mənbələrə əsaslanaraq açmağa çalışmaq; 1950-1980-ci illərdə Şuşa rayonunda xalq təsərrüfatının inkişafı istiqamətində Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlərin xronologiyasını izləmək və yüksəlişi statistikanın dili ilə səciyyələndirmək; Erməni millətçilərinin, guya Vilayətdə yaşayan ermənilərin hüquqlarının tapdalanması, sosial-iqtisadi geriliyi, Azərbaycan rəhbərliyi tərəfindən «sıxışdırılması və nəticədə bölgədə yaşayan ermənilərin sayının azalması kimi cəfəng konsepsiyanın əsassızlığını sənədlər və materiallara əsaslanaraq təhlil etmək; Müqayisələrə, təhlillərə geniş yer verməklə Vilayətə böyük həcmdə maliyyə vəsaitinin ayrılması, lakin həmin kapitalın erməni icmasının daha çox cəmləşdiyi yaşayış məntəqələrinə istiqamətlənməsi, erməni rəhbərliyi tərəfindən əsasən azərbaycanlılar yaşayan Şuşa rayonuna ögey münasibətin məqsədlərinə aydınlıq gətirmək. Fəsil yazılarkən çoxsaylı mənbələrdən, sənəd və materiallardan, külliyyatlarda, statistik nəşrlərdən, bioqrafik yazılardan, qəzet və jurnallardan istifadə edilmişdir.

1941-1945-ci illərdə yüz minlərlə Azərbaycan döyüşçüsünün öz dünyasını dəyişməsi və müharibədən sonrakı ilk ağır

illərdəki iqtisadi, sosial və mənəvi çətinliklər Respublikamızda əhali artımının ləng getməsinə səbəb olmuşdu. 1950-ci ildə Azərbaycanda 2 milyon 859 min nəfər əhali yaşayırdı ki, bu da 1940-cı ildəkindən 415 min nəfər az idi [1]. 1950-1960-cı illərdə Azərbaycanda əhalinin sayında xeyli artım müşahidə edilmişdir. Belə ki, 1960-cı ildə Azərbaycanda əhalinin sayı 3 milyon 816 min, 1970-ci ildə isə artaraq 5 milyon 117 min nəfərə çatmışdır [2].

Azərbaycan SSR-in rayonu 1950-1960-cı illərdə bəzi özünəməxsus demoqrafik inkişaf xüsusiyyətlərinə malik olmuşdur. 1959-cu illərdə 36,7 min nəfər əhali yaşayırdı ki, bu da 1940-cı ildəkindən 0,7 min nəfər az idi [3]. Lakin 1960-ci illərin sonlarında Şuşa rayonunda əhalinin sayı artaraq 1940-cı il səviyyəsinə çatmışdır. Bu artımın ən başlıca amili 1950-1960-cı illərdə Azərbaycanın hər yerində olduğu kimi Şuşa rayonunda da əhalinin doğum, ölüm və təbii artım göstəricilərində müsbət dəyişikliklərin əldə edilməsi ilə bağlı idi. 1950-1960-cı illər ərzində Şuşa rayonu əhalinin ümumi sayına nisbətdə şəhər əhalisinin sayı artmış, kənd əhalisinin xüsusi çəkisində azalma halı müşahidə edilmişdir. Belə ki, 15 yanvar 1950-ci il siyahıya-alınmasına görə Şuşa rayonunda əhalinin 79 faizi kənddə, 21 faizi şəhərdə yaşayırdısa, 1970-ci ildə isə əhalinin 62 faizi kənddə, 38 faizi şəhərdə məskunlaşmışdır [5]. Naxçıvan MSSR-da isə 1970-ci ildə əhalinin 75,2 faizi (154,7 min nəfəri) kənd yerlərində, 24,8 faizi (51 min nəfəri) şəhərdə yaşamışdır [6]. Ümumrespublika üzrə bu göstərici 1950-ci ildə 44 faiz şəhərdə, 56 faiz kənddə və 1970-ci ildə isə hər ikisində 50 faiz təşkil etmişdir [7]. Statistik məlumatlara əsaslanaraq əhalinin tərkibindəki sosial dəyişikliklərlə bağlı şəhər əhalinin artması faktını araşdırarkən belə bir maraqlı müqayisə aşkarlanır. 1950-1960-cı illərdə Ümumrespublika üzrə şəhər əhalisinin sayının artması 6 faiz, Naxçıvan MSSR-da 7 faiz təşkil etmişdirsə, ümumilikdə DQMV-də bu göstərici 18 faizə çatmışdır [8]. DQMV-də şəhər əhalisinin Azərbaycanın başqa əraziləri ilə müqayisədə çox artması səbəblərini araşdırarkən ilk öncə Azərbaycan hökumətinin bu bölgəni daim diqqət mərkəzində saxlaması və bütün sahələrə ayrılan vəsaitin dəfələrlə üstün olmasında axtarmaq

lazımdır. DQMV-nin şəhərləri, rayon mərkəzləri və qəsəbələrində xüsusilə Xankəndində yeni fabrik, zavod və müəssisələrin tikintisi, yeni iş yerlərinin açılması, yeni mədəni-məişət obyektlərinin istifadəyə keçirilməsi, əhalinin mənzilə olan tələbatının ödənilməsi, şəhər əhalisinin maddi durumunun, güzəranının yaxşılaşması, onların ərzaq məhsulları ilə tam təmin edilməsi və sair amillər əhalinin şəhərə axınına səbəb olmuşdur. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, DQMV-nin şəhər, qəsəbə və rayon mərkəzlərində əhalinin artması tempi daha çox Xankəndi şəhərində müşahidə edilmişdir. Belə ki, 1926-cı ildə Xankəndində əhalinin sayı 3,2 min nəfər idisə 1968-ci ildə 8,9 dəfə artaraq 28,4 min nəfərə çatdı. Qədimdən Qarabağın mərkəzi olan Şuşa şəhərində isə bu artım 1,4 dəfə olmuşdur (5,1 min nəfərdən 7,3 min nəfərə qalxmışdır) [9]. Bəhs edilən dövrdə Azərbaycanın paytaxtı Bakı şəhərində bu artım 2,4 dəfəyə, Ermənistanın mərkəzi İrəvan şəhərində isə 12 dəfəyə çatmışdır [10]. Həmçinin bir acı həqiqəti də qeyd etməliyik ki, Xankəndində əhalinin bu cür dinamik artımı yalnız milliyyətcə ermənilərə aid olmuşdur. Bu, erməni siyasətbazlarının və lobbisinin növbəti hücum dalğası idi. Bir neçə evdən ibarət Xankəndi kəndinin sonralar Vilayət mərkəzinə çevrilməsi və əhalinin (xüsusi olaraq ermənilərin) sayının süni sürətdə artırılması gələcəkdə dövlətimizə qarşı bir «mina» rolunu oynayacaqdı və oynadı. 1950-1960-cı illərdə Şuşa rayonunda əhalinin dinamik inkişafını aşağıdakı cədvəldən də aydın izləmək olar (min nəfərlə) [11].

| **İllər** | **Cəmi (min nəfərlə Şuşa rayonu üzrə)** | **O cümlədən şəhərdə yaşayanlar (min nəfər)** | **O cümlədən kənddə yaşayanlar (min nəfər)** |
|---|---|---|---|
| 1939 | 37,4 | 5,4 | 32,0 |
| 1959 | 36,7 | 6,1 | 30,6 |
| 1960 | 37,2 | 6,5 | 30,7 |
| 1965 | 39,7 | 6,7 | 33,0 |
| 1968 | 41,3 | 6,8 | 34,5 |

1950-1960-cı illərdə Şuşa rayonunda əhalinin sosial strukturunda olan dəyişikliklərdən biri də, fəhlə sinfinin kəmiyyət və keyfiyyətcə artması idi. Ümumiyyətlə, 1950-ci illə müqayisədə 1970-ci ildə Şuşa rayonunda xalq təsərrüfatında işləyən fəhlə və qulluqçuların sayı 150 faiz artdı [14]. Rayonda 1950-ci ildə 3 min nəfər işçi var idisə, 1960-cı ildə 50 faiz artaraq 5 min nəfərə, 1965-ci ildə 100 faiz artıb 6 min nəfərə, 1970-ci ildə isə 150 faiz artıb 8 min nəfərə çatmışdır. 1970-ci ildə Şuşa rayonunun sənaye müəssisələrində min nəfərdən artıq fəhlə və qulluqçu işləyirdi ki, bu da 1952-ci illə müqayisədə 71 faiz çox demək idi [15]. Tikintidə çalışan fəhlə və qulluqçuların sayı 1952-ci ildəki 100 nəfərə qarşı, 1970-ci ildə 5 dəfə artaraq 500 nəfərə çatmışdır [16].

Şuşa rayonunda əhalinin sosial strukturunda, işləməyən ailə üzvləri ilə birlikdə kolxozçuların payı 1939-cu ildə 54 faiz təşkil edirdisə, 1959-cu ildə 42 faizə, 1970-ci ildə isə 16 faizə enmişdir [17].

1965-ci ildə Şuşa rayonunda meşə təsərrüfatında çalışan fəhlə və qulluqçuların 30 nəfərdən 1970-ci ildə 55 nəfərə, nəqliyyat vasitələrində çalışanlar 1965-ci ilin 180 nəfərinə qarşı 1970-ci ildə 320 nəfərə, rabitə işçilərinin sayı müvafiq illərdə 100 nəfərdən 140 nəfərə, kommunal və məişət xidməti işçiləri 230 nəfərdən 260 nəfərə, ticarət, iaşə, texniki təchizat, tədarük orqanlarında çalışanlar 320 nəfərdən 420 nəfərə çatmışdı. 1952-ci illə müqayisədə 1970-ci ildə ticarət və təchizat idarəsində işləyənlərin sayı 95 faiz, nəqliyyat və rabitə xidmətlərində işləyənlər 2,5 dəfə artmışdır [18].

Şuşa rayonunda müəssisələrdə istehsalın həcminin, texniki səviyyəsinin artması, elm, təhsil və mədəniyyətin yüksəlməsi qulluqçuların sayının davamlı olaraq artmasına səbəb olmuşdu. Əhalinin siyahıyaalınmasının nəticəsinə görə 1970-ci ildə respublikamızda işləməyən ailə üzvləri ilə birlikdə 1 milyon 830 min nəfər qulluqçu var idi [19]. Həmin il Şuşa rayonunda xalq təsərrüfatında çalışan ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı 1450 nəfərə çatırdı [20]. 1970-ci ildə Şuşa rayonunda xalq təsərrüfatında çalışan qulluqçuların 380 nəfəri ali təhsilli, 1070

nəfəri isə orta ixtisas təhsilli mütəxəssis idi. Aparılan tədqiqatlara əsasən müəyyən olunmuşdur ki, 1939-1959-cu illərdə Şuşa rayonunda xalq təsərrüfatında çalışan qulluqçuların sayı 6 faiz artmışdır [21].

1970-ci il statistik məlumatına görə Şuşa rayonunda çalışan mütəxəssislərdən 47 faizini qadınlar 53 faizini kişilər təşkil edirdi. Şuşa rayonunda təsərrüfat, idarə və müəssisələrində çalışan qulluqçu qadınların 40 faizi ali təhsilli, 58 faizi orta ixtisas təhsilli, 2 faizi isə orta, peşə təhsilli idilər. 1959-cu ildə Şuşa rayonunda yaşayan əhalinin 52 faizini qadınlar, 48 faizini kişilər təşkil edirdisə, 1969-cu ildə 51 faizi qadınlar, 49 faizi kişilər təşkil etmişdir [22]. Şuşa rayonunda çalışan mütəxəssis qadınlar orta ixtisas təhsilli mütəxəssislər arasında elmi, pedaqoji, kitabxana sahəsində ümumi mütəxəssislərin 64,1 faizini, tibb işçiləri arasında 86,1 faizi, plan-statistika işçiləri arasında 39,4 faizi aqronom, zotexniklərdən 19,7 faizi, texniklərdən 17,3 faizi, ali təhsilli mütəxəssislər arasında — mühəndislərin 27,9 faizini, aqronom, zootexnik təsərrüfatı işçiləri arasında 11,3 faizini, həkimlərin (diş həkimi müstəsna olmaqla) 59,6 faizini, iqtisadçıların 33 faizini, elmi pedaqoji və kitabxana işçilərinin 45,9 faizini qadınlar təşkil edirdi [23].

1950-1960-cı illərdə Azərbaycanda əhalinin milli tərkibində də dəyişikliklər baş vermişdi. 1959-1970-ci illərdə respublikamızda azərbaycanlıların sayı 2494,4 mindən 3776,8 minə, rusların sayı 501,3 mindən, 510,1 minə, ermənilərin sayı 442,1 mindən 483,5 minə, ləzgilərin sayı 98,2 mindən 137,3 minə, yəhudilərin sayı 40,2 mindən 41,2 minə çatmışdır. Bəhs etdiyimiz illərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağda azərbaycanlıların sayı 18 mindən 27,2 minə, ermənilərin sayı 110 mindən 121,1 minə, rusların sayı 1,8 mindən 1,3 minə, ukraynalıların sayı 0,2 mindən 0,3 minə, digər millətlər 0,3 mindən 0,4 minə çatdı. 1979-cu il əhalinin siyahıyaalınmasına görə Şuşa rayonunda 16019 nəfər əhali yaşayırdı ki, bunun 12955 nəfərini (80,8 faizini) azərbaycanlılar, 2881 nəfərini (17,9 faizini) ermənilər, 183 nəfərini (1,1 faizini) digər millətlər təşkil etmişdir [24]. Yeri gəlmişkən maraqlı bir

faktı qeyd etmək yerinə düşərdi. Belə ki, 1959-1970-ci illərdə Yerevan şəhərində azərbaycanlıların sayı 3,2 mindən 2,7 minə endiyi halda, Bakı şəhərində ermənilərin sayı 170 mindən 207,4 minə qalxmışdır. Ermənilərin sayının və xüsusi çəkisinin Azərbaycanda, Bakı şəhərində, Dağlıq Qarabağ bölgəsində, Ermənistan və onun paytaxtı Yerevan şəhərində artması, əksinə Ermənistanda (0,2 faiz) və Yerevanda (0,3 faiz) azərbaycanlıların sayının azalması halları müşahidə edilmişdir [25]. Azərbaycanlılar öz əzəli torpaqları olan Ermənistandan deportasiya edilmiş, sıxışdırılmış və qovulmuşdur. Ermənilər üçün isə Azərbaycanda, yaşayış üçün hər cür şərait yaradılmışdır. Bütün bunlar isə ermənilərin çoxalmasına səbəb olmuşdur.

1950-1960-cı illərdə respublikamızın Şuşa rayonunda əhalinin təbii artımı, ölüm hallarının azalması və doğulanların sayının artması halı müşahidə edilmişdir ki, deyilənləri aşağıdakı cədvəldə də izləmək olar [26]:

| **İllər** | **Şuşa rayonunda əhalinin hər 1000 nəfərinə nisbətən: (nəfərlə)** | | |
|---|---|---|---|
| | **Doğulanların sayı** | **Ölənlərin sayı** | **Təbii artım** |
| 1940 | 35,2 | 13,5 | 11,7 |
| 1950 | 31,4 | 9,4 | 22,0 |
| 1960 | 36,5 | 7,6 | 28,9 |
| 1970 | 28,1 | 7,1 | 21,0 |

Yuxarıdakı cədvəldən aydın göründüyü kimi Şuşa rayonunda 1950-1960-cı illərdə əhalinin səviyyəsi müxtəlif dövrlərdə fərqli olmaqla özünün ən yüksək nöqtəsinə 1960-cı ildə çatmışdır. Şuşa rayonunda bu göstərici 37 nəfərə bərabər idisə, Naxçıvan MSSR-da 54 nəfərə qalxmışdır.

1967-ci il statistika məlumatlarına görə Dağlıq Qarabağda əhalinin hər 1000 nəfərinə görə nikah bağlama halı boşanma halından 8 dəfə artıq olmuşdur. Ayrı-ayrı rayonlarda bu göstəricilər fərqli müşahidə edilmişdir. Bəhs olunan ildə ən çox kəbin Xankəndi şəhərində hər 1000 nəfərə 9 nəfər, Şuşa

rayonunda 7,4 nəfər rayonlar üzrə götürüldükdə ən aşağı göstərici isə Ağdərə rayonunda – hər 1000 nəfərə orta hesabla 4,8 nəfər kəbin düşmüşdür. Boşanma hallarında isə ən yüksək göstərici Şuşa şəhərində (hər 1000 nəfərə 2,3 nəfər), ən aşağı göstərici Ağdərə rayonunda (hər 1000 nəfərə 0,2 nəfər) müşahidə edilmişdir [27].

1939-cu ildə respublikamızda hər kvadrat kilometrə 37,1 nəfər, onun ayrılmaz hissəsi olan Dağlıq Qarabağda 34,3 nəfər, 1960-cı ildə 42,7 və 29,6, 1965-ci ildə isə Azərbaycanda 50,6 nəfər, DQMV-də 32,7 nəfər adam düşmüşdü [28]. Qarabağın Şuşa rayonunda isə əhali daha sıx paylanmışdır. Belə ki, 1926-cı ildə rayonda hər kvadrat kilometrə 36 nəfər əhali düşürdüsə, 1959-cu ildə bu göstərici 37 nəfərə, 1965-ci ildə 40 nəfərə, 1970-ci ildə isə 41,3 nəfərə qalxmışdır. Bəhs olunan dövrdə bu göstərici istər ümumrespublika səviyyəsində, istərsə də Naxçıvan MR və DQMV ilə müqayisədə yuxarı göstərici olmuşdu.

1950-1960-cı illərdə Şuşa rayonunda istehsalın ardıcıl olaraq artması əhalinin gəlirlərinin çoxalmasına səbəb olmuşdu. 1945-1947-ci illərdə fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 32 faiz artmış, 1950-ci ildə isə müharibədən əvvəlki səviyyəni 80 faiz ötüb keçmişdir. Azərbaycan hökuməti tərəfindən 1948-ci ildən ərzaq və sənaye məhsullarının qiymətləri aşağı salındı. Artıq 1950-ci ildə qiymətlər 1947-ci illə müqayisədə ümumilikdə 43 faiz, o cümlədən sənaye məhsulları üzrə 35 faiz, ərzaq məhsulları üzrə 47 faiz aşağı düşmüşdü [29]. 1950-1960-cı ərzaq məhsullarının qiyməti 32 faiz, qeyri-ərzaq məhsullarının qiyməti isə 22 faiz aşağı düşmüşdü. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1951-1954-cü illərdə ümumilikdə qiymətlər dörd dəfə düşmüşdür. Həmin dövrdə ərzaq məhsulları 30 faiz, qeyri ərzaq məhsulları 19 faiz aşağı düşdü. Vahid qiymətlərin tətbiq edilməsi, kartoçka sisteminin ləğvi dövlət və bazar qiymətləri arasında fərqin azalmasına səbəb oldu. 1950-ci ildə əhalinin alıcılıq qabiliyyəti aşağı idi. Qiymətlər nə qədər aşağı salınsa da, pul islahatı keçirilsə də 1950-ci ildə 1940-cı ilə nisbətən qiymətlər 3 dəfə yüksək idi [30]. Vəziyyəti nizama salmaq üçün Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan KP MK 1956-cı

il sentyabrın 8-də az maaşlı fəhlə və qulluqçuların əmək haqqının (1957-ci il bir yanvardan) qaldırılması haqqında qərar verdi [31].

Həmin qərara əsasən az maaşlı zəhmət adamlarının əmək haqqının artırılması ilə yanaşı ixtisas səviyyəsindən, iqtisadi əhəmiyyətindən, işin mürəkkəbliyindən, əmək haqqından, iş şəraitindən, coğrafi və iqlim şəraitindən asılı olaraq fəhlə və qulluqçuların əmək haqqı tənzimləndi. 1958-ci ildən 1970-ci ilədək fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 1,5 dəfə artıb 109,6 manata çatmışdı. 1965-ci illə müqayisədə 1970-ci ildə Şuşa rayonunda xalq təsərrüfatının müxtəlif sahələrində çalışan fəhlə və qulluqçuların ümumi orta aylıq əmək haqqı artaraq 77 manatdan 99 manata çatmışdır. Həmin illərdə sənaye sahəsində işləyən fəhlə və qulluqçuların əmək haqqı 74 manatdan 111 manata, nəqliyyat işçilərinki 83 manatdan 103 manata, poçt-teleqraf işçilərininki 64 manatdan 81 manata, tikintidə işləyənlərinki 87 manatdan 123 manata, ticarət-iaşə işçilərinki 67 manatdan 83 manata, kommunal xidməti işçilərinki 52 manatdan 75 manata, səhiyyə işçilərinki 74 manatdan 79 manata, maarif və mədəniyyət işçilərinki 92 manatdan 100 manata, dövlət kredit və sığorta idarəsində işləyənlərinki 80 manatdan 90 manata, dövlət və təsərrüfat idarə orqanlarında və ümumi orqanlarda işləyən işçilərin əmək haqqı 87 manatdan 105 manata qalxmışdı.

1950-1960-cı illərdən Azərbaycanın Şuşa rayonunda kənd təsərrüfatı istehsalının artması, heyvandarlıq məhsulları tədarükünün mütləq normalarının azaldılması, kənd təsərrüfatı məhsullarının tədarük və satınalma qiymətlərinin artırılması kolxoz və sovxozlarda işləyən zəhmət adamlarının maddi vəziyyətinin yaxşılaşmasına kömək etdi. 1950-ci ildə Şuşa rayonunda kənd təsərrüfatında çalışanların pul gəlirləri 1940-cı illə müqayisədə 1,5 dəfə çoxalmışdırsa, 1960-cı ildə 2,6 dəfə artıb 80 manata, 1970-ci ildə isə təxminən 3 dəfə artıb 90 manata çatmışdır [32]. Bəhs etdiyimiz dövrdə Şuşa rayonunda əhalinin pul gəlirinin artmasına təsir göstərən amillərdən biri də Azərbaycan hökumətinin 1957-ci ildən əhaliyə məcburi verilən istiqrazların dayandırılması ilə bağlı olmasıdır.

Azərbaycanın Şuşa rayonunda fəhlə və qulluqçuların fərdi əmək haqqına, həmçinin kolxozçu kəndlərin gəlirlərinə mühüm əlavə sosial-mədəni tədbirlərə sərf edilən Azərbaycanın dövlət xərcləri idi. 1950-1960-cı illər ərzində Azərbaycan hökumətinin Şuşa rayonuna ayırdığı vəsaitin ildən-ilə necə artırdığını aşağıdakı cədvəldən də görmək olar (min manat hesabı ilə) [33]:

| İllər | Mədaxil (gəlir) | Məxaric (xərc) | o cümlədən | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | **Xalq təsərrüfatına** | **Maarifə** | **Səhiyyəyə** | **Sosial Təminatı şöbəsinə** | **Dövlət idarə orqanlarına** |
| **1950** | 969 | 804 | 71 | 516 | 161 | 6 | 50 |
| **1955** | 980 | 860 | 115 | 524 | 183 | 12 | 26 |
| **1960** | 1104 | 1204 | 260 | 611 | 268 | 13 | 52 |
| **1965** | 1687 | 1885 | 404 | 1005 | 402 | 10 | 64 |
| **1967** | 2389 | 2086 | 501 | 1209 | 482 | 11 | 61 |
| **1970** | 3016 | 2494 | 806 | 1291 | 304 | 11 | 82 |

Cədvəldən göründüyü kimi 1970-ci ildə Azərbaycan SSR-in dövlət büdcəsindən Şuşa rayonuna sosial-mədəni tədbirlərə ayrılan vəsait 1950-ci ildəkindən təxminən 3 dəfə çox idi. Aparılan tədqiqatlardan məlum olur ki, Şuşa rayonunda yaşayan əhalinin savadlanmasına və sağlamlığına, ayrılan ümumi vəsaitin böyük hissəsi sərf edilmişdir. Belə ki, 1924-cü ildə həmin sahəyə ümumi vəsaitin təxminən 50 faizi, 1940-cı ildə 65 faizi, 1950-ci ildə 70 faizi, 1960-cı ildə 70 faizi, 1965-ci ildə 60 faizi, 1970-ci ildə 70 faizi ayrılmışdır [34]. Apardığımız təhlillərdən məlum olur ki, bütün iyirminci yüzillik (1920-1988-ci illər) ərzində Şuşa rayonuna ayrılan vəsait Dağlıq Qarabağın digər rayonlarına ayrılan vəsaitin təxminən altmış faizi həcmində idi. Bu "prosesi" isə DQMV-nin XDS-i həyata keçirirdi. DQMV-nin XDS-ni tərkibini nəzərdən keçirərkən onların tərkibinin demək olar ki, hamısının ermənilərdən ibarət olmasının şahidi oluruq. Onlar isə

məqsədli şəkildə azərbaycanlıların daha çox yaşadığı Şuşa rayonuna ikili mövqedən yanaşırdılar.

Azərbaycanın Şuşa rayonunda əhalinin maddi təminatında Azərbaycan hökumətinin ayırdığı təqaüdlərin əhəmiyyəti böyük idi. SSRİ Ali Soveti 14 iyul 1956-cı ildə «Dövlət təqaüdçüləri haqqında qanun» qəbul etdi ki, həmin qanuna əsasən qocalığa görə təqaüdlərin həcmi 2 dəfədən çox, əlliliyə görə 50 faiz, ailə başçısını itirmiş ailələrin müavinətlərinə 60 faiz əlavələr edildi [35].

Bəhs etdiyimiz dövrdə DQMV-də təqaüdçülərin sayında ilbəil xeyli artım müşahidə edilmişdir. Belə ki, 1965-ci ildə burada təqaüdçülərin sayı 22048 nəfər idisə, 1968-ci ildə 24281-ə, 1970-ci ildə isə artaraq 27778-ə çatdı [36]. 1970-ci ildə bütövlükdə Azərbaycanda cəmi 643 min təqaüdçü var idi. Aparılan araşdırmalar nəticəsində məlum olur ki, DQMV-də təqaüdçülərin təxminən 50 faizi kolxozçuların üzərinə düşürdü. Həmçinin, 1968-ci ildə Dağlıq Qarabağda yaşayan 24281 təqaüdçüdən 6906 nəfəri qocalığa, əlilliyə görə, 2234 nəfəri ailə başçısını itirmişlər, 2861 nəfəri keçmiş hərbi xidmətçilərin ailələri, 12280 nəfəri kolxozçu pensiyaçılar idi [37]. Maraqlı fakt ondan ibarətdir ki, 1968-ci ildə Dağlıq Qarabağda təqaüd alanlardan 30 faizi Xankəndi rayonunun (7387 nəfəri), 29 faizi Ağdərə rayonunun (7283 nəfəri), 22 faizi Hadrut rayonunun (4716 nəfəri), 14 faizi Xocavənd rayonunun (3527 nəfəri) və yalnız 5 faizi (1368 nəfəri) azərbaycanlıların daha çox yaşadığı Şuşa rayonunun payına düşmüşdür [38]. Bu isə təsadüf deyildi. Çünki, «Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Azərbaycan SSR Qanunu»nun 33-cü maddəsinin 1.9.-cu bəndlərində göstərilir ki, «DQMV Xalq Deputatları Soveti, Vilayətdə sosial təminat işinə, Vilayət tabeli sosial təminat idarəsi və təşkilatlarının işinə nəzarət edir, pensiya və müavinatların təyin olunması və verilməsi işini təşkil edir. Həmçinin yerli əhəmiyyətli fərdi pensiyaları müəyyən edir, respublika və ittifaq əhəmiyyətli fərdi pensiyaların təyin edilməsi haqqında vəsatətlər qaldırır. Kolxozçuların sosial təminatı üzrə Vilayət Şurasını təşkil edir və onun fəaliyyətinə nəzarət edir. Tibb-əmək ekspertizası orqanlarının işinə rəhbərlik edir» [39]. Əlbəttə, DQMV XDS-nin ermənilərdən ibarət deputat qrupu «sosial təminat sahəsində

səlahiyyət»lərindən çox «bacarıqla» istifadə etmiş və milliyyətcə azərbaycanlı olanlara qarşı qərəzli mövqelərini bir daha nümayiş etdirmişlər. Apardığımız araşdırmalar nəticəsində məlum olur ki, bəhs olunan dövrdə hər on min nəfərə düşən təqaüdçülərin sayına görə Dağlıq Qarabağ əhalisi ümumrespublika səviyyəsini 5 dəfə üstələmişdi.

1950-1960-cı illərdə respublikamızın ictimai istehlak fondlarından Şuşa rayonunun uşaqların məktəbəqədər tərbiyə müəssisəsində təminatına, uşaqların yay pioner düşərgələrində istirahətinin təşkilinə, çoxuşaqlı və tək analara yardım göstərilməsinə xeyli vəsait ayrıldı. Əmək qabiliyyətini müvəqqəti itirən fəhlə və qulluqçular sosial sığorta hesabına müavinət alırdılar. 1957-ci il fevralın birindən əmək stajından asılı olmayaraq həmin müavinatlar əmək haqqının 100 faizi həcmində verilirdi [40]. Azərbaycan hökumətinin ayırdığı vəsait hesabına Şuşa rayonunda 1950-ci ildən 1970-ci ilədək yeni tipli və hər cür şəraitlə təmin olunmuş uşaq bağçaları və körpələr evi tikilib istifadəyə verildi. Bəhs etdiyimiz illərdə Şuşa rayonunda məktəbəqədər tərbiyə müəssisələrinin, oradakı uşaqların və tərbiyəçilərin sayının necə artırıldığını aşağıdakı cədvəldən aydın görmək olar [41]:

| **İllər** | **Uşaq bağçaları** | | | **Körpələr evi** | |
|---|---|---|---|---|---|
| | **Cəmi: evlərin sayı** | **Uşaqların sayı** | **Tərbiyəçilərin sayı** | **Cəmi: Evlərin sayı** | **Uşaqların sayı** |
| **1940** | 2 | 94 | 6 | 3 | 100 |
| **1950** | 3 | 115 | 10 | 3 | 100 |
| **1960** | 4 | 180 | 13 | 2 | 60 |
| **1965** | 5 | 360 | 25 | - | - |
| **1070** | 7 | 420 | 40 | - | - |

Cədvəldən göründüyü kimi 1950-1960-cı illər ərzində Şuşa rayonunda uşaq bağçalarının və oradakı uşaqların sayı artdı. Bəhs edilən illərdə körpələr evi və oradakı uşaqların sayında azalma halı müşahidə edilmişdir. Tədqiqatlardan məlum olur ki, həmin azalan körpələr evi və oradakı azyaşlı uşaqlar yeni tikilmiş

uşaq bağçalarına birləşdirilmişdir. 1950-1960-cı illərdə Dağlıq Qarabağın rayon - şəhər, qəsəbə və kəndlərində həmişəlik, yəni uşaqları birdəfəlik saxlayan, uşaq evləri də fəaliyyət göstərirdi. Həmişəlik uşaq evlərinin ayrı-ayrı rayonlar üzrə yerləşməsi cədvəlini nəzərdən keçirərkən məlum olur ki, 1965-ci ildə Xankəndi rayonunda 100 yerlik 4 belə uşaq evi, Ağdərə rayonunda 90 yerlik 3 daimi uşaq evi, Hadrut rayonunda 20 yerlik bir daimi uşaq evi, Şuşa rayonunda 30 yerlik bir daimi uşaq evi var idi. Şuşa rayonunda bu tipli uşaq evi 1950-ci ildə 3-ə çatsa da 1965-ci ildə onların hər üçünün fəaliyyəti dayandırılmışdır [42].

Aparılan araşdırmalar nəticəsində məlum olur ki, DQMV də fəaliyyət göstərən 64 məktəbəqədər uşaq tərbiyə müəssisələrindən yalnız 3-ü Şuşa rayonunun payına düşürdü, qalan 61 uşaq müəssisəsi isə ermənilərin daha yığcam cəmləşdikləri rayonlarda və kəndlərdə tikilmişdi [43].

1950-1960-cı illərdə Şuşa rayonunda yaşayan əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşmasını, bölgədə əmanət kassalarının, əmanətçilərin və kassalarda saxlanılan əmanətlərin sayının xeyli artmasından görmək olar. Belə ki, 1950-ci illə müqayisədə 1970-ci ildə Şuşa rayonunda əmanət kassalarının sayı 2,5 dəfə, əmanətçilərin sayı 4,2 dəfə, kassalarda saxlanılan əmanətlərin miqdarı isə 64 dəfə artmışdı [44]. 1950-1960-cı illərdə Şuşa rayonunda əmanətlərin dinamik inkişafını aşağıdakı cədvəldən görmək olar [45]:

| **İllər** | **Şuşa rayonunda əmanət kassalarının sayı** | **Əmanətçilərin sayı** | **Kassalarda saxlanılan əmanətlər (min manat)** |
|---|---|---|---|
| 1950 | 4 | 1562 | 68 |
| 1955 | 6 | 3264 | 416 |
| 1960 | 8 | 3306 | 587 |
| 1965 | 10 | 4001 | 989 |
| 1970 | 12 | 5412 | 1086 |

Aparılan tədqiqatçılar nəticəsində məlum olmuşdur ki, Şuşa rayonunda saxlanılan əmanətlər, ümumi DQMV üzrə saxlanılan əmanətlərin on beşdə birini təşkil edirdi. 1970-ci il məlumatına görə ümumi respublikamız üzrə əmanət kassalarının sayı 79 min, orada saxlanılan pulun miqdarı isə 524 milyon manat olmuşdur [47].

1950-1960-cı illərdə Şuşa rayonunda sənaye və kənd təsərrüfatının istehsalının, həmçinin əhalinin real gəlirinin artması dövlət və kooperativ ticarətdə pərakəndə mal dövriyyəsinin ümumi həcminin artmasına səbəb oldu.

1970-ci ildə Azərbaycanda ticarət müəssisəsinin sayı 15607-yə çatdı ki, bundan 618-i Dağlıq Qarabağın, 80-i Şuşa rayonunun payına düşürdü [48]. Şuşa rayonunda mövcud 80 ticarət müəssisələrindən 27-si ixtisaslaşmış ticarət müəssisləri idi. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, ixtisaslaşmış ticarət mərkəzlərindən 46-sı təkcə Xankəndi şəhərində yerləşirdi. Azərbaycan hökumətinin dərin qayğısı nəticəsində təkcə 10 il ərzində (1960-1970-ci illərdə) Şuşa rayonunda 18 yeni müxtəlif ticarət müəssisəsi tikilib istifadəyə verildi. Bəhs etdiyimiz illərdə rayonda yeməkxana və restoranların sayı 3 dəfə, ictimai iaşə müəssisələrinin sayı 2 dəfə artdı. 1970-ci ıldə Şuşa rayonunda 18 yeməkxana və restoran, 29 qəlyanaltı və bufet, univermaq, 2 sənaye malları mağazası, 3 ərzaq malları mağazası, 20 ictimai iaşə müəssisəsi, 48 gündəlik tələbat malları mağazası, 2 kitab mağazası, 55 xırda satış müəssisəsi, parça, ayaqqabı, alt və üst geyim paltarları, radio, idman malları, «uşaq aləmi», un məmulatları, təsərrüfat malları, kənd təsərrüfatı məhsulları, ət, süd, şərab və başqa ticarət müəssisələri var idi [49].

Azərbaycanda 1947-ci il dekabrın 14-də ərzaq və sənaye mallarına kartoçka sistemi ləğv edildi. Həmin vaxtdan ərzaq və sənaye malları vahid dövlət pərakəndə qiymətləri ilə satılmağa başlandı. Eyni zamanda pul islahatı da keçirildi ki, bu da respublikamızda pul sisteminin möhkəmlənməsinə imkan verdi. 1948-ci ildən başlayaraq ərzaq və sənaye müəssisələrinin pərakəndə satış qiymətləri ardıcıl olaraq aşağı salındı. Artıq 1950-ci ildə 1947-ci illə müqayisədə məhsulların pərakəndə satış

qiymətləri 43 faiz aşağı düşdü [50]. 1950-ci ildən sonrakı dövrdə əmək haqqına görə əhalinin alıcılıq qabiliyyəti ərzaq və qeyri ərzaq mallarının pərakəndə satış qiymətlərinin aşağı salınması hesabına artmışdır. 1951-1961-ci ildə ərzaq məhsullarının qiyməti 3,2 faiz, qeyri ərzaq məhsullarının qiyməti isə 22 faiz aşağı düşmüşdü. 1951-1954-cü illərdə qiymətlər 4 dəfə aşağı salındığından dövlət ticarət şəbəkəsində ərzaq məhsullarının və sənaye mallarının qiyməti orta hesabla 24,5 faiz aşağı oldu [51]. Bütün görülən tədbirlər dövlət və bazar qiymətləri arasında fərqin tədricən aradan qaldırılmasına kömək edirdi.

Bəhs etdiyimiz illərdə Şuşa rayonunda əhaliyə ərzaq mallarının satışı durmadan artırdı. 1950-ci ildə rayonda adambaşına ərzaq satışı 1940-cı illə müqayisədə 2 dəfə artmışdır. 1950-1960-cı illərdə isə bu göstərici 1,9 dəfəyə bərabər idi. 1961-1971-ci illər ərzində Şuşa rayonunun dövlət satış müəssisələrində ərzaq məhsullarının illik mal dövriyyəsi 1 milyon 100 mindən 2 milyon 250 minə çatdı [52].

Şuşa rayonunda əhalinin ərzaq mallarına olan tələbatının ödənilməsində yerli əhalinin şəxsi və kollektiv çoxsahəli yardımçı təsərrüfatları, həmçinin kolxoz ticarəti mühüm rol oynayırdı. 1940-cı illə müqayisədə 1950-ci ildə kolxoz bazarlarında ərzaq məhsullarının mal dövriyyəsi 800 min manatdan 1 milyon manata, 1960-cı ildə 2 milyon, 1965-ci ildə 3 milyon, 1970-ci ildə isə 4 milyon manata çatmışdır. Deməli, 1940-cı illə müqayisədə 1970-ci ildə şəxsi, yardımçı və kolxoz ticarəti 5 dəfə artmışdı [53]. Şuşa rayonunda dövlət ticarəti daxil olmadan, 1950-ci ildən 1970-ci ilədək ərzaq məhsullarının ayrı-ayrı növləri arasındakı artım tempində fərqlər mövcud olmuşdur. Belə ki, ət, mal-qara yağı, konservlər, un və ərzaqlıq taxıl, yarma və paxlalı bitkilər, əriştə məmulatları, spirtli içkilər istehlakı 2-3 dəfə artmışdırsa, balıq, yumurta, mürəbbə, cem, kartof və tərəvəz istehlakında artım müşahidə edilməmiş, çay və digər ərzaq məhsullarının istehlakında isə 0,1-0,2 faiz azalma halı qeydə alınmışdır [54].

1950-1971-ci illərdə dövlət ticarəti daxil olmadan istehlak malları içərisində ərzaq məhsullarının istehlakı bütövlükdə

Azərbaycan SSR üzrə 40,3 faizdən 49,5 faizə, Azərbaycanın Naxçıvan bölgəsində 44,8 faizdən 51,1 faizə, Şuşa rayonunda 33 faizdən 52 faizə qalxmışdı [55].

Azərbaycanın Şuşa rayonunda əhalinin ərzaqla təchizatının yaxşılaşmasına ictimai iaşə müəssisələri kömək edirdi. İctimai iaşə müəssisələrinin fəaliyyətinin planlı şəkildə qurulması əmək ehtiyatlarından səmərəli istifadəni, əhalinin məişətinin yenidən qurulmasını və qadınların əməyinin yüngülləşməsini zəruriləşdirdi. Azərbaycan hökumətinin ayırdığı xüsusi vəsait hesabına Şuşa rayonunda 1950-1960-cı illərdə yeni yeməkxana və bufetlər yaradıldı, mövcud obyektlər yeni avadanlıqlarla təmin olundu və əsaslı təmir edildi. Təkcə 10 il ərzində Azərbaycan hökuməti Şuşa rayonunun 20 yeni ictimai iaşə xidməti müəssisəsi əhalinin istifadəsinə verdi. Artıq 1970-ci ildə Şuşa rayonunda ictimai iaşə müəssisələrinin sayı 1960-cı illə müqayisədə 2 dəfə artıb 40-a çatdı. 1970-ci ildə respublikamızda 6209 ictimai iaşə müəssisəsi var idi [56].

Aparılan tədqiqatdan məlum olur ki, DQMV-nin rayonlarında ictimai-iaşə müəssisələrinin tikintisi bölgədə ermənilərin daha çox məskunlaşdığı ərazilərdə daha çox diqqət mərkəzində olmuşdur. Şuşa rayonu üzrə isə göstərici aşağı səviyyədə idi. Hətta ermənilərin daha çox cəmləşdiyi kəndlərdə paltar və ayaqqabı təmiri emalatxanaları, paltar yumaq və təmizləmək üçün qəbul məntəqələri, məişət maşınları və avadanlıqları təmiri, dəlləkxana, fota xidməti atelyesi və digər xidmət göstərən məntəqələr təşkil edilmişdir. 1970-ci ildə Şuşa rayonu ictimai iaşə müəssisələri və sexlərində 200-dən çox nəfər usta və şagird işləyirdi. Tədqiqatlardan məlum olur ki, Şuşa rayonunda adambaşına düşən ictimai iaşə və məişət xidməti müəssisələrinin sayı ümumrespublika üzrə olan göstəricilərdən 1,5 dəfə, ümumi Vilayət üzrə olan göstəricilər isə ümumrespublika səviyyəsindən 2 dəfə artıq idi [57]. 1970-ci ildə Şuşa rayonunda hər 10 min nəfərə 2, ümumi Vilayətdə isə 15 ictimai-iaşə və xidmət müəssisəsi düşürdü. Şuşa rayonunda ictimai iaşə müəssisələrinin sayının artması həmin müəssisələrin illik gəlirində də özünü göstərmişdir. Məsələn, 1940-cı ildə ictimai iaşə müəssisələrinin

illik gəliri 120 min manat olmuşdursa, 1950-ci ildə 130 min manat, 1960-cı ildə 530 min manat, 1965-ci ildə 710 min manat, 1968-ci ildə isə 815 min manata çatmışdır [58].

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1957-1965-ci illərdə Şuşa rayonunda hər sakinə iaşə xidmətinin həcmi 6 manat olmuşdursa, 1966-1970-ci illərdə həmin göstərici təxminə 2 dəfə artaraq 12 manata çatmışdır. Ümumi Vilayət üzrə bu göstərici müvafiq illərdə 8 manatdan 16 manata qalxmışdır [59]. Şuşa rayonunda məişət xidməti müəssisələri 60-cı illərdən yeni qayda ilə işləməyə başladılar. Müəssisələrdə planlaşdırma və həvəsləndirmə sistemi tətbiq edildi. Nəticədə məişət xidmətinin həcmi ümumi vilayət üzrə 2 dəfə, Şuşa rayonu üzrə 1,5 dəfə artdı. Vilayətdə məişət xidmətinin hər nəfərə düşən həcmi ümumrespublika göstəricilərindən 1,4 dəfə Şuşa rayonunda isə 1,2 dəfə artıq olmuşdur. Belə ki, respublikamız üzrə bu göstərici 30,2 manat idisə, onun DQMV-də 42 manata, Şuşa rayonunda 32 manata, Naxçıvan MSSR-da 31,4 manata çatmışdır [60]. Tədqiqatdan məlum olur ki, Vilayətin azərbaycanlılar yaşayan kəndlərdə demək olar ki, ictimai iaşə xidməti müəssisəsi yox dərəcədə idi. 1950-1960-cı illərdə Şuşa rayonunda ictimai iaşə, bütövlükdə respublikamız üzrə olan göstəricilərdən üstün olsa da, hələ kifayət qədər inkişaf etməmişdi və bir çox müəssisələrdə xidmət mədəniyyəti aşağı səviyyədə idi.

1950-1960-cı illərdə Şuşa rayonunda əhaliyə sənaye malların satışı durmadan artdı. Məsələn, 1961-ci ildə Şuşa rayonunda sənaye mallarının illik mal dövriyyəsi 500 min manat olmuşdursa, 1971-ci ildə bu göstərici 2 dəfə artaraq 1 milyon manata çatmışdır. Bütövlükdə Şuşa rayonunda sənaye mallarının illik mal dövriyyəsi ərzaq məhsullarının illik mal dövriyyəsindən üstün olmuşdur. 1950-1971-ci illərdə sənaye məhsullarının illik mal dövriyyəsi 50 faiz təşkil etmişdir [61].

1950-1960-cı illərdə Şuşa rayonunda bütün istehlak malları içərisində sənaye məhsulları istehlak həcmi nəzərdən keçirilərkən məlum olur ki, 1950-ci ildə həmin göstərici 60 faiz, 1960-cı ildə 70 faiz, 1970-ci ildə isə 55 faiz təşkil etmişdir [63]. Ümumrespublika üzrə olan göstəricilər nəzərdən keçirilərkən

məlum olur ki, müvafiq illərdə Vilayətdə bu göstəricilər 65%, 75%. 60% arasında respublikamızda 59,7; 64,4; 50,4 arasında, Naxçıvan MSSR-da isə 51,2; 57,7; 46,9 arasında tərəddüd etmişdir [64]. Ümumiyyətlə, 1950-1960-cı illərdə sənaye məhsullarının istehlak həcminə görə DQMV-i Azərbaycan SSR üzrə əsas yerlərdən birini tuturdu ki, bu da Azərbaycan hökumətinin Vilayətə göstərdiyi qayğının təzahürü demək idi. 1950-ci illə müqayisədə 1970-ci ildə bəzi sənaye məhsullarının – pambıq parça, yun parça, yaylıq, baş geyimləri, tütün məmulatları, meşə materiallar, süni ipək parça istehlakında cüzi azalma halı, digər sənaye məhsullarından – təbii ipək parçalar, trikotaj malları, corab, ayaqqabı, sabun, metal çarpayı, mebel, metal və şüşə büllur qablar istehlakında isə artma halı müşahidə edilmişdir.

1950-1960-cı illərdə Şuşa rayonunda dövlət və kooperativ ticarət müəssisələrinin pərakəndə mal dövriyyəsindəki həcmi nəzərdən keçirilərkən məlum olur ki, 1950-ci ildən 1970-ci ilədək kooperativ müəssisələr aparıcı yerlərdən birini tuturdu. Dövlət ticarət müəssisələrinin illik mal dövriyyəsində payı 1940-cı ildə 28,8 faiz təşkil etmişdirsə, 1950-ci ildə 30,5 faizə, 1960-cı ildə 36,7 faizə, 1970-ci ildə isə 1,7 dəfə artaraq 50,5 faizə qalxmışdır [65]. 1940-cı ildən 1970-ci ilədək olan dövrdə ümumilikdə Vilayətdə dövlət və kooperativ ticarət müəssisələrinin mal dövriyyəsinin dinamik inkişafını aşağıdakı cədvəldən də izləmək olar: (milyon man.) [66].

| İllər | DQMV-i üzrə pərakəndə mal dövriyyəsi | O cümlədən | |
|---|---|---|---|
| | | Dövlət ticarəti | Kooperativ ticarət |
| 1940 | 5,9 | 1,7 | 4,2 |
| 1950 | 12,8 | 3,9 | 8,9 |
| 1960 | 23,7 | 8,7 | 15,0 |
| 1965 | 33,7 | 15,1 | 18,4 |
| 1970 | 53,7 | 26,9 | 26,4 |
| 1975 | 75,6 | 35,5 | 40,1 |

1950-1960-cı illərdə DQMV-də fəhlə və qulluqçuların, həmçinin onların ailələrinin ərzaq məhsulları ilə təminatı xeyli yaxşılaşdı. Aparılan tədqiqatlardan məlum olur ki, Vilayətdə fəhlə və qulluqçuların ərzaq məhsulları ilə təchizatı ümumrespublika üzrə olan göstəricilərdən təxminən 10-15 faiz, Naxçıvan Muxtar Respublikası ilə müqayisədə isə 17 faiz yüksək olmuşdur. Lakin Şuşa rayonunda bu göstərici ümumi Vilayət üzrə olan nəticələrdən aşağı idi və rayonda hələ də bəzi məhsulların (balıq və balıq məhsulları, çay və digər ərzaq növlərinin) istehlakı kifayət qədər deyildi. Bəzi ərzaq məhsullarının keyfiyyəti isə normadan aşağı idi ki, bu da ümumilikdə ümumrespublika və keçmiş SSRİ-nin problemi idi.

Azərbaycan hökuməti Vilayətdə fəhlə və qulluqçuların əmək şəraitinin yaxşılaşdırılmasını həmişə diqqət mərkəzində saxlayırdı. Belə ki, bölgənin təsərrüfatlarının bütün sahələri yeni texnika ilə təchiz edilir, mexanikləşdirmənin və elmin nailiyyətlərinin istehsalata tətbiqi, ağır, çox zəhmət tələb edən işlərin avtomatlaşdırılmasından qismən istifadə burada işləyən işçilərin əmək şəraitinin yaxşılaşdırılmasına səbəb olmuşdur. SSRİ Ali Sovetinin 1956-cı il 26 mart tarixli «Fərmanı» ilə uşaqlı qadınlar əlavə 112 günlük (56 gün doğumdan qabaq və 56 gün doğumdan sonra) pul ödənilən məzuniyyət alırdılar [67]. 1950-1960-cı illərdə Şuşa rayonunda çoxuşaqlı anaların sayının sürətlə artması prosesi baş vermişdir ki, bu da təsadüfü hadisə olmayıb dövlətimizin rayona göstərdiyi dərin qayğının nəticəsi idi. 1968-ci illə müqayisədə 1970-ci ildə Dağlıq Qarabağda çoxuşaqlı anaların sayı 2,7 dəfə artaraq 2253 nəfərdən 6189 nəfərə çatmışdır. 3 və 4 uşaqlı anaların sayı 435-dən 1734-ə, 6 uşaqlı anaların sayı 215-dən 894,7-yə və daha çox çoxuşaqlı anaların sayı 218-dən 752-yə qalxmışdır [68]. DQMV ümumi göstəricilər rayonları üzrə olan göstəricilərdə Şuşa rayonu 11 faiz, Hadrud rayonu 12 faiz, Xocavənd rayonu 23 faiz, Xankəndi rayonu 26 faiz, Ağdərə rayonu 28 faiz təşkil etmişdir [69]. Azərbaycan hökumətinin DQMV-dəki çoxuşaqlı analara göstərdiyi qayğını çox böyük həcmdə maddi yardım ayırmasında görmək olar.

Təkcə 1968-ci ildə Dağlıq Qarabağda çoxuşaqlı analara bir ayda 423000 manat müavinət verilmişdir [70].

Azərbaycan hökuməti Şuşa rayonunda yeniyetmə və gənclərin iş şəraitini və mühafizəsini yaxşılaşdırmaq üçün mühüm tədbirlər görmüşdü. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1955-ci il 15 avqust tarixli Fərmanına uyğun olaraq Azərbaycanın hər yerində, o cümlədən Şuşa rayonunda 14-16 yaşlı şagirdlər üçün istehsalatda 4 saatlıq iş günü tətbiq edildi. Həmçinin 1956-cı ildən 16-18 yaşlı fəhlə və qulluqçular üçün 6 saatlıq iş günü müəyyən olundu. Bundan əlavə çətin şəraitdə işləyən fəhlələr üçün əlavə məzuniyyət və qısaldılmış iş günü tətbiq edildi. İstirahət günləri qabağı və bayramqabağı günlər, əmək haqqı tam saxlanılmaqla, iş günü 4 saata qədər azaldıldı [71].

1950-1960-cı illərdə Şuşa rayonu əhalisinin məişətinin yaxşılaşmasında tikinti sənayesinin sürətlə artması mühüm rol oynamışdır. Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 1957-ci il 31 iyul tarixli «SSRİ-də mənzil tikintisinin inkişafı haqqında» qərarından sonra Azərbaycan hökuməti Şuşa rayonunda mənzil və digər obyektlərin tikintisinə xüsusi diqqət yetirmiş və bu sahəyə qoyulan vəsaitin həcmini ildən-ilə artırmışdır [72]. Dövlətimiz Şuşa rayonunda yalnız tikinti işləri üçün 1951-ci ildə 59 min manat vəsait ayırmışdırsa, 1960-cı ildə artaraq 500 min, 1965-ci ildə 1 milyon, 1967-ci ildə isə artırılıb 1 milyon 112 minə çatmışdır. Bundan əlavə, yeni tikilmiş binalarda quraşdırma işləri üçün 1951-1971-ci illərdə 8 milyon manat vəsait ayrılmışdı [73, 74]. Apardığımız araşdırmalardan məlum olur ki, həmin illərdə yuxarıda adıgedən məsələ ilə bağlı Şuşa rayonuna ayrılan vəsait Vilayətin qonşu rayonlarına ayrılan vəsaitin əlli faizi həcmində olmuşdur. Təkcə bu faktın özü Vilayətin erməni rəhbərliyi tərəfindən bölgədə yaşayan azərbaycanlılara göstərdiyi ikili münasibətin göstəricisidir.

Şuşa rayonunda tikinti işlərinin əksəriyyətini dövlət və kooperativ təşkilatlar həyata keçirirdi. Aparılan araşdırmalar nəticəsində məlum olur ki, 1960-cı illərdə Şuşa rayonunda tikinti abadlıq işlərinə ayrılan ümumi vəsaitin təxminən 90 faizi binalarda quraşdırma-abadlıq, son təmir işlərinə, 6 faiz tikinti

trestinin avadanlıq və ləvazimatlarla təmin olunmasına, 2 faizi plan, axtarış və layihə işlərinə, 2 faizi maliyyə və digər işlərə ayrılmışdır [75].

1960-cı illərdə Azərbaycan hökuməti Şuşa rayonuna dövlət və kooperativ idarə və müəssisələrinin tikintisinə böyük həcmdə vəsait ayırmışdı. Belə ki, 1940-cı ildə dövlət və kooperativ idarə və müəssisələrinin tikintisinə 50 min manat vəsait ayrılmışdırsa, 1960-cı ildə həmin göstərici 500 minə, 1965-ci ildə 1 milyon manata, 1970-ci ildə isə 1,5 milyon manata çatmışdır [76]. 1965-ci ildən 1970-ci ilədək Şuşa rayonunun xalq təsərrüfatında tikinti-abadlıq işlərinə ayrılan 10 milyon manat vəsaitin 7 milyon manatı dövlət və kooperativ idarə və müəssisələrinin tikintisinə sərf edilmişdi [77]. Apardığımız tədqiqatlardan məlum olur ki, 1940-1970-ci illər ərzində Şuşa rayonunun dövlət və kooperativ idarə və müəssislərinin tikintisinə ayrılan vəsait istər qonşu Xankəndi rayonuna istərsə də Vilayətin Ağdərə və digər rayonlarına ayrılan vəsaitdən iki dəfə az olmuşdur. Ümumilikdə isə DQMV-nə həmin məqsədlə bəhs olunan xronoloji çərçivədə ayrılan vəsait Naxçıvan MR-na ayrılan vəsaitdən təxminən 50 faiz artıq idi. Bütün bunlar isə Azərbaycan rəhbərliyinin Vilayətin sosial-iqtisadi inkişafına daim diqqət mərkəzində saxladığını bir daha sübut edir [78].

Azərbaycan hökuməti Şuşa rayonunda tikinti abadlıq işləri aparmaq üçün təkcə vəsait ayırmaqla kifayətlənməyib, buraya ixtisaslı mühəndis kadrlar, tikinti materialları, işçi qüvvəsi və texnika göndərdi. Dövlətimizin rayona göstərdiyi dərin qayğı nəticəsində xeyli miqdarda çoxmərtəbəli yaşayış binaları, məktəblər, uşaq bağçaları, klublar, kitabxanalar, ictimai iaşə müəssisələri, heyvandarlıq fermaları, sənaye müəssisələri və başqa obyektlər tikilib istifadəyə verildi. 1955-ci ildən 1970-ci ilədək olan dövrdə Şuşa rayonunda ümumi sahəsi 102 min kvadrat metr olan mənzil tikilib istifadəyə verilmişdir [79]. 1956-1970-ci illərdə ümumi respublika üzrə bu göstərici 23435 min kvadrat metrə çatmışdır [80].

Azərbaycanın Şuşa rayonunda tikinti işlərinin geniş vüsət alması ilə əlaqədar bir çox müəssisələrdə yaşayış evlərinin tikil-

məsində fəhlə və qulluqçuların şəxsi əməyindən istifadə olunurdu ki, bu onlara həmin evlərdə mənzil sahəsi almaq hüququ verirdi [81-83]. 1950-1960-cı illərdə Azərbaycanın hər yerində, o cümlədən Vilayətdə tikinti sahəsində yeni bir təşəbbüs «Xalq tikintisi üsulu» irəli sürülmüşdü. Həmin üsula görə bir sıra sənaye müəssisələrinin və tikinti təşkilatlarının fəhlə və qulluqçuları tikilən evləri öz qüvvələri ilə tikirdilər. Bu zaman material və avadanlıqların çoxu Azərbaycan hökuməti tərəfindən ödənilirdi. Dağlıq Qarabağda yaşayan ermənilər bu qərardan çox məharətlə istifadə edərək 5-6 otaqdan ibarət imarətlər tikdilər. 1970-ci ildə tikilən fərdi evlərin ümumi sahəsi 58 min kvadrat metrə çatmışdır [84]. Təəssüflər olsun ki, Azərbaycan hökumətinin yuxarıda adıgedən «qərar»ında Dağlıq Qarabağ erməniləri daha çox bəhrələnmiş və öz yaşayış şəraitlərini dövlət hesabına yaxşılaşdırmışdılar.

Bəhs olunan illərdə Şuşa rayonunda əsaslı tikinti işlərinin geniş vüsət alması, Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1965-ci il oktyabrın 4-də qəbul etdiyi – «Azərbaycan hökumətinə əsaslı tikintinin planlaşdırılması, əməyi və əmək haqqının maliyyələşdirilməsi sahəsində əlavə hüquqlar verilməsi haqqında» qərarın həyata keçirilməsi ilə də, bağlı olmuşdur. Çünki həmin vaxtdan sonra Bakıda evtikmə kombinatı, Sumqayıt və Mingəçevirdə evtikmə zavodları, Sumqayıtda şüşə zavodu və dəmir-beton hissələri istehsal edən zavodlar tikilib istifadəyə verilmiş və istehsal olunan tikinti texnikaları vaxtında Vilayətdə o cümlədən Şuşa rayonuna çatdırılmışdır.

Dövlətimizin Şuşa rayonunda apardığı tikinti abadlıq işləri rayon sakinlərinin mənzilə olan tələbatının ödənilməsində böyük əhəmiyyətə malik oldu. 1969-cu ilin məlumatına görə Şuşa rayonunda hər adama orta hesabla 4-5 kvadrat metr mənzil sahəsi düşürdü ki, bu ümumrespublika göstəricilərindən 2 dəfə az demək idi [85]. Apardığımız araşdırmalardan məlum olur ki, DQMV XDS «tikinti, şəhərsalma və arxitektura sahəsində səlahiyyət»lərindən – şəhərsalma, arxitektura, kompleks tikinti işləri, şəhərlərin və digər yaşayış məntəqələrinin, muxtar vilayət ərazisində yeni tikintinin yerləşdirilməsi, habelə sənaye, nəqliy-

yat, mədəni məişət və digər obyektlərin genişləndirilməsi, yenidən qurulması işlərinə rəhbərlik etməklə məqsədli şəkildə bütövlükdə Dağlıq Qarabağın ermənilər cəmləşdiyi ərazidə ermənilər yaşayan kəndlər abadlaşdırılır, milliyyətcə azərbaycanlılar yaşayan qədim kəndlərin heç birində sosial obyekt tikilmirdi. Nəticədə məqsədli şəkildə azərbaycanlılar yaşayan qədim kəndlər boşalıb dağılır və xarabazara çevrilirdi.

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1950-1960-cı illərdə Dağlıq Qarabağda 2 qədim yaşayış məskəni ləğv edilmişdir. Rayonda azalan həmin 2 kənd azərbaycanlıların yaşadığı kəndlər idi. Həmin kəndlər ya tamam dağılmış və ya yaxınlıqda yerləşən ermənilər yaşayan kəndlərə birləşdirilmişdir [86]. Ermənilər yaşayan kənd, qəsəbə və sovetliklər mədəni-məişət obyektləri, işıq, istiliklə təmin olunduğu halda, rayona rəhbərlik edən daşnaklar antiazərbaycan siyasətini davam etdirərək azərbaycanlı kəndlərinə həmişə biganəlik göstərmiş və burada yaşayan azərbaycanlı gənclərin iş, yaxşı yaşayış dalınca gedərək qədim ata-baba yurdlarını tərk etməsinə, nəticədə azərbaycanlıların sayının azalmasına gətirib çıxarmışdır. Yuxarıda qeyd etdiyimiz kimi Azərbaycanın digər bölgələrindən fərqli olaraq Vilayətin qəsəbə və kəndlərində iri həcmli kompleks tikinti işləri həyata keçirilmişdir. Lakin bütün bu müvəffəqiyyətlərlə yanaşı, Şuşa rayonunda ictimai və fərdi mənzil tikintisi heç də əhalinin mənzilə olan tələbatını tam ödəmirdi. Bəzən mənzil tikintisi üçün ayrılan dövlət vəsaiti, rayon rəhbərliyi tərəfindən qəsdən Azərbaycan Respublikasına qarşı süni narazılıqlar yaratmaq məqsədilə, səmərəli istifadə edilmir və ya istifadəsiz qalırdı. Məsələn, 1963-cü ildə rayon mənzil tikintisi kəsirlə yerinə yetirilmişdir. 1968-1969-cu illərdə isə 996 min manat dəyərində tikinti quraşdırma işləri görüləcəyi halda, 504 min manatlıq (ümumi vəsaitin 52 faizi dəyərində), kommunal tikinti sahəsində isə planda nəzərdə tutulan 40 min manatlıq əvəzinə 30 min manatlıq tikinti quraşdırma işləri görülmüşdür [87]. Bundan əlavə Şuşa rayonunda ən böyük tikinti təşkilatından biri olan Şuşa Rayonu Tikinti Tresti 1968-1969-cu illərdə respublikamızın tikinti təşkilatından hər cür köməklik

almasına baxmayaraq, mənzil tikinti işlərini kəsrlə yerinə yetirmiş və əvəzində Azərbaycan hökumətini günahlandırmışdır. Xatırladaq ki, həmin Trestə milliyyətcə erməni olan X.Avanesov rəhbərlik edirdi. Trestin səhlənkarlığı yarıtmaz təşkilatçılığı və Vilayət rəhbərliyinin məkrli siyasəti nəticəsində 1969-cu ildə Şuşa rayonunda böyük həcmli yaşayış binası, Azərbaycan hökumətinin dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq istifadəyə verilməmişdir [88]. 1960-cı illərdə tikilərək istifadəyə verilmiş mənzillərin çoxu dövrün tələbləri səviyyəsindən aşağı idi. Bunların çoxunda keyfiyyətsizlik, dzayn-arxitektura işinin zövqü oxşamaması, kommunal xidmətin tam səviyyədə olmaması halları var idi. Mənzil tikintisi sahəsində Vilayət rəhbərliyinin yaratdığı bu və ya buna bənzər süni narazılıqlar Azərbaycan rəhbərliyinin diqqətindən yayınmamış, dəfələrlə müzakirə edilib əməli tədbirlər həyata keçirilməsi üçün istiqamətlər müəyyənləşdirilmişdir. Lakin Vilayət rəhbərliyi öz məkirli məqsədlərinə çatmaq üçün bu istiqamətdə olan nöqsanları aradan qaldırmaq məqsədilə heç bir əməli tədbirlər görmədi. Təəssüflər olsun ki, DQMV-nin digər rayonlarında yuxarıdakı xoşagəlməz hallar mövcud olmuşdur. Bütün bunlara baxmayaraq 1950-1960-cı illərdə Azərbaycan hökuməti hər il ardıcıl olaraq Vilayətdə qəsəbə və kəndlərin abadlaşması, küçə və parkların salınması, yenidən qurulması və kommunal xidməti müəssisələrinin təmiri və yenidən qurulması üçün dövlət büdcəsindən böyük məbləğdə vəsait ayırdı. Təkcə 1959-1965-ci illərdə Şuşa rayonunda hamam, kanalizasiya, yaşayış evlərinin istilik, işıq və başqa kommunal xidmətləri üçün 2 milyon manat vəsait ayırmışdır ki, bu da 1955-1958-ci illərə müqayisədə 2 dəfə çox idi [89]. 1960-cı ildə dövlətimiz tərəfindən ayrılan vəsait hesabına 50 hektar sahə, küçə və meydan yaşıllaşdırılmış, 2 hektar sahədə park və bulvarlar salınmış, küçələrin kənarına 1,5 mindən çox ağac əkilmiş və meşə zolağı salınmışdır [90].

Vilayətin qəsəbə və kəndlərin abadlaşdırılması, kommunal məişət xidmətinin genişlənməsi də əhalinin həyat şəraitinin yaxşılaşmasına çox kömək edirdi. 1970-ci ildə DQMV-də ümumi ictimai mənzil fondunun 95 faizi su kəmərləri, 90 faizi kana-

lizasiya 95 faizi mərkəzi isitmə və buxardan istifadə sistemi ilə təchiz edilmişdi. Bəhs etdiyimiz dövrdə ümumrespublika üzrə bu göstəricilər, su kəmərləri 81 faiz, kanalizasiya 79 faiz, mərkəzi isitmə və buxardan istifadə sistemi 54 faizə çatmışdır [91]. Faktlardan göründüyü kimi Vilayətdə kommunal-məişət xidməti sahəsində olan göstəricilər ümumrespublika səviyyəsindən yüksəkdə dayanmışdır. Apardığımız araşdırmalardan məlum olur ki, yuxarıda göstərilən yüksək göstəricilər Dağlıq Qarabağın bütün rayonlarına şamil edilmişdir.

DQMV-nin sosial və mədəni həyatı daim Azərbaycan rəhbərliyinin diqqət mərkəzində olmuşdur. Bu böyük qayğının nəticəsidir ki, Vilayət əhalisinin sosial iqtisadi və mədəni həyat səviyyəsi, istər ümumrespublika səviyyəsində, istər qonşu Ermənistanla hətta keçmiş SSRİ ilə müqayisədə çox böyük üstünlüklərə malik olmuşdur.

1950-1960-cı illərdə Şuşa rayonunda avtomobil yollarının yenidən qurulması və yenilərinin salınması sahəsində böyük işlər görülürdü. Rayondan keçən ümumdövlət və respublika əhəmiyyətli avtomobil yollarının, vilayət əhəmiyyətli avtomobil yollarının və Şuşa rayon təsərrüfat daxilindəki avtomobil yollarının salınması və təmirinə 1965-ci ildə Azərbaycan hökuməti tərəfindən 67 min manat, 1970-ci ildə isə 450 min manat vəsait ayrılmışdı. Azərbaycan Respublikası hökuməti Şuşa rayonunda yolların salınması, yenidən qurulması və təmiri üçün iş qüvvəsi, təcrübəli mütəxəssislər, maşın və mexanizmlər göndərdi [101]. Bu işə sənaye, nəqliyyat tikinti təşkilatlarını cəlb etdi.

Şuşa rayonunda avtomobil yolları çox böyük əhəmiyyətə malik idi. Qədim dövrlərdən buradan Azərbaycanın mühüm hərbi və ticarət yolları keçirdi. Bəhs etdiyimiz dövrdə Şuşa yollarından, Ağdam dəmir yolu vasitəsilə yüklərin daşınmasında, Ermənistan şərq rayonlarına, Naxçıvan MSSR-na, Azərbaycanın digər rayonlarına yük dövriyyəsində, DQMV-nin uca dağlarında yerləşən gözəl yaylaqlarla Kür-Araz ovalıqlarında yerləşən geniş qışlaqları arasında əlaqələrin yaradılmasında istifadə olunmuşdu.

Şuşa rayonu yaxşı yol şəbəkəsinə malikdir. Ərazidəki şosse və qrunt yolları rayon şimal və orta hissəsini Yevlaxla əlaqə-

ləndirir. Bölgənin yüklərinin çox hissəsi Laçın-Qubadlı-Şuşa-Füzuli, Şuşa-Ağdam-Bərdə yolları ilə Yevlağa daşınır. Təkcə 1965-1970-ci illərdə Şuşa rayon ərazisində 25 kilometr uzunluğunda yol çəkildi. Ümumiyyətlə, 1950-1960-cı illərdə Şuşa rayonunda yolların çəkilişi 1,9 dəfə artdı. Ümumrespublika üzrə bu göstərici 1,9 dəfəyə Ümumvilayət üzrə isə 2 dəfəyə bərabər idi.

Şuşa rayonunda yük dövriyyəsi sürətlə inkişaf edirdi. Belə ki, Şuşa rayonunda yük dövriyyəsi 1953-cü ildəki 204 min ton kilometr müqabilində, 1970-ci ildə artaraq 2501 min ton km olmuşdu [103]. Müvafiq illərdə ümumrespublika üzrə bu göstərici 7,1 dəfə artaraq 522 milyon ton km-dən 3709 milyon tona qalxmışdır. Şuşa rayonuna sərnişin daşınması 1953-cü ildəki 5 min nəfərdən 1970-ci ildə 550 min nəfərə qədər artmışdır. 1950-1970-ci illərdə ümumrespublika üzrə bu göstərici 11 milyon nəfərdən 3345 milyon nəfərə çatmışdır. Bəhs etdiyimiz dövrdə Vilayət üzrə sərnişin daşınması 110 dəfə artmış, Şuşa rayonunda isə təxminən onun yarısı həcmində müəyyən edilmişdir [104]. Rəqəmlərdən göründüyü kimi sərnişin daşınması ümumrespublika üzrə 34 dəfə artmışdırsa, Vilayət üzrə bu göstərici təxminən 4 dəfə artım müşahidə edilmişdir. 1953-cü ildən 1970-ci ilədək Şuşa rayonunda yük dövriyyəsi və sərnişin daşınmasının dinamik inkişafını aşağıdakı cədvəldən də görmək olar [105].

| **İllər** | **Yük dövriyyəsi (min ton kilometr)** | **Yük daşınması (min tonla)** | **Sərnişin dövriyyəsi (min sərnişin, km.)** | **Sərnişin daşınması (min nəfər)** |
|---|---|---|---|---|
| 1953 | 210 | 5 | 222 | 6 |
| 1958 | 731 | 13 | 1742 | 90 |
| 1960 | 1239 | 29 | 1947 | 194 |
| 1965 | 2142 | 59 | 3297 | 304 |
| 1970 | 2253 | 72 | 7646 | 603 |

Əvvəlki illərdə olduğu kimi 1950-1960-cı illərdə də Azərbaycan hökuməti Şuşa rayonu əhalisinin avtomobilə olan tələbatını ödəyirdi. Avtomobillərin əsaslı təmiri və yeni avtomobillərin Şuşa rayonuna göndərilməsi işi ilbəil artırılırdı. Məsələn, 1940-cı ildə Şuşa rayonunda 3 yük avtomobili var idisə, 1950-ci ildə onların sayı 17-ə, 1960-cı ildə 38-ə, 1965-ci ildə 75-ə, 1970-ci ildə isə artaraq 80-ə çatmışdır. Yeri gəlmişkən onu da qeyd edək ki, Azərbaycan dövlətinin ayırdığı xüsusi vəsait hesabına Şuşa rayonunda traktorların sayı təxminən 3 dəfə, kombaynların sayı isə 2 dəfə artmışdı. Avtomobillərin inkişafı ilə bağlı yuxarıda göstərilən inkişafa baxmayaraq Şuşa rayonunda avtomobillərin sayından 2 dəfə az idi.

1950-1960-cı illərdə Şuşa rayonunda yaşayan əhalinin maddi rifah halının yaxşılaşması və gəlirlərinin ilbəil artması şəxsi avtomobil, matosiklet və motorellilərin sayının artmasına səbəb oldu. Təkcə 1964-cü ildə Şuşa sakinləri 1 avtomobil 10 matosiklet və matorelli almışdı. Sonrakı illərdə bu artım davam etmişdi. Belə ki, 1965-ci ildə yerli əhali 2 avtomobil, 12 matorella və matosikl, 1966-cı ildə 2 avtomobil, 15 matarol və matosikl 1967-ci ildə isə 3 avtomobil, 17 matorella və motosikl almışdılar [108]. Aparılan tədqiqatlardan məlum olur ki, 1964-1967-ci illərdə Şuşa rayonunda sakinləri tərəfindən alınan avtomobillərin 80 faiz kənd əhalisinin üzərinə düşmüşdür. Bu faktın özü isə kənd əhalisinin maddi rifah halının şəhərdə yaşayan əhaliyə nisbətən üstün olmasını göstərir. Dağlıq Qarabağda hava nəqliyyatından əkinlərin becərilməsində, kənd təsərrüfatı ziyanvericilərinə qarşı mübarizə işində istifadə edildi. Tarixi mənbələrə əsaslanaraq deyə bilərik ki, qonşu Xankəndi rayonunda əhalinin istifadəsində olan avtomobillərin sayı Şuşa rayonunda olan avtomobillərdən 4 dəfə artıq olmuşdur. Təkcə bu faktın özü Vilayətin ermənilər yaşayan rayonlarında azərbaycanlılara nisbətən əhalinin sosial durumu yüksəkdə dayanmışdır. Əlbəttə, bu fakt "sıxışdırılan" ermənilərə tutarlı cavabın bariz nümunəsidir.

Yuxarıda göstərdiyimiz faktlar özünü digər sahələrdə də büruzə vermişdir. Yol tikintisi işində də azərbaycanlılar yaşayan

ərazilərə qərəzli mövqedən yanaşılmışdır. Çox təəssüflə qeyd etməliyik ki, DQMV XDS-nin səlahiyyətli nümayəndələri «DQMV-i haqqında Qanun»un II fəslinin 23-cü maddəsinin əldə rəhbər tutaraq vilayət daxilindəki bütün yolların planını özləri tərtib və təsdiq etmiş və öz «məharətlərini» bir daha yol çəkilişində də göstərmişlər [109]. Şuşanın azərbaycanlılar yaşayan kəndlərinə yol çəkmək tamamilə unudulmuşdu və ya səthi mövqedən yanaşılmışdır. Həmin kəndlərdə yenə də, keçmişdə olduğu kimi minik və qoşqu kimi atlardan, öküzlərdən, kəllərdən, xışdan, furqonlardan, arabalardan istifadə edilirdi. Azərbaycanlılar yaşayan kəndlərin əksəriyyətində minik avtomobili, motosiklet, matorella olması faktı qeydə alınmamışdır. Azərbaycanlının onu almağa imkanı olsaydı belə yollar yox səviyyəsində olduğundan avtomobil almaq onlar üçün maraqlı deyildi.

1950-1960-cı illərdə Şuşa rayonunda yaşayan insanların məişətinə paltaryuyan maşınlar, soyuducular, tozsoranlar, tikiş maşınları, elektrik çaynikləri, radiopriyomnik, televizor, pianino, elektrik ütüləri geniş daxil olunmağa başladı. Məişətdə istifadə olunan həmin sənaye məhsulları, nəinki şəhər və qəsəbələrdə, hətta kənddə əhalinin daimi istifadə etdiyi gündəlik tələbat malları sırasına daxil olmuşdu. Bəhs edilən illərdə sənaye və kənd təsərrüfatı istehsalının, eləcə də əhalinin real gəlirinin artmasına müvafiq olaraq Şuşa əhalinin məişət elektrik avadanlıqları almasına şərait yaratmışdır. Təkcə 4 il ərzində pərakəndə ticarət müəssisələrində satılmış gündəlik məişət avadanlıqların sayını nəzərdən keçirməklə bir daha yuxarıda deyilənlərin şahidi oluruq. Məsələn, təkcə 1964-1967-ci illərdə Şuşa rayonunda ticarət obyektlərində 275 tikiş maşını, 214 paltaryuyan maşın, 250 soyuducu, 23 tozsoran maşın, 14 döşəmə silən, 1132 radiopriyomnik, 362 televizor, 450 min manatlıq mebel satılmışdı [110].

1950-1960-cı illərdə Azərbaycanda poçt rabitəsi sürətlə inkişaf edirdi. 1960-cı illərin əvvəllərində bütün rabitə agentlikləri rabitə şöbələrinə çevrildi. Bakıda rabitə kontoru əvəzinə poçtamt, Şuşada isə rabitə qovşağı yaradıldı. Azərbaycan hökuməti başqa sahələrdə olduğu kimi Şuşa rayonunda rabitə

müəssisələrinin – poçt, telefon teleqraf, radiolaşdırma və televiziyanın inkişafı üçün 1961-1965-ci illərdə 55 min manat, 1966-1970-ci illərdə isə 17 min manat vəsait ayırdı [111]. Bununla belə rayona ixtisaslı mütəxəssislər və avadanlıqlar göndərildi. Ayrılmış vəsait hesabına Şuşa rayonunda 1962-1970-ci illər ərzində 4 yeni poçt, teleqraf və telefon müəssisəsi açıldı. Bununla da, 1962-ci ildə Şuşa rayonunda 4 poçt, teleqraf və telefon stansiyası var idisə 1970-ci ildə onların sayı 8-ə çatdı. 1970-ci ildə ümumrespublika üzrə bu göstərici 1555-ə çatırdı [112]. 1950-ci ildən 1970-ci ilədək olan dövrdə Azərbaycanda ATS-in sayı 6-dan 84-dək çoxalmışdı. Müvafiq illərdə DQMV-də ATS-in sayı 1-dən 3-dək artmışdı [113]. 1970-ci ilədək ermənilərin kompakt şəkildə cəmləşdikləri bütün kəndlər, sovetliklər və kolxozlar tamam telefonlaşdırıldı. Vilayətdə bir neçə kənd müstəsna olmaqla azərbaycanlılar yaşayan kəndlər yenə də «yaddan çıxdı» və heç bir rabitə xidməti ilə təmin olunmadı. Dövlətimizin bölgəyə göstərdiyi dərin qayğı nəticəsində Dağlıq Qarabağda yaşayan əhaliyə poçt, teleqraf və telefon xidməti daha da yaxşılaşdı. Şuşa rayonunda Rabitə xidmətində çalışan fəhlə və qulluqçuların sayı 1965-ci ildəki 55 nəfərə qarşı, 1970-ci ildə 70 nəfərə çatdı. Müvafiq illərdə Şuşa rayonunun rabitə xidmətində çalışan qadınların sayı 53 faizdən 63 faizə qalxdı [114]. Rabitə xidmətində çalışan fəhlə və qulluqçuların aylıq əmək haqqında da xeyli artım müşahidə edilmişdir. Belə ki, 1965-ci ildə Şuşa rayonunda rabitə işçilərinin əmək haqqı 64 manat idisə 1970-ci ildə artaraq 81 manata çatmışdır [115].

1962-ci ildən 1970-ci ilədək olan dövrdə Şuşa rayonunda ATS-də daxil olmaqla telefon nömrələrinin sayı 182-dən 347-yə, telefon aparatlarının sayı 299-dan 646-ya, göndərilən məktubların sayı 293 mindən 500 minə göndərilən bağlamaların sayı 2 min ədəddən 6 min ədədə, alınan qəzet və jurnalların sayı 500 mindən 2 milyona, şəhərlər arası telefon danışıqlarının sayı 9 mindən 29 minə, evə göndərilən təqaüdlər 17 mindən 35 minə çatmışdır [116]. Aparılan tədqiqatlardan məlum olur ki, Şuşa rayonunda əhalinin rabitə xidməti ilə təminatı ümumvilayət üzrə

təxminən 55 faiz həcmində, Dağlıq Qarabağ üzrə isə əhalinin rabitə xidməti ilə təminatı ümumrespublika səviyyəsindən 35 faiz artıq olmuşdur [117].

1950-1960-cı illərdə Azərbaycanda radiorabitə vasitələri böyük sürətlə inkişaf etmişdir. Azərbaycan hökumətinin ayırdığı xüsusi vəsait hesabına 1966-cı ildə Bakı-Şuşa, 1969-cu ildə Şuşa-Naxçıvan radiorele xətti istifadəyə verildi [118]. Bu hadisə bütövlükdə Dağlıq Qarabağda o cümlədən Şuşa rayonunda radiorabitənin və televiziya verilişlərinin inkişafına təkan verdi. 1960-cı ildə Şuşa rayonunda 1542 radio qəbuledici nöqtə var idi. 60-cı illərdə Şuşa rayonunda yerli radio verilişləri redaksiyası yaradıldı. Ərazinin radiolaşması ilə əlaqədar 1970-ci ildə radioqəbuledici nöqtələrin sayı artaraq 1992-ə çatdı [119]. 1970-ci ildə Azərbaycanda cəmi 1 milyon 701 min radioqəbuledici nöqtə var idi [120].

1956-cı ildən Bakıda Azərbaycan televiziya mərkəzi öz fəaliyyətinə başladı. 1970-ci ildə isə radiorele xətti vasitəsilə Bakı televiziya stansiyası ilk dəfə Moskvadan rəngli televiziya proqramlarını göstərmək imkanı əldə etdi. Artıq 60-cı illərdən bütün Şuşa ərazisində televiziya vasitələri yayımlanmağa başlamışdır. Aparılan hesablamalara görə təkcə 1964-1967-ci illərdə Şuşada yaşayan əhali ticarət mərkəzlərindən 962 televizor almışlar. 1965-ci ildə bütövlükdə Şuşa rayonuna bir min radioqəbuledici, 1,5 min televizor var idi. 1970-ci ildə onların sayı 2 dəfə artmışdır [121]. Lakin bütün bunlara baxmayaraq Şuşa rayonunda rabitə şəbəkəsinin inkişaf səviyyəsi və sürəti əhalinin durmadan artan tələbatından hələ də geridə qalırdı.

Azərbaycan hökuməti Şuşa rayonuna əhalinin sağlamlığının qorunmasını həmişə diqqət mərkəzində saxlamışdır. XX yüzilliyin 60-cı illərində Şuşa rayonunda həkimlərin və tibb işçilərinin sayını artırmaq, müalicə-profilaktika müəssisələrinin şəbəkəsini genişləndirmək, tibb müəssisələrinin dərman preparatları və ləvazimatlarla təmin etmək əhalinin sağlamlığı mühafizəsi üçün sanatoriya, kurort müalicə və istirahət evlərinin sayını artırmaq, ümumiyyətlə rayon əhalisinə tibbi xidməti ilbəil yaxşılaşdırmaq məqsədilə Azərbaycan hökuməti mühüm

tədbirlər həyata keçirdi. İlk növbədə bu sahəyə böyük məbləğdə vəsait ayırdı və həmin vəsaitin miqdarını ildən ilə artırdı. Belə ki, Azərbaycan hökuməti Şuşa rayonunda əhaliyə tibb xidmət və sağlamlığın mühafizəsi üçün 1950-ci ildə 338 min manat vəsait ayırmışdırsa, 1970-ci ildə artırılaraq 453 min manata çatdırılmışdır [122]. Ümumiyyətlə, 1950-ci ildən 1970-ci ilədək Azərbaycan hökuməti Şuşa rayonunda səhiyyənin inkişafına 7 milyon manat vəsait ayırmışdır [123].

Bundan əlavə, Azərbaycan hökuməti 1966-1970-ci illərdə Şuşa rayonunun kəndlərində, mədəni-məişət obyektləri, o cümlədən xəstəxanalar tikmək üçün 104 min manat uzunmüddətli kredit verdi [124]. Bəhs etdiyimiz dövrdə Şuşa rayonunda səhiyyə işlərinə ayrılan vəsait qonşu Xankəndi rayonuna ayrılan vəsaitdən 2 dəfə az idi. Şuşa rayonunda böyüməkdə olan nəslin tərbiyəsi və səhhətinin qorunması üçün dövlətimizin sərf etdiyi vəsait adambaşına 1965-ci ildəki 49 manatdan, 1969-cu ildən 55 manata çatmışdı. Şuşa rayonunda əmək qabiliyyətini itirmiş valideynlərin hər bir ailə üzvünə 1965-ci ildə 27 manat pul ayrılırdısa, 1970-ci ildə 40,6 manata qalxmışdır. Müvafiq illərdə təkcə əhalinin sağlamlığının qorunması və istirahət xərcləri üçün ayrılan vəsait 40 manatdan 44 manata yüksəlmişdir.

1950-ci ilin yanvarında Dağlıq Qarabağ Vilayət Partiya komitəsində mövcud vəziyyət təhlil edildi və həmin ilin fevralında DQMV XDS-nin, Vilayət Partiya Komitəsinin, Şuşa, Ağdərə, Xocavənd, Xankəndi, Hadrut partiya komitələrinin birgə iclası keçirildi. İclasda DQMV-də Səhiyyə idarəsinin şəbəkəsinin inkişafı, tikiləcək səhiyyə ocaqlarının Vilayət ərzində yerləşdirilməsi, yoluxucu xəstəliklərə qarşı mübarizə, müalicə profilaktika idarələrinə dərman və tibbi məmulatlarının paylanması, qadınların və uşaqların mühafizəsi sahəsində vəzifələr, kurortların mühafizəsi, bərpası, genişləndirilməsi və başqa məsələlər müzakirə edildi. Azərbaycan hökumətinin ayırdığı vəsaitin «istiqamətləri» müəyyənləşdirildi. Təəssüflər olsun ki, Vilayətin azərbaycanlıların yaşadıqları kəndlər bu «Plan»dan da kənarda qaldı.

Azərbaycan hökumətinin köməyi nəticəsində 1950-1960-ci illərdə DQMV-də o cümlədən Şuşa rayonunda yeni səhiyyə müəssisələri, müalicə profilaktika idarələri, dispanserlər, sanitariya-maarif evləri, sanatoriya-epidamoloji stansiya, qankö-çürmə stansiyası, uşaq xəstəxanaları, doğum evləri, poliklinika və ambulatoriya tikilib istifadəyə verilmişdir. 1950-ci ildən 1970-ci ilədək Xocavənd rayonu ərazisində 120 çarpayılıq 4 (hər cür avadanlıqlarla təchiz olunmuş) xəstəxana tikilib istifadəyə verildi. Bəhs edilən illərdə, Şuşa rayonunda xəstəxanaların sayı 2-dən 4-ə, qadın və uşaq məsləhətxanalarının sayı 1-dən 2-ə, «feldşer-mama» məntəqələrinin sayı 6-dan 10-a çatdı [125]. Ümumiyyətlə bəhs edilən illərdə Şuşa rayonunda səhiyyə müəs-sisələrinin sayı 9-dan 16-a qalxdı. 1940-1970-ci illərdə ümum-respublika üzrə xəstəxanaların sayı 222-dən 779-a onlardakı çarpayıların sayı 12,6 mindən 48,8 minə, ambulator-poliklinika müəssisələrinin və qadın məsləhətxanalarının sayı 1097-dən 1388-ə qədər artmışdı [126].

1950-ci ildə 2 qadın və uşaq məsləhətxanalarından 1-i şəhərin 1-i kəndin üzərinə düşürdüsə, kənddə fəaliyyət göstərənlər 1963-cü ildə ləğv edildi [127]. Qeyd edək ki, 1965-ci ildə Vilayətdə 7 qadın və uşaq məsləhətxanası fəaliyyət göstə-rirdi ki, bunlardan yalnız biri Şuşa rayonunun payına düşürdü. Dağlıq Qarabağ ərazisində fəaliyyətdə olan bütün qadın və uşaq məsləhətxana və ambulatoriyalar ermənilərin kompakt şəkildə cəmləşdikləri şəhərdə, rayon mərkəzlərində və qəsəbələrdə yerləşdirilmişdi.

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1950-1960-cı illərdə DQMV-də yaradılmış 22 böyük həcmli xəstəxanaların yerləşdirilməsində DQMV XDS ikili mövqe tutmuşdur. Xankəndi rayonunda 1950-ci ildə 10 yerlik 1 xəstəxana var idisə, 1970-ci ildə artıq xəstəxanaların sayı 5-ə, yerlərin sayı isə 165-ə çatdı. Ağdərə rayonunda 5-dən (82 yerlik) 11-ə (303 yerlik), Hadrud rayonunda 2-dən (45 yerlik) 5-ə (240 yerlik), Xocavənd rayonunda 3-dən (65 yerlik), 7-yə (180 yerlik), azərbaycanlıların daha çox yaşadığı Şuşa rayonunda isə 3-dən (110 yerlik), 4-ə (170 yerlik) qalxmışdı. 1950-1960-cı illərdə yeni tikilmiş 22

xəstəxananın yalnız 1-i Şuşa rayonunun payına düşmüşdü. Yerdə qalan 21 xəstəxananın hamısı ermənilərin daha çox cəmləşdiyi ərazilərdə yerləşmişdir [128]. Azərbaycanlılar yaşayan kəndlərin demək olar ki, heç birində nəinki xəstəxana heç ambulator mərkəz belə yox idi. Süni yaradılmış bu prosesdə də məsələ tamamilə aydın idi. Rayonda azərbaycanlıların yaşadıqları qədim yaşayış məskənlərindən şəraitsizlik mühiti yaratmaqla onların ata-baba yurdlarından köçürülmələrinə şərait yaratmaq erməni hakim dairələrinin məkirli niyyətləri olmuşdu.

1950-1960-cı illərdə Şuşa rayonunda xəstəxanaların, ali və orta ixtisas təhsilli tibb personajlarının sayında dəyişmə müşahidə edilmişdir. 1950-ci ildə Şuşa rayonunda 20 həkim var idisə, 1970-ci ildə onların sayı 19 nəfərə enmişdi. Həmin illərdə orta tibb işçilərinin sayı 69 nəfərdən 134 nəfərə qədər qalxmışdır [129]. Azərbaycan hökuməti Şuşa rayonuna mütəxəssislər göndərməklə yanaşı Xankəndində 1932-ci ildən fəaliyyətə başlayan tibb məktəbinin inkişafına şərait yaratmış və buranı bitirən orta ixtisas təhsilli tibb işçiləri Şuşanın səhiyyə ocaqlarında işləyirdilər. Şuşa rayonunun səhiyyə müəssisələrində işləyən ali və orta, natamam orta təhsilli həkim, tibb işçisi, xəstə baxıcılarının (sanitarların) sayının ilbəil artması ilə yanaşı onların aylıq qazancında da irəliləmələr müşahidə edilmişdir. Belə ki, 1965-ci ildə səhiyyə işçilərinin əmək haqqı 74 manat idisə 1970-ci ildə 79 manata qalxmışdır [130]. Aparılan hesablamalara görə Şuşa rayonunun xalq təsərrüfatında çalışan ümumi fəhlə və qulluqçuların içərisində səhiyyə işçiləri 29 faiz təşkil edirdi [131]. Dövlətimiz Şuşanın səhiyyə müəssisələrini vaxtaşırı olaraq ali təhsilli mütəxəssislərlə təmin edirdi. Belə ki, 1968-ci il yanvar məlumatına görə Şuşanın xəstəxanalarında 3 cərrah, 9 can həkimi, 2 qadın həkimi, 5 uşaq həkimi, 1 göz həkimi, 35 yoluxucu xəstəliklərə qarşı mübarizə həkimi, 1 burun, qulaq, boğaz həkimi, 1 əsəb xəstəliklərinə qarşı mübarizə həkimi, 1 dəri zöhrəvi xəstəlikləri həkimi, 1 rentgen həkimi, 2 ağız boşluğu, çənə və ona yaxın orqanların həkimi, 1 diş həkimi var idi [132]. Aparılan hesablamalara görə 1923-cü ildə Şuşa rayonunda hər 10000 nəfərə 1 həkim düşürdüsə, 1940-cı ildə bu göstərici 5-ə,

1965-ci ildə 15-ə, 1970-ci ildə isə 16-ya çatmışdır. Xəstəxanalarda hər 10000 nəfərə düşən çarpayıların sayı isə 1923-cü ildə 8-ə, 1940-cı ildə 24-ə, 1965-ci ildə 95-ə, 1970-ci ildə isə artaraq 104-ə çatmışdır [133].

Apardığımız araşdırmalardan məlum olur ki, istər əhalinin həkimlərlə təminatı səviyyəsini, istərsə də çarpayıların hər 10 min nəfərə düşmə səviyyəsi Dağlıq Qarabağda olan göstəricilər istər ümumrespublika üzrə, istərsə də Naxçıvan MSSR ilə müqayisədə daha üstün mövqeyə malik olmuşdur. Məsələn, 1965-ci ildə hər 10 min nəfərə düşən xəstəxana çarpayılarının sayına görə ümumrespublika üzrə 85,7-i Naxçıvan MSSR üzrə 83,5 ədəd düşürdüsə, yuxarıda qeyd etdiyimiz kimi DQMV-də 94,7 ədəd çarpayı düşmüşdür. Bundan əlavə hər 10 min nəfərə düşən orta tibb işçilərinin sayı ümumrespublika üzrə 67,4 nəfər, Naxçıvan MSSR üzrə 57,7 nəfər, Vilayətdə isə 88,6 nəfər düşmüşdür. Bütün ixtisaslardan olan həkimlərlə təminat (hər 10 min nəfərə) Naxçıvan MSSR-da 12,3 nəfər, Füzulidə 12 nəfər, Cəlilabadda 12,2 nəfər, Şuşada 14,9 nəfər idi [134].

Əvvəlki illərdə olduğu kimi 1950-1960-cı illərdə də, Azərbaycan hökuməti bütün DQMV-ni o cümlədən Şuşa rayonunun xəstəxana və müalicə müəssisələrini hər cür avadanlıqlar və inventarlarla təmin etmişdir. Xəstəxanalar müasir tipli cihazlarla təchiz edilmiş, rentgen, fizioterapiya kabinələri və laboratoriyalar yaradılmışdır. Bunun nəticəsi idi ki, Şuşa rayonunda yoluxucu xəstəliklərin – xüsusilə qızdırma, tif, traxoma və digər infeksion xəstəliklərin kökü kəsilmiş, dizenteriya və brüseliyoz xəstəlikləri xeyli azalmışdır. 1950-1960-cı illərdə əhalinin sanitariya gigiyena, bilikləri artmışdı. Rayonda uşaq sağlamlıq mərkəzi, uşaq sanatoriyası, uşaq bağçaları və körpələr evi, qadın və uşaq məsləhətxanaları işləyirdi.

1950-1960-cı illərdə Şuşa rayonu əhalinin sağlamlığının mühafizəsində sanatoriya kurort müalicə və istirahət evləri mühüm rol oynayırdı. 1968-ci ildə DQMV-də 250 yerlik 1 sanatoriya, 275 yerlik 1 müalicə və istirahət evi, 485 yerlik 1 pansionat fəaliyyət göstərirdi. 1970-ci ildə Azərbaycanda cəmi 99 istirahət evi və sanatoriya var idi [135]. Şuşa şəhəri Azərbay-

canın ən gözəl kurort, turizm ehtiyatlarına malik müstəsna əhəmiyyətli sağlamlıq ocaqlarından biridir. Vilayət əhalisi Azərbaycandakı mövcud sanatoriyalardan lazımınca bəhrələnirdilər. Bütün bunlar isə əhalinin sağlamlığına böyük təsir göstərdi.

Azərbaycan hökumətinin 1950-1960-cı illərində Şuşa rayon əhalisinin kütləvi istirahət zonalarından düzgün istifadə etməsi üçün şərait yaratması, vaxtında yoluxucu xəstəliklərin qarşısını alması, rayon əhalisinə lazım olan səviyyədə müalicəvi əhəmiyyəti dərman və tibb məmulatları ilə təmin etməsi, səhiyyə idarələri şəbəkələrinin genişləndirmək üçün ilbəil vəsaitin miqdarını artırması və sair tədbirlər həyata keçirməsi ölüm hallarının azalmasına, uzunömürlülüyə səbəb olmuşdur. 1960-cı il məlumatına görə Şuşa rayonunda 85-100 yaşında olanlar 410 nəfər olmuşdu [138]. 1970-ci il məlumatında isə yuxarıdakı göstəricilər təxminən 20-30 faiz artmışdır. Məsələn 1970-ci il məlumatına görə təkcə yaşı 100-ü keçənlərin sayı 60 nəfəri keçmişdir. Araşdırmalardan məlum olur ki, Şuşa rayonundakı uzunömürlülərin 70 faizindən çoxu qadınların üzərinə düşmüşdür [139].

1970-ci il məlumatına görə Azərbaycanda orta ömür 72 il olmuşdursa bu göstərici respublikamızın ən səfalı guşələrindən biri olan Şuşa rayonunda 75 ilə çatmışdır [140]. Şuşa rayonunda uzunömürlülərin çoxu dağlıq və dağətəyi ərazilərdə gözəl havası, suyu olan kəndlərdə yaşamışlar. Şuşa rayonunun hər kəndində, qəsəbəsində uzunömürlülərə rast gəlmək mümkündür. Uzunömürlülüyün sayına görə Şuşa rayonu nəinki Azərbaycanda hətta Şərq ölkələrində və dünyada məşhurdur [141]. Məsələn, 1950-1970-ci illər statistik məlumatlarına istinadən deyə bilərik ki, keçmiş SSRİ-də yaşı 100 və 100-dən yuxarı olanların sayı hər 100 min nəfərə 10-12 nəfər, o cümlədən Ukraynada 6 nəfər, Belarusiyada 13, Özbəkistanda 10, RSFSR-də 8, Qazaxıstanda 10, Gürcüstanda 51, Azərbaycanda 84 düşürdüsə, Azərbaycanın Şuşa rayonunda isə 100 nəfər təşkil etmişdir. İnkişaf etmiş dünya dövlətlərindən ABŞ-da bu göstərici 1,5 nəfər, Fransada 0,7 nəfər, İngiltərədə 0,6 nəfər təşkil etmişdir [142]. Statistik məlumatlardan göründüyü kimi, yer üzərində uzun ömürlülüyünə görə Azərbaycanın DQMV-i, o cümlədən Şuşa rayonu öndə dayan-

mışdır. Keçmiş SSRİ məkanında isə Azərbaycan SSR-in DQMV o cümlədən Şuşa rayonu birinci yerdə idi. Bütün bunlar xain qonşularımızın diqqətindən yayınmamışdır. Vaxtilə dünyanın müxtəlif dövlətlərindən Azərbaycana köçürülən ermənilərin Dağlıq Qarabağı o cümlədən Şuşa ərazisini yaşayış yeri kimi seçməyi təsadüfi hadisə deyildi. Əlbəttə, bölgənin yeraltı və yerüstü təbii sərvətləri, saf suyu, təmiz havası, çıxılmaz meşəlikləri, min bir dərdin dərmanı olan meyvə bağları, sərin bulaqları – zəngin flora və faunası bütün tarixi dövrlərdə məkirli bir qrup gəlimə ermənilərin ərazi iddialarına səbəb olmuşdur. Acgöz və bədniyyət qonşularımız müvəqqəti də olsa XX əsrin 80-ci illərinin axırı, 90-cı illərin əvvəllərində Azərbaycanın qədim yaşayış məskəni, gözəl səfalı guşəsini (Qarabağı) işğal etdilər. İşğal edilmiş ərazilərimizdəki təbii sərvətlərimiz qəddarlıqla xarici dövlətlərə və Ermənistana daşınır və bəhrələnirlər.

Şuşa rayonunda insanların sağlamlığının möhkəmlənməsində, onların əmək qabiliyyətinin saxlanılmasında bədən tərbiyəsi hərəkatı mühüm rol oynayırdı. Azərbaycan hökuməti başqa sahələrdə olduğu kimi Şuşa rayonunda bədən tərbiyəsi və idmanı inkişaf etdirmək məqsədilə 1950-1960-cı illərdə xeyli miqdarda vəsait ayırdı və həmin vəsaitin həcmini ildən-ilə artırdı. Belə ki, həmin məqsədlə Azərbaycan hökuməti 1961-ci ildə Şuşa rayonuna 2531 manat vəsait ayrılmışdırsa, 1965-ci ildə bu rəqəm 2599 manata, 1970-ci ildə isə artaraq 3425 manata qalxmışdır [143]. Sonrakı illərdə bu artım davam etdirilmişdir. Azərbaycan hökumətinin ayırdığı vəsait hesabına Şuşa rayonunda idman qurğuları və binaların şəbəkəsi genişləndirildi. 1966-1970-ci illərdə Şuşa rayonunda 10 idman zalı və meydançası tikilib rayon sakinlərinin istifadəsinə verildi [144]. Dekabr 1970-ci il məlumatına görə Şuşa ərazisində 5 futbol meydançası, 28 voleybol, tennis basketbol meydançaları fəaliyyət göstərirdi [145]. Azərbaycan hökuməti Şuşa rayonunda yaradılmış idman mərkəzini idman qurğuları, lazımı avadanlıqlarla təmin edirdi.

Apardığımız araşdırmalardan məlum olur ki, idmanı inkişaf etdirmək məqsədilə istər ayrılan vəsaitin həcminə görə, istər idman zalları və meydançalarının sayına görə, istərsə də idman

mərkəzlərinin idman qurğuları və avadanlıqları ilə təmin olunması səviyyəsinə görə Şuşa rayonu Vilayətin rayonlarından iki dəfə aşağıda dayanmışdır.

1950-1960-cı illərdə Şuşa rayonunda bədən tərbiyə və idmanın inkişafı üçün bədən tərbiyəsi və idman kollektivləri yaradılması işi ildən-ilə genişləndirilmişdi. Məsələn, 1960-cı ildə 1250 idmançını birləşdirən 22 bədən tərbiyəsi və idman kollektivi var idisə, 1965-ci ildə 1500 idmançını birləşdirən 30 bədən tərbiyəsi kollektivi, 1970-ci ildə isə 2 min idmançını birləşdirən 35 bədən tərbiyəsi və idman kollektivi yaradılmışdır [146]. 1950-1960-cı illərdə Şuşa rayonunda əhalinin 15 faizindən çoxu bədən tərbiyəsi və idmanla məşğul olmuşlar.

Azərbaycan hökuməti Şuşa rayonunda bədən tərbiyə və idman inkişaf etdirmək üçün 1960-cı ildə 6, 1970-ci ildə isə 10 ali və orta ixtisas təhsilli bədən tərbiyəsi və idman mütəxəssisi göndərmişdi. Bədən tərbiyəsi və idman sahəsində məşğul olan işçilərin aylıq əmək haqqı 1965-ci ildə 74 manat, 1970-ci ildə isə artırılaraq 79 manata çatmışdır [147]. Şuşa rayonunda idman oyunları, yarışlar və sportagiadalar, bədən tərbiyəsi hərəkatının geniş yayılması böyük əhəmiyyət kəsb edirdi. Rayonda bədən tərbiyə və idmanın inkişafı üçün könüllü idman cəmiyyəti minlərlə oğlan və qız arasında müntəzəm idman işi aparırdılar. Bununla yanaşı Şuşanın pioner düşərgələrində, əmək və istirahət düşərgələrində, idman tipli düşərgələrində bədən tərbiyəsi və idman yarışları keçirilir və burada yaşayan gənc nəslin sağlamlığının qorunması üçün böyük əhəmiyyətə malik olurdu. Şuşa rayonunun idmançıları rayonlararası, respublika və ittifaq yarışlarında iştirak edirdilər. 1971-ci ildə Şuşa rayon idmançıları arasında yarışlarda göstərdikləri yüksək nəticələrə görə birinci dərəcəli, göstərdikləri nəticələrdən asılı olaraq II və III dərəcəli idmançı və «gənc idmançı» adına layiq görülmüş idmançılar var idi [148].

Beləliklə, 1950-1960-cı illərdə Azərbaycan hökumətinin həyata keçirdiyi kompleks tədbirlər nəticəsində DQMV-nin milliyyətcə erməni əhalisinin maddi rifah halının yüksəlməsi təmin olunmuş və onların əmək, məişət şəraiti yaxşılaşmışdır.

Azərbaycan SSR-in Dağlıq Qarabağ ərazisində məskunlaşan ermənilərin maddi rifah halı və məişət şəraiti, istər ümumrespublika şəxsiyyətindən, istərsə də Naxçıvan MSSR və digər rayonlardan dəfələrlə yüksəkdə dayanmışdır. Aparılan hesablamalara görə 1960-cı ildən 1970-ci ilin əvvəllərinədək olan dövrdə adambaşına düşən məhsul istehsalının həcmi ümumrespublika üzrə 140,5 faiz, Vilayətdə 250 faiz artmışdır. Həmçinin sənaye məhsulları istehlakının həcmi ümumrespublika üzrə 229 faiz, Vilayətdə 281 faiz, kapital xərcinin artım həcmi ümumrespublika üzrə 219 faiz, DQMV-də 417 faiz, ticarət mal dövriyyəsinin həcmi ümumrespublika üzrə 240 faiz, Dağlıq Qarabağda 279 faiz, məişət xidməti işi ümumrespublika üzrə 540 faiz, Vilayətdə 550 faiz artım olmuşdur [149].

Bununla yanaşı əvvəlki dövrlərdə olduğu kimi 1950-1960-cı illərdə də Dağlıq Qarabağda azərbaycanlılar yaşayan kəndlərə erməni rəhbərliyi tərəfindən ögey münasibət göstərilmiş, demək olar ki, kəndlərin əksəriyyətində sosial obyekt tikilməmiş, nəticədə onlarla qədim müsəlman kəndləri boşalıb, dağılmışdı. 1950-1960-cı illərdə Vilayətdə yaşayan azərbaycanlıların maddi həyat tərzi aşağı səviyyədə qalmaqda davam edirdi. Onların əldə etdiyi məvacib dolanışığın minimum həddindən aşağı idi. Araşdırmalardan məlum olur ki, eyni idarə və müəssisədə eyni saatda işləyən azərbaycanlı ilə erməni millətləri arasında istər aylıq, istərsə də on üçüncü əmək haqqında çox böyük fərqlər mövcud olmuşdur. Hətta bu fərqlər birin yüzə nisbətində aşkar edilmişdir. Təkcə bu faktın özü erməni millətçilərinin «bölgədə azərbaycanlılar tərəfindən sıxışdırılırıq» termenelogiyasının tamamilə ağ yalan olduğu, əksinə azərbaycanlıların sıxışdırılmasının göstəricisidir.

1970-1985-ci illərdə Azərbaycanın Şuşa rayonunun iqtisadi yüksəlişi, əhalinin rifahının və məişətinin daha da yaxşılaşdırılmasına şərait yaratmışdır. 1965-1985-ci illərdə Şuşa rayonunun kolxoz, sovxoz və şəxsi təsərrüfatlarında ümumi istehsal təqribən iki dəfə əhalisinin hər nəfərinə düşən real gəlir 80 faiz artmışdır [150]. Fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 1970-ci illərdə 1,5 dəfə 1980-ci illərdə isə 1,3 dəfə çoxalmışdır.

Rayonda əhalinin real gəlirinin yüksəldilməsində əsas mənbələrdən biri əmək haqqının ardıcıl olaraq yüksəldilməsidir. Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan KP qurultaylarında, MK plenumlarında vaxtaşırı çağırılan müşavirələrdə respublikamızın, o cümlədən onun ayrılmaz hissəsi olan Dağlıq Qarabağın və həm də Şuşa rayonunun iqtisadi, sosial və mədəni inkişafı üçün konkret vəzifələr irəli sürülmüş və əhalinin rifah və məişətinin daha da yaxşılaşdırılması üçün təşkilati tədbirlər müəyyən edilmişdir. 1970-ci illərdə xalq təsərrüfatının müxtəlif sahələrində fəhlə və qulluqçularının əmək haqqının nizama salınması və yüksəldilməsi sahəsində görülən tədbirlər nəticəsində Şuşada fəhlə və qulluqçuların orta əmək haqqı 1965-ci illə müqayisədə 1985-ci ildə 60 faizdən çox artmışdı. Əgər 1965-ci ildə Şuşa rayonunda fəhlə və qulluqçuların pul ilə ödənilən orta aylıq əmək haqqı 60 manat idisə, 1965-ci ildə bu rəqəm 90 manata, 1975-ci ildə 125 manata, 1980-ci ildə 148 manata, 1985-ci ildə 153,5 manata çatmışdır [153]. Gəlirləri daha çox olan Şuşanın kolxoz və sovxozlarında, sənaye müəssisələrində aylıq əmək haqqı daha yüksək olmuşdur.

1970-1985-ci illərdə Şuşa rayonun kolxozçularının da orta aylıq əmək haqqında artım müşahidə edilmişdir. Bəhs etdiyimiz dövrdə bu artım 1,5-2 dəfəyə çatmışdır. Şuşa rayonuna kolxoz və sovxozların illik gəlirlərinin yüksək dərəcədə artması burada işləyən kolxozçuların da əmək haqqına güclü təsir etmişdir. 1965-ci ildə kolxoz və sovxoz təsərrüfatlarında işləyən hər bir fəhləyə gündə 2 manat 65 qəpik keçirilirdisə, 1985-ci ildə 6 manat 12 qəpiyə qalxmışdır [154]. Kənd təsərrüfatında çalışan işçilərin orta aylıq gəliri 1960-cı ildə təxminən 50 manat olmuşdursa, 1985-ci ildə isə 976 manata çatmışdır [155]. Bu baxımdan Vilayətdə və onun Şuşa rayonu kənd əməkçilərinin orta illik gəliri 1960-cı ilə nisbətən, 1980-ci ildə 5,5 dəfə artmışdır. Tədqiq edilən illərdə rayonun kolxozçu kəndlilərinin təkcə orta illik əmək haqqı deyil eyni zamanda onların gəlirləri, təqaüdləri, güzəştli və maddi kömək ictimai fondların artması hesabına çoxalmışdır. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, Şuşada kənd təsərrüfatı işçilərinin orta aylıq əmək haqqı

respublika göstəricilərindən təxminən 2 dəfədən artıq olmuşdur. Məsələn, ümumrespublika üzrə kənd təsərrüfatında işləyənlər 1965-ci ildə 51,3 manat, 1985-ci ildə 119 manat aylıq əmək haqqı almışlarsa, bütövlükdə Vilayətdə o cümlədən Şuşa rayonuna bu göstərici 1965-ci ildə 78 manat, 1985-ci ildə isə 280 manata çatmışdır [156].

1970-1985-ci illərdə Şuşa rayonunda istər kolxozçuların, istərsə də fəhlə və qulluqçuların şəxsi təsərrüfatlarından gələn gəlirləri xeyli artmışdır. Maraqlı cəhət ondan ibarətdir ki, bəhs olunan illərdə bütövlükdə DQMV-də və onun Şuşa rayonunda şəxsi həyətyanı təsərrüfatlardan əldə edilən gəlir istər ümumittifaq səviyyəsində, istərsə də ümumrespublika səviyyəsində yüksəkdə dayanmışdır. Aparılan araşdırmalar nəticəsində məlum olur ki, 1970-ci ildə keçmiş SSRİ məkanında kolxozçular ümumi gəlirlərinin 31,9 faizini şəxsi təsərrüfatlarından əldə etmişdilər. 1975-ci ildə bu göstərici 26,3 faiz, 1980-ci ildə 30 faiz təşkil etmişdir. Ümumrespublika üzrə bu göstərici 1970-ci ilə 32 faiz, 1975-ci ildə 43,9 faiz, 1980-ci ildə 45 faiz təşkil etmişdirsə, Azərbaycanın Vilayətdə və onun Şuşa rayonunda bu göstərici 1970-ci ildə 35 faiz, 1975-ci ildə 45 faiz, 1980-ci ildə isə 47 faiz təşkil etmişdir. Bu faktın özü Azərbaycan hökumətinin Vilayət əhalisinə göstərdiyi dərin qayğını bir daha sübut edir. Bəhs etdiyimiz dövrdə ümumrespublika səviyyədə Dağlıq Qarabağda başqa sahələrdə də yüksək göstəricilər əldə edilmişdir. Məsələn, 1960-cı illə müqayisədə 1975-ci ildə adambaşına düşən məhsul istehsalının həcmi ümumrespublika üzrə 140,5 faiz, Vilayətdə isə iki dəfə artıb 260 faiz çoxalmışdır. Həmin illərdə sənaye məhsulları istehsalının həcmi respublikamızda 229 faiz, Azərbaycanın DQMV-də 281 faiz, kapital qoyuluşunun həcmi bütövlükdə Azərbaycanda 219 faiz, Vilayətdə 420 faiz, mal dövriyyəsinin həcmi respublikamızda 240 faiz, onun Yuxarı Qarabağ hissəsində 280 faiz, məişət xidmətinin həcmi ümumrespublika üzrə 540 faiz, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 560 faiz artmışdır [154].

1970-1985-ci illərdə ümumilikdə Vilayətdə, o cümlədən Şuşa rayonunda ictimai istehlak fondlarında əhaliyə verilən

ödənc və güzəştlərin məbləği üç dəfə çoxalmışdır [111]. Həmin illərdə qocalara, əlillərə, əmək qabiliyyətini müvəqqəti itirənlərə, əmək və müharibə veteranlarına başçısını itirmiş uşaqlı ailələrə, tək analara maddi yardım ilbəil artmışdır. Şuşa rayonunda dövlətdən ümumi təqaüd alanların sayı 1960-cı ildə 986 nəfər, 1966-cı ildə 1104 nəfər, 1970-ci ildə 1368 nəfər, 1975-ci ildə 1578 nəfər, 1985-ci ildə 2184 nəfər olmuşdur [158]. Tədqiqatlardan məlum olur ki, Şuşa rayonunda ümumi təqaüd alanların sayı Vilayətin digər rayonları ilə müqayisədə təxminən 708 dəfə aşağı olmuşdur.

1970-ci illə müqayisədə Dağlıq Qarabağ fəhlələrinin aldıqları pensiya və müavinatların məbləği 420 min manatdan 1 milyon 656 min manatadək artmışdı [159]. Bu göstərici Naxçıvan bölgəsində fəhlələrə verilən pensiya və müavinatlardan 2 dəfə çoxdur.

Şuşa rayonunda çoxuşaqlı anaların sayı 1965-ci ildə 450 nəfər, 1970-ci ildə 463 nəfər, 1975-ci ildə 387 nəfər, 1980-ci ildə 31 nəfər idi. Dörduşağlı anaların sayı bütün çoxuşaqlı anaların sayını təxminən 50 faizini təşkil edirdi. Keçmiş SSRİ hökumətinin «hamiləlik, doğum və xəstə uşağa xidmət üçün müavinət təminatının yaxşılaşdırılması haqqında» (1973-cü il 26 iyun) qərarına əsasən qadınlara hamiləliyə və doğuma görə iş stajından asılı olmayaraq əmək haqqının 100 faiz ödənilməsinə, «aztəminatlı uşaqlı ailələrə maddi köməyin daha da yaxşılaşdırılması haqqında» 1974-cü il 12 sentyabr tarixli qərarına əsasən 1974-cü il noyabrın 1-dən ümumi gəliri ailənin hər üzvü hesabından ayda 50 manatdan az olan 8 yaşa qədər uşaqların hər birinə 12 manat müavinət verilməsinə başlandı [159].

Bundan əlavə, ittifaq hökumətinin «uşaqlı ailələrə dövlət yardımını gücləndirmək haqqında» 1981-ci il 31 mart tarixli qərarı ilə ümumi iş stajı bir ildən az olmadan, habelə təhsil alan qadınlara uşaq 1 yaşına çatanadək ona xidmət etmək üçün əmək haqqının müəyyən hissəsi ödənilməklə bir il müddətində məzuniyyət verilməyə başlanmış, tək analara verilən dövlət mükafatının minimum səviyyəsi hər bir uşağa ayda 20 manata qaldırılmış və xəstə uşağa qulluq edilməsinə görə haqqı ödənilən

vaxtın müddəti 14 günədək uzadılmışdır. Beləliklə, 70-80-ci illərdə dövlətimizin həyata keçirdiyi mühüm tədbirlər nəticəsində əhaliyə verilən pensiyaların həcmi 4,4 dəfə, müavinətlərin həcmi isə 3,3 dəfə çoxaldı. Bəhs etdiyimiz illərdə Şuşa rayonunda kolxoz üzvlərinin pensiya məbləği müxtəlif göstəricilər üzrə xeyli artmışdır. Məsələn, təkcə Şuşa rayonunda qocalığa görə pensiya məbləği 1970-ci ildəki 400 min manatdan 1980-ci ildə 608 min manata qalxmışdır. Şuşa rayonu kolxoz üzvlərinin əlilliyə görə pensiya məbləği 1970-ci ildəki 4 mindən 1980-ci ildə 9 minə, xəstəlik və şikəstliyə görə pensiya məbləği 45 mindən 59 minə, iş qabiliyyətini itirdiyinə görə pensiya məbləği 20 mindən 40 minə qalxmışdır [160]. 1970-ci illə müqayisədə Şuşa rayon fəhlələrinin aldıqları pensiya və müavinətlərin məbləği 50 min manatdan 98 min manatadək artmışdı [162]. Ümumiyyətlə, təhlillərdən məlum olur ki, Şuşa rayonunda əhalinin aldığı pensiya məbləği Vilayətin digər rayonlarından təxminən iki dəfə aşağı səviyyədə olmuşdur.

Faktlara və materiallara əsaslanaraq aparılan araşdırmalardan məlum olur ki, əhalinin hər 10 min nəfərinə düşən təqaüdçülərin sayına görə Dağlıq Qarabağ istər ümumrespublika səviyyəsindən (14 faiz), istərsə də Naxçıvan MR ilə müqayisədə (12 faiz) üstün olmuşdur. Ayrılan təqaüdlərin həcmində də bu fərqlər müşahidə edilmişdir. Lakin DQMV XDS «sosial təminat sahəsində səlahiyyətləri»ndən yenə də çox məharətlə istifadə etmişdilər. Yerli və ittifaq əhəmiyyətli təqaüdlər təyin edilərkən bütövlükdə Vilayət ərazisində Dağlıq Qarabağ Sosial Təminat Şöbəsi ikili mövqe tutmuş, faktiki xəstə olan azərbaycanlılar haqqında Tibbi Əmək Ekspertizasının rəyi əksər hallarda qərəzli olmuşdu. Təqaüd dərəcəsinə gəldikdə isə ən ağır xəstə azərbaycanlı III dərəcəyə, milliyyətcə erməni olanlar isə yüngül xəstə olsa belə I və ya II dərəcəyə aid müəyyən edilirdi. Yaşa görə təminatlarda isə, eyni müəssisədə işləyən erməni ilə azərbaycanlının arasında böyük fərqlər müşahidə edilmişdir. Ümumiyyətlə, Şuşa rayonunun azərbaycanlı əhalisi digər sahələrdə olduğu kimi sosial-təminat sahəsində də erməni millətçiləri

tərəfindən həmişə sıxışdırılmış və erməni xisləti burada da özünü göstərmişdir.

Bəhs etdiyimiz illərdə Şuşa rayonunda əhalinin maddi rifah halının yaxşılaşdırılmasını rayon sakinlərinin əmanət kassalarında saxlanılan pul əmanətlərinin məbləğindən, əmanətlərin və əmanət kassalarının sayının artmasından da görmək olar.

| **İşin məzmunu** | **İllər** | | | |
|---|---|---|---|---|
| | **1966-1970** | **1971-1975** | **1976-1980** | **1985** |
| Əmanət kassalarının sayı | 8 | 11 | 12 | 13 |
| Əmanətçilərin sayı (min) | 6 | 8 | 11 | 14 |
| Kassalarda saxlanılan əmanətlərin məbləği (min manatla) | 9062 | 9522 | 9683 | 2546 |
| Orta hesabla hər bir əmanətçiyə düşən məbləğ (manatla) | 150 | 122 | 120 | 60 |

Qeyd edək ki, təkcə 1975-ci ildə Vilayətdə 100 əmanət kassası fəaliyyət göstərdi ki, buradakı əmanətçilərin sayı 66 min nəfərə, saxlanılan pulun məbləği 64751 min manata, hər əmanətçiyə düşən pulun məbləği isə 991 manata çatmışdı. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1966-1980-ci illərdə DQMV-nin Xankəndi, Ağdərə, Hadrut və Xocavənd rayonunda əmanət kassalarında saxlanılan əmanətin dəfələrlə artırılmasına baxmayaraq azərbaycanlıların daha çox yaşadığı Şuşa rayonunda bu göstərici aşağı düşmüşdü. Məsələn həmin illərdə Xankəndi rayonunda əhalinin saxladığı əmanətlər 9 milyondan 14 milyona qalxmışdırsa, Şuşa rayonunda 9 milyon manatdan 2,5 milyon manata enmişdir. Bu faktın özü Dağlıq Qarabağda yaşayan azərbaycanlılara ögey münasibət göstərilməsini və

onların sosial vəziyyətinin aşağı olmasını göstərir [167]. Eyni zamanda, araşdırmalardan məlum olur ki, Vilayətin Xankəndi, Hadrut, Xocavənd, Ağdərə rayonlarından azərbaycanlılar yaşayan kəndlərin yalnız birində əmanət kassası var idi.

1970-1985-ci illərdə Azərbaycan hökuməti Şuşa rayonunda həyata keçirdiyi mühüm tədbirlərdən biri də, burada yaşayan əhalinin istehlak tələbatı ilə təklif arasında uyğunluq yaratmaq, əhalinin ərzaq və qeyri-ərzaq mallarına olan tələbatı tam ödəməkdən ibarət olmuşdur. Şuşada əhalinin alıcılıq qabiliyyətinin artması istehlak malları istehsalının, ticarət və ictimai iaşə xidmətlərinin nisbətən inkişaf etməsi rayonda mal dövriyyəsinin çoxalmasına səbəb olmuşdur. 1971-1981-ci illərdə Azərbaycan hökumətinin ayırdığı xüsusi vəsait hesabına Şuşa rayonu ərazisində 5 yeni ticarət müəssisəsi 5 yeməkxana və restoran, 2 qəlyanaltı və bufet, 7 ictimai iaşə müəssisəsi, 5 xırda satış müəssisəsi, 8 çadır ticarət köşkü tikilib rayon əhalisinin istifadəsinə verildi. Bəhs edilən dövrdə Şuşa rayonunda ticarət müəssisəsinin sayı 20-dən, 25-ə, mağazaların sayı yeməkxanaların və restoranların sayı 18-dən 23-ə, qəlyanaltı və bufetlərin sayı 28-dən 30-a, ictimai iaşə müəssisəsi 20-dən 27-yə, ixtisaslaşmış mağazalar 2-dən 3-ə, xırda satış mağazası 65-dən 72-ə, gündəlik tələbat mağazaları 20-dən 25-ə, digər satış mağazaları 65-dən 72-yə, çadır ticarət köşkləri 32-dən 43-ə çatdı.

1971-1985-ci illərdə Şuşa rayonunda dövlət və kooperativ ticarətində, ictimai iaşə daxil olmaqla, pərakəndə mal dövriyyəsi 4 milyon manatdan 10 milyon manata qalxmışdır. Həmin illərdə Şuşa rayonunda ticarət və əmtəə dövriyyəsinin məbləği 2 milyon manatdan 3 milyon manata çatdı. 1970-1985-ci illərdə Şuşa rayonunda əhaliyə hərtərəfli mədəni xidmət göstərən yaxşı təşkil edilmiş ticarət müəssisələri olmasına baxmayaraq, hələ də bu sahədə nöqsanlar özünü göstərirdi. Belə ki, Vilayətin ticarət təşkilatları tərəfindən malların rayonlar üzrə düzgün bölüşdürülməməsi, azərbaycanlılar yaşayan kəndlərdə ticarət mallarının çatışmaması, həmin kəndlərdə ticarət və iaşə xidmət səviyyəsinin xeyli aşağı olması faktları aşkar edilmişdir. Bölgənin azərbaycanlılar yaşayan kəndlərə Vilayətin mərkəzi ticarət orqanları

tərəfindən göndərilən malların əksəriyyəti keyfiyyətsiz olduğundan əhalinin tələbatını ödəmirdi. Dağlıq Qarabağ tabeli ticarət və iaşə müəssisə və təşkilatlarının mal dövriyyəsinin nomenklaturasında ikili mövqe aşkarlanmışdır. Vilayətin azərbaycanlılar yaşayan kəndlərindəki mövcud mağazalar soyuducu və digər texnoloji avadanlıqlarla təchiz edilmirdi. Dağlıq Qarabağ ticarət idarəsi, rayon partiya və sovet təşkilatları göstərilən nöqsanları aradan qaldırmağa cəhd etməmiş və təsirli tədbir görməmişdir.

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1970-1980-ci illərdə istər adambaşına düşən pərakəndə ticarət dövriyyəsinin həcminə, istər ticarət müəssisələrinin miqdarına, istərsə də adambaşına düşən ticarət mağazalarının sahəsinə görə Dağlıq Qarabağdakı ümumi göstəricilər həm ümumrespublika səviyyəsində, həm də Naxçıvan və digər rayonlarla müqayisədə üstün olmuşdur. Məsələn, təkcə 1981-ci ildə 10 min nəfər hesabı ilə pərakəndə ticarət müəssisələrinin miqdarı ümumrespublika üzrə 28, Naxçıvan MR-da 24, Vilayətdə 40 idi. 10 min nəfər hesabı ilə mağazaların ticarət sahəsi (kvadrat kilometrlə), ümumrespublika üzrə 1127, Naxçıvan MR 1319, Dağlıq Qarabağda 1730 kvadrat kilometr olmuşdur. Adambaşına düşən pərakəndə ticarət dövriyyəsinin həcmi ümumrespublika üzrə 617 manat, Naxçıvan MR 420 manat, DQMV-də 642 manat məbləğində idi [586, s.126]. Başqa dövrlərdə də, bu cür fərqlər müşahidə edilmişdir. Bütün bunlar isə Azərbaycan dövlətinin bölgəyə göstərdiyi dərin qayğının nəticəsi idi.

Şuşa rayonunun əhalisinin mədəni-məişət şəraitinin yaxşılaşmasında ictimai-iaşə müəssisələri böyük əhəmiyyət kəsb edirdi. 1970-1980-cı illərdə Şuşa rayonunda yeni yeməkxana, restoran, mətbəx-fabrik, qəlyanaltı və bufetlər yaradılmasına xüsusi diqqət yetirilmişdir. Təkcə 1970-1985-ci illərdə Şuşa rayonunda 2 yeməkxana, 3 çayxana və bufet tikilmişdir [268, s.143]. Bu dövrdə mövcud obyektlər yenidən qurulmuş və əsaslı təmir edilmişdir. İctimai-iaşə müəssisələrinin yerləşdirilməsi prosesini nəzərdən keçirilərkən məlum olur ki, burada da, erməni rəhbərliyi qərəzli mövqe tutmuşlar. Məsələn, 1970-1985-ci illərdə Xankəndi, Xocavənd, Hadrut, Ağdərə rayonlarında icti-

mai-iaşə xidməti müəssisələrinin yerləşdirilməsi və xidmət həcmi 2,5 dəfədən çox artdığı halda Şuşa rayonunda bu artım 1,9 dəfəyə çatmışdır.

1970-1985-ci illərdə Şuşa rayonunda Azərbaycan hökumətinin dərin qayğısı nəticəsində əhaliyə ictimai iaşə və mədəni məişət xidməti dinamik inkişaf etmişdir. Həmin inkişafı aşağıdakı cədvəldə aydın görmək olar:

| **Göstəricilər** | **İllər** | | | |
|---|---|---|---|---|
| | **1970** | **1975** | **1980** | **1985** |
| Əhaliyə xidmət emalatxanaları və atelyelərin sayı | 40 | 55 | 65 | 75 |
| İctimai iaşə xidməti (min manat) | 300 | 460 | 2018 | 2596 |
| Əhaliyə məişət xidməti müəssisələrində işləyənlərin sayı | 110 | 120 | 165 | 180 |

Aparılın tədqiqatlara əsasən müəyyən edilmişdir ki, Vilayətdə hər sakinə düşən məişət xidmətlərinin həcmi 1966-1970-ci illərdə 12 manat olmuşdursa, 1971-1975-ci illərdə bu göstərici artaraq 16 manata, 1976-1980-ci illərdə 35 manata çatmışdır. Bu göstəricilər ümumrespublika səviyyəsindən xeyli üstündür. Belə ki, hər bir sakinə düşən məişət xidmətinin həcmi 1981-1986-cı illərdə ümumrespublika üzrə 25 manat olmuşdursa, Naxçıvan MR-da 18 manat, Vilayətdə isə 35 manata çatmışdır. 10 min nəfərə düşən məişət xidməti emalatxanalarının miqdarına gəldikdə isə ümumrespublika üzrə bu göstərici 1981-1986-cı illərdə 17 emalatxana, Naxçıvan MR-da 21 emalatxana, DQMV-də isə 30 emalatxana düşürdü [157].

1970-1985-ci illərdə Şuşa rayonunda ticarət, ictimai iaşə və məişət xidməti müəssisələrində işləyən ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı xeyli artmışdır. Belə ki, 1970-ci ildə onların sayı 40 nəfər idisə, 1975-ci ildə 120 nəfərə (bundan 11 nəfəri ali təhsilli idi), 1980-ci ildə 165 nəfərə, 1985-ci ildə 180 nəfərə çatmışdır [172].

Şuşa rayon ticarət müəssisələrində çalışanların təxminən 60 faizini qadınlar təşkil edirdi. İctimai iaşə və ticarət müəssisələrində işləyənlərin orta aylıq əmək haqqı 1965-ci ildəki 67 manata qarşı, 1975-ci ildə 87 manata qalxmışdır. Dağlıq Qarabağ rəhbərliyinin ayrı seçicilik siyasəti burada da özünü göstərmişdir. Aparılan araşdırmalardan aydın olmuşdur ki, bütövlükdə Vilayət üzrə ticarət müəssisələrində çalışanların demək olar ki, 90 faizini ermənilər təşkil etmişlər [173].

Azərbaycan hökuməti Şuşa əhalisinin ərzaq və qeyri ərzaq məhsullarına olan tələbatını ödəmək üçün bütün imkanlardan istifadə edirdi. 1970-1985-ci illərdə Şuşa rayonunda qeyri ərzaq mallarının satışı daha sürətlə aparılmışdır. 1965-ci ildəki 500 min manata qarşı 1975-ci ildə 1,5 milyon manata çatmışdır. Başqa sözlə desək sənaye mallarının ümumi mal dövriyyəsində həcmi 1965-ci ildə 40 faiz təşkil edirdisə 1975-ci ildə 60 faizə qalxmışdı [170].

1980-ci il mənbələrinə əsasən Şuşa rayonunda hər 100 ailədən 60-da radioqəbuledici, 70 televizor, 60 soyuducu, 40 paltaryuyan maşın, 25 tozsoran, 45 tikiş maşını, 7 minik avtomobili var idi [178]. 1970-1980-ci illərdə ərzaq və sənaye məhsullarının qiymətlərində bahalanma halları müşahidə edilmişdi. O dövrdə Dağlıq Qarabağla əlaqədə olanlar yəqin ki, mənim dediyim bu cümlə ilə razılaşarlar; 80-ci illərdə Azərbaycanda strateji məhsullar sırasına daxil olan ət, yağ, şəkər və digər məhsullar heç vaxt Vilayətin ticarət köşklərindən azalmırdı. Bu isə Azərbaycan hökumətinin bölgənin iqtisadiyyatının həmişə diqqət mərkəzində saxlamasını və hər cür şəraitlə təmin edilməsinin əsas göstəricisidir. Dövlətimiz Vilayət əhalisinin həyat səviyyəsini yüksəltmək üçün, onların artan tələbatını ödəmək baxımından bazarları müxtəlif məhsullarla doldururdu. Hətta 1986-cı ildə Dağlıq Qarabağda mal dövriyyəsinin həcmi 1966-cı illə müqayisədə 5,2 dəfə artmışdır. Halbuki bu rəqəm ümumrespublika üzrə 4,6 dəfəyə bərabər idi. Göstərilən dövr ərzində adambaşına düşən mal dövriyyəsinin inkişaf surəti ümumrespublika üzrə 2,7 dəfə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 3,8 dəfə təşkil etmişdir. Həmin illərdə mağazalarda

hər 10 min nəfərə düşən ticarət sahəsi Azərbaycan üzrə 1,9 dəfə, onun tərkib hissəsi olan DQMV üzrə 2,7 dəfə artmışdır. Həmçinin 1986-cı ildə ictimai iaşə müəssisələrində hər 10 min nəfərə düşən yerlərin sayı respublikamızda 731-ə düşdüyü halda, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 809-a çatmışdır [180].

1970-1985-ci illərdə Azərbaycan SSR-in Şuşa rayonun qəsəbə və kəndlərində mənzil tikintisi sürətlə artmışdır. İlk növbədə Azərbaycan hökuməti Şuşa rayonunda mənzil tikintisi kommunal təsərrüfatların inkişafı və abadlıq işləri, mənzil kommunal təsərrüfatının kompleks inkişafı üçün kapital qoyuluşunun həcmini artırdı. Bu məqsədlə 1971-1975-ci illərdə 13 milyon manat, 1976-1980-ci illərdə 15 milyon manat, 1981-1985-ci illərdə isə 151 milyon manat vəsait ayrılmışdır. Ayrılan vəsaitin 27 milyonu tikinti quraşdırma işlərinə, 15 milyonu isə kommunal təsərrüfatı, əsaslı təmir, müxtəlif mənzil qurğuları və mexanizmlərin istismarına, yaşayış məntəqələrinin abadlaşdırılmasına və sair ayrılmışdır. Mənzil tikintisinin sahəsi yüksələn xətlə xarakterizə olunmuşdur. 1970-1985-ci illərdə bütün maliyyə mənbələri hesabına Şuşa rayonunda ümumi sahəsi 100 min kvadrat metr olan yeni abad mənzillər istifadəyə verilmişdir [187]. Bəhs etdiyimiz illərdə Şuşa rayonunda mənzil tikintisinin necə dinamik inkişaf etdiyini aşağıdakı cədvəldən də aydın görmək olar (min kvadrat hesabı ilə).

| **İllər** | **Cəmi tikilmişdir** | **O cümlədən** | | |
|---|---|---|---|---|
| | | **Dövlət və kooperativ müəssisələri və təşkilatları tikililəri** | **Dövlət krediti ilə tikilən şəxsi mənzillər** | **Kəndlərdə tikilənlər** |
| 1966-1970 | 26 | 11 | 17 | 1 |
| 1971-1975 | 26 | 14 | 15 | 1 |
| 1976-1980 | 25 | 15 | 12 | 2 |
| 1981-1985 | 25 | 15 | 16 | 1 |

Apardığımız müqayisəli təhlillər əsasında məlum olur ki, 1960-1980-ci illər ərzində Şuşa rayonundakı mənzil tikintisi Vilayətin digər rayonlardakından 2 dəfə az olmuşdur. Azərbaycanın Şuşa rayonunda aparılan tikinti işlərində yerli xammal materiallarından da istifadə olunurdu. Azərbaycan hökumətinin ayırdığı vəsait hesabına rayonda tikinti sənayesi sürətlə inkişaf etmişdir. Aparılan hesablamalar nəticəsində məlum olur ki, respublikamız üzrə üzlük daşın 15 faizi, tikinti daşının 30 faizi, mişar daşının 10 faizi, sənaye əhəmiyyətli gilin 10 faizi, Yuxarı Qarabağ iqtisad rayonun payına düşürdü. Bu sahədə Xankəndi tikinti materialları kombinatı, qum-çınqıl, daş, mərmər karxanaları, kərpic zavodu böyük rol oynamışdır. Xankəndi, Əsgəran, Xocavənd, Xocalı meşə və ağac emalı kombinatları da Şuşa rayonunda tikinti abadlıq işlərinin inkişafını sürətləndirmişdir. 1960-1980-ci illərdə Şuşa rayonunun fəhlə, qulluqçu və kənd ziyalıları, Azərbaycan hökumətinin yaxından köməyi ilə 100 min kvadrat metr sahəsi olan 140-dan artıq fərdi mənzil tikmişdir. Həmin mənzillər yeni sitildə tikilirdi və 2-3 mərtəbədən ibarət idi. Təkcə, 1976-1980-ci illərdə 10 min nəfər fəhlə və qulluqçu yeni mənzillərə köçmüş və onların sosial vəziyyəti xeyli yaxşılaşmışdır. 1970-1985-ci illərdə Şuşa rayonunda yeni qəsəbələr salınmış, çox mərtəbəli yaşayış binaları tikilmiş, kənd yaşayış məntəqələri yenidən qurulub şəhər tipli qəsəbəyə çevrilmişdir. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1970-1985-ci illərdə Şuşa rayonunda mənzil tikinti sahəsində əldə edilən nailiyyətlər Vilayətin bütün rayonlarından aşağıda dayanmışdır. Lakin Vilayətin mənzil tikintisi sahəsində əldə etdiyi nailiyyətlər ümumrespublika səviyyəsini üstələmişdir. Ümumiyyətlə Vilayətdə bir sakinin mənzillə təminatı 14,6 kvadrat metrə çatdığı halda, respublikamız üzrə bu göstərici 10,0 kvadrat metr, Naxçıvan MR-da isə 9,5 kv. metr olmuşdur. Bunlardan əlavə, şəxsi mülkiyyətdə olan mənzil fondunun abadlıq dərəcəsi ümumrespublika üzrə 137,8 faiz, Azərbaycanın Naxçıvan MR-da 107,4 faiz, Vilayətdə isə 167,5 faiz yerinə yetirilmişdir [195].

1961-1986-cı illərdə Şuşa rayonunun bütün mənbələr hesabına 175 min kvadrat metr mənzil sahəsi, o cümlədən, 1985-1986-cı illərdə 15 min kvadrat metr mənzil sahəsi tikilmişdir. Nəticədə 1700 nəfərdən çox adam öz mənzil şəraitini yaxşılaşdırmışdır. Apardığımız tədqiqatlardan məlum olur ki, bəhs etdiyimiz dövrdə bir sakinə düşən mənzil sahəsi keçmiş SSRİ məkanında 14,9 kvadrat metr, Ermənistan SSR-də 13,7 kvadrat metr, Azərbaycan SSR-də 10,9 kvadrat metr, Bakı şəhərində 11,7 kvadrat metr, Naxçıvan MR-da 9,5 kvadrat metr olmuşdursa, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində bu göstərici 15 kvadrat metrə çatmışdır. Fərdi mənzil tikintisi üzərində qoyulan məhdudlaşmalar aradan götürülmüş, kreditləşmə üçün əlverişli şərait yaradılmış və tikinti işi sürətlənmişdir [205].

1970-1985-ci illərdə Şuşa rayonunda əhalinin mədəni-məişət şəraitinin yaxşılaşmasını burada qazlaşdırma işinin həyata keçirilməsində görmək olar. 1978-ci il dekabrın 30-da Yevlax-Xankəndi qaz kəmərinin açılışı keçirildi. 107 km uzunluğunda olan bu kəmərin bir hissəsi dağlarda, çətin şəraitdə çəkilmişdi. 1970-ci illərin sonlarında isə Yevlax, Xankəndi – qaz kəməri çəkilib istifadəyə verildi. Bu qaz kəmərlərinin çəkilişi Şuşa rayon əhalisi üçün böyük əhəmiyyətə malik hadisə hesab olunur. Çünki bu çəkilişdən sonra rayon ərazisinin qazlaşdırılması işi sürətləndirilmişdir. 1971-1975-ci illərdə rayon ərazisində 100 kilometr məsafəyə qaz xətti çəkilmişdirsə, 1976-1980-ci illərdə bu göstərici 2 dəfə artmışdır [208]. 1981-ci ildə Şuşada 3 min mənzil qazla təmin edilmişdir. 80-ci illərdə Şuşa rayonunda qaz çəkilişi 70-ci illərlə müqayisədə 2 dəfə, artmışdı. Artıq 80-ci illərin əvvəllərində Şuşada mənzillərin qazlaşdırılması tapşırıqları yerinə yetirilmişdir. Burada qazlaşdırılmış mənzillərin sayı 1970-1985-ci illər ərzində 4 dəfə artmışdır [210]. Artıq 1986-cı ildə Dağlıq Qarabağ ərazisi 100 faiz qazla təmin edilmişdi. Halbuki, ümumrespublikamız üzrə bu göstərici 96,2 faizə bərabər idi. Şuşa rayonunu içməli su ilə təchizatı məsələsi 1970-ci illərdə tamamilə həyata keçirilmişdir. Bəhs etdiyimiz illərdə, rayonda köhnə su xətləri təmir edilmiş, yeni kəmərlər işə qoşulmuş və su vurmaq üçün mühərriklərlə təmin edilmişdir.

1985-ci ildə Şuşada küçə su xətlərinin şəbəkəsinin uzunluğu 325 kilometrə çatmışdır [211].

Ümumilikdə isə XX yüzilliyin 80-ci illərində Vilayət əhalisinin mənzillərinin su kəməri ilə təchizi ümumrespublika səviyyəsindən 2 dəfə yüksəkdə dayanmışdır. 1986-cı il məlumatına görə su kəmərinin abadlaşdırma faizi ümumrespublika üzrə 30,5 faiz, Naxçıvan MR-da 7,4 faiz idisə, Dağlıq Qarabağda 45,5 faizə çatmışdı [213]. Şəhərlərin kanalizasiya ilə təminatı işində də DQMV-i ümumrespublika səviyyəsini 2 dəfə üstələmişdir. 1970-1985-ci illərdə Azərbaycan hökumətinin hər il ardıcıl olaraq Şuşa rayonunun abadlaşması, küçə və parkların salınması, yenidən qurulması, kommunal xidmət müəssisələrinin təmiri və yeniləşməsi üçün bütün lazımı tədbirləri həyata keçirirdi. 70-ci illərdə rayonda təkcə yaşıllaşdırma işləri, parkların salınması, işıq və istilik xətlərinin çəkilişi üçün Azərbaycan hökuməti tərəfindən 500 min manat vəsait sərf edilmişdir [219]. Bütün yuxarıda göstərilən mənzil tikintisi ilə bağlı müvəffəqiyyətlərlə yanaşı bəhs edilən illərdə bölgədə bəzi nöqsanlı cəhətlərdə aşkar edilmişdir. Əvvəlki illərdə olduğu kimi bəhs olunan dövrdə də Şuşa rayonun kəndlərində hələ də mənzil problemi kəskin olaraq qalırdı. Mərkəzə isə erməni rəhbərliyi məlumat vermişdir ki, mənzil problemi tam həll edilmişdir. Az-çox Şuşanın azərbaycanlılar yaşayan kəndlərində aparılan tikinti işlərinin keyfiyyəti çox aşağı səviyyədə idi. Bütövlükdə Vilayətin azərbaycanlılar yaşayan kəndlərin çoxunda heç bir məişət xidməti obyekti yox idi. Mövcud obyektlərdə isə xidmət keyfiyyəti aşağı səviyyədə fəaliyyət göstərirdi. Ermənilər yaşayan bütün kəndlər qazlaşdırıldığı halda, azərbaycanlıların yaşadığı kəndlərinin əksəriyyətində qaz hələ də yox dərəcəsində idi. Vilayət rəhbərliyinin mərkəzə verilən məlumatda isə həmin kəndlər «qazlaşdırılmışdı».

1970-1985-ci illərdə Azərbaycan hökuməti bütövlükdə Vilayətdə, o cümlədən Şuşa rayonunda yol təsərrüfatı, nəqliyyat, rabitə sahəsində də mühüm tədbirlər həyata keçirdi. İlk növbədə təsərrüfat daxili, vilayət əhəmiyyətli, ümumdövlət və respublika əhəmiyyətli avtomobil yollarının şəbəkəsinin inkişafı, yeni

yolların salınması, təmiri və saxlanılması üçün Azərbaycan hökuməti tərəfindən qoyulan vəsaitin miqdarı ilbəil artırıldı. Belə ki, 1965-ci ildəki 65 min manata qarşı, 1975-ci ildə 130 min, 1980-ci ildə 200 min, 1986-cı ildə 325 min manat vəsait ayrıldı. Ayrılan vəsait hesabına Şuşa rayonuna yeni asfalt yollar çəkildi. Məsələn, 1966-cı ildə Şuşanın şəhər və kəndlərində 65 kilometr yol çəkilmişdirsə, 1970-ci ildə 85 kilometr, 1975-ci ildə 80 kilometr, 1980-ci ildə 50 kilometr, 1985-ci ildə isə 125 kilometr yol çəkildi. Eyni zamanda, şose yolları, yol hərəkətini tənzim edən texniki vasitələr, rabitə vasitələri ilə təchiz edildi [225]. Lakin təəssüflə qeyd etməliyik ki, bəhs etdiyimiz dövrdə, DQMV XDS yol tikinti təmir və istismar müəssisələri yerli əhəmiyyətli yolların təmiri və tikintisi siyahısını tərtib edərkən Vilayətin azərbaycanlılar yaşayan kəndlərinin əksəriyyətini «yaddan çıxarmışlar». Bu proses əvvəlki dövrlərdə olan proseslərin ənənəvi davamı idi.

Bəhs etdiyimiz illərdə, Şuşa rayonunda Avtomobil Nəqliyyatı vasitəsilə yük daşınmasının həcmi ilbəil artmışdı. Belə ki, 1965-ci ildə 500 min ton yük daşınmışdırsa, 1970-ci ildə bu rəqəm 75 min tona, 1980-ci ildə 346 min tona, 1985-ci ildə 410 min tona çatmışdır. Yük dövriyyəsinin həcmində də, 1970-1985-ci illərdə 3 dəfə artım müşahidə edilmişdir. Sərnişin daşıması isə 1965-ci ildəki 313 min nəfərə qarşı, 1970-ci ildə 445 min, 1975-ci ildə 500 min nəfərə, 1980-ci ildə 1 milyon, 1985-ci ildə 1,5 milyon nəfərə çatmışdır [232].

Azərbaycan hökuməti 1976-1980-ci illərdə Xankəndi Avtonəqliyyat Birliyinə 363 ədəd maşın və xeyli maşın hissələri vermişdi. Şuşa ərazisində yeni yük avtomobilləri parkı, taksi parkları inşa edildi. Yeri gəlmişkən onu da qeyd edək ki, 1985-ci illərdə Şuşa rayonunda yük avtomobilləri parkı iki dəfə artmışdır. Ümumrespublika səviyyəsində isə bu göstərici 1,7 dəfəyə bərabər idi. Avtomobil parklarının artımı ümumrespublika üzrə 1,7 dəfə olmuşdursa, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 2,5 dəfə artmışdı [239]. Bəhs etdiyimiz illərdə avtonəqliyyat istehsalat birliyi, onun tabeliyində olan, təsərrüfatlar plandan əlavə 30 min ton yük və 380 min sərnişin daşımışdır. Xalq

təsərrüfatının ardıcıl inkişafı, boşdayanma hallarına yol verilməməsi ilə ardıcıl mədəni xidmət nəticəsində rayonda avtomobil nəqliyyatı daha da inkişaf edirdi. Vilayətdə avtomobil nəqliyyatının inkişaf etməsini onda görmək olar ki Azərbaycanın hər 1000 sakininə 17,5 avtomobil düşdüyü halda DQMV-də 26 avtomobil, Naxçıvan MR-da isə 17 avtomobil düşürdü. Yeri gəlmişkən onu da qeyd edək ki, nəqliyyat işçilərinin sayı ilbəil artırdı. 1975-ci ildə Şuşa rayonunda nəqliyyat işçilərinin sayı 150 nəfər, 1970-ci ildə 225 nəfər olmuşdursa, 1985-ci ildə 350 nəfərə çatmışdır. 1970-1985-ci illərdə avtomobil nəqliyyatı ilə yüklərin daşınması həcmi ümumrespublika üzrə 3,6 dəfə artdığı halda, Vilayətdə 4,8 dəfə artmışdır [246]. Bundan əlavə sərnişinlərin avtomobillə daşınması həcmi respublikamızda 2,2 dəfə, Vilayətdə 2,6 dəfə, taksilərlə daşınma respublikamızda 2,4 dəfə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 4,2 dəfə artmışdır. Aparılan araşdırmalardan məlum olur ki, Vilayətdə avtobus marşrutları sıxlığı orta respublika səviyyəsində 2,6 dəfə çox olmuşdur. DQMV-də avtobus marşrutlarının uzunluğu 1970-1985-ci illərdə 8 faiz artdığı halda, Naxçıvan MR-da bu göstərici 4,5 faiz, ümumrespublika səviyyəsində isə 4.8 faiz artmışdır [248].

1970-1985-ci illərdə Azərbaycan hökuməti Şuşa rayonunda rabitənin inkişafı üçün mühüm tədbirlər həyata keçirdi. Rabitə müəssisələrini sayını artırmaq, rabitə müəssisələri tərəfindən əhaliyə xidmətin yaxşılaşdırılması üçün telefon, teleqraf və poçt rabitəsinin təmiri, mühafizəsi və yenilərinin təşkili məqsədi ilə Azərbaycan hökuməti əvvəlki dövrlərlə müqayisədə vəsaitin miqdarını artırdı. 1970-1975-ci illərdə Bakıdan Şuşaya 6 ali və orta ixtisas təhsilli mütəxəssislər göndərildi. Təkcə 5 il ərzində (1970-1975) Şuşa rayonunda rabitə işçilərinin sayı artaraq 74 nəfərdən 136 nəfərə çatdı, 1985-ci ildə isə 175 nəfəri keçdi.

Azərbaycan hökuməti Şuşa rayonunda rabitənin inkişafı üçün 1961-1975-ci illər ərzində 75 min manat uzunmüddətli kredit ayırdı. 1970-1982-ci illərdə Şuşaya 77 telefon aparatı verildi. 1970-1986-cı illərdə Şuşa rayonunun rabitə sahəsi üzrə əsas fondların və vəsait qoyuluşun inkişaf surəti respublikamız üzrə olduğundan iki dəfə çox artmışdır. 1980-ci illərin ortalarında

adambaşına düşən rabitə məhsulların həcmi, ümumrespublika üzrə 21 manat, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində o cümlədən Şuşa rayonunda 29 manat təşkil etmişdir [257].

1970-1985-ci illərdə dövlətimizin ayırdığı xüsusi vəsait hesabına Şuşa rayonunda yeni rabitə xidməti müəssisəsi tikilib istifadəyə verildi. Həmçinin həmin yeni yaradılan müəssisə lazımi avadanlıqlarla təmin edildi. Bəhs etdiyimiz illərdə Şuşa rayonunun poçt, teleqraf müəssisələrinin sayı 9-dan 10-a çatdı. 1970-1985-ci illərdə Şuşa əhalisinə 744 telefon xətti çəkildi. Telefon aparatlarının sayı təxminən iki dəfə artaraq 1448-ə çatdı. Aparılan hesablamalara görə 1985-ci ildə Dağlıq Qarabağ bölgəsində, o cümlədən Şuşa rayonunda hər 100 nəfərinə 12 telefon düşürdü. Ümumrespublika səviyyəsində bu göstərici 8 bərabər idi. Həmçinin Vilayətdə ailələrin mənzil telefonları ilə təminatı 42,4 faizə çatmışdı. Naxçıvan MR-da bu göstərici 30,1 faizə, ümumrespublika səviyyəsində isə 31,1 faizə bərabər idi. 1970-1985-ci illərdə Şuşa rayonunda şəhərlərarası telefon danışıqlarının sayı 32 mindən 66 minə çatmışdı. Şəhərlərarası telefon rabitələrinin inkişafı nəticəsində adambaşına düşən şəhərlərarası telefon danışıqlarının sayı respublikamız üzrə təxminən 5 faiz, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi üzrə 8 faiz təşkil etmişdir [259].

1970-1985-ci illərdə Şuşa rayonunda radioqəbuledici nöqtələrin sayında da ciddi irəliləmələr mövcud olmuşdur. Şuşa rayonunda radioqəbuledici nöqtələrin sayı 1970-ci ildə 1608, 1975-ci ildə 2008, 1980-ci ildə 2741, 1985-ci ildə isə artaraq 3206-a çatmışdır [260].

Radio-rele xəttinin çəkilişi ilbəil genişləndirilmişdi. Bakı-Şuşa və Şuşa-Naxçıvan radio-tele xəttinin çəkilişi Şuşa rayonunda radiolaşmanın inkişafına güclü təkan verdi. 1980-ci illərdə Xankəndində televiziya studiyasının istifadəyə verilməsi Şuşa rayon əhalisinin Moskva və respublika televiziya verilişlərinə baxmağa imkan yaratdı. Şuşa rayonunun 1965-ci ildə 1,5 min televizor var idisə, 1980-ci ildə onların sayı iki dəfədən çox artaraq 2,5 minə, 1985-ci ildə 4,5 minə çatdı.

təsərrüfatının ardıcıl inkişafı, boşdayanma hallarına yol verilməməsi ilə ardıcıl mədəni xidmət nəticəsində rayonda avtomobil nəqliyyatı daha da inkişaf edirdi. Vilayətdə avtomobil nəqliyyatının inkişaf etməsini onda görmək olar ki Azərbaycanın hər 1000 sakininə 17,5 avtomobil düşdüyü halda DQMV-də 26 avtomobil, Naxçıvan MR-da isə 17 avtomobil düşürdü. Yeri gəlmişkən onu da qeyd edək ki, nəqliyyat işçilərinin sayı ilbəil artırdı. 1975-ci ildə Şuşa rayonunda nəqliyyat işçilərinin sayı 150 nəfər, 1970-ci ildə 225 nəfər olmuşdursa, 1985-ci ildə 350 nəfərə çatmışdır. 1970-1985-ci illərdə avtomobil nəqliyyatı ilə yüklərin daşınması həcmi ümumrespublika üzrə 3,6 dəfə artdığı halda, Vilayətdə 4,8 dəfə artmışdır [246]. Bundan əlavə sərnişinlərin avtomobillə daşınması həcmi respublikamızda 2,2 dəfə, Vilayətdə 2,6 dəfə, taksilərlə daşınma respublikamızda 2,4 dəfə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 4,2 dəfə artmışdır. Aparılan araşdırmalardan məlum olur ki, Vilayətdə avtobus marşrutları sıxlığı orta respublika səviyyəsində 2,6 dəfə çox olmuşdur. DQMV-də avtobus marşrutlarının uzunluğu 1970-1985-ci illərdə 8 faiz artdığı halda, Naxçıvan MR-da bu göstərici 4,5 faiz, ümumrespublika səviyyəsində isə 4.8 faiz artmışdır [248].

1970-1985-ci illərdə Azərbaycan hökuməti Şuşa rayonunda rabitənin inkişafı üçün mühüm tədbirlər həyata keçirdi. Rabitə müəssisələrini sayını artırmaq, rabitə müəssisələri tərəfindən əhaliyə xidmətin yaxşılaşdırılması üçün telefon, teleqraf və poçt rabitəsinin təmiri, mühafizəsi və yenilərinin təşkili məqsədi ilə Azərbaycan hökuməti əvvəlki dövrlərlə müqayisədə vəsaitin miqdarını artırdı. 1970-1975-ci illərdə Bakıdan Şuşaya 6 ali və orta ixtisas təhsilli mütəxəssislər göndərildi. Təkcə 5 il ərzində (1970-1975) Şuşa rayonunda rabitə işçilərinin sayı artaraq 74 nəfərdən 136 nəfərə çatdı, 1985-ci ildə isə 175 nəfəri keçdi.

Azərbaycan hökuməti Şuşa rayonunda rabitənin inkişafı üçün 1961-1975-ci illər ərzində 75 min manat uzunmüddətli kredit ayırdı. 1970-1982-ci illərdə Şuşaya 77 telefon aparatı verildi. 1970-1986-cı illərdə Şuşa rayonunun rabitə sahəsi üzrə əsas fondların və vəsait qoyuluşun inkişaf surəti respublikamız üzrə olduğundan iki dəfə çox artmışdır. 1980-ci illərin ortalarında

adambaşına düşən rabitə məhsulların həcmi, ümumrespublika üzrə 21 manat, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində o cümlədən Şuşa rayonunda 29 manat təşkil etmişdir [257].

1970-1985-ci illərdə dövlətimizin ayırdığı xüsusi vəsait hesabına Şuşa rayonunda yeni rabitə xidməti müəssisəsi tikilib istifadəyə verildi. Həmçinin həmin yeni yaradılan müəssisə lazımi avadanlıqlarla təmin edildi. Bəhs etdiyimiz illərdə Şuşa rayonunun poçt, teleqraf müəssisələrinin sayı 9-dan 10-a çatdı. 1970-1985-ci illərdə Şuşa əhalisinə 744 telefon xətti çəkildi. Telefon aparatlarının sayı təxminən iki dəfə artaraq 1448-ə çatdı. Aparılan hesablamalara görə 1985-ci ildə Dağlıq Qarabağ bölgəsində, o cümlədən Şuşa rayonunda hər 100 nəfərinə 12 telefon düşürdü. Ümumrespublika səviyyəsində bu göstərici 8 bərabər idi. Həmçinin Vilayətdə ailələrin mənzil telefonları ilə təminatı 42,4 faizə çatmışdı. Naxçıvan MR-da bu göstərici 30,1 faizə, ümumrespublika səviyyəsində isə 31,1 faizə bərabər idi. 1970-1985-ci illərdə Şuşa rayonunda şəhərlərarası telefon danışıqlarının sayı 32 mindən 66 minə çatmışdı. Şəhərlərarası telefon rabitələrinin inkişafı nəticəsində adambaşına düşən şəhərlərarası telefon danışıqlarının sayı respublikamız üzrə təxminən 5 faiz, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi üzrə 8 faiz təşkil etmişdir [259].

1970-1985-ci illərdə Şuşa rayonunda radioqəbuledici nöqtələrin sayında da ciddi irəliləmələr mövcud olmuşdur. Şuşa rayonunda radioqəbuledici nöqtələrin sayı 1970-ci ildə 1608, 1975-ci ildə 2008, 1980-ci ildə 2741, 1985-ci ildə isə artaraq 3206-a çatmışdır [260].

Radio-rele xəttinin çəkilişi ilbəil genişləndirilmişdi. Bakı-Şuşa və Şuşa-Naxçıvan radio-tele xəttinin çəkilişi Şuşa rayonunda radiolaşmanın inkişafına güclü təkan verdi. 1980-ci illərdə Xankəndində televiziya studiyasının istifadəyə verilməsi Şuşa rayon əhalisinin Moskva və respublika televiziya verilişlərinə baxmağa imkan yaratdı. Şuşa rayonunun 1965-ci ildə 1,5 min televizor var idisə, 1980-ci ildə onların sayı iki dəfədən çox artaraq 2,5 minə, 1985-ci ildə 4,5 minə çatdı.

Bəhs etdiyimiz dövrdə, bütün DQMV-də o cümlədən Şuşada poçt, teleqraf, radio və başqa rabitə vasitələri yüksək sürətlə inkişaf etmişdir. Azərbaycanlılar yaşayan kəndlərin çoxu müstəsna olmaqla Vilayətin şəhər, qəsəbə və kəndləri başdan-başa radiolaşmış, rabitə vasitələri getdikcə məişətə daha çox nüfuz etmişdir. 1970-ci ildə Şuşa rayon əhalisi poçt rabitəsi vasitəsilə 494 məktub göndərmişdirsə, 1975-ci ildə bu rəqəm 918-ə, 1985-ci ildə isə 993-ə çatmışdır. Bundan əlavə Şuşa rayon poçtundan 1970-ci ildə 1958 qəzet və jurnal alınmışdırsa, 1982-ci ildə qəzet və jurnalların sayı 3 dəfə artaraq 9748-ə çatdı. Bəhs edilən illərdə Şuşa rayonuna poçt vasitəsi ilə pul köçürmələri və təqaüdlərin miqdarı 35 min manatdan 49 min manatadək artmışdır.

Əvvəlki illərdə olduğu kimi 1970-1985-ci illərdə də Azərbaycan hökuməti Şuşa rayonunda əhalinin sağlamlığının qorunması sahəsində mühüm tədbirlər həyata keçirmişdi. Rayonda səhiyyənin maddi-texniki bazasını möhkəmləndirmək, səhiyyə idarəsi şəbəkəsini inkişaf etdirmək və əhalinin cansağlığını qorumaq məqsədilə Azərbaycan hökuməti vəsait qoyuluşunu ilbəil artırdı. 1970-1975-ci illərdə Şuşa rayonunda səhiyyə işinə büdcədən ayrılan vəsaitin həcmi 2 milyon manat, 1976-1980-ci illərdə 2,5 milyon manat, 1981-1985-ci illərdə isə 3 milyon manata çatdı [261].

Ümumiyyətlə, 1960-1980-ci illərdə Şuşanın bütün ictimai fondlarının 28 faizindən çoxu səhiyyə xərcləri təşkil etmişdir. Aparılan araşdırmalardan məlum olur ki, 1970-1985-ci illərdə Şuşa rayon səhiyyə işlərinə ayrılan vəsait Vilayətin rayonlarına ayrılan vəsaitdən 2 dəfə az olmuşdur. Ayrılan vəsait hesabına müalicə-profilaktika müəssisələri xeyli genişləndi. Əhalinin sağlamlığı naminə tibbi yardım gücləndirildi, tibb müəssisələrində həkimlərin və orta tibbi işçilərinin sayı xeyli artdı. Belə ki, bəhs etdiyimiz illərdə Azərbaycan dövləti Şuşa rayonunun 25 ali təhsilli, 80 orta ixtisas təhsilli mütəxəssis göndərdi. Əhaliyə ambulatoriya - poliklinika yardımı göstərən 3 yeni müəssisə tikilib istifadəyə verildi. 1970-1985-ci illərdə Şuşa rayonunda hər cür tibb avadanlıqları ilə təchiz edilmiş, 2 yeni qadın və uşaq

məsləhətxana və poliklinikaları tikildi. Azərbaycan hökuməti tərəfindən Şuşa rayonu səhiyyə idarələri dərman, tibbi məmulatları və avadanlıqlarla təmin edildi. 1970-1985-ci illərdə Şuşa rayonunda səhiyyənin dinamik inkişafını aşağıdakı cədvəldən də görmək olar.

| Göstəricilər | İllər | | | |
|---|---|---|---|---|
| | 1970 | 1975 | 1980 | 1985 |
| Xəstəxanaların sayı | 4 | 5 | 5 | 5 |
| Xəstəxanada çarpayıların sayı | 170 | 180 | 185 | 190 |
| Həkimlərin sayı | 19 | 25 | 39 | 49 |
| Orta ixtisas tibb işçilərinin sayı | 134 | 130 | 240 | 250 |
| Qadın və uşaq məsləhətxana və poliklinikaları | 1 | 2 | 3 | 4 |
| Əhaliyə amblator yardım göstərən poliklinika | 6 | 6 | 6 | 7 |
| Hər 10000 nəfərə düşən həkimlərin sayı | 15 | 21 | 31 | 39 |
| Hər 10000 nəfərə düşən çarpayıların sayı | 94 | 100 | 102 | 101 |

Bəhs edilən dövrdə DQMV-də o cümlədən Şuşa rayonunda yüksək və müasir tipli cihazlarla təchiz edilmiş rentgen kabinələri, fizioterapiya kabineti və laboratoriyaları yaradılmışdır. Azərbaycan hökumətinin dərin qayğısı nəticəsində Şuşa rayonunda müalicə profilaktika idarələrinin sayı 1985-ci ildə 25-ə çatmışdır ki, bundan 5-i stasionar idi. Burada dəri-zöhrəvi xəstəlikləri dispanseri, vərəm və onkoloji dispanserləri, sanitariya maarif evi, rayon sanitariya-epidemioloji stansiyası, qanköçürmə stansiyası digər poliklinika və omblatoriyalar açılmışdı. Bütün bunların nəticəsi idi ki, Şuşa rayonuna yoluxucu-infeksion xəstəliklərin kökü kəsilmiş, dizenteriya və bürüseliyoz xəstəlikləri xeyli azalmışdır. 1970-1985-ci illərdə Vilayət əhalinin xəstəxana çarpayıları ilə təminatı, bütün ixtisaslardan olan tibb işçiləri ilə təminat və başqa sahələrdə də istər ümumrespublika

səviyyəsində, istərsə də Naxçıvan MR ilə müqayisədə üstün olmuşdur [273]. Məsələn, 1985-ci ildə hər 10 min nəfərə düşən çarpayıların sayı Azərbaycan Respublikası üzrə 97,8 ədəd, Naxçıvan MR-də 94,6 ədəd, Vilayətdə 104,6 ədəd olmuşdur. On min nəfər hesabı ilə orta tibb işçiləri ilə təminat ümumrespublika üzrə 93,8 Naxçıvan MR-də 80,1, Dağlıq Qarabağda 126,3 nəfər düşürdü. On min nəfərə düşən ali təhsilli tibb işçiləri Naxçıvan MR-də 26,2 nəfər, DQMV-də 28,9 nəfər düşmüşdü. Bəhs etdiyimiz illərdə, Şuşa rayonunda anaların və uşaqların mühafizəsi, qadınların əmək və məişət şəraitinin yaxşılaşdırılması, uşaqlar və yeniyetmələr arasında sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi sahəsində xeyli işlər görüldü. Aparılan tədqiqatlardan məlum olur ki, Şuşada xalq təsərrüfatının bütün sahələrindən fərqli olaraq səhiyyə işçiləri arasında, qadınlar 81 faiz təşkil edirdi. 1975-ci il məlumatına görə, tibb işçilərinin orta aylıq əmək haqqı 87 manat olmuşdur [274].

Səhiyyə sahəsində Dağlıq Qarabağda həyata keçirilən tədbirlər yaxşı hal kimi qiymətləndirilsə də, burada bəzi qüsurlar da özünü göstərirdi. Belə ki, Vilayətin azərbaycanlılar yaşayan kəndlərində səhiyyə işi yarıtmaz vəziyyətdə idi. Həmin kəndlərdən bəzilərində nəinki poliklinika, xəstəxana, heç ilk tibbi yardım xidməti ambulatoriyası belə yox idi. Keçmişdən qalan bir neçə tibbi yardım mərkəzləri baxımsızlıq ucbatından dağılmış, heç bir tibb avadanlığı və dərmanla təmin edilmirdi.

Azərbaycanın Şuşa rayonu zəngin təbiət gözəlliklərinə malikdir. Rayon özünün sağlamlıq ocaqları, istirahət evləri, çoxmərtəbəli binaları, şəfalı yerləri ilə şöhrət qazanmışdı. Burada sanatoriya və istirahət müəssisəsi fəaliyyət göstərirdi. Şuşanın təmiz havası, saf suyu, çıxılmaz meşələri, sərinlik və təravət gətirən dağ çayları və bulaqları burada yaşayan insanların uzun ömür sürməsinə səbəb olmuşdur. 1970-ci ildə Şuşa rayonunun 100 ildən yuxarı ömür sürənlərin sayı 70, 1979-cu ildə isə 80 nəfər olmuşdur ki, bundan 70 faizindən çoxu qadınların üzərinə düşmüşdür. Ümumiyyətlə Şuşa rayonunda orta ömür 75 ildir [278].

1970-1985-ci illərdə Azərbaycan hökuməti Şuşa rayonunda bədən tərbiyə və idmanın maddi-texniki bazasını möhkəm-

ləndirilməsi və inkişafı üçün mühüm tədbirlər həyata keçirdi. Bu məqsədlə 1970-ci ildə 2782 manat, 1975-ci ildə 3443 manat, 1980-ci ildə 10579 manat, 1985-ci ildə 15092 manat əsaslı vəsait ayrıldı [283].

1970-1985-ci illərdə Azərbaycan hökuməti Şuşada 30 ali və orta ixtisas təhsilli bədən tərbiyəsi və idman mütəxəssisi göndərdi. Rayonda idman mütəxəssislərinin sayı 1970-ci ildə 8 nəfər idisə, 1980-ci ildə təxminən 3 dəfə artaraq 29 nəfərə, 1985-ci ildə isə 55 nəfərə çatdı.

Bəhs etdiyimiz illərdə Şuşada 5 stadion, 5 idman meydançası 30 volebol-baskidbol, tennis meydançaları, üzgüçülük hovuzu tikilib idmançıların ixtiyarına verildi. Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, adambaşına düşən stadionların və meydançaların sayına görə Dağlıq Qarabağ bölgəsi istər ümumrespublika səviyyəsində, istərsə də Naxçıvan MR ilə müqayisədə yüksəkdə dayanmışdır. Təkcə stadionların sayını nəzərdən keçirməklə biz deyilənlərin şahidi olarıq. Belə ki, bəhs edilən dövrdə respublikamızda 70 stadion var idi ki, bundan 2-si Şuşa rayonun payına düşürdü. Dövlətimizin gördüyü tədbirlər nəticəsində, Şuşa rayonunda idman kollektivinin sayı 1971-ci ildəki 30-a qarşı, 1975-ci ildə 31 1980-ci ildə 33, 1985-ci ildə 50-yə çatdı. Rayonda idmanla məşğul ilanların sayı isə 5013 nəfərə çatmışdı. 1980-ci illərin sonlarında respublikamızda 8020 bədən tərbiyəsi kollektivi vardır ki, burada 2,3 milyon nəfər idmanla ardıcıl məşğul olurdu [284].

Azərbaycan hökuməti Şuşa rayonundakı bədən tərbiyəsi və idman kollektivlərini lazımi avadanlıq və ləvazimatlarla təmin etmiş, bədən tərbiyəsi və idman məşğələləri üçün maddi-texniki bazanı möhkəmləndirmişdir. Nəticədə, 1971-1985-ci illərdə Şuşa rayonunda dərəcə alan idmançıların sayı 3 dəfədən çox artmışdır. Belə ki, 1971-ci ildə II və III dərəcəli idmançıların sayı 350 nəfər, I dərəcəli idmançıların sayı 4 nəfər olmuşdursa, 1971-ci ildə II və III dərəcəli idmançılar 1401 nəfər, I dərəcəli idmançılar 12 nəfər, 1985-ci ildə isə I dərəcəli idmançıların sayı isə 9 nəfərə, II və III dərəcəli idmançıların sayı 1401 nəfərə çatmışdır. 1980-ci illərin axırlarında Azərbaycanda 4,3 min SSRİ idman ustası

vardı. Aparılan hesablamalara görə, Şuşa rayonunda bədən tərbiyəsi və idmanla məşğul olanların 80 faizi qadınlar təşkil etmişlər. Ümumilikdə isə, 1985-ci ildə əhalinin 20 faizdən çoxu bədən tərbiyəsi və idmanın müxtəlif növləri ilə məşğul olurdular. Bədən tərbiyə və idmanla məşğul olanların orta aylıq əmək haqqı 82 manat idi [285].

Azərbaycan hökuməti Şuşa rayonunda uşaq və gənclərin istirahət və sağlamlığını həmişə diqqət mərkəzində saxlamışdı. Uşaqların yay istirahətlərini səmərəli keçirmək üçün rayon ərazisində pioner düşərgələri yaradıldı və onun maddi-texniki bazası Azərbaycan hökuməti tərəfindən möhkəmləndirildi. Həmin düşərgələrdə uşaqlar yaxşı istirahət etməklə yanaşı idmanla məşğul olur və əməyə hazırlanırdı. Təkcə 1979-1980-ci tədris ilinin yay tətili günlərində Şuşa rayonundan Şuşa istirahət və əmək düşərgəsində 2885 nəfər IX və X sinif şagirdləri istirahət etmişlər. Bəhs olunan dövrdə Dağlıq Qarabağın digər rayonlarından Şuşa rayonunun «Yuri Qaqarin» pioner düşərgəsində ildə 200 uşaq istirahət etmişdir [288].

Ermənistan dövləti Azərbaycana qarşı əsassız ərazi iddialarına don geydirmək, dünyada ictimai rəyi formalaşdırmaq üçün Azərbaycan rəhbərliyi tərəfindən sıxışdırıldıqlarından, çətin iqtisadi vəziyyətdə yaşadıqlarından və nəticədə bölgədə yaşayan ermənilərin sayının azalmasından ağızdolusu yalan uydurmalarla çıxış edirdilər. Halbuki müxtəlif dövrlərdə, o cümlədən bəhs etdiyimiz dövrdəki faktlar deyilənlərin tamamilə ağ yalan olduğunu sübut edir. Mənbələrə əsaslanaraq, DQMV-nin demoqrafik vəziyyəti qısaca şərh etmək yerinə düşərdi. Qeyd edək ki, 1970-1980-ci illərdə Azərbaycan SSR DQMV-də əhalinin sayı 150,3 min nəfərdən, 182,4 min nəfərə çatmışdır. Hər min nəfərə təbii artım 22,5 faizdən 20 faizə, doğulanların sayı 29 faizdən 26,1 faizə, ölənlərin sayı 6,7 faizdən 6,1 faizə enmişdir [289]. 1926-1988-ci illərdə DQMV-ə əhalinin sayı 57,1 min nəfər və ya 45,6 faiz artmışdır. DQMV-də 1941-1945-ci illər müharibəsindəki itkilərlə və əhalinin başqa regionlara köçməsi ilə əlaqədar 1939-1959-cu illərdə əhalinin sayında (20,4 min nəfər) azalma halı müşahidə edilmiş, 1970-ci ildə isə Vilayətdə əhalinin sayı

əvvəlki həddə çatmış, sonrakı dövrlərdə onu keçmişdi. Bəhs etdiyimiz dövrdə DQMV-də əhalinin ümumi sayında şəhər əhalisinin miqdarı 50 faizdən 53,8 faizə qalxmışdır. 1979-cu il məlumatına görə DQMV-də yaşı 100 keçənlərin sayı 280 nəfər olmuşdur. 1980-ci illərin sonlarında respublikamızda 2500 nəfər 100 yaşı olan Azərbaycan vətəndaşı qeydə alınmışdır [294, 295].

1970-1980-ci illərdə Azərbaycanda əhalinin milli tərkibində dəyişikliklər baş vermişdi. 1989-cu il siyahıyaalınmasına görə Azərbaycanda yaşayan 7 milyondan çox əhalinin 6 milyonunu azərbaycanlılar, 392,3 min nəfərini ruslar, 390,5 min nəfərini ermənilər təşkil etmişdi. 1975-ci il siyahıya alınmasına görə Azərbaycanda ermənilər ümumi əhalinin 7,9 faizini təşkil etmişlər [296].

1979-cu il yanvarın 17-24-də aparılan siyahıyaalınmaya görə məlum olur ki, DQMV-də əhalinin milli tərkibində xeyli dəyişikliklər baş verib. Müqayisələr göstərdi ki, 1970-1979-cu illərdə DQMV-ə ermənilərin sayı 4,6 faiz azalmış, azərbaycanlıların sayı isə 4,9 faiz artmışdır. Bəhs etdiyimiz illərdə DQMV-də əhalinin milli tərkibinin və sayının necə dəyişdiyini aşağıdakı cədvəldən də görmək olar [296-301]:

| İllər | Əhalinin sayı (nəfərlə) | O cümlədən | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Azərbaycanlılar | | Ermənilər | | Digər millətlər | |
| | | Mütləq artım (nəfərlə) | Faizlə | Mütləq artım (nəfərlə) | Faizlə | Mütləq artım (nəfərlə) | Faizlə |
| 1939 | 150811 | 14115 | 9,4 | 132818 | 88,1 | 3878 | 2,5 |
| 1959 | 130406 | 17995 | 13,8 | 110053 | 84,4 | 2358 | 1,8 |
| 1970 | 150313 | 27179 | 18,1 | 121068 | 80,5 | 2066 | 1,4 |
| 1979 | 162181 | 37264 | 23 | 123076 | 75,9 | 1841 | 1,1 |

1979-cu il əhalinin siyahıya alınması məlumatına görə Azərbaycanda yaşayan ermənilərin ümumi sayının 25,9 faizi

DQMV-nin payına düşmüşdür. Yuxarıdakı cədvəldən göründüyü kimi DQMV-də ermənilərin sayı tədricən azalmağa doğru getmişdir. Erməni millətçiləri bütün dünyada öz haqsız niyyətlərinə haqq qazandırmaq və dünya ictimaiyyətində özlərinə qarşı müsbət fikir yaratmaq üçün belə bir əsassız iddia irəli sürdülər ki, guya DQMV-də ermənilərin sayının azalması onların ərazidə sosial-iqtisadi vəziyyətlərinin "pisləşməsi", ərazidə onların "sıxışdırılması" və sairdən ibarət olmuşdur. Halbuki, qərərsiz elmi araşdırmalar nəticəsində məlum olur ki, DQMV-də ermənilərin sayının azalması, azərbaycanlıların sayının artması aşağıdakı amillərlə bağlı olmuşdur: İlk növbədə sosial demoqrafik tədqiqatların məlumatlarına görə Azərbaycandakı erməni qadınlarının uşaqlarının orta sayı 2,3, azərbaycanlı qadınlarınkı 3,1, rus qadınlarınkı 1,6-dir. Erməni qadınlarının repruduktiv məqsədi, daha doğrusu onların malik olmaq istəkləri uşaqların sayı 3-ü keçmir, azərbaycanlı qadınlarda bu rəqəm 3,8, rus qadınlarında 2,5 təşkil edir. Aparılan tədqiqatlardan məlum olur ki, DQMV-də erməni əhalisi arasında 1000 nəfər hesabı ilə doğulan uşaqların sayı 34,4, təşkil etmişdir ki, bu da azərbaycanlı ailələrində doğulanlardan xeyli aşağıdır. Erməni «mütəxəssis»lərinin guya DQMV-də əhalinin yaş strukturlarının kəskin pisləşməsi barədəki «tezisləri»də tamamilə yanlış bir fikirdir. Faktlar göstərir ki, 1979-cu ildə DQMV-də bütün erməni əhalisindən 16 yaşa qədər olanları 25,4 faiz, 20-39 yaşında olanlar isə 21,9 faiz təşkil etmişlər. Demoqrafiya ilə məşğul olanların fikrincə bu rəqəmlər respublikamızda ən yüksək göstəricilərdən biridir. Bütün dünyada olduğu kimi DQMV-də də demoqrafik inkişafın qanunauyğun təmayülü olan əhalinin qocalması prosesi gedir, lakin bu proses digər regionlardan fərqli olaraq DQMV-də xeyli yavaş gedir. Obyektivliyini itirmiş erməni palitologiyalarının «azərbaycanlı əhalisinin kənardan süni yolla gətirilərək artırılması» fikrinə gəldikdə isə bu fikir tamamilə əsassızdır. Çünki, nəinki «kənardan gətirilmə», əgər azərbaycanlıları müxtəlif yollarla DQMV-dən çıxarmasaydılar 1959-1979-cu illər ərzində azərbaycanlıların sayı yəqin ki erməniləri tamamilə üstələyərdi.

Bütün bunlarla yanaşı ermənilərin sayının azalması onların miqrasiya (varlı dövlətlərə köçüb getmə) meylindən də irəli gəlir. Aparılan tədqiqatlara görə keçmiş SSRİ məkanından, daha çox varlanmaq, öz əhatə dairələrini genişləndirmək üçün xarici dövlətlərə gedənlərin 34,4 faizini ermənilər təşkil etmişlər və bu göstərici keçmiş İttifaq məkanında birincidir [300].

DQMV-də ermənilərin sayının azalması azərbaycanlıların sayının artması erməni lobbisini, daşnakları narahat etməyə başladı. İlk növbədə DQMV-də yeni doğulan azərbaycanlıları qeydiyyata almadılar. Onlara doğum haqqında şəhadətnamə verilsə də bu qeyri rəsmi yolla həyata keçirilirdi. Yaşlı azərbaycanlıları «köçdü» və ya «vəfat etdi» adı altında qeydiyyatdan çıxarırdılar. Süni maneələr yaratmaqla onları Vilayət ərazisindən köçməsinə şərait yaratdılar. Eyni zamanda Vilayət Statistika İdarəsi yuxarı təşkilatlara ermənilərin sayı ilə bağlı şişirdilmiş rəsmi məlumatlar verir, köçüb gedən və ölən ermənilər qeydiyyatdan çıxarılmırdılar. Hətta 1980-ci illərdə Ermənistan SSR vətəndaşlarının eyni zamanda DQMV-də pasport qeydiyyatına götürülməsi faktları aşkar edilmişdir. Ermənilər DQMV-də əhalinin say dinamikasında 1980-ci ildən sonra etdikləri saxta əməllərin üzə çıxacağından ehtiyat edərək 1989-cu ildə SSRİ üzrə əhalinin siyahıya alınması aparılarkən Dağlıq Qarabağ ermənilləri Moskva nümayəndələrini Vilayətə buraxmamışlar. Eyni zamanda Dağlıq Qarabağ əhalisi haqda 1979-cu ildən sonrakı statistika məlumatları nəzərdən keçirərkən ilk öncə onun müəllifini nəzərdən keçirmək lazımdır. Çünki erməni müəllifləri öz mənafelərinə uyğun həmin dövrün materiallarını saxtalaşdırmışlar. 1979-cu ildə DQMV-də 162 min əhali yaşayırdı ki, bunun 23 faizini azərbaycanlılar, 75 faizini ermənilər, qalanının digər millətlər təşkil edirdi.

DQMV-də rayonlar arasında da əhalinin bölgüsündə böyük fərqlər müşahidə edilmişdir. 1979-cu il məlumatına görə DQMV-də yaşayan ümumi əhalinin təxminən 30 faizi Ağdərə rayonunun, 10 faizi Şuşa rayonun payına düşürdü. Vaxtilə bir neçə evdən ibarət olan Xankəndi rayonunda əhalinin 25 faizin-

dən çoxu yaşayırdı. Ermənilər isə daha çox Xankəndi şəhərində cəmləşmişdirlər.

1970-1985-ci illərdə DQMV-də əhalinin sosial-sinfi strukturu da yeniləşmişdi. 1980-ci illərin sonlarında fəhlə və qulluqçular əhalinin 86 faizini, kolxozçular isə 13 faiz təşkil edirdi. 1970-ci ildə DQMV-də əhalinin 62 faizi kənddə 38 faizi şəhərdə yaşayırdısa, 1985-ci ildə şəhərdə yaşayanlar ümumi əhalinin 28.3 faizini, kənddə yaşayanlar isə 71,7 faizini təşkil etmişdir [306].

Beləliklə, 1970-1985-ci illərdə Azərbaycan hökumətinin, dövlətimizin başçısı Heydər Əliyevin dərin qayğısı nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin əhalisinin sosial-iqtisadi həyatında, məişətində, rıfahında mühüm dəyişikliklər baş vermiş, gəlirlər, alıcılıq qabiliyyəti, ticarət, ictimai-iaşə, tibb, rabitə, məişət xidmətlərinin səviyyəsi yüksəlmiş, yaşayış məntəqələrinin su, qaz, kanalizasiya sistemləri ilə təchizatı yaxşılaşmışdı. Lakin bəhs etdiyimiz dövrdə Vilayətin erməni rəhbərliyi bir strateji xətt kimi bölgədə yaşayan azərbaycanlıların sosial-iqtisadi vəziyyətinin yaxşılaşmasına, onların intellektual səviyyəsinin yüksəldilməsinə bütün çirkin vasitələrdən istifadə edilməklə mane olmaq siyasəti yeritmişlər.

Müxtəlif mötəbər mənbələrə, tarixi faktlara əsaslanaraq bütün XX yüzillik ərzində Azərbaycanın Yuxarı Qarabağ bölgəsinin sosial-iqtisadi və mədəni inkişafını nəzərdən keçirməklə müqayisələr, təhlillər aparıb ərazinin üstün və sürətli inkişafını nəzərdən keçirməklə bir daha inkişafın şahidi olur və erməni ideoloqlarının «sosial-iqtisadi gerilik» konsepsiyasının tamamilə ağ yalan olduğunu görürük:

**Dağlıq Qarabağda təqaüd alanların sayı (1970-ci il) (Nəfərlə)**

| S № | Təqaüdün növü | Cəmi | O cümlədən rayonlar üzrə | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Xankəndi rayonu | Ağdərə rayonu | Xocavənd rayonu | Hadrut rayonu | Şuşa rayonu | Xankəndi şəhəri |
| 1. | Ümumi | 24281 | 4161 | 7283 | 4716 | 3527 | 1368 | 3226 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | təqaüd alanlar | | | | | | | |
| 2. | Qocalığa əlilliyə | 6906 | 1065 | 1520 | 836 | 775 | 504 | 2206 |
| 3. | Ailə başçısını itirdiyi üçün | 2234 | 335 | 574 | 337 | 230 | 231 | 527 |
| 4. | Müharibə iştirakçıl arı | 2861 | 415 | 802 | 665 | 454 | 190 | 335 |
| 5. | Kolxozçu təqaüdçü lər | 12280 | 2346 | 4337 | 2878 | 2068 | 443 | 148 |

**Dağlıq Qarabağda səhiyyənin inkişaf dinamikası (1940-1970)**

| İşin məzmunu | Ağdərə rayonu | | Xocavənd rayonu | | Hadrut rayonu | | Şuşa rayonu | |
|---|---|---|---|---|---|---|---|---|
| 1. Xəstəxanaların sayı | 1940 | 1970 | 1940 | 1970 | 1940 | 1970 | 1940 | 1970 |
| 2. Çarpayıların sayı | 1 | 6 | 3 | 12 | 2 | 5 | 2 | 7 |
| 3. Həkimlərin sayı | 10 | 265 | 60 | 303 | 35 | 240 | 40 | 180 |
| 4. Orta təhsilli tibb işləri | 28 | 140 | 42 | 306 | 23 | 175 | 24 | 170 |

dən çoxu yaşayırdı. Ermənilər isə daha çox Xankəndi şəhərində cəmləşmişdirlər.

1970-1985-ci illərdə DQMV-də əhalinin sosial-sinfi strukturu da yeniləşmişdi. 1980-ci illərin sonlarında fəhlə və qulluqçular əhalinin 86 faizini, kolxozçular isə 13 faiz təşkil edirdi. 1970-ci ildə DQMV-də əhalinin 62 faizi kənddə 38 faizi şəhərdə yaşayırdısa, 1985-ci ildə şəhərdə yaşayanlar ümumi əhalinin 28.3 faizini, kənddə yaşayanlar isə 71,7 faizini təşkil etmişdir [306].

Beləliklə, 1970-1985-ci illərdə Azərbaycan hökumətinin, dövlətimizin başçısı Heydər Əliyevin dərin qayğısı nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin əhalisinin sosial-iqtisadi həyatında, məişətində, rifahında mühüm dəyişikliklər baş vermiş, gəlirlər, alıcılıq qabiliyyəti, ticarət, ictimai-iaşə, tibb, rabitə, məişət xidmətlərinin səviyyəsi yüksəlmiş, yaşayış məntəqələrinin su, qaz, kanalizasiya sistemləri ilə təchizatı yaxşılaşmışdı. Lakin bəhs etdiyimiz dövrdə Vilayətin erməni rəhbərliyi bir strateji xətt kimi bölgədə yaşayan azərbaycanlıların sosial-iqtisadi vəziyyətinin yaxşılaşmasına, onların intellektual səviyyəsinin yüksəldilməsinə bütün çirkin vasitələrdən istifadə edilməklə mane olmaq siyasəti yeritmişlər.

Müxtəlif mötəbər mənbələrə, tarixi faktlara əsaslanaraq bütün XX yüzillik ərzində Azərbaycanın Yuxarı Qarabağ bölgəsinin sosial-iqtisadi və mədəni inkişafını nəzərdən keçirməklə müqayisələr, təhlillər aparıb ərazinin üstün və sürətli inkişafını nəzərdən keçirməklə bir daha inkişafın şahidi olur və erməni ideoloqlarının «sosial-iqtisadi gerilik» konsepsiyasının tamamilə ağ yalan olduğunu görürük:

**Dağlıq Qarabağda təqaüd alanların sayı (1970-ci il) (Nəfərlə)**

| S № | Təqaüdün növü | Cəmi | O cümlədən rayonlar üzrə | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Xankəndi rayonu | Ağdərə rayonu | Xocavənd rayonu | Hadrut rayonu | Şuşa rayonu | Xankəndi şəhəri |
| 1. | Ümumi | 24281 | 4161 | 7283 | 4716 | 3527 | 1368 | 3226 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | təqaüd alanlar | | | | | | | |
| 2. | Qocalığa əlilliyə | 6906 | 1065 | 1520 | 836 | 775 | 504 | 2206 |
| 3. | Ailə başçısını itirdiyi üçün | 2234 | 335 | 574 | 337 | 230 | 231 | 527 |
| 4. | Müharibə iştirakçıları | 2861 | 415 | 802 | 665 | 454 | 190 | 335 |
| 5. | Kolxozçu təqaüdçülər | 12280 | 2346 | 4337 | 2878 | 2068 | 443 | 148 |

**Dağlıq Qarabağda səhiyyənin inkişaf dinamikası (1940-1970)**

| **İşin məzmunu** | **Ağdərə rayonu** | | **Xocavənd rayonu** | | **Hadrut rayonu** | | **Şuşa rayonu** | |
|---|---|---|---|---|---|---|---|---|
| 1. Xəstəxanaların sayı | 1940 | 1970 | 1940 | 1970 | 1940 | 1970 | 1940 | 1970 |
| 2. Çarpayıların sayı | 1 | 6 | 3 | 12 | 2 | 5 | 2 | 7 |
| 3. Həkimlərin sayı | 10 | 265 | 60 | 303 | 35 | 240 | 40 | 180 |
| 4. Orta təhsilli tibb işləri | 28 | 140 | 42 | 306 | 23 | 175 | 24 | 170 |

**Dağlıq Qarabağ rayonlarının ərazisi, mərkəzi (1 yanvar 1976-cı il)**

| Rayonların adı | Ərazisi min. km. | Rayonların mərkəzi | Şəhəri | Qəsəbələr | Kənd sovetlikləri |
|---|---|---|---|---|---|
| DQMV | 4,4 | Xankəndi | 2 | 7 | 73 |
| O cümlədən Hadrut | 0,7 | Hadrut | - | 1 | 13 |
| Ağdərə | 1,7 | Ağdərə | - | 3 | 22 |
| Xocavənd | 0,8 | Xocavənd | - | 2 | 16 |
| Xankəndi | 0,9 | Xankəndi | 1 | 1 | 16 |
| Şuşa | 0,3 | Şuşa | 1 | - | 6 |

**Dağlıq Qarabağ əhalisi**

| İllər | Ümumi əhalinin sayı (min nəfər) | O cümlədən | |
|---|---|---|---|
| | | Şəhərdə yaşayanlar | Kənddə yaşayanlar |
| 1926 dekabr | 125,3 | 8,3 | 117,3 |
| 1939 yanvar | 150,8 | 15,9 | 134,9 |
| 1959 yanvar | 130,4 | 27,0 | 103,4 |
| 1970 yanvar | 150,3 | 57,3 | 93,0 |
| 1973 yanvar | 152,7 | 60,6 | 92,1 |
| 1975 yanvar | 155,0 | 62,6 | 92,4 |
| 1976 yanvar | 155,6 | 64,3 | 91,3 |

**Dağlıq Qarabağ Muxtar Vilayətinin əhalisinin sayı və milli tərkibi (1950-1980)**

| İllər | Əhalinin sayı (nəfərlə) | O cümlədən | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Azərbaycanlılar | Faizlə | Ermə ni | Faizlə | Digərləri | Faizlə |
| 1959 | 130406 | 17995 | 13,8 | 110053 | 84,4 | 2358 | 1,8 |
| 1970 | 150313 | 27179 | 18,1 | 121068 | 80,5 | 2066 | 1,4 |
| 1979 | 162181 | 37264 | 23 | 123076 | 75,9 | 1841 | 1,1 |

## 1979-cu ildə DQMV üzrə əhalinin milli tərkibi

| Şəhər və rayonlar | Cəmi əhali (nəfərlə) | O cümlədən | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Azərbaycanlılar | | Ermənilər | | Rus və digərləri | |
| | | nəfərlə | faizlə | nəfərlə | faizlə | nəfərlə | faizlə |
| Xankəndi | 38948 | 4303 | 11,0 | 33898 | 87,0 | 747 | 1,9 |
| Əsgəran | 20094 | 5231 | 26,0 | 14772 | 73,5 | 91 | 0,5 |
| Hadrut | 14792 | 2239 | 15,1 | 12489 | 84,4 | 64 | 0,5 |
| Ağdərə | 44586 | 7050 | 15,8 | 37050 | 83,0 | 486 | 1.1 |
| Xocavənd | 27742 | 5486 | 19,7 | 21986 | 79,2 | 270 | 0,7 |
| Şuşa | 16019 | 12955 | 80,8 | 2881 | 17,9 | 183 | 1,1 |
| DQMV | 162181 | 37264 | 23 | 123076 | 75,9 | 1841 | 1,1 |

## Dağlıq Qarabağda bir kvadrat km-ə düşən əhalinin sayı

| Rayonlar | İ l l ə r | | | | |
|---|---|---|---|---|---|
| | 1926 | 1939 | 1959 | 1965 | 1969 |
| Bütün DQMV-i üzrə | 28,6 | 34,4 | 29,7 | 33,1 | 34,0 |
| O cümlədən Xankəndi rayonu | 31,4 | 42,5 | 43,2 | 52,2 | 546 |
| Ağdərə rayonu | 18,7 | 23,9 | 22.1 | 25.1 | 26,3 |
| Xocavənd rayonu | 37,1 | 41,5 | 32,0 | 34,2 | 33,7 |
| Hadrut rayonu | 36,5 | 39,9 | 24,7 | 23,3 | 23,1 |
| Şuşa rayonu | 35,6 | 37,4 | 36,7 | 39,7 | 41,3 |

## 1965-1987-ci illər ərzində iqtisadi və sosial inkişafın bəzi müqayisəli göstəriciləri

| | Azərbaycan SSR | | | O cümlədən | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Naxçıvan MSSR | | | DQMV | | |
| | 1975 | 1981 | 1987 | 1965 | 1981 | 1987 | 1965 | 1981 | 1987 |
| Əhalinin 10 min nəfər hesabı ilə sənaye işçilərinin sayı | 614 | 663 | 686 | 264 | 311 | 387 | 598 | 611 | 657 |
| Adambaşına düşən ümumi kənd təsərrüfatı məhsulunun həcmi (manatla) | 303 | 597 | 588 | - | 598 | 501 | 318 | 625 | 692 |
| Adambaşına düşən pərakəndə ticarət dövriyyəsinin həcmi (manatla) | 292 | 647 | 717 | 179 | 420 | 516 | 640 | 642 | 683 |

## 1960-1986-cı illərdə Zaqafqaziyanın müttəfiq respublikalarında əhalinin doğum, ölüm və təbii artım dinamikası (əhalinin 1000 nəfəri hesabı ilə)

| Respublikalar | Doğulanların sayı | | | Ölənlərin sayı | | | Əhalinin təbii artımı | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Gürcüstan | 24,7 | 19,2 | 18.7 | 6,5 | 7,3 | 8,8 | 18,2 | 11,9 | 9,5 |
| Azərbaycan | 42,6 | 29,2 | 27.6 | 6,7 | 6,7 | 6,7 | 35,9 | 22,5 | 20,9 |
| Ermənistan | 40,1 | 22,1 | 24,0 | 6,8 | 6,8 | 5,7 | 33,3 | 17,0 | 18,3 |

## DQMV-də mal dövriyyəsinin artım dinamikası

| Göstəricilər | İllər | | | | |
|---|---|---|---|---|---|
| | 1960 | 1965 | 1970 | 1975 | 1980 |
| İctimai-iaşə və kooperativ ticarəti üzrə müxtəlif mal dövriyyəsinin həcmi (milyon manat) | 23,7 | 33,5 | 53,7 | 76,6 | 97,6 |
| O cümlədən: | 21,9 | 31,0 | 49,3 | 70,4 | 89,3 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Müxtəlif ticarət sahələri | | | | | |
| Əhalinin hər nəfərinə mal dövriyyəsi (manatla) | 180 | 240 | 355 | 488 | 598 |
| Müxtəlif ticarət müəssisələrinin sayı | 473 | 571 | 618 | 636 | 672 |
| O cümlədən: Mağazaların sayı | 270 | 385 | 392 | 312 | 351 |
| Yeməkxanalar, restoranlar, mətbəx fabriki | 23 | 58 | 78 | 118 | 134 |
| Qəlyanaltı və bufetlər | - | 126 | 155 | 168 | 176 |
| Univermaqların sayı | - | - | 2 | 3 | 3 |
| Sənaye malları mağazaları | - | - | 7 | 7 | 8 |
| ərzaq malları mağazaları | - | - | 26 | 16 | 17 |
| İctimai-iaşə müəssisələrinin sayı | 98 | 174 | 233 | 286 | 310 |
| İxtisaslaşdırılmış mağazaların sayı | - | - | 33 | 18 | 22 |
| Gündəlik tələbat mağazalarının sayı | - | - | 248 | 150 | 181 |
| Mağazalar, cəmi Onlardan: | - | - | 316 | 194 | 231 |
| Kitab mağazalarının sayı | - | - | 7 | 7 | 7 |
| Xırda satış mağazalarının sayı | - | - | 380 | 407 | 439 |
| Kənd istehlak cəmiyyətlərinin sayı | - | - | 7 | 7 | 7 |
| Əmtəə dövriyyəsinin məbləği (min manat) | | | 27315.0 | 37962.0 | 45774.0 |

## Dağlıq Qarabağda sovxozlar və onların inkişafı

| İllər | Sovxozların sayı | | Müstəqil zavodlar | Üzüm sahələri (ha) | O cümlədən məhsul verən sahələr | Məcmu üzüm yığımı (min ton) | Üzüm emalı (t) |
|---|---|---|---|---|---|---|---|
| | Cəmi | Sənaye emalı olan | | | | | |
| 1965 | 6 | 2 | 3 | 4517 | 2275 | 7,5 | 17 |
| 1970 | 11 | 7 | 3 | 6616 | 5243 | 29,60 | 53,1 |
| 1975 | 14 | 10 | 3 | 10123 | 5742 | 48,4 | 76,4 |
| 1980 | 18 | 12 | 3 | 12499 | 7941 | 94,01 | 134,3 |

## Dağlıq Qarabağda kənd təsərrüfatı məhsullarının artım dinamikası

| Təsərrüfat sahələri | Orta hesabla | | Sentnerlərlə |
|---|---|---|---|
| İllər | 1971-1975 | 1976-1980 | |
| Bitkiçilik: Buğda | 11048,4 | 12283,0 | 1234,6 |
| Kartof | 164,5 | 199,2 | 34,7 |
| Tərəvəz | 1597,8 | 18169,4 | 2891,4 |
| Üzüm | 33850,8 | 73228,4 | 39377,6 |
| Meyvələr | 405,1 | 442 | 36,9 |
| Heyvandarlıq: Mal əti | 633,5 | 863,4 | 23,0 |
| Donuz əti | 793,5 | 737,1 | 43,6 |
| Qoyun əti | 369,4 | 412,4 | 43,0 |

| | | | |
|---|---|---|---|
| Quş əti | 45,1 | 56,3 | 11,2 |
| Yun | 114,2 | 156,3 | 42,1 |
| Süd | 7457,7 | 10345,8 | 2888,1 |
| Barama | 60,1 | 74,0 | 13,9 |
| **Cəmi:** | 3293,0 | 7180,6 | 3887,6 |

**DQMV-də əhaliyə ictimai-iaşə və mədəni-məişət xidmətinin artım dinamikası**

| Göstəricilər | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | **1971** | **1972** | **1973** | **1974** | **1975** | **1980** |
| Vilayətdə əhaliyə xidmət emalatxanaları və atelyelərin sayı | 375 | 390 | 406 | 432 | 473 | 555 |
| O cümlədən: kənd yerlərində | 191 | 196 | 199 | 220 | 251 | 282 |
| İctimai-iaşə xidməti (min manat) | 2495 | 2651 | 2903 | 2823 | 3520 | 18270 |
| O cümlədən: kənd yerlərində | 958 | 1005 | 1503 | 1524 | 1991 | 8783 |
| Əhaliyə məişət xidməti müəssisələrində işləyənlərin sayı (nəfər) | 1153 | 1155 | 1168 | 1170 | 1348 | 1579 |
| O cümlədən: kənd yerlərində | 307 | 388 | 427 | 425 | 470 | 443 |

**DQMV-də əhalinin pensiya və müavinətlərlə təminatı**

| Göstəricilər | Pensiya alan kolxozçuların sayı | | | Pensiya məbləği (min man) | | |
|---|---|---|---|---|---|---|
| | **1970** | **1975** | **1980** | **1970** | **1975** | **1980** |
| Qocalığa görə pensiya alanların ümumi sayı | 12966 | 12120 | 10750 | 2706 | 4775 | 53840 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Əlilliyə görə pensiyaçıların sayı | 84 | 103 | 92 | 29,52 | 49,68 | 45,84 |
| Xəstəlik və şikəstliyə görə pensiya alanların sayı | 993 | 94 | 815 | 243,8 | 412,44 | 436,56 |
| İş qabiliyyətini itirdiyinə görə pensiya alanların sayı | 414 | 451 | 365 | 9552 | 181,32 | 153,60 |
| **Cəmi:** | **14487** | **13618** | **12022** | **3075,86** | **5397,00** | **5324,40** |

**Dağlıq Qarabağda kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi cədvəli**

| **İllər** | **1965** | **1970** | **1975** | **1980** |
|---|---|---|---|---|
| Traktorların sayı (fiziki vahiddə | 924 | 1269 | 1426 | 1412 |
| Taxıl biçən kombaynların sayı (fiziki vahiddə) | 226 | 239 | 228 | 250 |
| Yük avtomobillərinin sayı (avtosisternlər daxil olmaqla) | 726 | 756 | 1000 | 196 |

**Dağlıq Qarabağda irriqasiya sisteminin göstəriciləri**

| Təsərrüfat sahələri | **1970** | **1975** | **1980** |
|---|---|---|---|
| Suvarma sahələri | 22660 | 22754 | 23149 |
| Şum | 10224 | 11298 | 9127 |
| Bağ və bağça | 9633 | 9861 | 12260 |
| Otlaq və ot sahələri | 234 | 221 | 495 |

**Dağlıq Qarabağda üzümçülüyün inkişaf dinamikası**

| | 1965 | 1970 | 1975 | 1980 |
|---|---|---|---|---|
| Məhsul verən | 9171 | 10417 | 14882 | 16514 |
| Üzümlüklər (ha) | 3693 | 7136 | 8526 | 10954 |
| Məcmu yığım | 21067 | 58064 | 76943 | 138000 |
| Dövlətə satılıb | 16232 | 54022 | 75419 | 136000 |

**DQMV-də sənaye məhsullarının mühüm növləri üzrə inkişaf dinamikası**

| Sıra № | Sənaye məhsullarının adı | 1975 | 1980 | 1981 | 1982 |
|---|---|---|---|---|---|
| 1. | Elektrik lampaları istehsalı (lüminessent lampa) (min ədəd) | 585 | 775 | 766 | 767 |
| 2. | Əhəng (min ton) | 5,8 | 6,3 | 7,5 | 7,4 |
| 3. | İpək parça məmulatları (min metr) | 11656 | 15710 | 16635 | 16348 |
| 4. | Ayaqqabı istehsalı (min cüt) | 1869 | 4181 | 4377 | 4116 |
| 5. | Konyak (min dekalitr) | 6,6 | 53,8 | 59 | 67 |
| 6. | Üzüm şərabı (min dekalitr) | 786 | 1946 | 2006 | 7358 |
| 7. | Kərə yağı (ton) | 723 | 885 | 918 | 938 |
| 8. | Mebel (min manatla) | 2500 | 3456 | 3854 | 4739 |

**DQMV üzrə əmanət kassaları və əmanətçilər haqqında məlumat**

| Göstəricilər | 1960 | 1965 | 1970 | 1975 | 1980 |
|---|---|---|---|---|---|
| Vilayət üzrə əmanət kassalarının sayı | 50 | 74 | 88 | 100 | 105 |
| O cümlədən: şəhər və qəsəbələrdə | 20 | 22 | 25 | 28 | 31 |
| Kənd yerlərində | 30 | 52 | 63 | 72 | 74 |
| Əmanətçilərin sayı (min nəfər) | 30 | 33 | 47,5 | 51,2 | 90,0 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Əmanət kassalarında saxlanılan əmanətlər (min ton) | 4776 | 8863 | 31497 | 64751 | 125591 |
| Orta hesabla hər sakinə düşən əmanətlərin məbləği (man) | 159 | 269 | 617 | 991 | 1251 |

**1950-1970-ci illərdə DQMV-nin kənd əhalisinin əmanət kassalarında saxlanılan əmanətlərinin məbləği (min manat)**

| Rayonlar | İllər | | |
|---|---|---|---|
| | 1966-1970 | 1971-1975 | 1976-1980 |
| Xankəndi | 9244,6 | 1.1333,2 | 1.4878,3 |
| Ağdərə | 4749,5 | 7508,1 | 1.2571,2 |
| Xocavənd | 5569,2 | 6069,2 | 9276,5 |
| Hadrut | 2163,8 | 2443,8 | 4588,5 |
| Şuşa | 9062,0 | 9180,0 | 2546,1 |
| DQMV üzrə cəmi: | 2.2633,3 | 2.8272,6 | 4.3856,5 |

**Dağlıq Qarabağda kənd təsərrüfatı məhsullarının artım dinamikası**

| Məhsulun növü | 1969 | 1979 | Artım |
|---|---|---|---|
| Taxıl | 41,5 | 68,7 | 1,6 dəfə |
| Üzüm | 37,7 | 112,5 | 3 dəfə |
| Tərəvəz | 4,6 | 7,9 | 1,7 dəfə |
| Tütün | 0,202 | 0,320 | 1.6 dəfə |
| Ət | 6,1 | 8,5 | 1.4 dəfə |
| Süd | 21 | 37,3 | 1.8 dəfə |
| Yumurta | 4,7 | 11 | 2,3 |
| Yun | 0,322 | 0, 430 | |

**Dağlıq Qarabağda kartofçuluq və tərəvəzçiliyin inkişaf göstəriciləri**

| Sahələr | Göstəricilər | Ölçü vahidi | İllər | | | |
|---|---|---|---|---|---|---|
| | | | 1965 | 1970 | 1975 | 1980 |
| Kartof | Sahə | ha | 463 | 346 | 378 | 369 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| becərilmə | | | | | | |
| | Məhsuldarlıq | lha/s | 86 | 52 | 31,8 | 45,3 |
| | Məcmu yığım | t | 3982 | 1802 | 1207 | 1672 |
| | Dövlətə | t | 59 | 328 | 300 | 405 |
| Tərəvəzçilik | Sahə | ha | 539 | 501 | 566 | 487 |
| | Məhsuldarlıq | lha/s | 93,6 | 105,8 | 102,2 | 133,5 |
| | Məcmu yığım | | 5048 | 5782 | 5314 | 6502 |
| | Dövlətə | | 1005 | 1707 | 3952 | 4816 |

**Dağlıq Qarabağda meyvəçiliyin inkişaf göstəriciləri**

| İllər | Sahə (ha) | Məhsuldarlıq (1 ha-dan s-lə) | Məcmu yığım |
|---|---|---|---|
| 1865 | 1146 | 29,8 | 3403 |
| 1970 | 988 | 9,5 | 1020 |
| 1975 | 936 | 14,0 | 1415 |
| 1980 | 1096 | 12,6 | 1395 |

**DQMV-də məktəbəqədər və məktəbdənkənar uşaq tərbiyə müəssisələri şəbəkəsinin artım dinamikası**

| Göstəricilər | 1940 | 1965 | 1970 | 1975 | 1980 | 1981 |
|---|---|---|---|---|---|---|
| Vilayət üzrə: Məktəbəqədər müəssisələrin ümumi sayı | 68 | 57 | 60 | 79 | 87 | 87 |
| Uşaq bağçaları və körpələr evi | 35 | 45 | 55 | 72 | 82 | 84 |
| O cümlədən: körpələr evi | 33 | 12 | 5 | 7 | 5 | 3 |
| Məktəbəqədər müəssisələrdən uşaqların sayı | 2239 | 2745 | 3648 | 5103 | 6281 | 6348 |
| O cümlədən: uşaq bağçalarında | 1221 | 2134 | 3538 | 4966 | 6200 | 6285 |
| Körpələr evində | 1018 | 311 | 110 | 137 | 91 | 50 |

**DQMV-də dövlət müəssisələrində mal-qara və quşların sayı (baş hesabı ilə)**

| Heyvan növləri | 1965 | 1970 | 1975 | 1980 |
|---|---|---|---|---|
| İri buynuzlu mal-qaranın cəmi: | 62000 | 57638 | 58402 | 64108 |
| O cümlədən: | | | | |
| İnək və camışlar | 17511 | 15327 | 15432 | 16235 |
| Donuzlar | 34241 | 45904 | 50009 | 66593 |
| Qoyunlar və keçilər | 206049 | 164559 | 180566 | 182474 |
| Quşlar | 89082 | 157950 | 204311 | 255375 |

**DQMV-də mədəni-maarif müəssisələri şəbəkəsinin inkişaf dinamikası**

| Göstəricilər | 1960 | 1965 | 1970 | 1975 | 1980 |
|---|---|---|---|---|---|
| Kütləvi kitabxanaların sayı | 166 | 172 | 179 | 188 | 202 |
| O cümlədən kənd yerlərində | 150 | 157 | 154 | 162 | 177 |
| Kitabxanalarda olan kitab və jurnalların sayı (min nüsxə) | 857 | 1003 | 1157 | 1340 | 1362 |
| O cümlədən kənd yerlərində | 579 | 685 | 676 | 788 | 1097 |
| Mədəniyyət evlərinin sayı | - | - | - | 48 | 65 |

**DQMV-də təsərrüfatın bütün sahələrində inkişaf dinamikası**

| Heyvan növləri | 1965 | 1970 | 1975 | 1980 |
|---|---|---|---|---|
| İri buynuzlu mal-qara (baş hesabı ilə) | 88035 | 86372 | 86754 | 93795 |
| O cümlədən: | | | | |
| İnək və camışlar | 29123 | 27783 | 27496 | 29255 |
| Donuzlar | 43294 | 60383 | 69182 | 81300 |
| Qoyunlar | 291026 | 266281 | 290215 | 295940 |

| | | | | |
|---|---|---|---|---|
| Quşlar | 274191 | 162173 | 215262 | 264530 |
| Arı ailələri | 10085 | 9739 | 6608 | 6188 |

**DQMV-də kino şəbəkəsinin inkişaf dinamikası**

| Göstəricilər | 1960 | 1965 | 1970 | 1975 | 1980 |
|---|---|---|---|---|---|
| Azərbaycanda kinoqurğuların sayı | 1301 | 1719 | 2004 | 2220 | 2002 |
| O cümlədən kənd yerlərində | 1002 | 1183 | 1356 | 1488 | 1566 |
| DQMV-də kinoqurğuların sayı | 71 | 138 | 170 | 188 | 202 |
| O cümlədən kənd yerlərində | 67 | 122 | 147 | 159 | 172 |
| Azərbaycan üzrə kino seanslarında iştirak edənlərin sayı (milyon nəfər) | 38,7 | 43,7 | 56,4 | 59,0 | 60,6 |
| Vilayətdə kino seanslarında iştirak edənlərin sayı (milyon nəfər) | 2,01 | 2,84 | 3,49 | 2,866 | 3,016 |

**DQMV-nin təsərrüfatlarında heyvandarlığın bütün kateqoriya üzrə məhsuldarlıq dinamikası (tonla)**

| Məhsul növləri | 1965 | 1970 | 1975 | 1980 |
|---|---|---|---|---|
| Ət (kəsilmiş çəkidə) | 5757 | 8511 | 11015 | 16075 |
| Süd | 29829 | 36736 | 43899 | 67500 |
| Un | 488 | 489 | 595 | 487 |
| O cümlədən kolxoz və sovxozlarda: | | | | |
| Ət (kəsilmiş çəkidə) | 3445 | 3591 | 4264 | 5638 |
| Süd | 19859 | 24039 | 33005 | 37631 |
| Yun | 359 | 315 | 316 | 432 |

**DQMV-də sosial inkişafın müqayisəli göstəriciləri**

| Göstəricilər | Azərbaycan Respublikası | DQMV | SSRİ | Ermənistan |
|---|---|---|---|---|
| 10 min nəfər hesabı ilə xəstəxana çarpayıları ilə təminat (vahid) | 97,7 | 101,7 | 130,1 | 86,2 |
| 10 min nəfər hesabı ilə bütün ixtisaslardan olan həkimlərlə təminat | 38,4 | 28,1 | 42,7 | 38,6 |
| 10 min nəfər hesabı ilə orta tibb heyəti ilə təminat | 93,5 | 122,7 | 114,7 | 93,5 |
| 10 min nəfər hesabı ilə kütləvi kitabxanaların sayı (vahid) | 6 | 13 | 4,8 | 4,1 |
| 10 min nəfər hesabı ilə klubların sayı (vahid) | 5 | 15 | 4,8 | 3,8 |
| 10 min nəfər hesabı ilə kino qurğularının sayı (vahid) | 3 | 11,2 | 5,4 | 2,9 |
| Uşaqların məktəbəqədər müəssisələrlə əhatə olunması (əhalinin sayı %-lə) | 90 | 35 | 57 | 39 |
| Birinci növbədə məşğul olan şagirdlərin sayı (şagirdlərin ümumi sayına görə %-lə) | 74,3 | 92,5 | 18,2 | 87,8 |
| Bir sakin hesabına mənzil fondu (kv.m.) | 10,9 | 14,6 | 14,9 | 13,7 |
| O cümlədən şəhər yerlərində | 12,2 | 14,6 | 14,3 | 13,1 |
| Kənd yerlərində | 9,2 | 14,6 | 16,1 | 15,0 |

| Göstəricilər | 1960 | 1965 | 1970 | 1975 | 1980 |
|---|---|---|---|---|---|
| Vilayətdə xəstəxanaların sayı | 34 | 37 | 38 | 32 | 32 |
| Xəstəxanalarda çarpayıların sayı | 1080 | 1330 | 1575 | 1635 | 1765 |
| Bütün ixtisaslar üzrə həkimlərin sayı | 199 | 210 | 240 | 312 | 497 |
| Orta tibb işçilərinin sayı | 1123 | 1245 | 1395 | 1820 | 2219 |
| Qadın məsləhətxanası, uşaq poliklinikaların və ambulatoriyalar | 6 | 7 | 11 | 14 | 21 |
| Ümumi uşaq tərbiyə ocaqlarının sayı | - | 57 | 60 | 79 | 86 |

**DQMV-nin Dövlət kooperativ müəssisələri və təşkilatlarının əsaslı vəsait qoyuluşu (milyon manat hesabı ilə)**

| İllər | Dövlət kooperativ müəssisə təşkilatlarına kapital qoyuluşu | Mənzil tikintisi üçün kapital qoyuluşu |
|---|---|---|
| 1960 | 5 | 6,985 |
| 1965 | 10 | 1,8 |
| 1970 | 20 | 2,4 |
| 1975 | 24 | 3,8 |
| 1980 | 32 | 4,7 |

**Dağlıq Qarabağda kənd təsərrüfatı bitkilərinin toxum səpilmiş sahələri**

| İllər | Səpin sahələrinin məcmuəsi | O cümlədən | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Dənli bitkilər | Texniki bitkilər | O.s. tütün | Kartof, tərəvəz, bostan bitkiləri | O.s. karto | Yem bitkiləri |
| 1965 | 53,6 | 31,4 | 2,5 | 0,25 | 0,96 | 0,46 | 18,3 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1970 | 68,8 | 41,6 | 1,6 | 0,22 | 0,35 | 0,35 | 24.6 |
| 1975 | 62,0 | 29,8 | 0,23 | 0,28 | 0,94 | 0,37 | 30.8 |
| 1980 | 61,4 | 31,1 | 0,23 | 0,3 | 0,86 | 0,37 | 29,4 |

**1960-1980-ci illərdə Azərbaycan hökumətinin Dağlıq Qarabağın kəndlərinin inkişafına ayırdığı kreditlərin məbləği (min manat)**

| İllər | Kredit məbləği | İllər | Kredit məbləği |
|---|---|---|---|
| 1966 | 789 | 1973 | 1268 |
| 1967 | 978 | 1974 | 1320 |
| 1968 | 1003 | 1975 | 1084 |
| 1969 | 1048 | 1976 | 1257 |
| 1970 | 1223 | 1977 | 1182 |
| 1971 | 926 | 1978 | 1296 |
| 1972 | 1176 | 1979 | 1298 |

**1965-1987-ci illər ərzində iqtisadi və sosial inkişafın bəzi müqayisəli göstəricilər**

| Göstəricilər | Azərbaycan SSR | | | o cümlədən Naxçıvan MSSR | | | DQMV | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 1965 | 1981 | 1987 | 1965 | 1981 | 1987 | 1965 | 1981 | 1987 |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| Əhalinin 10 min nəfər hesabı ilə sənaye işçilərinin sayı | 614 | 663 | 686 | 264 | 311 | 387 | 598 | 611 | 657 |
| Adambaşına düşən ümumi kənd təsərrüfatı məhsulunun həcmi (manat) | 303 | 597 | 588 | 216 | 598 | 501 | 318 | 625 | 692 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Adambaşına düşən pərakəndə ticarət dövriyyəsinin həcmi (man.) | 292 | 647 | 717 | 179 | 420 | 516 | 640 | 642 | 683 |
| 10 min nəfər hesabı ilə pərakəndə ticarət müəssisələrinin miqdarı (vahid) | 30 | 28 | 28 | 27 | 24 | 25 | 29 | 42 | 40 |
| 10 min nəfər hesabı ilə mağazaların ticarət sahəsi (kv.km.) | 781 | 1127 | 1293 | - | 1319 | 1409 | - | 1743 | 1932 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 sakinə düşən məişət xidmətinin həcmi (rubl) | 4,83 | 20,38 | 30,23 | 3,42 | 15,20 | 21,86 | 6,89 | 31,61 | 41,37 |
| O cümlədən kənd yerlərində | 0,99 | 9,84 | 16,68 | 0,94 | 10,76 | 14,84 | 6,89 | 31,56 | 41,25 |
| 10 min nəfər hesabı ilə məişət xidməti emalatxanalarının miqdarı (vahid) | 12 | 15 | 17 | 13 | 23 | 29 | 25 | 34 | 35 |
| O cümlədən kənd yerlərində | 5 | 12 | 14 | 8 | 20 | 21 | 16 | 29 | 32 |
| 1 sakinə düşən mənzil sahəsi (kv.m.) | - | 10,0 | 10,9 | - | 9,0 | 9,5 | - | 14,1 | 14,6 |
| O cümlədən şəhər yerlərində | 8,8 | 11,5 | 12,2 | 9,2 | 10,7 | 11,4 | 8,4 | 14,16 | 14,6 |
| kənd yerlərində | - | 8,3 | 9,2 | - | 8,5 | 8,8 | - | 13,7 | 14,6 |
| Şəhər yerində şəxsi mülkiyyəti olan mənzil fondunun abadlıq təminat dərəcəsi (%-lə) – su kəməri ilə | - | 20,0 | 30,5 | - | - | 7,4 | - | 44,7 | 45,5 |
| - kanalizasiya ilə | - | 6,3 | 6,4 | - | - | - | - | 9,2 | 11,6 |
| - vanna ilə | - | 4,7 | 4,7 | - | - | - | - | 9,2 | 10,4 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
|---|---|---|---|---|---|---|---|---|---|
| - qazla təminat | - | 91,2 | 96,2 | - | 100 | 100 | - | 99,5 | 100 |
| 10 min nəfər hesabı ilə xəstəxana çarpayıları ilə təminat | 85,7 | 97,1 | 97,8 | 83,5 | 99,6 | 104,8 | 94,7 | 110,2 | 101,7 |
| 10 min nəfər hesabı ilə bütün ixtisaslardan olan həkimlərlə təminat | 23,8 | 33,9 | 38,6 | 12,3 | 23,6 | 25,9 | 14,9 | 31,4 | 39,1 |
| 10 min nəfər hesabı ilə orta tibb işçiləri ilə təminat | 67,4 | 85,4 | 93,8 | 57,7 | 76,0 | 75,9 | 88,6 | 139,2 | 122,7 |
| Məktəbəqədər uşaq müəssisələri ilə təminat (%-lə) | 10 | 20 | 20 | 8 | 10 | 12 | 21 | 32 | 35 |

**Dağlıq Qarabağda kənd əhalisinin real gəlirlərinin artması dinamikası**

| İllər | Kolxoz və sovxozlarda | | | Kolxozlarda | | |
|---|---|---|---|---|---|---|
| | K/t-nın məcmu məhsulu (əkinçilik və maldarlıq) | Əkinçilik məhsulları | Heyvandarlıq məhsulları | K/t-nın məcmu məhsulu (əkinçilik və maldarlıq) | Əkinçilik məhsulları | Heyvandarlıq məhsulları |
| 1966-1970 (ildə orta hesabla) | 44764 | 25329 | 19435 | 32253 | 16951 | 16302 |
| 1971-1975 ildə orta hesabla | 52467 | 32978 | 19489 | 34217 | 19158 | 15058 |
| 1976-1980 ildə orta hesabla | 77730 | 53376 | 24354 | 33366 | 20166 | 13200 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| O cümlədən 1980-ci ildə | 85860 | 53960 | 26977 | 36855 | 22275 | 14580 |

**Dağlıq Qarabağda kolxozların məcmu məhsulun artımı dinamikası**

| İllər | Kolxozların məcmu gəlirləri | | Həmçinin əmək haqqının ödənilməsinə istifadə olunan hissəsi | |
|---|---|---|---|---|
| | Məcmu gəlirlər | Faizlərlə | Məcmu gəlirlər | Faizlərlə |
| 1965 | 242,5 | 100 | 188,6 | 100 |
| 1970 | 305,9 | 141,0 | 226,9 | 159,2 |
| 1975 | 430,3 | 198,7 | 300,9 | 211,2 |
| 1980 | 550,7 | 255,0 | 381,8 | 268,0 |

**Dağlıq Qarabağda elektrik enerjisinin artım dinamikası**

| Enerjinin növləri | 1971-ci il | 1975-ci il | 1980-ci il |
|---|---|---|---|
| Məcmu elektrik enerjisi | 183 | 225 | 320 |
| Texniki mühərriklər | 182 | 225 | 305 |
| Onlardan: | | | |
| Traktor mühərrikləri | 75 | 89 | 93 |
| Taxılyığan kombayn mühərrikləri | 16 | 18 | 24 |
| Avtomobil mühərrikləri | 79 | 87 | 130 |
| Elektrik qurğuları və digər mexaniki mühərriklər | 12 | 31 | 43 |

**Dağlıq Qarabağda nikah və boşanma cədvəli (196-1970) (əhalinin 1000 nəfərinə nisbətən)**

| S | Şəhər və rayonların adı | Kəbin və ya nikah | | Boşanma | |
|---|---|---|---|---|---|
| | | 1965 | 1970 | 1965 | 1970 |
| 1. | Xankəndi şəhəri | 8,9 | 9,0 | 2,3 | 1,9 |
| 2. | Şuşa şəhəri | 6,9 | 6,6 | 2,8 | 2,3 |
| 3. | Xankəndi rayonu | 7,4 | 5,6 | 0,3 | 0,2 |
| 4. | Ağdərə rayonu | 4,8 | 5,4 | - | 0,2 |
| 5. | Xocavənd rayonu | 6,4 | 7,6 | 0,8 | 1,0 |
| 6. | Hadrut rayonu | 7,9 | 7,4 | 0,2 | 0,8 |
| 7. | Şuşa rayonu | 7,4 | 6,7 | - | - |
| 8. | DQMV üzrə (orta hesab) | 6,8 | 6,8 | 0,8 | 0,8 |

**DQMV-də kollektivləşmənin inkişaf dinamikası**

| İllər | Xankəndi r. | | Ağdərə r. | | Xocavənd r. | | Hadrut r. | | Şuşa r. | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | sayı | faizlə | sayı | faizlə | sayı | faizlə | sayı | faizlə | sayı | Faizlə |
| 1934 | 50 | 80,7 | 57 | 67,0 | 43 | 65,1 | 45 | 65,7 | 19 | 48,5 |
| 1937 | 48 | 94,5 | 57 | 91,7 | 41 | 85,8 | 45 | 91,0 | 16 | 77,4 |
| 1940 | 45 | 99,4 | 55 | 99,1 | 40 | 98,9 | 44 | 97,7 | 15 | 99,2 |
| 1945 | 45 | 99,9 | 55 | 99,9 | 40 | 99,8 | 43 | 100 | 12 | 100 |
| 1950 | 22 | 100 | 26 | 100 | 19 | 100 | 16 | 100 | 12 | 100 |
| 1955 | 20 | 100 | 25 | 100 | 18 | 100 | 16 | 100 | 8 | 100 |
| 1960 | 18 | 100 | 25 | 100 | 15 | 100 | 15 | 100 | 8 | 100 |
| 1965 | 14 | 100 | 20 | 100 | 15 | 100 | 13 | 100 | 7 | 100 |
| 1970 | 14 | 100 | 21 | 100 | 15 | 100 | 13 | 100 | 7 | 100 |

## XX FƏSİL

## ERMƏNİSTANIN SİLAHLI BİRLƏŞMƏLƏRİ TƏRƏFİNDƏN ŞUŞANIN İŞĞALI VƏ AĞIR NƏTİCƏLƏRİ

Zəngin maddi və mənəvi sərvətləri, strateji geosiyasi mövqeyi olan Azərbaycanı öz nüfuz dairəsində saxlamaq və ondan bəhrələnmək istəyən təcavüzkar qüvvələr Respublikamızda müstəqilliyin ilk illərində siyasi təcrübəsi az olan insanların hakimiyyəti ələ keçirməsi nəticəsində yaranmış ümumi böhrandan istifadə edərək hər cür qanlı vasitəyə əl atmış, Dağlıq Qarabağda milli münaqişə ocağı alovlandırılmış, iki xalq arasında qanlı mübarizəyə çevrilmiş və erməni silahlı birləşmələri tərəfindən azərbaycanlılara qarşı qanlı terror hadisələri törədilmişdir. Qarabağ müharibəsi maraqlı dövlətlərin Azərbaycanda mənafelərinin toqquşması, həmçinin Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməsi səbəbindən baş verdi və xalqımızı faciəyə düçar etdi. Azərbaycan tərəfi müharibədə 20 mindən çox övladını itirdi, torpaqlarımızın 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən ələ keçirildi. Bir milyondan artıq Azərbaycan vətəndaşı öz Vətənində məcburi köçkün və qaçqın həyatını yaşamağa məcbur edildi. Lakin dünya siyasətçisi Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə gəlməsi baş verə biləcək daha böyük faciələrin qarşısını aldı.

Qeyd edək ki, 1988-1994-cü illərdə Ermənistan silahlı birləşmələri Azərbaycanda xalqımıza qarşı bir sıra qanlı faciələr törətmişdir ki, bunlardan biri də Şuşa faciəsi idi. 1992-ci il mayın 7-dən 8-nə keçən gecə 6 min silahlı quldur 72 tankla 366-cı alayın köməyi ilə Şuşaya hücum etdi və mayın 9-da şəhər süqut etdi. 155 nəfər şəhid oldu, 167 nəfər yaralandı. Şuşa xəyanətin qurbanı oldu desək yanılmarıq. Bu faciə baş verməyə bilərdimi? İşğal prosesi, işğalın ağır nəticələri, müvəqqəti məğlubiyyətimizin obyektiv və subyektiv səbəbləri və digər məsələlərə aydınlıq gətirmək üçün «Şuşanın işğalı» prosesini bütövlükdə izləməyimiz yerinə düşərdi. Təqdim olunan mövzunun tarix-

şünaslığının təhlili vacib və əhəmiyyətli məsələlərdəndir. Çünki yuxarıda adıgedən mövzunun təhlili zamanı bəzi hallarda tariximiz təhrif olunmuş formada təqdim edilmişdir. Bütövlükdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, o cümlədən Şuşa faciəsi istər vətən, istərsə də dünya tarixşünaslığında böyük diqqət cəlb edən məsələlərdəndir. Sovet tarixşünaslığında bu münaqişənin tarixi, xüsusi olaraq XX yüzilliyin əvvəllərində Cənubi Qafqazda baş verən milli və etnik münaqişələr, sovet ideologiyasının tələblərinə uyğun araşdırılmış, baş verən münaqişənin tarixi kökləri, başlıca səbəbləri demək olar ki, diqqətdən kənarda qalmışdır. Sovet tarixçiləri beynəlmiləlçi ideologiyaya uğun olaraq, münaqişənin «xalqların dostluğu»na xələl gətirə bilməyəcək xarici qüvvələr tərəfindən qızışdırılan «kiçik toqquşma» kimi təqdim etmiş, bəzən isə bu münaqişələri «sinfi mübarizə» kimi qələmə vermişdir. Lakin 1988-ci ildən etibarən Ermənistanın Azərbaycana qarşı başlamış olduğu müharibə, azərbaycanlılara qarşı həyata keçirilən soyqırımları və SSRİ-də gedən ictimai-siyasi proseslər, tarixşünaslıqda bu münaqişənin tarixinə münasibəti dəyişməyə başladı.

1980-ci illərin sonlarından etibarən münaqişənin tarixi kökləri, gedişatı, həlli yolları, böyük dövlətlərin Azərbaycan və Ermənistanla bağlı siyasəti, beynəlxalq münasibətlərin və regional əlaqələrin inkişafına münaqişənin təsiri məsələləri siyasətçilərin, politoloqların və tarixçilərin diqqətini cəlb etmişdir. Tarixçilər tərəfindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin 1988-1994-cü illər ərzində başlıca mərhələləri və bir çox məqamları tədqiqata cəlb edilmiş, böyük sayda monoqrafiya və məqalələr çap edilmişdir. Bu əsərlərdə Ermənistanın Azərbaycana torpaq iddiaları, bu iddiaları doğuran şərait, tarixin müxtəlif mərhələlərində ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı siyasəti, Qərbi Azərbaycandan azərbaycanlıların zorla köçürülməsi siyasəti, müasir Azərbaycan Respublikasının ərazisində ermənilərin törətdikləri terror və soyqırımı siyasəti geniş şəkildə araşdırılmışdır. Yuxarıda qeyd etdiyimiz kimi, Dağlıq Qarabağ münaqişəsinin tarixinin aktual məsələlərinin bir çoxu vətən və dünya tarixşünaslığında geniş araş-

dırılmışdır. Bu tədqiqatlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərtərəfli araşdırmaq üçün zəruri elmi bazanı təşkil etmişdir. Vətən tarixşünaslığında 1980-ci illərin sonlarından başlayaraq Dağlıq Qarabağdakı qanlı hadisələr, erməni terroru, ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı siyasəti və Ermənistanın Azərbaycana qarşı hərbi təcavüz siyasəti Y.M.Mahmudovun, K.Şükürovun, R.Mehdiyevin, Q.Hacıyevin, T.Mustafazadənin, Ə.Abdullayevin, V.Arzumanlının, H.Cabbarlının, N.Məmmədovun, N.Mustafanın, S.Əsədovun, İ.Məmmədovun, R.İmanovun, A.Mirzəzadənin, İ.Niftəliyevin, İ.Zamanovun tədqiqatlarında geniş şəkildə araşdırılmışdır [1]. Bu tədqiqatlarda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin xronikası, başlıca hərbi-siyasi məqamları, erməni terrorunun və işğalının həqiqətləri öz əksini tapmışdır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq və regional münasibətlərə təsiri, beynəlxalq təşkilatlarda həlli istiqamətində görülən işlər, bu istiqamətdə Azərbaycan-ATƏT münasibətləri, həmçinin böyük dövlətlərin Qafqaz siyasətində münaqişə ilə bağlı məqamlar da Vətən tarixşünaslığında araşdırılan mövzulardandır. Bu tədqiqatlar sırasında Ə.Həsənovun, H.Cabbarlının, E.Əhmədovun, H.Məmmədovanın, F.İsmayılovun, V.İbayevin əsərlərini qeyd edə bilərik [2]. Adları çəkilən müəlliflərin araşdırmalarının böyük elmi əhəmiyyəti ilk növbədə, münaqişənin miqyasının və vurduğu ziyanın təkcə iki ölkənin siyasi, iqtisadi və sosial inkişafı üçün deyil, regional və beynəlxalq inkişaf üçün də böyük təhlükə olduğunu göstərməsi ilə bağlıdır.

Mahmudov Y., Mustafayev C. tərəfindən 2012-ci ildə nəşr edilmiş «Şuşa-Pənahabad» kitabında Şuşanın tarixi keçmişi, unikal tarixi memarlıq abidələri, görkəmli şəxsiyyətləri haqqında məlumatla yanaşı, şəhərin erməni vandallarının işğalından əvvəlki və işğaldan sonrakı mənzərəsini əks etdirən fotosənədlər də öz əksini tapmışdır. Kitabın «Ön sözün» də AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Yaqub Mahmudov göstərmişdir ki, «Bu gün qədim və təkrarsız mədəniyyət beşiyi olan

Şuşa Azərbaycanın işğal olunmuş 20 faizdən çox torpaqları ilə birlikdə erməni vandallarının əsarəti altındadır... Erməni vandallar Azərbaycanın digər ərazilərində olduğu kimi Şuşadakı qədim Azərbaycan abidələrini də məhv edirlər... Üzeyir Hacıbəylinin, Xan qızı Natavanın, Bülbülün güllələnmiş heykəlləri Şuşaya-Qarabağa Azərbaycan xalqının özü qaytarıb aparacaqdır. O gün gələcək! O gün uzaqda deyil: Mövzunun təhlilində yuxarıda adıgedən əsərdən bəhrələnmişik.

Bununla yanaşı, bu problemin bəzi məqamlarını özündə əks etdirən məqalə və əsərlərin bir neçəsini qeyd edə bilərik: T.Həsənovun «Ermənistan tərəfindən işğal olunmuş ərazilərin təbii ehtiyatları və ekologiyasına vurulan ziyanlar» adlı məqaləsində [3], A.Mirzəzadənin məqalə və monoqrafiyasında [4], Ə.Nəsimlinin «Qarabağın işğalının iqtisadi nəticələri» adlı məqaləsində [5] Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın iqtisadi inkişafına və mədəni quruculuq siyasətinə vurduğu ziyan, müstəqil Azərbaycan Respublika üçün münaqişənin yaratdığı neqativ amillər bu və ya digər dərəcədə öz əksini tapmışdır. Sovet Dağlıq Qarabağının sosial-iqtisadi və mədəni inkişaf quruculuğu məsələləri isə N.Məmmədovun monoqrafiyalarında və silsilə məqalələrində tədqiq edilmişdir. Onun «Şuşa və şuşalılar» (Bakı, 2004), «Azərbaycanın Şuşa qəzası 1900-1917-ci illərdə» (Bakı, 2005), «Azərbaycan SSR Dağlıq Qarabağ bölgəsinin şəhər və rayonlarının tarixi (XX yüzilliyin 20-90-cı illəri)», (Bakı, 2010) «Şuşa Qarabağın mərkəzi mədəniyyət ocağıdır» (Bakı, 1998) və digər əsərlərində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin baş verməsəbəbləri, gedişi və törətdiyi ağır nəticələr tədqiq edilmişdir. Fəslin obyekti araşdırılması üçün bu materialın böyük mənbə əhəmiyyəti vardır [10].

Yunis Hüseynov «Şuşa və salnaməsi» (Bakı, 2015) kitabında Şuşa şəhərinin keçdiyi tarixi yola nəzər salmış, Şuşa qalası haqqında gördüklərini, bildiklərini və eşitdiklərini qısa şəkildə izah etmişdir. Müəllif Şuşanın müqəddəs ocaqları, karvansaraları və hamamları haqqında dəqiq məlumat verir. Əsərdə

xeyli faydalı materiallar olsa da, bütöv Şuşanın tarixini əhatə etmir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ortaya çıxdığı illərdən etibarən həm Türkiyə, həm Rusiya, həm də Qərb tarixşünaslığında diqqət mərkəzində olmuşdur. Xüsusi olaraq Türkiyə tarixçiləri tərəfindən problemin tarixi kökləri, erməni terroru, ermənilərin azərbaycanlılara və türklərə qarşı törətdikləri soyqırımları geniş şəkildə araşdırılmışdır. Onların sırasında Ali Faik Demirin «Türk Dış Politikası perspektivindən Güney Kafkasiya», Mustafa Budakın «Azərbaycan-Ermənistan ilişkilerinde Dağlık Karabağ mkselesi ve Türkiyenin politikası», F.Çiloğlunun «Rusiya Federasyonunda ve Transkafkasiyada etnik çatışmalar», K.Kamerin «Başlpanğıcından barış sürecine Dağlık Karabağ çatışması», Mehmet Bicikin «Ermeni terörü. Soykırım yalanı», «C.Taşkıranın «Peçmişten Günümüze Karabağ meselesi», D.Yıldırım və C.Özönderin «Karabağ Dosyası» kimi əsərlərin, fəslin yazılmasında elmi-nəzəri əhəmiyyəti olmuşdur [6]. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi, Qarabağ məsələsinin siyasi tərəfləri, Rusiya və Türkiyə dövlətlərinin münaqişə ilə bağlı bölgədə yeritdikləri siyasət bu əsərlərin başlıca mövzusudur.

Rusiya və Qərb tarixşünaslığında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin bəzi məsələləri, hərbi-siyasi və beynəlxalq tərəfləri araşdırılmışdır. Bu tədqiqatlar sırasında A.Vasilkovun, T.Obçarenkonun, V.Georgiyevin, V.Krivopuskovun, M.Bassinin, E.Svantenin, Z.Baranın və digər müəlliflərin məqalə və kitablarını qeyd edə bilərik [7]. Ümumilikdə Rusiya tarixşünaslığı araşdırdığımız problemlə bağlı geniş miqyasda tədqiqatlara sahib deyil, tədqiqatların böyük bir hissəsi siyasi məsələləri əhatə edir və çox zaman qərəzli xarakter daşıyır. Qərb tarixşünaslığı üçün də eyni fikirləri söyləyə bilərik. Avropa və ABŞ tarixçiləri daha çox Cənubi Qafqazdakı ümumi geosiyasi vəziyyəti araşdırmış, başlıca diqqəti neft amilinə yönəltmişlər. Rusiya tarixşünaslığı üçün səciyyəvi olan hallardan biri də Ermənistanın siyasi, sosial, iqtisadi inkişaf xüsusiyyətlərinə böyük yer ayrılmasıdır. Bu müəlliflərin içərisində Ermənistanın

iqtisadi inkişaf tarixini araşdıran Y.Puzanovu, M.Vermişevi xüsusi qeyd etməliyik.

Elçin Əhmədovun «Ermənistanın Azərbaycan təcavüzü: təhlili xronika (1987-2011)» (Ensiklopedik nəşr. Bakı, 2012) adlı kitabında XX əsrin 80-ci illərinin ikinci yarısından başlayaraq Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və işğalçılıq siyasətinin indiyə qədər davam edən mərhələsinin təhlili xronikası verilmişdir. Son 25 il ərzində (1987-2011) Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə yanaşı, eyni zamanda dünya birliyinin bu işğalla bağlı mövqeyi və beynəlxalq təşkilatların münaqişəyə dair qəbul etdiyi sənədlər də kitabda təhlil edilir. Bundan əlavə, baş verən hadisələr xronoloji ardıcıllıqla təhlil edilən monoqrafiyada münaqişənin nizama salınması istiqamətində Azərbaycan dövlətinin mövqeyi öz əksini tapmış, beynəlxalq təşkilatların fəaliyyətindəki ziddiyyətli cəhətlərə, buraxılan nöqsanlara, eləcə də perspektivdə həlli mümkün və zəruri olan məsələlərə də diqqət yetirilmişdir.

Azərbaycan tarixinin müxtəlif dövrlərinə dair sənədlər və xəritələr, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal olunmuş əraziləri haqqında məlumatlar və fotolar, eləcə də erməni terror təşkilatlarının cinayətlərinin xronikası kitabın əlavələr hissəsində verilmişdir. Bununla yanaşı, münaqişənin nizama salınmasına dair BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO və İslam Əməkdaşlıq Təşkilatı tərəfindən qəbul edilmiş sənədlər də ardıcıllıqla və sistemli şəkildə əlavələr bölməsində öz əksini tapmışdır. Qeyd edək ki, Ermənistanın siyasi, hərbi, iqtisadi və sosial inkişaf xüsusiyyətləri Azərbaycan tədqiqatçısı H.Cabbarlının da monoqrafiya və silsilə məqalələrində geniş şəkildə araşdırılmışdır və buradakı mühakimələr və nəticələr Rusiya müəlliflərindən fərqli olaraq, obyektiv xarakter daşıyır [8].

Araşdırdığımız problem üzrə istifadə etdiyimiz ədəbiyyat içərisində erməni müəlliflərinin tədqiqatlarını da qeyd etmək lazımdır. Ümumiyyətlə, 1980-ci illərin sonu – 1990-cı illərin birinci yarısında, yəni yuxarıda qeyd etdiyimiz kimi, Ermənistan cəmiyyəti «sosial gərginlik» keçirdiyi dövrdə tarixşünaslıqda

münaqişənin daha çox siyasi tərəfləri, tarixi aspektləri araşdırılmışdır. Lakin cəmiyyətdə baş verən sosial münaqişələr, yaşanan böyük iqtisadi problemlər, vətəndaş cəmiyyəti qurulmasına mane olan siyasi qarşıdurmalar tarixşünaslıqda da bəzi dəyişikliklər doğurdu. Ermənistan tarixçiləri Ermənistanın sosial və iqtisadi inkişaf xüsusiyyətlərini öyrənməyə meyl etməyə başladı. Bu tədqiqatlar başlıca olaraq Ermənistanın Rusiya və İran ilə münasibətlərinə, qondarma erməni soyqırımının beynəlxalq arenada tanıdılmasına, Ermənistanın inteqrasiya problemlərinə həsr olunmuşdur ki, bu da anlaşılandır. Azərbaycana qarşı həyata keçirmiş olduğu hərbi təcavüzün və terrorun ağır nəticələrini aradan qaldırmağa müyəssər olmuş Azərbaycan Respublikasından fərqli olaraq, bu gün Ermənistan Respublikası həm siyasi, həm iqtisadi, həm sosial böhran yaşamaqla yanaşı, beynəlxalq aləmdə də, demək olar ki, təcrid vəziyyətindədir: Rusiyanı və İranı çıxmaq şərtilə, bu ölkənin inteqrasiyası çox zəif templərlə gedir. Bu səbəbdən də, erməni tarixçilərinin və iqtisadçılarının araşdırmalarında vəziyyətdən çıxış yolunun axtarılması cəhdləri təəccüblü deyil. Bu tədqiqatçılar içərisində V.Aqlyanı, A.Qasparyanı, Q.KEryanı, A.Manasyanı, A.Melkunyanı, A.Melyanı, İ.Muradyanı, A.Sarqsyanı, A.Ayvazyanı və digərlərini göstərmək olar [9].

Beləliklə, qısa tarixşünaslıq icmalından da göründüyü kimi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi, xronikası, siyasi və hərbi tərəfləri geniş şəkildə tədqiqata cəlb edilsə də, Azərbaycanın Şuşa rayonunun işğalı və onun törətdiyi ağır nəticələr nə Vətən, nə də dünya tarixşünaslığında indiyədək araşdırılmamışdır və tədqiqi elmi zəruriyyət kəsb edir.

«Şuşanın işğalı» mövzusunun araşdırılması arxiv materialına və statistik toplulardakı məlumatlara istinad edilməsini zəruri etmişdir. Bu materiallarının içərisində Azərbaycan Respublikasındakı dövlət arxivlərindəki materiallarla yanaşı, bir sıra dövlət qurumlarının hesabatları və arayışları, həmçinin ayrı-ayrı dövlət başçılarının və siyasətçilərinin məruzələri, çıxışları, beynəlxalq təşkilatların hesabatları və rəsmi sənədləri, həmçinin nəşr olunmuş sənədlər toplusu da yer almışdır [11, 12].

Mövzunun mənbə bazasının əhəmiyyətli bir hissəsini də Azərbaycan Respublikası Dövlət Arxivinin və Azərbaycan Respublikasının Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin fondlarındakı sənədlər təşkil etmişdir: Bunlar başlıca olaraq aşağıdakılardır: ARDA, fond 27, siy. 1, iş 700; ARDA, fond 28, siy. 1; ARDA, f. 970, siy. 19; ARDA, f. 28, siy. 1, iş 201; ARPİİSSA, f.1, siy.1, iş 18; ARPİİSSA, f. 1, siy. 83, iş 205; ARPİİSSA, f.1, siy. 169, iş 249; ARPİİSSA, f.27, siy. 2, iş 54; ARPİİSSA, f.276, siy. 9, iş 47; ARPİİSSA, f. 276, siy. 9, iş 48; ARPİİSSA, f. 276, siy. 9, iş 249; ARPİİSSA, f. 410, siy. 1, iş 170; ARPİİSSA, f.609, siy. 21 və digərləri.

Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışları, nitqləri, bəyanatları, müsahibələri, məktubları, müraciətləri və fərmanları mövzunun mənbə bazasına daxil edilmişdir [13].

Erməni siyasətçilərinin və «uzaqgörən» dövlət xadimlərinin «Böyük Ermənistan» dövləti yaratmaq planının növbəti dalğası Qarabağ torpaqları oldu. M.Qorbaçovun «humanist, demokratik sosializm» qurmaq şüarını qəbul etməsi (1988-ci il) və bu məqsədlə «aşkarlıq» xəttinin elan olunmasından istifadə edən erməni millətçi ünsürlərinin fəaliyyəti daha da genişləndi. Ermənistanın informasiya vasitələri və dövrü mətbuatı antiazərbaycan təbliğatını gücləndirdi. Zori Balayan, Xanzadyan, Kaptukiyan, Hambarsumyan, Aqambekyan, İkitiyan və başqa erməni millətçiləri dünyanın müxtəlif ölkələrində yalan, böhtanlarla tariximizi saxtalaşdırır və «Böyük Ermənistan» yaratmaq siyasətini pərdələyərək, Dağlıq Qarabağda yaşayan ermənilərin iqtisadi vəziyyətinin çətin olmasını və onların Ermənistana birləşdirilməsi fikrini təbliğ edirdilər. Tezliklə «Qarabağ» və «Krunq» («Durna») təşkilatları açıq şəkildə fəaliyyətə başladı. Milli ədavətin ilk qurbanları Ermənistanda yaşayan azərbaycanlılar oldu. «Ermənistanı türklərdən təmizləməli!», «Ermənistan təkcə ermənilərin olmalıdır!» şüarlarını irəli sürən erməni millətçiləri rus əsgərlərinin köməyindən istifadə edərək minlərlə azərbaycanlını öz dədə-baba yurdlarından çox dəhşətli şəkildə qovdular.

Ermənilərin dəhşətli və cinayətkar hücumlarına məruz qalan, xəyanətin və satqınlığın qurbanı olan ərazilərimizdən biri də, Azərbaycanın qədim tarixə malik şəhərlərindən biri olan Şuşadır. Yeri gəlmişkən qeyd edək ki, Şuşa şəhəri üç dəfə, yəni 1905, 1907, 1920-ci illərdə erməni təcavüzkarlığından zərər çəkmişdir. 1920-ci ildə isə şəhərin üçdə iki hissəsi yandırılmışdır. 1988-ci il fevralın 12-də Dağlıq Qarabağda nümayişlər başlandı. Fevralın 20-də DQMV-nin Xalq Deputatları Sovetinin növbədənkənar sessiyası - DQMV-nin Azərbaycan SSR-nin tərkibindən Ermənistan SSR-in tərkibinə keçməsi barədə Azərbaycan Ali Sovetinə və Ermənistan Ali Sovetinə məktubla müraciət etdi [23]. Bu hadisədən dəhşətə gələn Ağdam camaatı 1988-ci il fevralın 22-23-də ayağa qalxdı. Xankəndi üzərinə yürüş başladı. Lakin çox təəssüflər olsun ki, Azərbaycanın Ali hakimiyyət orqanları ayağa qalxan xalqı susdurdu. Yüzlərlə adam həbs edildi. Bu isə ilk növbədə xalqın azadlıq mübarizəsi ruhunu qırmaq demək idi. Müqayisəyə fikir verin, bir tərəf - Ermənistan - xalqı qızışdırır, silahlandırır və təhrik edir, ikinci tərəf - Azərbaycan - xalqı bu işdən uzaqlaşdırır, həbs edir, cərimə edir və sair. Belə bir şəraitdə 1000 ailə Ermənistandan Şuşaya pənah gətirdi. Təəssüflər olsun ki, DQMV-nin rəhbəri Poqosyanın Moskvaya zəngindən sonra Əbdürrəhman Vəzirov Şuşaya gələn Ermənistan qaçqınlarının buradan məcburi şəkildə köçürülməsi kompaniyasına başladı. Müxtəlif rayonlardan göndərilmiş maşınlar Ermənistan azərbaycanlılarını aran rayonlarına köçürdülər. Köçürülməyə belə bir don geyindirildi ki, guya Ermənistan azərbaycanlıları bütün ömrü boyu heyvandarlıqla məşğul olmuşlar və onlar kurort şəhəri Şuşada yaşaya bilməzlər. Eyni zamanda, Azərbaycan rəhbərliyi bildirdi ki, guya qaçqın qardaş və bacılarımız Şuşada yerləşdirilsələr, onlar bir daha geri (Ermənistana) qayıtmayacaqlar. Beləliklə, Şuşaya pənah gətirən azərbaycanlı qaçqınlar oradan məcburi şəkildə köçürüldülər. Halbuki, onlar Şuşada qalsaydılar, böyük qüvvə ola bilərdilər. Elə buna görə də ermənilərin təhriki ilə onlar Şuşadan məcburi köçürüldülər.

Dağlıq Qarabağda yaşayan əhalinin ən böyük faciələrindən biri DQMV-in Xalq Deputatları Sovetinin 1988-ci il iyunun 21-də İttifaq hökumətinin tərkibinə daxil edilməsi haqda xahişi, bütün Qarabağ faciəsinin başlanğıcı üçün əsas oldu. Həmin vaxt Azərbaycan rəhbərliyi bu qərarın qəbul edilməməsi üçün heç bir etiraz etmədi. Nəticədə 1988-ci il sentyabrından DQMV-nə rəhbərlik İttifaq hökumətinin səlahiyyətli nümayəndəsi Arkadi İvanoviç Voliskiyə tapşırıldı. Bu hadisə faciələrin başlanğıcı demək idi. A.Volınskinin hakimiyyətə gəlməsi ilə qısa bir müddətdə, 1988-ci il sentyabrın 18-21-də Xankəndində yaşayan 12 min azərbaycanlı məqsədli şəkildə oradan qovuldu, yüzlərlə ev yandırıldı [26]. Həmin vaxt Şuşada yaşayan ermənilər Şuşanı tərk etdilər. Erməni rəhbərliyi azərbaycanlılarda olan silahların yığılması üçün M.Qorbaçova məktubla müraciət etdilər. Qorbaçovun fərmanına əsasən Volskinin rəhbərlik etdiyi komitə bu prosesi qısa bir müddətdə həyata keçirdi. Azərbaycanlılar yaşadığı 55 yaşayış məntəqəsindən bütün silahlar yığılaraq Xankəndinə gətirildi və ermənilərə verildi. Belə bir şəraitdə DQMV-də «qadağan saatı» elan olundu. «Qadağan saatı»ndan istifadə edən ermənilər Gorus-Laçın yolundan istifadə edərək Dağlıq Qarabağa külli miqdarda silah gətirdilər. Azərbaycan hökumətinin təhriki ilə A.Volski şuşalılar və buraya bitişik azərbaycanlılar tərəfindən SSRİ Ali Sovetinə deputat seçildi. Artıq A.Volski öz «işini» layiqincə yerinə yetirmişdi. Yəni bütün azərbaycanlılardan silahlar yığılmış, ermənilər silahlandırılmış, külli miqdarda silahlar Gəncədən gətirilib Xankəndindəki 366-cı alaya təhvil verilmişdi. Azərbaycandan deputat seçilən A.Volski Moskvaya qayıtdı.

Polyaniçkonun rəhbərliyi ilə Dağlıq Qarabağ Təşkilat Komitəsinin yaradılması vəziyyəti daha da gərginləşdirdi. Bu vaxtdan Dağlıq Qarabağın işğalına başlandı. Xankəndində yaşayan bütün azərbaycanlılar oradan qovuldular. 1991-ci ilin avqustunda Ağdərənin İmarət-Qərvənd kəndi yandırıldı. Həmin ilin oktyabrında Tuğ işğal edildi. Noyabrın 18-də isə Xocavənd ələ keçirildi. Bundan sonra Şuşanın çətin günləri başlandı. Şuşalıların başqa rayonlarla əlaqəsi vertolyotlar vasitəsilə həyata

keçirilirdi. Həmin vertolyotlar isə tez-tez vurulurdu. 1991-ci il noyabrın 21-də Şuşa rayon Partiya komitəsinin birinci katibi Vaqif Cəfərovun mindiyi vertolyot ermənilər tərəfindən vurulmuşdur [44].

XX yüzilliyin 80-ci illərində Şuşada erməni terroru daha geniş xarakter almış və yüzlərlə azərbaycanlının həlakına səbəb olmuşdur. Bunlardan bəzilərini xatırlamaq yerinə düşərdi. Belə ki, 1989-cu il avqustun 28-də Şuşadan respublikamızın müxtəlif regionlarına gedən 9 avtobus, 1 yük maşını erməni quldurlarının hücumuna məruz qalmış və partladılmışdır. Təkcə həmin gündə 200-dən çox azərbaycanlı ağır yaralanmışdır. Yenə həmin ilin 6 noyabrında erməni terrorçuları tərəfindən Ağdam-Şuşa avtomobil yolunda Ağa Körpüsünün partladılması nəticəsində Şuşanın ətraf rayonlarla əlaqəsi kəsilir və Şuşa şəhəri blokada vəziyyətinə düşür.

1990-cı il yanvarın 5-də erməni terrorçuları Şuşa şəhərini su ilə təmin edən su kəmərini partlatmış və şəhəri susuz qoymuşlar. 1991-ci il yanvarın 9-da isə on nəfərdən ibarət erməni terror dəstəsi Laçın-Şuşa yolunun 5-ci kilometrliyində «Molodyoj Azerbaydjan» qəzetinin müxbiri Salatın Əsgərova və 5 nəfər hərbi qulluqçular (padpalkovnik S.Larianov, mayor İ.İvanov, serjant İ.Qoçkin) pusqudan çıxaraq avtomobili atəşə tutmuş və onları öldürmüşlər. Həmin il mart ayının 14-də Ağdam-Şuşa marşrutu üzrə hərəkət edən avtobusun erməni terrorçuları tərəfindən partladılması nəticəsində 3 nəfər həlak olmuş, onlarla azərbaycanlı yaralanmışdır. 23 avqustda isə Şuşa-Cəmilli yolunda hərəkət edən avtomobil erməni quldurları tərəfindən atəşə tutulmuş 4 nəfər həlak olmuş, 12 nəfər ağır yaralanmışdır.

Erməni vandalları terrorun bütün üsullarından istifadə edirdilər. Onlar meşələrdə gizlənir, qarşılarına çıxan bütün nəqliyyat vasitələrini partladır, ayrı-ayrı adamları girov götürür və ya güllələyir, yüzlərlə mal-qara sürülərini aparırdılar. Erməni terrorçuları 1991-ci ilin 18 oktyabrda Şuşanın Qaladərəsində 2 nəfəri, həmin ilin 5 noyabrında Şuşanın Nəbilər kəndində 1 nəfəri, 11 dekabrda Kərkicahandan 2 nəfəri qətlə yetirmiş, 18

nəfəri yaralanmışlar. 1991-ci il 24 noyabrda isə Şuşanın Xankəndindən keçən telefon rabitə xətti ermənilər tərəfindən partladılmış, Şuşanın ətraf aləmlə əlaqələri kəsilmişdir.

1992-ci ilin 17 yanvarında Şuşanın Kosalar və Malıbəyli kəndlərindən 2 nəfər, 25 yanvarında Xəlfəli kəndindən 4 nəfər erməni quldurları tərəfindən qətlə yetirilmiş, on beş nəfər ağır yaralanmışdır. Həmin ilin 28 yanvarında isə Ağdamdan Şuşaya uçan Mİ-8 vertolyotu erməni terrorçuları tərəfindən raketlə vurulmuş və vertolyotdakı 45 nəfər faciəli şəkildə həlak olmuşdu. Bu və ya digər faciələr sonrakı dövrdə də davam etmiş və yüzlərlə azərbaycanlı erməni terrorun qurbanına çevrilmişdir.

1991-ci il dekabrın 1-də erməni quldurları Kərkicahanı mühasirə edib, burada yaşayanları güclü atəşə tutdular. Qəsəbədəki 30 ev yandırıldı, yüzlərlə dinc əhali öldürüldü və yaralandı. Salamat qalan az miqdarda əhali Şuşa şəhərinə pənah gətirdi. Şuşada vəziyyət gərgin xarakter almışdı. Bir qrup Şuşa ziyalısı Azərbaycan rəhbərliyindən kömək almaq üçün Bakıya gəlsə də, bunun heç bir nəticəsi olmadı. Əksinə, həmin hadisədən sonra xalqın qabağına düşüb onların haqq sözünü demək üçün Bakıya gəldiyinə görə Şuşa şəhər İcra hakimiyyətinin başçısı Mikayıl Gözəlov 1991-ci il dekabrın 11-də öz otağında öldürüldü. 1991-ci il dekabrın 11 və 12-də erməni quldurları «Alazan» raketlərindən, müasir tipli toplardan, qrad qurğularından Şuşa şəhərini aramsız top atəşinə tutmuşdular. Hücum vaxtı çoxlu bina dağılmış və dinc sakin yaralanmışdı. Həmin ilin dekabrın 26-da Şuşanın Topxana, Şuşakənd və Naiblər kəndləri erməni quldurlarının şiddətli hücumlarına məruz qaldı. Kəndlər həm də top-raket atəşinə tutuldu. Şuşa şəhərini elektriklə təmin edən xətt partladıldı. Yüzlərlə ölən, yaralanan oldu və evlər yandırıldı. Erməni quldurları hər cür çirkin əməllərdən istifadə edirdilər. 1992-ci il yanvarın 22-də pusquda duran erməni quldurları Şuşadan laçına gedən avtomobili güllləboran edib içərisindəki hamilə qadını, ağsaçlı ananı, ağsaqqal qocanı, 2 yaşlı uşağı və sürücünü qəddarcasına güllələmişdilər [55]. Ermənilərin məqsədi ondan ibarət idi ki, Şuşa əhalisinin gözünü qırıb, onları ərazidən köçürmək istəyir-

dilər, lakin şuşalılar məğrur və nikbin idilər. Onlar sabaha ümidlə baxırdılar.

Şuşada baş vermiş faciəli hadisələrdən biri də 1992-ci il yanvarın 25-26-da baş verdi. Həmin əməliyyat mərkəzin göstərişi ilə məqsədli şəkildə həyata keçirildi. Bir növ bu əməliyyat 20 yanvar faciəsini xatırladırdı. Şuşalıların gözləri qarşısında baş verən bu hadisədə 120 nəfər mərd övladımızı itirdik. Yüzlərlə adam şikəst edildi. Sanki, rəhbərlik demək istəyirdi ki, «Azərbaycan Rusiyasız heç nə edə bilməz, Rusiyaya birləşsək hər şey edə bilərik». Belə bir fikri xalqa qəbul etdirmək üçün bu cür «əməliyyat» keçirildi. Bu faciə Şuşalıların başına gətirilən axırıncı soyqırımı deyildi. 1992-ci il fevralın 28-də Ağdamdan Şuşaya uçan vertolyot erməni quldurları tərəfindən vuruldu. Bu zaman 47 nəfər həlak oldu. 47 nəfər şuşalı parça-parça olub yerə töküldü [55].

1992-ci ilin martında erməni quldurları Şuşanın Malıbəyli və Quşçular kəndinə hücum etdilər. Yerli əhalidən 42 nəfər öldürüldü. Hər 2 kənd ermənilər tərəfindən ələ keçirildi və yandırıldı. Şuşaya erməni həmlələri ara vermirdi. 1992-ci il martın 15-dən 30-dək 15.000 əhalisi olan Şuşada 250 müdafiəçi həlak olmuşdu [173]. Şuşa matəm içində olsa da, şuşalılar ləyaqətini, qürurunu, doğma torpağa məhəbbətini itirmirdilər. Onlar döyüşür və kimdənsə kömək gözləyir, sabaha ümidlə baxırdılar. Lakin Ali hakimiyyət orqanları Şuşanı düşmənə təhvil vermək üçün yerli əhalini köçürürdülər. Şuşa əhalisi iki dəfə 1992-ci il fevralın 28-də və həmin ilin martın 28-də məcburi şəkildə köçürülmüşlər. Birinci köçürülmədə 1000 maşın gətirilmiş və 10 günün içərisində yüzlərlə ailə Respublikamızın 61 rayonunda yerləşdirilmişdi. Kişilər Şuşanın müdafiəsi üçün kazarmalara yığılmışdılar, özləri də silahsız idilər [174].

1992-ci ilin martında Baş Güneypəyə, Orta Güneypəyə, Manikli kəndləri ermənilər tərəfindən işğal edildi və yandırıldı. Beləliklə, 1992-ci ilin martında Şuşa istisna olmaqla, Dağlıq Qarabağda azərbaycanlılar yaşayan 55 yaşayış məntəqəsi 366-cı alayın və erməni qüvvələrinin birgə fəaliyyəti nəticəsində işğal edildi.

1992-ci il aprelin 1-də gecə saat 2-3 radələrində Rusiya təyyarələri Şuşa üzərinə yanan şarlar töküb şəhərin müdafiə mövqelərinin şəklini çəkdi. 1992-ci il aprelin 9-da Rusiyanın Xarici İşlər Naziri Andrey Kozırev Şuşaya gəldi. Xankəndindən Moskvaya dönən Kozırev mətbuat vasitəsilə bildirdi ki, ermənilər tezliklə 15 minlik canlı qüvvə ilə Şuşa şəhərini tamamilə ələ keçirməyə hazırlaşırlar.

Şuşanın müdafiəsi üçün bəzi tədbirlər görüldü. Təcili sürətdə Bala Kirsə yol çəkildi. Həmin mövqeyə 1 tank, 1 qrad qurğusu, 1 top aparıldı. 120 nəfərlik Şuşa könüllüsü həmin yüksəkliyə göndərildi. Bu yüksəklik Azərbaycan ordusunun ən yaxşı postu olsa da, həmin axşam Rusiya televiziyasının «Vesti» proqramı Kirs mövqeyindən, döyüşçülərdən müsahibə təqdim etdi. «Vesti»nin kimə xidmət etdiyi məlumdur. Eyni zamanda 2600 metr yüksəklikdə yerləşən ən yaxşı mövqeyimiz bizim ordunun hərbi sirri idi. Hansı ki, bu sirr televiziya vasitəsilə translyasiya edilmiş ola. Buna, Vətənə xəyanətdən başqa ayrı ad vermək olmaz.

Belə bir çətin şəraitdə Şuşanın yerli əhalisi şəhərin müdafiəsi üçün 625 nəfərlik könüllülər dəstəsi yaratdı. Lakin bunların hamısına silah vermək mümkün olmadı. Yalnız 85 nəfərə silah verildi [177].

1992-ci il mayın 7-də Azərbaycan Müdafiə Nazirliyinin əmri ilə Şuşa ətrafında yerləşdirilən döyüşçülərimiz oradan çıxarıldı. Eyni zamanda bütün texnika da oradan çıxarılıb gizlədildi. Mina basdırılmış ərazilər minadan tamamilə təmizləndi. Bütün bunlar xalqın gözü qarşısında baş verirdi. Ona görə də Ali hakimiyyət orqanları öz xəyanətlərinə don geyindirmək üçün bildirdilər ki, guya mayın 8-də Şuşaya Qızıl Xaç Cəmiyyəti və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının nümayəndələri gələcəklər. Eyni zamanda bu vaxt Şuşadakı mövqelərdən 400 nəfər hərbiçi əsgər «məzuniyyətə» buraxıldı [178].

1992-ci il 7-8 may – İranın təşəbbüsü ilə Tehranda Azərbaycan və Ermənistan rəhbərləri arasında üçtərəfli görüş keçirildi. Münaqişənin nizama salınmasına dair üçtərəfli danışıq-

ların yekunlarına əsasən, tərəflər Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair birgə sənəd imzalamışlar. Sənəddə problemin mərhələ-mərhələ həll edilməsi, o cümlədən atəşin dayandırılması, münaqişə zonasında xarici müşahidəçilərin yerləşdirilməsi, nəqliyyat yollarının açılması, əsirlərin dəyişdirilməsi, habelə Ermənistan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin yaxşılaşdırılması nəzərdə tutulmuşdur. Sonralar aydın oldu ki, görüş zamanı Azərbaycan-Ermənistan sərhədi boyu və Qarabağın dağlıq hissəsində atəşin dayandırılmasından erməni tərəfi əslində başqa məqsəd güdürmüş. Məhz bu görüş Ermənistana beynəlxalq ictimaiyyətindən öz niyyətlərini gizlətmək üçün lazım imiş. Heç şübhəsiz ki, Ermənistan rəhbərliyi elə həmin gün Şuşaya ediləcək hücum əməliyyatından və hazırlanmış plandan əvvəlcədən xəbərdar olmuşdur. Çünki Şuşanın işğalı Ermənistan rəhbərliyinin Tehranda danışıqlar apardığı, atəşi dayandırmağın tələb edildiyi vaxtla üst-üstə düşür və bağlanan sülh müqaviləsi mürəkkəbin quruduğu ana qədər qüvvədə qalmışdır. Bununla yanaşı, ermənilər həmişə olduğu kimi, hücum ərəfəsində bütün dünyaya Şuşadan Xankəndinə güclü hücumlar edilməsi barədə dezinformasiya yaymışdılar.

Mayın 7-də aparılan «xüsusi hazırlıq» işləri nəticəsiz qalmadı. Elə həmin gecə Şuşanın ən yaxşı mövqeyi 2600 metr yüksəklikdə yerləşən «Bala Kirs» erməni quldurları tərəfindən ələ keçirildi. Bu yüksəkliyin ələ keçirilməsi Şuşanın arxasına keçmək və oradan şəhəri birbaşa bombardman etmək demək idi. Kirsdə 120 əsgərdən 80-ni «məzuniyyətə» göndərilmiş, yerdə qalan 40 nəfər isə ATƏT və Qırmızı Xaç Cəmiyyətinin «gəlişi» münasibətilə yeyib içib yatmışdı. Yeri gəlmişkən onu da qeyd edək ki, Erməni faşistləri həmin 40 nəfər əsgərimizi faciəli şəkildə qətlə yetirmişdilər. Buradakı «Qrad» qurğuları, toplar, tanklar ermənilərin əlinə keçmişdi. Gecə saat 2-də Şuşa şəhəri 4 tərəfdən güclü top atəşinə tutuldu. 366-cı Alay Şuşaya hücum etməkdə ermənilərə yardımçı oldu. 1992-ci il mayın 7-dən 8-nə keçən gecə 15 minlik təpədən dırnağadək silahlanmış quldurlar Şuşaya hücum etdilər. Onlar əvvəlcə şəhərin sol tərəfini, həbsxananı, xəstəxananı ələ keçirdilər. Mayın 8-də gündüz, olan-

qalan qüvvə ilə ermənilərə nə qədər müqavimət göstərilsə də, Şuşanı saxlamaq mümkün olmadı. Artıq xəyanət öz işini görmüşdü. Xain düşmən üçün belə bir fürsət daha ələ düşməyəcəkdi. Hiyləgərlər belə bir fürsətdən məharətlə istifadə etdilər. Bakıda isə vəzifə düşkünləri hakimiyyət «müharibəsi»nə qoşulmuşdular. Xocalı müsibəti, Malıbəyli və Qaradağlı faciələri şərəfsiz rəhbərliyin hissiyyatına təsir etmirdi. Beləliklə, Azərbaycan üçün çox böyük hərbi strateji əhəmiyyətə malik olan, böyük bir tarixi abidə, Azərbaycanın incisi - Şuşa şəhəri erməni quldurları tərəfindən ələ keçirildi. 1992-ci il mayın əvvəllərində Şuşa, Dağlıq Qarabağda azərbaycanlılar yaşayan yeganə məntəqə idi. Mayın 7-dən 8-nə keçən gecə son ümid nöqtəsi - Şuşadan gələn işıq da söndü. Tarix boyu düşmənlərinin göz dağı, alınmaz qala sayılan Şuşa şəhəri xəyanətin, nankorluğun qurbanına çevrilərək süqut etdi. Məhəmməd Peyğəmbər hədislərinin birində demişdir ki, millətin içərisində xəyanət olmasa, o millət heç vaxt məğlub etmək olmaz. Bu xəyanət şuşalılara heç də asan başa gəlmədi [179]. Azərbaycanın qədim musiqi və mədəniyyət mərkəzi olan Şuşa şəhərini ələ keçirməklə, Ermənistan ordusu tərəfindən bütün Yuxarı Qarabağ işğal edilməsi demək idi. Ermənilərin öz məlumatlarına görə, Şuşaya hücumda 100-ə qədər zirehli maşın və tank, 11 min nəfər canlı qüvvə iştirak etmişdi. Ermənilərin tərəfindən xaricdən pulla gətirilmiş muzdlular da döyüşürdülər.

Nəticədə, 289 kvadrat kilometrlik ərazisi, 24 min nəfər əhalisi, 1 şəhər və 30 kənddən ibarət olan Şuşa rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Şuşa uğurunda döyüşlərdə 195 nəfər şəhid oldu, 165 nəfər yaralandı, 58 nəfər isə itkin düşdü. Ermənilər tərəfindən əsir götürülmüş və Şuşa türməsində saxlanılan 114 nəfər azərbaycanlı sonradan xüsusi qəddarlıqla qətlə yetirildi.

Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Şuşanın 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 30 səhiyyə müəssisəsi, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalça Dövlət

Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır.

Bütün bunlarla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində XVIII əsrə aid Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Göhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşudbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Üzeyir bəy Hacıbəyovun, Bülbülün ev muzeyləri, Xan Şuşinskinin, Tarzan Sadıqcanın evləri, Realnı məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. Tarixi mədəniyyət nümunəsi ermənilər tərəfindən vəhşicəsinə dağıdılmış, təhqirlərə məruz qalmış, çox sayda nadir əlyazma nümunələri məhv edilmişdir.

Hazırda Şuşa rayonunun 30 min 690 nəfər əhalisi Azərbaycanın 55 rayonunda müvəqqəti məskunlaşmışdır.

Şuşa qalasını tikənlər vaxtilə Azərbaycanın Qarabağ torpaqlarının düşmənlərdən qorumaq, saxlamaq məqsədində olublar. Şuşa təkcə şəhər deyildi, həm də böyük bir tarixi abidədir. Çox təəssüflər olsun ki, alınmaz qalanı, tarixi abidəmizi qoruyub saxlaya bilmədik. Artıq Şuşanın işğalından sonra bütün Dağlıq Qarabağ Ermənistan silahlı qüvvələrinin nəzarəti altına keçdi. Öz hücumlarını davam etdirən erməni təcavüzkarları 7 rayonumuzu da (Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam, Füzuli rayonlarını) işğal edib xarabalıqlara döndərmiş, əhalisini isə soyqırıma məruz qoymuş və öz ölkəsində qaçqına, köçkünə, didərginə çevirmişdir. Beləliklə, 900 yaşayış məntəqəsinə malik olan 12 rayonumuz (ərazimizin 20 faizi) erməni vandalları tərəfindən ələ keçirildi.

Diqqətinizi acı bir həqiqətin üzərinə yönəltmək istərdim. Tarixən müharibəni aparmağın qanunları olub. Aman diləyən əfv edilib, qocaya, qadına, uşağa güllə atılmayıb. Lakin bütün dünyada humanizmdən, beynəlmiləlçilikdən, insanlıqdan, yüksək mədəniyyətdən ağız dolusu danışan erməni faşistləri «Qarabağ savaşında» hansı ağır, çirkin cinayət olmadı ki, xalqımızın başına açmamış olsun? Mən, Şuşalı bir yaşlı günahsız körpənin adını gərgin ürək ağrısı ilə xatırladıram: Abbasov Coşqun Süleyman oğlu. 1990-cı il iyunun 8-də Şuşa şəhərində doğulmuşdur, 1991-ci il dekabrın 26-da Şuşada erməni quldurları tərəfindən öldürülmüşdür. Gözlərini həyata açmamış əbədi yuman balaca Coşqunun günahı nə idi??! Balaca, məsum, günahsız, dünyadan xəbərsiz körpəni güllələyən erməni quldurunun adını özünüz verin. 102 yaşlı Zeynalova Nübar Kərim qızının (1890-1992) adını da çəkmək heç də asan deyil. Qəddar, namərd, xain düşmən... Əlində əsa, gözlərində eynək, beli bükülmüş bu qoca ananı güllələyəndə heç əllərin titrəmədimi??! Heç fikirləşmədinmi ki, sən bu ağbirçək ananın çörəyi ilə böyümüsən. Bu çörək səni tutacaq axı!! Çox təəssüflər olsun ki, balaca Coşqun və ağbirçək Nübar nənələr «Qarabağ savaşında» minlərlədir və inanırıq ki, qeyrətli oğullarımız onların qanını yerdə qoymayacaq.

Xan qızı Natəvanın, Pənahəli xanın, Vaqifin, Nəvvabın diyarı Şuşa həm də Azərbaycanın Milli Qəhrəmanı Ramiz Qəmbərovun və Rizvan Teymurovun vətənidir.

Qədim alban sərkərdəsi, əfsanəvi qəhrəman və cəngavər döyüşçü Cavanşir öz oğlanlarına vəsiyyət edir ki, öləndə onu sərhəddə basdırsınlar. Səbəbini soruşanda cavab verir ki, qoy düşmən torpağımızı basıb keçəndə qəbrimin ayaq altında qaldığını oğlanlarım namusuna sığışdırmayıb, torpağı düşmənə verməyin mümkün olmadığını dərk etsinlər. Yüksək intellektə və dərin düşüncəyə malik Şuşa müəllimlərindən dərs alan, ən dərin, ən ülvi, ən müqəddəs hiss olan vətənpərvərliyi ilə hamıya nümunə olan Qəmbərov Ramiz Bulud oğlu vətəninin darda olmasına dayanmadı. Çünki Şuşa şəhər 4 saylı məktəbin pedaqoji kollektivi Ramizə nikbinlik, iradəlilik, intizamlılıq, mərdlik,

məğrurluq, xeyirxahlıq, obyektivlik, etibarlılıq, mətinlik, təmkinlilik, vətənpərvərlik kimi yüksək insani keyfiyyətlər aşılamışdılar.

Qəmbərov Ramiz Bulud oğlu 1962-ci il iyulun 2-də Şuşa şəhərində dünyaya göz açmışdır. 1969-cu ildə Şuşa şəhər 4 saylı orta məktəbin I sinfinə daxil olmuş və 1979-cu ildə həmin məktəbin X sinfini bitirmişdir. O, 1979-1980-ci illərdə kolxozlararası tikinti idarəsində fəhlə işləmişdir. Ramiz 1980-1982-ci illərdə Sovet Ordusu sıralarında xidmət etmişdir. 1982-ci ildən doğma Şuşa şəhərinə qayıdan Ramiz Təsərrüfatlararası Təmir Tikinti İdarəsində əvvəlcə fəhlə, sonra isə mühəndis işləmişdir. Eyni zamanda o, həmin idarənin Partiya Təşkilat katibi vəzifəsinə seçilmişdi. 1986-cı ildən Azərbaycan İnşaat Mühəndisləri institutuna daxil olmuşdur.

Ramiz Qəmbərov 1988-ci ilin fevralından erməni təcavüzünə qarşı mübarizəyə qalxdı. O, xalqın içərisində formalaşmış, onların iradəsini ifadə edən, hörmətini qazanan, dərin düşüncəli lider idi. Topxana meşəsinin erməni saqqallıları tərəfindən kəsilməsi və orada özbaşına tikinti işləri aparmaları qeyrətli vətən övladını rahat qoymadı. Dərhal Bakıya gəlib etiraz mitinqlərində iştirak etdi. Ramiz televiziya ilə çıxış edib Şuşada, bütövlükdə Qarabağda yaranmış vəziyyəti xalqa çatdırmışdır. Ramizdəki aydın, dərin təfəkkür tərzi baş verəcək hadisə haqqında düzgün proqnoz vermək qabiliyyətini formalaşdırmışdır. O, ətrafında baş verənləri gözəl başa düşürdü. Soyuqqanlılıq, hər şeyə inamla yanaşmaq, haqsızlığa qarşı barışmazlıq kimi keyfiyyətlər Ramizə xas olan xüsusiyyət idi və bu hal o vaxtkı naqis niyyətli rəhbərlərin çoxuna xoş gəlmirdi. 1988-ci ildə Ramiz Qəmbərov Azərbaycan nümayəndə heyətinin tərkibində Moskvaya getmiş və keçmiş ittifaq rəhbərləri ilə görüşərək ermənilərin məkirli niyyətlərini onlara çatdırmağa çalışmışdır. Lakin el qədri bilən eloğlumuz tezliklə Mərkəzin məqsəd və məramını başa düşmüş və xalqa çatdırmağa çalışmışdır. Həmişə haqsız, amansız təqiblərə, təzyiqlərə məruz qalsa da, Ramiz əqidəsindən dönmədi. O, istər Yakovlyevlə, Qromiko ilə görüşdə, istərsə də A.Volski və Poliyaniçko ilə qarşılaşanda

